# BİZ ÖZ YURDUMUZA QAYIDACAĞIQ



1997
72

# BİZ ÖZ YURDUMUZA QAYIDACAĞIQ

T3(2A)
B 64

64765

АРХИВ

Азербайджанская
Республиканская
БИБЛИОТЕКА
им. М. Ф. Ахундова

"AZƏRBAYCAN ENSİKLOPEDİYASI"
NƏŞRİYYAT-POLİQRAFİYA
BİRLİYİ
BAKI - 1997

64522















# BİZ ÖZ YURDUMUZA QAYIDACAĞIQ

АРХИВ

***AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ HEYDƏR ƏLİYEVİN XOCALI, KƏLBƏCƏR, ŞUŞA, LAÇIN, AĞDAM, FÜZULİ, CƏBRAYIL, QUBADLI VƏ ZƏNGİLAN RAYONLARI İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞLƏRİNİN MATERİALLARI***

BBK76(Az)
B59

Buraxılışa məs'ul:

**Ramiz MEHDİYEV**

**Hidayət ORUCOV**

B59 Biz öz yurdumuza qayıdacağıq. "Azərbaycan Ensiklopediyası" NPB, Bakı, 1997. 520+12 səh.

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin respublikanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Xocalı, Kəlbəcər, Şuşa, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları ictimaiyyətinin nümayəndələri ilə görüşlərinin materialları toplanmışdır.

B $\frac{4502020000}{M\ 657-97}$ E'lansız – 1997

ISBN 5—89600—192—4

© "Azərbaycan Ensiklopediyası" NPB, 1997.

# XOCALI



Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır — vəhşiliyin görünməmiş bir təzahürüdür. Bütün bunlara görə də biz Xocalı faciəsinin ildönümünü hər il qeyd edirik.

***HEYDƏR ƏLİYEV***





# XOCALI

**XOCALI SOYQIRIMININ DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR XOCALI RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ.**

*Prezident sarayı, 24 fevral 1996-cı il.*

## Azərbaycan Respublikası Prezidenti
## HEYDƏR ƏLİYEVİN
## giriş sözü

Biz bu günlər Xocalı faciəsinin dördüncü ildönümünü qeyd edirik. Bu, xalqımızın, millətimizin tarixində qara bir səhifədir, xalqımızın faciəsidir. Eyni zamanda, bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların xatirəsi heç vaxt unudulmayacaqdır. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

Torpaqlarımızın müdafiəsi uğrunda gedən müharibədən, Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüzün başlanmasından artıq səkkiz il keçir. Səkkiz il ərzində bu təcavüz davam edib və xalqımız öz torpaqlarını, Vətənini müdafiə etmək üçün vuruşub, çalışıb, mübarizə aparıbdır və bu gün də torpaqlarının keşiyindədir.

Azərbaycan xalqı bu müddətdə çox şəhidlər, qurbanlar veribdir. Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətililiyinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır — vəhşiliyin görünməmiş bir təzahürüdür. Bütün bunlara görə də biz Xocalı faciəsinin ildönümünü hər il qeyd edirik. Bildiyiniz kimi, 1994-cü ilin fevralında Xocalı faciəsinin Xocalı günü kimi qeyd olunması barəsində xüsusi qərar qəbul olunmuşdur.

Mən söhbətə başlamamışdan əvvəl rica edirəm Xocalı torpağını qoruyarkən, müdafiə edərkən şəhid olmuş bizim Azərbaycan övlad-

larının xatirəsini, torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq özlərini qurban vermiş bütün şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Allah rəhmət eləsin.

*(Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə şəhidlərin ruhuna fatihə verdi).*

Azərbaycan Prezidenti Heydər Əliyev sözünə davam edərək dedi: Bu gün hər bir Xocalı sakini ilə görüşmək bizim üçün çox əziz olardı. Lakin bilirsiniz ki, bu mümkün deyil. Xocalıdan didərgin düşmüş soydaşlarımız Azərbaycanın bir çox yerlərində məskunlaşıblar. Mən isə Xocalının bir qrup nümayəndəsi ilə burada görüşərək hesab edirəm ki, bütün xocalılarla görüşürəm.

Mən bu görüşdən məmnun olduğumu bildirmək istəyirəm. Siz dörd ildir ki, özünüzün, qohum-əqrəbanızın, öz yerinizin sakinlərinin başına gəlmiş bəlalara, faciələrə, itkilərə görə dərd-kədər içindəsiniz. Eyni zamanda, bu faciə bütün Azərbaycan xalqını kədərləndirir. Biz hamımız kədər hissi keçiririk — həm Xocalıda həlak olanlar üçün, onların xatirələrinə görə, həm də bütün Azərbaycanın verdiyi şəhidlərə görə. Bugünkü görüşümüzdə o günləri müəyyən qədər xatırlamaq, həyatdan gedənlərə rəhmət diləmək, yaşayanlara isə kömək etmək, onların yaşayışının daha da yaxşılaşması üçün lazımi tədbirlər görmək bizim borcumuzdur. Güman edirəm ki, bu gün bizim buradakı görüşümüzün də, söhbətimizin də məqsədi bundan ibarətdir. Mən sizi dinləmək istəyirəm, sizin sözlərinizi eşitmək istəyirəm. Buyurun.



### Xocalı rayon İcra Hakimiyyətinin başçısı ELMAN MƏMMƏDOVUN çıxışı

Möhtərəm Prezident, bizim üçün böyük şərəfdir, böyük hörmətdir ki, Siz işinizin belə gərgin vaxtında, Azərbaycanın belə çətin vəziyyətində vaxt tapıb bizim əhalinin bir qrup nümayəndəsi ilə görüşürsünüz. Buna görə bütün camaatımız adından, əhalimiz adından Sizə böyük minnətdarlığımızı bildiririk. Çox sağ olun.

Möhtərəm Prezident, bu gün Sizin görüşünüzə gələn xocalılar şəhid ailələridir, Xocalıdan olan milli qəhrəmanların ailələridir, valideynləridir, Xocalı ziyalılarıdır. Biz bu görüşə çox böyük məs'uliyyət hissi ilə gəlmişik, eyni zamanda, böyük ümid hissi ilə gəlmişik ki, dörd il bundan əvvəl baş verən Xocalı faciəsi haqqında öz fikirlərimizi, Sizin icazənizlə, açıqlayaq, bu günə qədər deyilməyən müəyyən mətləblər daha aydın deyilsin və hər kəsin sözü özünə çatdırılsın.

Hörmətli Prezident, Sizin icazənizlə mən vaxtınızı bir az çox almaq istəyirəm. O mə'nada ki, Xocalı faciəsinə aparan vaxt haqqında, yol haqqında geniş təsəvvür yaratmaq istəyirəm.

Xocalı faciəsinə aparan yol 1988-ci ildən yox, ondan çox əvvəllər başlamışdı. Xocalı üçüncü dəfə faciə ilə üzləşibdir. Xocalı bir dəfə 1905-ci ildə yandırılıbdır. Lakin onun sakinləri yenə qayıdıblar Xocalıya. Xocalı 1918-ci ildə də yandırılıbdır. Biz doğma yurdumuza yenə də qayıtmışıq. Nəhayət, o vaxt respublikaya rəhbərlik edən bacarıqsız, səriştəsiz, məs'uliyyətsiz, xalqın taleyinə cinayətkar münasibət bəsləyən Azərbaycan rəhbərliyinin günahı üzündən Xocalı üçüncü dəfə, 1992-ci ildə də faciəyə düçar oldu.

1987-ci ilin əvvəllərindən Dağlıq Qarabağda ermənilərin gizli yığıncaqları keçirilirdi, təşkilatları yaradılırdı, vəsait toplanırdı. Bu haqda biz, bir qrup Dağlıq Qarabağ ziyalısı, — onlardan burada iştirak edənlər də var, — o vaxtkı respublika rəhbərliyinə müraciət

edirdik, məktublarla, müxtəlif vasitələrlə dövlət təhlükəsizliyi orqanlarının Stepanakertdə işləyən azərbaycanlı nümayəndələri, əməkdaşları vasitəsilə mə'lumat verirdik. Ancaq bizim bu müraciətlərimizə heç bir cavab vermirdilər. Nəhayət, bizə bir dəfə cavabları belə oldu ki, "Azərbaycan çoxmillətli respublikadır, beynəlmiləl respublikadır, böyük və çoxmillətli bir ölkədə yaşayırıq, siz bu milli münasibətləri qızışdırırsınız, fitnəkarlıqla məşğul olursunuz" və s. Bizim bu çağırışlarımıza, həyəcan təbilimizə cavab verməyən Azərbaycan rəhbərlərinin fəaliyyətsizliyi nəticəsində 1988-ci il fevralın 12-də Əsgəranda rayon partiya komitəsinin iclas salonunda ermənilər Dağlıq Qarabağ məsələsini ilk dəfə açıq şəkildə qaldırdılar. Orada respublika rəhbərliyindən o vaxtkı Azərbaycan KP MK-nın ikinci katibi Konovalov və MK-nın inzibati şö'bəsinin müdiri rəhmətlik Məmməd Əsədov iştirak edirdilər. Orada ermənilər öz tələblərini irəli sürdülər və əllərində bayraqlar, şüarlar olan ermənilər bütün binanı mühasirəyə aldılar. O görüşdə altı nəfər azərbaycanlı iştirak edirdi. Onların bir neçəsi indi burada, bu görüşdədir.

Hörmətli Prezident, həmin gündən biz Xocalının, Dağlıq Qarabağın müdafiəsinə qalxdıq. Biz kəndimizi əlimizdəki imkanlarla müdafiə etməyə başladıq, bu barədə respublika rəhbərliyinə mə'lumat verdik. Amma respublika rəhbərliyi öz biganəliyi ucbatından heç bir tədbir görmədi. Rəhbərliyin fəaliyyətsizliyini görən ermənilər daha da azğınlaşdılar, qızışdılar və daha kəskin tələblər irəli sürməyə başladılar. Əvvəlcə öz tələblərini iqtisadi problemlərlə bağlayan ermənilər artıq siyasi tələblər irəli sürürdülər.

Xocalı onların yolu üstündə böyük bir maneəyə çevrilmişdi. Ona görə ki, Xocalı özünün coğrafi mövqeyi ilə Dağlıq Qarabağda həm magistral şose yolunun, həm də dəmir yolunun üstündə yerləşirdi. Həm dəmir yolu Xocalının içindən keçirdi, həm də hava limanı Xocalıda idi. Buna görə də ermənilər hər cəhdlə Xocalını köçürməyə, məhv etməyə çalışırdılar.

1988-ci ildə Dağlıq Qarabağda respublika rəhbərliyinin çox böyük sevinclə qarşıladığı Volski komitəsi yaradıldı. Bu, xüsusi idarəetmə komitəsi idi. Biz başa düşə bilmirdik ki, əgər Azərbaycan hökuməti varsa, əgər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi, Azərbaycan Nazirlər Soveti, Azərbaycan Ali Soveti varsa və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi və ərazisidirsə, onda Dağlıq Qarabağı nəyə görə Moskvadan gəlmiş orqan idarə etməlidir? Bax, Dağlıq Qarabağ azərbaycanlılarının, Dağlıq Qarabağın taleyinə biganəlik, məs'uliyyətsizlik məhz həmin dövrdən başlamışdır. Volski komitəsini gətirib orada oturtmaqla respublika rəhbərliyi özünü bu məsələnin həllindən bir növ kənarlaşdırmışdı.



1988-ci il sentyabrın 18-də 10—12 min erməni Stepanakertdə nümayişlər keçirdikləri o meydandan birbaşa Xocalının üzərinə hücum etdi. Onlar hamımıza yaxşı mə'lum olan bir variantla — Ermənistanda yaşayan azərbaycanlıları kəndlərdən qovub çıxarmaq, kəndlərə kütləvi surətdə hücuma keçib azərbaycanlıları daş-qalaq etmək, yandırıb qovmaq variantı ilə Xocalı sakinlərini oradan çıxarmaq istədilər. Xocalı sakinləri onlara çox layiqli cavab verdilər. Ermənilərdən xeyli tələfat oldu. Onlar qaçmağa üz qoydular. Qaranlıq düşəndə hərbçilər gəlib bizi ayırdılar, aranı kəsdilər. Görün, bunun nəticəsi bizim üçün necə oldu.

Hadisə sentyabrın 18-də baş vermişdi, sentyabrın 19-da axşam tərəfi Zori Balayan Ermənistandan olan bir dəstə həkimlə gəlib bizim hava limanına düşdü və ermənilərin köməyinə getdi. Azərbaycan hökuməti isə bizim köməyimizə üç gündən sonra gəldi. Sentyabrın 21-də Mİ-2 vertolyotu ilə. Həsən Həsənov, o vaxtkı daxili işlər nazirinin müavini general Kamil Məmmədov, bir də Ağdamdan ağsaqqal Zeynal Hüseynov gəldilər. Onlar bizə elə bir köməyə gəlməmişdilər. Burada ağsaqqallar oturublar, mən yalan danışa bilmərəm. Respublikanı təmsil edən rəhbər işçi kimi bizim hörmətli Həsən Həsənov mən özümü yetirəndə dedi ki, bəs nə üçün durmusunuz burada, avtobuslar gətirmişik, yır-yığış edib buradan köçün, siz erməniləri qırmısınız, onlar meyitləri basdırandan sonra gəlib sizi qıracaqlar və s. Biz onda bildik ki, o vaxtkı Azərbaycan hökuməti, Azərbaycan rəhbərliyi Dağlıq Qarabağda yaşayan azərbaycanlıları taleyin hökmünə buraxıb. Bizə onda mə'lum oldu ki, Stepanakertdə yaşayan 15 min azərbaycanlı üç gün ərzində oradan tamamilə qovulmuşdur. Lakin Azərbaycan hökuməti buna heç bir reaksiya vermədi.

**Heydər Əliyev:** Nə qədər?

**Elman Məmmədov:** 15 min.

**Heydər Əliyev:** Bu hadisə nə vaxt baş verdi?

**Elman Məmmədov:** 1988-ci il sentyabrın 18-dən 22-dək. Ermənilərin bizə gücü çatmadığına, biz onları layiqincə qarşılayıb qaytardığımıza görə onlar heyflərini Stepanakertdə olan azərbaycanlılardan aldılar. Köməksiz azərbaycanlılardan.

**Heydər Əliyev:** Onları oradan çıxartdılar?

**Elman Məmmədov:** Bəli, qovub çıxartdılar.

**Heydər Əliyev:** Buna heç kəs mane olmadı, bunun qarşısını heç kəs almadı?

**Elman Məmmədov:** Heç kim. Azərbaycan rəhbərliyindən bir nəfər də bu köçün qarşısını almadı, Azərbaycan rəhbərliyinin tabeliyi altında işləyən erməni rəhbərliyini bir nəfər də olsun çağırıb demədi ki, siz bu milləti niyə qovursunuz, niyə qırırsınız, niyə yandırırsınız?

Heydər Əliyev: O vaxtlar mən eşitmişdim ki, onların evlərini də yandırmışdılar.

Elman Məmmədov: Bəli, yandırmışdılar. Azərbaycanlılar yaşayan evləri partlatmışdılar, yandırmışdılar, orada nə qədər azərbaycanlı yaralanmışdı, nə qədər adam qaçıb Stepanakertin ətrafındakı meşələrdə gizlənmişdi. Bir qadın ifadə vermişdi ki, uşağı ilə birlikdə altı gün meşədə ot yemişdir. Amma Azərbaycan hökuməti buna heç bir reaksiya vermədi.

Hörmətli Prezident, demək istəyirəm ki, biz erməniləri layiqincə, cəsarətlə qaytardığımız üçün mükafatımız nə oldu. Bir nəfər də olsun erməni həbs edilmədi. Əvəzində Xocalının səkkiz sakini həbsə alındı. Biz, ağsaqqallar, ziyalılar respublika rəhbərliyinə — Əbdürrəhman Vəzirova və başqa rəhbərlərə müraciət etdik ki, yaxşı, bizim günahımız nədir? Gəlmişdilər ki, bizim evlərimizi yandırıb, özümüzü öldürüb bizi yurd-yuvamızdan qovsunlar. Biz bunları çağırmamışdıq və biz bunları geri qaytardıq. İndi kim ölüb, kim qalıb — deyə bilmərəm. Bu onların öz günahıdır. Bəs biz nəyə görə həbs olunmalıyıq? O vaxtkı SSRİ Ali Soveti Millətlər Sovetinin sədri Boris Oleynik başqaları ilə birlikdə oraya gəlmişdi. Onlar gəlib bizdə klubda yığıncaq keçirdilər. Yoldaşlar bilirlər, mən orada çıxış edib Oleynikə sual verdim: Siz milliyyətcə ukraynalısınız, biz Ukraynanın elə ərazilərini tanıyırıq ki, orada əhalinin 80 — 90 faizi ruslardan ibarətdir. Gəlin, o ərazini kəsib Rusiyaya verək, siz buna razı olarsınızmı? Dedi ki, yox, mən razı olmaram. Dedim, bəs nəyə görə razı olursunuz ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana verilsin? Biz onlardan soruşduq ki, sizin evinizə hücum etsələr və ailənizi təhqir etsələr, siz nə iş görərsiniz? Dedi ki, əlimə nə gəlsə, mən götürüb ailəmi müdafiə edərəm. Dedim, bax, biz də belə etmişik. Bəs nəyə görə həbs olunmalıyıq? Hörmətli Prezident, həbs olunan səkkiz nəfərin altı nəfəri iki aydan sonra çox böyük əziyyətlərlə azad edildi. İki nəfər — Xudayarov Abil Adil oğlu və Məmmədov Kamil Cəlil oğlu bir il doqquz ay istintaqsız-məhkəməsiz həbsxanada saxlanıldı.

Heydər Əliyev: Onlar nəyə görə həbs olunmuşdular?

Elman Məmmədov: Demişdilər ki, evinizi niyə qorumusunuz, niyə ermənilərin qabağından qaçmamısınız. Niyə onlara müqavimət göstərmisiniz? Burada ya bir erməninin başı yarılıb, ya kimsə yaralanıb, ya da kiminsə maşını əzilib, nə isə olub. Günahımız bundan ibarət idi.

Hörmətli Prezident, Azərbaycan rəhbərliyi bizə, bax, belə münasibət bəsləyirdi. Bu hadisə bizi o qədər ümidsizləşdirmişdi ki, mən və bizim rəhbərlərdən iki nəfər — Murad Şükürov və Rafiq Mürsəlov 1988-ci il oktyabrın 11-də Əbdürrəhman Vəzirovun qəbuluna gəldik. O bizi qəbul elədi. Bizim görüşümüz 2 saat 45 dəqiqə çəkdi.



Bu müddətdə biz ondan əsas e'tibarilə bir şeyi xahiş edirdik ki, Mərkəzi Komitənin birinci katibi yoldaş Vəzirov, Ermənistandan qovulan azərbaycanlıları oradan ermənilər qovurlar, siz o azərbaycanlıların köçünü-karvanını Bakıya yönəltməyin, yığmayın. O karvanı Dağlıq Qarabağa yönəltmək lazımdır. Onları oradan ermənilər qovurlar, qoy onlar da gəlib buradakı erməni evlərinə yiyə dursunlar. O, bizə belə cavab verdi: "Siz cinayətkarsınız, siz qan tökmüsünüz, erməniləri qırmısınız, siz təzədən istəyirsiniz ki, qan tökülsün. Mən ermənilərə söz vermişəm ki, Dağlıq Qarabağda bir nəfər də olsun Ermənistandan gəlmiş azərbaycanlı qalmayacaqdır". Deməli, respublikaya, Azərbaycana belə ağılda bir adam rəhbərlik edirdisə, Azərbaycan, Azərbaycan xalqı Dağlıq Qarabağı necə saxlaya bilərdi? Xalqın nə günahı vardı? Sıravi adamların nə günahı vardı? Günah xalqa rəhbərlik edən ağılsız adamlarda idi. Bax, o vaxtlar bələləri hansı yollasa gəlib Azərbaycana rəhbərlik edirdilər.

Bu hadisələrdən sonra ermənilərin Xocalıya olan kin-küdurəti daha da artdı. Xocalının ermənilər tərəfindən məhv olunması üçün fürsət gözlənilirdi. Lakin biz heç kimə ümid etmədən özümüz Xocalını müdafiə edirdik və özü də layiqincə müdafiə edirdik, heç kimə də baş əymirdik. Mən mə'lumat üçün Sizə deyirəm, - bu görüşdə hüquq-mühafizə orqanlarının işçiləri, rəhbərləri də iştirak edirlər, — Dağlıq Qarabağ ərazisində ermənilər haradasa bir azərbaycanlını girov götürürdüsə, haradasa bir azərbaycanlının maşını vurulurdusa və ya bir ziyan olurdusa, Xocalı sakinləri onun əvəzini çıxırdılar. Girovu dəyişmək üçün də xocalılar girov tuturdu, vurulan ziyanın əvəzini də xocalılar beşqat artıq çıxırdılar və göstərirdik ki, biz baş əymirik və ölməmişik, yaşayırıq, sizinlə də hər cür söhbət etməyə, qarşılaşmağa hazırıq. Ancaq rəhbərliyimiz rəhbərlik olsa.

Bu proseslər toqquşmalarla, döyüşlərlə davam etdi. İrili-xırdalı çox döyüşlər oldu. Çox toqquşmalar baş verdi. Mən vaxtınızı çox almamaq üçün istəyirəm ki, 91-ci ilin hadisələrini xatırladım. Hörmətli Prezident, 91-ci ilin mart ayında Xocalı ilk dəfə üç tərəfdən, yə'ni Çəpikdağından, — Ramil müəllim buradadır, o yerləri bizim kimi çox yaxşı tanıyır, — Bozdağ deyilən yerdən və Mehdikənd tərəfdən raket atəşinə tutuldu. O vaxtlar biz bilmirdik raket nədir, mərmi nədir. 91-ci ilin mart ayında biz səsimizi qaldırıb respublika hökumətini köməyə çağırdıq. Lakin orada təşkilat komitəsinə Polyaniçko başçılıq edirdi, bizim çağırışlarımıza heç bir reaksiya verən olmurdu. Gəlib camaatı sakitləşdirirdilər ki, heç bir şey olmayacaq, qorxmayın və s.

Artıq 91-ci ildə müharibə şəraiti, müharibənin başlanması dövrü idi. 1991-ci il noyabrın 1-də səhər tezdən Habil Abışovun idarə etdiyi "UAZ" markalı maşın Əsgəranda güllәbaran edildi. Maşında

iki nəfər həlak oldu, bir nəfər yaralandı. Həmin gündən Xocalının Azərbaycanla əlaqəsi kəsildi. Ümidimiz bir vertolyotlara qalmışdı, bir də telefona. Görün, o dövrdə Azərbaycana rəhbərlik edən, səhv etmirəmsə, artıq prezident olan Ayaz Mütəllibov nə qədər vicdansız, nə qədər məs'uliyyətsiz mövqe tuturdu, xalqın taleyinə nə qədər biganə yanaşırdı ki, 1991-ci il noyabrın 1-dən Xocalı faciəsi baş verənə qədər Xocalının yolu bağlı qaldı, Xocalı mühasirədə oldu, Xocalı haray qaldırdı, kömək istədi. Amma Xocalıya kömək edən olmadı.

O vaxtlar respublikaya Ayaz Mütəllibovla bərabər rəhbərlik edənlər vardı. Nazirlər Sovetinin sədri vardı. Həsən Həsənov, Ali Sovetin sədri vardı, Elmira Qafarova, müdafiə naziri vardı, daxili işlər naziri vardı, mülki müdafiə qərargahı vardı. Bu adı çəkilənlər və onların tabeliyində olan adamlar bizə heç bir kömək göstərmirdilər. Bizim harayımıza gələn olmurdu. Fikir verin, hörmətli Prezident, təşkilat komitəsi deyilən o qurum öz fəaliyyətini 91-ci ilin təxminən avqust ayında dayandırdı. Sentyabr — oktyabr aylarında orada Azərbaycan Respublikasını rəhmətlik Zülfü Hacıyev təmsil edirdi. O, Stepanakertdə otururdu, Xocalıya gəlib-gedirdi.

Ancaq biz qəflətən belə bir xəbər eşitdik ki, artıq Stepanakertdə respublika rəhbərliyindən bir nəfər də olsun adam yoxdur, qərargahı köçürüblər Ağdama. Bu məntiq nəyi göstərirdi? Deməli, Azərbaycan hökuməti öz razılığı ilə Dağlıq Qarabağı ermənilərə verib, Dağlıq Qarabağ da əldən çıxıb getdi. Həmin qurum gəlib öz qərargahını Ağdamda qurdu. Biz, Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlılar tə'lim görmüş, sayca bizdən çox-çox üstün olan erməni quldur dəstələri ilə və 366-cı alayın bütün canlı qüvvəsi və texnikası ilə üz-üzə qaldıq. Azərbaycanın o vaxtkı rəhbərliyi Dağlıq Qarabağda yaşayan azərbaycanlıların taleyinə belə biganə münasibət bəslədi.

1991-ci il dekabrın 15-də 110 evli Cəmilli kəndi yandırıldı. Hörmətli Prezident, adını çəkəcəyim kəndlər Xocalının ətrafında yerləşən azərbaycanlı kəndləridir. Mən bunları ona görə deyirəm ki, Azərbaycan hökuməti bu barədə Azərbaycan xalqına bir kəlmə də olsa mə'lumat çatdırmadı, sanki belə bir kənd yoxmuş və belə bir hadisə olmayıbmış.

Dekabrın 24-nə keçən gecə 60 evli Meşəli kəndi bir gecənin içində tamamilə yandırıldı. 60 ailədən 27 nəfər şəhid oldu. Onlar səhərə qədər rasiya ilə yalvardılar ki, bizə kömək göndərin. Əhalinin qalan hissəsi qaçıb meşələrə dolmuşdu. Biz Ağdama mə'lumat verdik ki, Meşəlinin qalan camaatını meşələrdən çıxarmaq üçün kömək göndərin. Lakin Ağdamdan bizə göndərilən vertolyot boş gəldi və dedilər ki, bizdə qüvvə yoxdur. Deməli, o vertolyotu Ağdam göndərməmişdi, Ağdamın günahı yoxdur. Həmin vertolyotu o vaxt Ağdamda yerləşən



respublika qərargahının işçiləri göndərmişdilər. Qüvvə olmadığı barədə mə'lumat alan kimi biz Xocalı batalyonunun komandiri, Azərbaycanın Milli Qəhrəmanı rəhmətlik Tofiq Hüseynovun rəhbərliyi ilə Milli Qəhrəman Əlif Hacıyevin dəstəsindən olan döyüşçülərlə birlikdə bir qrup yığıb vertolyotla Meşəli camaatının köməyinə göndərdik. Vertolyot Qarayazıda yerə endi, Kosalar və Qarayazı camaatı böyük qüvvə ilə köməyə gələrək meşələrdə gizlənən Meşəli kəndinin sağ qalan əhalisini oradan çıxartdı.

Azərbaycan mətbuatı, Azərbaycan hökuməti bu barədə heç nə demədi, heç kim cəzalandırılmadı. Əvəzində kimlərsə vəzifə aldı, kimlərinsə hərbi rütbəsi artırıldı, kimlərsə təltif olundu. Ermənilərlə sanki razılaşdırılmışdı ki, siz bu kəndi alın, biz kimisə vəzifəyə qoyacağıq və ya kiməsə rütbə verəcəyik.

91-ci il dekabrın 28-də 350 evli Kərkicahan qəsəbəsi yandırıldı. Kərkicahan Stepanakertlə Şuşanın arasında mühüm strateji mövqedə yerləşir. Kərkicahanı yandırmadan, almadan, dağıtmadan Şuşaya tərəf getmək mümkün deyildi. Ermənilər Kərkicahanı məhv etdilər, yandırdılar, əhali baş götürüb qaçdı — bir hissəsi Şuşaya, bir hissəsi dağlara, Ayaz Mütəllibov, güc nazirlikləri başda olmaqla Azərbaycan hökuməti heç bir tədbir görmədi, buna heç bir reaksiya vermədilər.

1992-ci il yanvarın 28-də Şuşa yaxınlığında Azərbaycanın mülki vertolyotu vuruldu və o vertolyotda 40 nəfər həlak oldu. Bununla da Xocalının Azərbaycanla hava yolu ilə də əlaqəsi tamamilə kəsildi. Biz ancaq telefonla rasiyanın ümidinə qaldıq. Camaatımız bilir, oradan səsim gəlməyəndə, gücüm çatmayanda Bakıya gedirdim, Ayaz Mütəllibovla görüşürdüm. Həsən Həsənovla da, müdafiə naziri ilə də, daxili işlər naziri ilə də, o vaxtkı rəhbərliyin başqa nümayəndələri ilə də görüşürdük, haray qaldırırdıq, yalvarırdıq, xahiş edirdik ki, əhalini, camaatı qıracaqlar, artıq növbə bizə çatıb, ətrafda azərbaycanlılar yaşayan qəsəbə və kəndləri məhv ediblər, kömək göstərin, Əsgərandan olan yolumuzu açın. Hörmətli Prezident, bir sözləri var idi, elə bil, hamısı bir-biri ilə razılaşmışdı: Siz narahat olmayın, arxayın olun, bizim kifayət qədər qüvvəmiz var, Əsgəranı dağıdacağıq, yolu açacağıq, sizə köməyə gələcəyik və s. Biz onlardan bu sözlərdən başqa heç nə eşitmirdik.

1992-ci il fevralın 9-da Azərbaycanın Milli Qəhrəmanı rəhmətlik Əlif Hacıyev bir hərbi vertolyotla çörək, hərbi sursat və yanacaq gətirib gəldi. Mən həmin vertolyotla yola düşdüm. Elə o gecə Bakıya gəldim. Fevralın 10-da səhər-səhər Müdafiə Nazirliyinə getdim. O vaxt Müdafiə Nazirliyində belə bir oyun oynayırdılar: nazirliyin binası qarşısında Rəhim Qazıyev, çox üzr istəyirəm, o təvərə papağı da başında gündə bir piket düzəldirdi ki, mən müdafiə naziri olmalıyam. Müdafiə naziri də postunu qoyub qaçıb gizlənir, tapşırırdı ki, deyin, müdafiə naziri burada yoxdur. Bütün güc, qüvvə əlində olan müdafiə



64765
Азербайджанская
Республиканская
БИБЛИОТЕКА

naziri, çox üzr istəyirəm, küçədən gələn bir adamın qabağından qaçırdı ki, bəs mənə deyəcəklər, sən buradan dur, filankəs otursun.

Müdafiə Nazirliyinin qərargah rəisi Dadaş Rzayevin yanında oldum. Onda polkovnik idi, indi general-mayor rütbəsi alıb. Arif Salahov Dadaş Rzayevin yanında işləyirdi, indiki kimi yadımdadır, bəstəboy bir adamdır. Dadaş Rzayevin kabinetində mən onlara bütün o mənzərəni, bütün vəziyyəti danışdım və xahiş elədim ki, əməliyyat xəritəsini açın, mən o yerləri qarış-qarış tanıyıram, hər cığıra bələdəm, hər kol-kosu tanıyıram. Hörmətli Prezident, mən üçrəngli qələmlə həmin əməliyyat xəritəsində Xocalıya gedən bütün yolları çəkib göstərdim. Erməninin harada nə qədər qüvvəsi olduğunu oraya yazdım. O xəritə durur. Bunu ona görə bilirəm ki, həmin xəritəyə deputat istintaq komissiyası da baxıb. Mən izahatımda göstərmişəm. Onu da gətirib baxıblar. Ona prokurorluğun istintaq qrupu da baxıb. Görüblər ki, bu həqiqətən belədir. Dadaş Rzayev məni əmin elədi ki, fevralın 12-14-də böyük əməliyyat hazırlayarıq, Əsgəranı darma-dağın edirik, keçirik Xocalıya. Sən arxayınca get və bizim sözümüzü camaata da çatdır, narahat olmayın.

Mən Dadaş Rzayevin yanından çıxandan sonra Həsən Həsənovun yanına gəldim. Ondan xahiş edib dedim: Hörmətli Həsən müəllim, siz respublika Nazirlər Sovetinin sədrisiniz. Məni prezident Ayaz Mütəllibovun yanına buraxmırlar, məni onunla telefonla birləşdirmirlər. Məni onun yanına aparın, gedib ona sözümü deyim. Bu elə bir məqamdır ki, əhali təhlükə qarşısındadır, orada bütün camaatı qıra bilərlər. Oradan camaatı çıxartmaq lazımdır. Mən başa düşə bilmirəm, respublikada prezidentdən sonra yəqin ki, baş nazirdir, Ali Sovetin sədridir. Yəqin ki, onlar belə mövqe tutur, belə ardıcıllıqla gedirlər. O vaxt onun mövqeyi məndə çox təəccüb doğurdu. Nəyə görə? Demə, respublikaya rəhbərlik edən bu adamlar bir-biri ilə küsülü imiş, bir-biri ilə intriqa aparırlarmış. O, mənə dedi ki, "Ayaz məni heç saymır, yanına çağırmır, heç müşavirələrə də də'vət etmir, mən onun yanına gedə bilmərəm, ona da heç bir söz deyə bilmərəm. Biz E'tibarla, — o, E'tibar Məmmədovu nəzərdə tuturdu, — onun yanına getmişdik. E'tibar Məmmədov ona dişinin dibindən çıxanı dedi, söydü də, biabır elədi ki, sən beləsən, sən filan-bəsməkansan".

Dedim, Həsən müəllim, siz nə demisinizsə, demisiniz. İndi məni onunla görüşdürün. Xahiş edirəm, telefonla zəng vurub deyin ki, Xocalının icra hakimiyyətinin başçısı sizinlə görüşmək istəyir, çox çətin, təhlükəli vaxtdır. Həsən Həsənov dedi: Mən onunla görüşə bilmərəm. Belə olduqda ondan xahiş etdim ki, əgər məni görüşdürmürsünüzsə, heç olmasa vertolyotlar təşkil edin, qocaları, qadınları, uşaqları, xəstələri, şikəstləri çıxaraq, biz döyüşçülər orada qalaq, Xocalını tərk etməyək. Müharibənin qanunu var, dinc əhali oradan çıxmalıdır, özü də biz mühasirə həlqəsindəyik.



O, telefonu götürüb daxili işlər naziri Tofiq Kərimova zəng vurdu və dedi ki, Tofiq, axı bu vertolyot məsələsi sənə tapşırılıb, sən niyə əhalinin oradan çıxarılması üçün vertolyot təşkil etmirsən? Telefonda Tofiq Kərimov ona əvvəlcə dedi ki, yox, vertolyotlar uçur, camaatı çıxarır. Həsən Həsənov dedi ki, axı Xocalının icra hakimiyyətinin başçısı mənim yanımda oturub, deyir ki, heç bir vertolyot yoxdur uçmur və əhali də oradadır, onları çıxaran da yoxdur. Tofiq Kərimov Həsən Həsənova nə cavab verdisə, Həsən Həsənov ona, — mən bunu qəzetdə ifadəmdə də bildirmişəm, — rusca belə bir söz dedi: "Ya udivlyayus tvoyemu olimpiyskomu terpeniyu" (mən sənin soyuqqanlılığına məətələm). Bilmirəm, bu nə "terpeniye" idi, nə söz idi bunların bir-biri ilə dialoqu nədən ibarət idi. Bax, belə deyişmələr, belə yazışmalar, bir-birinə ümid olmaq nəticəsində biz qaldıq öz ümidimizə.

Mən Həsən Həsənovun yanından çıxandan sonra səhər tezdən Ağdama gəldim.

**Heydər Əliyev:** Bir dəqiqə bağışla, sən o vaxt belə bir ağır vəziyyətdə Mütəllibovun yanına düşə bilmədin?

**Elman Məmmədov:** Hörmətli Prezident, heç cür düşə bilmədim.

**Heydər Əliyev:** Niyə? Deyirdilər ki, olmaz? Mən başa düşə bilmirəm, hər halda kiminsə belə bir vəziyyətdə gəlib respublika rəhbərinin yanına düşə bilməməsini anlaya bilmirəm.

**Elman Məmmədov:** Əgər həmin respublika rəhbərinin vicdanı olsaydı, o, xəyanətkar, cinayətkar olmasaydı, heç icra hakimiyyəti başçısının gəlməyi lazım deyildi. O bilsəydi ki, Dağlıq Qarabağdan bu ağır vəziyyətdə kimsə gəlib, ona nəsə deyəcək, mənə elə gəlir ki, o, mütləq onu qəbul etməliydi.

**Heydər Əliyev:** Mütləq, mütləq.

**Elman Məmmədov:** Amma mən Bakıda üç gün çalışdım, onun qəbuluna düşə bilmədim. Onun köməkçisi Gülşad Zərbəliyevə zəng vururdum, yalvarıb deyirdim ki, Gülşad müəllim, qurban olum, bir kömək elə, mən ayrı şeyə gəlməmişəm, camaat qırılacaqdır. Qoy mən gəlim, bunu Ayaz Mütəllibova deyim. Bir azdan Gülşad mənə cavab verdi ki, Elman müəllim, başı qarışıqdır, yanında adamlar var, nə bilim, filandır, bəsməkandır. Bir sözlə, məni qəbul etmədi. İndi mən fikirləşirəm, yəqin Xocalının verilməsi, satılması hazırlanmış bir əməliyyat idi. Yəqin bunlar nə isə bilirlərmiş, ona görə də məni qəbul edib eşitməyə ehtiyac duymurlarmış. Bəlkə də belə imiş.

Hörmətli Prezident, mən oradan ayın 12-də Ağdama gəldim, Fevralın 12-nə keçən gecə 600—700 evli Malıbəyli, Quşçular kəndləri yandırılıb viran qoyulmuşdu. Orada 30 nəfərədək adam şəhid olmuşdu. Mən Ağdama gəlib çıxanda artıq Malıbəyli camaatı Ağdamda idi. Küçələrə tökülmüşdülər, ağlaşırdılar. Bu məclisdə bizim hörmətli baş

prokurorumuz Eldar Həsənov iştirak edir. Səbuhi Abdinov Gəncədə icra hakimiyyətinin başçısı idi, Eldar müəllim Gəncə polis şö'bəsinin rəisi idi. Eldar müəllimin müavini var idi — Ramiz Cahangirov. Mən Gəncəyə getdim. Fevralın 13-də səhər tezdən mən Gəncənin hərbi aeroportunda idim. Getdim gördüm ki, Eldar Həsənov yoldaş Səbuhi Abdinovla, Ramiz Cahangirovla birlikdə həmin hərbi aeroportdadır. Bu yoldaşların sə'yi nəticəsində, onların böyük köməyi ilə vertolyotlar ayrıldı. İnanın ki, bu yoldaşlar səhər saat 8-dən axşam saat 5-dək, mən axırıncı reyslə Xocalıya uçan vaxtadək aeroportdan getmədilər. Onlar öz istədiklərinə nail oldular. Biz Xocalıya iki reys təşkil etdik və hər reysdə üç vertolyot uçurtduq. Bir dəfə bir Mi-8, iki Mi-24, ikinci dəfə iki Mi-24 və bir Mi-26 vertolyotları yola saldıq. Bu vertolyot çox adam, 200-dən artıq adam tuturdu. Əslinə qalsa, bu qədər adam tutmur, sadəcə olaraq adamlar iki mərtəbə, üç mərtəbə bir-birinin üstündə oturmuşdular.

Bu, 92-ci il fevralın 13-də olmuşdur. Həmin gün biz 300 nəfərdən çox adamımızı oradan çıxartdıq, xilas etdik. Onların əksəriyyəti qocalar, yaşlılar, xəstələr, qadınlar idi. Həmin gündən sonra bizim Xocalıdan yalvarışlarımız bütün respublikaya yayılırdı. Bütün respublikaya. Biz mə'lumat verir, yalvarırdıq ki, Xocalı təhlükədədir. Xocalını xilas etmək lazımdır, camaatı çıxartmaq lazımdır. Biz döyüşçülər, hamımız orada qırılsaq da, torpağımız uğrunda axır damla qanımıza qədər vuruşacağıq. Ancaq dinc əhali bizim vuruşmağımıza maneçilik törədir, həm də onlar günahsız qırılacaqlar, əlsiz-ayaqsız adamlardır.

Azərbaycan hökuməti bizim heç bir çağırışımıza cavab vermirdi. Mən belə bir ifadəmə görə çox üzr istəyirəm. Bir dəfə mən çox əsəbiləşmişdim. Ağdamdakı qərargahda VÇ telefonu var idi, dedim ki, o telefonla məni Ayaz Mütəllibovla birləşdirin, onunla danışmaq istəyirəm. Dedilər olmaz. Mən o prezidentin ünvanına söyüş söydüm. Sonra mənə dedilər ki, səni tutacaqlar, sən prezidenti söymüsən. Dedim ki, mən onu prezident hesab etmirəm. Prezident xalqının taleyinə biganə qalmaz. Nə cür olurdu ki, şəhər icra hakimiyyəti başçısının, şəhər polis şö'bəsi rəisinin gücü ilə Sovet ordusuna məxsus vertolyotlar uçurdula bilirdi, bəs bunu respublika rəhbərliyi edə bilməzdimi? Mən belə başa düşürəm ki, edə bilərdi, özü də çox asanlıqla edə bilərdi. Amma eləmədilər.

Hörmətli Prezident, mən bir epizodu danışmaq istəyirəm. Bunu ona görə demək istəyirəm ki, qoy hamı bilsin, — o vaxtkı rəhbərlik bizim taleyimizə nə qədər biganə idi. Onları Dağlıq Qarabağın Azərbaycanda qalması, işğal olunması, verilməsi maraqlandırmırdı. Onları oturduqları kürsünü möhkəm saxlamaq, vəzifədən getməmək maraqlandırırdı, bunun üçün hər cür alçaqlığa əl atırdılar. Sizin yadınızda olar, mən Naxçıvana gəlmişdim. 1991-ci il sentyabrın 30-u



idi, Naxçıvan Ali Məclisinin növbədənkənar sessiyası çağırılmışdı. Mən bilirdim ki, həmin gün belə bir sessiya çağırılıb. Düzü, mən Naxçıvana ayrı məqsədlə getmişdim. Ancaq orada bildim ki, bu gün sessiya çağırılıb. Mən o sessiyaya gəldim. Siz çox böyük məmnuniyyətlə, sevinclə, necə deyim, tə'sirlənərək bizi qəbul etdiniz və bütün deputatlara e'lan etdiniz ki, Dağlıq Qarabağdan Xocalı şəhərinin başçısı gəlib, bizim məclisimizdə iştirak edir. Siz məni də'vət etdiniz və deputatlara müraciət etdiniz. Gündəlikdəki məsələlərə baxılmazdan əvvəl mənə çıxış etmək üçün söz verdiniz. Mən orada Dağlıq Qarabağda vəziyyət haqqında təxminən yarım saat çıxış etdim. O vaxt Siz Naxçıvanda işləyə-işləyə Dağlıq Qarabağ haqqında bəyanat vermişdiniz, müraciətlər qəbul etmişdiniz. Biz bunların hamısını bilirik. Siz o vaxtdan bizim ümid yerimizsiniz.

Həmin məclisdən sonra Siz məni öz otağınıza apardınız. Bir saatdan çox söhbət etdiniz, mənə məsləhətlər verdiniz, yollar göstərdiniz, vəziyyəti izah etdiniz. Mən dərk etdim ki, həqiqətən də vəziyyət Azərbaycana rəhbərlik edən adamların dedikləri kimi deyildir. Böyük sevinclə Xocalıya qayıtdım, gəlib camaatıma danışım ki, mənə gedib Heydər Əliyevlə görüşmək qismət oldu. Mən onun məsləhətlərini dinlədim, Naxçıvan Ali Məclisinin sessiyasında çıxış elədim.

Amma gəlib Xocalıda nə gördüm? Azərbaycan Stepanakertə on sistern, yə'ni 600 ton benzin, iki vaqon un hədiyyə göndərib. Bu qatar Bakıdan 400 kilometr yol gəlmiş, neçə-neçə rayondan keçmişdi. Gördüm ki, bizim adamlar dəmir yolunu söküblər, qatarı dayandırıblar. O vaxt orada Azərbaycanı təmsil edən rəhmətlik Zülfü Hacıyev gəlib böyük acıqla dedi ki, bəs sənin adamların dəmir yolunu söküb-dağıdıblar, göstəriş ver, qoy yolu açsınlar, bu benzin, bu un aparılsın.

Mən o kişidən incimirəm, o mə'nada ki, o icraçı idi, yuxarıdan nə deyilirdisə, ağına-bozuna baxmadan onu icra edirdi. Mən ondan soruşdum ki, bu benzini kim göndərib? Dedi ki, "prezident göndərib. Bunlar da bizim vətəndaşlardır. Erməni olanda nə olar". Dedim, ay kişi, ay yoldaş, Dağlıq Qarabağda, o cümlədən Xocalıda yaşayan azərbaycanlılar yanacaqsız, çörəksiz, unsuz ölürlər burada, siz isə erməniyə 600 ton benzin göndərirsiniz ki, maşınlara töküb dağlardan bizi raketlə atəşə tutsunlar?! Burada böyük mübahisəmiz oldu. Hərbçiləri çağırdılar, iki zirehli transportyor gəldi, daha kimlər tökülmədi... Hədə-qorxu gəlib dedilər ki, hamınızı güllələyəcəyik. Mən gördüm ki, vəziyyət həddindən artıq pisləşir. Biz Azərbaycanın o vaxtkı rəhbərliyinin ünvanına da nalayiq sözlər dedik. Düzü, o vaxt mən dedim ki, Zülfü Salehoviç, əgər Azərbaycan bu gün bizi ermənilərin qarşısında tək qoyub bir kənara çəkilibdirsə, mən elə

prezident tanımıram, buranın prezidenti biz özümüzük. Bu sözlər Ayaz Mütəllibova olduğu kimi çatdırılmışdı.

Həmin hadisədən sonra mən dəfələrlə Bakıya çağrıldım, izahat verdim. Soruşurdular ki, sən Naxçıvana nəyə getmişdin, kimə işləyirsən, sən kimsən, nəçisən? Bir Allah şahiddir ki, o vaxt nə Siz məni tanıyırdınız, nə də mənim sizinlə heç bir əlaqəm yox idi. Mən bu adamları inandıra bilmədim ki, Naxçıvana nəyə getmişdim. Guya ki, mən böyük bir cinayət törətmişdim.

Görün, Azərbaycan rəhbərliyi sonra bizə nə etdi. Üç gündən sonra Gəncədən nəqliyyat polisindən bir nəfər mayor gəldi. İçəri girib özünü təqdim etdi ki, mən nəqliyyat polisindən gəlmişəm. Dedik ki, xoş gəlmisən, nəyə gəlmisən? Dedi bəs, siz burada benzini və unu dağıtmısınız. Biz cinayət işi açmalıyıq. Dedim, ay yoldaş, ay azərbaycanlı qardaş, bəs bu camaat acdır, yanacağı yoxdur. Yaxşı, bu yanacaq, bu un erməniyə gedir, bir az da bizimkilər götürüblər. Sən bunu niyə belə deyirsən? Dedi ki, yox, mənə rəhbərlikdən göstəriş veriblər ki, biz gərək burada cinayət işi qaldıraq.

Ayaz Mütəllibov, onun əlaltıları başda olmaqla Azərbaycan rəhbərliyinin azərbaycanlıların taleyinə göstərdiyi münasibət bax belə idi. Mən bunu faktlarla dedim ki, hamıda geniş təsəvvür yaransın.

Hörmətli Prezident, nəhayət, Xocalı faciəsi yaxınlaşırdı, döyüşlər davam edirdi. Biz ermənilərdən bir neçə əsir tutmuşduq. Bu əsirləri dindirdik. Onlar mənə danışdılar ki, Xocalını məhv etmək üçün böyük hücum planı hazırlanıb, biz Sumqayıt hadisəsinin ildönümünü Xocalıda qeyd edəcəyik. Onlar bunu qorxmadan mənə dedilər. Podpolkovnik Rza Hacıyev buradadır. O həmin vaxt Xocalıda idi. Əlif Hacıyevin qardaşı da orada bizimlə birlikdə, bir Xocalı balası kimi döyüşürdü. Bu danışıqlara o şahiddir. Buna bizim bir çox yoldaşlarımız da şahiddirlər.

Mən telefonla mə'lumat verdim ki, bizdə erməni əsiri var, belə bir söz deyir, siz tədbir görün, tə'cili tədbir görün, bizi məhv edəcəklər. Dedim, əgər mənə inanmırsınızsa, vertolyot göndərin, qoy ermənini vertolyotla sizə göndərim, siz bunu dindirin, özünüz şahid olun ki, belə bir söhbət həqiqətən var. Amma heç bir reaksiya verən olmadı.

Sizə onu da deyim ki, telefon bizdə daim işləmirdi. Çünki işıq yox idi. Dizel mühərriki ilə rabitə şö'bəsinə işıq verirdik. Yanacağımız da olmadığına görə mən rabitə şö'bəsinin müdirinə tapşırmışdım ki, səhərlər bir saat, axşamlar bir saat, uzaqbaşı saatyarım mühərriki işə salın, əlaqə yaradaq, danışaq.

Fevralın 22-si idi. Telefon zəng vurdu. Götürdüm. Zənc vuran Tamerlan Qarayev idi. Dedi ki, "mən gəlmişəm, Ağdamdayam, hər şey yaxşı olacaq, sabah çayımızı Xocalıda içəcəyik". Burada oturan



camaatın hamısı şahiddir. Çünki heç yerdə telefon işləmirdi, heç yerdə rabitə əlaqəsi yox idi. Hamı poçtun qabağına yığışırdı. Kim hara ilə nə danışırdısa, hamı eşidirdi. Odur ki, orada heç bir mə'lumatı gizlətmək mümkün deyildi. Tamerlan Qarayev də sıravi bir adam deyildi, Ali Sovet sədrinin müavini idi. Deməli, o, Azərbaycan rəhbərliyini təmsil edirdi. Əgər o, məs'uliyyətlə belə söz deyirdisə, bizdə inam yaranırdı ki, yəqin Tamerlan müəllim bilir ki, belə bir şey olacaqdır. Mən də camaata e'lan edirdim ki, özünüz eşitdiniz. Tamerlan Qarayev mənimlə telefonla danışdı, dedi ki, səhər çayımızı Xocalıda içəcəyik. Arxayın olun, heç bir şey olmayacaqdır.

Fevralın 25-də axşam saat 8 radələrində mən evə təzəcə girmişdim. Postları yoxlayıb evə gəlmişdim ki, bir stəkan çay içim. Bu zaman telefon zəng vurdu. Ucqar postların birindən zəng edirdilər. Bildirdilər ki, şəhərə hər tərəfdən hərbi texnika irəliləyir. Həmin vaxt mənim birinci telefon danışığım burada iştirak edən Rza Hacıyevlə oldu. Mən telefonu götürüb aeroportun rəisi Əlif Hacıyevə zəng vurdum. Çünki onlar ucqarda idilər. İstəyirdim ki, bütün qüvvələri ayağa qaldırsınlar. Mənə birinci cavab verən Rza oldu. Mən ona komanda verdim ki, bütün müdafiə qüvvələrini ayağa qaldırmaq lazımdır. Sonra bizim batalyonun komandiri Tofiq Hüseynovla danışdım. Polis şö'bəsinin rəisi yerində yox idi. Lakin onun müavini, indi bizim polis şö'bəsinə rəhbərlik edən Sadiq Mədətov orada idi. Onlara tapşırıq verdim və əlaqə yaradıb Ağdama, Şuşaya müraciət etdim, mə'lumat verdim ki, hər tərəfdən hərbi texnika Xocalıya tərəf irəliləyir, siz özünüzdəki vasitələrlə onların güclü hərbi texnikasına, hərbi vasitələrinə atəş açın, ermənilərin mövqelərini atəşə tutun.

Hörmətli Prezident, camaatımız şahiddir, nə vaxt ermənilərin bizə tərəf hücumu olurdusa, mən ratsiya ilə Şuşadan və Ağdamdan kömək istəyirdim və 5—10 dəqiqə keçməmiş hər tərəfdən "qrad"larla, toplarla Əsgərana, Stepanakertə atəş açırdılar və nəticədə ermənilərin hücumu baş tutmurdu, onlar səpələnir və geri qayıdırdılar.

Həmin gün saat 8 radələrindən başlayaraq saat 11-in yarısınadək mən və Əlif Hacıyev rasiyada qışqıra-qışqıra qaldıq. Azərbaycan tərəfiindən bir güllə də atılmadı. Üç saat davam edən mühasirə həlqəsi sıxıldı və saat 11-ə yaxın, 11-də, necə deyim, kinolarda görübsünüz, hərbi texnikanın hamısından eyni zamanda atəş başlandı. Yer-göy lərzəyə gəlirdi. Burada oturan camaatın hamısı onun şahididir. İndi o anları xatırladıqca onların tükləri biz-biz olur. Evlər od tutub yanmağa başladı. Qadınların, uşaqların qışqırtısı, ah-naləsi ərşə çatırdı. Axırısı mən məcbur olub rasiya ilə Şuşaya dedim ki, atəşi düz bizim üstümüzə yönəldin, "qrad"larla bizi vurun. Bunlar artıq şəhərə soxulurlar. Biz ölürüksə qoy onlar da ölsünlər. "Qrad" nədir, heç avtomat gülləsi də atmadılar.

Biz gecə saat 3-ə işləyənədək müdafiə olunduq. Lakin o qədər texnikanın qarşısında, o hücumun qarşısında durmaq mümkün deyildi. Bu hücumda 366-cı alayın bütün canlı qüvvəsi və texnikası iştirak edirdi. Qabaqda onlar gəlirdi. Sonralar onların öz jurnalistlərinin rusca bir məqaləsini oxumuşam. O yazırdı ki, irəlidə həmin hücum dəstəsi gedirdi, bu dəstə ruslardan və onların texnikasından ibarət idi. Ermənilər ikinci sırada, üçüncü sırada gəlirlərmiş.

O şaxta-boranda qadınlar, uşaqlar ayaqyalın, çılpaq halda Qarqar çayını keçib 15—16 kilometr məsafəni meşə yolu ilə piyada Ağdama tərəf istiqamət aldılar. Səhər işıqlaşanda biz artıq Ağdamın 1—2 kilometrliyində idik. Köməyə gələn olmadı. Biz gecə meşədən rasiya ilə mə'lumat verdik. Əlif Hacıyev dedi ki, Əsgərana tərəf asfalt yol ilə bir az hücuma başlayın. Ermənilərin bu meşədə olan qüvvələri asfalta sarı gedəcək, bundan sonra biz oradan sərbəst keçəcəyik. Bunu da etmədilər. Əsgəran — Naxçıvanik yolunun üstündə, Ağdamın cəmi 2—3 kilometrliyində ermənilərin çox güclü qüvvəsi ilə 15—16 kilometr meşə yolunu, keçilməz yolu qarı yara-yara gəlmiş adamların döyüşü başlandı. Orada külli miqdarda tələfatımız oldu. Biz Xocalının özündə 70-80 adam itirmişik. Lakin çox güclü qırğın, böyük tələfat həmin istiqamətdə oldu. Bütün bunlar gözlərimiz qarşısında çox vəhşiliklə, çox amansızlıqla törədilirdi. Biz müdafiə olunmaq üçün kiçik dəstələrə bölündük ki, vuruşaq, dinc əhali keçə bilsin. Elə dəstələrimiz oldu ki, vuruşa-vuruşa mühasirədə qaldı. Onların biri mən olduğum dəstə idi. Biz iki gün meşədə qaldıq. Beş nəfərimiz yaralandı, beşimiz isə vuruşurduq. Bax, bu cür gəlib çıxdıq.

Hörmətli Prezident, biz bu müsibəti yaşayandan sonra ayın 27-də mən Ağdama gəldim, qərargahda heç kim yox idi, qərargah üzvləri, respublika rəhbərliyindən olanlar qaçıb Ağdamdakı istehkamçı batalyonun binasına doluşmuşdular ki, birdən xocalılar gəlib burada bizə bir şey edərlər.

Qərargah postu yiyəsiz idi. Orada hökumət telefonu vardı. Onu götürüb Prezident Aparatını istədim. Mənə bir rus oğlan cavab verdi. Dedim, mənə prezidenti ver. Dedi, prezident yoxdur. Dedim, Ali Sovetin sədrini ver. Dedi, yoxdur. Dedim, məni Nazirlər Sovetinin sədri ilə birləşdirin. Dedi, yoxdur. Dedim, yaxşı, əgər bu respublikanın rəhbərlərinin hamısı ölübsə, deyin biz də biləк ki, bunlar ölübdür, heç kim yoxdur, respublikada rəhbər yoxdur. Mənim əlim Şuşaya çatdı. Dəstəyi götürüb oradan Şuşaya zəng vurdum. Şuşa ilə danışdım. Üzr istəyirəm, o murdar, min sifəti olan, iç üzünü məharətlə gizlədən Rəhim Qazıyev cavab verdi mənə. Dedim ki, mən respublika rəhbərliyindən heç kimi tapa bilmədim. Mən rəsmi mə'lumat, telefonoqram verirəm, qəbul elə və bütün kütləvi



informasiya vasitələri ilə yay ki, belə bir müsibət baş verib, bu qədər tələfat olub... Mən ilk mə'lumatı oradan vermişdim.

Xocalı faciəsi bu cür törədildi. Xocalı faciəsini kimlər törətdi, niyə törətdilər? Bu sualların cavabı artıq hamımıza mə'lumdur. Xocalı faciəsi Ayaz Mütəllibov başda olmaqla o vaxt hakimiyyətdə olan qüvvələrin, hakimiyyəti idarə etməyə fərasəti, savadı çatmayan qrupların hakimiyyətə gəlmək uğrunda davası nəticəsində o qədər adam qurban getdi, o qədər camaatımız qırıldı, o qədər kəndlərimiz, şəhərlərimiz, qəsəbələrimiz məhv oldu. Vəzifəyə gəlmək üçün də adam öz elini, obasını, millətini qırğına verərmi? Vəzifədə qalmaq üçün adam torpaqlarını satarmı? Bunu insan olan kəs etməz, bunu şeytan balası edər. Qanı murdar olan adam edər, biz bunu belə dərk edirik, belə başa düşürük.

Hörmətli Prezident, Xocalı faciəsi baş verəndən sonra deputat istintaq qrupu yaratdılar. O qrup xeyli işləyəndən sonra Ali Sovetin iclasına bir "bədii əsər" gətirib çıxardı. Mə'lum olmurdu ki, bu, istintaq materialıdır, yoxsa burada nə isə bir bədii əsər oxuyurlar, bunun əvvəli haradan başlanır, axırı harada qurtarır. Onların hazırladıqları həmin materialda Xocalı faciəsində səkkiz nəfər günahlandırıldı. Ayaz Mütəllibovdan başlayaraq o vaxt məs'uliyyət daşıyan, vəzifə daşıyan adamlar — onlar səkkiz nəfərdi. Bu gün o səkkiz nəfərdən təkcə Fəhmin Hacıyev həbsdədir.

**Heydər Əliyev:** O da başqa səbəbə görə.

**Elman Məmmədov:** Bəli, o da başqa səbəbə görə, Xocalı faciəsinə görə yox. O vaxtlar prokurorluğun istintaq qrupu işlədi. Allah xatirinə deyək, o qrup çox gərgin işlədi. Çox məs'uliyyətlə işlədi. Onlar çox materiallar topladılar, çox materiallar əldə etdilər. Amma Ali Sovetin Xocalı məsələsinə həsr olunmuş iclaslarının birində də o qrupdakı nə materiallardan, nə xəritələrdən, nə mə'lumatdan sanki istifadə edilmirdi. Əli Ömərov çıxırdı və həmin o bildiyini bir də təzədən oxuyurdu, gedib otururdu. Bu, Xocalı faciəsinə yox, xocalılara yox, Azərbaycan xalqına qarşı biganəlik idi, Azərbaycan xalqının taleyinə biganəlik idi.

Hörmətli Prezident, Siz hakimiyyətə gələnə qədər Xocalı faciəsinin ildönümünü qeyd etdirmək üçün və yaxud Xocalı şəhidlərinin ailələrindən, xocalılardan hansınasa nə isə kömək etdirmək üçün biz bilmirdik ki, kimə müraciət edək, kimin qapısını açaq, nə deyək. Siz hakimiyyətə gələndən sonra Sizin rəhbərliyiniz, təşəbbüs və göstərişinizlə Xocalı faciəsinin əsl qiyməti verilməyə başlayıbdır. Xocalı faciəsi haqqında həqiqət bütün dünya ölkələrinə, bütün dünya ictimaiyyətinə çatdırılmağa başlayıbdır. Ermənilər 1915-ci ildə özlərinin törətdikləri fitnə-fəsadı erməni qırğını adı ilə hər il aprelin 24-də qeyd edirlər. Mənə belə gəlir ki, Azərbaycan xalqı Azərbaycan

prezidentinin, Azərbaycan hökumətinin rəhbərliyi altında Xocalı faciəsini elə təbliğ etməlidir ki, bu faciə ermənilərin iç üzünü bütün dünyaya açıb göstərsin. Çünki Xocalı faciəsi birinci faciə deyildir ki, ermənilər bizim başımıza gətiriblər. Ermənilər 1905—1906-cı illərdə də, 1918-ci və 1920-ci illərdə də, 1948-ci və 1952-ci illərdə də və nəhayət, 1988-ci ildən bu günə qədər də bizim başımıza bu müsibətləri gətiriblər, amma susmağı üstün tutmuşuq. İndi Siz sağ olun ki, biz Sizə böyük minnətdarlığımızı bildiririk ki, Siz bu erməni cəlladlarının törətdikləri cinayətlərin açılmasında, dünya xalqlarına çatdırılmasında əlinizdən gələni edirsiniz.

Hörmətli Prezident, Xocalı faciəsi zamanı xeyli adamımız girov düşmüşdü. Onlar faciədən sonra bir-iki ay ərzində azad edildilər. Ancaq bu günə qədər 150-dək Xocalı vətəndaşının, — onların arasında qocalar, qadınlar, uşaqlar, döyüşçü oğullarımız var, — taleyi bizə mə'lum deyildir. 1992-ci ildən bu günə qədər Xocalıdan olan bir nəfər də girovumuz, əsirimiz azad edilməyibdir və bilmirik ki, onlar harada saxlanılır, sağdırlar, sağ deyildirlər. Biz ümid edirik ki, Siz bu məsələyə çox diqqətlə yanaşacaqsınız.

Hörmətli Prezident, bir məsələni də qeyd etmək istəyirəm ki, Xocalı faciəsindən iki ay keçəndən sonra biz silahı yerə qoymadıq, çəkilib mübarizədən yayınmadıq. Xocalı batalyonuna Tofiq Hüseynovun adını verdik. O, həmin batalyonun ilk komandiri olub. Biz o batalyonu bərpa etdik. Xocalı polisini bərpa etdik. Bu gün Xocalı polisinin şəxsi hey'əti cəbhə bölgəsindədir, öz xidməti borcunu çox ləyaqətlə, çox rəşadətlə yerinə yetirir. Biz Xocalı faciəsindən sonra həm Xocalı batalyonunda, həm də Xocalı polisində 17 şəhid vermişik. Yə'ni onu demək istəyirəm ki, biz torpağımızın azadlığı uğrunda hər an döyüşməyə hazırıq. Biz Sizin əmrinizi gözləyirik, Sizin komandanızı gözləyirik. Torpaqlarımız Sizin apardığınız böyük siyasətlə, slüh yolu ilə, ağılla azad olunmasa, Sizin bir çağırışınızla biz xocalılar bir əsgər kimi hamımız ön sırada gedərək torpaqlarımızın azadlığı uğrunda vuruşacağıq.

Hazırda xocalılar respublikanın 53 rayonunda məskunlaşıblar. Sağ olsunlar həmin rayonların sakinləri də, o rayonlara rəhbərlik edən icra hakimiyyəti başçıları da. Onlar əvvəldən camaatımızın qeydinə qalıblar, hörmət ediblər, qayğı göstəriblər — Yevlaxın icra hakimiyyətinin başçısı Rafiq Nəsibov kimi, Gəncə şəhər icra hakimiyyətinin başçısı Rasim Daşdəmirov kimi, Naftalan rayon icra hakimiyyətinin başçısı Füzuli Sadıqov kimi. Onların siyahısını uzatmaq olar. Sizin tə'yin etdiyiniz elə ləyaqətli icra hakimiyyəti başçıları var ki, onlar bizim camaatımıza hörmət edir, qayğı göstərirlər. Bizim problemlərimiz çox olub. Qaçqının problemi həddindən artıq çox olur. Biz problemlərimizi həll etmək üçün Prezident Aparatında ərazi



idarəetmə orqanları ilə iş şö'bəsi ilə daim əlaqə saxlayırıq, hörmətli Yusif Hümbətovun köməyi ilə bütün problemlərimizi həll edirik. Baş nazirin müavini İzzət Rüstəmov da bu sahədə bizə böyük kömək göstərir. İzzət Rüstəmovun özü də şəhid atasıdır. Buna görə də o, qaçqınların dərdini daha yaxşı bilir və bizə yaxından kömək edir. Hidayət Orucova da böyük minnətdarlığımızı bildiririk. Mehdiyev Ramiz müəllim bu işlərə ümumi rəhbərlik edir. Biz onun qayğısını həmişə hiss edirik.

Adını çəkmədiyim çox yoldaşlar var ki, onlar da problemlərimizin həllində bizə həmişə kömək göstərirlər. Əlbəttə, bu da öz-özünə, elə-belə olmur. Bəs bu, əvvəllər niyə olmurdu? Biz başa düşürük ki, bu, hörmətli Prezidentimiz, elimiz-obamızın böyük ağsaqqalı, dünyanın ən müdrik, tanınmış siyasətçilərindən biri olan möhtərəm Heydər Əliyevin rəhbərliyinin, göstərişlərinin nəticəsidir. Uşaqdan böyüyədək hamımız Sizə minnətdarıq və ümid edirik ki, Sizin apardığınız böyük siyasət nəticəsində biz tezliklə öz torpaqlarımıza qayıdacağıq və Xocalı torpağında böyük Heydər Əliyevin abidəsini ucaldacağıq. Bir azadlıq rəhbəri kimi, müdrik rəhbərimiz kimi, ömürlük el ağsaqqalımız kimi. Çox sağ olun.

**Heydər Əliyev:** Siz çox geniş, ətraflı mə'lumat verdiniz. Doğrusu, mən mətbuatdan, sənədlərdən bir çox şeyləri bilirdim, ancaq bu proseslərin şahidi kimi sizin dediyiniz sözlərin və çatdırdığınız mə'lumatların, o hadisələrin təfərrüatı haqqında dediyiniz sözlərin çoxu mənim üçün yenidir.

Doğrudan da, Xocalı faciəsi bizim qəlbimizdə yaradır, təkcə ona görə yox ki, həmin 26 fevral günü erməni faşistləri, vəhşilər, vəhşilərdən də vəhşilər gəlib bizim körpələri, qocaları, cavanları, qadınları, kişiləri vəhşicəsinə qırıblar, əziblər, yandırıblar. Bu hadisənin bizim üçün faciə kimi qəbul olunmasının o biri tərəfi ondan ibarətdir ki, o, təsadüfi baş verən şey deyil. Sizin indi danışdıqlarınızdan mən belə nəticə çıxarıram. Elə əldə olan materiallar da belə deməyə əsas verir ki, bu, bir tərəfdən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində Ermənistanın təcavüzünün tədricən, dalbadal artması, onların vəhşicəsinə hərəkətlər etməsi, ikinci tərəfdən isə bunun qarşısının alınmaması və tədbirlər görülməməsi deməkdir.

O vaxt Azərbaycan öz torpağının hakimi idi. Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi və Azərbaycan Dağlıq Qarabağdan savayı heç bir yerdə müharibə aparmırdı. Əgər Dağlıq Qarabağda o bir neçə kəndi qoruyub saxlamaq mümkün olmadısa, yaxud bunun iqtidarında olmadılarsa, o vaxt Azərbaycana rəhbərlik edənlər, yaxud da ki, o işlərlə məşğul olanlar onda bəs nə ilə məşğul olurdular? Bir də qeyd edirəm, bizim özümüz tərəfindən buraxılan günahlar, xəyanətlər erməni quldurları tərəfindən edilən vəhşilikdən heç də az vəhşilik deyil.

Daha kim danışmaq istəyir? Buyurun.

## Naftalan şəhərində müvəqqəti məskunlaşmış Xocalı sakını YAQUB ƏLİYEVİN çıxışı

Hörmətli Prezident, bizim Xocalı rayon icra hakimiyyətinin başçısı Elman müəllim hamısını ətraflı danışdı. Mən Naftalanda yaşayıram. Naftalan Kurort Birliyinin "Qarabağ" sanatoriyasında müvəqqəti məskunlaşmış Xocalı sakini Əliyev Yaqub Sarı oğluyam.

Hörmətli Prezident, hörmətli görüş iştirakçıları! Mən Naftalan şəhərinin sanatoriyalarında məskunlaşmış 390 Xocalı ailəsindən və Xocalı soyqırımından salamat qalmış 1.400 nəfərdən biri kimi Xocalı faciəsindən danışmaq istəyirəm.

Bildiyiniz kimi, bu il fevralın 26-da Xocalı faciəsinin 4-cü ildönümü qeyd olunur. 1988-ci ildən başlamış qondarma Dağlıq Qarabağ problemini ortaya atan mənfur ermənilər öz istədiklərinə nail olmaq üçün Dağlıq Qarabağı Ermənistana birləşdirmək xülyaları ilə yaşayırdılar. Bunun nəticəsində tarixdə misli görünməmiş faciə, XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımı baş verib. Qısa bir vaxt ərzində erməni silahlı quldur dəstələri şəhərin əhalisinə qəddarcasına işgəncə verməklə 485 nəfəri məhv etmiş, 421 nəfərə ağır xəsarət yetirmişlər. Bu zaman 1.500 nəfər itkin düşmüş və girov götürülmüş, 155 uşaq valideynlərini itirmiş, 10 min əhalisi olan şəhər tamamilə darmadağın edilib viranəyə çevrilmişdir. Mən bu amansız faciənin canlı şahidi kimi deyə bilərəm ki, 37 nəfər qohum-əqrəbam, qardaşım həlak olmuş, itkin düşmüşdür. Xocalı faciəsi zamanı mənfur erməni quldurlarına qarşı amansız mübarizə aparmış və son nəfəsinə qədər döyüşmüş qəhrəman oğullarımız həlak olmuşdur.

Hörmətli Prezident, həmin vaxt bizim respublika rəhbərliyinin bacarıqsızlığı və xəyanətkarlığı nəticəsində igid oğlanlarımızın adları qəhrəmanlar sırasında çəkilməmiş və əbədiləşdirilməmişdir. Həmin qəhrəman oğullarımızdan birini mən misal göstərə bilərəm. Mənim həmyerlim Novruzov Əsgər Xanlar oğlu barədə demək istəyirəm. O bizim rayonun hazırkı icra hakimiyyəti başçısı Elman Məmmədovla çiyin-çiyinə vuruşmuşdur, fədakarlıq göstərmişdir. Elman müəllim də bunu təsdiq edə bilər.

XX əsrin ən böyük faciəsini — Xocalı soyqırımını törədən daxili düşmənlərimiz də mə'lumdur. Möhtərəm Prezident, Sizdən xahişim budur ki, Xocalı soyqırımını törədən daxili düşmənlərimiz Azərbaycan xalqı qarşısında ifşa olunaraq ciddi cəzalandırılsın. Biz xocalılar onda deyə bilərik ki, xain düşmənlərimizdən öz qisasımızı aldıq.

Hörmətli Prezident, o vaxt respublikaya Siz rəhbərlik etsəydiniz, nə Xocalı soyqırımı baş verərdi, nə də bizim doğma yurd-yuvamız



əlimizdən gedərdi. Allah Sizi bizə çox görməsin. İnanırıq ki, Sizin rəhbərliyinizlə biz öz torpaqlarımıza, yurd-yuvalarımıza qayıdacağıq.

Biz dörd ildir Naftalan şəhərində yaşayırıq. Sizin Naftalan şəhərinə icra hakimiyyəti başçısı tə'yin elədiyiniz Füzuli müəllim və onun idarəsinin bütün işçiləri biz xocalılara yaxşı münasibət bəsləmiş, xeyir-şərimizdə və çətin işlərimizdə bizə kömək etmişlər. Biz xocalılar hamımız onlardan razıyıq.

Hörmətli Prezident, mən bizim xocalıların bir xahişini də Sizə yetirmək istəyirəm. Bu, bəlkə də sonrakı işdir. Xocalı soyqırımına mə'ruz qalanlara status verilməsini hamımız Sizdən xahiş eləyirik. Allah Sizi bizim üstümüzdən əskik eləməsin. Allah Sizə uzun ömür versin, Sizi hər vaxt televizor ekranında görəndə, inanın, bütün o əhali, bütün o camaat arzu eləyir ki, Heydər Əliyev bundan sonra da uzun ömür sürsün. Elə şəxslər var ki, mən açıq demək istəyirəm, mən xalqın sözünü deyirəm, bu xalqın bizim prezidentə olan istəyini, arzusunu deyirəm, — elə cavanlarımız var ki, deyirlər Allah-Təala bizim ömrümüzdən kəssin, Heydər babamıza, Heydər qardaşımıza versin ki, o yaşasın, bəlkə Azərbaycan xalqını bir tərəfə çıxarsın.

Mən bir sözü də deyirəm, bununla da öz çıxışımı qurtarıram. Xocalı ki, darmadağın edildi, bizim bə'zilərimiz öldü, tutulan tutuldu, qalanı Ağdama güman gətirdi. Biz Ağdama gəldik, iyirmi nəfərə yaxın qadın idi, bir neçə nəfər də qoca kişi. Bir nəfər gəldi mənə dedi ki, bəs ay Yaqub dayı, bizim o Qarabağ Komitəsində işləyənlər yeyib-içirlər. Dedim, belə şey olmaz. Dedim, əgər bu körpələr qırılıbsa, bu qadınlar qarın içində, meşədə, kolluqda qalıbsa, elə adamlar olub ki, qayalıqdan sürüşüb düşüb ölübsə, bu, necə ola bilər? Dedim, onda belə eləyək, mən sizinlə gedirəm, gözümlə görüm ki, bu, həqiqətdir. Həqiqətən də mən getdim, qapını açdım, gördüm ki, stolu qurublar, uzun stoldur və Tamerlan da başda oturubdur.

**Heydər Əliyev:** Hansı Tamerlan?

**Yaqub Əliyev:** Tamerlan Qarayev. Bəli, Tamerlan oturub stolun başında, ətrafında da Qarabağı "müdafiə eləyənlər" var idi, onlar əyləşiblər. Burada bir neçə jurnalist də var idi. Amma mən gördüm ki, stolun üstündə yemək şeyləri var. Bağışlasın burada oturanlar, orada növbə-növ içkilər, yeməklər, filanlar var idi. Deməli, bunlar yeyib-içməklə məşğul olmaq istəyirlər. Mən Tamerlana dedim ki, hansı münasibətlə siz bu yemək-içməyi təşkil eləyirsiniz? Sizin millətiniz qırılır, sizin körpələriniz qırılır, siz yeyib-içirsiniz? Tamerlan bir az o yan-bu yan elədi. Dedim ki, əgər mən yaşda Xocalı camaatı ölübsə, yeyin-için, kef eləyin, eybi yoxdur. Amma sizin nəvələriniz yerində olan körpələr anasının qanına boyanıb, qarın içində qalıbdır. Adamlar oldu ki, iki gün, üç gün meşədə, dağın içində, dumanda-çiskində qaldılar. Ailə oldu ki, on iki gündən sonra meşədən

çıxdı, gəldi, Mən həmin adamlara sual verdim: indiyə qədər siz nə yeyirdiniz, harada qızınırdınız? Onlar mənə dedilər ki, Allah-Təalanın köməyi ilə bir mağara, kaha deyirik, ona rast gəldik, odun yığdıq, orada ocaq qalayırdıq, qızınırdıq və böyürtkən kolunun yarpağını, bir də, biz həmərsin deyirik, bitkidir, onun meyvələrini yığıb yeyirdik. Həmin adamların hamısının ayaqlarını şaxta kəsmişdi.

Hörmətli Prezident, mən sizə cansağlığı, uzun ömür arzulayıram. Allah sizə dəyməsin, Allah Sizi bizim üstümüzdən əskik eləməsin. Bir də ki, Sizin sülhsevər xəttinizi, bunu bütün dünya bilir, bütün bəşəriyyət bilir. Sülh yolu ilə torpaqlarımızı qaytaraq, mən də Sizinlə bir yerdə bunu məsləhət bilirəm. Qoy bizim cavanlarımız qırılmasın. Əgər sülh olmasa, müharibə e'lan olunsa, bax mən sözü elə-belə deyib keçmirəm, yeri gəlsə, müharibə olsa, mən hazıram. Sağ olun.

### Azərbaycanın Milli Qəhrəmanı
### Əlif Hacıyevin həyat yoldaşı
### QALİNA HACIYEVANIN
### çıxışı

Mən Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyevin həyat yoldaşıyam, Binə hava limanında inspektor işləyirəm. Cənab Prezident, icazə verin burada olanlar adından, şəhidlərin ailələri adından Sizə təşəkkür edim ki, Siz vaxt tapıb, bu günlər kədərimizi və ağrı-acımızı bölüşmək üçün bizimlə görüşə gəldiniz.

20 aydan artıqdır ki, Azərbaycan torpağında mərmi partlayışları eşidilmir və biz öz oğul və ərlərimizi son mənzilə yola salmırıq. Bütün bunlar Sizin müdrik siyasətiniz sayəsində, ölkəyə rəhbərlik etmək bacarığınız sayəsində mümkün olmuşdur. Biz hamımız Sizin əsl rəhbər olmaq bacarığınız qarşısında baş əyirik.

Xocalı faciəsinin baş verdiyi vaxtdan dörd il keçir. Bu faciəni unutmaq qeyri-mümkündür. Mən həmin anları indiyədək ürək ağrısı ilə xatırlayıram. Nə qədər qadın, uşaq, qoca həlak oldu, lakin bu faciənin günahkarları, baisləri indiyədək azadlıqda gəzirlər. Biz indiyədək bilmirik ki, buna görə təqsirkar kimdir. Heç nə araşdırılıb aydınlaşdırılmayıbdır. Sakinlərimiz — qadınlar, uşaqlar bu günədək ermənilərin əlində əsirdilər. Aradan dörd il ötüb, amma onlar hələ də oradadırlar. Onları qaytarmaq üçün nəsə bir tədbir, iş görmək lazımdır. İndiyədək çoxları hətta öz ərlərinin, atalarının taleyi barədə bir şey bilmirlər. Bizim Əlifin böyük qardaşı itkin düşmüşdür. Dörd ildir ki, ondan xəbərimiz yoxdur. O haradadır, sağdırmı, yoxsa artıq çoxdan torpaqda uyuyur?

Mən Sizdən çox xahiş edirəm. Xocalı faciəsinə diqqət yetirin, günahkarların tapılmasına, cəzalandırılmasına kömək göstərin. Bu, belə qalmamalıdır. Təqsirkarları tapıb onlardan soruşmaq lazımdır ki, nə üçün bu qədər günahsız insan torpaq altında yatır? Nə üçün qadınlar, analar, atalar, qardaşlar, bacılar göz yaşları axıdırlar?



Sizə isə səmimi qəlbdən təşəkkür edirik ki, respublika üçün belə bir ağır dövrdə bizimlə görüşməyə vaxt tapırsınız, bizə mə'nəvi, maddi cəhətdən kömək göstərirsiniz. Daxili İşlər Nazirliyinə, xüsusən hörmətli nazirimiz Usubova və bu çətin zamanda adamlara, Qarabağ qaçqınlarına kömək edənlərin hamısına minnətdarlığımızı bildiririk.

Ümid edirik ki, Sizin köməyinizlə, Sizin müdrik siyasətiniz sayəsində biz Xocalı torpaqlarına qayıdacaq və orada əkin-biçinlə məşğul olacağıq.

### Xocalı sakini, şəhid atası
### KAMRAN USUBOVUN
### çıxışı

Əziz, hörmətli böyümüz, atamız Heydər müəllim!

Mən də şəhid atasıyam. Üç oğul itirmişəm. Mənim dərdim çoxdur. Sizə ümidim var ki, biz — Xocalı camaatı öz vətənimizə, yerimizə qayıdıcağıq. Bizim Xocalı əhalisi qoçaq camaatdır, qorxmaz camaatdır, ermənilərin qabağında dörd il gecə-gündüz vuruşublar. Mən özüm Xocalı mühasirəsində girov düşdüm. Arvadımı, özümü girov götürdülər. Üç gün bizi saxladılar. Bizim cavanlarımızı, 50 yaşında, 45 yaşında olanların hamısını seçdilər, apardılar. Arvad-uşağı, bizi buraxdılar. Biz meşədə üç gün qaldıq. Mənim iki qardaşım, qardaşımın arvadı meşədə öldü. Biz bir şey tapmadıq ki, onun üstünə örtək, eləcə də qoyduq meşədə. Üç qardaşım oğlu getdi. Sonra öz oğlum getdi. Bir qardaşım qızı yaralandı, gəldi Sumqayıta, rəhmətə getdi.

Hörmətli Prezident, Xocalının dərdini deməklə qurtarmaz. Ancaq bizim Xocalı camaatı ümidlə yaşayır. Vəziyyət Sizin iştirakınızla, sülh yolu ilə düzəldi, düzəldi. Düzəlmədisə, Xocalı camaatı Sizin arxanızda durub. Hazırıq. Mən, 70 yaşında kişi, əlimdə avtomat qabaqda gedərəm. Mən öz oğlanlarımdan artıq deyiləm. Mən canımı da qoyacağam, üç oğul qoymuşam. Bizim rəis bilir, mənim bir oğlum polisdə işləyirdi. Birinin iki uşağı var, biri 18 yaşındadır. Haraya gedirəm, oğlanlarımdan bir xəbər bilmirəm ki, ölüblər, yoxsa sağdırlar. Sizdən çox xahiş eləyirəm, onlar girovdur, sağdır, ya ölüblər — bu haqda bizə bir mə'lumat verəsiniz. Sizdən çox-çox xahiş eləyirəm. Allah Sizi bizim üstümüzdən əskik eləməsin. Həmişə bayrağınızı yüksək eləsin, yoldaş Heydər Əliyev. Çox sağ olun. Xocalı camaatı həmişə Sizin arxanızda durur. Mənim deyəcəyim bu qədər.

**Heydər Əliyev:** Sağ olun.

Tibb Universitetinin dosenti,
Xocalı sakini
## MÜBARIZ ALLAHVERDİYEVİN
çıxışı

Xocalı sakiniyəm. Hazırda Tibb Universitetinin elmi katibi, insan anatomiyası kafedrasının dosenti vəzifəsində çalışıram.

Möhtərəm Prezident, mən çıxışımı bir epizodla başlamaq istəyirəm. Burada çıxış edən yoldaşlar dedilər ki, zaman-zaman Azərbaycan torpaqları erməni qəsbkarları tərəfindən işğal edilibdir. Zaman-zaman onlar bizim millətimizə qarşı, torpağımıza qarşı dözülməz vəhşiliklər törədiblər. Mən 1966-cı ildə institutu qurtaranda böyük həvəslə tə'yinatımı Dağlıq Qarabağa götürdüm və orada məni səhiyyə şö'bəsinin müdiri Atayan uzun müddət işsiz qoydu. Sonra Naxçıvanikdə işlə tə'min etdilər. O müddətdə mən hiss edəyirdim ki, bizim xalqa qarşı bunlarda böyük kin-küdurət var. Xəstəxananın erməni millətindən olan işçilərindən soruşurdum ki, axı, sizdə bizim millətə qarşı bu qədər kin-küdurət haradandır? Onlardan bə'ziləri mənə izah edəyirdilər ki, bizim yazıçılar cildlərlə kitablar yazıblar və orada göstərirlər ki, sizin azərbaycanlıların, Azərbaycanda yaşayanların, eyni zamanda türklərin guya ermənilərə qarşı böyük ədalətsizlikləri olubdur. Bunları, əlbəttə, bizim xalqa, bizim millətə qarşı, bizim torpağa qarşı onlar özləri edəmişdilər və özlərinin bizə qarşı etdiklərini həmişə bizim adımıza çıxmışdılar.

Mən 1967-ci ildən şahidəm ki, orada belə bir əməliyyat başlanmışdı. 1988-ci ildəki əməliyyata o vaxt başlamaq istəyirdilər. Çünki o dövrdə Silva Kaputikyanın "Karvan hələ yoldadır" əsəri çapdan çıxmışdı. O əsərdən ruhlanaraq onlar istəyirdilər ki, Dağlıq Qarabağı o vaxt qopartsınlar. 1967-ci il iyulun 7-də Xankəndində böyük bir vəhşilik törətdilər. Ərşad müəllim adlı bir nəfərin üstünə böhtan atdılar və məhkəmədən sonra onun başın kəsib Yerevana göndərdilər, cəsədini yandırdılar. Mən onda Naxçıvanikə işə gedəndə Xocalı qadınları qabağımı kəsdilər ki, erməni-müsəlman davası yenə başlayıbdır, getmə. O vaxt ermənilər belə əməliyyatlar törətməyə hazırlaşırdılar. Ancaq mənim yadımdadır ki, 1969-cu ildə möhtərəm Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etməyə başlayanda ermənilərin əli-ayağı kəsildi və onlar Azərbaycana qarşı açıq-aşkar hücumları dayandırmağa məcbur oldular.

Mən bütün 70-ci illərdə və 80-ci illərin əvvəllərində Xankəndində, Şuşada, bütün Dağlıq Qarabağda əmin-amanlıq olduğunun şahidi oldum. Bu, yalnız bir amilin sayəsində idi, burada yalnız bir səbəb görürdüm ki, o da o vaxt respublikaya rəhbərlik edən hazırkı prezidentimiz möhtərəm Heydər Əliyevin müdrik siyasəti, onun



apardığı bacarıqlı və dünyada məşhur olan siyasətin nəticəsi idi. Bundan sonra, əlbəttə, biz çox sevindik ki, möhtərəm prezidentimiz Moskvaya getdi, Siyasi Büroya üzv seçildi.

1980-ci illərin ortalarında, daha doğrusu, sonlarında, ermənilər yenidən fəallaşdılar və Azərbaycanın görkəmli oğlu Heydər Əliyevə hücumlar yenidən başlandı. Onlar bilirdilər ki, yalnız möhtərəm rəhbərimizi, hazırkı prezidentimizi siyasi meydandan uzaqlaşdırmaq yolu ilə Dağlıq Qarabağı ələ keçirə bilərlər, Dağlıq Qarabağda nə isə törədə bilərlər. Ona görə də ümumdünya miqyasında, bütün dünyaya səpələnmiş ermənilərin köməyi ilə bu əməliyyat geniş miqyasda aparılırdı. Onlar öz mənfur niyyətlərinə nail olmaq üçün yalnız bir nəfərə hücum edirdilər, o da Heydər Əliyev idi.

Mənim yadımdadır ki, Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra Ali Sovetin iclasında böyük həyəcanla, böyük hissiyyatla, böyük yanğı ilə orada oturanların hamısını də'vət elədi, çağırdı ki, gəlin bütün ambisiyaları kənara qoyaq və əldən gedən Dağlıq Qarabağın taleyi ilə məşğul olaq. Təəssüflər olsun ki, o vaxt onun sözünə, məsləhətinə qulaq asmadılar. Əgər qulaq assaydılar, nə bugünkü Dağlıq Qarabağ faciəsi olardı, nə Xocalı faciəsi olardı, nə də bu gün biz buraya yığışıb bu faciənin təhlili ilə məşğul olardıq.

Mən möhtərəm Prezidentimizə cansağlığı arzu edirəm və Xocalı ziyalıları adından deyirəm ki, möhtərəm Prezidentimiz, biz həmişə Sizin tərəfinizdəyik. Biz Sizin bütün siyasi xəttinizi — həm daxili, həm xarici siyasətinizi dəstəkləyirik. Mən böyük bir ali məktəbdə dərs deyirəm və orada mühazirələrimin əvvəlində də, axırında da Sizin vətənpərvərliyinizdən danışıram. Biz orada yalnız həkim yox, eyni zamanda vətəndaş yetişdirmək üçün çalışırıq. Abbas Səhhətin bir şe'ri vardır, biz həmişə tələbələrimizə onu deyirik:

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, Vətənimdir, Vətənim.
Vətəni sevməyən insan olmaz,
Olsa, ol şəxsdə vicdan olmaz.

Bizim aramızda təəssüf ki, Azərbaycanın çörəyini yeyib, suyunu içib, havasını udub vicdansız olanlar da var. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə xəyanət, qəsd törədənlər də eləri oldular. İndi onlar qaçıb başqa ölkələrdə gizləniblər, özlərinə himayədar axtarırlar. Ancaq vaxt gələcək, zaman özü onların hökmünü verəcək və əlbəttə, onların aqibəti mütləq məhvə məhkumdur, onlar mütləq xalq qarşısında cavab verməlidirlər.

Möhtərəm Prezident, mən bir daha bütün Xocalı ziyalıları adından Sizə minnətdarlıq edəyirəm ki, bu gün vaxt tapıb bizim dərdimizə şərik olmusunuz.

Mən bu faciənin birinci ilindən sonra gözləyirdim ki, prezident,

dövlət xadimləri belə yığışsın, xocalılara bir təskinlik versin. Çox heyiflər olsun ki, Xocalı faciəsinin birinci ildönümündə biz ləyaqətsiz bir yığıncağın şahidi olduq. Bütün xocalılar hörməti, qayğını ancaq Sizin prezidentliyiniz dövründə hiss eləyiblər və Sizə uzun ömür, cansağlığı diləmək bizim Allahdan arzumuzdur. Çox sağ olun.

Xocalı qaçqını,
"Bakmil" zavodunun işçisi
**İDRİS BƏNDƏLİYEVİN**
çıxışı

Hörmətli Prezident, mən Xocalı şəhər sakini Bəndəliyev İdrisəm. Bu gün bura yığışmışıq Sizin rəhbərliyiniz altında, qoy dünya ictimaiyyətinə, dünya xalqlarına, dünya azərbaycanlılarına bildirilsin ki, Xocalı camaatını bizim alçaq, pis rəhbərlərin günahı üzündən qırdılar. Xocalının uşaqları, qadınları, qocaları həlak oldular, üç nəfər Milli Qəhrəmanı — mənim nöqteyi-nəzərimcə, onlar Şah İsmayıl Xətainin generallarıdır, — şəhid oldular, bunlar Əlif Hacıyev, Tofiq Hüseynov, İnqilab İsmayılovdur. Axırıncısı minaya düşdü, tikəsi də ələ gəlmədi.

Biz xocalılar Sizə uzun ömür, cansağlığı, səadət, xoşbəxtlik arzu eləyirik. Hörmətli Prezident, bizim icra hakimiyyəti, milis rəisi, bütün rəhbərlər bir ailə kimi yaşayırıq. İndi qaçqın düşmüşük. Bizim icra hakimiyyəti başçısı hələ bə'zi şeyləri deməди. 22 nəfər adamın anasının sağ-sağ əmcəklərini kəsiblər, hörmətli Prezident.

Mən özüm Sizinlə dekabr ayının 25-də "Azərbaycan — İtaliya" müştərək müəssisəsində görüşdüm. Mən həm şadyanalıq keçirdim, həm də mə'yusluq. Şədyanalıq ona görə keçirdim ki, şükür Allaha, şəxsən Sizə 60 yaşdan yuxarı vermərəm. Mən şad oldum. Mə'yusluğum ondan oldu ki, dedim, ey dili-qafil, niyə 1989-cu ildə Heydər Əlirza oğlu bizə rəhbərlik eləmədi? Siz çox iş gördünüz, hörmətli Prezident, 1969-cu ildən Siz Azərbaycana rəhbərlik elədiyiniz dövrdə qurduğunuz, yaratdığınız zavodlar, fabriklər, kolxozlar, sovxozlar göz qabağındadır. Adamları yığırdınız plantasiyalara, üzüm bağlarına, hamısı mükafat alırdı, maşın alırdı. Siz Moskvaya gedəndə biz hamımız şad olduq. Ona görə ki, bizim ürəyimiz, canımız, mənliyimiz Kremldə oturub. Bə'zi düşmənlərin əli ilə Sizə də zərbə vurdular. Siz gedəndən sonra Dağlıq Qarabağda "Azərbaycan" sözü tamamilə ləğv olundu. Hər şey ancaq rus, erməni dillərində oldu. Onlar bizi həmişə əziblər.



Odur ki, biz Sizdən xahiş eləyirik. Bugünkü müsibətimiz haqqı, biz xocalılar, hamı bir nəfər kimi hazırıq cəbhəyə getməyə, son damla qanımıza qədər vuruşmağa. Qırağa gedəni özümüz öldürəcəyik. Ancaq bizə o torpaqlarımızı verin, hörmətli Prezident. Dünya miqyasında mən Sizdən üstün şəxs tanımıram. Mən Sizi tanıyıram Mustafa Kamal Paşa Atatürk kimi. Allah-Təala bizə iki görkəmli şəxs bağışladı. Onların biri Mustafa Kamal Paşa Atatürkdür. 1918-ci ildə Andronik bütün kəndlərimizi, şəhərlərimizi viran qoyanda o, Azərbaycanı azad elədi.

Məmmədəmin Rəsulzadə Azərbaycanda demokratiyanın əsasını qoydu. Ancaq əfsuslar olsun ki, XI Qızıl Ordu gəldi onun işini pozdu. O, 1955-ci ildə Türkiyədə həyatını dəyişəndə üç dəfə dedi: "Azərbaycan! Azərbaycan! Azərbaycan!". Bu, mənim ürəyimdə yaradır. Bir mənim yox, bütün xalqın ürəyində yaradır.

Hörmətli Prezident, biz Sizinlə fəxr eləyirik. Mustafa Kamal Atatürkün bir gözəl sözü var, deyirdi ki, öyün, çalış, güvən. Biz Sizinlə öyünürük. Bizə lazımdır ki, cəbhəyə gedib çarpışaq, kənd təsərrüfatında çalışaq. Bir də ki, biz Sizə inanırıq. Sizdən başqa bizim heç kimimiz yoxdur.

Hörmətli Prezident, and olsun bugünkü günə, 1992-ci ildə biz hamımız oradan dilənçi kimi çıxmışıq. Mən getdim Azərbaycan — İtaliya müştərək müəssisəsinə. Orada fəhlələr, ziyalılar, rəhbərlər bizi öz balası, öz qardaşı kimi saxladılar. Biz, 80 nəfər qaçqın orada məskunlaşdıq. Bütün problemlərimiz həll olundu. Əfsuslar olsun ki, zavod bir ildir işləmir, ağır vəziyyətdir, bütün qaçqınlar da ağır vəziyyətdədir. Sizin qurduğunuz kondisionerlər zavodu Sizin övladınızdır, "Bakmil" nəvənizdir. Siz nə qurmusunuzsa, hamısı oğlunuzdur, nəvənizdir. Bütün Azərbaycanı Siz ayağa qaldırdınız, — axı bu, göz qabağındadır.

Mən Nərimanov rayonunda yataqxanada məskunlaşmışam. Fürsətdən istifadə eləyib, Nərimanov rayon icra hakimiyyətinin başçısı Mübariz Rəcəbova, rayon sosial tə'minat şö'bəsinin müdiri Yusif müəllimə, rayon tə'cili tibb yardımı məntəqəsinin müdiri Paşayev Əsgərə razılığımı bildirirəm. Mənim dörd uşağım difteriyadan az qala ölmüşdü, onun rəhbərliyi altında həkim Süleymanov Əhməd onları xilas elədi. Mən arzu eləyərdim ki, bütün həkimlərimiz onun kimi olsun. Çox sağ olun, Sizə uzun ömür, səadət, xoşbəxtlik arzulayırıq. Ancaq bizə torpaq lazımdır. İnanın ki, bunun üçün hamı bir nəfər kimi hazırdır. Çox sağ olun, hörmətli Prezident!

Dövlət Teleradio Verilişləri Şirkətinin əməkdaşı, radionun "Xəbərlər" redaksiyası baş redaktorunun müavini
ƏLƏMDAR QULUZADƏNİN
çıxışı

Hörmətli Prezident, əziz yoldaşlar! Üzümü Sizə tuturam, cənab Prezident! Vaxt tapıb xocalıları qəbul elədiyiniz üçün, onları dinlədiyiniz üçün. Mən də Xocalıda anadan olan, Xankəndində yaşayan və bu hadisələr zamanı Bakıda məskunlaşan bir Qarabağ sakini kimi Sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Axşamdan bəri televiziyada, radioda Sizin müraciətiniz səslənib, bu gün biz respublika mətbuatında həmin müraciətlə tanış olmuşuq. Bircə cümləni oxuyuram: "Xalqımızın milli hüzn günündə Xocalı müsibətinin günahsız qurbanlarının ruhu qarşısında ehtiramla baş əyirəm". Ehtiramla baş əymək üçün məhz böyük ürəyə sahib olmaq lazımdır. Bu isə Sizdə var. Biz Sizə minnətdarlığımızı və təşəkkürümüzü bildiririk.

1992-ci il fevral ayının 26-da Xocalı bir gecədə qətlə yetiriləndə Xocalının şəhid olması barədə mə'lumat o zaman üç gün xalqdan gizlədildi. Siz isə ölənləri, şəhid olanları faciənin ildönümündən üç gün əvvəl bax, beləcə yad eləyirsiniz.

Xocalı müsibəti haqqında burada danışdılar, özü də həyəcanla danışdılar. Mən elə bilirdim ki, həyəcansız danışacağam. Çünki çox vaxt mikrofon önündə oluram. Amma hiss eləyirəm ki, bu, çətin mövzudur, hamımızı həyəcanlandıran mövzudur. Xocalı niyə əldən verildi? Niyə uduzdu? Səbəbləri çoxdur.

Siz o yerlərə çox gəlmisiniz, Xocalı məktəbliləri də Sizi həmişə qarşılayıblar, həmişə asfaltın kənarında durublar. Yolunuz düşürdü o yerlərə. Bilirsiniz ki, orada relyef necədir. Hər tərəf dağlıq idi, ermənilər də yüksəklikdə yerləşmişdilər. Xocalının ətrafında dörd qüvvə var idi: keçmiş SSRİ-nin hərbçiləri — 366-cı motoatıcı alay, birinci düşmənimiz olan ermənilər, üçüncüsü iqtidar, yə'ni o zaman hakimiyyətdə olanlar və dördüncüsü də müxalifət. Çox maraqlıdır ki, bu dörd qüvvənin heç birisi Xocalını müdafiə eləmək fikrində deyildi. Ermənilər özlüyündə mə'lumdur — düşmən tərəfdir. Onlar Xocalıdan öz heyfini, qisasını almağa, torpağımıza sahib durmağa can atırdılar və aydındır ki, həm uşaq üçün, həm qoca üçün — hamı üçün amansız olacaqdılar. Ermənilərdən aman gözləmək ağılsızlıq idi.

İkincisi, ordu, Sovet İttifaqının hərbi birləşmələri. Bunlar isə öz güclərini göstərmək üçün, yə'ni "Siz bizsiz yaşaya bilməzsiniz" iddiası ilə hərəkət edirdilər. Əlbəttə, onlar ermənilərlə sövdələşmişdilər və ona görə onlardan kömək ummaq qeyri-mümkün idi.

Üçüncüsü, Azərbaycanın o zaman hakimiyyətdə olan rəhbərləri



idi. Onlar da Xocalının qanına qəltan olunmasını istəyirdilər. Ona görə ki, desinlər: "Biz Şimalsız yaşaya bilmərik və təklənərik".

Dördüncüsü, müxalifət idi. Onlar da Xocalının məhv olmasına, qırılmasına, çatılmasına razı idilər. Çünki bundan sonra hakimiyyət dəyişməsi baş verə bilərdi. Bax, Xocalının ətrafında dörd belə qüvvə var idi. Xocalını xocalılardan savayı heç kəs qorumaq istəmirdi və ona görə də Xocalıda belə bir facio baş verdi.

Bir də ki, cənab Prezident, siyasəti adətən şahmata bənzədirlər. Şahmat oynamaq isə çox çətindir. Deyək ki, qarşı tərəfin siyasət stolu, şahmat stolu arxasında oturanlar haradasa peşəkar şahmatçılara oxşayırdılar bir az. Azərbaycanın siyasətə meylli olan adamları, siyasət meydanına atılmaq istəyənləri isə həm siyasətdə naşı idilər, həm də həvəskar şahmatçılara bənzəyirdilər. Ona görə də onlar mat oldular, biz isə bu qədər uduzduq.

İndi ona görə arxayınıq ki, bu gün Azərbaycanın həm siyasət sükanı arxasında, həm də, deyək ki, bu şahmat taxtasının arxasında artıq əvvəlki o həvəskar şahmatçılar yox, həvəskar siyasətçilər yox, qrossmeyster əyləşib. Ona görə həmin məğlubiyyətlərin əvəzinin çıxılacağına, qisasının alınacağına xalq ürəkdən inanır.

Bu, Prezident sarayına, deyəsən, mənim üçüncü gəlişimdir. Birinci dəfə 1988-ci ildə olmuşam. Onda hələ biz Xankəndində yaşayırdıq. Ancaq təhlükəli vəziyyətdə yaşayırdıq, bizi yavaş-yavaş sıxışdırırdılar və artıq təhlükəni görürdük. Gedənin arxasınca danışmaq kimi çıxmasın, onsuz da bunu hər yerdə, həmişə danışırıq. O zaman beş-altı nəfər adam Əbdürrəhman Vəzirovun qəbuluna gəldik, qəbula düşdük və vəziyyəti dedik. Tələb elədik, eşitmədi. Xahiş elədik, bizi aldatdı. Nəhayət, söhbətimiz alınmadı. Onun kabinetində gedən söz-söhbət zamanı Mərkəzi Komitənin birinci katibi acıq elədi, kabinetindən çıxdı. İçəridə, daxildə bir kabineti var idi, keçdi o tərəfə. Biz də — Xankəndindən gələnlər dinməz-söyləməz Əbdürrəhman Vəzirovun kabinetindən çıxdıq və sonra bizi Ali Sovetdə qarşıladılar.

Ondan sonra 1988-ci ilin 18 sentyabrı gəldi, mən Stepanakertdə — Xankəndində yaşayırdım. Digər azərbaycanlıların evlərinin başına gətirilən müsibət mənim də evimin başına gətirildi.

1991-ci ilin axırlarında Xocavənddən gəlmişdilər. O zaman Ayaz Mütəllibov prezident idi və mən də xocavəndlilərə qoşuldum, onun qəbuluna gəldim. Orada da mən Xocalının taleyi ilə maraqlandım. Vaqif Hüseynov da o zaman burada idi və dedi ki, arxayın ola bilərsən, biz xocalılara top vermişik və onlar həmin topla ermənilərin qabağını alacaqlar.

Beləliklə də hiss eləyirdik ki, kiminlə görüşürüksə, — Elman müəllim bunu çox ətraflı danışdı, — kiminlə görüşürüksə bizi aldadır,

bizi birtəhər yola salmaq istəyir. Ayaz Mütəllibovla həmin görüşdə belə bir söhbət oldu. O, Sizin ünvanınıza danışdı və gileyini bildirdi. Bu qəzet yazısını mən Sizə təqdim eləyəcəyəm, bu yazı 17 aprel 1992-ci ildə "Aydınlıq" qəzetində çıxıbdır. Adı belədir məqalənin, — bilmirəm o vaxt Sizə çatdırıblar, yoxsa, yox, — "Ayaz Mütəllibov yalnız Mkrtıçyana inanır". Həmin hissədən bir parçanı oxuyuram Sizə. "O, Heydər Əliyevə işarə eləyirdi. O kişiyə ki, Dağlıq Qarabağa yola düşəndə bu gün Əsgərandakı birinci mühafizə postundan başlamış qala divarlarına kimi hamı gül-çiçəklə qarşılayırdı. Stepanakert ayaq üstə farağat dayanırdı (Xankəndi nəzərdə tutulur). Bunları gözlərimlə görmüşəm. 19 il Stepanakertdə yaşadığım müddətdə sərkərdənin nə demək olduğunu yaxşı dərk eləmişəm". Sizin sərkərdəlik dövrlərinizə aiddir.

**Heydər Əliyev:** Bunu siz yazmısınız?

**Ələmdar Quluzadə:** Bəli, mən yazmışam. Əgər istəsəniz, mən məmnuniyyətlə sizə təqdim edərdim.

**Heydər Əliyev:** Mən bəlkə də bunu görməmişəm. Sağ olun.

**Ələmdar Quluzadə:** O vaxt eks-prezident, deyəsən, "Nezavisimaya qazeta"ya müsahibə vermişdi və deyirdi ki, mən Mkrtıçyanla danışmışam, xocalıların sağ-salamat çıxması üçün oradan dəhliz veriblər. Belə çıxırdı ki, deməli, artıq Xocalının qırılacağı barədə prezidentin mə'lumatı varmış və dəhliz də verilibdir. Bir daha ona görə yada saldım ki, gördüyünüz kimi, bu, dörd il bundan əvvəlki yazıdır, qəzetdir. Yaxud da ki, soruşurdular, deyək ki, Heydər Əliyev Azərbaycan üçün nə edibdir, azərbaycanlılar üçün nə eləyibdir?

Cənab Prezident, deyək ki, 1992-ci ildə Siz Naxçıvanda idiniz. Özünüz də bilirsiniz ki, haradasa Sizin adınızın üstündə dayanmaq, əsmək, işıq salmaq bizə çətin mövzu idi.

**Heydər Əliyev:** Çox çətin idi. Çünki o illər mənim əleyhimə o qədər qüvvələr işləyirdilər ki, mənim haqqımda sadəcə həqiqəti demək özü bir qədər qəhrəmanlıq idi. Böyük qəhrəmanlıq idi. Bunları bilirəm.

**Ələmdar Quluzadə:** 12 dekabr 1992-ci il, "İki sahil" qəzeti. Məndən müsahibə götürüblər, mən cavab verirəm: "Heydər Əliyevə qədər Qarabağda məktəblər az idi, onun rəhbərliyi illərində vilayətdə bir çox dəyişikliklər baş verdi. Düzünü demək lazımdır, Əliyevə qədər Xankəndində bircə orta məktəb var idi, o da beynəlmiləl". Ramil müəllim buradadır, Allah şahididir, Nizami adına məktəbdir, Ramil müəllim həmin məktəbdə oxuyubdur. O vaxt hər sinifdə cəmi 10—12 nəfər ancaq olurdu. Ancaq sonradan, 1988-ci ilə qədər bizdəki məktəbdə beş paralel sinif olurdu, hərəsində 30 uşaq. Birinci sinfə Stepanakertdə (Xankəndində) 150 uşaq gedirdi. Hələ Kərgicahanı çıxmaq şərti ilə, üç sinif Kərkicahandan gedirdi birinci sinfə, beş sinif 4 nömrəli məktəbdə var idi, 240 nəfər tək birinci sinfə gedirdi.



Ermənilər bundan da çox xoflanırdılar. Yenə də oxuyuram: "Onun hakimiyyətə gəlişindən sonra Azərbaycan dilində orta məktəblər açıldı, siniflərin sayı artırıldı. Xocalıda, Malıbəylidə, Kosalarda, Kərkicahanda ana dilli orta məktəblər qapılarını uşaqların üzünə açdı. Xankəndində azərbaycanlıların sayı qat-qat artdı". Əlbəttə, bunların hamısı gözümüzün qarşısından getməyibdir. Sizin institut açmağınız da, oradakı texnikumların açılması da, bunların hamısı Sizin fəaliyyətinizdir.

Yeri gəlmişkən bir də onu deyim ki, mən bunları haçansa yazmışamsa, elə bilirəm ki, cənab Prezident, xocalıların Sizə olan məhəbbətini yazmışam. Çünki bəlkə də hamının əli qələm tutmur, bəlkə də kənarda olublar, uzaqda olublar. Ancaq biz həmişə Sizi demişik. Bu mə'nada 1 may 1992-ci il, "Vətən səsi" qəzeti, "Yaş məhdudiyyəti, yaxud öz yaşı". 65 yaş tə'yin eləmişdilər və biz bilirdik bu, kimin üçün idi. Ancaq yazmaq lazım idi. Beləcə bir şey yazdım: "Sənətdə dahi, cəmiyyətdə şəxsiyyət həmişə yetişmir. Siyasətçi, diplomat parta arxasında da yetişə bilər. Güclü şəxsiyyət isə təbiətin və zamanın özündən bəhrələnir. Çoxumuz e'tiraf eləyirik ki, xalqımızı bu böhrandan, Vətəni bu təhlükədən qorumaq üçün Heydər Əliyev kimi güclü şəxsiyyət lazımdır və bu yaş həddi ilə də məhz Heydər Əliyev üçün çəpər çəkildiyi hamıya mə'lumdur. Bu səhvi nə qədər tez düzəltsək, o qədər qazanarıq" və sair və ilaxir. İndi mən məqalənin hamısını oxumuram. Əgər imkanınız olsa, oxuyarsınız.

**Heydər Əliyev: Çox sağ olun.**

**Ələmdar Quluzadə:** Söhbətimi çox uzatmaq istəmirəm. Bir xatirə yadıma düşdü, cənab Prezident. 1982-ci il yanvar ayının 14-ü idi, Şuşada Vaqifin məqbərəsinin açılışı idi. Həmin gün güclü qar yağırdı, Siz həmin açılışda iştirak elədiniz. Sonra Poeziya evinin açılışı oldu. Siz Poeziya evinə gəldiniz.

**Heydər Əliyev: Şuşada?**

**Ələmdar Quluzadə:** Bəli, Şuşada. Rayon məscidinin yanında Poeziya evini həmin gün Siz açdınız, daha doğrusu, gəldiniz, iştirak elədiniz. Həmin mərasimi "Günün ekranı"nda göstərdilər, mən bir şe'r dedim. Çünki az-maz şe'rlə də əlaqəm var. Altı kitabım çıxıbdır, şe'rlərim var.

**Heydər Əliyev:** Oraya çoxlu şairlər gəlmişdi, bəli, siz də dediniz.

**Ələmdar Quluzadə: Mən orada bir şe'r dedim. Axırıncı bənd belə idi:**

Bir ovuc torpaq olsam,  
Sinəmin arasında  
bənövşə bitərərdim.  
Eşqimcə gücüm olsa,  
Anam Azərbaycanı  
çiynimə götürərdim.

Təəssüf ki, bizim eşqimiz qədər gücümüz yoxdur. Amma bu saat dərdimiz, qəmimiz elə bil eşqimizi üstələyibdir.

Xocalı haqqında çox dedilər, burada biz həm cinayəti gördük, həm xəyanəti. Cinayəti eləmişdilər ermənilər, xəyanəti elədilər özümüzünkülər. "Genosid" deyə-deyə dünyaya hay-küy salan ermənilər bu gün Azərbaycanın əzəli torpaqlarında yaşayırlar.

Bütün dövrlərdə məkrli müharibəyə başlayan işğalçılar dünya ictimaiyyətinin diqqətindən ustalıqla, kələklə, hiylə və biclikla qidalananlardır. Özü də həmişə qandan qorxa-qorxa əllərini qana batırırlar. Ancaq bir şeyə inanırıq ki, o torpaqlar özümüzə qaytarılacaq, o torpaqları özümüz qaytaracağıq. Sizin sülhpərvər siyasətinizi biz ürəkdən bəyənirik və bayaqkı sözümün təkrarı olmasın, indi Azərbaycanın siyasət sükanını idarə eləyənlər artıq qabaqkı siyasətçilərdən çox-çox fərqlidirlər.

Bir də, cənab Prezident, açıq deməк lazımdır ki, Sizdən çox umurlar. Çünki Sizi nə Kamran Bağırova, nə Əbdürrəhman Vəzirova, nə Ayaz Mütəllibova, nə də ki, Yaqub Məmmədova bənzətmək mümkün deyil, yə'ni bunlardan biz heç nə gözləmirdik.

**Heydər Əliyev:** Niyə bənzətmək? Mən onlardan qabaq 14 il burada işləmişəm. Mənim özümü özümə bənzətmək lazımdır.

**Ələmdar Quluzadə:** Onu deyirəm ki, onlardan ummadığımızı biz Sizdən umuruq. Bu mə'nada deyirəm ki, onlar bunu bacarmazdı. Ancaq biz Sizə inanırıq.

**Heydər Əliyev:** Bacarmadılar.

**Ələmdar Quluzadə:** Bacarmadılar.. İnanırıq ki, Siz bacaracaqsınız və bu qəlbi-sınıq xocalıların da, bütün Qarabağın da gözü-könlü bir gün güləcəkdir. Sonra, bir də Poeziya evinə dönmək istəyirəm. Orada Əli Mahmud çıxış elədi. Mən dedim ki, Vaqifin məqbərəsi açılıbdır, Şuşada Vaqif poeziya bayramı da keçirilməlidir. Siz bunu məmnuniyyətlə qəbul elədiniz və dediniz ki, birinci mənim adımı yazın. Mən Şuşada Vaqif poeziya bayramında iştirak edəcəyəm və Siz dediyiniz kimi də elədiniz.

Ulu ideya isə 1973-cü ildə yaranmışdı. 1973-cü ildə "Şuşa" qəzetində mənim bir balaca şe'rim çıxmışdı, orada belə deyilirdi:

> Bayram istəyirəm, şe'r bayramı,
> Cıdıra söz çıxsın Cıdır düzündə.

Həmin bayram doqquz ildən sonra pərvəriş tapdı və bu gün isə 1996-cı ildir, fevral ayının 24-ü.

Biz Şuşada poeziya bayramına yığışmaq istəyirik. Xocalının o tarixi ilə üz-üzə dayanmaq istəyirik. Xocalıda rəhbərimizin kölgəsində dayanmaq istəyirik və xocalıları orada salamlamaq istəyirik. İstəyərdik ki, görüşümüz orada olsun. Yenə də Sizə təşəkkürümü bildirirəm öz adımdan da, danışmayanların adından da. Vaxtınızı aldığım üçün üzürlü hesab edin. Sağ olun.



**Mingəçevir şəhərində məskunlaşmış Xocalı sakini**
**CAVANŞİR ƏLİYEVİN**
**çıxışı**

Möhtərəm Prezident, mən bu gün özümü ikiqat xoşbəxt hesab eləyirəm ki, Xocalı hadisəsində şəhid gedənlərin əksəriyyəti mənim şagirdlərim olub. Mən onlarla fəxr edirəm. Çox ailələr şəhid olublar. Bu gün mən Elman müəllimin çıxışından məmnun oldum. Ən'ənəvi bir çıxış yazmışam, onu oxumaq fikrim yoxdur. Qəlbim başqa şey deyir.

**Heydər Əliyev:** Qəlbində nə var, onu de. O yazdığın qoy qalsın kənarda.

**Cavanşir Əliyev.** Bə'zi şeyləri demək istəyirəm. Birincisi, mən Mingəçevirdə məskunlaşmışam. 430 nəfər Xocalı sakini orada məskunlaşıb. Mingəçevirdə bizdən başqa 20 min də qaçqın var. Xocalı soyqırımından əvvəl bizim başımıza nə oyunlar gəlib, Elman müəllim dedi. Mən çox sevindim ki, birinci elə Elman çıxış etdi.

Ayaz Mütəllibovun vaxtında Elman müəllim bizi Bakıya göndərdi. Dörd yerdən "Alazan"la Xocalını vurdular. Ruslara pul verdilər, bizi gecə tankla çıxardılar. Dörd ağsaqqal gəldi, onların biri — Yəhya kişi Allah rəhmətinə gedibdir.

Ayaz qəbul eləmədi. Köməkçisi Zərbəliyevin vasitəsilə bircə onu dedi ki, ağsaqqala deyin ki, biz tədbir görürük. Mən dedim, böyük toplar verin, söküb vertolyotla aparaq, orada özbək əsgərlərə, başqasına pul veririk, erməniləri susdururlar, sonra həmin özbək əsgərləri ruslar döyürlər, cəza verirlər. Göndərmədilər, eləmədilər. Zəng vurdum ki, Elman müəllim, qalmışıq dördümüz də burada. Bizi heç kəs qəbul eləmir. Xuraman xanımı tapdıq, nə zülm çəkdik. O dedi ki, Tamerlan Qarayev hər gecə bir evdə qalır, sizdən qorxur, sizinlə görüşməyəcək.

**Heydər Əliyev:** Hər gecə bir evdə qalır?

**Cavanşir Əliyev:** Başqa evlərdə qalır. İndi mən çox sevindim ki, Elman müəllim burada o sözü açdı. Ondan başqa çox şeylər də açılmalıdır. Bizim hörmətli qızımız, bacımız, Əlifin yoldaşı görürsünüz ağlaya-ağlaya dedi ki, nə üçün cinayətkarlar cəzalandırılmırlar? Özünüz bir qədər əvvəl dediniz ki, bir nəfər tutulub, o da başqa iş üstündə. Xocalı faciəsi açılmayıbdır.

Hörmətli nazirimiz, əziz balamız, bu faciə açılmayıbdır. Yoldaş prokuror, açılmayıbdır. O, sizin əlinizdədir, siz açmalısınız. Sizdən çox xahiş edirəm, indi bugünkü iclas sizə çox təkan verəcəkdir, stimul verəcəkdir bunu açmaq üçün. Lazım gəlsə mən özüm də çox şeyləri sizə danışacağam. Çünki 12 fevralda — Elman müəllim qeyd elədi, vaxtınızı almaq istəmirəm, amma əlac yoxdur, gərək deyəm

ki, qoy həkk olsun hafizələrə, — biz Əsgəranda olduq. Mən də Sizin vaxtınızda hakimiyyətə gəldim. Siz çıxanda mən də çıxdım. Stepanakertdə deyirdilər ki, Əliyevin əmisioğludur. Bax, vicdanım haqqı, yoldaşların çoxu bilir, Zori Balayanın "Ocaq" kitabından sonra mənim başıma qiymət kəsdilər. Əvəz Quliyev var idi, Ağdamda DTK-nın nümayəndəsi, sifariş göndərdi ki, Cavanşir müəllimə deyin, avtobusla nə Şuşaya, nə də Ağdama çıxsın. Çünki teleqram vurmuşduq, bizə döyüşçü göndərmişdi.

Bir də biz bütün dünyaya, hətta Lenin mavzoleyinə teleqram vurmuşduq. Biz belə inanırdıq. Teleqram vururduq ki, Xocalı ağır vəziyyətdədir, hər tərəfdən əhatə olunubdur, köməyi də yoxdur. Əsgəranda bizim başımıza bir oyun açdılar ki! Mən artıq demək istəmirəm. Biz gələndə kəndimizdə, Allah rəhmət eləsin, üç yerdə ölü düşmüşdü, vəfat eləyən olmuşdu. 8 illik məktəbin direktoru buradadır. Gəldim, camaat hamısı məni gözləyirdi. Nə cür gəldik, Elman müəllim dedi, vaxt almaq istəmirəm. Dedim, ay camaat, Allah rəhmət eləsin ölülərinizə, amma böyük ölüm düşübdür, ümumi ölüm düşübdür. Bizim bircə düşmənimiz var, o da 366-cı motoatıcı alayıdır. O bizi qıracaq ermənilərin əli ilə. Biz Azərbaycandan kömək gözləməyək, çünki mən orada, Əsgəranda gördüyümü gördüm. İçəridən də mühasirədə olduq, çöldən də. Mənim çörək verdiyim adam, məndən yardım istəyən adam durdu gəldi mənim plaşımı ülgüclə kəsdi. Altı nəfər idik, üç nəfər Kosalardan, Kərəm buradadır, üç nəfər də Xocalıdan idi. Ağladı, dedi ki, Cavanşir müəllim, üsyandır, "bunt"dur, qiyamdır, neyləyək? Dedim, səs eləmə. Qalsaq, qurtardı. Məhəmməd Əsədovla Qarabala problemlər qoydular.

Möhtərəm Prezident, elə şeylər var ki, adam deyə bilmir, 18 sentyabr da bizə hücum elədilər. Hücumdan sonra sentyabrın 20-də anam vəfat elədi. Nə isə, çox şey demək olar.

Birincisi, bu ağır vaxtda sosial inkişafın, iqtisadiyyatın, siyasətin ağır vaxtında bizi qəbul eləyib, vaxt tapıb bizimlə söhbət eləyirsiniz, təskinlik verirsiniz, — Allah Sizə ömür versin. Dedim ki, Xocalı hadisələri zamanı gəldik, qəbul eləmədilər. Elə işlər var ki, deyilməsə olmaz. Biz Mingəçevirdə məskunlaşandan sonra orada vəziyyət elə idi ki, inandırıram Sizi, — hamı qoy eşitsin, yəqin çox adam da bilir, çünki bütün rayonlarda belə idi, — hər gecə qarət, hər gecə adam öldürmək, avtomat səsi, pulemyot səsi, axşamlar çölə çıxmaq mümkün deyildi. Siz hakimiyyətə gələndən sonra vəziyyət dəyişdi. Nəriman adlı bir rəis var idi, getdi, başqası gəldi, Bəkir Bəxtiyarov başçı gəldi, Nizami Qocayev gəldi. İnandırıram Sizi, indi Mingəçevir ən sakit bölgələrdən biridir. 20 min elə Xocalı qaçqını var, onlara qayğı göstərmək asan iş deyil. Bunların hamısı bizə qayğı göstərir, kömək eləyirlər. Öz vəziyyətləri bizdən ağırdır, amma qaçqınlara öz



camaatlarından yaxşı baxırlar. Bütün zavodlar, fabriklər dayanıb. Məcburi mə'zuniyyətə göndəriblər işçiləri. Bəkir Bəxtiyarovun başçılığı ilə, Nizami Qocayevin başçılığı ilə bizə kömək edirlər. Orada hüquq şö'bəsinin müdiri var, Dərgah Mehdiyev. Biz Xocalıdan gələndə heç kəsin sənədi olmayıb, o, sənədləri bərpa eləmək üçün bir-bir hamını qabağına salır, aparıb idarələrə kömək eləyir. Yaxşı dedilər, o meşədən gələn adamın heç bir şeyi olmaz. Şəxsən mən özüm də itmişəm bu ağsaqqal vaxtımda, yoldaşımla meşədə qalmışıq.

Bir məsələni də istəyirəm Siz biləsiniz. Rəhbərliyin ətrafında olan işçilər ya onu sevməlidir, ya ona hörmət etməlidir, ya ondan qorxmalıdırlar. Açıq deyirəm, elə olmasa, işimiz getməz. Dəfələrlə Mingəçevirə gəliblər, öz əsirlərimizi, girovlarımızı axtarmaq üçün müraciət eləmişik. Milli Məclisin keçmiş üzvü, deputat Rauf İsmayılov gəlibdir. İcra hakimiyyətinin keçmiş nümayəndələrinin yanında yoldaşımın, qızımın şəklini, ərizəmi ona verdim. Dedi, Namiq Abbasov mütləq məşğul olar. Sonra Arif Rəhimzadə gəlib, eyni hadisə təkrarlanıb. Sonra Elman müəlimə göndərdim, dedi ki, mən çatdıracağam Namiq Abbasov yoldaşa. Mən ona şəxsən şəkil, ərizə verməmişəm. Amma başqaları vasitəsilə verilibdir. Ne'mət Pənahova şəkilləri Bakıda ailəsinin, bacısının yanında vermişəm. Ondan da cavab çıxmadı.

Bizi ağrıdan taleyi namə'lum olan adamlarımızdır — balalarımızdır, qadınlarımızdır, uşaqlarımızdır, körpələrimizdir. Allahverdi Əsədovla hərdən görüşürük. Deyirəm, ay qardaş, o televiziya ekranını, bu kameranızı hərdən-birdən çevir, şəhidlər haqqında, girovlar haqqında veriliş göstər ki, bu məsələ var. Xahiş eləyirəm, Heydər müəllimə çatdırın bunu. İmkan olmur Sizinlə görüşək. Mən gələndə bizim qaçqınlar yalvardılar, ağlaşdılar. O dedi mən gedirəm, bu dedi mən gəlirəm, az qaldı dava salsınlar ki, biz görüşmək istəyirik. Dedim, Allah qoysa, kişi kömək eləyəcək bizə, qayıdacağıq Xocalıya, Xocalıda qarşılayacağıq Heydər Əliyevi. Onu da qarşılayacağıq, onun ətrafındakı adamları da qarşılayacağıq. O zaman siz biləcəksiniz ki, Azərbaycanın yiyəsi də var, Azərbaycana köməklik eləyən adamlar da var, qeyrətli adamlar da var.

Bura yığılan bütün nümayəndələr adından, bütün xocalılar adından, bütün ziyalılar adından deyirəm ki, biz Sizi dəstəkləyirik, Sizə cansağlığı arzulayırıq. Bax, bu gün mən elə bir haldayam ki, bu saat desəniz, vallah, qanad açıb uçaram. 1992-ci ildə mən hərbi komissarlığa getdim, özüm rusdilli mütəxəssisəm, amma başqa vəzifələrdə çox işləmişəm. Dedim, ay yoldaşlar, belə olmaz, axı orada vuruşma gedir. Mən bir-ikinizi əvəz eləyə bilərəm. Nə üçün burada oturmusan, cavan oğlan? Çıx get də. Çünki bir sənəd var idi, ala bilmirdim. Sonra dedilər ki, Nazirlər Kabineti belə bir qərar verib,

ona bizim ixtiyarımız yoxdur. Rusca dedim ki, "zakonı lyudmi pişutsya, a lyudi moqut oşibatsya" (qanunu adamlar yazır, adamlar isə səhv edə bilərlər). Qriboyedovun "Ağıldan bəla" əsəri var, Çatskinin dilindən deyir bu sözləri. Cənab Prezident, elə qərarlar var ki, köhnəlib. Xahiş eləyirəm, əl gəzdirin və məcbur eləyin ki, qoy o qanunlar həyata keçsin, onlar ona cavab versinlər.

Mən fəxr eləyirəm, yaxşı işləyənləri qiymətləndirdiniz, orden verdiniz, medal verdiniz, mən alqışladım. Hətta yoldaşlara teleqram da vurdum, sevindim, ürəkdən sevindim. Çünki mən onlarla fəxr eləyirəm, onlar gərək Xocalını qaytarsınlar. Yaqub kişi deyir ki, mən əlimdə silah gedəcəyəm. Sən əlində silah gedəcəksənsə, mən də arxada sənə kömək eləyərəm.

Sizə cansağlığı arzulayıram. Oturanların hamısından xahiş eləyirəm, kimin imkanı varsa, Xocalı camaatına kömək eləsin. Bir də ki, Qaçqınlar Komitəsini silkələyin. Camaatın vəziyyəti ağırdır, açıq deyirəm. Sağ olun.

### Nizami Rayon Polis İdarəsinin işçisi, Azərbaycanın Milli Qəhrəmanı Tofiq Hüseynovun qardaşı AKİF HÜSEYNOVUN çıxışı

Cənab Prezident, əvvəlcə icazə verin, saatlarınız, dəqiqələriniz vacib dövlət məsələlərinə həsr olunan bir dövrdə vaxt ayırıb şəhid ailələrini qəbul etdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirim.

İcra hakimiyyətinin başçısı çıxışında o qədər ətraflı, dəqiq danışdı ki, mən vaxtınızı alıb çox danışmaq istəmirəm. Xocalı faciəsi zamanı mənim böyük qardaşım Tofiq Hüseynov batalyon komandiri olubdur. O, faciə baş verməmişdən yüzlərlə dinc sakinin kənddən çıxarılmasına kömək etdi, üç gün mühasirədə qaldıqdan sonra düşmənə təslim olmamaq üçün qumbara partladıb özünü şəhid elədi. Atam, anam, qardaşım, bacım və qardaşımın həyat yoldaşı itkin düşmüş, indiyə qədər onlardan heç bir səs-soraq yoxdur. Bütün bunlara baxmayaraq, — Sizin müdrik siyasətinizin nəticəsində əldə edilmiş atəşkəsə qədər mən Ağdamda döyüş bölgəsində olmuşam, — inanıram ki, Sizin apardığınız sülh danışıqları nəticəsində biz öz torpaqlarımıza qayıda biləcəyik. Mən Sizi əmin edirəm ki, bütün Xocalı camaatı bir nəfər kimi, əldə silah Sizin arxanızda durmuşuq. Bir daha Sizə minnətdarıq. Sağ olun ki, Xocalının ildönümünü bu səviyyədə keçirirsiniz.

**Heydər Əliyev:** Sağ olun. Mən bilirəm, danışmaq istəyən çoxdur, ancaq əlavə yeni bir mə'lumat, yaxud fikir söyləmək istəyən varsa, buyursun. Yoxdursa, bəlkə tamamlayaq. Eldar Həsənov.



### Respublikanın Baş prokuroru ELDAR HƏSƏNOVUN çıxışı

Möhtərəm cənab Prezident, əziz xocalılar! Xocalı faciəsi tarixdə analoqu olmayan qanlı hadisələrdən biridir. Azərbaycan xalqının tarixinə bir faciə kimi yazılmış Xocalı faciəsi tək xarici düşmənlərimizin yox, həm də o vaxt Azərbaycan Respublikasına rəhbərlik edənlərin qatı cinayətidir. Burada qeyd olundu, mən o faktlar üzərində dayanmaq istəmirəm. Mə'lumat üçün bildirim ki, baş vermiş faciə ilə əlaqədar 27 fevral 1992-ci il tarixdə cinayət işi qaldırılıb. Müəyyən müddət istintaqın obyektiv aparılmasına heç bir şərait yaradılmamışdır, əsl həqiqətlərin üzə çıxarılmasına maneçiliklər törədilmişdir. 1994-cü ildə aparılan ciddi istintaq-əməliyyat tədbirləri nəticəsində müəyyən olunmuşdur ki, faciə zamanı 335 nəfər dinc sakin faciənin qurbanı olmuş, 421 nəfər yaralanmış, 530 nəfər girov götürülmüş, 120 nəfər itkin düşmüşdür. 1992-ci ilin qiymətləri ilə dövlətə dəyən ziyan 4,2 milyard rubl, vətəndaşlara vurulan maddi ziyan isə 300 milyon rubldan ibarət olmuşdur.

Müəyyən olunmuşdur ki, bundan əvvəl bu məsələyə kifayət qədər təhlil verilib. Hadisənin dörd səbəbi olmuşdur. O səbəblərdən biri erməni silahlı birləşmələridir. İstintaqla müəyyən olunub ki, Xocalı qırğınında yüzdən artıq erməni silahlı birləşməsi iştirak edib, onlardan 60 nəfərin şəxsiyyəti müəyyənləşdirilib, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi orqanlarına verilməklə, eyni zamanda beynəlxalq təşkilatlara təqdim olunmuşdur. Digər tərəfdən, müəyyən edilib ki, 366-cı alayın komandiri Zarviqarov, ikinci batalyonun komandiri mayor Ohanyan və doqquzuncu batalyonun komandiri Novosixinin rəhbərliyi ilə mühasirə və hücum əməliyyatı çoxsaylı ağır tank, piyada döyüş maşınları və sair texnikadan, atıcı silahlardan istifadə olunmaqla həyata keçirilmişdir.

Ayaz Mütəllibovun Ali Baş Komandan kimi o vaxt qüvvədə olan konstitusiyanın 121-4-cü maddəsinə müvafiq olaraq Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün qorunması məqsədi ilə heç bir tədbir görmədiyi tam sübuta yetirilmişdir. Belə ki, o, Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında qanunun 6-cı maddəsinə müvafiq olaraq, respublika ərazisində yerləşən bütün Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi respublikanı silahlı təcavüzdən qorumaq sahəsində tədbirlər görməli olduğu halda vəzifəsinə cinayətkarcasına e'tinasızlıq göstərərək ümumi vəzifələrini yerinə yetirməmişdir. Eyni zamanda Xocalı əhalisinin qırğın təhlükəsi altında olduğunu bilə-bilə Xocalı şəhərinin müdafiəsinin təşkili, əhalinin mühasirədən çıxarılması və köçürülməsi sahəsində heç bir iş görməmişdir.

Mən cinayət işinin materiallarından bir neçə sənədi diqqətinizə çatdırmaq istəyirəm. Fevral ayının 20-də, Xocalı faciəsi ərəfəsində Xocalının icra hakimiyyətinin başçısı Elman Məmmədovdan və Xocalı rayon prokuroru Atakişiyevdən dalbadal gəlmiş teleqramlardan birini oxuyuram: "Azərbaycan Respublikasının prezidenti Mütəllibova. Xocalı artıq əldən gedir. Bütün mübahisələr Xocalının üstündədir. Xocalı gedərsə, Dağlıq Qarabağ Muxtar Vilayəti ermənilərindir. Biz Xocalını saxlasaq, Dağlıq Qarabağ Muxtar Vilayəti bizimdir. Əgər siz bizə bu gün kömək etməsəniz, artıq dördillik zəhmət hədər gedəcək. Biz sizdən tə'xirəsalınmaz kömək göstərməyi tələb edirik. Xocalı Azərbaycanın taleyini həll edir". Daxil olan bu teleqrama, hətta iki dəfə daxil olan teleqrama prezidentin dərkənarı belə qoyulmayıbdır. Yüzdən artıq teleqram və telefonoqramın Ayaz Mütəllibova şəxsən təqdim olunması istintaqla sübut olunub.

Dağlıq Qarabağda və onun ətrafında gedən hadisələrlə bağlı Təhlükəsizlik Şurasının o zaman keçirilən müşavirəsinin protokolundan ikinci bir çıxarışı istərdim nəzərinizə çatdıram. Fevralın 20-də, 21-də Şuşa, Xocalı şəhərinin, başqa yaşayış məntəqələrinin təhlükəsizliyini tə'min etmək üçün zəruri tədbirlər görmək məqsədi ilə müşavirə keçirilir. İki gün keçirilən müşavirədə 10 bənddən ibarət qərar qəbul olunur. Qarabağın ətrafında baş verən hadisələrlə bağlı Təhlükəsizlik Şurasının qərarına Xocalının təhlükəsizliyi, əhalinin çıxarılması və digər tədbirlərin görülməsi salınmırsa, hansı Təhlükəsizlik Şurasından, hansı Ali Baş Komandan, hansı ölkə prezidentindən danışmaq olar? Yə'ni istintaq bu və digər çoxsaylı sənədlərlə sübut edir ki, Ayaz Mütəllibov kifayət qədər mə'lumatlı olduğuna baxmayaraq, öz laqeydliyi ilə bu cür ağır nəticələrə, Xocalı faciəsinə gətirib çıxarmışdır.

Xocalı şəhərindən dinc əhalinin çıxarılması üçün iki gizli quru — bu yollar çoxdur, bayaq da dedilər, burada Xocalı camaatı daha yaxşı bilir, amma mən mövcud hərbi planla mə'ruzə edirəm, — eləcə də Müdafiə Nazirliyinin sərəncamındakı 8 ədəd hərbi vertolyotun müşayiəti ilə əhalinin hava yolu vasitəsilə çıxarılması mümkün olduğu halda, 1991-ci ilin noyabr ayından mühasirədə olan əhalinin vaxtında köçürülməsi, çıxarılması tə'min edilməmişdir.

Xocalı soyqırımı ilə bağlı başlanmış cinayət işi ilə əlaqədar burada haqlı olaraq bir neçə fikir söylənildi. Törədilən cinayətin cəzası və məs'uliyyəti məsələsi. Bu məsələdə istəyirəm əsl həqiqətləri biləsiniz. Bəli, 94-cü ildə cinayət işinin istintaqı ilə bağlı Ayaz Mütəllibovun, müdafiə nazirinin sabiq müavini, o vaxt müdafiə nazirini əvəz edən Baş Qərargah rəisinin birinci müavini Şahin Musayevin, müdafiə nazirinin səlahiyyətli nümayəndəsi, Azərbaycan Xalq Cəbhəsinin liderlərindən biri Fəhmin Hacıyevin, sabiq daxili işlər naziri Tofiq



Kərimovun, daxili işlər nazirinin Qarabağ üzrə məs'ul əməkdaşlarının və digərlərinin barəsində cinayət məs'uliyyətinə cəlbetmə qərarlarının çıxarılması ilə bərabər, qeyd etməliyəm ki, hazırda Ayaz Mütəllibov və Şahin Musayev respublikadan kənarda qaçıb gizlənirlər. Digər bir böyük qrupun cinayət məs'uliyyətinə cəlb olunması ilə bağlı 1992-ci ildə keçmiş hakimiyyət tərəfindən 15 iyul 1992-ci ildə qəbul edilmiş amnistiya ilə bir qrup adam amnistiya almışdır. Bu, həqiqətdir, bu bilinməlidir.

**Heydər Əliyev:** Demək, Xocalı faciəsinin günahkarları dərhal amnistiya alıblar. Dəhşətli bir şeydir.

**Eldar Həsənov:** Mən qeyd etməliyəm, bunun kökləri var, cənab Prezident. İstintaqla tam müəyyən olunmuşdur ki, Xocalı soyqırımı ərəfəsində, yə'ni 15 fevral 1992-ci il tarixdə müdafiə naziri əvəzi Şahin Musayev öz əmri ilə Azərbaycan Xalq Cəbhəsinin liderlərindən biri, hərbi sahədə heç bir təhsili və səriştəsi olmayan Fəhmin Hacıyevi Qarabağ üzrə səlahiyyətli nümayəndə tə'yin edir. Öz növbəsində Fəhmin Hacıyev ona verilən bu səlahiyyətlərdən Xocalının müdafiəsini təşkil etmək məqsədi ilə deyil, mövcud hakimiyyəti devirib Azərbaycan Xalq Cəbhəsini hakimiyyətə gətirmək məqsədi ilə sui-istifadə edir. Belə ki, Fəhmin Hacıyev özü ilə gətirdiyi döyüşçülərin köməyi ilə Qarabağ üzrə silahlı qüvvələr komandanının qərargahını iş otağına çevirir, özünü Qarabağda yerləşən silahlı qüvvələrin komandanı və respublika prezidentinin səlahiyyətli nümayəndəsi e'lan edir. Bu, uzun müddət çəkir. Yaxşı, haradadır ölkə prezidenti ki, onun adından səlahiyyətli nümayəndə e'lan edilib və faktiki olaraq orada olan bütün silahlı qüvvələrə rəhbərlik edir? Bütün silahlı qüvvələri özünə tabe etməkdə məqsəd hakimiyyət uğrunda aparılan mübarizədir. Əsas odur ki, Xocalı əhalisinin mühasirədən çıxarılması barədə hazırlanmış əməliyyat planının icrasını qadağan edir. Xocalının mühasirədən çıxarılması üçün tərtib olunmuş planın həyata keçirilməsi məqamında Fəhmin Hacıyev 6 dəfə bu planı qadağan etməklə hər vəchlə onu pozmağa çalışır və bildirir ki, özləri müəyyən plan hazırlayırlar, bu yaxınlarda o planı həyata keçirəcəklər.

Mənim qeyd etdiklərim istintaqla tam sübuta yetmiş hallardır. Göründüyü kimi, Xocalı soyqırımı həm də siyasi oyunların nəticəsi olmuşdur. Əgər bir tərəfdən, burada qeyd olundu, Ayaz Mütəllibov öz xalqına düşmən mövqedə duran, torpağına, ərazi bütövlüyünə bu dərəcədə qansızlıqla yanaşan bir adam idisə, digər tərəfdən hakimiyyət uğrunda mübarizə aparan şəxslər silahlı qüvvələrə, onun komandanlığına hiyləgər üsullarla öz adamlarını yerləşdirib bu qüvvələri ələ almaqla, torpaqlarımızı itirməklə, insanlarımızın qanı tökülməklə hakimiyyətə gəlməyə çalışırdılar. Görünür, elə bu səbəblərdəndir ki, cinayət işi başlanandan sonra 16 ay ərzində

hərtərəfli və tam obyektiv istintaq aparılmamışdır, hadisənin törədilmə səbəblərini araşdırmaq, həqiqəti müəyyənləşdirmək üçün şərait yaradılmamışdır. Məhz bunun nəticəsidir ki, 92-ci ildə amnistiya tətbiq olunmuşdur.

Burada Xocalı faciəsi ilə əlaqədar yaradılmış deputat istintaq komissiyasının ilkin rə'yinə də toxunuldu, obyektiv fikirlər söyləndi. Mən yeganə onu deyə bilərəm ki, əgər deputat istintaq komissiyasının ilkin rə'yinə xalqın gözü qarşısında Mütəllibovun hakimiyyətə qaytarılması naminə saxta don geyindirilirdisə, sözsüz ki, torpaqlarımız belə bir vəziyyətdə itirilə bilərdi, cəzasızlıq tüğyan etməli idi və burada qeyd olunduğu kimi, xalqın da dövlətə inamı itməli idi.

Lakin mən Xocalı camaatının diqqətini bir şeyə cəlb etmək istəyirəm ki, deputat istintaq komissiyasının o zamankı məs'ul katibi Əli Ömərov bu dövrdə ən prinsipial mövqedə olub və o, çox cəsarətli, kəsərli danışıb, hətta Ayaz Mütəllibovun hakimiyyəti dövründə əsl həqiqətin üzə çıxmasının tərəfdarı olub. Cənab Prezident, bu, tarixi həqiqətdir. Bu gün xalqımız üçün cinayətkarların hər birinin layiqli cəzalarına çatdırılmaması nə qədər ağrılı, acılı olsa da, tam əminliklə bildirirəm ki, əgər biz bu gün Adil Hacıyev kimilərini və onunla bərabər xalqına qarşı ağır cinayətlər törətmiş, xarici dövlətlərdə gizlənmiş 20-dən artıq şəxsi yaxalayıb Azərbaycana gətiririksə, onlar Azərbaycan qanunları qarşısında cavab verirlərsə, onda mən qətiyyətlə deyə bilərəm ki, Şahin Musayevlər, Ayaz Mütəllibovlar, Rəhim Qazıyev kimiləri də öz xalqının qarşısında törətdiyi cinayətlərə görə qisasdan, qanunlardan yaxa qurtara bilməyəcəklər.

Cənab Prezident, mən bu gün burada deyilənləri qeyd etmişəm. Açıq e'tiraf eləyim ki, istintaq materiallarına daxil olmayan bə'zi məqamlar da burada səsləndi. Burada icra hakimiyyətinin başçısı çox ətraflı danışdı — mən deyim ki, Xocalı faciəsi ilə bağlı ən obyektiv ifadəni də verən icra hakimiyyətinin başçısı olubdur, — ancaq burada digər yeni sözlər, yeni fikirlər, faktlar söylənildi, sözsüz ki, mən istintaqın gedişində onları da nəzərə alacam. Əlbəttə ki, əvvəl qəbul olunmuş qərarlar, burada çəkilən adlar, — burada bir neçə fikir söylənildi, konkret faktlar söylənildi, — bu işlər, bu faktlar üzrə ətraflı istintaq aparılacaq və camaata mütəmadi olaraq mə'lumat veriləcək. Sağ olun.

## Respublikanın Daxili İşlər naziri RAMİL USUBOVUN çıxışı

Möhtərəm Prezident, hörmətli həmyerlilərim! Əvvəla, cənab Prezident, mən Sizə bütün həmyerlilərim adından öz minnətdarlığımı bildirirəm ki, Siz çox gərgin fəaliyyətinizə baxmayaraq vaxt tapmısınız,



Xocalı soyqırımına, Xocalı faciəsinə həsr olunan bugünkü görüşə gəlmisiniz.

Cənab Prezident, mən Sizin vaxtınızı çox almaq istəməzdim. Ona görə ki, məndən əvvəl çıxış eləyən həmyerlilərim Xocalı faciəsi haqqında çox geniş mə'lumat verdilər. Mən yalnız onu qeyd etmək istəyirəm ki, cənab Prezident, Sizin Azərbaycana 14 illik rəhbərliyinizdən əvvəl Dağlıq Qarabağda azərbaycanlılar hüquqsuz vətəndaşlar kimi yaşayırdılar. Bunun mən canlı şahidiyəm. Bayaq burada Mübariz müəllim qeyd elədi, 60-cı illərdə Stepanakertdə Azərbaycan dilində danışmaq mümkün deyildi. Biz orada orta məktəbdə oxuyarkən öz dilimizdə danışmağa qorxurduq. Yalnız 1969-cu ildə Siz Azərbaycana rəhbər tə'yin olunandan sonra Dağlıq Qarabağda azərbaycanlılar öz dilində danışa bildilər, məktəblərdə ana dilimiz tətbiq olundu və bu, tarixi həqiqətdir ki, 14 ildə Dağlıq Qarabağ azərbaycanlılarının sayı 12 faiz çoxaldı. Eyni zamanda, cənab prezident, Stepanakert şəhərində azərbaycanlıların sayı 5 dəfədən artıq çoxaldı. O vaxt Sizin təşəbbüsünüzlə orada açılan Stepanakert Pedaqoji İnstitutunda eyni zamanda Azərbaycan bölməsi var idi. Azərbaycan ziyalıları ora gəldi, bu müəllimlərin hesabına, oradakı tələbələrin hesabına Stepanakertdə azərbaycanlı əhalinin sayı çoxaldı, Eyni zamanda, Sizin apardığınız siyasət sayəsində Dağlıq Qarabağda bir çox hüquq-mühafizə orqanlarının aparatlarında, digər rəhbər təşkilatlarda azərbaycanlılar yaxşı təmsil olunurdular.

Lakin təəssüflə qeyd eləmək lazımdır ki, sonrakı illərdə Azərbaycanın həm daxilində olan düşmənləri, eyni zamanda bədxah qonşularımızın geniş fəaliyyəti nəticəsində Siz siyasi səhnədən uzaqlaşdırıldınız və bundan sonra Dağlıq Qarabağ azərbaycanlılarının faciəli günləri başlandı.

Burada bir məsələyə diqqət yetirmək lazımdır ki, Əbdürrəhman Vəzirov Azərbaycana başçılıq eləyəndə mən Naxçıvanda daxili işlər naziri işləyirdim. Ermənistandan azərbaycanlılar qovulurdu, artıq Naxçıvana 17 min azərbaycanlı gəlmişdi. Biz onları Dağlıq Qarabağda məskunlaşdırmaq üçün tədbirlər görürdük. O zaman Əbdürrəhman Vəzirov rayon partiya komitələrinə göstəriş verdi ki, Dağlıq Qarabağda Ermənistandan olan bir nəfər də qaçqın yerləşdirilməsin. İki-üç günün ərzində 200-dən çox ailə — Ermənistandan qaçqın düşən azərbaycanlılar Azərbaycanın digər rayonlarına köçürüldülər.

Eyni zamanda sonrakı dövrlərdə, Ayaz Mütəllibovun dövründə bu davam etdi. Bu qanlı cinayət məhz Ayaz Mütəllibovun dövründə oldu və bayaq burada qeyd olunduğu kimi, ermənilərin bu cinayətləri adamda o qədər də təəccüb doğurmur. Təbii ki, onlar bu ruhda tərbiyə alıblar, odur ki, bu cinayəti də törədəndə təəccüblənmədik. Amma təəccüblü o idi ki, — və böyük təəssüf hissi ilə qeyd etmək

istəyirəm ki, — məhz Azərbaycanın rəhbərləri öz millətinə xəyanət elədilər. Onlar dini bir olan, dili bir olan xalqına xəyanət elədilər.

Məhz Ayaz Mütəllibovun dövründə xocalılar düşmənlə təkbətək qaldılar. Burada Elman müəllim çıxışında ətraflı dedi ki, o zaman hansı proseslər gedirdi. Xocalının harayına səs vermədilər və burada bir məsələni qeyd eləmək lazımdır ki, əvvələn hakimiyyətdə olan Ayaz Mütəllibov, ikinci də müxalifət qüvvələr, Azərbaycan Xalq Cəbhəsi. Ən böyük cinayət eləyənlərdən, Xocalı faciəsində günahkar olanlardan biri də Azərbaycan Xalq Cəbhəsinin liderlərindəndir. Fəhmin Hacıyev kim idi? Fəhmin Hacıyevin özü də Xalq Cəbhəsinin liderlərindən, vuran əllərindən biri idi. Burada Azərbaycan Xalq Cəbhəsinin o vaxtkı lideri Əbülfəz Elçibəyin cinayətləri də qeyd olunmalıdır.

Mənim hörmətli həmyerlilərim çox düzgün irad tuturlar ki, Xocalı qırğınını, Xocalı faciəsini törədən adamlar hələ məhkəmə qarşısında cavab verməyiblər. Mən özümü də, hörmətli Prezident, həm Sizin qarşınızda, həm də burada həmyerlilərim qarşısında, Azərbaycan xalqının qarşısında günahkar bilirəm ki, bu adamların bir hissəsi hələ tapılmayıbdır, tutulmayıbdır. Doğrudur, o vaxt müdafiə nazirini əvəz eləyən Şahin Musayevi biz Kiyev şəhərində yaxaladıq, lakin mə'lum səbəblər üzündən onu bizə vermədilər. Bununla belə mən, hörmətli Prezidentimiz, bugünkü müraciətdən özüm üçün nəticə çıxaracağam və həmin cinayəti törədən adamların harada olub, harada gizlənməsindən asılı olmayaraq, onların tapılıb məhkəmə qarşısında cavab verməsi üçün əməli tədbir görəcəyəm.

Xocalı camaatı adından Sizə bir daha dərin minnətdarlığımı bildirirəm və söz verirəm ki, daxili işlər naziri kimi mənə böyük e'timad göstərmisiniz. Siz eyni zamanda xocalılara böyük e'timad göstərmisiniz. Mən bu e'timadı doğruldacağam.



## Azərbaycan Respublikası Prezidenti
## HEYDƏR ƏLİYEVİN
## yekun nitqi

Bugünkü görüşümüz və uzun sürən söhbətimiz çox əhəmiyyətlidir, çox mə'nalıdır. Eyni zamanda böyük hissiyyatlar doğurur, birinci növbədə kədər hissi doğurur.

Xalqımız çoxəsrlik tarixində qəhrəmanlıq nümunələri, cəsurluq nümunələri göstəribdir, öz azadlığı uğrunda, səadəti, xoşbəxtliyi uğrunda mübarizə aparıbdır. Ancaq zaman-zaman, tarixin cürbəcür mərhələlərində məğlubiyyətlərə də uğrayıbdır, bəlalara da düşübdür, faciəli dövrlər də keçiribdir.

XX əsri götürsək, əsrin əvvəlindən sonuna qədər erməni millətçiləri, erməni quldurları, cinayətkarları tərəfindən Azərbaycan xalqına qarşı edilən cinayətlər misilsizdir. Hücumlar olub, təcavüzlər olub, qırğınlar olubdur — əsrin əvvəlində də, 1918 — 20-ci illərdə də. Sonra, 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü, azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılması və bizim itkilərimiz, soydaşlarımızın həlak edilməsi, Qarabağ ətrafında müharibənin başlandığı zamandan indiyə qədər bizim verdiyimiz qurbanlar, şəhidlər hamısı ermənilərin, Ermənistanın Azərbaycana qarşı düşmən mövqeyinin davam etdiyini sübut edir, göstərir. Bunların nəticəsində, bir tərəfdən də keçmiş illərdə buraxılan böyük səhvlər, cinayətlər, xəyanətlər nəticəsində ərazimizin təxminən 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur və ümumən bir milyondan artıq soydaşımız, vətəndaşımız yerindən, yurdundan olub, qaçqın vəziyyətində yaşayır.

Bütün bu ağır, çətin proseslərin içərisində Xocalı faciəsi xüsusi yer tutur. Xocalı soyqırımı Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımıdır. Bu, bizim tariximizdə belə də həkk olmalıdır. Bu soyqırımının nə qədər vəhşiliklə

edildiyini və nə qədər insaniyyətdənkənar bir hadisə olduğunu biz gərək daim xalqımıza anladaq, bütün xalqlara anladaq, dünya ictimaiyyətinə anladaq. Bu faciəni heç vaxt unutmaq olmaz. Və zaman keçdikcə, əksinə, bu faciəni biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik, hamı bilsin ki, xalqımızın başına nə kimi facia gəlibdir və eyni zamanda xalqımız öz azadlığı, öz Vətəni, öz torpağı uğrunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir. Burada qeyd edildi, — nə qədər körpələr, qadınlar, qocalar, köməksiz adamlar, günahsız adamlar həmin o gün, o gecə vəhşicəsinə öldürülüblər. Amma eyni zamanda o gün, o gecə bizim nə qədər cəsur, qəhrəman övladlarımız o böyük qüvvəyə — dişinə qədər silahlanmış erməni silahlı dəstələrinə və keçmiş Sovet İttifaqının çox böyük silaha və təcrübəyə malik olan böyük bir alayına, onun hücumlarına sinə gərə bilmişlər, vuruşmuşlar, döyüşmüşlər. Döyüşə-döyüşə həlak olmuşlar, qəhrəmanlıq nümunələri göstərmişlər və Milli Qəhrəman adı almağa layiq görülmüşlər.

Ona görə də bu hadisənin iki tərəfi də bu gün bizim üçün əhəmiyyətlidir və iki tərəfi də təbliğ olunmalıdır, iki tərəfi də geniş kütlələrə çatdırılmalıdır. Biz bundan sonra bunu etməliyik, bu bizim vəzifəmizdir.

Bugünkü müzakirədən, bugünkü görüşdən, söhbətdən mənim çıxardığım bir nəticə də ondan ibarətdir ki, erməni işğalçılarının, vəhşilərinin törətdiyi Xocalı soyqırımını, 366-cı alayın, Sovetlər Ordusu alayının Azərbaycan xalqına qarşı etdiyi soyqırımını biz gərək dünya ictimaiyyətinə daha da kəskin, daha da geniş çatdıraq.

Mən tövsiyə edərdim ki, xocalıların adından, bəlkə də Azərbaycan ziyalılarının adından, ayrı-ayrı təşkilatların adından dünya ictimaiyyətinə Xocalı soyqırımının 4-cü ildönümü ilə əlaqədar müraciətlər göndərilsin. Birləşmiş Millətlər Təşkilatına göndərilsin, dünyada insan hüquqlarını qoruma komitəsi var, oraya göndərilsin, başqa beynəlxalq təşkilatlara göndərilsin. Bu, lazımdır.

Bilirsiniz, tək onunla kifayətlənmək olmaz ki, Xocalı soyqırımı haqqında bir kitab da yazıldı, bir film də çəkildi. O vaxtlar, təzə-təzə, hələ o yaralar soyumamış bu barədə mə'lumat çatdırıldı. Yox, daim etmək lazımdır. Daim! Hər il, hər gün! Beş il də bundan sonra, on il də bundan sonra! Bunu unutmaq olmaz! Bunu unutmaq olmaz! Bu, gərək dünya ictimaiyyətinə çatdırılsın və bildirilsin, hər yerdə bilinsin ki, erməni işğalçıları nə qədər qəddar, nə qədər vəhşidirlər və Azərbaycan xalqına qarşı dünya, bəşər qanunlarına zidd olaraq nə qədər böyük vəhşilik, cinayətlər ediblər.

Biz bunu mütləq etməliyik. Mən indi bu barədə ümumi fikrimi deyirəm, ancan güman edirəm ki, bizim müvafiq işçilərimizlə birlikdə oturarsınız, bu barədə düşünərsiniz və burada yeni güclü bir hərəkət



etmək lazımdır, kampaniya aparmaq lazımdır. Ancaq bu, tək kampaniya şəkli almamalıdır, mütəmadi olmalıdır, davamlı olmalıdır, ardıcıl olmalıdır. Biz dünyaya gərək sübut edək ki, Azərbaycan xalqına qarşı, dinc, günahsız, heç bir köməyi olmayan xocalılara qarşı nə qədər vəhşiliklər olubdur. Bunu etmək mütləq lazımdır.

Burada xocalılardan indiyə qədər itkin düşmüş və tapılmamış adamlar haqqında danışıldı. Mən bir də göstəriş verirəm bizim aparatın işçilərinə, milli təhlükəsizlik naziri Namiq Abbasova ki, bu işlərlə məşğul olsun və bütün müvafiq təşkilatlarla məsləhətləşsin. Yəqin ki, bu barədə, Ramiz Mehdiyev, siz yığışmalısınız, bir müzakirə keçirməlisiniz və müəyyən etməlisiniz ki, hansı kanallarla, hansı yollarla nə etmək lazımdır ki, o itkin düşmüş, yaxud əsirlikdə qalan, aqibəti indiyə qədər mə'lum olmayan xocalıları arayıb tapaq. Ola bilər ki, onların bə'ziləri indi sağ deyillər, bunu da yəqin, bir həqiqət kimi qəbul etmək lazımdır, ancaq yəqin ki, sağ olanlar da var. İndiyə qədər yaşayanlar da var, — onlar tapılmalıdır. Hansılar ki, sağ deyil, hansıları ki, öldürüblər, yaxud hansılar ki, həlak olublar, — onların da haqqında hər halda bir şey dəqiq müəyyən olunmalıdır. Bu işlə də ciddi məşğul olmaq lazımdır.

Xocalılara bundan sonra daha çox qayğı göstərilməlidir. Burada çıxış edənlərin hamısı bizim dövlət orqanlarından çox razı olduqlarını bildirdi. Mən bundan məmnunam. Ancaq eyni zamanda güman edirəm ki, bu çıxışlarda deyilən sözlərdə müəyyən qədər həqiqət var. Ümumiyyətlə, Azərbaycan xalqına xas olan bir keyfiyyət var — biz çox şükürlü millətik, bizə bir balaca da kömək edəndə onu böyük bir kömək kimi qəbul edirik. Bu, ümumiyyətlə, bizim Azərbaycan xalqının milli xüsusiyyətidir. Xüsusən indi sizin kimi adamlar — evindən-eşiyindən, yerindən-yurdundan olmuş, varını-yoxunu, qohum-əqrəbasını itirmiş adamlar xırda bir qayğıya da minnətdardırlar. Ancaq mən hesab edirəm ki, daha çox qayğı göstərilməlidir. Şübhəsiz ki, bütün qaçqınlara bütün şəhid ailələrinə, müharibə şikəst olmuş bütün adamlara, müharibə əlillərinə, hamıya qayğı göstərilməlidir. Ancaq xocalıların başına gələn bəla heç kəsin başına gəlməyibdir. Bu xüsusiyyət də nəzərə alınmalıdır.

İndi burada çıxış edənlər də dedilər, çıxış etməyənlərin də arasında eləsi var ki, — bilirəm, mənə bu gün mə'lumat veriblər, — ailəsindən beş-altı adam itiribdir, gözünün qabağında itiribdir. Bilirsiniz, itki itkidir, hər birimiz zaman keçdikcə itkiyə müəyyən qədər öyrənirik. Amma bir var, sən görürsən ki, gözünün qabağında ən istəkli adamın — atan, qardaşın, ya oğlun, ya bacın həlak oldu və sən ona bir yardım edə bilmədin, vəfat etdi. Bu, adamın qəlbində daha çox iz buraxır, adamın qəlbini daim sıxır.

Ona görə bu psixoloji cəhətləri də nəzərə almaq lazımdır və xocalıların başına bu bəlaların həddindən artıq vəhşicəsinə hərəkətlər

nəticəsində gəldiyini, bunların vəhşilik şəraitində törədildiyini nəzərə alaraq bu gün xocalılara bütün sahələrdə: həm maddi yardım, həm tibbi yardım, həm də sadəcə insani münasibət göstərilməlidir. Mən bunu bizim bütün dövlət hakimiyyət orqanlarına, ictimai təşkilatlara tapşırıram, tövsiyə edirəm və güman edirəm ki, bundan sonra da bu, olacaqdır.

Bunlarla yanaşı, bizim bugünkü görüşümüzdən mən belə bir nəticəyə gəlirəm ki, əgər Xocalı faciəsi bir tərəfdən erməni işğalçılarının vəhşiliyinin nəticəsi olubsa, ikinci tərəfdən də bizim dövləət orqanlarının, o vaxt respublikaya rəhbərlik edən səlahiyyətli şəxslərin cinayətkarlığı, etdiyi cinayətlər nəticəsində və hətta deyə bilərəm, xəyanətləri nəticəsində olubdur. Ona görə də biz bu soyqırımını pisləmək, ermənilərin bu vəhşiliyini dünyada göstərmək, yaymaq, onları bir vəhşi kimi ifşa etməklə yanaşı, eyni zamanda özümüzün özümüzə etdiyimiz cinayəti, xəyanəti də aşkar etməliyik. Bu cinayətlər də, bu xəyanətlər də göz qabağındadır.

Bu gün burada danışanların hamısı, xüsusən Xocalının icra hakimiyyəti başçısı çox ətraflı mə'lumat verdi. Bunlar bu cinayətləri, bizim öz tərəfimizdən, yə'ni Azərbaycanın ayrı-ayrı dövlət nümayəndələri tərəfindən, xüsusən də dövlət başçısı tərəfindən olan cinayətləri və xəyanətkarlığı bir daha sözsüz sübut edir. Ancaq bu dörd il müddətində mən hesab edirəm ki, bir günah da, bir böyük qüsur da var. O da ondan ibarətdir ki, bu xəyanətin, bu cinayətin üstünü örtüb-basdırmağa çalışıblar. Mən belə bir qənaətə gəlirəm ki, buna bir çox tərəflərin marağı olubdur.

Burada deyildi və mən bu fikirlərlə razıyam ki, məsələn, bu Xocalı faciəsi təkcə o vaxt hakimiyyətdə olanların cinayəti və xəyanətkarlığı nəticəsində deyil, eyni zamanda o vaxt hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin öz xalqına etdiyi xəyanətin və cinayətin nəticəsində olubdur. Ona görə də bu məsələnin, bu cinayətin, bu xəyanətkarlığın tamamilə açılmasında, aşkar olmasında nə o tərəfin, nə bu tərəfin marağı olmayıbdır. Bunu artıq tam qətiyyətlə demək olar.

Mənim xatirimdədir, o vaxt Naxçıvanda yaşayırdım. Xocalının icra hakimiyyəti başçısı Məmmədov mənim yadıma saldı ki, o, doğrudan da Naxçıvana gəlmişdi. Sentyabrın axırında siz ora gəlmişdiniz də?

**Elman Məmmədov:** Sentyabrın 30-da.

**Heydər Əliyev:** Sentyabrın 30-da, hə, mən bir aydan da az idi ki, xalqın tələbi ilə Naxçıvanda Ali Məclisin sədri vəzifəsini öz üzərimə götürmüşdüm. Çox ağır, qarışıq bir vəziyyət idi. Bilirsiniz ki, o vaxt Sovet hakimiyyəti dağılmışdı, demək olar ki, dağılmaq üzrə idi. Burada hələ dağılmamışdı, amma Naxçıvanda dağılmışdı, xalq Kommunist Partiyasının Vilayət Komitəsini dağıtmışdı, bağlamışdı və mən sentyabrın əvvəlində — ayın 1-i, ya 2-si idi, — Naxçıvana gələndə, artıq Naxçıvan qaynayırdı və xalq meydanlarda



hakimiyyətə qarşı öz nifrətini bildirirdi, Naxçıvan ağır vəziyyətdə olduğuna görə qanun-qayda yaradılmasını tələb edirdi. O tələblərin nəticəsində də mən sentyabrın birinci günlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsini öz üzərimə götürməli oldum. O vaxt biz çox gərgin işləyirdik və özümüzün də Naxçıvanda çoxlu problemlərimiz var idi. Ancaq eyni zamanda, o zaman Qarabağın vəziyyəti də məni narahat edirdi. Xatirinizdədir, o vaxt, 1991-ci ilin fevral ayının əvvəllərində Azərbaycan Respublikası Ali Sovetinin ilk sessiyası başlandı. Mən də Naxçıvandan Ali Sovetə deputat seçilmişdim. Həmin sessiyada mən çıxış etdim və dedim ki, Qarabağ əlimizdən gedibdir. Gəlin yığışaq, danışaq, oturaq məsləhətləşək, — nə etmək lazımdır ki, Qarabağı əlimizdə saxlayaq və əldən getmiş Qarabağı qaytaraq. O vaxt mənim əleyhimə cürbəcür böhtançı çıxışlar başlandı, — bunlar xatirinizdədir? — mənim sözümü kəsdilər, yerdən cürbəcür ədəbsiz hərəkətlər etdilər, hətta belə nitqlər də oldu ki, "Siz burada yalan danışırsınız, Azərbaycan rəhbərliyinin əleyhinə iş aparırsınız, siz düz demirsiniz. Azərbaycan rəhbərini yıxmaq istəyirsiniz, Qarabağ heç vaxt indiki kimi bizim olmayıbdır".

Bu sözlər xatirinizdədir? Bu, 1991-ci ilin əvvəli idi. Sonra mən çıxdım getdim. 1991-ci ilin həmin sentyabrında Naxçıvanda olarkən mən yenə də Qarabağ haqqında düşünürdüm. Qarabağ məni narahat edirdi. O vaxt Qarabağdan ara-sıra adamlar gəlirdilər mənim yanıma, bə'zən görürdün, namə'lum adamlar mənə Şuşadan, yaxud da ayrı-ayrı rayonlardan, Laçından telefonla zəng edirdilər, imdad istəyirdilər, kömək istəyirdilər və o vaxt nə mümkün idi — mən öz tərəfimdən edirdim.

O vaxt Məmmədov da gəlmişdi ora. Bəli, mən bunu böyük bir hadisə kimi qəbul etdim və Ali Məclisin sessiyasında e'lan etdim ki, Qarabağda bu dəqiqə mühasirədə olan Xocalının başçısı gəlibdir bizim Naxçıvana. Sessiyada onu təqdim etdim, ona söz verdim, çıxış etdi. Biz xocalılarla öz həmrə'yliyimizi bildirdik, öz fikirlərimizi bildirdik. Bundan sonra təkbətək ayrıca söhbət etdik və mən məsləhətlərimi də verdim.

Yə'ni demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi, Ermənistanın Azərbaycana təcavüzü məsələsi xalqı həmişə narahat edibdir, xalqı incidibdir. Xalq çalışıb ki, hərə çalışıb ki, bu işə öz payını versin, öz xidmətini göstərsin. Ancaq təəssüflər olsun ki, o səlahiyyətli adamlar nəinki öz vəzifələrini yerinə yetirməyiblər, hətta xəyanət ediblər.

O vaxt Xocalı faciəsinin araşdırılması üzrə komissiya yaradılmışdı. Mən də Naxçıvanda çox maraq göstərirdim ki, bu komissiya nə nəticə çıxaracaqdır. Sonra bu komissiyanın işinin nəticəsini televiziyada verdilər. Mən buna qulaq asdım, xüsusən Əli Ömərovun, — o, komissiyanın katibi idi, — mə'ruzəsinə qulaq asdım. Doğrudur, o

mə'ruzə məni tam qane etmədi, ancaq eyni zamanda bu gün həqiqət naminə demək lazımdır ki, mə'ruzədə çox ədalətli, çox kəskin, prinsipial fikirlər də vardı. Təəssüflər olsun ki, onun müzakirəsi buna gətirib çıxardı ki, burada həm günahkar var, həm də yoxdur. Siz bilirsiniz ki, bunun da nəticəsində Mütəllibov may ayının 14-də yenidən prezident vəzifəsinə qayıtdı. Onun gəlməsi Xocalı ilə əlaqədarmış. Belə çıxır ki, o, günahkar deyil, komissiya belə müəyyən edibdir. Komissiyanın sədri Ramiz Fətəliyev idi. O vaxt sessiyada ondan soruşdular — xatirimdədir, televiziya ilə göstərirdilər, — bir neçə dəfə soruşdular. Təəssüflər olsun ki, dedi yox, Mütəllibovun burada heç bir günahı yoxdur, ona görə də sessiya qərar çıxartdı ki, Mütəllibov prezident vəzifəsinə qayıtmalıdır.

Mən bununla onu demək istəyirəm ki, o zaman görülən işi layiqincə qiymətləndirərək, eyni zamanda bu gün e'tiraf etmək lazımdır ki, o komissiya o vaxt nə qədər istəsəydi də, məsələni obyektiv araşdıra bilməzdi. Çünki günahkar adamların əksəriyyəti o vaxt vəzifə sahibi idi. Onlar yüksək vəzifələrdə idilər. Ona görə də o komissiyanın çıxardığı nəticələr tam həqiqət deyildi. Sonra respublikada hakimiyyət dəyişildi, yə'ni rəhbər vəzifədə olan prezident dəyişildi, yeni prezident seçildi. Gözləmək olardı ki, yeni prezident seçiləndən sonra onlar bu işi qaldıracaqlar, çünki onlar məhz bu Xocalı hadisəsindən istifadə edərək hakimiyyətə gələ bildilər. Ancaq bu məsələnin üstü ondan sonra da örtüldü və istintaq da elə getdi ki, guya ki, burada heç bir günahkar yoxdur.

Eldar Həsənov o cinayət işindən istintaqın izi ilə bə'zi mə'lumatlar verdi. Ancaq hesab edirəm ki, indi vaxt keçib, bu istintaqa, bu araşdırmaya tə'sir edən adamlar indi arada yoxdurlar. Onlar heç bir tə'sir edə bilməzlər. Bu məsələlər yenidən araşdırılmalıdır, — mən belə hesab edirəm, — tamamilə yenidən araşdırılmalıdır və yenidən istintaq aparılmalıdır.

Mən bir də qayıdıram dediyim fikrə — Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı gələcək nəsillərimizin xatirindən yüz il bundan sonra da çıxmamalıdır. Hər bir gələcək nəsil gərək bilsin ki, bizim millətimizə qarşı belə vəhşilik edilibdir. Əgər bu belədirsə və güman edirəm ki, siz bununla razısınız, demək, bu vəhşilər də məhkum olunmalıdır. Burada Eldar Həsənov dedi ki, bu vəhşilikləri edən erməni silahlı qüvvələrinin bə'ziləri mə'lumdur. Əgər onlar bu gün də cəzasını almayıblarsa, gələcəkdə öz cəzalarını alacaqlar. Beynəlxalq məhkəmə onların cəzasını verəcəkdir. Həmin 366-cı alay gələcəkdə cəzasını alacaqdır və beynəlxalq məhkəmə onların da cəzasını verəcəkdir. Dünya həmişə belə qalmayacaqdır. Belə olan halda, demək, bizim içimizdən cinayət edənlər, xəyanət edənlər də araşdırılmalıdır və meydana çıxarılmalıdır.



Bilirsiniz, bir adam gedib iki nəfəri öldürəndə, onu həbs edirlər, məhkəmə gedir, ona ya güllələnmə cəzası, ya da ən azı, on il azadlıqdan məhrumetmə cəzası verilir. Çünki iki adam öldürübdür, yaxud bir adam öldürübdür. Amma burada görürsünüz nə qədər adam, özü də vəhşicəsinə öldürülübdür, günahsız adamlar öldürülübdür.

Mən bu məsələyə də aydınlıq gətirməliyəm. Bir var ki, müharibədir, erməni silahlı qüvvələri Azərbaycana qarşı işğalçılıq müharibəsi aparıblar, döyüşlər gedibdir, o tərəf də vuruşub, bu tərəf də vuruşub, o tərəfdən də həlak olan var, bu tərəfdən də həlak olan var. Bu, müharibənin təbii nəticəsidir. Amma bir də var ki, gələsən, böyük bir yaşayış məntəqəsini mühasirəyə alasan, uzun müddət mühasirədə saxlayasan, onu xaricdən tam təcrid edəsən və nəhayət, beş-altı dəfə artıq qüvvə ilə, silahla hücum edib dinc əhalini qırasan. Bunlar tamamilə bir-birindən fərqli hallardır.

Həmin Xocalını uzun müddət, burada Məmmədov dedi, mühasirədə saxlayan erməni silahlı qüvvələri olublar. Bəs onu mühasirədən azad etməyənlər kimlərdir? Niyə onlar dözüblər ki, bizim böyük bir yaşayış məntəqəsində xeyli adam uzun müddət mühasirədə qalıbdı? Niyə? Nə üçün? Hansı tədbirləri görməyiblər və niyə görməyiblər?

İcra hakimiyyəti başçısı deyir ki, üç gün gəlib, burada çalışıb, prezident, eyni zamanda Silahlı Qüvvələrin ali baş komandanı onu qəbul etməyib — bunun işi var, başqa işi var. Bundan da vacib iş ola bilərmi? Mən hesab edirəm ki, o günlər Azərbaycanın hər bir rəhbəri üçün bundan vacib, bundan zəruri iş ola bilməzdi. Adicə maraq lazım idi ki, əgər icra hakimiyyəti başçısı gəlibsə, gəlsin desin görək nə var? Əgər onu qəbul etmək istəmirsə, onunla görüşmürsə, icra hakimiyyəti başçısı üç gün bu barədə ona-buna müraciət edir, buna nail ola bilmirsə, geriyə qayıdırsa, demək, bu, sadəcə olaraq vəziyyəti bilir və vəziyyəti bilərək ölçü götürməmək üçün onu qəbul etmir. Məntiqi nəticə bundan ibarətdir. Ona görə də hesab edirəm ki, bu məsələlər araşdırılmalıdır və bütün bu məsələlərə qayıtmalıyıq.

Bilirsiniz ki, Xocalı soyqırımı 1992-ci il fevralın 26-da olubdur. 1993-cü il fevral ayının 26-da bu soyqırımın birinci ildönümü idi, o yaranın hələ tamamilə qanlı vaxtı idi. Nə üçün bəs Xocalı soyqırımı günü e'lan olunmadı? Niyə? Bunun böyük tarixi əhəmiyyəti var, böyük siyasi əhəmiyyəti, böyük mə'nəvi əhəmiyyəti var. 1994-cü ildə 26 fevral ərəfəsində mən təklif verdim bizim Milli Məclisə. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı, Xocalı faciəsi günü e'lan olundu. Bu gün bizim tariximizdə, bizim təqvimimizdə matəm günüdür, hüzn günüdür, faciə günüdür. Bunu biz qanunla qəbul etdik. Bunu bir ildən sonra etməyənlər də yəqin ki, həmin bu cinayətin iştirakçıları olublar ki, bunu etməyiblər. Buna sadəcə e'tinasızlıq kimi, yaxud diqqətsizlik kimi yanaşmaq olmaz. Əgər diqqətsizlik də varsa, bu

qədər diqqətsizlik olarmı? Öz millətinin aqibətinə, millətinin taleyinə bu qədər də laqeydlik, biganəlik ola bilərmi?

O adamlar indi orda-burda danışırlar, qəzetdə cürbəcür şeylər yazırlar, cürbəcür böhtanlarla məşğuldurlar. Bə'zisi qaçıb Moskvada gizlənib, bə'zisi, nə bilim, dağlarda gizlənib, bə'zisi burada müxalifətdədir. Bu gün onların heç birisinin mə'nəvi haqqı yoxdur danışmağa. Onların başdan-ayağa hamısı Azərbaycan xalqının qarşısında etdikləri cinayətə görə cavabdehdirlər, cavab verməlidirlər. Bu gün də cavab verməsələr, sabah verəcəklər.

1990-cı ildə Azərbaycan xalqının başına yanvar faciəsini gətirdilər. Yanvar faciəsində tökülən qanların üstündə vəzifələrə gəldilər. Sonrakı illərdə yanvar faciəsinin üstünü örtüb-basdırmaqla məşğul oldular. Bəli, yanvar faciəsinin üstünün də açılması haqqında təşəbbüsü Milli Məclisə 1994-cü il yanvarın əvvəlində mən — Azərbaycan prezidenti verdim. Bilirsiniz ki, 1994-cü ildə bu məsələ Milli Məclisin iclasında bir aydan çox müzakirə olundu. Amma 1990-cı ilin yanvarından 1994-cü ilin yanvarına qədər bu məsələnin üstü örtülüb-basdırılmışdır, günahkarların adı yazılmamışdır, bir qərar qəbul edilməmişdir. Biz qərar qəbul etdik. Həmin dəst-xətdir — yanvar faciəsindən istifadə edərək vəzifələr tutdular, tökülmüş qanların üstünü örtdülər-basdırdılar. Ancaq tarix bunu açdı. Xocalı hadisəsindən, faciəsindən də istifadə edib hakimiyyətə gəldilər, faciənin üstünü örtüb-basdırmaq istədilər. İndi bu gün yenə də tarix bunu açır, açacaqdır tarix! Tarix açacaqdır, geci-tezi var. Gec olanda insanlarımız daha çox intizar içində olur, əziyyət içində olur. Amma bunu vaxtında edəndə hər bir insan da, xalq da mə'nəvi rahatlıq alır. Mənim fikrim belədir.

Bütün bunlarla yanaşı, mən bu gün görüşə gələrkən əsas fikrim, məqsədim, yə'ni ürəyimdə, qəlbimdə olan sözlər xocalıların dərdinə şərik olmaq idi. O dərd bizim millətimizin dərdidir, o kədər bizim millətimizin kədəridir, bu faciə bizim xalqımızın faciəsidir, bu matəm bizim xalqımızın matəmidir.

Mən bir daha xocalıların qəhrəmanlıq, rəşadət nümunələri qarşısında baş əyirəm, bütün xocalılara öz hörmət və ehtiramımı bildirirəm və bir daha bəyan edirəm ki, şəhidlərin qəhrəmanlığı heç vaxt unudulmayacaqdır, onların xalq, dövlət qarşısındakı xidmətləri bizim qəlbimizdə həmişə, daim yaşayacaqdır.

Mən bu gün bura çox ziddiyyətli fikirlərlə gəlmişəm, amma hamısının üstündə duran fikir bu qəm, kədər fikridir. Ona görə də, bəlkə mə'lumatım yoxdur, mən belə başa düşdüm ki, Xocalıda vuruşub qəhrəmanlıq göstərənlərdən bə'ziləri Milli Qəhrəman adı alıblar. Neçə nəfər Milli Qəhrəman adı alıb?

**Elman Məmmədov: Üç nəfər.**

**Heydər Əliyev:** Üç nəfər, başqa orden və meddalarla təltif edilənlər olubdurmu?



**Elman Məmmədov:** Bir nəfər təltif olunubdur — həmin batalyonun həkimi Nağıyev Məmməd bu hadisədən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib, qalanları olmayıb. Amma- təqdim olunmuş sənədlər var.

**Heydər Əliyev:** Mən hesab edirəm ki, biz orada fərqlənən adamları qiymətləndirməliyik və onları təltif etməliyik. Ona görə də mən sizə, icra hakimiyyəti başçısına, bizim aparata, Ramiz Mehdiyevə tapşırıram, oturun baxın, siz hamınız da buradasınız. Şübhəsiz ki, hamını təltif etmək mümkün deyil. Özünüz kimi hesab edirsiniz ki, bizim dövlət mükafatları ilə, ordenləri ilə təltif etmək lazımdır — təklif verin. Mən bunu etmək qərarını qəbul etmişəm, gözləyirəm ki, nə vaxt sizin təklifləriniz gələcəkdir. Siz hamınız məsləhətləşərsiniz. Bu, elə şeydir ki, gərək oturub məsləhətləşəsiniz. Məsələn, bizim komandirlər, bu döyüşdə, başqa yerdə fərqlənənlər barədə təqdimat verirlər. Deyək ki, bu, döyüşdə fərqlənibdir, ona görə təltif edirik. İndi bu hadisənin üstündən dörd il keçibdir. Ancaq siz hamınız bu hadisənin iştirakçısınız, özünüz bilirsiniz kimlər təltif oluna bilər. Mən hesab edirəm ki, bir qrup adam təltif olunmalıdır. Mən sizdən bu barədə təkliflər gözləyirəm. Siz nəsə demək istəyirsiniz? Buyurun.

**Səttar Ağayev** (Xocalı sakini, iki şəhid atası): Mənim iki oğlum şəhid olub, o meyidlərin heç birini də tapıb gətirə bilməmişəm. Məndən müsahibə götürüblər, geniş danışmışam, ancaq çox az yazıblar. Milli Orduda olan oğlum dörd dəfə mühasirədə yaralanıb, Ağdam hərbi xəstəxanasına gətirilib, oğlumun heç yerdə, heç bir qəzetdə adı çəkilməyibdir. Xahiş edirəm, jurnalistlər mənimlə ətraflı söhbət etsin, onlara nə cür lazımdırsa, dərdimi deyim.

**Heydər Əliyev:** Yaxşı, mən hesab edirəm ki, birincisi, bugünkü görüşümüz televiziya ilə veriləcək, ikincisi də bu görüşü, bu çıxışların hamısını başdan-ayağa qəzetdə dərc edin və təkcə ayın 25—26-sı deyil, bundan sonra da ümumiyyətlə Xocalı soyqırımı, Xocalı faciəsi ilə əlaqədar mətbuatda, televiziyada ardıcıl verilişlər verin. Qoy insanlar gəlsinlər, öz təəssüratlarını danışsınlar. Məsələn, bu kişi deyir ki, iki oğlu həlak olubdur. Qoy gəlsin danışsın, bunun dərdini eşitsinlər, bunun özü də müəyyən mə'nəvi təskinlik alacaqdır. İndi belələri çoxdur, hamı ola bilər. Ona görə də mən ümumi göstəriş verirəm və bu, olacaqdır, mətbuatda da ardıcıl getməlidir, bizim televiziya və radioda da verilməlidir. Bir də deyirəm, ağsaqqallar, vəzifəli adamlar, hamınız birlikdə oturun məsləhətləşin bu işi. Son gündə o prosesdə olan adamları, fərqlənən adamları, layiqli adamları təqdim edin, mən prezident kimi orden və medallarla təltif etməyə hazıram. Əgər o vaxt çox böyük qəhrəmanlıq göstəriblər, lakin onların xidməti unudulubsa, Milli Qəhrəman adı verməyə də hazıram, bunları etməyə hazıram, Yə'ni, "hazıram" deyəndə, bu, mənim borcumdur. Çünki o qəhrəmanlar özləri buna layiqdirlər. Mən bunu da təklif edirəm.

Siz nə istəyirsiniz? Buyurun.

**Lətif Məmmədov** (Əlif Hacıyevin atası): Yoldaş Prezident, mənim iki oğlum həlak olubdur. Biri Milli Qəhrəman Əlif Hacıyev mənim oğlumdur, bir oğlumu da öz gözümün qabağında ermənilər Xocalıda nə günə qoyub, mən bunun şahidiyəm. Özüm də orada əsir düşmüşəm, 64 gün qalmışam, Şuşanın ən uca kəndi Böyük Tağlarda. Elman müəllim özü bilir, 1992-ci il aprel ayının 24-də məni əsirlikdən dəyişiblər, gəlmişəm. Mənim Milli Qəhrəman olan oğlumun məzarı buradadır. Şəhidlər xiyabanındadır, amma o biri oğlumu elə orada öz gözümün qabağında nə günə saldılar... Harada qaldı, nə oldu — heç bir mə'lumat yoxdur. Mənim vəziyyətim budur.

**Heydər Əliyev:** Adınız nədir?

**Lətif Məmmədov:** Məmmədov Lətif Süleyman oğlu.

**Heydər Əliyev:** Lətif müəllim, mən sizin dərdinizə tam şərikəm. Qəhrəman oğullar yetişdirdiyinizə görə Sizə təşəkkür edirəm. Sizin oğlanlarınızın qəhrəmanlığı bizim xalqımızın şan-şöhrətidir. Dərdiniz böyükdür, amma eyni zamanda siz fəxr edə bilərsiniz ki, belə övladlar yetişdirmisiniz. Sizin böyük mə'nəvi haqqınız var. İndi sizin dediyiniz sözlə əlaqədar nə etmək, nə tədbir görmək lazımdırsa görək.

Bir daha bu hüzn günü ilə əlaqədar, Xocalı faciəsi ilə əlaqədar mən bütün həlak olanlara Allahdan rəhmət diləyirəm. Bütün xocalılara Allahdan səbr diləyirəm. Şikəst olanlara, əlil olanlara Allahdan daha çox cansağlığı diləyirəm. Əmin ola bilərsiniz ki, bundan sonra da xocalılara qayğının artması üçün öz tərəfimdən əlimdən gələni edəcəyəm.

Burada çıxışlarda mənə aid, hesab edirəm ki, ürəkdən gələn sözlər deyildi. Onlara görə təşəkkür edirəm. Eyni zamanda sizin bu sözlərinizi dinləyərək dərk edirəm ki, hər bir belə söz mənim üzərimə böyük məs'uliyyət qoyur. Şübhəsiz ki, mən Azərbaycan Respublikasının Prezidenti vəzifəsini öz üzərimə götürərək məs'uliyyətimi hiss edirəm, daim hiss edirəm. O gün, o dəqiqə yoxdur ki, mən xalqımın qarşısında, millətimin qarşısında, Vətən qarşısında öz məs'uliyyətim haqqında düşünməyim. Amma hər dəfə belə görüşlər zamanı, xüsusən sizin kimi adamların böyük ümidlərlə mənə müraciət etdiyi halda mən öz məs'uliyyətimi daha da kəskin hiss edirəm və dərk edirəm.

Əmin ola bilərsiniz ki, bütün varlığımı, təcrübəmi, biliyimi, həyatımı Azərbaycan xalqının belə ağır vəziyyətdən çıxmasına həsr edirəm, bundan sonra da həsr edəcəyəm, Azərbaycan xalqının xoşbəxt gələcəyə çıxmasına həsr edəcəyəm. Ümidvaram ki, biz qarşımızda qoyduğumuz məqsədlərə nail olacağıq. Mən nəinki bu ümidlərlə yaşayıram, bu ümidlərin çin olması üçün, bu ümidlərin həyata keçməsi üçün gecə-gündüz fəaliyyət göstərirəm.

Sağ olun, bu görüş nə qədər kədərli olsa da, eyni zamanda o qədər də mə'nalıdır, o qədər də böyük iftixar hissi doğurur. Bu görüşə görə sizə təşəkkür edirəm. Sağ olun.



# KƏLBƏCƏR





Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikamızda həmişə çox hörmətə, ehtirama layiq olubdur.
Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistanın silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar.

***HEYDƏR ƏLİYEV***

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN giriş sözü

Kəlbəcər rayonu əhalisinin nümayəndələri ilə mənim bugünkü görüşümün məqsədi birinci növbədə respublikanın ayrı-ayrı yerlərində məskunlaşmış bu rayonun sakinlərinin vəziyyəti ilə tanış olmaqdan ibarətdir. Kəlbəcər rayonu üç il bundan əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğuna görə Kəlbəcərin sakinləri yerlərindən, yurdlarından didərgin düşüblər və respublikanın müxtəlif, şəhərlərində, rayonlarında yaşayırlar.

Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq Azərbaycana qarşı etdikləri hərbi təcavüz respublikamıza çox böyük zərbələr vurubdur. Təəssüflər olsun ki, həmin müddətdə ərazimizin bir qismi işğal olunmuş və orada yaşayanlar, o torpaqların sahibləri didərgin düşüblər. İşğal olunmuş rayonlardan biri də Kəlbəcərdir.

Kəlbəcərin işğalından üç il keçir. İnsanlar adətən bayram günlərini, müsbət hadisələri qeyd etmək üçün görüşürlər, eyni zamanda milli ən'ənələrimizə görə tariximizdə olan bə'zi faciəvi halların da ildönümünü, yaxud həmin günləri qeyd etmək üçün görüşürlər. Ona görə bizim bu görüşümüz də birinci növbədə, Kəlbəcər rayonu sakinlərinin vəziyyəti ilə mənim şəxsən tanış olmağım məqsədi daşıyır. Siz üç ildir ki, yerinizdən-yurdunuzdan olmusunuz, didərgin düşmüsünüz. Bu günü xatırlamaq lazımdır.

Bu görüş həm də bu faciədən nəticə çıxarıb işğal olunmuş torpaqlarımızdan işğalçı qüvvələrin çıxarılması, torpaqlarımızın azad olunması uğrunda mübarizəmizi daha da gücləndirmək üçün, Azərbaycan Respublikasının ərazi bütövlüyünü tə'min etmək üçün fikir mübadiləsi aparmaq məqsədi daşıyır.

Kəlbəcər rayonu Azərbaycanın gözəl guşələrindən biridir. Onun çox zəngin təbiəti, tarixi abidələri vardır. Kəlbəcər Azərbaycanın qədim dövrlərdən ibarət öz tarixini qəlbində, sinəsində, qoynunda saxlayan ərazilərindən biridir.

Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikamızda həmişə çox hörmətə, ehtirama layiq olubdur.

Azərbaycanın çox yerlərindən, o cümlədən paytaxtımız Bakıdan da insanlar həmişə Kəlbəcərə ziyarətə gediblər. O dağların, meşələrin gözəlliyindən müəyyən qədər bəhrələnmək üçün, eyni zamanda bu gözəlliyi seyr edib ölkəmizin nə qədər gözəl bir məmləkət, diyar olduğunu bir daha dərk etmək üçün ziyarət ediblər. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar.

Doğrudur, bu üç il müddətində Kəlbəcərə böyük ziyan vurulubdur, zərbələr dəyibdir, Ermənistan işğalçıları o qədər vəhşidirlər, qəddardırlar, insani keyfiyyətlərdən o qədər uzaqdırlar ki, onlar işğal olunmuş torpaqlarda, o cümlədən Kəlbəcərdə də nəinki insaniyyətə xas olmayan, hətta insaniyyətə zidd, yabançı hərəkətlər edirlər. Ancaq bunların heç birisi Kəlbəcərin o məğrur dağlarını, qayalarını, meşələrini, çeşmələrini, bulaqlarını heç vaxt endirə bilməz, əyə bilməz, sındıra bilməz, eləcə də güman edirəm ki, kəlbəcərlilərin iradəsini sındara bilməz. Ona görə də mən əminəm ki, vaxt gələcək, bunlar hamısı tarixdə qalacaq, Kəlbəcər işğaldan azad olacaq, kəlbəcərlilər tezliklə doğma rayonda öz həyatlarını quracaq, öz yerlərini, yurdlarını, evlərini, obalarını bərpa edəcəklər. Mən buna əminəm.

Mən bilirəm ki, sizin və ümumiyyətlə işğal olunmuş ərazilərimizdən didərgin düşmüş bütün vətəndaşlarımızın vəziyyəti bu gün çox çətindir, ağırdır. Bu vəziyyəti müəyyən qədər yüngülləşdirmək üçün biz bütün imkanlardan istifadə edirik, buna çalışırıq və bundan sonra da çalışacağıq. Ümidvaram ki, indi bizim apardığımız siyasət Ermənistan — Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə gətirib çıxaracaqdır və işğal olunmuş torpaqlarımız azad olunacaqdır. Eyni zamanda ümidvaram ki, respublikamız bu ağır sosial-iqtisadi böhrandan çıxacaq, ölkəmizin böyük sərvətləri, təbii, intellektual sərvətləri xalqımızın rifahına xidmət edəcəkdir, xalqımızın rifah halı günü-gündən yaxşılaşacaqdır.

Mən buna əminəm. Ona görə əminəm ki, apardığımız siyasət bizi, şübhəsiz, bu səviyyəyə gətirib çıxaracaq. Əminəm ona görə ki, bizim işimiz haqq işidir. Biz Azərbaycan Respublikasının müstəqilliyini qoruyuruq. Azərbaycanda hüquqi demokratik dövlət qururuq. Müstəqil Azərbacanın ərazisinin bərpa olunmasına çalışırıq. Bu, ədalətli işdir, haqq işidir. Biz buna nail olacağıq.

Hörmətli bacılar və qardaşlar, mən sizi salamlayıram. Sizin simanızda Kəlbəcər rayonunun bütün vətəndaşlarını salamlayıram.



Əlbəttə, mən istərdim elə bir imkan yaransın ki, Kəlbəcər rayonu sakinlərinin hamısı ilə görüşmək mümkün olsun. Sizin hamınızla birlikdə, bir yerdə, yaxud da ayrı-ayrı görüşməyə mənim çox böyük istəyim, arzum var. Güman edirəm, gün gələcək, bu da olacaqdır. Amma bu gün isə sizin vasitənizlə bütün kəlbəcərlilərə öz salamımı, hörmət və ehtiramımı, xoş arzularımı və ümidlərimi çatdırıram. O ümidlərimi ki, biz bu vəziyyətdən çıxacağıq və Kəlbəcər yenə də öz keçmiş, gözəl dövrünə qayıdacaq və gələcəkdə ondan da gözəl olacaqdır. O gün həm kəlbəcərlilər üçün, həm də bizim üçün əziz olacaqdır.

Mən sizi salamlayıram. Sizlərdən kimsə danışmaq üçün söz istəyirsə, buyursun.

Kəlbəcər rayon
İcra Hakimiyyətinin başçısı
SAHİB ƏKBƏROVUN
çıxışı

Hörmətli Prezident! Hörmətli görüş iştirakçıları! İcazə verin, hörmətli Prezidentimiz bu gərgin vaxtda imkan tapıb biz kəlbəcərlilərin dərdinə şərik çıxıb mə'nəvi dayaq olduğuna görə sizin adınızdan və eyni zamanda bütün kəlbəcərlilər adından ona minnətdarlığımı bildirim, "çox sağ ol" deyim və uzun ömür arzulayım.

Hörmətli Prezident! Bu gün Kəlbəcər rayonunun ermənilərə təhvil verilməsindən üç il keçir. Kəlbəcər ictimaiyyətinin nümayəndələri ilə bugünkü görüşün keçirilməsi, mən deyərdim ki, tarixi bir hadisədir. Yəqin ki, bu gün çox məqamlar açıqlanacaq, çox faktlar deyiləcək və Kəlbəcər ictimaiyyətinə, Kəlbəcər camaatına, eyni zamanda bütün Azərbaycan xalqına mə'lum olacaq ki, Kəlbəcər kimi alınmaz bir qalanın erməni silahlı qüvvələrinə təhvil verilməsində kimlər günahkardır, kimlər xəyanət ediblər.

Bildirmək istəyirəm ki, 1988-ci ildən başlayan müharibədə Kəlbəcər camaatı qeyrətlə vuruşmuş, ermənilərə bir qarış da olsun torpaqlarını verməmişdir. Lakin 1992-ci ildən sonra istər respublika rəhbərliyinin, istərsə də onların rayonda olan əlaltılarının xəyanətkarlığı nəticəsində rayonumuz ermənilərə təhvil verilmişdir. Bir faktı qeyd etmək istəyirəm ki, 1991-ci ildə Kəlbəcərin Ağdaban kəndinin qadınları 11 nəfər silahlı erməni quldurunu tərkisilah edib, o vaxtkı rayon rəhbərliyinə zəng vurublar ki, gəlin bunları aparın. Biz həmin adamları gedib həbs etmişik. O vaxt Dağlıq Qarabağda yaradılmış komitənin üzvləri Polyaniçko, Safonov gəlib həmin dustaqları apararkən vertolyot qəzası olmuş və nəticədə Kəlbəcərdə 8 nəfər azyaşlı uşaq həlak olmuşdur. Kəlbəcərdə o faciə baş verərkən həmin uşaqların abidələri qoyulmuşdur.

Bunları deməkdə məqsədim nədir? Bu gün elə çıxmasın ki, guya



Kəlbəcər camaatı vuruşmayıb, öz torpaqlarını tərk edib çıxıb gəlib. Mən sizi əmin edirəm ki, onlar qeyrətlə vuruşdular. Lakin 1992-ci ildən sonra Azərbaycana rəhbərlik edən, mən deyərəm ki, heç bir səriştəsi olmayan, siyasətdən başı çıxmayan respublika rəhbərləri, rayon rəhbəri saxtakarcasına Kəlbəcərin düşmənə verilməsinə şərait yaratdılar.

Hörmətli Prezident, Sizin köməyiniz sayəsində son vaxtlar Kəlbəcər rayonunda tikinti-quraşdırma işləri görülmüş, hətta böyük bir şəhərcik salınmışdı. Hal-hazırda o şəhərciklər yoxdur, dağıdılmışdır. Bunlar bizim o düşmənlərimizin vəhşiliyi və daxili düşmənlərimizin səhlənkarlığı nəticəsində olmuşdur.

Kəlbəcər rayonunda bir neçə dəfə müsibət baş vermişdir. Birinci müsibət 1992-ci il aprel ayının 8-də olmuşdur. Ağdaban kəndi ermənilər tərəfindən işğal olunmuş, tamamilə yandırılmış, 33 nəfər öldürülmüş, beş nəfər girov götürülmüş, 100-ə qədər ev darmadağın edilmişdir. Həmin vaxt — aprel ayının 8-də mən burada — o vaxt respublika Ali Sovetinin sədri olan Yaqub Məmmədovun, baş naziri əvəz edən Feyruz Mustafayevin — hər ikisinin yanında olmuşam. Rayondan mənə zəng vurdular ki, bəs Ağdaban kəndində belə bir faciə baş veribdir. Mən hər iki rəhbərin yanında oldum. Onlar müdafiə naziri Rəhim Qazıyevi axtardılar, amma tapa bilmədilər. Mən Müdafiə Nazirliyinə getdim. Hörmətli Prezident, o vaxt mən müdafiə nazirinə bu məsələləri çatdırmaq üçün vəsiqə almışdım. 1992-ci il aprelin 9-da bu vəsiqə ilə Müdafiə Nazirliyinə girə bilmədim. Mənə dedilər ki, bəy istirahət edir, bəyi narahat etmək olmaz. Nə isə mən onunla görüşə bilmədim. Yenə də rayona qayıtdım və onların rayona heç bir köməyi olmadı.

Kəlbəcərin ikinci müsibəti 1993-cü il mart ayının 26-dan sonra başladı. Mən deyərəm ki, bu müsibət mart ayında yox, fevralın ortalarından başlanırdı. Fevral ayının 18—19-dan ermənilər Kəlbəcərin strateji əhəmiyyətə malik yüksəkliklərini tutmağa başladılar. Ermənilər birinci növbədə Ağcakənd tərəfdən Təkəqaya, Zağalar, Çıraq kəndlərini yandıraraq əhalisini məhv etdilər. Bu kəndləri zəbt edib rayonda ən hündür nöqtə olan Keçiliqaya kəndini ələ keçirdilər. İkinci bir yüksəkliyi, strateji nöqtəni ələ almaq üçün ermənilər Ağdaban kəndini yenidən işğal etdilər. Martın 24—26-sı Arası kəndini tamam yandırıb darmadağın etdikdən sonra hiss etdilər ki, istər respublikadan, istər rayondan onlara qarşı heç bir müqavimət göstərilmir. Bundan sonra onlar öz texnikaları ilə birlikdə Kəlbəcər — Tərtər asfalt yolunu tutub Kəlbəcərə doğru irəliləməyə başladılar.

Üçüncü strateji nöqtə, ən böyük strateji yüksəklik olan, Vardenis rayonu ilə Kəlbəcərin arasında yerləşən Qaraqaya yüksəkliyinin ələ keçirilməsinə demək olar ki, 15—20 gün hazırlıq işləri gördülər.

Vardenis rayonunun ərazisində texnika yığılmış, tə'lim keçirilmiş, Qaraqayaya qədər olan məsafədə texnika ilə yol açılmışdı. O vaxt — mart ayında orada 4—5 metr qalınlığında qar var idi, oradan heç cür keçmək mümkün deyildi. Onlar 10—15 gün texnika ilə oraya yol açdılar və gəlib Qaraqaya yüksəkliyini ələ keçirdilər.

Bütün bu proseslər, bu əməliyyatlar demək olar ki, fevral ayının 16-dan martın 26-dək davam elədi. Lakin bu müddətdə istər respublika rəhbərliyi, istərsə də rayon rəhbərliyi heç bir tə'sirli tədbir görmürdü. O vaxt mən rayonun millət vəkili idim. Bəylərin hakimiyyəti dövründə onlar məni oradan kənarlaşdırandan və mənə böyük təzyiqlər etdikdən sonra burada yaşamağıma baxmayaraq, bir millət vəkili kimi rayonla əlaqəm var idi və rayonda olan vəziyyət barədə respublikanın prezidenti Əbülfəz Elçibəyə, Ali Sovetin sədri İsa Qəmbərə, müdafiə naziri Dadaş Rzayevə üç dəfə rəsmi müraciət eləmişəm. Lakin bu müraciətlərin heç birinin tə'siri olmadı. Fevralın 23-də mən Milli Məclisə və Ali Sovetin keçmiş sədri İsa Qəmbərə müraciət etdim, xahiş elədim ki, mənə imkan, şərait yaradın, Kəlbəcərdə yaranmış ağır vəziyyət barədə Milli Məclisin üzvlərinə mə'lumat verim, onlar konkret tədbirlər görsünlər. Lakin Ali Sovetin sədri mənim çıxış etməyimi məsləhət bilmədi və Məclisdə e'lan elədi ki, biz özümüz tədbir görəcəyik. Amma heç bir tədbir görülmədi və son nəticədə Kəlbəcəri ermənilərə təhvil verdilər.

O zaman bizim həmyerlimiz İsgəndər Həmidov respublika daxili işlər naziri işləyirdi və onun əlində çox böyük qüvvə var idi. Həmin qüvvədən istifadə edib Kəlbəcəri saxlamaq olardı. Lakin İsgəndər Həmidov da Kəlbəcərin saxlanması üçün, demək olar heç bir iş görmədi.

Bütün bunlar məndə belə təəssürat yaradırdı ki bu, respublika rəhbərliyinin öz danışıqlarının, öz söhbətlərinin nəticəsidir ki, qəsdən Kəlbəcəri vermək istəyirlər.

Aprel ayının 9-da mən Milli Məclisdə tə'kidlə məsələ qaldırdım ki, Kəlbəcərin verilməsi ilə əlaqədar məsələyə baxılsın. Milli Məclis şərti olaraq bir qərar qəbul elədi. Həmin vaxt prezident Əbülfəz Elçibəy, respublikanın digər rəhbərləri də orada iştirak edirdilər. Mən Əbülfəz Elçibəyə müraciət elədim ki, hörmətli prezident, siz Qur'ana and içmişdiniz ki, xalqı müdafiə edəcəksiniz. Axı, mən dəfələrlə sizə müraciət eləmişəm, heç bir tədbir görmədiniz. Orada mənə qarşı təzyiqlər də oldu, hətta bə'ziləri dedi ki, sizin davanız hakimiyyət davasıdır. Bunları deməkdə məqsədim odur ki, heç bir səriştəsi olmayan respublika rəhbərləri Kəlbəcəri qəsdən düşmənə verdilər.

Hörmətli Prezident, Kəlbəcər elə bir alınmaz qala idi ki, onu heç vaxt almaq mümkün deyildi. Hava yolunu çıxmaq şərti ilə, Kəlbəcərə



girmək, onu tutmaq iki istiqamətdən — birincisi, Tərtər — Ağdərə istiqamətindən, ikincisi, Vardenis rayonu ilə bizim ərazimiz arasında olan bayaq adını çəkdiyim Qaraqaya yüksəkliyi istiqamətindən mümkün ola bilərdi. Mart ayında Qaraqaya yüksəkliyində çoxlu qar olduğunu bayaq dedim. Tərtər — Kəlbəcər yolu istiqamətində, burada oturan kəlbəcərlilər bilirlər, Otaqqaya deyilən yer var. O vaxt qayanın yanını biz partlatmışdıq və yol bağlanmışdı. Ermənilər aylarla çalışsalar da, yolu aça bilməmişdilər. Lakin sonradan rayonun rəhbərləri həmin o yolları açdılar və nəticədə Kəlbəcəri ermənilərə təhvil verdilər. Mən deyərdim ki, bu, Kəlbəcər üçün faciə deyil, ən böyük müsibət olmuşdur. Bu müsibətin nəticəsində son mə'lumatlara görə 55 hərbi qulluqçu, 44 nəfər mülki vətəndaş həlak olmuş, yüzlərlə dinc sakin yaralanmış, dövlətə və əhaliyə 703 milyard 526 milyon rubl maddi ziyan dəymiş, 321 nəfər əsir düşmüş və ya girov aparılmışdır. 132 yaşayış məntəqəsində 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, 9 xəstəxana, 75 feldşer məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, tarix-diyarşünaslıq muzeyi və digər obyektlər düşmən tərəfindən talan edilmiş, sərvətlərimiz Ermənistana daşınmışdır.

Bütün bu faciənin, müsibətin baş verməsinə baxmayaraq, Kəlbəcərin işğalından sonra prezidentin, Ali Sovetin fövqəl'adə vəziyyət e'lan etməsinin səbəbini başa düşə bilmirdim. Fövqəl'adə vəziyyəti nə məqsədlə e'lan eləyirdilər — ona görə ki, gəlbəcərlilər Bakıda, Sumqayıtda olan qohum-qardaşlarının yanına gəlib özlərinə sığınacaq tapa bilməsinlər? Elə buna görədir ki, hazırda Kəlbəcərin əhalisi respublikanın 55 rayonunda 466 məntəqəyə səpələnmişdir. Hörmətli Prezident, bir məsələni də qeyd etmək istəyirəm. Hazırda respublika-nın baş prokuroru olan Eldar Həsənov cənabları o vaxt Gəncədə şəhər milisinin rəisi işləyirdi. O, Kəlbəcərin müdafiəsinə kömək məqsədi ilə yaradılmış qərargaha başçılıq edirdi. Onu bu işdən kənarlaşdırdılar. Eldar Həsənovun oradan kənarlaşdırılması Kəlbəcərin ermənilərə verilməsini daha da sür'ətləndirdi.

Mart ayının 15-dən mən də rayonda idim. Ayın 27—28-də Kəlbəcər ziyalıları, — Yusif müəllim burada oturub, o da orada idi, — müdafiə naziri Dadaş Rzayevə zəng etdilər ki, vəziyyət gərgindir, rayona kömək lazımdır. Nazir isə soruşdu ki, koordinatları deyin, görüm, sizə Gorusun harasından atəş açırlar. Müdafiə naziri bilmirdi ki, Gorusla Kəlbəcərin heç bir əlaqəsi yoxdur. Kəlbəcər ancaq Vardenis istiqamətindən top atəşinə tutulurdu. Bax, belə səriştəsiz rəhbərlərin sayəsində Kəlbəcər kimi gözəl, zəngin bir rayon ermənilərə qurban verildi.

Bütün bunlar artıq geridə qalıb. İndi Kəlbəcər camaatı müdrik Prezidentimizin sülhsevər siyasətini bəyənir, onu dəstəkləyir və inanır

ki, Azərbaycanın işğal olunmuş torpaqları, o cümlədən Kəlbəcər sülh yolu ilə azad ediləcək və bütün qaçqınlarımız kimi, kəlbəcərlilər də öz yurd-yuvalarına qayıdacaqlar. Biz buna əminik. Eyni zamanda, hörmətli Prezident, Sizi əmin etmək istəyirəm ki, Kəlbəcər camaatı — kişisi də, qadını da Sizin əmrinizi gözləyir. Əgər torpaqlarımızı sülh yolu ilə azad etmək mümkün olmasa, Siz nə vaxt hansı əmri versəniz, biz onu yerinə yetirməyə hazırıq. Respublikamızın hörmətli Prezidenti e'lan eləyirsə ki, ömrünün qalan hissəsini xalqına sərf edəcək, onda biz kəlbəcərlilər və eyni zamanda damarlarında azərbaycanlı qanı axan hər bir kəs torpaqlarımızın azad olunması uğrunda öz canından, qanından keçməlidir.

Hörmətli Prezident, bildirmək istəyirəm ki, Kəlbəcər camaatı həmişə Sizinlə olacaqdır. Son illərdə respublikada dövlət çevrilişinə cəhd göstərən bir sıra cinayətkar qrupların içərisində bir nəfər də kəlbəcərlinin olmaması da bunu sübut edir. Bu fakt sübut edir ki, həqiqətən kəlbəcərlilər Sizin siyasətinizi, xəttinizi həmişə bəyəniblər və həmişə bəyənəcəklər.

Çıxışımın sonunda körüş iştirakçıları adından Sizə bir daha minnətdarlığımı bildirirəm ki, mənə çox böyük e'timad göstərmisiniz. Bu, təkcə mənə yox, buraya toplaşan Kəlbəcər ictimaiyyətinin nümayəndələrinə, bütün Kəlbəcər camaatına olan e'timaddır. Sizi əmin edirəm ki, e'timadınızı doğruldacaq, Kəlbəcərin azad edilməsi üçün, Sizin göstərişlərinizi yerinə yetirmək üçün bütün qüvvəmizi sərf edəcəyik. Torpaqlarımız azad edilənədək camaatımızın harada yerləşməsindən asılı olmayaraq onlara hər cür mə'nəvi dayaq olacaq, Sizin siyasətinizi, qaçqınlara münasibətinizi, göstərəcəyiniz yardımın hamısını onlara çatdıracağıq. Diqqətinizə görə sağ olun.

### Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin direktoru ŞAMİL ƏSGƏROVUN ÇIXIŞI

Çox hörmətli Prezident, hörmətli dövlət nümayəndələri, əziz kəlbəcərlilər! Bu gün bizə bu imkan verildiyinə görə mən də öz dərin minnətdarlığımı bildirir və cəsarətlə deyirəm ki, Xocalı faciəsindən daha böyük olan Kəlbəcər faciəsi hələ respublika ictimaiyyətinə tam aydın deyildir. Ona görə də dərdlərimizi burada bölüşdürmək bizim üçün çox vacib idi.

Əvvəldən axıradək bu hadisələrin içində olduğuma, bir il əsgər paltarı geyərək orada vuruşduğuma görə elə müsibətlərin, elə dəhşətlərin şahidi olmuşam ki, bunların müqabilində nə yaxşı ki, Kəlbəcər camaatının hamısı qırılmayıb.



Kəlbəcərin vəziyyəti necə idi? Cənab Prezident, elə lap əvvəldən, Siz respublikadan gedəndən sonra, təxminən 1980—85-ci illərdə camaatın xəbəri olmadan Kəlbəcər torpaqlarının 2600 hektarını ermənilərə verdilər və bunu respublika ictimaiyyətindən gizlətdilər. Orada bizim elə xəzinələrimiz getdi ki, mən bu barədə dəfələrlə məsələ qaldırdım. Kəlbəcərdə vəziyyətin necə olması barədə mən o vaxt qəzetlərdə çıxış etmişəm. Xalq Cəbhəsinin, respublikanın rəhbərləri Kəlbəcərə ögey münasibət bəsləyirdilər.

Kəlbəcərin yolunu və işığını ermənilər kəsmişdilər. Camaat zülmət içərisində yaşayırdı. Oraya heç olmasa bir litr də neft göndərilmirdi. Kəlbəcər o zülmə dözürdü. Orada vəziyyət necə idi? Mən açıq deyirəm, əgər orada ordu təşkil edilməsəydi (dırnaqarası ordu), quldurlar olmasaydı, burada səviyyəsiz iqtidar olmasaydı, Kəlbəcər camaatı özünü qoruyacaqdı və bir ermənini də oraya buraxmayacaqdı. Biz o kəlbəcərlilərik ki, babalarımız 18—20-ci illərdə Kəlbəcərə bir nəfər erməninin də ayağının dəyməsinə yol vermədilər. Amma biz oddan törəyən kül olduq, bizi kül etdilər.

Bizə çox suallar verirlər, hətta qaçqın adı ilə damğalayırlar. Bu, düzgün deyil. Soruşurlar ki, bəs siz ağsaqqallar, ziyalılar niyə tədbir görmədiniz? Rəsmi deyirəm, mən dəfələrlə məsələ qaldırdım. Hələ 1990-cı ilin 6 noyabrında "Sovet kəndi" qəzetində bir səhifə yazı verdim. Yazdım ki, Kəlbəcər boşala bilər və nə eləmək lazımdır ki, Kəlbəcər boşalmasın. Bunların hamısının yolunu göstərdim və onun zərbələrini də aldım.

Mən 1991-ci ilin 11 noyabrında yazdım ki, əgər Kəlbəcər əldən getsə, Azərbaycanın beli yeddi yerdən qırılar. Çox yerdə yazdıq, onların hamısını sadalamıram. Milli Məclisin deputatı Şahlar Əsgərov şahiddir — 1993-cü il fevralın 5-də Kəlbəcərin 6 kəndinə hücum elədilər, onları yandırdılar. Ağsaqqalların məsləhəti ilə məni Bakıya göndərdilər ki, gəlib məsələni burada deyim. Mən müəyyən yerlərə getdim. Lazım olan adamların heç biri məni qəbul etmədi, Müstəqil bir qəzetə getdim, o qəzet indi də durur. Mən orada yazmışdım. Sual verirlər ki, bəs sən Kəlbəcərin bu vaxtında niyə dayanmısan? Cavab verirəm ki, dərdimi deməyə gəlmişəm. Soruşurlar ki, bəs səni bir adam qəbul etdimi? Demişəm ki, yox. Orada yazmışam ki, Allah eləməsin, Kəlbəcər getsə Azərbaycan onu bir milyon ilə qaytara bilməz.

Hörmətli Prezident, mən cəsarətlə deyirəm, Kəlbəcər elə qala idi ki, o hakimiyyətin dövründə onlar onu bir milyon ilə qaytara bilməzdilər. İndi bu ağırlıq, bu yük Sizin üzərinizə düşüb ki, bu bir milyon ili 3 ilə, 4 ilə endirəsiniz. Mən bunu çox ürəklə, cəsarətlə deyirəm.

Kəlbəcərin satılması barədə elə faktlar var ki, onu burada oturan

yoldaşlar da deyə bilərlər. Düzdür, erməni düşməndir. Biz onunla vuruşmalıyıq. Xırdaçılıq eləmirəm, o vaxt Kəlbəcər camaatını ruhdan salmaq üçün bizə nə qədər böhtan atdılar. Guya 40 min imza toplamışıq, ermənilərə qarışırıq, daha nələr eyləyirik. Onların hamısı da psixoloji vəziyyət yaratmaq üçün idi ki, Kəlbəcəri düşmənə versinlər.

İki konkret fakt deyim. Ağdaban hadisələrindən, yə'ni 1992-ci ilin aprelindən sonra Kəlbəcərdə vəziyyət bir balaca düzəldi. O vaxt Zaur Rzayevi bizim rayona göndərmişdilər. İnsafla deməк lazımdır ki, onun burada çox böyük fəaliyyəti oldu. 17 kənd düşməndən geri alındı. Onların alınmasında mən də əsgər paltarı geyinərək iştirak etmişəm. Amma nə sirr oldusa, Kəlbəcərə üç yerdən hücum elədilər. Qərargahı ora köçürmüşdülər. "Körpü" deyilən yerdən Kəlbəcərə 50 kilometr məsafədir. O yerdə qayalar üst-üstədir və oradan bir texnika belə keçə bilməzdi. Mən dəfələrlə qəzetlərdə yazdım, tələb elədim ki, oranı bağlayın. Qərargahı oradan Laçına köçürdülər. Ermənilər oradan hücum elədilər.

Burada istintaq orqanlarının rəhbərləri oturub, onların diqqətini buna cəlb eləyirəm. Ən dəhşətlisi budur ki, Vanklu deyilən bir yer var, Ağdam tərəfdən də, Kəlbəcər tərəfdən də hücum eləyəndə oranı ala bilmədilər. Yə'ni erməni quldurlar orada yerləşmişdi. Məşhur Qanzasar alban kilsəsi də oradadır. Onlar dekabrda oradan hücum etdilər, kəndləri yandırdılar. Bundan sonra gedib oradakı postu götürdülər. Hansı ki, biz hücum eləyib ala bilməmişdik. Buradan keçən yolu yuxarıdan biz, aşağıdan ermənilər partlatmışdılar. Postu götürəndən sonra ora beş ay yiyəsiz qaldı. Ermənilər bizim də, özlərinin də partlatdıqları yolu beş ay ərzində arxayınca düzəltdilər və Kəlbəcərə də ən böyük hücum buradan oldu. Niyə bunu sökənlər haqqında tədbir görülmür, bunu kim elədi, niyə elədi? Bu, hamıya mə'lum məsələdir. Yeri gəlmişkən, mən onu da deyim ki, 500 nəfər kəlbəcərli ölüb, amma biz onların qanını tələb eləmirik. Hesablama aparmışıq, buraya köçdükləri üç ildə beş-altı dəfədən çox kəlbəcərli ölüb. Bunu xəyanətkarlar eləyib. Biz bu qanı onlardan tələb eləyirik.

Danışılası sözlər çoxdur. Mən bir şeyi də nəzərinizə çatdırmaq istəyirəm. Nə sirdirsə, Kəlbəcərdə olan iki briqadanı, ordunu da Ağdaban yandırılandan sonra Laçına apardılar. Mən dəqiq bilirəm, orada 4500 əsgər var idi. Oraya o qədər texnika yığılmışdı ki, onunla Laçını da almaq, Kəlbəcəri də müdafiə etmək olardı. Mən qəti bilirəm, Kəlbəcərə hücum ayın 27-də olub. Ayın 26-da, yə'ni Kəlbəcərə hücumdan bir gün əvvəl müdafiə naziri əmr verib ki. Laçındakı ordu çıxarılsın. Bu əmr bir laçınlının cibindədir. Mən bunu tam məs'uliyyətlə deyirəm. Dağ sərhədində olan adamlar deyib ki, biz bu camaatı çıxarmasaq gedə bilmərik. Qənizadə onlara müdafiə



nazirinin rəsmi, möhürlü əmrini verib ki, oradan çıxın. Oradan Kəlbəcərə 120 kilometr yoldur. O 4500 adamın hamısı gəlib Kəlbəcərin Murov dağından keçdi. Mən onlara yanaşdım, söhbət etdim. Çoxunu tanıyırdım. Bir nəfər — indi Milli Məclisin deputatı olan Əlövsət Ağalarovun qardaşı Mail Ağalarov mənim gözümün qabağında özünü yerə çırpırdı, onlarla dava eləyirdi ki, a kişi, burada erməni yoxdur, azdır, gəlin hücum eləyək.

Qənizadə də, o birisi də dedi ki, sən kimsən? Batalyon komandirini və onu gətirdilər. Camaatı qaytardığına görə onu özümüzünkü öldürdü. Gərək bu məsələlərin hamısı açılsın.

Mən kadr məsələsindən də söhbət açmaq istəyirəm. Kommunist dövründə deyirdilər ki, hər şeyi kadrlar həll eləyir. Doğrudan da elədir. İndiki müxalifət deyir ki, yerlibazlıq edirlər, nə bilim, kadrlar düzgün seçilmir. Əvvəla, dövlət başçısı inandığı adamları başına toplamalıdır. Bu, təbii haldır. Biz bunu alqışlayırıq. Mən onlara belə bir sual verirəm: respublikanın Baş prokuroru Eldar Həsənov kimdir? Sizin fərmanınızla Eldar Həsənov respublika prokurorunun birinci müavini, sonra Baş prokuror tə'yin olundu. Eldar Həsənova general -mayor, sonra general-leytenant rütbəsi verildi. Kəlbəcərlilər bunu qiymətləndirirlər.

Mən bir şeyi də demək istəyirəm ki, dövlət çevrilişi cəhdlərinin heç birində bircə kəlbəcərlinin də əli olmamışdır. Bu, birinci növbədə Eldar Həsənovun nüfuzunun və camaatın ona inanmasının nəticəsidir. Mən Sizi əmin edirəm ki, Prezidentə sədaqətdə, yə'ni qanunların keşiyində durmaqda, dövlətçiliyimizə, müstəqilliyimizə xidmət etməkdə biz kəlbəcərlilər adından Eldar Həsənova zəmanət verə bilərik və bu zəmanətin altında yüz yerdən qol çəkə bilərik.

Ayrı bir misal göstərim. Yaxşı, əgər doğrudan kadrlar düzgün seçilmirsə — Kəlbəcər ərazisinə görə beşinci rayon idi, 50 min əhalisi var idi — bəs onda cəmi 125 deputatdan nəyə görə ikisi kəlbəcərlidir? Mən bunu o sözü danışanlara deyirəm. Başqa bir məsələni deyək. Məsələn, mənim İzzət Rüstəmovla heç şəxsi tanışlığım da yoxdur. Amma elə bir adam tapılmaz ki, baş nazirin müavini İzzət Rüstəmovun humanist adam olmasından razılıq eləməsin. Belə kadrlar seçdiyinizə görə biz Sizə ürəkdən minnətdarıq. Bəs o haralıdır? Gədəbəylidir. Yə'ni deyilən bə'zi çürük sözlər yaramaz və kəlbəcərlilər belə sözləri ancaq çürük sözlər adlandırırlar.

Hörmətli Prezident, mən bilirəm ki, respublikanın iqtisadi vəziyyəti ağırdır. Amma Kəlbəcərə, o biri rayonlara qayıdandan sonra görüləsi işlərimiz haqqında mənim təkliflərim var. İstəyirəm, onları Sizə çatdıram. Elə bilirəm ki, bu təkliflər nəinki doğma yurda qayıdan Kəlbəcər camaatının iqtisadi vəziyyətini yüngülləşdirər, həm də dövlətə, digər rayonlardan olan qaçqınlara kömək edər. Bu məsələlər nədir?

Uzun müddət tədqiqat aparmışam. Kəlbəcərdə 77 cür mineral daş, 36 növ süxur var. Hər yer mərmər süxurdur. Mən onların hər birinin adını da, yerini də bilirəm. Məsələn, Kəlbəcərdə travertin ehtiyatı 30 milyon kubmetrdir. İstisudan əmələ gələn daşla, Kəlbəcər bazaltı ilə bütün Azərbaycanı on dəfə yenidən tiksəm hiss olunmaz ki, oradan bazalt götürülüb. Kəlbəcərin əhəngdaşı dünyaya kifayət edər. Orada süngər daşı da var. Bir dəfə Əliş Ləmbəranski gəlib muzeyə baxanda soruşdu ki, bu nə daşdır? Dedim, pemza, yə'ni süngər daşı. Dedi ki, pemza ən qiymətli daşdır. Biz onu Gürcüstandan gətiririk. Hansı ki, Kəlbəcərdə onun böyük yataqları var. Kəlbəcərdə belə şeylər çoxdur. Kəlbəcərdə obsidian var. Geoloqlar şahiddir, orada obsidian mə'dənini mən tapdım, geoloqları ora də'vət elədim. Bu barədə qəzetdə geniş yazıldı. Xalq arasında obsidiana dəvəgözü deyirlər. Qızdıranda onun həcmi 18 dəfə böyüyür, ondan arakəsmə düzəltmək olar. Nə isti, nə soyuq, nə su, nə də atom radiasiyasını keçirir. Biz bu barədə dəfələrlə yazdıq, məsələ qaldırdıq. Amma elə bil topu divara atdın, qayıdıb başımıza dəydi.

Yenə də deyirəm, ya xarici dövlətlərin köməyi, yaxud öz imkanımızla həmin daşdan istifadə etmək üçün karxanalar yaratmaq barədə indidən fikirləşmək lazımdır. Bu, həm dağılan Kəlbəcərə, həm digər rayonlara kömək edər, həm də camaatın iqtisadi vəziyyətini yaxşılaşdırar.

Mən Kəlbəcərin suları haqqında çox danışa bilərəm. Vaxtilə bir konfrans keçirildi, Həsən Əliyev oraya məni də də'vət etmişdi. Mən orada mə'ruzə etdim. Bir nəfər çıxış etdi ki, Azərbaycanda 200 mineral su var. Mən o iclasda durub həmin adamın leyhinə çıxış etdim. Dedim ki, təkcə Kəlbəcərdə 412 mineral su, 17 isti su mənbəyi var. İnanın, əgər o sular yığılsa, satılsa, Azərbaycanda heç kim işləməsə belə onların hamısını tə'min edə bilər. Bu suların başqa bir xüsusiyyəti də var. Məsələn, aran rayonlarının şoranlaşmasının hamısı o suların hesabınadır. Əgər onlar satılsa, — Tərtərçay bütünlüklə mineral sulardır, — onda heç vaxt aran rayonlarının torpaqları da şoranlaşmaz.

Kəlbəcərdə elə bir ev — qadın, qarı, qız, nəvə, nəticə yoxdur ki, gəbə toxumağı bacarmasın. Mən bu məsələni dəfələrlə qaldırmışam. Onların hamısını xalçaçılığa cəlb eləsək heç bir yardıma ehtiyacları olmaz. Özləri də dolanar, başqalarını da dolandırarlar.

Mən Kəlbəcərdə muzey direktoru idim. İndi də muzey direktoru işləyirəm. Kəlbəcərdə 4000 bitki növünü yığıb evdə qurutduq. Bir-birindən fərqli həmin 4000 bitkinin 200-ü dərman bitkiləridir. Kəlbəcərin dərman bitkilərini heç kim öyrənmədi. Amma biz onların nəyə dərman olduqlarını yazılı surətdə bildirdik. Vaxtınızı alıb bu fikirləri ona görə dedim ki, bunlardan istifadə etməklə Kəlbəcərin iqtisadiyyatını yüksəltmək olar.



Kəlbəcərin dərdindən on gün də danışmaq olar. Amma sözümü yekunlaşdırıram. Deyirlər ki, indi kadrlar düzgün seçilmir. Bəs o zaman kim idi kadrlar, kim idi? Sürücülər, sərxoşlar, quldurlar — ancaq belə adamlar. Belə adamlar olan yerdə Kəlbəcəri də, o biri rayonları da düşmənə verdilər. Vəziyyət belə idi. Ona görə də bu işləri törədənlər, o biri rayonlarda da, mütləq cəzalanmalıdırlar. Bunu bizdən camaat tələb edir. Biz bura gələndə camaat tə'kidlə xahiş etdi ki, bunları prezidentə, inzibati orqanlara çatdıraq, bu məsələlər aradan qaldırılsın.

Ən nəhayət, mənim sizdən son bir xahişim var. Kəlbəcərdə bir muzey var idi, cənab Ramiz Mehdiyev şahiddir, o muzeyi görmüşdü. O muzey haqqında minlərlə rə'y var. Həmin muzeyi Ermitaj, "dünyanın səkkizinci mö'cüzəsi" adlandırırdılar. O muzeyə bir maşın ayrıla bilməzdi? Dəfələrlə tələb etdik — olmadı. Nə isə, indi biz gəlib burada qalırıq. Mən ayrı işə akademiyaya da, başqa yerə də getmədim. Burada Kəlbəcər muzeyi yaratmaqla məşğulam. Bir manat da dövlət vəsaiti sərf edilmədən üç minə yaxın eksponat toplamışıq. Əlbəttə, bunu xeyirxah adamların gücü ilə etmişik. Mənim xahişim nədir? Bu muzey kəlbəcərlilərdə inam yaradır ki, kəlbəcərlilər Kəlbəcərə qayıdacaq. Amma bizim yerimiz yoxdur. Mən bir yerdə otaq tapmışam, eksponatların hamısını oraya yığmışam. Sizdən yeganə xahişim odur ki, göstəriş verəsiniz, bir yer ayırsınlar, Kəlbəcərə qayıdana qədər o muzeyi orada yerləşdirək. Eksponatları ora düzəndən sonra cəsarət edib mən Sizi o muzeyin açılışına də'vət edərəm, yə'ni bu məs'uliyyəti boynuma götürürəm.

Ən son sözüm isə kəlbəcərlilərədir. Gedib hamısını görmək olmur. Mən gələndən bəri minlərlə şe'r yazıb kəlbəcərlilərə göndərmişəm. Onların birindən bircə bənd oxuyuram:

Çəksəniz də qədərsiz
ağrıları-acıları,
Murovda dizin-dizin
sürünən qocaları,
Özünü çaya atan
qeyrətli bacıları,
Heyrətlə yada salın,
hörmətlə yada salın.
Vətəni satanları,
Qanımızı axıdıb
kürsüyə çatanları
Nifrətlə yada salın,
qəzəblə oda salın.
Eşidiniz Şamilin
sözün, kəlbəcərlilər,
Qaradiyə çatınca dözün,
kəlbəcərlilər.

Sağ olun.

Milli Məclisin deputatı
## ŞAHLAR ƏSGƏROVUN
çıxışı

Möhtərəm Prezident, icazə verin, çıxışıma Sizin bir fikrinizlə başlayım. Üç il öncə siz demişdiniz: "Bizim hamımızın bir vətəni var... bu, Azərbaycandır. Hamımız bir torpaqda yaşayırıq — bu Azərbaycan torpağıdır. Azərbaycan torpağının hər bir guşəsi bizim üçün müqəddəsdir".

Hörmətli görüş iştirakçıları. Mən sizin diqqətinizi bu hikmətli fikrin ideoloji dəyərinə, birləşdirici, əməli, yaradıcı dəyərinə yox, başqa bir məqamına cəlb etmək istəyirəm. Bu fikirdə bizim torpağımız — Azərbaycan torpağı müqəddəs e'lan olundu. Elimizin gözəl, qiymətli bir sözü var: "Əmanətə xəyanət etmək olmaz". Torpaq bizə atalardan əmanətdir, atalarımıza öz atalarından əmanətdir. Onlara da öz nəsillərindən əmanətdir. Bir kəsin əmanətinə xəyanət etmək olmazsa, nəsillərin əmanətinə heç xəyanət etmək olmaz. Güman edirəm ki, Prezidentimiz "torpaq müqəddəsdir" deyəndə, onu bir daha nəsillərin əmanəti kimi yadımıza salır, yə'ni bu, nəsillərin əmanətidir. Müqəddəs şeylər satılmaz, qorunar. Lazım gəlsə, can-başla qorunmalıdır.

Kəlbəcər müqəddəs Azərbaycan torpağının gözəl guşələrindən biridir. Lakin bu gözəl guşə satıldı. Bu xəyanətdə o zaman parçalanmış Azərbaycan hakimiyyətinin iki qolunun da marağı var idi. Əbülfəz Əliyev hökuməti primitiv düşüncə ilə güman edirdi ki, Kəlbəcəri düşmənə verməklə beynəlxalq aləm Ermənistanı təcavüzkar e'lan edəcəkdir. Surət Hüseynov və onun tərəfdarları isə güman edirdilər ki, Kəlbəcərin ermənilərə verilməsi ilə Əbülfəz Elçibəy hakimiyyətdən gedəcək və yaxud qarət üçün yaxşı imkan açılacaqdır. Şübhəsiz, Kəlbəcərin düşmənə verilməsində üçüncü qrupun da marağı var idi. Bu üçüncü qrup Əbülfəz Elçibəyin ətrafında oturan bəylər idi. Onların da bə'ziləri əlaltılar idi. Beləliklə, Kəlbəcər savadsızlığın, xəyanətin, satqınlığın, səriştəsizliyin qurbanı oldu. Savadsızlıq və səriştəsizlik nəticəsində bu müharibədə Kəlbəcərin rolu, strateji əhəmiyyəti düzgün qiymətləndirilmədi.

Əvvəla, bu münaqişə başlayanda Zori Balayan demişdi ki, Kəlbəcər Dağlıq Qarabağa nərdivandır. İkincisi, Kəlbəcər dağlarından baxanda Yerevan görünürdü. Mən hərbçi deyiləm, lakin hərbi dillə desək, onda Yerevan Bakının əlinin altında qalırdı, amma Bakı isə Yerevandan çox uzaq olurdu. Biz Kəlbəcəri itirməklə bu əhəmiyyəti itirdik. Üçüncüsü, Kəlbəcər və Laçın dağları Azərbaycanı qoruyan təbii divar idi.

Kəlbəcəri qorumaq olardı, amma qorumadılar. Bunun əvəzində Azərbaycanda ideologiyası, mə'nəviyyatı, atributları dağıdılmış sovet



dövlətinin vəzifə kreslolarında oturaraq onun qüdrətli iqtisadiyyatının potensialını paylaşdırmaqla məşğul idilər. Kəlbəcər diqqət mərkəzində deyildi, yaddan çıxmışdı. Güc nazirliklərinin rəhbərləri, digər ali orqanların başçıları Kəlbəcər verilən ərəfədə öz yerlərində oturmurdular. Müdafiə naziri müavininin kabinetində oturudu. Baş nazir öz müavininin kabinetində, yaxud başqa yerdə otururdu, Ali Sovetin sədri Prezident Aparatına gəlib-gedirdi. Bizim yerlimiz İsgəndər Həmidov Azərnəşrdə otururdu. Bütün bunlar ona görə edilirdi ki, kəlbəcərlilərin harayı heç yerə çatmasın və Kəlbəcər rahatcasına əldən verilsin. Mən indi bu nəticəyə gəlib çıxıram.

Əhalidə vahimə yaratmaq niyyəti ilə ordu Kəlbəcərdən sür'ətlə çıxarıldı. Əhali çaş-baş qaldı, ordunun dalınca düşdü. Bu, əlacsız və şərəfsiz bir tərketmə idi. Mən inanıram ki, əgər Kəlbəcərə qoşun yeridilməsəydi, kəlbəcərlilər ermənilərə təslim olmazdılar, özlərini qoruyardılar. Tarixdə bir neçə dəfə belə hal olubdur. Ermənilər heç zaman Kəlbəcərə daxil olmayıb. Heç bir kəlbəcərli öz torpağını nə satmazdı, nə də erməniyə verməzdi, ölənə qədər vuruşardı. Ancaq əqidəsi mə'lum olmayan bə'zi hərbçilər Kəlbəcəri satdılar.

Möhtərəm Prezident, mə'lumat üçün deyirəm ki, son zamanlar Kəlbəcərdə adamlar çox varlanmışdılar. Kəlbəcərdə kasıb yox idi. Bütün o var-dövlətlə birlikdə Kəlbəcəri satdılar. Qənizadə haqqında əhalinin fikri yekdildir. Kəlbəcəri, onun var-dövlətini, əhalisini erməniyə təhvil verən Qənizadəni Müdafiə Nazirliyinin müdafiə etməsi məndə təəccüb doğurur. Əgər Qənizadə hərbi texnikanı çıxarırdısa, qoyub çıxırdısa, onun müdafiə edilməsi təəccüblü işdir.

Əhali Kəlbəcəri tərk edəndə qışın oğlan çağı, mart ayı idi. Murovdağ keçidi dəniz səviyyəsindən 3200 metr yüksəkdədir. Hətta yayda bu dağı aşanlara qoçaq deyərdilər. Lakin uşaqdan qocaya kimi hamı bu zirvəni aşaraq piyada 90 kilometr yolu qət etdi. O zülmü, müsibəti ifadə etməyə sözün gücü çatmaz. Tarix buna bərabər zülm və zillət tanımır. Bu, XX əsrin Kəlbəcər müsibəti idi.

Möhtərəm Prezident, torpaqlarımız düşmən tapdağı altındadır. Qaçqınlarımız iqtisadi sıxıntılar içərisində yaşayır. Ancaq biz müdrik Şərq fəlsəfəsinə söykənərək başa düşürük ki, Prezidentlə həmrə'y olsaq, bir olsaq, həm iqtisadi vəziyyətimiz düzələr, həm də torpaqlarımız geri alınar. Biz başa düşürük ki, güclü dövlət qurmaqla torpaqlarımızı qaytara bilərik. Şükürlər olsun, Siz bu dövləti qurursunuz. Konstitusiyamız var. Milli Məclisimiz var, inşallah, dövlət aparatının digər struktur elementləri də qurulduqca hüquqi boşluqlar aradan götürüldükcə Azərbaycanda əmin-amanlıq da möhkəmlənər.

Möhtərəm Prezident, sizin görüşünüzə gələn bu insanlar söz qədri bilən insanlardır. Bə'ziləri isə sözün qüdrəti ilə şöhrətlənmiş insanlardır. Onların arasında şairlər, söz adamları çoxdur. Siz

dəfələrlə sözün qüdrətindən istifadə edərək mö'cüzələr etmisiniz. Bircə misal çəkəcəyəm. 1993-cü ilin noyabr ayında televiziya vasitəsilə 40 dəqiqəlik çıxışınızın tə'siri altında Əlikram Hümbətovun müasir silahlarla silahlanmış 3 min nəfərlik ordusu günəş şüalarının altında buz əriyən kimi əridi. Sözün qüdrəti nəticəsində əridi. Biz inanırıq ki, Siz sözün gücündən istifadə edərək torpaqlarımızı sülh yolu ilə azad edəcəksiniz. Siz bizə, öz ardıcıllarınıza həmişə deyirdiniz ki, ağıl olan yerdə gücə ehtiyac yoxdur. Əgər belə bir gücə ehtiyac olarsa, Kəlbəcər əhalisi Sizin əmrinizi gözləyir. Sağ olun.

Şəhid atası
HÜSEYN HACIYEVİN
çıxışı

Hörmətli Prezident, hörmətli dövlət nümayəndələri, görüş iştirakçıları. 1988-ci ildə ermənisifət bir dəstə, bizim o dövlətin başında olan quldurlar məkrli ermənilərlə birləşib Kəlbəcəri aradan çıxarmaq istəyirdilər. Əlövsət Ağalarov o zaman Bakıdan zəng etdi ki, Hüseyn dayı, raykomda Təhməz Cəfərovu tapmadım. Bakıda kimsə söz verib, Yerevandan bir dəstə gedib Kəlbəcərdən Stepanakertə. Düzdür, kəlbəcərlilər bilirdilər ki, erməni oraya gələ bilməz. Ancaq xainlər Azərbaycanın qala qapısı olan Kəlbəcəri düşmənə verdilər.

Azərbaycanın neçə rayonunun sürüləri Kəlbəcər dağlarında otlayırdı, ona görə də Azərbaycanda qoyunçuluq inkişaf edirdi.

1993-cü il mart ayının 29-da saat 20.00-də İsa Qəmbərov televiziya ilə çıxış etdi. Laçında 400-ə qədər əsgər vardı. Dedilər ki, Laçından əhali yox, ordu çəkilsin Kəlbəcərə. Necə çəkilsin? Ayın 1-də bax o Məhyəddin müəllimgilin qapısından keçəndə gördüm ki, hərbçilər gözləyirlər. Evləri talan edib ordunu çəkdilər. Biz camaatın yanında gözü kölgəliyik.

Yoldaş Əliyev, adam ölür, yerə girir. Sual verirlər ki, yerinizi tərk edib niyə gəlmisiniz? Qalırsan nə deyəsən? Bax, bunu Bakıdakılar planlı şəkildə etdilər, ordu çəkildi. Kəlbəcərdə Gülzar adlı cavan bir gəlin özünü körpüdən atdı, qayaya dəyib elə orada öldü. Neyləsin, erməni gəlib çatmışdı.

Yoldaşlar, başımıza belə müsibətlər gəlib. Lakin inanırıq ki, biz kəlbəcərliləri yoldaş Heydər Əliyev öz torpaqlarımıza qaytaracaq.

Yoldaş Əliyev, bizim camaat mərd camaatdır. Burada aldanmışıq, bizim özümüzdə günah çoxdur. Bir dəfə 1992-ci ildə Qaraqayadan, Ermənistan tərəfdən beş əsgər kəşfiyyata çıxıb görür ki, avtobus gəlir, 42 nəfər də bir "BelAZ"da gəlir. Bir nəfər qumbaraatanla onların hamısını qırır, avtobusu da "BelAZ"ı da partladır.



Kəlbəcəri aldatdılar, aldanmışıq.

Prezidentimiz Heydər Əliyevə nəinki Azərbaycan xalqı, bütün dünya dövlətləri, dünya müsəlmanları inanırlar. O, Azərbaycanda müstəqil dövlət yaradır. O, sübut etdi ki, Azərbaycan müstəqil dövlətdir və onun rəhbəri var. Yoldaş Əliyev, əgər torpaqlarımızın qaytarılması xoşluqla, siyasətlə başa gəlməsə, biz öldürməyə də, ölməyə də hazırıq. Ağsaqqal yaşımda mən də buna hazıram.

Mən bilmirəm. Müdafiə naziri buradadır, ya yox. Onda Nicat müəllimə deyirəm, komandir ailəsinin bir xahişi var. Altı aydır, onların pensiyalarını gətirmirlər.

Yoldaş Əliyev, Kəlbəcər camaatının bir xahişini Sizə yetirmək istəyirəm. Kəlbəcərlilərin kəsiləcək qurbanları var. Belə bir şərt kəsək ki, qayıdaq öz yerimizə, yurdumuza, Siz də Kəlbəcərə qonaq gələsiniz, o qurbanları Sizinlə birlikdə, Sizin ayağınızın altında kəsək.

Biz Qəbələ rayonunda məskunlaşmışıq. Nə Bakıda, nə Sumqayıtda, nə Bərdədə, nə Tərtərdə, nə Gəncədə, nə Mingəçevirdə — heç yerdə qaçqınlara o boyda hörmət qoymazlar. İnanın, icra hakimiyyətinin başçısı tapşırıb, Qəbələdə, ətrafda olan qaçqınlara heç kim çörəyi 700 manatdan artığa sata bilməz. Yerli adamlara 1000—1200 manata satırlar. Qaçqınlara çörəyi ilk növbədə verirlər, deyirlər, qonağı birinci yola salaq.

Orada bizim bir sahə var, kaş kənd təsərrüfatı naziri burada olaydı. Orada barama yetişdirmək üçün 200 min şitil var, bunları lazımi təsərrüfatlara aparaydılar. O şitillər məni yandırır, sahə qalıb başlı-başına. Kolxozlar bu işə baxmır. Burada Ağalar Ağayev var, onunla bir yerdə bizim adamlar becərirlər. O, bizə yaxşı şərait düzəldib. 45 nömrəli yol idarəsinin rəisi Fərid İsmayılovun adını çəkmək istərdim. Bizə ki, bu qədər hörmət qoyurlar, mən camaatımız adından Qəbələ rayonunun icra hakimiyyətinə, rayonun bütün ağsaqqallarına, cavanlarına minnətdarlığımı bildirirəm.

İndi bir şey yadıma düşdü. Bayaq Şamil müəllim dedi kəşfiyyat batalyonunun komandiri Mahir Quliyev Murovun ətəyində, Meydan çayında Qənizadəyə dedi ki, sizi əlimlə güllələyəcəyəm, Kəlbəcəri niyə vermisiniz? Qənizadə Mahiri evinin yanında güllələdi, öldürdü. Baş prokurordan, müdafiə nazirindən milli təhlükəsizlik nazirindən xahişimiz budur ki, bu cinayətkarları cəzalandırsınlar. Sağ olsunlar, yaxşı başlayıblar. Azərbaycanda aparatlarda nə qalmadı üzə çıxmasın! Eşidəndə camaat dəhşətə gəlir. Qoy, Prezident sakit olsun, arxayın olsun. Azərbaycanın belə prokuroru, müdafiə naziri, daxili işlər naziri, milli təhlükəsizlik naziri var.

*(Sonra natiq Kəlbəcərin düşmənə verilməsinin 3-cü ildönümünə həsr etdiyi "Kəlbəcər" şe'rini oxudu).*

Pensiyaçı
## GÜNƏŞ TAĞIYEVANIN
çıxışı

Hörmətli Prezident, hörmətli toplantı iştirakçıları! Azərbaycanın hər guşəsinə səpələnmiş elsiz-obasız, evsiz-eşiksiz, işsiz-torpaqsız, ölənlərinin basdırıldığı qəbiristanın yerini bilməyən Kəlbəcər didərginləri! Gözü yolda, qulağı səsdə itkinlər, girovlar yolunu gözləyən analar, bacılar, gəlinlər! Biz buraya Kəlbəcərin süqutunun, işğalının, Kəlbəcər müsibətinin üçüncü ildönümünü keçirmək, Kəlbəcər faciəsini yad etmək, öz ağrı-acılarımıza əlac etmək, dərdlərimizi bölüşmək, müsibəti törədən caniləri aşkarlamaq və ciddi tədbirlər görülməsini tələb etmək üçün toplaşmışıq.

Hörmətli Prezidentimiz Heydər Əliyev cənabları! Kəlbəcər anaları adından minnətdarlığımı bildirirəm ki, respublikamızın bu ağır vaxtında bizimlə görüşməyə öz vaxtınızı ayırmısınız, bizim dərdimizə, ağrılarımıza şərik olmaq üçün sə'y göstərmisiniz. Cənab Prezident! Mən Kəlbəcər anaları adından çıxış edərək deyirəm: Biz analar sizin sülh siyasətinizi dəstəkləyirik, sülh istəyirik, tam sülh, yalnız tam sülh istəyirik, təki anaların göz yaşları axmasın.

Hörmətli Prezident! Kəlbəcər işğal olunmadı, — bu, Sizə mə'lum olsun, — Kəlbəcər xəyanətin qurbanı oldu, Kəlbəcər satıldı və eyni zamanda Kəlbəcər qurbansız, qansız təslim olmadı. Kəlbəcərin dağları yolları, daşları, qayaları Kəlbəcərin igid oğlanlarının, mərd qızlarının, qeyrətli qadınlarının qanı ilə boyandı. Kəlbəcər belə təslim oldu. Yüzdən artıq hərbi və mülki şəxs öldürüldü, 320 nəfərdən çox itkin və əsir düşdü. Bax, elə buna görə də biz kəlbəcərlilərin faciəsini Kərbəla müsibəti adlandırmaq istəyirik. Hər daşı, hər qayası bir səngər olan alınmaz qala, basılmaz türk eli çox-çox asanlıqla, səriştəsiz, təcrübəsiz rəhbərlərin, satqın ordu zabitlərinin əli ilə satıldı. Ordu mülki şəxslərdən qabaq rayonu tərk etdi. On hərbi post bir gündə boşaldı. Kəlbəcərin igid oğlanları əliyalın qaldı. Köməksiz xalq yüz illərlə qazandığı, yığdığı, tikdiyi malı-mülkü qoyub qaçmağa üz tutdu.

Yaxşı ki, o vaxt İnqilab Nadirovun sə'yi nəticəsində dəniz səviyyəsindən 3200 metr yüksək olan Murov dağının zirvəsində bir qeyrət yolu açılmışdı. Kəlbəcər camaatı yalnız o dar cığırla özlərini 4—5 metr qalınlıqda qarın içinə vuraraq, dalı şələli sürünə-sürünə, əlində yalnız bir bağlama ilə qaçdı. Ölənlər öldü, qalanlar dizin-dizin sürünə-sürünə Gəncə və Xanlara çatdılar. Mən burada demək istəyirəm, Gəncənin, Xanların əhalisi çoğ sağ olsun ki, Kəlbəcər camaatını məmnuniyyətlə qəbul etdi, onları yerləşdirdi.

Beləliklə, Kəlbəcər güdaza getdi. Bayaq Əkbərovun dediyi kimi,



hələ o vaxt tikdiyimiz beşmərtəbəli evlərlə əhatə olunmuş, dağlar qoynunda yerləşmiş Kəlbəcər odlara qalandı.

Adları həmişə qeyrətlə çəkilən qızlarımız çox olub. Qızlarımızın, gəlinlərimizin qeyrəti, türk qızlarının, Azərbaycan qızlarının hünəri həmişə dillərdə dastan olmuşdur. Hörmətli Prezident, bu cür qeyrətli xalqı olan Kəlbəcər niyə satıldı? Kimin əli ilə satıldı? Biz anaların birinci tələbi budur: İndiyədək üstü açılmamış, müəmmalı qalmış bu işin cinayətkarları aşkar edilsin, günahsız qanlara bais olanlar öz cəzalarına çatsınlar.

Hörmətli Prezident, biz Sizin əmrinizlə döyüşə də, ölümə də getməyə hazırıq. Lakin girov aparılmış 140 nəfərdən çox Kəlbəcər qadını, o cümlədən 16 yaşından 25 yaşınadək 32 nəfər bakirə kəlbəcərli qızı, onların namusu ermənilərin ayağı altında tapdalanır. Onların saçları erməni dığaların əlində yolunur. Onların başları erməni qəbirlərinin üstündə qurban kəsilir. Kəlbəcərin ən yaxşı, gözəl qızları toy eləyən erməni gəlinlərinin qabağında, ayağı altında kəsilir. Biz sual edirik: İgid qadınların namusu niyə tapdalanmalıdır? Biz tələb edirik: Qadınlarımızın namusunu tapdaladanlar axtarılıb tapılsın, onların cəzası verilsin.

Hələ də yadımdadır, o vaxtlar, Xocalı soyqırımı zamanı mən Kəlbəcərdə Qadınlar Şurasının sədri işləyirdim. Gördüm ki, Kəlbəcər təklənəcək, o faciə bizim də başımıza gələcəkdir. Kəlbəcər qadınları adından Türkiyə Qadınlar Cəmiyyətinə, o vaxt hələ sağ olan Turqut Özala və Dünya Qadınları Konfederasiyasına teleqramlar vurdum ki, bizim imdadımıza yetin, qoymayın ki, türk qızının saçları erməni dığaların əlində yolunsun.

Mənə Türkiyədən, Dəmirəldən cavab da gəldi. Müsahibə verdim, türk qadınları da gəldilər. Lakin o fəryadları eşidib kömək göstərən olmadı. Biz əvvəldən fəryad edirdik. Hələ 1990-cı il iyunun 11-də ermənilər camaatımızın qarşısını kəsib, 24 nəfərin 24 maşınını yandıranda, bir-iki nəfəri öldürəndə, iki hərbçini qətlə yetirəndə biz fəryad qaldırmış, səsimizi ucaltmışdıq. Amma heç yerdən köməyimizə gələn olmadı. Səriştəsiz rəhbərlərimiz, onların yerlərdə vəzifələrə qoyduğu və heç nədən xəbəri olmayan bəylər Kəlbəcəri satdılar, daha doğrusu, təslim etdilər.

Hörmətli cənab Prezident! Siz istəyirsiniz ki, torpaqlarımız sülh yolu ilə geri alınsın. Buna biz də razıyıq. Yox, əgər sülh ilə alınmasa, onda biz döyüşə hazırıq. Əgər torpaqlarımız sülh ilə alınarsa, Vətənin torpağını döşək, daşını, yastıq, kağızını özümüzə ev hesab edərik. Yenidən yurd-yuva quraraq, təki qaçqınlıq, didərginlik adı üstümüzdən götürülsün. Yardım düyünçəsindən gözümüz yığılsın, yataqxanaların cansıxıcı sükunətindən canımız qurtarsın. Anam deyərdi: İnsan dəyanətlidir, dözümlüdür, yenə yuva qurub balalarımızı dolandırarıq.

Hörmətli Prezident! Əgər torpaqlarımız sülh yolu ilə qaytarılmasa, biz analar bu qoca vaxtımızda silaha sarılıb döyüşə getməyə hazırıq. Biz ümidimizi Sizə bağlamışıq, biz buraya ümid işığına yığışmışıq. Siz ümid çırağının alovlanan şö'ləsisiniz. Sizin ətrafınıza toplaşmışıq.

Hörmətli Prezident! Sizin müdrik sülh siyasətiniz sayəsində iki ilə yaxındır ki, anaların üstünə qara tanklar gəlmir, ana-bacıların gözündən qanlı yaşlar axmır. İki ilə yaxındır ki, həyətlərdə yas mağarları əvəzinə toy mağarları qurulur, analar acı göz yaşı əvəzinə sevincdən göz yaşı tökürlər, oğul evləndirirlər, qız köçürürlər. Biz istəyirik ki, belə olsun, müharibəyə son qoyulsun. Bu, anaların yeganə arzusudur. Biz istəyirik ki, anaların ağ birçəkləri bir də solmuş üzlərin al qanına boyanmasın, bacılar saçlarını yolub fəryad etməsin, gəlinlərin gözləri yol çəkməsin, sevilən nişanlı qızlar gizli-gizli ağlamasın, körpə balalar ata üzünə, ana nəvazişinə həsrət qalmasın. Təki sülh olsun, əmin-amanlıq olsun, torpaqlarımız özümüzə qayıtsın. Biz buna əminik və Sizə minnətdarıq.

### İtkin düşmüş oğul anası
### SƏMAYƏ HÜMMƏTOVANIN
### çıxışı

Hörmətli Prezidentimiz, hörmətli millət vəkillərimiz! Mən itkin düşmüş bütün oğulların anaları adından çıxış edirəm. Biz oğullarımızı böyütmüşük ki, bu gün torpağımız uğrunda döyüşsünlər, lazım gəlsə canından keçsinlər. Özümüz də buna hazırıq. İnanırıq ki, Siz əldən getmiş torpaqlarımızı geri alıb bizi öz yurdumuza-yuvamıza qaytaracaqsınız. Biz buna əminik. Bilirik ki, müharibədə qan da tökülməlidir, itkin də, şəhid də olmalıdır.

Əziz Prezidentimiz, iki il iki aydır ki, bizim — səkkiz nəfərin oğlanları Kəlbəcər rayonundakı axırıncı döyüşdə itkin düşüblər. Bu müddətdə o itkin oğlanların adları bir yerdə də çəkilməyibdir. Onların itkinliyindən əlavə, adlarının çəkilməməsi də bizə çox tə'sir edəyir. Axı, onlar torpaq uğrunda gediblər. Özləri gediblər ki, analarını, bacılarını qorusunlar. Bu iki il iki ayda o itkinlərin, qoçaq oğlanların bircə dəfə adı çəkilməyibdir ki, biz analar da təskinlik tapaq. Mən bir ana kimi Sizdən xahiş edirəm ki, o itkinlərin taleyinin düyününü, kilidli qapıları açasınız.

Hörmətli Prezident, bizim sizdən savayı heç bir pənahımız yoxdur. Mən iki il iki aydır yol gözləyirəm. Qapıma tabut gəlməyib, gözüm yoldadır, bilirəm ki, o oğlanlar ermənilərin əlindədirlər, sağ-salamatdırlar. Bizim ümidimiz yalnız Sizədir, bəlkə Siz onları dardan qurtarasınız.



Mən bir ana kimi inanıram ki, torpaqlarımız sülh yolu ilə geri alınacaqdır, biz öz yurdumuza, yuvamıza qayıdacağıq. Torpaqlarımız sülh yolu ilə alınmasa, mən öz övladlarımla birlikdə bu qoca vaxtımda yurdumuzu azad etmək üçün döyüşə getməyə hazıram.

### Kəlbəcərli inşaatçı
### QARAŞ ƏLİYEVİN
### çıxışı

Hörmətli, əziz Prezidentimiz! Mən yeni Azərbaycan Partiyasının Kəlbəcər rayon təşkilatının yaradılmasının iştirakçısıyam. Kəlbəcərin ermənilərə necə verilməsinin əvvəldən axıra kimi şahidi olmuşam. Qısaca deyim ki, Kəlbəcər düşmənə müqavimət göstərilmədən verildi. Surətin quldur dəstəsi Kəlbəcəri işğal elədi, talan elədi. Hətta onlar qara paltarda gəzirdilər ki, ermənilər onlara güllə ata bilməsinlər.

Hörmətli Prezident, əgər 1988-ci ildə respublikamıza Siz rəhbərlik etsəydiniz, bu hadisələrin heç biri olmazdı. Xalq bunu bilir, hiss edir. Allah-Təala Sizə uzun ömür, cansağlığı versin, torpaqlarımız tezliklə azad olunsun, biz də öz yerimizə, yurdumuza qayıdaq.

Mən özüm şahidiyəm ki, Kəlbəcərin əhalisi ah-nalə ilə, sızıltı ilə Murov dağına dırmaşırdı. Mən orada idim. Hətta ayaqlarım da yanmışdı. Bakıdan bir neçə yoldaş gəldi. İnanın ki, onlar gəlməsəydi, bəlkə də çox körpə uşaqlarımız, qocalarımız məhv olardı. Onlardan milis mayoru Həsənov, Əlövsət Ağalarov, keçmiş milis rəisi Yusif Əhmədov ərzaq, pal-paltar sarıdan camaata çox kömək göstərdilər. Biz başıalovlu Gəncə tərəfə aşa bildik.

Mən bir şeyin şahidiyəm. Həmin Qənizadənin məhkəməsində iştirak edirdim. Ona sual verdim: Ağdərə alınanda bizim uşaqlar mina basdırmışdılar ki, ermənilər oraya soxula bilməsin, bəs o minaları niyə çıxartdın? Dedi ki, bizə belə göstəriş verilmişdi, biz oraya texnika aparacaqdıq. Bizim uşaqlar yarım saat minaları təmizləyəndən sonra erməni quldur dəstələri oraya soxuldu. O dedi ki, bu, mənlik deyil. Hətta ayın 27, 28 və 29-da Laçın tərəfdən güclü texnika gətirilmişdi. Hamısının da üstündə "Surət" yazılmışdı.

Bizim idarə tunelin yanında yerləşirdi. Mən 50 nömrəli Kəlbəcər rayon tikinti idarəsinin rəisi idim. Geri çəkilənlərin qabağını kəsdim, dedim, a bala, hara gedirsiniz? Erməni bu tərəfə gəlmir, aşağıdan, Ağdərə tərəfdən gəlir. Xahiş edirəm istiqamətinizi o tərəfə dəyişin. Dedilər ki, yox, komandirimiz bizə belə göstəriş verib, biz Murov dağında mövqe tutmalıyıq. Dedim ki, siz Murov dağına gedib çatanacan erməni gəlib Kəlbəcəri tutacaq. Dedilər ki, yoldan çəkilin. Nə edə bilərdim, yoldan çıxdım. Bunlardan sonra Kəlbəcərin faciəsi başlandı.

Biz hətta bir neçə yoldaş ayın 24, 25 və 26-da o sərištəsiz prezidentimizə teleqramlar vurduq ki, Kəlbəcərin vəziyyəti ağırdır, amandır, kömək əlinizi uzadın. Amma teleqramlarımıza cavab verən olmadı.

Hörmətli Prezident, biz Sizin apardığınız sülh siyasətinə inanırıq. Buna da inanırıq ki, tezliklə torpaqlarımız qaytarılacaq. 1991—92-ci illərdə Ali Sovetin binası qarşısında nümayişlər keçirilirdi. Mən oraya gəldim. Bu işin təşkilatçıları Əli Nağıyev və Ziya Paşa adlı bir nəfər idi. Mən irəli çıxıb dedim: Ay buraya yığışan Azərbaycan xalqı, sizdən bir xahişim var. Görürünüz ki, respublikamız ağır vəziyyətdədir. Bizi bu ağır vəziyyətdən yalnız bir şəxsiyyət qurtara bilər. Sizdən xahiş edirəm, hörmətli və əziz ağsaqqalımız Heydər Əliyevi bura də'vət edin, qoy gəlib bizi bu bəlalardan qurtarsın. Orada olanların əksəriyyəti mənim sözümü müdafiə etdi. Mən Gəncə hadisələrində də iştirak etmişəm və öz sözümü orada da demişəm. Demişəm ki, əziz gəncəlilər, əziz qaçqınlar, əziz həmvətənlər, respublikamızı ağır vəziyyətdən qurtarmaq üçün yeganə ümidimiz Heydər Əliyevdir. Xahiş edək, qoy gəlib bizə rəhbərlik eləsin.

Hörmətli Prezident, Sizin göstəriş və qayğınız sayəsində biz qaçqınlara çox kömək olub. Hörmətli respublika prokurorumuz Eldar Həsənov Sizin göstərişinizlə bizə həmişə kömək edir. O, hər dəfə bizi yanına toplayanda, ya da biz onun qəbulunda olanda bizi tam inandırır ki, hörmətli prezidentimizin daxili və xarici siyasəti nəticəsində torpaqlarımız tezliklə geri alınacaq və gördüyünüz camaata da çatdırın ki, tezliklə Kəlbəcərə qayıdacağıq.

Mənim bircə arzum budur ki, tezliklə Kəlbəcərə qayıdaq və rayonumuzun mərkəzində hörmətli prezidentimizin heykəlini ucaldaq. Sizə uzun ömür, cansağlığı, xoşbəxtlik arzulayıram.

## Milli Qəhrəman atası, müharibə əlili MƏDƏT SƏFƏROVUN çıxışı

Yoldaş Prezident, Kəlbəcər alınmaz qaladır. Ata-babalarımız demişdilər ki, qabaqlar — 1905-ci ildə də, 1918-ci ildə də, 1920-ci ildə də ermənilər hücuma keçəndə adamlar bu yerləri şana ilə, adi qara tüfənglə qoruyub müdafiə edirdilər. Kəlbəcərə erməni heç vaxt girə bilməzdi. Nə üçün? Çünki Kəlbəcər alınmaz qala idi. Rayonumuzda iri postlar qoyulmuşdu. İcra hakimiyyəti başçısının yanına gedib dedim ki, postlara Bakıdan, Sumqayıtdan, digər rayonlardan gələnlər başçılıq edirlər, onlar isə yolu-izi bilmirlər. Bizim kimi veteranları postlara başçı qoy, biz onlara yol da göstərərik, cığır da. Belə olarsa, Kəlbəcər alınmaz. Qayıdıb nə desə yaxşıdır: bu sənin işin deyil, get yerində otur. Bu hələ harası idi! Hətta əlimizdəki quşvuran tüfəngləri də yığdılar. Əgər Kəlbəcər camaatına imkan, silah versəydilər, cavanları demirəm, qadınlar, mənim kimi qocalar bir ermənini də torpağımıza buraxmazdı.

Mənim oğlum 11 il Rusiyada işlədi. Gəlib könüllü surətdə Şuşaya getdi. Şuşada polisin istintaq şö'bəsində işləyirdi. Salatın Əsgərovanı öldürən qulduru da oğlum yaxalayıb tutmuşdu. Bunu mənə onun şoferi söyləyib. O, Xankəndinə gedərkən arxadan ona 8 güllə vurmuşdular. Mən gəlib qoymadım ki, oğlumu Şəhidlər xiyabanında basdırsınlar. Allah Əsədova, Qayıbova, rəhmət eləsin. Onlar vertolyot verdilər, mən minib getdim. Ağdərənin üstündən keçəndə ermənilər bizi atəşə tutdu. Şuşadan dərhal cavab atəşi açdılar. Keçib getdik. Qayıbovun özü mənə dedi ki, oğlunla söhbət etmişəm, onun bacarığına bələdəm. Dedi, sən apar oğlunu dəfn elə, qayıt yanıma gəl. Oğlumu torpağa tapşıranda Şamil müəllim orada idi. Oğlumu dəfn edəndə dedim, şükür Allaha ki, mənim balam girov düşmədi. Ona ölümündən sonra Milli Qəhrəman adı verildi. İndi bizim nəsli bütün ölkə tanıyır. Möhtərəm Prezident, Allah Sənin canını sağ eləsin. Sən bütün dövlətlərə sübut etdin ki, genosid törədən biz yox, ermənilərdir.

Hazırda mən Xətai rayonunda məskunlaşmışam. Küçələrdən birinə oğlumun adı verilibdir, buna görə çox sağ olun. Amma bu barədə göstərişə indiyədək əməl edilməyib. Qızım dərsə gedib-gələndə deyir ki, ata, orada heç bu adda küçə yoxdur. Oğlumun 1992-ci ildən heykəlini düzəldiblər. Amma bu heykəl hələ də anbarda qalır. Mən onu Kəlbəcərə aparası idim, apara bilmədim. Kəlbəcər əldən getdi. Sağ olsun Xətai rayon icra hakimiyyətinin başçısı, mənə bir ev verib. Mənə həmişə hörmət edib. Mənə yataqxanadan yardım ayırırlar, başqa yerdən yardım görmürəm. Qaçqınlar komitəsində Ədalət müəllim adlı bir nəfər var. Yanına gedəndə həmişə qarşılayır. Ailəmizin üzvlərindən birini infarkt vurdu, dərman almağa pulum yox idi, onun yanına getdim. Hər şeyi bir andaca təşkil etdi. Özümə də birinci qrup əlil kimi, qaçqın kimi əl tuturlar. Məni bir şey ağrıdır, avtobusa minəndə, bir yerə gedəndə eşidirəm ki, deyirlər: "Qaçqınlar, yurd-yuvasını tərk edib bura gəliblər". Mən buraya gələndən bəri üç dəfə üzərimdə cərrahiyyə əməliyyatı aparılıb. Hətta bu vəziyyətimdə də, bir ağsaqqal kimi, rayona qayıtmağa hazıram.

Hörmətli Prezident, Sizi dəstəkləyir, Sizə minnətdarlığımı bildirirəm. Qoy Allah-Təala Sizi sağ eləsin, Kəlbəcər qayıtsın. Xətai rayon icra hakimiyyətinin başçısı Gündüz müəllimə də minnətdaram. Məni həmişə yoxlayır, adam da göndərir, gəlib özü də baş çəkir. Sağ olun.

Milli Məclisin üzvü
ƏLÖVSƏT AĞALAROVUN
çıxışı

Hörmətli cənab Prezident, hörmətli görüş iştirakçıları! Bu gün Kəlbəcərin çox ağır bir günüdür. Bildiyiniz kimi, üç il bundan qabaq Kəlbəcər düşmənə çox xəyanətkarcasına təhvil verilib. Kəlbəcər camaatı möhtərəm prezidentimizə öz təşəkkürünü bildirir ki, işinin başdan aşdığı bir vaxtda imkan tapıb Kəlbəcər ziyalılarını, Kəlbəcər qaçqınlarını, nümayəndələrini qəbul edir.

...1981-ci il idi. Universitetdə qəbul imtahanları gedirdi. Onda mən Leninqradda oxuyurdum. Universitetin qarşısına çoxlu adam toplaşmışdı. Avqustun 1-də Heydər Əliyev oraya gəldi, hamı ilə görüşdü. Mənimlə də tanış oldu, dedim ki, Kəlbəcərdənəm. Leninqradda oxuyuram. Fakültəmi soruşdu. Dedim, jurnalistikada oxuyuram. Həsən Həsənovu yanına çağırıb dedi: Bu oğlanın adını yaz, bu cavanın Kəlbəcərdən gedib Leninqradda oxumasının özü diqqətəlayiq faktdır. Camaata üz tutub, bildirdi ki, görürsünüz, sonra da gedib deyirsiniz ki, qəbulda ədalətsizliklər olur. Əgər bu adam Kəlbəcərdən gedib Leninqrad Universitetində oxuya bilirsə, deməli, bizdə ədalət var.

Daha bir diqqətəlayiq fakt. 1995-ci il noyabrın 12-də Milli Məclisə seçkilər keçirilirdi. Kəlbəcər, Xocalı, Laçın, Tərtər seçki dairəsindən namizədliyim verilmişdi. Seçkilərin demokratik keçirilməsinə, bundan ötrü əlverişli şərait yaradılmasına görə mən yenə də Heydər Əliyevə minnətdaram. Mən bunu bizdə demokratiyanın təntənəsi kimi qiymətləndirirəm. Axı, mən kiməm? Adi bir adam, adi bir vətəndaş. Amma Milli Məclis kimi ali qanunvericilik orqanında təmsil olunmuşam.

Kəlbəcərlə bağlı bir məsələni də demək istəyirəm. Kəlbəcərin işğalından əvvəlki vəziyyət barədə, Şamil müəllim Kəlbəcərin Azərbaycan üçün nə demək olduğu barədə ətraflı mə'lumat verdi. Biz Eldar Namazovla 1984-cü il iyulun 4-də Moskvada bir müşavirədə idik. Müşavirə millətlərarası münasibətlər məsələsinə həsr olunmuşdu. O vaxt mən Moskvada staj keçirdim. Müşavirədə Zori Balayan ilə Poqosyan bizdən qabaqkı sırada oturmuşdular. Rəhmətlik Əjdər Xanbabayev, mən və bizim qalan nümayəndələr arxada oturmuşduq. Volski çıxış edib dedi ki, mən bütün SSRİ-ni gəzib dolaşmışam, amma Dağlıq Qarabağ qədər geri qalmış bir vilayət görməmişəm. Dözə bilməyib yerimdən durdum, pasportumu çıxarıb dedim ki, Arkadi İvanoviç, mən sizin SSRİ Ali Sovetinə deputat seçildiyiniz Kəlbəcər rayonunun nümayəndəsiyəm, oranın vətəndaşıyam. Çox təəssüf edirəm ki, siz indiyədək nə Laçında, nə Qubadlıda, nə də Kəlbəcərdə olmusunuz. Bunu eşidən Zori Balayan qayıtdı ki, Kəlbəcər də bizim



olacaq. O vaxtdan həmin söz beynimdədir. Mən bu barədə mətbuatda da yazmışam, hər yerdə çıxışlarımızda demişik ki, onlar artıq hazırlıq görürlər.

1988-ci ildə Kəlbəcər Ermənistandan, öz ölkəmizdən köçürülən camaatımızla birlikdə bir qaçqınlıq dövrü yaşadı. 1992-ci ilin may ayında Laçın düşmənə veriləndə rayon əhalisinin əksər hissəsi Kəlbəcərdən gəlib keçdi. Kəlbəcər ikinci qaçqınlıq dövrünü yaşadı. Kəlbəcərin üçüncü qaçqınlıq dövrü 1993-cü ilin mart ayında başlandı. Bu, Kəlbəcərin ən ağır dövrü idi. Kəlbəcərə kömək etmədiyimizə görə, onun dağlarının əzəmətini özünə qaytara bilmədiyimizə görə, bu elləri qoruyub saxlaya bilmədiyimizə görə mən özümü də qınayıram, özümə də şübhə ilə baxıram ki, biz hələ Azərbaycan övladı, Kəlbəcər övladı deyilik. Lakin biz bu günahı yumağa hazırıq. Torpaqlarımız sülh yolu ilə, danışıqlar yolu ilə qaytarılmasa biz, Azərbaycan xalqının qeyrətli oğullarının hamısı silaha sarılaraq torpaqlarımızın azadlığı uğrunda vuruşmağa hazırıq.

Cənab Prezident, Kəlbəcər düşmənə verilən ərəfədə mən Bakıda Kəlbəcər ziyalılarının "Murovdağ xeyriyyə cəmiyyəti" sədrinin müavini idim. Sədrimiz Tibb Universitetinin professoru Bəhram Sarıyev idi. Biz kəlbəcərlilərə mə'nəvi və maddi kömək məqsədi ilə cəmiyyətin işini daha da fəallaşdırmışdıq, əlimizdən gələn hər köməyi edirdik. Vaxt olurdu ki, biz oraya vertolyotla, maşınlarla nə lazım idisə daşıyırdıq. Günlərin bir günü, daha doğrusu, martın 23-də qayıdıb gələndə dedim ki, Kəlbəcər əldən gedir, gəlin, tə'cili tədbirlər görək. Yığışıb məsləhətləşdik ki, nə etmək lazımdır. Respublika rəhbərliyinə müraciət etdik.

Mən o vaxtkı prezident Əbülfəz Elçibəylə iki dəfə — Kəlbəcərin işğalı zamanı və işğalından sonra telefonla danışdım. Soruşdu ki, nə var, nə yox? Dedim, Kəlbəcərin vəziyyəti çox pisdir. Kəlbəcər əldən gedir. Martın 27-də səhər saat dörd olardı. Dedi ki, mən Kəlbəcərə başımla cavabdehəm, biz Kəlbəcəri qorumağa hazırıq. Kəlbəcərdə kiminsə başından bir tük əskik olmayacağına tə'minat verirəm. Onu da dedi ki, vaxtilə Hitler gəlib Moskvanın həndəvərinə çıxmışdı. Axırı nə oldu, vurub çıxartdılar.

Dözmədim, əsəbiləşib kəskin cavab verdim. Bəlkə də düz etməmişdim. Respublikanın rəhbəri ilə belə danışmaq olmazdı. Amma sözümü dedim: Hər halda onda SSRİ-nin Azərbaycan ordusu kimi pərakəndə, başıpozuq ordusu yox idi.

Kəlbəcər düşmənə veriləndən sonra zəng vurdular ki, hə, nə oldu, Kəlbəcəri niyə verdiniz, Kəlbəcər niyə əldən getdi? Dedim ki, Kəlbəcəri burada oturanlar verib, əgər belə niyyətiniz vardısa, barı deyəydiniz, qocaları, qadınları, uşaqları çıxarardıq. Halbuki o vaxtadək Kəlbəcərdən bir nəfər də getməmişdi. Bir dəfə kimsə köçüb getmək

istəyirdi,istədilər Kəlbəcərə çaxnaşma, vəlvələ salsınlar. Lakin biz buna yol vermədik. Yadımdadır, bir dəfə bir qadın xoruz gətirib dedi: Bala, üzr istəyirəm, olanım budur, bu xoruzu satın, pulunu da Kəlbəcərin müdafiəsinə verin. Bax, Kəlbəcərin qocaları da, arvadları da Kəlbəcəri belə qeyrətlə, belə təpərlə müdafiə edirdilər. Kəlbəcərdə bir kişi var idi. Ağdaban hadisələri zamanı yeddi erməni bir dəfəyə öldürmüşdü. Ermənilərin yeddisinin də meyiti aşıq Şəmşirin başdaşının arxasında qalmışdı. Sonra bu kişini qətlə yetirdilər. Şəreflərdən Yunis Məmmədov adlı bir qoca var idi. Çox qeyrətli kişi idi. İnanın ki, Şəreflərdən Kəlbəcərə yol onun mərdliyi sayəsində açılmışdı. Bəli, bizdə belə kişilər, belə qadınlar, belə igid övladlar var idi.

Biz Ağdamdan gedib o qayalara, o dağlara baxırdıq, düşünürdük ki, burada bir əsgər öz pulemyotu ilə 100 nəfərin, hətta 200 nəfərin qabağını kəsə bilər. Özü də təkbaşına. Amma təəssüflər olsun ki, sonralar təslimçilik əhval-ruhiyyəsi başlandı, camaatı yavaş-yavaş başa salırdılar ki, biz sizi daha qoruya bilməyəcəyik. Çünki ordu yoxdur. Müdafiə naziri bizə zəng vurub Qaraqayanın koordinatlarını istəyirdi. Deyirdi ki, oraya təyyarə göndərəcəyəm, qoy gedib oranı bombalasın. Martın 29-u idi, xahiş elədik, yalvardıq ki, Kəlbəcər daha əldən gedib, bizə heç olmasa bir-iki hərbi texnika verin. Dörd tank göndərdilər. Samux rayonundakı Zazalı stansiyasına getdim. Xanlardan zəng vurmuşdular ki, tankçılar tapaq, bu tankları Kəlbəcərə aparsınlar. Bizdə tankçı nə gəzirdi. Müdafiə Nazirliyinin bir əmri var idi, "Kəlbəcər şəhərinin hər tərəfdən müdafiəsi" adlanırdı. Müdafiə naziri bu əmrdə göstəriş vermişdi ki, Laçından, Ağdaban, Kərəntər, Qaraqaya tərəfdən qoşun gətirilib Kəlbəcər şəhəri müdafiə edilsin. Demə, Kəlbəcər şəhərini müdafiə etmək o demək idi ki, Kəlbəcərin qalan hissələri də ermənilərə verilsin, bundan sonra oradakı qoşunlar da, Kəlbəcər camaatı da əsir düşsün, girov götürülsün.

Möhtərəm Prezident, biz qaçqınların Sizdən böyük bir xahişi var. Bu xahişimiz, bu arzumuz bizim girovlarla bağlıdır. Kəlbəcərin təxminən 180 sakini girov aparılıb. Aralarında qadınlar da var. Davud kişinin iki oğlu və bir qızı əsir tutulub. Xalid, Firuz, Bəxtiyar, Məzahir, Elxan... Daha kimləri, kimləri deyim. Hər biri ər oğuldur. Mən onları yaxşı tanıyırdım, zastavalarda həmişə birlikdə olurduq. Biz ümidimiz, gümanımız gələn yerlərə dönə-dönə müraciət etdik. Bu barədə baş prokuror Eldar Həsənov milli təhlükəsizlik naziri ilə də danışdı. Bir görün bizi nədə təqsirləndirdilər — guya biz ermənilərlə əlaqəyə girmişik. Nə isə, çox xoşagəlməz söhbətlər gedirdi.

Desəm ki, biz qaçqınların heç bir problemi yoxdur, düz olmaz. Bizim çox problemimiz məhz Sizin qayğı və köməyiniz sayəsində həll edilib. Yaxşı olar ki, kəlbəcərlilərin müvəqqəti məskunlaşdığı yerlərdə onlara torpaq sahələri ayrılsın. Belə olsa kəlbəcərlilər vətənə qayıdan



vaxtadək orada məhsul əkib-becərər, özlərini dolandırarlar. Bu cür torpaq sahələri Samux rayonu ərzaisində də var. Rayon icra hakimiyyətinin başçısı qaçqınlara torpaq sahələri verməyə hazırdır. Lakin o torpaqların bizə ayrılması üçün Nazirlər Kabinetinin sərəncamı gərəkdir. Kəlbəcərin Ləmbəranda min hektara yaxın əkin sahəsi var. Orada taxıl əkilir. Lakin bu, çox azdır.

Mən qaçqınların hamısının adından xahiş edərdim ki, Kəlbəcərdə şəhid olanların adları əbədiləşdirilsin. Bə'zi analar yanıma gəlir, yalvarıb-yaxarır ki, vətən yolunda, torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıqla həlak olmuş övladlarının adları əbədiləşdirilsin, onların adları heç olmasa bir məktəbə, bir küçəyə verilsin. İnanın ki, bu onlar üçün çox böyük təskinlik olardı.

Biz bir məsələni də unutmuruq. Mə'lumdur ki, Kəlbəcər ermənilərə veriləndə bə'zi uşaqlar hələ yenicə ayaq açırdı, indi onlar bir az yaşa dolub və Kəlbəcəri, demək olar, unudublar. Odur ki, biz valideynlərlə, ən əvvəl analarla söhbət zamanı xahiş edirik ki, uşaqlarına Kəlbəcərə məhəbbət duyğuları aşılasınlar, qoy onlar bu yurdu unutmasınlar. İndi 12—16 yaşında olan gənclər Bakıya mehr salır, qalıb burada yaşamağa çalışırlar. Amma biz də çalışırıq ki, onların hamısı belə xəyala düşməsin, sabah torpaqlarımız qaytarılan kimi öz yurd-yuvalarına qayıtsınlar. Bizim bir çox gənclərimiz vətəni tərk edib Rusiyaya gediblər. Yadımdadır, bir ara buraxmırdılar, qaytarırdılar. Axır vaxtlar hərbi xidmətdən yayınanlar da olur. Məsələn, mən elə adam tanıyıram ki, onun beş oğlundan dördü Moskvada, Rusiyadadır. Biz belə cavanları qaytarıb, onlarla tə'lim keçməliyik, torpaqlarımızın müdafiəsinə göndərməliyik. Əgər çox ağır gedən sülh danışıqları baş tutmasa, biz hamımız torpaqlarımızı qorumağa hazır olmalıyıq və hazırıq.

Mənim atamın 85 yaşı var. Gündə deyir ki, nə oğulsunuz, nə kişisiniz, gedib torpaqlarınızı qoruya bilmirsiniz. Mənə bir silah verin, gedib heç olmasa ölüm və öz torpağıma qarışım. Bəli, hər bir kəlbəcərli öz yurdunun azad edilməsi uğrunda ayağa qalxmağa hazırdır. Çünki bizim əsas arzu və ümidimiz Kəlbəcərə qayıtmaqdır, Azərbaycanın işğal olunmuş digər torpaqlarına qayıtmaqdır. Mən bu yaxınlarda Naftalan şəhərində Xocalı qaçqınları ilə görüşdüm. Bir nəfər də demədi ki, ərzaq tə'minatımız pisdir, yaxud yemək sarıdan korluq çəkirik. Hamısı dedi ki, hər şey ə'ladır. Bilirəm ki, onlar ləyaqətini, qürurunu saxlayan camaatdır. Bir deputat kimi, Laçın camaatı ilə də görüşüb söhbət edirəm. Onlar da vüqarlı, qürurludur. Hamı deyir ki, əgər sabah torpaqlarımızın azad edilməsi uğrunda hamımız, hər birimiz canımızdan keçməyə hazır olmasaq, deməli, biz Azərbaycan övladı deyilik.

Möhtərəm Prezident, Sizə minnətdarlığımı bildirirəm. Sizi bir daha

əmin edirik ki, hər bir kəlbəcərli — qoca da, qadın da, cavan da, hətta uşaqlar da bir əsgər kimi döyüşə hazırdır.

### Respublikanın Baş prokuroru ELDAR HƏSƏNOVUN çıxışı

Möhtərəm cənab Prezident, hörmətli həmvətənlər! Bu gün hər birimiz üçün, Azərbaycanın hər bir vətəndaşı üçün ağır gündür. Ona görə ağırdır ki, Qarabağın qala qapısı olan Kəlbəcərin işğal edilməsindən düz üç il keçir. Ona görə ağır və xüsusilə heç cür bağışlanmazdır ki, Kəlbəcər ermənilər tərəfindən alınmadı. Kəlbəcər laqeydlik, biganəlik, satqınlıq və xəyanət üzündən düşmənə təhvil verildi. Qeyd edildiyi kimi, bu xəyanətə dözməyən 55 hərbi qulluqçu, 200 nəfərədək mülki şəxs həlak oldu. 320 nəfər Azərbaycan vətəndaşı itkin düşdü. Əhaliyə və dövlətə 709 milyard rubl məbləğində ziyan vuruldu. Mən "laqeydlik, biganəlik, satqınlıq, xəyanət" ifadələrini və "Kəlbəcər düşmənə verildi" sözlərini təsadüfən işlətmirəm. Çünki istintaq materilları ilə tamamilə sübuta yetirilir ki, Kəlbəcər işğal olunmazdan əvvəl respublikanın o vaxtkı rəhbərliyinin səriştəsizliyi üzündən məs'ul vəzifələrə tə'yin edilmiş şəxslər öz vəzifələrinə cinayətkarcasına səhlənkar yanaşırdılar, digər tərəfdən, oradakı intizamsızlıq, hərc-mərclik, özbaşınalıq, AXC-dən olan batalyon komandirlərinin mənəm-mənəmliyi üzündən silahlı dəstələr torpağın düşmənə verilməsi üçün şərait yaratmışdı. Kəlbəcər verilməli idi, çünki Surət Hüseynov, Rəhim Qazıyev kimiləri o vaxt Ali Baş Komandan olan Əbülfəz Əliyevə tabe olmurdular, o isə Baş komandan kimi belələrini özünə tabe edə bilmirdi. Bu da təbii ki, yerlərə öz tə'sirini göstərməyə bilməzdi. Hərənin ağzından bir avaz gəlirdi. Hər şeyə, hər kəsə inanan camaatımız öz gücünə, öz imkanlarına arxalanaraq Kəlbəcəri beş il qoruyub saxladı, müdafiə etdi. Onlar Kəlbəcəri həmin ərəfədə və bacardıqları qədər müdafiə etdilər.

Cənab Prezident, bu, Kəlbəcərin tarixidir. Sultan bəy, Məşədi Cəmil kimi şəxslər Kəlbəcəri uzun illər ərzində erməni basqınlarından qoruyublar. Burada qeyd edildiyi kimi, əgər doğrudan da ordu olmasaydı, Kəlbəcər camaatı öz torpaqlarını yenə də öz imkanları ilə müdafiə edə bilərdi. Məhz onların hünəri sayəsində Kəlbəcər uzun müddət alınmaz qala olmuşdur. Açığını deyim, Kəlbəcəri ordunun səriştəsiz komanda hey'əti, onun müdafiəsinə cavabdeh olan naxələf şəxslərin məs'uliyyətsizliyi diz çökdürdü. İstintaq tam sübuta yetirmişdir ki, Surət Hüseynov Gəncədə hakimiyyət uğrunda mübarizə apararaq, Xalq Cəbhəsini hakimiyyətdən salmaq məqsədi ilə Azərbaycan ərazisinin, o cümlədən Kəlbəcərin işğal olunması üçün bütün xəyanətkar imkan və vasitələrdən istifadə etmişdir.



O vaxt Kəlbəcərin müdafiəsi üçün qərargah yaradılmışdı. Nazirlər Kabinetinin qərarı ilə, prezidentin tapşırığı ilə Kəlbəcərin o vaxtkı icra hakimiyyətinin başçısı İlham Həsənov qərargahın rəhbəri tə'yin olunmuşdu. Qərargaha polkovnik Əzizağa Qənizadə, hərbi hissənin mühəndis xidməti rəisinin müavini Daşdəmir Məmmədov və başqaları daxil idi. Buna məs'uliyyətsizlikdən, biganəlikdən, satqınlıq və xəyanətdən başqa nə ad vermək olar ki, qərargahın gözü qarşısında sərhəd zolaqlarının yaxınlığında erməni silahlı qüvvələri yollar açır, canlı qüvvə, texnika cəmləşdirirdi. Camaatın gözü yolda, qulağı səsdə idi. Yerli hakimiyyət orqanlarına, respublikanın hakiiyyət orqanlarına müraciətlər edilir, teleqramlar göndərilirdi. Əhali respublika rəhbərliyindən qəti tədbirlər görməyi tələb edirdi. Oradan isə heç bir səs çıxmırdı. Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən nəzarətsizlik, yerlərdəki intizamsızlıq o həddə çatmışdı ki, komandirlər göstəriş almaq bəhanəsi ilə mövqeləri tərk edir, tabeliyində olan əsgərlər arasında çaşqınlıq yaranırdı. Lakin respublikanın o vaxtkı rəhbərliyi susurdu, xəyanət üzündən susurdu.

Respublikanın o vaxtkı rəhbərliyinin qətiyyətsizliyi barədə, Kəlbəcər rayon rəhbərlərinin sağlam məntiqə sığmayan hərəkətləri barədə istintaqla müəyyən edilmiş bir neçə faktı diqqətinizə çatdırmaq istəyirəm.

Ermənistanla sərhəd boyunca yerləşdirilmiş zastavalara səfərbər edilən, rabitə avadanlığı olan xüsusi tə'yinatlı avtomaşınlar 1993-cü ilin fevral ayında Kəlbəcər rayon icra hakimiyyətinin başçısı İlham Həsənovun sərəncamı ilə döyüş mövqeyindən çıxarıldı. Təkrar edirəm, 1993-cü ilin fevral ayında. Nəticədə döyüş mövqeləri ilə qərargah arasında operativ əlaqə kəsildi. Polkovnik Əzizağa Qənizadənin tabeliyində 3405 nəfərdən ibarət şəxsi hey'ət, 1132 ədəd avtomat silah, 146 pulemyot, 150 ədəd tankvuran silah, 72 tank və digər hərbi sursat, ləvazimat olduğu halda, Kəlbəcərin müdafiəsi üçün heç bir tədbir görülmədi. Bu, Qarabağın müdafiəsində strateji əhəmiyyətli Kəlbəcərin ermənilərə müqavimətsiz verilməsi üçün məhz düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyildi, bütövlükdə Azərbaycana xəyanət idi.

Ağdaban kəndi barədə burada fikirlər söyləndi. Özü də dəqiq, düzgün fikirlər. Müharibə gedir, hücum əməliyyatı aparılır, Ağdabanın həndəvəri minalanıbdır. Kəlbəcərin Ağdərə tərəfdən olan hissəsi də minalanıbdır. Bəs necə olur ki, həmin vaxt o minaların hamısı tezliklə çıxarılır. Kəlbəcərin əli qabarlı sadə əmək adamlarının bağladıqları yol hərbçilər tərəfindən təmizlənir? Beləliklə, bir gecənin içində

erməni silahlı birləşmələri Kəlbəcəri Ağdərə tərəfdən zəbt etmişlər. Cənab prezident, demək istəyirəm ki, bütün bunlar təsadüfi deyildi. Camaat kimə inanmalı, haradan ümid və imdad gözləməli idi? O vaxt Kəlbəcər əhalisinin taleyi prezidentin fərmanı ilə rayona rəhbər tə'yin edilən İlham Həsənova və onun kimi AXC üzvlərinə tapşırılmışdı. Vəzifəyə peşəkarlığa görə deyil, əqidə mənsubiyyətinə görə tə'yin edilən Həsənov kimiləri camaatın canına daraşmışdılar. Məmləkətimizin başına gətirilən bütün müsibətlərdə, bütün faciələrdə məhz onlar, məhz o vaxtkı rəhbərlər Əbülfəz Əliyev, Pənah Hüseynov, Arif Hacıyev günahkardırlar.

Burada Kəlbəcərin işğalı ilə əlaqədar bə'zi şəxslərin cəzasız qaldığı qeyd edildi. Deməliyəm ki, Əzizağa Qənizadə barəsində istintaqı Respublika Prokurorluğunun istintaq idarəsi prinsipial mövqedən aparmışdır. Hadisənin baş verməsinin səbəb və şəraiti araşdırılıb, təqsirkar şəxslərin dairəsi müəyyənləşdirilib. Qeyd etməliyəm ki, hərbi tribunalın çıxardığı qərarı biz Ali Məhkəmənin sədri hörmətli Xanlar müəllimlə birlikdə razılıqla qarşılamadıq və onu yenidən baxılmağa qaytardıq. Əzizağa kimilərinin — torpağımızın, Azərbaycan torpaqlarının bir qarışının belə itirilməsində təqsirkar şəxslərin cəzasız qalması yolverilməzdir. Ümidvaram ki, ədalət mühakiməsi öz qərarını cinayətə görə cəzanın labüdlüyü prinsipini əsas tutaraq qəbul edəcəkdir.

Bu gün nə qədər ağır olsa da, biz 1994-cü ilin yanvar — fevral aylarında aparılmış Murovdağ əməliyyatını da yada salmalıyıq. Ona görə ki, həmin əməliyyat zamanı Kəlbəcərin 15-dən artıq yaşayış məntəqəsi ermənilərdən azad edilsə də, yenidən Surət Hüseynovun xəyanəti, "N" hərbi hissəsinin komandiri Mayor Saleh İlyasov, qərargah rəisi Cəlil İbrahimov, batalyon komandiri Gəray Əsədov kimilərinin məs'uliyyətsizliyi üzündən bu məntəqələrin müdafiəsi təşkil olunmadı, onlar yenidən düşmənin caynağına keçdi. Biz bu əməliyyatı bir də ona görə ürək ağrısı ilə yada salmalıyıq ki, o vaxt 140 hərbi qulluqçumuz həlak oldu, itkin düşdü, neçə-neçə vətəndaşımızı şaxta vurub dondurdu. Erməni tərəfinin bundan da qat-qat artıq itkilər verməsinə baxmayaraq, görülən tədbir, hərbi əməliyyat xəyanət, satqınlıq nəticəsində məğlubiyyətə uğradı.

Hörmətli həmvətənlər! Bu sözləri sizin qarşınızda deməyim bəlkə də artıqdır, çünki hər bir kəlbəcərli o hadisələrin şahidi olmuşdur. Hər biriniz bunu da yaxşı bilirsiniz ki, istər Kəlbəcərin düşmənə verilməsi, istərsə də Azərbaycanın başına açılan digər müsibətlər torpaqlarımızın 20 faizinin itirilməsinə gətirib çıxarmışdır. Çünki o illərdə Azərbaycan əslində başsız qalmışdı. Həm bunun nəticəsində, həm də səriştəsizlik üzündən Azərbaycana kollegial rəhbərlik edilirdi.



Hərbi qərarlar çıxarmalı olan şəxslər bu qərarın qəbul edilməsi üçün məs'uliyyətdən çəkinirdilər. Kollegial həyata keçirilən rəhbərliyin ən dəhşətli cəhəti bu idi ki, respublika kollektiv idarə üsulu ilə idarə edildiyi dövrdə kollektiv idarəçiliyin üzvləri didişib-çəkişirdilər, fikirləri üst-üstə düşmürdü. Bundan isə xalq əzab-əziyyət çəkirdi, torpaqlarımız itirilirdi.

Bu gün hər bir azərbaycanlının müqəddəs arzusu vətəndə didərginliyə son qoymaq, öz torpağına qayıtmaqdır. Onların arzu və istəyi Ağdamın, Kəlbəcərin, Cəbrayılın, Füzulinin, Şuşanın, Zəngilanın, Qubadlının, Qarabağın qaytarılmasıdır, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir. Azərbaycanın bu böyük və müqəddəs arzusuna çatacağına, özü də yaxın vaxtlarda çatacağına bu gün qoy heç kəsdə şübhə olmasın. Çünki bu gün Azərbaycan başçısız deyildir. Çünki bu gün Azərbaycana xalqın öz arzusu, istəyi və tə'kidi ilə gətirilmiş rəhbəri, prezidenti başçılıq edir. Çünki bu gün Azərbaycanda dövlət rəhbərinə, onun siyasətinə, düşmənə qarşı barışmaz mövqeyinə sarsılmaz inam var. 1993-cü ilin iyunundan sonra Azərbaycanın haqq səsi bütün dünyada eşidilməyə başlandı. İndi Azərbaycanda nizami ordu formalaşmaqdadır. Son iki il doqquz ayda Azərbaycana hava və su kimi lazım olan daxili sabitlik yaranıbdır. Bütün bunlar prezidentimiz Heydər Əliyevin xidmətlərinin nəticəsidir.

Möhtərəm prezidentimizin Kəlbəcər itkisi ilə, Kəlbəcər dərdləri ilə, Azərbaycanın ağrıları ilə məhz burada bu gün bölüşməsi onun xalqla bağlılığının heç bir sübuta ehtiyacı olmayan ifadəsidir. Belə bir rəhbəri olan xalqımızın ağrı-acılarına çox qısa bir vaxtda son qoyulacağına da inam şübhəsizdir.

Hörmətli həmvətənlər, möhtərəm prezidentimizin rəhbərliyi altında işlədiyim dövrdə onunla təmasda olduğum hər anda Azərbaycan vətəndaşı kimi, itirilmiş torpaqların nümayəndələrindən biri kimi, bir kəlbəcərli kimi onun Ağdam, Laçın, Şuşa, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan qaçqınlarına qayğısının, onların problemlərinə həssas münasibətinin şahidiyəm. Elə bir müşavirə, elə bir görüş və toplantı olmur ki, orada Respublika Prokurorluğu, hüquq-mühafizə orqanları, dövlət strukturları qarşısında qaçqınlar və məcburi köçkünlərlə əlaqədar ciddi vəzifələr qoyulmasın, ciddi məsələlər qaldırılmasın. Mən bunu bu gün bir daha sizin diqqətinizə çatdırmağı özümə borc bilirəm.

Möhtərəm cənab Prezident, bu gün hər bir kəlbəcərli, hər bir qaçqın və köçkün yaxşı bilir ki, ötən illərin rəhbərlərinin səriştəsizliyi üzündən Sizə ağır miraslar qalıbdır. Lakin bu gün hər bir azərbaycanlı onu da gözəl bilir ki, həlli böyük zəhmət tələb edən bu problemləri Azərbaycan xalqı yalnız Sizin rəhbərliyinizlə həll edə bilər. Bu gün hər bir kəlbəcərlinin ümid yeri Sizsiniz və onlar bir nəfər kimi daim

qayğısını hiss etdiyi rəhbərin ardınca, onun göstərdiyi yolla qətiyyətlə getməyə hazırdırlar. Çünki Azərbaycanın nicatı, itirilmiş torpaqların nicatı yalnız bu yoldadır. Diqqətinizə görə təşəkkür edirəm.

### Şair-jurnalist
### ƏLİ QURBANOVUN
### çıxışı

Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları! Mən sözümə öz şe'rimlə başlamaq istəyirəm:

O dağlarda neçə gülüm, çiçəyim,
Laləm qalıb yağıların əlində,
Neçə-neçə o qüdrətdən çəkilmiş
Qalam qalıb yağıların əlində.
Neçə-neçə söz dəftərim varaqlı,
Dastanlarım min bir sirli-soraqlı,
Neçə-neçə şəfa sulu, bulaqlı
Talam qalıb yağıların əlində.
Ürəyimdə zədəm qalıb, ay dədə,
Gözlərimdə giləm qalıb, ay dədə,
Anam qalıb, dədəm qalıb, ay dədə
Balam qalıb yağıların əlində.
Yuxum yoxdur Göyçə gədik aşalı,
Laçın desəm, gözlərimi yaş alır.
Zəngəzurlu, kəlbəcərli, şuşalı
Naləm qalıb yağıların əlində.
Əli gördü bazarını oğlunun,
Bu dəhşətli güzarını oğlunun,
Tərk etmədi məzarını oğlunun,
Xalam qalıb yağıların əlində.

97 yaşı var idi xalamın. Oğlunun məzarına yapışıb qalmışdı, "balama, balamın məzarına erməni əli dəyər" deyə haray çəkirdi. Heç kəs onu oradan qoparıb ayıra bilmədi. Mənə elə gəlir ki, o, bəlkə də həmin daşa yapışıb qalıb və Kəlbəcər özümüzə qayıdanda o daşdan qopacaqdır.

Möhtərəm Prezident, bilmirəm, yadınıza gəlirmi, 15 il bundan əvvəl Ağdamın Xındırıstan kəndində Siz bahar vaxtı müşavirə keçirirdiniz. Müşavirənin axırında söz istədim. Mənə söz verdiniz. Amma vaxtınızı çox aldım. Mən axırda dünyanın 11 iqlim qurşağından doqquzunun təmsil olunduğu Kəlbəcəri Sizin nəzərinizə çatdırmaq istədim. Sizi Kəlbəcərə də'vət elədim. Bir bayatı demək istədim. Siz əlinizi qaldırıb dediniz ki, Əli müəllim, bayatını saxla, mən Kəlbəcərə gələndə deyərsən. Ancaq Siz bizim ellərə gələ bilmədiniz. Bir dəfə gəlib Xankəndindən qayıtdınız, təbiət imkan vermədi, sel-su oldu. Siz qayıtdıqdan sonra Moskvaya getdiniz.

Sizin siyasətiniz Allahın yoludur. Sizin siyasətiniz peyğəmərimizin



yoludur, Sizin siyasətiniz Qur'ani-Kərimin ən əziz ayəsidir, sülh yoludur.

*(Sonra natiq "Kitabi-Dədə Qorqud"dan bir misal çəkdi).*

Mən arzu edirəm ki, Sizin o Allah yolu ilə, qadir kişilər yolu ilə, qüdrətli bahadırlar yolu ilə getməyiniz üçün Allah Sizə qüvvət versin, qüdrət versin, necə ki, verib. Siz bu yolla qələbə çalasınız. Mən buna ürəkdən inanıram. Çünki Siz dünyanın ən yaxşı kişilərindən birisiniz. Dünya isə yaxşıların çiynində yaşayır. Ona görə ümidvaram ki, Siz bu yolda qələbə çalacaqsınız. Arzum budur ki, qələbə çalıb, bu payız Kəlbəcərə gələsiniz. Onda mən də öz bayatı borcumu verərəm. Sağ olun.

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN yekun nitqi

Güman edirəm ki, biz bu gün ətraflı söhbət etdik. Həm sizin — kəlbəcərlilərin problemləri ilə daha yaxından tanış olduq, həm də ki, üç il bundan öncə Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasının səbəbləri, bu işğalın günahkarları haqqında ətraflı fikir mübadiləsi apardıq.

Sizin çıxışlarınız, dediyiniz sözlər, fikirləriniz çox əhəmiyyətlidir. Birinci növbədə xalqımızın, ölkəmizin, respublikamızın tarixinin düzgün əks olunması üçün çox əhəmiyyətlidir. İkincisi də sizin burada şərh etdiyiniz fikirlər, gələcək işlərimiz üçün, müstəqil Azərbaycanın torpaqlarını qorumaq, müdafiə etmək, işğal olunmuş torpaqların azad edilməsinə nail olmaq üçün sizin fikirləriniz çox əhəmiyyətlidir.

Burada bə'zi təkliflər irəli sürdünüz: kəlbəcərlilərin vəziyyətinə qayğı, ayrı-ayrı fərdi xahişlər. Mən burada iştirak edən müvafiq rəhbər şəxslərə, xüsusən İcra Aparatının başçısına tapşırıram ki, bu təkliflərin hamısı cəmləşdirilsin və mənim adımdan icraçılara çatdırılsın ki, burada irəli sürülən məsələlər həll olunsun.

Ancaq sizinlə birlikdə bizim hamımızın bu gün burada danışılan sözlərdən meydana gələn fikrimiz bundan ibarətdir ki, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad edilməlidir, respublikamızın ərazi bütövlüyü bərpa olunmalı və müstəqil dövlət kimi Azərbaycan bütün ərazisinin sahibi olmalıdır, bütün ərazisinə, öz sərhədlərinə tam nəzarət etmək hüququna nail olmalıdır. Bu, qarşımızda duran ən böyük, eyni zamanda deyə bilərəm ki, ən çətin vəzifədir. 1988-ci ildən indiyə qədər, 8 ildir Azərabaycanın həyatında baş vermiş hadisələr, bir respublika kimi ölkəmizin,



xalqımıxın başına gələn bəlalar, faciələr Azərbaycan xalqının tarixinin çox ağır səhifələridir. Bu səhifələrdə qəhrəmanlıq, rəşadət nümunələri də var. Bizim igid oğlanlarımız, Azərbaycanın övadları müqəddəs torpağımızın qorunması, müdafiəsi uğrunda, Azərbaycanın istiqlaliyyəti, azadlığı uğrunda şəhid olublar, özlərini qurban veriblər. Bələləri çoxdur və bu şəhidlərin, Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daim yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır. Bizim bu 8 illik tariximizdə belə qəhrəmanlıq səhifələri çoxdur.

Ancaq eyni zamanda bu 8 ildə, yə'ni Azərbaycana qarşı təcavüz başlanandan indiyə qədər tariximizdə qara səhifələr də çoxdur, həddindən artıq çoxdur. Ayrı-ayrı şəxslərin, ayrı-ayrı qrupların, vəzifə sahiblərinin xalq, millət, Vətən, torpaq qarşısında xəyanətkarlığını əks etdirən səhifələr də çoxdur, həddindən artıq çoxdur. Ermənistanın ölkəmizə qarşı təcavüzünün davam etdiyi bu illərdə Azərbaycanın qayğısına qalan insanlar, Azərbaycanın rəhbərliyində olan şəxslər bunları düşünə bilsəydilər, öz vəzifələrini, borclarını dərk edə bilsəydilər, şübhəsiz ki, bunların qarşısı alına bilərdi. Təcavüzün də qarşısı alına bilərdi, heç onun başlanmasına, münaqişənin meydana çıxmasına yol verilməzdi. Əgər belə bir hadisənin meydana gəlməsinin qarşısı alınmadısa, onda gərək respublikamız, xalqımız, millətimiz və onun başında duranlar torpaqlarımızın qorunmasını tə'min edəydilər. Təəssüf ki, bu, olmayıbdır.

Bilirsiniz, bu, hər bir azərbaycanlıda daim vicdan əzabı doğurur. Mən bunu dəfələrlə demişəm, bizim millətimiz aciz millət deyil, xalqımız aciz xalq deyildir. Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, Vətənini qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir. Ancaq bu dəfə, təəssüflər olsun ki, bu keyfiyyətləri nümayiş etdirmək mümkün olmayıbdır. Ona görə yox ki, xalqımızda bu keyfiyyətlər yoxdur. Ona görə ki, əgər lap qədim keçmişlərdən desək, hər bir tayfanın, ordunun, dəstənin, hər bir millətin başında duranlar, sərkərdəlik edənlər çox şeyi həll edirlər.

Təəssüf ki, o illər xalqımızda böyük çatışmazlıq olubdur, qıtlıq olubdur. Bu çatışmazlıq, bu qıtlıq da xalqımıza böyük faciələr, bəlalar gətiribdir. Bilirsiniz, Kəlbəcəri müdafiə etmək bəlkə də çətin məsələ idi. Ancaq hər halda onu indi, üç ildən sonra geri qaytarmaqdan qat-qat asan məsələ idi. Burada rəqəmlər söylədilər ki, nə qədər adam həlak oldu, itkin düşdü. Həlak olanlara Allah rəhmət eləsin, itkin düşənləri də axtarıb tapıb Vətənimizə qaytarmaq bizim borcumuzdur. Məsələn, burada deyildi ki, hansısa gəlin o dəhşətə, erməninin təcavüzünə dözə bilmədi, özünü qayadan atdı. Bu, böyük

bir əfsanədir. Bu, millətimizin ən böyük keyfiyyətini nümayiş etdirən bir haldır. Mən hesab edirəm ki, bu gün də olmasa, vaxt gələcək, biz həmin gəlinin o faciəvi qəhrəmanlığına elə həmin qayanın başında böyük abidə ucaldacağıq. Bunu mütləq edəcəyik.

Ancaq bununla yanaşı, nə qədər satqınlıq, xəyanətkarlıq oldu, nə qədər insanlar şəxsi həyatlarını torpağın, Vətənin, xalqın mənafeyindən üstün tutdular. Beləliklə, torpaqlarımız işğal olundu. Əgər bir azərbaycanlı ilə bir ermənini təkbətək meydana salsan, azərbaycanlı heç vaxt kürəyini yerə verməz, heç vaxt. Amma millətimizi bu cür pəhləvan etmək bir-iki adamın işi deyildir. Bu, xalqın hamısının birlikdə işidir və xalqa rəhbərlik, başçılıq, sərkərdəlik edən adamların işidir. Xalqımızda bu qüdrət, cür'ət, qəhrəmanlıq keyfiyyətləri var. Ona görə də deyirəm ki, o vaxt Kəlbəcəri qoruyub saxlamaq olardı. Burada danışanların hamısı bunu dedi. O vaxt — Kəlbəcərin işğal olunması dövründə mən buradan çox uzaqda idim, o qədər mə'lumatım yox idi. Mənim mə'lumatım buraya gələndən sonra ayrı-ayrı yazılardan, belə söhbətlərdən, sənədlərdən toplanıbdır və bu gün sizin dediklərinizin əsasında öz fikrimi söyləyirəm. Sizin bu fikirlərinizi, sözlərinizi cəmləyərkən bir nəticə çıxır ki, şübhəsiz, torpaqlarımızın hamısını, o cümlədən Kəlbəcəri də müdafiə etmək mümkün idi. Əgər vaxtı ilə bunu edə bilməmişiksə, bu, xalqın, millətin günahı deyildir, xalqa xəyanət edənlərin günahıdır. Burada cürbəcür ifadələr işlədildi: səriştəsiz rəhbərlər, satqınlar, xəyanətkarlar, qorxaqlar — hamısı olubdur. Təkcə Kəlbəcərin işğalı zamanı yox, bu 8 il müddətində bütün başqa hallarda, təəssüf ki, hamısı olubdur.

Bu, bizi faciəli vəziyyətə gətirib çıxarıb, ağır vəziyyətə salıbdır. Torpaqlarımızın 20 faizi işğal olunub, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Amma sülh danışıqları aparanda da bir bizim vəziyyətimizə baxın, bir də tərəf müqabilimizin vəziyyətinə baxın. Onlar torpaqlarımızı işğal ediblər, öz şərtlərini diqtə edirlər. Bizim torpaqlarımız işğal altındadır, biz də şərtlərimizi deyirik, amma vəziyyətimiz bərabər deyildir. Bəs bizi, xalqımızı bu günə salanlar kimlərdir? Həmin o satqınlar, xəyanətkarlar, həmin o səriştəsizlər, qorxaqlar, mə'nəviyyatca pozulmuş insanlardır. Dərd də burasındadır.

1988-ci ildə Ermənistan Azərbaycana qarşı təcavüzə başlayarkən xalqımız gərək yumruq kimi birləşəydi. Bütün daxili ixtilafları, çəkişmələri, cürbəcür narazılıqları bir kənara qoyaraq yumruq kimi birləşib gərək torpağı qoruyaydı. Amma əslində nə oldu? Əslində, bu fürsətdən, şəraitdən hərə özü üçün istifadə etməyə çalışdı.



Xalqımızın faciəsi də bundan ibarətdir ki, bu müddətdə biri orada vəzifə almaq istəyib, biri burada hakimiyyətə gəlmək istəyib. Bəs bu adamlar düşünməyiblər ki, ölkə belə vəziyyətə düşəndən sonra, lap vəzifəyə də gəlsən, sən nə edəcəksən?

Sizin burada dediklərinizlə tamamilə razıyam. Doğrudan da Kəlbəcər öz coğrafi mövqeyinə görə elə bir yerdir ki, oranı işğal etmək sadəcə olaraq mümkün deyildir. Təsadüfi deyil ki, Ermənistanın işğalçı dəstələri Azərbaycana 1988-ci ildən hücum etmiş, Kəlbəcər isə 1993-cü il martın sonunda işğal olunubdur. O vaxt Azərbaycanın bir çox başqa bölgələri, o cümlədən bütünlükdə Dağlıq Qarabağ, Kəlbəcərlə qonşu olan Laçın rayonu işğal edilmişdi. Amma Kəlbəcər bir ada kimi qalmışdı. Bir tərəfdən doğrudan da coğrafi mövqeyinə görə, ikinci tərəfdən isə kəlbəcərlilərin özlərinin qəhrəmanlığına görə. Demək, onu saxlamaq, qorumaq mümkün idi və Ermənistanın işğalçı qüvvələrini Azərbaycanın zəbt edilmiş torpaqlarından, o cümlədən Dağlıq Qarabağdan, Laçından, başqa yerlərdən çıxarmaq üçün, şübhəsiz ki, Kəlbəcəri strateji nöqteyi-nəzərdən qoruyub saxlamaq lazım idi. Bu, bir nömrəli vəzifə idi.

Ancaq təəssüf ki, o vaxt bunu etməyiblər. Nəinki etməyiblər, mən sizin dedikləriniz əsasında bu nəticəyə gəlirəm, əgər bunu etməyə sadəcə imkan olmasaydı, bunu anlamaq mümkün idi. Müharibədə irəli getmək də, geri çəkilmək də olar. Bu, müharibənin təbii qanunudur. Ancaq Kəlbəcəri müdafiə etməyiblər. Ona görə ki, doğrudan da xəyanət, satqınlıq, ayrı-ayrı məqsədlər olubdur. Eldar Həsənov çox düzgün və doğru dedi: 1988-ci ildən bəri Azərbaycanın başına gələn bəlalar — ayrı-ayrı şəxslərin, qrupların bir-biri ilə toqquşması və nəhayət, Kəlbəcərin süqutu həm o vaxtkı Azərbaycan rəhbərliyinin nəinki səriştəsizliyinin, eləcə də qətiyyətsizliyinin, bacarıqsızlığının, fəaliyyətsizliyinin, eyni zamanda həmin o quldurların, oğruların — Rəhim Qazıyev, Surət Hüseynov kimi adamların öz şəxsi məqsədlərinə nail olmaq üçün satqınlıq hərəkətlərinin nəticəsidir. O vaxt Azərbaycana rəhbərlik edən şəxslər — prezident Əbülfəz Elçibəy, Ali Sovetin sədri İsa Qəmbərov, baş nazir Pənah Hüseynov bunların qarşısını ala bilmədilər və bilməzdilər də, çünki bunun üçün onların nə iradəsi, nə də bacarığı yox idi və onlarla toqquşan digər qüvvələr Azərbaycanın torpaqlarını qurban verdilər ki, nə var-nə var, görək kim-kimi yıxa bilər. Onlar bunları, bunlar da onları yıxmaq istədilər, axırda Azərbaycan bədbəxt oldu.

Kəlbəcərin işğalı bizim üçün böyük itkidir. Kəlbəcərin zənginliyi, təbii sərvətləri haqqında burada danışıldı. Doğrudan da, Kəlbəcər

Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına görə, bulaqlarına, qayalarına görə, həm orada olan çox qiymətli yeraltı sulara, mərmər yataqlarına, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir. O vaxtlar, keçmişdə biz Kəlbəcərin inkişafı üçün çox sə'ylər göstərmişdik. İstisuda böyük kompleks tikilmişdi. Bu, neçə-neçə nəsillərin yaratdığı abidələr, yaşayış binaları idi. Təəssüf ki, vaxtilə qızıl yataqlarından istifadə edilməsi ilə məşğul olmamışdılar. Hələ o sakit dövrdə ermənilər gəlib bizim qızıl yataqlarımızı zəbt etmək istəyirdilər. Xatirimdədir, biz o barədə çox ciddi tədbirlər gördük. Dağ rayonu kimi Kəlbəcərin inkişafı üçün xüsusi qərarlar qəbul olunmuşdu və bunların həyata keçirilməsindən Kəlbəcərin əhalisi, hesab edirəm, çox bəhrələnmişdir.

Xatirimdədir, biz Kəlbəcərdə tütün əkməyə başladıq. Kəlbəcərlilərin yadındadır, təxminən 1975-ci ilə qədər orada tütün əkilmirdi. Raykomun birinci katibi Nadirov mənim yanıma gəldi. Göstəriş verdim ki, tütün əkilsin. İki-üç ildə kəlbəcərlilər tütündən xeyli gəlir götürdülər. Xatirinizdədirmi, min tondan artıq tütün istehsal olunurdu. Bu, o vaxt Kəlbəcər üçün, işsiz adamlar üçün nə qədər böyük hadisə idi! Tütünçülük o vaxtldar kəlbəcərlilərə çox gəlir gətirdi. Dağ rayonlarından, o cümlədən Kəlbəcərdən olan uşaqların institutlara daxil olmaları üçün güzəştlər etmişdik. Bu yolla ali məktəblərə nə qədər kəlbəcərli daxil oldu.

Bilirsiniz, keçmişdə belə bir əhval-ruhiyyə vardı ki, guya bizim dağ rayonlarımız geridə qalmışdır, orada camaatın mədəni, yaxud bilik səviyyəsi o qədər də yüksək deyildir. Amma siz də görmüsünüz ki, həmin o illərdə aparılan işlər ölkəmizin cürbəcür bölgələrində olan əhalinin həm elm, bilik səviyyəsini, həm də mədəni səviyyəsini eyni vəziyyətə qaldırdı. İndi mən burada görürəm, kəlbəcərlilərdən nə qədər şair var. Hər çıxış edən şe'r oxuyur, özü də başqasının yox, özünün yazdığı şe'ri oxuyur. Elə bunun özü kəlbəcərlilərin həm nə qədər iste'dadlı olduğunu, həm də mədəniyyətə, ədəbiyyata nə qədər qovuşduğunu göstərir. Kəlbəcərdən nə qədər böyük alimlər, ziyalılar var. Yə'ni keçmişdə bə'zən belə əhval-ruhiyyə vardı ki, dağda yaşayanlar guya dağ adamlarıdır. Bə'zən şəhərdə onlara bir az kəc baxır, yaxud başqa cür yanaşırdılar.

Bunlar hamısı qısa bir müddətdə keçdi getdi. Ona görə ki, insanların daxilində, genlərində olan fitri iste'dad eynidir. Şəhərdə və ya dağda doğulmağın fərqi yoxdur. İnsanın anadangəlmə fitri iste'dadı varsa, bu, onun şəhərdə, dağda, yaxud aranda doğulmasından asılı deyildir. Ancaq hər bir fitri iste'dadın meydana çıxması üçün ona şərait yaratmaq lazımdır. O şərait də həmin illərdə yarandı, insanlar öz daxilində olan potensialı büruzə verə, nümayiş etdirə, hərəkətə gətirə bildilər. Beləliklə də Kəlbəcər, necə deyərlər, həm alimlər, həm şairlər, ziyalılar diyarı, həm də ki, çox fədakar insanlar diyarıdır.



Bu, tamamilə aydın məsələdir. Çıxış edənlərdən kim isə dedi ki, bə'zən burada danışırlar: qaçqınlar, yerazlar... Bilirsiniz, mən bunu deyən insanlara nifrət edirəm. Bəli, 1988-ci ildə bizim soydaşlarımızı, azərbaycanlıları ermənilər zorla, silah gücünə Ermənistandan çıxarandan sonra buraya köçmüş adamlara burada ad qoydular: yerazlar. Bu adı mənfi nöqteyi-nəzərlə qoydular. Kimlər qoydu bu adı? Vəzirov kimi alçaq adamlar, onun şaykasında olan adamlar, Mütəllibov kimi alçaq adamlar, onun şaykasında olan adamlar. Anadan olduğu yerdən asılı olmayaraq, azərbaycanlı hər yerdə dəyərli adamdır. Kəlbəcərdə, Laçında, ya da Zəngəzurda, yaxud Göyçə mahalında anadan olub, ya da Borçalıda, Bakıda, Maştağada anadan olub — fərqi yoxdur, hamısı bir millətin adamlarıdır, azərbaycanlılardır. Millətimizin, xalqımızın içində bunları təbəqələrə bölənlər, bir-birindən ayıranlar Azərbaycan xalqına, millətimizə ən böyük xəyanət edən adamlardır. Yerindən-yurdundan didərgin düşmüş adamlara, yaxud Ermənistandan zorla sürülüb çıxarılmış adamlara mənfi münasibət göstərmək, yaxud mənfi ad qoymaq, onlara belə təkəbbürlü yanaşmaq ən böyük cinayətdir və deyə bilərəm ki, ədəbsizlik, mə'nəviyyatsızlıq, tərbiyəsizlikdir.

1988-ci ildən bəri belə tərbiyəsiz adamlar gəlib Azərbaycanın başına bu bəlaları gətirdilər. Ədəbsiz adamlar kəlbəcərlilərin arasında da var. Kəlbəcərdən burada oturan ziyalılar, alimlər, şairlər, gözəl adamlar da var, İskəndər Həmidov kimi alçaq adamlar da var. Beləsi hər yerdə var. Ermənistanlı azərbaycanlılardan da, naxçıvanlılardan da, qarabağlılardan da, gəncəlilərdən, bakılılardan, şəkililərdən də — hamısından var, hər yerdə var. Yaxşısı da var, pisi də var. Ancaq yerlərə görə, yaxud müəyyən qruplara görə insanların hamısına mənfi münasibət göstərmək olmaz, yaxud kimi isə xüsusi bir dəstə kimi çox mö'təbər hesab etmək olmaz. Bu, bizim mə'nəviyyatımıza zidd olan bir amildir. Mən bunu pisləyir və yenə də deyirəm: xalqımızın arasında ayrı-seçkilik salmaq istəyən, onu ayrı-ayrı qruplara, dəstələrə bölmək istəyən, hansısa mənfi münasibət göstərmək istəyən adamlara nifrət edirəm. Belə adamların, belə halların qarşısı alınmalıdır.

Yenə Kəlbəcərin keçmişinə qayıdıram. Onun çox gözəl keçmişi

olubdur və güman edirəm ki, çox gözəl də gələcəyi var. Burada çıxışlar bir-birindən fərqli olsa da, hamısında bir fikir eyni idi: işğal edilmiş torpaqlar, o cümlədən Kəlbəcər sülh yolu ilə azad olunmalıdır. Əgər bu, mümkün olmasa, — burada bacılarımız da dedi, qardaşlarımız da dedi, yaşlılar da, cavanlar da dedi, — bütün imkanlarımızdan, gücümüzdən istifadə edib Kəlbəcəri azad edəcəyik, işğal olunmuş bütün torpaqlarımızı azad edəcəyik. Buna heç kəsin şübhəsi olmasın. Biz qoymayacağıq ki, torpağımızın bir qarışı da qəsbkarların əlində qalsın. Bir qarışını da qoymayacağıq.

Ancaq yenə də deyirəm, işğalçıları çıxarmaq o torpaqları müdafiə etməkdən qat-qat çətin məsələdir. Torpaqları müdafiə etmək olardı və hərə öz yerində qalardı. Ola bilərdi çox qurban verək, ola bilərdi həmin Kəlbəcərdə də əlli-yüz adam yox, min adam həlak olsun, əlli min adamdan mini, iki mini həlak olsun. Sağ qalan adamlar özünü qayadan atan o gəlindən də qiymətli deyil ki. Hər bir insanın özünə görə qiyməti var, hər kəs atası-anası, qardaşı-bacısı üçün, ailəsi üçün ən qiymətlidir. Bizim heç birimiz həlak olanlardan qiymətli deyilik, o cümlədən mən də. Ona görə də Kəlbəcəri, başqa torpaqlarımızı da müdafiə etmək lazım idi. Bəlkə də beş dəfə, on dəfə artıq qurban vermək lazım idi, ancaq müdafiə edib öz torpağımızda alnıaçıq, üzüağ oturmaq lazım idi. Ola bilər, yarımız qırılaydıq, amma yarımız öz torpağımızda qalardıq. İndi nə olsun ki, əksəriyyəti çıxıb gəlib, qaçqın düşübdür. Torpaqlarımız da, burada düz dedilər, yağıların əlindədir. Güman edirəm ki, biz bundan sonra bütün işlərimizə, həyatımıza, hökumətimizə, dövlətimizə, respublikamıza, torpaqlarımıza əsl vətənpərvər kimi münasibət göstərməliyik.

Buradakı çıxışlarda Kəlbəcərin süqutunda, onun təslim edilməsində günahkarlar haqqında deyildi. Baş prokuror Eldar Həsənov özü də kəlbəcərlidir, güman edirəm ki, Azərbaycanın hər bir guşəsi onun üçün əzizdir, amma öz doğma yurdunu xəyanətkarcasına təslim edən adamlar haqqında qəti qərar qəbul olunmalıdır, buna şübhə olmasın. Ancaq iş təkcə iki-üç adamda deyil. Burada Qənizadənin, ya başqasının adı çəkildi. Hesab edirəm ki, bir var məhkəmənin hökmü, bir də var xalqın hökmü. Kəlbəcərlilər özləri yığışmalıdır, — sizin aranızda alim də, şair də, yazıçı da, hüquqşünas da, jurnalist də, hamısı var, — və siyasi hökm çıxarmalıdır. Üç il keçibdir, bütün materiallar var, hər şey sizə mə'lumdur. Özünüz bu işlərin şahidisiniz, hansı kənd nə cür getdi, erməni silahlı qüvvələri haradan, nə təhər girdilər, nə cür oldu ki, adamlar qaçdı, onları çıxardılar, — hamısı sizə mə'lumdur. Sizə tövsiyəm, hətta deyərəm xahişim bundan ibarətdir. Mən bunu arzu edirəm. Bilirsiniz, sizin özünüzün



çıxardığınız hökm ən ədalətli hökm olacaqdır. Kəlbəcərin işğalı, təslim edilməsi, süqutu ilə əlaqədar siyasi hökm olacaqdır. Özünüz bir komissiya düzəldin, yığışın, müzakirə eləyin, hər bir cümləni, sətri ələkdən-süzgəcdən keçirin ki, düzgün, ədalətli olsun. Amma bir siyasi hökm olmalıdır.

Burada bu söhbəti apararkən bu fikir beynimə gəldi. Hesab edirəm, bunu bütün başqa rayonlarımız üçün də etməliyik. Mən bu təklifi verirəm. Belə bir hökm hazırlayın, bir prezident kimi mənə də təqdim edərsiniz, mənim əlimdə də siyasi sənəd olar. Onu mətbuatda da dərc edərik. Bu, tarix üçün, gələcək üçün də lazımdır.

O ki qaldı istintaqa, mən hesab edirəm ki, baş prokuror daha geniş istintaq aparmalı, Ali Məhkəmə də bu işə ədalətlə yanaşmalı və cinayətkarlar öz cəzalarını almalıdırlar. Onların öz cəzalarını almaları təkcə ona görə deyil ki, cinayətkar gedib on il, on beş il həbsxanada otursun. Hər bir cinayətə görə cəza vermək eyni zamanda başqalarını cinayətdən xilas etməkdir, profilaktikadır. Gərək insan bilsin ki, cinayət etmək olmaz, bilsin ki, bu cür cinayət etmək olmaz. Həmin o Qənizadə orada qoşunu ilə Kəlbəcəri qoruyaraq şəhid olsaydı, onun adı əsrlər boyu yaşayacaqdı. Amma indi görürsünüz, burada hər çıxış edən Qənizadənin adını nifrətlə çəkir.

Bilirsiniz, dünyada heç kəs daimi deyil, insan mə'nəviyyat üçün yaşamalıdır. Mə'nəviyyatını qoruyan, yaşayan insan əbədi olacaqdır. Amma səkkiz ildir Azərbaycanın başına cürbəcür bəlalar gətirən nadürüst, cinayətkar adamlar, vəzifə hərisləri, — hansılar ki, bu gün də Azərbaycanda qarışıqlıq salmaq istəyirlər, — belə adamların heç birisi yaşamayacaqdır. Ola bilər, fiziki cəhətdən ömrü çox olsun, amma mə'nəvi cəhətdən ömrü olmayacaqdır.

Biz isə, əgər Allahın kəlamına, Qur'ani-Kərimin kəlamına da, ulu babalarımızın vəsiyyətinə də istinad etmiş olsaq, mə'nəviyyat üçün yaşamalıyıq.

Hesab edirəm ki, bu gün bizim danışığımız çox səmərəli oldu. Bir tərəfdən Kəlbəcərin faciəsini xatirimizə saldıq. Bu faciəni heç vaxt unutmaq olmaz. Faciə bizə nə qədər qəm-qüssə, kədər gətirsə də, onu daim yaşatmaq lazımdır ki. bir daha faciə olmasın. Yaşatmaq lazımdır ki, bu faciədən hərə özü üçün ibrət dərsi götürsün. Yaşatmaq lazımdır ki, dünya xalqları bilsin — Azərbaycanın başına nə kimi bəlalar gəlibdir və erməni qəsbkarları, quldurları nə qədər vəhşidirlər ki, Azərbaycan xalqının başına bü cür bəlalar gətiriblər. Ona görə bunu yaşatmaq lazımdır, unutmaq olmaz, nəsillərdən nəsillərə ötürmək lazımdır.

Bu baxımdan bugünkü görüşümüz çox əhəmiyyətlidir. Amma bu

görüşün əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, biz Kəlbəcərin işğaldan azad olunması üçün özümüzü daha da səfərbər edirik. Mən çox məmnunam ki, bu gün burada çıxış edənlərin hamısı yekdildir ki, əgər Kəlbəcər, eləcə də işğal olunmuş digər torpaqlarımız sülh yolu ilə azad edilməsə, biz gərək özümüzü hazırlayaq və torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edək. Bu barədə fikrim qətidir. Mən bu yolun yolçusuyam, bu yoldan dönməyəcəyəm. Sağ olun.

# ŞUŞA, LAÇIN





*Prezident sarayı, 6 may 1996-cı il.*

# ŞUŞA, LAÇIN

**ŞUŞA VƏ LAÇIN RAYONIARININ ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİNİN DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞUŞA VƏ LAÇIN RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ.**

Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini qorumaq və Ermənistanın ölkəmizə qarşı torpaq iddiasının qarşısını almaq baxımından Laçın və Şuşa çox böyük strateji əhəmiyyətə malik olan rayonlardır.

...Keçmişdə Şuşaya nə qədər hücumlar olubdur. O vaxt vahid Azərbaycan dövləti də yox idi. Amma Şuşanı məhz onun tutduğu strateji mövqeyə görə fəth edə bilmədilər.

*HEYDƏR ƏLİYEV*

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN giriş sözü

Əziz bacılar, qardaşlar!

Hörmətli şuşalılar, laçınlılar!

Bu gün biz buraya Azərbaycan xalqının, respublikamızın həyatında ən faciəli hadisələrdən olan Şuşanın və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin dördüncü ildönümü münasibətilə toplaşmışıq. Bu günlər mən bütün şuşalılarla və laçınlılarla görüşmək arzusundayam. Ancaq mə'lum səbəblərdən bu, mümkün deyil. Ona görə də Şuşa və Laçın rayonlarının nümayəndələri ilə görüşmək üçün mən sizi buraya də'vət etmişəm. Məqsədimiz o faciəli günləri bir daha yad etməkdir. Ona görə yad edirik ki, onlardan lazımi nəticələr çıxarmaq, ibrət dərsi götürmək, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması sahəsində apardığımız işlərdə, tədbirlərdə Şuşanın və Laçının—Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş bu rayonlarımızın mütləq azad edilməsinin zəruriliyini bir daha bəyan etmək lazımdır. Məqsədimiz bundan ibarətdir.

Mə'lumdur ki, bu faciəli hadisələr həm Şuşa, həm də Laçın rayonlarının sakinlərini sıxır, kədərləndirir, incidir. Ancaq bu, eyni zamanda bütün xalqımızın ürək ağrısıdır, dərdidir, kədəridir. Çünki Şuşanın, Laçının Azərbaycan torpağı, respublikamız, xalqımız üçün nə qədər əziz, qiymətli olduğunu sübut etməyə ehtiyac yoxdur. Dörd ildir ki, biz bu rayonlardan məhrum olmuşuq. Ona görə də bu dərd çox ağır bir dərddir. Bu dərdi biz hamımız çəkirik. Ancaq bilirəm ki, şuşalılar, laçınlılar daha çox dərd, qəm içindədirlər. Çünki onlar həm də öz yerlərindən, yurdlarından didərgin düşdüklərinə görə ağır həyat tərzi keçirirlər. Təəssüf ki, bunlar hamısı həyatımızın reallığıdır. Biz bunlara dözürük, eyni zamanda əminik ki, bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar. Buna heç şübhə yoxdur.

Ancaq hələ ki, bu gün biz bu dərdin, kədərin, faciənin içindəyik. Bu münasibətlə fikirlərimizi bir-birimizlə bölüşdürmək üçün mən sizi buraya də'vət etmişəm. İstərdim ki, əvvəlcə sizi dinləyim, sizin sözlərinizi eşidim. Danışığımız tam sərbəst, səmimi olacaqdır. Heç kəs heç bir şeydən çəkinməsin, utanmasın. Kimin nə sözü, dərdi var, desin.

Şuşa rayon
İcra Hakimiyyətinin başçısı
**NİZAMİ BƏHMƏNOVUN**
çıxışı

Möhtərəm cənab Prezident! İcazə verin, çıxışıma başlamazdan əvvəl işinizin bu gərgin çağında vaxt tapıb bizi qəbul etdiyinizə görə Şuşa və Laçın rayonlarının əhalisi adından sizə səmimi minnətdarlığımı bildirim.

Mən çıxışıma Şuşa haqqında qısaca bə'zi mə'lumatlarla başlamaq istəyirəm. Mə'lumdur ki, Şuşa şəhəri üç dəfə, yə'ni 1905-ci, 1907-ci və 1920-ci illərdə erməni — azərbaycanlı müharibələrindən ziyan çəkmişdir. 1920-ci ildə Şuşa şəhərinin üçdə iki hissəsi yandırılmışdır. Şəhər bu vəziyyətdə 60-cı illərin sonunadək qalmışdır. Möhtərəm Prezident, məhz Siz respublikanın rəhbəri vəzifəsinə gələndən sonra və Şuşa şəhəri haqqında sizin təşəbbüsünüzlə Azərbaycan KP MK-nın və Nazirlər Kabinetinin 360 və 280 nömrəli qərarları qəbul olunandan sonra Şuşa şəhəri çox sür'ətlə inkişaf etməyə başladı. Bu qərarlardan biri Şuşanın kurort şəhəri kimi kompleks şəkildə inkişafı haqqında, ikincisi isə Şuşanın qoruq şəhər e'lan edilməsi haqqında idi.

Dediyim kimi, şəhər sür'ətlə inkişaf etməyə başladı. Belə ki, respublika əhəmiyyətli 187 tarixi abidə qeydə alındı. Onların arasında Mehmandarovların kompleksi, Ocaqqulunun evi, Natəvan xanımın ev-muzeyi, Üzeyir bəyin ev-muzeyi, Bülbülün ev-muzeyi, Qasım bəy Zakirin məzarı, Aşağı Gövhərağa məscidi, Yuxarı Gövhərağa məscidi, Saatlı məscidi, Cabbar Qaryağdıoğlunun ev-muzeyi, Nəvvabın ev-muzeyi, Molla Pənah Vaqifin ev-muzeyi, İran şahzadəsi Bəhmən Mirzə Qacarın ev-muzeyi, Çarıq Mirzənin ev-muzeyi, yüzlərlə belə tarixi abidə var idi. Onların hamısının əsaslı tə'mirinə başlandı.

Şuşanın kurort şəhəri kimi inkişaf etdirilməsi haqqında Sizin təşəbbüsünüzlə qərar qəbul olunduqdan sonra şəhər sür'ətlə abadlaşdırılmağa başlandı. Turşsu xətti Şırlandan şəhərə gətirildi, iki

sanatoriya binası, 600 yerlik sanatoriya yeməkxanası, 220 yerlik turist bazası, 1176 yerlik xüsusi internat məktəb, radiozavodun filialı, minlərlə kvadratmetr mənzil sahəsi, toxuculuq kombinatı tikildi. Bu qərarla əlaqədar şəhərdəki bütün idarələrin strukturu dəyişdirildi, yol və tikinti idarələrinə lazımi miqdarda maşın və mexanizm verildi. Bir sözlə, bu şəhərin tikilib abadlaşdırılmasını biz şuşalılar sizin təşəbbüsünüzlə qəbul edilən qərarlarla bağlayırıq. Şuşalılar üçün ən yaddaqalan günlərdən biri Sizin respublikanın mədəniyyət və incəsənət xadimləri ilə birlikdə şəhərimizdə tədbir keçirdiyiniz gündür. Bütün şəhər sakinləri bu tədbirə də'vət olunmuşdular. Deyə bilərəm, Şuşa yeganə şəhər idi ki, siz o vaxt Molla Pənah Vaqifin məqbərəsinin açılışına ailə üzvlərinizin hamısı ilə birlikdə gəlmişdiniz. Biz şuşalılar bunu heç vaxt unutmayacağıq. O vaxtlar mən tikinti idarəsinin rəisi vəzifəsində işləyirdim. Məqbərənin tikintisi bizim idarəyə həvalə edilmişdi. Biz şuşalılar onu da heç vaxt unutmayacağıq ki, Siz məqbərənin açılış mərasimində iştirak edən bütün şuşalılarla birlikdə süfrə arxasında əyləşdiniz. Bu, bizim üçün ən yaddaqalan tarixi bir hadisədir.

Bildiyiniz kimi, Şuşa və Laçının düşmənə təhvil verilməsi ilə əlaqədar məhkəmə prosesi artıq sona yetmişdir. Bu gün burada deyəcəyim faktların hamısı məhkəmədə təsdiq olunmuşdur. Çalışacağam ki, bütün faktları həm Sizə, həm də məni dinləyən respublika vətəndaşlarına konkret şəkildə çatdırım.

Dağlıq Qarabağda nə kimi hadisələr baş verib, nə üçün baş verib, bu hadisələr zamanı nələr olubdur?

1988-ci il fevralın 12-də Dağlıq Qarabağda nümayişlər başlandı. O vaxtlar Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov idi. Fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin sessiyası DQMV-nin Azərbaycan SSR-in tərkibindən çıxıb Ermənistan SSR-in tərkibinə keçməsi barədə Azərbaycan Ali Sovetinə və Ermənistan Ali Sovetinə məktubla müraciət etdi. Bu hadisədən sonra dəhşətə gələn xalq, ilk növbədə Ağdam camaatı fevralın 22-də və 23-də ayağa qalxdı. Beləliklə, Stepanakert üzərinə yürüşlər başlandı. Həmin vaxtlar Ermənistandan 300 mindən artıq qardaş və bacılarımız öz doğma ata-baba yurdlarından qovulmuşdu. Onlar öz yurd-yuvalarından didərgin salınarkən Ermənistan rəhbərliyi soydaşlarımıza hücum edənlərin önündə getmişdi. Amma bizdə əksinə oldu. Mərkəzi Komitənin birinci katibi Kamran Bağırov bütün hüquq-mühafizə orqanlarının əməkdaşlarını Ağdam rayonuna göndərərək ayağa qalxan xalqı susdurdu. Yüzlərlə adam həbs olundu, minlərlə adamı isə tutulduqdan sonra pul alıb buraxdılar. Onlar bax, beləcə xalqı ruhdan salıb susdurmağa çalışırdılar.

Bildirmək istəyirəm ki, həmin vaxtlar Ermənistandan Şuşaya



təxminən 1000 ailə gəlmişdi. Biz şuşalılar bayaq sadaladığım obyektlərin hamısını boşaldıb Ermənistandan gələn bacı və qardaşlarımızı orada yerləşdirdik. Onu da deyim ki, biz onları çox qonaqpərvərliklə və mehribanlıqla qarşıladıq. Təəssüf ki, DQMV-nin o vaxtkı rəhbəri Poqosyanın Moskvaya bir zəngindən sonra Əbdürrəhman Vəzirov Şuşaya pənah gətirən qaçqınların buradan köçürülməsi kampaniyasına başladı. Bu kampaniyaya MK-nın katibi Telman Orucov başçılıq edirdi. Demək olar, bütün rayonlardan Şuşaya maşınlar göndərildi. Müxtəlif obyektlərdə yerləşdirdiyimiz qaçqınları maşınlara doldurub Azərbaycanın aran rayonlarına apardılar. Bunu onunla izah etdilər ki, Ermənistandan qovulan qardaş və bacılarımız bütün ömrü boyu heyvandarlıqla məşğul olublar, kurort şəhərində yaşaya bilməzlər. Bundan başqa, Vəzirov qaçqınların köçürülməsi üçün Moskva ilə danışıqlar aparırdı. Deyirdi ki, guya onlar Dağlıq Qarabağda qalsalar öz yerlərinə qayıtmaq imkanından məhrum olacaqlar. Halbuki onlar Dağlıq Qarabağda qalsaydılar bizə böyük qüvvə olardılar.

Ən dəhşətli hadisələrdən biri 1988-ci il iyunun 21-də baş verdi. DQMV Xalq Deputatları Sovetinin sessiyası vilayətdə yaranmış vəziyyətlə əlaqədar SSRİ Ali Sovetindən xahiş etdi ki, məsələnin müsbət həllinə qədər vilayət SSRİ hökumətinin tabeliyinə verilsin.

Bu, bizim faciəmizin başlanğıcı idi. Təəssüf ki, o vaxtlar Azərbaycan SSR Ali Soveti, MK-nın birinci katibi, respublika rəhbərləri belə bir qərarın qəbul olunmasına yol verdilər. Beləliklə, 1988-ci ilin sentyabrında DQMV-yə rəhbərlik Sov.İKP MK-nın, SSRİ Ali Sovetinin, SSRİ Nazirlər Sovetinin səlahiyyətli nümayəndəsi Arkadi İvanoviç Volskiyə tapşırıldı. Bu, bizim üçün əsl faciə idi.

A.Volski öz hakimiyyətinə başladığı vaxtdan on gün sonra, sentyabrın 18—21-də Stepanaketrdə yaşayan 12 mindən artıq azərbaycanlı qovuldu və elə həmin gün də onların evləri yandırıldı. Buna cavab olaraq Şuşa əhalisi şəhərdə yaşayan erməniləri qovub, evlərini yandırmağa başladı. Hamınıza mə'lum olan bir qərardan, daha doğrusu, qanunsuz silahlı dəstələrdən silahların yığılması haqqında Qorbaçovun fərmanından sonra Volskinin başçılıq etdiyi komitə bu prosesi vilayətdə qısa bir müddətdə başa çatdırdı və 55 yaşayış məntəqəsindəki azərbaycanlılardan bütün silahlar yığıldı. Camaatın əlindən alınan silahların hamısı Stepanakert milis idarəsinə təhvil verildi. Volski qadağan saatı e'lan etdi. Bu barədə qərarın həyata keçirilməsi üçün o, Gəncə diviziyasından əlavə texnika gətirtdi və Stepanakertdə yerləşdirilmiş 366-cı alaya təhvil verdirdi. Bu texnikanın köməyi ilə o, DQMV-də qadağan saatını həyata keçirdi. Qadağan saatı vaxtında heç bir şuşalı və DQMV-də yaşayan azərbaycanlı axşam saat 8-dən sonra bayıra çıxa bilməzdi. Bundan

istifadə edərək Gorus—Laçın yolu ilə külli miqdarda silah gətirildi. Bu silahlar ermənilərə paylandı. Bir sözlə, 1990-cı ildə artıq DQMV Azərbaycanın inzibati nəzarətindən çıxarılıb, onun bütün iqtisadiyyatı Ermənistana bağlandı. Nəhayət, Volskinin hakimiyyəti də sona yetdi.

Cənab Prezident, burada Sizə belə bir məsələni demək istəyirəm. Bizim qatı düşmənimiz olan belə bir adamın hərəkətlərini görən respublika rəhbərlərindən biri — o vaxtlar Nazirlər Kabinetinin rəhbəri işləyən Ayaz Mütəllibov 1989-cu il martın 24-də Şuşaya gəldi. Şuşalıları onunla görüşə yığdılar. Mütəllibov Laçından, Zəngilandan, Qubadlıdan və Bakıdan 10—15 adamla, o cümlədən nazirlərlə gəlmişdi. Mütəllibov dedi ki, Arkadi Volski bizim ən yaxın dostumuzdur, gələcəkdə bizə lazım olan adamdır. Buna görə də onu Azərbaycanın yaşayış məntəqələrindən birindən SSRİ Ali Sovetinə deputat seçməliyik. Burada əyləşənlərin əksəriyyəti həmin görüşdə iştirak edib. Ona çıxış etməyə imkan vermədik. Lakin buna baxmayaraq, o öz məqsədinə nail oldu. 1989-cu il martın 26-da Volski Azərbaycandan SSRİ Ali Sovetinə deputat seçildi.

**Heydər Əliyev:** Dağlıq Qarabağın azərbaycanlıları adından?

**Nizami Bəhmənov:** Bəli. O bilirdi ki, şuşalılar ona səs verməyəcəklər. Laçının, Zəngilanın və Qubadlının Dağlıq Qarabağla heç bir əlaqəsi olmamasına baxmayaraq, o vaxt Mütəllibov bu rayonların əhalisini seçki məntəqələrinə cəlb etdirdi. Bununla da o, Volskini guya azərbaycanlılar adından deputat seçdirdi.

Respublika öz müstəqilliyini e'lan etdikdən sonra Volski Moskvaya qayıtdı. O, artıq öz işini görmüşdü. Yə'ni bütün azərbaycanlılardan silahlar yığılmış, ermənilərin hamısı silahlanmışdı, Gəncə diviziyasından lazımi miqdarda silah gətirilib Stepanakertdəki 366-cı alaya təhvil verilmişdi. Bax, beləcə Volski Azərbaycandan deputat seçilib Moskvaya qayıtdı.

Bundan sonra Mütəllibov respublikanın prezidenti seçildi və Polyaniçkonun rəhbərliyi ilə Dağlıq Qarabağ üzrə respublika Təşkilat Komitəsi yaratdı. Lakin bu komitə heç nəyin öhdəsindən gələ bilmədi və Stepanakertdən biabırcasına qovuldu. Beləliklə, Dağlıq Qarabağın işğalı başlandı. 1991-ci ilin avqustunda Mardakertin İmarət Qərvənd kəndi yandırıldı. Oktyabrın 30—31-də Tuğ kəndi işğal edildi. Noyabrın 18-də Martuni rayonunun Xocavənd kəndi tutuldu. Noyabrın 21-də respublikanın bir qrup rəhbər işçisinin, o cümlədən bizim rayon partiya komitəsinin birinci katibi Vaqif Cəfərovun uçduğu vertolyot vuruldu. Dekabrın 1—2-də Kərkicahan kəndi işğal olundu. Bu, Şuşanın yaxınlığında və Şuşa üçün mühüm mövqedə yerləşən bir kənddir.

Kərkicahanın işğalından sonra bir qrup Şuşa ziyalısı Ayaz Mütəllibovla görüşmək üçün Bakıya gəldi. Həmin qrupa Şuşa rayon



icra hakimiyyətinin başçısı mərhum Mikayıl Gözəlov başçılıq edirdi. Görüşdən sonra Mütəllibov onu saxlayıb demişdi: "Deyəsən, topluтüfəngli çıxmısınız". Görüşdən qayıtdıqdan beş gün sonra, 1991-ci il dekabrın 11-də Mikayıl Gözəlov öz iş otağında qətlə yetirildi.

Dekabrın 7-də Füzulinin Yuxarı Divanalı kəndi zəbt olundu. O həndəvərdə olan yüksəkliklər böyük strateji əhəmiyyətə malik idi. Dekabrın 17—23-də Cəmilli və Meşəli kəndləri əldən getdi. Cənab Prezident, bu kəndlər Laçın istiqamətində yerləşir. Cəmilli və Meşəli kəndlərinin işğalından sonra ermənilər artıq Şuşa—Laçın yolunda böyük bir faciə törətdilər: pusqu quraraq bütöv bir ailəni—hamilə qadını, onun həyat yoldaşını, 2 yaşlı uşağını, gəlinin anasını və onların getdiyi maşının sürücüsünü gecə vaxtı qəddarcasına güllələdilər. Bu ağır hadisə yanvarın 22-də oldu. Biz şuşalılar dəfn mərasimində iştirak etdik.

25—26 yanvar 1992-ci il. Daşaltı əməliyyatı. Cənab Prezident, mən bu əməliyyat barəsində bir az ətraflı danışmaq istəyirəm. Bu əməliyyat Ayaz Mütəllibovun birbaşa göstərişi ilə keçirilmişdir. Ona o vaxtkı müdafiə naziri Tacəddin Mehdiyev başçılıq edirdi. O vaxtlar belə bir əməliyyat aparılmasına heç lüzum yox idi. Bu, Bakıda 20 yanvar hadisəsi kimi qanlı bir hadisə idi. Çünki onun nəticəsində 120 nəfər həlak oldu, bir günün içində yüzlərlə adam şikəst oldu. Əməliyyat nə üçün aparıldı? Mən bu barədə qısaca mə'lumat vermək istəyirəm.

Bu əməliyyatın birbaşa Şuşada keçirilməsi səbəbsiz deyildi. O vaxt Şuşa münaqişə zonası olduğuna görə əməliyyat üçün məhz Şuşa seçilmişdi. Ayaz Mütəllibov bu əməliyyatla hamıya sübut etmək istəyirdi ki, Azərbaycan xalqı, Azərbaycan dövləti ordu yaratmaq iqtidarında deyildir. Sanki demək istəyirdi ki, "Bax, bu sizin müdafiə naziriniz, bu da onun keçirdiyi əməliyyat. Ay xalq, bax ki, Azərbaycan xalqı ordu yaratmaq iqtidarında deyil, buna görə mənə icazə verin Rusiyanın Azərbaycandakı silahlı qüvvələrini istədiyim bölgədə yerləşdirim, onlara status verim".

Belə bir fikri xalqa qəbul etdirmək üçün bu cür acınacaqlı əməliyyat keçirərlər? Uşaqdan tutmuş böyüyədək bütün Şuşa camaatı bu əməliyyata baxırdı. Hamımız onu öz gözümüzlə gördük. O vaxt mən onların yanında idim. Burada əyləşənlərin əksəriyyəti də bu əməliyyatı izləyirdi.

Daşaltı əməliyyatından iki gün sonra — 1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya gələn vertolyot vuruldu. Bu zaman 47 nəfər həlak oldu. Bununla əlaqədar faciəli bir epizoddan danışacağam. Ata və ana özlərinin xəstə uşağını xilas etmək üçün qucaqlaşıb onu öz aralarına almışdılar. Onlar elə bu vəziyyətdə də yerə düşmüşdülər. 47 nəfər göydə parça-parça olub gözlərimiz qarşısında yerə düşdü.

Bundan sonra ən dəhşətli və ümumiyyətlə, faciəmizin başlanğıcı olan bir hadisə baş verdi. Fevralın 2-də Rəhim Qazıyev Şuşaya gəldi. Daşaltı əməliyyatından cəmi beş gün sonra Mütəllibov gələcək çirkin əməllərini həyata keçirmək üçün heç bir hərbi təhsili olmayan bir adamı Şuşaya göndərib, şəhərin müdafiəsini ona tapşırdı. O, əmr verib Rəhim Qazıyevi Şuşaya komendant tə'yin etmişdi.

Rəhim Qazıyevin gəlişindən üç gün sonra Şuşada guya ona qarşı qəsd hazırlandı. Halbuki özünü reklam etmək üçün bu üzdəniraq "qəsdi" onun özü təşkil etmişdi. Bu zaman səkkiz nəfər gənc həlak oldu. Guya ona güllə atan bir nəfər isə Qazıyevin əlaltıları tərəfindən öldürüldü. Bundan məqsəd cinayətin izini itirmək idi. Rəhim Qazıyevin Şuşaya gəlişindən səkkiz gün sonra yeni bir faciə baş verdi: Şuşanın Malıbəyli və Quşçular kəndləri işğal olunub yandırıldı. Bu zaman 42 adam öldürüldü. On beş min əhalisi olan Şuşada 15 günün içində 250 adam həlak oldu. Cənab Prezident, şəhərin, demək olar, hər yerində matəm mərasimləri keçirildi. Buna baxmayaraq, əhali öz ləyaqətini, qürurunu, doğma torpağa məhəbbətini belə faciələrdən sonra da itirmədi, dözürdü, kimdənsə kömək gözləyirdi.

Malıbəyli və Quşçular kəndləri işğal edildikdən sonra onların camaatı iki gün meşələrlə gedib canını qurtardı və Ağdamın Abdal Gülablı kəndinə gəldi. Bundan sonra onlar birbaşa Bakıya getdilər və Mütəllibovun qəbuluna düşməyə çalışdılar. Amma heç kəs onları qəbul etmədi, dərd-sərlərini dinləmədi. Belə bir fəlakətdən sonra şuşalılara heç başsağlığı da verilmədi.

Cənab Prezident, necə olur ki, belə bir ağır vaxtda siz yiyəsiz uşaqlarla da görüşməyə imkan tapırsınız, bizimlə də görüşürsünüz, o gün "Qızılqum" sanatoriyasında yaşayan bizim camaatımızla da görüşdünüz. Bu qədər xarici qonaq qəbul edirsiniz. Siz bunların hamısına vaxt tapa bilirsiniz.

Bəs 15 günün içində Şuşa şəhərində 250 adam həlak olmuşdu, amma bu "rəhbərlər" Şuşaya quruca bir teleqram göndərməyə vaxt tapmamışdılar...

Mən Şuşanın işğalı ilə əlaqədar ətraflı danışmaq istəyirəm. Bayaq dediyim kimi, bu faktların hamısı məhkəmədə təsdiq edilibdir. Fevralın 25—26-da Xocalı faciəsi baş verdi. Möhtərəm Prezident, Siz Xocalı camaatının nümayəndələri ilə görüşmüsünüz. Biz o görüşü çox böyük diqqətlə izlədik. Mən burada təkcə iki faktı deməliyəm, mən onları deməyi özümə borc bilirəm. Bir baxın, bu adam nə ilə məşğul olubdur. Birinci fakt. Yeri gəlmişkən, Xocalı rayon icra hakimiyyətinin başçısı Elman Məmmədov bu faktı həmin görüşdə demədi. Xocalının işğalından dörd gün, ya da beş gün qabaq Azərbaycan televiziyası və radiosu belə bir mə'lumat verdi ki, Naxçıvanik kəndi Azərbaycan Ordusu tərəfindən azad edilib, hazırda Naxçıvanik kəndi Azərbaycan



döyüşçülərinin ixtiyarındadır. Televiziya və radio ilə dalbadal verilən bu mə'lumatı Xocalı əhalisi də eşitdi. Buna görə də Xocalı camaatı qaçanda Naxçıvanik kəndi istiqamətində qaçdı. Hamısı olmasa da, əksəriyyəti. Onlar burada kütləvi şəkildə qırıldılar. Cənab Prezident, mən çox xahiş edirəm, özünüz göstəriş verin ki, bu faktı radio və televiziyada üzə çıxarsınlar. Ola bilsin ki, o, arxivdə qalır. Xocalıdan qırılanlar məhz Naxçıvanik kəndi ətrafında qırılıblar.

İkinci fakt. Ağdamdan zəng oldu. Yadımda deyil, o vaxt orada Ayaz Mütəllibovun nümayəndəsi kim idi, həmin adam zəng vurmuşdu. Bizim icra hakimiyyətinin başçısı həmin general ilə danışdı. O nümayəndə bildirdi ki, əməliyyat hazırlanır və martın 4-də keçiriləcəkdir.

Xocalı faciəsini Ayaz Mütəllibov 366-cı alayın vasitəsilə həyata keçiribdir. Bu alay Gəncə diviziyasına tabe idi. İndi də o, Gəncə diviziyasının iştirakı ilə əməliyyat təşkil edirdi. Biz ayın 6-da Gəncə diviziyasının zabitləri üçün səhər yeməyi hazırlamalı idik. Guya onlar gedib Xocalını azad edəcək, bağlı olan Stepanakert — Şuşa yolunu açacaqdılar.

Cənab Prezident, ayın 4-də əməliyyat başlandı: onu Gəncə diviziyasının hərbçiləri başladılar, Xocalını bu günə qoyan hərbçilər. Diviziyanın bir hissəsi Dağlıq Qarabağda idi, mən 366-cı alayı nəzərdə tuturam. Bu adamın siyasəti belə idi: hansısa bir rayonu faciəyə düçar etmək - həm də öz həmkarlarının əli ilə, üstündən beş gün keçəndən sonra isə yenə də həmkarlarının əli ilə həmin rayonu azad etmək və öz hökumətini möhkəmləndirmək. O, eyni variantı Şuşada da həyata keçirdi. İndi mən o faktın üstünə gəlirəm. Martın 6-da Ali Sovetin sessiyası onu vəzifədən azad etdiyi üçün əməliyyat yarımçıq qaldı. Hərbçilər Əsgəranadək gəlmişdilər. Rusların özləri ilə gətirdikləri texnikanı orada kimlərə verdiklərini bilmirəm. Bütün Ağdam və Şuşa camaatı bunun şahididir. Biz isə ayın 6-sı üçün səhər yeməyi hazırlamışdıq. O vaxt bizim siyasətdən başımız çıxmırdı, anlamırdıq ki, bu nə oyundur. Bu əməliyyat da belə qurtardı.

28 fevral. Şuşanın köçürülməsi. Xocalı hadisəsindən iki gün sonra respublikanın bütün rayonlarında nə qədər yük avtomobili var idisə, hamısı bir günün içində Şuşaya göndərildi. Burada 60-dək şuşalı əyləşib, onlar bunun şahididirlər. Rəhim Qazıyev onda hələ Şuşada idi. Qərar verilmişdi: Şuşa köçürülməlidir. Əhalini elə vəziyyətə salmışdılar ki, heç kəs hara köçürüldüyünü bilmirdi. 1000 maşını balaca bir şəhərə göndərəsən ki, minib hara gedirsiniz gedin?

Şəhəri qorumaq mümkün deyildi. Nə isə, Ayaz Mütəllibovun əmri ilə şəhərin camaatını köçürməyə başladılar. Cənab Prezident, on günün içində şəhəri köçürdülər. Kişilər şəhərin müdafiəsi üçün kazarmalara yığılmışdılar, özləri də silahsız idi. Halbuki ailə başçıları

ailələrini aparıb yerləşdirmək üçün onlarla birlikdə getməli idi. Beləliklə, Şuşa camaatı 61 rayonda yerləşdirildi.

Cənab Prezident, sizin hafizəniz çox güclüdür. Köçürülmə ilə əlaqədar bir epizodu danışacağam. Martın ya 2-si, ya da 3-ü idi. O vaxt şəhəri müdafiə qərargahı polis idarəsində yerləşirdi. Polis idarəsinin rəisi Vahid Bayramov idi. Biz ondan xahiş etdik ki, Sizə zəng vursun. Çünki respublika rəhbərliyindən əlimiz artıq üzülmüşdü. Sizin Bakıya gəlməyə imkanınız yox idi. Biz artıq hər şeyi başa düşmüşdük. Buna görə də yeganə ümidi Sizdə görürdük. Sizə iki-üç dəfə zəng oldu. Bir ağsaqqal kimi sizinlə məsləhətləşdik. Verdiyiniz məsləhəti bu gün burada da deyirəm. Onu da deyim ki, biz Sizə camaat şəhərdən köçürüldükdən üç gün sonra zəng vurduq. Dediniz ki, eybi yoxdur, qocaları, xəstə uşaqları, xəstə qadınları çıxardın və nəyin bahasına olursa-olsun öz qüvvənizlə şəhərin müdafiəsini yaradın. Kaş o günlərdə imkanımız olaydı, cənab Prezident, Sizi Bakıya gətirə biləydik. Şuşanın işğalına hələ iki ay qalırdı. Bütün şuşalılar qəti əmin idilər və inanırdılar ki, Siz Azərbaycanın gözü olan Şuşanın əldən getməsinə dünyasında yol verməzdiniz. Axı Siz bu şəhərdə böyük işlər görmüsünüz. Təəssüf ki, o vaxtlar bəlkə bizim aramızda da Sizi başa düşməyən adamlar olub. Biz çox gec başa düşdük. Burada deyiblər ki, müsəlmanın sonrakı ağlı.

Mardakert rayonunda azərbaycanlılar yaşayan axırıncı kəndlər də əldən getdi. O zaman Rəhim Qazıyev hələ də Şuşada idi. Baş Güneypəyə, Orta Güneypəyə, Maniklu kəndləri işğal edilib yandırıldı. Beləliklə, Şuşa istisna olmaqla, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 55 yaşayış məntəqəsi və Füzulinin bə'zi yaşayış məntəqələri 366-cı alayın və erməni qüvvələrinin birgə əməliyyatı nəticəsində işğal edildi. Bundan sonra Rəhim Qazıyev guya yaxşı işlərinə görə respublikanın müdafiə naziri tə'yin olundu. Özü də hələ Şuşada olarkən.

Vaxtınızı çox almaq istəmirəm. Birbaşa aprel ayına keçirəm. Ayın əvvəllərində gecə Şuşada işıqlar keçirilmişdi. Rusiyanın təyyarələri şəhərin üstünə işıqlandırıcı şarlar tökdü. Şəhər süd kimi oldu. Gecə saat 2—3 idi, yatanların hamısı yerindən durub bayıra çıxdı, dedilər ki, bu nə olan şeydir? Biz onları birinci dəfə görürdük. Demə, bizim yaxşı-yaman düzəltdiyimiz mövqelərin şəkli çəkilirmiş.

Aprelin 9-da Rusiyanın xarici işlər naziri Andrey Kozırev Stepanakertə və Şuşaya gəldi. Qayıdandan sonra onun "İzvestiya" qəzetində böyük bir məqaləsi çıxmışdı. Yazırdı ki, ermənilər 15 min canlı qüvvə ilə Şuşa şəhərini tamamilə ələ keçirməyə hazırdırlar.

Mən Şuşa haqqında mə'lumatın hamısını Sizə dedim. Orada gərgin vəziyyət yaranmışdı. Şəhər sakinləri ikinci dəfə martın 28-də köçürüldü. Yaqub Məmmədov bizim keçmiş icra hakimiyyəti başçısına



göstəriş vermişdi ki, Şuşa köçürülsün. Şuşa camaatı ayağa qalxaraq şəhərin köçürülməsinin qarşısını aldı. Bundan sonra — 1992-ci ilin aprelin 9-da mən icra hakimiyyətinin başçısı tə'yin edildim. Ayın 11-də Şuşaya gəldim. Cəmi 20 gündən sonra Şuşa əldən getdi.

Mən özümün gördüyüm işlər barədə mə'lumat vermək istəmirəm. Lakin şəhərin artıq bağlanmış olan bütün müəssisə və idarələrini qısa bir müddətdə açdırdım, onların rəhbərləri qayıdıb öz yerlərində oturdular. Mən Sizə hərbçilərlə etdiyim söhbət barədə mə'lumat vermək istəyirəm. Ayın 13-də birinci iclasımız oldu. İclasda Şuşanın ziyalıları, axundu, idarə və müəssisə rəhbərlərindən bir neçə nəfər, bir də Şuşada cəmləşmiş batalyonların komandirləri iştirak edirdilər. Axund özü ilə müqəddəs Qur'anı da gətirmişdi. Batalyon komandirlərinin adlarını bu gün burada deməliyəm: Rəhim Qazıyevlə gələn Xalq Cəbhəsinin batalyon komandiri Tofiq Oğuz, Rəhim Qazıyevin əmisioğlu Məmməd Qazıyev, — bütün silahlar onun ixtiyarında idi və silahı yalnız o verirdi, — hərbi texnikaya nəzarət batalyonunun komandiri Məmməd bəy, Kosalar ərazisinin batalyonunun komandiri Elçin Məmmədov, Şuşanın iki müdafiə batalyonunun komandirləri Fəxrəddin Səfərov və mərhum milli qəhrəmanımız Ramiz Qəmbərov.

O iclas dörd saat çəkdi. İclas ərəfəsində Rəhim Qazıyevlə yeddi dəfə danışılıb. O, artıq müdafiə naziri idi. Hər dəfə də demişəm ki, Rəhim bəy, əmr vermisən, Elçin Məmmədov briqada komandiri tə'yin olunub, indi özün gətirdiyin adamlara göstəriş ver, əmrinə tabe olsunlar, ümumi komandanlıq altında birləşsinlər.

Cənab Prezident, bunu etmək mümkün olmadı. Rəhim Qazıyevlə axırda Ramiz Qəmbərov danışdı və ona dedi ki, Rəhim bəy, gətirdiyin adamlar bircə məqsəd — şəhəri təhvil vermək məqsədi güdürlər. Onu bil ki, əgər şəhər təhvil verilsə, harda olsan da səni tapıb özümüz məhv edəcəyik. Bundan sonra onlar Qur'anın altından keçdilər. Amma bayıra çıxdıqda dedilər ki, Qur'anın altından keçməyimizə baxmayaraq, bizim hərəmizin öz əqidəmiz var. Biz heç vaxt briqada komandiri Elçin Məmmədova tabe olmayacağıq.

Aradan dörd gün keçəndən sonra başqa bir yol seçdim və onları pul ilə mükafatlandırmağı qərara aldım ki, bir qərara gəlsinlər. Yenə də bir iclas keçirdik. O vaxtkı pul ilə 115 min rubl ayırdıq və hər batalyon komandirinə 10-15 min rubl verdik, 11 adamı mükafatlandırdıq. Dedim ki, bu pullar qarşımıza çıxan məsələləri həll etmək üçündür. Gəlin, ümumi komandanlıq altında birləşək və Hacıtalasını götürək. Hacıtalası Laçın—Şuşa yolunu tam nəzarətdə saxlayır. Hacıtalası alınmasa və sabah şəhər işğal olunsa camaatı da çıxara bilməyəcəyik. Razılaşdılar. Dedim ki, Nazirlər Kabineti ilə danışmışam. Əməliyyatda fərqlənən hər bir döyüşçüyə "Jiquli" maşını verəcəyik. Ancaq bunlarla işləmək yenə mümkün olmadı.

Sizə ən vacib məsələni deməliyəm. Elçin Məmmədov xahiş etdi ki, tə'cili surətdə Bala Kirsə yol çəkilsin, çünki o bizim əlimizdə olmasa, Laçın—Şuşa yoluna nəzarət edə bilməyəcəyik. Qısa müddətdə ən çətin dağ yolları ilə həmin yolu çəkdik. Oraya bir tank, bir "Qrad" qurğusu, bir də top apardılar. Həmin mövqeyə 120 nəfərdən ibarət hey'ət göndərildi. Biz o yolu ayın təxminən 24-də çəkib qurtardıq. Aprelin 25-26-da isə oraya lazımi texnikanı çıxardılar.

Axşam Rusiya televiziyasının "Vesti" proqramına baxdıq. Müxbir Kirs mövqeyində müsahibə alırdı. Laçında bir post, Turşsuda bir post, Şuşanın hər yerində post qoyulmuşdu. Hamıya da mə'lumdur ki, "Vesti" kimə xidmət edir. Müxbirin sözü də bu oldu ki, artıq döyüşlər dəniz səviyyəsindən 2600 metr yüksəklikdə gedir. Halbuki bu hərbi sirr idi və bu, yeganə mövqeyimiz idi ki, biz ermənilərin arxa hissəsinə keçmişdik. Bəs "Vesti"nin müxbiri oraya necə gəlib çıxmışdı? Bundan heç kəsin xəbəri olmadı, hamı dandı.

24 aprel. Elbrus Orucov şəhərə briqada komandiri göndərildi. O, gələn kimi polis idarəsində ilk iclas keçirdi. İclasa bizim prokuroru, milli təhlükəsizlik şö'bəsinin rəisini və məni də də'vət etmişdi. O dedi ki, bu günədək gördüyünüz işlərə görə çox sağ olun. Bu gündən e'tibarən Şuşa rayon icra hakimiyyəti, onun polisi heç bir müdafiə məsələsinə qarışa bilməz. Polis şəhərdə ancaq qadağan saatı məsələsi ilə, asayişi qorumaqla məşğul olmalıdır. İcra hakimiyyəti ancaq dinc əhalinin və hərbçilərin yemək, su və yanacaq ilə tə'min olunması məsələsini həll etməlidir. Biz razılaşdıq, dedik ki, eybi yoxdur, təki şəhər qorunsun.

Cənab Prezident, Şuşa elə bil qəsdən Xalq Cəbhəsinə aid olan batalyon üçün seçilmişdi. Kimə, respublikada hansı cinayətkara silah lazım olsa, Şuşaya gəlirdi. Üç günlüyə adını yazdırırdı, bəs edirdi. Sonra avtomat silahını götürüb, bölgədən çıxıb gedirdi. Ramiz Qəmbərovun batalyonu artıq formalaşmışdı. Bundan sonra biz məcbur olub Fəxrəddin Səfərovun batalyonuna 625 şuşalı cəlb etdik. Onlara demişdim ki, kazarmaya gəlin, silah tapacağıq.

İşğal gününə qədər 625 şuşalıya cəmi 85 silah verilmişdi — yenə deyirəm, silah məsələsinə Rəhim Qazıyevin əmisioğlu baxırdı. İşğal günü də məhz həmin 85 adam döyüşdü.

Rusiyanın müdafiə naziri Qraçov martın 1-də Gəncədə Rəhim Qazıyevlə görüşdü. Cənab Prezident, Rəhim Qazıyevin həbs olunması üçün biz Sizə minnətdarlığımızı bildiririk. Çox sağ olun ki, onun həbs olunmasını başa çatdırdınız. Gün o gün olsun ki, o birilər, Ayaz Mütəllibov da tutulub gəlsin. Biz tam əminik ki, o da həbs edilib respublikaya gətiriləcək. Rəhim Qazıyev o vaxt Qraçovla nə barədə söhbət etdiyini yəqin ki, bu yaxınlarda deyər.

Martın 3—4-də respublika nazirlər kabinetində, Feyruz Mustafayevin yanında iclasa çağırılmışam və burada olmuşam. Təklif vermişik ki, müdafiə, milli təhlükəsizlik, daxili işlər nazirləri bu iclasda iştirak etsinlər. İclasa mədəniyyət, kənd təsərrüfatı nazirləri və başqa nazirlər, ümumiyyətlə, 22 nazir də'vət etmişdilər. Bu barədə protokol da var, mən onu məhkəməyə təhvil vermişəm. Bu protokolda həmin 22 nazirin adı var. Həmin iclasda mənə deyiblər ki, müdafiə işlərinə qarışmağa səlahiyyətiniz yoxdur. Rəhim Qazıyev buna imkan vermir. Ona görə də sən qayıdıb rayona getməlisən.



**Heydər Əliyev:** Necə olur ki, həmin vaxt Şuşa əldən gedir, amma Nazirlər Kabinetində mədəniyyət nazirinin və başqalarının iştirakı ilə iclas keçirilir? Məgər müharibənin o vaxtı bu lazım idimi?

**Nizami Bəhmənov:** Dəhşət də elə budur. Həmin iclasda muzey işinin necə qurulmasından danışırdıq. Müharibə gedən bir şəhərdə bu qədər eksponatı saxlamaq olardımı?

**Heydər Əliyev:** Həmin iclası kim aparırdı? Demək, sən iki gününü bu iclasa həsr etmisən?

**Nizami Bəhmənov:** Həmin iclası Nazirlər Kabinetində Feyruz Mustafayev aparırdı. Ayın 3-də mənə deyiblər, gəlib həmin iclasda iştirak etmişəm.

7 may. Həmin gün şəhərin yeddi yerində yas yeri var idi. Mən həmin yas yerlərində olub, otağıma gəlmişdim. Saat 22 radələrində Elbrus Orucov, Elçin Məmmədov, səhv etmirəmsə bir də podpolkovnik Cahangirov - üçü bir yerdə otağa girdilər. Dedilər ki, bəs səninlə şəxsi söhbətimiz var. Dedim ki, eşidirəm sizi. Elbrus Orucov dedi: Şahin Musayev günorta saat 4 radələrində mənə zəng edib bildirib ki, sabah, mayın 8-də Qızıl Xaç Cəmiyyətinin və ATƏT-in nümayəndələri Şuşaya gələcəklər. Ona görə də tə'cili olaraq yolları açın, birinci mövqedə olan əsgərləri və texnikanı götürün, gizlədin. Bax, əmr belə solaxay yol ilə qurulub.

Cənab Prezident, bütün bunlar məhkəmədə bir daha təsdiq olundu. Düz dörd gün üzləşmə aparılandan sonra mən belə bir əmr verilməsini onun boynuna qoydum. Bu barədə cənab generala da mən mə'lumat vermişəm. Üzləşmə prosesində Müdafiə Nazirliyinin 32 nəfər işçisi iştirak edirdi. Onların hamısı üzünə durandan sonra, nəhayət, o, boynuna aldı ki, bəli, belə bir əmri mənə Şahin Musayev vermişdi.

**Heydər Əliyev:** Kim boynuna aldı?

**Nizami Bəhmənov:** Elbrus Orucov. Məhkəmədə o dedi ki, mayın 7-də saat 16 radələrində Şahin Musayev mənə zəng vurub mayın 8-də Qızıl Xaç Cəmiyyətinin və ATƏT-in nümayəndələrinin guya Şuşaya gəlməsi adı altında Şuşa—Stepanakert, Kərkicahan—Şuşa yolunun minadan təmizlənməsi və birinci mövqedə olan bütün əsgərlərin, texnikanın götürülməsi barədə əmr verdi. Həmin əmrə əməl olundu. Mən ondan soruşdum ki, bəs bu əmri verəndə sən ona

nə cavab verdin? O dedi ki, mən ona inanmadım, ona görə də Rəhim Qazıyevə zəng etdim. Rəhim Qazıyev dedi ki, bəli, əmr mənim əmrimdir. Heç bir şərt qoymadan əmrə itaət etdin. Bu, Elbrus Orucovun söylədiyi və məhkəmədə təsdiq olunan faktdır.

Dedim ki, yaxşı, çox sağ ol, sonra nə sözün var? Cavab verdi ki, ermənilərin hücumu gözlənilir. Xəbər aldım ki, bəs sən əmrə əməl edib yolu minadan təmizləyəndən, birinci mövqedəki texnikanı çıxarandan, məni müdafiə işlərindən kənarlaşdırandan, bütün işlərini qurtarandan sonra mənim yanıma nə üçün gəlmisən? Elbrus Orucovun üzündə çox qorxunc bir ifadə var idi və mənə də çox pis baxırdı. Əslində mən bunu demək istəmirdim, ancaq məcburam.

Heç demə, Rəhim Qazıyev həmin gün ona teleqram vurub ki, Şuşa rayon icra hakimiyyətinin başçısını güllələyin. Bu fakt da məhkəmədə təsdiq olundu. Rabitəçi teleqramı gətirib Elbrus Orucova verib. O, mənimlə danışanda teleqram onun cibində imiş. Bilmirəm, həmin vaxt o məni öldürməyə gəlibmiş, yoxsa yox. Kaş elə öldürəydi, o torpaqda qalaydım. Amma həmin teleqramı rabitəçidən alanda ona deyib ki, bu işin vaxtı deyil. Rabitəçi bunu sonra mənə danışıb. Əgər lazım olsa, həmin adamı Səfər Əbiyevin yanına gətirərəm. Mən Elbrus Orucovdan soruşdum ki, təklifin nədir? Cavab verdi ki, sənin iştirakınla Rəhim Qazıyevə zəng vuraq. Həmin vaxt işıqlar sönmüşdü. Elbrus Orucov VÇ telefonu ilə Rəhim Qazıyevə zəng vurdu ki, bəs ermənilərin hücumu gözlənilir. Soruşdum ki, Rəhim Qazıyev nə deyir? Cavab verdi ki, Rəhim Qazıyev dediyini yenə də təsdiq edir ki, bir dənə də güllə atılmamalıdır. Bundan sonra Elbrus Orucov mənə dedi ki, ayın 3—5-i arasında batalyon komandirlərinə əmr verməyimə baxmayaraq, Şuşadan 400 nəfər hərbçi e'zamiyyətə göndərilib, adamım çatmır. Cəmisi 600 adamım var. Xahiş edirəm ki, Şuşada olan yaşlı adamların hamısını kazarmalara cəlb edin, mən onları silahla tə'min edərəm.

Mən həmin gecə kənd Soveti sədrlərinin hamısına, habelə avtobazanın direktoruna tapşırdım ki, Şuşada, kəndlərdə nə qədər kişi varsa, hamınız kazarmaya yığılın, hücum gözlənilir. Gecə saat 2-yə 10 dəqiqə işləmiş "Vesti" xəbər verdi ki, ermənilər bizim bir mövqeyimizi götürüblər. Həmin mövqe dəniz səviyyəsindən 2600 metr hündürlükdədir. Oraya yeganə yol Laçından idi. O vaxt Laçın, Turşsu, buraya gedən yol bizdə idi. Erməni dəstəsi buraya 2 metrlik qarın içi ilə piyada çıxıb və bu mövqeni, yə'ni Şuşanın arxa hissəsini götürüb. Nail Kazımov göstəriş verib, orada yerləşmiş 120 nəfərlik batalyonun 80 nəfərini geri çağırıb. O, məhkəmədə öz cəzasını aldı. Həmin mövqedə duranların hamısının həmin gecə başı kəsilib, öldürülüb. Axırıncı 2—3 nəfər ancaq onu bacarıb ki, tankı partladıblar. Top da, "Qrad" qurğusu da ermənilərin əlinə keçib. Həmin mövqe



bizim düz arxamız idi. Oradan həm Şuşa, həm də Laçın görünürdü. Bu, bizim ən yüksək mövqeyimiz idi. Bu hadisədən bizim xəbərimiz yox idi.

Döyüşlər haqqında, məndən sonra çıxış edənlər yəqin ki, deyəcəklər. Gecə saat 2-yə 10 dəqiqə işləmiş Şuşa dörd bir tərəfdən top atəşinə tutuldu. 366-cı alayın bütün texnikası Şuşanı atəşə tutdu. Bu zaman birinci mövqedəki əsgərlərimizin hamısı öldürülüb, ermənilər gəlib Şuşadakı həbsxanaya, xəstəxanaya giriblər, şəhərin sol tərəfini, ticarət idarəsinin binasını, qoruq zonasını götürüblər. Ermənilər 15 min nəfərlik qüvvə ilə hücum ediblər. Onların 5 min nəfəri Kosalara hücum edib, qalanları Şuşaya, Kozırev necə yazmışdısa, elə də olub.

Bu çətinliklərə, mövqelərdən bütün canlı qüvvə və silahın çıxarılmağına baxmayaraq, döyüşçülərimizin qoçaqlığı nəticəsində mayın 8-də gündüz saat 10-dək erməniləri həbsxanadan da, türmədən də, xəstəxanadan da, qoruqdan da çıxartdıq. Yə'ni ticarət idarəsi binasından başqa, ermənilərin tutduqları bütün mövqelər azad edildi.

Həmin gün səhər saat 6-da mən Tahir Əliyevin evinə zəng vurdum ki, şəhərə güclü hücum olub. Heç bir şey xahiş etməmişəm.

Demişəm ki, şəhərdə küçə döyüşləri gedir, bizə qumbaraatanı olan 40 nəfər göndər. Cavab verdi ki, mənə bir saatdan sonra zəng vur. Həmin vaxt zəng vurdum, Tahir Əliyevin iş yerindən mənə Fəhmin Hacıyev cavab verdi ki, Tahir Əliyev sizə lazım olan qüvvəni götürüb vertolyotla Şuşaya getdi. O zaman mən respublikanın hər bir təşkilatından aldığım mə'lumatı həmin dəqiqə döyüş bölgələrinə çatdırmağı özümə borc bilirdim. Çatdırdım ki, döyüşçülər ruhdan düşməsinlər. Onlara mə'lumat göndərdim ki, Tahir Əliyev müəyyən qüvvə ilə Şuşaya köməyə gəlir.

Cənab Prezident, mən həmin vaxt Yaqub Məmmədovu Tehranda tapdım. O, danışıqlara getmişdi. Məndə faktlar var, Yaqub Məmmədov mayın 14-də Ayaz Mütəllibovun hakimiyyətə gəlməsini bilirdi. Yaqub Məmmədov Tehrana Laçın—Şuşa dəhlizi məsələsini razılaşdırmağa getmişdi və bunu da razılaşdırıb gəlmişdi ki, humanitar yük gətirilməsi adı ilə Ermənistandan Laçın yolu ilə Dağlıq Qarabağa dəhliz verilsin. Bəli, Yaqub Məmmədov İrana bunun üçün getmişdi. Mən məhkəmədə bunu ona da sübut etmişəm.

Gürşad Zərbəliyevə zəng vurub xahiş etdim ki, mənim dediklərimin hamısını respublika prezidentinin səlahiyyətlərini həyata keçirən Yaqub Məmmədova çatdırın. O, bunları Yaqub Məmmədova çatdırdı və xəbər verdi ki, Tehranda bə'zi məsələlərə baxıb, artıq qayıdır. Saat 3-də Yaqub Məmmədov hava limanından mənə zəng vurdu. Mən vəziyyəti ona danışdım. Yaqub Məmmədov bildirdi ki, mən təyyarədən indi düşmüşəm. Rəhim Qazıyev deyir ki, bunların hamısı şayiədir, Şuşaya heç bir hücum yoxdur. Dedim ki, a kişi, sən respublikanın

prezidenti vəzifəsini icra edirsən, sənin Şuşadakı nümayəndən mənəm. Mən öz otağımdan danışıram və sənə deyirəm ki, vəziyyət belədir. Amma sən bildirirsən ki, Rəhim Qazıyev deyir, Şuşaya heç bir hücum yoxdur. Cavab verdi ki, yaxşı, dəqiqləşdirib sənə zəng vuraram.

Bundan sonra mən Feyruz Mustafayevlə, müdafiə naziri ilə, Şahin Musayevlə, daxili işlər naziri ilə danışdım. Həmin vaxt respublikanın rabitə naziri mənə zəng vurdu. Ondan xahiş etdim ki, ətraf rayonların - Laçın, Qubadlı, Zəngilan, Ağdam, Füzuli, Tərtər və sair rayonların hamısı ilə danışmağa kömək etsin. O, özü mənə kömək etdi və mən həmin rayonların hamısı ilə danışdım ki, kimin imkanı varsa, Dağlıq Qarabağa təzyiq göstərin ki, ermənilərin qüvvələrinin müəyyən hissəsi oraya çəkilsin. Demək olar ki, bütün rayonlar susdu. Təkcə Laçın rayonundan bizə 20 nəfər köməyə gəldi.

Saat 4 radələrində Elbrus Orucov bir daha mənim yanıma gəldi. O vaxt mənim yanımda 40 nəfər adam əyləşmişdi. O, Rəhim Qazıyevə zəng vurdu. Sadəcə olaraq özünü bizə göstərirdi. Halbuki Şuşadan minomyotçuları götürüb, Kosalar kəndinə aparmışdı. Sonra mənə dedi ki, sənin camaat arasında nüfuzun var, qaçanların qarşısını almağa kömək et. Mən ondan xahiş etdim ki, bir daha Rəhim Qazıyevə zəng vursun. O, zəng vurdu. Rəhim Qazıyev dedi ki, saat 20.00-da ermənilərin yeni hücumu gözlənilir. Rəhim Qazıyev soruşdu ki, ermənilərin hücumunun qarşısını saat neçəyədək saxlaya bilərsən? Elbrus Orucov cavab verdi ki, əlimdəki qüvvə ilə mən şəhəri uzaqbaşı saat 22-dək saxlaya bilərəm. Əgər bundan sonra kömək gəlməsə, şəhəri təhvil verəcəyik.

Mən ona dedim ki, sən nə danışırsan, şəhəri təhvil vermək nədir? Məgər Şuşanı təhvil vermək olar? Elbrus Orucov bildirdi ki, mən sənə açıq deyirəm, hazırkı qüvvə ilə şəhəri ancaq saat 22-dək qorumaq mümkündür. Sonra mən mövqelərə çıxdım. Orada Ermənistandan olan bir əsgər var idi. Mən ondan soruşdum ki, qaçanların qarşısını nə üçün almırsınız? O cavab verdi ki, bizə belə əmr verməyiblər. Mən ona əmr etdim ki, qaçan "Jiquli" markalı maşını vursun. O, həmin maşını BTR-in atəşi ilə vurdu. Yaxşı ki, ölən olmadı. Sonra isə həmin əsgər mənim əmrimi yerinə yetirməkdən imtina etdi.

Həmin əsgər dedi ki, Elçin Məmmədov, yaxud Tofiq Oğuz və sair mənə əmr verə bilər, qoy öz batalyon komandirim desin, mən buradan bir nəfərin də keçməsinə imkan verməyim. Bundan sonra mən öz otağıma qayıtdım. Saat 6-da Yaqub Məmmədov mənə zəng vurdu ki, əgər ikinci "Xocalı" faciəsi yaratsan, cavabdeh özünsən. Dur, təşkil et, camaatın qalan hissəsini şəhərdən çıxar.

**Heydər Əliyev:** Bu, ayın neçəsində olmuşdu? O sənə dedi ki, şəhərdən çıxın?

**Nizami Bəhmənov:** Bəli, cənab Prezident, o, mənə dedi ki, sən



ikinci "Xocalı faciəsi" yaradırsan, mən nə Rəhimi, nə də heç kəsi tapa bilmirəm, şəhərdən çıxın. Bu, mayın 8-də saat 18.00-da olub. Yaqub Məmmədov soruşdu ki, şəhərdə nə qədər dinc əhali var? Cavab verdim ki, iki minə yaxın əhali var. Dedi ki, sən ancaq əhalini çıxarmaqla, öz işinlə məşğul ol.

Vaxtınızı almamaq üçün deyim ki, mən bütün mə'lumatları ona vermişdim.

İndi mən söhbətimi Mütəllibovla görüşə gətirib çıxarmaq istəyirəm. Gecə saat 12-yə 15 dəqiqə işləmiş Turşsuya gəldik. Hərbçilər Laçın—Şuşa yolu ilə gəlib çıxmışdılar, biz isə meşə yolu ilə piyada getdik.

**Heydər Əliyev:** Demək, şəhəri tərk etdiniz?

**Nizami Bəhmənov:** Bəli, səhər saat 9-dan sonra Elbrus Orucov bütün hərbçilərə göstəriş verib, indi burada bizim hərbi komissar çıxış edib hamısını deyəcək, bütün texnikanı yığıb ki, mən şəhəri qoruya bilmirəm.

Bayaq dediyim kimi, biz gəlib Turşsuya çıxdıq və burada Tahir Əliyev ilə görüşdük. Gördük ki, o, bir dəstə ilə, — Rövşən Cavadov da orada idi, — gəlib Turşsuda oturub. Soruşduq ki, siz burada saat neçədə olmusunuz? Cavab verdilər ki, saat 4-də. Dedik ki, a qardaş, bəs gəlmisiniz, heç olmasa yüz nəfərlə şəhərə girəydiniz, camaat da görəydi kömək var. Tahir Əliyev bildirdi ki, yox, bu qüvvə ilə mən şəhərə girə bilmərəm, biz şəhərə sonra girəcəyik. Cənab Prezident, əsas məsələ də buradan başlayır.

Mən ayın 12-dək Turşsuda qaldım. Laçına getdim, gördüm ki, Laçının rəhbərləri mədəniyyət evinin zirzəmisinə yığışıb, E'tibar Məmmədov da, Arif Hacıyev də, başqaları da buradadır. Əsas qüvvə Turşsuya yığılmışdı, ancaq Tahir Əliyev qərargahı Laçında yerləşdirmişdi. Mən hər gün bu qərargaha gedirdim ki, görüm, onlar burada hansı məsələni həll edirlər. Guya onlar Şuşanın alınması üçün hücum əməliyyatı hazırlayırdılar və hücum mayın 15-dən sonra olacaqdı. Bax, bu mayın 15-i məsələsini mən bütün görüş iştirakçılarına çatdırmaq istəyirəm. Kimdən soruşurdum ki, bu hücum niyə 15-dən sonra olacaq, dəqiq cavab ala bilmirdim. Cənab Prezident, həmin günlərdə oraya nə qədər texnika, canlı qüvvə yığılmışdı. Əgər həmin texnikanı, qüvvəni bircə gün əvvəl gətirsəydilər, nəinki Stepanakerti, hətta bütün Dağlıq Qarabağı azad etmək mümkün idi. Ən müasir markada 20-yə yaxın tank var idi. Bilmək olmurdu ki, bunları haradan alıblar. Axı həmin günədək respublikada bir tank da yox idi. İki gün müddətində bu tanklar haradan alınmışdı? Bunlar mənə mə'lumdur. Mən bu gün bunları deyəcəyəm.

Yenə də deyirəm, kimdən soruşurdum, cavab verirdi, hücum ayın 15-dən sonra olacaq. Fikirləşirdim ki, onda mən Bakıya gedim,

televiziya ilə çıxış edib Şuşadan çıxan bütün sakinləri götürüb, silahla geri qayıdım. 1992-ci il mayın 12-də mən Bakıya gəldim, Yaqub Məmmədovun qəbuluna getdim. Qəbul otağında Gürşad müəllim dedi ki, Ayaz Mütəllibov içəridədir. Yaqub Məmmədov ilə söhbət edirlər.

**Heydər Əliyev:** Yaqub Məmmədovun yanında idi?

**Nizami Bəhmənov:** Bəli, Sizdən uzaq, bax, bu kabinetdə idilər.

**Heydər Əliyev:** Bu binanı vaxtilə mən tikdirmişəm, amma sonra elə nadürüst adamlar əyləşiblər. Bu, xalq üçün tikilmiş binadır.

**Nizami Bəhmənov:** O stulda Siz əyləşirsiniz, Siz də əyləşməlisiniz. Gürşad müəllim məni qəbul etdi. Ayaz Mütəllibov da Yaqub Məmmədovun yanından çıxanda ona dedim ki, getmə. Sən də bu respublikanın prezidenti olmusan, gedək, Yaqub Məmmədov ilə birlikdə söhbət edək.

Üzr istəyirəm, onun başqa pis adamlar kimi bir gülməyi var idi. Həmin gülüşlə mənə bildirdi ki, sən əvvəlcə Yaqub müəllimə de, sonra biz ikimiz içəri keçək. Mən Yaqub müəllimə dedim və ikimiz də içəri keçdik. Şuşada olan vəziyyəti danışdım. Yeri gəlmişkən deyim ki, mən o vaxt onun buraya gəlməsinin səbəbini hələ bilmirdim. Biz Şuşadan qəbula 4 nəfər gəlmişdik. İçəridə mən bir saat ərzində Şuşada olan vəziyyətdən danışdım. Mən söhbət etdikcə, onlar başları ilə təsdiq edirdilər ki, bəli, tamamilə doğru deyir, filan batalyon Xalq Cəbhəsinindir, bu batalyon filankəsindir.

Ayaz Mütəllibov otaqdan bayıra mənimlə bərabər çıxdı, əlini çiynimə qoyaraq soruşdu ki, camaat indi haradadır? Cavab verdim ki, xəbərim yoxdur. Amma bir hissəsi burada, Filarmoniya binasının qabağındadır. Dedi ki, səndən xahiş edirəm, get, camaatını bircə həftə sakit saxla, mayın 18-də Şuşada olacaqsınız, yə'ni, Şuşa alınacaq. İkinci xahişim budur ki, mayın 15-də mənim yanıma gəlməlisən. Soruşdum ki, hara? Dedi ki, elə bura. O bunu mənə mayın 12-də deyib. Bildirdi ki, həmin gün mən respublikanın bütün nazirlərini buraya də'vət edəcəyəm, mayın 18-də şuşalıları geri qaytarmaq üçün nə qədər avtomaşın lazımdırsa, sənə verəcəyəm.

Mən sevincək halda ondan ayrıldım. Həmin dörd nəfərlə Filarmoniya binasının yanına gəlib, camaatımıza dedim: sizə qurban olum, yerdə də, göydə də, qohum evində də yatsanız, bircə həftə sakit olun, bu adam mənə belə bir söz deyib. Artıq burada Mütəllibovun tərəfdarlarının çadırları qurulmuşdu. Bu çadırlarda elə bir adam yox idi ki, deməsin — narahat olmayın, mayın 18-də Şuşadasınız.

Cənab Prezident, mayın 14-də keçirilən sessiyada biz məsələni başa düşdük: deməli, Ayaz Mütəllibov yenidən prezident seçilməli imiş. O, prezident seçiləndən sonra başa düşdüm ki, mənə nəyə görə deyirdi ki, ayın 15-də buraya gəl. Mayın 15-də gəldim. Amma atışma düşdüyü üçün onun mühafizəçiləri məni arxa qapıdan çıxarıb dedilər ki, qaç. Onlardan indi də burada işləyənləri var.



**Heydər Əliyev:** Həmin gün buraya gəldin?

**Nizami Bəhmənov:** Bəli, o vaxt Ali Sovetdə atışma gedirdi. Prezident Aparatına da hücum gözlənilirdi. Məni oradan çıxartdılar və dedilər ki, bu yolla çıx get. Ayaz Mütəllibov ilə daha görüşüm olmadı. Deməli, plan belə imiş: Şuşa hərbçilərin iştirakı ilə düşmənə təhvil verilir ki, qoy bunu bütün respublika bilsin.

Sonra mayın 14-də Mütəllibov yenidən hakimiyyətə gəlir. Sessiya keçirilən gün bu, artıq mə'lum idi. Sessiyanın günü Şuşa əldən getməmişdən əvvəl bilinirdi. Onlar Xocalı hadisəsi adı ilə sessiya keçirdilər, Ayaz Mütəllibovu prezident seçdilər. Mayın 15-də isə Daşkənddə MDB ölkələri dövlət başçılarının görüşü keçirilirdi. Həmin gün artıq Rəhim Qazıyev Daşkənddə idi. Onunla buradan başqa nümayəndələr də oraya getmişdilər. Cənab Prezident, Ali Sovetin o vaxtkı deputatlarının 50 faizinin bu məsələdən xəbəri olub. Ona görə də mən bir dəfə çıxış edəndə dedim ki, burada əyləşənlərin əksəriyyətinə "hörmətli deputat" demək olmaz. Hamısı mənim üstümə düşdü. Siz isə məni müdafiə etdiniz.

Bəli, o sessiyanı təşkil edən deputatların bəlkə 80 faizinin xəbəri var idi ki, məsələ belə olacaq, Ayaz Mütəllibov prezident seçiləcək. Rəhim Qazıyev və xarici işlər nazirinin nümayəndələri Daşkənddə oturmuşdular ki, görüşü hazırlasınlar. Çünki Ayaz Mütəllibov prezident seçiləndən sonra mayın 15-də Daşkəndə getməli idi. Orada Rusiyanın Azərbaycanda olan qoşunlarının əmlakı bölünməli idi. Ayaz Mütəllibov və Rəhim Qazıyev tərəfindən Rusiyanın hərbi bazalarına Azərbaycanda yer ayrılması barədə sənəd verilməli idi. Şuşa şəhəri də məhz buna görə işğal olunmuşdu.

Bu məsələlər haqqında danışmaq da mümkün deyil. Ayaz Mütəllibovun ora getməsi çevriliş nəticəsində mümkün olmayıb. Rəhim Qazıyev orada özü təkəbbürlə təklif verib ki, o, — yə'ni Ayaz Mütəllibov — artıq postundan qaçıb, prezident kimi məni qəbul edin, hansı sənədə istəyirsiniz qol çəkim. Ona görə də orada razılaşma baş tutmayıb. Deməli, Ayaz Mütəllibov qaçandan sonra Rəhim Qazıyev buraya prezident kimi gəlməli idi...

Dövlətlər buna heç vaxt razılıq verə bilməzdilər.Ona görə də Rəhim Qazıyev qayıdıb bura gələn kimi öz iddiasını həyata keçirmək üçün Turşsuda olan silahlı qüvvələrə göstəriş verib ki, onu müdafiə etsinlər.

İndi bir epizoddan da danışacağam. Mayın 12-də mən burada Mütəllibov ilə görüşəndə Elbrus Orucov Yevlax şəhərində Surət Hüseynovun yun idarəsində olub. Həmin görüşdə Rəhim Qazıyev, Elbrus Orucov, Şerbak, Şerbakın iki zabiti, Surət Hüseynov və Şahin Musayev iştirak ediblər. Şuşanı təhvil verən briqada komandiri Elbrus

Orucova orada yeni tə'limat verilib. Ona deyilib ki, sən Turşsuya qayıdırsan (o, ayın 13-də gəlib Turşsuya), əmri gözləyirsən. Əmr sənə Şuşadan veriləcək.

Cənab Prezident, bu fakt məhkəmədə təsdiq olunub. Ona deyiblər ki, Şuşadan ağ bayrağı əvəz edən ağ "Niva" maşını gələcək. 366-cı alayın komandiri həmin ağ "Niva"da olacaq. O, şəhərə hansı istiqamətdən hücum etmək barədə sənə bütün tə'limatı verəcək. Yə'ni Daşkənddəki görüş baş tutsaydı, Şuşadan Turşsuya Elbrus Orucovun yanına ağ "Niva" getməli idi. Bütün bölmələrə də göstəriş verilib ki, həmin ağ "Niva"ya heç kəs atəş açmasın. Saat 3-də Ayaz Mütəllibov buradan qaçandan sonra bir daha göstəriş verilir ki, söhbətimiz baş tutmadığı üçün gələn ağ "Niva"nı vurun. Ağ "Niva"nı da vurublar.

Şəhəri qaytarmaq, Mütəllibovu prezident vəzifəsində saxlamaq mümkün olmayanda, Rusiya ilə danışıqlar baş tutmayandan sonra Rəhim Qazıyev özünü müdafiə naziri kimi yox, prezident kimi hiss edirdi. Bölgədə olan altı reyd briqadasının hamısının komandirlərinə Elbrus Orucov oradan çıxmaq əmri verib. Hakimyyət uğrunda mübarizə aparan Xalq Cəbhəsinin liderləri də öz hakimiyyətlərini qoruyub saxlamaq üçün oradakı digər batalyonlara, Xalq Cəbhəsinin batalyonlarına göstəriş veriblər.

Beləliklə, Turşsudan həm Müdafiə Nazirliyinin qoşunu, oraya yığılan bütün texnika, həm də Xalq Cəbhəsinin bütün batalyonları eyni vaxtda geri çağırılıb. Bundan sonra daha Laçından danışmağa dəyməz. Çünki bununla Laçın da süqut edib, onlar çıxanda yeganə bir körpünü də partladıb çıxıblar ki, guya bu körpü olmasa, erməni gedib Laçını ala bilməyəcək.

Beləliklə, döyüş bölgəsindəki batalyonların bir qrupu gəlib Ali Sovetin binasını, İsa Qəmbəri müdafiə edirdi, bir qrupu da Rəhim Qazıyevi. Həmin dövrdə Xalq Cəbhəsi üstün çıxdığı üçün Rəhim Qazıyevin hakimiyyətə gəlmək variantı baş tutmayıb.

Cənab Prezident, bizim faciəmiz belə olub, belə də yekunlaşıb. Bu barədə mən bu gün görüşümüzə görə, söz xatirinə demirəm. Mən bu barədə 1992-ci ildə televiziyadakı çıxışımda da demişəm. 1993-cü ildə Xalq Cəbhəsi məni həbs etmək istəyəndə prokuror İxtiyar Şirinova bu vəziyyət barədə birbaşa, yazılı şəkildə bütün ifadələrimi vermişəm. Şuşa və Laçınla bağlı məhkəmə prosesində mən yeganə şuşalıyam ki, axıradək, yə'ni üç ay orada iştirak edib bu faktların hamısını sübut etmişəm. Ağ "Niva" da, əmrin kimdən alınması da, başqa faktlar da sübut olunubdur.



Cənab Prezident, vaxtınızı çox almaq istəmirəm, mən bir gün danışsam, yenə də azdır. Amma əsas faktları dediyim üçün çıxışımı yekunlaşdırıram. Çıxışımın sonunda nələri demək istəyirəm? Əvvəlcə indiki vəziyyətimiz haqqında. Şuşa rayonunun əhalisi 61 rayonda 700 yaşayış məntəqəsində yerləşir. Əhali bizi çox gözəl qarşılayır. Ona görə də həmin rayonların rəhbərlərinə də, əhalisinə də öz minnətdarlığımı bildirirəm. Xüsusən Gəncədə, Ağcabədidə, Tərtərdə, Bərdədə, İmişlidə, Kürdəmirdə, Göyçayda, Saatlıda, Sabirabadda əhalimiz daha çoxdur. Biz Nazirlər Kabinetinin, İzzət müəllim sağ olsun, onun rəhbərliyi altında — yaxşı ki, bu iş bir adamın əlində cəmləşib — lazım olan məsələləri həll edirik.

Camaatımız adından Prezident Aparatından Ramiz müəllimə, Yusif müəllimə minnətdarlığımı bildirirəm. Onlar qaldırdığımız hər bir məsələni dərhal həll edirlər. Milli Bankın idarə hey'əti, bütün banklar, Maliyyə Nazirliyi, Fikrət müəllim ötən il ağır vəziyyətə baxmayaraq, bizə kömək etdilər. Təhsil Nazirliyi, Taxıl Məhsulları Dövlət Şirkəti də bizə kömək ediblər. Bizim ümumiyyətlə, heç nədən narazılığımız, şikayətimiz yoxdur.

Cənab Prezident, biz şuşalılar Sizin siyasətinizi hamı bir nəfər kimi tam dəstəkləyirik. Bu yolda öldü var, döndü yoxdur. Sizin apardığınız xarici, daxili siyasət haqqında mən çox danışmayacağam, bircə faktı deyəcəyəm. İcazə versəniz, çıxışımı qurtaranda bu sənədi sizə verim.

Bu sənəd 1992-ci ildə Ermənistanda çəkilmiş xəritədir. Qoy bunu bu gün televiziyaya baxan həmvətənlərim də eşitsinlər. Bu xəritə həm ingilis, həm də erməni dilindədir. Burada Dağlıq Qarabağın ərazisi Ermənistana birləşmiş şəkildə ağ rəngdə göstərilib. Qırmızı rəngdə çəkilmiş bu yerlər, onların fikrincə, Azərbaycanın işğal edilməli olan şəhərləridir. İşğal olunmuş rayonlarımız sizə mə'lumdur. Hörmətli Prezident, əgər Siz respublikamıza rəhbərliyə gəlməsəydiniz, Tərtər, Goranboy, Gədəbəy, Daşkəsən, Xanlar rayonları, Tovuzun bir hissəsi, Ağstafanın bir hissəsi, Qazax rayonunun bir hissəsi düz İcevana birləşənə qədər işğal olunmalı idi. Sizin apardığınız müdrik siyasət nəticəsində bu rayonlar işğal edilmədi, həmin rayonların əhalisi bizim günümüzə düşmədi. Siz respublikanın daxilində yaratdığınız sabitlik hesabına bunların qarşısını ala bilmisiniz. Qoy bunu bütün xalq eşitsin.

Yenə də deyirəm, bu, Ermənistan Respublikasında 1992-ci ildə hazırlanmış xəritədir.

Ola bilər, çox şeyləri unutdum, deyə bilmədim. Vaxtınızı çox

aldığıma görə üzr istəyirəm. Cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm. Biz, Qarabağın bütün əhalisi bir nəfər kimi Sizin əsgərinizik.

Bir atalar misalı ilə çıxışıma son qoymaq istəyirəm. Böyük bir sərkərdəyə sual verirlər ki, ola bilərmi qoyun sürüsü şir sürüsünə qələbə çalsın? Deyir, bəli, əgər qoyun sürüsünə şir rəhbərlik edirsə, şir sürüsünə qoyun rəhbərlik edirsə, qoyun sürüsü şir sürüsünə qələbə çala bilər.

Cənab Prezident, xalqımız şir xalq olub. Təəssüf ki, xalqa Sizə qədər rəhbərlik edənlər qoyun olubdur. İndi artıq xalqın şir sərkərdəsi gəlibdir. Biz də hamımız bir nəfər kimi Sizin əsgərinizik, əmrinizi gözləyirik.

Hörmətli Prezident, Şuşa rayonunun əhalisi və bütün qaçqınlar adından bir daha Sizə minnətdarlığımızı bildiririk. Biz inanırıq ki, Sizin müdrik rəhbərliyiniz altında tezliklə torpaqlarımız azad ediləcək, şuşalılar da, laçınlılar da, işğal olunmuş digər rayonların əhalisi də doğma yurdlarına qayıdacaqlar.

Diqqətinizə görə çox sağ olun.

## Laçın rayon İcra Hakimiyyətinin başçısı MURADXAN CABBAROVUN çıxışı

Hörmətli Prezident!

Vaxt tapıb ən gərgin günlərdə Laçın və Şuşa camaatı ilə görüşdüyünüz üçün Sizə dərin, tükənməz minnətdarlığımızı bildiririk.

Sizin yaxından köməyiniz, qayğınız və qərarlarınız nəticəsində Laçın rayonu 70-ci illərdə və 80-ci illərin əvvəllərində inkişaf edərək ən iri, abad dağ rayonlarından birinə, ən iri heyvandarlıq rayonuna çevrilmişdi. Laçın — Şuşa yolu yenidən çəkilmiş, kəndlərə yeni yollar salınmış, rayon başdan-başa elektrikləşdirilmiş, şəhərə və kəndlərə qaz çəkilmiş, iri daş karxanaları istifadəyə verilmiş, kəndlərin əksəriyyətində gözəl, yaraşıqlı məktəb binaları, mədəniyyət evləri, xəstəxanalar tikilib istifadəyə verilmişdi. Həm şəhərdə, həm də kəndlərdə çoxlu yaşayış evləri, inzibati binalar tikilmişdi.

Təsərrüfatların iqtisadiyyatı xeyli möhkəmləndirilmişdi. Qaramalın sayı 22 min başa, davarların sayı 118 min başa çatmışdı. Rayon hər il dövlətə 6 min ton ət, 5 min ton süd, 400 ton yun satırdı. Camaatın



güzəranı xeyli yaxşılaşmışdı. Bütün bu köməyə görə laçınlılar əvvəllər də, sonralar da Sizə dərin, tükənməz minnətdarlıqlarını bildiriblər, minnətdar olublar, indi də minnətdardırlar.

Hazırda fəlakətə düşüb köçkün şəraitində olduqları bir vaxtda onların ümidi, inamı yenə də yalnız və yalnız xalqımızın yeganə müdrik ağsaqqalı kimi Sizədir. Onlarda böyük inam var ki, bu bəlalardan Sizin rəhbərliyinizlə qurtaracağıq, eləcə də respublikamız bu bəlalardan xilas olacaqdır.

Hörmətli Prezident, Laçının, Şuşanın, eləcə də bütövlükdə Azərbaycanın bu bəlaya düşməsinin əsası, demək olar, Sizin respublikamızdan Moskvaya getdiyiniz günlərdən başlanmışdır. Respublikamız o dövrdəki səriştəsiz, daha doğrusu, cəsarətsiz və qorxaq rəhbərləri — Bağırov, Vəzirov, Mütəllibov, Əbülfəz Elçibəy - hər kəs öz dövründə baş verən hadisələrə diqqətlə, vaxtında, prinsipial, düzgün qiymət verə bilməmişdilər və eləcə də bu hadisələrin qarşısını almaq üçün heç bir tədbir görməmişdilər.

Bu biganəliyi görən ermənilər fəallaşmış, Qarabağın Ermənistana birləşdirilməsi uğrunda mübarizəni gücləndirmişdilər. Belə bir vəziyyətdə onlar üçün fürsət yaranmışdı. 1988-ci ilin əvvəlindən başlayaraq bu vəziyyət daha da mürəkkəbləşmişdi. Laçının vəziyyəti isə tamamilə ağırlaşmışdı. Bir yandan Stepanakert tərəfdən, Şuşanın Qaladərəsi kəndindən, o biri yandan Ermənistanın Gorus rayonu ərazisindən Laçın rayonuna qarşı həddindən çox təxribatlar edilir, qonşu kəndlərə atəş açılırdı. Ayrı-ayrı adamlar sahədə işləyəndə, mal otaranda, yolla gedəndə qətlə yetirilirdilər.

Qəribədir ki, respublika rəhbərləri bu hadisələrə təsadüfi hal kimi biganə baxırdılar. Bunların qarşısını almaq üçün heç kəs qəti tədbir görmək fikrinə düşmürdü. Dövlət tərəfdən də bu işlə heç kəs məşğul olmurdu. Belə olan halda ermənilər sözün tam mə'nasında silahlanır, xüsusən Yerevandan göstərişlər alırdılar. Z.Balayan Dağlıq Qarabağda hər gün olur, hamıya meydan oxuyurdu. Ermənilər silahla, sursatla təchiz edilmişdilər. Laçının Şuşa və Ağdamla əlaqəsi tamam kəsilmiş, yol da bağlanmışdı. Ona görə də ermənilər silah daşıyırdılar. Özü də necə daşıyırdılar? Əvvəl yük maşınları ilə. Üzdəniraq Poqosyan özü gedib Gorusdan 15—20 maşın götürmüşdü ki, guya məhsul yığımına gətirir. Halbuki Stepanakertin maşınlarını qarajda saxlayır, çölə də buraxmırdılar. Gorusdan gətirilən maşınların qarşısını Zabux kəndində camaat kəsib daş və ağacla sındırmış, buraxmayıb qaytarmışdı. Bundan sonra ermənilər Laçına qarşı daha güclü təxribata girişdilər. Bundan sonra onlar silahları vertolyotla daşımağa başladılar. Demək olar ki, hər gün Gorusdan, Yerevandan vertolyotla Hadruta, Xankəndinə, Vəng kəndinə, xüsusilə də bizim üçün ən təhlükəli yer olan Şuşanın Qaladərəsi kəndinə (bizim on kilometrliyimizdə

yerləşirdi) silah daşıyırdılar. Bu kənddə vertolyot meydançası düzəltmişdilər və gündə üç-dörd dəfə silah, sonra isə yaraqlılar gətirirdilər. Azərbaycan hökuməti bunun hamısını bilir, lakin heç bir tə'sirli tədbir görmürdü. Daha doğrusu, guya ermənilərə sataşmaq, baş qoşmaq istəmirdilər.

Elə bir vəziyyət yaranmışdı ki, Laçına ancaq Qubadlıdan getmək olardı. Bu yol da qorxulu idi. Qaladərəlilər, Qayğı qəsəbəsinin yanındakı hündürlükdə, yolun lap qırağında yerləşən Ermənistan kəndindəki yaraqlılar (onların top-tüfəngi, hər şeyi vardı) qəsəbədən keçənləri istədikləri vaxt atəşə tuturdular. Bir sözlə, 1988-ci ildən Laçın mühasirə vəziyyətində idi. Heç bir yana getməyə imkan yox idi. Bayaq dediyim kimi, respublikanın rəhbərləri isə bu barədə düşünmürdülər.

Volski gələndən sonra, o, Qorbaçovun iradəsi ilə Dağlıq Qarabağı Azərbaycanın nəzarətindən tamamilə çıxarmaq niyyətində idi. Belə bir vəziyyətdə Mütəllibov başda olmaqla respublikanın rəhbərləri əl-ayağa düşmüşdülər ki, Volski deputat olsun. Doğrudan da, onu əyri yolla deputat seçdirdilər, Laçında da, başqa yerlərdə də "seçildi". O isə sonra elə bir vəziyyət yaratdı ki, Dağlıq Qarabağ Azərbaycanın nəzarətindən tamamilə çıxdı. Bizə qarşı da təxribatlar artdı. Laçın pis günlərə qaldı. Belə vəziyyəti görəndə laçınlılar bütün kollektivlərdə yığıncaqlar keçirib Volskini deputatlıqdan geri çağırdılar. Həmin qərarı və materialları dəstələyib Ali Sovetə göndərdik. Amma Ali Sovetdə bunlara heç baxan, soruşan da olmadı ki, bu nə qərardır göndəriblər.

Vəziyyət isə getdikcə gərginləşirdi. Ermənilər silah daşımaqda davam edirdilər. Qaladərəsi tərəfdə cəbbəxana yaradılmışdı. Orada yaraqlılara Qrişa adlı birisi, sonra da Yerevandan gələnlər başçılıq edirdilər, bunu şuşalılar da, laçınlılar da bilirlər. Salatın Əsgərovanı və onunla birlikdə iki polkovniki də həmin yaraqlılar qətlə yetirdilər. Bundan başqa, Qaladərəsindən Şuşaya gələn yolda bizim onlarla adamımızı öldürdülər. Köhnəkənddə meşədə ata-oğulu, Ziyrik kəndində qadını və uşağı qətlə yetirdilər. Ermənistanla sərhəddəki Cicimli kəndində də adamları öldürürdülər. Yə'ni demək istəyirəm ki, adamları qətlə yetirirdilər, ancaq heç bir tədbir görən yox idi, respublikada dövlət səviyyəsində bu işlərdən heç kəs narahat olmurdu.

Laçın ən ağır günlərini keçirirdi. Belə qərara gəldik ki, respublika rəhbərliyinə bir də müraciət edək. İyirmi nəfər ağsaqqal yığışıb Prezident Aparatına gəldik.

**Heydər Əliyev:** Nə vaxt?

**Muradxan Cabbarov:** 1992-ci il martın 4-də.

Gəldik Prezident Aparatına, dedik ki, prezident Mütəllibovun qəbuluna gedək. Çox çətinlikdən sonra müşavir Adil Hacıyevlə görüşdük. O, iki saat bizimlə söhbət apardı və e'lan etdi ki,



"Mütəllibovun vaxtı yoxdur, sizi qəbul etmək istəmir, imkan yoxdur. Dediklərinizin hamısını mən yazmışam, Mütəllibova deyəcəyəm, kömək edəcəkdir". Sonra əlavə etdi ki, "Siz nahaq yerə narahat olmayın. Fəhmin Hacıyev Ağdamdan Şuşaya sarı, Rəhim Qazıyev isə Şuşada nə qüvvə varsa hamısı ilə Ağdama sarı hücuma keçəcəklər. Siz qayıdanda bu yolla gedəcəksiniz". Bu, Adil Hacıyevin bizə dediyi sözlərdir. Mən ona dedim ki, a kişi, sən müşavirsən, qabaqlar katib olmusan, mən də katib olmuşam. Orada ağır, təhlükəli vəziyyətdir, camaat ona görə buraya gəlib ki, Xocalı əhvalatı Şuşanı, Laçını da gözləyir. Ayıbdır, bunların ürəyini, ümidini qırmaq olmaz, ondansa bunları öldürmək yaxşıdır. Heç olmasa on dəqiqə vaxt tapıb camaatı qəbul etsin. Adil Hacıyev getdi, gəldi ki, səkkiz nəfəri qəbul etmək istəyir. Saat 5 olardı, səkkiz nəfər getdik qəbula. Müdafiə naziri, daxili işlər naziri, milli təhlükəsizlik naziri, Bakı şəhər icra hakimiyyətinin başçısı Ağayev də orada idilər. General Timoşenko da gəlib çıxdı. Adil bizə dedi ki, vaxt yoxdur, çalışın söhbətiniz 20 dəqiqədən artıq olmasın. Bir nəfər mə'lumat versin, əgər ehtiyac olarsa, bir nəfər də fikir söyləyər. Bir yoldaş mə'lumat verdi. Amma düzünü deyim ki, bizi çox laqeyd, biganə qəbul etdilər.

O cür təhlükədən çıxıb gələn camaatı Mütəllibov təsbeh çevirə-çevirə, çox laqeyd qarşıladı, daha doğrusu, heç fikir vermədi. Gördüm ki, fikir vermir, qalxıb dedim ki, rayonda vəziyyət ağır olduğuna görə biz buraya gəlmişik. 15 - 20 günə Xocalı əhvalatı Laçınla Şuşanı bürüyəcək. Faktlarla da dedik ki, harada nələr var, ermənilər Hadruta, Xankəndinə, Qaladərəsinə nə vaxt nə daşıyıblar, təhlükə haradandır. Bunların hamısını dedik və bildirdik ki, bizə bu qədər tank, bu qədər ZTR lazımdır. Ermənilər vertolyotlarla gündə silah daşıyırlar. onları vurmağa əlimiz yetmir, qoy uçmalarına imkan verməsinlər. Dönüb yanındakılara baxdı. Üzr istəyirəm, cənab Prezident, fikirləşəndə adam dəhşətə gəlir. Dedi ki, "Haradan iki tank spisat edib onlara sata bilərik?". Mən onun dediyi sözlərin hamısını demirəm, vaxt aparmaq istəmirəm. Bizimlə birlikdə bir veteran kişi vardı — Şahverdiyev, o dedi ki, yoldaş Mütəllibov, sən allah, elə onu verin, biz pulunu verərik, özümüzlə götürüb aparaq. Səsini çıxarmadı. Sonra Mütəllibov üzünü çevirdi müdafiə naziri Tahir Əliyevə. Mən birinci dəfə idi onu görürdüm. Tahir Əliyev dedi ki, bizim heç nəyimiz yoxdur, bir pulemyotumuz vardı, onu da cəbrayıllılar oğurlayıb aparıblar. Murada da demişəm, hələ də xəbər yoxdur, qaytarmayıblar. Daxili işlər naziri Kərimov da dedi ki, imkanımız yoxdur, 15 ədəd qumbara verə bilərəm.

Düzünü deyim, belə vəziyyəti görəndə bizi təəccüb bürüdü ki, kömək almağa gəlmişdik, amma gör hara gəlmişik. Belə olanda mən bir də durub Mütəllibova dedim ki, sizin də, böyrünüzdə oturanların

da nə Şuşa, nə də Laçın haqqında təsəvvürünüz yoxdur. Amma vəziyyət gərgindir, qorxuludur. Xocalı əhvalatı iki rayonu gözləyir. Xahiş edirəm, göstəriş verin, bu nazirlər bizimlə maşına oturub getsinlər Laçına, hər şeyi öz gözləri ilə görsünlər. Orada tədbirlər planı hazırlayaq, bizdən asılı olanı biz edək, sizdən asılı olanı siz. Lakin heç bir sözümüzə "hə" cavabı olmadı. İki saatlıq söhbətdən sonra dedi ki, iki nəfər qalsın, görək nə kömək edə bilərik.

Camaatın o cür ağır günündə prezidentdən, güc nazirliklərindən kömək olmadı, halbuki xalqın müdafiəsini onlar təşkil etməli idilər. Gördük ki, onların bu rayona kömək etmək fikirləri yoxdur, kor-peşman əliboş çıxıb getdik. Sonradan bizə hər şey aydın oldu ki, rayonu onlar özləri satmaq, talamaq istəyirmişlər.

Prezidentin yanından çıxanda gördük ki, Rəhim Qazıyev başında papaq, damağında siqaret dayanıb qapının dalında. Düzünü deyim ki, bizimlə gedənlərin arasında hər cürəsi vardı, bir-ikisi onu qucaqlayıb möhkəm görüşdülər. Mən yaxınlaşdım ki, Rəhim Qazıyev, axı Laçında da, Şuşada da vəziyyət ağırdır, onları Xocalı əhvalatı gözləyir. Mənə dedi ki, "Ay ağsaqqal, ay kişi, ayıb deyil, iki ermənidən ötrü oradan buraya gəlmisiniz? Onlar heç bir şey edə bilməzlər, atalarını yandıracağıq. Nə danışırsan, onlar Laçına nə edə bilərlər? Gedin evinizdə yatın" Rəhim Qazıyevin mənə cavabı bu oldu.

Nə isə, biz əliboş, çox pis vəziyyətdə rayona qayıtdıq. Düzünü deyim, yuxarıdan tutmuş aşağıyadək vəziyyət elə idi ki, heç bir yaxşı məsləhətə qulaq asan yox idi, hamı eyni mövqedə idi. Rayonun müdafiəsi ilə maraqlanan yox idi. Rayona gələndən sonra müəyyən tədbirlər görmək istədik, baş tutmadı.

Onu da əlavə edim ki, Tahir Əliyev Prezident Aparatında dedi ki, sizdəki batalyon elə möhkəmdir ki, ermənilər ona bata bilməzlər. Cavabında bildirdim ki, o batalyonun on dəqiqə də ermənilərin qarşısında dayanmağa imkanı yoxdur. Mən o vaxt rəhbər işdə deyildim, amma batalyondakı ZTR-lərin hamısına baxmışdım, özüm maraqlanırdım ki, nə etmək lazımdır. Axı, rayon əldən gedirdi. Dedim ki, oradakı ZTR-lərin akkumulyatorları yoxdur. Rəhim Qazıyev isə dedi ki, əşi, o nə şeydir ki, rayondakı "KAMAZ"ların akkumlyatorlarını çıxarıb salın.

Nə isə, qayıdandan sonra çox fikirləşdik, ölçdük-biçdik, gördük ki, respublikadan kömək yoxdur, ordu, polis — hamısı onların tə'siri altındadır. Rəhim Qazıyev də, Şahin Musayev də, Elbrus Orucov da bildirirdilər ki, Şuşanı və Laçını guya özləri müdafiə edəcəklər. Amma əslində aydın oldu ki, onlar buraları müdafiə etmir, əksinə camaatın arasında da, kəndlərdə də pozuculuq işləri aparır, rayonu Ermənistana təslim etməyə şərait yaradırdılar. Əsl vəziyyət belə idi. Ona görə də



mayın 4—5-də Şuşadan çox adam qaçıb gəlirdi. Çoxlu meyit də gətirdilər, bütün bunlar camaatı vahiməyə saldı.

Nəhayət, mayın 8-də eşitdik ki, Şuşa əldən gedibdir. Bu, Laçın üçün çox ağır zərbə oldu. Şuşa əldən getməyə də bilərdi. Şuşanın iki yolu var idi. Burada Nizaminin dediyi kimi, Şuşanı satdılar. Halbuki Turşsuda ermənilərin qarşısını kəsmək olardı.

Mayın 9-da gecə saat 12 radələrində polis idarəsində oturmuşduq, bir də gördük, Nofəl Kərimov gəldi. Daxili işlər Nazirliyinin işçisi idi. Özü də yaxşı işçi, məs'uliyyətli adam idi. Dedi ki, mən Turşsudan gəlirəm, gündüz gəlib keçmişik. Tahir Əliyev ilə Şuşaya gedirdik, imkan olmadı, Şuşadan çıxan axırınca adamlarla Turşsuda görüşdük, daha Şuşaya gedə bilmədik. Tahir orada qaldı, mən isə gəldim rəhbərliyə xəbər verim ki, Şuşa əldən gedibdir. O, bizim yanımızda çox həyəcanlı halda zəng etdi, müdafiə naziri Rəhim Qazıyevi tapdı və ona dedi ki, Şuşa əldən gedibdir, daha bizim deyildir. Rəhim isə cavabında demədi ki, gələrəm. Dedi ki, panika ilə məşğul olmayın, Şuşanı heç kəs almayıbdır, Şuşa bizdədir, Şahin Musayevlə danışın. Şahin Musayev müdafiə nazirinin müavini idi, o da eyni sözləri deyib telefonun dəstəyini yerə qoydu.

Düzü, müdafiə nazirinin bu cür vicdansız hərəkətindən sonra bütün ümidimiz kəsildi. Necə nazirdir ki, demədi ki, möhkəm dayanın, bu gecə gəlirəm, qoşun gətirirəm. Heç maraqlanmadı ki, bu nə hadisədir, nə olubdur? Əksinə, dedi ki, yalan danışırsınız, panikadır.

Təzədən Bakıya zəng edib Yaqub Məmmədovu axtardıq, tapılmadı. Rəhmətlik Afiyəddin Cəlilovu tapdıq. Yoldaşlar o kişiyə də mə'lumat verəndə gördüm ki, o da inanmır. Deyir ki, axı, Rəhim Qazıyev bildirir ki, Şuşa bizdədir. Mən telefonun dəstəyini götürüb vəziyyəti dedim. Bildirdim ki, Rəhim Qazıyev deyilənlərə inanmır, Şahin də onun kimi. İndi sizə deyirlər, görürəm, siz də inanmırsınız. Amma vəziyyət həqiqətən belədir. Şuşa əldən gedibdir. Turşsuda ermənilərin qarşısı alınmadı, vəziyyət pisdir. Dedi ki, Muradxan müəllim, inandım, Allah köməyiniz olsun. Bu saat hamıya xəbər verəcəyəm. Düzü, hamıya vəziyyəti demişdi. Amma Rəhim Qazıyev hamıya kələk gəlirdi, hamını aldatmışdı ki, yox, Şuşa əldən getməyib, bizdədir.

Mayın 9-da gecə gözlədik, Tahir Əliyev gəlib çıxmadı. Səhər dedilər ki, gəlib, qonaq evində yatır. Oraya gələndə müdafiə naziri deyildi, daxili işlər naziri kimi gəlmişdi. Amma sonradan başa düşdük ki, onu çıxarıblar. Oraya nə məqsədlə, nə üçün gəldiyi hələ indi də mə'lum deyildir. Onu daxili işlər naziri vəzifəsindən də çıxarmışdılar. Amma işi təhvil vermirmiş, qaçıb getmişdi oraya. Səhər saat 10-da gəlib onu oyatdıq, söhbət etdik. Ermənilər "Qrad" qurğularından rayonun hər tərəfini atəşə tuturdular. Biz söhbət edən vaxt Rabitə İdarəsinin binasını vurdular, beş nəfər binanın yanındaca həlak oldu.

Ataş ara vermədiyinə görə onları yalnız gecə dəfn edə bildik. Tahir Əliyev isə heç maraqlanmadı ki, bu ölənlər kimlərdir. Bir də gördüm ki, onun adamları yığışıb deyirlər ki, Tahir Əliyev, gəl qaçaq Qubadlıya, burada qalmaq olmaz, gedib oradan əlaqə saxlayarıq. Mən əsəbi halda dedim ki, sən daxili işlər nazirisən, buradan çıxıb gedəndən sonra camaat nə gündə qalar? Deməz ki, nazir gəldi, sonra da qaçıb getdi? Tahir mənim qolumdan tutdu ki, ağsaqqal, hirslənmə, indi bir şey edərik. Mən mədəniyyət evinin yanına toplaşmış camaata baş çəkmək üçün gedib qayıdanda gördüm ki, Tahir Əliyev adamlarını da götürüb Qubadlıya qaçıbdır.

**Heydər Əliyev:** Qubadlıya?

**Muradxan Cabbarov:** Bəli, Qubadlıya. Elə oradan da Bakıya qaçmışdı. O gedəndən sonra, ayın 11-də bizə aydın oldu ki, Tahir Əliyev gəlib polisin batalyonunu birləşdirib Xalq Cəbhəsinin batalyonuna. Deyib ki, bir yerdə, özü də Xalq Cəbhəsinin rəhbərliyi altında olmalısınız. Cəbhənin batalyonunda yaxşı, qəhrəman oğullar da çox idi, amma aralarında içki düşgünləri də vardı. Polis aparatının əməkdaşlarını da rayon mərkəzini müdafiə etmək, camaatı müdafiəyə səfərbər etmək əvəzinə göndərmişdi Laçınla Qubadlının sərhədindəki Fərəcan kəndinə. Halbuki orada ermənilər yox idi. Deməli, şəhəri bilərəkdən yiyəsiz qoyub polis zabitlərinə demişdi ki, gedin oraya.

Bundan sonra vəziyyət daha da gərginləşdi. Həmin vaxt eşitdik ki, E'tibar Məmmədov, Arif Hacıyev və başqaları Laçına gəliblər. Axşam mədəniyyət evində cəbhəçilərlə görüşüb, hətta deyiblər ki, burada türk əsgərləri də var, səhər hamısı gələcək, ermənilərin atasını yandıracağıq. Səhər eşitdik ki, Arif Hacıyev Bakıya qayıdıb, E'tibar Məmmədov da Türkiyəyə gedibdir.

**Heydər Əliyev:** Elə Laçından gedib?

**Muradxan Cabbarov:** Laçından qayıdanın səhərisi Türkiyəyə gedib. Haradan gedib — Naxçıvan tərəfdən gedib, ya başqa yerdən — bilmirəm.

**Heydər Əliyev:** Yox, Naxçıvan tərəfdən getməyib, bunu deyə bilərəm: orada mən nəzarət edirdim.

**Muradxan Cabbarov:** Bəlkə Zəngilan tərəfdən gedib?

**Heydər Əliyev:** Zəngilan tərəfdən də getməyib. Vaxt itirmə, Bakıdan təyyarə ilə gedib.

**Muradxan Cabbarov:** Ola bilər, gəlib buradan gediblər. Səhər e'lan etdilər ki, o, Türkiyəyə gedibdir. Buna görə onun da heç bir köməyi olmadı. Elə bir vəziyyət yarandı ki, camaat, ordu, onun texnikası da axınla rayondan çıxıb gedirdi. Xüsusi Tə'yinatlı Polis Dəstəsinin üzvləri, polis əməkdaşları da çıxıb gedirdilər. Ona görə ki, Bakıda hakimiyyət uğrunda mübarizə idi. Hərə öz dəstəsini Bakıya gətirirdi. Cəbhəçilər — Əbülfəz Əliyev, Rəhim Qazıyev, İsa Qəmbər, Arif Hacıyev öz adamlarını çağırmışdılar. Mütəllibov, Yaqub Məmmədov da adamlarını köməyə çağırmışdılar. Çünki Bakıda hakimiyyət uğrunda tam mə'nada mübarizə gedirdi. Ona görə də Laçını müdafiə etmək, xalqın dərdinə qalmaq onlar üçün əhəmiyyətli deyildi. Bir məqsədləri var idi ki, hakimiyyətə gəlsinlər, xalqı talasınlar, rayonları parçalasınlar, camaatı fəlakətə salsınlar.



Yenə deyirəm, bu səbəbdən də Laçın sahibsiz qaldı, daha doğrusu, ona kömək edən olmadı. Camaatın yarısı Kəlbəcər tərəfdən, Murovdağdan aşıb qaçdı, yarısı da Qubadlı yolu ilə çıxdı.

Çünki əsas yollar ermənilərin əlində idi. Onlar bir tərəfdən Gorusdan, o biri tərəfdən Qaladərəsindən adamları atəşə tuturdular. Ayın 18-də Laçın da düşmənə təhvil verildi.

Mayın 15-də Mütəllibov qaçıb Moskvaya getdi, İsa bəy də zorla hakimiyyətə gəldi. Onlar hakimiyyətə gələndən sonra camaatı nə dəhşətlərə saldılar, - hamıya mə'lumdur. Biz Bakıya gələndən sonra camaatımız üç dəfə Ali Sovetə, İsa Qəmbərin yanına getdi. Ziyalılarımızdan da var idi, onlardan indi burada iştirak edənlər də var. 20 nəfəri qəbul etdi, qalanı bayırda gözləyirdi. Çox ciddi şəkildə dedik ki, rayonu satdınız, qəsdən etdiniz. Bütün məsələləri dedik və xahiş etdik ki, Laçının düşmənə verilməsi məsələsini bizim iştirakımızla tə'cili olaraq Milli Məclisdə müzakirə edin. Dedi ki, "Milli Məclisə tapşıraram, amma bizi camaatla hədələməyin. 15 günə kimi rayonu geri qaytaracağıq". Müavinləri də yanında idilər. Onu da dedi ki, "biz camaatı küçələrdə yatırda-yatırda buraya gəlib çıxmışıq. Ona görə də bizi hədələmək lazım deyil". Bu, İsa Qəmbərin öz müavinlərinin yanında bizə verdiyi "ədəbli" cavab idi.

Ümumiyyətlə, onun verdiyi sözlərin heç birinə əməl olunmadı. Oktyabrda yenə yanında olduq, dedik ki, axı, söz vermişdiniz, amma əməl etmədiniz. Dedi ki, ağsaqqal, bilirsən, Laçını alırdıq, xəyanətkarlıq etdilər, ona görə də ala bilmədik. Dedim ki, bunu birdəfəlik müzakirə edib tədbir görmək lazımdır. Nə isə, bir şey çıxmadı. Söz verdi ki, deyərəm, Milli Məclisdə baxarıq. Biz gedəndən sonra sifariş göndərdi ki, gedin prokurorluğa, orada Laçının, Şuşanın faciəsi ilə əlaqədar istintaq aparılır, o materiallarla tanış olun. Biz də gedib tanış olduq, istintaq aparan yoldaşlar dedilər ki, tezliklə qurtaracağıq. Sizə deyim ki, Laçının düşmənə təhvil verilməsində günahı olanların bir hissəsi hələ məs'uliyyətə cəlb edilməyibdir. Heç o vaxt da tədbir görmədilər.

Ondan sonra belə qərara gəldik ki, vəziyyət ağırdır, prezidentin görüşünə gedək. İyunun əvvəlində getdik, Elçibəyi görmək istədik. Dedilər ki, Elçibəyin yanına getmək üçün gərək əvvəlcə Arif Hacıyevin, Pənah Hüseynovun, İxtiyar Şirinovun yanında olasınız. Biz də getdik. Səhərdən axşama qədər bir dəstə ağsaqqalı qəbul

etmək istəmədilər. Açıq deyim, onlara demişdilər ki, Laçından gələn ağsaqqalları qəbul etməyin. Hamısının da qapısında dayananlar nəş'ə çəkənlər, sərxoşlar idi. Nə isə, güc-bəla ilə Pənahın yanında olduq. Dedik ki, sizinlə işimiz yoxdur, prezidentin yanına getmək istəyirik. Deyirlər ki, gərək siz xəbər verəsiniz, qəbul etsin. Vəziyyəti ona danışdıq. Dedi ki, bilirsiniz, ağsaqqal, 15—20 günə qayıdacağıq. Mən prezidentə deyərəm, görək qəbul edirmi. İşdir, qəbul etsə, bu sözləri ona deməyin, ürəyi xəstədir, xarab ola bilər. Mən də dedim ki, çalışarıq elə danışaq, ürəyi xarab olmasın, amma onunla görüşməliyik. Arif Hacıyevin də qəbulunda olduq, o da eyni sözləri dedi.

Axır ki, ertəsi gün Elçibəyin qəbulunda olduq, bir saata qədər söhbət etdik. Amma bizdə elə təsəvvür yarandı ki, rayon haqqında onun heç bir təsəvvürü yoxdur. Ümumiyyətlə, o zona haqqında təsəvvürü yox idi. Biz ona danışdıqca deyirdi ki, bilirsiniz, 15—20 günə qayıdacağıq, dediyiniz məsələlərin hamısını Laçında həll edərsiniz.

**Heydər Əliyev:** Haraya qayıdacağıq dedi?

**Muradxan Cabbarov:** Laçına qayıdacağıq. Dedi ki, sizi Laçına qaytaracağıq, bu məsələlərin hamısını orada həll edəcəyik, narahat olmayın. Biz dedik ki, yox, verdiyimiz təkliflər dövlət səviyyəsində həyata keçirilməyincə oraya qayıtmaq qeyri-mümkündür. Orada gərək dövlət səviyyəsində iş görülsün. Dedi yox, narahat olmayın, Allah qoysa, 15—20 günə qayıdacağıq, bütün məsələləri orada həll edəcəyik. Bizi beləcə də yola saldı.

Hətta prezident seçilməmişdən üç gün əvvəl çıxışında demişdi ki, Laçın balaca qəsəbədir, 7 min əhalisi var. Bir balaca dəhliz vermişik, onu da qaytaracağıq, 36 kənddə də adamlar hamısı qayıdıb öz yerlərində yaşayırlar. Bunu televiziya ilə çıxışında demişdi.

Qəbulunda olarkən dedim ki, siz prezidentsiniz, xalq prezident kimi sizi eşidir, amma keçən dəfəki çıxışınızda belə dediniz. Elə deyil, Laçın qəsəbə yox, şəhərdir, 12 min əhalisi var. Dəhlizi də biz verməmişik, siz vermisiniz, onu da ala bilməyəcəksiniz. 36 kənddə adamların yaşadığını deyirsiniz, o kəndlərdə adam yoxdur. 60 min nəfər laçınlı hesab edir ki, dediyiniz sözlər yalandır. Mən xahiş edirəm sizə düz mə'lumat versinlər.

Bundan 15 gün sonra onun bir çıxışı da oldu. Adam dəhşətə gəlir, çıxışında nə desə yaxşıdır? Deyir, axı, bu laçınlılar nə istəyirlər? Dağda yaşayırdılar, indi tökülüblər düzən yerlərdə yaşayırlar.

Düzünü deyim ki, belə bir vəziyyətdə baxıb gördük ki, bu cür ağılsız, rayondan həqiqi mə'nada xəbəri olmayan prezident xalqa nə kömək edə bilər? Ona görə də xalq da, respublika da bəlaya düşdü.

Laçının ermənilərə verilməsi həqiqi mə'nada dəhşət idi. Həm də qəsdən, özləri vermişdilər. Laçınla Şuşanı Mütəllibov, Əbülfəz Əliyev, Rəhim Qazıyev, Surət Hüseynov, İsa Qəmbər, Tahir Əliyev, Tofiq Qasımov veriblər. Tofiq Qasımova dedim ki, ay kişi, Laçın Dağlıq Qarabağ deyil, ondan kənardakı rayondur. Orada bizim rayonların 60 min hektar yaylaq yerləri var. Bu rayon əldən getdi, amma bir dəfə də bəyanat verən olmadı ki, ermənilər Laçını zəbt ediblər.



Laçın və Şuşa Pənah Hüseynovun, Arif Hacıyevin, Şahin Musayevin, Elbrus Orucovun, bir çox ordu-polis generallarının, — hamısının adlarını çəkib vaxtınızı almaq istəmirəm, — zabitlərin, bütövlükdə isə Azərbaycan Xalq Cəbhəsinin və digərlərinin xəyanətkarlığı, satqınlığı, tamahkarlığı, ölkəni parçalamaq, onun var-yoxunu talamaq, özlərinə var-dövlət toplamaq məqsədilə düşmənə təslim edilməsinin, hakimiyyət davasının qurbanı olmuşdur. Hər şey dağıdılmışdır. Hesablamalara görə, Laçına üç milyard dollar zərər dəymişdir.

Çoxları deyir ki, laçınlılar qaçdılar. Düzdür, qaçanlar da oldu. Amma Laçın xəyanətkarlığın qurbanı oldu. O dövrdə əhalinin dövlətə də, hökumətə də inamı itmişdi. Belə bir vəziyyətdə camaat arasında söz gəzirdi ki, bəs bizi bu fəlakətdən kim qurtarar? Hamının da bir cavabı var idi, hamı bir nəfər kimi deyirdi ki, bizi bu bəladan ancaq və ancaq xalqımızın müdrik ağsaqqalı Heydər Əliyev qurtara bilər. Hətta 1992-ci ilin martında Milli Məclisin üzvlərindən bə'ziləri artistlik edib deyirdilər ki, Qarabağ indiki qədər bizimki olmamışdır. O zaman minlərlə laçınlı Ali Sovetə teleqram vurmuşdu, xahiş edirdilər ki, inandığımız Heydər Əliyevi qaytarın, rəhbər qoyun, ölkəni bu fəlakətdən qurtarsın.

Bəs Müsavat, Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra nə etdilər? Elə bir şərait yaratdılar ki, ölkəni vətəndaş müharibəsinin astanasına gətirdilər. Azərbaycan parçalanırdı. Biz minnətdarıq ki, belə ağır gündə müdrik ağsaqqalımız Heydər Əliyev xalqı eşitdi, onun səsinə səs verdi, gəlib ona rəhbərlik etdi. Mən açıq deyirəm, camaat da deyir, həmin vaxt Heydər Əliyev gəlməsəydi, Azərbaycan indi kökündən yox idi. Rayonların hərəsinin öz dəstəsi var idi, bir-birinin üstünə hücum edirdilər. Biz Heydər Əliyevə minnətdarıq ki, ölkənin bu vəziyyətində camaata yiyə durdu və inanırıq ki, o, xalqımızı bəladan qurtaracaqdır.

İndi ölkəmizdə mühüm işlər görülür, çox mühüm tədbirlər həyata keçirilir. Biz də müəyyən tədbirlər görürük. Keçən il sizin köməyinizlə xeyli taxıl, soğan, başqa məhsullar götürdük və bunun köçkünlərə böyük köməyi oldu. Bu il 2554 hektar sahədə taxıl, 60 hektarda soğan, 100 hektarda şəkər çuğunduru əkmişik. İstəyirik ki, köçkünlərə az da olsa kömək edə bilək.

Cənab Prezident, yenə deyirəm, camaatın bütün inamı Sizədir.

İnanırlar ki, xalqımızı bu bəladan qurtara biləcəksiniz. Xüsusilə Laçın və Şuşa camaatı Sizə minnətdardır ki, respublikaya rəhbərliyə gələndən bəri ölkənin hər işi ilə ikiqat sə'ylə məşğul olursunuz. Müharibədə atəş dayandırılıb, ordu quruculuğu gedir, dövlətçiliyimiz qorunub müdafiə olunur. Elə bir yer yoxdur ki, Siz orada deməyəsiniz ki, Laçın və Şuşa mütləq qaytarılmalıdır. Bu, bizim camaatı da, bütün xalqı da hədsiz sevindirir və gələcəyə böyük inam yaradır. Ona görə Sizə bir daha minnətdarlığımızı bildiririk.

Sizi əmin edirik ki, laçınlıların hamısı sizinlədir. Hər bir çağırışınızın, qarşıya qoyduğunuz vəzifələrin yerinə yetirilməsi uğrunda mübarizəyə hazırdırlar.

Cənab prezident, icazənizlə bir kəlmə də deyim. Bu gün buraya çox əlamətdar bir gündə yığışmışıq. Allah-taala 73 il bundan qabaq Sizi xalqımıza bəxş etmişdir. Ayın 10-da sizin ad gününüzdür. Biz Laçının, Şuşanın bütün camaatı adından Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, qarşıdakı vəzifələrin yerinə yetirilməsində uğurlar arzulayırıq. Allah-taala sizin tərəfinizdə olsun, biz də sizinləyik.

***

**Heydər Əliyev:** Nizami Bəhmənovun və Muradxan Cabbarovun verdiyi mə'lumatlar dörd il bundan əvvəl respublikamızın həyatında gedən prosesləri və baş vermiş faciəli hadisələri, satqınlıqları, xəyanətləri, məğlubiyyətləri bizə bir daha xatırlatdı, yadımıza saldı.

Bilirsiniz, insanın təbiəti belədir ki, ən dəhşətli hadisələr zaman, illər keçdikcə yavaş-yavaş unudulur. Amma elə hadisələr var ki, onları heç vaxt unutmaq olmaz. Hər bir xalqın həyatında olan dəyərli, müsbət hadisələr də, eyni zamanda faciəli, dəhşətli hadisələr də adətən insanların yaddaşında yaşayır. Biz heç vaxt keçmişimizi unutmamalıyıq. Xüsusən Laçın, Şuşa ətrafında o illərdə gedən prosesləri, o cümlədən Azərbaycanın həyatında gedən prosesləri və onların nəticəsində başımıza gələn bəlaları, — onların əzab-əziyyətini xalqımız dörd ildir ki, çəkir — biz heç vaxt unutmamalıyıq.

Mən də, siz də Nizami Bəhmənovun və Muradxan Cabbarovun mə'lumatlarını dinlədik. Buna iki saatdan artıq vaxt sərf olundu. Mən hesab edirəm ki, belə məsələlərdən ötrü dəqiqələri, saatları saymamalıyıq. Belə məsələləri bir daha dərk etmək, eyni zamanda onları doğru, düzgün, ədalətli, obyektiv halda millətimizə, xalqımıza çatdırmaq üçün biz heç vaxt saatları, dəqiqələri saymamalıyıq. Buna nə qədər lazımdır, o qədər də vaxt sərf etməliyik.

Güman edirəm, belə mə'lumatlar hamımızı bir daha həyəcanlandırdı. Onsuz da, Vətənini sevən hər bir azərbaycanlı üçün bu günlər çox həyəcanlı günlərdir. Çünki dörd il bundan əvvəl, məhz may ayında Azərbaycanın başına böyük bəlalar gəlibdir. Laçın işğal



olunubdur, Şuşa işğal olunubdur, Azərbaycanın həyatında başqa bəlalar başlanıbdır.

Bax, görürsünüz, bu mə'lumatlarda nə qədər faktlar söylənildi. Mən bunların çoxunu bilmirdim. Bilirsiniz ki, o zaman mənim Bakı ilə əlaqəm yox idi. Mən Naxçıvanda idim, baş verən hadisələr haqqında çox az mə'lumat alırdım və bunların çoxunu da bilmirdim. Məhkəmə prosesi ilə əlaqədar materiallar mətbuatda işıqlandırılırdı, televiziya ilə verilmişdi, mən bu mə'lumatları dinləmişdim, ancaq bu faktları o qədər də bilmirdim. Bəlkə siz bunları bilirdiniz, amma ola bilər, siz də bu qədər faktları bilmirdiniz. Ona görə də bu mə'lumatlar bizi həyəcanlandırır, — şəxsən mən özüm haqqında deyirəm, — güman edirəm, sizi də həyəcanlandırır, dəhşətə gətirir. Bütün bunlar daha çox ürək ağrısı gətirir, eyni zamanda bizə deyir ki, hər bir vətəndaşımız bunların hamısından nəticə çıxarmalıdır.

O günlər xalqımıza qarşı nə qədər xəyanətlər, satqınlıqlar olub. Burada adları çəkilən adamlar, təşkilatlar, dövlət orqanları tərəfindən xalqımıza qarşı həqiqətən çox xəyanətlər edilib. Bu xəyanətlər xalqımızı, bugünkü müstəqil Azərbaycan dövlətini çox ağır vəziyyətdə qoyubdur. Amma o zaman, o illər bunlarla yanaşı, Azərbaycanın vətənpərvər oğulları, vətəndaşları, şuşalılar, laçınlılar, Qarabağ bölgəsində Ermənistan təcavüzünə qarşı qalxanlar qəhrəmanlıq nümunələri göstəriblər, şəhid olublar, canlarını qurban veriblər. Bə'ziləri də bu xəyanətlərin nəticəsində həlak olublar, qurban gediblər. Ancaq onlar nəyin nəticəsində qurban getdiklərini düşünməyiblər, Vətən yolunda qurban gediblər, şəhid olublar.

Biz bugünkü görüşümüzdə hesab edirəm ki, bu söhbəti davam etdirəcəyik. Bütün bu mə'lumatları alandan sonra Şuşanın, Laçının erməni təcavüzündən qorunması yolunda həlak, şəhid olanların, bütün Azərbaycan torpaqlarının qorunmasında həlak, şəhid olanların xatirəsini bir daha bir dəqiqəlik sükutla yad edək.

Allah şəhidlərə rəhmət eləsin.

**Şuşa rayon**
**Elmi Bərpa İstehsalat İdarəsinin rəisi**
**İlhami Fətəliyevin**
**çıxışı**

Möhtərəm Prezident!

Hörmətli görüş iştirakçıları!

Dörd il bundan əvvəl xalqımız öz tarixinin ən faciəli dövrlərindən birini yaşamağa məcbur edildi. Qədim Azərbaycan şəhəri Şuşa Ermənistan silahlı qüvvələrinə təslim olundu. Ermənistan işğalçıları

və onların havadarları yaranmış tarixi fürsətdən — həmin vaxt respublikamızın daxilindəki çəkişmələrdən, hakimiyyət davasından, naşı ölkə rəhbərliyinin bir hissəsinin cinayətkarlığından, səriştəsizliyindən, biganəliyindən, digər hissəsinin isə xəyanətkarlığından istifadə edərək mənfur, xəbis niyyətlərini reallaşdırdılar. Həmin gün on minlərlə dinc sakinin ləyaqəti, qüruru tapdanıb ayaqlar altına atıldı, onlar zavallı, məhrumiyyətli qaçqına çevrildilər. Tariximizə qara ləkə vuruldu.

O zamankı ölkə rəhbərliyi bu faciənin qarşısını almağı, ərazimizi və vətəndaşlarımızı qorumağı özünün borcu hesab etmədi və hətta bu biabırçı işğalı ölkə ictimaiyyətindən şərəfsizcəsinə bir neçə gün gizlətməyə çalışdı. Mən öz çıxışımda bütün faktları və hadisələri açıqlayan Bəhmənov ilə tamamilə həmfikirəm. Lakin, möhtərəm Prezident, mən bir neçə məqamı da sizə çatdırmağı özümə borc bilirəm.

1992-ci ilin əvvəllərində Şuşa və Laçının müdafiəsi üçün çox ciddi tədbirlər görülməsi zərurəti meydana çıxmışdı. Çünki ermənilər öz niyyətlərini gizlətmirdilər. Amma buna baxmayaraq Mütəllibovun apardığı məkrli siyasət Azərbaycan Ordusunun yaranmasına, habelə böyük strateji və mə'nəvi-psixoloji əhəmiyyət kəsb edən Şuşanın döyüş qabiliyyətli ordu ilə qorunmasına imkan vermirdi. Xalqın arasında öz nüfuzunu və prezident ləyaqətini itirmiş bu qəddar şəxs hər vəchlə ordu quruculuğuna mane olurdu. Xəyanət və rəzalət girdabına qərq olmuş oyuncaq prezidentin nə üçün belə etdiyi sonralar bilindi.

Təsəvvür edin, belə bir məs'uliyyətli vaxtda Rəhim Qazıyev kimi diletant, avantürist, mə'nəviyyatı aşılanmış bir adama respublika rəhbərliyi tərəfindən müharibə bölgəsində, iqamətgahı Şuşa şəhəri olmaqla külli-ixtiyar verilmişdi. Heç bir vaxt hərbi işlərlə əlaqəsi olmamış, hərb elmindən heç nə anlamayan Rəhim Qazıyev müharibə aparan bir dövlətin qısa müddətdə "baş sərkərdəsi" oldu. Şəhərdə müdafiə qurğuları yaratmaq, könüllülərdən ibarət dəstələri, ayrı-ayrı "milli təəssübkeşləri", "liderləri" silahlı qüvvələrin vahid komandanlığına tabe etdirmək tələb olunan bir vaxtda sadalananlardan heç biri yerinə yetirilmədi və daha dəqiq desək, yerinə yetirilməsi lazım bilinmədi. Əksinə, o, pis təşkil edilmiş, kimə tabe olduqları bilinməyən müxtəlif silahlı qruplaşmalar arasında qarmaqarışıqlığı, çaxnaşmanı, vəlvələni gücləndirmək üçün hər şeyi etdi.

Qazıyev kimi "siyasətçilər" və "rəhbərlər" dövlət idarəçiliyində heç bir qabiliyyəti və səriştəsi olmayan naşıların populist "demokratik bəyannamə"ləri səslənən vaxtlarda peyda olmuşdular. Əslində bu adamlar başı müsibətlər çəkən ölkədə aclığa, səfalətə, yurdsuzluğa düçar edilmiş yüz minlərlə soydaşlarının bədbəxtliyi, faciələri hesabına



mühüm vəzifələri ələ keçirmək üçün bu hadisələrə rəvac və təkan vermişdilər.

Hörmətli Prezident, o vaxt bu hadisələrin qarşısını ala biləcək yeganə milli lider Siz olmalı idiniz. Xalqımız yəqin etmişdir ki, əgər belə olsaydı, onda bu hadisələr baş verməzdi, bir milyondan artıq vətəndaşımız öz doğma yerindən, yurdundan qaçmazdı. Məhz Sizin cəsarətiniz, qətiyyətiniz və polad iradəniz nəticəsində dövlət çevrilişinə iki cəhdin, Azərbaycanın bir dövlət kimi məhvinin qarşısı bizim gözlərimiz önündə alındı. Sizin o vaxtlar respublikamıza rəhbərlik etməməyiniz xalqımızın və biz qaçqın vətəndaşların taleyinin gətirməməsi idi. Müdrik siyasətiniz nəticəsində bütün dünyanın diqqətinin indi Azərbaycana yönəldiyi bir vaxtda Siz xalqımızın e'timadını doğruldaraq ölkəmizdə qayda-qanunu tə'min etdiniz, daxili sabitlik yaratdınız. İndi respublikamız beynəlxalq aləmdə sülhsevər, müstəqil bir dövlət kimi tanınır. Siz erməni siyasətinin iç üzünü, daxili mahiyyətini bütün dünyaya açıb göstərmisiniz.

Biz hamımız dərk edir və bilirik ki, sülhpərvər, humanist bir dövlət başçısı və siyasi xadimi kimi prezidentimiz Qarabağ məsələsinin sülh yolu ilə, qan tökülmədən həll olunması üçün imkanlardan istifadə edir. Bütün xalqımız kimi, biz də bütün dünyaya bəyan etdiyiniz qəti fikirlə şərikik ki, əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının tə'min edilməsi üçün bütün vasitələrdən istifadə edəcəyik və bunu etməyə qadirik. Biz şəxsən Sizin siyasi gücünüzə, parlaq zəkanıza, polad iradənizə güvənirik. İnanın ki, tutduğunuz haqq yolunda, apardığınız müqəddəs mübarizədə hər birimiz Sizin əsgərinizik.

### Şuşa şəhər
### 1 nömrəli orta məktəbin direktoru
### SEVİL BABAYEVANIN
### çıxışı

Möhtərəm Prezident, hörmətli toplantı iştirakçıları! Biz buraya çox ağır və çətin bir gün ərəfəsində toplaşmışıq: Xatirəyə çevrilən dörd il bundan əvvəl keçirdiyimiz ağrılı-acılı günlərdən bizim hörmətli icra hakimiyyəti başçımız Bəhmənov yoldaş ətraflı danışdı. Biz o günləri artıq keçirmişik və o günlər tarixə çevrilmişdir.

Cənab Prezident, Siz son illərdə respublikada ictimai-siyasi sabitliyin bərqərar olması, suverenliyimizin möhkəmlənməsi, uzunmüddətli atəşkəs əldə edilməsi, Vətənimizin ərazi bütövlüyünün tə'min olunması, Qarabağ probleminin dincliklə həlli və bütün dünyada Azərbaycanın nüfuzunun yüksəlməsi, habelə ağıllı və savadlı iqtisadi

islahatlar aparılması sahəsində böyük sə'ylər göstərirsiniz və biz bunların hamısını görürük.

Azərbaycan Respublikasının müstəqilliyinə qənim kəsilən daxili və xarici düşmənlərin üzə çıxarılaraq ifşa edilməsi üçün gördüyünüz heyrətamiz işlərlə müqayisədə bizim keçirdiyimiz ağır günlər, məhrumiyyətlər və hadisələr kiçik görünür və Sizin fəaliyyətiniz bizi nikbin olmağa çağırır. Biz qadınlar rəhbərsiz, kimsəsiz bir şəraitdə mübarizə apararkən çox ağıllı, məqsədyönlü məsləhətlərə böyük ehtiyac duymuşuq. Biz o günlərdə volskilərə, kozırevlərə, saxarovlara, Qorbaçova, onun arvadı Raisa Maksimovnaya, BMT-yə, YUNESKO-ya, başqa təşkilatlara müraciət edirdik. Hər yerə teleqramlar, məktublar göndərir, zəng vururduq, respublika ictimaiyyətinə üz tuturduq, ermənilərə tutarlı cavab verməyi xahiş edir və yalvarırdıq.

Ermənilərin haqsızlığını, tələblərinin əsassızlığını, tarixi olduğu kimi deyil, istədikləri kimi qələmə verdiklərini sübut edən minlərlə fakt toplanmışdır. İnanın ki, o günlərdə bizim ziyalılarımız gecəni gündüzə qatıb var qüvvə ilə işləyir, bütün faktları üzə çıxarmaq, toplamaq üçün qəhrəmanlıq göstərirdilər. O zaman Stepanakertdə yerli televiziya ilə Azərbaycan xalqına, ölkəmizin tarixinə həddindən artıq qara yaxılırdı. Bizi hədsiz dərəcədə əsəbiləşdirən saysız-hesabsız təkliflər irəli sürülürdü və biz bunların hamısını ifşa etmək üçün əlimizdən gələn bütün işləri görürdük. Amma əfsuslar olsun ki, ermənilərə Sizin çıxışınız səviyyəsində cavab verilmədiyinə görə onlar daha da azğınlaşırdılar. Sizi inandırım ki, şuşalıları mə'nəvi cəhətdən ruhdan salıb qovur və tapdalayırdılar. Biz məhz belə şəraitdə yaşayırdıq.

Qeyd etmək istəyirəm ki, şuşalılar üçün may ayı çox əziz aydır. Çünki bu ayda mahnı bayramı keçirmək gözəl bir ən'ənəyə çevrilmişdi, respublikamızın hər yerindən nümayəndələr də'vət edirdik və təbiətin özünün yaratdığı bir amfiteatr olan Cıdır düzündə mahnı və musiqi bayramını yüksək səviyyədə keçirirdik. Bu tədbirlərin hamısı Cıdır düzündə təbiətlə insanın qovuşduğunu xatırladırdı.

Möhtərəm Prezident, yadınızda olar, Vaqifin məqbərəsinin açılışında güclü qar yağmağa başladı, lakin heç bir şuşalı özü ilə çətir götürmədi, qarın altında sizinlə birlikdə axıradək durmağı özünə şərəf bildi. Biz hər yerdə və həmişə öz böyük rəhbərimizin qarşısında, sənətkarlarımızın yaradıcılığı qarşısında baş əyməyi də bacarırıq, onlara hörmət etməyi də, işləməyi də bacarırıq. Şuşalılara da bu mə'nada irad tutmaq, məncə, mümkün deyildir.

70-ci illərdə respublikamızda çox ciddi quruculuq işləri gedirdi. Bu quruculuq işləri fonunda ədəbiyyat, mədəniyyət ongünlükləri, festivallar keçirilməsi, xaricdən respublikamıza qonaqlar də'vət edilməsi ən'ənəyə çevrilmişdi və biz şuşalılar həmin tədbirlərə həmişə



böyük diqqət yetirirdik. Əlbəttə, bu, qədirbilən rəhbərimizin bizə göstərdiyi yaxşılığın nəticəsi idi ki, qonaqlar birbaşa Şuşaya də'vət olunurdular. Məsələn, Ukrayna, Özbəkistan və ya Rusiya ədəbiyyat və incəsənət günləri keçirildikdə ən məşhur qonaqlardan bir qrupu Şuşaya göndərilirdi. Onlar Şuşanın e'cazkar təbiətinə, adamlarına heyran qalıb geri dönürdülər. Bu böyük adamlar Şuşadan qayıtdıqdan sonra onların şəhərimiz haqqında səmimi təəssüratları mətbuat səhifələrində öz əksini tapırdı və biz əmin olurduq ki, Şuşanın əsl qiymətini bilən bir rəhbərimiz var.

Mən haşiyə çıxmaq istərdim. O vaxtlar, yə'ni 70-ci illərdə rayon partiya komitəsində işləyirdim. Ona görə də bax, belə ürəklə, belə böyük bir ehtiras və pafosla danışmağa haqqım var ki, onda respublikaya gələn mədəniyyət və incəsənət xadimlərinin böyük bir qrupu, bütün incəsənət festivallarının iştirakçılarının böyük bir dəstəsi Şuşaya göndərilirdi.

Amma tarix bizim boynumuza belə bir ağır yükü də qoydu ki, incəsənət, mədəniyyət, sənət məsələlərindən uzaqlaşdıq, müharibəyə qoşulmalı olduq. Biz bu cür şəraitdə yaşayırdıq və şəhərimizi dağıdan düşmənə mütləq qalib gələcəyimizə inanır, böyük ümid bəsləyirdik.

Dövlət səviyyəsində köçürülmə təşkil edilərkən biz qadınlar tarixi bir epizodu yada salmalı olduq. 1797-ci ildə Şuşa süqut edərkən şəhər top atəşinə tutulur, evlər dağıdılırdı. Böyük məhrumiyyətlər və müsibətlər baş verirdi. Bu zaman İbrahim xana müraciət edildi ki, uşaqlar və qadınlar şəhərdən çıxarılsın. O vaxtlar İbrahim xan bu məsələni qadınların öz öhdəsinə buraxmağı təklif etdi. Lakin, tarixdə qeyd olunduğu kimi, şəhəri bir qadın da tərk edib getmədi. İndi mən xəcalət çəkirəm ki, biz nənələrimizin, analarımızın qoyduğu o gözəl ən'ənəni saxlaya bilmədik. Lakin bir şeyi də deyim ki, bu dəfə şərait o şərait deyildi, rəhbər həmin rəhbər deyildi, məqsəd də həmin məqsəd deyildi. Ona görə də biz qadınları da kişilərlə birlikdə çıxmağa məcbur etdilər.

**Heydər Əliyev:** Əgər o vaxt Şuşada İbrahim xan olsaydı, siz də qalardınız.

**Sevil Babayeva:** Bəli, biz də qalardıq. Möhtərəm Prezident, qoy azğın düşmən xalqı bu qədər ağır vəziyyətdə saxladığından zövq almasın. Sizin e'lan etdiyiniz kimi, düşmənin inadkarlığı ümumxalq mübarizəsinə gətirib çıxararsa, biz qadınlar Sizin ən sadiq döyüşçüləriniz olmağa, hər bir işdə qardaş və yoldaşlarımızdan ayrılmamağa, onlara hər cür kömək etməyə söz veririk. Biz əminik ki, Siz xalqın layiqli rəhbəri kimi əsl qətiyyətinizi düşmənlərimizə göstərəcək və sübut edəcəksiniz ki, Azərbaycan xalqı mövcuddur və onun belə bir oğlu var. O, düz Şuşaya qədər gəlib çıxa bilər.

Ermənilər bu gün də bizə sifarişlər göndərirlər, bizə qarşı bu gün

də təxribatlar törədilir. Biz bu gün də hər cür haqsızlıqlara mə'ruz qalırıq. Azərbaycan xalqının başına gətirilmiş bu müsibətlərdən düşmən zövq alır. Hörmətli Prezidentimiz, qadınlar adından, — mən həm də "Sevil" qadınlar məclisinin üzvüyəm, — bütün şuşalılar adından, bütün azərbaycanlılar adından Sizə yalvarır, Sizdən xahiş edirik ki, ermənilərə layiqli və tutarlı cavab verməkdə öz qətiyyət və əzminizi göstərin. Biz buna inanırıq və bu ümidlə də yaşayırıq. Bizi yaşadan ancaq bu ümiddir.

Bir məsələni də qeyd etmək istəyirəm. Əvvəla, biz bütün rayonların icra hakimiyyəti başçılarına, Prezident Aparatının, Milli Məclisin bütün işçilərinə öz minnətdarlığımızı bildiririk. Şuşalıların nə vaxt problemləri olubsa, hamısını həll ediblər. Yoldaş Əliyev, məsələn, bizim üçün məktəblərdə şərait yaradılıb, uşaqlarımız məktəbə gedirlər. Bizim uşaqlarımız gedib Bakı məktəblərində oxuya bilərlər, biz də Bakı məktəblərində işləyə bilərik. Lakin, hörmətli Prezident, Siz buna razı olmadınız. Yoldaşlar sağ olsunlar. İmkan yaratdılar ki, şuşalılığımızı qoruyub saxlayaraq, şagirdlərimiz, uşaqlarımız öz müəllimlərinin rəhbərliyi altında oxusunlar, işləsinlər, deməli, yaşasınlar və assimilyasiyaya mə'ruz qalmayaq, Bakı məktəblərinin içərisində əriyib yox olmayaq. Bu, mənim öz fikrimdir. Bilmirəm, düz deyirəm, ya səhv edirəm.

**Heydər Əliyev:** Tamamilə doğru fikirdir.

**Sevil Babayeva:** Amma mənə elə gəlir ki, Siz bu yolda çox əziyyətlərə dözmüsünüz, qatlaşmısınız. Həm fiziki cəhətdən, həm də maddi cəhətdən. Lakin, digər tərəfdən, mənə elə gəlir ki, Siz udursunuz. Mən əminəm ki, uşaqlarımız bu qayğını heç vaxt unutmayacaqlar. Hörmətli Prezident, Sizi inandırıram ki, biz hər ay maaş alanda yüz dəfə alqış edirik ki, maaşımızı vaxtında alırıq. Halbuki yerli məktəblərdə maaşlar vaxtında verilmir. Sağ olsun bizim icra hakimiyyəti başçımız, müvafiq yoldaşlar, xüsusilə maliyyə naziri və digər nazirlər, onların köməyi sayəsində maaşlarımız vaxtında verilir. Biz öz səviyyəmizi saxlamaq yolunda Sizin hər göstərişinizə hazırıq.

Hörmətli Prezident, Siz xalqımızın nüfuzunu yüksəldir, onu bütün dünyada tanıtdırırsınız. Buna görə də Sizə sağ olun deyirik. Siz Fransada ermənilərə cavab verəndə biz burada iki gün bayram etdik və Sizin hər sözünüzü dəfələrlə təkrar etdik, bildirdik ki, biz bax, bu sözləri deyirdik, amma onlara bu cür çatdırmaq mümkün olmurdu, özümüz deyib özümüz də eşidirdik. Mən çox təəssüflənirəm ki, teleqramlarımın qəbzlərinin hamısı Şuşada qaldı. Mən müəllim adamam. Maaşımın, demək olar, yarısını o teleqramlara xərcləyirdim. Çünki, 70 il inam hissi ilə yaşayan bir adam inanmırdı ki, Moskva belə laqeydlik edə bilər, Volski bizə düşmən ola bilər, yaxud Raisa



Maksimovna ermənini azərbaycanlıdan üstün tuta bilər. Biz konstitusiyaya, dövlətçiliyə inanırdıq. Belə doğulmuşuq, belə də inanmışıq. Sizi inandırım ki, biz bu gün də o inamla, o hisslə yaşayırıq və məs'uliyyətin nə olduğunu başa düşürük.

Mən o vaxtlar Pikulun bir əsərini oxudum. Bu, "Favorit" romanı idi. Onu azərbaycanlı ki yazmayıb! Bu, tarixi əsərdir. Müəllif yazır: "Suvorov deyir ki, bu ermənilər qəribə xalqdır, Yerevanı özlərinə paytaxt sevib-seçiblər". Başqa birisi isə deyir ki, "Ölkə olmayandan sonra bu paytaxt nəyə gərəkdir. Əcəb işdir". Mən bunu götürüb yoldaşlara yazmışdım. Mənə cavab verdilər ki, "Bu, bədii əsərdir, müəllifin uydurmasıdır". Halbuki bu, tarixi sənəddir, tarixdir.

Sizi inandırıram ki, bizi çox pis vəziyyətdə qoyurdular. Bizim faktlarımıza gözgörəsi gülürdülər. Qriboyedovun əsərlərini ortaya çıxarırdıq, deyirdik ki, ay yoldaşlar, bir baxın, onun özü yazıb, biz yazmamışıq ki! Niyə buna inanmaq istəmirsiniz? Ruslar da deyirdilər ki, biz bir şey deyə bilmərik. Moskvadan gələnlərlə nə qədər mübahisə aparırdıq. İndi bə'ziləri deyəndə ki, şuşalılar qaçıblar, mənə elə gəlir ki, onlar böyük haqsızlıq edirlər. Biz 1988-ci ildən üzü bu yana mübarizə aparmışıq. Sizi inandırım ki, biz gecə vaxtı Laçın yolu ilə gəlmişik ki, Mərkəzi Komitəyə tə'cili mə'lumat çatdıraq. O vaxt biz bir dəfə Vəzirovun yanına gəlmişdik. Bizim bir ağsaqqalımız ona dedi ki, ermənilər rişxənd edib sizə gülürlər. Dedi ki, çox sağ olun, mənim üçün narahat olursunuz, eybi yoxdur, qoy desinlər. Biz oradan xəbər gətiririk ki, vəziyyətimiz ağırdır, gərgindir, qayıdıb deyir ki, eybi yoxdur, qoy məni söysünlər. Onda biz çox əsəbiləşdik və mən şəxsən ona dedim ki, biz sizi nəzərdə tutmuruq. Bu, Azərbaycan xalqına aid olan bir rişxənddir. Niyə bir nəticə çıxarmırsınız?

Hörmətli Prezident, biz bacardığımız qədər mübarizə apardıq. Lakin bir daha qeyd edirəm ki, rəhbərsiz, başçısız mübarizə aparmaq olduqca çətindir. Biz bunu öz həyatımızda hiss etdik. Biz bu ağırlığı öz çiyinlərimizdə hiss etdik.

Diqqətinizə görə çox sağ olun.

### Şuşa rayon mərkəzi xəstəxanasının baş həkimi NAMİQ MƏHƏRRƏMOVUN çıxışı

Möhtərəm Prezident! Bizə danışmaq, doğrudan da, çətindir. Çünki qaçqın, köçkün adı azərbaycanlılara yaraşan ad deyil. Amma nə eləyək, taleyimiz elə gətirib ki, səriştəsiz rəhbərlər bizi bu vəziyyətə salıblar. Şuşanın bir ziyalısı kimi mən bə'zi məsələlərin şahidi

olmuşam və icazə versəydiniz onlardan bir neçəsini Sizin nəzərinizə çatdırardım.

Bayaq hörmətli Bəhmənov dedi, Kərkicahanda evləri yandırmışdılar və oradan əliyalın, yaralı arvad-uşaq baş götürüb bizə pənah gətirmişdilər. Şuşalılar bu hadisədən sarsıldılar. Biz iki avtobusa minib Bakıya, prezident iqamətgahına gəldik. Burada prezident Mütəllibov nümayəndə hey'ətimizi qəbul elədi. Əvvəlcə mərhum icra başçımız Mikayıl Gözəlov Dağlıq Qarabağdakı vəziyyətdən danışdı, sonra Şuşanın vəziyyətindən və ermənilərin rusların vasitəsilə Kərkicahana hücumlarından bəhs etdi. Bundan sonra digər nümayəndələr də çıxış elədilər. Dedilər ki, ermənilər ruslarla birləşiblər, qoşun bizə qarşı saxtakarlıq eləyir və s. Yaxşı olardı ki, bizim öz ordumuz formalaşsın, mükəmməlləşsin və Dağlıq Qarabağı Azərbaycan Ordusu müdafiə eləsin.

Bu zaman prezidenti telefona çağırdılar. Prezident qayıdıb gələndən sonra sözünə belə yekun vurdu: "Hal-hazırda ittifaq dağılıbdır, yeni ittifaq yaranır, biz gözləməliyik, bilməliyik görək dünyada nə baş verir, necə olur. Qaldı sizin məsələnizə, əgər burada belə bir çətinlik varsa qoşunların çıxarılması, mənə elə gəlir ki, mümkündür. General Sahib Muradov da istəyir ki, qoşunlar çıxsın. Mən Ter-Petrosyanla da danışmışam, o deyir ki, sizin adamlarınız bir az orada şuluqluq salır. Qoşunların çıxmasına onun da e'tirazı yoxdur. Mən də demişəm ki, onlar da terrorçuları çıxartsınlar. Yaxşı da dedi, səhər fərman verərəm, Dağlıq Qarabağdan qoşunlar çıxar, Moskva da bununla razıdır. Bəs siz ondan sonra Qarabağı qoruya biləcəksinizmi?".

Biz hamımız bunun üzünə baxdıq, dedik ki, prezident sizsiniz, biz sizin yanınıza gəlmişik, görək camaatı nə təhər saxlamaq mümkündür, nə ilə müdafiə eləmək mümkündür. Siz deyirsiniz ki, biz Qarabağ camaatını qoruya biləcəyik, ya qoruya bilməyəcəyik. Axı, bizim ordumuz yoxdur. Söz verə bilərsinizmi ki, ordu yaranacaq? Dedi ki, bizim elə bir imkanımız yoxdur ordu yaratmağa. Ordu çox xərc tələb eləyir, bu, çətin məsələdir. Amma bir dil tapmaq lazımdır". Hətta mən dedim ki, başqa şey yox,heç olmasa televiziyada və ya mətbuatda bir e'lan eləyin ki, ay Azərbaycan əhalisi, ay Dağlıq Qarabağ əhalisi, mən prezidentəm, sizin həyatınızın təhlükəsizliyinə tə'minat verirəm. Onda camaat heç olmasa yerində oturar, bir balaca müqavimət göstərər. Niyə dinmirsiniz?

Ümumən, bizdən narazı qaldı və Bəhmənovu, Gözəlovu saxladı axıra. Onlara nə dedi, nə demədi — bilmirəm. Biz də çox mə'yus halda qayıtdıq Şuşaya. Üstündən bir həftə keçdi, Gözəlovu öz kabinetində faciəli surətdə qətlə yetirdilər. Camaatın arasında bədbinlik daha da artdı, ümidimiz hər yerdən kəsildi. Bu Daşaltı hadisəsi də lazımsız əməliyyat idi, heç kəsə lazım deyildi. Orada



hücum hazırlanır, amma xəstəxanalarla maraqlanan yox idi ki, burada dava-dərman, cərrah varmı, yaralılara kim xidmət göstərəcək? Məntiq yox idi. Deməli, oraya gedənlərin heç birinin qayıtmağı gözlənilmirdi.

Ardınca Rəhim Qazıyev gəldi. Ən əvvəl Şuşaya gətirdiyi iki "KamAZ" tabut oldu. Populist çıxışlar etdi - "Mən birbaşa Stepanakertə hücum eləyirəm, "qrad"la vururam" və s. Belə çıxışa görə şuşalılar bunun komandan olmasını istəyirdilər. Əslinə qalsa, Mütəllibov bunu guya bizim iradəmizlə tə'yin elədi, amma fərman verilənə qədər Rəhim Qazıyevin əlində Bakı mətbəələrində çap olunmuş buraxılış vərəqələri, əvvəlcədən hazırlanmış vəzifə bölgüləri və s. var idi. Hamısı çıxdı ortaya və birbaşa hakimiyyəti özü ələ aldı. Bundan sonra əhalinin arasında başladılar şayiələr yaymağa ki, ay burada satqınlar var, xəbərçilər var, e'tibarsız adamlar var. Şəhərdə belə bir vəziyyət yarandı. Sonra da o maşınlar gələndə adamlar başını götürüb getmək məcburiyyətində qaldılar.

Aprel ayının 9-da bizim xəstəxanaya hərbi xəstəxana yaratmaq imkanı verildi, qospital yaradıldı. İlk dəfə yerli həkimləri batalyonlara təhkim elədik, göndərdik. Onlar qayıdanda tam heyrətlə dedilər ki, bu batalyonların bir-biri ilə əlaqəsi yoxdur, hamısı başçı olmaq istəyir, batalyonların içərisində heç bir rəhbər bir-birini istəmir. Orduda çoxtirəlikdir, belə getsə Şuşanı tezliklə məhvə aparacaqlar. Biz öz başımızın çarəsini qılmalıyıq.

Bu məsələlər barəsində Bakıya nə qədər müraciət elədiksə də bir nəticə alınmadı. O vaxtlar Şuşaya çoxlu yaralı gətirilirdi. Yaralananların demək olar ki, yarıya qədəri bizim öz postlarımızda vurulurdu. Bax, bu da həmin daxili münaqişənin hesabına idi.

Hadisələr başlayandan may ayının 7-nə qədər Şuşada xeyli dağıntı olmuşdu. 300-dən artıq ev bombadan uçub dağılmışdı. 1800-ə yaxın yaralı Şuşa xəstəxanasında müalicə olunmuşdu. Bəhmənov mədəni-maarif məktəbinin zirzəmisində bunker tipli qospital tikdirmişdi, biz köçmüşdük oraya. May ayının 7-də Şuşaya əvvəlkindən daha çox hücum oldu, demək olar ki, hər tərəfdən bomba yağdırıldı, evlər uçdu, küçələr bağlandı, ümumiyyətlə, dəhşətli bir vəziyyət yarandı. Biz həmən gün 7 cərrahiyyə stolunda 85 yaralıya cərrahiyyə yardımı göstərdik. Onların arasında beyinin, qarın boşluğunun, döş qəfəsinin operasiyaları kimi ağır əməliyyatlar var idi.

Günorta biz Bəhmənovla əlaqə saxlayanda öyrəndik ki, şəhərin cənub hissəsində artıq ermənilər özlərinə mövqe tuturlar, ümumiyyətlə burada yaralı saxlamaq qeyri-mümkündür. Lakin şəhərə iki dəfə bomba düşməsinə baxmayaraq biz fəaliyyətimizi axıra qədər davam etdirdik. Nəhayət, yaralıların gəlməsi dayanandan sonra biz Bəhmənovun köməyi ilə yaralıları və şəxsi hey'ətimizi Turşsu və Laçın istiqamətə köçürdük. Üç nəfər həkim qaldı orada. Onlardan biri

Azərbaycanın mərd qızı, igidliyi Sizin tərəfinizdən, hörmətli Prezident, yüksək qiymətləndirilən Gültəkin Əsgərova idi. O, Milli Qəhrəman adına layiq görüldü.

Biz qoşunun ən axırıncı dəstələri ilə, yolda onlara yardım göstərərək Turşsuya qədər gəldik və burada mövqe tutduq. Bizdən beş nəfər həkim orada qaldı. Biz Turşsuda olanda heç bir yerlə əlaqəmiz yox idi. Bakıdan mə'lumat öyrənmək istəyirdim ki, bizə tibb bacısı və s. gələ bilərmi? Bu məqsədlə rabitə vasitəsi axtarırdıq. May ayının 15-də səhər-səhər mənim olduğum yerə bir həkim gəldi. Məncə, adı İbrahim idi. O dedi ki, mən reyd briqadasının həkimiyəm, 5 nəfər xəstə gətirmişəm. Gördü ki, bizim vəziyyətimiz yaxşı deyil, dedi ki, nəyə görə belə dilxorsunuz, darıxmayın. Ayın 15-də Mütəllibov hakimiyyətə gəlməlidir, bizim dəstələrimiz Şuşaya hücuma keçməlidir və Şuşa azad olunmalıdır.

Günorta dəhşətli döyüş başlandı. Səhərdən döyüş gedirdi, amma günorta döyüşün istiqaməti bir az dəyişdi. Saat 16-dan sonra döyüş dayandı. Saat 19 radələrində mən Laçına getdim, dedilər ki, orada rabitə var. Bakı ilə rabitəyə çıxım. Orada Elçin həkim oturmuşdu, onunla görüşdüm. Bizə yeməklə, dava-dərmanla kömək elədi, amma dedi ki, deyirlər Xalq Cəbhəsi hakimiyyətə gəlibdir və ona görə də əlaqə kəsilibdir. Mən dərhal qayıtdım öz yerimə. Laçınla Turşsu arasında qoşun dəstəsi çıxdı qabağıma. Həmən Turşsuyu qorumağa gələn dəstə. Dedilər bizə 50 dəqiqə vaxt veriblər ki, Turşsuyu tərk eləməlisiniz. Mən dərhal Elçin həkimin yanına qayıtdım, dedim rəhbərliyə mə'lumat ver ki, onlar buranı qoyub gedirlər. Əgər Turşsu boşaldılsa, onda Laçın da boşaldılacaq.

Beləliklə, burada çox gərgin vəziyyət yarandı. Onlar əhalini topladılar, gəlib yolu kəsdilər və Şuşanın qarşısını müəyyən vaxt saxladılar. Lakin orada bir sıra bəhanələr gətirdilər, dedilər piyadalar yoxdur, tankları müdafiə eləyən yoxdur, təzə BMP-lər, BTR-lər, - bunların hamısı Qubadlı istiqamətinə getmişdi. Beləliklə, Laçın demək olar ki, tam texnikasız qalmışdı. Bu vəziyyətdə dəhlizin açılması yəqin ki, elə bir problem deyildi.

Möhtərəm Prezident, indi hər kəs öz cəzasını alır. Kim Şuşanı, Laçını düşmənə veribsə o, Azərbaycanın bir hissəsini verib və onlar heç cür adlarını gizlədə bilməzdilər. Kim də onları geri qaytaracaqsa, tarixdə məhz o yaşayacaqdır. Bizdə tam əminlik var ki, Şuşanın, bütün Dağlıq Qarabağın, ümumiyyətlə Qarabağ torpaqlarının qaytarılması hökmən Sizin adınızla bağlı olacaqdır.

Ancaq bir şeyi də qeyd etmək istəyirəm. Əgər həkimin səriştəsi yoxdursa, o heç vaxt operasiya eləyə bilməz, hökmən yaxşı həkim çağırılmalıdır. Əgər belə bir həkim uzaqdadırsa və o gələnə kimi xəstə olarsa, onda səriştəsiz həkim nəsə eləyə bilər. Bizim də



səriştəsizliyimiz onda oldu ki, Sizin kimi dünya səviyyəli siyasətçini saxladılar Naxçıvanda, qoymadılar gələsiniz və bizim başımıza bu oyunları açdılar. Əgər siz 1989—90-cı illərdə, lap 1991-ci ilin əvvəlində hakimiyyətə qayıtsaydınız, — onda odlu silah davası başlamamışdı, — nə itkilər olardı, nə şəhidlər olardı, nə də camaat bu vəziyyətə düşərdi.

Biz Şuşadan çıxandan sonra həkimlərimiz Şuşa qospitalını bərpa eləmək təşəbbüsünü irəli sürdülər və onu bərpa elədik. Bizim işçilərdən 50 nəfər Ağdərə döyüşlərində iştirak edib, Kosalı kəndinə qədər gedib çıxmışdılar. Hal-hazırda həmin işçilərimizdən 45 yaşına qədər olan kişilərin hamısı, bütün həkimlər burada işləyirlər. Xeyli tibb bacımız respublikanın hərbi qospitallarında xidmətlərini davam etdirir.

Mən Şuşanın və Dağlıq Qarabağın bütün tibb işçiləri adından Sizi əmin eləyirəm ki, biz hamımız Sizin əmrinizə müntəzirik və nə vaxt "qalx!" desəniz, hara göstəriş versəniz, oraya gedərik. Təki torpaqlarımızı azad edək. Sağ olun.

### Şuşa rayonunun<br>hərbi komissarı, polkovnik<br>AĞAVERDİ FƏTTAHOVUN<br>çıxışı

Cənab Prezident, Ali Baş Komandan, hörmətli iştirakçılar! Məndən əvvəl çıxış etmiş yoldaşların dediklərini təkrar etməklə vaxtınızı almaq istəmirəm. Amma Şuşa şəhərinin müdafiəsinin iştirakçılarından biri kimi şahidi olduğum hadisələrin üzərində dayanmaq istəyirəm.

Qeyd etmək istəyirəm ki, o vaxt Şuşa şəhərinin müdafiəsini tə'min etmək üçün müəyyən qədər qoşun, döyüş texnikası, silah və sursat var idi. Belə hesab edirdim ki, əsas məsələ mövcud canlı qüvvədən və sursatdan düzgün istifadə olunmasında idi. Amma respublikanın o vaxtkı siyasi və hərbi rəhbərliyinin səriştəsizliyi üzündən, indi isə tam məs'uliyyətlə demək olar ki, bilərəkdən həmin qüvvələrin imkanlarından tam istifadə edilməmiş, əksinə, bu qüvvələrin səmərəsi heçə endirilmişdir.

777 nömrəli hərbi hissə yarananda mən onun tərkibində olmuşam. Bu hərbi hissəyə Əfqanıstanda xidmət etmiş zabit və əsgərlər daxil idi. 1992-ci ilin mə'lum Daşaltı əməliyyatından sonra bizim hissə Şuşa şəhərinə göndərildi. Həmin dövrdə Rəhim Qazıyev Şuşa şəhərinin komendantı idi. Mən Bakı şəhər Nərimanov Rayon Hərbi Komissarlığında işləyirdim, könüllü olaraq, öz ərizəmlə Şuşanı müdafiə etmək üçün 777 nömrəli hərbi hissəyə yollandım. Keçmişdə Əfqanıstanda

birgə xidmət etdiyim, 777 nömrəli hərbi hissənin komandiri Elçin Məmmədov mənə bildirdi ki, hazırda Şuşada özbaşınalıq, silah oğurluğu, müxtəlif təxribatlar həddindən artıq çoxdur, bütün zabitlərlə birlikdə bunların qarşısını alıb Şuşanın müdafiəsini təşkil etməliyik.

Mən fəaliyyətə başladığım gündən şəhərdə və şəhərətrafı postlarda ümumi vəziyyəti, batalyonlar arasındakı əlaqələri yoxladım və belə bir qənaətə gəldim ki, şəhərdə yerləşən qanuni batalyonlarla Xalq Cəbhəsinin könüllülərindən ibarət batalyonları arasında anlaşılmazlıq, hərc-mərclik, münaqişə vardır. Müdafiə naziri Rəhim Qazıyevin əmri ilə Şuşa qarnizonunun komandiri tə'yin edilmiş Elçin Məmmədova Tofiq Oğuz tabe olmurdu. İcra hakimiyyətinin fəaliyyəti yox səviyyəsində idi.

1992-ci il aprel ayının ikinci yarısında Şuşa rayonunun yeni icra hakimiyyəti başçısı Bəhmənov vəziyyəti nizamlamaq üçün bütün hərbi birləşmələrin komandirlərini bir yerə yığaraq onları bir komandanlıq altında Şuşanı müdafiə etməyə çağırdı və hətta onları müqəddəs Qur'ana and içdirdi. Bundan sonra şəhərin ətrafında əlavə səngərlər qazıldı. Halbuki, bundan əvvəl biz heç bir kömək ala bilmirdik. Orada elə yerlər var idi ki, ancaq gərək texnika işləyəydi, buna nail ola bilmirdik. İcra hakimiyyəti başçısı dəyişdikdən sonra Bəhmənov özü hərbçi olmasa da, o, Şuşanın müdafiəsini planlaşdırmışdı.

Lakin Tofiq Oğuz bir komandanlıq altında birləşməyin hər vasitə ilə əleyhinə çıxırdı. Elçin Məmmədov dəfələrlə təklif edirdi ki, Şuşadan başqa qüvvələr çıxarılsın, şəhərin müdafiəsi 777 nömrəli hərbi hissəyə və yerli özünümüdafiə batalyonlarına tapşırılsın. Lakin müdafiə naziri Rəhim Qazıyev Elçin Məmmədovun heç bir təklifinə məhəl qoymurdu. Təxribatçı qüvvələr yaxşı başa düşürdülər ki, bu batalyonlar Şuşanın işğal olunmasına imkan verməyəcəklər.

24 aprel 1992-ci il tarixdə Şuşa şəhərinə Qarabağ qarnizonu üzrə yeni komandan tə'yin olunmuş Elbrus Orucov göndərildi. O, bütün batalyon komandirlərini yığaraq vəziyyəti təhlil etdi. Həmin iclasda Tofiq Oğuz batalyon komandirliyindən Elbrus Orucovun müavini tə'yin olundu. Elçin Məmmədov isə əvvəlki kimi 777 nömrəli hərbi hissənin komandirliyində qaldı. Bundan sonra Tofiq Oğuzun könüllülər batalyonunda komandirlik vəzifəsini yerinə yetirmək üstündə Nail Kazımovla Məmməd Muradzadə arasında münaqişə başlandı. Həmin vaxta qədər Elçin Məmmədov çox çətinliklə batalyonların vahid idarəsini təşkil etmişdi. Lakin Elbrus Orucov qısa bir dövrdə buna nail ola bilmədi və könüllü batalyonlar vahid komandanlığa tabe olmaqdan imtina etdilər. Ümumi vəziyyət belə idi.

Bir neçə kəlmə ilə 7 may 1992-ci il tarixdə olan hadisələri təhlil eləmək istəyirəm. Həmin gün Elbrus Orucov Elçin Məmmədovu və Rövşən Əkbərovu yanına çağıraraq bildirdi ki, mayın 8-də Xankəndidən Şuşaya ATƏT-in və Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri gələcəklər, ona görə də şəhərin aşağı postlarından texnikanı və canlı qüvvələri götürmək lazımdır. Biz postları yüngülləşdirdik və texnikanı götürdük. Ayın 7-dən 8-nə keçən gecə saat 1.30 radələrində Elbrus Orucov Elçin Məmmədova bildirdi ki, Daşaltı tərəfdə nə isə bir hərəkət var, yoxlamaq lazımdır. Məmmədov bu işi mənə həvalə etdi. Mən Daşaltı yaxınlığındakı nəqliyyat postuna gedib vəziyyətə nəzarət etməyə başladım. Gecə saat 2-də Nəbilərdən Nail Kazımov UAZ maşınında Şuşaya keçmək istəyərkən saxlayıb vəziyyəti soruşdum. O dedi ki, vəziyyət yaxşıdır və bildirdi ki, postlardan könüllüləri geri çağırıb, Tofiq Oğuzla nəsə şəxsi məsələni həll etməyə gedir. Mən onun sözlərindən başa düşdüm ki, orada az bir qüvvə qalmışdır. Gecə saat 3-ə 10 dəqiqə işləmiş bu barədə Elbrus Orucova mə'lumat verdim. Bundan sonra Elbrus Orucov mənə göstəriş verdi ki, bir tankı hey'ətlə birlikdə orada saxlayıb BMP ilə şəhərə qayıdın. Mən BMP ilə şəhərə qayıdarkən yolda mərmi partlayışı səsi eşitdim. Hiss etdim ki, şəhəri hər tərəfdən artilleriya atəşinə tutublar. Bu atəş 2 saata qədər davam etdi. Həmin vaxt aşağı yanacaqdoldurma məntəqəsi postundan xəbər verdilər ki, biz artıq mühasirədəyik, ermənilər hücuma keçirlər, kömək lazımdır. Elçin Məmmədov oraya 2 ədəd, Daşaltı postuna isə bir ədəd BMP göndərmişdi. Lakin aşağı göndərilən texnikadan bir xəbər çıxmadı və mühasirədə qalanlar axırıncı dəfə xəbər verdilər ki, biz artıq yanırıq. Orada bizdən Əfqanıstan döyüşlərinin iştirakçısı olan beş nəfər var idi, onların ikisi iki qardaş idi.

**Heydər Əliyev:** Təslim oldular?

**Ağaverdi Fəttahov:** Təslim olmadılar, orada yandılar. Bəli, vəziyyət olduqca mürəkkəbləşirdi. Artıq ermənilər hər tərəfdən hücuma keçmişdilər. Qüvvələr qeyri-bərabər idi. Elbrus Orucov saat 3-dən sonra Kosalara yollanmışdı, şəhərdə yox idi, ona görə komandanlığı Elçin Məmmədov özü götürmüşdü boynuna. Belə bir vəziyyətdə Elçin Məmmədov məni və kapitan Abbasovu orta posta göndərdi. Dedi ki, mərkəzə xəbər verilib, 1—2 saata kömək göndəriləcəkdir və kömək gələnə qədər həmin postu saxlamaq lazımdır.

Mən sözümün əvvəlində dedim ki, orada könüllülərdən ibarət batalyon — Tofiq Oğuzun, yə'ni Xalq Cəbhəsinin batalyonu var idi. Düzdür, onlardan vuruşanı da olubdur, şəhidi də olubdur, ancaq 85—90 faizi qaçmışdır. Ona görə də biz köməksiz idik. Yoxsa belə olmazdı.

Mayın 8-də səhər saat 10-da bir ədəd BMP ilə həmin postda mövqe tutmuşduq. Mən orada olan, sağ qalmış qüvvələri cəmləşdirib mövqelərdə yerləşdirdim. 816 nömrəli Şuşa özünümüdafiə batalyonunun komandiri Səfərov da orada idi. Mən ona tapşırıq verdim

ki, mövqeyi qorusunlar, yaxın vaxtlarda kömək gələcək. Bundan sonra kapitan Abbasovu aşağı posta göndərdim ki, vəziyyəti aydınlaşdırsın və tapşırdım ki, bir təhlükə olarsa fişənglə siqnal versin.

Vəziyyət isə getdikcə ağırlaşırdı. Bir azdan mən fişəng siqnalını gördüm və tankla köməyə getdim. Gördüm ki, bizim BMP vurulub. Mən yaralıları götürdüm və bu zaman gördüm ki, ermənilərin iki BMP-si aşağı postdan Şuşaya doğru hərəkət edir. Bildim ki, artıq ermənilər həmin postun sağ hissəsini tutublar. Deməli, Elçin Məmmədovun göndərdiyi iki BMP gedib çatmamışdı. Bizdə heç bir mə'lumat yox idi ki, artıq orada ermənilər var. Heç bir mə'lumat, rabitə yox idi. Tanklar da sıradan çıxmışdı. Mən tankın komandirinə əmr verdim ki, BMP-ləri məhv etsin. O, sərrast atəşlə buna nail oldu. Lakin ermənilərin qüvvələri irəliləyirdilər.

Bizim qüvvəmiz isə xeyli azalmışdı. Ancaq kömək yox idi. Mən yaranmış vəziyyət barədə saat 14 radələrində Elçin Məmmədova rasiya ilə mə'lumat verdim. O bildirdi ki, postlarda çox az qüvvə qalıb, könüllülər qaçıblar, əlavə kömək isə yoxdur.

Təxminən saat 16 radələrində bizim bir vertolyotumuz Şuşa üzərində dövrə vurub ətrafdakı postlara bir neçə mərmi atdı. Mərmilərdən biri kolxozçular postuna düşdü, nəticədə 7 nəfər həlak oldu. Bu, bizim öz vertolyotumuz idi. Qeyd etməliyəm ki, hər bir zabitin, vzvod komandirinin xəritəsi, rasiyası, rabitə vasitəsi olmalıdır, yə'ni hər bir vzvod komandiri lazım gələndə topçuları çağıra bilər, əgər vertolyot uçursa, ona bir istiqamət verilməlidir. O vaxt Elçin telefonla dəfələrlə Rəhim Qazıyevin özünə deyirdi ki, bizə xəritə göndərin, rabitə qurğusu göndərin. Sabah bizim vertolyot uçanda ona necə bildirək ki, burada bizik ya yox? Vermədilər. Bunun da nəticəsində axırı öz vertolyotumuz özümüzdən 7 nəfəri məhv elədi.

Ermənilər artıq yaxınlaşmışdılar orta posta, saat 10-dan sonra biz onları geri oturtduq. Orada bizimkilər mövqe tutmuşdular, ancaq vertolyotçulara başqa cür mə'lumat verilib ki, ermənilər artıq orta postu da götürüblər. Ona görə heç bir rabitə yox idi.

Axşam saat 18 radələrində bizə Laçın polis dəstəsindən 20 nəfər kömək gəldi və onlar bizimlə birlikdə axıra qədər vuruşdular.

Biz Turşsuya çıxıb gələndə Rövşən Cavadov bütün XTPD-si ilə orada idi. Biz bildirdik ki, yaxşı, siz burada niyə durmusunuz, niyə gəlməmisiniz ora? Dedilər ki, gələ bilmirdik, postlar, yollar bağlıdır. Halbuki 20 nəfər Laçın postundan dağarası yolla bizə köməyə gəlmişdi.

Saat 19—20 radələrində Elbrus Orucov orta posta gələrək bildirdi ki, şəhərdə minlərlə dinc əhali qalıb. O, adamları şəhərdən çıxarmaq əmrini verdi. Mən yenidən Elçin Məmmədovla əlaqə saxladım. O bildirdi ki, doğrudan da şəhərdə əhali çoxdur, ancaq hələlik öz mövqelərinizdə dayanın və göstəriş gözləyin.



Saat 20.30 radələrində Elbrus Orucovun göstərişi ilə biz sağ qalan qüvvələri götürüb Daşaltı postuna gəldik. Saat 21.00-da artıq bizim texnikalarımız tamamilə məhv edilmişdi. Bir tank, bir BMP və cəmi 3 tank mərmisi qalmışdı. Bir BMP ilə dinc əhalini şəhərdən çıxardıq. Sonra qüvvələrimizi cəmləşdirib Dağızlı ərazisində mövqe tutduq. Hücuma keçmək üçün əmr gözlədik. Lakin belə bir əmr verilmədi.

Bütün bunlardan nəticə çıxarmaq olar ki, həm Şuşanın müdafiəsində dayanan zabit və əsgərlər axıra qədər vuruşmuş, həm də Şuşa əhalisi son günə qədər öz evlərini tərk etməmiş, əsgərlərimizə inanmış və onların köməyinə hazır olmuşdur. Amma dırnaqarası "sərkərdələr" öz xəyanətkar əməlləri ilə əhalinin və ordunun itkilər verərək şəhəri tərk etməsinə və Şuşa kimi qala şəhərin süqutuna nail olmuşlar.

Lakin onların bu bəd niyyəti uzun sürməyəcəkdir. Hal-hazırda ümumxalq səsverməsi ilə, yekdilliklə ölkənin prezidenti seçilmiş möhtərəm prezidentimiz, Ali Baş Komandan Heydər Əliyev cənablarının bilavasitə rəhbərliyi altında qarşısına qoyulan vəzifələri yerinə yetirə bilən nizami ordumuz vardır və möhtərəm prezidentimizin hər bir tapşırığını yerinə yetirməyə hazırdır. Cənab Prezident, Şuşa rayonunun hərbi komissarı kimi mən, Sizi əmin etmək istəyirəm ki, rayonumuzun hərbi mükəlləfiyyətli bütün sakinləri Sizin daxili və xarici siyasətinizdən, dövlət quruculuğu işində uğurlu addımlarınızdan fərəhlənərək, silaha sarılıb öz torpaqlarını azad etməyə tam hazırdırlar.

Cənab Prezident, icazə versəydiniz, bir dəqiqə də vaxtınızı alıb ürək sözlərimi deyərdim. Gərək hər bir ağlı kəsən insan bir anlığa, bir dəqiqəliyə oturub nəticə çıxartsın ki, nə üçün bizim başımıza belə hadisələr gəldi. Nəticəsini də mən deyə bilərəm. Ona görə ki, o dövrdə bizim torpağı sevən, xalqını sevən, torpağının, xalqının namusunu, qeyrəti sevən prezidentimiz olmayıb. O zamankı prezidentlərin verdiyi qanunları rayonlarda icra edənlər də yox idi. Bundan qabaqkı prezidentlərin strukturlarını müqayisə edəyin. Bundan ötrü siyasətçi olmaq lazım deyil, rayonlarda hərbi komissarlıq, prokurorluq, polis — heç birində professional kadrlar öz yerini tutmamışdı.

Hörmətli Prezident, qoy xalqımız da, o fitnəkar qüvvələr var ki, haradasa nəsə eləmək istəyirlər, onlar da bilsinlər. Mən hərbçilər adından, başda müdafiə naziri olmaqla hər bir əsgər və zabit adından bildirirəm: ordu xalqdan ötrü, prezidentdən ötrü ölümə də hazırdır. Bizim çörəyimiz dizimizin üstündə deyil. Vaxtilə biz xalqın çörəyini yemişik, indi isə biz bütün əsgərlər və zabitlər adından deyirik: Möhtərəm Prezident, biz Sizin siyasətinizi bəyənirik və ordu Sizin uğrunuzda, xalqın uğrunda ölməyi də özünə şərəf bilir.

Şuşa rayon sakini,
Daşaltı əməliyyatının iştirakçısı
**ZİYƏDDİN QULİYEVİN**
çıxışı

Möhtərəm Prezident, hörmətli yığıncaq iştirakçıları! Şuşa şəhərinin erməni işğalçıları tərəfindən necə işğal olunması barəsində Nizami Bəhmənov ətraflı mə'lumat verdi. Lakin mən bə'zi təfərrüatların üzərində dayanmaq istəyirəm.

Xalqımızın tarixinə qara hərflərlə yazılmış Daşaltı əməliyyatı həqiqətən heç vaxt, heç bir döyüşçünün xatirindən silinməyəcəkdir. Əməliyyat sabiq müdafiə naziri Tacəddin Mehdiyev və əməliyyata başçılıq edən Nurəddin Abdullayev tərəfindən hazırlanmışdı. O vaxt yeganə artilleriya qurğusu olan topçu qrupuna mən başçılıq edirdim. Döyüşü idarə edən qüvvələrlə biz ilk mövqedə dayanmışdıq. Əməliyyat məxfi şəkildə hazırlandı. Nəzərdə tutulurdu ki, kəndə dörd tərəfdən hücum edilsin. Yanvar ayının 25-də gecə ikən qüvvələrimiz mövqelərini tutdular və səhərə yaxın hücum əməliyyatı başlandı. İlk baxışda bütün işlər yaxşı gedirdi. Şəhərin qərb hissəsindən Daşaltıya enən şose yolu tez bir zamanda minalardan təmizləndi. Kəndə daxil olan qüvvələr artıq kəndin ətrafında öz mövqelərini tutmuşdular. Döyüş əməliyyatının getdiyi vaxtda Nurəddin Abdullayev məni çağırdı, göstəriş verdi və izah etdi ki, bu mövqelərə atəş açılmasın, orada bizimkilərdir. O yerin quruluşu elə idi ki, ora döyüşü idarə edən adamlar tərəfindən tam görünürdü və ətrafda da bu qüvvələri hamı müşahidə edə bilirdi.

Həmin vaxt bizə mə'lum oldu ki, kəndin şərq tərəfində, Topxana hissəsində Azərbaycan Respublikasının Milli Qəhrəmanı Riyad Əhmədovun rotası yerləşir. Rotaya göstəriş verilmişdi ki, kənd istiqamətində hərəkət etsin. Həmin rotanın vəzifəsi Xankəndidən və Xocalı rayonundan Daşaltı kəndinə gələn düşmən qüvvələrin qarşısını almaq və kənd təslim olana qədər saxlamaq idi. Lakin onlara belə bir əmrin verilməsi və rotanın kəndə tərəf hərəkət etməsi hamımızı çox mə'yus etdi. Hamılıqla buna e'tirazımızı bildirdik. Artıq öz mövqelərini buraxmış rotanın yerini Xankəndidən gətirilmiş təzə qüvvələr tutdular. Tez bir zamanda arxadan köməyə gələn düşmən qüvvələri, qarşı tərəfdən isə Daşaltını müdafiə edən qüvvələr həmin rotanı mühasirəyə saldılar. Bütün bu prosesləri izləyən və hadisələrin gedişində kəskin şəkildə dönüş əmələ gəldiyini görən Şuşa taqımı post xidməti batalyonunun komandiri Fərman Xəlilov da kəskin e'tirazını bildirdi. Bütün bu e'tirazlara baxmayaraq, artıq gec idi, ermənilərin köməyə gələn qüvvələri Daşaltı qüvvələri ilə birləşdilər



və bizim də fəaliyyətimiz demək olar ki, tamamilə dayandırıldı. Biz top atəşi aça bilmədik, heç bir kömək göstərə bilmədik.

Qərara gəldik ki, silahlarımızı götürüb kəndin cənub hissəsindən hücum əməliyyatını davam etdirən qüvvələrə qoşulaq. Lakin ermənilərin müdafiə qüvvələri birə beş artdığından biz yalnız bir neçə ağır yaralını döyüş zonasından çıxarmağa müvəffəq olduq. Qayıdıb generala bütün bunları təfsilatı ilə mə'lumat verdik və yeni qüvvə tələb olunmasını istədik. O, Laçın alayından kömək tələb elədi. Laçın alayından gələn qüvvə də artıq gecikmişdi. Topxana tərəfdə erməni qüvvələri 366-cı alayın piyada döyüş maşınlarını mövqelərdən çıxarmışdılar və o mövqelərə yaxınlaşmaq daha mümkün deyildi.

Gözlərimiz qarşısında baş verən bu acı sonluq bizi çox mə'yus elədi və elə bir əhval-ruhiyyə yaratdı ki, bizim nə döyüşmək, nə torpaqlarımızı qorumaq qabiliyyətimiz var. Uzun müddət biz bu hisslərdən azad ola bilmədik. Bir-birinin ardınca işğal olunan Cəmilli, Meşəli, Malıbəyli, Quşçular və Xocalının faciəsi gözümüzün qarşısında idi. Respublika rəhbərliyinin biganə mövqeyi bizi daha da mə'yus elədi.

Lakin biz dönüş yaratmalı, özümüzdə elə bir qüvvə tapmalı idik ki, bu vəziyyətdən çıxıb ermənilərə heç olmasa müəyyən qədər cavab verək. Erməni qəsbkarlarının döyüş mövqeləri xeyli genişlənmişdi. Kosalar istiqamətində bizim əlimizdə bir bölük kənd qalmışdı. Bu kəndlər artıq Xocalı ilə əlaqəsini itirmiş, bütün tə'minatları Şuşa rayonuna bağlanmışdı, hərbi sursatı da, canlı qüvvəsi də, ərzağı da Şuşadan tə'min olunurdu.

Mart ayının 29-da Hacı talası adlanan strateji əhəmiyyətli mövqe istiqamətində ermənilərin kəskin hücumları başlandı. Həmin vaxt Şuşanın özünümüdafiə dəstələrinin, Uğurun patrul-post xidməti rotasının hazırladığı əməliyyat nəticəsində erməni qüvvələrinin hücumu dəf edildi. Onlarca erməni öldürüldü. Düşmən qüvvələri itki verərək geri çəkildi. Həmin döyüşdə ermənilər 17 muzdlu döyüşçü itirmişdilər. Xankəndidə 3 gün matəm saxlanıldı.

Aprel ayının ortalarında biz mə'lumat aldıq ki, Şuşa şəhərini təslim etmək üçün iki əməliyyat hazırlanır. Bunların biri Böyük Kirs istiqamətində böyük qüvvə ilə hücum əməliyyatıdır, o biri əməliyyat Kosalar istiqamətində getməlidir. Biz bunu təhlil edərkən bildirdik ki, bunlar qisas almaq məqsədi güdür.

Rayonun rəhbərliyi tez bir müddətdə Böyük Kirs istiqamətində yol çəkdirdi və biz orada iki batalyon yerləşdirdik. Aprelin 29-da ermənilər Hacı talası yüksəkliyini ələ keçirmək məqsədi ilə təkrar hücum əməliyyatına başladılar. Bu əməliyyat özünümüdafiə qüvvələrimiz tərəfindən yenə dəf edildi. Milli Qəhrəmanımız Ramiz Qəmbərov həmin döyüşdə həlak oldu.

Mayın 7-si bizim üçün ən dəhşətli, hafizələrimizdən silinməyən gün oldu. Gecə erməni qəsbkarları Şuşa şəhərinə Böyük Kirs istiqamətindən və Kosalar istiqamətindən 15 minlik qüvvə ilə hücuma keçdilər. Şəhər ətrafında, Kirs istiqamətində olan döyüşlər barəsində mə'lumat verildi. Beş minlik qüvvə ilə Kosalar istiqamətindən hərəkət edən Ermənistanın Leninakan batalyonu çox böyük itkilərə mə'ruz qaldı. Möhtərəm Prezident, bütün bu döyüşlərdə bizim özünümüdafiə dəstələrinin də, yerli batalyonlarımızın da, köməyə gələn qüvvələrin də böyük müvəffəqiyyətləri olmuşdur. Ayın 7-dən 8-nə keçən gecə və 8-i günü onlarca erməni cəsədləri xəndəklərə tökülmüşdü. Təkcə kəndin mövqelərində 37 erməni cəsədi qalmışdı. Onlar geri çəkilməyə məcbur olmuşdular. Sonra alınan mə'lumatlara görə onlar təkcə Hacı talası əməliyyatında 206 adam itirmişdilər.

Şəhərin süqutundan sonra biz Turşsu qəsəbəsinə qayıdan vaxt orada Tahir Əliyevlə bir daha görüşəndə ümidlərimizi tamam itirdik. Gecə saat 2 radələrində mə'lumat aldıq ki, respublikanın rəhbəri Yaqub Məmmədov Ağdama gəlib. Kosalar istiqamətindəki beş kənddə 1500-ə yaxın dinc əhali və döyüşən qüvvələr qalmışdı. Mən onlara kömək etmək, hücum əməliyyatı təşkil etmək üçün Ağdam şəhərinə gəldim. Saat 10 radələrində Yaqub Məmmədovla görüşdüm və Şuşa şəhərinin işğal olunması barəsində ona mə'lumat verdim. O, çox təəccübləndi və dedi ki, mənə düzgün mə'lumat verilməyib.

**Heydər Əliyev:** O bilmirdi o vaxt?

**Ziyəddin Quliyev:** Xeyr, o dedi ki, mən bilmirəm.

**Heydər Əliyev:** Ayın neçəsində?

**Ziyəddin Quliyev:** Ayın 9-da saat 10 radələrində. Müdafiə Nazirliyinə zəng vurdu, Rəhim Qazıyevi tapa bilmədi. Şahin Musayev telefonda ona dedi ki, o adam kimdirsə təxribatçıdır, həmin adamı həbs etmək lazımdır. Yaqub Məmmədov mənə bir də müraciət etdi ki, bəlkə siz səhv edirsiniz? Onların mənə verdiyi mə'lumata görə şəhərdə döyüşlər gedir. Mən ona bir daha dedim, əmin etdim ki, onlar sizə düzgün mə'lumat vermir. Kaş mənim gördüyüm dəhşətlər yalan olsun. Mən öz məqsədimi də dedim ki, artıq Şuşa ilə əlaqəsi kəsilmiş 1500 nəfər dinc əhali mühasirə vəziyyətindədir. Onların üzərinə Şuşa istiqamətindən, Xankəndi istiqamətindən onlarca texnika irəliləyir, üçüncü hücum əməliyyatı tətbiq olunur. Bunun qarşısını almaq üçün, heç olmasa əhalini çıxarmaq üçün hərbi vertolyotlarla kömək etmək lazımdır.

O, hərbi vertolyotun komanda hey'ətini çağırdı və göstəriş verdi ki, tə'cili o mövqelərə uçmaq, kömək etmək lazımdır. Sonra bildirdi ki, mən Gəncəyə gedib Rəhim Qazıyevi tapmaq istəyirəm.

Təəssüf ki, Yaqub Məmmədov Gəncəyə yola düşəndən sonra vertolyotları da bizim əlimizdən aldılar və ondan da məhrum olduq.



Məcbur olub radio vasitəsilə mə'lumat verdik ki, artıq kəndə heç bir qüvvə gəlməyəcək. Onlar ayın 9-da saat 18 radələrində bütün texnikalarını məhv edib, mühasirəni yarıb Qırxqız dağı istiqamətində meşə tərəfdən irəliləyərək xilas oldular.

Bütün bunları xatırlatmaqda, möhtərəm Prezident, Sizdən bir xahişim var. Biz Sizin torpaqlarımızı sülh yolu ilə azad etmək üçün apardığınız siyasəti bəyənirik. Eyni zamanda hamımız hazırıq və hər an Sizin əmrinizi gözləyirik ki, qanımız, canımız bahasına torpaqlarımızı işğalçılardan azad edək və Azərbaycanın qalib əsgəri kimi öz yurdlarımıza qayıdaq.

### Şuşa rayon sakini, keçmiş inşaatçı QAFAR RƏHİMOVUN çıxışı

Hörmətli Prezident! Mən uzun müddət — 35 ilə yaxın Şuşada inşaatçı işləmişəm. Şuşanın tikintilərinin demək olar ki, 70 faizində mənim zəhmətim var. Çox məmnunam ki, bu gün Siz bizə imkan vermisiniz, mən burada çıxış edirəm.

Sizinlə üçüncü dəfədir ki, görüşürəm. İki dəfə Şuşada olmusunuz. Birinci dəfə ermənilər bizə imkan yaratmayıblar ki, Sizinlə görüşək, Sizə yaxından baxaq. Mən Sizə pəncərədən baxmışam.

**Heydər Əliyev:** Niyə, mən onda küçələrdə gəzirdim, hamı ilə görüşürdüm.

**Qafar Rəhimov:** Birinci dəfə gələndə erməni polisləri bizi qoymadılar. Çox dəhşətli vəziyyət idi orada. Mənim yadımdan çıxmaz. Amma Siz ikinci dəfə gələndə qar yağırdı. Sizin maşınınızı Şuşa camaatının köməyi ilə yuxarı çıxardıq — Vaqifin məqbərəsinə.

**Heydər Əliyev:** Sən səhv edirsən — o, birinci dəfə idi. İkinci dəfə mən gəldim, Cıdır düzündə böyük bir konsert oldu. Qar yağanda, mən Vaqifin məqbərəsini açanda birinci gəlişim idi. İkinci dəfə gələndə axşam Cıdır düzündə, açıq havada bizim incəsənət xadimləri konsert verdilər. Sonra mən Şuşanın məscidlərində oldum.

**Qafar Rəhimov:** Hörmətli Prezident, Şuşa camaatı Sizi çox istəyir. Şuşanı ermənilərə vermək faciədir. Mən özüm Stepanakertdə işləmişəm. Bizim trestimiz orada yerləşirdi. Ermənilərdə elə cəsarət yoxdur. Mən bir şeyə çox təəccüb qaldım. Əbdürrəhman Vəzirov Azərbaycana birinci katib tə'yin olunanda gəldi Şuşaya. Səhv etmirəmsə, 1989-cu ilin axırı idi. Biz raykom binasının qabağında idik. Nə isə, gəldi, orada qəssab Məmməd var idi, onunla öpüşdü, görüşdü. Mən keçdim içəri, görüşdüm, dedim yoldaş Vəzirov, mən

sizə bir söz demək istəyirəm, xahiş edirəm məni bir dəqiqə dinləyin. Dedi buyurun. Dedim axı, ermənilər bizim başımıza hər oyunu açır. Bu, neçə dəfədir baş verir. Siz də bir o qədər əhəmiyyət vermirsiniz. Bizim el ağsaqqalımız olan, Azərbaycana 14 il rəhbərlik edən bir adam haqqında da düşünmürsünüz. Bu, mənə çox tə'sir edir. Üzr istəyirəm, mənə dedi siz Heydərin qohumusunuz? Dedim xeyr, mən onun qohumu deyiləm, amma onu təmiz qəlblə sevirəm. Daha sonra mənə əhəmiyyət vermədi.

Bizim xalqda niyə belə xəyanətkarlıq, bir-birinə laqeydlik var? Erməni deyir ki, əgər bizim şəxsi düşmənçiliyimiz varsa, onu qoyaq qırağa, ümumi işimizi həll edək, sonra düşmənçiliyimizi davam etdirək. Vəzirov Gəncədə birinci katib işləyəndə işdən sonra parkda it gəzdirirdi. Belə adamdan Azərbaycana nə rəhbər ola bilər?

Hörmətli Prezident, mən Kamran Bağırov haqqında demək istəmirəm, — dövlətə rəhbərlik etdi, elə bir əhəmiyyəti olmadı. Bunu məndən qabaq çıxış edən yoldaşların hamısı dedi. Ayaz Mütəllibov Nazirlər Sovetinin sədri olarkən Şuşaya gələndə dedi Volskinin mə'dəsində yara var, ona səs verin. Əgər ona səs verməsəniz, erməni seçiləcək, torpağınız alınacaqdır. Qara camaat da neyləsin? Bir hissəsi inandı, bir hissəsi inanmadı.

**Heydər Əliyev:** Mə'də yarasının nə dəxli var? Yə'ni yazığınız gəlsin ona?

**Qafar Rəhimov:** Bəli, ona yazığımız gəlsin. Biz Mütəllibovu seçdik, oldu prezident. Hesab edin, bir atanın beş oğlu var, ata xəyanətkardır, oğlunu yollayır, arxadan güllə ilə vurur. Şuşanın ətrafına gecə saat 2-də rəhmətlik İslam, bir də mənim balaca qardaşım Vaqif Rəhimov bir kilometr məsafədə minaları düzdü, özü də onları elə birləşdirdi ki, bir düyməni basanda hamısı partlayıb ətrafı darmadağın edə bilərdi. Oradan texnika, heç nə keçə bilməzdi.

Ürəyim ona görə ağrıyır ki, mən 35 il Şuşada zəhmət çəkmişəm. Səhər saat 5-də, 6-da durub gedirdim Stepanakertə, dəmir-beton mə'mulatı meydançasına. Mən erməni dilini yaxşı bilirəm, mənə çoxları hörmət edirdilər, oradan dəmir-beton mə'mulatını gətirib Şuşanı bu əziyyətlə tikmişdik. Şuşa çox gözəl idi. Siz Şuşaya gələndən sonra şəhərimizə respublika miqyasında çox əhəmiyyət verilirdi, kömək göstərilirdi.

Sonra isə öz rəhbərimiz bizi qeyrətsiz etdi. Şəxsən mən özümə nifrət edirəm. Bizim mə'nəvi haqqımız yoxdur ki, bu torpağın üstündə gəzək. Axı, bu erməni kimdir ki! Erməni arvadımızı tutdu — dinmədik, bacımızı tutdu — dinmədik, qardaşımızı tutdu — dinmədik. Allah rəhmət eləsin Vaqif Cəfərova. Mən tikinti sahəsinin qabağında 500 fəhlənin içində ona dedim ki, sabah vertolyot gələndə deməyəcək ki, bu, Cəfərovun ailəsidir, yaxud filankəsin ailəsidir. Gəlin 100



nəfərlik partizan dəstəsi yaradaq, bizim qoçaq Azərbaycan uşaqlarımız var, onlardan bir dəstə düzəldək.

Dedi sən öz işini gör, bizim hər şeyimiz var. Dedim, Vaqif, bizim heç nəyimiz yoxdur. Bax, bir adam tərpənir — onu öldürürlər, bir adam düz söz danışır - onun evini yandırırlar. Bundan üç-dörd gün sonra mənim evimi Xalq Cəbhəsi tərəfindən yandırdılar. Axırı Cəfərov Vaqifin də uşaqları qaldı yetim. O zaman bir rəhbərimiz olmadı ki, burada işləsin, bu xalqa arxa dursun, önündə getsin.

Biz qaçqın adına layiq deyilik. Mən niyə qaçqınlığı boynuma götürüm? Mənim anamın, atamın qəbri orada. Böyük qardaşım qaldı Şuşada, mən onu çıxara bilmədim. Gəldim, Laçında yadıma düşdü. O, Cıdır düzü tərəfdə olurdu, biz bu tərəfdə. Bir-birimizdən xəbərsiz qaldıq.

Ayın 7-dən 8-nə keçən gecə saat 2-də gördüm ki, alov yanır. Bizim əsgərlərdən 5—10-nu gördüm, birinin avtomatı var idi, darağı yox idi, birinin darağı var idi, avtomatı yox idi. Bir tankımız da aşağıdan gəldi, dedi mərmi yoxdur. Hamısı qara tüstü buraxırdı, heç bir iş görmürdü. Tə'lim silahı vermişdilər. Rəhim Qazıyevin qoyduğu papağı mən heç kimin başında görməmişəm. Bəs yaxşı, sən bunu gətirirsən, tankı gətirirsən, bunun mərmisi hanı? Ziyəddin çox qeyrətli oğlandır. Onun kimi on nəfər döyüşkən oğlan olsaydı, bəlkə də biz Şuşanı verməzdik. O, düz danışır. O, çox qeyrətli oğlandır. Topun lüləsindən belə baxırdı və atırdı.

Mikayıl Gözəlova Allah rəhmət eləsin. Onu nəyin üstündə öldürdülər? O, gecə-gündüz yatmırdı, yaxşı da hörməti var idi. Hər yerdən silah göndərirdilər, kömək edirdilər. Hələ bu günə kimi o işin üstü açılmayıb ki, Gözəlovun günahı nə idi ki, onu kabinetdə iş başında öldürdülər. Hələ bu günə kimi Gözəlov Mikayılın qanı yerdədir. Bax, belə qeyrətli oğlanlarımızı da öldürürdülər. Mənim Oqtay adlı ekskavatorçum var idi. BTR sürürdü. Dedi Rəhimov, biz bilmirik arxaya baxaq özümüzü özümüzünkülərdən qoruyaq, yoxsa ermənidən qoruyaq.

Yoldaş Əliyev, Ermənistandan gələn qaçqınları Telman Orucov gəldi apardı. Mən Sizi inandırım ki, Telman Orucovu heç bir xalqın nümayəndəsi saymırdı. Pul alıb şəhərimizi düşmənə vermək, prezident olmaqdan ötrü xalqı alçaltmaq, erməninin əlinə girov vermək... Bu hadisələr neçə ildir ki, gözümüzün qabağındadır. Axı, niyə belə olmalıdır, niyə bizim xalqımız belə olmalıdır? Niyə bizim xalqımız xəyanətkar, satqın olmalıdır? Niyə bizim xalqımız zəlil olmalıdır?

**Heydər Əliyev:** Xalqımız xəyanətkar deyil.

**Qafar Rəhimov:** Xəyanətkarı deyirəm.

**Heydər Əliyev:** Bəli. Amma sən deyirsən xalqımız. Yəqin ki, ayrı-ayrı adamları nəzərdə tutursan, elədirmi?

Qafar Rəhimov: Bəli.

Heydər Əliyev: Xalqımız xəyanətkar deyil, xalqımız satqın deyil. Xalqımız qəhrəman xalqdır, çox zəkalı, ağıllı xalqdır. Amma xalqın içərisində satqınlar var, xəyanətkarlar var, sən onları nəzərdə tutursan.

Qafar Rəhimov: Məhəmməd bəy kimiləri. Biz bəylər barədə eşitmişik, köhnə bəylər olub — savadlı, ağıllı, humanist, insanpərvər bəylər olub. İndi isə nə'şəxorlar, cibkəsənlər — hamısı gəlib oldu bəy. Bu filan bəy, bu filan bəy, bu peşməkan bəy.

Heydər Əliyev: O Məhəmməd bəy kimdir?

Qafar Rəhimov: Tofiq bəy, mən Oğuza getdim, mənim böyük qardaşım orada olur, dedilər ki, qovmuşdular onu oradan.

Heydər Əliyev: Gəlib Şuşada bəy olub?

Qafar Rəhimov: Şuşada batalyonun komandiri idi, yoldaş Əliyev, mənim müqəddəratımı qoruyurdu. Əgər onlar olmasaydı, bizim Şuşanın cavanları camaatı səfərbər edirdilər, ermənini çıxarırdılar. Yoxsa Xalq Cəbhəsiyəm? Nə olsun, mən də sənin qardaşınam, qohumunam, azərbaycanlıyam. Sən məni satmalısan, məni öldürməlisən? Yoldaş Əliyev, mən bu barədə danışanda bir az əsəbiləşirəm, üzr istəyirəm. Mənə çox tə'sir edir.

Siz Azərbaycana rəhbərlik edəndən mənim həmişə simpatiyamsınız. Siz Moskvada işləyəndə mən həmişə Sizin mə'ruzələrinizi əzbərləmişəm, mənə ləzzət eləyib, and olsun Allaha. Bizim Şuşanın adından, bütün torpaqlarımızın adından Sizə deyirəm: biz qırılsaq yaxşı idi, nəinki torpaqlarımız ermənin əlində olsun. Sizin daxili, xarici siyasətinizi dəstəkləyirik və bəyənirik. Biz hamımız bu yolda ölməyə hazırıq.

Sizdən bir xahişim var, bununla da sözümü qurtarıram. Şuşadan gəldik, mənim balaca qardaşım Vaqif Rəhimovun orada nə qədər xidməti olduğunu bütün şuşalılar bilir. Gecə-gündüz yatmayıbdır. Gəldi Nizami rayonunda - Naxçıvanski, 45 nömrəli binada bir otağa yığıldı. Özü də bir dənə çöp çıxarmamışdılar. Hərə bir qaşıq, bir yorğan verdi. Bir ay sonra eşitdim ki, gəlib onun uşaqlarını döyüb evdən çıxarıblar. Mən getdim 26 nömrəli MİS-in rəisi Valehin yanına, dedim niyə onları çıxarırsan? Dedi çıxaracağam, ona görə ki, onun oturduğu evdə bizə heç bir kömək eləmir. Biz də səhər getdik rayona, gəlib gördük ki, onların şeyləri dördüncü mərtəbədən tökülüb aşağı. 30 nəfər OMON-çu ilə. Arvadı döyüb başını yarıblar, qızı pilləkəndən tullayıblar, 15 güllə atıblar blokda. Bu da bizim OMON-çularımız. Qadın xeylağını bayıra tullayınca get torpağını müdafiə et də! Dövlət çevrilişi etməkdənsə, kişiliyin var, get dədənin qəbrini müdafiə et də. Ailənin bir dənə televizoru var idi, onu da dördüncü mərtəbədən



tullamışdılar. Xırda-para şeyləri qalmışdı çöldə. Biz nə qədər çalışdıqsa da mümkün olmadı.

Heydər Əliyev: Nə vaxt olubdur bu?

Qafar Rəhimov: Bu olub 1994-cü il martın 16-da. Yaxşı, evdən çıxart, qanun çərçivəsində. Amma niyə döyürsən?

Heydər Əliyev: Siz məşğul olmusunuzmu bununla, ya yox? Sonra yerləşdirdiniz?

Nizami Bəhmənov: Sonra bəli.

Qafar Rəhimov: Həmin Valeh o evi satdı, indi də oturub orada işləyir.

Heydər Əliyev: Kim satdı evi?

Qafar Rəhimov: Valeh, MİS-in rəisi.

Heydər Əliyev: İş onda deyil ki, yerləşdiriblər. Əgər o, doğrudan da elə qanunsuz hərəkət edibsə, yaz, ölçü götür.

Qafar Rəhimov: Çox sağ olun.

Heydər Əliyev: Yaxşı, sağ ol. Laçınlılardan danışmaq istəyən varsa buyursun. Şuşalılar danışır, amma laçınlılar, yəqin deyirlər ki, əvvəl şuşalılar danışsın sonra laçınlılar.

Laçın rayonundan müəllim
ƏMİRXAN ZEYNALOVUN
çıxışı

Hörmətli Prezident, əziz Heydər Əliyev! Uzun müddətdir bu hadisələri izləyərkən, onları duyarkən, bu hadisələrə verilən qiymətləri dərk edərkən bir müəllim kimi fikirləşirəm ki, ilahi günahımız nə imiş?! Çıxışımı bu sözlərlə başlamaq istəyirəm. Vaxt var idi, Sizi də çox sıxırdılar, Sizə imkan vermirdilər ki, bu xalqın qayğısına qalasınız, onu xilas edəsiniz. O vaxt Siz Ali Sovetin binasında özünüzə məxsus amiranə bir səslə dediniz ki, mənim sözümü heç kim kəsə bilməz, mənim səsim xalqa çatmalıdır. Bəli, Sizin səsiniz xalqımıza çatdı, Siz xalqımıza gərəksiniz və gərək də oldunuz.

Müəllim kimi hadisələrin dərinliyinə varmaq mənim üçün o qədər asan deyil, amma öz münasibətimi bildirmək istəyirəm. Faciə ağırdır, dəhşətlidir. Siz deyən kimi, hadisələr var ki, onları dönə-dönə, təkrarən qeyd etmək lazımdır ki, millət unutqan olmasın, hadisələr millətin yaddaşından silinməsin. Bəli, hörmətli Prezident, bu, belə olmalıdır. Nə vaxta qədər bizə qarşı edilən haqsızlığa, ədalətsizliyə dözməli və onu unutmalıyıq?! Əgər o vaxt Sizin ətəyinizdən tutub yüksək rütbəyə ucalan şəxslər sonra Sizin qabağınıza sədd çəkməsəydi, bu faciələrin heç biri baş verməyəcəkdi, torpağımızın 20 faizi işğal olunmayacaqdı. Bunu daxili vicdan da deyir, hadisələrin gedişi də göstərir. Həmin adamlar bu hadisələri bilərəkdən etdilər ki, torpağın, üzr istəyirəm oturanlardan, Sizdən ifadəmə görə, xalqın, millətin namusu hesabına hakimiyyətə gəlsinlər. Bu, kimə lazımdır? Məgər bu insanlarda azərbaycanlı qanı yox idimi, məgər anaları onları doğanda halal süd verməmişdimi, məgər onları doğan analar layla çalanda "hər şeydən əziz Vətəndir" kəlməsini deməmişdimi? Kimdir günahkar? O analarmı, yoxsa mənliyini, şəxsiyyətini, millətini, xalqını zəlil vəziyyətə gətirmək iqtidarında olanlar?



Bəli, faciə ağır idi. Yoldaşlar çıxış etdilər, mən də öz fikrimi demək istəyirəm. Bizim tarixdən bəri yeganə düşmənimiz var. Onun gözləri həmişə bizim torpağımızda, bizim sərvətimizdə, bizim mülkümüzdədir və tarix sübut edib ki, bu düşmən amansızdır, heç bir şeydən çəkinmir, hiyləgərdir, bicdir, əyildiyi yeri bilir, yıxıldığı yeri bilir, amma aman istəyənə heç vaxt aman vermir. Ermənilər bunu Xocalı soyqırımında bir daha sübut etdilər. Hörmətli Prezident, Azərbaycan xalqı sizə minnətdardır, bunu mən ürəklə deyirəm. Həmin soyqırımını siz dünyaya çatdırdınız.

Xocalı işğal olunan vaxt mən Ağdamda idim, Malıbəylidə qohumlarımız şəhid olmuşdular, ora getmişdim. Səhər tezdən durub o faciəni dərk edəndə, dedim ilahi, bəs rəhbəri olan milləti də bu vəziyyətə salarlarmı? Axşam televizorda dedilər ki, yalan sözdür, iki nəfər ölüb, qalan hər şey öz yerindədir. Bu mə'lumatla xalqı demək olar ki, çaşdırırdılar, birliyi pozurdular və öz məkrli məqsədlərinə çatmaq istəyirdilər. Amma düşmən hiyləgər idi. Mən bizim düşmənləri Afrika cəngəlliklərindəki ən zəhərli ilana bənzədirəm. O ilan cəngəllikdə gizlənməyi bacarır və məqam gözləyir, günahlı-günahsız insanları məhv edir.

Bax, erməni qəsbkarlarında belə bir xislət var. Onlar o məqamı gözlədilər, məqam çatdı. Nə vaxt idi o məqam? O vaxt idi ki, artıq Qorbaçov hakimiyyəti Azərbaycanın mərd oğluna qarşı ədalətsiz mövqedə durmuşdu və yeganə şəxsiyyət Siz idiniz ki, hadisələri qabaqcadan görüb öz ərizənizlə oradan uzaqlaşdınız. Bu, təkcə Sizin xilasınız deyildi, əziz Heydər Əliyev. Bu, xalqımızın xilası idi. Tarix Sizi xilas etdi ki, bu xalq bəlalardan xilas olsun və ona görə Allah-təala Sizi hifz etdi. Siz oradan, o məkrli düşmənlərin əlindən öz təcrübənizlə, öz cəsarətinizlə xilas oldunuz.

Düşmən ondan sonra Dağlıq Qarabağ məsələsini qaldırdı. Mən üzr istəyirəm, bə'ziləri — müxalifətdir, bilmirəm Xalq Cəbhəsidir — mübahisədə elə sözlər danışırdılar ki, mən onları susdurmağı bacararam və deyərəm ki, Heydər Əliyev dövründə ermənilər bir metr torpağımızı ala bilməyiblər, nə də ona imkanları olmayıb. Lakin sonra ermənilər o imkandan istifadə etdilər və o zaman bizim hakimiyyətdə olanlarımızın bilmirəm, ağılları yox idi qabaqcadan bu hadisələri görmürdülərmi və ya görürdülər, amma erməninin dəyirmanına su tökürdülər. Ona görə də bu faciələr baş verdi - əvvəl Xocalıda, sonra başladı Şuşada.

Şuşanın işğalı ilə Laçının işğalında fərq görürəm. Doğrudur, Şuşaya çoxlu ordu da gəlmişdi, texnika da gəlmişdi. Rəhim Qazıyev də

müdafiə naziri tə'yin edilmişdi və xalqa bəyan edirdi ki, bu qədər texnika ilə biz az vaxtda — 9 May günü Stepanakertdə qələbə çalacağıq. O vaxt belə bir şayiə yayıldı ki, niyə insanları, bu şuşalıları Şuşadan köçürürük, çünki Stepanakertə elə bir silah atılacaq ki, onun zərbindən hətta Şuşa ola bilər zədələnsin. Bu minvalla Şuşanın ermənilərə verilməsini demək olar ki, hazırladılar və bayaq dediyim düşmən də bu fikirləri onlardan qabaq izləyirdi və həmin anı gözləyirdi.

Şuşanın iki yolu var, biri Laçındandır, biri isə cənubdandır. Bu yolu kəsməklə Şuşanı bir ay yox, iki ay xilas etmək olardı. Çünki Şuşa elə bir yüksəklikdədir ki, bütün Qarabağ Şuşanın ayağı altındadır. Oradan atılan hər bir mərmi ermənilər üçün dəhşət idi, qorxu idi. Ancaq bunu etmədilər. Xocalı camaatı qırılanda mən Ağdamda olmuşam. O zaman nə Şuşadan, nə də Ağdamdan bir dənə güllə atılmadı. Bunu tam məs'uliyyətimlə deyirəm. Şuşada toplar susdu, Ağdamda da susdu. Nədən bu faciə baş verdi? Guya erməniyə soyqırım ittihamı veriləcək, bunlar da bəraət qazanacaqlar... Amma düşmən öz işini görmüşdü. Orada günahsız bacılarımız, analarımız ağır müsibətlərə düçar oldu. Mən başa düşə bilmirəm, dərk edə bilmirəm. Sizin tə'birinizcə deyirəm, xoşum gəlir o sözdən — anlaya bilmirəm ki, xalqın taleyi ilə oynamaq, günahsız insanları düşmənə təhvil vermək, təslim etmək kimə lazımdır? Elə təsəvvür edirəm ki, düşməndən başqa heç kimə lazım deyil.

Lakin mənfur düşmənlə — Moskvadan, xaricdən qüvvə alan, hər tərəfdən kömək alan düşmənlə daxilimizdə olan düşmənlər əlbir oldular və xalqımızı çöllərə saldılar. Şuşa düşmənə veriləndən sonra Laçın başsız idi. Orada icra başçısı, ağsaqqallar Ayaz Mütəllibovun yanına gəliblər. Mən olmamışam, amma ağsaqqallardan eşitmişəm Mütəllibov deyir, qorxmayın, ermənilər Laçına hücum edə bilməzlər Bəli, bu da Mütəllibovun cavabı və onun nəticəsi! Laçın kimi bir rayon — strateji əhəmiyyəti olan, ermənilərə vaxtilə qan udduran, göz dağı olan, sərhəddə möhkəm dayanan bir rayon başsız qalmışdı, yalnız yerli hakimiyyət idi.

Xocalı soyqırımından və Şuşa faciəsindən sonra məktəbimizin iki nəfər müəlliməsi qorxdular, uşaqlarını götürüb gəldilər Bakıya. Mən dedim ki, onlara əmək haqqı yazmayın. Yazılmayıb, o sənəd durur. Biri mənim qardaşımın yoldaşı idi. Yazdırmadım. Dedilər, niyə belə edirsən? Dedim, başqaları da gedər, kənd boşalar, rayon boşalar, ondan sonra bunun günahından çıxa bilmərik. Hətta kolxoz sədrinə dedim ki, kim kənddən çıxıb gedirsə, o adamın torpaq payını özünə qaytarmayın, vəzifəsini özünə qaytarmayın. Sonra yanıldığımı gördüm



və onlardan üzr istədim. Çünki xəyanət öz işini görmüşdü: mərkəzdən idarə olunan qüvvələr Laçını da götürdülər. Şuşada olan qüvvə Laçında yox idi, bir batalyon idi, o batalyonda da kim vardı? Bir dəfə bizim aqrar-sənaye bankının müdiri getmişdi pul almağa. Xalq Cəbhəsinin iki avtomatlısı girdi ora. Dedilər: nə qədər pul ayrılıb bura? Dedi: 3 milyon. Dedilər: o, bizə çatır. Bankın müdiri cavab verib ki, axı, pensiyaçılar, müəllimlər, şikəstlər bu pulu gözləyirlər. O vaxt rayonda 2—3 milyon böyük pul idi. Dedilər: ola bilməz, bu 3 milyonu biz xərcləməliyik.

Bax, bu cür hadisələri görəndə inanmıram Xalq Cəbhəsi o vaxt, ya bu vaxt, ya da gələcəkdə xalqa xeyir versin. Mən buna inanmıram, bir vətəndaş kimi, bir azərbaycanlı kimi. İnanmıram bunlara.

Şuşa boşalandan sonra şəhərin şimal-qərbində olan kəndlər qalmışdı. Ordan da adamlar yavaş-yavaş gəlib, Laçından çıxıb gedirdilər. Əhali çaşmışdı, heç bir şey edə bilmədiyini duyan adamlar nə etməli idi? Axı, biz vaxtilə adi türk mauzeri ilə Sultan bəyin rəhbərliyi altında Zabux çayında Andronikin qoşununu məhv edən xalqıq, indi niyə aciz olmuşuq? Məgər Bakıda oturan rəhbərlərin arasında elə bir siyasətçi yox idi ki, savadsız olan Sultan bəy kimi erməni daşnaklarını çayda məhv eləyə? Andronik gəlir Sultan bəyə deyir mənə burdan yol ver keçim, sizə dəyməyəm. Sultan bəy gəlir, məsləhətləşir, deyirlər ki, əgər sən onları buradan buraxsan atışma olanda onlar xətər törədərlər, get cavab ver ki, topları, silahları açıb yükləyin dəvələrə, qatırlara və keçin. Bu minvalla o, erməni daşnaklarını aldadıb Zabux çayında məhv etmişdir və ondan sonra Andronik atı da qoyub, qaçıb getmişdir.

Bax, erməni bunun qisasını Laçın camaatından çıxmaq istəyirdi. Amma Laçının mərd oğulları, zəhmətkeş insanları, mənfəət güdməyən, torpağı sevən, anasının südünün qədrini bilən oğulları bərk dayanmışdılar. Mən Milli Qəhrəmanımız Oqtaydan danışmaq istəyirəm. Şuşanın müdafiəsində Oqtay Güləliyev axıra qədər döyüşdü. İkinci dəfə Laçının işğalından sonra Kəlbəcərdən getdi, Laçının 15 kilometrliyinə qədər getdi, döyüşdü və orada əbədi olaraq torpağa qoyuldu. Bu, şərəf idi, ləyaqətli ölüm idi, əbədi ölüm idi. Amma torpağı, xalqı satıb gedib Rusiyanın qoltuğuna girmək, ondan himayə güdmək, ə'nam istəmək şərəfsiz işdir. Bunu xalqımız, millətimiz heç vaxt bağışlamaz.

Millət odur ki, torpağının qərbi ilə şərqini, şimalı ilə cənubunu ayırmasın və onun dərdlərinə şərik olsun, belə bir şəxs yalnız və yalnız Heydər Əliyevdir. Bu torpaq onun üçün əzizdir və bu torpaq üçün, bu xalq üçün yorulmadan işləyir.

Mən bir şeyi də qeyd etmək istəyirəm. Sizdən xahiş edirəm, Ali

Baş Komandan kimi, işğal olunmuş rayonların döyüş qabiliyyətli adamlarından ibarət komanda yaradın, onları silahlandırın, sizin əmrinizi gözləyək və öz günahlarımızı özümüz yuyaq.

Mircəfər Bağırova Allah rəhmət etsin, Azərbaycan oğullarından diviziya düzəldib sübut etdi ki, Azərbaycan oğulları Mozdokdan Berlinə qədər getməyi və qələbə çalmağı bacarırlar. Eləcə də indi. Sizdən xahiş edirəm, demirəm hər yerdən, ayrıca bir ərazidən komanda yaradın, döyüşək və sübut edək ki, bu torpağın oğluyuq.

Sizin sülh siyasətinizi hamı bəyənir. Çünki indi analar ağlamır, bacılar göz yaşı tökmür, gəlinlər həyat yoldaşını itirmir. Bəli, zaman qazanmaq lazımdır — qüvvələri bərpa etmək, ordunu yaratmaq üçün, əvvəlki kimi beş nəfəri silahsız qabağa verib, məhv edib geri çəkilməmək üçün. Güclü ordu, daxildə sabitlik, qayda-qanun yaratmaq, əhalini düşdüyü sosial-iqtisadi bəladan xilas etmək üçün zaman lazımdır. Bu zamanı siz qazanırsınız, xalq sizə minnətdardır.

Nəhayət, çıxışımı Pakistan səfərinizdə baş nazir Bənəzir Bhuttonun sizin haqqınızdakı sözləri ilə qurtarıram. O görüşdə siz Pakistana səfərinizin gecikməsindən danışanda o dedi ki, cənab Heydər Əliyev, siz uzun müddət fövqəldövlətdə ən böyük vəzifələrdə işləmiş şəxssiniz və ölkəni idarə etmək bacarığını başqalarına öyrədirsiniz. Sizin ölkənizə, suverenliyinizə, müstəqilliyinizə, ərazi bütövlüyünüzə qəsd edən adamlar axırda məğlub olacaqlar.

Bu xalqı bəladan qurtarmaqda, üstümüzdən qaçqın damğasını götürməkdə, Vətən torpağına qayıtmağımızda, bu torpaqda qalıb yaşamaqda sizə Allahdan kömək arzulayıram. Qabağınıza çıxan hər bir çətinliyi Allah aradan qaldırsın. Şərəfli işinizdə Yaradan Allah sizə kömək olsun. Sizə uzun ömür, cansağlığı arzulayır və bu işdə bizə kömək etməyinizi xahiş edirəm.

**Heydər Əliyev:** Buyurun. Mən yenə də müraciət edirəm, yığcam danışaq, çünki vaxt çox gedir. Yə'ni mənim üçün elə bir şey deyil, amma siz yorulursunuz. Mən onsuz da çox işləyirəm. Sizi yormaq istəmirəm.

**Laçın rayon**
**Əmək və Əhalinin Sosial Müdafiəsi**
**Şö'bəsinin rəisi**
**XIDIR BƏYLƏROVUN**
**çıxışı**

Hörmətli Prezident, hörmətli iştirakçılar! Elə hadisələr olur ki, onlar yaddan çıxır, unudulur. Lakin 90—92-ci illərin elə hadisələri vardır ki, onları heç cür unutmaq olmaz.



1992-ci ilin aprel—may aylarında Laçın və Şuşaya böyük bədbəxtlik üz verdi. Həmin il Şuşanın və Laçının ermənilərə təslim edilməsi bizim böyük faciəmiz idi. Bu, acı tariximizdir. Heç bir vaxt nə laçınlılar, şuşalılar, nə də bütün Azərbaycan xalqı bunu unutmayacaq. Cənab Prezident, heç zaman unudulmayan ikinci böyük hadisə Sizin yenidən Azərbaycanın rəhbərliyinə gəlməyinizdir. Nəhayət ki, Sizin şəxsinizdə Azərbaycanın, azəri xalqının xilaskarı, xalqının, millətinin bu ağır günlərində ona sahib durdu. Bunu xatırladıqca biz qürur hissi keçiririk, sevinirik, inanırıq ki, Azərbaycan xalqının düçar olduğu bu məhrumiyyətlərdən onu ancaq Siz xilas edə bilərsiniz. Buna görə də çəkdiyimiz bütün əzab-əziyyətlərə dözürük və inanırıq ki, tezliklə Siz bizi bu bəladan qurtaracaqsınız.

Biz 1992-ci ilin və ondan qabaqkı illərin hadisələrinin canlı şahidiyik. Xüsusilə Ermənistanla sərhəd olan rayonlarda.

Hörmətli Prezident, nə qədər ki, Siz respublikada siyasi rəhbər idiniz, ermənilər öz niyyətlərini, planlarını çox məxfi saxlayırdılar, açıq çıxışlara cəsarət etmirdilər. Elə ki, Siz Moskvaya işə keçdiniz və bir tərəfdən də Qorbaçov yenidənqurma oyununu ortaya atdı, ermənilər uzun müddət işləyib hazırladıqları "Böyük Ermənistan imperiyası" yaratmaq planını həyata keçirmək üçün fəallaşdılar. Ermənilər birinci növbədə Azərbaycanın Ermənistan yaylaqlarından istifadə etməsini qadağan elədilər. Azərbaycana iqtisadi cəhətdən böyük bir zərbə vurmağa çalışdılar. Çünki respublikamızın milyonlarla mal-qarası, qoyunları onların yaylaqlarından istifadə edirdi. İkinci növbədə ərazi iddiası qaldırdılar. Laçın rayonunun ərazisində Qaragöz deyilən sahə var, tarixən həmişə Azərbaycanın istifadəsində olub və respublikanın bir neçə rayonunun mal-qarası, qoyunları burada yaylayıbdır. Ermənilər məsələ qaldırdılar, o vaxt kənd təsərrüfatı nazirinin müavini olan Hüseynbəyovun köməyi ilə bir dəstə ermənini gətirib yenidən sərhəd çəkdilər və xeyli miqdarda ərazimizi ermənilərə verdilər. Mən elə bilirəm, belə bir torpaq iddiası qərb zonasında da baş vermişdi.

Ermənilər yavaş-yavaş baş qaldırırdılar. Sonra nə oldu? Ermənistanın əzəli məqsədi Dağlıq Qarabağa, Azərbaycanın bu gözəl guşəsinə, bu məhsuldar torpaqlarına sahib olmaq idi. Bax, bunun üçün həmin dövrlərdə Yerevandan emissarlar gəlirdi, Zori Balayan, Xanzadyan, Kaputikyan — bunlar nəinki təkcə Stepanakertə gedirdilər, həm də Xanlar rayonunda, keçmiş Şaumyan rayonunda, Laçının yaxınlığında olan Şuşanın erməni kəndlərində təxribat törədirdilər, itaətsizliyə çağırırdılar, mitinqlər keçirirdilər. Deyirdilər ki, guya Azərbaycanda erməniləri sıxışdırırlar. Halbuki mən elə bilirəm, Heydər Əliyeviç, Sizin də vaxtınızda, ondan əvvəl də onlara həmişə hörmət olunmuşdu: büdcədə də, tikintidə də, inkişafda da, mədəniyyətdə də. Onlar

demək olar ki, həmişə qonşu rayonlardan yaxşı dolanırdılar, əlverişli şəraitdən çox bacarıqla istifadə edirdilər.

Artıq Dağlıq Qarabağın ermənilər itaətsizliyə başlamışdılar. Ermənilər nəinki Ermənistandan azərbaycanlıları qovub çıxarmışdılar, hətta burada — vilayətdən, öz torpağımızdan da azərbaycanlıları çıxarırdılar. Stepanakertin ortasında bir azərbaycanlını tonqala salıb odladılar. Bu nə deməkdir? Azərbaycanlılara pis baxırdılar, bizi təhqir edirdilər, işgəncə verirdilər. Nə qədər ki, Gorus yolu, Laçın yolu açıq idi, buradan örtülü maşınlarda silah, sursat daşıyırdılar. O vaxt ki, başa düşüldü, bunların qarşısı alındı.

**Heydər Əliyev:** Siz dedikləriniz hamısı doğrudur, ancaq biz bu gün fikirlərimizi Şuşanın , Laçının dörd il bundan qabaq işğal olunması məsələsi ətrafında cəmləməliyik. Bu tarix böyükdür, əlbəttə bu barədə saatlarla danışmaq olar və sizin dedikləriniz tamamilə doğrudur, dəyərli sözlər deyirsiniz. Amma 92-ci ilin may ayında, dörd il bundan öncə Şuşa işğal olundu, Laçın işğal olundu. Bax, bu faciə münasibətilə biz bura toplaşmışıq. Ona görə mən istərdim siz də, başqaları da bununla əlaqədar öz fikirlərinizi deyəsiniz. Bu təfsilat, bunların hamısı aydındır. Əgər xatirinizdə bir faktınız varsa, bu barədə bir münasibət bildirmək istəyirsinizsə, buyurun. Ermənistanın "Böyük Ermənistan" yaratmaq, yaxud da ki, bizim torpaqları işğal etmək iddiaları — bunlar hamısı düzdür, bunlar olubdur. Ancaq bunlarla yanaşı, 1992-ci ilin may ayında cəmi 10—15 günün içərisində Laçın da işğal olundu, Şuşa da işğal olundu. Siz Laçında yaşamısınız, laçınlısınız, bu barədə mən istərdim danışasınız. Əgər bu barədə bir mülahizəniz varsa.

**Xıdır Bəylərov:** Xüsusilə Şuşanın işğalından sonra biz real təhlükəni Ermənistan tərəfdən gözləyirdiksə, bu dəfə Stepanakert tərəfdən də Laçın üçün böyük təhlükə yaranmışdı. Cabbarov yoldaş dedi, biz dəfələrlə yığışıb vəziyyəti ağsaqqallarla, fəallarla müzakirə elədik, tədbir görməyə çalışdıq, lakin aciz idik. Hörmətli Prezident, biz kəndlərimizdə xırda özünümüdafiə dəstələri yaratmışdıq, lakin onlara verməyə silahımız yox idi. Sərhəd kəndlərində olan o dəstələrin hərəsinə polis idarəsindən 3—5 avtomat vermişdilər. Əhalidə olan ov silahları da yığılmışdı: Tamamilə çıxılmaz vəziyyətdə qalmışdıq. Bakıya, Mütəllibovun qəbuluna gələnlərin içərisində mən də vardım. Səhv etmirəmsə, elə bu otaq idi, bu stolun ətrafında danışırdıq, nazirləri də çağırmışdı. Biz hiss edirdik ki, danışılanlara o qədər də əhəmiyyət vermir. Mən üzr istəyirəm, əlində təsbeh çevirir, qıçını-qıçının üstünə qoyub laqeyd-laqeyd üzümüzə baxırdı. Axırda güc nazirliklərinə bir göstəriş də vermədi, bizim tələblərimizin birinə də kömək edə bilmədi. Kor-peşiman qayıdıb getdik. Bir-birimizə dedik ki, kaş heç getməyəydik, kaş bizə olan bu münasibəti görməyəydik.

Əliyalın, üzüqara rayona qayıtdıq. Düşünürdük ki, camaata nə



deyəcəyik? Tələbimiz o idi ki, bizə silah verin, laçınlılar özlərini müdafiə etməyə hazırdırlar. Amma silahsız idik. Heç bir nəticə çıxmadı. Biz rayona qayıdandan bir gün sonra eşitdik ki, Mütəllibovu iste'faya məcbur edib, qovublar. Bu dövrün hadisələri Şuşanın da, Laçının da əldən getməsinə, sonra ermənilərin respublikamızın daxilinə doğru irəliləməsinə çox böyük imkan yaratdı.

Elçibəy hakimiyyətə gəldi, İsa Qəmbər hələ ondan qabaq Ali Sovetdə prezidentin də səlahiyyətini guya ifa edirdi. Nə ilə məşğul oldular? Respublikanın başı üstünü təhlükə almışdı, qüvvələri səfərbər etmək əvəzinə İsa Qəmbərlə Elçibəy əlifbanı dəyişmək, nə bilim, Azərbaycan dili məsələsini həll etməklə məşğul olur, bir tərəfdən də Elçibəy deyirdi ki, böyük Azərbaycan yaratmaq istəyir. Özümüzü burada parçalayırdılar, bu hələ Cənubi Azərbaycanı da birləşdirmək barədə məsələ qaldırır.

Bax, belə bir vəziyyətdə biz Laçını və Şuşanı müdafiə edə bilmədik. Laçına kimlər gəlirdi? Gələn bir neçə nəfər idi. Rəhim Qazıyev özünü elə göstərdi ki, yaralıdır, üç-dörd gün orada bir cəbhəçinin evində yedi-içdi, çıxdı getdi. Bir dəfə Tahir Əliyev gəldi, bir dəfə Fəhmin Hacıyev gəldi. Gələnlər də birinci növbədə cəbhəçilərin yanına gedirdilər. Cəbhənin orada bir batalyonu var idi, Arif Paşayevin bir dəstəsi vardı, gedib onlarla məsləhətləşirdilər. Gələndə də nə edirdilər? Vahimə ilə bizi qorxutmaqla məşğul idilər: "Çıxmaq lazımdır, buğda yoxdur, ermənilər bu tərəfdən gəlir — Stepanakert-dən, nə bilim Şuşa gedibdir, rayonu boşaltmaq lazımdır". Şuşa haqqında deyilən məsələni bizə də deyirdilər. Guya "burada elə silahlar tətbiq edəcəklər ki, onun dağıdıcı qüvvəsi əhaliyə çox zərər verə bilər. Ona görə çıxmaq lazımdır. Ermənilərə qarşı çox böyük hücumlar hazırlamışıq". Hamısı yalan, hamısı böhtan.

O vaxt cəbhəçilər də fəallaşmışdılar, yerli hakimiyyəti tamamilə sıxışdırmışdılar, polisi də, icra başçısını da eşitmirdilər. Hətta Laçının özündə inzibati binanı gəlib atəşə tutmuşdular. Onların qabağına çıxıb bir söz deyən yox idi. Dəfələrlə onları tribunadan düşürürdük, iclaslarda onları ifşa edirdik. Buna baxmayaraq onlar həyasızlaşmış-dılar. Nəyə görə? Ona görə ki, onların dəstəsində olan adamlar sağlam adamlar deyildi. Nə qədər cinayətkarlar, əyrilər, oğrular vardı — hamısını cəlb eləmişdilər ora. Axırda da onlar dəstəni çəkib gətirdilər, Laçının işğal olunmasına şərait yaratdılar. İsa Qəmbəri, Elçibəyi hakimiyyətə gətirmək üçün.

Hörmətli Heydər Əliyev, mən bir məsələni də sizə çatdırmaq istəyirəm. Bu məsələ bizi çox narahat edir ki, nə üçün bu, Xalq Cəbhəsi adlanır. Axı, kimdir o Xalq Cəbhəsində oturanlar? Burada Elçibəy, İsa Qəmbər, Əli Kərimov, Tofiq Qasımov, İsgəndər Həmidov, Ne'mət Pənahov 5—3 nəfəri yığıb burada cəmiyyət yaradıblar, adını

da qoyublar Xalq Cəbhəsi. İndi də olub Xalq Cəbhəsi Partiyası. Bunlar hansı xalqı təmsil edirlər, kimi təmsil edirlər? Axı xalq bunların arxasında durmadı, dəstəkləmədi. Ona görə də iflasa uğradılar, hakimiyyəti iki il də saxlaya bilmədilər. Xalq Cəbhəsi adlanırlar, onların nə qanunu var — bu məsələyə baxmaq lazımdır. Xalqın adını daşımağa onların qətiyyən ixtiyar və səlahiyyətləri yoxdur.

Hörmətli Prezident, dörd ildir ki, biz məhrumiyyətlər içərisində yaşayırıq, Azərbaycanın bütün rayonlarına səpələnmişik, bir-birimizdən ayrı düşmüşük. Lakin bütün əzab-əziyyətlərə dözürük. Çünki bilirik ki, Siz bizi doğma yurd-yuvamıza qaytarmaq üçün inadlı mübarizə aparırsınız. Bu, ancaq Sizin sayənizdə bizə qismət olacaqdır. İnşallah, o gün çox uzaqda deyil. Sizi əmin edirik ki, torpaqlarımızın azad olunması uğrunda hər cür mübarizəyə laçınlılar hazırdırlar və Sizin bir çağırışınız, əmriniz bizim üçün kifayətdir ki, silahlanıb torpaqlarımızın müdafiəsinə qalxaq.

Hörmətli Prezident, Sizdən bir xahişim var. Sizin alicənablığınız, humanistliyiniz qarşısında baş əyirik. Siz çox adamların günahını bağışlamısınız, çox cinayətkarları əfv etmisiniz. Lakin Vətən, millət xainlərinə, quldurlara, təxribatçılara, banditlərə güzəşt etmək olmaz. Qarı düşməndən heç vaxt dost olmaz. Biz xahiş edirik Vətən, millət xainlərinə heç bir güzəşt edilməsin, heç bir mərhəmət göstərilməsin, onlar qanunun bütün gücü ilə cəzalandırılsınlar. Qoy bizim qisasımız, günahsız şəhidlərimizin qisası yerdə qalmasın. Xainlər alaq otudur, nə qədər yaşayırlar, deməli, başqa cücərtilərə imkan verməyəcəklər. Onlar nə qədər var — xalqımızın dincliyinə, Azərbaycanın sabitliyinə imkan verməyəcəklər.

Cənab Prezident, Azərbaycan xalqının rifahı, millətimizin gələcəyi naminə Sizə uzun ömür və gümrahlıq arzulayırıq. Allah Sizi hifz eləsin.

### Laçın rayon
### Polis Şö'bəsinin rəisi
### MAKSİM QƏDİROVUN
### çıxışı

Hörmətli cənab Prezident, mən özüm əslən laçınlı olsam da 1992-ci ildə Şuşa—Laçın hadisələri ərəfəsində Laçında işləmirdim, yaşamırdım, lakin orada gedən bütün hadisələrə yaxından münasibətim var idi, əlaqə saxlayırdım. Burada çıxış edən yoldaşlar o vaxt orada baş vermiş hadisələri ətraflı təhlil elədilər. Mən bu haqda danışmaq istəmirəm, ancaq bə'zi məqamlara toxunmaq istəyirəm.



Laçının işğal olunmasının əsas səbəbləri haqqında. 1992-ci ilin əvvəllərindən başlayaraq Bakıda hakimiyyətə gəlmək uğrunda mübarizə həddindən artıq kəskinləşmişdi. Belə bir vaxtda Xocalı soyqırımından çox az vaxt keçməsinə baxmayaraq Ermənistanla, Dağlıq Qarabağla həmsərhəd olan rayonlarımız, o cümlədən Laçın rayonu tamamilə yaddan çıxarılmışdı. 1992-ci ilin mart ayında Ayaz Mütəllibovun istefasından sonra o, yenidən hakimiyyətə qayıtmaq üçün bütün tərəfdarlarının iştirakı ilə ən çirkin, hiyləgər hərəkətlərə əl atırdı. Mən bir faktı qeyd etmək istəyirəm ki, burada laçınlıların, hörmətli ağsaqqalımızın dediyi kimi, laçınlılar Ayaz Mütəllibovun qəbulunda olmuşdular. Ondan əvvəl isə 82 nəfər laçınlı Ayaz Mütəllibovun qəbuluna gəlmişdi və Bakı şəhərində yaşayan laçınlılarla birlikdə Prezident Aparatının qabağında toplaşmışdılar. Təşvişə düşən Ayaz Mütəllibovun adamları onlarla söhbət aparırlar. Bunlar Ağa Axundov və Pəhlivan Tahir idi.

**Heydər Əliyev:** Kim, hansı Tahir?

**Maksim Qədirov:** Pəhlivan Tahir və Ağa Axundov.

**Heydər Əliyev:** Tahir? Bu yaxınlarda səhv etmirəmsə həbs olunubdur.

**Maksim Qədirov:** Bəli, həbs olunubdur.

**Heydər Əliyev:** Adam öldürdüyünə görə? Xanbabayevi öldürdüyünə görə.

**Maksim Qədirov:** Həmin Ağa Axundovla Pəhlivan Tahir ləqəbli şəxs burada, Prezident Aparatının qabağında əvvəlcə təzyiq göstərirlər ki, laçınlılar qəbula düşməsinlər, sonra onlardan bir neçə nəfəri Ayaz Mütəllibov qəbul edir. Laçınlılar ona deyirlər ki, Laçında vəziyyət ağırdır, torpaqlarımızın əlimizdən getməsi təhlükəsi var, orduda hərc-mərclikdir, hər dəstənin öz ordusu var, Laçın müdafiə olunmalıdır. Laçının icra aparatı tamamilə fəaliyyətdən düşübdür, orada hakimiyyət əsas e'tibarilə Xalq Cəbhəsinin əlindədir.

Ayaz Mütəllibov göstəriş verir ki, siz Ağa Axundovla və Tahirlə əlaqə saxlayın, onlar mənim tədbirlərim barədə sizə mə'lumat verəcəklər.

Elə həmin gün buradan bir qrup adam Montin qəsəbəsinə, "Qardaşlıq" cəmiyyətinin yerləşdiyi binaya gedir və orada belə məsləhət olur ki, bizim ağsaqqalımız var, gedək o ağsaqqalla görüşək. Onlar avtobusla Maştağa qəsəbəsinə gedirlər, məscid tikintisində iştirak edirlər. Sonra onlara deyirlər ki, "prezidentin öz şəxsi tapşırığıdır, sizin tələbləriniz tamamilə yerinə yetiriləcəkdir, bu şərtlə ki, siz qayıtmalısınız Laçına. Bizim bu saat işləməyimizə imkan verilmir, Heydər Əliyev Naxçıvanda oturub, bizim işlərimizə qarışır, burada çaşqınlıq yaradır, Heydər Əliyev — mən bu ifadəni utanıram deməyə, - aradan götürülməlidir". Həmin söhbətdə iştirak edən adamlar burada oturublar, canlı şahiddirlər.

Heydər Əliyev: Laçınlılara deyiblər bunları?

Maksim Qədirov: Bəli, laçınlılara. Laçınlılar onlarla demək olar əlbəyaxaya çıxıblar ki, biz bura ayrı tələblə gəlmişik, siz bizdən başqa şey tələb edirsiniz.Qayıdıb çıxıb gedirlər.

O zaman hakimiyyətə can atan qüvvələri üç yerə bölmək olar: Ayaz Mütəllibov və onun tərəfdarları; həmin ərəfədə hakimiyyətdə olan qüvvələr — Yaqub Məmmədov və onun komandası; ən əsas da Xalq Cəbhəsinin rəhbərliyində olan qüvvələr, Rəhim Qazıyev və başqaları idi.

Cənab Prezident, mən 1994-cü il may ayının axırında — 27-də hörmətli general Ramil Usubov cənablarının əmri ilə Laçın Rayon Polis Şö'bəsinə rəis tə'yin olundum. O vaxt rəis vəzifəsi boş idi, orada hərc-mərclik, özbaşınalıq idi. Laçın Rayon Polis Şö'bəsində mərd oğullarımız olubdur. Polis şö'bəsinin üç əməkdaşı şəhid olub, üç nəfər Milli Qəhrəmanımız var, beş nəfər "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunubdur. İsrafil Şahverdiyev və Qorxmaz Eyvazov sizin fərmanınızla Milli Qəhrəman adına layiq görülübdür.

Belə bir kollektivin içərisində cürbəcür polis əməkdaşlarını öz yollarından döndərmişdilər. Belə bir vaxtda mən ora polis rəisi tə'yin olundum. Bə'zi məqamlara toxunmaq istəyirəm. Daxili işlər nazirinin müavini məni cəbhə bölgəsinə apardı. O vaxt Laçın Rayon Polis Şö'bəsi cəbhə bölgəsində yerləşirdi. Məni şö'bəyə buraxmadılar. Bir qrup adam hətta şö'bənin ətrafında pulemyotlar, qumbaraatanlar qurmuşdu və dedilər ki, bir də bura qayıtsan güllələyəcəyik, bizim özümüzün ləyaqətli rəisimiz var. Çox vaxtınızı almaq istəmirəm, daxili işlər nazirinin əmrinin icrasına imkan vermədilər. Çox çətinlikdən sonra o vaxt yeni tə'yin olunmuş icra hakimiyyəti başçısı Muradxan Cabbarovun köməkliyi ilə orada işə başladım. Lakin dəfələrlə ora hücumlar oldu. Sentyabrın 29-u gecəsi Afiyəddin Cəlilov, Şəmsi Rəhimov qətlə yetirilmişdi. Həmin günün səhərisi 40 nəfərdən ibarət bir dəstə hücuma keçdi və tələbləri bu oldu ki, sən tə'cili şö'bədən çıxıb getməlisən, getməsən on dəqiqə müddətinə səni məhv edəcəyik. Lakin biz buna qarşı bütün tədbirləri həyata keçirdik, heç bir hadisə baş vermədi.

Hazırda respublikamızın ərazisində Sizin rəhbərliyiniz altında çox böyük, gərgin işlər aparılır. Daxili işlər orqanlarının əməkdaşları Sizin bütün göstərişlərinizə, tapşırıqlarınıza sözsüz əməl edir və bu yolda ölümə də hazırdırlar.

Mən bir faktı demək istəyirəm ki, o vaxt Bakı şəhərindən cürbəcür adamlar döyüş bölgələrinə gedirdilər ki, orada xidmət etsinlər, vuruşsunlar. Bə'ziləri ora çatan kimi silah götürür, bir neçə gündən sonra qayıdıb gəlirdilər. Laçın Rayon Polis Şö'bəsinin əməkdaşları tərəfindən keçən il 160, bu il isə 100-dən artıq odlu silah əllərdən



alınmışdır. Hazırda cinayətkar qruplarda belə silahlar həddindən artıq çoxdur.

Cənab Prezident, Laçın əhalisi respublikanın müxtəlif rayonlarında məskunlaşmışdır. Siz demokratik yolla hakimiyyətə gəldikdən sonra onlara qayğı xeyli artmışdır. Bütün Azərbaycan xalqı kimi, Laçın əhalisi də Sizin simanızda öz xilaskarını görür və Sizin böyük siyasətiniz nəticəsində öz torpaqlarının qaytarılmasını arzu edirlər. Xalqımız görür və hiss edir ki, Siz hazır yolla getmirsiniz, Siz Azərbaycanı XXI əsrə yeni yolla aparırsınız. Bütün Azərbaycan xalqı kimi, Laçın əhalisi də Sizin e'tibarlı silahdaşınız olacaqdır.

### Laçın rayonundan şəhid, Milli Qəhrəman Oqtay Güləliyevin həyat yoldaşı AFƏT GÜLƏLİYEVANIN çıxışı

Hörmətli Prezident, Laçın əhalisi 1988-ci ildən torpaqlarımızın müdafiəsinə qalxmışdı. Həmin vaxtdan Laçın polisləri də Azərbaycanın sərhədlərini qoruyurdular, hətta canlarından keçirdilər. Onların arasında mənim həyat yoldaşım Oqtay Güləliyev də vardı.

Hörmətli Prezident, Laçın polislərinin torpaq uğrunda əziyyəti çox olmuşdur. Həyat yoldaşım Oqtay Güləliyev başda olmaqla Laçın rayonunun 20 nəfər polisi Şuşaya köməyə getmişdi. Həmin rotanın komandiri Oqtay Güləliyev idi. Həmin o iyirmi nəfərdən indi bir nəfər də olsun həyatda yoxdur. Çox təəssüf edirəm.

**Heydər Əliyev:** Hamısı həlak olub?

**Yerdən səs:** Bəli.

**Heydər Əliyev:** Allah rəhmət eləsin. Buyurun.

**Afət Güləliyeva:** Onlar Kərkicahan, Daşaltı əməliyyatlarında ölümlə üz-üzə dayandılar və Laçın işğal olunandan sonra Kəlbəcər yolu ilə Laçını azad etməyə getdilər. Laçının ən böyük yüksəkliyi olan Hoçaz dağı ətrafında mövqe tutub həmin dağın alınmasında böyük fədakarlıqları olub. O, rəhbərlik etdiyi döyüş yoldaşları ilə birlikdə Hoçaz dağını azad ediblər. Rəhim Qazıyev bu vaxt ordunu geri çağırıb və Laçın polislərinin 60 nəfəri mühasirəyə düşüb. Üç gün mühasirədə qalıblar. Bundan sonra onlar Gorus yolu ilə gəlib Laçın yolunda maşın karvanlarını məhv ediblər, dörd tankı, iki BTR-i alıblar və 200-dən çox canlı qüvvəni məhv ediblər.

Mən çox sevinirəm ki, bu gün Laçın şəhidlərinin qanı yerdə qalmayıb. Rəhim Qazıyev həbs olunub. Mənim əlacım olsa Rəhim Qazıyevi özüm boğub öldürərəm. Ona görə ki, Laçın şəhidlərinin

neçə uşağı atasız qalıb. Bizə çox tə'sir edir ki, həmin vaxt Laçın polisləri üç gün orada mühasirədə qalarkən Rəhim Qazıyevə xəbər veriblər ki, kömək göndərsin, o da kömək göndərməyib.

Hörmətli Prezident, biz Sizə çox minnətdarlığımızı bildiririk ki, imkan tapıb laçınlılarla görüş keçirirsiniz. Sizə uzun ömür, cansağlığı arzulayırıq.

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN yekun nitqi

Şübhəsiz ki, burada olanların hər birinin ürəyində çoxlu sözlər var və bu sözləri demək istəyir. Bu da təbiidir. Ancaq güman edirəm ki, bu danışıqlar artıq ümumi təsəvvür yaradır. Ona görə də e'tiraz etmirsinizsə, bu görüşümüzü sona çatdıraq.

Görüşümüzün əvvəlində bildirdim, bir daha demək istəyirəm ki, Şuşa və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin dördüncü ilinin tamam olduğu bir vaxtda bizim həmin hadisələrə daha doğru-düzgün qiymət vermək imkanımız keçən illərə nisbətən daha çoxdur. Bu da lazımdır, zəruridir. Çünki söhbət müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyündən, ölkəmiz, xalqımız üçün müqəddəs olan şəhərlərimizdən, kəndlərimizdən, dağlarımızdan, meşələrimizdən, çaylarımızdan, bulaqlarımızdan, tarixi abidələrimizdən gedir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü başlanandan indiyədək respublikamızın, xalqımızın başına çoxlu bəlalar gəlibdir. Təəssüflər olsun ki, Ermənistanın bu təcavüzkar hərəkətlərinə qarşı vaxtında lazımi tədbirlər görülməyib, ölkəmizin ərazisi qorunmayıb və vətəndaşlarımız çox məhrumiyyətlərə mə'ruz qalıblar, torpaqlarımızın bir qismi işğal olunubdur.

Bilirsiniz, buna heç cür izahat vermək mümkün deyil. Ermənistan ilə Azərbaycan arasında olan hərbi münaqişə Azərbaycanın Dağlıq Qarabağ hissəsinə Ermənistanın torpaq iddiasından başlanıbdır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. O heç vaxt Ermənistana mənsub olmayıb və ola bilməz. Belə olan halda bu təcavüzkar, qəsbkar niyyətlərə, addımlara qarşı vaxtında lazımi tədbirlər görülməli idi. Təəssüflər olsun, bu tədbirlər görülməyib və müharibə, döyüşlər başlayıbdır. Bu da Azərbaycan xalqını belə bir ağır vəziyyətə gətirib salıbdır. Mən bir də qeyd etmək istəyirəm, təsəvvür etmək mümkün

deyil ki, nə üçün Azərbaycan belə bir halda öz ərazisini qoruyub saxlaya bilməyibdir. Nə üçün?

Azərbaycan əraziyə görə də Ermənistandan iki dəfə, bəlkə də iki dəfədən də çox böyükdür; əhalisinə görə də — münaqişə başlayan vaxtda da — Ermənistandan iki dəfə böyük olub. Dağlıq Qarabağda isə erməni millətinə mənsub yüz minə qədər Azərbaycan vətəndaşı yaşayıb. Belə olan halda, təsəvvür etmək mümkün deyil, — nə üçün Azərbaycan öz torpaqlarını qorumayıbdır?

Mən həmişə belə fikirdə olmuşam, Azərbaycan Prezidenti kimi də bunu dəfələrlə bəyan etmişəm, bu gün də bəyan edirəm ki, biz azərbaycanlılar, Azərbaycan xalqı başqalarının torpağına göz dikməmişik. Baxmayaraq ki, keçmiş dövrlərdə Azərbaycanın torpaqlarının bir qismi cürbəcür hadisələr nəticəsində başqa əllərə keçibdir, o cümlədən indi Ermənistanın sərhədlərinin içərisində olan torpaqların bir hissəsi də dövri-qədimdən Azərbaycan torpağı, Azərbaycan diyarı olubdur: Göyçə mahalı da, Zəngəzur mahalı da, başqaları da.

İllər, əsrlər keçib, cürbəcür hadisələr baş veribdir. Nəhayət, bu əsrin əvvəllərində, yə'ni 1918—20-ci illərdə Azərbaycanın indiki sərhədləri müəyyən olunubdur. Bu sərhədlər içərisində olan torpaqları biz doğma torpaqlarımız kimi qorumuşuq və qorumalıyıq. Bu baxımdan, bir halda ki, sərhədlər belə müəyyən olunubdur, Cənubi Qafqazda yaranmış bu sərhədlər çərçivəsində biz başqa ölkələrin, dövlətlərin torpaqlarına göz dikməmişik və bu gün də dikmirik. Ancaq öz torpaqlarımızı qorumalıydıq, saxlamalıydıq və qorumalıyıq. Biz heç zaman razı ola bilmərik ki, torpaqlarımızın hansı bir hissəsi isə başqa bir dövlətin əlinə keçsin. Ona görə də mən hesab edirəm ki, Azərbaycan hökuməti, dövləti bu münaqişə başlayan zamandan anlamalıydı ki, söhbət Ermənistanın Azərbaycana olan torpaq iddiasından gedir və onun qarşısının alınması üçün ciddi və çox səmərəli tədbirlər görülməlidir. Elə tədbirlər ki, bu hadisələrin qarşısını vaxtında alsın, bu hadisələrə cavab versin.

Bunlar olmayıb. 1988-ci ildən başlayan bu proseslər, — indi artıq 8 il tamam olubdur, — bizi belə bir ağır vəziyyətə gətirib çıxarıb. Bu proseslərin gedişində Şuşa və Laçın rayonlarının Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunması respublikamıza, xalqımıza, dövlətimizə bu münaqişə dövründə vurulmuş ən böyük zərbədir. Şuşanın, Laçının Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu siz yaxşı bilirsiniz, xalqımız da yaxşı bilir. Birincisi, Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir güşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə



şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır.

Ona görə də Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Ona görə də Şuşa bu qiymətinə, Azərbaycan üçün bu qədər mühüm əhəmiyyət kəsb etdiyinə görə xüsusi qorunmalı, saxlanmalı idi.

Şuşanı qurub-yaradanlar Şuşanı qoruyub saxlamaq üçün elə yerdə yaradıblar ki, onu fəth etmək mümkün deyil. Şuşanın məhz o yüksək qayalar başında, Qarabağın ən yüksək yerlərindən birində yaranması da təsadüfi deyil. Bu o demək deyil ki, Şuşanı yaradanlar onu təsadüfi olaraq orada yaradıblar. Yox, onu məhz orada yaradıblar ki, o, bir qalaya çevrilsin və Azərbaycanın dövlətçiliyinə, torpaqlarına sahib olan adamlar orada öz dövlətini, torpağını, xalqını qoruya bilsinlər. Ona görə də Şuşanın mövqeyinin hərbi-strateji əhəmiyyəti var. Buna görə də Şuşanı qoruyub saxlamaq bəlkə də respublikamızın başqa yerlərini erməni təcavüzündən qoruyub saxlamaqdan asandır. Ancaq bu olmayıbdır.

Şuşa belə böyük tarixə malik olduğuna görə o, daim bütün azərbaycanlıların nəzər-diqqətini cəlb edib, azərbaycanlıların qayğısı altında olubdur, tək şuşalıların, orada yaşayanların, Şuşadan çıxmış adamların yox. Şuşanı dünyanın çox yerində tanıyırlar, sevirlər və Şuşaya böyük hörmət və ehtiram edirlər. Təsadüfi deyil ki, əsrimizin əvvəlində də Şuşaya xüsusi münasibət göstərilmişdi.

Xatirimdədir, mən Şuşanı ziyarət edərkən, — biz o vaxtlar Şuşanın qədim abidələrini bərpa etdik, çoxlu işlər gördük — abidələrin bərpasının vəziyyəti ilə tanış olarkən şəhərin mərkəzindəki bir məscidə gəldim. Orada mənə böyük bir foto göstərdilər. Bu fotoda Nəriman Nərimanovun 20-ci illərdə Şuşaya gəlməsi və orada xalqın qarşısında çıxış etməsi təsvir edilmişdi. Mən bunu bilirdim. Ancaq o muzeydə bu fotonun qorunub saxlanması məni çox sevindirdi. Demək istəyirəm ki, Şuşaya daim diqqət və qayğı olubdur. Şuşa Azərbaycanın demək olar ki, böyük bir tarixi abidəsi, eyni zamanda — əgər bunu şe'r dili ilə desək, — incisidir.

Mən əvvəllər Azərbaycanda işləyən zaman məhz bu səbəblərə görə o vaxtkı dövlət tərəfindən Şuşaya həmişə, daimi qayğı göstərməyə çalışmışdım və biz bu barədə çox işlər gördük. Burada Nizami Bəhmənov qeyd etdi, bizim əsrimizdə Şuşanı 1905-ci ildə də, 1907-ci ildə də, 1920-ci ildə də yandırıb dağıdıblar. Şuşanın başına 1920-ci ildə daha dəhşətli bəlalar gəlib. Ancaq təəssüflər olsun ki, o vaxtdan on illər keçirdisə də, Şuşanın evləri, binaları dağılmış, yanmış vəziyyətdə qalırdı.

Mən ilk dəfə Şuşaya 1967-ci ildə, o vaxt baş vermiş faciəli bir hadisə ilə bağlı getdim. Bilirsiniz ki, o vaxtkı Stepanakertdə 1967-ci ildə böyük bir münaqişə olmuşdu, Dağlıq Qarabağdakı ermənilər ilə azərbaycanlılar arasında qan tökülmüşdü. Çox böyük bir faciə baş vermişdi. O dövrdə Dağlıq Qarabağda olan bə'zi quldurlar, Azərbaycan xalqına düşmən münasibəti bəsləyən adamlar həbsdə olan iki-üç nəfər azərbaycanlını aparan dustaq maşınını dağıdıb yandırmışdılar. O vaxt biz bunun səbəblərini araşdırdıq. Onda mən on beş gün orada qaldım və Şuşanı ətraflı gəzdim, baxdım və gördüm.

O vaxt mən hələ Azərbaycanın birinci rəhbəri deyildim, ancaq rəhbər vəzifədə idim. Şuşanı gördüm, onu ətraflı öyrəndim. Bu fikrə gəldim ki, Şuşanı belə vəziyyətdə saxlamaq olmaz. Ona görə də o zaman gəlib Azərbaycanın rəhbərlərinə öz fikrimi dedim. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra mən Şuşanı abadlaşdırmaq, 1920-ci ildə bu şəhərin başına gəlmiş hadisələrin izlərini tamamilə ləğv etmək, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda onun tarixi abidələrini qoruyub saxlamaq, bərpa etmək, Şuşanı böyük bir muzeyə çevirmək üçün ilk addımlar atdım.

Şuşa həqiqətən bir şəhər kimi, eyni zamanda vahid bir muzey — Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, elminin böyük bir hissəsini əks etdirən muzeydir. Şəhər özü həm quruluşu, həm də abidələri, yüksək me'marlıq səviyyəsində olan binaları, Cıdır düzü ilə, təbii gözəlliyi ilə böyük bir muzeydir. Ona görə də 70-ci illərdə Şuşa şəhərinin inkişaf etdirilməsi üçün biz bir neçə xüsusi qərar qəbul etdik. Mən bu müşavirədən əvvəl xahiş etdim, həmin qərarları arxivdən tapıb mənə gətirdilər. Bunlar o vaxt, 70-ci illərin əvvəllərində, ortalarında mənim təşəbbüsümlə qəbul olunmuş, mənim imzaladığım qərarlardır. Nizami Bəhmənov bu barədə dedi, mən də bildirmək istəyirəm ki, o vaxt biz Şuşanın keçmişdə yaradılmış binalarını, abidələrini bərpa etdik, eyni zamanda çox yeni şeylər yaratdıq.

Molla Pənah Vaqif Azərbaycan xalqının fəxri, böyük şairimizdir. Xatirimdədir, 60-cı illərin ortalarında biz Molla Pənah Vaqifin 250 illik yubileyini qeyd etdik. 1967-ci ildə mən Şuşada olarkən Molla Pənah Vaqifin məzarını ziyarət etməyə getdim. Onu əvvəl heç tapa bilmirdilər, sonra mən xahiş etdim, tapdılar, gedib baxdım. Şübhəsiz ki, o məzar Molla Pənah Vaqifə layiq deyildi. Şübhəsiz ki, belə bir böyük şəxsiyyətin qəbrini onun şəxsiyyətinin səviyyəsinə çatdırmaq lazım idi. Mən 70-ci illərdə bu fikrimi həyata keçirməyə çalışdım və buna nail oldum. 1980—1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük bir abidə, türbə tikildi. Bu, çox gözəl me'marlıq abidəsi idi. Mən bunu Azərbaycanın həyatında böyük, əlamətdar, tarixi hadisə kimi qəbul edərək oraya nəinki özüm getdim, eyni zamanda Azərbaycanın o vaxtkı elm, mədəniyyət, incəsənət



xadimlərinin çoxunu da oraya getməyə də'vət etdim. Biz çox böyük bir dəstə ilə Şuşaya getdik, orada Molla Pənah Vaqifin türbəsini açdıq, nitqlər söyləndi.

Amma təkcə bu deyil. Mən qeyd etdim, orada bir çox tarixi abidələr, məscidlər, başqa binalar bərpa olundu və çox yaxşı vəziyyətə salındı. Eyni zamanda bir çox yeni binalar tikildi. Bizim üçün çox əziz olan Üzeyir Hacıbəyovun ev muzeyi, Bülbülün ev-muzeyi və başqa belə muzeylər, abidələr yaradıldı. Bunların hamısı haqqında Nizami Bəhmənov danışdı, ona görə də mən bir daha təkrar etmək istəmirəm. Yeni abidələrin yaradılması, qorunması böyük işlər idi. Yadımdadır, o vaxt Şuşada Azərbaycanın böyük şəxsiyyəti Natəvanın heykəli qoyuldu. Mən onun da açılışında çox böyük sevinclə iştirak etdim. Beləliklə, biz bu abidəni də yaratdıq, keçmişdə Şuşada nə yaranmışdısa, onları təzələdik, bərpa etdik. Eyni zamanda Şuşanı daha da zənginləşdirmək, onun tarixini daha da əyaniləşdirmək üçün çox işlər gördük, yeni binalar tikdik.

Xatirinizdədir, Şuşada böyük bir mehmanxana, çoxmərtəbəli yaşayış binaları, ayrı-ayrı inzibati binalar tikildi. Biz o vaxt Şuşanı çox mö'təbər bir statusa qaldırdıq. Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi ki, bunun da böyük əhəmiyyəti var idi. Çünki o vaxtlar Sovet İttifaqının çox yerlərindən — vilayətlərindən, şəhərlərindən adamlar buraya istirahətə gəlirdilər. Onlar eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə tanış olurdular. Bunlar hamısı o illərdə Şuşanın inkişaf etdirilməsi üçün görülmüş işlərdir. Eyni zamanda bunlar Şuşaya göstərilmiş qayğıdır. Bu qayğı tamamilə təbiidir və belə də olmalıdır. Əgər 1920-ci ildən 1970-ci ilə qədər Şuşada belə işlər görülməmişdisə, şübhəsiz ki, bu, insanların səhvi olmuşdur.

Yeri gəlmişkən mən bir məsələni də demək istəyirəm. Biz burada səmimi söhbət aparırıq. Bir çoxları belə hesab edirlər ki, əgər kim hansı yerdə doğulub-böyüyübsə, o, həmin yeri başqasına nisbətən daha çox sevir. Bu belə deyil. Ümumiyyətlə, biz Azərbaycanın hər bir yerini doğma Vətən kimi sevməliyik. "Kim haralıdır — oranı sevir" kimi əhval-ruhiyyəni aradan götürmək lazımdır. Vətən hamımız üçün Vətəndir. Vətənin hər bir yeri, hər bir nöqtəsi bizim üçün Vətəndir. Hər bir adam üçün Şuşa da, Laçın da Vətəndir. Bu yerlər təkcə şuşalılar, laçınlılar üçün yox, hamımız üçün Vətəndir. Şəxsən mən belə fikirdəyəm, belə duyğularla yaşamışam və bu gün də belə duyğularla yaşayıram. Ona görə də Şuşanı özüm üçün doğma bir yer hesab edirəm. Bu doğmalıq mənim daxili insani hisslərimlə əlaqədardır. Bir də, bir halda ki, mən Azərbaycanda rəhbər olmuşam, deməli, bu mənim borcum, vəzifəm olub.

Təəssüflə deyirəm ki, məsələn, keçmiş illərdə Azərbaycanın

rəhbərliyində Şuşada doğulmuş, böyümüş adamlar, bu şəhərin qayğısına qalmaq imkanı olan adamlar da olub. İndi mən bunu deyirəm, çünki buna əsasım var. Nədənsə onlar həmin 70-ci illərdə Şuşaya göstərilən qayğını 40-cı, 50-ci, yaxud 60-cı illərdə göstərməyiblər. Bu da həqiqətdir. Çünki hər şey göz qabağındadır ki, Şuşanın inkişafı üçün o illərdə nə olub, sonrakı dövrdə nə olub. Doğrudur, bu bizim borcumuzdur və şəxsən mən bu barədə söhbət aparıramsa, sadəcə onu demək istəyirəm ki, mən öz borcumu yerinə yetirməyə çalışıram. Bəlkə bundan da artıq etmək mümkün idi. Ancaq mən hesab edirəm ki, Şuşanın inkişafı, abadlaşdırılması, tarixi abidələrinin bərpası üçün görülmüş işlər də çox dəyərlidir.

Bax, bütün bunların hamısına görə də bu gün Şuşanın işğal altında qalması qəlbinizi kədərləndirir, sıxır, əzir, incidir. İnanın ki, mənim qəlbimi sizinkindən də çox sıxır. Çünki bir o qədər nəsillər zəhmət çəkib, orada o şəhəri yaradıblar, onu qalaya çeviriblər və mən də buna öz payımı vermişəm. Ona görə də bu, mənim üçün çox sıxıntılıdır, çox əzabvericidir.

Bax, bütün bunlara görə də, — bu gün burada da aşkar oldu, — Şuşanın işğalına imkan verənlər onu sadəcə olaraq hakimiyyət mübarizəsi zamanı qurban veriblər ki, bu da dəhşətlidir. Bu fikirlər keçən il məhkəmə prosesində müəyyən olunub, təsdiq edilibdir. Yə'ni bunlar yeni fikirlər deyil. Əslində belə fikirləri hər kəs deyə bilər, eyni zamanda onu təsdiq etmək lazımdır. Ancaq gedən istintaq, Ali Məhkəmənin apardığı məhkəmə prosesi və çıxardığı hökm artıq bunu hüquqi nöqteyi-nəzərdən sübut edib ki, Şuşa da, Laçın da o vaxt Azərbaycanda ayrı-ayrı qrupların, dəstələrin, hakimiyyət uğrunda mübarizə aparan insanların mübarizəsinin qurbanı olublar. Bu, bu gün burada deyilən sözlərdən bir daha mə'lum oldu və təsdiq edildi. Bu, həddindən artıq dəhşətlidir.

Şuşa haqqında mən çox danışdım. Ancaq bu o demək deyil ki, Laçın bizə Şuşa kimi qiymətli deyil. Laçın rayonu Azərbaycanın çox gözəl guşələrindən biridir, dağ rayonudur. Onun gözəl insanları, gözəl təbiəti, dağları, meşələri, yamacları var. Laçında 60 minə qədər azərbaycanlı yaşayırdı. Nə qədər nəsillər orada qurublar, yaradıblar. Burada Sultan bəyin adı çəkildi. Doğrudan da o, cəsur bir qəhrəman olub. Amma tək Sultan bəy deyil, orada bir çox nəsillər Laçını yaradıblar, yaşadıblar. Kimsə burada dedi ki, Əbülfəz Elçibəy, yaxud kimsə deyib ki, guya Laçın qəsəbədir, orada az adam yaşayır. Mənim xatirimdədir, 1974-cü ildə biz Laçın şəhərinin 50 illik yubileyini qeyd etdik. O vaxt biz bu barədə xüsusi qərar qəbul etdik.

**Muradxan Cabbarov:** Hörmətli Prezident, Laçının inkişafının bünövrəsi Sizin vaxtınızda qoyulmuşdu. O vaxt Sizin köməyinizlə plana salınan obyektlərin hamısı tikildi.



**Heydər Əliyev:** Yadımdadır, 1974-cü ildə Laçın şəhərinin 50 illiyi münasibətilə biz böyük bir qərar qəbul etdik və Laçın şəhərinin, rayonunun ümumi inkişaf proqramı da bu qərarla yarandı. Necə ola bilər ki, əgər biz 1974-cü ildə Laçının 50 illik yubileyini qeyd etmişiksə, 1993-cü ildə kimsə desin ki, o, kiçik qəsəbədir və orada az adam yaşayır? Demək, bu sözü deyən heç Azərbaycanı tanımır. Bəs onlar Azərbaycana hakim olmaq iddiası ilə necə yaşayırdılar? Bu, çox dəhşətli bir haldır.

Laçın rayonunun inkişafı üçün o vaxt biz başqa qərarlar da qəbul etmişdik. Xüsusən, dağ rayonlarının inkişafı barədə qərarlar qəbul etmişdik və bu qərar Laçın rayonuna da aid idi. Dağ rayonlarından gənclərin Azərbaycan Respublikasının ali məktəblərinə güzəştlə qəbul olunması haqqında da qərar qəbul etmişdik, bu qərar Laçın rayonuna da aid idi. Laçın rayonunun gəncləri Azərbaycanın ali məktəblərinə güzəştlə qəbul olunurdular.

İndi bə'zən deyirlər ki, Laçında yaşayanlar dağ adamlarıdır, yaxud bə'zisi deyir ki, çobandır, bə'zisi deyir kəndçidir, filandır və s. Kəlbəcərin işğalının ildönümü ilə əlaqədar mən kəlbəcərlilərlə görüşdüm, indi də laçınlılarla görüşürəm. Laçınlılardan alimlər, şairlər, ziyalılar çoxdur. Laçından Azərbaycanın nə qədər görkəmli elm, mədəniyyət, dövlət xadimləri çıxıblar. Ona görə də, bu baxımdan da Laçın rayonu həm təbiətinə, həm də insanlarına görə Azərbaycanın ən dəyərli guşələrindən biridir.

Azərbaycanın müstəqilliyini, ərazisini qorumaq nöqteyi-nəzərindən Laçın rayonu çox böyük strateji əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, 1992-ci ilin may ayında, yəqin ki, ona qədər də ermənilər Azərbaycanın başqa ərazilərini zəbt etmək üçün birinci növbədə məhz Laçınla Şuşanı ələ keçirmək istəyirdilər. Bu, təbiidir. Coğrafiyanı bilən adamlar yəqin ki, bunu dərk edirlər. Çünki Ermənistan Dağlıq Qarabağı daim özünə bağlamaq istəyirdi. Ermənistan ilə Dağlıq Qarabağ arasında isə Laçın rayonu durur və əsas yol da Laçından keçir. Əgər Laçın rayonu varsa, demək, Ermənistan ilə Dağlıq Qarabağ arasında bilavasitə əlaqə yoxdur. Onlar isə bilavasitə əlaqə yaratmaq istəyirdilər və buna 1992-ci ildə nail oldular.

Yenə də deyirəm, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini qorumaq və Ermənistanın ölkəmizə qarşı torpaq iddiasının qarşısını almaq baxımından Laçın və Şuşa çox böyük strateji əhəmiyyətə malik olan rayonlardır. Heç də təsadüfi deyildir ki, Ermənistan silahlı qüvvələri, bizə düşmən olan qüvvələr məhz bu rayonların işğal olunmasına bütün sə'ylərini cəlb ediblər. Mən böyük ürək ağrısı, ürək acısı ilə bir daha deyirəm ki, bu, Azərbaycanın başında duran adamların xəyanətinin, satqınlığının nəticəsidir.

Nə Laçın, nə də Şuşa rayonları fəth oluna bilməzdi. Yenə də

tarixə qayıdıram. Keçmişdə Şuşaya nə qədər hücumlar olubdur. O vaxt vahid Azərbaycan dövləti də yox idi. Amma Şuşanı məhz onun tutduğu strateji mövqeyə görə fəth edə bilmədilər. Eləcə də Laçın.

Bugünkü çıxışlar da bunu bir daha təsdiq etdi ki, Şuşa, Laçın, ancaq və ancaq Azərbaycanın o vaxt rəhbərliyində olan adamlar, həm də onları yıxıb hakimiyyətə özləri gəlmək istəyən adamlar tərəfindən qəsdən erməni işğalçılarına təslim olunub. Çox təəssüflər olsun ki, bu belədir. Bilirsiniz, ola bilər, bir adam öz məqsədinə nail olmaq üçün kiməsə, hansı bir adamasa qəsd etsin. Bu da cinayətdir, yolverilməzdir, ancaq ola bilər, bu, həmin şəxsə aiddir. Ola bilər, kiminsə bir hərəkəti başqa bir dövlətə zərər verə bilər. Bu da cinayətdir, amma bunun da miqyası var. Ancaq Azərbaycan Respublikası Ermənistanın təcavüzü qarşısında çabaladığı bir zaman, — bu gün Nizami Bəhmənov həmin vaxtlar aybaay, günbəgün hansı kəndin nə vaxt işğal olunduğunu, nə vaxt yandırıldığını, alındığını dedi, — belə bir zamanda sən Şuşanı qəsdən təslim edəsən? O, Şuşa və Şuşanın ətrafında Dağlıq Qarabağın kəndlərinin işğal olunmasından bəhs etdi, — belə bir zamanda sən bir neçə gündən sonra Mütəllibovu hakimiyyətə gətirməkdən ötrü Şuşanı qəsdən təslim edəsən, — bundan artıq cinayət yoxdur.

Bilirsiniz ki, mən o vaxtlar — Şuşa və Laçın Ermənistan qüvvələri tərəfindən işğal edilən zaman Naxçıvanda idim, bütün bunları qəzetlərdən oxuyurdum, bə'zi mə'lumatlara baxırdım. Şübhəsiz ki, bütün bunlar barədə mənim mə'lumatım da, heç təsəvvürüm də yox idi. Mən 93-cü ildə bura gəldim, işlədim. 1995-ci ildə nəhayət, Laçının və Şuşanın işğalı ilə əlaqədar məhkəmə prosesinə qədər mənim bu barədə mə'lumatım yox idi. Mən bu mə'lumatları, məhkəmə prosesindən sonra o mə'lumatları alanda da hələ inanmırdım ki, yə'ni bu qədər böyük cinayət etmək olarmı? Xalqına qarşı bu qədər ağır xəyanət etmək olarmı? İnanmaq mümkün deyil. Amma məhkəmə prosesi də, məhkəmənin hökmü də və bu işlərin şahidləri olan sizlərin bu gün burada dedikləri də tam həqiqətdir. Bəli, bu, belə də olubdur. Bunu Rəhim Qazıyev, Mütəllibov ediblər. Bunu onların tərəfdarları ediblər. Digər tərəfdən, bunu edənlər o vaxt o hakimiyyətdə olanlara müxalifət qüvvələri idi: Xalq Cəbhəsi olubdur, Xalq Cəbhəsinin törəmələri — indi cürbəcür partiyalara yığışıblar — onlar olublar. Bu, həqiqətdir.

Məsələn, burada danışdılar, mən bunu bu qədər təfsilatı ilə bilmirdim ki, Şuşanın müdafiəsində cürbəcür dəstələr, qruplar biri o birinə tabe olmurmuş: bu, Rəhim Qazıyevin dəstəsidir; bu, o birisinin dəstəsidir; bu, başqasının dəstəsidir — belə müharibə, müdafiə aparmaq olmaz. Bir də ki, Xalq Cəbhəsi dövlət deyildi axı, nə üçün gedib özbaşına işlər görürdü?



Ən dəhşətlisi odur ki, gedib orada şəhəri müdafiə edə bilməyiblər. Şuşa işğal olunub və bundan sonra Mütəllibov hakimiyyətə gəlib, qaçıb gedib və nəhayət, bundan sonra Rəhim Qazıyev hakimiyyəti ələ almaq üçün, — burada siz də dediniz, — öz hərbi dəstələrini oradan çıxarıb gətirib. Xalq Cəbhəsi də öz hərbi dəstələrini oradan çıxarıb Azərbaycanın bu meydanlarına, Prezident sarayının, parlamentin, Ali Sovetin önünə gətirib ki, bəli, burada mübarizə aparsınlar, hakimiyyəti silahla ələ alsınlar. Bu, belə də olubdur. Mən vaxtilə bunların hamısını televiziya vasitəsilə görmüşəm. Ali Sovetin qabağındakı mitinqlərə Rəhim Qazıyev öz dəstəsi ilə o tərəfdən gəlirdi. İsa Qəmbər bu biri tərəfdən gəlirdi, Əbülfəz Elçibəy bu tərəfdən gəlirdi, E'tibar Məmmədov öz dəstəsi ilə gəlirdi, o birisi burdan gəlirdi. Hərəsi bir dəstə ilə mitinq edirdi.

Dəhşətli hal budur ki, — mən belə başa düşdüm, — demək, mayın 8-də Şuşa işğal edilib, Azərbaycana rəhbərlik edən adamların isə bundan xəbəri olmayıb. Deyirlər mayın 9-da Yaqub Məmmədov Ağdama gəlib ki, xəbərim yoxdur. Burada Şuşanı işğala verəndən sonra Rəhim Qazıyev qaçıb gedib oturub Daşkənddə ki, Azərbaycanın başçısı olmaq üçün danışıq aparsın. O vaxt burada qarışıqlıq düşüb, ondan sonra qayıdıb bura. O, yenə də öz niyyətlərinə çatmaq üçün qoşunları çıxarıb və — siz də dediniz, — mayın 18-də Laçın işğal olunubdur. Ayın 18-də burada, — xatirinizdədir, onu da o vaxt televiziyada verirdilər, — kimin Ali Sovetin sədri olması uğrunda mübarizə gedirdi. Nəhayət, İsa Qəmbərovu seçdilər ki, o, Ali Sovetin sədri olsun. Orada torpaq, Laçın kimi rayon əldən gedir, — Laçın demək olar ki, Azərbaycanın alaqapısıdır, böyük qapısıdır. Əgər o, əldən gedibsə, demək, qapı açıldı, demək, Ermənistan Azərbaycana nə qədər silahlı qüvvə istəsə gətirə bilər, — ora əldən gedir, onlar isə bunu unudub, burada meydanda, yaxud da ki, Ali Sovetin binasında bir-birinin üstünə silah çəkdilər, hakimiyyəti ələ aldılar.

Kimlər? Hakimiyyəti saxlamağa, dövləti idarə etməyə heç bir səriştəsi, heç bir mə'nəvi haqqı, heç bir bacarığı, heç bir qabiliyyəti olmayan adamlar. Bilirsiniz, Azərbaycanın faciəsi təkcə ondan ibarət deyil ki, respublikamız Ermənistan tərəfindən təcavüzə mə'ruz qalıbdır və bu təcavüzün qarşısını ala bilməyibdir. Azərbaycanın ən böyük faciəsi ondan ibarətdir ki, küçədə gəzən ayrı-ayrı adamlar, xalqımızın qarşısında heç bir xidməti olmayan, bacarığı, səriştəsi olmayan adamlar şəxsi məqsədlər güdərək, bu fürsətdən istifadə edib Azərbaycanda hakimiyyəti əllərinə keçiriblər. Bu, dəhşətlidir. Xəyanət edib, satqınlıq edib vəzifə tutanlar bu vəzifəni heç vaxt əldə saxlaya bilməzlər. Allah buna yol verməz, yol verməməlidir.

Əgər bu qədər qurbanlar, bu qədər qanlar, xəyanətlər nəticəsində siz hakimiyyətə gəldinizsə, bəs onu saxlayaydınız da, nə üçün saxlaya

bilmədiniz? Əgər gücünüz yoxdursa, hakimiyyətə nə üçün can atırdınız? Hakimiyyətə gəlmək istəyən adam gərək ölçsün-biçsin ki, onun gücü nədir, imkanı, bacarığı nədir, Azərbaycan belə bir müharibə şəraitində olduğu zaman o bu işi edə bilər, yoxsa yox? Onlara nə Azərbaycan lazım idi, nə millət lazım idi, nə torpaq lazım idi. Sadəcə olaraq onlara bu vəzifələri gəlib tutub, Azərbaycanın varını, dövlətini dağıdıb, öz şəxsi məqsədlərinə nail olmaq lazım idi.

Bir dəstə — Mütəllibovun dəstəsi satqınlıq edib Azərbaycana bu qədər zərbələr vurubdur, indi qaçıb gedib dörd ildir Moskvada oturubdur ki, guya yenidən Azərbaycanda hansısa bir hakimiyyəti ələ keçirmək istəyir. O biri dəstə öz şəxsi mənafelərinə nail olmaq üçün guya müxalifətdə olub, gəlib hakimiyyəti əllərində saxlaya bilmədi, 1993-cü ildə respublikanı vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxardı. Qaçdılar, dağıldılar, indi də keçiblər müxalifətə, qəzetdə gündə bir şey yazırlar. Müxalifət olublar. Əgər siz hakimiyyətdə olduğunuz zaman Azərbaycana belə zərbələr vurmusunuzsa, nə müxalifətdə ola bilərsiniz? Siz müxalifətdə olduğunuz zaman Azərbaycan torpaqlarının işğal edilməsinin səbəbkarısınız. Sizin nə haqqınız var? Onların heç birinin — nə Moskvada gizlənənlərin, nə Kələkidə gizlənənlərin, nə hakimiyyətdə olub, sonra qaçıb, indi özlərini müxalifət hesab edənlərin heç birisinin gəlib Azərbaycanda vəzifə almağa, hakimiyyətə gəlməyə heç bir mə'nəvi haqları yoxdur. Onların hamısı etdikləri günah, xəyanətlər, cinayətlər üçün Azərbaycan xalqı qarşısında cavab verməlidirlər.

Bə'zilərinin cinayəti artıq sübut olunubdur. Amma bə'zilərinin cinayəti sübut olunmayıbsa, bu o demək deyil ki, onlar cinayət, xəyanət etməyiblər. Bugünkü danışıqlar da tam aydınlıq yaratdı. Siz də bu işlərin şahidisiniz, bu prosesləri öz gözlərinizlə görmüsünüz, — onlar cinayət ediblər. Ona görə də bunlar hamısı tək sizi yox, bütün xalqımızı, millətimizi incidir. İndi hamınızın dərdi, fikri ondan ibarətdir ki, işğal olunmuş torpaqlarımız azad edilsin, Azərbaycanın ərazi bütövlüyü tə'min edilsin. Bu baxımdan, mən yenə də deyirəm, Şuşanın, Laçının, işğalı görün Azərbaycana nə qədər böyük zərbələr vurubdur. Şuşanın və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı Azərbaycanın başqa bölgələrinin işğal olunması üçün qapı, yol açıbdır və onlar üçün böyük imkanlar yaradıbdır.

Bilirsiniz ki, biz 1994-cü il mayın 12-də atəşin dayandırılması haqqında Ermənistan ilə saziş əldə etmişik. Bir neçə gündən sonra iki il tamam olacaqdır ki, atəş yoxdur. Biz atəşkəs rejimi şəraitində yaşayırıq, müharibə getmir. Mən bu gün hesab edirəm ki, 1993—1994-cü illərdə yaranmış vəziyyətə görə bizim bu atəşkəs sazişini imzalamağımız doğru-düzgün addım olubdur. Ötən iki il bu addımımızın, qərarımızın nə qədər doğru olduğnu sübut edib. Biz bu



müddət ərzində çalışmışıq və çalışırıq ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişəni sülh yolu ilə həll edək. Cürbəcür səviyyələrdə danışıqlar gedir. Sizin bu barədə televiziya, qəzetlər vasitəsilə mə'lumatlarınız var. Güman edirəm ki, əlavə mə'lumata ehtiyac yoxdur. Çünki mənim apardığım bütün danışıqlar, eyni zamanda mənim tapşırığımla müşavirimin, yaxud Xarici İşlər Nazirliyinin, başqa şəxslərin apardıqları danışıqların hamısı radio, televiziya və mətbuat vasitəsilə ictimaiyyətə çatır.

Ermənistanla aparılan danışıqlarda son nəticəyə gələ bilmirik. Nə üçün? Şuşa, Laçın məsələsi bizi irəli getməyə qoymur. İndi görün Şuşa, Laçın Ermənistan üçün, təcavüzkar qüvvələr üçün nə qədər lazımdır. Mən bunu demişəm, sizə də açıq deyirəm, bu il aprelin 21-də Lüksemburqda olarkən mən gecə yarısı Ermənistan prezidenti Ter-Petrosyanla görüşüb ətraflı söhbət etdim. Biz bu məsələni necə həll etməyi yenə də götür-qoy etdik. Onlar işğal etdikləri ərazilərdən, rayonlardan, — şübhəsiz ki, Dağlıq Qarabağdan başqa, — çəkilməyə e'tiraz etmirlər. Amma Laçın rayonundan çəkilmək istəmirlər. Çünki hesab edirlər ki, Laçın rayonu onlar üçün çox həyati əhəmiyyət kəsb edir. Əgər Laçın rayonundan çəkilsələr onların Dağlıq Qarabağla əlaqələri pozulacaqdır. Şuşa rayonundan isə ona görə çəkilmək istəmirlər ki, onlar hesab edirlər ki, Şuşa rayonu keçmiş inzibati bölgüyə görə Dağlıq Qarabağın tərkibindədir. Ona görə də əgər onlar Dağlıq Qarabağda qalırlarsa, deməkк Şuşadan da çəkilmirlər. Bax, bu iki məsələ danışıqlarımızın irəli getməsinə imkan vermir.

Biz imzalayacağımız sazişə "Ermənistan silahlı qüvvələri işğal olunmuş bütün rayonlardan, o cümlədən Laçın və Şuşadan çıxmalıdır" sözlərinin yazılmasını tələb edirik. Onlar isə deyirlər ki, o biri rayonlardan silahlı qüvvələri çıxarmağa hazırdırlar, ancaq Laçın və Şuşa rayonlarından yox. Orada cürbəcür variantlar var, biz onları müzakirə edirik. Sizin vaxtınızı alıb bunları demək istəmirəm. Onlar bir variant təklif edirlər, biz bir variant təklif edirik. Hər halda məsələ bu yerdə dayanıbdır.

Sizə deyə bilərəm ki, bə'zi dairələr, qüvvələr, o cümlədən mənim ətrafımda olanların da bə'ziləri dəfələrlə mənə deyiblər ki, axı siz niyə belə inadkarlıq edirsiniz, — bə'zi xarici ölkələrin başçıları da bunu mənə deyiblər, — bir halda ki, birdən-birə altı rayon azad olunacaq, bu rayonlardan olan qaçqınlar öz yerlərinə qayıdacaqlar. İndi məsələ bununla qurtarmır. Biz Dağlıq Qarabağa da status söz vermişik. Onlar deyirlər ki, Laçınla Şuşa məsələsi Dağlıq Qarabağın statusu müzakirə edilən vaxt müzakirə olunsun. Siz niyə buna razılıq vermirsiniz, inadkarlıq edirsiniz, — bə'ziləri bunları mənə deyirlər. Deyirlər ki, bu məsələni mərhələ-mərhələ həll etmək olar. Məsələn,

Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları azad olunacaq, bu rayonların vətəndaşları, sakinləri öz yerlərinə qayıdacaq, bunun özü müəyyən mühit yaradacaq. Ermənistan tərəfi də bunu deyir ki, bu, müəyyən mühit yaradacaqdır, yə'ni bir-birinə inam artacaq, ziddiyyət aradan götürüləcək və sair. Deyirlər ikinci mərhələdə Dağlıq Qarabağa hansı status verilərsə, Laçın və Şuşa məsələsi onda müzakirə edilsin.

Mən bununla razı olmuram. İndi görün Şuşa və Laçın nə qədər əhəmiyyətlidir və nə qədər əzizdir. Güman edirəm, siz də mənim fikrimlə razısınız. Bunları sizə çatdırmaqda məqsədim odur ki, siz vəziyyətin nə yerdə olduğunu biləsiniz. İkincisi də, yenə deyirəm, görün əgər Şuşa və Laçın əldən getməsəydi, bu məsələlərin həlli nə qədər asan olardı.

Burada çıxış edənlərin hamısı bildirdi ki, siz mənə çox böyük ümidlər bəsləyirsiniz, inanırsınız. İnanırsınız ki, mən bu məsələni həll edə bilərəm. Siz də bilirsiniz ki, əgər bu məs'uliyyəti mən öz üzərimə götürmüşəmsə, həyatımı, canımı, — nəyim varsa hamısını buna həsr edirəm ki, Azərbaycanı bu bəladan çıxarım. Bu, mənim həyatımın məqsədidir. Bu barədə mənə müraciət etmək lazım deyil. Əgər bu məqsədi qarşıma qoymasaydım, 1993-cü ildə razılıq verməzdim.

İndi burada o-bu mübarizə edir ki, hakimiyyətə gəlsin. Bilirsiniz ki, o vaxt gedib oturmuşdum Naxçıvanda və heç yenidən Azərbaycanda vəzifə tutmaq məqsədim də yox idi. İndi deyirsiniz ki, mən o vaxt, bu vaxt gəlsəydim yaxşı olardı, siz o vaxt, bu vaxt müraciət edirdiniz. Bu, sizin fikrinizdir. Amma axı, mənim fikrim belə deyildi. Mənim fikrim doğulduğum yerdə daim yaşamaq və yenidən Azərbaycana rəhbərliyə qayıtmamaq idi. Mənim qəti fikrim belə idi.

1993-cü ildə vətəndaş müharibəsi başlayanda mənə nə qədər müraciətlər oldu. Mən elə o dəqiqə durub gəlmədim. Mənə bir neçə gün müraciətlər oldu, məni buraya gətirmək üçün bir neçə gün təyyarələr gəldi. Razılıq vermirdim. Mən buraya gələndən sonra da razılıq vermirdim. Bakıya gəldim, bundan bir həftə sonra razılıq verdim. Buraya gəlmək üçün mənimlə beş-altı gün danışıq aparıldı. Respublikanın vəziyyətinin çox gərgin olduğunu görəndən sonra razılıq verdim. Dedim ki, indi xalq necə, mən də elə. Dedim ki, əgər xalq ağır vəziyyətə düşəcəksə, mən də bu ağır vəziyyətin içində olmalıyam. Ona görə də razılıq verdim.

Yə'ni demək istəyirəm ki, bu heç də mənim arzum-istəyim olmayıbdır. Çünki mən hesab edirdim ki, keçmişdə Azərbaycan xalqı



qarşısında nə xidmət etmişəm-etmişəm. Yetər. Ancaq bir halda ki, bu məs'uliyyəti öz üzərimə götürmüşəm, demək, dərk edərək götürmüşəm ki, qarşımda duran məsələ budur, bunu həll etmək lazımdır. Siz əmin ola bilərsiniz ki, mən bunları həll etmək üçün bütün imkanlarımı sərf edirəm. Amma bax, bunların həll olunmasında da bir nöqtə var, gəlib orada dayanırıq. Bu danışıqlarda Nizami Bəhmənov iştirak edib, o bunları bilir. Ermənilər də bu nöqtədən çəkilmirlər, biz də çəkilmirik.

Yenə də təkrar edirəm, görün Şuşanın və Laçının Ermənistan silahlı qüvvələrinə təhvil verilməsi bizim üçün nə qədər böyük itkidir, zərbədir və bu, məsələnin həllinə nə qədər böyük çətinliklər yaradıb. Görün bu rayonlar bizim üçün nə qədər əzizdir ki, biz başqa rayonların azad olunmasını bu iki rayonun azad edilməsi üçün saxlayırıq ki, hamısı birdən azad olunsun. Güman edirəm, bax, bunların hamısı şəxsən mənim Şuşa, Laçın probleminə olan münasibətimi, sə'ylərimi, tam əyani surətdə göstərir.

Mən şübhə etmirəm ki, bu illərdə, düşdüyü bu ağır vəziyyətdə Azərbaycana xəyanət etmiş adamların hamısı öz cəzasını alacaqdır. Ancaq bu bizə heç bir şey verməyəcəkdir: kimsə cəzalandı, həbs olundu, həbsxanada yatdı — bununla bizim torpaqlarımız azad olmur. Yə'ni demək istəyirəm ki, onlar nə qədər böyük cəzalar alsalar da, bu, Azərbaycana dəyən zərbələrin müqabili deyil. Bu, bizim o yaralarımızı sağaltmır. Dəyən zərbələrdən bizi xilas etməyibdir. Ona görə də, görün bu xəyanətin Azərbaycana vurduğu zərbələr nə qədər ağırdır, dərindir.

Bütün bu xainlər, cinayətkarlar öz cəzalarını alacaqlar. Hesab edirəm ki, Şuşanın və Laçının Ermənistan silahlı qüvvələrinə təslim olunmasında günahkarlar və ümumiyyətlə o vaxtkı siyasi proseslərdə xəyanət edənlər üçün gərək məhkəmə cəzasından savayı ümumxalq hökmü çıxarılsın. Məhkəmə hökmü müəyyən bir hüquq çərçivəsindədir. Amma Azərbaycan xalqının, Şuşa, Laçın əhalisinin ümumxalq hökmü lazımdır. Güman edirəm ki, siz bu barədə düşünməlisiniz. O canilərə, xəyanətkarlara qarşı ümumxalq, ümumvətəndaş hökmü çıxarılmalıdır. Nə üçün? Ona görə yox ki, onlar indi cəza çəksinlər. Ona görə ki, ibrət götürsünlər, bunlar daha təkrar olunmasın.

Şuşadan burada çıxış edən dostumuz bir neçə dəfə təkrar etdi ki, niyə bizim xalqımız belədir. Mən məcbur oldum ona deyəm ki, bu, xalqımız deyil, bu xalqın içindən çıxan ayrı-ayrı adamlardır. Ancaq bunlar var, bunlar keçmişdə də, bu son illərdə də olubdur, bu gün də var. Bunlar sayca az olsalar da, Azərbaycan xalqı, müstəqil

Azərbaycan dövləti üçün çox təhlükəlidir. Əgər onlar bu gün o qədər təhlükəli deyillərsə, gələcək üçün təhlükəlidirlər. Siz bunu bilməlisiniz.

Bilirsiniz, bu dövləti əldə saxlamaq üçün, indi siz özünüz də dediniz ki, vaxtilə səriştəli rəhbərlər olmayıb, Azərbaycan belə vəziyyətə düşübdür. Ancaq indi siz gələcəyə də baxmalısınız. Azərbaycan gələcəkdə kimlərin əlində olacaq? Əgər doğrudan da səriştəli adamların əlində olsa, bu, şübhəsiz, təhlükəli deyil. Amma bəlkə bu belə olmadı, onda nə olacaq? Azərbaycanın gələcəyi haqqında düşünməliyik.

Ona görə də mən ümumxalq hökmü, bu cəzalar haqqında danışanda, yalnız və yalnız hər bir adamın bu hadisələrdən ibrət dərsi alması üçün deyirəm, hər bir adamın özü üçün nəticə çıxarması üçün deyirəm. Güman edirəm və çox istərdim ki, həmin adamlar bugünkü görüşümüzdən də nəticə çıxarsınlar. Bilsinlər ki, o yolla ki, onlar gediblər — bə'ziləri indi də o yolla gedirlər — bu yol onlara heç vaxt uğur gətirməyəcəkdir. Onlar müvəqqəti olaraq nə vaxtsa nə isə edirlər. Bəli, etdilər. Mütəllibov da orada müvəqqəti bir şey etdi, o biriləri də, ondan sonra gələnlər də etdilər, amma bunun axırı olmadı. Əksinə, onlar xain olduqlarını, xalqın mənafeyinə qəsd etdiklərini nümayiş etdirdilər. Buna baxmayaraq, mən hesab edirəm ki, onlar da nəticə çıxarmalıdırlar, düz yola gəlməlidirlər və hamı düz yola gəlməlidir. Bax, buna görə də mən deyirəm ki, bu məsələlərə dair ümumxalq hökmü lazımdır.

Burada çıxış edənlərin hamısı bir ümumi sözü də dedilər ki, əgər bu sülh danışıqları bir nəticə verməsə biz gedib öz torpaqlarımızı azad etməyə hazırıq. Doğru fikirdir. Mən də belə fikirdəyəm. Mən tamamilə sizinlə razıyam. Biz nə qədər mümkündürsə bu məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Buna əmin ola bilərsiniz.

Ancaq eyni zamanda bilmək lazımdır ki, biz heç vaxt razı ola bilmərik ki, torpaqlarımız uzun müddət Ermənistan silahlı qüvvələrinin işğalı altında qalsın. Buna razı ola bilmərik. Müəyyən bir hədd var, əgər bu həddə qədər biz bu məsələni sülh yolu ilə həll etməyə nail ola bilməsək, şübhəsiz ki, bütün vasitələrdən istifadə etməliyik. Buna görə də şuşalılar da, laçınlılar da, ağdamlılar da, füzulililər də, cəbrayıllılar da, kəlbəcərlilər də, zəngilanlılar da, qubadlılar da, tək onlar yox, Azərbaycanın bütün vətəndaşları, gənclərimiz bilməlidirlər ki, öz torpağını müdafiə etmək, öz torpağını işğalçılardan azad etmək üçün hər kəs gərək hazır olsun. Sözlə yox. Həmin o adamlar sözlə gördünüz nə etdilər? Siz deyirsiniz ki, həmin adamlar gəlib Şuşaya yığışmışdılar. Niyə gəlib yığışmışdılar? Çünki Şuşa elə bir yer idi



ki, orada hərə özünə bir siyasi məqsəd əldə etmək istəyirdi. Rəhim Qazıyev də, Arif Hacıyev də, Xalq Cəbhəsindən başqaları da oraya gəliblər, E'tibar Məmmədov da, o birisi də oraya gəliblər. Nəyə gəliblər? Gəlib nə ediblər? Gəliblər, iki gündən, Şuşa işğal olunandan sonra biri Rusiyaya, biri Daşkəndə, biri Türkiyəyə gedib. Yaxşı, nəyə gedirdin? Burada sənin torpağın işğal olunubdur, sən çalış bunu geri qaytar. Biri ora uçur, biri bura uçur. Nəyə gedirdiniz?

Ona görə də bu işlər sözlə yox, — sözlər çox eşidilib, — əməli işlə görülməlidir. Mən başa düşürəm, indi burada ağsaqqallarımız çıxış edirlər ki, biz gedib vuruşa, döyüşə bilərik. Bəli, onlar da gedə bilərlər, ancaq bununçün gənc qüvvələrimiz lazımdır. İndi ordumuz qurulub, qurulur, — müdafiə naziri buradadır, — ancaq sizin adamlardan nə qədəri orduda xidmət edir, onlar necə xidmət edirlər, hazırlaşırlar. Bunu düşünmək lazımdır.

Tək buna görə yox. Biz müstəqil bir dövlətik. Müstəqil dövlətin müstəqilliyini qorumaq üçün yetərli qədər ordusu olmalıdır və bu ordu da yüksək səviyyədə olmalıdır. Ona görə də ordu quruculuğu ilə biz nə qədər məşğul oluruqsa, gərək siz də o qədər məşğul olasınız. Hər bir gənc orduda xidmət etməlidir, hazırlaşmalıdır, hərbi peşəni mənimsəməlidir, silahdan istifadə etməyi bilməlidir. Əgər bir hadisə baş versə, gərək elə olmasın ki, səriştəli adamımız yoxdur. Bizim əsgərimiz də, zabitimiz də, generalımız da olmalıdır. Hamısı olmalıdır.

Şübhəsiz ki, bu, Müdafiə Nazirliyinin işidir. Amma bu, eyni zamanda sizin, bütün xalqın işidir. Ordu xalqın ordusudur. Ordu xalqın gənclərindən yaranır. Ona görə də mən sizin fikrinizlə razıyam. Biz bu barədə həmfikirik. Amma bu fikri reallaşdırmaq üçün mən də, siz də, hamımız bundan sonra daha çox sə'ylər qoymalıyıq.

Sizin məskunlaşdığınız yerlər çoxdur. Şübhəsiz ki, hamını bir yerə yığmaq mümkün deyil, bəlkə bu heç lazım da deyil. Burada müəllimə çıxış etdi, mənim çox xoşuma gəldi. Biz buna da şərait yaradırıq ki, məsələn, Şuşadan olan uşaqlar Şuşa məktəbinə getsinlər. Müəllimə dedi ki, assimilyasiya olmasınlar, mən bu fikirlə razıyam. Yə'ni, şuşalılar, laçınlılar, yaxud da ki, zəngilanlılar, ağdamlılar Azərbaycan xalqının içərisində əriyib bir-birinə qatışmasınlar. Mən bununla demək istəmirəm ki, onların arasında sərhəd qoymaq lazımdır. Yox. Bilirsiniz, torpağa, Vətənə, əcdadlarımızın yurduna bağlılıq məsələsi var.

Məsələn, Laçın rayonundan nə qədər adamlar Bakıya, Azərbaycanın başqa şəhərlərinə gəliblər, təhsil alıblar, böyük elm, mədəniyyət xadimləri olublar. Şuşadan həm elm, həm mədəniyyət, dövlət adamlarımız çoxdur. Bu da təbiidir. Azərbaycan tək Bakı demək

deyil. Bakı bütün Azərbaycandır. Heç kəs hesab etməsin ki, Bakı elə bir Bakıdır. Əgər Bakı paytaxtdırsa, demək, o, Azərbaycandır. Demək, orada hər bir kəsin öz yeri var, hər kəs də gəlib burada yaşaya, işləyə bilər, fəaliyyətini, iste'dadını göstərə bilər. Ancaq eyni zamanda biz o torpaqlarımızı da boş qoya bilmərik. Hamımız bir yerə yığışmamalıyıq. Ona görə də şuşalı gərək daim düşünsün ki, o, Şuşaya qayıdacaq, qayıdıb öz evini bərpa edəcək, yaşayacaq, Şuşanın mənzərəsindən həzz alacaq, atasının, babasının qəbrinin üstünə gedəcək — təkcə bir dəfə ziyarətə getməyəcək, daim gedəcək. Bunu laçınlı da, o birisi də bilməlidir.

İşğal olunmuş torpaqlardan didərgin düşmüş vətəndaşlarımız məskunlaşdıqları yerlərdə öz rayonlarının ən'ənələrini daim qoruyub saxlamalıdırlar. Ona görə də bu rayonların bütün dövlət orqanları— icra orqanı da, polis, prokuror, hərbi komissarlıq orqanı da var. Bunlar mütləq olacaqdır. Baxmayaraq ki, siz, məsələn, 40, 50, yaxud 60 məntəqədə məskunlaşmısınız. Gərək, bir-birinizlə bağlılığı həmişə saxlayasınız. Gərək öz torpağınızı, evinizi unutmağa heç vaxt yol verməyəsiniz. Qayıdarsınız, gedərsiniz, öz evinizi bərpa edərsiniz, komanızı düzəldərsiniz, bundan sonra ya özünüz, yaxud uşaqlarınız gələr, yenə də Bakıda oxuyar, təhsil alar, böyük işə keçər. Bu, təbiidir. İndiyə qədər olduğu kimi elə də olmalıdır. Güman edirəm siz, məni anlayırsınız.

Bax, mən bunu bəyəndim ki, bəli, Şuşanın da öz məktəbi var. Qoy olsun. O demək deyil ki, mən şuşalıları bakılılardan ayırmaq istəyirəm, yox. Amma öz məktəbi olsun. Öz məktəbi olanda o, Şuşa haqqında daha çox düşünəcək. Bilirsiniz, Vətən hissi haradan başlayır? Adamın öz evindən, öz anasından, atasından başlayır. Elədirmi? Vətən insanın öz torpağından başlayır. Bə'zisi var ki, elə onu Vətən hesab edir, amma əksəriyyəti həm onu, həm də ümumi Vətəni Vətən hesab edir. Məsələn, mən bu gün dedim ki, Azərbaycanın hər bir yeri, nöqtəsi, guşəsi hər birimiz üçün — sizin üçün də, mənim üçün də Vətəndir. Belə də olmalıdır. Amma eyni zamanda, bir yer var ki, biz oranı qorumalı, saxlamalıyıq, — o, bizim üçün xüsusi vətəndir: Şuşa da, Laçın da, Ağdam da, Füzuli də, Zəngilan da və sair. Bu, çox mühümdür.

Mən icra hakimiyyəti başçılarına demişəm, bu gün də deyirəm. Şübhəsiz ki, bu rayonlardan, — biz bu gün xüsusən Şuşa və Laçın rayonlarından söhbət açdıq, — gəlib Azərbaycanın müxtəlif yerlərində məskunlaşmış adamların hamısına qayğı göstərmək, kömək etmək lazımdır. Qərar qəbul edilməsi, ayrı-ayrı vəsaitlərin ayrılması



nöqteyi-nəzərindən nə mümkündür mən edirəm. Mən İzzət Rüstəmovu baş nazirin müavini tə'yin etmişəm ki, qaçqınların işi, humanitar yardımların alınması, gətirilməsi, toplanması işləri ilə məşğul olsun. Bəli, mən bu iş üçün xüsusi vəzifə tə'sis etmişəm. Onun da oğlu şəhid olub. Şəhid atası İzzət Rüstəmovu bu vəzifəyə tə'yin etmişəm, ona görə ki, o, sizin dərdinizi başqalarından yaxşı başa düşər. Yə'ni biz öz tərəfimizdən nə lazımdırsa edirik, amma gərək siz də öz tərəfinizdən lazımi tədbirlər görəsiniz.

Mənə çoxlu siqnallar gəlir ki, xaricdən göndərilən humanitar yardımlar qaçqınların bə'zilərinə çatmır. Bə'zi yerlərdə bunlardan sui-istifadə edirlər, oğurlayırlar, dağıdırlar, səhlənkarlıq edirlər. Mən İzzət Rüstəmova da, Prezident Aparatına da göstəriş vermişəm ki, bu məsələlərlə ciddi məşğul olsunlar, ona nəzarət etsinlər. Amma əgər sizin özünüz bu işləri yaxşı təşkil etsəniz, vallah, heç bir başqa nəzarət lazım deyil.

Mən bu gün bir daha deyirəm: — Şuşa, Laçın rayonlarından da, işğal olunmuş başqa rayonlardan da harada bizim vətəndaşlarımız məskunlaşıblarsa onlara xüsusi qayğı, diqqət göstərilməlidir. Bakı şəhər icra hakimiyyətinin başçısı da buradadır. Mən onu buraya də'vət etmişəm ki, sizin bu dərdlərinizi bilavasitə eşitsin. Güman edirəm ki, başqa rayonların icra hakimiyyəti başçıları da mənim bu çıxışımı radio və televiziya ilə eşidəcəklər. Prezident Aparatının rəhbərinə göstəriş verirəm ki, mənim bu tapşırıqlarımı onlara da çatdırsın.

İndi burada bir məsələ meydana çıxdı ki, bir qaçqını evdən çıxarıblar. Bəhmənov dedi ki, onu artıq yerləşdiriblər. Bu, başqa məsələdir. Amma onu nə üçün çıxarıblar? Deyir ki, həmin mənzili guya başqa adama satıblar. Bunu yoxlamaq və mənə mə'ruzə etmək lazımdır. Belə hallara yol vermək olmaz.

Güman edirəm ki, bu məsələlərin müzakirəsinə, fikir mübadiləsinə bizim bu gün bu qədər çox vaxt ayırmağımız təbiidir, məqsədəuyğundur. Çünki bütün bu problemləri həll etmək üçün Şuşa, Laçın problemi mərkəz nöqtədir. Ona görə də həm bu məsələləri dərindən bilmək, həm də fikirlərimizi bir-biri ilə uyğunlaşdırmaq üçün belə bir görüş çox zəruridir, əhəmiyyətlidir. Mən bu görüşdən çox razıyam. Sizin hamınıza, xüsusən burada çıxış edən adamlara, verdiyiniz bu mə'lumatlara görə təşəkkür edirəm. Mənim haqqımda dediyiniz xoş sözlərə görə sağ olun. Mən çalışacağam ki, sizin sözlərinizə bundan sonra da layiq olum.

Laçın rayon İcra Hakimiyyətinin başçısı Muradxan Cabbarovun bu gün 70 yaşı tamam olur. Bu münasibətlə mən onu təbrik edirəm.

Güman edirəm ki, uzun illər Laçın rayonunda fəaliyyət göstərdiyinə görə Muradxan Cabbarov yüksək mükafata layiqdir. Mən Muradxan Cabbarovu "Azərbaycan bayrağı" ordeni ilə təltif etmək barədə bu gün fərman imzalayıram.

Mən qeyd etdim, çalışacağam ki, sizin mənə ünvanlanmış xoş sözlərinizə bundan sonra da layiq olum. Bu, mənim həyatımın mə'nasıdır. Mən bütün həyatımı xalqa xidmət etməyə həsr etmişəm, bundan sonra da bu yolla gedəcəyəm. Başqa yolum yoxdur. Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mə'nasıdır, məzmunudur. Buna tam arxayın ola bilərsiniz. Arxayın ola bilərsiniz ki, bütün bu problemlərin, xüsusən Laçın, Şuşa probleminin həll olunması üçün mən bundan sonra da öz sə'ylərimi əsirgəməyəcəyəm. Sağ olun.



# AĞDAM



Ağdam şəhəri Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanlarının fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır.
... 1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün, bu münaqişənin ilk qığılcımını Ağdamda hiss etmişlər. ... Ağdam rayonu o vaxtdan indiyədək Ermənistanın hərbi təcavüzünə qarşı aparılan mübarizədə ön cərgədə olmuşdur. Ağdam vuruşmuşdur, döyüşmüşdür, böyük itkilər vermişdir.

***HEYDƏR ƏLİYEV***





# AĞDAM

**AĞDAM RAYONUNUN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİNİN ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AĞDAM RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ.**

***Prezident sarayı, 2 avqust 1996-cı il.***

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN giriş sözü

Hörmətli ağdamlılar, bacılar və qardaşlar!

Bu gün sizinlə, yə'ni Ağdam rayonunun və respublikamızın müxtəlif bölgələrində məskunlaşmış ağdamlıların nümayəndələri ilə görüşümdən çox məmnunam. Mən sizi buraya də'vət etmişəm, Ağdam rayonunun bugünkü həyatı, ağdamlıların vəziyyəti və problemləri haqqında sizinlə birlikdə söhbət aparmaq məqsədindəyəm.

Ağdam Azərbaycanın böyük rayonlarından biridir. Ağdam şəhəri Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanlarının fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır. Ağdam rayonundan olan bir çox şəxslər ölkəmizin həyatının bir sıra sahələrində səmərəli fəaliyyət göstərmişlər. Rayonun özündə yaşayanlar Azərbaycanın gözəl guşəsi olan Ağdamda qurub-yaratmaqla məşğul olmuşlar.

1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün, bu münaqişənin ilk qıcılcımını Ağdamda hiss etmişlər. Bunlar ilk dəfə özünü Ağdamda, Dağlıq Qarabağın sərhədində büruzə vermişdir. Ağdam rayonu o vaxtdan indiyədək Ermənistanın hərbi təcavüzünə qarşı aparılan mübarizədə ön cərgədə olmuşdur. Ağdam vuruşmuşdur, döyüşmüşdür, böyük itkilər vermişdir.

Təəssüflər olsun ki, Ermənistan silahlı qüvvələrinin gücü və eyni zamanda Ağdamın müdafiəsində buraxılan səhvlər və bə'zi səbəblər nəticəsində rayonun ərazisinin bir hissəsi işğal edilmişdir. O cümlədən, üç il bundan əvvəl Ağdam şəhəri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Ancaq bunlar nə ağdamlıların, nə də bütün xalqımızın torpaqlarımızı müdafiə etmək uğrunda mübarizəsini heç vaxt zəiflədə bilməmiş və dayandıra da bilməyəcəkdir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Ağdam

rayonu ərazilərinin və bütün torpaqlarımızın azad edilməsi qarşımızda duran əsas vəzifədir, məqsəddir. Xalqımız, dövlətimiz bu məqsədi, bu vəzifəni birlikdə şərəflə yerinə yetirəcək və biz buna nail olacağıq.

Ağdam rayonunun sakinləri, qəhrəman insanları Ermənistanın təcavüzünə qarşı vuruşaraq böyük itkilər, şəhidlər vermişlər. Yenə də deyirəm, ürəyimizi incidən, sarsıdan odur ki, Ağdam şəhəri və rayonun bir hissəsi işğal edilmişdir. İşğal olunmuş şəhərdən və rayonun bir hissəsindən didərgin düşən ağdamlılar respublikanın müxtəlif yerlərində məskunlaşmışlar və onların bir çoxu ağır vəziyyətdə yaşayır. Bunlar hamısı bizi həm narahat edir, həm də fəaliyyətimizin diqqət mərkəzindədir. Buna görə də mən bu gün sizinlə, yə'ni Ağdam rayonuna mənsub olan əhalinin nümayəndələri ilə bu görüşü keçirməyi lazım bilmişəm və həm özüm, həm də dövlət, ictimaiyyət üçün bunu çox əhəmiyyətli hesab edirəm.

Belə hesab edirəm ki, Ağdamla, ətraf rayonlarla əlaqədar məsələlərin hamısı haqqında biz bu gün burada açıq-âydın danışa, fikir mübadiləsi apara bilərik. Məqsədimiz ondan ibarətdir ki, xalqımızı səfərbər edək, daha da sıx birləşdirək. Ermənistanın Azərbaycana qarşı təcavüzü başlanandan ölkəmizin verdiyi itkilərin və məğlubiyyətlərimizin əsas səbəblərindən biri respublikamızın daxilində birliyin, həmrə'yliyin lazımi səviyyədə olmaması idi.

Xalqımız qəhrəman xalqdır, millətimiz də özünü müdafiə etməyə qadir millətdir. Təəssüflər olsun ki, xalqımızın birləşməsi və millətimizin bir olub düşmənə lazımi cavab verməsi əvəzinə, keçmiş zamanlarda səhvlər buraxılmışdır. Bunlar da sonralar bizi böyük faciələrə gətirib çıxarmışdır. Ona görə də bugünkü söhbətimiz, danışığımız xalqımızı daha da birləşdirməkdən, həmrə'y etməkdən ibarət olmalıdır. Həm Ağdam rayonunun problemləri, həm də ümumiyyətlə respublikamızın problemləri haqqında hamımızın birlikdə düşünməyimiz üçün mən bu gün bu söhbəti aparmağı lazımlı hesab edirəm.

Də'vət olunanların hər biri burada öz ürəyində olan sözləri deyə bilər. Mən sizi dinləməyə hazıram. Ancaq bu söhbətimizə başlamazdan əvvəl mən hesab edirəm ki, Azərbaycan Respublikasının torpaqlarının, ərazi bütövlüyünün qorunması, ölkəmizin müdafiəsi uğrunda həlak olanların xatirəsini yad etməliyik. Ağdam rayonundan da çox insanlar şəhid olublar. Şəhid olanların valideynlərinin bir qismi bu gün burada, bu görüşdə iştirak edirlər. Ermənistanın təcavüzünə qarşı döyüşlərdə, müharibədə tək Ağdam rayonundan yox, respublikamızın hər yerindən şəhidlər vermişik. Ağdam rayonundan olan şəhidlərin və bütün şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməyinizi rica edirəm.

Allah şəhidlərə rəhmət eləsin!



Ağdam rayonunun bir qismi indi yaşayır, orada insanlar öz evlərində-eşiklərindədirlər, mübarizə edirlər. Ermənistan qəsbkarları ilə yaranmış cəbhəmizin demək olar ki, ön xəttindədirlər. Orada yaşamaq və doğma torpağa sadiq qalmaq, hesab edirəm ki, böyük vətəndaşlıqdır. Ona görə də mən güman edirəm ki, söhbətimizə birinci növbədə indi Ağdamda yaşayanlar başlasınlar. Ağdam rayon İcra Hakimiyyətinin başçısına söz verirəm.

Ağdam rayon
İcra Hakimiyyətinin başçısı
HƏSƏN SARIYEVİN
çıxışı

Hörmətli cənab Prezident! Hörmətli görüş iştirakçıları!

Ağdamın işğalının üçüncü ildönümü ilə əlaqədar bu gün Prezident sarayında keçirilən bu görüş bizi bir daha ağrılı-acılı günlərə qaytarır. Bu görüş dövlət başçımızın, hamımızın çox dərin hörmət, ehtiram və ümid bəslədiyimiz Heydər Əliyev cənablarının biz ağdamlılara olan böyük məhəbbətinin və qayğısının əyani sübutudur. Möhtərəm Prezident! İcazə verin, işinizin çox gərgin, son dərəcə çox olduğu bir vaxtda bizi qəbul etdiyiniz üçün Sizə bütün ağdamlılar adından minnətdarlığımı bildirim.

Hörmətli Prezident! Mə'lumdur ki, 1988-ci ildən başlayaraq Qarabağ, o cümlədən ağdamlılar ağır günlər yaşayır. Daxili və xarici düşmənlərin fitnəkar əməlləri 100 mindən çox həmyerlimizi öz doğma ocaqlarından didərgin salmışdır. Biz Ağdam kimi tarixi bir şəhərimizi, 70-dən artıq abad qəsəbə və kəndimizi itirmişik.

Yeri gəlmişkən deyim ki, vaxtilə respublikaya rəhbərlik etdiyiniz illərdə Siz Ağdam rayonunu qarış-qarış gəzmisiniz. Ağdam şəhəri, rayonumuzun kəndləri məhz o illərdə çox böyük sür'ətlə inkişaf etmiş və abadlaşmışdı. Bunlar əslində Sizin əməyinizin bəhrəsi idi.

Daim firavan, xoşbəxt həyat sürmüş ağdamlılar təəssüf ki, 8 ildir dözülməz bəlalara düçar olublar. İndi onlar respublikanın 58 şəhər və rayonunda köçkün kimi yaşamağa məcburdurlar.

Vətəni, milləti öz şəxsi ambisiyalarına qurban verən, həyatın mə'nasını yalnız saxta şan-şöhrətdə, eyş-işrətdə görən kreslo hərislərinin çirkin niyyətləri, törətdikləri fitnəkar əməllər min illik tariximizi alt-üst etdi, müqəddəs adımıza xəyanət ləkəsi gətirdi. Ağdam 5 mindən artıq şəhid verdi. Tarixi abidələrimiz, əsrlər boyu hamımız üçün müqəddəs olan ata-baba qəbiristanlarımız düşmən



tapdağı altında qaldı. Ən dəhşətlisi isə odur ki, insanlar bir-birindən kənar düşdü, doğmalar ögeyləşdi. Ağsaqqallar, ağbirçəklər müxtəlif bölgələrə səpələndi, ağır dərd-sər bir çoxlarını dözülməz vəziyyətə saldı. Qarabağda, eləcə də bütün respublikada öz bütövlüyü, mənliyi, qeyrəti, namusu, dəyanəti, dostluğa sədaqəti ilə seçilən ağdamlılar bir çoxlarının tə'nə hədəfinə çevrildi.

İstər-istəməz belə bir sual ortaya çıxır: niyə belə oldu? Bunların hamısı təkcə düşmənlərimizin bizə qarşı apardığı ədalətsiz müharibənin günahıdırmı? Əlbəttə, yox. Əgər bir tərəfdən bizə bu ədalətsiz müharibə zərbə vurubsa, digər tərəfdən bunun baisi insan bədbəxtliyindən zövq alan, insanlıq ləyaqətini itirmiş, öz xalqına düşmən kəsilən simasızlardır.

Cənab Prezident! İcazənizlə, bir qədər əvvələ qayıtmaq, 1988-ci ildən Ağdamda gedən ictimai-siyasi, iqtisadi məqamlar barədə Sizə qısa mə'lumat vermək istəyirəm. Mə'lumdur ki, 1988-ci ildən səriştəsiz, qətiyyətsiz kadrların irəli çəkilməsi prosesi başlandı. Bu hal, sözsüz ki, yerlərə də sirayət etdi və rayonlarda da özbaşınalıq, intizamın zəifləməsi meylləri artdı. 1988-ci il fevral ayının 13-də isə Qarabağ alovunun ilk qığılcımları görünməyə başladı. Ermənilər Stepanakertdə mitinqlər keçirməyə başladılar. Respublika rəhbərliyinin heç bir reaksiyasını görməyən ağdamlılar isə e'tiraz əlaməti olaraq fevralın 22-də Əsgəran istiqamətində nümayiş-yürüş etdilər. Həmin gün on minlərlə ağdamlı Ağdam—Əsgəran yoluna çıxmışdı. Ətraf rayonlardan da adamlar ağdamlıların səsinə səs verərək həmin gün Ağdama gəlmişdilər. Ağdam ilk şəhidlərini həmin gün verdi, iki gəncimiz erməni gülləsinə tuş gəldi. O zaman həmin nümayişin qarşısı çox çətinliklə alındı. Lakin respublika rəhbərliyi tərəfindən heç bir əsaslı tədbir görülmədi. Əksinə, Ağdam respublikanı sarsıtmağa çalışan müxtəlif qüvvələrin maraq nöqtəsinə çevrildi.

O vaxtlar respublikaya rəhbərlik edən Kamran Bağırov da e'timadı doğrultmadı, son dərəcə acizlik və qorxaqlıq göstərdi. Halbuki elə hadisələrin başlanğıc məqamında tə'sirli tədbirlər görməklə hər şeyin qarşısını almaq olardı. Çünki ermənilər 1967-ci ildə də belə bir fikrə düşmüşdülər. Lakin o vaxt respublika Dövlət Təhlükəsizliyi Komitəsinin sədri kimi Sizin Stepanakertə gəlməyiniz və qətiyyətli hərəkətiniz bu işləri dərhal qaydaya saldı.

Səriştəsiz Vəzirov Moskva tərəfindən respublikaya rəhbər tə'yin edildi. Bütövlükdə Qarabağa ən böyük zərbəni özünü qarabağlı adlandıran Əbdürrəhman Vəzirov vurdu. Vəzirovun hakimiyyətə gəlişi ilə Ağdamın düşmənə verilməsinin bünövrəsi qoyuldu. Münaqişənin lap başlanğıcında Vəzirov Ağdama gəlmişdi. Onun rayon fəalları ilə söhbəti cəmi 15 dəqiqə çəkdi. O, hamını narahat edən erməni millətçiliyi məsələsindən bir kəlmə də danışmadı. Onun diqqətini bu

məsələyə nə qədər cəlb etmək istədilərsə, heç kimi eşitmədi. Vaxtının olmadığını deyib, bir neçə lağlağı, rəhbərə xas olmayan sözlər danışıb çıxıb getdi.

Vəzirovun günahlarını, xalqımıza vurduğu ağır zərbəni heç cür unutmaq olmaz. Bu qətiyyətsiz və ancaq Moskvanın göstərişləri ilə hərəkət edən adam yalnız ermənilərin xeyrinə çalışırdı. Belə bir fakt bunu sübut edir. Ağdamda olarkən ona müraciət edildi ki, Ermənistandan qovulan azərbaycanlıları Dağlıq Qarabağda və Ağdamın ermənilərlə sərhəd olan kəndlərində yerləşdirmək lazımdır. O isə qəti e'tiraz edərək dedi ki, siz nə danışırsınız, buna ermənilər heç cür razılıq verməzlər. Deməli, Vəzirova Moskvadan tapşırıq bu istiqamətdə verilmişdi. Tapşırıq verilmişdi ki, bütün rayonlarda sən yalnız hamam tikmək və qoz ağacı əkmək işinə baxmalısan, ermənilərin xətrinə dəyən hərəkət qəti qadağandır.

Fərasətsiz, səriştəsiz Vəzirov meydana çıxmış "cəbhə"çilərin əlində oyuncağa çevrildi. O, xalqın gözü qarşısında "cəbhə"çilərə elə yalvarırdı ki, elə bil, respublikanın rəhbəri o yox, "cəbhə"çilər idi. Tez-tez deyirdi: "Yoldaş prokuror, kömək edin". Vəzirov elə etdi ki, bütün tədbirlər Stepanakert əvəzinə Ağdama qarşı yönəldildi. Rayon rəhbərliyi tələsik dəyişdirildi. Rayona yerli kadr — Aydın Quliyev göndərildi. Bir neçə ay işlər öz axarı ilə getdi. Ancaq çox keçmədi ki, Xalq Cəbhəsinin meydana çıxması və fəallaşması rayonda vəziyyəti ağırlaşdırdı. 1990-cı ilin Yanvar qırğınının təşkilatçılarından biri olan Vəzirov Moskvaya qaçdı. Ayaz Mütəllibov hakimiyyətə gəldi. Ayaz Mütəllibov da Moskvanın diktəsini yerinə yetirməyə başladı. O, elə hərəkət edirdi ki, elə bil qırılan millət bununku deyil. Yanvar ayında Xalq Cəbhəsi gecə zor gücünə plenum çağırtdıraraq Aydın Quliyevin iste'fasını tələb etdi. Mərkəzi Komitə heç bir kömək göstərmədi. "Cəbhə"çilərin tələbinə əməl olunaraq həmin gecə Aydın Quliyev çıxarıldı, yerinə Səyyaf Verdiyev katib tə'yin edildi. Rəhbər orqanlardan nümayəndə kimi heç kim bu plenumda iştirak etmədi.

Əlbəttə, bu hadisədən sonra rayonda "cəbhə"çilər daha da fəallaşıb həyatın bütün sahələrinə müdaxilə etməyə başladılar. 1992-ci il fevralın 26-da hamının gözləmədiyi bir hadisə baş verdi. Ayaz Mütəllibov fərman verib aparat işi ilə heç bir əlaqəsi olmayan, tədarük idarəsində müdir işləyən Gündüz Axundovu Ağdama icra hakimiyyəti başçısı göndərdi. Bu isə rayonda belə qiymətləndirildi ki, respublikada hakimiyyət yoxdur. Çox keçmədi ki, — 1992-ci ilin avqustunda rayonda Xalq Cəbhəsi hakimiyyətə gəldi. Dərhal Gündüz Axundov vəzifədən kənar edilib, yerinə ictimai iaşə idarəsində işləmiş Nadir İsmayılov qoyuldu. Bu, əlbəttə, ağdamlılar üçün əvvəlkindən də böyük təhqir idi. Beləliklə, vəziyyəti gündən-günə pisləşən Ağdamda rəhbərlik 6 ildə 7 dəfə dəyişdirilmişdir. Belə şəraitdə hansı məqsədyönlü təşkilati işdən söhbət gedə bilərdi?



Hörmətli Prezident, mən bunları ona görə xatırladıram ki, Vəzirovun, Ayaz Mütəllibovun, Xalq Cəbhəsinin və onların yerlərdəki nümayəndələrinin hakimiyyət başına gəlməsi ilə Ağdamın işğalının bünövrəsi qoyuldu. Ancaq biz bunları gec anladıq.

1988-ci ildən 1992-ci ilin avqust-sentyabr aylarına kimi Ağdam bütün Qarabağın ümid və dayaq məntəqəsinə çevrilmişdi. O zamankı DQMV-nin azərbaycanlılar yaşayan bütün kəndləri ilə Ağdam gündəlik əlaqə yaradıb, onlara gizli yolla ərzaq və hətta silah göndərirdi. Ermənilər azərbaycanlı kəndlərinə hücum edib yandıranda və əhalisini vəhşicəsinə qovanda onların hamısını ağdamlılar öz doğmaları kimi aylarla evlərində saxlamışlar. Bunların çoxu əhalinin öz təşəbbüsü ilə görülən işlər idi.

Mən Xocalı faciəsini xüsusilə qeyd etmək istəyirəm. Həmin gün ağdamlılar ən ağır günlərini yaşadılar, bütün Xocalı qaçqınlarını meşələrdən, dərələrdən ağdamlılar yığıb öz evlərinə gətirdilər. Həmin günlər Ağdam məscidində yüzlərlə şəhid son mənzilə yola salındı. Xocalının harayına ağdamlılar daim cavab verirdilər. Lakin respublikanın o zamankı rəhbərliyinin və onların əlaltılarının xəyanəti Xocalını müdafiə etməyə, xilas etməyə imkan vermədi.

Hörmətli görüş iştirakçıları! Mən bir faktı olduğu kimi sizin nəzərinizə çatdırıram. Xocalının çox ağır günləri idi. Xocalı radio rabitəsində bir qız işləyirdi. O hər gün fəryad edir, kömək istəyirdi. Həmin günlər Ağdamda prezidentin səlahiyyətli nümayəndəsi olan Musa Məmmədov Ağdam hava limanından zəng edib, köməyə vertolyot istəyirdi, Bakıda Ali Sovetin sədr müavini Tamerlan Qarayevlə, general Musayevlə, Prezident Aparatı ilə danışırdı. Onlar da deyirdilər ki, vertolyot Gəncədən havaya qalxdı. Lakin bir neçə saatdan sonra yenə də Xocalıdan həmin qızın radio-telefonla fəryad səsləri eşidilirdi. Xocalı faciəsinin başlanmasına qalmış son 3 gündə Ağdamda hər cür hazırlıq gedir, Xocalıya yol açmaq üçün planlar müəyyən edilirdi. Hər dəfə də Fəhmin Hacıyev telefona çağırılır, sonra isə çox şən halda qayıdaraq əməliyyatın aparılmasına icazə verilmədiyini bildirirdi. Elə bil, insanların taleyi həll olunmurdu. Xocalı soyqırımı baş verən gün də bu məsələ eyni ilə təkrar edildi. Nəticədə Xocalı yerlə-yeksan olundu.

Görəsən Fəhmin Hacıyev heç olmasa bu gün həmin əmrlərin ona kim tərəfindən verildiyini istintaq orqanlarına deyibmi? Bizim fikrimizcə, o, həmin əmrləri yalnız respublika rəhbərliyindən və ya Xalq Cəbhəsindən ala bilərdi. Ona görə də, cənab Prezident, mən deyərdim ki, Xocalı faciəsinin birbaşa günahkarı, o vaxtkı respublika rəhbərliyi, Ayaz Mütəllibov, Fəhmin Hacıyev və Xalq Cəbhəsinin liderləridir.

1990-cı ilin yanvarında əli xalqın qanına batmış bu adamın —

Ayaz Mütəllibovun o vaxt nəinki Sovet İttifaqında, hətta Azərbaycanın özündə də heç bir hörməti yox idi. Mən bir faktı sizin nəzərinizə çatdırmaq istəyirəm. Dağlıq Qarabağ hadisələrinin ilk dövrlərində guya münasibətləri normal qaydaya salmaq məqsədi ilə Yeltsin, Nazarbayev və Mütəllibov Dağlıq Qarabağa gəlmişdilər. Ermənilər Xocalı hava limanında Yeltsini və Nazarbayevi qarşılayıb aparmış, Ayaz Mütəllibova heç bir diqqət göstərən olmamışdı. Sonradan onu başqa maşınla yola salmışdılar. Məncə, bu adamın nüfuzu və şəxsiyyəti haqqında əlavə şərhə ehtiyac yoxdur.

Respublika rəhbərliyinin belə bir adama tapşırılması, sözsüz ki, Ağdama da öz tə'sirini göstərməyə bilməzdi. Bayaq dediyim kimi, Ağdam hadisələrin ən qaynar nöqtəsi idi və respublikadakı müxtəlif qüvvələrin hamısı bu qaynar nöqtədən öz çirkin niyyətləri üçün istifadə etməyə çalışırdı. Xüsusilə AXC-nin üzdəniraq liderləri Ağdamı daim diqqət mərkəzində saxlayırdılar. Başda Əbülfəz Elçibəy olmaqla Rəhim Qazıyev, Tofiq Qasımov, Fəhmin Hacıyev, Tamerlan Qarayev, İsa Qəmbərov, Ne'mət Pənahov, Arif Hacıyev və başqaları növbə ilə Ağdama gəlir, həftələrlə burada qalırdılar. Onlar elə özləri ağılda olan adamlarla əlaqə saxlayır və əsas vəzifələrini rayonda aranı qarışdırmaqda görürdülər. Ayaz Mütəllibovun, Surət Hüseynovun adamları da Ağdama ayaq açmışdılar. Guya ağdamlılara kömək etmək istəyirdilər.

Mütəllibovun yaxın dostu Tarix Quliyev bunların içərisində xüsusilə seçilirdi. O, guya kömək məqsədi ilə bütün batalyonlara baş çəkir, var gücü ilə Ayaz Mütəllibovu təbliğ edirdi. Bu, həmin Tarix Quliyev idi ki, sonralar Əjdər Xanbabayev kimi qeyrətli insanı qətlə yetirdi və öz layiqli cəzasını aldı.

Ağdamda digər xoşagəlməz hallar da baş verirdi. Ayrı-ayrı dəstələr, qruplar müxtəlif bəhanələrlə pul yığırdılar. Bu pulların sonradan hara xərclənməsi isə mə'lum olmurdu. Hətta respublika səviyyəsində Ağdamda pul toplanmasına başlandı. Mütəllibovun göstərişi ilə ayrı-ayrı rayonlardan prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəliyinə külli miqdarda pullar gəlirdi. Onun qərargahı isə Ağdamda yerləşirdi. Bu pulların müəyyən qismi ayrı-ayrı dəstələrə verilir, qalanı isə silah, sursat almaq adı altında yoxa çıxırdı. O vaxt yaradılmış "Qarabağa xalq yardımı" fondu adı ilə milyon manatlarla pul saxta cədvəllər tərtib edilərək mənimsənilir, ancaq Qarabağın, Ağdamın müdafiəsi üçün heç bir iş görülmürdü.

Nəhayət, Ağdam ermənilər tərəfindən ilk zərbəni 1992-ci il sentyabr ayının 4-də Abdal-Gülablı kəndinin işğal olunması ilə aldı. Bu kənd strateji cəhətdən çox mühüm yüksəklikdə yerləşir. Həmin yüksəkliyin ermənilər tərəfindən alınması Ağdam şəhərinin birbaşa təhlükədə qalmasına şərait yaradırdı. Abdal-Gülablı kəndi 9 erməni



kəndinin əhatəsində yerləşir. Əvvəllər həmin kəndi yerli özünümüdafiə dəstələri qoruyurdu. 1992-ci ilin avqust ayından əhalini zorla kənddən çıxarıb yerli müdafiə dəstələrini ləğv etdilər. Onların yerinə Daxili İşlər Nazirliyinin batalyonu, Şəki batalyonu, Sumqayıt polis dəstəsi, Faiq Baxşəliyevin batalyonu yerləşdirildi. Bunlara rəhbərlik isə Bakının Bülbülə qəsəbəsindən olan Müşfiq adlı bir nəfərə tapşırıldı.

Sentyabrın 3-ü gecəsi bu hissələr kəndi qəflətən tərk etdilər. Sentyabrın 4-də isə ermənilər boş kəndi işğal edib yandırdılar. Abdal-Gülablı kəndinin düşmənə döyüşsüz təslim edilməsində xain Faiq Baxşəliyev öz mənhus rolunu oynadı. O, öz dəstəsini döyüş mövqeyindən çıxararaq kəndi ermənilərə müqavimətsiz təhvil verdi. Onu da qeyd etmək istəyirəm ki, Ağdam ətrafındakı bütün yüksəkliklərin düşmənə verilməsində bu iblis xislətli adam günahkardır. Ağdam şəhərinin müdafiəsi üçün strateji cəhətdən çox qiymətli olan Cinli, Yeddixırman və Papravənd yüksəklikləri də onun xəyanətinin qurbanı olmuşdur. Hətta Faiq Baxşəliyev ayrı-ayrı yerlərdə deyirdi ki, "Bərdə, Tərtər rayonları gedəcək, sonra Mütəllibov hakimiyyətə gələcək, torpaqlar qaytarılacaqdır".

Ermənilər nə vaxt hücuma keçibsə, Faiq Baxşəliyev həmişə icazə alıb Bakıya qaçıb ki, alay başsız qalsın, dağılsın, düşmənə verilən yer onun boynunda qalmasın.

Məsələn, Nəmirli və Cəvahirli kəndlərinin əlimizdən getməsi zamanı Faiq Baxşəliyev Rövşən Cavadovdan icazə alıb aradan çıxmışdı. Onu da deyim ki, bu azğınlaşmış quldur öz çirkin əməllərindən sonralar da əl çəkmədi və oktyabr—mart hadisələrinin fəal iştirakçısına çevrildi. Mütəllibovun xəyanət mafiyasına xidmət edən bu ləyaqətsiz adam hətta polis batalyonundan özü kimilərini başına toplayaraq Bakının 8-ci Kilometr qəsəbəsinə, Rövşən və Mahir Cavadov qardaşlarına köməyə getmişdi. Bundan sonra o, qaçmış, xeyli vaxt axtarışda olmuşdu. Axtarışda olarkən o, daha dəhşətli xəyanətə əl atmışdır. Təsadüfi deyildi ki, xaricdən qayıdan prezident təyyarəsinə raket qurğusundan atəş açmaq göstərişi məhz bu şərəfsizə verilmişdi. Ancaq xainlər, sui-qəsdçilər bilmirdilər ki, ilahi qüvvə buna imkan verməz və bir daha bu milləti başsız qoymaz.

Mən yenə də Ağdamın ətraf kəndlərinin işğalı mövzusuna qayıtmaq istəyirəm. Abdal-Gülablı kəndinin yağı düşmənə təslim edilməsi rayon əhalisini yenidən səfərbər etdi. Bu kəndlərin ermənilərə verilməsi "cəbhə"çilərin fəaliyyətinin ilk nəticəsi idi. Özünümüdafiə dəstələri yenidən gücləndi, xüsusilə yüksəkliklər ciddi nəzarətə götürüldü. Lakin daxili düşmənlər öz işlərini görür, rayonda təxribat əməlləri getdikcə genişlənirdi. Yaradılmış dəstələr özününküləşdirilir, vahid komandanlıq və səriştəli rəhbərlik olmadan əməliyyatlar hazırlanırdı. Rayonun kəndlərinə, hətta şəhərin özünə hər gün toplardan və "Qrad"

qurğularından atəş açılır, evlər dağılır, ölən və yaralananlar olurdu. Adamlar vahimə və qorxu içərisində yaşamaqdan bezib kəndləri və şəhəri tərk etməyə məcbur olurdular. Hamı yaxşı bilir ki, Ağdamın ən ağır, faciəli günləri AXC-nin rəhbərliyi dövründə oldu. Bu az müddətdə Ağdamın 60-dan çox kəndi işğal edildi, şəhər özü isə iflic vəziyyətinə salındı.

1993-cü ilin mart—may aylarında isə ermənilər daha da fəallaşaraq şəhərin ətrafındakı bütün yüksəklikləri işğal etmişdilər. Şəhər ardı-arası kəsilmədən raket və top atəşinə tutulurdu. Ölən və yaralananların sayı hər gün artırdı. Belə günlərin birində Əbülfəz Elçibəy Ağdama gəldi. Əhali prezidentin gəlişinə sevinərək icra hakimiyyəti aparatının qarşısına yığışdı. Xeyli gözlədikdən sonra əhalinin tələbi ilə Əbülfəz Elçibəy binanın qarşısına çıxdı, yığılan adamlara üzünü tutub dedi: "Bir az dözün, hər iş qaydasına düşəcək". O, nə hərbi vəziyyətdən, nə də hökumətin görəcəyi tədbirlərdən bir kəlmə də olsun danışmadı. Elə bu an yaxın məsafəyə bir top mərmisi düşdü. Elçibəy tez əlini qaldırıb: "Gedin, gedin, bədbəxt hadisə olar", deyərək içəri keçdi. Heç beş dəqiqə keçmədi ki, dövlət başçısı maşınların müşayiəti ilə şəhəri tərk etdi. Bir yaşlı qadın dözmədi, onu saxlayıb dedi: "Kül bu millətin başına ki, prezidenti sənsən. Prezidenti sən olan ölkənin bu, hələ yaxşı günüdür". Sonradan mə'lum oldu ki, o, rayona "cəbhə"çilərin bir-biri ilə didişməsinin qarşısını almaq üçün gəlibmiş. Əbülfəz Elçibəy Ağdama iki dəfə gəlib, birində də sərxoş olub, gecə səhərə yaxın — saat 5-də xaş yeməyə gəlib, yalnız öz "cəbhə"çiləri ilə görüşüb qayıdıb.

Mən çox üzr istəyirəm, ola bilsin ki, təkrar kimi səslənəcək, lakin bu, acı həqiqətdir ki, bizim başımıza gələn bütün müsibətlər üzdəniraq rəhbərlərin fəaliyyətinin nəticəsidir. Yaqub Məmmədov da Ali Sovetin sədri olanda Ağdama gəldi və polis idarəsində müşavirə keçirdi. Rəhim Qazıyev də onunla gəlmişdi. Yaqub Məmmədov çıxışına bu sözlərlə başladı: "Allaha çox şükürlər olsun ki, bizim Rəhim Qazıyevlə üç gün gecəli-gündüzlü apardığımız söhbətlər nəticəsiz qalmadı. Nəhayət, çox böyük çətinliklərdən sonra Rəhim Qazıyev müdafiə naziri olmağa razılıq verdi. İndi Azərbaycanda Qarabağ problemi tezliklə həll ediləcək. Biz buna inanırıq".

Rəhim Qazıyevi isə Ağdamda hamı yaxşı tanıyırdı. Onun necə simasız, araqızışdıran və şərəfsiz bir adam olduğunu hamı yaxşı bilirdi. Çünki o, bir az əvvəl Ağdamda yayda sərxoş olub iki böyük nəsli bir-birinə qarşı qoymuş, iki yaxın dostu bir-birinə düşmən etmişdi. Ona görə də Yaqub Məmmədovun bu sözlərindən sonra salondakılar təəccüblə bir-birinin üzünə baxdılar. Respublika başçısının bu yaramaz ünsürə belə yüksək qiymət verməsi hamını şok vəziyyətinə saldı.



Yaqub Məmmədovun o görüşdə ikinci "qələbəsi" Rəhim Qazıyevin yaxın dostları olan yerli batalyon komandirləri Allahverdi Bağırovu və Yaqub Rzayevi bir-biri ilə barışdırmaq oldu. Allahverdi Bağırov "cəbhə"nin batalyonunun, Yaqub Rzayev isə Surət Hüseynovun batalyonunun komandiri idi. Yaqub Məmmədov salonda onları öpüşdürdükdən sonra dedi: "Mən belə güman edirəm ki, böyük iş gördük və qələbəmiz tə'min ediləcək". Bununla da Yaqub Məmmədov öz işini bitmiş hesab edərək çıxıb getdi.

Ayaz Mütəllibov isə bir dəfə də olsun Qarabağa gəlmədi. Hətta 1991-ci il noyabrın 20-də Qarakənd üzərində vertolyot vurulduqda belə, respublikanın rəhbər işçilərindən hadisə yerinə gələn olmadı. Əsl həqiqəti xalqdan gizlətdilər. Həmin gün normal uçuş havası olduğu halda bu hadisəni "dumanlı hava nəticəsində baş vermiş adi bir qəza" kimi qələmə verdilər.

Bir sözlə, o zaman xalqın ən böyük faciəsi bunda idi ki, nə ölkə, nə də rayonlar idarə olunmurdu. Hər yerdə olduğu kimi, Ağdamda da 1993-cü ilin birinci yarısına qədər rayonun sərvəti talan olunub dağıdılırdı.

Cənab Prezident, 1993-cü il yanvarın 1-nə Ağdamda 107 min baş qoyun, 17 min baş qaramal olub. Ancaq Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra və onların fəaliyyəti dövründə — yeddinci ayda ki, onlar öz fəaliyyətlərinə xitam verdilər, ona qədər 107 min başdan 38 min baş qoyun qalmışdı, 67 min baş qoyunu məhv etmişdilər. 17 min baş qaramaldan isə 4.500 başını tələf etmişdilər, özləri istədikləri kimi hərəkət etmiş, məhv eləmişdilər. Yerdə qalan 12 min başın 10.700 başı isə Qasım Kərimovun vaxtında ayrı-ayrı rayonlara paylanıb məhv edilmişdir.

Şərab zavodları boşaldılıb namə'lum istiqamətə aparıldı. Təkcə bir gecədə Pənah Hüseynovun göstərişi ilə onun qardaşı Ağdamdan Sankt-Peterburq şəhərindəki "Ararat" zavoduna 30 vaqon şərab göndərmişdi. "Cəbhə"çilərin yalnız bir şüarı var idi: "Əgər bizə qalmırsa, heç kimə qalmayacaq". Onlar bunu öz yığıncaqlarında da açıq deyirdilər. Cənab Prezident, onlar buna aid bir məsəl də gətirirdilər ki, bir keçəlin başının dərisinə yüksək qiymət qoyurlar, görür ki, başının dərisini soymaq istəyirlər, qaça-qaça ülgücü başına çəkir və deyir ki, mənə qalmayan başın dərisi heç kəsə qalmasın. "Cəbhə"çilər həmişə bu prinsipi əsas tutur, özlərinin toplantısında da bu məsəli çəkir və bu prinsiplə də hərəkət edir, rayonu dağıtmaqla özlərinə mülk yığırdılar.

Bütün səriştəli adamlar işdən kənarlaşdırıldı. Onların yerinə savadsız, təcrübəsiz, ömründə bir gün də olsa dövlət işində işləməyən, tüfeyli həyat sürən, dəfələrlə cinayət etmiş adamlar tə'yin olunurdu. Bu da əhali arasında inamsızlıq yaradır, qayda-qanun yox dərəcəsinə

enirdi, rayon daha da idarəolunmaz vəziyyətə düşürdü. Təəccüb doğuran hal o idi ki, uzun illər təcrübə toplamış, səriştəli, bacarıqlı kadrlar işdən çıxan kimi susur, heç bir müqavimət göstərmədən dərhal rayonu tərk edirdilər. Köhnə rəhbərlikdən yalnız rayon Sovetinin sədri və rayon prokuroru bütün təzyiqlərə dözərək, tutduqları vəzifələri axıradək tərk etmədilər.

Xalq Cəbhəsinin hakimiyyəti dövründə özbaşınalıqlar və hərc-mərclik rayonu elə vəziyyətə gətirib çıxarmışdı ki, torpaqların müdafiəsi yaddan çıxmış, şəxsi mənafelər hər şeyi üstələmişdi. Bunu yaxşı bilən ermənilər nəhayət, 1993-cü ilin mart—aprel aylarında bir neçə istiqamətdən Ağdam şəhərini və ona yaxın kəndləri hər gün atəşə tutmağa başladılar. Şelli, Xıdırlı, Qalayçılar, Papravənd, Yeddixırman yüksəklikləri xəyanətlər nəticəsində düşmənə təslim edildi. Respublika rəhbərləri hər gün televiziya və radio ilə çıxış edirdilər. Təəccüblü burasıdır ki, hərbi senzuranın tələblərinə əməl olunmur, zəif müdafiə edilən nöqtələrin adı çəkilirdi. Ermənilər isə dərhal həmin istiqamətdə hücuma keçir və heç bir çətinlik çəkmədən istədiklərinə nail olurdular.

Ağdamda 11 özünümüdafiə batalyonu fəaliyyət göstərirdi. Onlar bir-biri ilə mehriban olub torpaqlarımızı o vaxta qədər müdafiə etdilər ki, həmin batalyonlar siyasətçilər tərəfindən ələ alındılar. Onlardan üçü Xalq Cəbhəsinə, ikisi Surətə, biri isə (Xudu Xuduyev) Mütəllibova xidmət etməyə başladı. Torpağın müdafiəsi qaldı kənarda, onların göstəriş və tapşırıqları yerinə yetirilməyə başlandı. Müharibə gedən bir bölgədən "cəbhə"çilər öz kreslolarını qorumaq üçün 1993-cü il iyunun 2-də 8 ədəd 40 lüləli "Qrad" qurğusunu, 6 ədəd "D—30" topunu, nə qədər də əsgəri çıxarıb Gəncəyə — Surət Hüseynovun hüzuruna apardılar. O da onları ora aparanların əlindən alıb vermədi. Bölgə boş qaldı. Ağsaqqallar minnətə getdilər ki, silahları qaytar, erməniyə qarşı müharibədə işlədilsin, Surət vermədi.

Yerli özünümüdafiə batalyonu düşmənin qarşısında e'tibarlı bir sipər idi. Düşmən bu istiqamətdən bir dəfə də olsun irəliləyə bilməmişdi. Əksinə, Papravənd özünümüdafiə batalyonu dəfələrlə Ağdərədə və onun ətraf kəndlərində ermənilərə güclü zərbə vurmuş, Azərbaycan kəndlərini geri almışdı. Ermənilər yaxşı bilirdilər ki, Papravənd yüksəkliyini, Papravənd və Boyəhmədli kəndlərini işğal etmədən Ağdam şəhərinə girmək mümkün deyildir. Ona görə də düşmənin bu istiqamətə diqqəti çox güclü idi.

Bir qədər qeyri-təvazökar səslənsə də, onu deməliyəm və ağdamlılar bilirlər ki, həmin özünümüdafiə batalyonuna mən rəhbərlik edirdim. 1992-ci ilin avqustunda Gündüz Axundovu əvəz edən Nadir İsmayılov mənə dedi ki, sənin fəaliyyətin bitdi, get başqa işlə məşğul ol. Təəssüf ki, həmin istiqamətdə özünümüdafiə batalyonunu əvəz edən qüvvələr öz vəzifələrini yerinə yetirə bilmədilər.



Nəhayət, 1992-ci ilin axır aylarından başlanan Vəng—Dovşanlı əməliyyatından danışmaq istəyirəm. Müharibənin gedişinin ermənilərin xeyrinə dəyişməsinin bünövrəsi Surət Hüseynov və "cəbhə"çilər tərəfindən elə burada qoyuldu. Surət Hüsenyov kömək əvəzinə iki min nəfərlik qoşunu bir cığırla Fərrux istiqamətindən çıxardı ki, mən bu istiqamətdən Vənkə çıxacağam. Ancaq onun əməliyyatı ayrı cür olmalı idi. Hörmətli generalımız Nəcməddin Sadıqov da buradadır, — ona köməyə getməli, Vəng—Dovşanlı istiqamətində ona kömək etməli, o kəndlər alınmalı idi və bununla da ermənilərin qaçması, özlərinin dediyinə görə, oradan köçməsi başlanmalı idi. Surət Hüseynov bunun əksinə edərək qoşunu götürüb aradan çıxdı. Burada bir şeyi də qeyd etmək istəyirəm ki, Quru çaylaqda Şəmkir batalyonu 250 nəfərlə və öz texnikası ilə qaçanda biz Nəcməddin Sadıqov gələnə qədər onları yalvar-yapışla saxladıq. O, Umudludan gəldi, onlara nə qədər əmr verdi ki, mən briqada komandiriyəm, siz geriyə — postlarınıza qayıtmalısınız, onlar qayıtmadılar. Dedilər ki, Surət Hüseynovun əmridir, biz Gəncəyə getməliyik.

Abdal-Gülablı kəndini geri qaytarmaq üçün 1992-ci ilin oktyabr—noyabr aylarında Əfətli kəndindəki orta məktəb binasında yerləşən batalyonun 18 nəfər döyüşçüsünün ölümünə Surət Hüseynov və "cəbhə"çilər bais oldular. Surət Hüseynov korpus komandiri kimi gəlib orada görüş keçirdiyi vaxt o bina partladıldı. Surət isə öz növbəsində ağdamlılara düşmən kəsildi ki, mən burada yığıncaq keçirdiyimə görə Ağdam rayonunun rəhbəri yuxarı rəhbərlərin tapşırığı ilə məni aradan götürmək istəyir, yə'ni "cəbhə"çilərin tapşırığı idi bu. Arada isə əməliyyata hazırlaşan 18 gənc məhv oldu. Bəlkə də hər iki tərəfin məsləhəti ilə əməliyyatları pozmaq üçün, həmin kəndin alınmasının qarşısını almaq üçün qurğu qurmuş, hücuma hazırlaşan 18 gəncin qətlinə fərman vermişdilər.

Yaxud belə bir faktı deyim. Ağdamda ruhi xəstəxanada olan xəstələri "cəbhə"çilər öldürdülər ki, əhalidə qorxu, vahimə yaratsınlar, camaat rayonu tərk etsin. Rayonu boşaltsınlar və desinlər ki, ermənilər rayonu alıblar.

Bu ziddiyyətlərdən istifadə edən ermənilər sür'ətlə torpaqları yenidən zəbt etdikdən sonra — 1993-cü ilin mart ayında Papravənd, Şahbulaq istiqamətində geniş hücuma başladılar. Lakin onların hücumlarının qarşısı alındı.

Yeri gəlmişkən, mən o dövrün bə'zi hadisələrini diqqətinizə çatdırmaq istəyirəm. 1993-cü ilin mart ayında daxili qoşunların Papravənd istiqamətində olan döyüşçülərinə Sabir Şabanov komandirlik edirdi. Qızğın döyüş gedən vaxt Fəhmin Hacıyev buraya gəldi. Bir az döyüşə baxdıqdan sonra dedi ki, burada bu uşaqları qırdırmağın mə'nası yoxdur. O, döyüşçüləri tutduqları mövqelərdən

çıxarmaq istəyirdi. Mübahisəmiz düşdü. Mən ona dedim ki, axı hələ bu mövqelərdən irəlidə bizim kəndin döyüşçüləri var. Lakin, görünür, Fəhmin Hacıyev torpaqların düşmənə verilməsini sür'ətləndirmək istəyirdi. O, məqsədinin həyata keçməyəcəyini görüb dedi ki, yaxşı, gedirəm, sizə kömək göndərəcəyəm. Bir aydan çox gözlədik, kömək gəlmədi. Bu, onun Xocalı faciəsində də verdiyi və'dlərdən biri idi.

Ara-sıra atışmalar nəzərə alınmasa, demək olar ki, 1993-cü il iyunun 19-na qədər döyüş olmadı. İyunun 19-dan 26-na qədər Papravənd—Boyəhmədli, Şahbulaq istiqamətində hər gün güclü döyüşlər getdi. İyun ayının 25-də Nadir İsmayılovun kabinetində prezident qvardiyasının komandiri, post keşik alayının komandiri Faiq Baxşəliyev, daxili qoşunların komandiri Məmməd Hacıyev ilə söhbətdən sonra iyunun 26-na keçən gecə həmin istiqamətlərdən qoşun çıxarıldı və dedilər ki, Surətin qoşunu gəlib sizi mühafizə edəcək. Həmin gecə saat 4-də ermənilər hücuma keçdilər. Boş qalmış ərazidən hücum edən ermənilər Qılınc dağında duran əsgərlərimizin asanlıqla arxasına keçib onları mühasirəyə almaq istədilər. Faiq Baxşəliyev Cinli və Yeddixırman yüksəkliklərini bir-iki gün boş qoyduqdan sonra Şahbulaq yüksəkliyini ermənilərə verdi. Bu, əvvəlki prinsip idi ki, "bizə qalmayan hakimiyyət heç kəsə qalmasın".

Burada, cənab Prezident, bir haşiyə də çıxmaq istəyirəm ki, onun mayor Vitali Salmanov adlı qərargah rəisi var idi. Ona verilən əmrləri yerinə yetirmədiyinə görə və bunu haradasa açıb deyəcəyinə görə həmin əməliyyatdan sonra Faiq Baxşəliyev onun da qətlinə fərman verdi.

1993-cü il iyun ayının əvvəllərində ermənilər Mərzili, Bağbanlar, Şıxbabalı istiqamətindən güclü hücumlar etdilər. Onlar Qarqar kənarına, Saybalı kəndinə kimi gəldilər. Lakin yerli əhali yenə də işğalçılarla ölüm-dirim müharibəsi apararaq onların şəhərə yaxınlaşmasına imkan vermirdi. Qeyd etməliyəm ki, Ağdamın mərd oğulları şəhərin müdafiəsi uğrunda 43 gün üzbəüz döyüş apardılar. Hətta Muradbəyli istiqamətində Asif Məhərrəmovun komandirlik etdiyi batalyon 1993-cü il iyulun 22-də səhər saat 7-yə qədər düşmənlə üzbəüz döyüşürdü.

Cənab Prezident! Ağdamlıların əksəriyyətinin fikri budur ki, Ağdam şəhərinin faciəsi xalqın düşməni Surət Hüseynov və "cəbhəçi"lər, Ayaz Mütəllibov, Vəzirov, Yaqub Məmmədov kimi bacarıqsız rəhbərlərlə bağlıdır. 1992-ci ilin payızında rayonda Surət Hüseynovun adı tez-tez hallanırdı. Onun tezliklə erməniləri məhv edəcəyi barədə dediyi sözlərə hətta bir çoxları inanmışdı. Prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəliyi Ağdam şəhərində yerləşsə də, Surət Hüseynov bir dəfə də olsun Ağdama gəlməmişdi, yüz kilometr məsafədə olan Yevlax yun zavodunda oturardu. Çox təsadüfi hallarda



Ağdama gələndə də onu mühafizə edən hərbçilərin və maşınların sayı-hesabı olmurdu. Məhz buna görə də Ağdam əhalisinin əksəriyyəti Surət Hüseynova və onun qələbəsinə inanmırdı.

1992-ci ilin noyabr ayından başlayaraq Surət Hüseynovun hərbi dəstələrinin plansız hücumları yerli əhalinin qələbəyə olan inamını qırırdı. Şəhər işğal olunarsa, ailə üzvlərinin girov düşəcəyindən qorxan əhali getdikcə şəhəri tərk edirdi.

1993-cü il iyun ayının 12-dən başlayaraq ermənilər Ağdam şəhərini və onun ətrafını güclü atəşə tutdular. Rayonda söz yayılmışdı ki, Surət Hüseynovun hazırlıq keçmiş dəstəsi var, düşməni tezliklə məhv edəcək. Nəhayət, 1993-cü il iyul ayının əvvəllərində Surət Hüseynova tabe olan 709 nömrəli hərbi hissə çox böyük təmtəraqla Ağdama gəldi. Keçmiş icra hakimiyyətinin başçısı N.İsmayılov və onun komandası bu hissəni gül-çiçəklə qarşıladı. Şəhərə daxil olan, küçələrdə nizamsız halda hərəkət edən, üzərinə "Surət Hüsenyov" yazılmış PDM-lər, tanklar yerli əhali arasında vahimə yaradırdı. Surət Hüseynovun adından danışan Yura ləqəbli Rəsul Süleymanovu dərhal korpus komandiri, Eldar Əliyevi isə briqada komandiri kimi təqdim etdilər. Bildirdilər ki, rayona Yura rəhbərlik edəcək, bütün hərbi hissələr və dövlət təşkilatları ona tabedir, bütün məsələlər onun göstərişi və tapşırığı ilə həll olunacaqdır. O özü isə dedi ki, bu səlahiyyətləri ona Surət Hüseynov vermişdir.

Elə həmin gün bu dəstə Şelli və Əhmədavar, Əsgəran istiqamətində irəlilədi, ermənilər mövqelərindən geri çəkildilər. Əhalidə bir balaca ümid yarandı. Yerli dəstələrin öz mövqelərindən kənarlaşdırılması üçün komanda verildi. Biz Yura ilə görüşdük və söhbət elədik. Onlar deyirdilər ki, sizinkilər bizə arxadan atırlar, ona görə də yerli batalyonların hamısı mövqelərdən çıxmalıdır. Biz dedik ki, siz gəlib bizim evlərimizi müdafiə eləyirsinizsə, biz nəyə görə sizə atmalıyıq? Nə isə, çox mübahisədən sonra onlar dediklərini elədilər. Elə bil hər bir gediş əvvəlcə planlaşdırılmış, ermənilərlə razılaşdırılmışdı.

Surətin dəstəsi gələn günün səhəri xəbər alındı ki, bu gecə həmin dəstə bütün hey'əti ilə şəhərin aşağı istiqamətindəki yeməkxananı öz sərəncamına götürüb və səhərə kimi yemək-içməklə məşğul olub. Yura da onlarla birlikdə olub. Bir gün keçməmiş hamının təəccüb etdiyi bir hadisə baş verdi. Düşmən tərəfdən Ağdam şəhəri güclü atəşə tutuldu. Çoxlu hərbi texnikaya, döyüş sursatına malik olan və əhalidə az da olsa inam yaradan Surətin qüvvələri tərəfindən isə ermənilərə heç bir cavab atəşi açılmadı. Əksinə, xəbər yayıldı ki, ermənilər Surət Hüseynovun qoşunları olan mövqelərə atəş açmırlar. Biz rayon Sovetinin sədri N.Mirzəyevlə birlikdə Yuranın yanına getdik. O, şəhərin girəcəyində uşaq xəstəxanasının binasında özü üçün qərargah yaratmışdı. Nədənsə onlar həmişə qərargah üçün belə yerlər

seçirdilər. Ancaq gedişimiz mə'nasız oldu. O, bizi xeyli gözlətdikdən sonra xəbər göndərdi ki, "mən yalnız rayon icra hakimiyyətinin başçısı N.İsmayılovu tanıyıram və başqa heç kəsi qəbul etməyəcəyəm. S.Hüseynov məni Gəncəyə çağırıb, ora gedirəm".

Rayonda vəziyyət çox ciddi şəkil alırdı. Onlar hər gün yeyib-içməklə məşğul olur, döyüş əhval-ruhiyyəsi görünmürdü. O vaxtlar ermənilər Şelli istiqamətindən güclü hücuma keçərək mövqelərimizi ələ almaq istəyirdilər. Həmin kənddə güclü özünümüdafiə dəstəsi var idi, əhali ilə birlikdə xeyli itki versə də kəndi tərk etmirdi. Lakin 1993-cü il iyulun 4-də yerli batalyonlar ərazidən zorla çıxarılaraq onların mövqelərində 709 nömrəli hərbi hissə yerləşdirildi. Həmin gecə, yə'ni 1993-cü il iyulun 5-də kənddə bir neçə ev yandırıldı, gənclər və qocalar kəndlərdən zorla çıxarılmağa başladı. Hətta onların öz ev əşyalarını aparmalarına da imkan vermədilər. 1993-cü il iyulun 6-da Şelli kənd sakini Mustafa Əvəz oğlu Behbudov öz ev əşyalarını yığarkən 709 nömrəli hissənin əskərləri onu döymüş, sonra bıçaqla döş qəfəsindən yaralamışdılar. Onun 15 milyon manat pulunu zorla almışdılar. Əskərlərin kəndi qarət etməsi ilə razılaşmayan sakinləri dərhal öldürürdülər. İcra hakimiyyətinin həmin ərazi üzrə nümayəndəsi Fazil Vəliyevin verdiyi rəsmi mə'lumatda deyilir ki, 1993-cü il iyulun 6-da 709 nömrəli hissənin əskərləri tərəfindən Şelli kəndində yerli sakinlər Aslanov Vidadi Kazım oğlu, Aslanov Hasil Kazım oğlu, Sarıyev Rasim Ramiz oğlu, ruhi xəstə Qurbanova Elmira Həmzə qızı, Qasımov Bəylər Əli oğlu qətlə yetirilmişlər.

Ağdamın təhlükə qarşısında olmasına baxmayaraq, həmin Yura ləqəbli Rəsul Süleymanov korpus komandiri ola-ola rayon icra hakimiyyətinin başçısını dəyişdirdi. 1993-cü il iyulun 15-də saat 13 radələrində icra hakimiyyətinin binası silahlı dəstələrlə mühasirə edildi. R. Süleymanov icra hakimiyyəti başçısı N. İsmayılovla 25-30 dəqiqə təkbətək söhbət apardı. Bu müddətdə binaya heç kim buraxılmırdı. Həmin gün saat 18-də İH-nin binasında rayon fəallarının iştirakı ilə iclas çağırıldı. Yura və N.İsmayılov da salona daxil oldular. N.İsmayılov çıxış edərək bildirdi ki, səhhəti ağır olduğu üçün 3 dəfə ərizə verib. Dedi ki, mən Surət Hüseynovla danışmışam, indi Yura ilə birlikdə ona yenə zəng edib ərizə verdiyimi bildirdim. S.Hüseynov mənim iste'famı qəbul etdi və bu barədə Süleymanova tapşırıq verdi. Sonra Yura çıxış edərək bildirdi ki, biz bir həftədir Ağdama başçı axtarırıq. Mən bu gün Surət Hüseynova bu barədə mə'lumat verdim, mənə tapşırdı ki, Nadir İsmayılovun ərizəsini qəbul edib, onun yerinə Karyer Qasımı tə'yin edərsən. O, özünü salona tutaraq Qasımın burada olub-olmamasını soruşdu. Özünü elə aparırdı ki, guya Qasımı tanımır. Sonra Qasım Kərimov çıxış edərək, tez bir zamanda Dağlıq Qarabağdan ermənilərin tamamilə çıxarılacağına, Ağdama "qəhrəman



şəhər" adı verdirəcəyinə və ona məxsus olan saysız-hesabsız var-dövləti bu yolda sərf edəcəyinə söz verdi. Söz verdi ki, əgər mən bunları bacarmasam, məni topa qoyub Əskərana atarsınız.

Rayonun səlahiyyətli icra hakimiyyəti başçısı N.İsmayılov Yuranın tə'kidi ilə öz vəzifəsini qanunsuz olaraq asan yolla təhvil verərək elə həmin gün rayonu tərk etdi. Rayonda baş vermiş hadisə barədə nə Prezident Aparatına, nə də Ali Sovetə heç bir mə'lumat verilməmişdi. N.İsmayılov unutmuşdu ki, icra hakimiyyəti başçısının çıxarılması və yaxud tə'yin edilməsi yalnız prezidentin səlahiyyətlərinə aiddir. Belə bir hərəkətlə o, sonrakı hadisələrin məc'uliyyətindən yaxasını kənara çəkdi. Yə'ni N.İsmayılov Ağdam şəhərinin işğalının məs'uliyyətini öz adından uzaqlaşdırmış, eyni zamanda işlədiyi 11 ay ərzində Ağdamın 70 kəndinin ermənilərə təslim edilməsi üçün cavabdehlikdən boyun qaçırmışdı. Halbuki həmin dövrdə Ağdam dağıdılıb talan edilmiş, rayona milyonlarla manat ziyan dəymişdi. Xalq içərisində nüfuzu, hörməti olmayan, heç kimin xeyrinə-şərinə yaramayan, bir şəhid ailəsinin belə qapısını tanımayan Qasım Kərimov isə səhəri gün şəhərə atılan "Qrad" mərmisindən qorxaraq icra hakimiyyəti binasına gəlmədi. Demək olar ki, rayon başsız qaldı.

Həmin vaxtlar rayonun təhlükəsizliyi yaddan çıxmışdı. Xüsusilə Ə.Elçibəy qaçandan sonra rəhbərlikdə olan "cəbhə"çilər hər cür təxribata əl atırdılar. Hər gün şəhərə şayiələr yayılırdı ki, guya S.Hüsenyov qaçıb, prezident isə yaralanıb. Bu şayiələr rayonda məs'ul vəzifə tutan ayrı-ayrı "cəbhəçi"lər vasitəsilə yayılırdı. Hətta Prezident Aparatından edilən zənglərə erməncə cavab verirdilər, deyirdilər, qoy elə bilsinlər ki, ermənilər Ağdamı alıblar.

Möhtərəm cənab Prezident, lakin Sizin respublika rəhbərliyinə gəlişiniz xalqda elə bir inam yaratmışdı ki, bu təxribatlar onu yolundan çəkindirə bilməzdi. Gərginliyə və son dərəcə ağır vəziyyətə baxmayaraq, hamının üzündə sabaha inam var idi. Adamlar üzünü göylərə tutub şükür edir, Azərbaycan xalqının xilaskarı gəldiyi üçün bir-birini təbrik edirdilər.

20—21—22 iyul daha dəhşətli günlər idi. Briqada komandiri kimi fəaliyyət göstərən Eldar Əliyev hər gün sərxoş vəziyyətdə olurdu. Onu yerində tapmaq olmurdu, əli silahlı əsgərlər dəstə-dəstə rayonu tərk edir, "Qrad" qurğuları, PDM-lər, tanklar, toplar şəhərdən çıxarılaraq namə'lum istiqamətə aparılırdı. Xəyanət və satqınlıq açıq hiss olunurdu. Şəhərdə qalmış əhalinin üz tutacağı bir yer yox idi. Başsızlıqdan istifadə edən bir çox rəhbər işçilər Ağdam şəhərini tərk etmiş, Milli Təhlükəsizlik Nazirliyinin rayon şö'bəsinin rəisi Yaqub Axundov üç gün qabaq yoxa çıxmışdı. Mən bir şeyi də demək istəyirəm ki, cənab Prezident, Papravənd və Boyəhmədli kəndləri əlimizdən gedərkən Yaqub Axundovla biz Güllücədə, ağaclıqda

rastlaşdıq. Bizim yanımızda xeyli adam da var idi. Mən ona sual verdim: Niyə qoşunu çıxardınız, bu yüksəklikləri, bu kəndləri düşmənə verdiniz? Məni zorla kənara çəkib dedi ki, bəri gəl, qıraqda deyəcəyəm, bu, sirdir. Dedim, buyur. Kənarda mənə dedi ki, "Biz əgər o kəndlərdən qoşunu çıxarmasaydıq, Ağdam şəhəri getməli idi. Biz onları Ağdamın müdafiəsi üçün çıxardıq". Sonra da Ağdam əlimizdən gedəndə mən onu tapıb sözümü deyə bilmədim ki, sən axı belə deyirdin, bəs nəyə görə Ağdam getdi?

1993-cü il iyulun 22-də düşmənin qüvvələri üç istiqamətdən Ağdam şəhərinə yaxınlaşmışdı. Əhmədavar, Şelli, Muradbəyli, Xıdırlı, Qiyaslı kəndlərində döyüşlər gedirdi. Bu vaxt rayonda nə bir hərbçi, nə də bir komandir gözə dəymirdi. Lakin Muradbəylidə Asif Məhərrəmovun ağdamlılardan ibarət dəstəsi düşmənlə üz-üzə vuruşurdu. Rayon Sovetinin sədri ilə birlikdə biz briqada komandiri Eldar Əliyevi axtardıq. Onu gecə saat 12-də Mahrızlı kəndində tapdıq, bu vaxtadək harada olmasını soruşduq. O, cavab verdi ki, mən Muradbəylidən gəlirəm. Sonra dedi ki, sizinkilər, yə'ni ağdamlılar təxribat edərək bizə atəş açırdılar. Onun yanında 15-20 nəfərlik dəstəsi olmasına baxmayaraq, biz onunla çox ciddi mübahisə etdik. Nəhayət, o dedi ki, biz sizə torpaq alıb qaytaran deyilik, biz öz işimizi gördük, gedin başınızın çarəsini qılın. Sonra o, komanda verdi, maşına minərək Ağdam əvəzinə Ağcabədi istiqamətinə getdilər.

Biz şəhərə qayıdanda artıq Muradbəylidə güclü döyüşlər gedirdi. Səhərə yaxın atışma kəsdi. Yerli döyüşçülər tab gətirməyərək geri çəkilmişdilər. Səhər tezdən biz prezidentlə əlaqə yaratmaq, əsl həqiqəti şəxsən ona çatdırmaq fikrinə gəldik. Lakin rabitə yox idi, xətt kəsilmişdi. Ağcabədidən danışmaq mümkün olmadığı üçün Bərdəyə gəldik. İcra hakimiyyəti başçısının otağından saat 12.30 dəqiqədə rayon Sovetinin sədri Nofəl Mirzəyev Heydər Əliyevlə danışıb vəziyyət barədə mükəmməl mə'lumat verdi. Prezident bu mə'lumatı çox həyəcanla qarşıladı, telefonda dedi: "Sən nə danışırsan, on dəqiqə qabaq Surət Hüseynov mənimlə danışıb, o mənə deyib ki, heç vaxt erməni ayağı Ağdam şəhərinə dəyməyəcək". Elə təəssüfləndi ki!.. Biz onun bu təəssüfünü və həyəcanını gəlib Ağdam camaatına çatdırdıq.

O vaxt baş verən hadisələri bilməyənlər, vəziyyətdən xəbərsiz olanlar çox şey danışa bilərlər. Lakin gündəlik işlərin içində olanlar, gedən prosesləri öz gözləri ilə görənlər yaxşı bilirlər ki, Ağdamın faciəsi o biri rayonları da gözləyirdi. Həmin an bu xalqı göydə Allah, yerdə də Heydər Əliyev ölümdən xilas edə bilərdi. Böyük Allaha çox şükürlər olsun ki, o zaman siz respublika rəhbərliyinə gəldiniz və Azərbaycan bir ölkə kimi yer üzündən silinmək təhlükəsindən xilas oldu.

Cənab Prezident, mən demək istəyirəm ki, o zaman Ağdama



kömək edən rəhbər işçilərimiz də olmuşdur. O vaxt Ağdam şəhərinə ilk 3 tankı Gəncə Polis İdarəsinin rəisi Eldar Həsənov gətirmişdi.

Çoxları Ağdamda edilən bu xəyanətin ölçülərini təəssüf ki, hələ də təsəvvür edə bilmir. Onda ordunun bir nəfər nə silahlı əsgəri, nə də texnikası düşmənə tərəf getmədi. Onlar kütləvi şəkildə əks istiqamətdə elə sür'ətlə çəkilirdilər ki, dayanıb bir kəlmə danışmaq belə olmurdu.

Belə bir vaxtda bu vəziyyəti qaydaya qoymaq, güclü təxribatları dayandırmaq, ölkəni məhv olmaqdan xilas etmək, ancaq Heydər Əliyevin siyasəti və müdrikliyi nəticəsində mümkün idi.

Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları! Bir neçə kəlmə də atəşkəs barədə demək istəyirəm. Burnuna barıt qoxusu dəyməyən bə'zi bədbəxtlər özlərini torpaq, xalq fədaisi kimi qələmə verməyə çalışırlar. Lakin onlar bilmirlər ki, atəşkəs bu xalq üçün qələbə qədər qiymətli idi. Atəşkəs daxili təxribatların kəsilməsi, düşmən hücumlarının dayandırılması, ən başlıcası isə — vahiməyə düşmüş insanların özünə gəlməsi üçün çox vacib idi. Təkcə bir faktı demək məncə, kifayətdir. Ağdamın Xındırıstan məscidindən 1994-cü il yanvarın 1-dən mayın 11-nə qədər 591 şəhid tabutu yola salınmışdır. Atəşkəs dövründə isə Ağdam bölgəsində cəmi 6 nəfər şəhid olub.

Əlbəttə, digər sahələrdə də işlər öz məcrasına düşmüş, respublika daxilində sabitlik yaranmış, bir çox qanunsuz silahlı dəstələr tərksilah edilib zərərsizləşdirilmişdir. Dəfələrlə dövlət çevrilişinə edilən cəhdlərin qarşısı məharətlə alınmış, qardaş qırğınına yol verilməmişdir. Atəşkəs ölkə xaricində də Sizin ardıcıl iş aparmağınıza, müdrik siyasi xəttinizi həyata keçirməyinizə imkan yaratmışdır. Eləcə də ordu quruculuğunda, nizam-intizamlı ordu yaradılması sahəsində böyük işlər görülmüşdür.

Öz əlimizdə qalan torpaqlarımızda kənd əməkçiləri ötən müddətdə fədakar işləmiş, 1995-ci ildə 14 min ton taxıl, 6 min tona yaxın pambıq, 5 min ton üzüm istehsal etmişlər. Bu il 18 min tondan çox taxıl istehsal etmişik. Məhsuldarlıq hər hektardan 30 sentnerdən yuxarı olmuşdur. Yaxşı pambıq və üzüm məhsulu gözlənilir. Biz çalışırıq ki, nə isə özümüz edək, respublikanın bu ağır vaxtında ona yük olmayaq.

Hörmətli Prezident, bircə faktla ağdamlıların Sizə olan məhəbbətindən, inamından və Sizə bəslədikləri böyük ümidlərindən danışmaq istəyirəm. 1992-ci ildə AXC-nin "mənəm-mənəm" deyən vaxtı Ağdamda mərkəzi meydana qırmızı stol qoyulmuş, Sizin respublikaya qayıtmağınız üçün 40 min imza toplanmışdı. Bu imzaların toplanmasına heç kim maneçilik törədə bilməmişdi.

Sizin 70 illiyiniz münasibətilə ağdamlılar minlərlə təbrik teleqramı vurmuşdular. Ancaq sonradan mə'lum olmuşdur ki, poçta xüsusi

göstəriş verilib və teleqramların getməsi dayandırılıb. Bu teleqramlar Ağdam əhalisinin Sizə olan istək və məhəbbətindən irəli gəlir. İnanın, bu gün respublikanın 58 rayonunda məskunlaşıb ağır həyat keçirmələrinə baxmayaraq, ağdamlıların qəlbi Sizinlə birgə döyünür. Onlar xalqın, torpağın, Vətənin, özlərinin xilasını Sizdə görürlər. Azərbaycanın sabahına Sizinlə baxırlar. Əmin olun ki, ayağı yer tutan hər bir ağdamlı, Sizin bir çağırışınızla ölümə belə getməyə hazırdır.

Hörmətli Prezident, biz əminik ki, prezidentimizin rəhbərliyi ilə bütün torpaqlarımız tezliklə geri qayıdacaq, dağıdılmış şəhər və kəndlərimiz əvvəlkindən də yaxşı tikilib qurulacaq, köçkün əhali öz doğma ocağına yığışacaqdır.

Hörmətli Prezident, işinizin gərgin çağında vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə bütün ağdamlılar adından bir daha minnətdarlığımızı bildirir, Sizə möhkəm cansağlığı, xalqımızın bu günü və sabahı naminə tükənməz qüvvə arzulayıram.

Fürsətdən istifadə edərək Prezident Aparatının bütün işçilərinə — Ramiz Mehdiyev başda olmaqla hamısına öz minnətdarlığımızı bildiririk ki, istənilən vaxt bizə hər cür kömək edirlər. — Ramiz Mehdiyev də, İzzət Rüstəmov da, bütün aparat işçiləri də. Hamısına minnətdarlığımızı bildiririk.

Diqqətinizə görə sağ olun.

### Milli Məclisin üzvü
### ÇİMNAZ ƏLİYEVANIN
### çıxışı

Möhtərəm Prezident!
Hörmətli görüş iştirakçıları!

Bu, həqiqətən bizim üçün çox həyəcanlı bir gündür. Çünki bizim o qaysaq tutmayan yaralarımız sızıldayır, Ağdam həsrəti, göynərtisi bir daha qabarıq şəkildə hiss olunur.

Mən Ağdamda doğulmuşam, şəhər işğal olunanadək bütün həyatım orada keçib. Bütün ağdamlılar kimi, mən də bu gün Ağdamsızlığı çox dərin şəkildə hiss edirəm. Ağdamın işğal olunduğu ağır günlərdə başımıza mərmi yağışı yağsa da, Ağdamın sıravi adamları, yə'ni Ağdamın qədrini bilənlər öz torpaqlarında idilər və hamı işləyirdi. Təsəvvür edin ki, o mərmi yağışı heç kəsi qorxutmurdu. Çünki artıq öyrəşmişdik ki, atılan mərmi haradan gəlir, hansı istiqamətə gedəcək. Biz otağımızda oturub mərminin istiqamətini müəyyənləşdirə bilirdik.

Ağdamın işğal olunması ilə əlaqədar hadisələr barədə Həsən Sarıyev xronoloji ardıcıllıqla mə'lumat verdi. Hörmətli Prezident,



icazənizlə, mən də bu hadisələr haqqında öz mülahizələrimi bildirmək istəyirəm.

1988-ci il fevralın 12-də ermənilər Stepanakertdə birinci mitinqə başlayan gündən Ağdam sanki böyük döyüş meydanına, e'tiraz mərkəzinə çevrildi. Bunun nəticəsi həmin il fevralın 22-də Ağdam — Əsgəran yürüşü ilə başa çatdı. Orada bizim iki nəfər övladımız şəhid oldu. XX əsrin sonuna yaxın Azərbaycanın tarixində ilk şəhidlik cığırının bünövrəsini bu iki gənc — Əli və Bəxtiyar qoydular. Allah onlara və bütün şəhidlərimizə rəhmət eləsin, qəbirləri nurla dolsun.

Möhtərəm Prezident, mən burada öz istəyimi Sizə çatdırmaq istəyirəm. Mənə elə gəlir ki, bu iki gənc Azərbaycanın Milli Qəhrəmanı adını almağa layiqdir. Ona görə ki, əliyalın olaraq, torpağı qorumaq uğrunda ilk addımı məhz onlar atıblar. Haqlı olaraq deyirlər ki, "Torpaq, uğrunda ölən varsa Vətəndir". Onlar torpağın Vətən olduğunu öz ölümləri ilə bir daha təsdiq etdilər. Onların ardınca da bizim çox igid, mərd, əvəzsiz oğullarımız şəhid oldular.

Əsgəran hadisələrindən sonra, ümumiyyətlə, əsrlər boyu Ağdam erməniləri vahimədə saxlayan bir məkan, Qarabağın qeyrət qapısı, Dağlıq Qarabağda yaşayan azərbaycanlı əhalinin dayağı olubdur. Bu hadisələr başlayan ilk gündən də Ağdam həmin vəzifəsini çox mərdliklə, mətanətlə yerinə yetirirdi. O dövrdə Ağdamda dayaq təşkilatı yaradıldı. Ermənistandan və Dağlıq Qarabağın azərbaycanlılar yaşayan hissələrindən köçkün, qaçqın düşüb gəlmiş əhalinin məskunlaşdırılması, yerləşdirilməsi üçün hər cür yardım, kömək göstərmək o dövrdə Ağdamda böyük bir hərəkata çevrilmişdi. Ağdamın mərd oğulları o dövrdə heç nədən qorxmurdular. 1988-ci il senyabrın 18-də Stepanakertdə 56 azərbaycanlı evi yandırıldı. Sentyabrın 23-də ağdamlılar ərzaq yüklənmiş 20 maşın karvanını bu şəhərin içərisinə apardılar. Həmin karvandakı ərzağın içərisində — bizim bir sözümüz var, gözümüzü qan örtmüşdü — silah da var idi, yə'ni azərbaycanlı kəndlərində, xüsusən Stepanakertdə, Kərkicahanda yaşayanlara silah-sursat və yardım göndərilmişdi.

Uzun müddət bu müharibə, döyüş, hadisələr və bu problemlər sanki Ermənistan ilə Ağdam arasında gedirdi. O vaxt respublikada nə o qaçqınlar, köçkünlər, nə də Qarabağda olan əhalinin vəziyyəti haqqında heç bir lazımi mə'lumat verilmirdi, bir fikir deyilmirdi. Nəhayət, bütün bu e'tinasızlıq, respublikanın o vaxtkı rəhbərliyinin laqeydliyi, məsələyə ciddi yanaşmaması nəticəsində Xocalı faciəsi baş verdi. Xocalının harayını biz 1992-ci ilin əvvəlindən qaldırmışdıq. Mən o hadisələrin canlı şahidi və iştirakçısı kimi deyirəm ki, o vaxt biz, Ağdam qadınları dəfələrlə mitinqlər keçirdik. Bu mitinqləri biz meydanda deyil, qapalı, mədəniyyət evinin salonunda keçirirdik. Respublikanın o vaxtkı rəhbərlərinə teleqramlar göndərirdik, Xocalının

harayını çatdırırdıq. Bildirirdik ki, vəziyyət gərgindir və ora kömək etmək lazımdır. Qadınlar, analar fəryad qoparırdılar. Lakin bu fəryadımıza, sözlərimizə məhəl qoyulmadı. Bilirsiniz ki, hətta o vaxt Xocalı hadisəsi barədə əvvəlcə yalnız iki nəfərin ölümü haqqında rəsmi mə'lumat verildi, daha sonra isə artıq bu hadisəni xalqdan gizli saxlamaq mümkün olmadı.

Xocalının ağır günündə Ağdam camaatı bütünlüklə, elliklə ayağa qalxdı və əllərindən gələn bütün yardımları etdi. Bu hadisələr zamanı Ağdamın ən gərgin, ən qaynar nöqtə olduğu hamıya mə'lumdur. 1992-ci il fevralın 26-da Xocalı faciəsindən sonra ayın 27-si günü Ağdam şəhərinə ilk mərmilər atıldı. Xocalı faciəsi adamlarda çox böyük vahimə yaratmışdı. Ölüm heç kim üçün qorxulu deyildi, heç kim ölümdən qorxmurdu. Amma girov düşmək, erməninin əlində əsir olmaq—bax, bu vahimə adamları çox möhkəm həyəcanlandırmışdı. Atılan o ilk mərmidən Ağdam işğal olunan günədək əhalinin böyük bir hissəsi öz evindən-eşiyindən heç yerə getmədi. Hamı çox mətanətlə dözürdü və bu hadisələrə nəhayət, bir son qoyulacağı ümidi ilə yaşayırdı. Nə qədər ki, Ağdamın yerli özünümüdafiə batalyonları — yə'ni Şirin Mirzəyevin, Qatır Məmmədin, Allahverdi Bağırovun, Fred Asifin və digərlərinin rəhbərlik etdikləri özünümüdafiə dəstələri əsas mövqelərdə dururdular, Ağdamın bir qarış torpağına da ayaq basmağa ermənilər cür'ət etmirdilər. Qatır Məmmədin dəstəsi hətta Xramort kəndini də alıb, orada mövqeyini möhkəmləndirmişdi. Ağdam müdafiə olunurdu.

Burada mən bir haşiyə çıxmaq istəyirəm. Mənim fikrimcə, hər kəs tutduğu vəzifəyə mə'nəvi haqq ilə gəlməlidir. Belə güman edirəm ki, mə'nəvi haqqı olmayan adamların vəzifə tutması heç düzgün də deyil. Bu gün rayonumuzun icra hakimiyyətinin başçısı Həsən Sarıyev burada çıxış etdi. Mən demək istəyirəm ki, o vaxt "Papravənd qartalları" batalyonu Ağdamda, eləcə də Azərbaycanın hər yerində ən güclü bir batalyon kimi tanınmışdı. Bu batalyonu Həsən müəllim özü təşkil etmişdi və ona rəhbərlik edirdi. O, daim cəbhədə olurdu.

Mən bir məsələni də qeyd etmək istəyirəm. Ağdamın batalyonlarının hamısında şəxsən özüm olmuşam. Çalışmışam ki, həmin batalyonların əsgərlərinə gücüm çatan qədər, rayon qadınları ilə birlikdə, əlimizdən gələn köməyi edək.

Hörmətli Prezident, həmin batalyonların hər biri haqqında qısaca da olsa bir neçə söz demək istəyirəm. Allah bizim şəhid oğullarımızın hamısına rəhmət eləsin. Adını sadaladığım komandirlərin hamısı o yolda şəhid oldular. O dövrdə ki, milli ordu adı altında başıpozuq dəstələri gətirib rayonumuzun əsas mövqelərində yerləşdirdilər — bax, Ağdamın qara günləri o vaxtdan başlandı.

709 nömrəli hərbi hissənin Ağdamda yerləşdirilməsi bizim



fəlakətimizi daha da yaxınlaşdırdı. Surət Hüseynovun adı ilə adlandırılan və ona tabe olan bu hissənin oradakı üzdəniraq fəaliyyəti Ağdamın çox zəngin evlərinin, binalarının qarəti ilə başlandı.

İyulun 19-dan Ağdama aramsız atəşlər başlandı. İyulun 22-si ən dəhşətli gün oldu. Həmin gün şəhərdə adam var idi, ancaq ordu hissələri artıq şəhərdən çıxmışdılar. Ordu hissələri çıxanda yerli əhali şəhərin kənarında onların qarşısını saxlayıb, deyirdi: "Hara gedirsiniz, axı şəhərdə qadınlar, uşaqlar var, onları kim müdafiə etməlidir?". Hamısı deyirdi ki, əmr belə verilib. Amma o əmri verən kim idi, onu tapmaq mümkün deyildi. Heç kim deyə bilmirdi ki, axı bu əmri kim verib, bunlar kimin əmri ilə geri çəkilirlər. Bax, bu haqda heç kim heç nə deyə bilmirdi, demirdi.

Belə bir gərgin vaxtda əhali demək olar ki, tamamilə müdafiəsiz qaldı. Yenə də Ağdamın yerli özünümüdafiə batalyonları ağır məqamda son anadək mətinliklə döyüşdülər, vuruşdular. Lakin düşmənin çox güclü hücumu nəticəsində Ağdam iyulun 23-ü günü süqut etdi.

Bu gün, bizim hər birimiz üçün, bütövlükdə Azərbaycan tarixi üçün, elə güman edirəm ki, ən ağrılı, acılı gündür. Çünki həmin gün, bayaq dediyimiz kimi, Qarabağın həmişə qeyrət qapısı olan Ağdamın qeyrətsizlik günü tarixə daxil oldu. Doğrudur, biz ağdamlılar əvvəl çox gərgin bir vəziyyətə düşdük. Mən Ağdamdan iyulun 23-də axşam çıxmışam. Xəyanətlər, təxribatlar, hərəkətlər sonra da dayanmadı. Həsən müəllim Xalq Cəbhəsinin "fəaliyyəti" və digər "fəaliyyətlər" haqqında geniş mə'lumat verdiyi üçün mən o məsələlər üzərində geniş dayanmaq istəmirəm. Ancaq mən Ağdamdan çıxdığımız gündən sonrakı hadisələrlə əlaqədar mə'lumat vermək istəyirəm. Çünki onların hamısının iştirakçısı olmuşam.

İyulun 23-də bizim maşınımız Qaradağ postuna yaxınlaşanda gördük ki, Ağdamdan gələn maşınların hamısı yolun kənarında dayanıb, heç kəs hərəkət etmir. Maraqlandıq, sürücü düşüb soruşdu ki, bu nə məsələdir? Qayıdıb çox pis vəziyyətdə mə'lumat verdi ki, deyirlər, tapşırıq verilib, ağdamlıları Bakıya buraxmasınlar.

Hörmətli Prezident, o vaxt Siz Ali Sovetin sədri idiniz, prezidentin səlahiyyətlərini icra edirdiniz. Düzünü deyim, bu söz məni çox pis vəziyyətə saldı. Mən həmin postda düşüb, oradakı polis işçiləri ilə özümdən asılı olmayaraq çox kobud şəkildə danışdım və bir-iki kəlmə söz işlətdim. Dedim ki, mən Ağdam qadınlarının rəhbəriyəm, səlahiyyətim var, bu saat Heydər Əliyev cənabları ilə danışaram görüm, bu tapşırığı kim verib. Yoldaş Əliyev, həmin adamların hamısı o dəqiqə kənara çəkildi ki, sizi yolda biz dayandırmamışıq, keçin gedin. Yə'ni burada da bir təxribat, adamları qızışdırmaq meyli hiss etdim.

Həmin maşınlar keçib gəldi, adamlar Bakıda yerləşdirildi. Ertəsi

gün mən tə'cili rayonla əlaqə saxladım. O vaxtkı rayon Sovetinin sədri, indi rayon icra hakimiyyəti başçısının birinci müavini işləyən Nofəl Mirzəliyevlə əlaqə yarada bildim. Onun tə'cili Bakıya gəlməsini xahiş etdim. Biz rəhmətlik Afiyəddin müəllimlə görüşdük. O, Sizinlə məsləhətləşəndən sonra respublikanın bütün rəhbər işçilərini, nazirlərini də'vət etdi. Ağdam köçkünlərinin problemlərinin həlli haqqında çox ciddi bir tapşırıq verildi və bu məsələ nisbətən qaydasına düşdü.

Sonra Nofəl müəllim, mən, Xuraman Abbasova, Həmzə Əliyev birlikdə dövlət katibinin yanında olduq və ona da vəziyyəti danışdıq. O da Sizinlə əlaqə saxlamışdı və həmin gün bizə dedi ki, vəziyyətdən xəbərdarıq, tədbirlər görülür, Ağdamın tezliklə geri qaytarılması üçün bütün işlər gedir.

Biz ağdamlılar həqiqətən elə bilirdik ki, bu, nəsə təsadüfi bir işdir, yarım saata, bir saata, bir günə geri qayıdacağıq. Fikirləşirdik ki, burada nəsə bir anlaşılmazlıq var, mümkün olmayan bir işdir. Bu hisslərlə də üç ili tamam edirik, hamı Ağdam həsrəti, qubarı ilə yaşayır.

Həmin il iyulun 23-də Bakıya gəldim. Bu hadisələrdən sonra yenidən qayıdıb, rəhbərlik etdiyim mədəniyyət şö'bəsinin fəaliyyətini Qərvənd kəndində bərpa edib işə başladım. Ağsaqqalların məsləhəti, icra hakimiyyəti başçısının sərəncamı ilə dekabrın 18-də Bakı şəhərində ağdamlı köçkünlərin işləri üzrə rayon icra hakimiyyətinin səlahiyyətli nümayəndəsi tə'yin olundum. O vaxtdan Bakıda məskunlaşmış ağdamlı köçkünlərin problemləri ilə məşğul olmağa başlamışam.

Problemlərimiz həddindən artıq çoxdur. Yə'ni köçkünlərin problemləri elə problemlərdir ki, onları tamamilə həll etmək qeyri-mümkündür. Bunlar yalnız torpaqlarımız geri qayıdandan sonra həll edilə bilər. Köçkünlərin yerləşdirilməsi, məskunlaşdırılması, müəyyən xırda problemlərin həlli ilə məşğul olduqlarına görə Bakı şəhər icra hakimiyyətinin qaçqınlar şö'bəsinə,—o vaxt həmin şö'bəyə Məhyəddin müəllim rəhbərlik edirdi, — Bakı şəhər icra hakimiyyətinə, ümumiyyətlə, bütün icra hakimiyyəti orqanlarına, bütün səviyyələrdə bizim müraciətlərimizə həmişə çox ürəklə, qayğı ilə yanaşanların hamısına təşəkkür edirəm. Onlar qaldırdığımız məsələlərin hamısının həlli üçün nə lazımdırsa, ediblər.

Hörmətli Prezident, mən dəfələrlə yoldaşlara da demişəm ki, köçkünlər respublikadakı vəziyyətin barometridir. Yə'ni respublikada hər hansı bir qarışıqlıq salmaq istəyən qüvvələr birinci növbədə köçkünlərdən istifadə etməyə çalışırlar. Bu müddət ərzində dəfələrlə — həm oktyabr dövlət çevrilişinə cəhd zamanı, həm mart dövlət çevrilişinə cəhd zamanı belə hallar oldu. İnanın ki, yataqxanalarda məskunlaşmış bizim köçkünlərin arasına xüsusi adamlar göndərilirdi,



köçkünlərin tamamilə başqa istiqamətə yönəldilməsi üçün sə'ylər göstərilirdi. Amma mən bu gün Sizin qarşınızda, Ağdam camaatının qarşısında baş əyirəm, onlara böyük minnətdarlığımı bildirirəm ki, onlar təxribatlara uymadılar və burada heç bir artıq hərəkətə yol verən olmadı.

Hörmətli Prezident, çox sağ olun, burada Həsən müəllim də dedi, biz bilirik ki, Siz çox gərgin iş aparırsınız və işinizin, vaxtınızın da 90 faizini məhz Qarabağ probleminin həlli məsələlərinə yönəltmisiniz. Belə bir şəraitdə vaxt tapıb bizimlə görüşdüyünüz üçün mən Sizə çox böyük minnətdarlığımı bildirirəm.

Burada bir neçə kəlmə də ürəyimdən gələn sözləri demək istəyirəm. Milli Məclisin üzvü kimi mən parlamentin qadınlardan ibarət nümayəndə hey'ətinin tərkibində Türkiyədə idim. Heydər Əliyevin Azərbaycan üçün kim olduğunu biz yaxşı bilirik. Heydər Əliyev bizim üçün sabaha ümiddir, sabahkı günümüzə, xoşbəxt gələcəyimizə inamdır. Amma mən Türkiyədə də Sizə belə böyük münasibət olduğunu təsəvvür etmirdim. Elə ölkələr var ki, sıravi adamlar öz prezidentlərini tanımırlar. Biz Süleyman Dəmirəlin yanında olanda o, Sizinlə telefon əlaqəsi saxladı, bizim yanımızda Sizinlə danışdı, Qarabağ məsələsinə toxundu. Təsadüf elə gətirdi ki, biz Süleyman Dəmirəllə iyulun 23-də, Ağdamın işğalının ildönümü günü görüşəsi olduq.

O, bu məsələyə toxundu, elə bil Ağdamın işğalı gününü də yadında saxlamışdı. Söhbət zamanı xatırlatdı ki, biz köçkünlərə demişik ki, onlar bu qışda öz torpaqlarına qayıdacaqlar. Süleyman bəy bu problem haqqında müəyyən mə'lumat verdi. Tansu xanım Çillərlə görüşdə də biz onun Sizə çox böyük məhəbbətinin şahidi olduq. Bütün bunlar mənə qeyri-adi görünmədi. Amma biz yolda sıravi bir adamla — susatanla söhbət edəndə, o soruşdu ki, siz Azərbaycandansınız? Görünür, o, ləhcəmizdən bizi tanıdı. Dedik ki, bəli, azəriyik. Dedi ki, Heydər bəy nasıldır? Heydər Əliyev çox gözəl bir insandır və siz ona kömək etməlisiniz. İnanın ki, bu söhbət mənim üçün çox qeyri-adi idi. Çünki adi bir susatanın dövlətimizin başçısı, prezidenti haqqında belə sözlər deməsi, inanın ki, ürəyimi dağa döndərdi. Mən bir daha əmin oldum ki, bu gün, XX əsrin sonunda Heydər Əliyev türk dünyasının Atatürküdür. Yə'ni əsrin əvvəlində Atatürk türk dünyası üçün kim idisə, bu gün Heydər Əliyev də türk dünyası üçün ümid qapısı, qalası, ümid bürcüdür.

Mən seçicilərimlə tez-tez görüşürəm. Bizim Ağdam əhalisi ilə vaxtaşırı söhbətlərimiz olur. Mən hər şənbə günü Bakıdakı Ağdam köçkünlərinin qərargahında oluram. Orada köçkünlərin dərdləri, problemləri ilə maraqlanıram. Camaatımızın bu saat bircə fikri var: Torpaqlarımıza qayıtmaq. Sizin bütün gərgin sə'ylərinizin nəticəsində

bu torpaqlar sülh yolu ilə geri qaytarılmasa, özünüzün dediyiniz kimi, camaatımız başqa yolla, güc yolu ilə torpaqlarımıza qayıtmaq fikrindədir.

Hörmətli Prezident, ağdamlıların çox böyük əksəriyyəti bütünlüklə, vahid bir qüvvə ilə Sizin əmrinizə müntəzirdirlər. Ali Baş Komandan kimi Siz nə vaxt əmr etsəniz ağdamlılar Əskəranda etdikləri əliyalın yürüşü elə bu gün ermənilərin üzərində etməyə hazırdırlar. Biz Sizdən ancaq əmr gözləyirik. Biz Sizə inanırıq. İnanırıq ki, Heydər Əliyevin rəhbərliyi, siyasəti ilə, müdrikliyi ilə biz öz torpaqlarımıza qovuşacağıq.

Biz arzu etmişdik ki, Allah möhlət versin, Ağdam torpağında ölək. Yə'ni biz Ağdama ölməyə getmirik, Ağdamı qorumağa gedəcəyik. Amma hər halda bu möhləti də istəyirik ki, Allah bizə o imkanı yaratsın. Güman edirəm, inanıram, çox böyük ümidim var və bütün ağdamlıların ümidini ifadə edərək deyirəm ki, biz Sizin sə'yinizlə yaxın zamanlarda öz torpaqlarımıza qayıdacağıq. Yeni, gözəl Ağdamımızı tikəcəyik və orada firavan günlər keçirəcəyik.

Bu gün isə biz ağdamlılar, haradasa, xəcalətliyik. Qarabağ xanlığının banisi Pənahəli xanın, onun bütün törəmələrinin, yə'ni Mehdiqulu xanın, İbrahimxəlil xanın, Azərbaycan qadınının gözəl təcəssümü olan Xan Qızı Natəvanın ruhu qarşısında günahkarıq. Ağdamda yaratdığımız iki Şəhidlər qəbiristanında uyuyan şəhidlərimizin ruhu qarşısında günahkarıq. Torpaqlarımız alınmayınca onların ruhu sakit olmayacaqdır. Bu yolda Allah Sizə kömək olsun. Sizə cansağlığı arzulayıram. Qoy Ulu Tanrı Sizə möhkəm cansağlığı versin, bizi də torpaqlarımıza qayıtmaq gününə yetirsin. Sağ olun.

**Heydər Əliyev:** Bilirsiniz ki, Ağdamın işğal olunması zamanı Ağdamda gedən proseslərlə əlaqədar prokurorluq istintaq aparır və onlar artıq müəyyən nəticələrə gəliblər. Buna görə də yaxşı olar ki, biz baş prokuroru dinləyək. Baş prokuror bu proseslər barədə ilkin mə'lumat verə bilər.

### Azərbaycan Respublikasının
### Baş prokuroru
### ELDAR HƏSƏNOVUN
### çıxışı

Möhtərəm cənab Prezident! Hörmətli həmvətənlər!

Nə qədər acı da olsa, bu bir həqiqətdir ki, Azərbaycanın Ağdamsız günlərinin ömrü artıq üç ildir. "Məmləkətimiz niyə Ağdamsız qalıb?" sualının cavabı da bu gün artıq mə'lumdur. Bu ağrılı-acılı sualın cavabı bizi ona görə yandırır ki, Ağdamın işğalının səbəbləri arasında



vəzifə səhlənkarlığı, həmvətənlərinin dərdinə e'tinasızlıq, öz içərimizdən olanların xəyanəti əsas yer tutur. Və biz bu gün bura ona görə yığışmışıq ki, Ağdamın faciəsi təkcə ağdamlıların, təkcə Qarabağ bölgəsinin faciəsi deyildir. Bu faciə bütün Azərbaycanın faciəsidir, xalqımızın acı tarixidir. Biz Azərbaycanın bu dəhşətli faciəsi və onun səbəbləri barədə ona görə açıq danışa bilirik ki, indi Azərbaycanın ağrı-acısına ürəkdə hər birimizdən artıq yanan, həmvətənləri ilə görüşün daimi təşəbbüskarı olan rəhbərliyi vardır, Heydər Əliyev şəxsiyyəti vardır!

Heç şübhəsiz, bugünkü görüşümüz həm də ona xidmət etməlidir ki, Ağdam faciəsinin səbəbləri ictimaiyyətə olduğu kimi çatdırılsın. Təkcə ona görə yox ki, Ağdam faciəsində günahı olan canilərin adları çəkilsin. İlk növbədə ona görə ki, Ağdam acısı Füzuli, Laçın, Şuşa, Kəlbəcər, Zəngilan, Qubadlı, Cəbrayıl, Xocalı faciələri kimi, Azərbaycan tarixinin qara səhifələrindəndir. Tarixin ibrət dərslərindən nəticə çıxarılmaması, baş vermiş fəlakətin səbəblərinin araşdırılıb zərərsizləşdirilməməsi gələcək nəsilləri daha ciddi çətinliklər qarşısında, müstəqil Azərbaycanın taleyini isə yenidən təhlükə altında qoya bilər.

Məhz bütün bunlara yol verməmək üçün möhtərəm cənab prezidentimizin verdiyi fürsətdən, yaratdığı imkandan istifadə edərək istintaq materiallarının, çoxsaylı şahid, zərərçəkən, müttəhim ifadələrinin təhlili əsasında Ağdam faciəsinin başlıca səbəbləri üzərində xüsusi dayanmaq istərdim.

Yalnız fərdi mülahizələrimə əsasən deyil, bir daha qeyd edirəm ki, istintaq materiallarına, gördüklərinizə və gördüklərimizə, gözlərimiz qarşısında baş vermiş hadisələrə istinadən bu gün tam qətiyyətlə bir daha bildirirəm ki, Azərbaycanın faciəli günlərinin, o cümlədən Qarabağ faciəsinin özəyi məhz 80-ci illərin sonundan e'tibarən qoyulmağa başlandı. Azərbaycan Qarabağ uğrunda ilk şəhidlərini 1988-ci ilin fevralında verdi. Bəxtiyar Quliyev və Əli Hacıyev Azərbaycanın o vaxtkı rəhbərlərini qış yuxusundan ayıltmaq, silkələmək üçün şəhidlik zirvəsinə ucaldılar. Lakin bu itkimiz də Azərbaycanın o zamankı rəhbərlərini silkələyə bilmədi. Əksinə, xalqın taleyinə birbaşa məs'uliyyət daşıyan Vəzirov və onun öz ətrafına yığdığı kəslər torpaqlarımızı, qeyrətimizi qorumaq əvəzinə, "biz Moskvaya nə cavab verəcəyik?" kimi itaətçilik mövqeyində dayandılar. Hakimiyyət bivecliyi, torpaqlarımızın itirilməsində müstəsna rol oynamış Mütəllibov isə hakimiyyətdən kənarlaşmaq, bacardığı işin qulpundan yapışmaq əvəzinə, Şuşada tökülmüş qanlar bahasına hakimiyyətə qayıdış kimi mə'nəviyyatdan çox uzaq olan yolu tutdu.

Nəhayət, özlərini demokrat adlandıran Əbülfəz Əliyev və onun komandası hakimiyyətə gəldi. Bu cür hakimiyyətə gəliş-gedişlərin

qurbanı isə xalqımız, torpaqlarımız oldu. Xalq Cəbhəsinin Azərbaycana rəhbərliyi dövründə hakimiyyətdəki səriştəsizlik özünün elə bir zirvəsinə çatdı ki, vaxtilə xalq hərəkatı dalğasında hakimiyyətə gələnləri xalqımız müdafiə etməkdən belə imtina etdi. İmtina etdi ona görə ki, məhz Əbülfəz Əliyev iqtidarı dövründə Azərbaycan vətəndaş müharibəsinin astanasına gətirilib çıxarıldı. İmtina etdi ona görə ki, cəmiyyəti qanunlar deyil, əsası zorakılığa söykənən qruplar idarə edirdi. Prezidentin fərman və sərəncamları açıq-aşkar icra olunmurdu. Torpaqlarımızın müdafiəsi unudulmuşdu. Xalqımız Əbülfəz Əliyev, İsa Qəmbər, Pənah Hüseynov iqtidarından imtina etdi, ona görə ki, Surət Hüseynov da, onun Müdafiə Nazirliyinə, o zamankı Ali Baş Komandana tabe olmayan qüvvələri də, "Talış-Muğan Respublikası" da, Əlikram Hümbətov da məhz Xalq Cəbhəsi hakimiyyət tərzinin və ya hakimiyyətsizliyinin məhsulu idi. Bu zay məhsul isə son nəticədə Xalq Cəbhəsinin özünü də zəhərlədi.

Xalqımız 1992-ci ilin rəhbərlik tərzindən ona görə çirkindi ki, vaxtilə ərazi bütövlüyümüzün qorunmasını, Azərbaycan vətəndaşlarının təhlükəsizliyini tə'min edəcəyinə and içmiş Əbülfəz Əliyev 1993-cü ilin iyun günlərində, xalqının ən ağır məqamında təhlükə qarşısında dayana bilmədi. Heç kəsi xəbərdar etmədən Bakını tərk edən Əbülfəz Əliyev Kələkidə əyləşə-əyləşə iddia etməyə başladı ki, prezidentlikdən istе'fa verməyib. Belə bir iddiada da bulundu ki, guya ölkəni də elə Kələkidən idarə edir. Bu gün isə artıq bir həqiqətdir ki, o zaman xalqımızın başı üzərini almış vətəndaş müharibəsi təhlükəsini dəf etmək, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil dövlətçiliyini qorumaq üçün Kələkidə deyil, Bakıda, Gəncədə olmaq lazım idi. Xalqına kömək etmək, ağır məqamında onun imdadına yetişmək ilk növbədə vəzifə borcu olan rəhbərlər isə "öz fəaliyyətlərinin dondurulması" barədə boş-boş bəyanət verməklə məşğul idilər.

Əslində isə bütün bunlar hakimiyyət böhranı demək idi! Başqa sözlə, vaxtilə xalq hərəkatı dalğasından yapışaraq hakimiyyətə gəlmiş kəsləri həmin dalğalar da öz qoynundan kənara atdı. Xalqımız yaranmış vəziyyətdə hakimiyyət böhranından, vətəndaş müharibəsi təhlükəsindən, Azərbaycanın parçalanması təhlükəsindən yeganə çıxış yolunu Heydər Əliyev zəkasına müraciətdə gördü. Bu da tarixi faktdır və unudulmamalıdır ki, Heydər Əliyev şəxsiyyəti başqalarından fərqli olaraq hakimiyyət dalğasından yapışmadı. Bu dəfə yalnız xalqın iradəsinə tabe olan hakimiyyət dalğaları xalqın yekdil istəyi ilə onu özü ağuşuna aldı.

Lakin həmin anadək 80-ci illərin sonundan e'tibarən Azərbaycanda hökm sürən hərc-mərclik, hakimiyyətdəki səriştəsizlik, anarxiya, qanunsuz silahlı birləşmələrin formalaşmasına rəvac verilməsi, kifayət qədər vəzifələr verilmiş şəxslərin daha böyük iddiaları artıq Şuşanın,



Laçının, Kəlbəcərin, Ağdamın, bütövlükdə Qarabağın müqəddəratını həll etmişdi.

Torpaqlarımızın hər kvadratmetrinin itirilməsi hər birimiz üçün faciədir. Ağdam faciəsinin dəhşəti isə ondadır ki, Ağdam bir günün içərisində getmədi, Ağdam düşmənə günbəgün verildi. Ağdamı ermənilərə ağdamlılar vermədilər. Şəhidləri əsasən Ağdamın sakinlərindən ibarət olan şəhər özü heç bir vaxt düşmənə könüllü təslim ola bilməzdi. Çünki təkcə ağdamlılardan 5.400 nəfəri doğma torpaqlarının müdafiəsində həlak olub və yaralanıb. Ağdam sakinlərinin özünümüdafiə məqsədi ilə yaratdıqları 6 taborun komandirinin altısı da ağdamlı idi. Cənab Prezident, onların altısı da Ağdamın müdafiəsində döyüşə-döyüşə şəhid oldu. O zaman dövlətdən kömək gözləməyin mə'nasızlığını bilən, yalnız yerli əhaliyə və özünə güvənən Ağdamın Asif Məhərrəmov, Şirin Mirzəyev, Yelmar Edilov, Mikayıl Gözəlov kimi oğulları var idi.

Həmin dövrlərdə intensiv cərəyan edən hadisələrə tə'sir etməkdə yerli əhali təbii ki, gücsüz idi. Başqa cür də ola bilməzdi. Çünki məhz Surət Hüseynov Əbülfəz Əliyevin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi tə'yin edilmişdi. Səlahiyyətli nümayəndə isə Qarabağın, Ağdamın müqəddəratına ilk növbədə məs'uliyyət daşıyan şəxs kimi Ağdam şəhərində yerləşmək əvəzinə, gah Mingəçevirdə, gah Yevlaxda, gah da Gəncədə otururdu. Belə bir vəziyyətdə düşmən öz dəyirmanına içərimizdən tökülən sudan məharətlə istifadə edirdi. Hələ 1992-ci il sentyabr ayının 4-də ermənilər tərəfindən Abdal-Gülablı kəndlərinin işğalı Ağdam faciəsinin uzaqda olmadığına açıq-aşkar işarə idi. 1993-cü ilin fevralından e'tibarən Ağdam cəbhəsinin Şelli və Erki istiqamətləri düşmən tərəfindən güclü atəşə tutulmağa başlandı. Canyataq və Gülyataq kəndləri, Xramort istiqaməti düşmən həmlələrinə mə'ruz qalırdı. Mart-aprel aylarında ermənilərin Ağdam cəbhəsində işğalçı fəaliyyəti daha da gücləndi.

Səlahiyyətli nümayəndə Surət Hüseynov isə hələ də Gəncədə idi. Həmin dövrdə onun adamları belə şayiə yayırdılar ki, guya Surətin xüsusi hazırlıq keçmiş hərbi hissəsi var və məhz bu hissə düşməni məhv edəcək. Əslində isə o hərbi hissə Ağdamda mülki əhalini soymaqla, qarətlə məşğul idi. Surət Hüseynov tərəfindən Ağdama səlahiyyətli nümayəndə kimi göndərilən 123 nömrəli hərbi hissənin qərargah rəisi, "Yura" ləqəbli Rəsul Süleymanov isə müdafiə məsələləri əvəzinə, məsləkdaşı Nazim Bayramovla birgə, rayon icra hakimiyyətini zəbt etməklə, rayona icra başçısı tə'yin etməklə məşğul idi. Beləliklə, haqqında əfsanələr uydurulan və yalnız Surət Hüseynova tabe olan 709 nömrəli hərbi hissə 1993-cü il iyulun 22-də, hücuma keçən erməni silahlı birləşmələrinə heç bir müqavimət göstərmədən döyüş

mövqelərini atıb, üzərinə "Surət" yazılmış piyada döyüş maşınlarında və tanklarda şəhəri xəyanətkarcasına tərk etdi.

709 nömrəli hərbi hissənin Ağdamın yerli sakinlərini şəhərin müdafiəsindən kənarlaşdırıb, əslində soyğunçuluq məqsədi ilə külli-ixtiyar sahibinə çevrilməsi, sonra da Ağdamı biabırcasına düşmənə təslim etməsi rayonun şəhid oğullarının müqəddəs ruhunu təhqir etdiyi kimi köçkün düşən minlərlə ailənin də faciəsinə çevrildi.

Ağdam həm də ona görə işğal oluna bildi ki, müxtəlif vaxtlarda sıradan çıxmış və tə'mir üçün Bakıya göndərilmiş 40 ədəd hərbi texnikadan yalnız 4-ü Ağdama qaytarılmışdı.

Ağdam ona görə işğal olundu ki, iyunun 2-də, Ağdam üçün ən böhranlı günlərdə, sabiq müdafiə naziri Dadaş Rzayevin və o zaman Müdafiə Nazirliyində Baş Qərargahın rəisi olan Nurəddin Sadıqovun göstərişinə əsasən 8 "Qrad" qurğusu, DU—30 tipli 6 top — bütövlükdə artilleriya divizionu Ağdərəyə göndərilmək adı altında Ağdamdan çıxarıldı.

Bu gün bütün Azərbaycan xalqı həqiqəti bilməlidir. Həqiqət isə ondan ibarətdir ki, məhz həmin hərbi texnikanın Ağdamdan çıxarılması Ağdam faciəsini gerçəkləşdirdi, onun işğalını mümkün etdi. Heç də elə fikirləşməyin ki, Ağdərədə vəziyyət pis olduğundan texnika Ağdamdan çıxarılmışdı. Xeyr, belə deyildi. Çünki həmin texnika Ağdərəyə yox, Gəncəyə, Surətin hüzuruna göndərilmişdi. Göndərilmişdi, ona görə ki, xalqının ondan üz döndərdiyini görən Əbülfəz Əliyev iqtidarı artıq olmayan hakimiyyətini "Qrad"la, topla qorumaq qərarına gəlmişdi. Hakimiyyəti qorumaq lazım idi! Lakin torpaq bahasınamı? Ağdam bahasınamı? 1993-cü ilin iyun hadisələri ərəfəsində Əbülfəz Əliyev iqtidarının yalnız öz hakimiyyətini qorumaq üçün seçdiyi bu qərar Ağdamı düşmənə təslim etmək demək idi. Ağdam, torpaq bahasına hakimiyyəti qorumaq cəhdi demək idi. Ağdamı düşmənə vermək demək idi. Ağdamlıları, bütövlükdə Qarabağı düşmən qarşısında əliyalın qoymaq demək idi.

Bəli, iqtidar öz hakimiyyətini qorumalıdır. Lakin o zaman qorumalıdır ki, bunu bütün xalq istəsin, xalqın özü onu qorusun!

Xalqımızın başına gətirilən müsibətlərin Ağdam fəlakətinin səbəbləri bu gün tam açıqlanmalıdır. Heç kəsin, ilk növbədə vəzifəli şəxsin ona mə'lum olan həqiqətləri gizlətməyə haqqı yoxdur. Həqiqətlər açıq-aşkar deyilməlidir. Bu, şəhidlərimizin ruhu qarşısında hər bir azərbaycanlının mə'nəvi borcudur. Ona görə də mən Nurəddin Sadıqovdan soruşmaq istərdim: uzun müddət istintaq getdi, lakin həqiqəti nədənsə söyləmədiniz, çəkindiniz. Nədən ehtiyat edirsiniz, nədən çəkinirsiniz? Məgər torpaqdan da ağır itki ola bilərmi? Bax, bu teleqrama o zaman Baş Qərargahın rəisi kimi, siz imza atmısınız. 1993-cü il 2 iyun tarixli bu teleqram — Ağdamdan "Qrad" qurğularının, topların çıxarılmasına dair əmrdir. Bu imza da sizindir. Ağdamın ən çətin günlərində Azərbaycanın müdafiəsi mənafeyinə zidd olan, faktiki olaraq Ağdamı düşmənə təslim edən, bütövlükdə Qarabağın müqəddəratını həll edən bu teleqramı nə üçün imzaladınız? Kim sizə göstəriş verdi, kimlər və ya nə sizi məcbur etdi? İstintaqa söyləmədiniz, demədiniz, heç olmasa öz Vətənində didərgin vəziyyətinə düşmüş, burada sizinlə üzbəüz əyləşən həmvətənlərimiz qarşısında deməkdən çəkinməyin. Bu məsələyə dair sizin qeyri-səmimi ifadənizi, texnikanın, topların çıxarılmasına dair hərbi-taktiki ekspertizanın rə'yini də özümlə götürmüşəm.

Hörmətli həmvətənlər!

Ağdam həm də ona görə işğal olundu ki, orada hərbi əməliyyatlara 708 nömrəli hərbi hissənin komandiri Mirvahid Feyzullayev, 709 nömrəli hərbi hissənin komandiri polkovnik-leytenant Eldar Əliyev kimilər rəhbərlik edirdi. Təkcə Abdal-Gülablı kəndinin azad edilməsi ilə bağlı hücum əməliyyatı hərbi səriştəsizlik ucbatından, müvafiq planın olmadığından, hərbçilərin pərakəndə hərəkəti nəticəsində məğlubiyyətə uğradı. 20-yə qədər tank və piyada döyüş maşını ermənilər tərəfindən asanlıqla məhv edildi, çoxsaylı qurbanlar verildi.

Diqqət yetirin! İş o yerə gəlib çatmışdı ki, Mərzili işğal olunduqdan sonra Ağdama gələn Rəhim Qazıyev öz himayədarlığı nəticəsində hissə komandiri dərəcəsinə çatan Feyzullayevi yerində tapa bilməmişdi. Feyzullayevin isə nəinki müdafiə naziri Rəhim Qazıyevin gəlişindən, heç Mərzilinin işğalından belə xəbəri olmamışdı. Hissə komandiri Mərzili kəndinin hansı istiqamətdə yerləşdiyindən və ora hansı yolla getmək mümkün olduğundan belə bixəbər idi.

Əslində, tutduğu vəzifəyə görə hərbi nizam-intizamı özü gözləməli olan 709 nömrəli hərbi hissənin komandiri polkovnik-leytenant Eldar Əliyevin tabeliyindəki şəxsi hey'ət isə yerli əhalini qarət etməklə məşğul idi. Cəbhə bölgəsində əyyaş həyat tərzi sürən Eldar Əliyev Ağdamın hansı e'tibarlı müdafiəsini təşkil edə bilərdi? Sözsüz ki, təşkil edə bilməzdi. Edə bilməzdi ona görə ki, əqidəsi torpağına, xalqına, dövlətinə qarşı cinayətlər üzərində yoğrulmuş kəsin mə'nəviyyatı da, şüuru da artıq zəhərlənmişdi. Belə bir əqidə isə Azərbaycana heç bir vaxt xidmət göstərə bilməzdi. Necə göstərə bilərdi ki, vaxtilə Ağdamın müdafiəsini təşkil edə bilməyən, mülki əhalini düşmən qarşısında yalqız qoyan 709 nömrəli hərbi hissənin komandiri Eldar Əliyev 1994-cü ildə oktyabr dövlət çevrilişinə cəhd cinayətinin əsas iştirakçılarından birinə çevrildi. Əvvəl torpağa, Ağdama xəyanət, daha sonra dövlət çevrilişinə cəhddə iştirak — məgər bunlar təsadüfdürmü? Beləbəri idi Əbülfəz Əliyevin Qarabağda səlahiyyətli nümayəndəsi Surət Hüseynovun vuran əli!

Ağdam ona görə işğal oluna bildi ki, onun müdafiəsinə Ağdam

Rayon Polis İdarəsinin post-keşik xidməti alayının komandiri mayor Faiq Baxşəliyev kimiləri cəlb edilmişdi. Məhz o, tabeliyində olan şəxsi hey'ətə geri çəkilmək barədə əmr verənlərdən biri idi. Nəticədə Ağdam şəhərinin və ətraf kəndlərin müdafiəsi üçün böyük strateji əhəmiyyətə malik olan "Yeddixırman" yüksəkliyi düşmənin əlinə keçdi. Bu həmin Faiq Baxşəliyevdir ki, 1995-ci ilin mart dövlət çevrilişinə cəhd cinayətində əsas iştirakçılardan biri oldu. Vaxtilə müdafiə mövqeyini düşmənə təslim edən kəsin iki il sonra xüsusi təhlükəli dövləti cinayətin iştirakçısına çevrilməsi təəccüb doğurmamalıdır. Təəccüb doğurmamalıdır, ona görə ki, hələ Ağdamın işğalı ərəfəsində "Mütəllibov qayıtmasa, müharibədə dönüş yaranmayacaq" fikirləri onun şüarına çevrilmişdi. Və 1995-ci ilin mart dövlət çevrilişinə cəhd cinayətində "Mütəllibov leytmotivi"nin, bir daha gördüyünüz kimi, Ağdam xəyanətinə söykənən kökləri vardır.

Bu köklər çox dərindir və çox əlaqələrdən xəbər verir. Həm də ona görə ki, 1995-ci ilin aprel—avqust aylarında respublikada növbəti hərbi dövlət çevrilişinə cəhdi təşkil edən Ayaz Mütəllibov və Surət Hüseynovun hazırladıqları bu xüsusi təhlükəli dövləti cinayətdə məhz həmin Faiq Baxşəliyevin də fəal iştirakı nəzərdə tutulmuşdu. Məgər təsadüfidirmi ki, dövlət çevrilişi planına əsasən, 1995-ci ilin iyulunda xarici səfərdən qayıdan Azərbaycan Respublikası Prezidentinin təyyarəsi məhz Faiq Baxşəliyevin tə'lim keçdiyi "İqla—1" tipli raket kompleksinin köməyi ilə vurulmalı idi?

Acı da olsa bir həqiqətdir ki, Ağdamın işğalı təsadüfi deyildi. Ona görə ki, vaxtilə Ağdamın müdafiəsi Ağdam cəbhəsinin də daxil olduğu 2-ci ordu korpusunun komandanı, sonradan isə Daxili Qoşunların kamandanı olmuş general-mayor Rafiq Ağayevə tapşırılmışdı.

Əlaqələrə diqqət yetirin! Bu həmin Rafiq Ağayevdir ki, 1995-ci ilin aprel—avqust aylarında Azərbaycanda hərbi dövlət çevrilişi cəhdi cinayətinin fəal iştirakçısı oldu. Bütün bunlar faktdır. Faktlar isə açıq-aşkar ona dəlalət edir ki, vaxtilə Ağdamın müdafiəsi həvalə edilmiş Faiq Baxşəliyevlərin, Rafiq Ağayevlərin, Eldar Əliyevlərin sonradan dövlət çevrilişinə cəhd cinayətlərində iştirakı və beləlɘrinin Ayaz, Surət kimiləri ilə uzunmüddətli əlaqələri təsadüfi deyildi. Lakin həyat sübut edir ki, özülü xainlik üzərində qurulan əlaqələr nə qədər uzunmüddətli olsa da, və bu əlaqələrin kökləri nə qədər dərinə basdırılsa da, gec-tez üzə çıxmalıdır, lə'nətlənməlidir!

Bax, Ağdamın da, Qarabağın da, bütövlükdə Azərbaycanın da faciəsi belə əlaqələr üzərində qurulub!

Ağdamın müdafiəsinə cavabdehlik belələrinin üzərinə qoyulduğuna görə idi ki, Novruzlu—Mərzili, Şelli—Xıdırlı, Əliağalı—Qalayçılar, Əlimədətli, Papravənd, Boyəhmədli kəndlərinə düşmənin hücumu zamanı hərbçilər döyüş mövqelərini, strateji əhəmiyyətə malik



yüksəklikləri, hərbi hissələrini əksər hallarda düşmənə ciddi müqavimət göstərmədən, özbaşına qoyub tərk edirdilər, qaçırdılar.

Ağdam həm də ona görə işğal oluna bildi ki, respublikanın o vaxtkı rəhbərləri Ağdam kimi strateji əhəmiyyətli rayona rəhbər tə'yinatının mahiyyətini belə dərk edə bilmirdilər. Əgər dərk etsəydilər, bunu lazımınca qiymətləndirsəydilər, 1988-ci ildən 1993-cü ilə qədər, cəmi beş il ərzində Ağdamda 7 icra hakimiyyəti başçısı bir-birini əvəz etməzdi.

Möhtərəm cənab Prezident!

Hörmətli həmvətənlər!

Ağdamın və ətraf kəndlərin işğalı ilə əlaqədar cinayət işinin istintaqında 21 nəfər, o cümlədən general-mayor Rafiq Ağayev, polkovnik-leytenant Eldar Əliyev, mayor Faiq Baxşəliyev, kapitan Zəfər Hacıyev, baş leytenant İldırım Əsədov, leytenantlar Yusif Məmmədov, İslam Novruzov, Nazim Bayramov və başqaları cinayət məs'uliyyətinə cəlb olunmuşlar.

Cinayət məs'uliyyətinə cəlb olunmuşların əksəriyyəti barədə ədalət mühakiməsi də öz qətiyyətli, haqlı sözünü deyib və hələ deyəcəkdir. Eldar Əliyev müstəsna cəzaya — ölüm cəzasına məhkum edilmişdir.

Bu gün 1994-cü il oktyabr dövlət çevrilişinə cəhdlə bağlı axtarışda olan Surət Hüseynovun Ağdam xəyanəti ilə bağlı hərəkətlərinə də tutarlı qiymət verəcək ədalət mühakiməsində sizlərin də deməyə çox sözünüz olacaqdır. Vaxtilə Ağdamdan hansı motivlərə görəsə "Qrad" qurğularının, topların çıxarılmasına göstəriş verənlərin də əməlinə istintaq qiymətinin verilməsi tə'min olunacaqdır.

Bütün bunlar heç şübhəsiz ki, olacaqdır. Lakin biz bu gün onu da yaddan çıxarmamalıyıq ki, 1993-cü ilin iyununda hakimiyyət böhranı respublikanın Müdafiə Nazirliyi sisteminə sirayət etdiyi kimi, həmin dövrdə Müdafiə Nazirliyində hökm sürən hərc-mərclik, hərbi səriştəsizlik, müharibə aparan ölkənin müdafiə sistemində yol verilən soyğunçuluq, dövlət əmlakının mənimsənilməsi respublikadakı ictimai-siyasi ab-havaya da az tə'sir etmirdi. Başqa sözə, Azərbaycan böhran içində idi. Nankorların naqis hərəkətləri döyüşmək istəyində olanların inamını da heçə endirmişdi.

Adı olub, əslində özü olmayan Müdafiə Nazirliyinin yaradılması, nizam-intizamlı ordunun formalaşması, xalqın haqqa-ədalətə inamının qaytarılması, dövlətə e'tibarının, düşmən üzərində mütləq qələbə qazanılacağına inamının bərqərar edilməsi üçün isə vaxt lazım idi. Həmin vaxtı udmaq lazım idi. Qəsbkarlar isə buna hər cəhdlə mane olur, belə fürsəti bizə vermək istəmirdilər.

Yalnız böyük və müdrik siyasət nəticəsində belə bir imkan — atəşkəs əldə olundu. Əgər 1994-cü ilin ilk dörd ayı ərzində Ağdamın "Xındırıstan" məscidindən 600 şəhid tabutu yola salınmışdısa, o

vaxtdan sonra günahsız qanların tökülməsinin qarşısı alındı. Çünki şəhidlərimiz arasında, adı hərbi rəhbər olan şəxslərin hərbi səriştəsizliyi üzündən qurban verilənləri də vardır. Ancaq o qanlar da havayı tökülməyib. Çünki Azərbaycan övladının qanı öz torpağında tökülüb. Qanını isə başqasının deyil, öz torpağında tökən xalqın ədalətli mübarizəsinə heç kimin, heç yerdə şübhə etməyə mə'nəvi haqqı yoxdur!

Cənab Prezident! Hörmətli həmvətənlər!

Sözsüz ki, bu gün Müdafiə Nazirliyinə rəhbərlik e'tibar edilmiş general korpusu, gizir və onun müavinləri, komandir hey'əti tərəfindən də ötən dövrdəki səhvlərin ciddi təhlil edilməsi, onların köklərinin aradan qaldırılması üçün daha kəsərli tədbirlərin görülməsi, yaradılmış fürsətdən məharətlə istifadə olunması xüsusilə vacibdir və həyati əhəmiyyət kəsb edir.

Möhtərəm prezidentimizin dəfələrlə ən yüksək tribunalardan bəyan etdiyi kimi, xalqımız sülh məramlı xalqdır. Azərbaycan tərəfindən atəşkəsin gözlənilməsi də məhz bununla bağlıdır.

Lakin bu həm də o deməkdir ki, bu gün respublikanın 58 rayonunda məskunlaşmış ağdamlılar, qaçqın və məcburi köçkün vəziyyətinə düşən bir milyondan çox həmvətənimiz, bütövlükdə Azərbaycan xalqı, çağırdığı zaman, özü sevib-seçdiyi, gücü qarşılıqlı inam və e'tibara söykənən prezidentinin, Ali Baş Komandanının arxasınca qətiyyətlə gedəcəkdir! Arzum odur ki, bunu düşmənlərimiz də başa düşsün — həm xarici düşmənlər, həm də sapı özümüzdən olanlar.

Hörmətli həmvətənlər!

Bu gün Azərbaycan dövlətinin, onun başçısının yeritdiyi siyasət ona xidmət edir ki, mövcud həqiqətlər dünya ictimaiyyətinə olduğu kimi çatdırılsın. Dövlətimiz tərəfindən dünyaya çatdırılan həqiqət isə odur ki, xalqımız üçün tarixən ona məxsus olmuş Qarabağsız Azərbaycan da yoxdur! Dünya siyasətini müəyyənləşdirən nəhəng dövlətlər artıq bu həqiqəti qəbul etdiklərinə görə, ölkəmizin müdafiə qüdrətinin möhkəmləndirilməsi ilə bağlı görülən digər tədbirlərə görə, əminəm ki, Azərbaycan dövlətinin yeritdiyi siyasət öz müsbət nəticələrini verəcəkdir. Bunu inamla söyləyirəm. Çünki xalqla prezidentin həmrə'yliyi yekdil olan bir məmləkətdə başqa zəmanətə ehtiyac yoxdur.

Diqqətinizə görə təşəkkür edirəm!

**Heydər Əliyev:** Söz verilir Xuraman Abbasovaya. Xuraman xanım Ağdamda, həm də bütün Azərbaycanda tanınmış bir şəxsdir. Ağdamın dərdi həmişə onun dərdi olubdur. Ona görə onu da dinləmək çox maraqlıdır.



## Əmək Qəhrəmanı, pensiyaçı XURAMAN ABBASOVANIN çıxışı

Əziz və hörmətli Prezidentimiz!

Çıxışımın əvvəlində mən vaxt tapıb bizimlə görüşdüyünüzə, dərdimizi demək imkanı yaratdığınıza, üç illik Ağdam qübarı ilə sızıldayan qəlbimizi ovutduğunuza görə Sizə öz dərin minnətdarlığımı bildirirəm. Çıxışıma başlamamışdan qabaq, əziz Heydər Əliyev, Sizə bildirirəm ki, mən ağır cərrahiyyə əməliyyatı keçirmişəm. Ona görə də mənim çıxışımda bə'zi qüsurlar ola bilər. Xahiş edirəm ki, məni bağışlayasınız.

**Heydər Əliyev:** Buyurun, buyurun.

**Xuraman Abbasova:** Bizim bu üç ildə keçirdiyimiz hissləri, ağrı-acılarımızı sözlə ifadə etmək çətindir. Lakin Sizin çox ciddi inadla, qətiyyətlə torpaqlarımızın xilası yolundakı fəaliyyətiniz bizə ürək verir, inamımızı artırır. Allahın xalqımıza bəxş elədiyi xilaskar kimi ümidlərimizi Sizə, Sizin böyüklüyünüzə, qüdrətinizə bağlamışıq. Heydər Əliyev adı indi təkcə bizim yox, bütün dünya azərbaycanlılarının da inam, qüvvət mənbəyidir. Biz bütün əzablara dözür, Heydər Əliyev siyasəti sayəsində torpaqlarımızda abadlıq yaradacağımız günün uzaqda olmadığı amalı ilə yaşayırıq. Qoy Ulu Tanrı Sizi Azərbaycan xalqına çox görməsin!

Əziz Prezidentimiz! Bilirik ki, müharibə ölümdür, qandır, dağıntıdır. Lakin yaralarımızı qaysaqlanmağa qoymayan dərdimiz, digər Vətən torpaqları kimi, Ağdamın da namərdliyin, xəyanətin qurbanı olmasıdır. Qarabağın qeyrət qapısı, əsrlərlə ermənilərə göz dağı, Dağlıq Qarabağda yaşayan azərbaycanlılara isə dayaq olan Ağdamın itirilməsi bu bölgənin şah damarının qırılması idi.

Hadisələr başlanan gündən bütün ağırlığı, gərginliyi çiynində daşıyan Ağdamın özünümüdafiə dəstələri bu ulu torpağın bir qarışını da itirmədilər. Şirin Mirzəyevə, Qatır Məmmədə, Allahverdi Bağırova, Fred Asifə, Yelmar Edilova və bütün digər şəhidlərimizə Allah rəhmət eləsin! Bu oğullar və onlar kimi oğullar öz dəstələri ilə birlikdə mərdliklə vuruşurdular.

Hörmətli Prezidentimiz, mən bir faktın canlı şahidiyəm ki, Ağdamı göz bəbəyi kimi qoruyan cəsur briqada komandiri Elxan Orucovu da, mən deyərdim ki, qəsdən Ağdamdan uzaqlaşdırdılar. Bununla da Ağdamın müdafiə qüvvəsi xeyli zəiflədi. Milli Ordu adı altında başıpozuq batalyonların həmin döyüşən dəstələrin yerinə müdafiə mövqelərinə yerləşdirilib, müəyyən döyüş hazırlığına və təcrübəsinə malik, yerli coğrafi şəraiti gözəl bilən döyüşçülərin uzaqlaşdırılması, əvvəldə adlarını çəkdiyim komandirlərin həlak olması, Qatır Məm-

mədin nahaqdan həbs edilməsi və günahı olmadığı üçün azadlığa buraxıldığı gün həbsxanada müəmmalı ölümü xəyanətkar qüvvələrə əl-qol açmaq imanı verdi.

Hələ 1988-ci ildə hadisələrin ilk günündən haray çəkən Ağdamın səsinə respublikanın o vaxtkı rəhbərləri — nə Əbdürrəhman Vəzirov, nə Ayaz Mütəllibov, nə də Elçibəy səs vermədilər. Əksinə, vəziyyətə dair verdiyimiz mə'lumatlar "təxribatdır, şayiələrdir" deyə nəzərə alınmırdı. Bizə böhtan atırdılar. Biz gedib dərdimizi deyirdik, — cavab verirdilər ki, yalan deyirsiniz. Mərkəzə, Müdafiə Nazirliyinə, başqa yerlərə adam göndərirdik, nümayəndə göndərirdik. Hörmətli Prezident, göndərirdik, bizə böhtan atırdılar. Deyirdik ki, bizi öldürürlər, qırırlar, üstümüzə gəlirlər, Xocalını qıracaqlar. Belə hadisələrin hamısına laqeyd baxırdılar. İmkan vermirdilər həqiqəti deyək, ağzımıza vururdular.

Məhz laqeydlik, 1992-ci ilin əvvəlindən Ayaz Mütəllibova Xocalının və Ağdamın ağır vəziyyəti barədə aramsız olaraq verdiyimiz mə'lumatlara məhəl qoyulmaması nəticəsində dəhşətli Xocalı faciəsi baş verdi. Ağdamlılar da, xocalılar da, Elman Məmmədov da çox yaxşı bilirlər ki, Ağdam hər an onlara dirək olub. Möhtərəm Prezident, Xocalının mühasirəsi zamanı dövlət orqanları susdu, dövlət orqanları, hərbçilər qaçdılar, gizləndilər, heç ortalığa çıxmadılar. Oradan xocalılar hey yalvarırdılar ki, bizə kömək edin, bircə dənə güllə atın, ermənilər bilsin ki, bizə köməyə gəlirsiniz. Amma heç bir səs-soraq çıxmırdı. Susurdular.

Adı sonradan xəyanətkarlar tərəfindən ləkələnmiş Qatır Məmmədin dəstəsi Şelli tərəfdən Əsgərana hücum edərək Xocalının köməyinə çatmağa çalışırdı. Bu döyüşdə ağdamlılar çox böyük itkilər verdilər. Qatır Məmmədin oğlu, Azərbaycanın Milli Qəhrəmanı Canpolad Rzayev, Şellinin şəhidləri Xosrov, Bəylər, Firdovsi və onlarca başqaları şəhid oldular. Xocalının qaçqınlarını qarlı meşələrdə qarşılayan, axtarıb taparaq çiyinlərində daşıyan məhz ağdamlılar oldular.

Burada ağdamlıların nümayəndələri oturublar. Elə bir qar yağırdı, elə bir tufan, elə bir yağış idi ki, mümkün deyildi adamlara kömək köstərəsən. Burada oturan ağdamlıların əksəriyyəti meşələrə gedib ölənlərin meyitini, qıçlarını don aparan körpə uşaqları, böyükləri dallarına şələyib gətirib, Abdal-Gülablı kəndində yerləşdirib, Nofəl və başqaları da onlara kömək edib, şərait yaradıblar.

O zaman müharibə sanki Ermənistanla Ağdam arasında gedirdi. Baş verən hadisələr barədə respublika əhalisinə heç bir dürüst mə'lumat verilmirdi. Mərkəzdə hakimiyyət uğrunda çəkişmələr torpaqlarımızın itirilməsi ilə nəticələnirdi. Belə gərgin bir vaxtda, hörmətli Prezident, Sovet hökuməti dağılan zaman — 1991-ci ilin sentyabr ayında bizim rayonda Sovet Ordusunun üç böyük hərbi



hissəsi var idi. Elə hissələr idi ki, elə bir silah yox idi ki, orada olmamış olsun. Çoxlu yük maşını, 74 ədəd UAZ maşını və başqa texnika, ehtiyat hissələr var idi. Azərbaycan Xalq Cəbhəsi və onun nümayəndələri, Ağdamda olan nümayəndələri, bir də müəyyən qurumlar bunların hamısını satdılar, dağıtdılar. Onlar Ağdamın, Xocalının, kəndlərimizin müdafiəsi əvəzinə, ancaq özlərinə var-dövlət toplamaqla məşğul oldular. Onlar ayrı nə ilə məşğul ola bilərdilər?

Mən bunları ona görə bir daha xatırlatdım ki, fikrimcə, bütün bu bəlalar düzgün rəhbərlik olmamasının nəticəsi idi. O dövrdə ağıllı, müdrik ölkə rəhbəri olsaydı, bölgədə bu faciələrin çoxu baş verməzdi və indi bir milyondan artıq adam qaçqın, köçkün adı daşımazdı. O dövrdə Azərbaycana məhz Siz gərək idiniz, əziz Heydər Əliyev! Mən 1993-cü ilin mart ayında "İstiqlal" qəzetində bu barədə fikirlərimi bildirmişdim. Həmin yazımdan bir neçə cümləni xatırlatmaq istəyirəm: "Ancaq dünyagörmüş adam kimi keçmişimizə, indimizə baxıb bir siyasi xadim görürəm — Heydər Əliyevi və yalnız Heydər Əliyevin "Yeni Azərbaycan"ı üçün, onun təşəkkülü və qələbəsi üçün əlimdən gələni edəcəyəm. Özbaşınalıq baş alıb gedən respublikamızda dövlət idarəçiliyi naşı əllərdədir. Təhlükə başımızın üstünü alıb. Bu təhlükədən xalqı xilas etmək üçün qoluzorlular yox, təcrübəli, uzaqgörən siyasi xadim Heydər Əliyev lazımdır. Bu vəziyyətdən bizi ancaq o xilas edə bilər".

Yeri gəlmişkən, Sizə çatdırmaq istəyirəm ki, biz bu fikirlərimizi daha əvvəl — 1991-ci ildə Ağdamdakı mitinqlərdə də bildirmişdik və bəyan etmişdik ki, Azərbaycana Heydər Əliyev lazımdır. Orada 40 min ağdamlı yaş həddi məsələsi ilə əlaqədar e'tiraz məktubu imzalayaraq mənim vasitəmlə Ali Sovetə göndərmişdi. Mən onu aparıb Elmira Qafarovaya vermişdim. Allah ona rəhmət eləsin. O, mənə dedi ki, niyə belə şeylərlə məşğul olursan? Mən dedim ki, Heydər Əliyevin yolunda ölümə də getməyə hazıram. Ona görə ki, mən onu çox istəyirəm.

Ağdamın faciəsinin əsas səbəblərindən biri də o vaxt hakimiyyətdə olan Xalq Cəbhəsi və onun rayonda yeritdiyi yarıtmaz kadr siyasəti oldu. Ağdamın Qarabağ yolunda canından, malından keçməyə hazır olan bacarıqlı, təcrübəli, işgüzar kadrları "partokrat" damğası ilə işdən çıxarılırdı. Onların yerini isə naşı, təcrübəsiz, yıxıb-dağıtmaqdan başqa heç bir şey bilməyən adamlar tuturdular.

Mən burada bir şeyi də qeyd etmək istəyirəm, əziz Heydər Əliyev. Bir dəfə müşavirə idi. O iclası Əbülfəz Əliyev aparırdı. Hələ onda bəy demirdilər. Mən öz qulağımla eşitdim ki, camaat dedi pambığı yığmırlar, işləmirlər, pambıq sahələrdə ağappaq qalıb. O dedi ki, yığırlar-yığsınlar, yığmırlar-yığmasınlar. Təəccübə bax, başçının dediyi sözə bax!

Şərəf, vicdan, obyektivlik itən yerdə saxtakarlıq, iftira, böhtan baş qaldırır, azadlıq, müstəqillik və demokratiya siyasi oyuncağa çevrilir. Ağdam məhz belə siyasi oyunların qurbanı olmuşdur. Ağdamın cah-cəlallı evlərini guya bizi müdafiə etmək üçün gələn 709 nömrəli hərbi hissənin əsgərləri talan etmişdilər.

Mən Surət Hüseynov haqqında da demək istəyirəm. Hörmətli ağdamlılar, burada oturanlar! Mən həqiqətən Surət Hüseynovu nə görməmişəm, nə də tanımıram. Televiziyada görmüşəm. Amma məəttəl qalırdım ki, ona bu boyda vəzifə verilibdir. O vəzifədən artıq bunun könlündən nə keçirdi? Keçirdisə, heç o vəzifəyə yaraşırdı? Heç Heydər Əliyev yoldaşın stolu arxasında otura bilərdi, heç onun savadı ona çatardı? Mən burada bir faktı demək istəyirəm ki, hörmətli prezidentimiz Heydər Əliyev Fransada səfərdə olanda bir müxbirlə müsahibə apardı. Heydər Əliyev yoldaş o müxbiri, qoy kəndli dili ilə deyim, nə təhər qısnadısa, verilən suallara necə cavablar verdisə, biz görürdük ki, müxbir stulda gah belə çönür, gah elə çönür. Axırda da o dedi ki, mən böyük siyasətçinin qarşısında oturmuşam, əlbəttə, sizə cavab verə bilmərəm. Onda mən arzu etdim ki, Allahın altında elə imkan olaydı ki, Heydər Əliyevin yanında olub, onun başına hərlənəydim. Bizim qeyrətimiz belə şəxsiyyəti qorumalıdır, biz onun arxasınca getməliyik. Mən burada oturan televiziya işçilərindən xahiş edərdim ki, o erməni müxbiri ilə olan müsahibəni bir də versinlər. Ölürəm ondan ötrü!

Hörmətli Prezidentimiz! Biz ağdamlılar Sizi çox sevirik, Sizin daxili və xarici siyasətinizi ürəkdən bəyənirik. Siz Azərbaycan xalqının cəsarətli oğlusunuz. Biz əminik ki, Qarabağa gedən yolları Siz açacaqsınız!

Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Ona görə ki, Azərbaycanın müstəqillik bünövrəsini Siz qoymusunuz. İki dəfə dövlət çevrilişi cəhdlərinin qarşısını alaraq dövlətimizi hər cür daxili və xarici düşmənlərin təcavüzündən qorumusunuz. Biz bu çevrilişlərə nifrət edirik və onları pisləyirik.

Möhtərəm Prezidentimiz, Ağdamın indi özümüzdə olan ərazisində aparılan işlər inamımıza əsas verir. Mən ömrüm boyu təsərrüfatçı olmuşam, bu sahə ilə daha çox bağlıyam. Rayon icra hakimiyyətinin başçısı müharibədə çox əziyyət çəkib. Mən Həsən Sarıyevin dediklərinin hamısı ilə razıyam, çünki cəbhə yoldaşı olmuşuq, o biri "cəbhə" yoldaşı yox, əsl müharibə cəbhəsi. Cəbhə yoldaşı olmuşuq, səngərlərdə olmuşuq, əsgərlərə 450 dəst paltarı öz pulumuzla almışıq, müdafiə fonduna 100 min manat pul keçirmişik. Xocalı hava limanının 40 nəfər əsgərini biz saxlamışıq. Ağdamlılar onlara çox möhkəm kömək göstəriblər. Həsən Sarıyevin, Çimnaz Əliyevanın, Eldar Həsənovun dedikləri ilə biz 200 faiz şərikik. O çıxışları, deyilən faktları bəyənirik. Çox bəyənirik!



Bir də təkrar edirəm ki, Ağdamın özümüzdə olan ərazisində aparılan işlər bizdə inam yaradır. İcra hakimiyyətinin başçısı Həsən Sarıyevin rəhbərliyi ilə rayonun kənd təsərrüfatında, xüsusilə taxılçılıqda əldə olunan göstəricilər də məni çox sevindirir. Əhali arasında sabitlik yaradılmışdır.

Əziz Prezidentimiz! Bizim övladlarımız, nəvə-nəticələrimiz bu bünövrə üzərində firavan həyat sürəcək, Qarabağın xilaskarı kimi, onun dilbər guşəsində Sizin möhtəşəm abidənizi ucaldacaqlar. Mən buna əminəm və inanıram ki, o gün gələcək. Allah bu yolda köməyiniz olsun!

Bir əlavəm də var ki, mənim övladım Aidə Qasımova xahiş edib ki, "Məhəmməd Peyğəmbərin Allahın yanına getməsi" kitabını, bir də "Füzulinin yaradıcılığında Qur'an rəvayətləri" kitabını Sizə — Heydər Əliyev yoldaşa təqdim edim.

**Heydər Əliyev:** Sağ olun, təşəkkür edirəm.

**Xuraman Abbasova:** Yoldaş Əliyev, Hörmətli Prezident, Allah Sizə uzun ömür versin. Mən Sizi çox istəyirəm, Ağdam camaatı Sizi çox istəyir. Faciəlimi deyim, dəhşətlimi deyim, o sessiyada — qoy burada oturanlar hamısı bilsin, mən Sizi Adilə Namazova ilə birlikdə gəldik, Sizi qucaqladıq, öpdük. Namərd adamlar bizim şəklimizi çəkdilər, verdilər Mütəllibova. Bizim belə adamlarımız da var.

**Heydər Əliyev:** Yəqin ki, aşkar öpürdünüz də, bundan niyə narahat olurdular?

**Xuraman Abbasova:** Bəli.

**Heydər Əliyev:** Ona görə narahat olmaq lazım deyil.

**Xuraman Abbasova:** Narahat olanlar olurlar. Sizin yadınızda olar, XIX partiya konfransında yaşlı bir generalla söhbət edirdiniz. Mən onda yenə gəlib Sizi qucaqladım, öpdüm. Ürəyim istəyir Sizi! Qucaqladım Sizi öpdüm. Onu da namərd adamlar Vəzirova xəbər vermişdilər [Gülüş]. Qeyrətiniz olsun, kişisiniz. Bəs bu, bizim əzizimizdir, gözümüzdür. Biz bunu niyə öpməyək!

**Heydər Əliyev:** Sağ olun, sağ olun. Gülablı kəndindən Xaspolad Mirzəliyev buyursun.

**Abdal-Gülablı kənd sakini,**
**əmək veteranı**
**XASPOLAD MİRZƏYEVİN**
**çıxışı**

Hörmətli Prezident!

Məni bugünkü görüşə gətirən iki böyük istək var. And olsun haqqa, o istəyimin birincisi Sizə olan məhəbbətimdir, istəyimdir.

İkincisi, torpaqlarımıza olan məhəbbətimdir. Niyə əvvəlcə Sizə olan məhəbbətimdən söz açdım? Ona görə ki, biz o torpaqlara Sizin köməyinizlə qayıdacağıq.

Mən çox şadam ki, Sizin qarşınızda üçüncü dəfədir çıxış edirəm. Birinci dəfə 1980-ci ildə Qurban Pirimovun yubileyində mən onun yaxın adamı kimi həmin iclasın rəyasət hey'ətində əyləşmişdim. Orada mən çıxış etdim, şe'r söylədim. Dedim ki:

Oxuyub hər elmdə alim də olsan,
Həyatın mə'nasın biləsən gərək.
Əməkdə, əməldə, xeyirdə, şərdə
Yaxşını, yamanı görəsən gərək.

Siz məni alqışladınız, salondakılar da Sizə görə məni alqışladılar. Mən bunu başa düşürəm. Məni üç dəfə geri qaytardılar. Sonra mən camaatdan üzr istədim ki, vaxta qənaət etmək lazımdır.

İkinci dəfə Siz böyük Türkiyənin hörmətli prezidenti, bütün Azərbaycanın yaxın dostu, əziz qardaşımız Süleyman Dəmirəllə birlikdə qaçqınların yanına gələndə Sizinlə görüşmək mənə qismət oldu. Üçüncü də bugünkü görüşdür. Allahdan arzu edirəm ki, Qarabağ torpaqları qaytarılanda keçiriləcək görüş, dördüncü görüş də mənə qismət olsun.

**Heydər Əliyev:** İnşallah.

**Xaspolad Mirzəliyev:** Hörmətli Prezident! Deyirlər ki, həyat zamanın hökmü ilə oynayır. Zamanı yaradan Allahdır. Bu, təbiidir. Mə'nəviyyatların pozulması zəmanədən asılı deyil. Bir halalzadələr, bir də haramzadələr var. Zaman nə qədər sönsə də halalzadələrin mə'nəviyyatı pozulmur, onlar öz mənliklərini itirmirlər. Amma haramzadələr, əsli-kökü qırıqlar, zatında şübhə olanlar mənliklərini itirirlər.

Mən Ağdam rayonunun Abdal-Gülablı kəndindənəm. Bizim kəndimizlə Ağdamın arasında 16 kilometr məsafə var. Füzuliyə gedən yolun 9-cu kilometrindən sağa dönəndə 6 kilometrdən sonra bizim kənddir. Kəndimiz dağın qoynunda yerləşir. Xudavəndi-aləm sağlıq eləsin, yolunuz düşsə görəcəksiniz ki, o yerlər necə də gözəldir. Dağlar şimaldan başlayır, hərlənib o kəndin cənubunda qurtarır. Kəndimizin tarixi çox qədimdir. Hələ çar Rusiyası dövründə kəndimizdə rus-tatar məktəbi, hamam, iki məscid, 14 su dəyirmanı olub. Mən bunları gözümlə görmüşəm. Biz orada 12 axar kəhrizi qoyub gəlmişik. Min hektara yaxın meşə sahəmiz, üç min beş yüz hektar yararlı torpaqlarımız var idi.

Kəndimiz üçüncü dəfədir ki, belə faciəli vəziyyətlə üzləşir: birincisi 1905-ci ildə, ikincisi 1917-1920-ci illər arasında, üçüncüsü isə indi. Kəndimiz doqquz erməni kəndinin əhatəsində idi. Torpağımız 30 kilometr Dağlıq Qarabağda məskunlaşan ermənilərin sahəsinin



içərisinə girir. Təsəvvür edin, elə bil bir varlığın sinəsinə xəncər salmısan. Bax, bizim torpaq ermənilərin sahəsinə o cür sancılıb. Dağlıq Qarabağda bizim kənddəki dağlardan uca dağlar yoxdur.

Möhtərəm Prezident!

Müharibədə iştirak edənlər onun gedişatını bilirlər. Adətdir, müharibə gedən hər ölkədə baş qərargah olur, yaxşı hərbi mütəxəssislər cəbhənin planını tərtib edir, Ali Baş Komandan yoxlayandan sonra onu cəbhələrə göndərir. Azərbaycanda o Ali Baş Qərargahı əvvəldən kimin təşkil elədiyini bilmirəm, haqqa and olsun ki, o qərar veriləndən qurğu qurulub, torpaqların düşmənə təhvil verilməsi planı çəkilib. Torpaqların qorunub saxlanılması yox, düşmənə verilməsi planı cızılıb. Mən buna şahidəm.

Müharibə başlamamışdan əvvəl kəndimizdə olan odlu silahları, ov tüfənglərini — nə qədər varsa hamısını Ağdam Rayon Daxili İşlər Şö'bəsinin əməkdaşları yığdılar. Xəbər aldıq ki, bu silahları niyə yığırsınız, cavab verdilər ki, ara-sıra mal oğurluğu olur, qaytarıb verəcəyik. Münaqişə başlayanda dağlarda biz özümüzü soyuq silahlarla müdafiə etməli olduq. Səngərlərdə ağacla, dəmir yaba və sairə ilə dayanmışdıq. Doğrudur, müəyyən adamlar öz pulları ilə o vaxt bir neçə silah aldılar. Kəndin fəalları müxtəlif təşkilatlara müraciət etdikdən sonra çətinliklə də olsa bir neçə avtomat ala bildilər. Nəhayət, kəndin əhalisi silahlandı, özünümüdafiə dəstələri yarandı.

Dağlarda doluya qarşı toplar var idi. Bir zaman xəbər gəldi ki, ermənilər o topları azərbaycanlılara qarşı döyüşdə istifadə etməyə hazırlayırlar. Onda hələ Ağdamda hərbi hissə, rayon partiya komitəsi var idi. Raykomun köməyi ilə o toplar qeydiyyatdan keçdi və onları Ağdamdan aşağıya gətirdilər. Abdullayev Xəlil Əkbər oğlu, Muradov Kazım Murad oğlu, Nəsirov Allahverdi Şirəli oğlu o topların adama birini gətirib lazımi yerdə qurdular və bunlar kəndimizin müdafiəsində mühüm rol oynadı. Onda hələ ermənilərdə uzaqvuran toplar yox idi. Onlarda əsasən "Alazan", avtomat, iriçaplı pulemyotlar var idi. E' ki, Xocalı, Şuşa işğal edildi ermənilər silahlandı.

Haqqa and içirəm ki, o vaxtlar biz bir gecə də səhərədək yatmırdıq. Hər gecə atışma 4-5 dəfə bizi ayağa qaldırırdı. Çünki kəndimiz atəş altında idi. Əgər Abdal-Gülablı kəndi işğal edilməsəydi, Ağdama girmək olmazdı. Çünki Ağdamın sağ qolu Abdal-Gülablı, sol qolu Papravənd tərəf idi. Papravənd tərəfi bax, bu Həsən müəllimin rəhbərlik etdiyi batalyon saxlayırdı. Həsən Sarıyev axıradək cəbhədən geri çəkilmədi.

Möhtərəm Prezident, mən demək istəyirəm ki, o vaxt o yerlərin düşmənə verilməsi planlaşdırılmışdı. Oraya Milli Ordunun batalyonu gələndə dedilər, qərargahdan əmr var ki, 25 yaşından yuxarı adamlar ordudan çıxmalıdır. Qolu qüvvətli, qıçı taqətli, ürəyi təpərli oğlanlardan

avtomatları alıb uşaqlara verdilər. Təxribat da buradan başladı ki, müdafiə bir az zəifləsin. Silah işlədə bilməyənlərə silah verdilər. Bu minvalla biz dörd il atəş altında qaldıq. Axırda kəndə "Qrad" düşdü, məndən böyük bacım öldü, yoldaşım başından yaralandı. Bacımı dəfn elədiyimizin ikinci günü biz onun yasında otura bilmədik. Göydən sanki od yağırdı. Yas məclisinin stolları evin içində qurulu qaldı, biz oradan çıxdıq. O günədək kənddən heç kim çıxmamışdı. Gəlib asfalt yoldan baxırdıq. Bizimkilər topdan atəş açırdılar, gedib dağın zirvəsinə düşürdü. Təxminən 20 dəqiqə atəş oldu. Sonra Ağdam tərəfdən atəşi kəsdilər. Bundan sonra erməni tərəfi atəşə başladı. Ermənilər Ağdamın kəndlərini bir saat atəşə tutandan sonra bizimkilər bir-iki cavab atəşi açdılar. Ermənilər bizim kəndə girdilər. Axşam televiziya ilə mə'lumat verildi ki, ermənilər Abdal-Gülablı kəndini güclü atəşə tutublar, bizimkilər cavab atəşi ilə onları susdurublar. Ay tövbə belə deyildi. Bu, bizim hərbi qərargah ilə erməni hərbi qərargahı arasında olan sözləşmə, işarələr idi. Əvvəlcə biri atəşə başlayırdı, sonra o biri tərəf başlayanda döyüş dayanırdı.

Milli Ordunun batalyonu kəndimizdəki məktəbdə yerləşirdi. Bu bina isə dərənin içində idi. Xuraman Abbasova çıxışında Elxan Orucovun adını çəkdi. O vaxt belə tapşırıq verildi ki, Abdal-Gülablıdan erməni kəndlərinə gedən yollar minalardan təmizlənsin. Batalyon komandirinə rəsmi tapşırıq verildi ki, biz erməni kəndlərinə hücum edəcəyik, əgər texnikamız orada minaya düşsə, səni güllələyəcəyik. Kəndimizin uşaqları erməni kəndlərinə gedən yollara nə qədər mina basdırmışdılarsa, hamısını çıxardılar. Qərargahdan beş tank göndərdilər. Kazım Muradov bu tankların birinə bələdçilik etdi. O and içir ki, biz meşədə gedəndə gördük ki, ermənilər dağın o üzünə aşırlar. Mən tankçılara dedim ki, onlara atəş açın. Cavab verdilər ki, yox, bizə atəş açmaq əmri verilməyib. Gərək əmr olsun, sonra atəş açaq. Həmin tanklar sonradan geri qayıtdı. Bu hadisə 1922-ci ilin avqust ayında baş vermişdi. Avqustun 20-dən sonra qərargahdan çağırıb bizim batalyonun komandirinə demişdilər ki, on gün atəş olmayacaq, döyüşçüləri on gün mə'zuniyyətə burax. Haqqa and olsun ki, mən düzünü danışıram, olan şeyləri deyirəm. Bəli, tapşırıq oldu ki, kazarmada əşyaları qorumaq üçün 10-12 nəfər qalsın. 170 nəfərdən 13 nəfərini kazarmada saxladılar, qalanlarını buraxdılar. Sentyabrın 1-də mə'zuniyyətə buraxılma vaxtı qurtardı.

Sentyabrın 3-dən 4-nə ötən gecə ermənilər bizim kəndə şahmat üsulu ilə hücuma keçdilər. Bayaq dediyim kimi, biz asfaltda durub baxırdıq. Qərargahı ratsiya ilə çağırıb xəbər verdilər ki, ermənilər kəndə girir. Həmin Elxan Orucov dedi ki, bu şantajdır, təxribat salmayın. Qoy mənə hərbçilər mə'lumat versinlər. İcra hakimiyyəti



başçısı da onun yanında olurdu. Ancaq bütün səlahiyyət qərargah rəisində idi.

Hərbçi olmayan adamlar əmrin düzünü-tərsini bilmirlər. Ona görə də biz həmin gecə səhərədək qışqırdıq. Bizim sözümüzə məhəl qoyulmadı. Axırda uşaqlara dedik ki, bizdə polis batalyonu var. Qaçın, polis batalyonunun rəisinə xəbər verin. Uşaqlar gedib qayıtdılar. Soruşduq ki, nə oldu? Cavab verdilər ki, getdik, mə'lumat verdik, dedilər, rəis axşamdan yeyib-içib yatıb, onun yanına adam buraxmaq olmaz, gəlib sabah sözünüzü deyərsiniz.

Yenə də deyirəm, Abdal-Gülablı Ağdamın sağ qolu idi. Ona görə də ermənilər bu sağ qolu vurmaq istəyirdilər, bunu da etdilər. Səhər tezdən qərargahdan Abdal-Gülablıya beş tank göndərildi. Həmin tanklar bizim kəndin ərazisinə keçməmiş, onlardan üçünü Muğanlıda vurdular, sıradan çıxdı, digər ikisi isə geri qayıtdı.

Möhtərəm Prezident, bax, kənd belə xəyanətin qurbanı oldu. Kar da, kor da başa düşər ki, bu, açıq xəyanət idi. Həmin qərargah rəisi sonra dedi ki, Abdal-Gülablının işğal olunması xəbəri mənə gündüz saat 3-də çatıb. O vaxt Rəhim Qazıyev dedi ki, düzdür, Elxan Orucov böyük səhvlərə yol verib, amma kadr yoxdur, nə etmək olar? Bu cinayətin cavabı belə oldu.

Möhtərəm Prezident, Elçibəyin vaxtında biz yığışıb bax, bu Prezident sarayının qarşısına gəldik. Yuxarıdan gəlib dedilər ki, sizdən dörd nəfər nümayəndə qəbul olunacaq. Onlardan biri də mən oldum. Yuxarı çıxdıq, bizi Əli Kərimov mehribanlıqla qəbul etdi. Dedi ki, bəy sizi axşam 5-də qəbul edəcək. Dedim ki, Əli bəy, mən bir məsələni öyrənməyə gəlmişəm. Soruşdu ki, nə olub, ağsaqqal? Dedim, bilmək istəyirəm ki, Abdal-Gülablı kəndinin düşmənə verilməsi xəbəri sizə necə çatıb? O ölməyib, durur, Milli Məclisin üzvüdür. Onun sözündən bir kəlmə artıq-əskik desəm, babalı mənim boynuma. Dedi ki, ağsaqqal, əvvəlcə sizin kənddə olan batalyonun komandirinə tapşırırlar ki, erməni kədlərinə gedən yollardakı minaları təmizləyin, çünki oradan hücuma keçəcəyik. Sonra qərargahdan beş-altı tank gedib yoxlayır, görür ki, bu yollarda həqiqətən mina yoxdur. Bundan sonra qərargahdan batalyon komandirinə tapşırıq verirlər ki, əsgərləri on günlük mə'zuniyyətə burax, atəş olmayacaq. Əsgərləri mə'zuniyyətə buraxırlar. Sentyabrın 3-dən 4-nə keçən gecə ermənilər gəlib sizin kəndi tuturlar.

Dedim ki, Əli bəy, axı, xəyanətin üstünü örtmək də xəyanətdir. Bəs nə üçün tədbir görmürsünüz? Cavab verdi ki, ağsaqqal, indi iş elədir ki, dinsəm, üz-üzə durmaq çıxacaq.

Bunlar mənim gözümlə görüb, qulağımla eşitdiyim həqiqətlərdir.

Möhtərəm Prezident, Siz dediyiniz kimi, Ağdam camaatı işgüzardır, zəhmətsevərdir. Siz respublikaya əvvəllər rəhbərlik etdiyiniz dövrdə

Ağdam həmişə qabaqcıl rayonlar cərgəsində olub. Siz Ağdamdan çox adamları böyük vəzifəyə irəli çəkmisiniz, çox adamların yüksəlməsinə səbəb olmusunuz, çox adamlara hörmət etmisiniz. Ağdam camaatı yenə də həmin camaatdır. Hörmətli Prezident, haqqa and olsun ki, ağdamlılar Sizi öz atası kimi sevirlər. Amma bayaq dediyim kimi, halalzadələr də, haramzadələr də var. O ağdamlı ki, indiki iqtidarın əleyhinə çıxır, şayiələr yayır, təxribatlarla məşğuldur — o, ağdamlı deyil. Xahiş edirəm, beləlləri özlərinə ağdamlı deməsinlər, ünvanlarını dəyişsinlər. Ona görə dəyişsinlər ki, yerli adamın əməli gərək öz xalqına xeyir versin, zərər vurmasın. Kişinin əməli gərək öz Vətəninə xeyir verə, zərər verməyə. Bu zərəri vuranların hamısı haramzadələrdir, onların əsli-kökü, dini-imanı yoxdur, qəlbi şeytan yuvasıdır, uydurmalar, boş xəyallar dalınca gedir.

Mən bir şeydən təsəlli tapıram ki, bu yeri, göyü, ərşi, dənizi, səhranı yaradanı danan adamlar da var. Bunu yadıma salanda bə'zən təsəlli tapıram ki, bu adamlar təkcə Heydər Əliyevə qarşı yox, Allaha qarşı da çıxırlar. Amma Ağdam camaatı həqiqətən indiki iqtidarı ürəkdən sevir, dövlətə e'tibarlıdır, özü də qorxmaz, qoçaqdır. Bunu da deyim ki, indi düşmən yoxdur, bunlar hamısı paxıllıq əlamətidir. Bugünkü düşmənçilik paxıllıqdan əmələ gəlir. Bu, ancaq onunla əlaqədardır ki, niyə o irəli keçdi, mən qaldım və sair.

Deyilənə görə, Peyğəmbər Əleyhissəlam İslamı tətbiq edərkən çətinliklərə mə'ruz qalanda bikefləyir. Onda Allah tərəfindən ona ayə gəlir ki, ya Məhəmməd, təkcə Allahın köməyi sənə bəsdir, kədərlənmə. Allah səninlədir, sən qalib gələcəksən. Hörmətli Prezident, indi şükürlər olsun ki, o bir Allah Sizin tərəfinizdədir. Əgər Allah Sizin tərəfinizdə olmasaydı, Azərbaycanın bu ağır vaxtında Sizi buraya gətirməzdi. Vaxtilə Siz Azərbaycanda rəhbərliyə gələndə Azərbaycanı Moskvadan başqa heç yerdə tanımırdılar. Məsələn, mən hərbi xidmətdə olarkən soruşdular ki, hardansan. Dedim Azərbaycandanam. Heç kim tanımadı. Amma Siz Azərbaycanı bütün İttifaqda tanıtdırdınız. O vaxt Brejnev deyirdi ki, Azərbaycan iri addımlarla irəliləyir. Siz ikinci Bakı yaratdınız, neçə-neçə qəsəbələr, zavodlar, fabriklər yaratdınız. Bunu görməyən göz kordur, duymayan ürək paxıldır, dərk eləməyən beyin kütdür, danışmayan dil laldır, eşitməyən qulaq kardır. Burada həqiqətlər var. Mənim danışdığım Allaha xoş gedir. Bilirəm ki, Allaha xoş gedir, ona görə də danışıram. Ağsaqqal adamam, başqa heç bir məqsədim yoxdur.

Mən sənətkar olmuşam. Şe'r yazmışam, saz çalmışam. 36 il mədəniyyət sahəsində çalışmışam, fəaliyyətim də mə'lumdur. Moskvada da çıxış etmişəm. Amma heç vaxt yaxşı geyinmək, yaxşı görünmək aşiqi olmamışam. Mən sadəlik aşiqi olmuşam. Xalqın ağrısı ilə böyümüşəm, arzusu ilə dincəlmişəm, nəfəs almışam. Xalqımı şən görəndə ürəyim açılır.



Möhtərəm Prezident, biz Sizin xaricə səfərlərinizi televiziya vasitəsilə diqqətlə izləyirik, ürəyimiz dağa dönür. Orda-burda şayiələr yayanlara demək istəyirəm ki, məgər insan deyilsiniz, görmürsünüz ölkəmizin prezidenti necə hörmətlə qarşılanır! Hörmətli Prezident, mən Sizi hər dəfə görəndə ruhum təzələnir, cavanlaşıram. Hər görüşdə Siz deyirsiniz ki, Azərbaycan müharibə şəraitindədir, torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyondan çox qaçqınımız var, ölkəmizin köməyə ehtiyacı çoxdur. Haqqa and olsun ki, Siz olmasaydınız, Azərbaycanın yarısı indi acından qırılmışdı. Sizə görə dünyanın hər yerindən buraya köməklər gəlir.

Hörmətli Prezident, mən bir qədər həyəcanlanmışam. Buna görə üzr istəyirəm. Sizə həsr etdiyim bu şe'rlə çıxışımı bitirmək istəyirəm:

Xaliqilləmyəzəl Vahidi, yektay
Yaradıb salanda cahana səni!
Bəxtini yazdırıb Adəmi-Ələstə,
Tapşırıb ayəli Fərzanə səni!

Zəhmətlə boy atıb dolduqca yaşa,
Səadət səninlə hərlənib qoşa,
Orta təhsilini vuranda başa,
Yüksəliş səsləyib meydana səni

Getdikcə nurlanıb şüurun, kamalın,
Mərhələ-mərhələ dəyişib halın,
Şahidi olmusan hər qeyli-qalın,
Bə'zən salıbdılar böhtana səni.

Yaradan çatdırıb səni vüsala,
Qoymayıb düşəsən bərkə, zavala,
Tanıtdırıb səni elə, mahala,
Dünyaya göstərib mərdanə səni.

Vüqarlıdır səndə olan dəyanət!
Səni sarsıtmayıb heç bir xəyanət.
Arxanda dayanıb haqq-ədalət,
Qoymayıb düşəsən böhrana səni.

Nəslində, kökündə böyük hikmət var,
Baban Əli Əsilzadə, Kərrar.
Atan Əlirza, öz adın Heydər,
Bu adlar tanıdıb hər yana səni.

Xalqının yolunda çox iş görmüsən,
Neçə-neçə təzyiqlərə dözmüsən,
Neçə çətinliyə sinə gərmisən,
Süd verib bəsləyib mərd ana səni.

Xain ürəklərə qorxu salmısan,
Siyasət elminə talib olmusan,
Bütün görüşlərdə qalib olmusan,
Əməlin salıbdır dastana səni.

Böyük mö'cüzədir sənin yaddaşın,
Sirli varlıqdır yaxın sirdaşın,
Onun sayəsində ucadır başın,
Dost bilirik şəfei-yezdanə səni.

Ata sözü çox şərəfli bir addı,
Köməyə arxadı, pisliyə yaddı,
Azərbaycan xalqı sənə övladdı,
Buraxan deyilik heç yana səni.

Dərdimiz müşküldü, dərmanı baha,
Ağır günlər yaxınlaşır kütaha,
Şükürlər edirik vahid Allaha,
Rəhbər edib Azərbaycana səni.

Vaxt gəlib, ağ seçilir qaradan,
Xəyanətlər bir-bir çıxır aradan,
Yeri, göyü, ərşi, kürsü yaradan
Çatdırsın firavan dövrana səni.

Xaspolad şə'ninə bağlayır dastan,
Ey dahi rəhbər, ey böyük insan,
Sənə arxayındı bu Azərbaycan,
Tapşırıram Qadiri-Sübhana səni.

## "Azərbaycan" qəzetinin müxbiri BƏXTİYAR SADIQOVUN çıxışı

Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları!

Bu gün çox ağır və ağrılı hadisə — Ağdamın işğalının üçüncü ildönümü münasibətilə toplaşmışıq. Kədərimiz nə qədər böyük olsa da, möhtərəm prezidentlə görüşməyimiz və dərdimizi onunla bölməyimiz bir o qədər təsəllili və ümidvericidir. Çünki biz ağdamlılar müharibə gedən dövrdə — 1993-cü ilin iyul ayında, Ağdamın işğalından az sonra Ağdam və Bərdə torpağında keçirilən görüşlərdə ilk dəfə məhz möhtərəm prezidentimizin dilindən ağdamlılara və Ağdamın qeyrətli müdafiəçilərinə verilən yüksək və obyektiv qiyməti eşitdik. O vaxtadək müharibənin əsas ağırlığını çiyinlərində daşıyan ağdamlılar qınaq hədəfi idilər.

Mən 1991—1993-cü illərdə "Həyat" və "Azərbaycan" qəzetlərinin xüsusi müxbiri kimi Qarabağ bölgəsində işləmiş, Ağdam şəhərində yaşamışam. Hərbi əməliyyatlar başlayandan bu günədək müharibə mövzusunda oçerk və reportajlar yazıb, dövri mətbuatda çap etdirmiş, "Qeyrət və xəyanət" adlı kitab nəşr etdirmişəm. Bu gün şahid jurnalist kimi fikir və təəssüratlarımı sizinlə bölüşmək istəyirəm.

Qarabağ uğrunda, yə'ni Azərbaycan torpaqlarını zor gücünə parçalayıb Ermənistanın tərkibinə qatmaq uğrunda mübarizəyə ermənilər çoxdan, özü də həm ideoloji, təşkilati və maliyyə, həm də hərbi cəhətdən hazırlaşmışdılar. Onlar niyyətlərini büruzə vermək, açıq mübarizəyə başlamaq üçün məqam gözləyirdilər. Dünya şöhrətli siyasətçi Heydər Əliyev böyük siyasətdən uzaqlaşan anda onlar həsrətlə gözlədikləri məqamın çatdığını anladılar. Əslində yanılmamışdılar. Çünki o dövrdə artıq Azərbaycan tərəfindən erməni məkrini, erməni hiyləsini və erməni siyasətini başa düşən və qarşısını ala bilən siyasi xadim yox idi. Əli bir çox xalqların qanına bulaşmış cəllad Qorbaçovun köməyi ilə Sovetlər İttifaqının parçalanması da bu prosesin sür'ətlə getməsinə şərait yaratdı.



Ağdam Qarabağın qeyri-rəsmi mərkəzi sayılırdı, həm də Dağlıq Qarabağda azərbaycanlılar yaşayan kəndlərin müdafiəsində dayaq nöqtəsi rolunu oynayırdı. Respublikanın hər yerindən göndərilən silah, sursat, ərzaq və s. buradan — ağdamlıların köməyi ilə yerlərə çatdırılırdı. Odur ki, Qarabağ uğrunda müharibənin ilk günlərindən Ağdam və ağdamlılar od-alov içində olmuşlar. Təəssüf ki, Bakıda oturan respublika rəhbərləri müharibənin ilk günlərindən hadisələrin siyasi və hərbi inkişafına düzgün və real qiymət vermir, vəzifə kürsüsü uğrunda mübarizə aparanlar isə az qala bu müharibəni "Ermənistanla Ağdam arasında gedən müharibə" kimi başa düşürdülər. Bir çox hallarda tək və köməksiz qalan ağdamlılar isə haradan və kimdən kömək alacaqlarını anlaya bilmirdilər. Doğrudur, xalq kütlələri və Ağdam ziyalılarının əksəriyyəti Azərbaycanı bu bəladan yalnız dövrümüzün görkəmli siyasi xadimi Heydər Əliyevin qurtara biləcəyini anlayır və onun yenidən respublika rəhbərliyinə qaytarılmasını tələb edirdilər.

Mən burada haşiyə çıxıb kiçik bu epizodu xatırlatmaq istəyirəm: 1992-ci il martın 3-də Ağdam şəhəri güclü "Qrad" atəşinə tutuldu (bu, Xocalı faciəsindən az sonra idi). Günortaüstü idi. Şəhərin mərkəzi meydanında 600—700 nəfərə qədər adam mitinq edərək Heydər Əliyevin respublika rəhbərliyinə qaytarılmasını tələb edirdi. Bu zaman bir "Qrad" mərmisi mitinq iştirakçılarının başı üzərindən keçərək 300—400 metr irəlidə 1 nömrəli məktəbin damına düşdü. Xoşbəxtlikdən, tələfat olmadı. Lakin görünür, o dövrkü rəhbərlər Qarabağ torpaqlarını satdıqlarından nə dövlət səviyyəsində müdafiəni təşkil edir, nə də xalqın səsini eşidirdilər.

Bu müharibə qəribə müharibə idi: haqsız tərəf daim hücum edib, üstün gəlib, haqlı tərəf müdafiə olunub, torpaq itirib. Respublikanı informasiya blokadasına alanlar bütün dünyanı inandırmışdılar ki, guya "Qarabağda bir qrup erməni yaraqlısı öz müqəddəratını tə'yin etmək uğrunda mübarizə aparır".

Xəyanət barədə də ən çox bu müharibədə söhbət gedib. Lakin möhtərəm prezidentimiz Heydər Əliyev respublika rəhbərliyinə qayıdana qədər məhkəmə yolu ilə bir nəfər belə vətən xaini e'lan olunub cəzalandırılmayıb. Müharibə özü mərhələlərlə gedib:

1988—1989-cu illər "qanun döyüşü", mitinq və tə'til dövrü idi;

1990-cı ildə tərəflər bir-birini söyüb təhqir edirdilər;

1991-ci ilin doqquz ayında yumruq və daş davası getdi;

1991-ci ilin sentyabrında Rusiya və Azərbaycan rəhbərliyinin Xankəndidəki görüşü nəinki sülh və əmin-amanlıq yaratmadı, əksinə, bundan sonra odlu silahlar tez-tez səslənməyə başladı;

1991-ci il noyabrın 20-də respublikanın bir qrup ictimai-siyasi xadimi vertolyotda qətlə yetiriləndən sonra isə məhəlli toqquşmalar gücləndi, zirehli texnika, top və "Qrad" qurğuları işə düşdü;

1992-ci il fevralın 26-dan 27-nə keçən gecə Xocalı soyqırımı baş verəndən sonra geniş hərbi əməliyyatlar başlandı, aviasiya işə qarışdı.

Bakıda isə hamının başı kreslo davasına qarışmışdı. Meydana atılan bütün siyasi qüvvələr "Qarabağ kartı" ilə hakimiyyətə gəlməyə can atırdı. Amma onların heç biri nə Qarabağın, nə də xalqın taleyini düşünüb ürək yandırmırdı.

Müharibənin daha bir qəribəliyi vardı: öz manqurtlarımızın əli ilə "silah fərqi" yaradılaraq saxlanılırdı. Məsələn, Moskva televiziyası Ermənistanda milli ordunun yaranmasından reportajlar verəndə Azərbaycanda əhalidən ov tüfəngləri yığıldı. Erməni tərəfi avtomatlarla silahlanıb qurtarandan sonra ov tüfəngləri qaytarıldı. Düşmən zirehli texnika ilə təchiz edilərkən bizə tə'lim avtomatları verirdilər. 366-cı polk bütün texnikasını Dağlıq Qarabağdakı ermənilərə bağışlayanda (bu dövrdə hələ "Laçın dəhlizi" açılmadığından Ermənistandan silah-sursat gətirmək çox çətin idi) Azərbaycan tərəfi öz ərazisindəki dağıdılmış hərbi hissələrdən sınıq-salxaq texnika "müsadirə edirdi".

Paytaxtdakı hökumət böhranı Ağdamdan da yan keçməmişdi. Hadisələr dövründə rayonun rəhbərliyi 4-5 dəfə dəyişdirilmişdir. Hətta sonuncu dəfə — Ağdamın taleyi həll olunduğu günlərdə "Karyer Qasım" adlanan birisi Surət Hüseynovun vasitəsilə silahlı dəstə ilə rayon rəhbərliyini devirib yerinə keçərək televiziya ilə Ağdamı Stalinqrad (Volqoqrad) kimi qəhrəman şəhər e'lan etdiyi barədə boş və mə'nasız bəyanatlar verirdi. Bilmək olmurdu ki, bu adamlar hansı niyyət və qayə ilə hakimiyyətə gəlir, yaxud onları nə məqsədlə vəzifəyə tə'yin edirdilər.

Ordu quruculuğu da (əgər belə demək mümkünsə) qeyri-adi formada gedirdi. Qvardiya, yaxud nizami ordu yaratmaq barədə müəyyən qərara gəlmək üçün aylarla mübahisə getdi. Əvvəlcə XTPD yaratmaqla kəndlərin müdafiəsini təşkil etməyə cəhd göstərildi. Zavallı xalq dövlətdən haray olmadığını görüb könüllü dəstələr yaratmaqla el-obasını özü qorumaq istəyirdi. Vəzifəsini itirməkdən qorxan rəhbərlik xalqın tələbi ilə gizlincə belə dəstələrin yaranmasına razılıq verdi. Hərə başına bir dəstə yığırdı. Onları silahlandırmaq üçün Ağdam camaatından dəfələrlə ucdantutma pul yığıldı. O vəsaitin bir hissəsinin aqibətinin necə olduğunu indiyədək bilən yoxdur. Bir çox vəzifə sahibləri iş-güclərini buraxıb silah-sursat alveri ilə məşğul olurdular. Şübhəsiz, ən böyük silah alverçisi Yevlax yun zavodunun həyətini cəbbəxanaya döndərən Surət Hüseynov idi!



Mən bütünlükdə könüllü özünümüdafiə dəstələrinin üzərinə kölgə salmaq istəmirəm. İlk vaxtlarda rempublikanın bütün guşələrindən Qarabağ torpağını müdafiə üçün könüllülər gəlirdi. Onların sırasında bütün millətlərin nümayəndəri vardı. Onlar təmənnasız igidlər idi. Bir çoxları qəhrəmanlıqla həlak oldu, bir qismi isə xainlər tərəfindən arxadan vuruldu... Allah hamısına rəhmət eləsin.

Ordu yaratmaq qərarına gələndə isə yenə ən çətin məsələ nazir kürsüsünü bölüşdürmək oldu. AXC öz namizədini nazir vəzifəsinə çatdırmayana qədər sakitləşmədi. Gecə-gündüz Müdafiə Nazirliyi qarşısında piketlər quruldu, qadın batalyonları "hücuma" göndərildi. Nə qədər qəribə və gülməli görünsə də, müharibə aparan bir dövlətdə tüfəngin lüləsi ilə qundağını düz-əməlli ayıra bilməyən riyaziyyat müəllimi müdafiə naziri tə'yin olundu. Xalqa az qala "qeyrət mücəssəməsi" kimi təqdim edilən Rəhim Qazıyev Şuşa və Laçını düşmənə verməklə bərabər, Ağdamın müdafiəsini də pozdu.

O vaxtlar Ağdamda Xalq Cəbhəsinin batalyonu vardı. Sonralar ona alternativ olaraq bir "Haqq cəbhəsi" də yaradılmışdı. R.Qazıyev Ağdama səfərlərinin birində həmin batalyonun başçılarını bir-biri ilə vuruşduraraq araya qan düşmənçiliyi saldı. Bu gün Rəhim Qazıyevi həm də Ağdamın müdafiəsini pozduğuna və onun işğalına şərait yaratdığına görə mühakimə etmək lazımdır.

Azərbaycan rəhbəri kürsüsündə oturanların respublikaya rəhbərlik edə bilməmələri, hakimiyyət uğrunda arasıkəsilməz mübarizə, xəyanət və satqınlıq Vətən torpaqlarının müdafiəsinə imkan vermədi. Belə bir zərbə Ağdama da dəydi.

Ağdam müharibənin dövlət səviyyəsində aparılmamasının qurbanı oldu. O vaxtkı başçılar Azərbaycanın müstəqil dövlət olacağına inanmadıqlarından hərəsi üzünü bir tərəfə tutmuşdu.

Ağdam ordunun siyasiləşdirilməsinin qurbanı oldu. Özünümüdafiə dəstələri vahid ordu kimi qələmə verilsə də, əslində nizami ordu yox idi. Döyüş vaxtı isə hər batalyon öz "ağa"sına tabe olurdu.

Ağdam AXC ilə Surət Hüseynovun silahlı qüvvələrinin qarşıdurmasının və hakimiyyət uğrunda mübarizənin qurbanı oldu.

Ağdam arxasızlığın qurbanı oldu. 40 gün tək döyüşdü, kömək görmədi. Həlledici yüksəkliklərin geri qaytarılmasına cəhd belə göstərilmədi. Belə ərəfədə Ali Baş Komandan Ə.Elçibəy öz postunu qoyub Kələkiyə qaçdı.

Ağdam Surət Hüseynova xidmən edən 709 nömrəli şəxsi briqadanın xəyanətinin qurbanı oldu. Mən şahidi olduğum bir hadisəni danışmaq istəyirəm: 1993-cü il iyunun 8-dən Boyəhmədli, Papravənd kəndlərində idim. Düşmən güclü hücuma keçmişdi. Mövqeləri əsasən yerli adamlar müdafiə edirdilər. Zirehli texnika Gəncə qiyamının yatırılmasına göndərilmişdi. Fəhmin Hacıyev isə Daxili Qoşunların

əsgərlərini postlardan götürüb Bakının müdafiəsinə yollamışdı. O vaxt Həsən Sarıyev kənd ağsaqqallarını bir "Qrad" qurğusu almaq üçün Surət Hüseynovun yanına minnətə göndərdi. Lakin gedənlər əliboş qayıtdılar. Az sonra isə 1905-ci ildə və 1918—20-ci illərdə erməninin ala bilmədiyi Boyəhmədli və Papravənd kəndləri işğala mə'ruz qaldı. Ağdamın müdafiəsinə kömək adı ilə gələn 709 nömrəli quldur-qaçaq dəstəsi 5 il bütün hücumlara sinə gərərək mərdliklə döyüşən Ağdamı xəyanətlə düşmənə verdi. Xain briqadanın cinayətkar elementlərdən ibarət üzvləri isə ev-eşiyi qarət edib Gəncəyə qayıtdılar.

Bu gün ortaya belə bir sual çıxır: Ağdamı, həm də torpaqlarımızın 20 faizini qoruyub saxlamaq olardımı?

Cavab birmə'nalıdır: bəli! Əgər möhtərəm prezidentimizin 1991-ci ildə Ali Sovetin sessiyasındakı çıxışı zamanı torpaqların müdafiəsi ilə bağlı proqram xarakterli sözləri dinlənilərək həyata keçirilsəydi. O zaman hadisələrin sonrakı inkişafının dəqiq konturları göstərilmiş və qarşısının alınması üçün nə etmək lazım gəldiyi söylənilmişdi. Möhtərəm Prezident, əslində həmin sessiyada Sizə qarşı yönələn hərəkətlər Azərbaycanın müstəqilliyinə qarşı sui-qəsd hərəkətləri idi. Qara qüvvələr Sizin SSRİ xalq deputatı seçilmənizə, Azərbaycanda, özünüzün tikib-qurduğunuz Bakıda yaşamağınıza mane oldular. Bütün bunlar sübut edir ki, niyyət başqa — torpaqları satmaq imiş.

Möhtərəm Prezident! Siz may ayının 9-da müharibə veteranları ilə görüşünüz zamanı Azərbaycan tarixinin yenidən, düzgün və obyektiv yazılması barədə qiymətli fikirlər söylədiniz. Biz ziyalılar və qələm əhli də bugünkü tarixin qərəzsiz və doğru yazılmasına kömək etməliyik.

Mən məğlubiyyətin ideoloji səbəblərinə də toxunmaq istəyirəm. Hərbi əməliyyatlar davam edən dövrlərdə qəzetlər müharibə mövzusunda necə gəldi yazır, bə'zən hərbi sirri açır, bə'zən düşmənə "necə atəş açmağı", "necə hərəkət etməyi" öyrədirdi. Televiziya süjetlərində isə "Həyat yolları" barədə düşmənə mə'lumat verilirdi. Sonra Müdafiə Nazirliyində "Analitik informasiya mərkəzi" deyilən bir qurum yaradıldı. Yaxşı təchiz olunmuş, lakin səriştəsizlərin çalışdığı bu quruma Leyla Yunusova rəhbərlik edirdi. Onlar digər qəzetlərin cəbhəyə yolunu bağlayaraq qeyri-professional informasiyalar hazırlayıb yayır, əslində xalqı ordudan təcrid etməyə çalışırdılar. Çox zaman da yaydıqları xəbərlər yerlərdəki vəziyyətlə ziddiyyət təşkil edirdi. Hərbi vətənpərvərlik tərbiyəsinə diqqətin zəifləməsi isə fərariliyin çoxalması ilə nəticələndi.

Mən müstəqil Azərbaycan dövlətçiliyinin qurulub möhkəmlənməsinə və ərazi bütövlüyümüzün tə'min edilməsinə xidmət göstərən uğurları da qeyd etmək istəyirəm. 1993-cü ildən bəri yalnız Sizin yorulmaz fəaliyyətiniz nəticəsində respublikada vətəndaş müharibəsinin qarşısı



alınmış, beləliklə, Azərbaycanın bir dövlət kimi məhvi prosesi dayandırılmışdır.

Atəşkəsə nail olunmuş, Ağdamın qalan ərazisinin, o cümlədən Kür çayına qədər olan torpaqların işğalına yol verilməmişdir. Xarici siyasətdə çox mühüm uğurlar qazanılmış, informasiya blokadası yarılaraq Azərbaycan haqqında əsl həqiqətlər dünyaya çatdırılmışdır. Əsrin ən böyük neft müqavilələri bağlanmışdır. Dəfələrlə dövlət çevrilişi və sui-qəsd cəhdlərinin qarşısı alınmışdır. Respublikada möhkəm sabitlik yaranmışdır. İqtisadi dirçəliş və islahatlar üçün əsaslı təməl qoyulmuşdur. Xalqın itmiş inamı özünə qayıtmış və onda gələcəyə böyük ümid yaranmışdır.

Təəssüf ki, hələ də bu böyük uğurları qiymətləndirməyi bacarmayaraq dağıdıcı müxalifət mövqeyində duranlar vardır. Onların arasında işğal edilmiş rayonlardan olan ziyalılar da az deyil. Aydındır ki, beləri orda-burda nəsə danışmaqla heç nəyə nail ola bilməzlər. Çünki Azərbaycan xalqı kimin kim olduğunu artıq gözəl bilir. Lakin müharibə vəziyyətində olan, ərazisinin iyirmi faizini itirən və bir milyon qaçqın yaşayan dövlətdə müxalif fəaliyyətə nə ad vermək olar? Bu gün biz ziyalılar sağlam mövqedə dayanmalı, yaranmış ağır vəziyyətdən çıxmaq üçün idealı Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü olan, həyatının qalan hissəsini xalqına bağışlamış müdrik prezidentimizin rəhbərliyi altında əlbir fəaliyyət göstərməliyik.

Onu da deyim ki, indiki dövrdə mövqesizlik etməyin, reallığı düzgün qiymətləndirməyərək ağa qara deyənlərə cavab verməməyin özü də müxalif mövqedə durmağa bərabərdir.

Möhtərəm Prezident! Xalqın, o cümlədən biz ağdamlıların yeganə ümidi Sizsiniz. Biz bilirik ki, gecə-gündüz işləyir, yaranmış vəziyyətdən çıxmaq üçün nəhəng fəaliyyət göstərir, işğal edilmiş torpaqlarımızın son qarışına qədər düşmən tapdağından azad olunması naminə bütün qüvvə, bacarıq və enerjinizi sərf edirsiniz. Özünü Azərbaycan xalqının övladı və vətəndaşı hesab edən hər bir kəs, bütövlükdə xalq Sizə möhkəm inanır, bütün fəaliyyətinizi tam dəstəkləyir və böyük ümidlər bəsləyir. Yaşından və cinsindən asılı olmayaraq bütün Ağdam camaatı hər hansı bir əmr, sərəncam və göstərişinizi sözsüz yerinə yetirməyə, ideallarınız uğrunda şəhid olmağa belə hər an hazırdır. Təki "irəli" əmrini verəsiniz.

Möhtərəm Prezident, 1991—1993-cü illərdə Ağdamda gedən hərbi əməliyyatlar barədə mən bir kitab yazmışam. "Qeyrət və xəyanət" adlanan bu kitab iki il bundan əvvəl çapdan çıxıb. Mən bu kitabı Sizə təqdim edirəm. İnanıram ki, bütün xəyanətkarlar Allahın köməyi və Sizin rəhbərliyiniz altında görülən tədbirlər nəticəsində öz cəzasına çatacaq, Vətənin qeyrətli övladlarının arzusu həyata keçəcəkdir.

Sofulu kənd sakini,
müəllim
FƏXRƏDDİN MƏMMƏDOVUN
çıxışı

Möhtərəm Prezident!

İcazə verin, Azərbaycan ziyalılarının öncül dəstələrini öz mətin sıralarında birləşdirən Ağdam ziyalıları, müəllimləri adından Sizi qəlbən, hərarətlə salamlayım və Sizə böyük uğurlar arzulayım.

Ulu Tanrı hər hansı diyarı şöhrət zirvəsinə çatdırmaq istəyirsə, həmin diyara əvvəlcə uyarlı coğrafi mövqe, əsrarəngiz və füsunkar təbii gözəllik, bərəkətli torpaq, bir də bu torpağın hər bir qarışını doğma ana kimi sevən və laləzara döndərən qeyrətli övlad bəxş edir. Bütün bunları Qarabağın dilbər guşələrinin ən gözəli sayılmağa haqqı olan Ağdama ərməğan etmiş böyük pərvərdigarın dərgahına şükürlər olsun.

Öz parlaq zəkası, qeyrəti, qurub-yaratmaq ehtirası ilə fərqlənən, qədirbilən ağdamlılar Sovetlər Birliyi dövründən indiyə qədər iqtisadi və mədəni həyatımızın bütün sahələrində özünəməxsus yüksək zirvələr fəth etmişlər. Damarlarında qan əvəzinə qeyrət axan ağdamlılar ta qədimdən ana torpağın borcunu qaytarmaq üçün halal zəhmətə güvənmiş, alın təri ilə şöhrət zirvəzinə ucalmağın ən yüksək amalın təntənəsi olduğunu dəfələrlə sübuta yetirmişlər.

Ulularımızın dediyi kimi, "Torpağı əkdinsə, becərdinsə — qorumağına dəyər". Son illərin savaşında kişi kimi ölməyi, Vətən, torpaq uğrunda şəhid olmağı bacaran, ruhuna xalqımızın dualar oxuduğu, Azərbaycanın Milli Qəhrəmanı kimi yüksək ada layiq görülmüş 15 ağdamlı qəhrəman və minlərlə ağdamlı şəhid mübarizə meydanında böyük Allahdan güc alaraq suverenlik, müstəqillik qazanmış Azərbaycanımızın tarix salnaməsinə ən dəyərli töhfə bəxş etdilər. Onların müqəddəs ruhlarına min rəhmət!

Əzəli torpaqlarımızı zaman-zaman min cür fitnə-fəsadla ələ keçirərək şirnikmiş paxıl, dargöz, hiyləgər qonşularımız gözlərinə iynə kimi sancılan Ağdam rayonunun cənnətməkan torpaqlarını ələ keçirməyi strateji məqsədlərinə çevirmişlər.

Qorxmaz, cəsarətli, qeyrətli Ağdam camaatı öz torpaqlarını, orada uyuyan müqəddəslərinin ruhlarını, maddi-mədəni abidələrini, doğma ev-eşiklərini yerli özünümüdafiə dəstələri ilə elə qoruyurdular ki, oraya necə deyərlər, quş da səkə bilmirdi. Belə dəstələr xüsusilə sərhəd kəndlərimiz olan Boyəhmədli, Papravənd, Qalayçılar, Kürdlər, Mollalar, Əlimədədli, Əliağalı, Xaçındərbətli, Cinli, Çullu, Xıdırlı, Qiyaslı, Qızıllı, Abdal-Gülablı, Şelli, Şıxbabalı kəndlərində daha mütəşəkkil təşkil edilmişdi.



Mənim doğulub boya-başa çatdığım Boyəhmədli kəndində və ona yaxın olan Papravənddə belə dəstələrin göstərdiyi qəhrəmanlıq, igidlik yüksək qiymətə layiqdir. Hörmətli jurnalist, "Qızıl qələm" mükafatı laureatı Bəxtiyar Sadıqovun "Qeyrət və xəyanət" adlı əsərində bu barədə geniş söhbət açılmışdır. 1993-cü il iyunun 2-də Boyəhmədli, Papravənd kəndlərinin müdafiəsi üçün gətirilmiş 6 ədəd top və 8 ədəd "Qrad" qurğusu və orada döyüşən əsgərlər Xalq cəbhəsi tərəfindən Gəncə şəhərinə aparıldı. İyunun 26-da təxribatın, alçaqlığın nəticəsində Boyəhmədli, Papravənd, Qarapirimli və digər qonşu kəndlər süqut etdi. Elə o vaxtdan da həmin kəndlərin camaatının qara günləri başlandı. Qaçqınlıq, didərginlik yaxamızdan açıldı.

Bu, ordunun, onun başıpozuq, əfəl rəhbərlərinin xalqa vurduğu mə'nəvi zərbələrdən ən güclüsü idi.

Şükürlər olsun ki, bu xalqın sahibi — onun müdrik, uzaqgörən rəhbəri, dünya siyasətçilərinin lideri olmağa mə'nəvi haqqı olan Heydər Əliyev hakimiyyətə gəldi, müharibəni dayandırdı və atəşkəs nəticəsində rayonumuzun bir neçə kəndi o vaxtdan e'tibarən rahatlıq tapdı.

Hörmətli Prezident, bütün ağdamlılar yaxşı bilirlər ki, siz həmişə Qarabağı diqqət mərkəzində saxlamısınız, qarabağlılara, o cümlədən ağdamlılara daim yüksək qiymət vermisiniz. 70—80-ci illərdə respublikaya rəhbərlik etdiyiniz vaxtlar siz bunu bir daha sübuta yetirdiniz.

Sadə bir müəllim, didərgin bir ziyalı kimi mən hazırda Mingəçevir şəhərində yaşayıram. Mən səmimi-qəlbdən deyirəm: Hörmətli Prezident, siz bütün ağdamlıların ən sevimli ağsaqqalısınız. Biz ağdamlılar sizin ağıllı, humanist daxili və xarici siyasətinizi ürəkdən bəyənir və müdafiə edirik.

Allah sizə yar olsun!

Hörmətli Prezident, icazə verin sizə həsr etdiyim bir şe'rimi oxuyum:

Heydər baba, tanrı səni saxlasın!
Dostun gülsün, düşmənlərin ağlasın,
O gün olsun, yaşın yüzü haqlasın —
Ellər səni təbrik etsin ürəklə,
Xoş niyyətlə, xoş arzuyla, diləklə!

Heydər baba,
nə gözəldir qamətin!
Xeyirxahlıq olub arzun, niyyətin,
Əzizisən neçə-neçə millətin,
Gəlməyəsən bəd nəzərə, gözə sən!
Dünya görmüş bir atasan bizə sən!

El atası olmaq, düzü, çətindir,
Hamı bilir: Heydər baba mətindir,
Sənin dərdin — xalqın, bu millətindir,
Alçaqları tezcə götür aradan,
Kömək olsun sənə böyük yaradan!

Heydər baba, dünya yaman pozulmuş,
Peyğəmbərin dedikləri düz olmuş,
Dərd-sərimiz beş-on deyil, yüz olmuş.
Didərginin söz-söhbəti Vətəndir,
Qaçqın olmaq, vallah, yaman çətindir.

Heydər baba, el güvənir tək sənə,
Qaçqınları qaytar doğma Vətənə,
Hamı gələr onda imana-dinə,
El-obanın rahat olar, bil, canı,
Şad edərsən bütün Azərbaycanı.

Sərkərdəsən — millət sənin əsgərin,
Yumruq kimi birlikdədir zəfərin,
Neçə-neçə ölkələrə səfərin —
Xalqımızı tanıtdı yad ellərə,
Nəğmə kimi adın düşüb dillərə.

Didərginlər bir an çıxmır yadından,
Pay verirsən ürəyinin odundan,
Ana yurdun ləzzətindən-dadından.
Qoy ağzımız tama gəlsin, dadlansın,
Yağı düşmən bunu görsün, odlansın.

Heydər baba, Şuşa gözü yoldadır,
Cıdır düzü, kim bilir, nə haldadır...
Xarı bülbül gizlənibdir, koldadır,
Qismət olsun dərək dağlar qızını,
Kaş görəydik ömrümüzün yazını!

Qıy vurammır laçınımız Laçında,
Hey dən artır insanların saçında,
Hoçazdağın zirvəsində, tacında,
Çiçəklərin gözü yaşla dolubdu,
Çəmənlərin rəngi-ruhu solubdu.

Qoca Murov için-için ağlayır,
Şəmşir ruhu qəlbimizi dağlayır,
Dəlidağın bulaqları çağlayır,
Amma yoxdur bircə qonaq-qarası,
Arandadır ürəyinin parası.

Qubadlıda düşmən oynadır atın,
Qaçaq Nəbi minsin gəlsin Bozatın!
Bu millətin, doğma elin-elatın,
Heydər baba, sənsən ümid-pənahı.
Uzaq elə bu naləni, bu ahı.

Dörd ildir ki, yas saxlayır Xocalı,
Onun ahı ərşə çatıb ucalır,
Xocalılar cavanlı, həm qocalı —
Soraqlayır itkinləri hardadır?!
Könülləri yaman intizardadır...

Qarabağın toy otağı — Ağdamım,
İki gözüm, iftixarım, ad-sanım,
Üç ildir ki, orda sönübdür şamım...
Heydər baba, haqdan yansın şamımız!
Doğma yurdda bayram edək hamımız!

Füzulidə şair babam nigaran,
Deyir: nə vaxt qurtaracaq bu hicran?



Ana yurdun hər qarışın hər zaman —
Qorumasaq, əlimizdən alarlar,
Yenə bizi yaman günə salarlar...

Cəbrayılın tarixlərdə adı var,
Çörəyinin ləzzəti var, dadı var,
Övladının ürəyində odu var,
Alovuna yağı düşmən dayanmaz...
Heç kəs yurdu yadelliyə qıyammaz.

Tərs çönübdür bu tarixin təkəri,
Qəmkin axır Zəngilanda Həkəri,
Bir zamanlar qapımızın nökəri —
Hiylə ilə saldı bizi kələyə,
Allah salsın bax, onları bəlaya!

Heydər baba, həyat özü imtahan,
İmtahandan "beş" almısan hər zaman,
Çox müdriklər görüb tarix, bu cahan,
Arzuna çat, zay olmasın əməyin!
Allah olsun arın-arxan, köməyin!

Dığaları yaxşı salın başa siz,
Qarabağı biz neynirik Şuşasız?!
Mətinlikdə dağlar ilə qoşasız!
Xəyalınız Laçın kimi Laçında,
Qartalsınız zirvələrin tacında!

Heydər baba, biz döyüşə hazırıq,
Demirik ki, əhdimizi pozuruq,
Fikrimizi bəyan edir, yazırıq,
Qoy eşitsin erməninin dığası:
Ola bilməz bizim yurdun ağası!

## Güllücə kənd sakini, Qarabağ müharibəsi əlilinin atası TAPDIQ ƏLİYEVİN çıxışı

Hörmətli Prezident, əziz müşavirə iştirakçıları!

Bu gün, işin çox gərgin vaxtında, respublikamızın belə çətin şəraitində ağdamlıların, Ağdam camaatının arzusunu nəzərə alıb bizi buraya də'vət etdiyi üçün əziz prezidentimizə dərin minnətdarlığımı bildirirəm və ona uzun ömür, cansağlığı arzulayıram. Arzu edirəm ki, bütün niyyətləri, bütün amalları, bütün arzuları istədiyi kimi həyata keçsin.

Əziz Prezidentimiz, mənim demək istədiyim bir çox sözləri Həsən müəllim, məndən qabaq çıxış edən yoldaşların əksəriyyəti — Xuraman Abbasova, Çimnaz Əliyeva, Fəxrəddin müəllim və başqaları çox gözəl və ətraflı danışdılar.

Ağdamın süqutu ilə əlaqədar olaraq, erməni təcavüzkarları ilə

əlaqəyə girmiş keçmiş iqtidarların rəhbərləri Vəzirov, Ayaz Mütəllibov, Elçibəy və onların havadarlarının o dövrdə respublikamızın, eləcə də Ağdamın başına nə müsibətlər gətirdiyi burada aydın-aşkar deyildi.

Mən isə bizə düşmənçilik, olmazın xəyanət edənlərdən birisi — Faiq Baxşəliyev haqqında danışmaq istəyirəm. Faiq Baxşəliyev yeni təşkil olunmuş milis dəstəsinin rəhbəri idi və Azərbaycanın ən dilbər guşəsi olan Ağdamın ətrafında ermənilərə qarşı, ermənilərin Ağdama girməsinə və yaxud da başqa kəndləri işğal etməsinə qarşı guya mübarizə aparırdı, guya onları qoruyurdu. Lakin elə deyildi. Mən şahidiyəm ki, o həmişə öz ixtiyarında olan 16 lüləli iki qurğunu və 40 lüləli iki "Qrad" qurğusunu adamların gur olduğu, yaxud ən çox toplaşdığı yerdə saxlayıb ermənilərə işarə verirdi ki, bura atsınlar. Bu işi o, Abdal-Gülablıdan başlamış ta Ağdamın sərhəd zonasına qədər və Xaçındərbətli tərəfdən başlamış Güllücə və Nəmirli sahəsinə qədər davam etdirirdi. Əvvəldən axıra qədər ermənilərə işarə etdi ki, bu istiqamətə atmaq lazımdır. Ermənilər bizim üzərimizə hücuma keçən vaxt isə heç bir cavab atəşi açmadı. Sizdən üzr istəyirəm, 1980-ci ildə bizim Güllücə sovxozunda olmusunuz və mən orada çıxış etmişəm. Siz oranı yaxşı tanıyırsınız. Böyük sovxoz idi, böyük malikanəsi var idi, hər cür təsərrüfata malik idi. O "Qrad" qurğusunu zavodun həyətində, maşın-traktor parkında, məktəbin, uşaq bağçasının həyətində qururdu və oradan hərdənbir işarə verirdi. Bunu Cinlidən başlamış ta Nəmirli zonasına qədər davam etdirdi, axırı Süsənli deyilən sahədə saxladı. Erməniyə bir dənə patron atmadı. Ancaq işarə verirdi ki, buraya atın. Bizim başımıza gətirilən müsibət və bizə qarşı olan əməllər belə idi.

Mən 1993-cü il iyun ayının 12-də onun yanına getdim. Onda Ağdam hələ işğal olunmamışdı. Mənim bacım oğlu Yeddixırman deyilən sahədə itkin düşmüşdü. Ağdamlılar bilir, bu, elə bir əlçatmaz yerdir ki, heç bir vaxt erməni oraya çıxa bilməz və atdığı güllə də oraya çata bilməz. Təxribatçılar hərbi hissəni postlardan çıxarıb, Faiq Baxşəliyevin sərəncamına verəndə, o, həmin gün icazə alıb Bakıya gəlirdi. Ora göndərdiyi dəstənin üstündə bir nəfər də olsun komandir olmurdu. Ancaq sıravi əsgərləri göndərirdi ki, gedərsiniz, orada qarovul çəkərsiniz.

Bacım oğlu itkin düşəndən sonra getdim onun yanına ki, kim aparıb bunları? Mənə tanıt ki, bax filankəs aparmışdı. Nə qədər elədim, altı ay onun itkin düşdüyünü demədi. Bir bacım oğlu yox, orada Ağayev Həsənalı, Mustafayev Həsən, Əliyev Mədəd ilə bərabər səkkiz nəfər itkin düşdü. Ancaq biz soruşduqca dedi ki, buralarda, bağlarda olacaq, yəqin gizləniblər. Nə qədər elədiksə, cavab ala bilmədik.



Faiq xalqımıza, Azərbaycana və eləcə də Ağdama belə sitəm eləyibdir. Ona nə qədər ağır cəza verilsə layiqdir.

Bilirik, yaxşı başa düşürük ki, Heydər Əliyev belə adamlarla barışmayacaqdır və onlara qarşı çox ciddi mübarizə aparır. Sizin hər bir hərəkətiniz, hər bir siyasətiniz, hər bir sözünüz, hər bir sifarişiniz bizim üçün qəbuldur, bizim üçün ruhdur, bizim üçün qidadır. Biz heç bir şey istəmirik, Allahdan bircə Sizə sağlıq istəyirik. Siz sağ-salamat olsanız Azərbaycan xalqını, Azərbaycan Respublikasını bir tərəfə çıxaracaqsınız. Biz buna möhkəm ümid edirik.

Siz hakimiyyətə gələndə bir-birimizi muştuluqladıq və məni də muştuluqladılar ki, Sizə ən yaxın, istəkli, atadan yaxın olan Heydər Əliyev hakimiyyətə gəlibdir, əvvəlki işləri yenidən bərpa edəcək. Mən buna çox şad oldum, çox sevindim və hətta ailədə uşaqlara dedim ki, bu gündən sonra bizə ölüm yoxdur.

Biz Ağdamdan çıxsaq da, yenə özümüzü ağdamlı hesab edirik. Bilirik ki, bizim Sizin kimi sərkərdəmiz var, rəhbərimiz var. Bilirik ki, tezliklə Ağdamda olacağıq, Siz bizi ora qaytaracaqsınız. Siz hər dəfə xarici ölkələrə gedərkən Azərbaycanın xəritəsini açaraq, erməninin təcavüzkar olduğunu bütün dünyaya göstərərkən biz həm sevinirik, həm də sevincimizdən ağlayırıq.

Mən Bərdə rayonunda çadır şəhərciyində məskunlaşmışam. Şəhərciyin bir neçə yerində televizor qoymuşuq və orada böyük də, kiçik də — hamımız yığışıb Sizin bütün səfərlərinizə, keçirdiyiniz bütün yığıncaqlara sevinclə baxırıq, dinləyirik. Sizin bütün işlərinizlə fəxr edirik. Oktyabr ayında dövlət çevrilişi cəhdi zamanı Sizin çıxışınıza biz də səs verdik. Sonra, mart ayındakı çevriliş cəhdi zamanı biz də orada dura bilmədik. Bakıya gəldik. Çox sağ olun, Siz bu cəhdlərin hamısının qarşısını aldınız. Burada müşavirələrdə, yığıncaqlarda iştirak edən, Milli Məclisdə çıxış edən bə'zi adamlar müharibə görməyiblər, ona görə də deyirlər ki, Heydər Əliyev nə üçün əmr vermir ki, müharibə olsun. Necə müharibə olsun ki, komandir öz qərargahının yerini bilmir, kəndin yerini bilmir, şəhərin yerini bilmir. Əlbəttə ki, ordunu, komandirləri yetişdirmək və tə'limləndirmək lazımdır, sonra isə biz hazırıq.

Heydər Əliyeviç, mən özüm orduda üç il yarım qulluq etmişəm, Almaniyada olmuşam, özüm də topçuyam. Başımla, canımla, qanımla hazıram. Bütün ağdamlılar Sizin əmrinizə hazırdır. Necə desəniz, o işi yerinə yetirməyə hazırıq. Öldü var, geriyə döndü yoxdur. Biz öz torpağımızı əldən verməyəcəyik. Bizə heç bir şey lazım deyil, heç bir iqtisadi kömək lazım deyil. Bizə ancaq torpağa qayıtmaq, yerimizi geri almaq lazımdır. Sağlığınıza, hər şeyimiz var, hər birimiz dolanırıq, yaşayırıq. Özü də, məndən qabaq Xaspolad kişi dedi, Siz hansı ölkəyə gedirsinizsə, orada həm görüşürsünüz, həm də deyirsiniz ki,

Azərbaycana kömək edin. Biz onda ağlayırıq ki, rəhbərimiz gör bizdən ötrü nə qədər əziyyət çəkir, gör nələr edir!

Heydər Əliyeviç, Siz isti gündə iki müqəddəs yeri ziyarət etdiniz və Ulu Tanrıdan dilədiniz ki, bizi bu bəladan qurtarmağa kömək etsin. Allah-Təala onu heç bir vaxt yaddan çıxarmaz. Bizim ziyarətgahlarımız Sizi bütün bəlalardan uzaq edər. Heç bir çətinliyə düşməzsiniz. Mən arzu edirəm ki, bütün işlərdə arzularınız müstəcəb olsun, qələbə ilə yerinə yetirilsin. Bu yolda Sizə cansağlığı, uzun ömür, bir də Ağdama gəlməyinizi, Güllücə torpağında görüşməyimizi arzu edirəm. Sağ olun.

**Bağbanlar kəndinin sakini,**
**müəllim**
**QARA HÜSEYNOVUN**
**çıxışı**

Hörmətli Prezident, təkrar olsa da, biz ağdamlıların bu kövrək günlərində bizi qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Mən müəlliməm, xüsusilə ziyalılar adından danışmaq istəyirəm. Bu mənfur müharibənin hər bir çətinliyini görmüşük. Çətinliklərlə bərabər, bu müharibənin girdablarında xalqımızın başına gətirilən bəlaların da şahidi olmuşuq. Yaxşı bilirsiniz ki, Ağdam ermənilərin ərazisi ilə qonşudur. Bu məkrli düşmənlər uzun illər, necə deyərlər marıqda yatıb məqam gözləyiblər. O vaxt ki, arxayın düşdülər ki, onlara artıq zaval yoxdur, — ona görə ki, respublikadan Heydər Əliyev nəfəsi uzaqlaşıb, SSRİ kimi bir dövlətə Qorbaçov kimi prinsipsiz, ağılsız bir adam başçılıq edir, Azərbaycan hökumətinə isə Heydər Əliyevdən sonra fərsiz, fərasətsiz adamlar başçılıq edir, — o məkrli düşmənlər dərhal pərvəriş tapdılar.

Hörmətli Prezident, Siz respublikamızda yox idiniz. Bu çətin vəziyyətdə respublikada elə bir hərc-mərclik yaranmışdı ki, adamlar başını itirmişdi. Elə bil heç Azərbaycan xalqının əvvəlki mətinliyi yox idi. Vaxt var idi ki, Ağdam camaatı Stepanakertin ermənilərini əl ağacı ilə qovub çıxarmağa qadir idi. Bəs sonra nə oldu ki, bu məkrli düşmən, bir ovuc erməni dığası bizi beynəlxalq ictimaiyyət qarşısında, balalarımız qarşısında rüsvay etdi?

Həmin dövrdə respublika rəhbərliyinin zəifliyi hesabına Xalq Cəbhəsi çox tez ayağa durdu. Həm də onda o, həqiqətən real qüvvə idi. Ona görə real qüvvə idi ki, erməni təhlükəsi yaxınlaşırdı, var idi. Respublikanın rəhbərliyində kəramət yox idi, təşkilatçılıq yox idi. Ona görə də xalq AXC-yə bir qurtuluş, bir qüvvə kimi baxırdı.



Bunlar addım atdılar, amma yanlış addım atdılar. Niyə? Ona görə ki, əgər onlar Azərbaycan xalqının e'timadını doğruldub, bir yumruq kimi səfərbər etsəydilər, inandırıram Sizi ki, onda erməninin öhdəsindən əl ağacı ilə də gəlmək mümkün idi. Amma bunlar hansı yolu tutdular? Onsuz da kardan düşmüş, zarıncı vəziyyətdə olan hakimiyyəti ələ almaq üçün çalışdılar ki, nə olur-olsun, torpaqlar verilsin, xalq qızışsın, bu hakimiyyətə qarşı çıxsın. Belə də oldu.

Məsələn, adi bir faktı deyim. Onlar respublika hökumətinin göstərişlərini pozurdular. Mənim yadımdadır ki, Xocalı hadisəsinin səhəri günü camaat hamısı Ağdamdan qaçmışdı, prezidentin səlahiyyətli nümayəndəsi də qaçmışdı. Xocalı camaatı gəlmişdi — qadınlar, üzr istəyirəm, ayaqları al qanın içində, üst-başları cırıq... Camaat nə vəziyyətdə idi. Belə bir vəziyyətdə ağdamlılar — on minlərlə adam yığışmışdı ki, biz onlara köməyə gedirik, axı, meşənin içində bizimkilər bu saat can verirlər, erməninin əlinin altında. Mən bir dəstə adamla getdim Dadaş Rzayevin yanına. O, idman kompleksində oturmuşdu. Girdik içəri, gördük o oturub. Elə bil ki, hərbçi deyil, elə bil ki, müharibə getmir, elə bil ki, onun namusu, qeyrəti bu Abdal-Gülablı meşələrində, necə deyərlər, erməninin əlində deyil.

Ondan əvvəl o, söz vermişdi ki, Xocalıya heç bir zaval olmayacaq, mən buna namusumla söz verirəm. İndi isə mən girdim içəri, ona dedim ki, general, bəs Xocalı niyə alındı? Mənə baxdı, dedi ki, siz kimsiniz? Dedim, mən müəlliməm, vətəndaşam. Dedi, sizin işinizə qalmayıb. Bunu deyəndə mən, düzü, çox əsəbiləşdim. Yanımda da hərbçilər var idi. Dedim, sənin oturduğun, viran etdiyin bu binanı mən kipriklərimlə od götürüb tikdirmişəm, sən indi bunu tarmar etmisən, orada camaat o vəziyyətdə, istəyirsən sabah Ağdam da o vəziyyətə düşsün? Söhbət əsnasında mənimlə gələn hərbçilər içəri girdilər, onlar silahlı idilər. General hesabını apardı ki, vəziyyət ağırdır. Əlini salıb bir qovluq çıxardı, dedi — müəllim, bax, bu, mənim Xocalı haqqında, ondan əvvəl Şuşanın kəndləri haqqında raportlarım, bu da Xocalıya kömək haqqında raportum. Mən əsgər adamam, qardaş, oturub gözləyirəm, neyləyim, göstəriş verən yoxdur.

Hörmətli Prezident, həmin gün biz hamımız göz yaşı tökürdük. Axı insanıq, bir dəfə yaşayırıq bu dünyada. Biz fikirləşirdik — axı necə edək ki, adamları yığaq. Mən camaata müraciət etdim. Yoldaşlar şahiddir, dedim, hamı hərbi komissarlığa getsin, tə'cili əsgəri hissəyə yazılmaq lazımdır. Hamı evindən yabasını, tüfəngini — nəyi varsa, götürsün gəlsin, gedək, ya ölək, ya torpağı xilas edək. Təxminən saat 2-yə qədər hərbi komissarlığa 500 nəfər ağdamlı gənc getdi. Aradan bir az keçəndən sonra xəbər gəldi ki, onların heç birini qəbul etməyiblər. Niyə? Deyir, hərbi komissarı Bakıya çağırıblar. Bu, bağışlanması mümkün olmayan xəyanətdir. Necə yə'ni — sənin

adamların burada qırılsın, sən respublikanı səfərbər etmək əvəzinə hərbi komissarı Bakıya çağırasan? Bəlkə də çağırmamışdılar, onların özündə də bu işə belə münasibət var idi.

Mən məcbur oldum, oradan dövlət təhlükəsizliyi idarəsinə gəldim. Onun da əməkdaşları qaçmışdı, ikisi qalmışdı. O idarədən 8 rayona zəng vurdum, dedim ki, xahiş edirəm, bizə silahlı kömək edin. Söz verdilər, axşam təxminən saat 7-də Bərdədən, Ağcabədidən, Yevlaxdan, Tərtərdən avtobuslarda silahlı adamlar gəldi. Gecə oturduq, plan hazırladıq ki, yerli qüvvələrlə birlikdə səhər saat 5-də Xocalı alınmalıdır, sonra Əsgəran alınmalıdır.

Səhər saat 5-də əməliyyat başlanmalı idi. Mən 5 tamamda getdim ki, əməliyyatı başlasınlar. O vaxt Ağdamda polis rəisi işləyən Rəşid Məmmədov, mən baxdıq ki, o adamlar yoxdur. Axı rayonların icra hakimiyyəti başçıları da gəlmişdilər, əli silahlı adamlar da gətirmişdilər. Dedim, bəs nə oldu? Dedi ki, əməliyyat olmayacaq. Ay kişi, necə olmayacaq? Dedi, ona görə ki, icazə vermirlər, qaytarıblar.

Hörmətli Prezident, bu, bağışlanmaz qəbahətdir. Nə olar, müharibədə ev də dağılar, insan da ölər, körpü də dağılar. Amma vay o xalqın halına ki, onun milli mə'nəviyyatı, milli birliyi zərbə altına düşsün. Biz ağdamlıların da, o biri rayonların da — hamımızın başına gələn bədbəxtlik bununla bağlı olub.

Xocalı alındı, Xocalının arxasınca Şuşa alındı. Bundan sonra Laçından adamlar gəlib tökülürdü Ağdama. Baxırdıq, hamısı yesir kökündə: əyin-baş yox, ayaqyalın. Uşaq bağçalarından paltar yığdırdıq. Camaata müraciət etdik ki, kömək edin. O adamlara kömək olunurdu, onlar bizim hörmətli Eldar Həsənovun adını çəkirdilər ki, o olmasaydı, onun göndərdiyi tank, vertolyot gəlməsəydi, biz hamımız qırılacaqdıq. Nə oldu, bəs respublikanın o biri rəhbərləri necə oldu ki, biz qayğı deyilən şeyi görə bilmədik?

Bizim orada yerli özünümüdafiə batalyonları var idi. Hörmətli Prezident, Sizi inandırıram ki, o uşaqların gözünə gülləni çaxsaydın da geri qaçmazdılar. Mətin, igid, fərasətli uşaqlar idi. Amma onların arasına bir ziddiyyət toxumu salmışdılar ki, elə bil qədim tayfa davası aparırdılar bir-biri ilə. Bundan ötrü yoldaşlarla bir yerdə iki dəfə gəldik hörmətli Yaqub Məmmədovun yanına. Yaqub Məmmədov həmin gün müşavirə keçirdi, səhər gəldi ora, onları guya barışdırdı. Amma elə həmin gün o müşavirədə Xalq Cəbhəsi də e'lan etdi ki, Ağdama kömək üçün geniş konfrans keçirəcəyik. Biz xahiş etdik ki, gəlin o konfransı Ağdamda keçirin. Dedilər, yox, burada keçirəcəyik. Açığını deyirəm, adamın əsəbləri dözmür. Dedim, qardaş, burada keçirəcəksiniz, yoxsa silahlarımızı götürüb, gəlib sizi qıracağıq, siz də bizi qırın, qoy millət də gələcəkdə bizim hamımızın gorumuza söysün. Bunun cavabında İsa Qəmbər dedi ki, bizi kim öldürəcək?



Bizdə Əliquliyev var, dedi sənin kimi qeyrətsizi mən öldürəcəyəm. Niyə kömək etmirsiniz? Niyə müşavirə ilə burada gün keçirirsən? Gün keçirməkdənsə, yığ bu adamları, gəl də! Bu yerli özünümüdafiə batalyonlarının hamısı darmadağın dağıdıldı.

Hörmətli Prezident, məşhur tarixçi Nizamülmülkün bir "Qanunnamə" kitabı var, mən onu oxumuşam, yəqin çox adam oxuyub. O kitabda belə bir fikir var, deyir o gözəgörünməz Tanrı xalqa hər yüz ildə bir ağıllı başçı yetirir. O ağıllı başçı ölkəni nizamlayır, qaydaya qoyur, hər şey onun hesabına tərəqqi edir. Mən belə hesab edirəm ki, — bu, tək mənim fikrim deyil, çıxış edənlər də dedi, — o gözəgörünməz Tanrı elə Sizi bizə göndərib! Siz gələn ərəfədə, o müddətdə müəyyən nakəs adamlar tərəfindən söz oldu, söhbət oldu. Bizim ağdamlılardan da olub. Onların indi bə'ziləri rəhmətə gedib, dünyasını dəyişib, bə'ziləri də orada-burada başını saxlayır. Amma Ağdam camaatı xəcalət çəkir. Niyə belə olsun axı? Niyə ümid yerimiz olan adama qarşı bu münasibət olsun? Siz respublikanın rəhbəri olanda ağdamlılar rayonların bir çoxunda rəhbər vəzifələrdə işləyirdilər, nazir işləyirdilər. Siz böyük e'timad göstərirdiniz, yenə də göstərirsiniz. Mən belə hesab edirəm ki, həm bizim, həm də başqa rayonların başına gələn bu bəlalar elə o Allahın göndərdiyi ağıllı başçıya qarşı bə'zi adamların münasibətinin nəticəsidir. İndi onlar da dərk etdilər, başa düşdülər ki, bu, mümkün deyil — Heydər Əliyevi xalqın qəlbindən çıxarmaq olmaz, xalqı da Heydər Əliyevin qəlbindən çıxarmaq olmaz.

Bərdədə işləyirdim, qaçqın düşəndən sonra düşərgəmiz orada idi. Yadımdadır ki, Rövşən Cavadov mənim yanıma iki dəfə adam göndərdi, — Qara müəllim, həm Bərdədə, həm də Ağdamda gənclər təşkilatının yaranması üçün konfransda ağsaqqal kimi çıxış elə. Mən imtina etdim, dedim, imkanım yoxdur. Bundan həddsiz dərəcədə qeyzləndi. Nə isə, aradan xeyli müddət keçdi. Səhv etmirəmsə, 1994-cü ilin fevralında Siz respublika müəllimlərinin bir qrup nümayəndəsini qəbul etdiniz. Orada həm o müəllimlərə çox böyük qayğı, çox böyük ehtiram göstərdiniz, həm də bütün Azərbaycan müəllimlərinə qayğını e'lan etdiniz. Buna cavab olaraq biz yığılıb Sizə bir teleqram göndərdik. Həmin teleqramı "Azərbaycan" qəzeti dərc etdi. Teleqram məndədir, indi qəzetdəki mətni Sizə verəcəyəm. Bu, mətbuatda dərc olunandan sonra mənə atmacalar, hədələr gəldi. Rövşən Cavadovun tə'sis etdiyi "Təzadlar" qəzeti mənə tənqidi replikalar verdi. Sonra "7 gün" qəzeti replikalar verdi, müxtəlif hədələr gəldi. Hörmətli Prezident, mən bu məclisimizin ab-havasını bulandırmaq fikrində deyiləm, bunun sonrasını izah etməyəcəyəm. Amma bircə faktı demək istəyirəm.

Mən müəlliməm, Azərbaycan Təhsil Nazirliyində kök salmış

müəyyən adamlara görə Lidiya xanım acıq edib işləmirdi. Lidiya xanım qeyrətli qadındır. Siz onu məcbur etdiniz ki, qayıt. Onda mən Sizə teleqram vurdum. Yazmışdım ki, Sizin qeyrətinizə qurban olum ki, bir qrup naxələf kişinin qarşısında o qadının şəxsiyyətinin alçalmasına imkan vermədiniz. Amma, hörmətli Prezident, mən Sizə bir söz deyim, "Biz Kronştatdanıq" filmində bir matros var, ağlar gələndə ağ paqon qoyur, qırmızılar gələndə qırmızı paqon. Orada o xarakterli adamlar hələ də var. Nə qədər ki, onlar var, o qadını işləməyə də qoymurlar, onun adamlara münasibətini də korlayırlar. Təhsil Nazirliyini hərrac bazarına döndəriblər.

Mən bu məsələlərin hamısı ilə əlaqədar burada heç nə açmıram. Amma respublikanın baş prokuroru Eldar Həsənova, Ağdam rayon prokuroru Zahid Tağıyevə dərin minnətdarlığımı bildirirəm ki, onlar mənim özümə qarşı olan şübhələrimin düzgün olmadığını aşkara çıxarıblar. Ayrı heç nə deməyəcəyəm.

Hörmətli Prezident, burada yoldaşlar dedi, Ağdam prokuroru burada əyləşib, cavan oğlandır. Sizi inandırım ki, Ağdam şəhidlərinin hamısının dəfnində iştirak edib — bu camaatla bir yerdə, başına mərmi yağa-yağa. O hələ bir gün də camaatı tək buraxmayıb. Bizə belə adamlar lazımdır.

Siz bu günlərdə Nazirlər Kabinetinin işçilərindən bir qrupunu tənqid etdiniz. Sizin haqqınızda fikirləşəndə, Sizin tədbirlərinizi görəndə, — insanıq axı, bunu qanmamaq mümkün deyil — adam xəcalət hissləri keçirir. Necə yə'ni bu qədər çətin şəraitdə sənə vəzifə e'tibar olunsun, sən də insan kimi işləməyəsən, qabiliyyətini, ləyaqətini göstərməyəsən?!

Hörmətli Prezident, bax bu Sarıyev inanıram ki, gecələr yatmır, səhərə kimi fikri-zikri pambığın, üzümün yanındadır. Rayonlara baxırıq, adamın ayağının altından yer qaçır ki, bu necə kişidir ki, respublikanın bu çətin vəziyyətində prezident bunları kənd təsərrüfatı işçilərinin müşavirəsində danlayıb, başqa tədbirlər görüb, onlarda isə bir hərəkət, qeyrət yoxdur. Sözdən işə keçməliyik hamımız.

Mən kiçik bir epizodu Sizin yadınıza salmaq, bununla da sözümü qurtarmaq istəyirəm. Mənim yadımdadır ki, Siz, — səhv etmirəmsə, 1975-ci il idi, — Ağdama gəlmişdiniz, pambığın vəziyyətini yoxlayırdınız. Mən onda kənddə məktəb direktoru idim. Telman Orucov da raykom katibi idi. Yolun qırağında Sizi gözləyirdik. Bu məqamda uşaqlar da məktəbdən buraxıldı, hamısı gəldi. Siz bu məqamda maşından düşdünüz. Telman Orucov mənə işarə etdi ki, bu uşaqları buradan apar. Siz dediniz ki, dəymə. O saat gördünüz, çağırdınız, əlinizi uşaqların ikisinin çiyninə qoydunuz. Dediniz ki, bunlar sabahın Heydər Əliyevləri olacaqlar, onlardan qaçmaq lazım deyil.



Hörmətli Prezident, mən 20 il o uşaqlara rəhbərlik etmişəm. Hər dəfə o uşaqların gözünə baxanda Sizin o fikriniz, o sözləriniz həmişə qulaqlarımda cingildəyir. Bu uşaqların xeyli hissəsi müharibədə həlak olub. Onlar birinci sinifdən tutmuş ali məktəbə gedənə qədər hamısı mənim gözümün qabağında olub. Onların dərdi həmişə məni göyür-göyür göynədir. Ona görə də mən qət etdim, ağsaqqal olduğuma baxmayaraq, ömrümü gecə-gündüz sərf etdim, bu uşaqlar barədə, Ağdam şəhidləri haqqında kitablar yazdım. Bu kitabın birinci cildi çap olunub, ikinci, üçüncü cildləri də yavaş-yavaş çapa hazırlanır.

Mən gözəgörünməz xaliqdən arzu edirəm ki, o şəhid balaların ruhu Sizin üstünüzdə yar olsun. Sizin şəxsiyyətiniz, Sizin varlığınız nə qədər var, Azərbaycan xalqına zaval yoxdur. Bunu bə'zi-bə'zi nakəslər gec başa düşüb. Qoy başa düşməsinlər. Biz ağdamlılar başa düşürük, biz ağdamlılar Sizin arxanızdayıq, biz ağdamlılar Sizin qarşınızdayıq. O gün olsun ki, yoldaşların dediyi kimi, Sizi Ağdamda təntənəli surətdə qəbul eləyək.

Bu da həmin teleqramın mətnidir. İcazə verin təqdim edim.

**Tarix elmləri doktoru,**
**professor**
**RƏŞİD GÖYÜŞOVUN**
**çıxışı**

Hörmətli Prezident, hörmətli Ağdam camaatı!

Burada söylənilən həqiqəti mən də təkrarlamaq istəyirəm ki, eli-obanı yığıb, onun dərdini dinlədiyi və adamlarla daim qaynayıb-qarışdığı üçün hörmətli prezidentə minnətdarlığımı bildirirəm. İşğal olunmuş rayonun camaatını toplayıb, torpaqlarımızın xilası üçün yollar aradığına görə mən ona öz təşəkkürümü bildirirəm.

Ümumiyyətlə, Qarabağın işğalı bir tərəfdən nizami erməni ordusunun fəaliyyətinin nəticəsi idisə, digər tərəfdən də ölkə rəhbərliyinin müharibəyə hazır olmaması, bu sahədə ciddi səhlənkarlığı, ümumiyyətlə, məsələyə laqeyd qalması və bir də vəzifə hərisliyi, kürsü hərisliyi, varlanmaq hərisliyi — bütün bunlar Qarabağın başına bu fəlakəti gətirdi.

Qarabağın başına bu fəlakət birinci dəfə deyil gəlib. Bilirsiniz ki, hələ eradan əvvəl II əsrdə Qarabağı ermənilər işğal eləmişdilər. Onda ermənilər Qarabağı altı il saxlaya bildilər, 371-ci ildə ermənilər Qarabağı yenidən işğal etdilər və 16 il öz əllərində saxladılar. 701-ci ildə Qarabağı az müddətə yenidən işğal etdilər və yenidən Azərbaycan xalqı Qarabağ torpağını qaytardı. Nəhayət, son illərdə ermənilər Qarabağı yenidən işğal etdilər.

Biz çox mehriban xalqıq, çox inanan xalqıq. Mən şəxsən özümü deyirəm — qətiyyən müharibəyə inanmırdım. Heç kimin xəyalına gəlməzdi ki, bu müharibə ola bilər. Amma ermənilərin Qarabağ uğrunda apardıqları gərgin siyasi mübarizəni biz hiss edirdik, bilirdik. Hələ 1987-ci ildə mən akademiyanın rəyasət hey'ətində bu məsələ ilə əlaqədar mə'ruzə etdim və o vaxt rəyasət hey'əti xüsusi qərar qəbul etdi ki, "Qarabağda elmi-tədqiqat işləri gücləndirilsin".

Hörmətli Prezident, bilirsinizmi, uzun illər Qarabağa qarşı özgələşdirmə siyasəti yeridilirdi. Bəlkə də bu, kortəbii şəkildə belə olmuşdu. Bu hadisələrlə əlaqədar olaraq bizi səfərbərliyə alıb Qarabağa göndərmişdilər. Narınclar kəndi var, mən orada oldum. Kənd soveti sədrinin qabaq stolunda birka 36-cı ilin birkası idi. Yə'ni onlara heç əməlli-başlı fikir verilmirdi. O kəndlərdə məscid deyilən bir şey qalmamışdı. O kəndlərin camaatının çoxu köçürdü. Demoqrafik vəziyyət ermənilərin xeyrinə dəyişirdi. Siz özünüz yaxşı bilirsiniz ki, hörmətli Prezident, dəfələrlə ermənilər bu məsələni yüksək səviyyədə qaldırmışdı və ancaq Sizin gərgin fəaliyyətiniz nəticəsində bu məsələ o vaxt qızışa bilməmişdi. Çox təəssüf ki, indi oldu.

Mən bilirəm ki, Siz Qarabağın xilası üçün çox gərgin iş aparırsınız. Amma çox təəssüf edirəm ki, Sizin bu gərgin işiniz, ümumiyyətlə, respublikada son vaxtlarda yaranmış siyasi ab-hava əməlli-başlı təbliğ olunmur. Biz ziyalılar Sizə bu sahədə sözün əsl mə'nasında kömək edə bilmirik. Vaxtilə yaxşı ən'ənə var idi, Mərkəzi Komitə bir qərar, ya bir sərəncam verən kimi ziyalıları yığıb mütəşəkkil surətdə rayonlara göndərirdilər. Amma indi biz özbaşımıza hərəkət eləyirik. Xüsusilə Qarabağ həqiqətlərinin, yə'ni Qarabağın etnik mənsubiyyətinin, Qarabağın tarixən Azərbaycana mənsub olmasının xarici aləmdə faktlarla təbliği vəziyyəti də çox yaxşı deyil, Heydər müəllim.

Bilirsiniz ki, ermənilər dünyanın bir çox ölkəsində, mərkəzi şəhərlərdə — Tehranda, Moskvada, Parisdə və başqa yerlərdə Qarabağ haqqında, Qarabağın guya tarixən ermənilərə mənsub olması haqqında güclü təbliğat aparırlar, əsərlər yazırlar, sərgilər təşkil edirlər. Lakin biz bu sahədə də onlardan xeyli geri qalırıq. Əlbəttə, bu fərdi şəkildə bəlkə də olunur, dövlət səviyyəsində də az-çox olunur. Lakin mən arzu edirəm ki, bu təbliğat çox güclənsin. Çünki beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin başa düşülməsində belə sərgilərin, xarici dildə ədəbiyyat hazırlanmasının son dərəcə böyük əhəmiyyəti vardır.

Onu da deyim ki, son vaxtlar yazılarımızda ümumiyyətlə, böyük hərc-mərclik var, bir əlaqələndirmə yoxdur. Bilirsiniz ki, bu yaxınlarda Azərbaycan alimləri böyük bir əsər hazırlayıblar. Burada Qarabağın tarixi, iqtisadiyyatı, coğrafiyası, tarixən Azərbaycana məxsus olması haqqında son dərəcə gözəl faktlar toplanıb. Heydər müəllim,



Azərbaycanın tarixi taleyi elə olub ki, onun bir hissəsində latın dilli, bir hissəsində yunan dilli, bir hissəsində gürcü dilli, əksər hissəsində ərəb dilli, fars dilli, bir hissəsində də erməni dilli epiqrafik abidələr, yazılar yayılmışdı. Lakin bizim ərazimiz nə Ərəbistanın deyil, nə farsın deyil, nə latının deyil, nə gürcünün deyil, nə də erməninin deyil, bizim özümüzündür.

Respublika Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxivində 3 mindən çox erməni epiqrafik abidəsi vardır ki, orada həmin ərazinin Azərbaycanın olması barəsində dəqiq faktlar yazılmışdır. Ermənilər daş üzərində bunu özləri də vaxtilə həkk ediblər. Lakin biz bunları nədənsə dünyaya çatdıra bilmirik. Mən istərdim ki, beynəlxalq danışıqlarda Qarabağı yaxşı bilən, Qarabağ problemi ilə uzun müddət məşğul olmuş ziyalılarımız heç olmasa ekspert sifəti ilə iştirak etsinlər.

Heydər müəllim, mən Lidiya xanımın özü ilə telefonla danışmışam, inanın, son vaxtlar dərsliklərimizdə elə biabırçı vəziyyət yaranıb ki, adam oxuyanda məəttəl qalır. Respublikamız çoxetnoslu respublikadır və bu etnoslar arasında vətəndaşlıq problemini həll etmək üçün, Azərbaycanda vətənpərvərlik hissini güclü surətdə əsaslandırmaq və tərbiyə etmək üçün dərsliklərimiz böyük rol oynayır. Bayaq Tapdıq müəllim dedi, Lidiya xanım çox bacarıqlı, çox qeyrətli işçidir, lakin orada dərsliklərə baxanlar, müəlliflər özləri də metodşuranın üzvləridir. Yə'ni bilavasitə onlar özləri səs verirlər ki, bu dərslik çap olunsun. Dərsliklərimiz isə respublikanın bu ağır vaxtında ölkənin əldə etdiyi nailiyyətləri təbliğ etmək əvəzinə, mən deyərdim, bir çoxu sadəcə olaraq demaqogiya ilə məşğul olur.

Heydər müəllim, xalq Sizə çox inanır. Mən gecə-gündüz xalqın içərisindəyəm. İxtisasımla əlaqədar fəhlələrin arasında, kənd camaatının arasında oluram. El-oba Sizə inanır, amma mən Sizdən şəxsən xahiş edirəm — güclü təbliğat aparatı yaradılmalıdır. Çörəyin qiyməti azca qalxır — bu, fəlakətə səbəb olur. Ancaq el-oba bilməlidir ki, Azərbaycan neçə ildir blokadadadır, onun əsas yolları kəsilibdir və bu çörəyi camaata gətirib çatdırmaq lazımdır. Əgər çörək respublikaya 100 manata gəlirsə, camaata 1 manata satılır. Bu təbliğatı camaatın içində aparmaq çox vacib məsələdir. Sizin xarici səfərləriniz də geniş təbliğ olunmalıdır. Bilirsinizmi, mən açıq deyirəm, indi camaatın çoxusu qəzetləri alıb oxuya bilmir. Bə'zən rabitə, poçt işinin zəifləməsi, digər tərəfdən iqtisadi vəziyyət, qəzetlərin də çox hissəsi heç ardıcıl çıxmır, televiziya da təbliğatı ümumiyyətlə, standart şəkildə qurubdur.

Ona görə də ziyalıların camaat içərisində olması, yə'ni müəssisələrdə, kəndlərdə, kolxoz və sovxozlarda olması vacibdir. Bizdə bir ən'ənə var — müəllimlərin avqust müşavirələri yaxınlaşır. Burada

ziyalıların mütəşəkkil, vahid ideya ilə, vahid konsepsiya ilə iştirakı mənə elə gəlir ki, son dərəcə vacibdir.

Biz inanırıq ki, Siz Qarabağı qaytaracaqsınız və inanın, Qarabağda elə kənd, elə oba qalmayacaq ki, Sizə orada heykəl qoymasınlar. Sizə bu yolda uğurlar arzu edirəm. Qarabağ camaatını tezliklə öz Vətəninə qaytarın. Sağ olun.

### Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun şö'bə müdiri ZƏMİNƏ HACIYEVANIN çıxışı

Möhtərəm Prezident, mən Ağdamın Şelli kəndindənəm. Əlyazmalar İnstitutunda işləyirəm. Çoxdandır Ağdamdan çıxmışam. Əlyazmalar İnstitutunu Siz yaratmısınız. Bizim institutun qarşısında Sizin xidmətləriniz çox olmuşdur. Hətta mənim atam ağır xəstə yatanda eşitdi ki, Əlyazmalar Fondunu institut statusuna qaldırmaq istəyirsiniz, o, belə bir ifadə işlətdi ki, Heydər Əliyev xalqın tarixində, yaddaşında bununla da qalacaq, xalq üçün ən böyük xidməti bu olacaq ki, xalqın mədəni sərvətinə belə qayğı göstərib.

Çox yaxşı ki, 10 ildən sonra bizim institut yenə də Sizin yadınıza düşdü və ictimaiyyəti, Azərbaycan xalqını həmin institutun problemlərinə yönəltdiniz — qoy bilsinlər, yenidən dərk eləsinlər ki, belə bir institut var.

Üç il bundan əvvəl Azərbaycanda dövlətçiliyimizin əleyhinə yönəlmiş ictimai-siyasi proseslərin məntiqi nəticəsi kimi Ağdam şəhəri və rayonun bir sıra kəndləri Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş, yüz mindən çox yurddaşımız doğma diyarından didərgin salınmışdır. Torpaqlarımızın düşmən əlinə keçməsinin səbəbi bir tərəfdən azğın düşmənin çirkin niyyətləri, digər tərəfdən isə 1988-ci ildən başlayan ictimai-siyasi proseslər və orduda bundan qaynaqlanan nizamsızlıq, torpaqlarımızın taleyinə dövlətçilik kateqoriyası ilə deyil, xalqın mənafeyi baxımından deyil, şəxsi maraq və mənafe mövqeyindən yanaşan səlahiyyətli şəxslərin məs'uliyyətsiz münasibət bəsləmələri olmuşdur. Cəmiyyətimizdə istər siyasi, istərsə də sosial-iqtisadi məsələləri öz xəyali "siyasəti" ilə idarə edənlərin — xalqa düşmən kəsilmiş Ə.Vəzirov, A.Mütəllibov kimilərinin xəyanətkar fəaliyyətinin nəticəsi bu faciələrə gətirib çıxarmışdır. Daha sonra dövləti "küçə siyasəti" ilə idarə etmək xəyalına düşmüş Əbülfəz Əliyev dövlət məsələlərini bir istiqamətdə, baş nazir Pənah Hüseynov isə digər istiqamətdə həll edirdilər.

Xalq, ziyalılar bunu aydın dərk edirdilər. Cəmiyyətdə narazılıq artırdı. Bu narazılıqları aradan qaldırmaq məqsədi ilə Azərbaycanda, xüsusən də döyüş bölgələrində şüurlu şəkildə hərc-mərclik yaradılması onlara yeganə çıxış yolu kimi görünürdü. Talançılar və rüşvətxorlar da yaranmış vəziyyətdən məharətlə istifadə etdilər.



Burada mən bir haşiyə çıxmaq istəyirəm. Hamı bilir ki, Sizin respublikaya rəhbərlik etdiyiniz vaxtda Azərbaycanda ən dövlətli region Ağdam rayonu olmuşdu. Siz ora həmişə qayğı ilə yanaşmısınız — həm iqtisadiyyatına, həm təsərrüfatına, həm də maddi-mədəni sərvətinə. Yə'ni belə bir rayondan istifadə etmək istəyənlər çox idi, çünki bu, ən varlı rayonlardan biri idi. Xainlər öz iyrənc və xəyanətkar əməllərini ört-basdır etmək üçün torpaqlarımızın hətta bir neçə saatlığa düşmən əlinə keçməsi istiqamətində ciddi fəaliyyətə başladılar.

Azərbaycan Xalq Cəbhəsinin başçısı, respublikanın sabiq prezidenti Əbülfəz Əliyevin fərmanı ilə baş nazirin müavini tə'yin olunmuş Surət Hüseynovun himayəsində olan 709 nömrəli hərbi hissənin Ağdam şəhəri və onun kəndlərinin əhalisi arasında vahimə yaradaraq, öz yerlərini tərk etməyə məcbur etməsi, sonra isə talançılıqla məşğul olması, öz hərbi borcunu yerinə yetirməkdən boyun qaçıraraq mühüm mövqeləri döyüşsüz tərk etməsi torpaqlarımızın düşmən əlinə keçməsinə gətirib çıxardı.

Bəli, üç ildir ki, Ağdam şəhəri və rayonun bir sıra kəndləri düşmən əlindədir. Bu faktdır. Lakin biz bu vəziyyətlə razılaşa bilmərik. Ağdam və digər rayonlarımız erməni işğalçılarından mütləq azad edilməlidir.

Möhtərəm Prezident! İşğal olunmuş torpaqlarımızın azad edilməsi qeyri-mümkün işlərdən deyildir. Bu, mümkün olan işdir. Azərbaycan vətəndaşlarının dövlətimizin ərazi bütövlüyünün bərpası ideyası ətrafında birləşdirilməsi məqsədə çatmağın qısa yollarındandır. Bu sahədə Siz böyük işlər görmüsünüz, böyük uğurlarınız vardır. Bu uğurlar bütün xalqın uğurlarıdır. Lakin bütün işlərin Sizin üzərinizə düşməsini ən azı insafsızlıq kimi qiymətləndirmək lazımdır. Düzdür, Sizin apardığınız gərgin işin özünəməxsus xarakteri var və bütün Ağdam əhalisi Sizin bu fəaliyyətinizi yüksək qiymətləndirir, gördüyünüz tədbirlərdə Sizə arxadır.

Azərbaycan vətəndaşlarının dövlətimizin ərazi bütövlüyü ideyası ətrafında birləşdirilməsinə mane olan və daxili düşmənlərimizin respublikamızı ayrı-ayrı bölgələrə, rayonlara, az qala kəndlərə, vətəndaşlarımızı isə bakılı, gəncəli, naxçıvanlı, şəkili, lənkəranlıya bölməsi, onları yerliçiliyə sövq etməsi faktının mövcud olduğunu e'tiraf etməliyik. Azərbaycanı parçalamaq ideyası məhz Ə.Vəzirovun dövründən başlanmışdır. Lakin Vətənimizin igid oğulları torpaqlarımız uğrunda düşmənlə döyüşərkən bakılı, gəncəli, naxçıvanlı, şəkili, lənkəranlı kimi deyil, Azərbaycan oğlu, Azərbaycan əsgəri kimi

vuruşmuş və torpaqlarımızı da Azərbaycan vətəndaşı, Azərbaycan əsgəri kimi azad edəcəklər.

Ağdam şəhərinin və rayonunun bir sıra kəndlərinin Ermənistan silahlı birləşmələri tərəfindən işğalından sonra Azərbaycanın digər rayonlarının ermənilər tərəfindən zəbt edilməsinin xarakteri, torpaqlarımızın düşmən əlinə verilməsinin eyni ssenari üzrə həyata keçirildiyi açıq-aydın görünməkdədir. Ona görə də bu gün özünü müxalifət adlandıran, əslində isə düşmənçilik mövqeyindən əl çəkməyənlər o vaxtkı əməllərini heç kimin başa düşmədiyinə əmin olmasınlar. Bütün cinayətlərin üstü açılacaq və xainlər öz layiqli cəzalarını alacaqlar. Bunu mütləq həyata keçirmək lazımdır, yoxsa şəhidlərimizin ruhu bizi bağışlamaz.

Ağdam uğrunda gedən döyüşlərdə minlərlə insan şəhidlik zirvəsinə ucaldı. Bunların 11 nəfəri mənim yaxın qohumlarım idi. Ancaq Xocalı soyqırımında — fevralın 26-da mənim 11 qohumum həlak oldu. Arasında cavan da, qadın da, qoca da var idi. Mən ana tərəfdən Natəvan nəslindənəm, Natəvan nəslindən 11 nəfər getdi.

Açıq e'tiraf etməliyik ki, düşmənə qarşı mərdliklə vuruşanlarla yanaşı, xainlərimiz də oldu. Çörək üçün ayırdığı axırıncı pulunu Vətən torpağının müdafiəsinə sərf edənlərlə yanaşı, öz ata-baba yurdunu düşünməyən, xalqın hesabına sərvət toplayıb, Ağdam uğrunda qızğın döyüşlər getdiyi günlərdə Bakıda özünə imarət tikdirməklə məşğul olan ağdamlılar da var idi. Ancaq ağdamlı deyəndə, xahiş edirik, özünü düşünənlər, torpağını satanlar, "karyer qasımlar", qarayevlər başa düşülməsin. Ağdamlı deyəndə torpağı uğrunda vuruşan, onu qoruyan, şərəfini uca tutan, daim Vətən qeyrəti çəkən vicdanlı insanlar başa düşülməlidir.

Qələbəyə böyük inamı olan bu insanlar torpaqlarımızı erməni işğalçılarından azad etmək uğrunda aparılacaq döyüşlərə başlamaq üçün əmrinizi gözləyirlər, möhtərəm Prezident!

"Qarabağ məsələsi"nin sün'i şəkildə yaradıldığı 1988-ci ildən başlayaraq Ağdamın işğalına qədər olan dövr ərzində Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev və onların əlaltıları vəzifəni, mənsəbi, sərvəti Vətəndən, torpaqdan üstün tutmuşdular. Onları xalqın taleyi, güzəranı deyil, şəxsi mənfəətləri düşündürmüş, öz istəklərinə nail olmaq üçün hətta doğma torpağını satmaq kimi şərəfsiz bir iş görmüş, bir milyondan artıq insanın doğma yurdlarından didərgin düşməsinə nail olmuşlar. Lakin onlar üçün bu da kifayət deyil. Onlar hələ də öz əməllərindən əl çəkmir, nəyin bahasına olursa-olsun ölkədə siyasi sabitliyi pozmağa çalışır, əlbir olub, xaricdəki havadarlarının buyruğu ilə təxribat işləri görməkdə davam edirlər. Ancaq istəklərinə nail olmaları mümkün deyil, çünki xalq onları yaxşı tanıdı, sözləri ilə əməllərinin bir-birinə uyğun



gəlmədiyini, kimin xalqına, dövlətinə can yandırdığını, kiminsə onu öz ambisiyalarının qurbanı etməyə hazır olduğunu yaxşıca dərk etdi.

Möhtərəm cənab Prezident! Xalq bunları dərk etdi və bir yumruq kimi birləşərək, ayağa qalxaraq Sizə müraciət etdi. Həmin qüvvələrin 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında etdiyi dövlət çevrilişi cəhdləri dövründə xalqın Sizinlə olduğunun və Sizə arxalandığının bir daha şahidi oldunuz, çünki xalq Sizə inanır və əmindir ki, Sizin müdrik rəhbərliyiniz altında dövlətimizin ərazi bütövlüyünün bərpasına nail olacaqdır. Ağdam camaatının inamı yalnız Sizədir!

Möhtərəm Prezident! Vətən torpağının erməni işğalçılarından azad olunmasının zəruriliyinə həsr etdiyiniz bu görüşü keçirdiyinizə görə şəxsən Sizə təşəkkür edir, dövlət quruculuğu sahəsində, torpaqlarımızın azad edilməsi istiqamətində apardığınız səmərəli fəaliyyətinizdə Sizə uğurlar diləyirik. Diqqətinizə görə təşəkkür edirəm.

**Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, tibb elmləri doktoru, professor**

## ADİLƏ NAMAZOVANIN çıxışı

Əziz Prezidentimiz, mən Sizə öz adımdan, bütün ağdamlılar adından təşəkkür edirəm ki, işinizin belə bir gərgin dövründə, budur, ağdamlıların nümayəndələrini bura yığıb dörd saatdan artıqdır onları çox səbrlə dinləyirsiniz.

Aydındır ki, Ağdam satqınlığın, təxribatın, düşmənçiliyin qurbanı olubdur. Bunu respublikamızın baş prokurorunun bu gün çox alovlu, çox inandırıcı şəkildə və yaxşı dəlillərlə gətirdiyi faktlar da sübut etdi. Mən əminəm ki, o sübutlara əsasən həmin düşmənlər öz cəzasını almalıdırlar və elə bilirəm ki, Eldar Həsənov bunu axıra çatdıracaqdır. Çünki anaya, Vətənə xain çıxan adam məhv olmalıdır.

Ona heç bir bəraət qazandırmaq olmaz.

Biz əminik ki, Sizin apardığınız müdrik, ardıcıl daxili və xarici siyasət nəticəsində nəinki Ağdam, işğal olunmuş bütün torpaqlarımız geri qayıdacaqdır və biz o torpaqlarda quruculuq işləri ilə məşğul olacağıq. O quruculuq işlərində bizimlə bərabər, bax, bu yaşlılarla bərabər gənclər, yeniyetmələr, uşaqlar da yaxından iştirak edəcəklər və bizə kömək edəcəklər.

İndi mən istəyirəm ki, Sizin vaxtınızı alıb, o yeniyetmələrin, gənclərin, uşaqların vəziyyəti haqqında bir neçə kəlmə söyləyim. Mənim rəhbərlik etdiyim klinikada tələbələrimlə birlikdə apardığım müayinələr göstərir ki, qaçqın, köçkün uşaqlar arasında xəstələnən

çoxdur, özü də onların səhhəti sağlamlıq parametrlərinə uyğun deyil. Onlarda ürək-qan damarı, ağ ciyər, tənəffüs yolları, mə'də-bağırsaq xəstəlikləri olduqca çoxdur. İndi biz çalışırıq ki, onları müalicə edək, sağaldaq. Lakin biz bir sıra çətinliklərə rast gəlirik və bunları aradan qaldırmaqda Sizin köməyinizə çox böyük ehtiyacımız var. Biz uşaqları ayırd edirik, ayırırıq, ancaq valideynlərin maddi vəziyyəti ağır olduğuna görə onları gətirib-aparmaq çətinlik törədir. Ona görə xahiş edirəm, Siz göstəriş verəsiniz, hər hansı bir nəqliyyat ayrılsın ki, biz o uşaqları vaxtında gətirib-aparıb klinikada müalicə edə bilək.

İkincisi, bilirsiniz ki, dərman maddələri indi çox bahadır. Ona görə onların da gücü çatmır və xahiş edirik ki, kömək edəsiniz, qaçqın, köçkün uşaqlar üçün xüsusi olaraq dərman təchizatı ayrılsın.

Biz onları mən işlədiyim klinikada yerləşdirərik. Qida məsələsindən bir qədər çətinlik çəkirik. Xahiş edirəm, Siz bu məsələdə də bizə kömək edəsiniz ki, bizim o böyüyən nəslimiz sağlam inkişaf etsin, yaxşılaşsın ki, torpaqlarımıza da gələcəkdə onlar yiyələnsinlər və onu çiçəkləndirsinlər.

Diqqətinizə görə sağ olun, çox vaxtınızı almaq istəmirəm. Ona görə ki, biz gərək öz prezidentimizin səhhətinə hərtərəfli qayğı göstərək. Məndən sonra çıxış edənlərdən də çox rica edirəm ki, bir az qısa, yığcam və bir də ki, təkliflərlə çıxış etsinlər.

**Heydər Əliyev:** Sağ olun. Mən sizin hamınızı və hər birinizi bundan sonra da dinləməyə hazıram. Ancaq dörd saatdır ki, biz burada bir yerdəyik. Bu dörd saat müddətində əsas fikirlər söylənibdir. Ona görə də bu söhbətə davam etməyə ehtiyac varmı?

**Əvəz Gülməmmədov:** Şəhid atasıyam, əgər imkan varsa, bir neçə söz demək istəyirəm.

**Heydər Əliyev:** Buyur.

### Qalayçılar kənd sakini
### ƏVƏZ GÜLMƏMMƏDOVUN
### çıxışı

Yoldaş Əliyev, mən Sizə bir neçə faktı, o ərazidə kənd sovetinin sədri işlədiyim müddətdə olan mə'lumatları demək istəyirəm. Heç cür imkanım olmayıb Sizə çatdırım, məktub da yazmışam, amma cavab ala bilməmişəm. O adamlar da buradadır, bu məclisdə oturublar, şahiddirlər.

Əvvəla, təkrarçılığa yol vermək istəmirəm. Sizin şərəfinizə ən qiymətli sözlər deyildi, mən də o sözləri deməyə hazıram.

28 il bundan əvvəl Xan Şuşinskinin 70 illiyi keçirilirdi, yəqin Sara xanım orada olardı, yubiley iclasında Nəriman Həsənzadə çıxış etdi.



Dedi, Xan əmi, uca mərtəbəli binalar tikilib, amma yenə biz şairlər də, elə camaat da kənddən gələndə deyir ki, görüş evi "beşmərtəbənin qabağı olsun. Dedi, Azərbaycanda o qədər xanəndələr çıxıb, amma nə qədər xanəndə çıxır-çıxsın, siz elə Xansınız ki, Xan. İndi Azərbaycana nə qədər rəhbər gəlibsə, Siz Heydər Əliyevsiniz. Bu sözü ürəkdən deyirəm. Çünki Heydər Əliyevin yeri çoxdan görünürdü. Allaha çox şükür ki, o yerə yenidən gəldi və öz yerini tutdu.

1988-ci ildə mən 11 kəndi əhatə edən kənd sovetinin sədri idim. Mənə xəbər gəldi ki, ilk dəfə Cinli kəndi erməni gülləsinə tuş olub. Eşitdim ki, üç erməni gəlib, heç nəyi boynuna almır. Məni apardılar. Vəli Quliyev adında bir vətəndaşla getdim o kəndə, gördüm bunlar oturub pendir-çörək yeyir. Bunlara ermənicə də deyirlər, boynuna almır, rusca da deyirlər, azərbaycanca da deyirlər, boynuna almır. Mən onların sifətinə baxdım. Cibləri tikili idi. Şalvar cibləri də tikili idi. Görkəmlərinə baxdım, buranın adamına oxşamırdılar. Bunlar, görünür, mərc gəlmişdi ki, o Cinli kəndinə gedərəm. Fərrux kəndi ilə Cinli kəndinin arasında heç 300—400 metr məsafə yoxdur, böyük sahələri var, bir yerdədir. Fərrux kəndi ən mö'təbər yerdədir. O, qarşısıalınmaz yerdir, Fərrux kəndi orada yeganə zirvədir.

Nə isə, həmin şəxslərdən sonra gördük ki, bir "Zaporojets" maşınında iki nəfər də gəldi. Yoldaşlar tez mənə işarə verdilər, bunları tutduq, maşın yoxlandı, Fransa bayraqları, Amerika yemək konservləri çıxdı. Tutulanları gətirdik Ağdam daxili işlər şö'bəsinə. O zaman şö'bəyə Rəşid Məmmədov başçılıq edirdi. Maşının sənədi yoxlandı, maşındakı avtomat, tapança güllələrinin hamısının xarici olduğu müəyyən edildi. 1988-ci ilin söhbətini edirəm.

Sonra Ağdam daxili işlər şö'bəsi bu işi araşdırdı. Tutulanların hər birinə beş il verildi. Onlardan ikisi Stepanakertdən, biri isə Fransadan idi.

Ondan sonra bizim kəndə bir nəfər gəldi, erməni idi, yanında da bir rus əsgəri var idi. Rusca soruşdu ki, "Qde naxoditsya Qazançı?". Dedi, keçdi. Mən bundan şübhələndim. Bunun yolunu gözlədik, gecə saat 4-də qayıdıb gələndə onu tutduq gətirdik, yenə də daxili işlər şö'bəsinə verdik. Bu zaman Ağdam daxili işlər şö'bəsi rəisinin müavini A.Novruzov dedi ki, onu orada güllələyə bilmirdiniz, niyə gətirmisən? Buradan verəcəyik Stepanakertə, onlar da buraxacaqlar, çıxıb gedəcək.

Mən söhbətimi nəyə gətirirəm? O zaman bizim kənd erməni kəndləri ilə həmsərhəd idi. Bizim Qalayçılar kəndinin işğal olunmasından əvvəl biz ermənilərin fəallaşdığını gördük. Bir neçə ağsaqqal, qarasaqqal məsləhət etdik ki, Ağdam icra hakimiyyətinə müraciət edək ki, kənddə vəziyyət belədir. Həsən Sarıyev Papravənddə özünümüdafiə dəstəsinin rəhbəri idi. Onun da yanına adam göndərdik. Kəndimizə bir avtobus kömək dəstəsi gəldi, biz də getdik Ağdam

icra hakimiyyətinə. Orada Cəfər adlı bir işçi dedi ki, Nadir İsmayılov bu gün cəbhələrdə olub, bir az gec gələcək. Gözləyirsinizsə, gözləyin. Dedik, bəli, gözləyirik, bizim sözümüz var. Nadir İsmayılov gəldi. Həqiqətən də yorğunluğu hiss olunurdu, gözləri şişmişdi. Elə dəhlizdə bizi qəbul elədi. Dedi istəyirsinizsə içəri keçin. Tələsik sözümü ona görə demək istəyirəm ki, vaxt çox getməsin. Mənim qəlbimdə bir neçə fikrim var.

**Heydər Əliyev:** Fikrini de. Sən əgər necə gəldi, necə getdi, necə çıxdı, — onu desən çox vaxt aparar. Fikrini de.

**Əvəz Gülməmmədov:** Fikrim odur ki, kənddə o hadisələr təzə başlananda mənim çox fəaliyyətim olub, kənd camaatı bunu bilir. Seçki olanda Qarabağın ağbirçəyi, inanılmış, hörmətli, elə mənim də hamıdan çox hörmət etdiyim Xuraman bacı məndən xahiş elədi ki, Ağdam icra hakimiyyəti aparatında sənin haqqında belə bir fikir var, xahiş edirəm, sən çıx, yerini bir nəfər qadın var, ona verərlər. Mən bacımın sözünü yerə salmadım. İsa Məmmədov da bacımla gəlmişdi. Mən bacımın sözünü yerinə yetirdim, öz çörəyimi həm şəhid ailəsinin, həm də səkkiz nəfər ailənin çörəyini bir nəfər qadına bağışladım. Bu, bir.

İkincisi, mənim oğlum Erki döyüşündə həlak olub. Altı tank, iki BMP ilə oraya hücum olunub. Yəqin ki, Ağdam prokuroru Tağıyevin kassetində var, uşaqlar ratsiya ilə xəbər verib ki, üzərimizə tanklar gəlir. Biz nə edək? Deyib dayanın, sizə kömək göndəririk. İyirmi üç nəfər ağdamlı uşaq o tankın altında qalıb. Bunu icra aparatı da, batalyon komandiri də, post komandiri də bilir. Mənim oğlum Azərbaycanın Milli Qəhrəmanı adına təqdim olunub, sənədlər Müdafiə Nazirliyinə göndərilib. Ancaq ona "İgidliyə görə" medalı verilib. Mən bu haqda çox narahatam. Sizə güvənib bu sözü deyirəm. O, üç il döyüş mövqelərində olub, əsir düşüb, yenidən qayıdıb, Abdal-Gülablıda tank partladıb. Erkidə bir nəfər sağ qalıb, onun ifadəsini dinləsəniz, görərsiniz ki, yeganə tankı oğlum partladıb, amma tanklar çox olduğundan bizim uşaqlar orada həlak olublar. Nədənsə Erki döyüşü, Novruztəpə döyüşü respublika səviyyəsində qeyd olunmadı. Sizdən artıq dərəcədə xahiş edirəm, bu məsələyə baxılsın. İmkan daxilində mənim uşağımın xidməti qiymətləndirilsin.

Sağ olun, Sizə minnətdaram. Sizə dünyanın ən şirin ne'məti olan cansağlığı arzulayıram.



## Azərbaycan Respublikası Prezidenti
## HEYDƏR ƏLİYEVİN
## yekun nitqi

Bu gün biz günümüzü Ağdama həsr edirik. Güman edirəm ki, bizim bu görüşümüzü televiziya vasitəsilə bütün ictimaiyyətə çatdıraraq bu günü nəinki bizim üçün, hətta bütün Azərbaycan vətəndaşları üçün Ağdama həsr olunmuş bir gün kimi qeyd edəcəyik.

Bizi buraya toplayan Ağdamın problemləri, Ağdam rayonunun dərdləri, bu rayonun bir hissəsinin və xüsusən Ağdam şəhərinin üç il bundan öncə işğal olunması ilə əlaqədar fikirlər, qayğılar və arzulardır. Burada çıxış edən natiqlərin hamısı həm 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana edilən hərbi təcavüzlə əlaqədar, həm də Ağdam rayonunun kəndlərinin, Ağdam şəhərinin işğal olunması ilə əlaqədar öz təəssüratlarını, xatirələrini, fikirlərini, mülahizələrini bildirdi. Xüsusən, rayonda daim yaşamış şəxslərin və Ağdamın işğalının qarşısını almaq üçün döyüşmüş, mübarizə aparmış şəxslərin mə'lumatları çox əhəmiyyətlidir.

Bütün bu verilən mə'lumatlar, şübhəsiz ki, bir şeyi təsdiq edir: Ağdam şəhəri heç vaxt işğal oluna bilməzdi. 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı başlanan təcavüz — ilk atışmalar, ilk qığılcım, təcavüzün ilk addımları məhz Ağdama tərəf yönəldilmişdi. Bu da təbiidir, çünki Dağlıq Qarabağa gedən yolların hamısı Ağdamdan keçir. Eyni zamanda, Dağlıq Qarabağda yaşayan ermənilər daim Ağdamla əlaqədə olmuşdular. Ağdamın nə olduğunu yaxşı bilirdilər. Ağdamın tarixini də, keçmişini də, Ağdamın insanlarının nə qədər dəyanətli, nə qədər cəsarətli olduqlarını da yaxşı bilirdilər.

Strateji nöqteyi-nəzərdən isə Ermənistan təcavüzünün qarşısının alınması üçün Ağdam şübhəsiz ki, çox əhəmiyyətli bir nöqtə idi. Ağdam qorunmalı idi, Ağdam saxlanılmalı idi, Ağdam müdafiə olunmalı idi. Ağdamın işğalı yolverilməz idi.

Burada qeyd edildiyi kimi, 1992-ci ilin sentyabrında Abdal-Gülablı

kəndinin işğal olunması, ondan sonra da rayonun digər kəndlərinə hücumlar, Ağdama qarşı yönəldilmiş təcavüzkar planlar, nəhayət, Ağdam şəhərinin işğalına gətirib çıxardı.

Bilirsiniz, bu gün buna imkan yoxdur və güman edirəm, heç bəlkə hələ ehtiyac da yoxdur. Ancaq Ermənistan tərəfindən Azərbaycanın rayonlarının, şəhərlərinin, qəsəbələrinin, kəndlərinin işğal edilməsi prosesi gərək ümumən təhlil olunsun. Dərin təhlil olunsun və müəyyən edilsin ki, nə səbəblərdən Azərbaycanın torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğal oluna bildi. Səbəblər aydındır, amma bunlar daha dərin, ətraflı, təfərrüatı ilə təhlil olunmalıdır. Səbəb bundan ibarətdir ki, Ermənistan və xüsusən onun separatçı, təcavüzkar qüvvələri Azərbaycana daim göz dikiblər, — bu, keçmişlərdə də olubdur, — və xüsusən Azərbaycanın Qarabağ hissəsinə göz dikiblər.

Burada profesor Göyüşov uzun tarixin bə'zi məqamlarını yada saldı. Bu, Azərbaycanı həmişə sayıq olmağa də'vət edirdi. Azərbaycan həmişə düşünməli idi ki, Ermənistanın separatçı qüvvələri tərəfindən, təcavüzkar, qəsbkar qüvvələri tərəfindən Azərbaycana qarşı təxribat da ola bilər, təcavüz də ola bilər, hücum da ola bilər. Çünki bizim keçmiş tariximiz, tarixi əlaqələrimiz belə düşünməyə tam əsas verir. Ancaq təəssüf ki, bu barədə sayıqsızlıq olubdur, Azərbaycanda torpağa, millətə, respublikaya lazımi qayğıkeşlik olmayıbdır. Və bunların nəticəsində də 1988-ci ildə həmin qüvvələr, uzun illər o xülyalarla yaşayan qüvvələr öz fikirlərini əməli surətdə həyata keçirməyə, Azərbaycanın bir hissəsini — Dağlıq Qarabağ hissəsini ələ keçirməyə başlamışlar. Ancaq təəssüf ki, — həmin 1988-ci il haqqında, 1988-ci ilin fevral ayında başlanmış hadisələr haqqında burada deyildi, — təəssüf ki, onlar da Azərbaycanın rəsmi dairələrini oyatmamışdır, ayağa qaldırmamışdır və Azərbaycanın vəziyyəti haqqında düşünməyə cəlb edə bilməmişdir. Proseslər elə inkişaf etmişdir ki, Ermənistan tərəfi günü-gündən silahlanmağa başlamış, hərbi təcavüzü hazırlamağa, genişləndirməyə çalışmış və bu sahədə açıq-aydın, aşkar işlər görmüş, amma Azərbcaycan tərəfi nəyəsə ümid bəsləmiş, bunun müqabilində lazımi tədbirlər, Azərbaycanın müdafiə olunması üçün zəruri işlər görməmişdir. Məhz bunların nəticəsində Ermənistanın təcavüzkarlığının qarşısı alınmamışdır.

Şübhəsiz ki, burada keçmiş Sovetlər İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz münasibəti də nəzərə alınmalıdır. Ancaq belə bir ədalətsiz münasibəti müşahidə edənlər gərək ona müvafiq də lazımi işlər görəydilər və Azərbaycanın, xalqın, millətin, Azərbaycan Respublikasının e'tibarlı müdafiəsini tə'min edə biləydilər. Bunlar, təəssüf ki, olmamışdır.

Bunu mən ona görə deyirəm ki, bizim xalqımız aciz xalq deyil. Ağdamlılar da, bütün Qarabağ bölgəsində yaşayanlar da, — əgər



belə bir söz işlətsək, —qarabağlılar da, Azərbaycanın bütün başqa bölgələrində olan azərbaycanlılar da aciz xalq deyil. Xalqımız əsrlər boyu böyük sınaqlardan çıxıb və öz torpağını, öz mənliyini qoruyub indiyə qədər saxlaya bilibdir. Ona görə də xalq, o cümlədən Ağdam əhalisi, Ağdam camaatı da Ağdamı da qoruya bilərdi, Şuşanı da qoruya bilərdi, Laçını da qoruya bilərdi, başqa bölgələri də qoruya bilərdi. Sadəcə, bu məsələlər bir tərəfdən lazımi səviyyədə təşkil olunmayıbdır, lazımi hazırlıq işləri görülməyibdir, ikinci tərəfdən də — bu fikir dəfələrlə deyilibdir, — Azərbaycanın daxilində olan cürbəcür qüvvələr, Vətən, millət haqqında düşünmək əvəzinə yalnız və yalnız özləri, öz şəxsi mənafeləri haqqında düşünmüşlər. Buna görə də 1988-ci ildə Azərbaycana qarşı yönəldilmiş təcavüzün qarşısı alınmayıb və bu, get-gedə genişlənib, get-gedə dərinləşib.

1990-cı ildə Azərbaycanın başına böyük faciələr gəlibdir. Respublikaya böyük qoşun dəstələri yeridilərək Azərbaycanın milli mənliyini sındırmağa çalışıblar. Ondan sonra gedən proseslər də, təəssüf ki, Azərbaycanın içində birliyi tə'min etməyibdir və bütün bunların nəticəsində də Azərbaycan Respublikasının ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunların içərisində Ağdam rayonunun bir qismi, çox hissəsi, o cümlədən Ağdam şəhəri də işğal olunubdur.

Xalqımız döyüşüb, vuruşub, qurbanlar verib, şəhidlər veribdir. Burada qeyd edildi ki, Ağdam rayonunun sakinlərindən 6 minə qədər insan həlak olubdur. Ancaq Azərbaycana, o cümlədən Ağdam rayonuna vurulan zərbələr bununla tamamlanmır. Ağdam kimi böyük şəhər viran olunubdur, dağılıbdır. Ağdamın ərazisində, bütün Qarabağ ərazisində olan tarixi abidələrimiz, bizim tariximizin həkk olunduğu daşlar, dağlar, obalar, meşələr — hamısı zəhərlənibdir, dağılıbdır. Ağdam şəhəri böyük bir şəhərdir. Orada insanlar on illərlə, yüz illərlə özlərinə yaşayış yerləri yaradıblar, evlər tikiblər. Bunların hamısı dağıdılıbdır və insanların nəsillərdən-nəsillərə keçən varı-yoxu, varidatı məhv olubdur, əldən gedibdir. Bütün bunlar bizim xalqımıza, o cümlədən Ağdam rayonunun əhalisinə vurulan zərbələrdir.

Yə'ni demək istəyirəm ki, xalqımız vuruşub. İçində xainlər də olubdur, qorxaqlar da olubdur, şəxsi mənafeyini millətin, xalqın mənafeyindən üstün tutanlar da olubdur. Amma sizin — buraya toplaşanların danışdıqlarınızdan bir daha görünür ki, Ağdamın özündə nə qədər vuruşmusunuz, torpağınızı qorumağa nə qədər çalışmısınız. Ancaq müharibə belə şeydir ki, insanlar nə qədər igid, qəhrəman olsa da, nə qədər cəsur olsa da əgər müdafiə işi, yaxud da döyüş lazımi səviyyədə təşkil olunmursa, şəxsi qəhrəmanlıq, şəxsi cəsarət, şübhəsiz ki, vəziyyəti xilas edə bilməz.

Ona görə də işlərin təşkil olunmamasına görə, — burada çox

faktlar gətirildi, — xəyanətə görə, satqınlığa görə, şəxsi mənafeləri uğrunda çalışan adamların vurduqları zərbələrə görə Azərbaycanın ərazisinin 20 faizi işğal olunubdur. Millətimizin zəifliyinə görə yox, xalqımızın zəifliyinə görə yox! Mən bunu dəfələrlə demişəm, bu gün sizin qarşınızda, ağdamlıların nümayəndələri qarşısında bir də deyirəm. Xalqımız qəhrəman xalqdır, xalqımız döyüşkən xalqdır, xalqımız özünü müdafiə edə bilən xalqdır. Ancaq təəssüflər olsun ki, vaxtında lazımi tədbirlər görülmədiyindən xalqımızın başına belə bəlalar gəlibdir. Ağdamın işğal olunması, Ağdam şəhərinin və Azərbaycan Respublikasının başqa rayonlarının torpaqlarının işğal olunması Azərbaycanı çox ağır bir vəziyyətə qoyubdur.

1988-ci ildə hərbi münaqişə başlayıb, sonra müharibəyə çevrilib. 1994-cü ilin may ayında biz onu dayandırmışıq. Atəşkəs haqqında saziş əldə etmişik və iki ildən çoxdur ki, atəşkəs rejimində yaşayırıq. Bu o demək deyil ki, biz torpaqlarımızdan əl çəkmişik, yaxud da ölkəmizin ərazi bütövlüyünü unutmuşuq. Yox. Altı il ərzində gedən döyüşlər, müharibə və o illərdən çıxarılan bütün nəticələr bizə onu göstərib ki, atəşi dayandırıb, məsələnin sülh yolu ilə həll olunmasına çalışmaq müharibəni davam etdirməkdən daha əlverişlidir və üstündür.

Ermənistanla Azərbaycan arasında münaqişə qurtarmayıbdır. Ermənistanın Azərbaycana hərbi təcavüzü tamamilə ləğv olunmayıbdır. Biz sadəcə, atəşi dayandırmışıq və məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Guman edirəm ki, tutduğumuz bu yol düzgün yoldur. Biz bu yolla gedirik. Doğrudur, ola bilər, biz atəşkəs haqqında saziş əldə edərkən düşünürdük ki, sülh danışıqları tezliklə nəticə verə bilər. Ancaq danışıqlar prosesi getdikcə, biz bu məsələnin nə qədər çətin və nə qədər mürəkkəb olduğunu daha dərindən dərk edirik. Bu da ona görədir ki, həmin illərdə Azərbaycan tərəfinin buraxdığı böyük səhvlər, təcavüzün qarşısını almaması indi gətirib elə vəziyyət yaradıb ki, danışıqları aparmaq da çətindir, ağırdır. Ancaq eyni zamanda, mən hesab edirəm ki, danışıqlar bundan sonra da davam etməlidir və biz bunu günü-gündən gücləndirməliyik və məsələni sülh yolu ilə həll etməliyik.

Şübhəsiz ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, bizim hüququmuz var ki, başqa yolla, yə'ni silah gücü ilə torpaqlarımızı azad edək. Bu, bizim gündəliyimizdə daim durmalıdır. Ona görə də heç kəs sayıqsızlığa yol verməməlidir. Heç kəs unutmamalıdır ki, bizim qarşımızda müqəddəs vəzifə var: Azərbaycanın ərazi bütövlüyünü tə'min etmək, işğal olunmuş torpaqlarımızı azad etmək və həmin torpaqlardan didərgin düşmüş soydaşlarımızı, vətəndaşlarımızı öz yerinə-yurduna qaytarmaq. O cümlədən Ağdama qayıtmaq — Ağdam şəhərinə qayıtmaq. Ağdamın bütün ərazisinə yenidən qayıtmaq. Bu bizim ali məqsədimizdir. Qarşımızda duran müqəddəs vəzifədir və bu



vəzifə yolunda xalqımız nəyin bahasına olursa-olsun vuruşmalı, çalışmalıdır.

Ona görə də hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, biz hər bir şeyə dözə bilərik, ancaq torpaqlarımızın işğal altında qalmasına dözə bilmərik və dözməməliyik. Bə'zən yaşayışımızın çətin olmasından danışırlar. Bə'zən ayrı-ayrı dairələrdə, qəzetlərdə, xüsusilə müxalifət qüvvələri xalqın vəziyyətinin ağır olmasından danışırlar. Bəli, xalqımızın vəziyyəti çətindir. Respublikamız keçid dövrü yaşayır. Azərbaycana qarşı çox böyük təzyiqlər var, tə'sirlər var. Bunların hamısı xalqımızın iqtisadi vəziyyətini bu gün deyil, dünən deyil, bir neçə ildir ki, davamlı olaraq ağırlaşdırır. Ancaq mən bunu dəfələrlə demişəm, bir də yada salmaq istəyirəm. İkinci dünya müharibəsini xatirinizə salın. İkinci dünya müharibəsində, bizim də iştirak etdiyimiz Vətən müharibəsində dörd il müharibə getdi, insanlar yeməyə çörək tapmırdılar, çoxları acından ölürdü. Amma insanlar Vətənin müdafiəsinə qalxmışdılar, döyüşürdülər. Böyük qurbanlar verildi və faşizmin qarşısı alındı. Sovetlər İttifaqı bu müharibədə 27 milyon adam itirdi. Amma onlardan savayı, yaşayanların da içərisində nə qədər insan acından öldü, nə qədər insan əziyyətlər çəkdi. Bunlar hamısı o vaxt lazım idi ki, ölkə qorunsun və ölkə, eləcə də dünya faşizm kimi dəhşətli bir fəlakətdən xilas ola bilsin.

Buna görə də bizim həyatımızın reallığı barədə düşünmək və reallığı dərk etmək lazımdır. Reallıq da ondan ibarətdir ki, ərazimizin 20 faizi işğal olunubdur. Şimal tərəfdən sərhədlərimiz iki ildən artıqdır ki, məhdudlaşdırılıbdır, əvvəl bağlanmışdı, indi böyük çətinliklə onu açmaq istəyirik.

İqtisadiyyatda gedən proseslər istehsalın səviyyəsini aşağıya salıb. Biz bu barədə geniş təhlil aparmışıq. Bunlar hamısı, şübhəsiz ki, bizim vəziyyətimizi ağırlaşdırıbdır. Amma biz sizinlə həmin adamlarıq ki, 1970-ci illərdə çox firavan yaşayırdıq. Siz də, biz də, hamımız o adamlarıq. Bu problemlərin heç birisi yox idi. Burada çıxış edənlər həmin o illəri yada saldılar. Şübhəsiz ki, o illəri unutmamalıyıq, ancaq eyni zamanda bir şeyi üstün tutmalıyıq ki, indi biz xalqımız üçün ən böyük nailiyyət olan müstəqillik əldə etmişik. Dövlət müstəqilliyini əldə etmişik və bu dövlət müstəqilliyinin naminə, milli azadlığımızın naminə bütün çətinliklərə dözürük və dözməliyik. Torpaqlarımızın azad olunması naminə, Azərbaycanın ərazi bütövlüyünün tə'min edilməsi naminə bütün çətinliklərə dözmüşük və bu gün də dözürük, bundan sonra da dözməliyik. Bu, həyatın reallığıdır.

Mən şübhəsiz ki, heç də ümidsizlik yaratmaq istəmirəm. Biz çalışırıq və çalışacağıq. Aparılan iqtisadi tədbirlər, iqtisadi islahatlar bir neçə il içərisində Azərbaycan iqtisadiyyatında ciddi dəyişikliklər əmələ gətirəcəkdir. Biz "Torpaq islahatı haqqında" qanun qəbul etdik.

Dünən mən onu imzaladım və bu gün qanun bizim mətbuatda dərc olunubdur. Bu, bizim iqtisadiyyatımızda böyük inqilab xarakterli bir tədbirdir. Biz ciddi, cəsarətli bir addım atmışıq. Mülkiyyət münasibətlərinin dəyişdirilməsi haqqında, torpaq üzərində olan mülkiyyət münasibətlərinin dəyişdirilməsi haqqında tarixi bir addım atmışıq, tarixi bir qərar qəbul etmişik. Mən əminəm ki, bu, öz nəticəsini verəcəkdir. Amma bu elə deyil ki, bu gün mən bu qanuna imza atdım, sabah bunun nəticəsi olsun. Bu, öz nəticəsini verəcək. Bu qanunu həyata keçirmək lazımdır. Bir neçə il lazımdır ki, o, öz nəticəsini versin. Verəcəkdir! Başqa iqtisadi islahatlarımız, özəlləşdirmə proqramı — onlar hamısı öz nəticəsini verəcək. Biz bu dövrü, keçid dövrünü yaşamalıyıq. Bunun çətinliyinə də, əzab-əziyyətinə də dözməliyik və bunu da heç kəs dramatikləşdirməsin, heç kəs də bundan sui-istifadə etməsin.

Bunların hamısını biz ona görə edirik ki, ölkəmizin iqtisadi qüdrətini artıraq, insanların rifah halını yaxşılaşdıraq və ağıllı siyasətlə, sülh danışıqları ilə biz Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasına nail olaq. Amma bununla yanaşı, ölkəmizin hərbi qüdrətini möhkəmləndirməliyik, insanlarımızın hərbi hazırlığını artırmalıyıq. Hər bir vətəndaş sözlə, şüarla yox, real şəkildə Azərbaycanın torpaqlarının azad edilməsi üçün istənilən dəqiqə, istənilən saatda döyüşə hazır olmalıdır və əgər lazım olarsa, biz şübhəsiz ki, bu yolla da gedəcəyik, heç vaxt torpaqlarımızı işğal altında qoymayacağıq. Buna əmin ola bilərsiniz. Ağdam rayonu da, Ağdam şəhəri də azad olunacaqdır. Burada arzular bildirildi. Əminəm ki, biz o arzulara çatacağıq. Ağdamda da görüşəcəyik, Ağdamda da bu söhbəti aparacağıq. Biz sizinlə Ağdamın bərpa olunması və inkişafı haqqında müzakirələr aparacağıq, tədbirlər görəcəyik.

Sizə mə'lumdur ki, mən Dünya Bankına müraciət etmişəm. Bilirsiniz ki, Dünya Bankı ikinci dünya müharibəsindən sonra, o müharibədən zərər çəkmiş ölkələrin bərpa olunması üçün yaranmış bir bankdır. Buna görə də biz onunla əməkdaşlıq edirik və onun imkanlarından istifadə edirik. Mən oraya müraciət etmişəm, onlar da mənim müraciətimi qəbul ediblər ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilən zaman onların bərpası ilə məşğul olsunlar. Onlar buna böyük vəsaitlər ayırmağa söz veriblər. Dünya Bankının nümayəndə hey'əti Azərbaycana gəlibdir. Onlar Füzuli rayonunun işğaldan azad edilmiş kəndlərində, Tərtər rayonunda olublar. Gərək ki, Ağdam rayonunda da olublar, sizdə də olublar. Biz planlarımızı hazırlayırıq ki, işğal olunmuş torpaqlar azad edilən məqama hazır olaq, o torpaqların, o şəhərlərin, kəndlərin, qəsəbələrin bərpası ilə məşğul olaq.

Ona görə də mən belə nikbin əhval-ruhiyyə ilə bunları sizə çatdırıram və bildirmək istəyirəm ki, qarşımızda duran bu vəzifələri hamımız bir yerdə həyata keçirməliyik.



Bilirsiniz, bizim sülh danışıqları aparmağımız Azərbaycanı dünya miqyasında bir daha sülhsevər xalq kimi, ölkə kimi nümayiş etdirir. Həqiqəti demək lazımdır ki, Ermənistanın o separatçı, qəsbkar qüvvələri Azərbaycana qarşı qəsbkarlıq niyyətləri ilə bu gün deyil, dünən deyil, yüz il bundan qabaq da bu fikirlərlə yaşayıblar və bu planları həyata keçirməyə çalışıblar. Ona görə də bunlar dünyanın başqa yerlərində — Avropada, Amerikada, inkişaf etmiş ölkələrdə özlərinin böyük diasporlarının imkanlarından istifadə edərək, Qafqazda olan vəziyyət haqqında, xüsusən Azərbaycan — Ermənistan münasibətləri haqqında daim qeyri-obyektiv mə'lumatlar verib, dünya ictimaiyyətində Azərbaycan haqqında yanlış fikirlər, yanlış mə'lumatlar, yanlış təəssüratlar yaratmışlar. Xüsusən bu münaqişə, müharibə başlayandan sonra onlar bu barədə həmişə daha üstün vəziyyətdə olublar. Onların həm böyük imkanları olubdur, həm də ki, bu barədə onlar, yenə də deyirəm, daha mütəşəkkil olublar, bir olublar. Ona görə də Dağlıq Qarabağ indi dünyada məşhur olubdur. Nədir Dağlıq Qarabağ? Kiçik bir yerdir, balaca bir ərazidir. 4 min kvadratkilometr ərazisi olan bir yerdir. Amma indi Dağlıq Qarabağ dünyanın bütün ölkələrində məşhurdur. Məşhurdur bu müharibəyə görə, məşhurdur bu münaqişəyə görə. Eyni zamanda, məşhurdur, ermənilərin apardıqları təbliğata görə, işlərə görə. Bizim respublikamız isə bu sahədə, təəssüf ki, keçmiş illərdə çox az iş görübdür. Az iş görülübdür.

Bilirsiniz ki, son zamanlar biz bu sahədə çox böyük tədbirlər həyata keçiririk və hesab edirəm ki, onlar yaxşı, müsbət nəticələr veribdir. Təsəvvür edin, Ermənistan Azərbaycana təcavüz edib, Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir. Belə olan halda 1992-ci ilin sentyabr ayında Amerika Birləşmiş Ştatlarının konqresi Azərbaycanı Ermənistanı blokadaya salmaqda günahlandırıb və Azərbaycana kömək göstərilməsini qadağan edibdir. Görürsünüz nə qədər ədalətsizlikdir! Nə qədər böyük ədalətsizlikdir! Bu, 1992-ci ilin sentyabr ayında olmuşdur. Bunu Amerika Birləşmiş Ştatlarının konqresi edibdir. Bu nə deməkdir?

Bilirsiniz, indi münaqişə olan, yaxud ağır iqtisadi vəziyyətdə olan ölkələrə beynəlxalq təşkilatlar da, ayrı-ayrı ölkələr də və xüsusən Amerika Birləşmiş Ştatları da kömək edir. Amerika Birləşmiş Ştatları Ermənistana bilavasitə maddi yardım, maliyyə yardımı göstərir, — bu, dövlət proqramıdır, — Gürcüstana da, Qırğızıstana da, başqalarına da yardım göstərir. Amma Azərbaycana bu yardım qadağan olunubdur. Üç ildir çalışırıq ki, həmin 907-ci maddəni aradan götürək, amma buna nail ola bilmirik. Bilirsiniz ki, mən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla Nyu-Yorkda iki dəfə xüsusi görüşmüşəm — 1994-cü ildə və 1995-ci ildə. Beynəlxalq təşkilatlarda da bizim görüşlərimiz olubdur. Ancaq Nyu-Yorkda bizim çox əsaslı,

ətraflı danışıqlarımız olubdur. Bir-birimizə məktublar yazırıq — mən ona yazıram, o mənə məktub göndərir, bə'ziləri dərc olunur, sizin onlardan mə'lumatınız var. Məsələn, o hər dəfə e'tiraf edir, son məktubunda da mənə yenə yazıbdır ki, Amerika hökuməti və şəxsən prezident 907-ci maddənin Azərbaycana tətbiq olunmasının əleyhinədir və onu götürmək istəyir. Ancaq buna nail ola bilmir. Çünki konqresdə erməni diasporunun gücü, tə'siri o qədərdir ki, onu edə bilmir. İndi biz bu 907-ci maddəni aradan götürməyə çalışdığımız bir zamanda, bir-iki ay bundan öncə, bilirsiniz ki, konqresmen Porter erməni diasporunun tə'siri altında konqresə bir əlavə veribdir. O əlavə bizə qarşı olan embarqonu, o qadağanı götürmür, ancaq orada bir fırıldaq işlədirlər ki, Amerikada bə'zi təşkilatlara, qeyri-dövlət təşkilatlarına icazə verilsin ki, Azərbaycana kömək edilsin və Dağlıq Qarabağa da kömək edilsin.

Bilirsiniz, bu o deməkdir ki, Dağlıq Qarabağ bilavasitə kömək alacaq. Halbuki Dağlıq Qarabağ Azərbaycanın tərkibindədir və heç bir beynəlxalq təşkilat, heç bir dövlət, o cümlədən Amerika Birləşmiş Ştatları Dağlıq Qarabağı müstəqil bir qurum kimi tanımır. Amma belə bir fırıldaq işlədib, konqresmen Porter tərəfindən bunu gətirib ortaya çıxarıblar. İki aydır biz bununla mübarizə aparırıq.

Amerikanın prezidenti cənab Bill Klintona mən məktub yazdım və Azərbaycan tərəfinin fikrini çox ciddi olaraq bildirdim ki, əgər bu belə olarsa biz ümumiyyətlə, Amerikanın hər hansı humanitar təşkilatının Azərbaycana yardımından imtina edəcəyik. Cavab almışam ki, Amerika hökuməti və şəxsən prezident çalışır ki, bu Porter əlavəsi qəbul olunmasın. Nəhayət, bir həftə bundan öncə senat Porter əlavəsini qəbul etməyibdir. Amma eyni zamanda senatla konqres arasında bir uzlaşdırma komissiyası yaradıblar. İndi iki gündür biz gecə saat 2-yə, 3-ə qədər Vaşinqtonla əlaqə saxlayırıq ki, görək o uzlaşdırma komissiyası nəyə gətirib çıxarıbdır. Dünən gecə saat 2-də mənə dedilər ki, hələ bir nəticə yoxdur.

Görürsünüz, bu işlər, — bunu geniş yaymaq bəlkə də lazım deyil, indi mən bunu sizə qısa deyirəm, — bu tədbirlər, bu cəhdlər sizə mə'lum deyil. Amma nə qədər mürəkkəb məsələlər var. Ermənilərin, Ermənistanın həm Amerika Birləşmiş Ştatlarında, həm Avropada, başqa ölkələrdə diasporu o qədər güclüdür ki, dövlət orqanlarına, dövlət başçılarına, hökumət başçılarına, cürbəcür təşkilatlara o qədər tə'sir edirlər ki, bunun qarşısında durmaq üçün və onların hərəkətlərini dəf etmək üçün son dərəcə inandırıcı siyasət aparmaq lazımdır və inandırmaq lazımdır ki, Azərbaycana qarşı belə ədalətsizlik var.

Bunlar hamısı məsələnin sülh yolu ilə həll olunması ilə əlaqədar Azərbaycanın apardığı işlərin, o proseslərin bir hissəsidir. Bunu sizə



çatdıraraq, mən bildirmək istəyirəm ki, bunlar üçün nə qədər vaxt sərf olunur. Vaxtdan başqa nə qədər də fikir, ağıl, zəka da sərf eləmək lazımdır. Onu deyə bilərəm ki, son illər bizim apardığımız bu tədbirlər nəticəsində dünyanın böyük ölkələrində, beynəlxalq təşkilatlarında Azərbaycanın haqq işi qəbul olunur, yəni Azərbaycana qarşı ədalətsizlik artıq e'tiraf olunur. Azərbaycanın haqqı artıq e'tiraf olunur. Və bizim Amerikada heç bir diasporumuz olmadığa halda, amma Ermənistanın Amerikada bir milyondan artıq ermənisi var, onların də əksəriyyəti zəngin adamlardır və bütün sahələrə tə'sir eləyirlər, — belə olduğu halda biz orada, Amerika Birləşmiş Ştatlarının parlamentində bərabər səviyyədə mübarizə aparıb, öz hüquqlarımızı qoruya biliriksə, bunun özü bizim işlərimizdə, siyasətimizdə — sülhsevər siyasətimizdə, ümumiyyətlə siyasətimizdə nə qədər böyük nailiyyətdir.

Amma iş burasındadır ki, bu məsələlərlə 1988-ci ildən əvvəldən də məşğul olmaq lazım idi. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı təcavüz təhlükəsi yaranan zaman bu məsələlərlə məşğul olmaq lazım idi, bunların qarşısı alınmalı idi. Bilirsiniz, bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır. Amma təəssüf ki, həmin illərdə bu işlər görülməyibdir, indi isə məsələ dərinləşib, mürəkkəbləşib və biz bunu çətin yollarla gedərək həll etməyə çalışırıq. Və əminəm ki, biz bu məsələni sülh yolu ilə həll edəcəyik.

Bir həqiqəti də bildirmək lazımdır. Ermənistanla Azərbaycan qonşu ölkələrdir. Mən dəfələrlə Ermənistanın rəhbərlərinə, xüsusən Ermənistanın prezidenti ilə vaxtaşırı görüşərkən ona deyirəm və dünyanın başqa dövlətlərinin başçılarına da deyirəm — heç kəs düşünməsin ki, Ermənistanla Azərbaycan arasında daim düşmənçilik münasibətləri olmalıdır. Belə ola bilməz ki, qonşu ölkələr daim düşmən olsunlar. Avropada nə qədər ölkələr bir-biri ilə müharibə aparıblar. İkinci dünya müharibəsi, Sovetlər İttifaqı ilə, Rusiya ilə Almaniya arasında müharibə bir onlarda yox, başqa ölkələrdə də nə qədər böyük faciələrə gətirib çıxardı. İndi Almaniya ilə Rusiya arasında yaxın dostluq, əməkdaşlıq əlaqələri var. Bu, təbiidir. Avropanın başqa ölkələrini götürün. Fransa ilə İngiltərəni götürün. Fransa ilə Almaniyanı götürün, başqa ölkələri götürün. İllərlə, on illərlə müharibə aparıblar, yüz il müharibə aparıblar. Ancaq yenə də sülhlə qurtarıblar və sülh şəraitində də yaşayırlar. Mən bunu bu gün həm sizin üçün deyirəm, həm bizim ictimaiyyət üçün deyirəm. Həm də bir daha Ermənistan üçün deyirəm ki, daim düşmənçilik ola bilməz. Bir-biri ilə həmsərhəd olan ölkələr, qonşu olan ölkələr daim ziddiyyətli vəziyyətdə yaşaya bilməzlər. Hər bir müharibənin, hər bir düşmənçiliyin sonu sülh olacaqdır, sonu barışıq olacaqdır. Keçmişdə də — burada bu gün deyildi, — hadisələr olmuşdur, sonra xalqlar barışmışdır, əlaqələr normallaşmışdır. Mən hesab edirəm ki, belə də

olacaqdır. Belə də olacaqdır! Bizə nə qədər böyük zərbələr dəyibsə də, nə qədər böyük itkilərimiz olubsa da, biz müstəqil dövlət kimi ətrafımızda olan ölkələrin hamısı ilə sülh şəraitində yaşamalıyıq. Sülh münasibətləri, qarşılıqlı faydalı münasibətlər, əməkdaşlıq münasibətləri şəraitində yaşamalıyıq. Və bu günlər də gəlib çatacaqdır.

Mən sizi və heç kəsi pasifizmə də'vət etmirəm. Əksinə, mən sizi də, Azərbaycanın bütün vətəndaşlarını da milli vətənpərvərlik ruhuna, milli döyüşkənlik ruhuna və torpaqlarımızın nəyin bahasına olursa-olsun azad olunması fikri ilə yaşamağa də'vət edirəm. Amma eyni zamanda istəyirəm ki, dünyanın inkişaf prosesini, gələcəyi müəyyən qədər hər kəs görsün.

Məsələn, siz Ağdamda yaşayırdınız. Dağlıq Qarabağda ermənilərlə dostluq edirdiniz. Nə qədər toylara gedirdiniz, nə qədər kirvəniz var idi.

**Sara Qədimova** (xalq artisti): Orada da gedib konsertlər verirdik.

**Heydər Əliyev:** Nə qədər bizim gənclər gedib erməni qızlarını alırdılar və evlənirdilər. Ağdamda xüsusən çox olubdur. Elədirmi? Bilirsiniz. Ermənistanla Azərbaycan arasında bu müharibə başlayandan sonra bizim ictimaiyyətdə belə fikir olub ki, filankəsin arvadı ermənidir, bu pis adamdır. İndi nə etmək lazımdır ki, onun arvadı ermənidir? Deyirlər Azərbaycanda təxminən 30 minə qədər ailədə — bilmirəm, düzdür, düz deyil — erməni qadın yaşayır. Ailənin kişisi azərbaycanlıdır, qadını ermənidir. Bunlardan olan uşaqların nə günahı var? Heç bir günahı yoxdur. Amma son zamanlar yaranmış şəraitdə bunlara qarşı da mənfi münasibət var. Bilirsiniz, bunlar çox incə məsələlərdir. Heç kəsi günahlandırmaq olmaz ki, o nə üçün 10 il, 15 il, 20 il bundan qabaq erməni qızı ilə ailə qurubdur. Heç kəsi günahlandırmaq olmaz və bu gün belə ailələrə mənfi münasibət göstərmək də olmaz. Ancaq bir şey ola bilər ki, Azərbaycanda yaşayan, azərbaycanlı ailələrin üzvləri olan erməni millətinə mənsub adamlar bu müharibənin bundan sonra qarşısının alınması üçün, sülh yaranması üçün səslərini qaldıra bilərlər. Mənə elə gəlir ki, ağdamlılardan da beləlpri var. Bu barədə düşünmək lazımdır.

Demək istəyirəm ki, bizim sülhsevər siyasətimiz həm bu günə, həm də gələcəyə yönəldilibdir. Gələcəkdə ölkələr bir-birinə daha açıq münasibət göstərəcək, açıq əlaqələr saxlayacaqlar. Qafqazdakı ölkələr bir-biri ilə daha sıx əlaqədə olacaqlar. Biz müstəqilliyimizi qorumalıyıq, müstəqil dövlət kimi yaşamalıyıq. Amma eyni zamanda düşünməliyik ki, gələcək nəsillər hansı şəraitdə yaşayacaqlar. Onlar sülh və əmin-amanlıq şəraitində yaşamalıdırlar və biz elə etməliyik ki, daha müharibə olmasın. Şübhəsiz, o şərtlə ki, Azərbaycanın ərazi bütövlüyü tə'min olunsun, işğal edilmiş torpaqlarımız azad olunsun. Azərbaycanın sərhədləri bərpa edilsin, sərhədlərin toxunulmazlığı tə'min olunsun.

Mən bu fürsətdən istifadə edib bir neçə məsələ haqqında sizə mə'lumat vermək və bə'zi fikirlərimi, mülahizələrimi sizə çatdırmaq



istəyirəm. Bilirsiniz, son illər yaranmış şəraitdə mənim indi dediyim bu söz bəlkə də bə'zilərinə müəyyən qədər təəccüblü gəlsin ki, nə təhər ola bilər erməni arvadı, yaxud uşağı? Amma bu həqiqətdir, bu reallıqdır. Bu reallığı unutmaq lazım deyil. Bu reallığı nəzərə almaq lazımdır və Ermənistan tərəfi də bu reallığı nəzərə almalıdır. Ermənistan tərəfi də bilməlidir ki, — mən bunu onlara dəfələrlə demişəm, — onlar zorla, güclə heç bir şey edə bilməzlər. Onlar məcburdurlar ki, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etsinlər. Onlar məcburdurlar ki, məsələnin sülh ilə həll olunması yoluna gəlsinlər. Mən təklifimi vermişəm ki, belə olan şəraitdə, Azərbaycanın işğal olunmuş bütün əraziləri azad edilən şəraitdə, o cümlədən Dağlıq Qarabağda azərbaycanlıların yaşamış olduğu şəhərlər və məntəqələrə azərbaycanlıların qaytarılması imkanı yarandığı bir şəraitdə Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət statusu vermək mümkündür, — bunu mən dəfələrlə demişəm, bu gün bir daha təsdiq edirəm, — ən yüksək muxtariyyət statusu vermək mümkündür.

Bu yol daha doğru, daha real, daha düzgün yoldur. Kimsə hesab edirdi ki, Dağlıq Qarabağı tamamilə ləğv edəcəyik, Yaxud Dağlıq Qarabağı məhv edəcəyik, yaxud da ki, orada yaşayan bütün erməniləri qıracağıq — bu fikirlər əvvəldən də düz olmayıbdır, bu gün də düz deyil. Biz sadəcə, işğal olunmuş torpaqlarımızı azad etməliyik, bütün ərazilərdə, o cümlədən Dağlıq Qarabağın ərazisində azərbaycanlılar yaşamış yerlərə azərbaycanlıların qayıtmasını tə'min etməliyik və Ermənistanla sülh münasibətləri yaratmalıyıq. Yaratmalıyıq o şərtlə ki, işğal olunmuş torpaqlarımız azad edilsin.

Ağdamlıların bu gün söylədikləri sözlər, fikirlər onu göstərir ki, hamının bir arzusu var: işğal olunmuş torpaqlar tezliklə azad edilsin və vətəndaşlarımız öz yerinə-yurduna qayıtsın. Ağdamlılar da Ağdama qayıtsınlar. İşğal olunmuş hər bir torpaq bizim üçün əzizdir: Laçın da, Şuşa da, Kəlbəcər də, Ağdam da, Xocalı da, Füzuli də, Cəbrayıl da, Qubadlı da, Zəngilan da — hamısı əzizdir. Ümumiyyətlə, Azərbaycanın hər bir nöqtəsi hər bir azərbaycanlı üçün vətəndir, hər bir azərbaycanlı üçün əzizdir. Burada doğru deyildi, — heç vaxt düşünmək lazım deyil ki, kim haralıdır. Biz hamımız azərbaycanlıyıq, hamımız bir millətik. Hamımızın bir dilimiz — Azərbaycan dilimiz var, hamımız bir dinə mənsubuq, hamımız bir millətin övladlarıyıq. Və biz müstəqilliyimizi tə'min etmək üçün, ölkəmizi dirçəltmək, yaşatmaq üçün, xalqımızı dünya xalqları içərisində layiqli səviyyəyə qaldırmaq üçün bir-birimizə daha çox dayaq olmalıyıq, daha sıx birləşməliyik.

1993-cü ilin may—iyun aylarında Azərbaycan böyük təhlükə qarşısında oldu. Azərbaycan artıq parçalanırdı və parçalanmışdı. Gəncə bölgəsi Azərbaycan dövlətinin tabeliyindən çıxmışdı, cənub — Lənkəran zonası artıq Azərbaycanın tabeliyindən çıxmışdı, şimal

zonasında cürbəcür separatçı qüvvələr hərəkətə başlayırdılar. Azərbaycan artıq dağılırdı. Biz bunun qarşısını aldıq. Amma xalqı birləşdirmək lazım idi. Biz xalqı birləşdirə bildik. Xalq birləşdi və təsəvvür edin, biz nə qədər böyük təhlükələrdən qurtardıq.

1993-cü ilin iyun ayını xatirinizə salın. Bakı, Azərbaycan, o cümlədən Ağdam nə vəziyyətdə idi? 1993-cü ilin son aylarını xatirinizə salın. "Talış-Muğan Respublikası"nın yaranması və orada aparılan proseslər Azərbaycanı nə qədər böyük təhlükə altına qoymuşdu! Yaxud, bizim şimal zonasında cürbəcür separatçı qüvvələr baş qaldırmışdılar. Gəncədən qalxan quldur dəstələri gəlib Azərbaycanın hər yerində hakimiyyəti öz əlinə almışdı. İndi təsəvvür edin, Ağdamda — siz burada danışdınız, Yura—Rəsul Süleymanov adında bir adam gəlib ağdamlıları yığıb dedi ki, mən burada hakimiyyəti dəyişirəm, siz də bunun qarşısında heç bir şey eləyə bilmədiniz. Çünki top, tüfəng, sursat onların əlində idi. Bu, bir Ağdam rayonunda deyildi, hər yerdə idi. Bütün başqa rayonlarda — Mingəçevirdə də, Əli Bayramlıda da belə etmişdilər. Hamısında etmişdilər. Özbaşınalıq, hərc-mərclik yaranmışdı. Quldurlar gəlib Azərbaycana hakim olmaq istəyirdilər. Nə bəlalardan çıxdı Azərbaycan!

Azərbaycanı bu bəlalara gətirib çıxaran adamlar haqqında, o hakimiyyətin haqqında, yüksək vəzifədə olmuş o adamlar haqqında siz burada çox haqlı danışdınız, doğru danışdınız, düzgün danışdınız. Lazımdır ki, bundan hamı özü üçün nəticə çıxarsın. Təəssüflər olsun ki, bunların bə'ziləri hələ özləri üçün nəticə çıxarmayıblar, bə'ziləri Azərbaycandan kənarda cürbəcür hərəkətlərlə məşğuldurlar, bə'ziləri də Azərbaycanın daxilində bu sərbəstlik, demokratiya, siyasi plüralizm yaranmasından, bütün bu demokratik prinsiplərin bərqərar olmasından istifadə edərək cürbəcür yaramaz işlərlə və yaramaz təbliğatla məşğuldurlar.

Bu təbliğat heç bir şey verməz. Əgər onlar hakimiyyətdə olduğu zaman hakimiyyəti saxlaya bilməyiblərsə və Azərbaycanı belə fəlakətli vəziyyətə gətirib çıxarıblarsa, bu gün onların heç birisinin danışmağa haqqı yoxdur. Əksinə, onlar o dövrdə Azərbaycanın başına gətirdikləri bu bəlalara görə məs'uliyyət daşımalıdırlar. Xalq qarşısında məs'uliyyət daşımalıdırlar! Bunların haqqı yoxdur.

Burada professor Göyüşov məsələ qaldırdı ki, təbliğat işini gücləndirmək lazımdır. Bəli, mən bununla razıyam. Təbliğat işini gücləndirmək lazımdır — o mə'nada ki, insanlar həqiqəti bilsinlər. İnsanlar həqiqəti bilsinlər! İnsanlar Azərbaycanın bugünkü reallığını bilsinlər və ayrı-ayrı adamlar insanların beynini korlayıb onları pis vola cəlb etməsinlər. Məsələn, burada ağdamlı Faiq Baxşəliyev haqqında danışdınız. Nə qədər orada xəyanət edibdir! Amma onun xəyanətləri cəzasız qalıbdır. 1995-ci ilin mart hadisələrində gəlib burada iştirak etmişdir. Ondan sonra da yenə Ağdamda yaşayırdı, cəzasız qalmışdı. Nəhayət, sonra, bəli, prezidentin təyyarəsinin raketlə vurulması haqqında mə'lumat alınanda, onun qarşısı alınandan sonra,



adamlar həbs ediləndən sonra müəyyən olundu ki, həmin adam bu terror aktının da, bu terror cəhdlərinin də iştirakçısıdır. Görürsünüz, hələ bizim içərimizdə belə adamlar var, bu adamları aşkara çıxarmaq lazımdır, bu adamlar bizim cəmiyyəti zibilləyirlər, cəmiyyətimizi zəhərləyirlər, insanların beynini zəhərləyirlər, əxlaqını zəhərləyirlər. Cəmiyyətimizi sağlamlaşdırmaq lazımdır, cəmiyyətimizi Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı, milli ən'ənələri prinsipləri əsasında tərbiyə etmək lazımdır və xalqımızı, xüsusən gəncləri bax belə zəhərli tə'sirlərdən xilas etmək lazımdır. Yə'ni imkan verməmək lazım deyil ki, onlar belə zəhərli fikirlərin tə'siri altına düşsünlər. Bunlar da bizim vəzifəmizdir.

Ancaq mən bir daha qayıdıram Azərbaycanın üç il bundan öncə olan vəziyyəti və bugünkü vəziyyəti mövzusuna. Bu gün də olan vəziyyət hələ bizi qane etmir və edə bilməz. Biz inkişaf prosesindəyik, biz dəyişikliklər prosesindəyik. Dəyişikliklər prosesi bundan sonra daha da sür'ətlə gedəcək, iqtisadi islahatlar həyata keçiriləcək, dövlət quruculuğu günü-gündən inkişaf etdiriləcək. Azərbaycanın müstəqil dövləti demokratik prinsiplər əsasında bundan sonra da qurulacaq və inkişaf etdiriləcəkdir. Azərbaycan dünya birliyində özünə layiq yeri günü-gündən daha da müvəffəqiyyətlə tutur. Bu da bizim xalqımızın, dövlətimizin nailiyyətidir.

Ağdamlılara mənim daim xüsusi hörmətim və vaxtilə qayğım olubdur. Burada çıxış edənlərin bə'ziləri söylədilər — 70-ci illərdə mənim burada işlədiyim zaman Ağdama nə qədər çox diqqət göstərilmişdir. Ağdamda nə qədər böyük işlər görülmüşdür — həm şəhərin qurulması, yaradılması, həm qəsəbələrin abadlaşdırılması, həm Ağdamın iqtisadiyyatının inkişaf etdirilməsi baxımından. Ağdamın iqtisadiyyatı o illərdə çox yüksək sür'ətlə inkişaf edirdi. Burada çıxışların birində deyildi ki, doğrudan da Ağdam rayonu o vaxt bizim ən varlı rayonlarımızdan biri idi. İqtisadi cəhətdən çox varlı idi. Çünki Ağdamın çox gözəl torpaqları var, çox gözəl təbiəti var, çox fədakar, zəhmətkeş insanları var. Onlar da, bu torpaqdan, bu təbiətdən istifadə edərək şübhəsiz ki, yüksək nailiyyətlər əldə edirdilər və buna görə də Ağdam Azərbaycanın varlı rayonlarından biri idi.

Amma Ağdamın xüsusiyyətləri təkcə onun maddi cəhətdən varlı olmasından ibarət deyil. Ağdam Azərbaycanın inkişafında çox böyük rol oynamışdır. Ağdamdan olan insanlar Azərbaycanın elmini, mədəniyyətini inkişaf etdirmişlər. Azərbaycanın dövlət orqanlarının yaradılmasında, inkişaf etməsində fəal iştirak etmişlər. Tariximizdə keçən əsrlərdə də Ağdam rayonundan nə qədər dəyərli insanlar olubdur. XX əsrin əvvəllərində də olubdur, elə 70-ci illərdə də olubdur, bu gün də var.

Ona görə də ağdamlılar fəxr edə bilərlər ki, onların belə gözəl bir diyarı var, gözəl bir şəhəri olubdur və bundan sonra ondan da gözəl olacaqdır. Ən böyük nailiyyət də ondan ibarətdir ki, ağdamlılar

çox fədakar, çox zəhmətkeş insanlar olublar və Azərbaycan Respublikasının həyatında daim çox böyük rol oynayıblar. Ağdamlılar təkcə Ağdamda yox, Azərbaycanın bütün rayonlarında böyük-böyük vəzifələrdə işləyiblər. Mütəxəssislərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin bir çoxu Ağdamdan olubdur. Bu da təbiidir, bunu heç kəs yaratmayıbdır, ağdamlılar özləri yaradıblar, ağdamlılar bunu özlərinin ağlı, zəkası, fədakarlığı, zəhmətkeşliyi — məhz bunların nəticəsində əldə ediblər. Bu da həm ağdamlıların sərvətidir, həm də bütün Azərbaycan xalqının sərvətidir.

Ümumiyyətlə, mənim Azərbaycanın hər yerinə eyni münasibətim olubdur. Mən heç vaxt seçə bilmərəm ki, bu, mənim üçün çox sevimlidir, yaxud bu, az sevimlidir. Təsəvvür edin, 27 il bundan öncə mən Azərbaycanın rəhbəri seçilmişəm. Bu 27 ildə həyatım Azərbaycanın bütün qayğıları ilə bağlı olubdur. Ona görə də mənim üçün heç vaxt ögey-doğma olmayıbdır. Mənim üçün necə ki, öz övladlarım eyni dərəcədə sevimlidir, Azərbaycanın hər bir guşəsi də eyni dərəcədə sevimlidir, eyni dərəcədə əzizdir və onlara eyni dərəcədə hörmət edirəm.

**Yerdən səs:** Çox sağ olun!

**Heydər Əliyev:** O cümlədən ağdamlılara xüsusi hörmətimi, ehtiramımı bu gün bir daha bildirirəm.

**Yerdən səslər:** Sağ olun.

**Heydər Əliyev:** Sizin çıxışlarınızda mənim haqqımda həddindən artıq çox yüksək fikirlərinizə görə təşəkkür edirəm və güman edirəm ki, bunlar ürəkdən gələn səmimi sözlərdir. Mən çalışacağam ki, öz həyatımda, öz işimdə sizin dediyiniz bu sözlərə bundan sonra da layiq olum.

**Yerdən:** Çox sağ olun! Sağ olun!

**Heydər Əliyev:** Mən bugünkü görüşümüzdən çox məmnun olduğumu bildirirəm. Bir yerdə çox oturduq, çox danışdıq və görürəm ki, hamınız mənim kimi dözümlüsünüz. Çünki, bilirsiniz, burada gedən söhbət hər birimiz üçün yüksək dərəcədə vacib söhbətdir. Ona görə belə bir söhbət zamanı heç kəs nə yorula bilər, nə də narahat ola bilər. Elədirmi? Mən görürəm ki, siz elə vəziyyətdəsiniz ki, bundan sonra 1—2—3 saat da söhbət aparmaq olar. Ancaq güman edirəm ki, gəlin bununla qurtaraq. Bir daha sizin hamınızı Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü naminə, Azərbaycan xalqının milli azadlığının qorunması naminə birliyə də'vət edirəm, həmrə'yliyə də'vət edirəm. Əmin olun ki, mən bu birliyi, bu həmrə'yliyi möhkəmləndirmək üçün, gücləndirmək üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm. Sağ olun.



# FÜZULİ, CƏBRAYIL, QUBADLI



Əsas məqsədimiz işğal olunmuş torpaqları azad etməkdən ibarətdir və bu sahədə indiyə qədər görülən işlər bu torpaqların sülh yolu ilə azad olunması üçün əsas yaradıbdır. Bu da bizim əldə etdiyimiz müsbət nəticələrdir. Bəli, məqsədimiz Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Azərbaycan heç bir ölkənin tə'siri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin əsas ana xəttidir. Bunun üçün də hamı birləşməlidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur.

***HEYDƏR ƏLİYEV***



# FÜZULİ, CƏBRAYIL, QUBADLI

**FÜZULİ, CƏBRAYIL VƏ QUBADLI RAYONIARININ ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİNİN ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR FÜZULİ, CƏBRAYIL VƏ QUBADLI RAYONLARI İCTİMAİYYƏTİNİN ŃÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ.**

*Prezident sarayı, 7 sentyabr 1996-cı il .*

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN giriş sözü

Hörmətli görüş iştirakçıları, bacılar və qardaşlar!
Hörmətli füzulilər, cəbrayıllılar, qubadlılar!

Füzuli, Cəbrayıl, Qubadlı rayonları Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində işğal edildikdən sonra sizin rayonların sakinləri üç ildir ki, Azərbaycanın digər yaşayış məntəqələrində — şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə müvəqqəti olaraq yerləşiblər, bir qismi binalarda, bir qismi çadırlarda yaşayır. Ancaq mə'lumdur ki, yerindən-yurdundan didərgin düşmüş, var-yoxunu itirmiş insanlar ağır şəraitdə — həm mə'nəvi, həm də maddi çətinliklər içərisində yaşayırlar.

Bilirsiniz ki, bütün bu illər ərzində biz — Azərbaycan dövləti, hökuməti Ermənistanın təcavüzü nəticəsində doğma yurdundan zorla çıxarılmış vətəndaşlarımızın, o cümlədən Füzuli, Cəbrayıl, Qubadlı rayonları sakinlərinin məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini-yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir. Bu, respublikamıza, xalqımıza qarşı olan təcavüzün və başımıza gələn bəlaların, faciələrin nəticəsidir.

Birinci növbədə, işğal edilmiş rayonların azad edilməsinə nail olmaq və həmin rayonlardan didərgin düşmüş Azərbaycan vətəndaşlarının öz doğma yerlərinə qayıtması üçün biz bütün sə'ylərimizdən istifadə edirik və bundan sonra da istifadə edəcəyik. Bu işlərlə bərabər, yerini-yurdunu itirmiş hər bir Azərbaycan vətəndaşının yaşayışına, həyatına qayğı göstərmək üçün biz bu gün də çalışırıq, bundan sonra da çalışacağıq.

Sizin — Füzuli, Cəbrayıl, Qubadlı rayonları vətəndaşlarının indiki vəziyyəti haqqında bilavasitə mə'lumat almaq, dərdlərinizi,

problemlərinizi daha yaxından bilmək üçün mən sizi, yə'ni bu üç rayonun nümayəndələrini görüşə də'vət etmişəm. Bugünkü vəziyyət və keçmiş illərdə olmuş proseslər haqqında, şübhəsiz ki, sizdən fikirlər, mülahizələr gözləyirəm. Hesab edirəm ki, belə bir görüş birinci növbədə bizim ümumi birliyimizi, həmrə'yliyimizi tə'min etmək üçün və Azərbaycanın Ermənistan silahlı qüvvələrinin təcavüzündən xilas edilməsi, eyni zamanda, bugünkü cari məsələlərin həll edilməsi üçün də əhəmiyyətli olacaqdır.

Bu görüş bu gün məhz bu məqsədlə təşkil olunubdur. Mən hesab edirəm ki, bu gün burada açıq, səmimi söhbət aparmalıyıq. Heç kəs heç nədən çəkinməsin və utanmasın. Biz hər bir şeyi, hər bir tədbiri, fikrimizi, sözümüzü hər zaman aşkarlıq şəraitində həyata keçiririk, deyirik. Mən istərdim ki, bu gün də bu şəraitdə səmimi söhbətimiz olsun. Bu söhbətin daha mütəşəkkil keçməsi üçün, ola bilər, əvvəlcə rayon icra hakimiyyəti başçılarını dinləyək, sonra isə buraya də'vət olunanların hər biri çıxış edib, şübhəsiz ki, öz istədiyi sözləri deyə bilərlər.



### Füzuli rayon
### İcra Hakimiyyətinin başçısı
### NƏBİ MUXTAROVUN
### çıxışı

Möhtərəm cənab Prezident!

Mən də, həmkarlarım da, işğala mə'ruz qalmış rayonumuzun bugünkü görüşə gəlmiş digər nümayəndələri də böyük həyəcan içərisindəyik. Ona görə həyəcanlanmışıq ki, işinizin çoxluğuna, gərginliyinə baxmayaraq vaxt tapıb bizimlə, işğala mə'ruz qalmış rayonların nümayəndələri ilə görüşürsünüz, dərdlərimizə şərik olursunuz, bizə təsəlli verirsiniz, öz müdrik məsləhətlərinizlə bizə vəziyyətdən çıxmaq üçün yol göstərirsiniz. Rayonumuzun əhalisi adından, Bakıda yaşayan ziyalılarımız adından mən Sizə minnətdarlığımı bildirirəm, cansağlığı arzulayıram.

Möhtərəm cənab Prezident!

Füzuli rayonunun işğal edilməsi səbəblərini təhlil etməmişdən əvvəl mən bir məsələni görüş iştirakçılarına olduğu kimi çatdırmaq istəyirəm. Vaxtilə Azərbaycanın Milli Məclisində çıxış edərkən Siz SSRİ dağıldıqdan sonra müttəfiq respublikaların hər birinin dövlət kimi hansı şəraitdə müstəqil yaşaya bilməsi və ordu quruculuğuna mütləq fikir verilməsi barədə böyük konsepsiya irəli sürmüşdünüz. Lakin çox təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərliyi, xüsusən Ayaz Mütəllibov bu konsepsiyada olan dəyərli fikirlərə məhəl qoymamış və ordunun yaradılmasına imkan verməmişdir. Onların belə bir ideyası olmuşdur ki, kiçik dövlət kimi Azərbaycan, guya hansısa böyük bir dövlətin qəyyumluğunda yaşaya bilər və həmin böyük dövlətin ordusu onu müdafiə edər. Qarabağda — Xocalıda və onlarca kənddə baş vermiş soyqırımı da məhz bu siyasi korluğun nəticəsi olmuş və Azərbaycan əhalisinə böyük ziyan dəymişdir.

Sizin uzaqgörənliyiniz, müdrikliyiniz nəticə e'tibarilə təsdiq edildi. Təsdiq edildi ki, Ayaz Mütəllibov siyasi cəhətdən kor olmuş və uzağı

görə bilməmişdir. Nəticədə də Azərbaycan Qarabağ bölgəsini itirmək təhlükəsi qarşısında qalmışdır. Füzuli rayonunun və onunla qonşu olan rayonların işğalı məhz milli ordunun təşəkkül tapmaması, ölkədə ordu quruculuğunun olmaması nəticəsində baş vermişdir və biz işğala mə'ruz qalmışıq.

Möhtərəm cənab Prezident!

Sizin müdrik siyasətiniz sayəsində bu gün rayonun vaxtilə işğal olunmuş ərazilərinə qayıtmış və respublikanın 44-dən çox şəhər və rayonunda məskunlaşmış füzulilər illər keçdikcə ötən günləri dönə-dönə xatırlayır, hadisələri saf-çürük edir, Qarabağın, xüsusilə Füzuli rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmasının səbəblərini aydınlaşdırmağa, hətta ən kiçik detalları belə araşdırmağa, ümumi bir nəticəyə gəlməyə çalışırlar. Füzuli təxribatın, başsız rəhbərlərin səbatsız, məsləksiz mövqelərinin, tamahlarının qurbanı olmuşdur.

Bu da bir həqiqətdir ki, Qarabağ problemi düşünülmüş müəyyən ssenari əsasında inkişaf edərək, planauyğun şəkildə həyata keçirilmiş bir faciə idi. Yalnız və yalnız dünya siyasətinin korifeylərindən biri olan möhtərəm Prezidentimiz Heydər Əliyev cənabları kimi bir sərkərdə bu faciənin qarşısını çox böyük qəhrəmanlıqla ala bildi.

Zaman keçdikcə bütün xalq bu gerçəkliyi aydın dərk edir. Aydın dərk edir ki, bu faciənin qarşısı alınmasaydı nəticə e'tibarilə Azərbaycan parçalanacaq, dövlətçiliyimiz süqut edəcəkdi.

Füzuli rayonunun işğal edilməsinin əsl günahkarlarını üzə çıxarmaq, baş vermiş faciənin yaranmasının əsl səbəblərini araşdırmaq, bu hadisəyə siyasi qiymət vermək üçün rayon icra hakimiyyəti 30 nəfərdən ibarət komissiya yaratmışdır. Komissiya üzvləri bir neçə ayın içərisində yüz min nəfərlik əhalinin fikrini ifadə edən rə'ylərini, mülahizələrini, hüquq-mühafizə orqanlarının rəsmi sənədlərini və fikirlərini ümumiləşdirərək konkret və dəqiq rə'yə gəlmişlər. Siyasi rə"y belədir: Ara qarışdıran, təxribat aparan, işi pozmağa çalışan və bu hadisələrdən şəxsi mənafe güdən ayrı-ayrı adamlar istisna olmaqla, bütövlükdə füzulilər qəhrəmanlıqla vuruşmuş, min nəfərdən çox itki, şəhid, girov vermiş, 1500 nəfərə qədər adam şikəst olmuş, 5 mindən artıq gənc ordu sıralarında düşmənə qarşı vuruşmuşdur. Ərazidəki döyüşlərdə 8 nəfər Milli Qəhrəman adına layiq görülmüşdür ki, onların da 6 nəfəri füzulilidir. Ümumiyyətlə Azərbaycanın 2500 nəfərdən çox mərd oğlu Füzuli rayonunun ərazisində Ermənistan silahlı qüvvələrinə qarşı döyüşlərdə qəhrəmanlıqla vuruşmuş, öz həyatlarını qurban vermişdir. Bunların da 800 nəfəri füzulilidir.

Füzuli rayonunun işğalı məhz respublikada o vaxt baş vermiş hadisələrin davamı olan təxribatın, mütəşəkkil olmayan ordunun səriştəsiz fəaliyyətini, ayrı-ayrı əsgərlərin igidliyinə baxmayaraq



bütövlükdə bacarıqsız komandirlərin xalqa xidmət etmək əvəzinə, ayrı-ayrı qruplara və partiyalara xidməti üzündən baş vermiş xəyanətin nəticəsi idi. Rayonumuzun işğalı həm də başsız rəhbərlərin səbatsız, məsləksiz mövqelərinin, tamahlarının nəticəsində baş verdi.

Füzuli rayonunun taleyi hadisələrin hələ ilk günlərində həll edilmişdi. 1988-ci ilin fevralındakı Xankəndi hadisələri Qarabağın işğalına bir növ ilk xəbərdarlıq idi. Həmin hadisələrdən az sonra yaradılmış Azərbaycan Xalq Cəbhəsinin rayonumuzda dayaq nöqtələri fəaliyyətə başladı. Rayonda nə qədər narahat, narazı adamlar var idisə, bir neçə ayın içərisində Xalq Cəbhəsinin sıralarında birləşərək, guya, Qarabağın azadlığı uğrunda mübarizəyə qalxdılar. Onların çox məharətlə gizlədilmiş niyyətlərini başa düşməyən sadə, Füzulinin müdafiəsində hətta öz həyatını əsirgəməy təmiz niyyətli adamlar da bunu haqq işi zənn edib bu axına qoşuldular. Əslində isə onlar respublikanın parçalanması, torpaqlarımızın satılması üçün dəridən-qabıqdan çıxan bir qrup xainin, təxribatçının toruna düşüb, belələrinin əllərində alətə çevrilmişdilər.

Həmin vaxtlar Əbdürrəhman Vəzirov respublikada rəhbərliyə yenicə başlamışdı. Hər yerdə olduğu kimi, Füzulidə də özbaşınalıq, hərc-mərclik baş alıb gedirdi. Respublika rəhbərliyindən düzgün istiqamət, göstəriş ala bilməyən rayon rəhbərləri çaşbaş vəziyyətində idi. İş o yerə çatmışdı ki, onlar Xalq Cəbhəsinin natəmiz üzvlərinin əlində alətə çevrilmişdilər. Belə ki, rayon rəhbərləri cəbhəçilərin tapşırığı ilə adamları işdən çıxarır, öz mənafeyinə xidmət edən adamları qabiliyyətindən asılı olmayaraq vəzifəyə tə'yin edirdilər.

Füzuli rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən ilk yaşayış məntəqəsi Yuxarı Veysəlli kəndi olmuşdur. 1992-ci il fevralın 22-də səhərə yaxın Ermənistan silahlı qüvvələri kəndə basqın edərək bir neçə dinc sakini öldürmüş, əhalinin qalan hissəsi isə qarlı bir gündə kəndi tərk etmişdir.

Həmin günlər rayondakı internat məktəbdə, guya, müdafiə üçün yerləşdirilmiş Xüsusi Tə'yinatlı Polis dəstəsinin üzvləri və onların komandiri Rövşən Cavadov nəinki Yuxarı Veysəlli kəndinin müdafiəsinə kömək etmədilər, hətta onları yuxudan vaxtsız oyatdıqları üçün şəhərdə yaşayan Yuxarı Veysəlli kəndinin sakinlərini güllələməklə hədələdilər. O zaman rayonun ərazisində Rövşən Cavadovun rəhbərlik etdiyi XTPD üzvlərindən başqa, bir neçə könüllü batalyon, Müdafiə Nazirliyinin, prezident qfardiyasının əsgərləri, müxtəlif şəxslərə xidmət edən hərbi qruplar da fəaliyyət göstərirdi. Heç bir hərbi təhsili və rütbəsi olmayan Mobil Yusifov, Zahir Həsənov, Qəhrəman Ağayev, Səməd Əbilov, Səfa Əliyev və Bəyalı Qarayev silahlı dəstələr yaradıb, özləri bildiyi kimi hərəkətlər edir, hakimiyyət strukturlarına öz iradələrini diqtə etdirirdilər. Onlar Müdafiə Nazirliyinin batalyon-

ları kimi fəaliyyət göstərsələr də, əslində, heç kimə tabe olmur, istədikləri kimi hərəkət edirdilər.

Yuxarı Veysəlli hadisəsindən 22 gün sonra, martın 16-da səhər saat 11 radələrində ermənilər Füzuli şəhərini "Qard" qurğularından atəşə tutdular. Onsuz da həm rəhbərlikdən, həm də hərbçilərdən əllərini üzmüş şəhər əhalisi ev-eşiklərini yavaş-yavaş tərk etməyə başladı. Həmin vaxtlar füzulilər yerli adamlardan ibarət könüllülər batalyonundan və onun komandiri Telman Hüseynovdan da çox şey gözləyirdilər. Onlar isə Xalq Cəbhəsi liderlərinin rəhbərliyi altında, rayon başçıları ilə bir yerdə tank, top, mərmilər, ümumiyyətlə, hərbi sursat almaq adı altında əhalidən pul toplamaqla vəzifələrini bitmiş hesab etdilər. O vaxtlar toplanmış çox böyük məbləğdə həmin pulların taleyi bu gün də mə'lum deyil. Daha doğrusu, bu pul kimlər tərəfindənsə mənimsənilmişdi.

Sakinlərinin əksəriyyəti öz evlərində yaşamayan şəhərdə talançılıq başlanmışdı. Silah oğurlanması, oğurluq silahlarla əhalini vahiməyə salmaq, talançılıq adi hal almışdı. Getdikcə hadisələr genişlənir, Qarabağda Ermənistan silahlı qüvvələri ilə qarşı-qarşıya durmaq real gerçəklik şəklini alırdı. Belə bir vaxtda polka çevrilmiş özünümüdafiə batalyonuna Alı Quliyev adlı bir nəfər rəhbər tə'yin edildi. Polk komandiri Alı Quliyev bir neçə aylıq xidmətdən sonra heç bir iş görmədən vəzifəsini başa çatdırdı. Alı Quliyevin rayona nə üçün gəldiyi, getdiyi və nəyə görə işləmədiyi, nəhayət Müdafiə Nazirliyində hörmətli bir vəzifəyə göndərildiyi çoxları üçün bu günə qədər də sirdir. Mə'lumat üçün bildiririk ki, Alı Quliyevin Qardaşı Vaqif Quliyev o zaman rayonda Xalq Cəbhəsinin liderlərindən biri olmuşdur.

Belə fəaliyyətsizliyin nəticəsi idi ki, 1992-ci il aprelin 1-nə açılan səhər Hoğa kəndi ermənilərə verildi, Qacar, Gövşadlı, Cuvarlı, Gorazıllı kəndləri və Füzuli şəhəri hər gün top atəşinə tutulurdu. Camaatı aldatmaq, əhalidə yalan təsəvvür yaratmaq üçün, guya, "ermənilərə layiqli cavablar verilir" deyə, bə'zən elə olurdu ki, ermənilər tərəfə, xüsusən Hadrut tərəfə gün ərzində 250—300 top, "Qrad" mərmisi atılırdı. Bə'zi mənbələrə əsasən 1992-ci ildə təkcə keçmiş Hadrut rayonunun mərkəzinə 5 mindən artıq mərmi atılmış, lakin həmin mərmilər yalnız 8—10 binanı yüngülcə zədələmişdir. Halbuki bu sursatı almaq üçün adamlardan xeyli miqdarda pul toplanmışdı.

Xalq Cəbhəsinin liderləri Əbülfəz Elçibəyin, İsa Qəmbərin 1991-ci il mart ayının əvvəllərində, Rəhim Qazıyevin həmin il dekabrın sonlarında və 1992-ci ilin aprelində Füzuli rayonuna gəlməsi və rayon rəhbərləri ilə deyil, ayrı-ayrı cəbhəçilərlə, o vaxt rayonda Xalq Cəbhəsinin lideri olan Mobil Yusifovla, Şakir Abbasovla görüşləri zamanı Füzulinin ermənilərə verilməsinin qarşısını almaq üçün heç bir iş görülmədi.



1992-ci il aprelin əvvəllində Rəhim Qazıyevin, general Şahin Musayevin rayona gəlmələri, Qacar kəndi istiqamətində ermənilərin əvəzinə, ermənilərə hücum edən batalyonlarımızı külli miqdarda pul alaraq atəşə tutdurmaları və onları mövqelərdən çəkindirmələri bu başabəla "xalq rəhbərləri"nin ermənilərə xidmətindən xəbər verirdisə də, əslində, heç kəsi qəflət yuxusundan oyatmadı. Maraqlıdır ki, rayonda olan prezident qvardiyası da gözlənilən nəticəni vermədi. Onlar döyüşmək əvəzinə qarətlə məşğul olur, özlərinə ə'la şərait yaratmağa çalışırdılar. Hərbçilər təkcə bir il ərzində rayonun müxtəlif təşkilatlarından yüzlərlə kondisioner, televizor, xalça, mebel və başqa qiymətli avadanlıq götürmüşlər. Həmin vaxtlarda rayonda Rəhim Qazıyevə və müxtəlif partiya və cəmiyyətlərə xidmət edən, daha doğrusu, onların tapşırığı olmadan döyüşə girməyən hərbçilər də var idi. Onlar bir dəfə də olsun döyüşlərdə iştirak etmirdilər. Yeganə məqsədləri qənimət əldə etməkdən, yuxarıdan gələn və heç kəsə mə'lum olmayan tapşırıqları icra etməkdən ibarət idi.

Həmin "lider"lərin yerlərdə olan mülki adamları isə ara qarışdırmaq üçün canfəşanlıq edir, hərbçilər, əhali arasında müəyyən təbliğatlar aparır, lazım olmayan söz-söhbət yaradırdılar. Rayonu müdafiə etməli olan bu başabəla batalyonlar gecə reydlərinə çıxır, ermənilərlə həmsərhəd kəndləri çapıb-talamaqla məşğul olurdular. Qənimətçilik hissi baş alıb gedirdi. Rayonu hərraca qoymaq istəyən səriştəsiz adamlar həlledici mövqelərə irəli çəkilirdilər. Rayon üçün ən təhqiredici hadisə 1992-ci il iyulun 23-də Əbülfəz Əliyevin fərmanı ilə rayon icra hakimiyyətinin başçısı vəzifəsinə Abbasov Şakir Gurşad oğlunun tə'yin edilməsi oldu. Rayon Xalq Cəbhəsinin sədri kimi tanınan Şakir Abbasov toyxanalarda xanəndəlik, tə'ziyə məclislərində mərsiyəxanlıq edən bir şəxs idi. Respublika rəhbərliyinin onu hansı keyfiyyətinə görə ən nüfuzlu vəzifəyə irəli çəkməsi hamı üçün sirr idi. Qəribədir ki, o işlədiyi beş ay ərzində rayonda rəhbər vəzifədə çalışan 60-a yaxın şəxsi işdən çıxarıb onların yerinə səriştəsiz, qabiliyyəti olmayan adamları tə"yin etmişdi.

Əbülfəz Əliyevin fərmanı ilə Şakir Abbasov gözlənilmədən vəzifədən kənarlaşdırıldı, yerinə ondan daha qabiliyyətsiz, bacarıqsız, rayonda heç kəsin tanımadığı Qasımov Nofəl Rəşid oğlu tə'yin edildi. Şakir Abbasov və Nofəl Qasımov birlikdə Füzuliyə cəmi 11 ay "rəhbərlik" etdilər. Füzulilər istər Şakir Abbasovun, istərsə də Nofəl Qasımovun hakimiyyət kürsüsündə necə oturmalarının səbəblərini araşdırdıqda belə nəticəyə gəlirlər ki, intellektual səviyyəsi yüksək olan Azərbaycan kimi bir ölkəyə Əbülfəz Əliyev kimi səriştəsiz və qabiliyyətsiz adam rəhbərlik edirdisə, onda Şakir Abbasovun və Nofəl Qasımovun rayon "rəhbərləri" olmalarını təbii qəbul etmək olar.

Rayonun taleyi, əslində, Şakir Abbasovla Nofəl Qasımovun

hakimiyyəti dövründə həll olunmuşdu. Həmin dövrdə respublikaya Azərbaycan Xalq Cəbhəsi rəhbərlik edirdi. Elçibəyin səriştəsizliyindən istifadə edən müxtəlif liderlər istədiklərini edirdilər. Əslində, rayonlara hərbi komendantlar, hərbçilər rəhbərlik edirdilər. Bə'zən elə olurdu ki, hərbi komendant, briqada komandiri təsərrüfat rəhbərlərini işdən çıxarır, istədikdə müdirlərin maşınlarını əlindən alır, rüşvət, pay aldıqdan sonra işə bərpa etdirir, maşını qaytarırdılar.

Məsələ belə idi ki, rayon icra hakimiyyətinin həmin dövrdəki başçıları, əslində, özlərinin pozuculuq əməllərini ordu komandirlərinin pozuculuq əməlləri ilə birləşdirir, bütövlükdə birgə dağıdıcılıq sistemi yaradırdılar. Mərkəzdən rəhbərlik pozulmuşdu. Rayonda isə özbaşınalıqlar hökm sürürdü. Bu hərc-mərcliyin nəticəsi idi ki, 1993-cü il aprelin 2-də rayonun Qacar, Aşağı Divanalılar, Gövşadlı, 1993-cü il iyulun 4-də Gorazıllı, Yuxarı Güzlək, Qaradağlı, Qarakollu, Saracıq, Xatınbulaq kəndləri Ermənistan silahlı qüvvələrinin işğalına mə'ruz qaldı.

Füzuli şəhəri demək olar ki, hər gün top atəşinə tutulurdu. Müdafiə işləri başlı-başına buraxılmışdı. Hərbi briqadaya əvvəlcə İsa Qasımov, sonradan Emil Qasımov adlı hərbçilər başçılıq edirdilər. "Başçılıq edirdi" sözləri, əslində, şərtidir. Belə ki, batalyonlar briqada komandirlərinə məhəl qoymur, bildiklərini edir, istədikləri vaxt əməliyyat keçirir, nəticəsiz atışmalar aparırdılar. Komandirlər və əsgərlər arasında fərarilik, soyğunçuluq baş alıb gedirdi.

1992-ci il oktyabrın 9-də Surət Hüseynovun tapşırığı ilə, guya, ermənilərin atəş nöqtəsini susdurmaq üçün havaya hərbi təyyarə qaldırıldı və bu təyyarə düz Füzulinin mərkəzinə gəldi və iki bomba atdı. Birinci bomba partladı, 8 mənzilli iki ev, 15 mülki mənzil dağıdıldı, 5 nəfər həlak oldu. Xoşbəxtlikdən, ikinci bomba partlamadı. Füzulilər Surət Hüseynova irad tutdular ki, sən bu təyyarəni erməniləri, yoxsa Füzulini bombalamağa göndərmişdin? Bu təyyarələri o özü göndərdiyi halda dedi ki, "mənim bundan xəbərim yoxdur".

Məhz Surət Hüseynovun Qacar kəndi istiqamətində mövqelərimizi müdafiə etmək üçün göndərdiyi təyyarələr Yuxarı Yağlıvənd kəndini saat yarım ərzində atəşə tutdu, 181 nəfər adam yaralandı, 9 nəfər öldü. Heç nəyi vecinə almayan Surət Hüseynov isə dedi ki, mənim bundan xəbərim yoxdur. Halbuki təyyarələr də, o zamankı ordu da Surətin xəbəri olmadan, ümumiyyətlə addım atmırdı. Yığılan pullar da şəxsən onun özünə verilirdi. Çox maraqlıdır ki, hər bir təyyarənin havaya qalxması, onun haranı isə bombalaması üçün rayonun vəzifəli adamlarından, hətta çobanlardan belə pul yığılmışdı. Bu pulun da hesabına füzulililərin özlərini bombalayırdılar. Müdafiə xəttini bombalayıb elə vəziyyətə salırdılar ki, Füzuli, necə deyərlər, tam iflic vəziyyətinə düşsün.



Surət Hüseynovun etdiyi hərəkətlərdən sonra danışacağam. Xronoloji olaraq onu demək istəyirəm ki, 1993-cü il aprelin 2-də İsa Qəmbər, Arif Hacıyev, milli təhlükəsizlik nazirinin o vaxtkı müavini Sülhəddin Əkbərov rayona gələrək yaranmış gərgin vəziyyəti aradan qaldırmaq üçün, guya, tədbirlər müəyyənləşdirməyə başladılar. Aprelin 4-də prezident Əbülfəz Elçibəy rayona gəldi. Lakin o, ictimaiyyətin nümayəndələrini qəbul etməyərək, həmin o vaxt oraya gəlmiş Azərbaycan Respublikası Prezidenti İcra Aparatının əfvetmə məsələləri şö'bəsinin müdiri Xanım Xəlilova ilə bu tarixi anda şəkil çəkdirməyi daha məqsədəuyğun saydı.

Füzulililər müdafiə məsələləri ilə əlaqədar respublika rəhbərlərindən dəyərli məsləhətlər, erməniləri ərazilərdən çıxarmaq üçün əməli kömək gözləyirdilər. Lakin bildiyiniz kimi, sabiq prezident Əbülfəz Əliyev buna qadir deyildi. O yalnız Füzuliyə gəlib-qayıtmaqla vəzifəsini bitmiş hesab etdi. Ondan xatirə isə o oldu ki, onların gecə qaldığı otaqdan səhər 40-a qədər boş "Rasputin" arağının butulkasını çölə tökdülər.

1993-cü il iyunun 2-də Hadrut rayonu ilə həmsərhəd olan Gorazıllı kəndində böyük facia baş verdi. Həmin gün kənddə toy idi. Sumqayıt şəhərindən də xeyli qonaq gəlmişdi. Axşamdan xeyli keçmiş, toyun şirin vaxtı Ermənistan silahlı qüvvələri hücum edib toyu dağıtmış, 24 nəfəri girov aparmışdılar. 1993-cü il iyunun 3-də axşamüstü Qarakollu kəndindəki batalyon komandirini əvəz edən Vaqif adlı bir nəfərin yanına Surət Hüseynovun başlarına qara lent bağlamış on nəfərdən ibarət nümayəndələri gəlir. Onlar həmin gecə Hadrut ərazisinə kəşfiyyata gedəcəklərini və bu ərazidən minaları təmizləyəcəklərini bildiriblər. Batalyon komandiri briqada komandiri Heybət Piriyevlə rabitə əlaqəsi saxlayır. Piriyev mə'lumatdan xəbərdar olduğunu bildirir və bu kəşfiyyatçıların əraziyə buraxılması barədə əmr verir. Gecə əməliyyat keçirilir, ərazi minadan təmizlənir. Səhərə yaxın isə minalar təmizlənmiş həmin ərazidən Ermənistan ordusu hücuma keçir.

Rayonun Gorazıllı,Yuxarı Küzlək, Qaradağlı, Qarakollu, Saracıq, Pirəhmədli, Aşağı Küzlək, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən bir neçə saatın içərisində işğal edildi. Təxribatın təşkilatçıları isə bu günədək aşkar edilməmişlər.

Şakir Abbasovun və Nofəl Qasımovun rəhbərliyi dövründəki iri təşkilatlarda, zavodlarda, kommunal müəssisələrində, məktəblərdə, xəstəxanalarda, ticarət obyektlərində və digər idarələrdə olan qiymətli avadanlıq, ərzaq malları, mebellər, kondisionerlər, istehsalat maşınları əsasən çıxarılmış və şəhər maddi cəhətdən boşaldılmışdı. Əgər ermənilər də olmasaydı, cəbhəçilərin və ordunun onlarla birlikdə olan bə'zi hissələrinin pozuculuq əməllərini, talançılığını ört-basdır etmək üçün, boşaldılmış şəhər yandırılmalı idi.

Hadisələrin inkişafı hamını narahat edirdi. Kamran Bağırovun, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Yaqub Məmmədovun səriştəsiz rəhbərliklərindən sonra hakimiyyətə gələn Əbülfəz Əliyev və onun komandası respublikanın taleyini ağır vəziyyətə saldı.

Artıq bütün respublika ictimaiyyəti hadisələrdə dönüş yaradacaq, xalqı düşdüyü ağır fəlakətdən qurtaracaq lideri gözləyirdi. Bu lider tarixin dönə-dönə təsdiq etdiyi şəxsiyyət — Heydər Əliyev cənabları idi. Ona görə də həmin dövrün respublika rəhbərliyi xalqın tə'kidi ilə Heydər Əliyev cənablarını Naxçıvandan Bakıya, respublika Ali Sovetinə Sədr vəzifəsinə də'vət etdi.

Heydər Əliyev cənablarının respublika parlamentinə sədr seçilməsi, əslində, rəmzi mə'na daşıyırdı. Belə ki, rəhbərlik də, xalq da yaxşı başa düşürdü ki, Heydər Əliyevin respublikaya gəlişi Ali Sovetə rəhbərlik etmək üçün deyil, bu böyük şəxsiyyət xalqı düşdüyü bəladan xilas etmək üçün də'vət olunmuşdu. Hadisələrin sonrakı inkişafı bu həqiqəti dönə-dönə təsdiq etdi.

Respublikanı çətin vəziyyətə saldığını başa düşən Əbülfəz Əliyev gözlənilmədən Bakıdan qaçdı. Həmin günlər respublikanın hər yerində olduğu kimi,Füzuli rayonunda da gərginlik son həddə çatmışdı. Artıq hamı bilirdi ki, Füzuli rayonunun taleyi çoxdan həll olunmuşdur. Əvvəlcədən işğala mə'ruz qalmış digər rayonlar kimi Füzuli də hazırlanmış ssenari əsasında süquta doğru gedirdi. Kimlərəsə xidmət edən orduda təxribat, fərarilik davam edirdi. Silah oğurluğu, adam öldürmək, təxribat ordunu elə vəziyyətə salmışdı ki, düşmən qarşısında dayanmaq barədə fikirləşən yox idi.

Təsəvvür edin ki, cəbhəçilərin hakimiyyətdə olduğu dövrdə təxribat nəticəsində rayonun Yuxarı Yağlıvənd kəndindəki hərbi sursat anbarı partladılmışdı. 30-dan çox əsgər həlak olmuşdu. Əsgərlərin postlarda yatmaları nəticəsində Qırmızıbazarla Qacar arasındakı postda 12 nəfər əsgər erməni kəşfiyyatçıları tərəfindən öldürülmüşdü. Ermənilər Aşağı Divanalılar kəndindəki rotadan bir tank götürüb aparmışdılar. Aşağı Divanalılar və Yuxarı Divanalılar kəndləri arasındakı Üçtəpə adlanan yerdə ordu döyüş zamanı on tankdan doqquzunu düşmənə verib geri çəkilmişdi. Bütün bunlar və başqa hallar orduda intizamın olmamasının, təxribatın güclənməsinin nəticəsi idi. Taleyi onsuz da özbaşına buraxılmış, nə yuxarıdan, nə də aşağıdan idarə olunan Füzuli rayonunda hakimiyyətsizlik yaranmışdı. Nofəl Qasımov, əslində, rayona rəhbərlik etmirdi. Tam hakimiyyətsizliyin yaranması və hakimiyyəti hələlik müvəqqəti də olsa kiməsə vermək məsələsi rayon ictimaiyyətini ciddi narahat edirdi.

Elə bir vəziyyət yetişmişdi ki, cəbhəçilərin hakimiyyətinə ümumxalq nifrəti yaranmışdı. Bu nifrətdən istifadə edən Surət Hüseynovun adamları rayon-rayon gəzir, öz tərəfdarlarını silah gücünə vəzifəyə



keçirməyə çalışırdılar. Füzuli rayonunda da belə idi. Surət Hüseynovun rəhbərlik etdiyi yun şirkətinin Füzuli rayonunda olan Yun idarəsində, əslində, böyük cəbbəxana açılmışdı. Yun idarəsinin işçiləri Surət Hüseynovun kadr şö'bəsinin müdiri vəzifəsini ifa edirdilər, yə'ni kimlərləsə əlaqəyə girib pul alıb, Surət Hüseynova verib hansısa bir vəzifəyə qoydurur, kimisə Bakıda yüksək vəzifəyə, kimisə ona müavin tə'yin etdirirdilər. Bax, belə bir vəziyyət yaranmışdı. Həmin cəbbəxanadan ermənilərə qarşı deyil, dinc əhaliyə qarşı, cəbhəçilərin əksinə olan kim varsa onlara qarşı vuruşmaq üçün istifadə olunurdu.

Surət Hüseynov öz tərəfdarlarını hakimiyyət başında oturtmaq istədi, lakin İbişov Kazım Nəbi oğlu adlı birisinin tərəfdarları çox olduğundan o, hakimiyyəti zorla öz əlinə aldı. Rayon əhalisi bu vəziyyəti gördü və əhali arasında düşmənçilik, qan düşməsin deyə, nəhayət, məcburiyyət qarşısında tövsiyə etdilər ki, hələlik rayonu Kazım İbişov idarə etsin. Lakin Kazım İbişov idarəçilikdə çox səriştəsiz və bacarıqsız idi. Yarınan, imkanlı adamlar ona meydan verirdilər. Bu adamlardan bir neçəsi sonralar həbs olundu və öz layiqli cəzalarını aldı. Füzuli camaatı Kazım İbişovun orada oturmasına ona görə razı olmuşdu ki, araya qan düşməsini istəmirdilər. Kazım İbişov da ona göstərilən e'timadı doğrulda bilmədi. O, icra hakimiyyəti başçısının səlahiyyətlərini həyata keçirdiyi iki aya yaxın müddətdə təxribat daha da çoxaldı. Abış Abışovun, İlham Ağalarovun başçılıq etdikləri, Qarakollu istiqamətində yerləşən batalyon xəyanət edərək ərazini tərk etdi, nəticədə iyulun 4-də Ermənistan silahlı qüvvələri Qarakollu istiqamətində yeddi kəndi işğal etdilər.

Şəhərdə yerləşən hərbi briqadanın rəhbərliyi isə kəndlərin bir-birinin ardınca işğal olunduğunu Müdafiə Nazirliyinə, respublika rəhbərliyinə bildirmək istəmir, vəziyyətin hər yerdə yaxşı olduğunu göstərməyə çalışırdı. Surət Hüseynovun rəsmi nümayəndəsi, o zaman qərargah rəisi vəzifəsini icra edən Rasim Muxtarov belə saxta mə'lumat verərək rayon ictimaiyyəti tərəfindən ifşa olunmuşdu. O, rayon ictimaiyyətini ordu vasitəsilə hədələmiş, az qala ordu ilə əhali arasında qarşıdurma yaranmışdı.

Avqustun 5-də Yuxarı Yağlıvənd, Dilağarda, Zərgər kəndləri təxribatın qurbanı oldu. Rayon Mərkəzi Qaraxanbəyli kəndinə köçürüldü. Bu, o vaxtlar idi ki, Kazım İbişov icra hakimiyyəti başçısının səlahiyyətlərini həyata keçirirdi. O, müəyyən adamların özbaşınalığına, sərbəst hərəkətlərinə son qoymur, ona yarınan adamların hərəkətlərinin qarşısını almaq üçün təşəbbüs göstərmirdi. Fəxrəddin Ağayev, Səfa Əliyev, Rüstəm İbişov və başqalarının rayonda yaratdıqları hərc-mərclik və özbaşınalıqlar ictimaiyyətin haqlı narazılığına səbəb olurdu. Yerlərdə özbaşınalıq, təxribat baş alıb gedirdi. Vəziyyəti sabitləşdirmək qeyri-mümkün idi. Xaricdən və daxildən dəstəklənən quldur dəstələri, vətən xainləri bildiklərini edir, xalqın və respublikanın taleyini istədikləri tərəfə çevirirdilər.

1993-cü il avqustun əvvəllərində rayonda Əlikram Hümbətovun əsgərləri göründülər. Xeyli tankın əraziyə gətirilməsi adamlarda müəyyən arxayınçılıq yaratdı. Lakin həmin tanklar Füzuli əhalisinə divan tutmağa başladı. Avqustun 15-16-da Aşağı Əbdürrəhmanlı,Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Gecəgözlü, Mahmudlu kəndlərində Əlikram Hümbətovun tanklarının hücumu, atəş və ölüm halları qeydə alındı.

Avqustun 17-də Aşağı Əbdürrəhmanlı kəndinə daxil olan bir tank atəş aça-aça irəliləmiş, sovxozda iqtisadçı işləyən Fikrət Şükürovun həyətinə daxil olmuşdu. Fikrət Şükürov tankdakı əsgərləri tanımış, çıxıb getməyi onlardan tələb etmişdi. Onlar tanındıqlarını görüb Fikrəti və onun oğlunu öldürmüş, iki qızını girov götürüb, erməni kəndi istiqamətində geri qayıtmışdılar. İki gün ötür, qızlar çox işgəncələrdən sonra qaçıb canlarını qurtarırlar. Həmin vaxt çoxları bunu ermənilərin kəndə hücumu kimi başa düşmüş və kəndi tərk edib qaçmışdılar. Halbuki tankda gələnlər ermənilər yox, Əlikram Hümbətovun adamları idilər.

Əlikram Hümbətovun əsgərlərinin yuxarıda adları çəkilən kəndlərdə evləri yandırdıqlarının, oradan qiymətli əşyalar götürdüklərinin çoxları şahidi olmuşdu. Həmin gün Yuxarı Əbdürrəhmanlı kəndində daha yeddi nəfər öldürülmüşdü. Quldurlar gecələr tanklarla Merdinli, Qaraxanbəyli kəndlərində talanlar edir, bununla da əhalini öz evlərindən didərgin salmağa çalışırdılar.

Avqustun 23-də saat 13-14 radələrində ermənilər rayonun Haramı adlanan hissəsindən Qaraxanbəyli, Alxanlı, Kürdmahmudlu istiqamətlərində hücuma keçdilər. Belə çətin anlarda hərbçilər döyüşmək əvəzinə "Qrad" qurğuları ilə, tanklarla birlikdə kənddən çıxmağa başladılar. Qaraxanbəyli kəndi sakinlərinin dediyinə görə, bir gün əvvəl - avqustun 22-də kənddə olan iki lüləli "Qrad" qurğusu gecə yarısı Haramı düzünə çıxır. Təşviş yaratmaq məqsədilə bir kimsə olmayan həmin yerdən Arazboyu istiqamətinə on bir mərmi atır və bir qədər keçəndən sonra geri qayıdır. Ertəsi gün Qaraxanbəyli, Alxanlı kəndlərinə hücum başlanır. Göründüyü kimi, həmin "Qrad" qurğusundan boş-boşuna atılan mərmilər ermənilərin gəlməsi üçün siqnal rolunu oynamışdır.

Avqustun 23-də Arazboyu kəndlərdə xeyli ev dağıdıldı, yol ilə keçən maşınlar vuruldu, ölənlər və yaralananlar oldu. Ermənilər Əhmədbəyli kəndinin üst hissəsində dayanaraq Araz Dilağarda, Araz Zərgər, Bala Bəhmənli, Mahmudlu-2, Əhmədbəyli kəndlərini atəşə tutur, dinc əhalini vahiməyə salırdılar. Adamlar qorxub kənddən qaçırdılar. Hərbçilər isə düşmənlə vuruşmaq əvəzinə boşalmış kəndlərdə talançılıq və soyğunçuluqla məşğul olurdular. Təxribat davam edirdi. "Yapon" ləqəbli Səfa Əliyev adlı bir batalyon komandiri



alaltıları ilə birlikdə Arazboyu kəndləri gəzir, mal-qaraya və avadanlığa toxunmadan adamlara kənddən çıxmağı tə'kid edir, əks halda onların ermənilərin əlinə keçəcəklərini bildirirdilər. Mə"lumat üçün onu da deyim ki, Səfa Əliyev ədalət məhkəməsi tərəfindən öz layiqli cəzasını almışdır.

Araşdırmalar, ayrı-ayrı adamların mə'lumatları göstərir ki, rayonun müxtəlif kəndlərinin işğalında təxribat böyük rol oynamışdır. Belə qurbanlardan biri də Horadiz kəndi olmuşdur. Xalq Cəbhəsinin bu kənddən olan üzvləri hətta 600 ton taxılın işğal edilən ərazidən çıxarılmasına imkan verməmiş, nəticədə həmin məhsul ermənilərə qalmışdır.

Bütün bu çətinliklərə baxmayaraq Füzuli rayonunun ərazisində oktyabrın 23-dək həyat davam etdi, üzüm yığıldı, şum qaldırıldı, heyvandarlıq işləri normal qaydada aparıldı. Qaçmış ailələrin əksəriyyəti geri qayıtdı. Lakin 1993-cü il oktyabrın 23-dən düşmən qüvvələri qəflətən Araz Yağlıvənd kəndinə daxil olaraq Arazboyu kəndləri mühasirəyə aldı. Heç bir müqavimətə rast gəlməyən Ermənistan silahlı qüvvələri bir gündə 11 kəndi işğal etdilər, beləliklə, əvvəlcədən qurulmuş ssenariyə uyğun olaraq rayonun işğalını başa çatdırdılar.

Ermənistan silahlı qüvvələrinin rayonun Böyük Bəhmənli, Qazaxlar kəndləri istiqamətində hücumu oktyabrın 23-də saat 11 radələrində başlandı. Böyük Bəhmənli, Araz Yağlıvənd, Kərimbəyli, Babı, Arayatılı, Molla Məhərrəmli, Əhmədalılar, Qazaxlar, Mirzənağılı kəndlərinə, Horadiz qəsəbəsinə göydən od yağırdı. Evlər yanır, adamlar arasında ölənlərin və yaralananların sayı artırdı. Mühasirədən çıxmağın çətinliyini görən adamlar İran İslam Respublikasının ərazisinə keçmək üçün yollar axtarırdılar. Hətta özünü Araz çayına atanlar da oldu. Xeyli adam çayda tələf oldu.

Rayon icra hakimiyyəti vəziyyəti sabitləşdirmək üçün tədbirlər görürdü. İran tərəfi ilə razılaşdırılıb sərhəd darvazaları açdırıldı. Adamlar təhlükəsiz olaraq İran tərəfdən İmişli, Biləsuvar rayonlarının ərazisinə keçdilər. Əhalinin bir qismi isə çətinliklə Daşburuna gəldi. Horadiz qəsəbəsində böyük sursat və ərzaq ehtiyatı qaldı. Hərbçilər heç bir müqavimət göstərmədən aradan çıxdılar.

Füzuli rayonunun ən ağır, çətin günləri idi. Noyabr ayında qar, çovğun düşdü. Rayon İcra Hakimiyyəti İmişli şəhərində yerləşirdi. Təsərrüfatlardan böyük əziyyətlə çıxarılmış mal-qara, qoyun-quzu şaxtada, çovğunda tələf olur, qırılırdı. Kənd təsərrüfatı nazirinin keçmiş müavini Xəliyəddin Xəlilov belə çətin vəziyyətdə mal-qaranın qışlaqla tə'min edilməsi üçün ona dəfələrlə olunmuş müraciətlərə məhəl qoymamışdır. İşğal edilmiş ərazidən salamat çıxarılmış mal-qara Xəlilovun günahı üzündən tələf olmuşdur. Sonradan mə'lum olmuşdur

ki, Xəliyəddin Xəlilov Xalq Cəbhəsinin liderlərindəndir və bütün bunları qəsdən etmişdir.

Möhtərəm cənab Prezident!

1993-cü il dekabrın 3-də Siz Füzuli bölgəsinə gəldiniz. Xalq inandığı, e'timad göstərdiyi, atası bildiyi Heydər Əliyev cənablarını bölgədə görəndə sevindi. Sizin gəlişiniz həm də ordunun təşəkkülü üçün dönüş nöqtəsi oldu. Köçkün ailələrə imkan daxilində kömək göstərildi. Sizin hərbçilərlə görüşünüz çox böyük əhəmiyyət kəsb etdi. Həmin görüşün nəticəsi idi ki, yenicə formalaşmağa başlayan Azərbaycan ordusu 1994-cü il yanvarın 5-də və 6-da Füzuli şəhəri istiqamətində güclü əks-hücuma keçdi və rayonun 22 yaşayış məntəqəsini düşməndən azad etdi. Düşmən güclü tələfat verdi. Sizin 1994-cü ilin yazında bölgəyə ikinci gəlişiniz, hərbçilərlə görüşünüz yenicə təşəkkül tapan milli ordunun formalaşmasında əsas dönüş nöqtəsi oldu. Ən ağır anlarda Sizi Füzuli bölgəsində görən əhali isə işğaldan azad olunmuş torpaqlarına böyük inamla qayıtdı. Sizin şəxsi qayğınız nəticəsində geri qayıdan əhalinin həyat şəraiti öz axarına düşməyə başladı.

Son iki ildə 10 min tona qədər üzüm, 20 min tona qədər taxıl, 2 min tondan çox şəkər çuğunduru və digər kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Hazırda Füzuli bölgəsində yaşayan 45 mindən çox əhalinin çörəklə bağlı çətinlikləri minimuma enmişdir.

Hörmətli Prezident, Sizin şəxsi qayğınız nəticəsində Füzuli rayonunda kolxoz və sovxozlarda 8 min ton, fərdi təsərrüfatlarda 2 min ton taxıl istehsal edilmişdir. Əhalinin çörəyə olan tələbatı əsasən ödənilmişdir. Hər şəhid ailəsinə 300 kiloqram, əlillərin hər birinə isə 100 kiloqram pulsuz taxıl verilmişdir.

Rayonumuzun ictimaiyyəti bir həqiqəti tam yəqinliklə qəbul edir ki, Qarabağın işğal olunan digər bölgələri kimi,Füzuli də təxribatın qurbanı olmuşdur. Rayonun 76 yaşayış məntəqəsindən Yuxarı Veysəlli, Qacar, Divanalılar, Cuvarlı, Gorazıllı, Qaradağlı, Qoçəhmədli, Hoğa kəndləri nəzərə alınmasa, qalan kəndlər düşmənə döyüşsüz, müqavimətsiz təslim edilmişdir.

Ordunun və komandirlərin səriştəsizliyi Qarabağın digər bölgələrinin, o cümlədən Füzuli rayonunun işğal edilməsinin başlıca amili olmuşdur. Düşmən qarşısında mərdliklə dayanan əsgərlərin arxadan vurulub öldürülməsi barədə tez-tez söhbətlər gedirdi. Rayon hərbi komissarlığının işçisi olmuş, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adını almış Rasim İbrahimov 1992-ci ildə Gövşadlı istiqamətində gedən döyüşlərdə arxadan vurulmuş, yaralanmışdır. Yaralı komandirə köməyə gedən əsgərlər də arxadan atılan güllə ilə öldürülmüşlər. Təəssüf ki, belə hallar qeydə alınmamış, təhqiqat aparılmamışdır. Çünki, bu, həmin dövrün komandirlərinə, mülki rəhbərlərinə sərf etmirdi.



Vətən, torpaq uğrunda vuruşan hərbçilərdən biri də batalyon komandiri Xudiyev Zakir Nəriman oğlu idi. Hər cür haqsızlığa qarşı barışmaz olan Zakir Xudiyev rayonda silah üçün pul toplanmasının, bə'zi hərbçilərin, məsələn, batalyon komandiri Əmrahovun mal-qara oğurlamasının əleyhinə idi və belə hallara qəti e'tiraz edirdi. O, hətta bir neçə hərbçinin belə hərəkətləri barədə rəsmi orqanlara müraciət etmişdi. Nəticə o oldu ki, Zakir Xudiyev öldürüldü, sirr batırıldı.

Füzulilər torpaqlarımızın bütövlüyü, müstəqilliyimiz uğrunda gedən döyüşlərdə fərqlənən mərd, mübariz oğulları ilə haqlı olaraq fəxr edirlər. Düşmənə qarşı döyüşlərdə ilk gündən yumruq kimi birləşən, son nəfəslərinədək geri çəkilməyən, ölümün gözünüə dik baxan, hamı tərəfindən bu gün də hörmətlə və iftixarla xatırlanan Mais Əsədov, Elxan Yusifov, Ərzinalı Ərzinalıyev, Yavər İsgəndərov, Yunis Abdullayev, Yaqub Quliyev, Bağır Quliyev, Surxay Məhərrəmov, Şikar Əhmədov, Əhəd İsgəndərov və neçə-neçə başqaları indi öz layiqli qiymətlərini tapırlar.

Füzulililər çətin günlərdə öz ziyalıları, ağsaqqalları ilə müntəzəm olaraq əlaqə saxlamış, onların məsləhətləri həmişə belə olmuşdur ki, Qarabağı və bütün Azərbaycanı bu bəladan qurtara biləcək yeganə şəxsiyyət — dünya miqyasında böyük siyasətçi, görkəmli sərkərdə, müdrik rəhbər, hörmətli Prezidentimiz Heydər Əliyev cənablarıdır. Onlar deyirlər ki, möhtərəm Prezidentimizin ətrafında hamı bir nəfər kimi sıx birləşməlidir. Bu məsləhəti verənlərdən biri olan hörmətli yazıçı və dramaturqumuz İlyas Əfəndiyev çox təəssüf ki, səhhəti ilə əlaqədar bu gün burada iştirak edə bilmir. Yaxşı olardı ki, burada iştirak edəydi, sözlərini özü deyəydi.

Möhtərəm cənab Prezident!

Sizin ardıcıllıqla həyata keçirdiyiniz tədbirlər sayəsində 1994-cü ilin yanvarında Füzuli rayonunun Araz boyu ərazisi düşməndən təmizləndi. Əhali geri qayıtdı. Araz boyunda hazırda 45 min nəfərə yaxın əhali yaşayır. Onları geri qaytaran və bu ərazidə məskunlaşdıran amil yalnız və yalnız Sizə — hörmətli Prezidentimizə olan inam və məhəbbətdir. Biz adamları çox çətin şəraitdə məskunlaşdırıb, onlar üçün iş şəraiti yaradırdıq. Təxribatçı qüvvələr gizli də olsa əməllərini həyata keçirirdilər: imkansız ailələrin mal-qarasını oğurlayır, gizli yolla İrana keçirir, erməni silahlı qüvvələrinin yenidən hücuma keçəcəkləri barədə təşviş hissi yaradır, söz-söhbətlər yayırdılar. Təxribatın qarşısını almaq üçün ciddi iş aparmalı olurduq. Görülmüş işin nəticəsi idi ki, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Füzuli bölgəsinin adamları Sizin ətrafınızda daha sıx birləşdiklərini nümayiş etdirdilər. Həmyerlimiz Kərimov Bəşir Bəylər oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Möhtərəm cənab Prezident!

İcazənizlə, bugünkü imkandan istifadə edib, Füzuli bölgəsində bütün sahələrdə gördüyümüz işlərdə bizə yaxından kömək etdiklərinə, qaldırdığımız məsələləri vaxtında və operativ həll etdiklərinə və bizə daimi qayğı göstərdiklərinə görə Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev cənablarına, ərazi idarəetmə orqanları ilə iş şö'bəsinin müdiri Yusif Hümbətov cənablarına, Baş nazirin müavinləri Abbas Abbasov, İzzət Rüstəmov, Elçin Əfəndiyev cənablarına və respublikanın baş prokuroru Eldar Həsənov cənablarına rayonumuzun əhalisi adından minnətdarlığımı bildirim və onlara cansağlığı arzulayım.

Möhtərəm cənab Prezident!

Ermənistan—Azərbaycan müharibəsi Füzuli rayonuna çox baha başa gəldi. Çıxışımın əvvəlində dediyim kimi, rayonumuz min nəfərə yaxın şəhid, girov verdi. 1500 nəfərə qədər adam müxtəlif dərəcədə əlil, şikəst oldu. Beş min nəfərdən artıq adam ordu sıralarına cəlb olundu. 800 nəfərə yaxın ən yaxşı oğul öz həyatını Füzuli torpağında mərdliklə qurban verdi.

Füzulililər öz mərd, igid oğulları ilə fəxr edirlər. Onlar həm də belə bir aydın həqiqəti dərk edirlər ki, rayonun işğal edilməsində sıravi əsgərlərin günahı olmamışdır. Əksinə, bu, orduya başçılıq edən zabitlərin, yüksək rütbəli komandirlərin təqsiri üzündən baş vermişdir. Müəyyən dövr keçdikcə bu həqiqətlər bir daha təsdiq olunmuşdur. Mütəllibovun, Xalq Cəbhəsinin hakimiyyətindən məqsədyönlü istiqamət, göstəriş almayan ordu kor-koranə döyüşmüş, həm canlı qüvvə sarıdan tələfat vermiş, həm də torpaqlarımız işğal edilmişdir.

Füzulinin işğal edilməsindən üç il keçir. Lakin torpaqlarımızın işğal olunmasında günahı olan adamlardan təkcə batalyon komandiri,"Yapon" ləqəbli Səfa Əliyevin adı hallandırılır. Araşdırmalar göstərir ki, Səfa Əliyev həqiqətən günahkardır və layiqli cəzasını almışdır. Lakin Səfa Əliyev xidməti vəzifəsində briqada komandirindən tutmuş sahəyə rəhbərlik edən generaladək tabe idi. Həm də Səfa Əliyev bə'zi mənsəbpərəstlərin əlində alət idi. Füzulililər xahiş edirlər ki, Səfa Əliyevlə bərabər rayonun işğalında daha çox günahkar olan zabitlər, generallar da məs'uliyyət daşısınlar. Belə bir faktı deyə bilərəm ki, Səfa Əliyevin xidmət etdiyi briqadanın komandiri və qərargah rəisi, həmçinin bu işdə günahkar olan başqaları hələ də məs'uliyyətdən kənarda qalmışlar.

Möhtərəm cənab Prezident!

Böyük məşəqqətlərə mə'ruz qalan, torpaqları işğal olunan, kəndləri xarabalığa çevrilən, iqtisadiyyatı məhv edilən, maddi və mədəni sərvətləri talan olunan füzulililər hər cür çətinliklərə mərdliklə sinə gərərək sabaha nikbinliklə, inamla baxırlar. Onların buna mə'nəvi



haqqı vardır. Hamı yaxşı başa düşür ki, respublikanın sükanı e'tibarlı əllərdədir.

Sizin daxili və xarici siyasətiniz, dünyadakı böyük nüfuzunuz, Azərbaycanı beynəlxalq aləmdə tanıdan müdrik dəst-xəttiniz füzulililərdə belə bir inam yaradır ki, Qarabağın işğal olunmuş torpaqları, apardığınız böyük və məqsədyönlü siyasət nəticəsində azad ediləcək, daimi sülh bərqərar olacaqdır. Füzuli torpağı düşməndən tamamilə azad ediləcək, əhali öz doğma yurd-yuvalarına qayıdacaq və Sizin rəhbərliyiniz altında Azərbaycanın müstəqilliyini, dövlətçiliyini və ərazi bütövlüyünü möhkəmləndirmək uğrunda inamla irəliyə doğru addımlayacaqdır.

Füzulinin işğaldan azad olunmuş torpaqlarında Sizin şəxsi təşəbbüsünüzlə bərpa işlərinə hazırlıq, 2000-ci ilədək Beyləqan rayonuna müvəqqəti təhkim olunmuş 5963 hektar sahənin üç min hektarının əhalimizin öz ərazilərinə qayıtması üçün vaxtından əvvəl Füzuli rayonuna qaytarılması bu sahədə görülən işlərin əyani təcəssümüdür. Sizin atalıq qayğınızı daim hiss edən füzulililər ətrafınızda sıx birləşməyə daim hazırdırlar.

Möhtərəm cənab Prezident!

Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin qorunması və inkişafı, Qarabağ torpaqlarının işğaldan azad edilməsi naminə ardıcıl, qətiyyətli və məqsədyönlü fəaliyyətinizdə Sizə bütün Füzulililər adından möhkəm cansağlığı, xoşbəxtlik və qələbələr arzulayıram. Allah Sizə yar olsun!

**Azərbaycanın Milli Qəhrəmanı**
**Faiq Rəfiyevin bacısı**
**GÜLNARƏ RƏFİYEVANIN**
**çıxışı**

Cənab Prezident, hörmətli görüş iştirakçıları!

İlk növbədə icazə verin, Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış Füzuli rayonunun minlərlə məcburi köçkününün səmimi salamlarını və xoş arzularını sizə yetirim. Müstəqil Azərbaycanımızın tarixinə qara ləkə kimi həkk olunmuş 1993-cü il avqustun son günləri biz füzulililərin də yaddaşında əbədi qalacaqdır. Çünki mənfur erməni qəsbkarlarının işğalçılıq siyasəti nəticəsində məhz həmin günlərdə Füzuli rayonunun camaatı ata-baba yuvalarından didərgin salındı. Bəli, on minlərlə Füzulilinin ömrünə "qaçqınlıq" kəlməsi həmin günlərdə yazıldı. Nə qədər ağrılı-acılı olsa da, həmin günləri xatırlamamaq, olub-keçənləri çözələməmək mümkün deyildir. Hesab edirəm ki, bugünkü görüş vətən torpaqlarının müdafiəsi yolunda şəhid olmuş, xəsarət almış, olmazın zülm, əzab çəkmiş Füzuli camaatına

hörmətin, ehtiramın ifadəsidir. Möhtərəm Prezident, elə buna görə də, vaxtınızın darlığına baxmayaraq, bizimlə görüşdüyünüz, dərd-sərimizə səbirlə qulaq asdığınız üçün Sizə təşəkkürümü bildirirəm.

Həmin üzüntülü, hamımız üçün ağrılı olan avqust günlərində başımıza gələn müsibətin bə'zi məqamlarını açıqlamaq istəyirəm. Füzuli rayonu işğal olunana qədər icra hakimiyyətinin Qarakollu kəndi üzrə nümayəndəsi işləmişəm. Nümayəndəliyin ərazisinə keçmiş Hadrut rayonu ilə həmsərhəd olan yeddi kənd daxil idi. Nankor qonşularımızın separatçılıq siyasəti nəticəsində həmin kəndlər hər gün güclü hücumlara mə'ruz qalırdı. Nəhayət, 1993-cü il iyulun 2-də ermənilər bir neçə istiqamətdən həmin kəndlərə hücuma keçdilər. Gecə saat 3.30-dan başlayaraq atılan mərmilər kəndləri dağıdır, əhalini məhv edirdi. 3 min nəfərdən çox əhalisi olan yeddi kənddə həmin gecə 60 nəfərədək insan həlak oldu, 19 nəfər girov aparıldı, 8 nəfər kənddən çıxa bilməyərək evindəcə qətlə yetirildi. Hərbçilərdən 3 nəfər şəhid oldu, 2 nəfər itkin düşdü.

Hörmətli cənab Prezident, iyulun 2-də kənddən çıxmağa məcbur olmuş mülki adamlar "9-cu kilometr" deyilən yerə qədər gedib dayandılar. Həmin vaxt Xatınbulaq kəndindəki döyüşçülərimiz Dağdalı deyilən təpənin arxasında vuruşurdular. Biz yolayrıcında gələcək köməyi gözləyirdik. Səhər saat 8 radələrində hərbçilərlə dolu üç tank gəldi. Mən onlardan birisini saxlayıb xahiş etdim ki, kömək göstərsinlər. Bunu ona görə etdim ki, həmin tanklar döyüş mövqeyinə girmədən Cəbrayıl istiqamətinə gedirdi. Xatınbulaq kəndinə gedən gizli yolu da onlara göstərdim. Saat 14.00-dək həmin yolda gözlədim, tanklar köməyə getmədi. Kəndlə "9-cu kilometr" arasında bağ var, orada texnikanın 3-ü yox, 103-üdə gizlənsə heç kim görməzdi. Bağa girib orada yatdılar, döyüşə girmədilər.

Təpənin arxasında gizləndiyimizi hiss edən düşmən oranı minomyotla atəşə tutdu, yaralananlar oldu. Biz naəlac qalıb Horadiz qəsəbəsinə gəldik.

Mən hərbçi deyiləm, amma hələ mənə aydın deyil ki, nə üçün hərbçilər döyüş texnikası ilə birlikdə ərazini mülki adamlardan tez tərk edirdilər? Aydın məsələdir ki, onlar öz köməyini əsirgəməsəydilər, yə'ni vəzifələrini yerinə yetirsəydilər həmin kəndlərdə o qədər insan tələfatı olmazdı. Bir sözlə, illərlə dözüb dayandığımız və "qeyrətinə" yaxından bələd olduğumuz nankor qonşularımız bizi doğma torpağımızdan beləcə didərgin saldılar. Amma qoy onlar öyünməsinlər, bizi torpağımızdan müvəqqəti uzaqlaşdırıblar.

Füzuli rayon icra hakimiyyəti başçısının sərəncamı ilə mən 1993-cü il oktyabrın 8-dən məcburi köçkünlərlə iş aparmaq üçün Sumqayıt şəhərinə səlahiyyətli nümayəndə tə'yin olundum. Həmin gündən də Sumqayıtda müvəqqəti məskunlaşmış doğmalarımın bütün çətinliklərinə



yaxından, öz imkanım daxilində kömək göstərməyə çalışdım. Xatırladım ki, Sumqayıtda məskunlaşmış minlərlə qaçqın və məcburi köçkün üçün həftədə bir dəfə qəbul günü olur. Qəbulu icra hakimiyyətinin başçısının müavini S. Rəhimov aparır. Bütün rayonlarda olan səlahiyyətli nümayəndələri ayda bir dəfə rayonumuzun icra hakimiyyəti başçısı qəbul edir.

Hörmətli cənab Prezident, mən əminəm ki, Füzuli rayonunun dilbər guşəsi olan Qozluçay dərəsi, Ərgünəş təpəsi, İsa bulağına bərabər olan Bəhmən bulağının buz kimi suyu, bayaq icra hakimiyyətimizin dediyi kimi, İlyas Əfəndiyevin doğulduğu Saracıq kəndi Sizin sə'yiniz nəticəsində erməni dığalarına qalmayacaqdır. Sizin müdrik siyasətinizlə Füzuli camaatı doğma elinə qayıdacaqdır.

Möhtərəm cənab Prezident, dəhşətli müharibənin zərbəsi mənə də dəymişdir. Mən torpaq uğrunda şəhid olan oğlanların hamısının bacısıyam. Vaxtilə Leninqradda Ali Milis Məktəbini bitirərək kapitan rütbəsi almış, öz arzusu ilə doğma torpağın müdafiəsinə gəlmiş və Xocavənd rayonunun Axullu polis bölməsində cinayət axtarışı şö'bəsinin rəisi işləmiş qardaşım şəhid olmuşdur. Onun igidliyi ən yüksək ada — Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Var-dövlətimizi, yaratdığımız güzəranı demirəm, ata-babamın qəbrini itirmişəm. Ancaq hər gün işdən evə qayıdanda ürəyimdən bir sızıltı keçir: Kaş dizə qədər palçığa batdığım cığırla hər gün işdən öz evimizə gedəydim! Gedəcəyimə inanıram, ona görə ki, indi Azərbaycanı dünyada tanıdan Prezidentimiz var. İnanıram ona görə ki, ölkəmizə polad iradəli dahi bir şəxs rəhbərlik edir. Dözüb kürsüdə əyləşə bilməyən, xalqın dar günündə onu başsız qoyub gizlincə qaçanlar yox, ölkəyə, xalqına öz ömrünü bağışlayan Heydər Əliyev cənabları rəhbərlik edir.

Hörmətli Heydər Əliyev, danılmaz həqiqətdir ki, xalq Sizə inanır və Sizi sevir. Mən bunu şahidi olduğum faktlarla demək istəyirəm. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri zamanı sumqayıtlılar və onlarla birlikdə ümidini Sizə bağlamış qaçqınlar və məcburi köçkünlər gecə saat 3-də dərhal Azadlıq meydanına — dövlətin və rəhbərin müdafiəsinə toplaşdılar. Bu ilin iyun ayında Sumqayıta səfəriniz zamanı rəhbərə ümumxalq məhəbbətinin parlaq təzahürünün bir daha şahidi olduq. Böyüklü-kiçikli Sizin görüşünüzə çıxan sumqayıtlılar arasında bu şəhərdə müvəqqəti məskunlaşmış Füzuli qaçqınları da var idi. Möhtərəm Prezident, bu görüş bütün sumqayıtlılar kimi, bizdə də böyük ruh yüksəkliyi, gələcəyə inam yaratdı. Küçə və meydanlarda səmimi söhbətiniz, verdiyiniz qiymətli tövsiyələr üçün Sizə son dərəcə minnətdarıq. Əmin ola bilərsiniz ki, Sizin müdrik siyasətinizin müdafiə edilməsi hər birimizin namus-qeyrət işimiz olacaqdır. İkiqat sevinirəm ki, Sumqayıtda Sizi salamlamaq,

ürək sözlərimi çatdırmaq şərəfi mənə də nəsib oldu. Kimyaçıların mədəniyyət sarayında keçirilən tədbirdə çıxışınız zamanı mənə "Füzuli rayonundan olan qaçqın bacım" deməyiniz məni kövrəltdi. Ona görə kövrəltdi ki, kaş rəhbərimizlə görüş Füzuli şəhərinin mərkəzindəki mədəniyyət sarayında olaydı, kaş düşmən tapdağından azad olan torpaqlarımızda Sizin müdrik kəlamlarınızı eşidəydik. İnşallah, o gün uzaqda deyil, mən buna inanıram.

Hazırda rayonumuzun Arazboyu kəndlərində yaşayış məntəqələri bərpa olunur, icra hakimiyyəti ermənilərin yerləşdiyi kəndə yaxın kənddə fəaliyyət göstərir. Əkin-biçin gedir. Əhalinin müəyyən hissəsi öz evlərindədir. Yaxşı haldır ki, icra hakimiyyətinin başçısı və bütünlükdə aparatın işçiləri əhalinin həmin kəndlərdə yaşamasına kömək edir, başqa rayonlardan adamlar geri — Füzuli torpağına qayıdırlar. Mən və bütün Füzuli camaatı ümid edirik ki, torpaqlarımız sülh yolu ilə geri qaytarılacaqdır. Əks təqdirdə qeyrətli oğlanlarımız vuruşub torpaqlarımızı almağa qadirdirlər və buna hazırdırlar. Qoy torpağı kiməsə qurban verən gədalar öyünməsinlər,Füzuli torpağının keçmişinin və gələcəyinin qeyrətini çəkən oğullar var. O torpaqlar bizimdir və bizim olacaqdır.

Qiymətli vaxtınızı bizə sərf edib ürəyimizin ağrı-acılarını dinlədiyinizə, dərdimizə şərik olduğunuza görə çıxışımın sonunda bir ziyalı, ana kimi, bir qadın kimi Sizə dərin minnətdarlığımı bildirir, cansağlığı, uzun ömür arzulayır, Azərbaycan dövlətinin qüdrətlənməsi yolunda uğurlar diləyirəm. Arzum Sizinlə Füzulinin mərkəzində görüşməkdir.

Əmək veteranı, sovxoz direktoru

**HƏMİD MƏMMƏDOVUN**

**çıxışı**

Hörmətli cənab Prezident, hörmətli görüş iştirakçıları!

İcazə verin, bugünkü görüş üçün, bizim ağrı-acılarımızı bölüşməyə vaxt tapdığınız üçün, cənab Prezident, Füzuli rayonunun ağsaqqalları, ziyalıları, ictimaiyyəti adından Sizə dərin minnətdarlığımı bildirim.

Hörmətli Prezident, Vətənimizin ən ağır günlərində Sizin respublikamıza rəhbər seçilməyinizi bütün xalqımız kimi, füzulililər də dərin sevinclə qarşılayıblar. Onlar Sizin müdrik siyasətinizə dərindən bələddirlər və onu həmişə dəstəkləyirlər.

Dağlıq Qarabağ zəminində Ermənistan—Azərbaycan müharibəsinin başlanmasının və bu günə kimi davam etməsinin canlı şahidiyəm. Mənim əmək fəaliyyətim Füzuli ilə bağlıdır. Dilağarda kəndi və on ildən çox müddətdə işlədiyim sovxoz Dağlıq Qarabağın keçmiş Martuni



rayonu ilə həmsərhəddir. Ermənilərlə qonşu olduğumuz üçün onların çirkin niyyətləri bizə hamıdan çox mə'lumdur.

Yaxşı xatirimdədir ki, hələ 1983-cü ildə, SSRİ qüdrətli bir dövlət kimi mövcud olduğu bir vaxtda ermənilər Livandan, Fransadan, Yerevandan yığışıb Stepanakertə gəlmişdilər. Bizim kənddən 4-5 kilometr aralı Ağoğlan deyilən bir yer, orada isə yeraltı istehkam var. Tarixçilərin yazdığına görə, Ağaməmməd Şah Qacar bu istehkamı Azərbaycana hücumu zamanı tikdirib. Ermənilər oraya gələrək yeraltı zirzəmilərdən daşlar yığıb aparırdılar ki, guya bu daşların üzərində qədim vaxtlarda bu yerlərin Ermənistana məxsus olduğunu göstərən yazılar var. Bundan əlavə onlar 1987-ci ilin yanvar ayında Füzulinin Dağlıq Qarabağla həmsərhəd kəndlərinin ərazisində traktorlarla terraslar çəkir və ekskavatorlarla sərhəd qoyurdular. Bunu belə izah edirdilər ki, guya biz onların torpaqlarını əkirik.

Hörmətli Prezident, bu, elə bir vaxtda baş verirdi ki, o zaman Siz — Azərbaycanın müdrik rəhbəri Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyirdiniz. Ermənilər yaxşı başa düşürdülər ki, indi Heydər Əliyev Azərbaycanda yoxdur və respublikanın o dövrdəki rəhbərliyi ermənilərin bu hiylələrindən çətin ki, baş çıxara bilsin. Ona görə də onlar öz işlərini görürdülər.

Möhtərəm Prezident, beləliklə o vaxtlar ermənilərin apardığı hazırlıq işlərindən sonra nəhayət, 1988-ci ilin hadisələri başlandı. Biz Dağlıq Qarabağın erməni kəndlərində yaşayan nankor qonşularımızla, sonra isə həmin kəndlərdə yerləşdirilmiş erməni quldurları ilə mübarizə aparmalı olduq. 1988-ci ildən 1993-cü il avqustun 15-dək bizim kəndin və qonşu Qacar, Divanalılar, Aşağı Veysəlli, Yuxarı Yağlıvənd, Qaraməmmədli və başqa kəndlərin əhalisi hər gün, hər saat erməni təcavüzünə mə'ruz qalmaq təhlükəsi altında yaşadı, şəhidlər verdi, öz kəndini, el-obasını, müqəddəs torpaqlarımızın toxunulmazlığını qorumaq üçün mərdliklə vuruşdu.

Lakin bütün bunlara baxmayaraq Azərbaycanın öz daxilindəki satqınlar, vəzifə hərisləri hakimiyyət uğrunda mübarizə apardıqlarına görə 1992-ci ilin əvvəlindən e'tibarən Füzuli rayonunun kəndləri də ermənilərə verilməyə başlandı. Bəli, düşmənin tutduğu kəndləri ermənilər almamışlar, bu kəndlər xəyanətin qurbanı olmuşdur.

1992-ci ilin əvvəlindən başlayaraq Milli Ordu yaradılması pərdəsi altında özünümüdafiə dəstələri ləğv edildi, onlarda və kənd əhalisində olan odlu silahlar tamamilə yığılaraq camaat əsl mə'nada tərksilah edildi. Yalnız bundan sonra əhali ermənilərə təslim olmamaq üçün kəndləri tərk etmək məcburiyyətində qaldı.

Hələ müharibənin ilk günlərində respublikanın başqa rayonlarında olduğu kimi, Füzulidə də guya hərbi texnika, hərbi sursat almaq pərdəsi altında böyük məbləğdə pul yığılırdı. Rayon əhalisi bunun

üçün çox böyük mütəşəkkilliklə pul verirdi. Adamlar inanırdılar ki, bu pula hərbi texnika və sursat alınacaq, rayonun müdafiəsi üçün istifadə ediləcəkdir. Sonradan mə'lum oldu ki, bu pulları respublika Müdafiə Nazirliyinin şərəfsiz rəhbərləri mənimsəyirmişlər. Məsələn, mən belə bir faktın şahidi olmuşam ki, 1992-ci ilin əvvəllərində rayonumuzun Qacar kəndi tez-tez erməni təcavüzünə mə'ruz qalırdı. Bu ərazi meşəlik zonada yerləşdiyindən düşmənin canlı qüvvəsini və hərbi texnikasını görmək mümkün olmurdu. Ona görə də Azərbaycan Milli Ordusunun vertolyotlarından istifadə etmək lazım idi. Bu məqsədlə Füzuliyə dörd hərbi vertolyot gətirildi. Onlarla birlikdə o zaman müdafiə nazirinin müavini olan Şahin Musayev də Füzuliyə gəldi. Vertolyotlar əməliyyata başladıqdan sonra Şahin Musayev bir çamadan pulla yola salındı. Müdafiə nazirinin keçmiş müavini, guya rayonda müdafiə məsələlərini həll etmək üçün dəfələrlə Füzuliyə gəlmiş general Vahid Musayev də belə şərəfsizlərdəndir.

Müharibədə ermənilərin irəliləməsinin günahkarları bilavasitə respublikanın o vaxtkı fərasətsiz rəhbərləri və vəzifə kürsüsü uğrunda mübarizə aparanlardır. Respublikanın o dövrdəki rəhbərləri çevik hərəkət edib hadisələri qabaqlamağı bacarmır, ona siyasi qiymət verə bilmirdilər. Cəbhəçilər isə iqtidarı zəiflədib hakimiyyətə gəlmək üçün hər cür fitnələrə əl atırdılar. Bütün bunlar nəticə e'tibarilə ona gətirib çıxardı ki, 1992-ci ildən başlayaraq Füzuli ərazisi hissə-hissə düşmənə təhvil verilərək erməni işğalına mə'ruz qaldı.

Cəbhəçilərin hakimiyyətə gəlməsi ilə bu proses daha da sür'ətləndi. Çünki respublikanın bir çox rayonlarına, idarə, müəssisə və təşkilatlarına heç bir idarəetmə vərdişi, iş bacarığı olmayan adamlar, çox hallarda tüfeyli həyat sürənlər, oğrular rəhbər vəzifələrə qoyulurdular. Onlar da vəzifəyə keçən kimi yalnız öz güzəranlarını yaxşılaşdırmaq qayğısına qalırdılar. Rayonların, kəndlərin müdafiəsi məsələləri isə başlı-başına buraxılırdı.

Belə bir vaxtda Yuxarı Veysəlli kəndinin işğalından sonra ermənilər rayonun müdafiəsi üçün çox böyük strateji əhəmiyyəti olan bizim Dilağarda kəndinə də tez-tez hüçuma keçməyə və onu işğal etməyə cəhd göstərməyə başladılar. Kəndin rəhbəri kimi mən, başqa ağsaqqallar və ziyalılar Dilağardanın müdafiəsini möhkəmləndirmək üçün daxili imkanlarımızdan istifadə edərək tədbirlər görürdük. Başa düşürdük ki, böyük strateji əhəmiyyəti olan yüksəkliklərin əldən getməsi bütövlükdə Füzulinin düşmənə verilməsi demək olardı. Lakin biz bunu o zamankı rayon rəhbərlərinə başa sala bilmirdik.

Bu yüksəkliklərin əhəmiyyətini ermənilər də başa düşürdülər. Ona görə də 1992-ci ilin aprel—may—iyun aylarında aramsız hücumlar edirdilər. Nəhayət, iyul ayında bizim kənd camaatının tə'kidli tələbindən sonra rayon rəhbərliyi və ordu bölməsinin



komandanlığı Dilağarda ərazisinə xeyli canlı qüvvə və ağır texnika gətirdi. Bu, adamlarda kəndin müdafiəsinə inam yaratdı. Bir qədər keçdikdən sonra ordumuzun burada cəmlənmiş canlı qüvvəsi və texnikası Peykanlı və Kəpəz yüksəkliklərindən Sartaz kəndi istiqamətində hücum etməli və işğal olunmuş Yuxarı Veysəlli kəndini azad etməli idi.

Həmin hadisələrin iştirakçısı kimi, şahidi oldum ki, bu əməliyyatda iştirak etməli olan 32 tankın heç biri hücuma getmədi və Füzuli istiqamətində geri qayıtdı. Lakin bu hücum əməliyyatında iştirak edən neçə-neçə qeyrətli oğullarımız — füzulili gəncləri və Milli Ordunun əsgərləri müdafiəsiz qalaraq həlak oldular. Allah onlara rəhmət eləsin.

Sonralar mə'lum oldu ki, bu tank dəstəsinin komandirləri Əlikram Hümbətovun quldur bandasının üzvləri imiş. Daha sonra isə öyrəndik ki, bu, Milli Ordu deyil, hakimiyyət uğrunda mübarizə aparan ayrı-ayrı quldurların, əqidəsizlərin ordusudur. Füzuli rayonunu müdafiə etməli ordu bölmələrinin bir hissəsi isə, özlərinin dediyi kimi, Surət Hüseynovla qardaş olan Əlikram Hümbətova məxsus imiş. Ona görə də ermənilərin hücumları zamanı bu ordu bölmələri vahid rəhbərlikdən əmr almır və işğalçılara qarşı birgə müqavimət göstərmirdilər. Əksinə, yerli əhali arasında vahimə yaradaraq camaatı kəndlərimizi, el-obanı qoyub qaçmağa təhrik edirdilər.

Hörmətli Prezident, Sizdə daha ətraflı təsəvvür yaratmaq üçün belə bir faktı da nəzərinizə çatdırmaq istəyirəm. 1992-ci ilin əvvəllərindən başlayaraq, Dağlıq Qarabağın erməni kəndləri ilə həmsərhəd olan Füzuli rayonunun bir sıra kəndlərinin ermənilərə müqavimət göstərən əhalisini qaçırmaq, kəndləri boş qoymaq və beləliklə də düşmənə təhvil vermək üçün çox böyük xəyanətlər edilmişdir. Bu bəd niyyətləri həyata keçirmək üçün 1992-ci ilin oktyabr ayında şəxsən Surət Hüseynovun tapşırığı ilə çox hündürdən uçan, dövlət nömrə nişanları oxunmayan hərbi təyyarələr bizim kəndləri və Füzuli şəhərini dəfələrlə bombardman etmiş, nəticədə, bu kəndlərdə və Füzulidə mülki əhali arasında tələfat olmuş, kəndlər dağılaraq yandırılmışdır.

1992-ci il sona yaxınlaşdıqca ordu bölmələri komandirlərinin təxribatı, hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin xəyanəti və iqtidarda olan Xalq Cəbhəsi rəhbərlərinin maymaqlığı nəticəsində Dağlıq Qarabağın erməni kəndləri ilə sərhəddə yerləşən Füzuli rayonunun 27 kəndinin və Füzuli şəhərinin, bütövlükdə rayonun işğalı üçün real təhlükə yaranırdı. Bu vəziyyət barədə biz respublika rəhbərliyinə, Müdafiə Nazirliyinə müntəzəm olaraq mə'lumat versək də, nə cavab alırdıq, nə də kömək görürdük. Belə vəziyyət rayonun ağsaqqallarını, ziyalılarını və bütün ictimaiyyətini ciddi narahat edirdi. Dözə bilmirdik ki, bütöv bir rayon əldən gedir. Füzulinin işğalı ilə əlaqədar qonşu Cəbrayıl, Zəngilan və Qubadlı rayonları da mühasirədə

qalırdı. İmkanlardan istifadə edilmir, ermənilərin hücumlarına əsl müqavimət göstərilmir və rayonun ərazisi hissə-hissə düşmənə verilirdi.

Bu barədə rayonun o zamankı rəhbərliyinə, Füzuli ərazisində yerləşən ordu bölmələrinin komandirlərinə müraciətlərimiz nəticəsiz qaldığı üçün biz, Füzuli rayonu ictimaiyyətinin 15 nəfər nümayəndəsi 1992-ci ilin dekabrında Bakıya — prezident Əbülfəz Əliyevin və müdafiə naziri Rəhim Qazıyevin qəbuluna gəldik. Bakıya gələrkən daxili imkanlarımızı, strateji mövqelərimizi əks etdirən xəritə hazırladıq və konkret təkliflər də gətirdik. Çalışdıq ki, yaranmış vəziyyətin ciddiliyini Əbülfəz Əliyevə və Rəhim Qazıyevə çatdıraq. Lakin çox təəssüf ki, buna nail olmadıq, vəziyyətin faciə ilə nəticələnəcəyi barədə respublika rəhbərliyində həyəcan hissi yarada bilmədik. Bir daha inandıq ki, xalqın taleyi nadanların əlindədir. Səfərdən qayıdarkən nigarançılıqla yolumuzu gözləyən füzulililəri sevindirə bilmədik.

Hörmətli Prezident, müharibə başlanandan rayon işğal olunana qədər bu müharibənin ən qaynar nöqtəsində işləyən təsərrüfat rəhbəri kimi bunun şahidi olmuşam ki, rayonumuzun işğalı yalnız təxribatların, xəyanətlərin, satqınlığın nəticəsidir.

Dərdlərimiz çoxdur, başımıza gələn müsibətlərin hamısını bir çıxışda əhatə etmək mümkün deyil. Lakin biz gələcəyə nikbin baxırıq, Sizin gərgin, yorulmaq bilməyən fəaliyyətinizi görürük, bəyənirik və əminik ki, Sizin məqsədyönlü siyasətinizin nəticəsində bu müharibə sülhlə qurtaracaqdır. Füzulililər onu da bilirlər ki, Ali Baş Komandan kimi məhz Sizin gördüyüz tədbirlər nəticəsində 1994-cü ilin yanvar ayında rayonun 22 kəndi erməni işğalından azad edildi. İndi orada rayon əhalisinin 50 faizə qədəri məskunlaşmış və dinc əməklə məşğuldur.

Hörmətli Prezident, doğma torpaqlarımıza qayıtmış kənd əməkçiləri rayon icra hakimiyyətinin, onun başçısı Nəbi Muxtarovun çox böyük sə'yi və qayğısı sayəsində indi işğaldan azad olunmuş əraziləri minalardan təmizləyərək həmin sahələrdə taxıl əkir, mal-qara, qoyun-quzu bəsləyir, üzüm yetişdirirlər. Deməк olar ki, hər gün ev avadanlığı ilə dolu maşınlar rayon ərazisinə qayıdır. Adamlarımızın həyat səviyyəsini yüksəltmək üçün Sizin müəyyən etdiyiniz xətti hamımız bir nəfər kimi həyata keçirir, inanırıq ki, daimi sülhə az qalıb. Bu böyük işdə Sizə uğurlar, cansağlığı, uzun ömür arzulayırıq. Diqqətinizə görə sağ olun.



**Əmək veteranı, iki dəfə Əmək Qəhrəmanı**
## ŞAMAMA HƏSƏNOVANIN
**çıxışı**

Hörmətli Prezident, hörmətli yoldaşlar, hörmətli eşidənlər! Mən gördüyüm hadisələri bu gün bədii kitab cümlələri ilə yox, öz dilimdə danışmaq istəyirəm.

Bildiyiniz kimi, Füzuli rayonu Martuni və Hadrut rayonları arasında yerləşir. Hər gün iriçaplı pulemyotlardan, toplardan atılan güllələr Füzuli rayonunu təhlükəyə mə'ruz qoyurdu. O vaxtlar Xalq Cəbhəsi hakimiyyətə gəlmişdi. Onların başı o qədər qarışıq idi ki, vaxt tapıb bu müharibə ilə məşğul ola bilmirdilər. İnanın, bu həqiqətdir, mən yalan demirəm. Bunlar həmişə elə nə alacaqlar, nə verəcəklər, nə qayıracaqlar — onunla məşğul idilər. Həmin pul məsələsini yoldaşlar dedi, mən demirəm. Elə şeylərlə məşğul idilər ki, kimdən nə alırıq, kimə nə veririk. Kolxozçulardan, ondan-bundan pul yığmaqla məşğul idilər.

O vaxtlar bizim Füzuli rayonu hər gün toplardan, pulemyotlardan atəşə tutulurdu. Rayonda icra başçısını dəyişdirmək, icra başçısı qoymaq meyli yarandı. Mən elə bünövrədən danışacağam, yoldaş Əliyev, xahiş edirəm məni diqqətlə dinləyin.

**Heydər Əliyev:** Mən sizi həmişə diqqətlə dinləmişəm.

**Şamama Həsənova:** Çox sağ olun, Allah razı olsun.

**Heydər Əliyev:** Səninlə biz keçmişdən uzun illər bir yerdə işləmişik, tanışıq, dostuq. Ona görə də səni həmişə diqqətlə dinləmişəm.

**Şamama Həsənova:** Çox sağ olun, qurban olum Sizə. Allah həmişə Sizi var eləsin.

**Heydər Əliyev:** Buyurun.

**Şamama Həsənova:** O vaxtlar bunların başı belə şeylərlə qarışıq idi. Uzun illər biz Sizdən öyrənmişik ki, rayona həmişə bir katib tə'yin edəndə həmin adam orada ən azı 10 il işləməli idi ki, rayonun camaatını tanısın, görəcəyi işlərə bələd olsun. Biz belə öyrənmişdik. Məsələn, Sizin xatirinizi çox istəyən Əhməd Əhmədzadə — indiki Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri — bizim rayonda 10 ildən artıq işlədi. O da elə özünü füzulili sayırdı, füzulililər də onun xatirini istəyirdilər.

Bax, ona görə deyirəm ki, yə'ni Siz həmişə belə adamlarla işləyirdiniz, belə işlər görürdünüz.

Sonra isə bizim rayonda başladılar icra hakimiyyəti başçılarını dəyişdirməyə. Əhmədzadəni çıxarandan sonra gətirdilər bizim öz yerlimiz Cavanşir Məmmədovu qoydular. Cavanşir Məmmədov bir az işlədi, bir gün dedilər ki, Vəzirov gəlir. Onda Vəzirov birinci katib idi, hələ katiblik vaxtı idi, indi uzaq olsun. Dedilər ki, katib gəlir

rayona. Birinci dəfə deputat seçilirdi, ondan ötrü gəldi. İkinci dəfə bir də gəldi, dedilər plenum üzvləri,büro üzvləri — hamısı yığılsın raykomun zalına, gözləsinlər, katib gələcək, yuxarı çıxacaq, orada söhbət edəcəkdir. Hamımız yığıldıq yuxarıya, getdik oturduq. Dedilər büro üzvləri düşsünlər, katibi aşağıda qəbul eləsinlər. Düşdük aşağı. İndi hər yerdə adətdir də, görürsən ki, bir böyük adam gələndə, hərənin bir dərdi var — birinin dustağı olur, birinin, nə bilim, bir işi olur, — görürsən adamlar yığılır həmin idarənin qabağına. Gəldilər, camaat yığıldı. Elə qapıya gələn kimi Vəzirov əlini belə elədi, camaat yığıldı onun başına. O qədər bunlarla söhbət elədi, bir də baxdı saata və dedi ki, daha mənim vaxtım tamamdır. Plenum üzvləri yuxarıda əyləşmişdilər. Onlardan burada da olanlar var, bunu təsdiq eləyərlər. Bilirsiniz ki, mən yalan söz danışan deyiləm.

Vəzirov dedi ki, bəs mən gedirəm. Çıxdı getdi. Plenum üzvləri də zalda oturub gözləyirlər ki, indi birinci katib gələcək. Vəzirov getdi Bakıya. Mən çıxdım yuxarı, bunlara dedim ki, bəs niyə oturmusunuz? Dedilər ki, katibi gözləyirik. Dedim ki, katib indi az qalıb Bakıya çata. Dedilər necə yə'ni getdi? Dedim mindi təyyarəyə getdi. Bax, o gəlişi də belə oldu.

Üstündən bir ay keçdi. Bir gün də bizim Xalq Cəbhəsinin üzvləri Mobil adında bir nəfər başda olmaq şərti ilə girdilər içəri. Plenum idi, indi olmasın. Girdilər içəri, Cavanşir Məmmədova dedilər ki, bəs siz ya buradan çıxıb getməlisiniz, ya da burada Cəlilabad məsələsi olacaqdır. Cəlilabadda da bir böyük hadisə olmuşdu. Bu dedi ki, mən gedirəm. Portfelini götürdü, düşdü aşağı. Elə bil bilirmiş. Düşdü aşağı, çıxdı getdi. Dedi nə Cəlilabad olmasın, nə başqa bir şey.

Gətirdilər Aslan Mehdiyevi qoydular katib. Xalq Cəbhəsinin vaxtı idi də. Bu da bir az onların sözü ilə, bir az öz sözü ilə rayonu yola verirdi. Bir gün Xalq Cəbhəsi dedi ki, xalis özümüzdən adam olmalıdır, öz içərimizdən. Bayaq Muxtarov yoldaş elə düzünü dedi ki, iş bacarmayan adamlardan bir nəfəri — Hacıyev Şakiri gətirdilər qoydular. Bu da nə bilirdi ki, kimin yeri nədir, rayonda nə təhər hərəkət eləmək olar, adamları dindirmək bacarığı da axı, insanlıqdan asılıdır. O, elə-belə, altı ay işlədi, altı aydan sonra Qasımov Nofəl adında birisi əmrini aldı gəldi. Elə bil yiyəsiz bir yerdir. Yüz min əhalini elə bil heç nə hesab eləyirlər. Gəldi, bu oldu. Bu da ki, vurdu, yıxdı, tutdu, bağışlayın, hamıdan da çox yığdı. Nə var, niyə? Səbəbi nə idi? Yə'ni "rayonda nə qədər hörmətli adamlar varsa mən onları gözdən salmalıyam". Ona görə bizim ailəyə hamıdan çox ziyan vurdu. Qardaşımı işdən çıxartdı. Heç özümü demirəm, mən özüm çıxdım. Ondan sonra yoldaşımı işdən çıxarmaq istəyirdi. Allah köməyiniz olsun. Sizin kimi yaxşı adamların sayəsində qaldı yerində. Başımıza belə oyunlar gətirdi.



Nə isə bu da çıxdı. Bir gün dedilər ki, Surətin adamları gəldi, Nofəli maşınla apardı. Nə təhər apardı, ay balam? Bəs bu, yüz min əhalinin rəhbəridir, nə təhər apardı? Dedilər elə vurdular, döydülər, qolunu da daldan bağladılar, qoydular maşına. Bu nə hökumətdir? Belə hökumət olar? Adamları qoyurlar maşına, götürüb gedirlər. İnanın, yalan demirəm.

Mən getdim icra hakimiyyəti başçısına zəng eləyim, gördüm səsini tanımadığım adam cavab verdi. Dedim, ay bala, birləşdir, mən Nofəl müəllimlə danışmaq istəyirəm. Dedi, Nofəl müəllimi ay-ulduz elədilər, getdi. Dedim, o nə deməkdir? Nə cür danışırsan mənimlə? Deyir, siz kimsiniz? Dedim, mən filankəsəm. Dedi, bağışlayın, üzr istəyirəm sizinlə elə danışdığım üçün. Mən bilmədim siz kimsiniz. Bəs Surət Hüseynovun tapşırığıdır, Nofəli çıxartdıq getdi. Dedim, hə, yaxşı, yerinə kimi qoyursunuz? Dedi ki, tanıyırsan, tanımırsan, bir nəfər yoldaş var, Kazım, onu qoyuruq. Dedim, hə, nə edək, olsun. Kazımı niyə tanımıram, rayonluyam da, tanıyıram. Ancaq o katibliyə layiq deyil, insandır də, pis adam da deyil, gətirin qoyun. Daha nə etmək olar, əlacımız nədir, heç bir şey eləyə bilmərik. Plenum yox, büro yox, heç bir şey yox, elə-belə, yalandan.

Gətirdilər bunu da tə'yin elədilər. Bu da bir az işlədi. Rayon qaldı başına. Görün nə işlə məşğul idilər: gündə bir belə pul sən gətirərsən, bir belə filan kolxoz sədri, sən gətirərsən, ay sovxoz direktoru, sən gətirərsən — bununla məşğul idilər.

Bu da çıxdı getdi. Rayonu ermənilər aldılar. Elə o ərəfədə İsa Qəmbərlə Arif Hacıyev gəldilər rayona. Üç gün bunlar qaldılar bizim rayonda. Həmin günlərdə ermənilər rayona bir dənə də güllə atmadılar. Həqiqi mə'nada. Amma bunlar gedən kimi rayonu tutdular atəşə. Elə atəşə tutdular ki, az qaldı rayon dağılsın. Elə dağıldı da. Allah dağıtmış kimi dağıldı getdi.

Sonra ermənilər hücum elədilər aşağı kəndlərə, gəldilər, bizim kəndi də aldılar. Kəndə od vurub tamam yandırdılar. Bağışlayın, bunu dediyim üçün, üzr istəyirəm, orada mənim heykəlimi qoymuşdular. O heykəli də vurdular, sındırdılar. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adı alanın öz vətənində heykəlini qoyurdular axı! Məktəbin qarşısında qoymuşdular — onu da vurdular, qırdılar. Sonra bizim öz camaatımız gecəyarı gedib onu birtəhər maşına qoyub gətirdi.

Yoldaş Əliyev, Siz özünüz Haramı düzünə getmişdiniz, pambığımıza baxmışdınız. Üzüm də əkmişdik. Allah köməyiniz olsun, Siz öz əllərinizlə o torpağı mənə vermişdiniz. Haramı deyilən düzə 3 kilometrdən su çəkdirdim. Həmin yerdə ikimərtəbəli binada da Siz özünüz oldunuz. Heykəli aparıb qoydular həmin binanın içinə. Heykəlin çox yerini yaraladılar. Cəhənnəmə! Heykəldir də! Nə etmək olar, heç nə qulağıma girmir. Ev də getdi, eşik də getdi, heykəl də — hamısı getdi.

Yoldaş Əliyev, mən bir həqiqəti də deyəcəyəm. Həqiqət həqiqətdir. Deyir, "Hər aşiqin bir dövranı var". Mən öz dövranımı namuslu əməyimlə başa vurmuşam. İki dəfə Sosialist Əməyi Qəhrəmanı olmuşam, Lenin ordeni almışam, başqa xidmətlərimi demirəm. On altı il İttifaq Soveti sədrinin müavini olmuşam. Azərbaycan xalqını o böyük tribunadan təmsil etmişəm. 40 il də böyük bir kənddə kolxoz sədri vəzifəsində işləmişəm. Özümü tə'rifləmirəm, bağışlayın, üzr istəyirəm hamınızdan. Amma həqiqəti demək lazımdır.

Siz Azərbaycanın ən xoşbəxt oğlusunuz. 1969-cu ildən Siz bizim respublikaya rəhbərlik etmisiniz. O vaxtdan da çalışmısınız ki, Azərbaycan həmişə, hər yerdə tanınsın. Mən bunun şahidiyəm. Siz Azərbaycanı həmişə tanıtmağa çalışmısınız. Savadlı alimlərimizi, iste'dadlı jurnalistlərimizi göndərmisiniz, gedib xarici ölkələrdə Azərbaycanı tanıdıblar. Neçə-neçə xarici ölkələrin səfirliklərini açmısınız. Bu özü də Azərbaycanı tanıtmağın bir şərtidir. Bir-birindən gözəl binalar tikdirmisiniz. Mən hörmətli me'marlarımızdan xahiş edərdim ki, Sizin adınızı yazsınlar o tikdirdiyiniz binaların bir yerinə. Üstündən 80 il, 100 il, 1000 il keçsə — axırı bir gün onu bir adam götürüb oxuyar, 1000 ildən sonra deyər ki, belə bir insan olub Azərbaycanda. Onsuz da Sizin adınız qalacaq. Siz böyük dahisiniz - buna söz yox. Amma qoy desinlər ki, belə bir insan olub, belə şeylər yaradıbdır, tikibdir. Mən me'marlarımızdan xahiş edirəm bunu etsinlər.

Bəli, Siz xoşbəxtsiniz, çünki Azərbaycan xalqı Sizi çox istəyir, həqiqi mə'nada istəyir, ona görə ki, Siz Azərbaycan xalqına çox böyük hörmətlər etmisiniz, Siz Azərbaycan xalqını diriltmisiniz, qoymamısınız ki, qardaş-qardaşa güllə atsın. Siz dahisiniz, böyük sərkərdəsiniz, böyük alimsiniz. Ona görə də xalq Sizi çox istəyir. Bax, bu yaxınlarda Qazax rayonunda "Heydər bulağı" deyilən bir bulaq açdılar. Sudur də; axıb gedəcək, Allahın suyudur. Amma bu, xalqın Sizə olan hörmətidir, xalq bununla Sizə öz hörmətini bildirir. Bakı rayonlarının birində də belə bir şey olmuşdur. Bunların hamısı camaatın Sizə olan hörmətidir. Hər evdə hamı iftixarla Sizin adınızı çəkir. Ona görə mən də Sizə öz minnətdarlığımı bildirirəm.

Axırda onu demək istəyirəm ki, yoldaş Əliyev, bizi bu ağır bəladan yalnız Siz qurtara bilərsiniz. Başqa heç kəs bizi bu bəladan qurtarmayacaq. Bu bəlalan bizi ancaq Siz qurtaracaqsınız. Siz bu yolda çox əziyyət, zəhmət çəkirsiniz, amma yenə də, bir az da zəhmət çəkin, bizi bu ağır bəladan qurtarın. O çadırlarda qışda soyuqdan donan, yayda ilanlara yem olan uşaqların xatirinə, elə edin ki, Qarabağ məsələsi öz həllini tapsın, bizim millət öz yerlərinə qayıtsın. Bunu yenə də Siz həll edə bilərsiniz, nə yolla olursa-olsun. Deyir müharibə qurbansız olmaz: istəyir bu yolla, istəyir o yolla. Nə siyasətlə olursa-olsun, axır ki, həll olunsun. Çox xahiş edirəm.



Allah Sizə uzun ömür versin, cansağlığı versin. Mən bununla öz sözümü qurtarıram.

**Füzuli rayon veteranlar şurasının sədri**
## HÜSEYN HÜSEYNOVUN
**çıxışı**

Hörmətli cənab Prezident! Son dərəcə gərgin və çoxsahəli fəaliyyətlə məşğul olduğunuz bir vaxtda imkan tapıb bizimlə görüş keçirməyinizi xalqa, onun taleyinə alicənablıqla göstərdiyiniz müntəzəm qayğının parlaq ifadəsi kimi qiymətləndirir və rayonumuzun çoxsaylı ziyalıları və veteranları adından Sizə dərin minnətdarlığımı bildirirəm. Allahdan Sizə möhkəm cansağlığı arzulayıram.

İcazənizlə, müzakirə olunan məsələ barədə mən də bə'zi mülahizələrimi bildirmək istəyirəm:

1993-cü ilin son ayları istisna olmaqla, 1992—1993-cü illərdə rayonumuzda erməni işğalçılarına qarşı müdafiə tədbirləri son dərəcə yarıtmaz bir vəziyyətdə idi. Ordu adı ilə rayona göndərilən dəstələr əslində ordu deyildi. Sonradan mə'lum oldu ki, bu, ayrı-ayrı adamların, qrupların, bəlkə də partiyaların qeyri-mütəşəkkil dəstələri idi. Hətta öz dillərindən bir-iki dəfə eşitdik — bə'ziləri deyirdi biz Surətin adamlarıyıq, bə'ziləri deyirdi biz Əlikram Hümbətovun adamlarıyıq, onun əleyhinə bir söz danışılsaydı, deyirdilər sizi avtomatla qırarıq. Mən sonralar nəticə çıxardım ki, onlar briqada komandirlərinə də lazımınca tabe olmurdular. Mütəşəkkilllik yox idi. Bu adamların içərisində ürəkdən silaha sarılan oğullar şübhəsiz ki, var idi, lakin onlara başçılıq edənlərin çoxu e'tibarsız adamlar idi. Ordunun komanda hey'ətində də təsadüfi adamlar çox idi. Heç bir hərbi rütbəsi, əsgəri təcrübəsi olmayan xeyli adam müxtəlif səviyyələrdə komandir vəzifələrini tutmuşdu. Bunların içərisində ticarətçi, bufetçi, çilingər, hətta ailəsinin gündəlik çörək pulunu qazana bilməyən fərasətsizlər də var idi. Elə bil ki, orduya bir gəlir mənbəyi kimi baxıb, özlərini komandir vəzifələrinə salmışdılar. Qəribə idi ki, axı, bu adamları buraya kim qoyurdu, nə üçün qoyurdu? Bax, belə "komandir"lərlə qarşılaşırdıq. Biz döyüş bölgələrində, əsgərlərin yanında demək olar ki, hər gün olurduq. Soruşurdum ki, vzvod komandiri buradadırmı — yoxdur, hissə komandiri buradadırmı — yoxdur, rota komandiri — yoxdur. İnanın, əsgərlər sahibsiz idi. Vəziyyət belə idi, yoldaş Əliyev, inanın.

Bizim millətə nahaq yerə fərari deyirlər. Sizə qurban olum, yoldaş Əliyev, bizim milləti qeyrətli millət adlandırırsınız, hünərli millət adlandırırsınız. Doğrudan da, millətimiz qeyrətli və hünərlidir. Amma

o zaman komandir yerində deyildi, əsgər qalırdı başsız, fərarilik də buradan yaranırdı. Çox sağ olun ki, Siz o fərarilərin xeyli qismini bağışladınız, əslində onları yenidən həyata qaytardınız. Döyüşməli olan adamlar, cərgəmizdə olan cavanlar "fərari" adı ilə həbsə düşmüşdülər. Siz böyük xeyirxahlıq göstərdiniz və onları həyata qaytardınız.

Döyüş meydanında əsgərləri başsız qoymaq bir adətə çevrilmişdi. Ən pis məsələlərdən biri də o idi ki, döyüş idarə olunmurdu, özbaşınalıq idi. Ayrı-ayrı yerlərdə hissələr istədiyi vaxt döyüşə qoşulurdu, əməliyyat keçirirdi, bir balaca müvəffəqiyyətsizlik olan kimi mövqeyini tərk edib geri çəkilirdi, heç kəsə deyilmirdi. Əlaqə yox idi, əlaqələndirmə yox idi, kim harada, nə iş görürdüsə, ona baxan, yoxlayan, soruşan yox idi, özbaşınalıq idi. Belə pərakəndəlik şəraitində əlbəttə, müdafiə əməliyyatı həyata keçirmək olmazdı. Komanda hey'ətində bu məs'uliyyətsizlik, özbaşınalıq, təsadüfi adamların komandir vəzifələrinə qoyulması o vaxtkı ordunun yuxarı eşalonunda da mövcud idi — lap nazirliyə qədər. Orada da təsadüfi adamlar çox idi. Məsələn, adama təəccüblü gəlir ki, heç bir hərbi rütbəsi, səriştəsi olmayan Rəhim Qazıyev nəyə görə müdafiə naziri olmalıydı? Məhz onun kimilərin və ora qədəm qoymuş başqa adamların, bəlkə də baş qərargahda işləyənlərin çoxunun belə səriştəsiz olması, hərbi işi bilməməsi nəticəsində ordunun təşkilində hərc-mərclik yaranmışdı və bu torpaqların əldən getməsinə onlar səbəb oldular.

Yadımdadır, o zaman sərhəd kəndlərimizi yerli silahlı dəstələrimiz ov tüfəngi ilə, başqa silahlarla müdafiə edirdi. Bir gün biz qərargahda oturmuşduq. Qacar kəndindən telefon zəngi oldu ki, ermənilər güclü qüvvə ilə kəndə hücum çəkirlər, xahiş edirik batalyonlardan kömək göndərsinlər. Hansı batalyona müraciət oldusa heç biri əmri yerinə yetirmək istəmədi, heç kəs getmədi. Belə vəziyyətdə rayon rəhbərlərindən biri Müdafiə Nazirliyi ilə əlaqə saxladı. Bizim iştirakımızla, orada olduğumuz zaman ona belə cavab verildi ki, Rəhim Qazıyev özü danışdı, — dedi ki, briqadaya heç bir göstəriş verməyəcəyəm. Canı çıxsın, füzulilər özləri tədbir görsünlər. Bax, ondan belə cavab alındı. Bir az keçdi, xəbər gəldi ki, orada bu hücumun qarşısı bizim yerli polis idarəsindən olan əməkdaşların və yerli camaatın köməyi ilə dəf olunub. Yeri gəlmişkən deyim ki, bizim bir sıra kəndlərimizi, xüsusilə Aşağı Veysəllini ordu tamamilə yiyəsiz qoyub getmişdi, amma rayonumuzun polis işçiləri dəstə ilə oraya gedərək mövqeni əldə saxladılar, qoşun hissəsi köməyə gələnə qədər müdafiə etdilər. Rəis başda olmaqla polis işçiləri əsl hünər göstərirdilər.

Bacarıqlı, hərbi sahədə səriştəli müdafiə naziri, baş qərargah, digər komanda hey'əti olmadan qələbəyə ümid bəsləmək olmazdı. Bu, bir



həqiqətdir ki, Vətənin hər qarış torpağı uğrunda canından keçməyə hazır olan döyüşçülərimiz həqiqətən çox idi. Lakin sahibsizlik, başsızlıq üzündən onların qələbə əzmi nəticəsiz qaldı.

Hörmətli cənab Prezident! Biz yalnız Sizin Baş komandanlığınız dövründə idarə edilən planlı hücum əməliyyatı və onun uğurlu nəticələri ilə tanış olduq, şad olduq. Məhz Sizin xüsusi qayğınız sayəsində ordu əsaslı surətdə yenidən qurulmağa başlandı, orduda intizam möhkəmləndirildi, komanda hey'ətində gözümüzün qabağında dəyişikliklər aparıldı, yararsız adamların əksəriyyəti, demək olar ki, hamısı ordudan kənarlaşdırıldı, yeni komandirlərlə əvəz olundu. Bundan sonra bizim Füzuli istiqamətində yəqin ki, baş qərargahın planı ilə, Sizin rəhbərliyinizlə hücum əməliyyatı hazırlanıb keçirildi və bu əməliyyatın uğurlu nəticəsini gördük. 22 kəndimiz və Horadiz qəsəbəsi məharətlə azad edildi, düşmən oradan qovulub çıxarıldı. Bunun iki mə'nada böyük əhəmiyyəti oldu: birincisi — yerli əhali öz torpağına qayıtdı və çox sevincək halda bu torpaqda işləməyə, çalışmağa, zəhmət çəkməyə başladı; ikinci, ən böyük əhəmiyyəti ondan ibarət oldu ki, ordumuzda inam yarandı. Əvvəllər belə hiss olunurdu ki, əsgərlər ruhdan düşürdü, döyüşə bilmirdi, elə bilirdilər ki, doğrudan da məğlub olurlar, halbuki onları qəsdən məğlub edirdilər. İndi isə onlarda inam yarandı.

Son günlərdə biz — bir qrup veteran Elnur Məmmədovun başçılıq etdiyi N. hərbi hissəsinə getdik. Orada onların döyüş hazırlığı ilə tanış olduq. Ürəyimiz açıldı, şad olduq, komandirə minnətdarlığımızı bildirdik və qayıdarkən yolda düşündük ki, indi ordumuz var, buna inanmaq olar.

Bütün bunlar üçün, hörmətli Prezident, çox sağ olun ki, ordu bu vəziyyətə düşüb və inanıram ki, indi də orada çox işlər gedir. Yəqin ki, ordumuz günü-gündən möhkəmlənəcək, inamlı, əsl xalq ordusu səviyyəsinə gəlib çıxacaqdır.

İndi bizim hamımıza, hətta sıravi adamlara da aydındır ki, ordumuz var, onun müstəsna hərbi iste'dadlı Baş komandanı var. İş e''tibarlı əllərdədir və bunlara inanmaq olar. Onu da deyim ki, rayon icra hakimiyyəti ordu ilə əhalinin, təşkilatların əlaqəsini müntəzəm olaraq yaxşı səviyyədə saxlamaq üçün ciddi iş aparır. Belə əlaqə qabaqlar da var idi. Məndən qabaq çıxış edən natiqlər də dedilər — onda da orduya hər cür kömək göstərilirdi, səngəri də camaat qazırdı, keşiyi də ordu ilə birlikdə çəkirdi. Əsgərlərin rahatlığı üçün, onları ərzaqla tə'min etmək üçün hər iş görülürdü, hətta, doğru qeyd etdilər ki, pul yığılırdı.

Hörmətli Prezident, inanırsınız, pulu kisələrə yığdılar, apardılar ki, respublikanın ərazisindən çıxıb getməkdə olan rus ordusundan tanklar alınacaq və o tanklar gəlib Füzulini müdafiə edəcəkdir. O

pullar getdi, heç səsi də çıxmadı. Burada oturan adamlarımız bilirlər. Yəqin, o biri rayonlarda da belə idi. Biz patron da alırdıq, hər şey edirdik, qələbəmiz üçün hər şeyə hazır idik. Hətta istəyirdik ki, özümüz könüllülər dəstəsi düzəldək. İkinci Dünya müharibəsində başımıza çox iş gəlib. Mən onun fəal iştirakçısı olmuşam, özü də zabit olmuşam. İndi mən deyirdim ki, tank qorxulu deyil, ondan qaçmaq lazım deyil. Mənə ikicə top verin, o tankları vuraq, görün ki, tanka qarşı necə vuruşmaq olar. Eləmirdilər bunu. Texnika qalırdı orada, tankı salamat halda düşmənə təhvil verirdilər. Tanklar çevik əməliyyat keçirə bilmirdi, adamlar buna hazırlanmırdı, təcrübəli döyüşçülərdən istifadə etmirdilər. Bayaq deyilən bombanı Müdafiə Nazirliyindən gələn adamlar zərərsizləşdirə bilmədilər, amma Horadiz kəndindən bir sıravi kişi, müharibə iştirakçısı gəldi, o bombanı zərərsizləşdirdi, camaatı partlayışdan xilas etdi. Minlərlə füzulili ürəklə vuruşdu, döyüşdü. Bilirsiniz ki, onların 6 nəfəri Milli Qəhrəman adı aldı, min nəfərə qədər şəhidimiz, itkimiz, 1500 nəfər yaralımız oldu, onların xeyli hissəsi şikəst oldu. Təəssüf ki, bu işin mahiyyətini bilməyənlər çox vaxt ürəyə toxunurlar ki, geri çəkilməyin günahı əhalidədir. Bu, haqsız sözlərdir, bu, ancaq dövlət başçılarının günahı idi, Rəhim Qazıyevin günahı idi, Elçibəyin günahı idi — prezident kimi o tədbir görmürdü.

Məsələn, o biri prezidentin vaxtında Xocalı faciəsi baş vermişdi, camaatın gözünü qorxutmuşdu. Axı, camaat ölkənin başçısına və ordusuna e'tibar etsəydi, heç kəs geri çəkilməzdi, qalardı orada. Mən sizi inandırıram, özüm şahidiyəm ki, zərurət olmadığı halda, ciddi döyüş olmadığı halda ordu camaatdan qabaq çıxırdı. Biz görmədik ki, döyüş ola — ordu bacarmaya; vuruşa, amma öhdəsindən gələ bilməyə, geri çəkilməyə məcbur ola. Belə hallar yox idi.

Əhmədbəylidə gördüm ki, camaat evindən hələ çıxmayıb, tanklar, toplar isə çıxıb gedir. Zabitlər, əsgərlər camaatın qabaq hissəsində olan qadınları danlayır, yolu təmizləyirdilər ki, tank keçsin. Kapitana deyirəm, ay oğul, nə edirsən, deyir, nə etməliyəm, vuruşmuruq, dayı. Dedim, elə danışma, topu çək bu tərəfə, atın, camaata deyin qorxmasın, kömək edin, bu vəziyyətdə, bu tələşlə yolunu tutmayın camaatın. Deyir "Əşi, get işinə, sən də mənimlə danışma". Sonra öyrəndim ki, bu hansı dəstədir. Əlikram Hümbətovun dəstəsi idi. Maşını sürüb Yuxarı Əbdürrəhmanlıda, Aşağı Əbdürrəhmanlıda adamları kəndin içərisində güllələdilər ki, rədd olun gedin. Ailəni məhv etdilər. Merdinli kəndində gəlib dedilər ki, niyə rədd olub getmirsiniz? Çıxandan sonra da talana başlayırdılar, evləri sökürdülər, dağıdırdılar. avadanlığını aparırdılar, hərbi maşınlara yükləyib hara isə göndərirdilər. Torpaqları bilərəkdən düşmənə verirdilər. Heyf o oğullara ki, döyüşmək əhval-ruhiyyəsində idilər, o uşaqlardan orada lazımınca istifadə edilmirdi. Başçıların fərsizliyi əhalini qorxudurdu.



İndi isə hörmətli Heydər Əliyev cənablarına inam ordumuzu, əhalini qorxmazlıq ruhunda tərbiyə edir. Adamlar Prezidentimizin Qarabağ münaqişəsini sülh yolu ilə həll edəcəyinə inanır və öz doğma torpaqlarına qayıdacaqlarına böyük ümid bəsləyirlər.

Hörmətli cənab Prezident! Rayonun rəhbərləri kimi çox məs'ul bir vəzifəyə uzun müddət qeyri-münasib adamların qoyulması adətə çevrilmişdi. Nəhayət, Sizin fərmanınızla bu iş qaydaya salındı. Başçı tə'yin edilmiş Nəbi Muxtarovun ətrafında camaat toplaşıb, onunla birlikdə, minalardan təmizlənən yerlərdə inamla iş aparır, yaxşı məhsul becərir və əlbir hərəkət edir. Bu il 8.600 ton taxıl istehsal olunub, bütün şəhid ailələrinə, veteranların böyük əksəriyyətinə pulsuz taxıl verilib. Bütün bu tədbirləri Sizin siyasətinizin yerlərdə həyata keçirilməsinin nəticəsi hesab edirik. Bu qaynar həyat fəaliyyəti göstərir ki, Sizin sağlığınıza,Füzuli yaşayır, Füzuli işləyir və indən belə də Sizin siyasətinizi həyata keçirmək üçün var gücü ilə çalışacaqdır. Biz çox minnətdarıq ki, bizim 3 min hektar torpağımızın özümüzə qaytarılmasını tə'min etdiniz.

Hörmətli Prezident! Bizim orada əlavə 2.900 hektar torpağımız qalır. Əgər mümkün hesab etsəydiniz, biz xahiş edərdik ki, o torpaqları da bizə qaytarmaqla, şoran torpaqlarda, çadırlarda, qışda soyuqda, yayda istidə zülm çəkən əhalini orada məskunlaşdırmaq, onlara yaşayış şəraiti yaratmaq olar. Qoy o torpaqlarda yaşasınlar və məhsul istehsal edib özlərini dolandıra bilsinlər.

**Heydər Əliyev:** O torpaq sizinkidir?

**Hüseyn Hüseynov:** Bəli.

**Heydər Əliyev:** Kim mane olur ki?

**Hüseyn Hüseynov:** Sizin göstərişinizlə 3 min hektarını bizə qaytarıblar, 2.900 hektarı qalıb.

**Heydər Əliyev:**. Harada qalıb?

**Hüseyn Hüseynov:** Beyləqan rayonu ərazisində qalıb. O bizə qaytarılmayıb. Bir hissəsi qaytarılıb. Mən xahiş edərdim, onu da qaytarsaydınız, çadırlarda yaşayan bütün əhalimiz gedib orada yaşayar, çadırı orada qurar, evi də orada tikər, öz torpağında yaşayar və oranı becərər, cənnətə çevirər. Çox yaxşı olardı, əgər mümkün hesab etsəydiniz.

Hörmətli cənab Prezident! İşğaldan əvvəl Füzuli ərazisində bizim 86 məktəbimiz, 22 min şagirdimiz var idi. İndi, işğaldan sonra respublikanın müxtəlif rayonlarında bizim 14 min şagirdimiz üçün 70 məktəb fəaliyyət göstərir. Bu məktəblərin 19-u rayonun ərazisindədir. Təəssüf ki, bu binaların əksəriyyəti yandırılıb, dağıdılıb, orada tə'lim-tərbiyə işi çox çətin şəraitdə aparılır. Amma pedaqoji kollektivlərimiz ruhdan düşmür, icra hakimiyyətinin, Təhsil Nazirliyinin köməyi ilə daha yaxşı işləməyə sə'y göstərirlər. Hətta

məktəblərimizin biri, internat məktəb və Saatlı çadır şəhərciyində olan bağçalarımızın biri torpaq sahəsi götürüblər, özlərini ərzaqla tə'min etmək üçün tədbirlər görürlər, yaxşı da nəticə verir. Biz çalışırıq ki, uşaqlarımızı müstəqil Azərbaycanımızın layiqli vətəndaşları kimi yetişdirməyə nail olaq.

Əmin ola bilərsiniz ki, füzulililər Sizin siyasətinizi ürəkdən bəyənir və bu siyasəti yerlərdə həyata keçirmək uğrunda əzmlə çalışırlar. Bundan sonra da belə olacaqdır. Arzu edirik ki, torpaqlarımızı sülh yolu ilə azad edəsiniz. Əgər bunun çətinliyi olsa, Baş komandan kimi lazım bilsəniz, bütün füzulililər silaha sarılıb Sizin arxanızda, döyüşən ordunun sıralarında durmağa hazırdırlar. O cümlədən şəxsən mən özüm də, bütün veteranlar da. Sağ olun!

Milli Məclisin üzvü,
professor
**MƏMMƏD MƏMMƏDOVUN**
çıxışı

Möhtərəm cənab Prezident! Hörmətli görüş iştirakçıları! Burada qeyd edildiyi kimi, 1993-cü il avqust ayının 16-19-da Füzuli şəhəri və ətraf kəndlərimiz ermənilər tərəfindən işğal olunub. Lakin Füzulinin işğalını bu tarixlə əlaqələndirmək mümkün deyil. Belə ki, hələ 1992-ci ildə və 1993-cü ilin əvvəllərində Füzuli şəhərini əhatə edən strateji əhəmiyyətli bütün yüksəkliklər və Füzulinin Dağlıq Qarabağla həmsərhəd olan, yüksək yerlərdə yerləşən kəndləri artıq ermənilərə verilmişdi. Ona görə də Füzulinin işğalını 1993-cü ilin avqustu ilə izah etmək doğru deyil. Füzulinin işğalı çox planlı şəkildə, ardıcıl olaraq, məqsədyönlü şəkildə uzun illər aparıldı və axırıncı nöqtə 1993-cü ilin avqustunda qoyuldu.

Çox təəssüflər olsun ki, bütün bu strateji yüksəkliklər, strateji əhəmiyyətli kəndlər düşmənə verilərkən onların birində də döyüş əməliyyatları aparılmadı. Burada çox qeyd olundu, mən onların üstündə dayanmaq istəmirəm. Təəssüf doğuran hal bir də odur ki, Füzuli rayonu kimi, işğal olunmuş bütün başqa rayonlarımızın hamısında eyni dəst-xətti və eyni ssenarini görmək mümkündür. Nə idi bu ssenari? Bu ssenari, əvvələn, rayonda yaşayan əhalidə qorxu xofu yaratmaq idi. Füzulidə də bunu etdilər. Dəfələrlə bizim öz hərbi təyyarələrimiz Füzuli şəhərini bombardman etdi. Ölənlər oldu, binalar dağıldı. Bayaq burada dedilər ki, Surət Hüseynov izah etdi ki, guya belə deyil. Füzuli camaatının Bakıda yaşayan nümayəndələri kimi, biz onda Rəhim Qazıyevin yanına getdik. Rəhim Qazıyev dedi ki, o təyyarəni sürənə koordinatları səhv veriblər və o, dəyişik salıb.



Əlbəttə ki, burada əyləşənlərin hamısı Füzulini coğrafi nöqteyi-nəzərdən tanıyır. Füzulinin 40-50 km radiusunda o boyda bir yaşayış məntəqəsi yoxdur ki, onu hansısa bir yaşayış məntəqəsi ilə səhv salmaq olsun. Demək, xalqı qaçırmaq üçün qorxu xofu yaradırdılar.

Bakıdan emissarlar gəlirdi. Fikir verin, hörmətli Prezident, o biri rayonlarda da belə olub. Bakıdan gələn emissarlar yüzlərlə maşından ibarət karvanlar ilə camaatı çıxarmaq üçün gəlirdilər. Füzuli, Ağdam, Cəbrayıl və s. — hamısı eyni ssenari üzrə düşmənə verilib. "Köçmək lazımdır, canımızı qurtarmaq lazımdır". Kəndləri planlı surətdə bax, bu şəkildə boşaldırdılar. Sonralar bu rayonların əldən getməsini təkcə 1993-cü ilin avqust—sentyabr ayları ilə bağlamaq və bunu gətirib hörmətli Prezidentimiz Heydər Əliyevin hakimiyyət dövrü ilə əlaqələndirmək — bu, nəinki yerli-dibli səhvdir, hətta mən deyərəm ədalətsizlikdir və insafsızlıqdır.

Mən bu sual ətrafında çox fikirləşmişəm: 1993-cü ilin avqust-sentyabr aylarında bu rayonların işğalının qabağını almaq görəsən mümkün olardı, ya olmazdı? Görəsən o rayonları müdafiə etmək olardı, ya olmazdı? Mən bunu qəti deyirəm: əgər 1992-ci ildə və 1993-cü ilin birinci yarısında respublikamızda olan ictimai-siyasi vəziyyəti, durumu, ordunun vəziyyətini, xalqın parçalanmasını, ölkəmizin real vətəndaş müharibəsi şəraitində olmasını nəzərə alsaq, mən qəti bildirirəm ki, kim olur-olsun, 1993-cü ilin avqust-sentyabr aylarında o rayonların işğalının qarşısını almaq mümkün deyildi. O artıq planlaşdırılmışdı, axırıncı nöqtə idi. Bə'zi qəzetlərdə, xüsusən müxalifət qəzetlərində mən vaxtilə çox oxumuşam ki, bəli, bu bir neçə rayon 1993-cü ilin avqust-sentyabr aylarında işğal olunub. Xeyr, elə deyil. Bu rayonlar 1992-ci ildən e"tibarən əlimizdən getmişdir. Bu rayonlar 1988-ci ildən başlayaraq planlı surətdə düşmənə verilməyə hazırlanırdı.

Mən bir neçə kəlmə Füzuli hadisələri haqqında deyim. O biri rayonlarda da eynidir, tamamilə eyni dəst-xətdir. Nə etdilər? Füzulini ilk işğal edənlərdən biri Əlikramın dəstəsi oldu. Hörmətli Prezident, iki kəndimizin adamlarını qırdılar. Elə bilmişdilər ki, bunlar erməni tanklarıdır. Orada adamları öldürmüşdülər. Bayaq icra hakimiyyəti başçısı bunu dedi. Neçə evi yandırmışdılar, qızları tanklara qoyub aparmışdılar və evlərdən var-dövləti yığışdırmağa başlamışdılar. Bütün bunları orada — Aşağı və Yuxarı Əbdürrəhmanlı kəndlərində Əlikramın dəstəsi etmişdir.

Füzulidə və digər kəndlərin və rayonların hamısında ordu hissələri mülki adamlardan qabaq çıxıblar. Ordu çıxıb və heç bir imkan verməyib ki, əvvəlcə mülki əhali çıxsın. Əhali ordudan sonra çıxmalı olub. Bax, bu şəkildə — xəyanət nəticəsində, satqınlıq nəticəsində, dövlət başçılarının maymaqlığı nəticəsində bu rayonları düşmənə verdilər.

1988-ci ildən başlayaraq başımıza gələn bu fəlakətlər zamanı biz çoxlu böyük səhvlər buraxmışıq. Mən həmişə fikirləşmişəm ki, ən həlledici səhvi biz harada buraxdıq və bu faciələrin qarşısını almaq mümkündürmü? Mən bir qənaətə gəlmişəm, o qənaəti sizin hamınızla bölüşmək istəyirəm. Əvvələn, faciənin qarşısını almaq olardı. Yalnız bir şərtlə ki, o hadisələri olduğu kimi qiymətləndirməyi bacaraq. SSRİ-nin dağıdılması ilə əlaqədar yaranmış mürəkkəb şəraitdə baş çıxaran, heç olmasa bircə il qabağı görə bilən dövlət başçımız olsaydı, onda inandırıram sizi, bu faciələr başımıza gəlməzdi. Ancaq təəssüflər olsun ki, bu faciələr bizim başımıza bax, o fərsiz, maymaq, siyasətdən çox-çox uzaq dövlət başçılarımızın hesabına gəldi.

Mən bir misal demək istəyirəm. Əbülfəz Elçibəyin prezidentliyə namizədlik vaxtı — o zaman mən İqtisadiyyat İnstitutunda professor idim — o, seçicilərlə görüşə gəlmişdi. İsgəndər Həmidov və onun dəstəsi onu çox təmtəraqlı şəkildə, avtomatlarla təqdim etməyə gətirmişdi. Orada İsgəndər Həmidov dedi ki, biz prezidentliyə namizədi yox, Azərbaycanın prezidentini gətirmişik sizin yanınıza, nə sualınız varsa verə bilərsiniz. Verilən sual və Əbülfəzin cavabı indiyə qədər sözbəsöz yadımda qalıb. Burada məclisdə iştirak edənlərdən orada olublar. Soruşdular ki, Qarabağ məsələsini necə həll edəcəksən? Əbülfəz dedi ki, Azərbaycanın qarşısında çox böyük problemlər var, bu nə problemdir ki, deyirsiniz. Bu, bir həftənin işidir. Soruşdular ki, necə yə'ni bir həftənin işidir? Dedi: Ermənistanla sərhədləri bağlayacağıq, bir həftədən sonra buradan erməniləri hürküdəcəyik, oradan da bir qapı qoyacağıq, ermənilər çıxandan sonra o qapını bağlayacağıq. Bu, oldu Qarabağ.

O bunu deyəndə mən fikirləşdim ki, Azərbaycanın faciələri hələ qabaqdadır. Doğrudan da bizi faciə gözləyirdi. Bayaq Füzuliyə getməyini danışdılar. Mən də onun şahidi olmuşam. O vaxtlar mən Füzuli ziyalılarının nümayəndəsi kimi elə bir həftə olmazdı ki, əlaqəm olmasın, getməyim ora, əlaqə saxlamayım. Orada gözəl ikimərtəbəli qonaq evi var idi, vaxtilə tikilmişdi. Mən soruşdum ki, necə oldu, Əbülfəz Elçibəy gəldi, nə danışdı, kiminlə görüşdü? Dedilər ki, gəldi, dedi əvvəl çörək yeyək, sonra gedək görüşək. Çıxıb həmin ikinci mərtəbədəki qonaq otağına, araqların birini bəyənməyib, o biri markasını gətiriblər, nə isə, hansınısa bəyənib. Burada dəstəsi ilə necə yeyib-içibsə, mənə and içdilər ki, onu pilləkəndən endirə bilmədilər, iki adam bir təhər tutub endirdi. Maşına otura bilmədi, çətinliklə oturtdular. Füzulililərə heç sağ ol da demədi, çıxdı gəldi Bakıya. Bax, bu adam Prezident olan yerdə Füzulidə və digər rayonlarda bayaq danışılan hadisələr olmalı idi. Mən vaxtınızı çox almayacağam.

Nəhayət, Azərbaycan öz rəhbərini tapdı. Mən sizə təkcə öz sözümü



yox, Azərbaycan ziyalılarının böyük əksəriyyətinin sözünü demək istəyirəm. Hörmətli Heydər Əliyevin Azərbaycan rəhbərliyinə ikinci dəfə gəlməsi, doğrudan da, Azərbaycan xalqının xoşbəxtliyidir. Mən bu sualı da öz-özümə verirəm: Heydər Əliyevin Azərbaycana rəhbərliyə ikinci dəfə gəlməsi ilə Azərbaycan nəyi itirdi və nəyi qazandı? Mən bu suala da cavab tapmışam: Azərbaycan onu itirdi ki, çoxdan itirməli idi. Azərbaycan bu gün ürək ağrısı ilə danışdığımız hadisələri törədən, xalqa xəyanət edən, xalqa düşmənçilik edən, bir milyondan artıq adamın, əzab-əziyyətlə yaşayan qaçqınların həyatını bu vəziyyətə salan bir sıra quldur dəstələrini itirdi. O quldur dəstələri ki, onları itirmək çoxdan lazım idi. Heydər Əliyevdən qabaq da onu eləyə bilərdilər, amma eləmədilər. Hamınıza mə'lumdur o, quldur dəstəsi - XTPD deyilən dəstə var idi. İndi çox şey deyirlər ki, onlar nə ilə məşğul olurdular. Gecə saat 9-dan sonra heç kim qorxusundan küçəyə çıxa bilmirdi. Bəli, bu dəstənin üzvləri quldurluqla məşğul olurdular. Bax, itirdiyimiz bu oldu.

Qazandığımız nə oldu? Qazandığımız indiki Azərbaycan oldu. O Azərbaycan ki, bütün problemlərinə baxmayaraq, bütün çətinliklərinə baxmayaraq,müstəqil dövlət kimi addım-addım irəliləyir. O Azərbaycanı qazandıq ki, bu gün beynəlxalq aləmdə onu dünyanın aparıcı dövlətləri, bütün beynəlxalq təşkilatları həm tanıyırlar, həm də müdafiə edirlər, həm də hesablaşırlar — bax, biz bunu qazanmışıq.

Nə şəraitdə gəlmişdi Azərbaycana hörmətli Prezidentimiz? Bircə cümlə ilə yadınıza salmaq istəyirəm. Heydər Əliyev hakimiyyətə gələndə, Azərbaycanda artıq vətəndaş müharibəsi başlanmışdı. Gəncəbasarı Surət Hüseynov tutmuşdu və addım-addım Bakıya gəlirdi. Hər yerdə də Nikolay vaxtının qubernatoru kimi istədiyini edirdi — istədiyini vəzifədən çıxarırdı, istədiyini qoyurdu. Azərbaycanın cənub rayonları yox kimi idi, Salyandan o tərəfə getmək mümkün deyildi. Salyandan o tərəfə Əlikram bir xətt çəkmişdi, deyirdi "bura bizim talış respublikasıdır". Şimal tərəfdə "ləzgi problemi" qaldırmışdılar. Ömründə Azərbaycanda elə problem olmayıb. Ümumiyyətlə, Azərbaycanda kiçik, azsaylı xalqların problemi heç bir zaman olmayıb. Bu yandan "kürd respublikası" yaratmaq istəyirdilər.

Bax, belə bir şəraitdə Heydər Əliyev rəhbərliyə gəldi, sonra da Prezident oldu. Həmin vəziyyətlə indiki Azərbaycanı müqayisə edin. Heydər Əliyev gəlməsəydi, razılıq verməsəydi, bəlkə də indiki Azərbaycan yox idi, bəlkə də indi ayrı-ayrı xanlıqlar kimi, ayrı-ayrı hissələr kimi idi. Bax, Azərbaycan bunu qazandı.

Hörmətli Prezident, Sizi bütün xalq müdafiə edir. O tək-tək çıxışlara, müxalifət qəzetlərinə fikir vermək lazım deyil.

Möhtərəm Prezident, Sizin göstərdiyiniz böyük e'timaddan sui-istifadəni mən Azərbaycan üçün çox böyük xəyanətkarlıq hesab

edirəm. Təəssüflər olsun ki, bütün sahələrdə Sizin e'timadınızdan hələlik sui-istifadə edənlər var. Onlardan tamamilə azad olmaq lazımdır. Beləleri hər yerdə, bütün iqtisadi strukturlarda, bütün idarələrdə, nazirliklərdə — hamısında var. Özlərinin həm təşəbbüsü, həm də iş bacarığı yoxdur. Heç olmasa deyiləni qabaqlar edirdilər, indi edə bilmirlər. Ona görə ki, bə'ziləri istəsə də edə bilməzlər, onların enerjisi tükənib, bə'ziləri isə, doğrudan da xəyanətkardır, onlardan azad olmaq lazımdır.

Mən inanıram ki, Füzuli camaatı, Cəbrayıl camaatı, Qubadlı camaatı — harada yaşamağından, harada yerləşməyindən asılı olmayaraq, həmişə Sizə ümidlə, inamla bağlanmış camaat hər bir məsələdə Sizin arxanızda duracaqdır. Bu camaatın hamısının ümidləri Sizədir ki, öz torpaqlarına qayıtsınlar. Bu ümid Sizinlə bağlıdır. Bu ümidi uşaq da, böyük də, yaşlı da Sizinlə bağlayır. Mən arzu edirəm ki, Allah sizə bol-bol can sağlığı versin, canınız sağlam olsun. Sizə bu işdə müvəffəqiyyətlər arzu edirəm. Həm camaatımız yerinə qayıtsın, həm də Azərbaycanın külli miqdarda problemləri — iqtisadi problemlər, dövlətçilik problemləri var. Azərbaycanın beynəlxalq aləmdə formalaşmış siyasəti var. Bunların hamısına rəhbərlik edən Sizsiniz, Heydər Əliyeviç. Mən inanıram ki, hələ Sizin 1993-cü ilə qədərki xidmətlərinizi bir tərəfə qoysaq, 1993-cü ildən bəri Sizin Azərbaycanı indiki vəziyyətə gətirməyiniz, coşğun fəaliyyətiniz göz qabağındadır. Azərbaycanın bütün tarixində Sizin adınız həmişə qızıl hərflərlə yazılmalıdır. Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev:** Sağ olun. Hətəm Hətəmova söz verirəm. Xahiş edirəm, bir az yığcam danışın. Çünki hələ cəbrayıllılar da danışmayıb, qubadlılar da danışmayıb.

Əmək veteranı
## HƏTƏM HƏTƏMOVUN
çıxışı

Hörmətli cənab Prezident! Hörmətli görüş iştirakçıları! Prezidentimizin çox böyük qayğıkeşliyi, öz şəxsi təşəbbüsü ilə keçirilən bu görüşlər təkcə doğma yurd-yuvasından didərgin düşmüş bir milyondan artıq qaçqın üçün deyil, bütün Azərbaycan xalqı üçün çox gərəkli, çox qiymətlidir. Ona görə gərəklidir ki, xalqımızın 1988-ci ildən bəri itirdiklərinin hamısının — 25 faizə qədər torpağımızın itirilməsinin, adamların qaçqın düşməsinin, ölkənin bu vəziyyətə salınmasının səbəbkarlarının hamısı bu görüşlərdə aşkara çıxmalıdır. Bu müzakirələrdən, bu görüşlərdən aydın olur ki, Azərbaycanın başına gələn müsibətlər nəyin səbəbinə, nə üçün baş vermişdir.



Xalqımız bunu bilməlidir. Xalqımız bilməlidir ki, ermənilərlə aparılan bu ölüm-dirim müharibəsində Azərbaycanın məğlub olmasının səbəbi doğrudanmı ermənilərin "igidliyi", "qəhrəmanlığı"dır, yoxsa başqa səbəblər var.

İndi tam aydın olur ki, 20 Yanvar hadisələri, övladlarımızın günahsız qanının axıdılması, Gəncə hadisələri, 3-4 oktyabr hadisələri, metroda partlayışlar, canilərin qaçırılması, dövlət xadimlərinin qətlə yetirilməsi, Prezidentin həyatına qəsd, nəhayət, mart hadisələri — bunlar eyni dəst-xətlə hazırlanmış ssenarilər əsasında, vəzifə kürsüsü uğrunda mübarizə aparan, başları boş, cibləri dolu olan Ayaz Mütəllibov, Rəhim Qazıyev, Surət Hüseynov və Əlikram Hümbətovun, onların yüzlərlə əlaltılarının cinayətkar hərəkətləri nəticəsində baş vermişdir. Ona görə də indi həmin o səbəbkarlar aydın olmalı və öz siyasi qiymətlərini almalıdır.

Mən demək istəyirəm ki, həmin hadisələr hələ 1988-ci ildən başlanmışdır. O vaxtlar bu hadisələrin qarşısını almaq olardı. O vaxtkı rəhbərlər — Kamran Bağırov, Vəzirov, Elçibəy, hələ Ayaz Mütəllibovu demirəm, onun haqqında biz çox deyirik və yenə deyəcəyik - onların vaxtında bu hadisələrin qarşısı alına bilmədi. Mən Elçibəy haqqında da demirəm, onu heç qınamıram, xalqımız da ondan heç bir şey gözləmirdi. Çünki Elçibəy ömrü boyu heç olmasa yüz nəfərin işlədiyi bir idarənin müdiri olsaydı, ondan bir şey gözləmək olardı. Onu prezident seçdilər, kürsüdə əyləşdirdilər. Respublikanı idarə etməli idi, lakin onun özünü də idarə etdilər. Onun özünü İsa Qəmbər, Pənah Hüseynov, Arif Hacıyev, Rəhim Qazıyev, İsgəndər Həmidov idarə edirdilər. Onların "idarə üsulunu" da, idarəetmə praktikasını da xalqımız çox gözəl gördü. Bax, belə hallar Azərbaycanı bu vəziyyətə gətirib çıxarmışdır.

Yaxud, 1988-ci ildə, Kamran Bağırovun vaxtında o gərək görəydi ki, 1987-ci ildə ermənilər Dağlıq Qarabağda olan azərbaycanlıları necə sıxışdırırlar, onların ov tüfənglərini yığırlar, adamları yüz cür bəhanə ilə həbs edirlər, çıxartmaq, qovmaq istəyirlər — gərək bunu görəydi. Amma görmürdü. Özü iki dəfə Stepanakertə getdi. Onu nə maşından düşməyə, nə də maşına minməyə qoymurdular. Gərək o, onda tədbir görəydi, qoymayaydı ki, Azərbaycanda ermənilər bu qədər qol-qanad açsınlar. Hələ 1986-1987-ci illərdə Azərbaycanda yaşayan ermənilər "Qarabağ" fondu deyilən bir fond yaradıb ora pul toplayırdılar. Kamran Bağırov Ağdamı, Füzulini, ondan sonra Şuşanı qoyub gedib, zona müşavirəsi keçirib, orada Suren Adamyanın evində yatanda, gecələyəndə gərək heç olmasa Suren Adamyandan öyrənəydi ki, bu ermənilər nə işlə məşğuldurlar. Bunu da eləmədi.

Əbdürrəhman Vəzirovun dövründə 200 minə qədər azərbaycanlını

Ermənistandan qovdular, hamısını yönəltdilər Bakıya tərəf, aran zonalarına tərəf, qoymadılar heç olmasa 50 min nəfəri, 100 min nəfəri Dağlıq Qarabağ ərazisində yerləşsin və ermənilər oradan sıxışdırsınlar. Məsələn, Şəmkir rayonundakı Çardaxlı kəndini hamı tanıyır. Bu kəndi Moskvadakı, Amerika Birləşmiş Ştatlarındakı ermənilər qəhrəman kənd kimi qələmə verirlər, çünki oradan çoxlu qəhrəmanlar çıxmışdır. O vaxt rayonda katib olan Əhməd Əhmədzadə oradakı çoxlu erməni qısa bir müddətdə hansı üsullasa dinc-dinməz qaçırtdı, ermənilər oradan təmizləndi. Belə olmasaydı, Tovuz-Şəmkir zonası da indi erməni işğalı altında ola bilərdi.

Bəs nə üçün Vəzirov və ondan sonra gələnlər azərbaycanlıları ermənilərin yanında yerləşdirmədilər? Onda heç müharibə də lazım deyildi, ermənilər özləri oradan qaçardı.

Bax, bu cür başabəla rəhbərlərimizin günahı üzündən biz indi də əziyyət çəkirik. Mən hesab edirəm ki, əgər biz o dövrə yaxşı qiymət vermək istəyiriksə, o zaman rəhbər işləyən Bağırovun, sonra Vəzirovun, Edçibəyin fəaliyyətsizliyinə qiymət verməliyik. Çünki əgər onlar yaxşı dövlət başçısı olsaydılar, irəlini görsəydilər, Məmməd müəllimin dediyi kimi, bu hadisələri qabaqlaya bilərdilər və o çətinliklər indi hörmətli Prezidentimizin çiyinlərində ağır yük kimi qalmazdı.

Bax, belə-belə işlər bizim Azərbaycanı bu müsibətlərə salıbdır. Hələ görəsən, hörmətli Prezidentimiz hakimiyyət başına gəlməsəydi, Azərbaycan xalqı daha hansı dəhşətli müsibətlərə düçar olardı.

Mən bir neçə kəlmə də Füzulinin düşmən tərəfindən alınması haqqında demək istəyirəm. 1988-ci ildən 1992-ci ilin mart-aprel aylarına qədər Füzulini 100-120 polis nəfəri, bir də yerli özünümüdafiə dəstələri qoruyurdu. Özü də çox çətinliklə, çünki silah yox idi, 10-15 adama bir silah düşürdü. Amma rayonu mərdliklə qoruyurdular. Mən birinci elə öz doğulduğum,boya-başa çatdığım Yuxarı Veysəlli kəndini deməliyəm. Ermənilər Dağlıq Qarabağdan sonra 22 fevral 1992-ci ildə Yuxarı Veysəlli kəndini aldılar. Ondan sonra ermənilər rus birləşmələri ilə birlikdə Xocavənd rayonunun Qaradağlı kəndini aldılar. Bu döyüşdə 6 tank, yüz-yüz əlliyə qədər erməni-rus döyüşçüsü iştirak etmişdi. Orada 110 nəfərə qədər əhalini öldürüb silos quyusunda basdırmışdılar. Biz bunu bilirdik və o vaxt respublika rəhbərliyinə — prezidentə qədər, Müdafiə Naziliyinə qədər haray salmışdıq ki, düşmən qapımızın ağzına qədər gəlib, bizi də belə soyqırımı gözləyir, heç məhəl qoyulmadı.

Ermənilər bizə tələ qurmuşdular, kəndin çıxacağında saqqallılardan ibarət bir yuva salmışdılar ki, bizim kəndi mühasirəyə alsındar. Kəndimizin igidləri 10-15 polis işçisinin köməyi ilə 1991-ci il dekabrın



31-də gecə o yuvanı dağıtdılar. Demək, bizim mühasirəyə düşmək qorxumuz aradan çıxdı.

Bundan sonra 22 fevralda ermənilər böyük bir dəstə ilə bizim kəndi mühasirəyə aldılar. Burada bir məqamı xatırlatmaq istəyirəm. Gecə əhalini çıxartdıq. Kəndin bir tərəfində dərin bir qobu var idi ki, ora ilə gedəndə heç tanklar da görünməzdi. Əhali oradan çıxdı. Biz əvvəlcədən sahə müvəkkili ilə danışdıq ki, o, əhalini çıxartsın, mən bu işlərə rəhbərlik edim. Ratsiya ilə danışdıq, dedilər ki, internat məktəbdə 40 nəfər XTPD-çi var və 15-ə qədər də döyüşçü sizə köməyə gələcək. Biz saat 3-dən gözlədik. Saat 7 oldu, 8 oldu, 9 oldu. Ermənilər kəndi yandırıb bizim mövqeyimizi mühasirəyə aldılar. Ratsiya ilə danışdılar ki, bunları diri tutun, öldürməyin. 30-40 metr bizdən aralı idilər. Ağır tankdan istifadə edə bilmirdilər, çünki onlarla bizim aramızda məsafə çox az idi. Biz də gözləyirdik ki, bu saat kömək gələcək. Ermənilərin tankı bizim çıxış yolumuzu kəsmək istəyəndə bir evin arxasına döndü, bizim üçün yol açıldı.

Çıxıb gələndən sonra nə gördük! Gördük ki, kəndin 3 kilometrliyində doğrudan da 40-a qədər XTPD-çi hər cür silahları ilə birlikdə yerli batalyonun 100-150-yə qədər döyüşçüsü burada gözləyir, amma heç kəs döyüşə girmir.

Bu arada indi bu salonda əyləşən polis rəisi Binnət Məmmədov iki nəfərlə bizdən sonra həmin qobu ilə gəlib çıxdı. Sən demə, Binnət Məmmədov öz adamları ilə birlikdə gedir bizim körpüdə lövbər salır, tanka qumbaraatandan atəş açırlar, tank qaçır və biz mühasirədən çıxırıq.

Bunlar hamısı görüşdü və XTPD-çilər də, yerli batalyonun üzvləri də, komandirləri də dedilər ki, yaxşı qurtarmısınız, ora girmək olmazdı. Biz də inandıq. Amma mən sonralar fikirləşdim ki, milis rəisi, onun yanında iki nəfər ora gedib çıxa bilir, bəs bir belə silahlı dəstələr niyə ora gedə bilmir? İndi biz başa düşürük ki, o vaxt xəyanət olub.

92-ci ilin martından sonra sevindik ki, qoşun gəlir, biz getdik Beyləqana, gördük ki, doğrudan da qoşun gəlir — topu, tankı, hər cür hazırlığı var. Sevindik, gəldik camaatı muştuluqladıq ki, Lənkəran tərəfdən Əlikramın qoşunu gəlir. Doğrudan da qoşuna oxşayırdı. Gələn kimi polislərin hamısını — 120 nəfər polis idi, neçə ildi Füzulini müdafiə edirdilər — onları postlardan çıxardılar. Sonra da Surət Hüseynovun dəstələri gəldi. Yavaş-yavaş vəziyyət dəyişdi. Elə bunlar gələn kimi də Füzulinin faciəsi başlandı.

Bir neçə gündən sonra da Surət Hüseynovun sərəncamında olan təyyarələr gəldi. Füzulini 4-5 dəfə bombardman elədi. Əhali qaçdı, dağıldı. Quldur dəstələri əhalini qaçırtdılar. Əhali gördü ki, ordu idarə olunmur, hərkihərkilikdir, hakimiyyətsizlikdir. Ona görə əhali

məcbur oldu evini-eşiyini qoyub çıxmağa və həmin quldur dəstələri camaatın varını-dövlətini talan elədilər. Ermənilərə bir dənə də güllə atılmadan Füzuli düşmənə təhvil verildi.

Allaha çox şükür ki, bizim hörmətli Prezidentimiz hakimiyyət başına gəldi. Bundan sonra çətinliklə də olsa, respublikada, o cümlədən də Füzulidə işlər qaydasına, öz yoluna düşdü. Hörmətli Prezidentimizin Füzuliyə gəlməsi, əsgərlərlə görüşməsi, sonra da ordumuzun 22 kəndimizi geri alması, 45-50 minə yaxın əhalinin indi orada yaşayıb işləməsi Füzuli camaatının heç vaxt yadından çıxmaz. Çünki 50 minə yaxın Füzuli əhalisi iki ildir ki, əkib-becərdiyi məhsulla heç olmasa özləriinin minimum ehtiyaclarını ödəyə bilir. Bu, çox yaxşıdır.

Bütün bunlarla yanaşı, hörmətli Prezident, hələ çox iş var ki, xalq Sizdən gözləyir. Biz bilirik ki, Siz fəaliyyətinizin 90 faizini Qarabağ məsələsinə sərf edirsiniz, gecə-gündüz çalışırsınız. Buna heç kəsin şübhəsi yoxdur. Amma belə bir atalar məsəli var, deyir, bir dəli bir quyuya bir daş atır, min ağıllı onu çıxara bilmir. 88-ci ildən bəri bu fəlakətlər bizim başımıza gəlib, ermənilər torpaqlarımızı alıb. Bunları həll etmək çətin işdir. Amma bilirik ki, bizim xilaskarımız olan Prezidentimizin gücü, zəkası bu çətinlikləri aradan qaldırmağa qadir olacaqdır.

Mən bir neçə kəlmə də qaçqınlar haqqında danışmaq istəyirəm. Qaçqınların vəziyyəti çox ağırdır. Çadırlarda yaşayırlar, vəziyyətləri pisdir, bir qədər qıtlıq var, bahalıq var. Amma əslinə baxsan, - burada yaşlı nəslin nümayəndələri var, - bu qıtlıq, bu çətinliklər qorxulu deyil. Çünki Böyük Vətən müharibəsi illərində Sovetlər İttifaqı kimi bir ölkə çörəyə və başqa ərzaqlara talon sistemi tətbiq etmişdi və o sistem 47-ci ilin pul islahatına qədər davam etdi. Amma indi bizim Bakı şəhərində, rayonlarımızda hara getsən mağazalar, bazarlar ərzaqla, çörəklə — hər şeylə doludur. Rayonlara getsən — şimal tərəfə, cənub tərəfə yolların kənarı qəssabxanaya oxşayır, hər cür ət var. Yə'ni ki, bolluqdur. Düzdür, əhalinin alıcılıq qabiliyyəti aşağıdır, əziyyət çəkən əhali var. Ona görə də dövlətimiz, Prezidentimiz vaxtaşırı tədbirlər görür, əmək haqqını, pensiyaları artırır və bilirəm ki, bu iş gələcəkdə də davam edəcəkdir.

Bu sözləri deməkdə məqsədim budur ki, hamı bu əziyyətlərə dözür, bunu çətinlik hesab etmirik. Hörmətli Prezidentimizdən xalqın gözlədiyi odur ki, biz o doğma torpaqlara qayıdaq. Azərbaycan hamımızın doğma torpağımızdır, onun hər bir guşəsi bizim üçün doğmadır. Ola bilsin, qaçqınlarımız yaxşı yerlərdə, yaxşı rayonlarda yaşayırlar. Misal üçün, bizim qaçqınlar neçə rayona səpələniblər — Saatlıda var, Cəlilabadda var, orada qaçqınlara münasibət daha yaxşıdır. Amma qaçqınları istəyirsən lap şah sarayında əyləşdirəsən



və bolluqla tə"min edəsən, — o, rahat olmayacaq. Ancaq öz yurdunu, boya-başa çatdığı vətənini görmək istəyir.

Arzu edirəm ki, hörmətli Prezident, Qarabağın alınması, torpaqlarımızın işğaldan azad edilməsi əsasən sülh yolu ilə olsun. Onu da bilməlisiniz ki, — füzulililərin adından deyirəm, — Füzulinin yüz min əhalisi müsəlləh əsgər kimi Sizin bircə sərəncamınıza bənddir ki, hara desəniz, ora getsin. Mənim arzum odur ki, yaxın gələcəkdə Sizin gücünüz hesabına bizim torpaqlarımız azad olsun, bax, bu görüşə oxşar, bu görüşdən daha təntənəli, respublikamızın bütün bölgələrini təmsil edən nümayəndələrin iştirakı ilə Füzulidə Sizinlə görüşək və Azərbaycanın üçrəngli bayrağının Füzuli üzərində dalğalandığının şahidi olaq. Çox sağ olun.

### Saatlı rayonundakı çadır şəhərciyinin füzulili sakini AFƏT MƏMMƏDOVANIN çıxışı

Möhtərəm Prezident! Hörmətli görüş iştirakçıları!

Üç il bundan əvvəl Füzuli rayonu mənfur ermənilər tərəfindən işğal edilən zaman 100 min insan yurd-yuvasından didərgin düşüb respublikanın 52 rayonunda məskunlaşmağa məcbur oldu. Bir həqiqəti hər birimiz başa düşürük ki, Füzuli rayonu səriştəsiz rəhbərliyin tamahının, orduya başçılıq edən komandirlərin təcrübəsizliyinin, bacarıqsızlığının, təxribatın qurbanı oldu. Ona görə belə deyirəm ki, əgər 1993-cü ilin əvvəllərində ermənilərlə üzbəüz neçə-neçə kəndlərin əhalisi köçürüləndə tədbir görülsəydi, faciələr baş verməzdi. O vaxtkı rəhbərliyin və hərbi komandirlərin səriştəsizliyi, qabiliyyətsizliyi Qarabağın, Füzulinin işğalına səbəb oldu.

Ermənilər əsrlər boyu bizim torpaqlara göz dikib, nankor qonşuluq ediblər. Belə nankorlar cərgəsinə xalqın gözünə baxa bilməyib qaçıb gizlənən Ayaz Mütəllibov, Əbülfəz Əliyev, Surət Hüseynov kimiləri də qoşuldu.

Ermənilərin heç vaxt gücü çatmazdı ki, Füzulini ala bilsin. Mən bir il bundan qabaq Çində "Pekin-95" konfransının nümayəndəsi olarkən erməni qadınları ilə söhbət etdim. Onlardan soruşanda ki, siz anasınız, niyə uşaqlarınızı qoyursunuz gəlib bizi yurd-yuvamızdan didərgin salır, ərazilərimizi işğal edir, bizim balalarımız şəhid olur? Onların cavabı bu oldu:"Verməyin". Düzdür, mən onlara cavab verdim, vəziyyətdən çıxdım. Ancaq burada da bu sualları vermək istəyirəm: əgər onlar Azərbaycan oğlu idisə, bu oğulların qanında Azərbaycan qanı axırdısa, niyə torpaqları verdilər, niyə bu gün bizi çadırlarda

yaşamağa məcbur etdilər, niyə bizi evsiz-eşiksiz, yurdsuz-yuvasız qoydular. Mən beş il bundan qabaq yoldaşımı itirmişəm - şəhid olmuşdur. Beş gün bundan əvvəl isə "Füzuli" sözü dilində-ağzında olan, Qarakollu həsrəti ilə yaşayan atamı itirmişəm. Budurmu bizim oğulların qeyrəti? Həyəcansız danışa bilmirəm, məni bağışlayın.

Vaxtında Surət Hüseynovun təyyarələri Füzulinin mülki evlərini yox, erməni səngərlərini bombardman etsəydi, Əlikram Hümbətovun quldur dəstələri arxa kəndlərdə vahimə salmaqla, kəndləri dağıtmaqla məşğul olmayıb, ön cəbhədəki əsgərlərimizə kömək etsəydi, Müdafiə Nazirliyi ciddi tədbirlər görsəydi, ermənilərlə üzbəüz olan Qacar, Veysəlli, Qaradağlı, Çimən, Qarakollu kimi kəndlərimiz işğal olunmazdı.

Azərbaycan xalqı müdrik xalqdır. Bu xalq Sizin kimi müdrik, geniş dünyagörüşlü, beynəlxalq aləmdə böyük nüfuzu, hörməti olan, xalq üçün hər cür fədakarlığa gedən bir rəhbəri Prezident seçməklə respublikada haqqın, ədalətin bərpasına nail oldu. Azərbaycanı parçalanmaqdan qorudu, atəşi kəsməklə sülhə doğru irəliləmiş oldu.

Hörmətli Prezident! Füzuli rayonundan min nəfər şəhid olmuş, girov və itgin düşmüşdür. 1500 adam şikəst olmuşdur. Rayonu məcburi tərk etmiş didərginlər, şəhid ailələri öz evlərinə qayıtmaq, öz ərazilərində yaşamaq - yaratmaq arzusundadırlar.

Hazırda Füzuli rayonunun 22 kəndində əhali yaşayır, ermənilərdən geri alınmış əraziləri minalardan təmizləyib kənd təsərrüfatı işləri ilə məşğul olurlar. Əldə edilmiş məhsul birinci növbədə şəhid ailələrinə paylanır, onlara iş şəraiti yaradılıb, mənzillə tə"min olunmalarına kömək edilir. Şəhid ailələrinə, aztə"minatlı ailələrə qayğı məqsədi ilə çadırlarda, taxta evlərdə iş yerləri təşkil olunur.

Belə iş yerlərindən biri də vaxtı ilə mənim işlədiyim bağça — dörd körpəsi şəhid olan Qarğabazar uşaq bağçasıdır, hazırda Saatlıda — 1 çadır şəhərciyində fəaliyyət göstərir. Burada əyləşənlərin əksəriyyəti, o cümlədən İzzət Rüstəmov həmin bağçada olmuşdur. Respublikanın bir çox təşkilatları ilə bərabər mən bu gün burada "Amay" firmasının adını çəkmək istəyirəm. "Amay" firması respublikada ilk dəfə olaraq uşaq bağçası-fermer təsərrüfatı yaratmışdır. Bu təsərrüfatın yaranmasında Saatlıdan seçilmiş xalq deputatı Cəlal Əliyevin və Füzulidən seçilmiş Məmməd Məmmədovun da köməyini qeyd etmək istərdim. Buraya iki inək, iyirmi qoyun, iki yüz toyuq-cücə verilib, corab sexi açmaqla oradakı şəhid ailələrini işə cəlb etmişlər. Füzuli rayon icra hakimiyyətinin işçiləri vaxtaşırı olaraq başqa yerlərə olduğu kimi, çadır şəhərciyinə də gəlir, lazımi qayğı göstərilir. Bu yaxınlarda 80-dən çox örtük gətirib çadır şəhərciyində yaşayan aztə'minatlı ailələri, şəhid ailələrini tə"min etmiş, 300 kq pulsuz buğda vermişlər.

Möhtərəm Prezident, mən"Pekin-95" Ümumdünya qadınlar konf-



ransında bir çox xalqların nümayəndələri ilə görüşlərdə "Azərbaycan" sözü ilə bərabər Sizin adınızın da hörmətlə çəkildiyinin şahidi oldum. Ürəyim iftixarla döyündü. Bu yaxınlarda şəhid ailələri ilə görüşən zaman bir ağsaqqal atanı dinlədim. Mə'lum oldu ki, başqa şəhid ailələri ilə bərabər o da Sizə, Heydər Əliyev cənablarına inanır, bu müharibəyə son qoyulacağına, şəhid qanının bir daha tökülməyəcəyinə və ölüm xəbərlərinin, qara qutuların evlərə gəlməyəcəyinə inanır.

Sizinlə görüşə gəlməmişdən bir neçə gün əvvəl şad xəbər eşitdik. Füzuli rayonunun işğaldan azad olunmuş ərazilərinin bərpasına başlanacaqdır. Bu, Sizin qayğınızın növbəti mərhələsi deməkdir, bərpa füzulililərin öz torpaqlarına mütləq qayıdacağı deməkdir.

Yenə bu yaxınlarda müvəqqəti istifadə üçün Beyləqan rayonuna verilmiş torpaqlardan 3 min hektarının geri qaytarılması adamların əkin-biçinlə yaxından məşğul olması, məhsul bolluğu yaranması deməkdir. Sizə ürəkdən təşəkkür edirik.

Sizin yeni qayğınıza biz füzulililər öz əməyimizlə cavab verməliyik və buna çalışırıq. Kənd əməkçilərimiz iqtisadiyyatı möhkəmləndirməklə, tibb işçiləri əhalinin sağlamlığını qorumaqla, biz müəllim və tərbiyəçilər isə sabahımızı yaradan gənc nəslin tərbiyəsi ilə məşğul olmaqla üzərimizə düşən vəzifəyə məs"uliyyətlə yanaşırıq.

Hörmətli Prezident, respublikamızın iqtisadiyyatının dirçəlməsi,müstəqilliyimizin qorunması, sülhün bərqərar olunması yolunda atdığınız uğurlu addımlar bizə inam verir ki, tezliklə füzulililər həsrətilə yaşadıqları ev-eşiklərinə qayıdacaqlar, respublikamızın müstəqil inkişafı yolunda inamla çalışacaqlar. Bu böyük məsələlərin həllində, cənab Prezident, Sizə böyük uğurlar, möhkəm cansağlığı arzulayırıq.

## Azərbaycan Kooperasiya İnstitutunun rektoru
## FİRƏDDİN QULİYEVİN
### çıxışı

Hörmətli cənab Prezident! Biz bu gün buraya toplaşan Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının nümayəndələri, böyük dünya siyasət meydanının sınanmış bir xadimi — Heydər Əliyev cənabları ilə görüşdə iştirak etməyi özümüz üçün xoşbəxtlik hesab edirik. Sizə minnətdarıq ki, belə bir çətin dövrdə füzulililərin ağır dərdini bir daha öyrənmək üçün vaxt tapıb, burda toplaşan nümayəndələrlə görüşə gəlmisiniz. Sizinlə beş dəqiqə bir yerdə oturmaq, Sizin canlı sözlərinizi eşitmək, mən elə hesab edirəm ki, hamımız üçün yeni bir məktəb qurtarmaq deməkdir.

Hörmətli Prezident, mə'lum həqiqətlər çoxdur və mən burada

onları sadalamaq istəmirəm. Lakin Füzulinin erməni silahlı birləşmələri tərəfindən tutulmasına səbəb olan bə'zi amillər haqqında öz qənaətimi söyləmək fikrindəyəm.

Həmişə — istər burada oturan nümayəndələr arasında, istərsə də yerlərdə, Bakı əhalisi arasında belə bir sual meydana çıxır ki, bəs günahkar kimdir? Qorxmaq lazım deyil, bu, açıq həqiqətdir və həqiqəti də deməyi bacarmaq lazımdır. Bunun özü də bir cəsarətdir. Hadisələrin əvvəli əsasən 1988-ci ildə başlamışdı. O zaman Mərkəzi Komitənin birinci katibi Əbdürrəhman Vəzirov idi. Çox yaxşı yadımızdadır ki, bütün çıxışlarında, iclaslarda ona sual veriləndə və yaxud camaat tərəfindən tə'kidlə xəbər alınanda ki, bəs Topxana meşəsi qırılır, bir cavab verirdi: "Eybi yoxdur, səhər düzələcək. Topxana bizimdir". Bu, dar düşüncəli siyasətçinin cavabıdır, siyasətdən uzaq olan adamın sözüdür, siyasəti bacarmayan adamın işidir. Əgər bu gün Topxana qırılırsa, sabah başqa rayonlar gedir.

Yadımdadır, bayaq Məmməd müəllim də burada çox yaxşı dedi, Əbülfəz Elçibəy əlini belinə qoyaraq deyirdi ki,"mən burada Azərbaycanın sərhədini müəyyən edəcəyəm". Hamımızın yadındadır ki, Rəhim Qazıyev Şuşada oturmuşdu gümüşü papaqla. Ondan soruşanda ki, axı Şuşa əldən gedir, nə tədbir görürsünüz? O bilmirdi ki, Şuşa musiqi məktəbidir, musiqi muzeyidir. Şuşa Bülbülün vətənidir, Şuşa Xanbülbül vətənidir. O axı, bunu bilmirdi. Çünki onun səriştəsi yox idi. Yüngül, sadəlövh bir adam idi. Sadəlövhlüyü ondan ibarətdir ki, sadəcə bir müəllim olduğu halda buna müdafiə naziri vəzifəsini təklif eləyəndə o saat razılıq verdi, sonra isə millətimizi qırdırdı. Nə Şuşanı, nə də digər rayonları saxlaya bildi. Sonra da Cəbrayıl, Füzuli və digər rayonlarda qırğınlar başlandı, Vətənimiz hissə-hissə əldən getməyə başladı. Bu, böyük bir planın xırda-xırda məqamları idi.

**Heydər Əliyev:** Amma bir düzəliş vermək istəyirəm - ona təklif etməmişdilər və onların heç birisinə heç bir şey təklif olunmamışdı. Onların dərdi, vuruşması, dartışması elə ondan ibarət idi ki, hərəsi yüksək bir vəzifə əlinə keçirmək istəyirdi. Rəhim Qazıyevdən qabaq dörd müdafiə naziri çıxartdılar, mitinqlər edirdilər ki, bu müdafiə naziri yaramaz. Nə var, nə var ki, Rəhim Qazıyev gəlsin, müdafiə naziri olsun. Ona görə yox ki, Azərbaycanı müdafiə etsin. Ona görə ki, onların hər biri bu vəzifələrdən şəxsi mənafelər üçün istifadə etmək istəyirdi. Ona təklif edən yox idi, o özü və onun kimi adamlar bu işlərə nail olmaq üçün cürbəcür çirkin yollardan istifadə edirdilər. Buyurun.

**Firəddin Quliyev:** O zaman biz bir ziyalı kimi rayona tez-tez gedirdik. Orada sabitlik görmürdük. Rəhbərlər sür'ətlə, — burada Şamama xanım da çox yaxşı dedi, — elə tez-tez dəyişirdi ki, camaat onları heç tanımırdı. Rayonun rəhbəri gərək rayonda nüfuzu olan



bir adam olsun, rayonun camaatı tərəfindən az-çox tanınmış olsun. Lakin nədənsə Füzuli camaatı onu görə bilmirdi. Mən də eşidəndə ki, filankəsi qoyublar icra hakimiyyəti başçısı, tanımırdım ki, bu görən kimdir. Belə adamların gəlməsi, rəhbərliyin zəifləməsi və müəyyən ambisiyalar uğrunda mübarizənin güclənməsi nəticəsində Füzuli kimi gözəl bir diyar əldən getdi.

Xırda bir məqama toxunmaq yerinə düşərdi. O dövrdə yaxın qohumum rayon komsomol komitəsində işləyirdi. O deyirdi ki, hər gün xüsusi hazırlanmış silahlı adamlar onları kənddən çıxarmaq üçün qorxudurlarmış. Bu, böyük psixoloji tə"sir idi. Bütün rayonlarımızın əldən getməsində bu psixoloji hal üst-üstə düşüb: "Tez olun, yoxsa hamınızı qıracaqlar". Bu minval ilə onlar çalışırdılar ki, əhalini ən zəruri ev əşyalarını belə götürməyə qoymasınlar. Kənd camaatı piyada Quruçay boyu aşağı gedərkən həmin silahlı dəstələri biqeyrətlikdə, səriştəsizlikdə günahlandırırdı. "Əhalini qorumaq əvəzinə, niyə özünüz çıxarırsınız?" deyəndə adamları tüfəngin qundağı ilə vururdular.

Füzuli torpağını daha çox istəyənlər indi Füzulidədirlər. Onlar Füzulidən köçməyiblər, öz torpaqlarında yaşayırlar. Müdrik siyasətçi, böyük insan, Azərbaycan xalqının ümidgahı Heydər Əliyev cənabları rəhbərliyə gəldiyi gündən həm respublikada, həm də Füzuli rayonunda tamamilə başqa əhval-ruhiyyə yarandı. Elə bil ki, xəstələrin gözlərinə işıq gəldi. Mən bunu çox səmimi deyirəm. Bu, camaatın sözüdür, yerlərdə deyirlər. Ona görə ki, Siz — Azərbaycan xalqının böyük oğlu öz layiqli yerinə gəldi.

Mən çoxdan Bakıda yaşayıram. Atam Böyük Vətən müharibəsində həlak olub, anam bu hadisələrin qurbanı olub. Bacı və qardaşım, onların ailələri Bakıya üz tutmaqdansa, müəyyən qədər ağır həyat tərzini qəbul edərək Füzulidə qalıblar. Onlar ermənilərin sərhəd hesab etdikləri yerdən təqribən 10—15 kilometr məsafədə müvəqqəti olaraq məskunlaşıblar. Qaynım sovxoz direktorudur. Zovucuq deyilən yerdə, ermənilərin lap yaxınlığında arpa, buğda, tərəvəz yetişdirir, qoyun-quzu bəsləyir, camaatını imkan daxilində müəyyən qədər çörəklə tə"min edir, belə bir çətin vaxtda rəhbərliyin başını qatmır. Çünki belə bir məqamda hər bir işi problem edib ortaya çıxarmaq lazım deyildir.

Hörmətli Prezident, Siz əsl rəhbərsiniz. Mən Bəhramtəpədə və Füzuli rayonunun digər bölgələrində məskunlaşmış köçkünlərlə söhbət apararkən onlar deyirlər ki, biz xeyli miqdarda humanitar yardım alırıq, xeyli kömək alırıq, az-çox ərzaqla tə"min olunuruq. Bütün bunlar yalnız Sizin humanist siyasətinizin bəhrəsidir. Mən bunu Sizin beynəlxalq aləmdə olan böyük nüfuzunuzun nəticəsi kimi qiymətləndirirəm.

İndi Füzulidə rəhbərlik, mənə belə gəlir ki, xeyli möhkəmlənmişdir.

Hazırkı icra hakimiyyəti başçısı N.Muxtarov cənabları Sizin Füzulidəki səlahiyyətli nümayəndənizdir. O, həm rayonu yaxşı tanıyır, həm də idarəçilik təcrübəsinə malik bir adamdır. Eyni zamanda Sizin apardığınız siyasətin camaat arasında canlı izahı və yayılması üçün əlindən gələni, nə imkan varsa, hamısını edir. Bu, həqiqətdir, həqiqətdən qaçmaq olmaz.

Hörmətli Prezident, füzulililər Sizin arxanız, Siz isə onların uzaqgörən ağsaqqalısınız. Onlar Sizdən razılıqla danışırlar. Çadır şəhərciyində, respublikanın digər rayonlarında, Bəhramtərə ətrafında, Füzulinin kəndlərində və Bakı şəhərində məskunlaşmış köçkünlər Sizin daxili və xarici siyasətinizi səmimi olaraq dəstəkləyir, Sizin müdrikliyinizə inanırlar. Siz o inamı öz işinizlə qazanmısınız. Siz Azərbaycana rəhbərliyə gəlməsəydiniz, burada vətəndaş müharibəsi başlayardı, yararsız rəhbərlər isə sevimli Azərbaycanımızı hissələrə bölərdilər. Siz mahir cərrah əlinizlə həmin yaranı ilkin dövrdə kəsib ata bildiniz. Biz füzulililər burada oturanlar bilirik ki, bunu Sizdən başqa heç kəs edə bilməzdi. Məncə, bu çətin vəzifənin öhdəsindən gəlməkdə Sizin əsl vətəndlaşlığınız, siyasi amalınız, daxili aləminizin bütövlüyü və saflığı böyük rol oynadı. Bütün bu keyfiyyətlər Sizin əzminizi get-gedə artırdı.

Vətəndaş çox adam ola bilər, lakin hamı vətənpərvər ola bilməz. Siz vətənin daşlarını qoyan vətəndaşsınız, xalqın və Azərbaycanın me'mar rəhbərisiniz. Burada Azərbaycanın böyük şairi Məmməd Arazın bir kəlamı yadıma düşür. O deyir:

Vətən daşı olmayandan,
Olmaz ölkə vətəndaşı.

Möhtərəm Prezident, biz Sizin xarici siyasətlə bağlı bütün görüşlərinizi, ölkəmizdə özəlləşdirmə və iqtisadi islahatlarla əlaqədar bütün yığıncaqlarda söylədiyiniz fikirləri ağır, lakin mə"nalı işin həlli yollarını göstərən proqram sənədi hesab edirik, həmin fikirləri tələbə auditoriyalarında, professor-müəllim kollektivində, onların gündəlik işində rəhbər tuturuq.

Hörmətli Prezident, institutumuzun kollektivi köçkün tələbələrə maddi kömək göstərir,Füzuli, Kəlbəcər, Qubadlı rayonlarından pənah gətirənlərdən 6 nəfərini işə düzəltmişik, Qubadlı rayonundan bir nəfər əlil, ali təhsilli bizim institutu qurtarmış işçiyə institutun elmi şurasının qərarı ilə ayda iyirmi min manat məbləğində pul verərək ona himayəçilik edirik. Rayonlardan asılı olmayaraq bütün köçkünlərə ürək ağrısı ilə yanaşıb, onların dərdinə şərik olmuşuq. Novruz bayramı ərəfəsində xırda xidmətçi işçimizə — Ermənistandan köçkün düşmüş və Nərimanov rayonunun ərazisində ağır bir şəraitdə yaşayan ailəyə — onların itkiləri daha çox olub — baş çəkmişik, 200 min manat məbləğində kömək göstərmişik. Bu yaxınlarda isə Şüvəlanda iflic uşaqların sanatoriyasında qalan köçkün uşaqlara 300 min manatdan



çox meyvə və şirniyyat aparmışıq. Bunun maddi tərəfini yox, mə"nəvi cəhətini daha əhəmiyyətli hesab edirik.

Belə tədbirlər çoxdur, mən bunları sadalamaq istəmirəm və belə məqamların hamısını Sizin yüksək şəxsiyyətinizlə, insanpərvərliyinizlə, bizi tərbiyə edib bu yola yönəltməyinizlə, böyüklüyünüzlə, humanistliyinizlə, qayğıkeşliyinizlə bağlayırıq. Ona görə ki, bu şəraiti Sizdən başqa heç kəs yarada bilməzdi. Sizə qədər olan dövrdə isə, hamı yaxşı bilir, saat 19-dan sonra gözəl Bakımızda küçəyə çıxmaq, evə salamat qayıdıb gəlmək çətin məsələ idi.

Bütün Azərbaycan xalqı bilməlidir ki, dövlətimiz dünyada tanınmış böyük bir şəxsiyyətin — cənab Heydər Əliyevin rəhbərliyi ilə idarə edilir. Əmin-amanlıq, qan tökməmək, sakitlik, sabitlik, demokratiya, özəlləşdirmə, respublikamızın dünyada tanıdılması, beynəlxalq cəmiyyətlərin üzvü olmaq, ən böyük dövlətlərlə dostluq körpüsü yaratmaq, humanitar yardım almaq, yaranmış sabitliyə görə beynəlxalq bankların, fondların ölkəmizə ayaq açması, böyük investisiya siyasəti, əsrin böyük neft müqaviləsi, atəşkəsin baş tutması və sair tədbirlər yalnız Heydər Əliyev cənablarının fəaliyyətinin nəticəsidir. Bütün qeyd etdiklərim və vaxt az olduğu üçün demədiklərimin hamısı xalqımız üçün edilir. Ona görə də çox əziz Prezidentimiz, bu ab-havanı Siz dərin zəkanızla, sağlamlığınız hesabına yaratmısınız, xalqımızı uca zirvəyə çatdırmısınız. Belə siyasi zirvəyə yalnız fədakar işinizlə ucalmısınız. Xalq bunu bilir, çünki hamısı xalqın gözü qabağındadır. O zirvədə dayanmaq yalnız Sizə layiqdir. Ona görə ki, Sizdə böyük siyasətçi sənətkarlığı, səriştəsi vardır. Bir füzulili zəhmətkeşi demişdir:

Sənət bir dağ,
Sənətkarlıq həmin dağın zirvəsi,
Həmin dağa ucalmaq da,
Həmin dağda dayanmaq da çətindir

Sizə, hörmətli Prezident, o uca zirvədə Azərbaycan xalqının ürəyi istəyən qədər dayanmağı arzulayıram. Siz xalqımıza, xalqımız isə Sizə lazımdır. Ona görə ki, işiniz haqq işidir, xalqımızın səadətidir. Sizə böyük cansağlığı, bu çətin Qarabağ düyününün açılmasında uğurlar arzulayıram. Sizin göstərişiniz olan kimi mən özüm də Vətənin müdafiəsinə getməyə hazıram. Arzu edirəm ki, məhz Sizin başçılığınızla bütün didərgin rayonlarımızın əhalisi öz torpaqlarına qayıtsın və Siz həmin günü bayram günü e'lan etmək barədə fərman imzalayasınız.

**Heydər Əliyev:** Güman edirəm ki, Füzuli rayonundan çıxış edənlər, ümumiyyətlə, bu rayon haqqında dolğun mə'lumat verdilər.Füzuli rayonundan çıxışları davam etməyə ehtiyac varmı? Çünki biz gərək cəbrayıllıları da dinləyək, qubadlıları da dinləyək. Ona görə də mən hesab edirəm ki, indi biz cəbrayıllıları dinləsək daha yaxşı olar.

Söz verilir Cəbrayıl rayonunun icra hakimiyyəti başçısına.

Cəbrayıl rayon
İcra Hakimiyyətinin başçısı
KƏRƏM ƏLİYEVİN
çıxışı

Möhtərəm cənab Prezident! Hörmətli görüş iştirakçıları!

Bizim üçün ağır dərdə çevrilən və bütün varlığımızı sarsıdan doğma Cəbrayılımızın erməni təcavüzkarları tərəfindən işğal edilməsinin üçüncü ili tamam olur. İzn verin, bu üç il müddətində respublikanın 60 şəhər və rayonunun 2000-dən çox yaşayış məntəqəsində məskunlaşmış 53 min nəfər cəbrayıllıya göstərdiyiniz qayğının daimi nəzarətdə saxlanılması barədə dövlət strukturlarının rəhbərlərinə və icra hakimiyyəti başçılarına verdiyiniz tapşırıqlara görə Sizə öz adımdan və bütün cəbrayıllılar adından minnətdarlığımı bildirim və böyük Allahdan arzu edim ki, bizi sınağa çəkdiyi daha kifayətdir, imkan versin ki, doğma torpaqlarımıza qayıdaq və faciəli günlərimizdə bizə kömək əlini uzadanlara, dərdimizə şərik çıxanların hamısına öz əməli işimizlə cavab verə bilək.

Onu da bildirmək istəyirəm ki, tarixin bizi çəkdiyi ən sərt sınaqlara hünərlə tab gətirdik, ləyaqətimizi, mənliyimizi namusla qoruyub saxladıq. Nə alın tərimizlə topladığımız var-dövlətin əlimizdlən çıxması, nə hər addımbaşı rastlaşdığımız üzücü sarsıntılar, nə də zamanın haqsızlıqları mə'nəviyyatımıza kölgə sala bilmədi.

Cənab Prezident! Biz bilirik ki, Siz ömrünüzü xalqımızın firavan yaşamasına, müstəqilliyimizin, ərazi bütövlüyümüzün, suverenliyimizin tə'min olunmasına həsr etmisiniz və bu nəcib əməllərinizə bu gün də sadiqsiniz. Belə bir çətin vaxtda imkan tapıb biz qaçqınların problemləri ilə yaxından məşğul olmağınız da bu istiqamətdə



gördüyünüz sanballı işlərin aydın ifadəsidir. Yeri gəlmişkən, Sizə onu da çatdırmaq istəyirəm ki, 70-ci illərdə respublikamıza başçılıq etdiyiniz zaman rayonumuzun iqtisadiyyatının, o cümlədən üzümçülüyün inkişafına, yeni-yeni sənaye obyektərinin tikintisinə göstərdiyiniz qayğını biz cəbrayıllılar bu gün də unutmuruq. Həmin illərdə salınmış min hektarlarla üzüm bağlarından vaxtilə ildə 50 min tondan çox məhsul əldə olunurdu. Bu da cəbrayıllıların güzəranının günü-gündən yaxşılaşmasında öz əksini tapırdı. Mən deyərdim ki, torpaqlarımızın işğalından əvvəl hər bir cəbrayıllı orta yaşayış səviyyəsini çoxdan keçmişdi, onlar evlər tikib özləri üçün gözəl şərait yaratmışdılar. Şəhər və kənd yolları başdan başa asfaltlaşdırılmış, rabitə xidməti yüksək səviyyəyə qaldırılmışdı. Adambaşına düşən mənzil sahəsinə görə, habelə səhiyyə, məişət, ticarət və digər xidmətlər üzrə rayonumuz respublikamızda ən yüksək göstəricilərə nail olmuşdu.

Öz əməyi ilə xarüqələr yaradan, xoşbəxtliyi əmin-amanlıqda, dinc quruculuqda, halal zəhmətdə görən xalqımızın başına tarixdə analoqu olmayan müsibət açılması indi adama çox ağır gəlir. İstər-istəməz öz-özündən soruşursan: bəs necə oldu ki, bu faciə bizim camaatın başına gəldi? Bu sualın cavabını aşağıdakı mülahizələrimlə verməyə çalışacağam.

Bildiyiniz kimi, Qarabağ hadisələrinin kökləri çox-çox uzaqlara gedib çıxır və onun 1988-ci ildə təkrarən baş verməsi Azərbaycan xalqını yenidən kölə vəziyyətinə salmaq istəyən düşmən dairələrin uzun müddət hazırlayıb həyata keçirdikləri məkrli planların tərkib hissəsi kimi qiymətləndirilməlidir. Belə bədnam niyyətlərin reallaşdırılmasında tarix boyu əldə vasitəyə çevrilən xain ermənilər daim ərazi bütövlüyümüzə qəsd etməyə çalışmış, məqsədlərinə çatmaqdan ötrü əlverişli fürsət gözləmişlər. Yaşadığımız 20-ci yüzilliyin əvvəllərindən başlayaraq axıtdıqları qandan usanmayan düşmənlərimiz 1918—1920-ci illərdə qatı millətçi, bolşevik donuna bürünən S.Şaumyanın rəhbərliyi altında Bakıda, Şamaxıda, Qubada və s. bölgələrimizdə vəhşiliklər törədərək yüz minlərlə soydaşımızı məhv etmişlər. 1923-cü ildə isə yaranmış əlverişli şəraitdən və ölkə rəhbərliyindəki nüfuzlarından istifadə edən A.Mikoyan kimi daşnakların yaxından köməyi və tə'kidi ilə Yuxarı Qarabağa vilayət statusu verilərək, gələcəkdə bu ərazinin Ermənistana birləşdirilməsinin əsasını qoyulmuşdur. Onlar bu istiqamətdə mümkün olan bütün vasitələrdən istifadə edərək öz qondarma "yenidənqurma"sı ilə son dövrdə xalqlar arasında milli münaqişələrin və düşmənçiliyin əsasını qoyan M.Qor-

baçov kimilərinin simasında özlərinə güclü arxa tapdıqdan sonra əvvəlcə Ermənistanda yaşayan yüz minlərlə soydaşımızın son nəfərədək öz dədə-baba torpaqlarını tərk etməsinə nail oldular. Yaranmış vəziyyətin qarşısını almaq üçün o zaman Azərbaycan KP MK-nın rəhbərliyi tərəfindən konkret tədbirlər görülməməsi, baş verən hadisənin sonrakı nəticələrinin düzgün qiymətləndirilməməsi ermənilərin daha geniş əl-qol açmalarına imkan yaratdı. Sonradan respublikaya rəhbərlik edən, milli mənliyini itirmiş, ermənilərin geri qayıtmasından sevinərək televiziya vasitəsilə əhalini "muştuluqlayan" Əbdürrəhman Vəzirovun, müsahibələrinin birində avantürist qüvvələrin yardımı ilə hətta "Bakı general-qubernatoru" kimi də olsa hakimiyyətə qayıtmağa razılıq verən Ayaz Mütəllibovun,Yaqub Məmmədovun və Əbülfəz Əliyevin səriştəsizliyi rayonlarımızın bir-birinin ardınca işğalında, o cümlədən Cəbrayılın düşmənlərə təslim edilməsində öz əksini tapdı.

Möhtərəm Prezident! Sizin Kəlbəcər sakinləri ilə görüşünüz zamanı torpaqlarımızın işğalında əli olanların ifşa edilməsi və buna siyasi hökm verilməsi barədə əraziləri işğal olunmuş rayonların rəhbərliyi və əhalisi qarşısında qoyduğunuz vəzifələrlə əlaqədar olaraq rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının və ictimaiyyətin nümayəndələrindən ibarət yaradılmış komissiyanın vaxtaşırı keçirilən iclaslarında əhalidən daxil olmuş materialların öyrənilməsi nəticəsində bu faktlar bir daha təsdiq edildi. Həmin sənədlərdə göstərilir ki, 1988-ci ildə respublikamızda başlayan xalq azadlığı hərəkatı dalğası bizim rayonda da öz əksini tapdı. Əhalimiz bir nəfər kimi doğma yurdunun müdafiəsinə qalxaraq, keçmiş Hadrut rayonunun Cəbrayılla həmsərhəd olan 13 kəndini ermənilərdən təmizləmiş, 1991-ci ilin may-iyun aylarında Ermənistandan, öz dədə-baba torpaqlarından zorla qovulmuş yüzlərlə soydaşımızın həmin boşaldılmış yaşayış məntəqələrində yerləşdirilməsinə nail olmuşdur. Qaçqınlar üçün lazımi şərait yaradılaraq uşaqların təhsildən qalmamaları üçün hər kənddə məktəb açılmış, təsərrüfatlarını qurmalarına yaxından kömək edilmiş, onlara qaramal vo qoyun paylanmışdı.

Vəziyyətin belə şəkil almasını gözləməyən hiyləgər düşmənlərimiz bu prosesin qarşısını almaq məqsədi ilə əvvəlcə rayonumuzda fövqəl'adə vəziyyətin tətbiq olunmasına, sonra əhalinin tərksilah edilməsinə nail oldular. Sakinlərdən adi ov tüfəngi belə yığılıb polis şö'bəsinə təhvil verildi. Narazılıq baş qaldırmasın deyə, camaata izah etməyə çalışdılar ki, guya dövlət bu tədbiri onların təhlükəsizliyini tə'min etmək məqsədilə həyata keçirir. Əhalini arxayın salmaqdan ötrü Ayaz Mütəllibovun göstərişi ilə 1991-ci ildə qaçqınların



məskunlaşdıqları kəndləri mühafizə etmək bəhanəsi altında buraya 300 nəfərdən ibarət rus qoşunları kontigenti də göndərilmişdi. Lakin az sonra rus əsgərləri ermənilərlə birləşərək Ermənistandan gələn qaçqınların yerləşdikləri kəndləri aramsız atəşə tutmaqla onları qorxudur, yaşayış yerlərini ikinci dəfə tərk etmələrinə zəmin yaradırdılar.

Hiddət doğuran faktdır ki, erməni yaraqlılarının hücumlarının qarşısını birgə almaq bəhanəsi ilə keçmiş SSRİ-nin Hadrutda yerləşdirilmiş daxili qoşunlarının bir rotası polis əməkdaşlarımız tərəfindən çox böyük çətinliklə tutulmuş, mühüm strateji əhəmiyyətə malik olan Şaqay yüksəkliyinə qaldırıldı. Onlar bizim sərəncamımızda olan postdan təqribən 150—200 metr məsafədə döyüşə hazır vəziyyətdə saxlanılmışdılar. Sonradan hər iki postdan qüvvələri geri çəkmək barədə respublika rəhbərliyinin razılığı ilə, müdafiədə dayanmış xüsusi tə'yinatlı polis dəstələri oradan uzaqlaşdırılıb 25 kilometr aralıda olan rayon mərkəzindəki internat məktəbə gətirildi. Bu da həmin yüksəkliyin erməni quldurlarına qaytarılması barədə imperiyapərəst qüvvələrin onlarla gizli sövdələşmələrinin baş tutması üçün əlverişli şərait yaratdı.

Bunun əksinə olaraq rayonumuzun polis əməkdaşları Şaqay yüksəkliyini yenidən özləri müdafiə etmək məcburiyyətində qaldılar. Bundan sonra qısa müddət ərzində ermənilərin tə'kidi ilə İttifaqın daxili qoşunlarının Hadrut rayonundakı komendantı üç dəfə dəyişdirildi. Yeni tə"yin edilmiş sonuncu komendantın isə tez-tez bizim posta gələrək hansı silahdan istifadə olunması, polis əməkdaşlarının sayı ilə maraqlanması 1991-ci il noyabr ayının 15-də həmin qüvvələrin iştirakı ilə erməni yaraqlılarının Şaqay postunu mühasirəyə almaları ilə nəticələndi. Yaranmış təhlükəli vəziyyəti nəzərə alaraq kömək göstərilməsi məqsədilə tərkibi rus əsgərlərindən ibarət olan yaxınlıqdakı postlara, habelə respublika rəhbərliyinə edilən müraciətlərə əhəmiyyət verən olmadı. Cəbrayılın işğalının qarşısının alınmasına 100 faiz tə"minat yaradan belə bir yüksəkliyin itirilməsinə e'tinasız yanaşılması torpaqlarımızın əldən getməsi üçün düşünülmüş xəyanətin başlanğıcı idi. Qüvvələrin qeyri-bərabər olduğu bu qanlı döyüşdə polis əməkdaşlarımız mühasirəni yarmağa müvəffəq olsalar da, xeyli itki verdilər. Mə'lumat üçün onu da bildirmək istəyirik ki, Şaqay postunun müdafiəsi zamanı iki nəfər polis əməkdaşı göstərdiyi igidliyə görə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı kimi yüksək ada layiq görüldü. Allah hər ikisinə rəhmət eləsin!

Şaqay yüksəkliyinin düşmənə verilməsi rayonumuzun təcavüzə mə"ruz qalmasının əsasını qoydu. Erməni quldurları buradan rayonumuzun ərazisini vaxtaşırı atəşə tutur, ictimai və şəxsi binaları dağıdır, insanları məhv edir, əhali arasında vahimə yaradırdılar.

Bütün bunlar torpaqlarımızın müdafiəsini gücləndirməyi tələb etsə də, yaranmış vəziyyət heç kimi narahat etmirdi. Nizami ordu yaradılmasına əhəmiyyət verilmirdi. Düşmən hücumlarının qarşısının alınmasına polisin təkbaşına gücü çatmırdı. Namərd qonşuların basqınlarının ara verməməsi, nəhayət, xalqın səbrini tükəndirdi, yerlərdə özünümüdafiə dəstələri yaradıldı. Lakin bu, arzuolunan nəticəni vermədi. Belə ki, hərə başına bir dəstə yığaraq istədiyi kimi hərəkət edirdi. Vahid komandanlıq yox idi. Ordu quruculuğuna başlanması üçün müəyyən tədbirlər görülsə də o vaxt iqtidarın nüfuzunun aşağı düşməsindən istifadə edən "cəbhəçilər"in müəssisələrdən, təşkilatlardan, təsərrüfatlardan və əhalidən topladıqları vəsait hesabına əldə etdikləri silahların yeni yaradılmış müdafiə dəstələrinin üzvlərinə paylanması demək olar ki, başlı-başına buraxılmışdı. Ordu quruculuğunun ləng və plansız getməsi, batalyonlara əsasən səriştəsiz, hərbi taktikadan baş çıxarmayan, yüksək əmək haqqı almaq istəyənlərin başçılıq etmələri və onların da tez-tez dəyişdirilərək peşəkarlığı daha zəif olan zabitlərlə əvəz edilməsi məğlubiyyətimizin əsas səbəblərindən sayılmalıdır.

Əsgərlər arasında nizam-intizam yox idi. Onlar döyüşün həlledici anlarında tutduqları mövqeləri özbaşına tərk edirdilər. Hücum əməliyyatlarının vaxtında mülki əhali arasında əvvəlcədən geniş yayılması da düşmənlərimizin istədikləri yaşayış məntəqələrini ələ keçirmələrinə imkan verirdi.

Sadaladığımız qüsurlar Rəhim Qazıyev müdafiə naziri tə"yin edildikdən sonra daha geniş hal alaraq yenicə yaradılmış orduda təxribat daha da genişləndirildi. Onun əmri ilə vaxtaşırı dəyişdirilib tə"yin olunan hər komandirin isə özü ilə istədiyi sayda, hansı əqidəyə xidmət etməsi bilinməyən zabitlər gətirməsi, nəticədə camaat arasında şayiələrin baş alıb getməsi əhalini ruhdan salır, adamların inamını açıq-aydın sarsıdırdı. Düşmən qüvvələr Cəbrayılın bir saatlığa da olsa ermənilərə veriləcəyi, rayonumuzun yeganə çıxış yolu olan Füzuli magistralının tezliklə bağlanacağı barədə şayiələri müxtəlif vasitələrlə camaat arasında yayaraq onlara psixoloji tə'sir göstərirlər. 1993-cü il iyul ayının 2-də polkun komandanlığına zəng edilərək, ermənilərin Füzulini işğal edib Cəbrayıla tərəf irəliləmələri barədə verilən siqnal yoxlanılarkən onun respublika Müdafiə Nazirliyinin Füzuli rayonunda yerləşən hərbi qərargahından vurulduğu müəyyən edilib. Bütün bunlar cəbhə bölgələrində yaranmış vəziyyətin aydın mənzərəsini tam dolğunluğu ilə qavramağa əsas verirdi. Bəhs edilən hadisədən iki gün sonra isə rayonumuzun Balyand və Qaracallı kəndlərində namə"lum şəxslərin peyda olaraq, əhalini qaçırmaq məqsədi ilə, həmin yaşayış məntəqələrinə yaxın olan "9-cu kilometr" adlı sahədən erməni tanklarının gəldiyini söyləyərək aradan çıxmaları, əhalinin köçürülməsi



üçün Gəncədən buraya əvvəlcədən yük avtomaşınlarının gətirilməsi, heç şübhəsiz, bu hadisələrin bir mərkəzdən idarə olunduğuna tutarlı sübutdur və həmin hərəkətlərin icraçılarının hərbçilər olduğuna şübhə yeri qoymur.

Olduqca çətin və böhranlı günlərdə kömək məqsədi ilə Gəncədən göndərilən təyyarələr Şaqay yüksəkliyindəki düşmən postlarını dağıtmaq əvəzinə rayon mərkəzini və ermənilərlə həmsərhəd olan kəndlərimizi bombalayaraq mülki əhaliyə çox ciddi maddi və mə"nəvi ziyan vurdu. Baş vermiş xəyanətin ardınca bacarıqsız komandirlərin rəhbərliyi altında bir neçə uğursuz əməliyyat keçirildi. Təkcə "Şişqaya"ya hücum zamanı bir gündə 30-40 nəfər itki verilərək, alınmış strateji əhəmiyyətli yüksəklikdəki post səriştəsizlik üzündən tezliklə düşmənə verildi. Füzulidəki ordu briqadasının əvvəlcədən planlaşdırılmış əməliyyatda həlledici məqamda iştirak etməməsi də bunun təxribat kimi qiymətləndirilməsinə əsas verirdi.

1993-cü il avqustun 15-16-da Quşçular postunda əlverişli mövqedə olan bir neçə zenit pulemyotu çıxarılaraq ön xətdə, erməni yaraqlılarına daha yaxın postda yerləşdirildi. Axşam düşən kimi əsgərlər evə buraxıldılar. Düşmənin hücumundan bir neçə gün əvvəl Balyand və Qaracallı yüksəkliklərindəki ağır texnika çıxarıldı. Həmin ərəfədə Sirik batalyonunun komandiri mərhum Şakir Abbasov Bərdədən gətirilən və şəxsiyyəti mə"lum olmayan Şamil Abdullayev adlı birisi ilə əvəz edildi. Ş.Abdullayev kəşfiyyat adı ilə erməni kəndinə gedərkən ratsiya ilə kiminləsə xəlvəti əlaqə saxlayırmış. Hətta əhalini köçürmək üçün bir neçə gün öncə buraya yük maşını da gətirtmişdi. Kənd camaatı mövcud vəziyyət barədə rayon rəhbərliyinə müraciət etsə də, onların tələblərinə reksiya verilmirdi. Erməni qaniçənləri hücum edərək Daşbaşı kəndindəki postda dayanan komandirsiz 15 əsgərimizi müəmmalı şəkildə qətlə yetirdilər.

Yuxarıda göstərilənlərlə yanaşı, düşmənin gündən-günə artan hücumunun qarşısının alınmasında, torpaqlarımızın müdafiəsində böyük əhəmiyyət kəsb edən hərbi texnikaya həddindən artıq ehtiyac duyulduğu bir vaxtda Əlikram Hümbətovun müasir tipli tankları və topları ələ keçirərək, respublikamızın cənub rayonlarını tutaraq "Talış-Muğan Respublikası" yaratması da müharibə gedən bölgələrdə əhali arasında inamsızlığı artırır, adamları çaşbaş salırdı. Cəbrayıl polkunun iflic vəziyyətinə düşməsi, kənardan gələn əsgər və zabitlərin qarətçiliklə məşğul olmaları, o vaxt F.Şabanovun rəhbərliyi altında rayona gələn Zəngilan batalyonunun anlaşılmaz hərəkəti sanki bilərəkdən cəbrayıllıları cəzalandırmağa yönəldilmişdi.

Torpaqlarımızın taleyinin təhlükə qarşısında qalması Azərbaycan Xalq Cəbhəsinin iqtidarda olan rəhbərliyinə o qədər də ciddi görünmürdü. Bunu, prezident Əbülfəz Əliyevin 1993-cü ilin aprel

ayında Cəbrayıla qısamüddətli səfəri zamanı ictimaiyyət qarşısında çıxış edərək yeddi yerdən hücuma keçiləcəyini, uzağı üç günə şad xəbər eşidəcəyimizi bildirməsindən az sonra, əksinə, vəziyyətin daha da pisləşərək bir sıra strateji əhəmiyyətli yüksəkliklərdəki postlarımızın düşmən tərəfindən tutularaq rayon mərkəzinin işğal olunması üçün real şərait yaranması bir daha sübut etdi.

Sonradan Surət Hüseynovun başçılığı ilə hökumət əleyhinə qiyam qaldırılması, Əbülfəz Əliyevin Bakıdan Kələkiyə qaçması 1993-cü il avqustun 23-də Cəbrayılın işğal olunması ilə nəticələndi.

Ağır şəraitdə Arazboyu kəndlərdə fəaliyyətə başladığımıza baxmayaraq ruhdan düşmür, Sizin bütün göstərişlərinizi vicdanla yerinə yetirməyə çalışır, üstümüzü alan təhlükədən xilas olmaq barədə yollar axtarmaqla yanaşı, təsərrüfat işlərini də davam etdirirdik. Rayon fəallarının, təsərrüfat rəhbərlərinin qüvvələrini səfərbərliyə alaraq Sizin köməyinizlə qısa müddət ərzində 130 kilometr uzunluğunda işıq xətti bərpa olundu, birbaşa telefon xətti çəkildi, üzüm zavodları işə salındı. Bu müddət ərzində sahələrdən 3500 ton üzüm toplamağa, xeyli ət, süd və digər kənd təsərrüfatı məhsulları istehsal etməyə nail olduq.

Çox ciddi-cəhdimizə baxmayaraq təhlükə başımızın üstün almaqda idi. Odur ki, bütün qüvvələrimizin ilk növbədə əhalini salamat çıxarmağa, ictimai əmlakın xilasına səfərbər etməyə çalışdıq. Xalq malına ürəkdən yanan ayrı-ayrı qeyrətli əməkçilərimizin hünəri sayəsində 267 ton barama, 14 min başdan çox qoyun, 5 min baş qaramal, taxıl, üzüm, 363 ədəd avtomaşın, 251 ədəd traktor və s. çıxara bildik. Möhtərəm Prezident! Arazboyu kəndlərdə məskunlaşdığımız iki aya qədər müddət ərzində ermənilərlə bizim aramızdakı məsafənin 2-3 kilometr olduğunu və bə"zi mövqelərimizdə heç bir silahlı qüvvənin yerləşdirilmədiyini, habelə digər obyektiv səbəbləri nəzərə alaraq, əlavə kömək barədə müraciətimiz əsasında göndərilən 180 nəfərdən ibarət əsgər kontigentinin məskunlaşdığımız Mahmudlu stansiyasına çatmağı ilə tərpənməyi bir oldu. Onlar dayanmadan birbaşa Qubadlı istiqamətinə yollandılar. Müdafiə Nazirliyinin oraya gəlmiş yüksək rütbəli zabitlərinin də avtobusun o istiqamətə yönəldilməsinə xeyli təəccüblənmələri orduda özbaşnalığın baş alıb getməsindən xəbər verirdi. Adını və soyadını bilmədiyim həmin polkovnikin dediyinə görə, general Zaur Rzayev də onlarla birlikdə guya Mahmudluya gəlmişdi. Ancaq biz Zaur Rzayevi görə bilmədik ki, soruşaq görək, bu nə oyundur?

Məcburiyyət qarşısında qalıb yenidən müraciət etməli olduq. Yevlaxdan göndərilmiş 150 ibarət qüvvə — bu, Surət Hüseynovun Yevlaxda olan qüvvəsi idi, — Azərbaycan əsgərinin adına ləkə gətirən hərəkətlərə yol verərək camaatı öz kəndlərindən məcburi surətdə



qovub çıxarır, onların əslakını talan edirdi. Köməyə gələnlərin özbaşınalıqları o yerə çatmışdı ki, komandanlığı belə eşitmirdilər. Hətta onlardan çox-çox öncə səngərlərdə yerləşdirilmiş əsgər və zabitlərlə yola getməyərək bir-birinə qarşı silah işlətməkdən belə çəkinmirdirdər. Təzə gəlmiş qüvvələrin bir gündə törətdikləri cinayətləri və vəziyyətin gərginləşdiyini görüb , o vaxtkı baş nazir Surət Hüseynovla telefonla danışaraq belə cinayətkarların geri qaytarılması barədə konkret tədbir görülməsini xahiş etdim və onların tezliklə cəbhə xəttindən uzaqlaşdırılması üçün tədbir görməsələr, burada baş verə biləcək hadisələrə görə məs"uliyyət daşımayacağımı bildirdim. Sabahısı gün general Nəcməddin Sadıqov gəldi və onların buradan çıxarılmasının o qədər də asan iş olmadığını deməsinə baxmayaraq, elə həmin gün o qüvvələr mövqelərimizdən çıxarıldı.

Bundan sonra əlavə qüvvə kimi XTPD-çilər gəldi. Onların cəbhə bölgələrinə "Mersedes" və digər minik maşınları ilə, maykada, idman formalarında, nizam-intizamsız gəldiklərini görəndə öz-özümə dedim ki, yx, torpaqları belə "qayda-qanunla" heç cür müdafiə etmək olmaz.

Nə isə, aradan iki saat keçməmiş birdən hay düşdü ki, qonşu Füzuli rayonunun Horadiz kəndini ermənilər tutublar. Sizi inandırım, həmin XTPD-çilər bir-biri ilə pıçıldaşdıqdan sonra elə qaça-qaça düşdü ki, təəccübdən gözlərimə inanmaq istəmədim. Soruşdum ki, ay uşaqlar, bizi qoyub hara qaçırsınız? Cavab verdilər ki, əmi, qorxmayın, 5-10 tankdır, 20 dəqiqəyə vurub geri qayıdacağıq. Horadiz zastavasının rəisi ilə əlaqə saxlanıldı. Oranın sabiq rəisi Ramiz müəllim dedi ki, onlar böyük sür"ətlə birbaşa Bakı istiqamətində gözdən itdilər.

Torpaqlarımızın işğal olunması səbəblərinə dair belə misalları çox çəkmək olar. Ancaq hesab edirəm ki, buna ehtiyac yoxdur.

Hörmətli Prezident, mən onun da şahidiyəm, Siz hakimiyyətə gəldikdə qısa müddət ərzində yerlərdəki vəziyyəti özünüzə məxsus ustalıqda öyrəndikdən sonra bu şəraitdə müharibənin davam etdirilməsinin heç kimə xeyir verməyəcəyinə tam əmin oldunuz. O zaman Beyləqanın da düşmənlər tərəfindən zəbt olunması təhlükəsi yaranmışdı. Bundan sonra hərbi səfərbərlik e"lan olunmasını məqsədəuyğun hesab etdiniz. Bu tədbirlərin başa çatması ərəfəsində özünüz cəbhə bölgələrinə gəldiniz. Ön cəbhədə əsgər və zabitlərimizlə görüşdünüz. Ağcabədidə zona müşavirəsi keçirildi. Bundan sonra Füzuli, Beyləqan istiqamətindəki güclü hücum nəticəsində düşmənlərimiz 40-50 kilometr geriyə qovuldular. O vaxt ermənilər təkrar-təkrar güclü hücumlar etsələr də böyük itkilər verib geri oturduldular. Bizim şanlı ordumuz o vaxt öz gücünü düşmənlərə göstərərək onları həddlərini bilməyə məcbur etdi. Ermənistan hökumətinin rəhbərliyi yalnız bundan sonra — 1994-cü il may ayının 12-də Bişkəkdə atəşkəs

barədə sazişə imza atmaq məcburiyyətində qaldı. Bu gün Füzuliyə—o azad olunmuş torpaqlara gedirsən, öz əməyi ilə xarüqələr yaradanlara baxırsan və inanmırsan ki, vaxtilə burada müharibə gedib.

Cənab Prezident, torpaqlarımızın müdafiəsi uğrunda gedən qanlı döyüşlərdə 354 nəfər cəbrayıllı şəhid oldu və ya itkin düşdü, 166 nəfər gənc sağlamlığını itirərək ömürlük şikəst oldu, 4 nəfər isə Vətənin ən yüksək mükafatına - Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Şəxsi mənafeyini xalq mənafeyindən üstün tutan vəzifəpərəst qüvvələrin öz çirkin əməllərini ört-basdır etmək, iqtidarı nüfuzdan salmaq məqsədi ilə guya Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının bir-birinin ardınca işğalının hakimiyyətdə olanlar tərəfindən qəsdən təşkil edildiyi barədə qaldırdıqları hay-küy bir səmərə vermədi. Yalançı demokratlar həmin yaşayış məntəqələrinin Azərbaycan Xalq Cəbhəsi liderlərinə sadiq batalyonlar və Azərbaycanı parçalamağa xidmət edən qüvvələr tərəfindən düşmənə verildiyini sonradan dolayı yolla olsa da, e'tiraf etməyə məcbur oldular. "525-ci qəzet"in 1996-cı il 19 iyun tarixli nömrəsində keçmiş baş nazir Pənah Hüseynovun "Cinayətimiz məğlubiyyətimizdir" sərlövhəli məqaləsi bunu bir daha sübut etdi. Orada açıq-aydın yazılıb ki, əgər Heydər Əliyev bizi hakimiyyətdə saxlayıb işlətsəydi, onda hələ ki, bizim tabeliyimizdə olan batalyonlar o torpaqların işğal edilməsinə imkan verməzdi.

Ermənistanın təcavüzü və milli satqınların xəyanəti nəticəsində dəyəri milyard manatlarla ölçülən çoxlu ictimai və şəxsi bina, qurğular, maşın və avadanlıq, gücü Mingəçevir SES-indən 1,5-2 dəfə artıq olan beynəlxalq əhəmiyyətli Xudafərin su elektrik stansiyasının yarımçıq qalmış tikintisi, qiyməti heç nə ilə ölçüyə gəlməyən maddi və mədəniyyət abidələrimiz, VII-XII əsrlərin yadigarı olan Xudafərin körpüləri və sadalanması mümkün olmayan digər dəyərli əmlakımız erməni işğalçılarının əlinə keçdi. Ən dəhşətlisi isə nankorların xəyanəti və hər birimizin bağışlanılmaz səhvi üzündən, ulularımızın, əzizlərimizin uyuduqları müqəddəs torpaqlarımızın girov düşərək faşist xislətli düşmənlərimizin ayaqları altında qalmasıdır, tariximizin səhifələrinə bunun qara ləkə kimi düşməsidir.

Cənab Prezident! Hadisələrin sonrakı inkişafı onu da göstərdi ki, xarici və daxili düşmənlərimiz hələ də öz alçaq iddialarından əl çəkmək istəmir, respublikamızı yenidən imperiya boyunduruğu altına salmaq üçün iyrənc əməllərə əl atmağa çalışırlar. İki ildən artıq vaxt ərzində atəşkəsə nail olunması, demokratik hüquqi dövlət quruculuğu sahəsində irəliyə doğru atılan addımlar, müstəqil Azərbaycanımızın beynəlxalq iqtisadi əlaqələrinin daha da genişlənərək nüfuzunun



durmadan artması, dünyanın ən inkişaf etmiş ölkələrinin şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin bağlanması, Avropa ölkələrinə və ABŞ-a uğurlu səfərləriniz, qonşu dövlətlərlə münasibətlərin yaxşılaşdırılması, BMT-nin 49-cu sessiyasındakı tarixi çıxışınız, dünya ictimaiyyətinin diqqətinin respublikamıza yönəldilməsi, Azərbaycanda ilk demokratik seçkilərin keçirilməsində, habelə ilk Konstitusiyamızın qəbul olunmasında Sizin xidmətləriniz düşmən qüvvərini ciddi narahat etməyə başladı. Onların xalqımıza, dövlətimizə arxadan zərbə vurmaqdan ötrü əvvəlcə azsaylı xalqlar, etnik qruplar arasında nifaq salmaları, sonra da dövlət çevrilişinə cəhd edərək 4-5 oktyabr 1994-cü il və 12-17 mart 1995-ci il hadisələrini törətmələri bunların əslində xəyanət zəncirinin eyni halqaları olduğunu bir daha sübut etdi.

Lakin onlar bir daha başa düşdülər ki, minlərlə övladının qanı bahasına azadlıq əldə etmiş bir xalqın iradəsini qırmaq qeyri-mümkündür. Xeyli vaxtdır ki, Sizin yorulmaz fəaliyyətiniz sayəsində respublikamızda sabitlik hökm sürməkdədir. Daha İsgəndər Həmidovlar televiziya verilişində iştirak edən dırnaqarası "dövlət başçıları"nı yersiz hikkələri ilə camaatın gözü qarşısında nalayiq hərəkətləri ilə söyüb təhqir etmirlər, küçələrdən "qoçu"ların atəşlərinin səsi eşidilmir.

Vətəndaşlardan yüksək məbləğdə pul qoparmaq məqsədi ilə adam oğurluğuna son qoyulub. Başqa sözlə, azad, demokratik, hüquqi dövlət quruculuğunda irəliyə doğru inamlı addımlar atılmaqdadır.

Dünya siyasətində aparıcı tə"sirə malik olan Amerika kimi nəhəng bir ölkənin konqresində dolayı yolla respublikamızın müstəqilliyinə kölgə salan "Porter əlavəsi"nin senatorlar tərəfindən rədd edilməşi erməni lobbisinə və onların havadarlarına güclü zərbədir. Xalqımız bədnam əlavənin qəbul edilməməsini məhz Sizin beynəlxalq aləmdəki nüfuzunuzun, uzaqgörən, müdrik diplomatik fəaliyyətinizin nəticəsi kimi qiymətləndirir və Sizə bir daha dərin minnətdarlığını bildirir. Diplomatiya sahəsində böyük uğur sayılan bu hadisə Azərbaycan həqiqətinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin informasiya blokadasından çıxarılması ilə yanaşı, məcburi köçkünlərimizin tezliklə doğma torpaqlarına qayıtmaq ümidini xeyli artırır.

Əhalidən daxil olan mə"lumatlar və göstərilən faktlar komissiya üzvləri tərəfindən ümumiləşdirilərkən qəti qərara alındı ki, Şuşa və Laçın rayonları işğal edildikdən sonra düşmən qüvvələrinin maneəsiz olaraq Ermənistandan ərazilərimizgə daxil olması, o dövrdə respublikaya rəhbərlik edənlərin qətiyyətsizliyi, ayrı-ayrı qrupların hakimiyyət uğrunda apardıqları didişmələr, Rəhim Qazıyevin və onun kimi satqınların orduda qəsdən yaratdıqları özbaşınalıq Qarabağ torpaqlarının qəsbkarlar tərəfindən işğal edilməsinin əsasını qoydu. Hakimiyyətdə olduqları qısa müddət ərzində öz populist çıxışları və

məs'uliyyətsiz hərəkətləri ilə respublikada əhalini "partokrat"lara və "demokrat"lara bölərək bacarıqlı mütəxəssisləri idarətemə orqanlarından uzaqlaşdırmaqla qarşıdurma yaradılmasına, mə"nəviyyatımızın zədələnməsinə, uzun illər boyu dövlətçilikdə əldə olunmuş təcrübənin məhv edilməsinə şərait yaradan Azərbaycan Xalq Cəbhəsinin və onun rəhbərliyinin də torpaqlarımızın işğal olunmasında günahları xüsusi qeyd edilməlidir.

Ona görə də əhalimiz Cəbrayılın işğal edilməsi zamanı öz şəxsi məqsədlərinə çatmaq xatirinə xəyanət yolunu tutan Surət Hüseynovun, Rəhim Qazıyevin, Əlikram Hümbətovun və bu işdə əli olan digər şəxslərin hamısını ittiham edir, Vətən qarşısında törətdikləri qatı cinayətlər üçün onların qanunçuluqda nəzərdə tutulan ən ağır cəzaya məhkum olunmalarını tələb edir.

Komissiya üzvləri yaşadığımız 20-ci yüzilliyin əvvəllindən başlayaraq bu günədək erməni faşistlərinin azərbaycanlılara qarşı törətdiyi ağır faciələrin keçmiş SSRİ dövləti tərəfində geniş xalq kütlələrindən uzun müddət gizlədilməsini yekdilliklə qeyri-normal hal hesab edirlər. Belə hadisələrə qarşı millətdə formalaşdırılmış unutqanlıq hisslərini aradan qaldırmaq məqsədi ilə kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə olunmasını və işğal edilmiş rayonların məktəblərində işğalın səbəbləri, kimlərin günahkar olması və s. məsələləri gələcək nəslin beyninə həkk etmək üçün bunların dərsliklərə daxil edilib daim öyrənilməsini vacib sayırıq.

Cənab Prezident! Cəbrayıllılar qarşılaşdıqları çətinliklərdən qətiyyən ruhdan düşmür, respublikamızın iqtisadi böhrandan xilas olması üçün əllərindən gələni əsirgəmirlər. Köçkünlərimiz məskunlaşdıqları ərazilərdə yerli əməkçilərlə çiyin-çiyinə çalışaraq kənd təsərrüfatı işlərinin vaxtında görülməsində xüsusilə fərqlənirlər. Təkcə bir faktı göstərmək kifayətdir ki, hər il Beyləqan, Biləsuvar, İmişli, Saatlı, Sabirabad, Kürdəmir və digər pambıqçılıq rayonlarında cəbrayıllılar 15 min tondan artıq məhsul toplayıb dövlətə təhvil vermişlər.

Fürsətdən istifadə edib, məcburi köçkünlərimizin vəziyyətinin nisbətən yaxşılaşdırılmasında müsbət tə"siri ola biləcək aşağıdakı məsələlərin həllində bizə kömək göstərməyi Sizdən xahiş edirik.

1. Respublikamızın rayonlarının ərazisində müvəqqəti məskunlaşmış köçkünlərin sayına və onların sərəncamında olan kənd təsərrüfatı texnikasına uyğun olaraq çörəyə tələbatı ödəmək məqsədi ilə torpaq sahələri ayrılması, onların toxum, yanacaq və s. əldə etmələri üçün vəsait mənbələrinin müəyyənləşdirilməsi. Belə olarsa, bizə humanitar yardım kimi ayrılan un qapalı müəssisələrə və yaxud daha ciddi ehtiyacı olanlara yönəldilə bilər.

Bunun üçün cənab Prezident, hər bir imkanımız var. Bunu Beyləqan rayonunun timsalında göstərmək olar. Bizə 250 hektar torpaq verdilər.



Düzdür, onu yanvar ayında əkdik. İnandırım Sizi 300 tona qədər məhsul götürdük. Şəhid ailələrinə verdik. 500 hektar əkmək üçün də əlavə torpaq götürdük. Camaatı ələbaxanlığa niyə öyrədək? Nazirlər Kabinetində biz çox müzakirə eləmişik, onların fəaliyyətində doğrudan da nöqsanlar var. Mən hesab edirəm ki, bu, çox sadə bir şeydir,— torpaqdır, verin camaata əməyə öyrənsin. Niyə biz humanitar yardımın dalınca qaçmalıyıq? Mən heç vaxt yadımdan çıxarmaram, Pakistanda o qadın deyəndə ki, qaçqınlara belə yardım verilib, mən Sizin sifətinizə baxdım — Siz sevindiniz. Ancaq Siz elə gözəl adamsınız, elə bir şəxsiyyətsiniz ki, mən istəməzdim camaat gəlib Sizdən yardım istəsin. Ona görə mən xahiş eləyirəm, mümkünsə, bunu həll eləyək. 5—6 min hektar torpaq olsa, 52 min əhalini, bütün cəbrayıllıları — istər Bakıda yaşasın, istəyir çadırda yaşasın, — onları çörəklə tə"min etməyə imkanımız var.

2. Beyləqan, İmişli, Saatlı, Sabirabad, Biləsuvar, Qəbələ və s. rayonlara müvəqqəti saxlanmaq üçün verilmiş iribuynuzlu mal-qaranın dəyərinin hazırkı bazar qiymətləri ilə, toxumun isə natura şəklində qaytarılması məsələsini müsbət həll etmək məqsədi ilə müvafiq göstərişlər verilməsi.

Bu mal-qaranı — 500 başdır — müharibə dövründən çıxartmışıq. O mal-qaranın dəyəri bu günə qədər ödənilməyib. Üstündən üç il keçib, bizim kolxozların fəaliyyəti dayanıb. Onların hesabına vəsait daxil olsaydı, bu, əsgər ailələrinə, şəhid ailələrinə verilərdi. Yə"ni bu o qədər çətin işdir?

Digər bir tərəfdən, cənab Prezident, hesab edirəm ki, Respublika Aqrar İslahat komissiyasına tövsiyə edilsin ki, yerlərdə islahatların həyata keçirilməsi ilə əlaqədar olaraq heyvanların əhaliyə satışı zamanı məcburi köçgün rayonlarından vaxtilə götürülmüş mal-qaranın dəyərinin ödənilməsi barədə göstəriş versin. Çünki indi heyvanlar hamısı satılır əhaliyə və bu vəsaitdən bizə heç nə daxil olmur.

Sonra, bu kolxozların fəaliyyəti dayanıb, onların səlahiyyətləri müvəqqəti olaraq keçir yerli islahat komissiyasına. Mümkünsə, bu sahələrdə kömək göstərilsin.

3. Məcburi köçkün rayonların büdcədən maliyyələşdirilən təşkilatlarında çalışan və özlərindən asılı olmayan səbəblər üzündən işləməyən işçi və qulluqçuların əmək haqqının ödənilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 181 nömrəli qərarının müddətinin uzadılması.

Cənab Prezident! Çıxışımın axırında onu da qeyd etmək istəyirəm ki, rayonumuzun əhalisi Sizin işıqlı zəkanıza böyük ümid bəsləyir və yeritdiyiniz müdrik siyasətin nəticəsində öz doğma yerlərinə qayıdacağına inanır. Yox, əgər münaqişə danışıqlar yolu ilə başa çatmasa, torpaqlarımızın nəyin bahasına olursa-olsun azad edilməsi üçün

əlimizdən gələni əsirgəməyəcəyik. Hər an Sizin əmrinizi gözləyirik. Əli silah tutan hər bir cəbrayıllı torpaqlarımızı azad etməyə, lazım gəlsə Vətən yolunda canını qurban verməyə hazırdır.

Bugünkü görüşdən xatirə qalmaq üçün Cəbrayıl haqqında Sizə bir kitab təqdim etmək istəyirəm. (Prezidentə kitab təqdim edir).

### Milli Qəhrəman Mətləb Quliyevin atası
### KAMRAN QULİYEVİN
### çıxışı

Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları! Söz yox ki, həyatımız nə qədər ağır, nə qədər kədərli, nə qədər ürəksıxıcı olsa da, mən deyərdim, bu gün əlamətdar bir gündür. Çünki belə bir çətin dövrdə bizim rayonun ictimaiyyət nümayəndələrinin möhtərəm Prezidentimiz Heydər Əliyev cənabları ilə görüşünü Allah bizə qismət edib.

Biz bilirik ki, Siz dünya miqyasında nüfuzlu bir dövlət xadimi kimi, həll olunması mümkün hesab edilməyən problemləri müvəffəqiyyətlə həll etməyə qadirsiniz. Məhz Sizin məqsədyönlü fəaliyyətiniz nəticəsində respublikamızda ictimai-siyasi sabitlik tə"min edilib. Müstəqil Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu sahəsində irəliyə doğru müsbət addımlar atılıb, sülh danışıqları yolu ilə ərazi bütövlüyümüzün tə"min olunması üçün diplomatik vasitələrdən istifadə edilir. Odur ki, biz cəbrayıllılar Sizin xarici və daxili siyasətinizi həmişə dəstəkləmişik və gələcəkdə də dəstələyəcəyik.

Sadaladığım problemlərin həlli ilə yanaşı, şəhid ailələrinin sosial tə"minatı məsələsini də Siz həmişə ön plana çəkmisiniz. Bu baxımdan, Sizin imzaladığınız "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" 1993-cü il 3 sentyabr tarixli qanun təqdirəlayiqdir.

Milli Qəhrəman və şəhid ailələri ilə görüşlərinizdəki çıxışlarınızda şəhidlərin qəhrəmanlıqları haqqında söz açmağınızı onların ruhuna hörmət, ailə üzvlərinə isə qayğı əlaməti kimi qiymətləndiririk. Bu hörmət və qayğının bəhrəsi olaraq şəhər və rayonlarımızda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların büstlərinin qoyulması, küçələrə, məktəblərə, radio və televiziya verilişləri və bu kimi digər xeyirxah tədbirlər şəhid ailələri üçün böyük bir səbr və təskinlikdir.

Biz əminik ki, gələcəkdə də şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması, onların ruhuna hörmət, mə"nəvi və vətənpərvərlik tərbiyəsi sahəsində Sizin yeni-yeni fərmanlarınızın şahidi olacağıq.

Sizin belə qayğıkeşliyiniz Vətənin müdafiəsi üçün bizim məs"uliyyətimizi daha da artırır. Ona görə də respublika ziyalılarını



uşaqlarımızı ailədə, uşaq bağçalarında, təhsil ocaqlarında Vətənə məhəbbət, düşmənə nifrət ruhunda tərbiyə etməyə çağırıram. Peşəsindən və təhsilindən asılı olmayaraq hər bir kəs tariximizi dərindən öyrənməli, dost və düşmənlərimizi bir-birindən ayırd etmək bacarığına və qabiliyyətinə malik olmalıdır. Belə olduqda yeniyetmələrimiz də düşmənə nifrət hissi ilə böyüyərlər.

Qədimdən ağsaqqallarımız gənclərimizi dostluq ruhunda tərbiyə etmişlər. Lakin həyat təcrübəsi göstərdi ki, xəbis və mənfur düşmən bundan istifadə edərək, həmişə düşmənçiliyə üstünlük verərək öz məqsədinə nail ola bilmişdir. Erməni işğalçıları ilə sülh məramlı nə qədər söhbət aparılsa da, onlar bunu dərk etmək qabiliyyətinə malik deyillər. Xoş məramlı tərbiyəvi sözlər onlara tə"sir etmir. Dahi şairimiz Nizaminin vaxtilə dediyi bu misraları ermənilərə tam aid etmək olar:

Dəmiri aynatək parladan insan
Pası silməlidir öz vicdanından.

Gördüyümüz kimi, ermənilər pası silməyirlər öz vicdanlarından. Bəs onda biz nə etməliyik? Biz Vətəni müdafiə etməyə qadir orduya, xalqın birliyinə nail olmalıyıq. Hərbi hissələrdə andiçmə mərasimlərində, zabit və əsgər hey"ətləri ilə, qaçqınlar və məcburi köçkünlərlə, kollektivlərdə apardığım söhbətlərdən əmin oldum ki, ordumuz və xalqımızın birliyi vardır. Biz əminik ki, Sizin müdrik rəhbərliyinizlə qaçqınlar öz yurd-yuvalarına qayıdacaq, kasıblığın daşını atacaqlar, qonşu payına göz dikməyəcək, öz ölkəsinin həm yerüstü, həm də yeraltı sərvətloərindən istifadə edəcəklər.

Milli Qəhrəman atası kimi mən şəhid ailələri ilə, zabit və əsgərlərlə söhbətlərimdə Atatürkün ölkənin müdafiə vəziyyəti ağırlaşanda dediyi kəlamı onlara çatdırmağa sə"y göstərirəm. Atatürk çıxışında demişdir ki, biz şəhidlər üçün ağlamamalıyıq, çünki analar bu şəhidləri əvəz edən qəhrəmanlar doğacaqlar. Lakin biz Türkiyəni itirsək, onu doğan olmayacaq. Görün vətənpərvərlik baxımından nə qədər dəqiq və yerində deyilmiş kəlamdır! Deməк, biz respublikamızın işğal altında qalan torpaqlarını düşmənlərdən təmizləmək üçün şəhid verməkdən qorxmamalıyıq. Ona görə də mən ailəmiz adından, şəxsən öz adımdan milliyyətindən, irqindən, cinsindən, dini mənsubiyyətindən, yaşından asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarını, xaricdə yaşayan azərbaycanlıları torpaqlarımızın erməni işğalçılarından azad edilməsinə çağırıram.

Hörmətli Prezident! Biz əminik ki, cəmiyyətimizin lideri, müdrik rəhbər kimi Siz respublikamızı həm siyasi, həm də iqtisadi böhran vəziyyətindən tezliklə çıxaracaqsınız. Biz həm də əminik ki, torpaqlarımızın erməni işğalçıları tərəfindən işğal edilməsinə səbəb olan, xainlik göstərən Rəhim Qazıyev kimi, Surət Hüseynov, Ayaz Mütəllibov və başqaları da ədalət məhkəməsi qarşısında dayanacaqlar.

Vətən xainlərinin torpaqlarımızda yaşamağa mə"nəvi ixtiyarı yoxdur. Bizim işimiz haqdır, qələbə Allahın köməyi ilə bizimlədir!

Çıxışımı Tofiq Fikrətin bu misraları ilə qurtarmaq istəyirəm:

Zülmün topu var, gülləsi var,
qəl"əsi varsa,
Haqqın da bükülməz qolu, dönməz
üzü vardır.

Diqqətinizə görə sağ olun.

Əmək və müharibə veteranı
## HƏMİD QULİYEVİN
çıxışı

Hörmətli cənab Prezident, hörmətli görüş iştirakçıları! Vətəndə vətənsiz qalmaq ağır dərddir. Xüsusilə biz yaşlılar üçün doğulub boya-başa çatdığımız torpaqdan ayrı düşmək, inanın ki, məhv olmağa bərabərdir. Daha dözmək, tab gətirmək olmur. Balıq susuz yaşaya bilmədiyi kimi, biz də torpaqsız yaşaya bilmirik.

Cənab Prezident! Nə yaxşı ki, Siz varsınız. İndi hər bir cəbrayıllı ümidini Sizə bağlayıb, özünün xilaskarı kimi yalnız Sizdən imdad gözləyir.

Mən bir ağsaqqal, yaşlı nəslin nümayəndəsi kimi Sizə çatdırmaq istəyirəm ki, tutduğunuz yolu, yeritdiyiniz xarici və daxili siyasəti camaatımız bəyənir. Bu yol haqq yoludur. Ataların belə bir məsəli var, deyərlər "haqq nazilər, amma üzülməz". Cəbrayıllılar da haqqın, ədalətin tərəfdarıdırlar. Elə ona görə də mövqelərimiz üst-üstə düşdüyündən Cəbrayıl camaatı Sizi çox istəyir, arxanızda möhkəm dayanır, həmişə, hər yerdə Sizə kömək etməyə çalışır.

Bugünkü görüşümüz bu baxımdan daha əhəmiyyətlidir. Çox sağ olun ki, məcburi köçkün rayonların əhalisinə bu qədər diqqətlə yanaşırsınız. Bizə göstərdiyiniz belə diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildirirəm.

İnanırıq ki, Sizin yeritdiyiniz düzgün siyasət tezliklə öz müsbət nəticəsini verəcək, qədim və zəngin Qarabağ torpaqları, eləcə də işğal olunmuş digər bölgələrimiz erməni faşistlərindən azad ediləcəkdir.

Xain qonşularımız birinci dəfə deyil ki, başımıza belə müsibətlər açırlar. Amma heç vaxt indiki kimi olmayıb. Adama ağır gəlir ki, özlərini bizə yaxın adam, dost kimi göstərən ermənilər bu gün torpaqlarımızın beşdə birini işğal ediblər. Yə"ni bunlar həmin ermənilər deyilmi ki, 1918—20-ci illərdə bizim Cəbrayıla basqın edəndə camaatımız silaha sarılaraq onlara bir dərs verdi ki, uzun



müddət dadı damaqlarından getmədi! Çünki o vaxt yaxşı ağsaqqallar var idi, böyük-kiçiyin yeri həmişə bilinirdi.

Ağsaqqal kimi Sizdən bir xahişim var: torpaqlarımızın düşmənə verilməsində azacıq günahı olan bir nəfər də cəzadan kənarda qalmasın. Xəyanətkarlar, satqınlar qanunçuluğumuzda nəzərdə tutulan ən ağır cəzaya məhkum edilsinlər. Qoy bu, başqalarına da ibrət dərsi olsun, xalqımızın adına ləkə gətirən belə rüsvayçı hərəkətlər gələcəkdə bir də təkrar olunmasın.

Möhtərəm cənab Prezident! Bu gün imkandan istifadə edərək bir məsələnin həlli üçün kömək göstərilməsi barədə tapşırıq verməyinizi xahiş edirəm. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının bu il ali məktəblərə qəbulun təşkili işindən əsasən razıyıq. Bu il məktəblərimizin 100 nəfərə yaxın mə"zunu respublikamızın ali məktəblərinə qəbul olunub. Lakin onlardan bə"ziləri ödənişli məktəblərdə oxumaq məcburiyyətində qalıblar. İndi bu ailələrin əksəriyyəti öz uşaqlarının təhsil xərcini ödəmək imkanından məhrumdur. Belə imkansızlığa görə həmin tələbələrin bir çoxu təhsilini yarımçıq dayandırmaq məcburiyyətində qalmışdır. Odur ki, ali və orta ixtisas məktəblərində ödənişlə oxuyan, məcburi köçkün ailələrindən olan uşaqların təhsil xərcindən müstəsna hal kimi azad olunmasına kömək göstərməyinizi xahiş edirəm.

**Heydər Əliyev:** Mən elə indi göstəriş verirəm. Bəli, bunların hamısına baxılmalıdır. Burada bizim şö"bə müdiri Abdullazadə oturubdur, ona göstəriş verirəm — baxılmalıdır və o imkansız köçkün ailələrinin ali məktəblərə qəbul olunmuş uşaqları mütləq dövlət universitetlərinə keçirilməlidir. Ödənişlə qoy o zəngin adamların uşaqları oxusunlar (Alqışlar).

Qaçqın düşüblər, torpaqlarından didərgin düşüblər, var-yoxunu itiriblər, ağır vəziyyətdə yaşayırlar, hələ gedib ödənişli universitetlərdə oxuyacaqlar? Belə şey olar? O qədər zəngin adamlar var ki, — qeyri-qanuni dövlətlənmiş adamlar, — qoy getsinlər ödənişlə oxusunlar. Mən göstəriş verirəm, bunu həyata keçirin və mənə mə'lumat verin.

**Yerdən səs:** Çox sağ olun.

**Həmid Quliyev:** Çox sağ olun. Hörmətli Prezident, mən 1941—45-ci illər müharibəsində iştirak etmişəm, ordudakı intizama bələdəm. Şahidi olduğum bir hadisəni danışmaq istəyirəm. Mənim yaşadığım kənddə cavan uşaqları orduya səfərbər edirdilər. Onlar axşama qədər kəndin içində gəzirdilər. Mən çağırırdım, onlara deyirdim ki, ay bala, siz orduda xidmət eləyirsiniz, öz hissənizə gedin, orada hərbi tə'lim keçin, müharibə şəraitində yaşayırıq. Onların cavabı nə olsa yaxşıdır? Deyir, əmi, biz həftədə bir dəfə, on gündə bir dəfə komandirlərimizlə görüşürük və yenə də qayıdıb kənddə gəzirik. Bəs bu, belə olan

halda ordunun təşkilindən necə danışmaq olar? Sonra, orduya əksər hallarda elə zabitlər gedirdilər ki, onlar ancaq müftəxorluq, varlanmaq məqsədi güdürdülər. Biz adətən, əvvəllər kəndlərdən — mən özüm də iştirak etmişəm — ordu üçün ərzaq göndərirdik, hətta mal-qara, qoyun da göndərirdik. Onlar hara gedirdi — mə'lum deyildi. Sonradan mə'lum olurdu ki, həmin ərzaqları komandirlər özləri mənimsəyib, varlanmaq məqsədi ilə götürüblər.

Möhtərəm Prezident, çıxışımın sonunda Sizi əmin etmək istəyirəm ki, əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz cəbrayıllılar nəinki gənclərimiz, yaşlı nəsil də, hətta veteranlar da torpağımız yolunda ölməyə belə hazırıq. Bir arzumuz var ki, torpaqlarımız azad olsun, Qələbə bayramını möhtəşəm Cəbrayıl çinarının ətrafında keçirək və Siz də o Qələbə bayramında bizi çinar ətrafında təbrik edib orada bir stəkan çay içəsiniz. Diqqətinizə görə çox sağ olun.

### Şəhid atası
### HÜSEYN ABBASOVUN
### çıxışı

Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları! Mən bu gün dərdimin yarısını unutdum. Çünki cənab Prezidenti ürəyim istədiyim kimi gördüm. Maşallah, hələ də xidmət eləyirik. Ona görə də mən çox şadam və dərdimin yarısını unuduram. Mən bütün Azərbaycan veteranlarına, buradakı veteranlara üzümü tutub, çıxışımı bir misalla başlamaq istəyirəm.

Şah bir gün oğlunu göndərir mollanın yanına ki, buna tə'lim ver. Molla oğlana bir neçə vaxt tə'lim verəndən sonra şah oğlunun necə tə"lim almasını öyrənməyə gəlir. Mollaya sual verir ki, mənim oğlum necə tə"lim alır? Deyir, sənin oğlun ə"laçıdır, yaxşı zəkaya malikdir, çox gözəl mənimsəyir, lakin dərrakəsi zəifdir. Deyir, necə yə"ni dərrakəsi zəifdir. Bəs bu dəlidir, nədir, bu nə sözdür? Deyir, dayan, deyim. Bir böcəyi götürür əlinə, oğlanı da çağırır, şah da yanında dayanır. Deyir, oğlum bu nədir? Deyir böcəkdir, buynuzu da var. Deyir nədir? Deyir camış. Deyir, gördün, dərk eləmədi buna camış yerləşməz.

Hörmətli veteranlar! Məni bağışlayın, bir az həyəcanlıyam. Biz nə üçün vaxtında dərk eləmədik və bizi bu günə saldılar? Biz nə üçün Milli Məclisdə didişmə gedəndə, vəzifə davası olanda, şəxsi mənafe güdüləndə, mə"nəviyyatsız adamların taxta çıxmasının qabağını almadıq, niyə vaxtında ayağa qalxmadıq? Dəmirçiyanın mən belə bir fikrini oxumuşam. Yerevanın Teatr meydanında deyib ki, türk aləminə iki şəxsiyyət yetirmişdir ilahi. Biri Atatürkdür, biri də Heydər



Əliyevdir. Gec-tez Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə çağıracaq və sizin bütün məqsədləriniz puç olacaqdır.

Bunu, üzr istəyirəm, bağışlayın, nanəcib erməni deyirdi, amma bizim adamlar bunu hələ yaxşı duymurdular, bunu dərk etmirdilər. Biz gərək onda çağıraydıq Heydər Əliyevi! Gecikmişik!

Bir gün Xalq Cəbhəsinin sədri Elçibəy bizim rayona gəlmişdi. Gözlədik, nə isə, çox çəkdi qəbulları, gec çıxdı qapıdan. Sual verildi ki, o hardadır, dedilər ki, içəridədir. Nə oldu? Amerika polisi formasında paltar geyib, ona kostyum lazımdır. Kostyumun da qolları yaxşı olmadı, nə isə geyinmədi. Bəs sonra? Çəkməsinin dabanından bir mismar çıxıb, onu çəkiclə döymək lazımdır ki, ayağına gəlsin. Nəhayət, bir neçə vaxtdan sonra çıxdı qarşımıza və dedi ki, camaat, Qarabağ sərhədindən hücum olunubdur, qələbə bizimlədir. Bunu deyib aradan çıxdı. Üç gün keçmədi ki, "Qrad" atəşi, top atəşi şəhərimizi viran elədi. Strateji əhəmiyyəti olan kəndlərimizi belə viran qoydu. Bizdə bir İsmayılov Kamal var, dedi "ağası Gülüm olanın başına külüm olar". Bu bizim Elçibəyimiz. Görün bizə kim rəhbərlik eləyirdi. Surət Hüseynov Gəncədən çıxmamış biri Kiprə, biri Türkiyəyə, biri Kələkiyə qaçdı. Belə adamlar bizə rəhbərlik eləyiblər. İran inqilabçısı Xosrov Rüzbehə deyirlər, sən güllələnəcəksən. Deyir, mən şərəfsiz yaşamaqdansa ölməyi üstün tuturam. Bunlar hansı demokratlardır, hansı inqilabçılardır? Görün biz kimə sitayiş etmişik! Biz nə üçün vaxtında belə bir dahini, belə bir siyasətçini, belə bir adamı — Heydər Əliyevi də"vət eləmədik, gətirmədik, niyə bütün xalq, bütün insanlar ayağa qalxmadı! Üzr istəyirəm, fırıldaqçılara baş əydik.

Mən Cəbrayılda olarkən, möhtərəm Prezident, onlarla mübarizə aparırdım. Bizim katib də burdadır, özüm də 51 il idman sahəsində işləmişəm. İttifaq əhəmiyyətli idmançıyam. Bir dəfə katib mənə iclasda deyib ki, çıxışın xoşuma gəlmədi. 51 ildə aldığım cəza bu oldu.

Mən polkda, batalyonda qeyri-adi halları görürdüm, insafsızlığı görürdüm, cəbhədə əsgərlərin heç bir tə"lim keçmədiyini görürdüm. Bizim rəis burada oturub, mən ona müraciət etdim. Dedim ki, mən keçmiş zabitəm, icazə ver, bir ay, iki ay polka tə"lim keçim və təhvil verim sizə. Belə əsgərlik olmaz. Onlar mənə dedilər ki, Hüseyn müəllim, sənin 70 yaşın var, indən sonra sənin burada nə işin? Mənim məqsədim o idi ki, götürdüyüm batalyona və — özüm tələbələrimdən 20 nəfər döyüşçü götürmüşdüm və avtomatla silahlandırmışdım, — onlara tə"lim keçim. Lakin Xalq Cəbhəsi mənim məqsədimi başa düşüb, onları məndən aldı. Məqsədim o idi ki, onlara tabe olmasınlar. Həmişə xalqa deyirdim ki, boş təbil bərk danqıldayar, bunların hay-küyünə baxmayın. Sonra məni araladılar və dedilər ki, ictimaiyyət sənin fikrini bəyənmir.

Onlar silah alveri eləyirdilər, mən bunu görəcəkdim. Ona görə də məni oradan araladılar, kənarlaşdırdılar.

Qarabağ düşmənə onda verildi ki, Laçın əldən getdi. Dörd rayon onda əldən getdi ki, Şaqay yüksəkliyi ermənilərin əlinə keçdi. Strateji əhəmiyyəti olan yerlərimiz əldən getdi. Mən vaxtilə məsləhət gördüm ki, Əlminaş meşəsinə od vurmaq, tamam yandırmaq, ermənilər gələndə onları görmək və məhv eləmək lazımdır. Heç kəs buna əhəmiyyət vermirdi və mənimlə razılaşan yox idi.

Arif Hacıyev rayona gəlmişdi. Rayon mərkəzində dedilər ki, "bəy" gəlib. Mən də getdim. Camaata e"lan etdi ki, biz keçmiş kommunistləri, keçmiş vəzifəli şəxsləri işə qoymayacağıq, kənarlaşdıracağıq, vəzifələri yalnız Xalq Cəbhəsinin nümayəndələri tutmalıdırlar. Bunu o vaxt deyib ki, möhtərəm Prezident, onda ölüm-dirim məsələsi var idi, rayonda müharibə gedirdi, səriştəli adamalara, ağsaqqal adamlara çox böyük ehtiyac duyulurdu. Bundan Xalq Cəbhəsi öz mənafeləri üçün istifadə etdi. Getmədikləri yer olmadı, tutmadıqları əməllər olmadı. Vəzifə lavası, mənafe davası, şəxsi məqsədlər. Belə-belə Cəbrayılın satılmasına gətirib çıxardılar. Bax bizim bəlamız bu idi.

Möhtərəm Prezident, çox danışmaq istəmirəm. Mən şəhid atasıyam. Mən bunu demək istəməzdim, amma ona görə deyirəm ki, icra hakimiyyətinin başçısı dedi. Bizim cəbrayıllılar mənim oğlumu tanıyırlar. İstəyirəm oğlumun son bir-iki cümləsini çatdıram Sizə. Sağlığında jurnalist idi. "Biz ölümə getməyə hazırıq. Mən ölməyə də bilərəm". Bax, bu onun mə"nəviyyatını, şəxsiyyətini göstərir. Cəbrayılda və bütün Azərbaycanda bunun kimi bundan da igid minlərlə şəhid var. Lakin mən oğlum haqqında deməyə məcburam. O, son dəfə gedəndə mənə qısa məktub yazıb. "Qəhrəmanlıq—məqsədə doğru gedərkən öz həyatını hesaba almayan insanın düşüncə tərzidir". Bunun yazısının iki məqsədi var. "Ata, — deyir, — Ağdamın Qərvənd kəndinə gətirildik. Çox güman ki, döyüşə gedəcəyik. Döyüşçülər hamısı öz əsgərlərimizdir. Bax, ağlama, özünü üzmə, kömək et, mənim balalarım yaşasın. Onsuzda sənin qanın rəhmətlə yuyulub. Dözümlü ol, dünyada bir canlı qalmayacaq. Altı döyüşdə iştirak etmişəm. Olsun ki, qanımı almışam. Sən həmişə deyərdin ki, əsl igid yorğan altında ölməz. Allah bizə həyat verəndə yaxşımı olur, alanda pismi? Məni öldürməklə bəlkə dünyanın çirkindən məni azad edir".

O, Cəbrayılın şərqini qoruyurdu. Cəbrayılın şərqində Sirik kəndi var. Dörd dəfə döyüşə getmişdi. Neçə ermənini qırmışdılar Şişqaya ətrafında. Sur əməliyyatında — hamısında özüm iştirak etmişəm, arxasınca getmişəm, ölümünü öz gözümlə görmüşəm.

İki batalyon Xalq Cəbhəsinin və icra hakimiyyətinin nəzdində idi, o isə heç kəsə tabe olmurdu. Şübhəsiz ki, hərbi hissə icra



hakimiyyətinin ərazisində olduğu üçün məsləhətləşməlidir, amma tabe olmalı deyildi. O da tabe olmurdu. Buna görə də onu işdən xaric eləmişdilər. O isə getdi Seyfəliyə, batalyon verdilər ona, batalyon komandiri oldu. Orada Surət Hüseynovun yaxın adamı Nizami Əhmədov onu başqa işə çəkmək istədi, o yola yenə getmədi və oradan cəbhəyə gedib döyüşdə qəhrəmancasına həlak oldu.

Möhtərəm Prezident, biz cəbrayıllılar Sizin siyasətinizi dəstəkləyir və Sizə böyük rəğbət, məhəbbət bəsləyirik, Sizin hər hansı əmrinizi gözləyirik. Əgər məsələ sülh yolu ilə həll olunmasa, həmişə döyüşə hazırıq.

Mənim 70 yaşım var, keçmiş komandir kimi silaha sarılıb öz oğlumu əvəz etməyə hazıram.

İcazə verin, bununla da qurtarım. Diqqətinizə görə çox sağ olun. Mən Sizə minnətdaram ki, Siz bizi yad edir və bizə qayğı göstərirsiniz. Nəvələrim tapşırmışdı ki, Əliyev yoldaşın yanına gedəcəksən, onu görəcəksən, böyük adamın yanına gedirsən. Mən onların da salamını Sizə çatdırıram.

### Milli Məclisin üzvü
### ƏLİ HƏSƏNOVUN
### çıxışı

Möhtərəm cənab Prezident, hörmətli görüş iştirakçıları!

Möhtərəm Prezidentimizin yanında keçirilən belə görüşlər bizim tariximiz üçün yaddaşdır. Mən cəbrayıllıların toplantısında çıxış edərək dedim, — biz başımıza gələn bütün bu bəlaları nəinki hər il, hər ay, hər saat gənc nəslimizə, yeniyetmələrimizə danışmalı, onların beyninə yeritməliyik — düşmənlərimiz kim olub, başımıza nələr açıblar. Heç olmasa gələcəkdə bu gənc nəsil belə bəlalara düçar olmasın. Bu mə"nada mən hesab edirəm ki, bu görüşlərin çox böyük ideoloji mə"nası var. Belə görüşlərdə gələcək nəsillərlə aparılacaq böyük ideoloji işin təməli qoyulur. Bundan əlavə, bu görüşlərdə hər birimiz şahidik ki, hətta istintaq prosesində mə"lum olmayan məsələlər ortaya çıxır. Bunun belə böyük mə"nası var. Bu baxımdan, möhtərəm Prezident, mən şəxsən Sizə öz minnətdarlığımı bildirirəm.

Bizə mə"lumdur ki, düşmənimiz kimdir. Erməni qəsbkarları, silahlı orduları təcavüz edərək torpaqlarımızı zəbt etmişlər. Ancaq çox təəssüf hissi ilə qeyd edirəm ki, onlar bizim torpaqları zəbt edərkən daxili düşmənlərimizdən, bizim insanlardan — əgər onlara "insan" demək mümkündürsə — istifadə etmişlər. Bunlar Surət Hüseynov, Rəhim Qazıyev, Əlikram Hümbətov və onların havadarlarıdır. Ən dəhşətlisi budur ki, ermənilərin torpağımızı zəbt etməsində daxili düşmənlərimizin də əli var.

Möhtərəm Prezident, 1993-cü il avqustun 19-da Sizin təşəbbüsünüzlə o rayonlara Bakıda, Sumqayıtda yaşayan, əslən həmin bölgələrdən olan adamlar göndərildi. Cəbrayıla göndərilənlərin içərisində mən də var idim. Biz avqustun 19-da Cəbrayıla gəldik. Cəbrayıl tamamilə boş idi. Cəbrayılın ətrafındakı yüksəkliklərin hamısında ermənilər oturub istehkamlar qurmuşdular. Bizə dedilər ki, bu, 4—5 ay öncə olubdur, Cəbrayıldan isə əhali bir ay bundan qabaq çıxarılıbdır, tamamilə boş rayondur. Oranı belə bir vəziyyətdə gördük.

Mən Cəbrayıl polkunun komandirini də"vət etdim. Dedim, bizi maraqlandırır ki, burada hərbi qüvvənin vəziyyəti necədir. O mənə dedi ki, mən daha polkun komandiri deyiləm. Dedim, bəs kimdir polkun komandiri? Dedi, Zaur Rzayev 10 gün bundan əvvəl buraya gəlib, məni şifahi surətdə azad edib və polk komandirliyini həvalə edibdir Zəngilan batalyonunun komandiri polkovnik Şabanova, ona görə mən sizə mə"lumat verə bilməyəcəyəm. Sonra biz məcbur olduq, təzə tə"yin olunmuş icra hakimiyyəti başçısı ilə birlikdə özümüz başladıq buradakı əsgərlərin sayını öyrənməyə. Şəxsi hey"əti 2000—2500 nəfər sayılan, hesabatda olan o polkda cəmi 270 nəfər canlı qüvvə var idi. Sonra sual verdim — yaxşı, 2000—2500 nəfərlik polkdan nə üçün bu qədər az adam qalıb? Axı, bütün hesabatlarda ərzağı da 2500 nəfərlik alırsınız, vəsaiti də alırsınız. Bu nə məsələdir belə? Buna heç biri cavab verə bilmədi. Yə"ni demək istəyirəm ki, o vaxt ordu bu vəziyyətdə idi. Surət, Rəhim Qazıyev kimilərinin ordusu bundan artıq ola bilməzdi və o ordu bizim başımıza belə bəlalar açdı.

Digər bir faktı da deməyi məqsədəuyğun hesab edirəm. 1993-cü il avqustun 22-də saat 12-də o vaxt qərargahın rəisi olan general Zaur Rzayev Cəbrayıla gəldi. Mən onda qərargahda idim. Tanımırdım, birinci dəfə orada gördüm, - Şabanov orada əyləşmişdi. Üç gün biz onu axtardıq, tapa bilmədik. Sən demə, bu bilirmiş ki, Zaur Rzayev gələcəkdi və özü də gəlib çıxmışdı oraya. Bizə dedilər, tərk edin buranı, generalın söhbəti var polkovniklə. Mən dedim biz buraya göndərilmişik, nə üçün tərk etməliyik? Nə isə, bu, Şabanovu də"vət elədi bayıra. Saat 12-dən 14.00-a qədər bunlar ikisi bayırda söhbət etdilər. Qurtaranda dedi, mən gedirəm. Dedim ki, bəs günorta vaxtıdır, enək aşağı — Mahmudlu stansiyasına, orada bir tikə çörək yeyək. Bunu gətirdik Mahmudlu stansiyasına, yemək də hazırlanmışdı. Oturduq, saat artıq 3 idi.Ağacdan balaca əl radiosu asılmışdı. Sizin məclisdə Rəhim Qazıyevlə əlaqədar çıxışınızı verməyə başladılar. Dedim, elə çıxış da verilir, əyləşin, qulaq asaq. O mənə dedi, "bilirsiniz, mən tələsirəm, otura bilməyəcəyəm". Çörək də yemədi,



çıxışa da qulaq asmadı getdi. Biz hamımız — Murad Babayev, digər şəxslər çox narahat olduq ki, bu nə məsələdir.

Nə isə, mən qayıtdım təzədən qərargaha. Saat artıq 5 idi. Getdik ora, icra hakimiyyəti başçısı — onda keçmiş başçı idi. Xalq Cəbhəsinin üzvü idi, prokuror, MTN şö'bəsinin rəisi və polisin rəisi Vaqif Məhərrəmov — beşimiz qalxdıq Yuxarı Cibikliyə, saat 5-də qərargaha gəldik. Gördük polkovnik Şabanov yoxdur. Soruşduq — dedilər mövqelərdədir. Hansı mövqedə — heç kim deyə bilmir. Saat 6-da qərargahın dörd tərəfini topdan, tankdan, minomyotdan atəşə tutmağa başladılar. Çox sərrast vururdular. Duman qalxdı göyə, göz-gözü görmürdü. Dördümüz də orada idik. Tez çıxdıq bayıra, yaxınlaşdıq radiostansiya olan maşına, bütün postlardan batalyon komandirləri, onlardan kiçik vəzifəlilər çığırırlar ki, bəs "erməni enir aşağı, nə edək? Radist də qalıb belə, bizə müraciət edir ki, nə cavab verim? Dedim, nə cavab ola bilər, de, atəş açsınlar, buraxmasınlar. Bəs komandiriniz hardadır? Bilmirlər. 40 dəqiqə içərisində ermənilər daxil oldu Cəbrayıla. Saat 7-də polkovnik Şabanov gəldi çıxdı. Biz düşdük bunun üstünə ki, harada idin? Deyir mövqedə. Hansı mövqedə? Bizə başa sala bilmədi.

Ermənilər Cəbrayılı zəbt etdilər və bizi saldılar aşağı — Araz qırağı stansiyaya. Biz — o vaxt orada olan nümayəndələr rəsmi yoldaşlara öz fikrimizi bildirdik ki, Zaur Rzayevə inanmırıq. Mən demək istəyirəm ki, bu əhvalat bizim daxilimizdə bir qaranlıq məsələ kimi qalıb. Hesab edirik ki, bu məsələ aydınlaşdırılmalıdır. Əgər Zaur Rzayev, Şabanov bu məsələdə iştirakçıdırlarsa, günahkardırlarsa, öz cəzalarını almalıdırlar. Yox, günahkar deyillərsə, bu da mə'lum olmalıdır ki, bizim daxilimizdəki o qara ləkə silinsin getsin.

Digər bir məsələni də yadınıza salmaq istəyirəm. Hamımız şahidik — o vaxt camaat arasında danışılırdı ki, ermənilər bir saata da olsa Ağdama, Füzuliyə və digər rayonlara girib çıxmalıdırlar. Mən şəxsən bu danışıqlardan belə nəticəyə gəldim ki, torpaqlarımızı zəbt edən erməni qəsbkarları, onlara qoşulan daxili düşmənlər Rəhim Qazıyev, Surət Hüseynov, Əlikram Hümbətov və digərləri, bunlara üçüncü ünsürlər də qoşulub. Mən hesab edirəm ki, ələlxüsus 1992-ci ildə Xalq Cəbhəsinin hakimiyyəti dövründə bütün rayonların əmlakı, iqtisadiyyat dağıdılmışdı, əmlak daşınmışdı, sökülmüşdü, hamısını dağıdıb aparmışdılar. Burada üçüncü qrup ünsürlər, yə'ni əmlakı dağıdan ünsürlər meydana çıxmışdı və bu üç qrupun mövqeləri üst-üstə düşmüşdü. Bunlar da qoşulmuşdu onlara, cinayətlərin tezliklə başa çatmasına kömək etmişdilər. Mən bilmirəm, istintaq prosesində o dövrdə əmlakın dağıdılması məsələlərinə toxunulur, ya yox. Toxunulursa — yaxşıdır, toxunulmursa, hesab edirəm ki, o məsələlərə də baxılmalıdır. Çünki onların günahları o biri ünsürlərdən az deyil.

Onlar o yolla öz günahlarını, bütün o dağıntıları ört-basdır ediblər və bu da camaat arasında danışılır.

Surət Hüseynov 1994-cü ilin oktyabrında yox, 1993-cü ilin avqustunda dövlət çevrilişinə başlamışdı. Elə kürsüyə əyləşən gündən dövlət çevrilişinə başlamışdı. Avqust ayında həmin rayonların başına gələn oyunlar bir daha sübut etdi ki, Surət Hüseynov birinci gündən bu məsələ ilə məşğul olur. Hər birimizin yadımızdadır ki, 1993-cü ildə Azərbaycan reallığı nə vəziyyətdə idi. Dünyanın bütün ölkələrində ermənilər həqiqəti, reallığı 180 dərəcə tərsinə çevirib, bütün beynəlxalq aləmi inandırmışdılar ki, guya təcavüzkar Azərbaycandır — erməniləri incidir, blokada yaradır. Beynəlxalq aləmdə belə bir fikir formalaşdırmışdılar.

Son üç ildə günbəgün, saatbasaat, aybaay, ilbəil bu məsələlər necə gəlib bu gün yerinə çıxıb — bunun hamısının şahidiyik. Möhtərəm Prezidentimiz dünyanın bir çox ölkələrinə gedib, kiçik bir xəritənin üzərində bütün ölkələrin liderlərinə başa salıb, sübut edib ki, burada təcavüzkar kimdir. Onların televiziyasından istifadə edib, o ölkələrin əhalisinə müraciət edib, başa salıb ki, bu məsələlərin günahkarı kimdir. Bu gün beynəlxalq aləmdə Azərbaycan reallığı, Azərbaycan həqiqəti nəhayət, tam mə'lum olub. Demək olar ki, bütün millətlərin fikri bu məsələdə dönüb və mə"lum olub ki, təcavüzkar kimdir. Mən deyərdim, hətta hegemon dövlətlərin liderləri belə bir məsələni on ilə yox, iyirmi ilə də gətirib bu yerə çıxara bilməzdilər. Bunu hər birimiz anlamalıyıq, hər birimiz başa düşməliyik ki, bu həqiqətdir. Çox təəssüf hissi ilə qeyd edirəm ki, hətta bu günün özündə bizim daxilimizdə, respublikamızın özündə elə insanlar tapılır ki, bu həqiqəti, bu reallığı danır, buna başqa don geyindirirlər. Bələlərinə mən ən azı siyasət naşıları və nankorlar deyərdim.

Möhtərəm Prezident, biz əminik ki, Sizin böyük siyasətiniz qarşısında dünya ermənilərinin və onların havadarlarının siyasəti tab gətirməyəcəkdir. Çünki Sizin siyasətiniz haqq siyasətidir. Mən bir vətəndaş kimi, bir cəbrayıllı kimi deyirəm — əgər bu məsələ sülh yolu ilə həll olunmasa, bir əsgər kimi bu torpaqların azad edilməsinə və o torpaqlar azad olunduqdan sonra təcrübəli bir mütəxəssis kimi o rayonların bərpasında iştirak etməyə hazıram. Bu, mənim 75 yaşlı anamın, qardaşlarımın, bacılarımın, — onlar axırıncı dəqiqəyə qədər kəndi tərk etməyiblər və mühasirədə qaldıqdan sonra məcburiyyət qarşısında Arazı keçib İrana getmişdilər, — onların fikridir. Bu, bütün cəbrayıllıların fikridir. Xalq arasında, camaat arasında olan bir adam kimi deyirəm. Bu, bütün xalqın fikridir. Möhtərəm cənab Prezident, cəbrayıllılar və mən şəxsən Sizinləyik, Sizin siyasətinizi bəyənirik, dəstəkləyirik, müdafiə edirik. Mən Sizə uzun ömür, cansağlığı arzu edirəm.



**N. Tusi adına**
**Azərbaycan Pedaqoji Universitetinin professoru**
**NAİLƏ VERDİZADƏNİN**
**çıxışı**

Möhtərəm cənab Prezident! Hörmətli görüş iştirakçıları! Məndən əvvəl çıxış edənlər kimi, mən də siyasi və iqtisadi cəhətdən çətin bir dövrdə, işinizin gərgin vaxtında işğal altında olan rayonların ictimaiyyəti ilə görüşə imkan tapdığınız üçün Sizə öz minnətdarlığımı bildirirəm.

İndi ölkəmizdə sabitlikdir. Müstəqilliyin ilk illərindən fərqli olaraq, ölkədə müəyyən bir intizam yaranmışdır. Bu da respublikamızın normal iş ahəngini tə"min edir. Biz sivil dövlətlərdə olduğu kimi, sakit bir dövrdə yaşaya bilirik, işləyə bilirik. Lakin böyük maddi və mə'nəvi çətinliklər içərisindəyik. Bunun səbəbi də, belə başa düşürük ki, ölkəmizin böyük bir hissəsinin işğal olunması ilə bağlıdır. Əgər nankor qonşularımızın yaramaz əməlləri olmasaydı, tək Azərbaycan deyil, bütün Qafqaz bölgəsi rahat və firavan həyat sürə bilərdi. Çox təəssüf ki, bunu bədnam qonşumuz ermənilərə başa salmaq olmadı. Yüz illərlə qurduğumuz evlər dağıldı, şəhərlər, kəndlər xarabalığa çevrildi. Qarabağ-Cavanşir mahalı ölkənin ən varlı bölgəsi idi. Böyük sərvətimiz talandı. Bütün bunlara dözmək, tab gətirmək, bunlardan keçmək olar, lakin o torpaqlardan keçmək olmaz.

SSRİ-nin dağılmasından istifadə edib, Ermənistan öz ərazisindən azərbaycanlıları təmizlədi, üstəlik də Qarabağı işğal etdi. Qarabağ sondur, Qarabağı geri qaytarmamaq Azərbaycanın müstəqil bir respublika kimi yaşayacağına tə'minat vermir , buradan o tərəfə yol yoxdur.

Cəbrayıl əhalisi böyük dəyanət göstərdi. Bütün respublika bilir ki, Cəbrayıl camaatı son dərəcə böyük inadla vuruşdu və axıra qədər təslim olmadı. Cəbrayıl oğullarının qəhrəmanlığı, müdafiə əzmi bütün respublikada qeyd olunurdu. Lakin ümumi və böyük xəyanət Cəbrayılın da işğalına səbəb oldu. Şübhə etmirik ki, Vətən xainləri öz layiqli cəzalarını tezliklə alacaqlar.

Bircə arzumuz budur ki, xalqımız tezliklə öz torpaqlarına, öz obalarına qayıtsın və öz sərvətlərinə sahib dursun. Xalqımız o torpaqların qədrini, indi əvvəlkinə nisbətən on qat, yüz qat artıq bilir, onu əzizləyəcək və əkib becərəcəkdir. Biz inanırıq ki, sərhədlərimiz tam bərpa olunandan sonra maddi tə"minatımız, mə"nəvi çətinliklərimiz də aradan qalxacaqdır.

Hörmətli cənab Prezident, Azərbaycan ziyalıları, bütün xalq Sizin arxanızdadır. Siz bu iki illik atəşkəsdən istifadə edib Azərbaycanı bütün dünyaya tanıtmısınız. Sizin məqsədyönlü fəaliyyətiniz nəti-

cəsində bütün mütərəqqi dünya ictimaiyyətinin diqqəti Azərbaycana yönəlmişdir. Əgər torpağımız sülh yolu ilə alınmasa, biz o torpaqlarımızı qanımız bahasına azad etməyə hazırıq. Bir qadın kimi mən də bu döyüşə hazıram. Bu, bizim vətənpərvərlik borcumuzdur. Respublika yalnız bu yolla öz müstəqilliyini, öz həqiqi inkişaf yolunu tə"min etmiş olar. Biz inanırıq ki, Siz məsələnin düzgün həlli yolunu tapacaqsınız.

Sizə torpaqlarımızın azad olunması yolunda böyük uğurlar arzulayırıq. Biz ziyalılar Sizə dayaq olmağa hazırıq. Diqqətinizə görə çox sağ olun.

Heydər Əliyev: Sağ ol. İndi də qubadlıları dinləyək. Qubadlı rayon İcra Hakimiyyətinin başçısı Əvəz Hüseynquliyevə söz verilir.



Qubadlı rayon
İcra Hakimiyyətinin başçısı
**ƏVƏZ HÜSEYNQULİYEVİN**
çıxışı

Möhtərəm cənab Prezident, hörmətli görüş iştirakçıları! Hələ keçən əsrlərdən bəri dəfələrlə mənfur qonşularımızın təzyiqlərinə mə'ruz qalıb, lakin hər dəfə də mərdliklə onlara sinə gərən qubadlılar təəssüflər olsun ki, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Surət Hüseynov, Əlikram Hümbətov, Rəhim Qazıyev və AXC liderlərinin satqınlığı, səriştəsizliyi ucbatından öz ata-baba yurdlarından didərgin düşdülər. Altı ilə yaxın erməni işğalçılarına arxa çevirməyən, onların hər bir təxribat hərəkətinə kişi kimi cavab verən rayonumuzun əhalisi indi respublikanın 54 rayonuna səpələnib. Acı, həyəcanlı və ömür boyu qaysaq bağlayan qəlb yaralarımızın sızıltısına dözərək üç ildir ki, Qubadlısız yaşayırıq. Şəxsiyyətinə Allahımız qədər hörmət, ehtiram və ümid bəslədiyimiz möhtərəm cənab Prezident, icazə verin işlərinizin belə çox və gərgin olduğu vaxtda imkan tapıb bizi Prezident sarayında qəbul etdiyiniz üçün bütün qubadlılar adından Sizə dərin minnətdarlığımı, hörmət və ehtiramımı bildirim.

Hörmətli Prezident, təəssüf ki, nankor qonşularımızın şər dəyirmanlarına çox vaxt öz səriştəsizlərimiz su töküblər. Belə ki, 1969-cu ilin iyun ayında respublika Ali Sovetinin müvafiq qərarı ilə Qafan—Gorus magistral yolunun Azərbaycana aid meşə zolağının xeyli hissəsini — Vəli düzü, Güllü zəmi və Məzrə düzü deyilən sahələri xalqdan gizlin ermənilərə veriblərmiş. Təxminən bir ay sonra Sizin Azərbaycan Kommunist Parstiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməyiniz ermənilərin arzusunu gözündə qoydu. Elə bil ki, qurbağa gölünə daş atmışdılar. Biz həmin sahələrdə əkin-biçin edir, Vəli düzü deyilən sahədə isə yeməkxana, istirahət düşərgələri və

pansionat tikirdik. Bir tərəfdən Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikasının sür'ətli tərəqqisi və inkişafı, digər tərəfdən Siyasi Büro üzvü olmağınız, az sonra Moskvaya məs'ul vəzifəyə irəli çəkilməyiniz mənfur qonşuların gözünə qara tikan kimi batırdı. Təbii ki, o vaxtdan başlayaraq dünya siyasətçiləri arasında xüsusi yer tutan Heydər Əliyev fenomeni erməni lobbisini həmişə səksəkədə saxlayırdı və elə bu gün də saxlayır.

Bunları deməkdə məqsədim var. Siz Moskvada vəzifədən iste'fa verəndən az sonra ermənilər həmin düşərgələri yandırmağa başladılar. Ortaya 1922-ci və 1933-cü illərin xəritələri qoyuldu. Biz bu xəritələrlə sübut etməyə çalışırdıq ki, bu torpaqlar Azərbaycanındır. Lakin həmin məsələ ilə bağlı respublika rəhbərliyi bizə kömək göstərmək əvəzinə camaatın əl-qolunu soyudur, Bakıya və Moskvaya müraciət edənləri sıxışdırırdı. Vacib iş kimi oraya yol çəkən 21 və 41 nömrəli yol tikintisi idarələrini Qafan rayon Xalq Məhkəməsinin qərarı ilə cəzalandırdılar, idarələri isə külli miqdarda cərimə etdilər.

1988-ci ilin axırlarında ermənilər açıq mübarizəyə girişdilər. Həmin ilin noyabr-dekabr aylarında azərbaycanlılar Ermənistandan kütləvi şəkildə qovuldu. Qaçqınların xeyli hissəsi Qubadlı ərazisinə gəlir və oradan Bakıya üz tuturdu. Biz o vaxt sərhəd zonasını möhkəmləndirmək məqsədi ilə onların burada və Dağlıq Qarabağda yerləşdirilməsini təklif etdik. Lakin Azərbaycanın o vaxtkı rəhbərliyi — gülməli də olsa, Azərbaycanın gələcəyini hamam tikməkdə, qoz ağacı əkməkdə görən fərsiz, qətiyyətsiz Ə.Vəzirov bu təklifi təxribat kimi qarşıladı və bu istiqamətdə heç bir əməli tədbir görmədi.

Azərbaycan rəhbərliyinin belə mövqeyini görən ermənilər bundan sonra daha da azğınlaşdılar. Sərhəd kəndlərinə hücumlar, qarətlər başlandı, partlayışlar törədildi, mal-qara oğurlandı. 94 yaşayış məntəqəsi, 802 kvadrat kilometr ərazisi, 30 minə qədər əhalisi olan Qubadlı coğrafi mövqeyinə görə Ermənistanın özü ilə 120 kilometr, Dağlıq Qarabağın keçmiş Hadrut rayonu ilə isə 40 kilometr həmsərhəd idi. Respublika rəhbərliyinin köməyindən əlini üzən, hər gün, hər saat gah Ermənistan, gah da Dağlıq Qarabağ ərazisindən intensiv hücumlara mə'ruz qalan qubadlıların o illərdə başları nə bəlalar çəkməyib! Döyüşə də, aclığa da mə'ruz qalmaq və dözmək olardı. Ən böyük dərd əqidəsizlərin və dilbilməzlərin əlində xalqın mə'nəviyyatca əzilməsi və məhvə doğru getməsi idi.

1988-ci il noyabrın 24-də axşam saat 10.30 radələrində erməni silahlı dəstələri Gorusun rəhbər işçilərinin bilavasitə başçılığı ilə sərhəddə yerləşən Eyvazlı, Qədirli və Davudlu kəndlərinə hücum etdilər. Eyvazlı kəndini bütövlükdə yandırdılar. Qadınlar, uşaqlar,



qocalar meşə yolu ilə ayaqyalın-başıaçıq canlarını güclə qurtarıb qaça bilmişdilər. Hadisə barədə Bakıya, respublika rəhbərliyinə tə'cili mə'lumat verildi. Ertəsi gün bu hadisə ilə bağlı bütün kəndlərdən rayon mərkəzinə dəhrə-yaba, qüş tüfəngləri ilə silahlanmış minlərlə cavan və qoca gəlmişdi, Gorus şəhərinə hücum etmək istəyirdilər. Bunu eşidən respublika rəhbərliyi bildirdi ki, biz Moskva ilə danışıqlar aparırıq, siz də camaatın hücum etməsinə imkan verməyin. Günorta saat 3-ə qədər meydanda qalan camaatı güclə sakitləşdirə bildik.

Törətdikləri hadisələrin Azərbaycan tərəfindən sakitliklə qarşılandığını görən bir qrup erməni yaraqlısı noyabrın 25-də günün günortaçağı qubadlılar tərəfindən müdafiə olunan Şahverdilər kəndinə hücum edib 80 yaşlı Sevdimalı kişinin gəlinini və həyat yoldaşını girov aparmaq istəyiblər. Vəziyyəti belə görən Sevdimalı kişi qoşalülə ov tüfəngi ilə üç erməni yaraqlısını yerə sərmiş, iki nəfəri isə yaralayaraq, gəlinini və ailəsini düşmənlərin əlindən xilas edə bilmişdi. Siz bir faciəyə baxın! Namusunu kişi kimi, qanı bahasna xilas edən 80 yaşlı Sevdimalı kişinin ardınca respublika rəhbərliyinin göstərişi ilə Bakıdan istintaq qrupu gəlmişdi ki, onu həbs edib Ermənistanın orqanlarına təhvil versin.

Yerli camaat o kişini gizlətdi və şaiyə buraxdı ki, o, meşədə ölüb. Rayon polis şö'bəsinə bu barədə yuxarıdan beş aya qədər təzyiqlər edildi. Ə.Vəzirov qorxurdu ki, ermənilər ondan inciyəcəklər. Hələ bu harasıdır! Ə.Vəzirov Qubadlıya ilk gəlişində vertolyotdan enən kimi salamsız-kəlamsız sevincək xalqa müraciət edərək bildirdi ki, muştuluğumu verin, 5 minə qədər erməni Bakıya qayıdıb. Bəli, ermənilərin qayıtmasını muştuluq xəbəri kimi bizə çatdırdı.

1989-cu ilin sentyabr ayında rayon əhalisi dəhşətli bir xəbər eşitdi: ermənilər rus ordusunun köməyi ilə Yazı düzü deyilən sahədən ağır hərbi texnikanı Qarabağa keçirmək istəyirlər. Bu xəbəri eşidən rayon əhalisi əli dəyənəkli, baltalı, yabalı oraya axışdı. Zirehli texnika ilə sursat aparan maşın karvanını müşayiət edən rus hərbçiləri əllərində benzin dolu butulkalar tutan uşaqların və gənclərin qətiyyətini, xalqın gözündəki nifrəti, qəzəbi görəndə dinməz-söyləməz geri dönməyə məcbur oldular.

Ermənilər nəyin bahasına olursa-olsun ya Qubadlıdan, ya Laçından, ya da Gəlbəcərdən Dağlıq Qarabağa dəhliz açmaq istəyirdilər. Çünki Ermənistan tərəfdən Laçının və ümumiyyətlə Kəlbəcərin ərazisi uca dağlarla əhatə olunduğu üçün ora vertolyotla da getmək mümkün deyildir və Xankəndi hava limanı ağır təyyarələri qəbul etmək imkanına malik deyildir. Ona görə də Laçından, ya Qubadlı dəhlizindən ağır texnikanı aparmaq üçün yol açmaq

istəyirdilər və bunun üçün dəridən-qabıqdan çıxırdılar. Təəssüflər olsun, öz əqidəsizlərimiz — "cəbhəçilər", surətçilər və o birisilər bu işdə onlara kömək etdilər.

1989-cu ilin axırlarında Daxili İşlər Nazirliyinin göstərişi ilə sərhəd bölgələrində, o cümlədən Qubadlı Rayon Milis Şö'bəsindəki avtomat silahlar, orta məktəblərdə hərbi tə'lim keçmək üçün olan kiçik çaplı tüfənglər yığılıb Bakıya göndərildi. Buna baxmayaraq, rayon əhalisi sərhəd kəndlərini cəsarətlə müdafiə edirdi, erməni təxribatçılarını tutub respublikanın inzibati orqanlarına təhvil verirdi. Respublika rəhbərliyinin qətiyyətsizliyini görən rayon ziyalıları və ağsaqqalları ümumrayon müdafiə qərargahı yaratdılar. Hadisələri rəhbərliyə çatdırmaq üçün 1990-cı il yanvar ayının 6-da bir qrup ziyalı Bakıya yola düşdü. Bir həftədən çox müddətdə heç bir şeyə nail olmayan ziyalılarımız kor-peşman geri qayıtdılar və bildirdilər ki, öz başımıza özümüz çarə qılmalıyıq, respublika sahibsizdir. Bunlar az imiş kimi, rayonda da bir qrup narkoman, atasından bezən, anasından azan "quru bəylər" peyda olmuşdu. Həftə səkkiz — mən doqquz, gah Rəhim Qazıyev, gah Zərdüşt Əlizadənin, gah Pənah Hüseynovun, gah başqalarının adamları rayona gəlir, gərginlik yaratmaq üçün dəridən-qabıqdan çıxırdılar.

1990-cı il yanvar ayının 17-də AXC-nin bütün dayaq dəstələri zəng edib bildirmişdilər ki, sabah hamı əlisilahlı rayon mərkəzində olmalıdır. Bildirdilər ki, yuxarıdan bir nəfər polkovnik gəlibdir, bu barədə ciddi iş aparacaq — rus hərbçilərini buradan çıxarmaq üçün. Mə'lum oldu ki, polkovnik formasında gələn Fəhmin Hacıyevdir. Halbuki o vaxt onun heç serjant rütbəsi də yox idi.

Mə'lumat üçün bildirirəm ki, 1990-cı il yanvar ayının 17-si idi, 18-nə keçən gecə. İki gün sonra isə yanvar qırğını törədildi. Fəhmin Hacıyev hərbçiləri oradan çıxarmaq üçün bütün əliyalın camaatı onlarla qarşı-qarşıya qoymağa aparırdı. Təbii ki, camaat buna getmədi və onu ifşa edib rayondan çıxartdıq.

O vaxt Əzizbəyov rayonunda qaz idarəsində texnik işləyən, hərbi rütbəsi belə olmayan Fəhmin Hacıyev təəssüflər olsun ki, iki il sonra Xocalı soyqırımı ərəfəsində Ağdamda leytenant formasında yenidən peyda olmuşdu. Əvvəl polkovnik, sonra isə leytenant... Hörmətli görüş iştirakçıları! Mən belə qənaətə gəlirəm ki, Fəhmin Hacıyev də Rəhim Qazıyevin, Surət Hüseynovun, Əlikram Hümbətovun dəridən-qabıqdan çıxaraq hakimiyyətə gətirmək istədiyi Ayaz Mütəllibovun əlaltısıdır. "Bəy"lərin belə hoqqalarından istənilən qədər danışmaq olar. Elçibəy ZİL sürücüsü Aydın Şükürovu Zəngilan, Qubadlı və Cəbrayıl rayonları üzrə prezidentin səlahiyyətli nümayəndəsi qoymamışdımı?

Möhtərəm Prezident! Moskva şəhərində xüsusi nəzarətdə olmağınıza baxmayaraq yanvar qırğınına e'tiraz səsini ilk dəfə ucaldanlardan biri olduğunuzu Azərbaycan xalqı heç vaxt unutmamalıdır.



1991-ci ilin may ayında Şirnuxu kəndində mövqe tutan ermənilər Yuxarı Cibikli kəndini ələ keçirmək üçün ciddi hücuma keçmişdilər. Lakin kənd camaatının xeyli hissəsi ermənilərin qəfil hücumundan yaralansa da özünü itirməmiş, döyüşə girərək 20-dən artıq erməni yaraqlısını məhv etmişdi. Burada olan sovet ordusunun vzvodu isə heç bir tədbir görməmişdi. Təkcə milliyyətcə ukraynalı Oleq Babak dözməyərək, kənd əhalisinin köməyinə gəlmiş, axırıncı patronuna qədər ermənilərə qarşı vuruşmuş, camaatın mühasirədən çıxmasına və ermənilərin geri oturdulmasına kömək edərək həlak olmuşdu.

Rayon əhalisinin inadlı tələbi ilə Oleq Babaka ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Lakin Şirnuxu kəndinə hücumlar ara vermirdi.

Nəhayət, əməliyyat tədbiri hazırlandı. Şirnuxu kəndindən 40 erməni yaraqlısı əsir götürülərək, silahları ilə birlikdə Qubadlıya gətirildi. Elə həmin günün sabahı respublika rəhbərliyinin göstərişi ilə onlar guya "dindirilmək üçün" Stepanakertə aparıldılar. Həmin axşam Ermənistan televiziyası ilə Yerevanda bu quldurların gül-çiçəklə qarşılanması mərasimi göstərildi. Televiziyaya baxan Qubadlı əhalisinin hansı hisslər keçirdiyini təsəvvür etmək çətin deyildir.

Möhtərəm Prezident! Xocalı soyqırımı ilə bağlı bir məsələnin üzərində dayanmağı özümə borc bilirəm. O dəhşətli andan sonra biz qubadlıların düşmənə qəzəbi, öz xəyanətkarlarımıza nifrəti coşub-daşırdı. Üşaqdan böyüyə qədər hamı düşmən üzərinə hücum edib qürurumuzu, qeyrətimizi dirçəltmək istəyirdi. Qubadlı ilə həmsərhəd olan Ermənistanın Gorus və Qafan əraziləri üç gün ardı-arası kəsilmədən top və "Qrad" atəşinə tutuldu. Qubadlı cavanları erməni hərbçilərindən 15 nəfəri diri tutub gətirmişdilər. O vaxt Moskvanın "Vesti" proqramı Gorusda üç günlük matəm e'lan edilməsi haqqında xəbər verdi, şəhərin dağılmış evlərini və qəbiristanda dəfn mərasimini göstərdi. Həmin vaxt Yerevan radiosunun dediyi kimi, qubadlıların 3 gündə Ermənistana vurduğu zərbəni Azərbaycan 3 ildə vurmamışdı. Ermənistanın Qubadlı ilə həmsərhəd olan kəndlərindən ermənilərin kütləvi surətdə köçü başlanmışdı. Amma təəssüflər olsun ki, hələ 20 Yanvar hadisəsində əlləri qana batmış A.Mütəllibov və digər rəhbərlər itmiş qeyrətin dərəcəsini dərk edə bilmirdilər. Biz gözləyirdik ki, mənliyimizi qorumaq üçün düşmənə qarşı mübarizəyə qalxmaq barədə televiziya vasitəsilə, mətbuat vasitəsilə Azərbaycan xalqına müraciət veriləcək. Ancaq əfsuslar olsun ki, respublika sahibsizlik ucbatından gündən-günə ruhdan düşürdü.

Soyqırımından təxminən bir həftə sonra "cəbhə"nin liderlərindən biri olan Arif Hacıyev televiziya ilə yarım saat çıxış edərək sözünün sonunda bildirdi: "təbii ki, biz Xocalıdan olan qadınlarımızın taleyinə, qızlarımızın taleyinə biganə qalmayacağıq". Əgər girov düşən onların

yaxınları, qohumları olsaydı, onlar bu sözləri belə soyuqqanlıqla axırda deyərdilərmi?

1992-ci il mart ayının 14-18-də Qubadlı rayonu ərazisindən Şuşaya çoxdu hərbi texnika aparılırdı. Həmin vaxtdan başlayaraq may ayının əvvəllərinə qədər Laçın-Şuşa istiqamətində digər hərbi texnika və hərbi birləşmələr kömək adı ilə göndəriilrdi. Bu qədər hərbi birləşmələrin getməsinə baxmayaraq, qəflətən Azərbaycanı sarsıdan 9 May günü Şuşanın süqutu xəbəri eşidildi. Mülki və hərbi şəxslərlə dolu maşın karvanları Laçın tərəfdən gəlib bizim rayonun ərazisindən keçməyə başladı. Gələnlərin hamısı təşviş hissi ilə bildirdi ki, tezliklə Laçın da işğal ediləcək, çünki hökumət heç bir tədbir görmür. Hərbçilərə yalvarırdıq ki, heç olmasa zirehli texnikanı bizə verin. O vaxta qədər Qubadlıda bir ədəd də olsun zirehli texnika yox idi.

Hörmətli Prezident! Laçın işğal olunan zaman biz qubadlılar o bölgədə qanadı sınmış quş kimi qaldıq. Bir hadisə ömrüm boyu gözümün qabağından silinməyəcək: bir oğul anasını ekskavatorun çalovunda yorğana bükülü vəziyyətdə bağlayıb aparırdı. Azərbaycanın dilbər guşəsi olan Şuşanın, qeyrət qalası olan Laçının işğalının nəticələrini düşünüb bütün respublikanı ayağa qaldırmaq əvəzinə Bakıda həmin axşam A. Mütəllibovun hakimiyyətə gətirilməsi teatr tamaşası kimi göstərilirdə. Deməli, bu torpaqlar Ayaz Mütəllibovun hakimiyyətə gəlməsi üçün qurban verilmişdi.

Və yaxud başqa bir qənaət: "Biz heç vaxt hakimiyyətə gəlməyəcəyik" sözlərini özləri üçün şüar edən "quru bəy"lərin də iç üzü həmin hadisələrdə özünü göstərdi. Onlar meydanlarda rəqs edir, tankın üstündə Bakının küçələrindən keçirdilər.

May ayının 15-də Qubadlı rayon icra hakimiyyətinin yanındakı meydançaya bir vertolyot endi. O vaxtkı baş qərargahın rəisi general Şahin Musayev bir neçə polkovnikin müşayiəti ilə icra hakimiyyətinə gedərkən, camaat onu əhatə edərək Şuşa və Laçının nə üçün süqut etdiyini, oradan çıxan hərbi birləşmələrin əks hücuma keçmək əvəzinə, niyə birbaşa Bakıya çəkildiyini aydınlaşdırmağı tələb etdi. O isə "bu, hərbi sirrdir" deyirdi. Camaat ona tə'kidlə bildirdi ki, biz ata-baba yurdumuzdan heç yerə getməyəcəyik, bizə silah verin, müdafiəni hökumət səviyyəsində təşkil edin. O isə hələ heç icra hakimiyyətinə getmədən, istehza ilə dönüb dedi ki, "laçınlılar da sizin kimi deyirdilər, sonu nə oldu?" və dönüb vertolyota tərəf getmək istəyəndə camaat onu buraxmadı, vertolyotdan düşürüb icra hakimiyyətinin akt salonuna gətirdilər ki, Şahin Musayev, ya Qubadlının müdafiəsini təşkil edəcəksən, ya da burada öləcəksən. Təəssüflər olsun ki, nə Qubadlının, nə Laçının, nə də başqa rayonlarımızın müdafiəsi üçün vertolyot tapılmadığı halda, sabahısı gün Rəhim Qazıyev — ona müdafiə naziri deməyə adamın dili də gəlmir — öz həmkarının, özü



kimi əqidəsiz, mə'nəviyyatsız, məsləksiz bir kəsin köməyinə üç qırıcı vertolyotla gəlmişdi.

Möhtərəm Prezident! Mən Sizin fərmanınızla Qubadlı rayon İcra Hakimiyyəti başçısı tə'yin edilmişəm. İndi qüsurlu-qüsursuz işimə xalq da, Siz də qiymət verəcəksiniz. Amma bu gün mən deməliyəm ki, xalqın fəlakəti həmin gündən başlanmışdı ki, Rəhim Qazıyev hərbi rütbəsi olmayan müdafiə naziri olmuşdu. O, həmin vertolyotların birindən yerə düşdü və gəldi ki, tə'cili Şahin Musayevi mənə verin, niyə tutmusunuz? Gördü ki, camaat qəzəblənib. Sonra başladı ki, sizə minnətdaram, siz onu burada tutub saxlamısınız, mən özüm onu üç gündür axtarıram, aparıb güllələyəcəyəm. Bir neçə gündən sonra eşitdik ki, onu gətirib buradan Rusiyaya yola salıb.

Ayın 18-də Qubadlı rayonunun Laçınla həmsərhəd olan Muradxanlı kəndinə 60 avtobus göndərmişdilər. Milləti iyrənc əməlləri ilə ata-baba yurdlarından didərgin salmağa çalışan Rəhim Qazıyev, Şahin Musayev və onlarla əməlləri bir, niyyəti ayrı olan AXC liderləri — bunları deməkdə məqsədim odur ki, yə"ni 20 Yanvar qırğınında onların məqsədləri eyni idi — hər ikisi hakimiyyətə gəlmək istəyirdi, Cəbhə özlüyündə hakimiyyətə gəlmək istəyirdi, Ayaz Mütəllibov da özlüyündə.

Rəhim Qazıyevin tapşırığı ilə həmin müddətdə rayonumuza üç polkovnik gəlmişdi. Dedilər ki, Ağdam,, Laçın və Şuşa istiqamətində "Yer-yer" tipli raket atılacaq, ola bilsin ki, Şuşanı və Laçını azad etmək üçün. Ola bilsin, o, hədəfdən yayınar, Qubadlıya düşə bilər. Ona görə Qubadlı camaatı üç gün müddətində çıxmalıdır. Deməli, 60 avtobus, 60 KAMAZ gəlmişdi. KAMAZ-lar Mingəçevir şəhərindən gəlmişdi, avtobuslar isə Bakı şəhərindən. Ona rəhbərlik edən, gətirən də Ağsu rayonundan AXC üzvü idi. İndiki kimi yadımdadır, dedilər ki, Qubadlı hökmən çıxmalıdır. Camaat da dedi ki, biz onsuz da buna vərdiş etmişik, hər gün "Qrad" və top atəşlərinə mə'ruz qalırıq. Təki siz gedin Şuşanı aə Laçını azad edin və əgər doğrudan da bizi çox istəyirsinizsə, "Yer-yer" raketini atıb Şuşanı azad etmək istəyirsinizsə, elə onu gətirin Qubadlıda qurun, atın, səhv düşəndə getsin Əsgərana və Stepanakertə düşsün. Buradan atın üzü o tərəfə. Yəqin ki bunu heç vaxt etməyəcəkdilər, elə bununla da o söz kəsildi, qurtardı getdi.

**Heydər Əliyev:** Axı bu məntiqsiz bir şeydir. Əgər Şuşa, Laçın işğal olunmuşdusa, orada yaşayan Azərbaycan vətəndaşları zorla çıxarılmışdılarsa, demək, bu rayonlar boş idi. Boş rayonlara raket atmağın nə əhəmiyyəti var idi ki?

**Əvəz Hüseynquliyev:** Möhtərəm Prezident! Bunların dediyinə görə, güya ermənilər raketdən qorxub oradan çıxacaqdılar. Onların fikri bu deyildi, Qubadlı camaatını çıxartmaq istəyirdilər. Qubadlı çıxan kimi, təbii ki, Zəngilan da orada qalmayacaqdı və onun ardınca da o biri rayonlar çıxmaqda davam edəcəkdilər.

1992-ci il sentyabr ayının 27-28-ndə Muradxanlı kəndinə çoxlu hərbi qüvvə gətirilməyə başlandı. Mə'lum oldu ki, həmin qüvvələr Laçın dəhlizini bağlamaq üçün gəliblər. Bunlar Əlikram Hümbətovun tank briqadası, 2 Qusar batalyonu və zabitlərdən ibarət batalyon idi. Oktyabrın 1-də həmin qüvvələr Laçın istiqamətində hücuma keçməyə başladılar. Üç günün içərisində Suarası, Xanallar, Dəhyan, Cəfərabad, Mığıdərəli, Mazutlu, Fətəlipəyə, Malxələf kəndləri erməni işğalçılarından azad edildi. Laçına 4-5 kilometr qalmış batalyon komandiri mayor Ə.Əliyevin oktyabrın 2-də qəflətən ölüm xəbəri gəldi. Ermənilərin pərən-pərən düşdüyü bir dövrdə Ə.Hümbətovun bank briqadası hücuma keçməyərək oktyabrın 5-də geri çəkildi. Oktyabrın 9-na qədər camaat onun tanklarının, texnikasının qarşısını Muradxanlı kəndində kəsərək tələb etdi ki, hərbi texnikanı təhvil versinlər. Hərbçilər isə bildirdilər ki, biz Əlikram Hümbətova tabeyik. O bizə çıxmaq əmri veribdir. Əlikram Hümbətovun təxribat apardığını camaat hiss etmişdi. Bu barədə respublika rəhbərliyinə mə'lumat verilirdi. Hətta müdafiə nazirinin müavini, baş qərargah rəisi qeneral Nurəddin Sadıqov Qubadlıdan telefonla Müdafiə Naziri Rəhim Qazıyevə Əlikram Hümbətovun təxribatı barədə mə'lumat verərkən o, acıqlanaraq kobud şəkildə: "Əlikramla işin olmasın, o, mənim tapşırıqlarımı yerinə yetirir" demişdi.

Möhtərəm Prezident! İnanın ki, tarixin sınağından dəfələrlə alnıaçıq çıxmış qubadlılar ermənilərin öhdəsindən gələ bilərdilər. Sapı özümüzdən olan baltalar, səriştəsiz rəhbərlər, burnunun ucundan qabağı görməyən siyasət dəllalları olmasaydı!

1992-cil aprelin 16-da Ermənistanda "Qara bəbir" ləqəbi ilə tanınan Karlenin 50 nəfərdən ibarət dəstəsi Laləzər körpüsünü partlatmaq istərkən 10-15 nəfərdən ibarət olan hərbçi və polis işçilərimiz onlarla açıq döyüşə girdilər. Ermənilər döyüş meydanında 11 nəfər meyit qoyub qaçdılar. Təkcə Karlenin meyidi Ağdam bölgəsindən 30 nəfərə qədər girova dəyişdirildi.

Ermənilər daşnak Karlenin qisasını çıxmaq məqsədi ilə iyun ayının 24-də 3 vertolyotla Gorus istiqamətində hücum etdilər. Yarım saat içərisində hər 3 vertolylt vuruldu. Həmin vertolyotlardan biri az zədə aldığı üçün yerində tə'mir edilib Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə təhvil verildi.

1992-ci il oktyabrın 12-də ermənilər Hadrut rayonu istiqamətində Topağac—Dağyurd yüksəkliyinin böyük qüvvə ilə hücuma keçdilər. Döyüşün birinci günü 30 erməni quldurու məhv edildi. Qüvvələr qeyri-bərabər olduğundan Topağac yüksəkliyi ermənilər tərəfindən ələ keçirildi. 16 gün gecə-gündüz bu yüksəklik uğrunda gərgin döyüşlər getdi. Ayın 28-də Topağac yüksəkliyi ermənilərdən geri alındı. Bu vaxt bizim 4 şəhidin ətrafında 27 erməni meyidi var idi. Hər həyətdə əhali özü tərəfindən hazırlanmış xəndək və



sığınacaqlarda, ictimai yerlərdəki sığınacaqlarda qalırdı. Odur ki, itkilərimiz az olsa da, dağıntılar çox oldu.

1992-ci il ərzində Əbülfəz Əliyevin tə'yin etdiyi icra hakimiyyəti başçısı ilə AXC-nin yerli təşkilatları arasında daim hakimiyyət davası gedirdi. AXC-nin yerli təşkilatı hərbi briqadanın işinə qarışır, çox vaxt onun fəaliyyətinə əngəl törədirdi. Belə vəziyyətə yuxarıdan rəvac verilirdi. AXC-nin respublika təşkilatının ayrı-ayrı liderləri özləri istədikləri kimi səriştəsiz, bir-birinə zidd göstərişlər verərək "mənəm-mənəmlik" edirdilər.

Belə faktlardan birini diqqətinizə çatdırmaq istəyirəm. 1992-ci ilin yanvar ayında Qubadlıda hərbi briqada yenicə yaradılarkən ixtisasca hərbi mütəxəssis, polkovnik Nüsrət Namazov komandir tə'yin edilmişdi. Lakin o, nədənsə AXC təşkilatının xoşuna gəlmirdi. AXC üzvlərindən ibarət batalyonun başçısı Vüqar Məhərrəmov isə briqada komandirindən şəxsən onun göstərişləri əsasında işləməyi tələb edirdi. Briqada komandiri onun bu tələblərinə əməl etmədikdə isə o, özünün, yə'ni heç bir hərbi təhsili və təcrübəsi olmayan Vüqar Məhərrəmovun briqada komandirinin müavini tə'yin olunması barədə nazir Rəhim Qazıyevdən yazılı əmr gətirdi. Lakin onun fikri komandir müavini işləmək deyildi. O, Nüsrət Namazovdan tələb edirdi ki, sən briqadanı sıraya düzüb AXC qərargahına, mənə xəbər verməlisən. Bundan sonra mən öz nümayəndəm vasitəsilə briqadanın işinə rəhbərlik edəcəyəm. Bütün bu tələblər briqada komandiri Namazov tərəfindən qəbul edilmədikdə isə polkovnik Nüsrət Namazov Rəhim Qazıyevin, Surət Hüseynovun göstərişi ilə 1992-ci ilin oktyabr ayında Yevlax pambıqtəmizləmə zavoduna aparıldı, heç bir sanksiya olmadan 17 gün orada erməni əsiri ilə birlikdə açıq havada, armaturdan düzəldilmiş qəfəsdə ac-susuz saxlanıldı. Bu vəziyyət barədə prezident Əbülfəz Əliyevə də mə'lumat verilmişdi. Lakin həmişə humanistlikdən dəm vuran Əbülfəz Əliyev acizlik göstərərək, bu işə qarışmadığını bildirdi. Beləliklə, N.Namazov briqada komandirliyindən kənarlaşdırıldı.

AXC-nin səriştəsizliyi və məqsədyönlü pozuculuğu bir daha onda özünü göstərirdi ki, 1991-ci ilin noyabr ayından 1992-ci ilin sentyabr ayınadək bir ilin içərisində ermənilərin və yerli təxribatçıların qarşısında bir sədd kimi dayanan Qubadlıda üç dəfə icra hakimiyyəti başçısı dəyişdirildi.

AXC-nin və şəxsən Rəhim Qazıyevin öz əlaltıları ilə birlikdə Qubadlıda törətdikləri təxribatlar az deyildi. Xarakterik olaraq daha iki misal göstərmək istəyirəm.

1989-cu ilin dekabr ayında Sabirabad rayonunda AXC liderlərindən biri — Pənah Hüseynovun Qubadlıya göndərdiyi dəstəyə əvvəllər həbsdə olmuş Yaqub adlı birisi rəhbərlik edirdi. Bu dəstə Tarovlu kəndini ermənilərdən qorumalı idi. Lakin onlar 3-4 gün postda

dayandıqdan sonra camaat arasında vahimə yaradaraq özləri kəndi atəşə tutub əhalini kənddən çıxarmışdılar.

Çərəli kəndinə isə Rəhim Qazıyevin göndərdiyi, əvvəllər uzun müddət həbsxanada yatmış Məmməd bəy adlı birisi camaatı zorla kənddən çıxarmaq istəyirdi. Kənd camaatı isə onunla açıq vuruşmaya girişmişdi və Məmməd bəyin adamlarından bir nəfər öldürüldükdən sonra bu şəxs Çərəlidən qovulmuşdur.

Kələfin ucunu itirən Əbülfəz Əliyev Sizi, möhtərəm Prezident, iyun ayında Bakıya çağırarkən həm də mənfur planlar qururmuş. O vaxt AXC məclisinin üzvü, bir neçə rayon üzrə səlahiyyətli nümayəndəsi olan Aydın Şükürovun camaata dediyi belə bir fikir maraqlıdır: "Heydər Əliyev elə bir siyasi rəqibdir ki, onu ancaq yuxarıdan salmaqla sındırmaq olar, siyasətdən tamamilə kənarlaşdırmaq olar". Bu, Elçibəyin fikridir. Demə AXC-nin yuxarı dairələri bir az sonra bir neçə rayonun ermənilərə verilməsini əvvəlcədən planlaşdırıblarmış. Onların bu planı Azərbaycanın müstəqilliyinə qəsd edən Əlikram Hümbətovun, Rəhim Qazıyevin, Surət Hüseynovun planları ilə üst-üstə düşür, torpaqlarımızı işğal edən ermənilərin fəaliyyətinə rəvac verirdi.

1993-cü ilin iyul-avqust aylarında vahid mərkəzdən idarə olunan erməni hücumları və respublikanın daxilindəki xəyanətkar qüvvələrin fəaliyyəti getdikcə güclənirdi. Qubadlıda sərhəd boyu erməni hücumları dəf edilir, təxribatçı qüvvələrin qarşısı alınırdı. Lakin təxribatlar ara' vermirdi. Avqustun 18-də respublika televiziyasının "Xəbərlər" proqramı Başarat kəndinin işğal olunması barədə mə'lumat verdi. Halbuki, həmin xəbərə kənd camaatı elə öz evlərində qulaq asırdı. Erməni hücumlarının qarşısı isə kəndin bir neçə kilometrliyində alınmışdı. Lakin təəssüflər olsun ki, bu günə qədər həmin xəbərlərin kim tərəfindən verilməsi mə'lum olmadı.

Füzuli və Cəbrayıl rayonları bir-birinin ardınca işğal olunduqdan sonra elektrik rabitə xətləri kəsildi, demək olar ki, Bakı ilə rabitə əlaqəsi minimuma endi. Ordu daxilində pozuculuq və təxribat gücləndi, camaat arasında Bakıdan gələn yolun Füzuli və Cəbrayıl rayonlarında kəsildiyi barədə şayiələr yayıldı. Faktiki olaraq Qubadlı mühasirə vəziyyətinə düşmüşdü. Lakin camaat Qubadlını tərk etmək fikrində deyildi.

Avqustun axırlarında o vaxtkı baş nazir Surət Hüseynovun "25 tank və xeyli canlı qüvvə göndərmişəm" deməsi isə tamam yalan imiş. Həmin vaxt onun göndərdiyi hərbi geyimli adamlar qarətlə, əsgərlərdən silahları zorla almaqla məşğul olurdular. Heç demə, bu silahlar gələcəkdə hakimiyyət çevrilişi üçün onlara lazım imiş. Ayrı-ayrı kiçik dəstələrdən başqa, avqustun 30-da və 31-də nədənsə hərbi birləşmələr döyüşə girmədi.

Avqustun 30-da saat üç radələrində eyni vaxtda Gorus istiqa-



mətindən Yuxarı Həmzəli, Sarıyataq, Hadrut istiqamətindən Başarat-Muradxanlı, Cəbrayıl istiqamətindən Xanlıq-Çaytumas-Muradxanlı tərəfdən erməni birləşmələri rayona soxuldular. Həmin gün Həkəri çayı boyunca kəndlərimiz oda qalandı. 100-dən artıq mülki vəhşiliklə öldürüldü, girov götürüldü. Yalnız bundan sonra əhali rayonu tərk etməyə başladı. Bütün mal-mülkünü qoyub birtəhər canını qurtarmağa çalışan əhali yollara səpələndi.

Avqustun 31-də saat 16-da ermənilər bütün istiqamətlərdən rayon mərkəzinə və Bərgüşad çayı boyunca olan kəndlərimizə hücum etdilər.

Həmin gün Qubadlıda daha bir faciəli hadisə baş verdi. "Qaranquş" adı ilə tanınan, əvvəllər ermənilərə qarşı cəsarətlə vuruşan 15 nəfərlik kiçik bir dəstənin üzvlərinin bir qrupu rayonun hüquq-mühafizə orqanlarının rəhbərlərini — rayon prokuroru Ağayevi, polis rəisi Paşayevi, xalq hakimi Hüseynovu, müstəntiq Əliyevi və onlarla birlikdə Firudin Nuriyevi qətlə yetirdi. Törətdikləri cinayətə görə "Qaranquş" dəstəsinin üzvləri müvafiq cəza alsalar da, bu hadisə ömür boyu qubadlıların üzərində qara ləkə olaraq qalacaqdır. Bütün Azərbaycan vətəndaşları bilməlidilər ki, bu hadisəni törədən əsas səbəbkar o vaxt icra hakimiyyətinin başçısı işləmiş Elxan bəy başda olmaqla AXC üzvləri idi. Avqustun 31-də Bərgüşad çayı boyunca və Ermənistanla sərhəddə yerləşən — kəndlərimiz də işğal olundu. Bununla Qubadlının süqutu başlandı. Erməni qaniçənlərinə beş il mərdliklə sinə gərən qubadlıların ağrılı-acılı qaçqınlıq həyatı başlandı. Bir mərkəzdən idarə olunan erməni hücumları, respublikada hakimiyyət davası aparan daxili qüvvələrin təxribatları rayonlarımızın eyni ssenari üzrə işğal edilməsinə səbəb oldu. Diqqət yetirmək lazımdır ki, Ağdamdan Zəngilanadək ermənilərin güclü hücumlarının davam etdiyi bir dövrdə Qubadlıda uzun müddət təxribat aparan Əlikram Hümbətov, Rəhim Qazıyev, Surət Hüseynov kimi Vətən xainləri respublikanı parçalmaq, hakimiyyəti devirmək iddiasına düşmüşdülər. Onların xəyanətkar hərəkətləri və ordu daxilində aparılan təxribat işləri avqustun 30—31-də Qubadlının da cəbhə bölgələrindən hərbi birləşmələrin döyüş mövqelərini özbaşına tərk etmələrinə gətirib çıxardı. Nəticədə silahsız əhali təcavüzkarlarla üz-üzə qaldı.

Bu illər ərzində qubadlılar əzab-əziyyətlərə, düşmənin zərbələrinə tab gətirərək mətin dayandılar.

Möhtərəm Prezident! Qubadlılar möhkəm inanırlar ki, bütün həyatanı Azərbaycan xalqının bu günü və gələcəyinə həsr edən müdrik Prezidentimiz Heydər Əliyevin prinsipial mövqeyi, uzaqgörən siyasəti sayəsində bütün çətinliklərimiz həll olunacaq, Azərbaycana düşmən kəsilən ermənilər öz yerlərində oturdulacaq, düşmən ətəyindən yapışan hər bir xəyanətkarın əli kəsiləcək, şəxsi mənafeyi xatirinə xalqa qarşı cinayət yolu tutanlar, torpaqlarımızın işğalçılara təhvil

verilməsi hesabına mövqe qazanmaq istəyənlər xalq qarşısında öz layiqli cəzalarını alacaqlar. Əminik ki, Heydər Əliyev dühası Azərbaycan xalqını, Azərbaycan dövlətini tarixin bu sərt dolanbaclarından çıxaracaq, işğal olunmuş torpaqlarımız geri qaytarılacaq, qaçqınlar öz yurd-yuvalarına qayıdacaq, Azərbaycan iqtisadi cəhətdən güclü, müstəqil və çiçəklənən dövlət olacaqdır.

Məhz bu inamın nəticəsidir ki, müstəqilliyimiz üçün təhlükə yaranan günlərdə — 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri zamanı bütün təxribat cəhdlərinə baxmayaraq qubadlılar hörmətli Prezidentimizin mövqeyində dayanmış, Heydər Əliyev cənablarının çağırışına ilk anlardan cavab verənlərdən olmuşlar və Surət Hüseynovun, Rəhim Qazıyevin, Rövşən və Mahir Cavadov qardaşlarının cinayətkar hərəkətlərini lə'nətləmişlər.

Hörmətli Prezident, Siz hakimiyyətə gələndən sonra, yə'ni 1993-cü ilin noyabr ayında ordunun yenidən qurulması barədə müraciətinizə qubadlılar da ürəklə qoşulmuşlar. Azərbaycan Milli Ordusu bu tarixdən Sizin rəhbərliyiniz və yaxından köməyiniz nəticəsində yaranmış, atəşkəsə qədər olan son müvəffəqiyyətli döyüşlərdə isə öz varlığını təsdiq etmişdir. İndi 1500-dən artıq Qubadlı gənci hərbi xidmətdədir. Təkcə Sizin vaxtınızda Ağdam və Füzuli istiqamətlərində aparılan döyüş əməliyyatlarında qubadlılar da qəhrəmanlıqla vuruşmuşlar. Həmin döyüşlərdə qubadlılardan 30-a yaxın gənc döyüşçü torpaqlarımızın azad olunması üçün öz canlarını qurban vermişlər.

Möhtərəm Prezident! Qubadlı işğal olunduqdan sonra Qubadlı briqadası Gəncə ərazisinə göndərilmişdi və geri qaytarılarkən Füzuli bölgəsinə aparıldı. O vaxt Ağdamdan güclü hücum oldu, Qubadlı briqadası oranı tanımaya-tanımaya ermənilərlə həmin döyüşə girişdi, bir gündə 40 şəhid verdi və 300-ə qədər yaralısı oldu. Erməni işğalçılarını qabağına qatıb kanala qədər 16 kilometr Ağdam bölgəsinə apardı. Çox təəssüflər olsun ki, o vaxt orada olan Surət Hüseynovun qoşunları bizim briqadanın əsgərlərini arxadan güllələyib, silahlarını oğurladılar. Ondan sonra Füzuli bölgəsində gedən döyüşlərdə Sizin əmrinizlə hər şey öz yerinə düşdü və Sizin rəhbərliyiniz altında Azərbaycan ordusunun müvəffəqiyyətli hücumu Füzulinin 22 kəndinin azad olunması ilə nəticələndi. Həmin döyüşdə Daxili Qoşunların tərkibində Qubadlının polis işçiləri axıra qədər iştirak etmişlər. Bə'zən müxalifət qəzetləri yazır ki, guya bizə ürəyi yananlar peyda olurlar. Qubadlı işğal olunduqdan sonra heç bir kəsin bizə yardımını, köməyini görməmişik, ona ehtiyacımız da yoxdur. Amma qoy bizə yalandan da ürəkləri yanmasın. Bizi bu günə salan AXC liderləridir, hakimiyyət davası aparan Surət Hüseynovun, Əlikram Hümbətovun adamlarıdır. Bütün qubadlılar, hamımız bunu dərk edirik və böyük ümidlə, birmə'nalı şəkildə bildirirəm ki, bütün qubadlılar — ağsaqqaldan



cavanına qədər — Sizin əsgərinizdir. Biz inanırıq ki, Siz müharibəni sülh yolu ilə qurtaracaqsınız. Amma bunun əks üzü də var. Əgər müharibə yolu ilə olsa, Ali Baş Komandan kimi hansı saatda əmr versəniz müsəlləh əsgərik. Ağsaqqaldan cavanadək hamımız döyüşə gedəcəyik.

Möhtərəm Prezident! Keçən il mən kənd təsərrüfatı müşavirəsində Sizə müraciət etdim. Sizə minnətdaram, Sizin tapşırığınızla bizə taxıl sahələri verildi. Biz 1000 tona qədər taxıl istehsal etmişik. Ondan çoxunu özümüz üçün götürmüşük. Bu il də şum aparırıq, həmin sahələri genişləndirmək istəyirik. Yə'ni biz inanırıq ki, Sizin rəhbərliyiniz altında Qubadlıya qayıdacağıq. Ora qayıtsaq da, burada qalsaq da bizə toxum lazımdır, taxıl lazımdır. Bunu deməkdə məqsədim odur ki, şəhid ailələrinə qayğı barədə Sizin bütün tapşırıqlarınız yerlərdə icra olunur. Möhtərəm Prezident, bir daha təkrar edirəm ki, bütün qubadlılar — uşağından böyüyünə qədər Sizin müsəlləh əsgərinizdir. Diqqətinizə görə çox sağ olun.

**Şəhid atası,**
**Qarabağ müharibəsi əlili**
**NÜMAYİŞ MEHDİYEVİN**
**çıxışı**

Hörmətli cənab Prezident! Hörmətli görüş iştirakçıları! Belə ağır bir dövrdə vaxt tapıb biz qubadlıları qəbul etdiyinizə və yüksək qayğınıza görə, möhtərəm Prezident, Sizə şəhid ataları və bütün qubadlılar adından dərin minnətdarlığımızı bildiririk. Sizə cansağlığı, həyatınızda yeni uğurlar arzulayırıq.

Hörmətli Prezident! Tale bizi böyük imtahanlara çəkdi. Vətənimizdə vətənsizlik dərdi ürəyimizi göynədir. Ümidimiz Sizin kimi dünya siyasətçisinə bağlayırıq və ümidvar olduğumuzu bildirik ki, yalnız Sizin köməyiniz sayəsində biz öz doğma torpaqlarımıza qayıdıb, Sizinlə növbəti görüşümüzü Qubadlıda keçirəcəyik.

Mən şəhid atasıyam. Oğlum Qubadlıda əbədiyyətə qovuşub, onun məzarı və yüzlərlə digər qubadlının yurd yerində qalan məzarları bizə haqq vermir ki, torpaqlarımız yağı düşmənin əlində qalsın.

Mən həm də Qarabağ əliliyəm. Uzun müddət oğlumla birlikdə sərhəddə erməni işğalçılarına qarşı döyüşmüşəm. "Torpaq qeyrətin yuvasıdır" deyən babalarımızın ruhu bizi bağışlamaz ki, torpaqlarımız yağı düşmən əlində qalsın. Sizin Ali Baş Komandan kimi "Vətən dardadır" çağırışınızla mən və mənim kimi minlərlə qubadlılı ayağa qalxmağa hazırıq.

Tarixi vərəqlədikcə biz nəyin şahidi olmamışıq? Əlini Qur'ana

basanlara Qur'an qənim oldu ki, bu gün onlar doğma torpaqlara qayıda bilmirlər və heç vaxt da qayıda bilməyəcəklər. Surətlər, elçibəylər, rəhim qazvyevlər, əlikramlar və digər vətən xainləri xadqın gözü qarşısında cəzalarını almalıdırlır. Biz qubadlılar bunu istəyir və inanırıq ki, onlar öz haqlı cəzalarını alacaqlar.

Hörmətli Prezident! Sizə qəsd etmək istəyənlərə Allah qənim olsun! Azərbaycan xalqının ümid yerisiniz. Xalqımızın xoşbəxtliyi onda oldu ki, Sizin kimi dünya siyasətçisi xalqın tələbi ilə, onun arzusu ilə hakimiyyətə gəldiniz. Azərbaycan gənc dövlətdir, lakin onun müstəqilliyi möhkəm əldədir. İnanırıq ki, Sizin sayənizdə Azərbaycana heç bir kənar qüvvə girə bilməyəcək. Biz qubadlılar Sizin daxili və xarici siyasətinizi ürəkdən bəyənir və Sizə arxa və qardaşıq.

Qubadlının süqutundan artıq üç il keçir. Qubadlılar yağı düşmənlə qeyrətlə vuruşmuş və öz sözlərini demişlər. Təkcə qəsəbə orta məktəbindən 6 nəfər Milli Qəhrəman olmuşdur.

Bir şəhid atası kimi və Qarabağ əlili kimi, daim düşünürəm: Qubadlı niyə süquta uğradı? Döyüşən, qəhrəman Qubadlı camaatı necə oldu ki, birdən-birə məğlub oldu? Mən heç də əliyalın xalqda günah görmürəm. Mə'lum məsələdir, Cəbrayıl rayonu işğal olunandan sonra Qubadlının əlimizdə qalması qeyri-mümkün idi. Ona görə ki, Cəbrayılın işğalından sonra nə telefon rabitəmiz oldu, nə işıq oldu — Qubadlı pis vəziyyətdə qaldı. Elimizdən, obamızdan, doğma torpağımızdan ayrıldıq. Nəticədə qubadlılar respublikamızın 54 rayonunda müvəqqəti məskunlaşdılar. Əhalimizin əksəriyyəti Sumqayıt şəhərində məskunlaşıb.

Qubadlılar bu gün də həyata nikbin baxırlar. Bu, hər şeydən əvvəl, daim xalqın dərdinə qalan, ona dayaq olan və Sizin tərəfinizdən Qubadlı rayonuna icra hakimiyyəti başçısı tə'yin edilmiş Əvəz Hüseynquliyevin apardığı gərgin işin nəticəsidir. Mən icra hakimiyyəti başçısı haqqında geniş fikir söyləmək fikrində deyiləm, Sizin görüşünüzə gəldiyimi eşidən şəhid ailələrinin, sadə zəhmətkeş adamların sözünü Sizə çatdırıram — çox sağ olun ki, bu ağır vaxtda belə bir yoldaşı bizim rayona icra hakimiyyəti başçısı tə'yin etmisiniz. İstərdim ki, fikrimi faktlarla çatdıram. Respublikanın 9 rayonunda taxıl əkilməsi və şəhid ailələrinə pulsuz taxıl paylanması, məktəblərimizə və digər mühüm obyektlərə şəhid balalarımızın adının verilməsi, onların xatirəsini əbədləşdirmək üçün bulaq tikilməsi, yetim uşaqlara məktəbli forması verilməsi, bu günümüz və gələcəyimiz olan balalarımız üçün Qubadlı məktəblərinin açılması, iş yerlərinin yaradılması, hər bir şəhid ailəsinin imkanlı idarəyə təhkim edilməsi, yüksək səviyyədə tədbirlərin keçirilməsi onun müqəddəs işinə çevrilmişdir.

Möhtərəm Prezident! Bə'zən insan özü haqqında danışmaqda



çətinlik çəkir. Mən rayonumuz işğal olunana kimi Ermənistanla sərhəddə yerləşən "Sovet Azərbaycan"ı sovxozunda direktor işləyirdim. Həmin sahə Gorus-Qafan yolunun kənarında yerləşir. Ermənilərin birinci məqsədi bizi oradan köçürmək olmuşdur. Dağlıq sahədə bizim iki böyük sovxozumuz var idi: biri Nəzər Heydərov adına, biri də "Sovet Azərbaycanı" sovxozu. Nəzər Heydərov adına sovxozun direktoru Qaçay Ələkbərovu ermənilər qəfildən pusqu qurdular, güllələdilər, kənd soveti sədrini Gorus rayonunda üç gün saxlayandan sonra öldürdülər, dörd aydan sonra nə çətinliklə biz kənd soveti sədri Mehdiyevin meyidini aldıq.

İkinci məqsəd də bizim sovxozu məhv etmək idi. Buna görə də onun rəhbərliyini aradan götürmək istəyirdilər. Rayonumuzun əhalisi çox yaxşı bilir — Ermənistanın Gorus raykomunun birinci katibi Samvel adlı bir daşnaka tapşırıq vermişdi ki, "Sovet Azərbaycanı" sovxozunun direktorunu diri gətirən adama 100 min manat pul verəcək. Belə oldu ki, biz fermadan qayıdarkən 10 nəfər silahlı üstümüzə hücum etdi, — biz ora "Həcər bulağı" deyirik, — mən və partiya təşkilatının katibi ağır yaralandıq, bir nəfər — xalam oğlu, sovxozun işçisi Həsənov Şirzad Nüsrət oğlu elə maşında şəhid oldu və sürücü yaralandı. O vaxt rayonun fəalları ora gəlməyə çətinlik çəkirdilər. İnanın, birinci mənim atam, Əyin camaatı gəldi, — Əyin ora yaxındır, — bir də icra hakimiyyətinin başçısı seçilmiş Əvəz Hüseynquliyev birinci ora gəldi. Faiq Kərimov burada oturub. O, mənim yolumda çox iş görüb. Faiq Kərimov olmasaydı mən Çayzəmidə yaşaya bilməzdim, orada ferma saxlaya bilməzdim. İndi polis rəisidir, onda müavin işləyirdi, mən həmişə ümidimi onlara bağlayırdım. Çayzəmidə dəfələrlə həm Faiq Kərimov, həm Əlyar Əliyev — Milli Qəhrəmandır, həm də Adil Məmmədov — anası buradadır, — bunların dəstələri, Nadir Hüseynov, — onlarla birlikdə erməni hücumlarının qarşısını almaq üçün aylarla bizim tövlənin qabağındakı ot sahəsində gizlənmişik. Altı il orada o vəziyyətdə böyük kompleksi saxlamışıq. Əgər kompleksi oradan çıxarsaydıq, 10 kəndimiz oradan çıxmalı idi. Təəssüflər olsun ki, bizim bu işlərimizə baxmayaraq orada dayana bilmədik, bizi köçürdülər. Bizim ən qəddar düşmənimiz ermənilərdir, onlar başımıza oyunlar açıb. Ancaq daxili düşmənlərimiz də onlara kömək etdilər. Təxribat oldu, mən onları sadalamaq istəmirəm. Xanlıq kəndi iki gün ermənilərlə döyüşdü, bizim ordu oraya köməyə getmədi. Bizim ordunun hey'ətinin çoxunu mən tanıyırdım. Ona görə ki, biz 40 kilometr sərhəddə yerləşirdik. Hər gün onlarla görüşürdüm, — istər komandirləri ilə, istər rus əsgərləri ilə yaxından tanış olmuşdum, bilirəm ki, kim necə döyüşüb.

Xalq Cəbhəsi vasitəsilə Sabirabaddan bizə 60 nəfər göndərmişdilər — kəndimizi qorumaq üçün, kömək etmək üçün. İnanın, onların öz

sözünü burada deyəcəyəm ki, başqa mə'na verməsinlər. Məni çağırdılar, dedilər ki, get bizə 100 dənə çuqun aftafa gətir, üzr istəyirəm bu sözə görə, 100 dənə lımıx doğratdır gətir, bir rulon da yoğun kəndir. Dedim, ay qardaş, bunu nə eləyirsiniz axı? 100 dənə aftafanı mən hardan tapım? Dedilər, bilmirik. Mən qardaşımı göndərdim, — anbarda işləyirdi, — Horadizdən 100 aftafa aldı gəldi. Guya aftafanın üstünə lımıxları yığıb, gedib ermənilərin mövqeyini partladacaqlar. Dedim,ay kişi bizim Azərbaycanın alimləri var, fizikləri var, kimyaçıları var, sən heç güllə ata bilmirsən, aftafa ilə nə edə bilərsən?

20 Yanvar hadisəsində onlar hamısı oranı bir-bir tərk etdi, qaçıb getdilər. Faktlar çoxdur, mən sadalayıb heç kəsin vaxtını almaq istəmirəm.

Bizim mal həkimimiz B.Əsədov var idi, onu fermanın qabağında şəhid etdilər. Ümumiyyətlə, ermənilər bizə çox dağ çəkdilər. Axırda da biz elə bir vəziyyətə düşdük ki, o cür döyüşən rayon heç bir şey götürə bilmədi, hamısı əli-ayağı yalın qaçdı, gəldi çıxdı Bakıya, Sumqayıta.

Hörmətli Prezident! Bə'zən şayiələr gəzir ki, Qubadlı döyüşsüz təslim oldu. Xeyr, sadə zəhmət adamları axıra qədər döyüşdülər, çoxlu itki verilməsinə baxmayaraq heç kəs torpağından ayrılmaq istəmirdi. Bu qanlı döyüşlər mənim gözümün qarşısında olubdur. Lakin bir həqiqət var ki, Qubadlı süquta uğradı. Bunu bizim hərbçilərin, komandirlərin, torpaq dəllallarının əməllərinin qurbanı kimi qiymətləndirirəm. Çıxışımın sonunda şəhid atası kimi, Sizə bir daha cansağlığı, xoşbəxtlik arzulayıram.

Hörmətli Prezident! Sizdən bircə kəlmə xahişim var. Mən gələndə bu mülki əlillər xahiş etdilər deyim. Onlar çox az müavinət alırlar. Məsələn, mən də mülki əliləm. Sürücülər tanıyıram, avtobus sürücüləri tanıyıram ki, həm əsgər daşıyıblar, həm silah daşıyıblar. Onlar yolda yaralanıblar, indi isə mülki əlil kimi az müavinət alırlar. Mən əmək qabiliyyətimi 80 faiz itirmişəm, burada həkimlər yoxlayıblar, Əhmədlidə neyrocərrahiyə xəstəxanasında yatmışam. Və yaxud, o birilərinin maaşı, pensiyası çox aşağıdır. Xahiş edirəm, göstəriş verəsiniz, imkan varsa, iş başında xəsarət alanlara heç olmasa bir az yüksək pensiya verilsin. Evdə oturmamışıq ki, iş başında olmuşuq. Bu məsələni Sizdən xahiş edirlər.

**Heydər Əliyev:** Yaxşı, mən göstəriş verirəm *(Ramiz Mehdiyevə işarə edir).*

**Nümayiş Mehdiyev:** Sizə də minnətdaram, Qubadlı camaatının adından böyük minnətdarlıq edirəm ki, bizim ən kasıb oğlanımızı, səs verdiyimiz oğlanı deputat seçmisiniz. Ən sadə bir insandır. Çox sağ olun, minnətdaram Sizə.



**Heydər Əliyev:** Mən deputat seçmirəm ki, onu siz seçmisiniz.

**Nümayiş Mehdiyev:** Onu biz seçmişik. Siz onun arxasındasınız. Siz onun arxasında olmasanız, Əvəz müəllimin arxasında olmasanız, bizim başımıza oyun açarlar. Sizin buradakı çıxışlarınıza görə yerlərdə bizə nə qədər hörmət edirlər. — Sizə görə. Sizin çıxışınıza görə edirlər. İndiyədək şəhid atalarına baxmırdılar. Mən əvvəl buraya gələndə aptekə getdim. Dedim, mən Qarabağ əliliyəm. Aptekin müdiri dedi ki, getməyəydin, əlil olmayaydın. Amma indi elə söz deyə bilmirlər. Sizin göstərişiniiz bütün icra hakimiyyətlərinə, bütün deputatlara, bütün iş adamlarına gəlib çatır. Sağ olun.

**Heydər Əliyev:** Sağ olun. O əlillər barədə dediyini qeyd edin, *(Ramiz Mehdiyevə müraciət edir).*

### Milli Qəhrəman anası, "Şəhid anaları" xeyriyyə mərkəzinin sədri SƏYYARƏ İSGƏNDƏROVANIN çıxışı

Möhtərəm cənab Prezident! Möhtərəm görüş iştirakçıları! Mən bu yüksək tribunadan istifadə edərək, bütün şəhid anaları adından hörmətli Prezidentimizə müraciət edirəm, ona cansağlığı, uzun ömür, işlərində müvəffəqiyyət arzulayıram.

Möhtərəm Prezident! Bu gün Siz işğal olunmuş üç rayonun vətəndaşlarını yığmısınız buraya və bizimlə bir ailə üzvü kimi söhbət edirsiniz, dərdimizə şərik olursunuz və qayğılarımızı xeyli yüngülləşdirirsiniz.

Mən Sizdən heç bir şey xahiş etmirəm, ancaq öz borcum hesab edirəm onu deyəm ki, bütün xalqı ardınızca apardığınız üçün, başqalarını da özünüz kimi işlətməyi bacardığınız üçün Sizə minnətdarlığımı bildirirəm.

Mən təsadüfən "Kremlin kölgələri" adlı bir kitabın izinə düşmüşdüm. Bəlkə də burada olanların çoxu bilmir, orada belə bir yer var — Andropov ölkə başçısı olanda nazirlərdən bir qrupu ona deyir ki, şənbə günü bizə icazə ver, Yuri Vladimiroviç. O deyir ki, yaxşı, siz azadsınız, sabah işə gəlməyin. Sizin işçiləriniz isə hamısı Andropova şikayət edir ki, Heydər Əliyev bizə şənbə günü də icazə vermir, şənbə günü də işlədir. Yuri Vladimiroviç, bəs necə olur ki, siz öz işçilərinizi buraxırsınız? Andropov belə bir söz işlədir, deyir ki, Heydər Əliyeviç bə'zən məni də bazar günü işləməyə məcbur edir. Görünür, bunu dövlətin mənafeyi tələb edir.

Sizin haqqınızda belə fikirləri oxuyanda mən böyük iftixar hissi keçirirəm ki, özünüz işlədiyiniz kimi, zəhmətkeş, olduğunuz kimi,

böyük bir xalqı da ardınızca aparmağı bacarırsınız. Xalq elə buna görə Sizi sevir və Sizi dəstəkləyir.

İndicə bir şəhid atası burada Dəmirçiyanın sözlərini dedi. Mən bu sözləri İstambulda da eşitdim. Mən bu il "İstambul-96" konfransının iştirakçısı idim, Azərbaycanı orada təmsil edənlərdən biri idim. yə'ni Gəncə zonası üzrə nümayəndə mən idim. Orada bu söhbəti eşitdim. Mən bunu hələ 1989-cu ildə eşitmişdim. Ermənistanla həmsərhəd olan bütün rayonlarımızın adamları, burada əyləşənlərin də bəlkə çoxları onu bilir. Televiziya ilə bu söhbət verilmişdi. Bir xarici jurnalist Dəmirçiyana sual verəndə ki, "sizin ağlınız nə kəsir, ermənilərlə azərbaycanlıların münasibəti necə olacaq?". Yə'ni ermənilərin iddiası çox böyükdür, bunlar iddialarına nail olacaqlar, yosa yox? Dəmirçiyan cavab verib ki, mənim millətim indidən uduzub, ona görə ki, o bir şeyi yaddan çıxarır: türk dünyası iki böyük şəxsiyyət yetişdirib. Onlardan biri dünyasını dəyişib, biri isə sağdır. Ölən Mustafa Atatürkdür, sağ qalan isə Heydər Əliyevdir — bunu unutmamalıdır mənim millətim. O, harada olsa, xalqın dar günündə özünü yetirəcək və xalqı bu bəladan qurtaracaq. Uduzan mənim millətim olacaq.

Doğrudan da, biz bu həqiqəti görürük. Hələ 1993-cü ilə qədər, yə'ni Siz hakimiyyətə gəldiyiniz vaxta qədər Sizə manеə yaradan, Bakıya gəlməyinizi belə qadağan edən qüvvələr bu qadağanlara nail ola bilmədilər. Yə'ni xalqın qarşısında sədd çəkə bilmədilər. Siz gəldiniz və hakimiyyətə keçdiniz. Beləliklə də xalq ümidini Sizə dikdi.

Mən şəhid anası kimi bununla fəxr edirəm ki, böyük bir ad daşıyıram. Mən özüm müəlliməyəm, hazırda Gəncə şəhərində məskunlaşmışam, orada "Şəhid anaları" xeyriyyə mərkəzinin sədriyəm və bu cəmiyyətin adı ilə də İstambulda konfrasda iştirak edirdim. Məni müəllimə kimi yox, hamı şəhid anası kimi tanıyır. Burada Gəncənin prokurorunu görəndə, düzü, bir az da ürəkləndim. Rafiq müəllimin cəbrayıllı olduğunu bilirdim, indi eşitdim. Rafiq müəllim özü məni tanıyır. Biz Gəncədə belə tədbirlərdə tez-tez iştirak edirik. Bütün tədbirlərimiz şəhid analarının Sizə alqışı ilə başlayır, alqışı ilə də qurtarır. Yə'ni xalq sizə inanır, özünün gələcəyinə inanır. Azərbaycan elə bir dövlətdir ki, onun yeraltı, yerüstü sərvətləri ölkəmizin tam müstəqil bir dövlət kimi yaşamasına tə'minat verir. Əfsuslar olsun ki, bizim xalq bunu bilmirdi və demək olar ki, bundan istifadə etmirdi. Ancaq Sizin uzaqgörən siyasətiniz nəticəsində, apardığınız daxili və xarici siyasət nəticəsində indi xalq bunu anlayır. Burada çıxış edənlər düzgün dedilər ki, istər surət hüseynovlar olsun, istər rəhim qazıyevlər olsun, hər kim olursa-olsun — xalqın istəyinə qarşı durmağı bacarmazlar.

Sizin hakimiyyətə yenidən gəlməyiniz, bu dövləti idarə etməyiniz



labüd idi. Çünki Sizin Azərbaycanda başladığınız işlərin çoxu yarımçıq qalmışdı. Onları axıra qədər davam etdirməliydiniz.

Hörmətli Prezident! Sizə bu yüksək kürsüdən bir daha uzun ömür, cansağlığı arzulayıram. Sizi xaricdə tanıyırlar, yüksək qiymət verirlər. Almaniyadan İstambula gəlmiş qadınlar bizim stendə yaxınlaşdılar, Sizin şəklinizi görəndə dedilər ki, Sizin Prezidentiniz necə böyük şəxsiyyətdir! Biz orada böyük iftixar hissi keçirdik. Sizi təkcə azərbaycanlılar yox, bütün dünya tanıyır, dünya qiymətləndirir. Biz Sizə cansağlığı, uzun ömür arzulayırıq.

**Heydər Əliyev:** Sağ ol. O kitabı harada oxumusan?

**Səyyarə İsgəndərova:** "Kremlin kölgələri" kitabı haqqında yəqin ki, bilirsiniz.

**Heydər Əliyev:** Yox, mən bu kitabı oxumamışam, amma elə yazıblarsa, doğrudan da bu, olmuş hadisədir.

**Səyyarə İsgəndərova:** Görürsünüz, xalqa mə'lum deyildi. İndi mən ona görə dedim ki, qoy hamı bilsin ki, Siz necə işləmisiniz. Hamını da işləməyə məcbur etmisiniz.

**Heydər Əiyev:** Bu gün də şənbə günüdür də, mən sizi istirahətdən ayırmışam.

**Səyyarə İsgəndərova:** Bu, xoş bir istirahətdir, hörmətli Prezident.

**Heydər Əliyev:** Yaxşı, sağ ol.

**Səyyarə İsgəndərova:** Çox sağ olun, mən Sizə çox minnətdaram.

**Heydər Əliyev:** O vaxt Moskvada, Kremldə şənbə günü, demək olar ki, heç kəs işə gəlmirdi. Ancaq mən və mənim ətrafımda olanlar işləyirdilər. Kremlin daxilində işıqlar axşam yanmırdı, amma mənim sahəmdə olanlar yanırdı. Bunu da bilirdilər — Kremldə də bilirdilər, bütün Moskvada bilirdilər. Yəqin ki, kitabda da yazılıbdır. Belə hadisələr olub.

**Əmək və müharibə veteranı**
## HÜMBƏT ƏHMƏDOVUN
**çıxışı**

Hörmətli Prezident, cənab Əliyev! Hörmətli görüş iştirakçıları! Bizim üç rayon işğal olunub. Camaatımızın didərgin düşməsinin üç illiyi münasibətilə Heydər Əliyev cənabları bu gün bizi qəbul edir. Ürəyimizi sakitləşdirdiyinə görə, dərdimizə şərik olduğuna görə ona dərin minnətdarlığımı bildirirəm. Bu gün mənim qəlbim iki yerə parçalanır. Ancaq 1969-cu ildən Heydər Əliyev cənabları ilə görüşlərim məndə çox böyük ruh yüksəkliyi yaradır.

Yoldaş Heydər Əliyev, Sizin Azərbaycana rəhbərliyə gəldiyiniz gün Azərbaycanın üzərinə bir günəş doğdu. Mən kolxoz sədri idim. Əliyev

yoldaş Mərkəzi Komitənin birinci katibi kimi müşavirə çağırıb hamıya tapşırdı ki, Azərbaycan çiçəklənməlidir, sənaye, kənd təsərrüfatı inkişaf etməlidir. Raykomumuzun katibi Kamal Ağayev rayona çatan kimi gecə saat 11-də bizi topladı, dedi ki, Azərbaycana elə bir şəxsiyyət rəhbər gəlib ki, hamımız işdə dönüş yaratmalıyıq. Doğrudan da nəhəng işlər görüldü. Azərbaycan çiçəkləndi, 15 respublikanın içərisində iri addımlarla addımladı.

Amma adamın ürəyi ağrıyır ki, həmin o çiçəklənən kəndimiz, rayonumuz bu gün düşmənlərin ayağı altında qalıb. Şübhəsiz ki, belə gözəl şəxsiyyət, dünya miqyasında ən görkəmli xadim Heydər Əliyev cənabları buna yol verməyəcək. Xalqımızın qəhrəman oğulları var, biz vətənimizi azad etməyə hazırıq. Ondan sonra Sizi Qubadlı qəsəbəsinə, Qubadlı dağlarına qonaq də'vət eləyirik. Allah o günü eləsin.

Xalq Cəbhəsi haqqında danışmaq mənə çox ağırlıq gətirir. İki şeyi burada deyəcəyəm. Zirehli maşında Rəhim Qazıyevin burada parad qəbul eləməsi məni o gün azarlatdı, bir də Rəhim Qazıyevin gəlib burada Elçibəydən əmr alıb "Laçın dəhlizi"nə əmr verib dəhlizi açması məni çox kədərləndirdi. Düzdür, Əlyar Əliyev kimi qəhrəman oğul da Xalq Cəbhəsinin üzvüdür, Rəhim Qazıyev kimilər də Xalq Cəbhəsinin üzvüdür. Əlyar Əliyev Laçına bayraq taxmaq istəyəndə onu daldan öz cəbhə yoldaşları vurdular. Onlar hələ də cəzalarına çatmayıblar.

Hörmətli Heydər Əliyev, mən icra hakimiyyəti başçıları haqqında bir veteran kimi, qocaman adam kimi bir kəlmə söz deməliyəm. İcra hakimiyyəti başçıları bilməlidirlər ki, onlar bilavasitə Prezidentin sərəncamı altında işləyirlər. Onları heç kəs nə çıxara bilər, nə qoya bilir. Onlar bütün gücünü xalqın rifahına, Heydər Əliyevin yolunda sərf etməlidirlər. Amma gedib ayrı-ayrı işlərlə məşğul olmaq düzgün deyil.

80-ci ildən sonra Qubadlıda rəhbərliyin seçilməsində hərc-mərclik yaranmışdı. Hər 2 aydan—3 aydan bir icra hakimiyyəti başçısı, katib dəyişilirdi. Qubadlı haldan düşmüşdü. Amma sonra yoldaş Heydər Əliyevin Əvəz Hüseynquliyevi icra hakimiyyəti başçısı qoyması bizim ürəyimizi xeyli sakitləşdirib. Hər gün şəhid ailələri ilə, hər beşinci gün qaçqınlarla görüş keçirir. Deputat İmamverdi İsmayılov onunla çiyin-çiyinə durur, müavini Allahverdi müəllim də əhalimizin güzəranının yaxşılaşmasına, ürəyinin sakitləşməsinə böyük kömək eləyir. Ölülərimizin dəfnini dərhal təşkil eləyirlər, çatışmayan şeyləri verirlər, avtobuslarla adamlarımızı aparıb-gətirirlər.

Hörmətli Heydər Əliyev, mən Sizi belə nikbin əhval-ruhiyyədə gördüy ümüçün çox sevindim. Sizin keçirdiyiniz müşavirələrdə,



plenumlarda olmuşam. Sizi alqışlayıram, uzun ömür, cansağlığı arzulayıram. Mən Sizi gümrah gördüm, sağlam gördüm, ə'la gördüm. Sağ olun.

**Heydər Əliyev:** Sən başqa cür düşünürdün, ya necə?

**Hümbət Əhmədov:** Yox, yox. Çox sağ olun.

**Heydər Əliyev:** Kamran Hüseynovdan xahiş edək danışsın. Qubadlının ən böyük ağsaqqalıdır.

**Əmək veteranı,**
**"Zəngəzur" cəmiyyətinin sədri**
**KAMRAN HÜSEYNOVUN**
**çıxışı**

Möhtərəm Prezident, yoldaşların dediyi kimi, mən də ürəkdən şadam, minnətdaram ki, Siz vaxt tapıb qaçqınlarla ardıcıl, mütəmadi görüşürsünüz. Mən daim onların arasındayam. İnanırsınız, bu görüşlərdən sonra onların arasında nə həyəcan var, nə sevinc var! İnam yaranır ki, bu yaxın müddətdə bizim müqəddəratımız həll olunacaq. Çox böyük işdir bu. Çüqki çox qəmgin idilər. Sizin bunlarla görüşməyiniz çox böyük işdir.

Elə hesab edirəm ki, burada oturanların içərisində Sizin Azərbaycandakı fəaliyyətinizi mənim qədər bilən azdır. 1969-cu il iyulun 14-də bazar günü idi. Siz Azərbaycana rəhbər tə'yin olundunuz. Nə gündə idi onda Azərbaycan, nə vəziyyətdə idi? Müəllim hey'ətinin demək olar ki, 60 faizinin ali təhsili yox idi. 134 min uşaq orta məktəbi qurtarırdı. 10 min nəfəri gedirdi ali məktəblərdə oxumağa, 10 mini gedirdi texnikumlara, 110 min uşaq qalırdı sənətsiz, peşəsiz. Siz təklif elədiniz ki, Azərbaycanın hər yerində peşə məktəbləri açmalıyıq. Peşə məktəblərində oxuyan uşaqların sayı 20 min nəfərdən 90 minə gəlib çatdı. O vaxt Azərbaycanın sənayesinə hər il 46 min mütəxəssis — mühəndis, texnik daxil olurdu, fəhlə sinfi sıralarına 70 min yeni adam gəlirdi. Elə bir rayon olmadı ki, orada mədəniyyət evi tikilməsin, xəstəxana tikilməsin.

Deməli, ən əvvəl fikrinizi mədəniyyət sahəsini qaldırmağa cəlb etdiniz. Ondan sonra sənayenin inkişafı başlandı. Azərbaycanın maşınqayırma zavodları bərbad vəziyyətdə idi. O zavodlar yüksək səviyyəyə qaldırıldı. Maşınqayırma zavodlarımıza ölkənin ən yüksək mükafatları verildi.

Bundan sonra neft və kimya sənayesinin inkişafına diqqət yetirdiniz. Eyni zamanda kənd təsərrüfatının dirçəlişinio başlandı. Nə qədər qərarlar qəbul edildi. Azərbaycanın kənd təsərrüfatı çətinliklə ildə 280 min ton pambıq istehsal edirdi. Pambıq istehsalı gəldi çatdı bir milyon tona. İldə 70-80 min ton üzüm verilirdi. -

gəldi milyon tondan yuxarı çıxdı. Bayaq çıxış edən yoldaşların biri dedi ki, Azərbaycan iri addımlarla qabağa gedirdi. Həqiqətən də belə idi. Ona görə də mən həmişə demiş, indi də deyirəm ki, Siz Azərbaycan xalqının tarixinə görkəmli, parlaq bir şəxsiyyət kimi, bir islahatçı kimi daxil olmusunuz. İndi bizim vəziyyətimiz necədir? Necə oldu bu parlaq respublika birdən-birə gəldi belə bir vəziyyətə düşdü?

Sovet dövləti yıxılanda bütün xarici ölkələr kompüterdən keçirirdi ki, bu respublikaların vəziyyəti necə olacaq? Onların içərisində birinci italyanlar təsdiq elədi ki, bunların hamısından parlaq Azərbaycan olacaq. Onun təbii sərvətlərini nəzərə alaraq bu fikri söylədilər. Bayaq müəllimlər haqqında dedim, on il ərzində müəllim hey'ətinin 100 faizi ali təhsilli oldu. Ali məktəblərin sayı artıb 6-dan 16-ya çatdı. Hökumətin bir qərarı vardı ki, milli respublikalara icazə verilsin, ali məktəblərə tələbə qəbulunun 5 faizi qədər də əlavə qəbul aparsın. Azərbaycan on illərlə ondan istifadə etdi. Hər il burada oxuyanlardan başqa, ölkənin ən qabaqcıl ali məktəblərinə 800-1000 azərbaycanlı gənc göndərilirdi. Biz bundan çox mükəmməl istifadə etdik. Bir neçə il keçəndən sonra o qərarı ləğv etdilər ki, bunlar əlavə bir ali məktəb də açıblar.

Qaldı ki, ermənilərlə bizim münasibətimiz məsələsi, çox vaxt bu ifadəni işlədirik: "Ermənistan—Azərbaycan münaqişəsi". Niyə işlədilir axı bu ifadə. Biz erməni ilə nə münaqişəsində olmuşuq? Erməninin üstünə hücuma getmişik, torpağını tutmuşuq, ona bir xəyanətkarlıq etmişik? Ermənidir xəyanətkar, bu işi edən yalnız odur. Həmişə də belə olubdur. Nə qədər ki, Heydər Əliyev Moskvada idi, onda bunlar sakit idi. Heydər Əliyevіçdən qabaq da bunlar çox başlarını qaldırardılar, o biri katiblərin vaxtında da bu söhbətlər olardı. Nə isə, elə ki, Heydər Əliyev orada idi, bunların səsi kəsilmişdi. Ancaq əlaltdan işləyirdilər, sakit deyildilər. Bəs necə oldu ki, belə oldu?

Birinci növbədə Ermənistanda etnik təmizlik işi aparmağa, azərbaycanlıları tamam çıxartmağa başladılar. Sonra Rusiyanın hərbi sənaye kompleksinin başında durdu Karaqlanov. Hərbi zavodlarda onlardan çox adam işləyirdi. Birdən xəbər tutduq ki, Vladimir vilayətində hər bir hərbi zavodda 100 min dollarlıqdan çox hərbi silah yox oldu. Direktor Sarkisyan idi. Kimi tutdular? Heç kəsii. Bunlar cürbəcür yollarla işləyirdilər. Tbilisdə Zaqafqaziy Hərbi Dairəsinin komandanının müavini erməni idi. Ermənilər bu müddətdə Rusiya ilə hərbi müqavilə bağladılar — necə deyərlər, qarşılıqlı təhlükəsizlik haqqında. Hazırlıqlarını gördülər. Biz isə düşünmürdük ki, o dağa yağan qar sabah bizim dağa yağacaq. Biz nə edirdik? Biz meydanda təpik vururduq. Cürbəcür şayiələr yayılırdı. Neçə yüz min adam meydanda qışqırırdı ki,"azadlıq", "boyuqduruğun altına



keçməyəcəyik". Bir damcı da iş görülmürdü ki, axı, bu düşmən hazırdır, sabah hücuma keçəcək, biz buna qarşı nə iş görürük.

Avara adamlar, məni bağışlayın, heç bir şeydən xəbəri olmayanlar birdən-birə gəldi çıxıdı iş başına, camaat qaldı məəttəl. Sonra nə elədilər? Bütün quş tüfənglərini də camaatdan yığışdırdılar. Kəlbəcərdən camaatı çıxartmaq olardı, Laçından camaatı tərpətmək olardı? Qubadlı beş il idi döyüşürdü, bir adam yerindən tərpənməmişdi. Zəngilan, Cəbrayıl, Füzuli — hamısı döyüşürdü. Lakin bu avaraların hərəkətləri işi gətirdi çıxartdı bu yerə.

Sonra eşitdilər ki, Heydər Əliyeviç gəlir. Düşündülər ki, nə eləyək, onu yaxın qoymayaq. Nə ilə başladılar mübarizə aparmağa? Heydər Əliyeviçin yaşı ilə. Başı ilə yox, yaşı ilə. Nə onun xalqa məhəbbəti, nə bacarığı, qabiliyyəti, nə də dünyagörüşü — heç biri bunların gözünə görünmürdü. Nəyi görünürdü? Yaşı. Həmin o vaxt dünyanın ən böyük ölkələrinin rəhbərlərinin yaşı 80-ə qədər idi. Nə üçün Azərbaycanda bu yaş məsələsi meydana çıxmışdı? Yalnız bircə onu axtarırdılar.

O vaxt Ramiz Mehdiyev müəllim ilə biz tez-tez görüşürdük. Deyirdim ki, Ramiz, bu hərc-mərclik burada vətəndaş müharibəsinə gətirib çıxara bilər. Gündə söhbət gedir "Naxçıvan,yeraz, Qarabağ, Bakı..." Erməni də ki, dünyanı dağıdır. Bu ölkəyə, bu xalqa yiyəlik eləyib, bunun öhdəsindən gəlməyi bacaran yalnız Heydər Əliyev olacaqdır. O, buraya gəlməlidir. Ramiz müəllim şahiddir — neçə dəfə görüşüb danışmışıq, hansı yoldaşlara gücümüz çatıb — demişik.

Heydər Əliyeviç, burada çox yaxşı yoldaşlar çıxış elədi. Bizim vəziyyətimiz çox ağırdır, iqtisadiyyatımız çox bərbad vəziyyətdədir, ordunu yedirtmək lazımdır, geyindirmək lazımdır, orduya müasir silahlar vermək lazımdır. Bunlara iqtisadi imkanlar olmalıdır. İmkan da azdır — zavodlar dayanıb, fabriklər işləmir. Nə eləməliyik? Mən hesab edirəm ki, respublika Prezidentinin sözü hamı üçün qanun olmalıdır. Nə qədər siyasi partiya varsa, neçə cür qəzet də çıxırsa hamısı bunu nəzərə almalıdır. Türkiyədə də çoxlu partiya var. Ölkənin müqəddəratı həll olunan vəziyyətdə onların hamısı bir vətənin balası olur. Bunlar da hamısı toplaşmalıdır Prezidentin ətrafına.

Biz iqtisadiyyatımızı ayağa qaldırmalıyıq. Bu gün bu ölkə yardım eləyir bizə, sabah o ölkə yardım eləyir bizə. İzzət müəllim çox sağ olsun, bunların hamısını qaçqınlar arasında bölüşdürür. Sabah bu yardım olmaya da bilər, çətinlik əmələ gələ bilər. Radioda eşitdim ki, Ter-Petrosyan deyir "Mən ikinci genosidə yol verməyəcəm. Heç bir sənədə də qol çəkməyəcəm". Yekəxana danışır. Siz inanırsınız, nə qədər ürəyimiz ağrıyır. Bir dəfə Siz onunla Kremldə oturub söhbət eləyirdiniz. Siz danışırsınız, o da papiros çəkib kinayə ilə havaya tüstü buraxır. Onun bu ədasına baxıb "öləsən səni", deyirəm öz

ürəyimdə. Sən kimsən? 40-cı illərə qədər Yerevanın vəziyyəti nə idi? Azərbaycan sənə hər il 600 min ton yanacaq — mazut verirdi yandırmağa. Bütün yanacağın hamısını Azərbaycan verirdi. Pambığı həmişə Azərbaycan verib, sənin sənayeni ayağa qaldıran Azərbaycan olubdur. Sən hardan belə qudurub meydana çıxıbsan? Biz bunları onlara demirik.

Mən demək istəyirəm ki, biz çox kanallarla işləməliyik. Bütün diplomatiyamız çox fəal işləməlidir. Bizim Milli Məclisin başında oturanlar deputatları hərəkətə gətirməlidirlər, bütün dünya ictimaiyyəti bilməlidir ki, Azərbaycan nə vəziyyətdədir. Neçə ildir biz səsimizi kəsib gözləyirik. Bizim məsələmizə gah Finlandiyada baxırlar, gah Avstriyada baxırlar, indi də hazırlaşırlar Portuqaliyada baxmağa. Erməni bizim torpaqları tutanda bir kəsdən xəbər almışdı? İndi mən belə hesab edirəm ki, bax bu cəhətdən hanı bizim ziyalılarımızın — yazıçıların, bəstəkarların səsi? Rusiyada bunların həmkarları var. Siz düzgün etmisiniz — Lebedlə də, hərbi nazirlə də, Çernomırdinlə də,Yeltsinlə də görüşmüsünüz. Görürsünüz ki, işıq yolunun bir qanadı bu sahədədir. Ancaq çox tanışlarımız var orada. Biz orada işləməliyik, Rusiyaya deməliyik ki, əzizim, mən sənə 1 milyard 500 milyon ton neft vermişəm, sən mənə nə vermisən? 2 milyon yarım əhalimdən 500 mini sənin cəbhəndə canını fəda eləyib sənin yolunda. Sən mənə nə vermisən? Niyə erməni oldu sənin ərköyün övladın? Nə verib erməni? Daim o sənin büdcənlə yaşayıb, cəmiyyətə bir qəpik xeyir verməyibdir. Açıb tökmürük, bunları qəti demirik. Amma biz onlardan bunu tələb eləməliyik, deməliyik. Ermənıyə də bunu açıq-açığına deməliyik. Ermənilərin içərisində bir başa düşəni varsa, onu tapmaq lazımdır.

Bizim yaxşı ziyalılarımız var, ermənilərin xasiyyətini çox yaxşı bilənlər var. Hidayət oturubdur burada, başqaları var, onların adamlarının müəyyən faizini tanıyanlar var. Deməliyik, ay qonşu, Karfagen üç dəfə hücuma keçdi, Roma imperiyasını məhv etmək istəyirdi. Axırı nə oldu? Karfagen məhv oldu getdi, yoxdur dünyada. Sən nə edirsən,"dənizdən-dənizə" sahib olmaq istəyirsən? Gör nə qədər düşüncəsiz millətsən. Bunu sənə kim verəcək ki, sən "dənizdən-dənizə" sahib olasan? Nə vaxt olmusan ki, indi də olasan? Bu sözümüzü onlara qəti deməliyik.

Heydər Əliyeviç, mən camaatın içərisində xeyirində şərində çox oluram. Çox şikayətə gəlirlər, imkansızları var, çalışıb kömək eləyirik. Baxıram ki, bizdə 30 yaşından 50 yaşına qədər 70 min adam var. Sağlam, yaxşı adamlardır, amma orduda deyillər. Biz bunlardan istifadə etməliyik.Hər kəs öz rayonu üzrə — adını nə qoyur-qoysun — tə'lim keçsin, silahları öyrənsin, hazırlıq görsün. Topla, tüfənglə tutulan torpağı söz ilə qaytarmaq çətindir. Erməni bizim təzyiqimizi



də görməlidir. Biz onu eləyə bilərik. Bizim camaat səpələnib ora-bura, bunları toplamalıyıq. Ona görə də deyirəm ki, hamı Prezidentin ətrafına toplanmalıdır. Ağsaqqallar, hərbçilər, yazıçılar, bəstəkarlar — kim var. Camaata izah etməliyik ki, bu,bütöv bir millətdir, onu parçalamaq olmaz. Millətin başında duran elə bir şəxsiyyətdir ki, bu birliyi qoruyub saxlamaq lazımdır. Öz vəzifəsini yerinə yetirməyə ikinci bir alternativ tapmaq mümkün deyil. Xaricə gedib o ölkələrin rəhbərləri ilə görüşmək, yüksək səviyyədə danışıqlar aparmaq kimin hünəridir? Bu, çətin məsələdir. Mənim yadımdadır, biz İngiltərəyə gedəndə bizi çağırırdılar Moskvaya, tapşırırdılar ki, onu eləməyin, bunu eləməyin. Gəlirdim evə, vahimə basırdı məni ki, biz özümüzü orada necə aparaq ki, ingilislərin xoşuna gəlsin.

Bir dəfə Azərbaycan Nazirlər Kabinetinin sədri getmişdi İngiltərəyə, heç də yüksək səviyyədə qəbul olunmayıb, divanın üstündə oturub, əlləri ilə dizini yığıb qarnına, müsahibə verir. Mən belə vəziyyətdə partlayıram ki, bu, Azərbaycan hökuməti adından gedir danışır. İngilis nə bilir ki, bu kimdir, nəçidir, nə səviyyədə adamdır. Sən Hüseynov Pənah — Nazirlər Kabinetinin sədri — ora nə üçün getmişdin? Yanında gedənlər də var idi. Başına ağıl qoymamışdılar ki, adam kimi oturmağı bacar. Belə adamlar Azərbaycanın başçıları idi, Azərbaycana hökumətlik edirdilər.

Heydər Əliyeviçin hansı ölkə olursa-olsun, hər gedib-gəlməyi orada dərin iz qoyur. Respublikanın qiymətini dedikcə yüksək səviyyəyə qaldırmaq qabiliyyətindədir. Dünyanın digər dövlət xadimlərindən bir damcı da geri qalmır.

Heydər Əliyeviç, mən Sizdən bir xahiş eləyirəm. Sizinlə çoxlu adam gedib-gəlir. Onların da əksəriyyəti sənətkarlardır. Elə hesab eləməsinlər ki, gedib nəyə isə baxmaqla qurtarır. Qayıdıb gələndə bunlardan hesabat tələb etmək lazımdır. Sən kimyaçısan — nə öyrəndin? Almaniyaya elə-belə gəzməyə getmişdin? Sən maşınqayırma üzrə mütəxəssissən, filan yerə getmişdin — nə öyrəndin? Bu yoldaşlar çox məs'uliyyət hiss etməlidirlər. Getmisən — bir xeyir ver, bir şey yarat. Niyə boş-boşuna gedib-gəlirsən? Gedənlərin arasında yaxşısı da var, beləsi də var.

Məhəmməd Əleyhissəlam öz dini əqidəsini təbliğ edən zaman onu çox təhqir edirdilər, ona dözülməz sözlər deyirdilər. Biri gəldi dedi ki, ya peyğəmbər, sən niyə bunların cavabını vermirsən? — Dedi: O, mənə aid deyil, o deyibdir, onundur. Mənim nə ehtiyacım var ki, ona cavab qaytarım. Hər xırda şeyə əsəbiləşmək lazım deyil, qabaqda böyük məsələlər durur.

İndi biz xırda şeyləri qoyaq qırağa. Bu saat görülən tədbirlər gözəl tədbirlərdir. Bunları yekunlaşdırıb bir qərara gəməliyik ki, iqtisadiyyatı necə qaldırmalıyıq, torpaqlarımızı düşməndən necə azad etməliyik.

Bütün qüvvələri bir yerə yığıb, Prezidentin ətrafına toplaşıb, onun dediklərini yerinə yetirmək məqsədi ilə bu işlərin öhdəsindən mütləq gəlməliyik.

Zavodlarımız işləməlidir, zavodların direktoralrına şərait yaradılmalıdır, minlərlə peşəkar fəhlə yolun qırağında durub bunları kimsə gəlsin aparsın bağında işləməyə. Ona görə də gərək zavodları işlədək.

Mən qaçqınlarla, onların yerləşdirilməsi ilə əlaqədar çox şey demək istərdim. Kəlbəcər işğal olunan kimi mən getmişdim Gəncəyə, Xanlara. Xanların icra hakimiyyəti başçısı dedi ki, "mənim rayonumda ikinci rayon yaradıla bilməz". Dedim ki, sən kimsən axı, Kəlbəcərin əhalisi hamısı tökülüb buraya. Hörmətli Prezident, Sizin köməyinizlə Gəncə ilə Xanların arasında biz şəhərcik tikdirmişdik. Böyük bir şəhərcikdir. O vaxt çox böyük kömək elədiniz. Kəlbəcərlilərin demək olar ki, hamısını orada yerləşdirdik, qalanını da orada-burada. Laçınlılar, qubadlılılar hamısı pis-yaxşı Bakının ətrafında yerləşib. İndi bizim məqsədimiz sənayeni qaldırmaq, iqtisadiyyatı qaldırmaq, kənd təsərrüfatını qaldırmaqdır. Ona görə də Prezidentin ətrafında birləşmək lazımdır. Siyasi partiyalar da, saysız-hesabsız qəzetlər də, respublikanın camaatı da bilməlidir ki, ailənin başçısı bir nəfər olmalıdır, bu ölkənin başçısı da Sizsiniz.

Mən Sizə cansağlığı arzu edirəm, ürəkdən arzumuz budur ki, bu sahələri qaldırasınız, təzədən 69-cu ilin sür'əti ilə inkişaf etdirəsiniz. Çox sağ olun.

***

**Heydər Əliyev:** Sağ olun. Yorulmusunuz? Bir-iki nəfər də burada nəzərdə tutulub danışsın, mən də yəqin ki, bir neçə söz deməliyəm. Bir balaca tənəffüs e'lan edək, 30 dəqiqədən sonra yığışarıq.

Milli Məclisin üzvü
İMAMVERDİ İSMAYILOVUN
çıxışı

Möhtərəm Prezident, hörmətli həmvətənlər! Bu gün çox tarixi bir gündür. İllərlə, aylarla, günlərlə ürəyimizdə qubar eləmiş, yara bağlamış torpaq, yurd, Vətən həsrətli duyğularımızı bölüşməyə gəlmişik.

Buradakı çıxışlara, deyilən fikirlərə qulaq asdıqca bir ziyalı kimi, bir vətəndaş kimi, işğal olunmuş bir yurdun yetirdiyi oğul kimi təəssüf hissi keçirirəm. Yanımızdan — sağımızdan, solumuzdan, başımızın üstündən, ürəyimizin ortasından keçib gedən günlərin



qədrini bilməmişik. Gör bir nə qədər havayı illər yaşamışıq. Bu illərin təəssüratı məndə Sizinlə Naxçıvanda olan görüşümüzü xatırladır. Yadınızdadırsa, biz, bir qrup jurnalist "Zaman" qəzetinin də'vəti ilə Türkiyəyə gedirdik. Onda biz sevindik ki, yolumuz Naxçıvandan keçəcək, Heydər Əliyevi ziyarət edəcəyik. Yə'ni bu, bizim üçün ən böyük sevinc idi.

Heydər Əliyev həmin gecə bizi qonaq saxladı. Tərkibimizdə müxtəlif qəzetlərin, hətta müxalifət qəzetlərinin də nümayəndələri var idi. O qəzetlər ki, hətta ürəyinin nurunu da blokada şəraitində qalmış Naxçıvan camaatı üçün əridən Heydər Əliyevdən hədyan yazırdılar. Bakıda bir budaqda oturub min ağacı silkələyən siyasət dəllallarının günahı ucbatından Naxçıvan blokada şəraitində idi. Yolu bağlı, işığı yox. Biz hava limanına düşəndə mən hiss elədim ki, bu işığı sənginiş, öləzimiş məmləkətdə nə yaxşı ki, Heydər Əliyev var! Yə'ni adamlar onun — bu böyük şəxsiyyətin ürəyinin işığına yığışmışdılar.

Qəbul otağında bir kişi səsini qaldırmışdı. Heydər Əliyev qəbul otağına çıxdı. Deyəsən o kişi mətbəx münaqişəsindən, qardaşından şikayət edirdi. Heydər Əliyev dedi ki, qardaşından şikayət edirsən. Mən nə edim? Deyir: Yox, mənim qardaşım da, Allahım da Sizsiniz. Mən onda hiss elədim ki, yolu bağlı, işığı sönən, taleyin ağır sınaqlarına mə"ruz qalan Naxçıvanın camaatı Heydər Əliyev şəxsiyyətinə söykənmişdir.

Bizim çox maraqlı suallarımız, fikirlərimiz oldu. Heydər Əliyev bizə Türkiyədən zəng vurmaq imkanı verən telefon nömrəsi verdi. Jurnalistlər sual verdilər ki, sizə müraciət olunmuşdurmu Ali Sovetin sədri olasınız? Heydər Əliyev özünəməxsus təmkinlə, soyuqqanlıqla cavab verdi, amma demədi ki, həmin gün yerimdə olmuşam. Bizə mə'lum oldu ki, Heydər Əliyevə həmin gün zəng gəlməyib. Necə olur ki, uzaq Türkiyədən Heydər Əliyevə zəng vurub danışa bilərdik, amma Bakı kimi şəhərdən Heydər Əliyevi tapa bilmədilər?

Bizi siyasət meydanında belə-belə aldatdılar, vaxtında danışmadıq, susduq, aldandıq, çöllərdə qaldıq. Heydər Əliyev vaxtında çağırılmalı idi. Bax, o havayı yaşadığım illərin təəssüratı da Naxçıvanda ürəyimdən bir sancı kimi keçdi. Əgər vaxtında bu xalq bir, əl bir olub Heydər Əliyevi çağırsaydı, vaxtında Heydər Əliyev yolunda birləşsəydi bəlkə də bu qanlar-qadalar olmazdı. Xalq yas saxlamaqdan, şəhid verməkdən, saqqal bağlamaqdan məhv olub gedir. Öləndərin birinin qırxı o birinin yeddisinə bələnir.

Biz müharibəni emosiya ilə aparırdıq. Biz siyasəti də emosiya ilə idarə edirik. Biz avtomata güllə qoya bilməyən oğullarımızı yalançı vətənpərvərlik şüarı ilə küçələrə, meydanlara tökdük, cəbhələrə göndərdik, qana bələdik. Televizora çıxarırdıq — anama deyin arxayın

olsun, iki maşın erməni gətirirəm. Hətta dövlətin mə'muru da belə deyirdi. Amma həmin gecə döyüşlərdən qaçıb gəldi.

Biz bütün səfər boyu Heydər Əliyevlə olan söhbətimizin təəssüratı altında yaşadıq. İqdırdan keçdik. Ərzrumdan İstanbulacan Heydər Əliyev şəxsiyyəti mövzusunu müzakirə etdik. Gör nə qədər havayı illər yaşamışıq! Bu havayı illər xalqın ömründən, ürəyinin ortasından keçimir. Neçə şəhidin qanı bahasına keçir. İnsan həmişə özünə kənardan baxmağı bacarmalıdır. Biz hətta Heydər Əliyev Moskvaya gedəndən sonra onun haqqında hədyanlır yazdıq. Amma bu oturduğumuz binanı da, salınmış mikrorayonları da, tikilmiş evləri də, Milli Məclisin əzəmətli binasını da, dünya əhəmiyyətli zavodları da Heydər Əliyev özü ilə Moskvaya aparmamışdı.

Mən kənd oğluyam, ucqar kənd rayonunda doğulmuşam. Heydər Əliyev hakimiyyətə gələndən kəndli libasını dəyişdi, kəndlərin görkəmi dəyişdi. Biz bunun qədrini bilmədik, heç olmasa, danışanı susdurmağı bacarmadıq. Susa-susa adiləşdik, adiləşib məhv olduq, beləcə yurdsuz qaldıq, yurdlarımız bir-birinin ardınca işğal olundu.

Görün iş nə yerə çatdı ki, Heydər Əliyev xalqın səsi ilə, nidası ilə hakimiyyətə qayıdandan sonra ona müxtəlif təzyiqlər,şantajlar üçün qurulmuş planla rayonlarımız bir-birinin ardınca düşmənə verildi. Heydər Əliyevi müstəqillik və azadlıq yolundan döndərmək istədilər. Heydər Əliyev belə hadyanları çox görmüşdü, çox eşitmişdi. Səbrlə, təmkinlə, müdrikliklə dözdü. Görürsünüz ki, Azərbaycan nə çətin, ağır, məşəqqətli günlərdən keçib bu günə çıxıbdır.

Azərbaycan vətəndaş müharibəsi həddində idi. Amma bilən yox idi güllə haradan atılır, külək haradan əsir. Beləcə atılan güllələrə, əsən küləklərə əhəmiyyət vermədən biz çox şey itirdik. Ordu siyasiləşdi. Ordu özfəaliyyət şəklində döyüşürdü. Mən görüşlərimdə həmişə demişəm, yenə deyərəm — millətin faciəsi ondadır ki, layiq olmayan adamlar özünü Azərbaycanın müdafiə naziri vəzifəsində görürdü. Bax, millətin faciəsi beləcə başlandı. Arxadan zərbələr vurulur. İgid oğullarımız, vətən adı ilə döyüşə gedən oğullarımız arxadan vuruldu. Bu, təxribat idi. Onları düşmən dəyirmanına su tökənlər vurdular, sapı özümüzdən olan baltalar vurdular. Vətən birdir, torpaq birdir. Vətən işğal olunanda, torpaq işğal olunanda ambisiyalara yol vermək, partiyalara bölünmək, mənə elə gəlir ki, heç bir qanuna sığmır.

Möhtərəm Prezident, mən heç bir partiyanın, ictimai hərəkatın, blokun üzvü deyiləm. Vətən azadlığa çıxar, torpaqlarımız geri qayıdar, vahid Azərbaycan birləşər, bütövləşər — hər şeyimiz olandan sonra partiyalaşarıq, bloklaşarıq. İndi — müharibə gedən dövrdə, qan-qada, yurdsuzluq olan dövrdə hamı üçün Vətən birdir, torpaq birdir. Prezident birdir. Xalqımızın taleyinə bir Heydər Əliyev adı yazılıb.



İndi hər şey arxada qalıb, ölkəmizdə siyasi sabitlikdir. Bə'zilərinin dediyinə və bəyənmədiyinə baxmayaraq respublikamızda ağılla, təmkinlə iqtisadi islahatlar aparılır. Heydər Əliyev hakimiyyətə gələndən bu qədər münaqişələrin, dövlət çevrilişi cəhdlərinin qarşısı alına-alına, bu qədər diplomatik fəaliyyət aparıla-aparıla dünya dövlətlərinə Azərbaycanın haqq səsi çatdırıla-çatdırıla, bununla bərabər, iqtisadi islahatlar gedir.

Keçən il Azərbaycan dövlətçiliyində çox mühüm hadisələr oldu. 1995-ci ildə ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və ilk dəfə olaraq Azərbaycan Respublikasının demokratik parlamenti formalaşdı. Yeri gəlmişkən, bə'ziləri siyahı dərc elədilər, dedilər ki, deputatlar belə seçildi, elə seçildi. Əsl demokratik seçkilərin bariz nümayəndəsi qeyri təvazökarlıq olsa da mən özüməm. Mən ucqar Zəngilan rayonunun dağ kəndində doğulmuş bir adamam. Bir anamın ümidinə yetimçiliklə böyümüşəm. Heç kimin köməyini görməmişəm. Yağ içində böyrək kimi böyüməmişəm. Çətinliklə oxumuşam. Deputatlığa namizədliyimi o vaxt vermişdim ki, siyahı dərc eləmişdilər. Mən bunlara inanmadım və ərizə verdim. Xalqın istəyi ilə, tövsiyyəsi ilə bu gün Azərbaycan Respublikası Milli Məclisinin üzvüyəm.

Möhtərəm Prezident, Laçın, Zəngilan, Qubadlı camaatı ilə ayda üç dəfə mütəmadi olaraq görüşürəm. Üç-dörd ay bundan qabaq Ağcabədi yataqlarında Laçın camaatı ilə görüşdüm. Müraciət qəbul elədilər ki, xalq Sizinlədir. Xalq evsiz-eşiksiz qalır, yurdsuz qala bilir, müəyyən çətinliklərə dözə bilir, amma bütün ümidini Sizə bağlayır. Xalqın dilinin əzəl mübtədası Sizsiniz. Xalqın ümid yeri, pənah yeri Sizsiniz. Xalq aclığa da, fəlakətə də — hər şeyə dözür, amma öz ömründən kəsib sizə verməyi ulu Tanrıdan arzulayır. Bəlkə də bu alqışlar Sizi qorudu. Allahın səbri böyükdür. Mənə elə gəlir ki, təyyarə hava limanına enərkən küləyin səmtini dəyişən də Allahdır. Mənə elə gəlir ki, təxribatlardan, şantajlardan, hədə və təzyiqlərdən Sizi qoruyan da qadir Allahdır.

Mən nə arzu edərdim? İndi dünya xəritəsində Azərbaycan adlı bir gəmi səyahətə çıxıb. Bu gəminin kapitanı Sizsiniz, bu məmləkətin Prezidenti Sizsiniz. Xalqın qocası, cavanı yatıb yuxularında at görür. At muraddır, muradına çatacaq bu xalq. Mən arzu edirəm, Allah imkan versin ki, Sizin kimi müdrik Prezident xalqı öz muradına çatdırsın!

Möhtərəm Prezident, biz iki qardaşıq. Bayaq dedim ki, bir ananın işığına böyümüşük. Keçən il qardaşım respublikanın milli təhlükəsizlik sistemində şərəflə xidmət etdiyinə görə Sizin fərmanınızla "Azərbaycan bayrağı" ordeni alıb. O da, mən də Sizin əsgərinizik, həmişə hazırıq və Ali Baş Komandan kimi Sizin tapşırığınızı gözləyirik. Mən yenə deyirəm, dünyada bir Heydər Əliyev var. Bu gün varını, dövlətini,

torpağını, evini, eşiyini itirən xalq Sizinlədir. Çətinlikdə də, darda da, azadlıqda da, işıqlıqda da Sizinlədir. Allah ürəyinizin işığını xalqdan əsirgəməsin. Bu yolda Sizə uğurlar arzu edirəm. Sağ olun.

### Müəllim
## SEVİ SEVDİMALIYEVİN
### çıxışı

Möhtərəm Prezident! Hər şeydən öncə, burada iştirak etmək imkanı olmayan, Sizi Nəbi və Həcər yurdunda görmək istəyən Qubadlı ağsaqqallarının, Qubadlı müəllim ordusunun atəşin, təmiz, ülvi, təravətli salamlarını Sizə çatdırmağı özümə borc və şərəf bilirəm.

Möhtərəm Prezident, mən çıxış edən yoldaşları təkrar etmək niyyətində deyiləm. Arzu, istək, dilək və duyğularımı, dünyamızın böyük şəxsiyyəti, xalqımızın fəxri Heydər Əliyev fenomeninə məhəbbətimi poeziya dili ilə ifadə etmək istəyirəm.

Nəbi oylağından, Həcər yurdundan
Yaman qəribsəyib mən kövrəlmişəm.
Dədələr dədəsi, ay dədə Heydər,
Ümid ilə görüşünə gəlmişəm.

Göydəki Allahım uzaq, Siz yaxın,
Bu yazıq millətə, bu yazıq xalqa
Yeganə töhvəsi Sizsiz Allahın.

Möhtəşəm adınız qəlblərə köçüb,
Dağın əzəməti özünüzdədir.
Bütün millətimi səfərbər edən
Zəkanın qüdrəti sözünüzdədir.

Qur"ani Kərimin, qadir Allahın
Bəxş etdiyi bir qüdrətdir Əliyev!
Bütün türk xalqına Böyük Tanrının
Göndərdiyi səadətdir Əliyev!

Ümid olan yerdə inam bitəcək,
Peyğəmbər gələcək, imam gələcək,
Heydər hünəriylə xalqım güləcək,
Cəsarətdir, məharətdir Əliyev!

Ömrüm həm kədərli, həm də ki, kədərli,
Çaylar həm axarlı, həm də ki, bəndli,
Min dahidən, sərkərdədən qüdrətli
Şəxsiyyətdir, şəxsiyyətdir Əliyev!

Cavanşir, Xətai, Babək, Atatürk,
İndi də millətə Heydərdir böyük,
Mənim əziz xalqım, başını tut dik,
Həqiqətdir, həqiqətdir Əliyev!

Gəda, min bir notu qatma çalğıma,
Bələd oldum düşüncənə, ağlına,
Azərbaycan torpağına, xalqına



Məhəbbətdir, məhəbbətdir Əliyev!
Həqiqətdir, həqiqətdir Əliyev!

*(Sürəkli alqışlar)*

Möhtərəm Prezident, böyük
Şəhriyarın ulu bir ifadəsi var. Deyir:
Hər kəs öz yerini tapsa həyatda.
Sanki xəzinə var başının altda

Şəhriyarın misrasını dəyişməyə, mənim iqtidarım çatmaz ancaq mən bir düzəliş edib deyirəm ki,

Hər kəs öz yerini tapsa həyatda,
Xəzinə var başınızın altında.

Ulu Tanrımıza, Allahımıza minnətdaram, min dəfə şükür edirəm ki, taleyimizin bu ağır vaxtında Sizin kimi xilaskarı, Sizin kimi peyğəmbəri, Sizin kimi imamı bizə bəxş etdi. Övlad dünyaya gələndə ona ad qoymağa həmişə Dədə Qorqudu çağırıblar. Dədə Qorqud deyib, adını mən qoydum, ömrünü, yaşını Tanrı versin. Bütün 7 milyonluq Azərbaycan xalqının Tanrıya üz tutub Sizə uzun ömür diləməsi bu haqqın haqq vaxtında nəsib olsun. Allah eşitsin, Sizi bizim üstümüzdən əskik etməsin!

Hörmətli Prezidentimiz, Qubadlıdan nə qədər çıxış edən varsa, hamısı Əvəz Hüseynquliyevi bizə icra hakimiyyəti qoyduğunuza görə Sizə dərin təşəkkürünü, minnətdarlığını bildirir. Xalqımızın bir məsəli var, deyir: "Anam gəlin görməmişdi, elə bilirdi gəlini bir gəlindir". İndiyə qədər icra hakimiyyəti başçısı görməmişdik, amma Əvəz müəllimin simasında gördük və bildik ki, icra hakimiyyəti başçısı kimdir. Bütün qubadlılar adından Sizə öz minnətdarlığımı bildirirəm. Bir daha Allah Sizə uzun ömür versin, bizi xatalardan, bəlalardan xilas etmək üçün günəş şüanızı, günəş qəlbinizi heç zaman üstümüzdən əskik etməsin. Sağ olun.

**Heydər Əliyev:** Sağ olun. Mən istəmirəm ki, vaxt gec də olsa, çıxış etmək istəyənlərdən kiməsə söz verməyim ki, buradan qayıdanda desin ki, istəyirdim çıxış edəm, söz vermədilər. Ona görə də nə qədər gec də olsa, xahiş edən adamların hamısına söz verəcəyəm. Əmək veteranı Əli Əliyev, buyurun.

### Əmək veteranı
## ƏLİ ƏLİYEVİN
### çıxışı

Hörmətli Prezidentimiz, möhtərəm görüş iştirakçıları! Səkkiz saatdan artıq davam edən bugünkü görüşümüzün mövzusu təkcə bu üç rayonun faciəsi deyil. Bu, ümumilikdə Azərbaycan xalqının

faciəsidir. Lakin bu faciəyə, bu kədərə görə mə'yus olmaq biz — müzəffər Azərbaycan xalqına xas olan sifət deyil. Biz əzəmətli və vüqarlı xalqıq. Mən bugünkü görüşdə danışan yoldaşların çıxışlarına qayıtmaq istəmirəm. Mə"lum həqiqətdir ki, xalqımızın başına gətirilən bu bəlalar kimin hesabına olmuşdur. Bütün bu bəlalar Azərbaycan xalqının başına ona görə gətirilmişdir ki, "Vətən, Vətən" deyə-deyə öz ambisiyalarına qapılaraq, öz şəxsi mənafelərini ödəməyə çalışaraq, kürsü davası edən bir qrup "cəbhəçi" xalqın taleyini Ermənistanın təcavüzünə qurban verdi. Onların da içərisində ağıllı, kamallı adamları var idi, lakin barmaqla saymaq olardı bir, iki, üç — ondan o yana getməzdi.

Bayaq burada çıxış edənlər haqlı dedilər ki, həyat təcrübəsi, mə'nəvi haqqı, xalq arasında hörməti, kifayət qədər ixtisası olmayan bə"zi adamlar icra hakimiyyəti başçısı tə'yin edilirdi. Belə icra hakimiyyəti başçılarından bizim rayona da tə'yin olunmuşdu. Elxan Nuriyev, üzr istəyirəm bu ifadəm üçün, yeri gəlsə sübut edə bilərəm, narkoman idi.

Yadımdadır, bizim icra hakimiyyətinin binasının qabağında, böyük çinar ağacının dibində ağsaqqallar toplaşmışdı. İçəridən xəbər gəldi ki, Elxan Nuriyev Kələkiyə teleqram vurub ki, "Elçibəy, Qubadlı camaatı sizinlədir. Bizim bir prezidentimiz var, o da sizsiniz". Gör o dəhşətli, ağır, müsibətli günlərimizi biz kimin hesabına yaşayırmışıq! Bu anda bir qrup adam içəri girdi. Onun hərəkətinə qarşı nifrət etdilər. O, əl atdı silaha. Pistolet atanda bizim əvvəlki polis idarəsinin rəisi, bütün gününü səngərlərdə keçirən, çox ağıllı və təmkinli yoldaş olan Nadir Hüseynovun — o, sonradan Zərdaba rəis tə'yin olundu, bilmirəm nədənsə oradan da azad edildi — onun qardaşı Elxan Nuriyevin əlindən yumruqla vurub pistoleti yerə saldı. Bax, biz belə bədbəxt adamlara tapşırılmışdıq.

Ən nəhayət, bugünkü görüşdə mən bir məqamı vurğulamaq istərdim. Bizim faciəmiz 1988-ci il və bu gün olan vəziyyət deyil, bunun tarixi və kökləri var. Mən adi bir iqtisadçıyam, kənd təsərrüfatında baş iqtisadçı işləyirəm. Tarixçilərimiz daha yaxşı bilirlər ki, bu hadisələrin tarixi kökləri var. 1701-ci ildə İzrail Qori adlı bir erməni gəlir I Pyotrun yanına, deyir məsləhətləşməyə gəlmişəm. Bizim bir ümumi düşmənimiz var, o da Azərbaycan xalqıdır. Nəyin bahasına olursa-olsun, bu xalqı aradan götürmək üçün plan hazırlamaq lazımdır. Tarixçilərimiz belə qeyd edirlər ki, o vaxt imperiyanın xarici və daxili siyasəti buna imkan vermədi. Lakin yüz il keçdikdən sonra— 1803-cü ildən 1828-ci ilə qədər bu xalqın başına nə müsibətlər gəlmədi! Ondan sonra 1905-ci il inqilabı hamımızın yadındadır. Onların qabağına daşla da çıxan olmadı. Ondan sonra 1915-ci il hadisələri, 1918, 1920-ci illərin inqilabları. Xalqımızın başına nə



müsibətlər gətirmişlər! Lakin xalqımız bu bəlalardan məğrurluqla çıxmışdır, öz haqqını tələb etmişdir. Nəhayət, öz azadlığını əldə etmişdir.

Biz nə üçün 1990-cı ildən bu günə qədər olan vəziyyətə toxunmuruq? 1990-cı il yanvar ayının 15-də Azərbaycan Ali Sovetinin sədri Elmira Qafarova Moskvaya çağırıldı. Orada adını qoydular ki, Dağlıq Qarabağı möhkəmləndirmək, sərhədləri möhkəmləndirmək məqsədi ilə sənəd tərtib olunub və bu sənədə imza etməlisiniz. Elmira Qafarova həmin sənədə imza etdi.

Biz ziyalı kütləsiyik, biz həqiqəti xalqımıza çatdırmalıyıq. Bu gün bizim təbliğat və təşviqat aparatımız işləmir,. Mən bunu cəsarətlə deyirəm. Məktəblərdə, dərsliklərdə bu məsələlərə geniş yer verilməlidir. Xalq kütləri içərisində kütləvi izahat işləri aparılmalıdır. Yadımdadır, qabaqlar məhlə-məhlə yığılıb Konstitusiyanı maddə-maddə müzakirə edirdilər. Seçkilər aparılırdısa, yığışıb müzakirə edirdilər ki, bu maddə belədir, bu maddə elədir. Bu gün nəyə görəsə susuruq. Sovet hökumətinin vaxtında biz bir-birinin ardınca plakatlar yazırdıq. Nə üçün bu gün icra hakimiyyətləri susur? Yeni iqtisadiyyata keçid dövründə, özəlləşdirmə dövründə, torpaq islahatı dövründə küçələrdə ancaq reklamlar vurulur. Nə bilim, "Kremlyovski vodka" da yazıblar!

Nə isə, mən sözümün əvvəlinə qayıdıram. Televizorda və radioda e'lan edildi ki, Bakıya qoşun yeridilməyəcək. Bakıda qadağan saatı olmayacaq. Bəs nəticəsi? Yanvarın 19-dan 20-nə keçən gecə yüzdən çox şəhidimiz oldu. Onlar bu gün Fəxri Xiyabanda uyuyurlar.

Hörmətli görüş iştirakçıları, yenidən burada kürsü davası gedirdi. Hörmətli şairimiz mərhum Mikayıl Müşfiqin bir şe"ri yadıma düşdü, deyir:

Şairə ilhamdan maya gərəkdir,
Anasız uşağa dayə gərəkdir,
Şairəm söyləyir yerindən duran,
İnsanın üzündə həya gərəkdir.

Üzr istəyirəm, bu ifadəm üçün, o həyasız ünsürlər xalqımızın başına oyun açdılar. Elçibəyə kim nə dedi ki, o, Kələkiyə qaçdı? Rəhim Qazıyev üzdə həmişə rus imperiyasına qarşı çıxırdı. Necə oldu ki, özü üçün sığınacağı Moskvada tapdı? Çox üzr istəyirəm bu ifadəm üçün, deməli, xoruzun quyruğu burada göründü. Rəhim Qazıyev müdafiə naziri idi, Surət Hüseynov, hörmətli Prezident, Sizinlə yan-yana dururdu. Bir dəfə bilmirəm hansı məsələ müzakirə olunurdu. Durdu ayağa dedi, ay yoldaşlar, gedək, ağbirçəklərlə, ağsaqqallarla məsləhətləşək. Səviyyəyə bax, çıxışa bax. Dövlət səviyyəsində olan çıxışlara bax.

Xudavəndi-aləm, sənə çox şükürlər olsun ki, bu gün biz Heydər Əliyev dühası altında işıqlanırıq, onun zəkasına, qüdrətinə arxalanırıq.

Bəli, Heydər Əliyev bu tə"rifə layiqdir. Hansı dövlət başçısı dünyanı bu qədər gəzmiş, haqq səsini ucaltmışdır? Bu gün biz fəxrlə deyirik ki, gələcəyə ümidgahımız, istinadgahımız yalnız Heydər Əliyevdir. Mən hörmətli Şamama xanımın fikri ilə tamamilə şərikəm ki, bu qədər əzəmətli binaların ucalmasında Sizin haqqınız, Sizin yeriniz var. Arzu edərdim ki, orada haradasa bir yerdə Sizin adınız yazılsın. Mən ürəyimdən keçən sözü deyirəm. Arzu edərdim ki, bu həqiqətə çevrilsin. Türk dünyasının lideri Mustafa Kamal Atatürk paşa, Azərbaycan dünyasının xilaskarı Heydər Əliyevdir. Gün o gün olsun ki, müharibə qurtarsın, bizim rəssamlarımız hörmətli Heydər Əliyevin general libasında, Milli Ordumuzun əsgərləri arasında şəklini çəksinlər. Belə bir mənzərəni görməyi mən arzu edirəm.

İkinci bir sözüm var, bununla tamamlayıram. Hörmətli Prezident, ola bilsin, il o qədər uğurlu gəlsin, təsərrüfat o qədər məhsul versin ki, lakin yığım dövründə təbii fəlakət öz şıltaqlığını göstərsin və hər şey məhv olsun. Buna təəssüflənmək lazım deyil. Ola bilsin ki, qonşu dövlət güclü olsun, ərazinin bir hissəsini işğal etsin. Buna təəssüflənmək lazım deyil. Əgər xalq arasında inam və birlik varsa, hər ikisini geri qaytarmaq mümkündür. Mən xalqımı birliyə çağırıram. Sağ olun.

**Yerdən səs:** Mən şəhid atasıyam, mənim bircə kəlmə sözüm var.

**Heydər Əliyev:** Buyurun. Sözün var?

**Şəhid atası**
## İSGƏNDƏR MƏMMƏDOVUN
**çıxışı**

**İsgəndər Məmmədov:** Deyəcəyəm. İcazə verin Sizinlə görüşüm. *(Prezidenti qucaqlayıb öpür).* Mən artıq söz deməyəcəm. Mən Sizi ziyarət etmək üçün Naxçıvana gəlmişdim. Sizi ziyarət etdim. Bu gün çıxışa yazılmamışam. Mənim Naxçıvanda Sizə sözüm o olub ki, şükür Allaha ki, o çətin yerdən sağ-salamat Azərbaycana qayıdıb gəlibsiniz. İlk sözüm o olub. Sizin yadınızdan heç vaxt çıxmaz.

**Heydər Əliyev:** Elədir.

**İsgəndər Məmmədov:** İndi də uzun-uzadı çıxış etmirəm.Çox yorulmusunuz.

**Heydər Əliyev:** Yox, mən yorulmamışam. Amma siz yorulmusunuz.

**İsgəndər Məmmədov:** Bəli.

**Heydər Əliyev:** Ona görə sizi çox yormaq istəmirəm, mən razıyam ki, qısa çıxış edəsiniz.

**İsgəndər Məmmədov:** Bax, yazmışam. Amma oxumayacağam. İndi də Allah-taaladan arzu edirəm ki, Sizə uzun ömür versin, Azərbaycanı



bu bəladan öz əlinizlə qurtarasınız. Xalq bilir ki. xilaskarı Sizsiniz. Xalq özü azad olunmuş yerlərində, torpaqlarında, şəhərlərində Sizin büstünüzü qoysun. Onu xalqın özü qoyacaq, daha icazə istəməyəcək. Bax, arzu edirəm ki, torpaqlarımız Sizin əlinizlə azad olunsun, bu arzunuz da yerinə yetsin. Sağ olun. *(Yenə Prezidenti qucaqlayıb öpür).*

**İ. Məmmədovun yazılı çıxışı:** Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları! Mən öz çıxışıma müdrik nəsihətlərlə zəngin olan "Kəlilə və Dimnə" kitabından bir ağıllı kəlamla başlamaq istəyirəm. Orada deyilir ki, mə"rifətli və ehtiyatlı adam həm özündən aşağı, həm də özündən yuxarı vəzifəli adamlarla məsləhətləşməlidir. Bu gün ölkəmizin çox ciddi problemləri olduğu, daxili və xarici siyasətin mürəkkəb olduğu bir zamanda hörmətli Prezidentimizin vaxt tapıb xalqla, işğal olunmuş hər bir rayonun sakinləri ilə görüşməsi, onlarla məsləhətləşməsi, son üç ildə bir neçə dəfə, özü də dövlətçiliyimiz üçün çətin anlarda xalq toplantısı keçirib, xalqın fikrini öyrənməsi bir daha göstərir ki, hörmətli Heydər Əliyevin həyatı "Kəlilə və Dimnə" kimi müdrik kitablardan, ağıllı nəsihətlərdən yoğrulub. Ona görə də bütün xalqımız, xüsusən də gənclərimiz bu ibrətamiz həyat məktəbini, Heydər Əliyev məktəbini öyrənməli, ondan çox şey götürməlidirlər.

Hörmətli Prezident! İcazə verin, rayonumuzun başına gələn, yox, onun başına gətirilən müsibətlərdən bir neçə kəlmə deyim. Hər şeydən əvvəl onu demək istəyirəm ki, Xalq cəbhəsinin bir illik iqtidarı dövründə, başqa rayonları deyə bilmərəm, bizimrayonun başına necə deyərlər, Kərbəla müsibəti açdılar. Məclisdə yerini bilməyənlər, evdə ailəsini idarə edə bilməyənlər rayonu, xalqı "idarə etməyə" başlamışdılar. Ağsaqqala, ziyalıya imkan verilmirdi ki, bir ağıllı söz desin, bir məsləhət versin. Nəticəsi də bu oldu ki, rayonda özbaşınalıq, anarxiya baş alıb getdi, müdafiə məsələləri yaddan çıxdı, rayon tam müdafiəsiz qaldı. Cəbhəçilərin toylarda başı qarışanda əlverişli yüksəkliklər əldən verildi, strateji əhəmiyyətli kəndlər işğal olundu.

Avqustun axırında rayon, demək olar ki, mühasirə vəziyyətinə düşdü. Füzuli və Cəbrayıl düşmən tərəfdən tutulduqdan sonra rayonun vəziyyəti daha da pisləşdi. Lakin rayonun o vaxtkı rəhbərləri, eyni zamanda baş nazir Surət Hüseynovun tabeliyində olan güc nazirləri rayonun müdafiəsi üçün bir tədbir görmədilər, əhalinin, min tonlarla taxılın, saysız-hesabsız mal-qaranın, milyon dollarla hesablanacaq dövlət əmlakının və şəxsi əmlakın döyüş zonasından planlı şəkildə çıxarılmasını təşkil etmədilər. Mənə elə gəlir ki, içimizdə olan xəyanətkar qüvvələr ermənilərlə sövdələşib, Qubadlını dolu şəkildə, boşaldılmadan təhvil verəcəkloərinə söz vermişdilər və sözlərinə əməl etdilər. Əgər belə olsaydı, onlar xalqın başının altına yastıq qoyub "müdafiə edəcəyik" deməklə camaatı müdafiəsiz buraxmazdılar. Hətta

iş o yerə çatmışdı ki, bizi o qədər arxayın salmışdılar ki, bir neçə gün sonra mən qızımın toy məclisini keçirməyi planlaşdırmışdım. Bütün tədarükümüzü də görüb hazırlaşmışdıq.

Lakin satqınların hərəkəti nəticəsində hər şey alt-üst oldu. Rayonun bir hissəsi, yə"ni Həkəri çayı üstündə olan kəndlər avqustun 30-da günortadan sonra qəflətən hücum nəticəsində işğal olundu. Cəbrayıl rayonu ərazisindən, Gəyan düzü adlı sahədən hücuma keçən ermənilərə heç kəs ciddi müqavimət göstərmədi, bir neçə saatın içində kəndlər viran edildi. Həmin vaxt kəndlərdə qocaların, qadınların, uşaqların fəryadını bir anlığa lentə çəksəydin, ən dəhşətli film alınardı. Lakin adını milli ordu qoyub, əslində hər batalyonu ayrı-ayrı adamlara xidmət edən silahlı dəstələr həmin vaxt rayonun ərazisini çoxdan tərk edib daha qorxusuz yerlərə çəkilmiş, guya ki, özlərinə mövqe düzəltmişdilər. İki gün rayon demək olar ki, əliyalın, müdafiəsiz qaldı.

Hörmətli görüş iştirakçıları! Mən bizim rayonun timsalında gördüm ki, bütün rayonlarımız daxili çəkişmələrin qurbanı olub. 1993-cü ilin iyununda Gəncədəki qiyam nəticəsində istədiyinə nail ola bilməyən hakimiyyət hərisləri daha nələr planlaşdırdılar, xalqın başına nələr gətirdilər — biz bunların şahidi olduq. Amma nə yaxşı ki, həmin vaxt xalq öz xilaskarını tapdı və ona söykəndi. Xalq Prezidentə, Prezident xalqa dayaq oldu, arxa oldu. Bir-birini müdafiə edib yaşadılar, çətinlikləri birlikdə dəf etdilər.

Bir vaxt Milli Məclisdə Ali Sovetin sədri vəzifəsin Heydər Əliyevin namizədliyi veriləndə o vaxtkı hakimiyyət nümayəndələri onun fikrini bilmək üçün guya telefonla zəng etdiklərini, Heydər Əliyevi tapa bilmədiklərini söyləmiş və demişdilər ki, onun ardınca maşın göndərəsi deyilik ki. Lakin vaxt gəldi ki, həmin adamlar Heydər Əliyevin dalınca Naxçıvana maşın yox, təyyarə göndərdilər, özləri isə qaçdılar. Çətinanda xalqı başsız qoyub qaçan Vəzirov, Mütəllibov, Elçibəy kimi rəhbərlər bu xalqa nə verə bilərdilər? Ancaq fəlakət, nahaq qan! Bundan başqa heç nə verə bilməzdilər. Lakin Azərbaycandan qaçmaqla onlar canlarını qurtara bilməyəcəklər. Əgər canlarını qurtarsalar belə, xalq qəzəbindən, xalq nifrətindən heç vaxt qurtarmayacaqlar.

Hörmətli görüş iştirakçıları! Mən Heydər Əliyev şəxsiyyətinin həqiqi mə"nada əvvəldən — ağlım kəsəndən pərəstişkarı olmuşam. Möhtərəm Prezident, elə bu pərəstişim də o vaxt — Siz Naxçıvan Ali Məclisinin sədri işləyəndə, respublikada Sizə qarşı kampaniya təşkil olunanda məni Naxçıvana, Sizinlə görüşə gəlməyə məcbur etdi. Həmin görüşdə dərk etdim ki, hikmət, ağıl, təmkin və ədalət — onların hamısı kamil şəkildə bir adamda toplandıqda dünyanın ən böyük xoşbəxtliyi onun başını gicəlləndirə bilməz, ən böyük bədbəxtliyi onu sarsıda bilməz. Tarixdə bu dörd keyfiyyət eyni zamanda bir adamda nadir hallarda



cəm olub və Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun başında bu keyfiyyətlərin hamısını özündə cəmləşdirən ağıllı və müdrik Prezident durur. Gecə-gündüz yorulmaq bilmədən çalışan, xalq üçün bütün canını, sağlamlığını, bütün enerjisini sərf edən belə bir Prezidentin əməyini kim itirsə, gec-tez onların gözündən gələcək. Bu qədər gərginliklə işləmək, hər bir problemlə şəxsən məşğul olmaq, şəhid ailələrinin ən kiçik qayğıları ilə yaxından maraqlanmaq, ziyalıların, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərinin yubileylərində iştirak etmək, bayram və mərasimlərdə xalqla bir sırada olmaq, hətta idmançıların Olimpiya oyunlarına yola salınmasında şəxsən iştirak etmək, saymağa hətt vaxt olmayan tədbirləri həyata keçirmək üçün insan gərək poladdan olsun ki, fiziki cəhətdən bu gərginliyə dözsün.

Məhz bu gərgin işin nəticəsində Azərbaycan parçalanmaqdan xilas oldu, qiyamların, dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Az vaxtda bir neçə dövlət çevrilişi cəhdinin qarşısını almağın özü böyük siyasət, ağıllı baş, xalq üçün yanan ürək tələb edirdi. Bütün bunlar isə Heydər Əliyev cənablarında toplanmışdır. Satqınlar, görünür, Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, onun xalqa arxalanan gücünü kifayət qədər qiymətləndirə bilməmişlər.

Hörmətli Prezident! Sizin bu yorulmaz fəaliyyətinizi hər bir namuslu Azərbaycan vətəndaşı dəstəkləməli, öz imkanı daxilində Sizə yardımçı olmalıdır. Mən hələ 1970-ci illərdən öz ailəmdə bunu tərbiyə etməyə çalışmışam. Elə bunun nəticəsində oğlum İsa Məmmədov Azərbaycan Kənd Təsərrüfatı Akademiyasını bitirib, Abşeron rayonunda işləyərkən vətəni qorumaq haqda Sizin çağırışınıza səs verərək 1993-cü ildə könüllü olaraq orduya getdi. O, bir zabit kimi neçə-neçə uğurlu əməliyyata başçılıq etmiş, mərdliklə vuruşmuş və 1994-cü ilin fevralında torpaqlarımız uğrunda döyüşlərin birində qəhrəmanlıqla həlak olmuşdur. Mən şəhid atasıyam və bununla həmişə fəxr edirəm ki, oğlum Vətən yolunda, torpaq uğrunda şəhid olub. Bu, mənə həmişə təskinlik verir. İndi oğlumun bir yadigarı — Fuad adlı 4 yaşında bir nəvəm var. Heydər Əliyev şəxsiyyətinə həmişə pərəstiş babasından, atasından sanki uşağın qanına işləyib. Möhtərəm Prezident, televizorda Siz çıxış edəndə başqa kanallarda nə qədər veriliş olsa belə, axıra qədər Sizə baxmasa qoymaz ki, başqa verilişə baxılsın. Hətta özündən bir şe"r də quraşdırıb:

Heydər baba, Qubadlını alarsan,
Heydər baba, bizi yola salarsan,
Heydər baba, bizə qonaq gələrsən,
Dədəm sənə qurban kəsər, qoç kəsər.

Hörmətli görüş iştirakçıları! Mən çıxışımı "Kəlilə və Dimnə"dən oxuduğum daha bir müdrik kəlamla bitirmək istəyirəm: "İnsanların ən ağıllısı odur ki, müharibənin qarşısını ala bilsin". Hörmətli Prezidentimiz müharibənin, qan tökülməsinin qarşısını alıb, uzun

müddətdir ki, atəşkəs davam edir, inşallah,sülh haqqında sazişə nail olacaq, işğal olunmuş torpaqlarımızı da geri qaytaracaq. Biz buna inanırıq ki, o gün uzaqda deyil, Allahın köməyi ilə qaçqınlarımız öz dədə-baba yurdlarına qayıdacaqlar. Onda xalq Sizin abidənizi ucaltmaq üçün heç kəsdən icazə istəməyəcək və öz iradəsi ilə bunu edəcəkdir. Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev:** Sağ olun. Mən belə fikirləşdim ki, bizim silahlı qüvvələrlə məşğul olan şəxslərdən də bir neçə kəlmə eşitsək, pis olmaz. Məsələn, keçən dəfə mən Ağdam nümayəndələri ilə görüşəndə Baş Qərargahın keçmiş rəisi, indi Prezidentin müşaviri olan Nurəddin Sadıqov haqqında söz deyildi. Fikir oldu ki, müəyyən məsələlərə aydınlıq verilsin. Bu gün də onun adı burada kim tərəfindənsə çəkildi. Hesab edirəm ki, Nurəddin Sadıqov bu məsələlərin daha da işıqlandırılması üçün danışmalıdır. Ondan sonra müdafiə naziri Səfər Əbiyev hazırlaşsın.

## Dövlət müşaviri
## NURƏDDİN SADIQOVUN
## çıxışı

Möhtərəm cənab Prezident, hörmətli görüş iştirakçıları! Bu gün bu görüşdə mən də öz fikirlərimi demək istəyirəm. Əvvəlcə Prezidentimizə minnətdarlığımı bildirirəm ki, bizim fikirlərimizi demək üçün imkan yaradır.

Demək istəyirəm ki, 1992—1993-cü illərdə mən də bu hadisələrin içində olmuşam, müəyyən işləri dəqiq bilirəm. Mənə elə gəlir ki, məsələ burasında deyil ki, hansı kənd, hansı şəhər və ya hansı rayon nə zaman işğal olunub. Ümumiyyətlə torpaqlarımızın 20 faizi işğal edilib və o torpaqları qaytarmaq lazımdır. Əsas məsələ bundan ibarətdir.

Amma bu torpaqların işğal olunmasının səbəbləri var. Bu səbəblər aşkar olunmalıdır, aydınlaşdırılmalıdır. Bütün Azərbaycan xalqı bunları bilməlidir. Bu səbəbləri törədən günahkarlar aşkar olunmalıdır.

Mənə elə gəlir ki, birinci səbəb ondan ibarətdir ki, keçmiş iqtidar hakimiyyətə gələn gündən bütün qurumu dəyişməyə başladı. Bütün təşkilatlarla birlikdə Müdafiə Nazirliyində də dəyişikliklər oldu. Rəhim Qazıyev gəldi oldu müdafiə naziri. Müdafiə məsələlərindən heç nə bilməyən, oxumayan, anlamayan insan müdafiə naziri oldu. Dərhal Müdafiə Nazirliyində də dəyişikliklər etməyə başladı. Müdafiə Nazirliyinə əsasən Xalq Cəbhəsinin nümayəndələrini yığmağa başladı. Fikir verin, Müdafiə Nazirliyində əsas vəzifələri kim gəlib tutdu və ordunu guya idarə etməyə başladı. Əlikram Hümbətov oldu



döyüş idarəsinin rəisi. Döyüş aparmaq üçün ordunu hazırlamaq lazımdır. Bu adam — keçmiş avtomobil çilingəri — oldu döyüş idarəsinin rəisi. Deyirlər, rəhmətə gedənlərin dalınca danışmırlar, amma mən Baba Nəzərli haqqında iki söz demək istəyirəm. O gəldi silah məsələlərinə rəhbərlik etdi. Hətta silah-sursat haqqında heç bir yerdə oxumamışdı, heç bir şey bilmirdi.

**Heydər Əliyev:** Baba Nəzərli də deyəsən nəqliyyat işçisi idi.

**Nurəddin Sadıqov:** Bəli, tramvay parkının rəisi idi. Leyla Yunusova mətbuat xidmətinin rəisi oldu. Fərman Məmmədov kadrlar idarəsinin rəisi və sairə. Başlıca vəzifələri hərbi təhsili olmayan şəxslərə verdilər və bu şəxslər də başladılar ordunu "idarə etməyə". Bunun nəticəsində orduda müxtəlif qruplar baş qaldırdılar. O zaman müəyyən belə qruplar var idi, Sizin xatirinizdədir — Alikin qrupu, "Qatır Məmməd"in batalyonu, "Yapon"un qrupu, "Qaranquş" qrupu, "Boz qurd" qrupu, Xalq Cəbhəsinin batalyonu — bunlar da cəbhədə baş qaldırdılar. Ordu o zaman elə vəziyyətdə idi ki, Gədəbəydən başlamış Zəngilana qədər daxili qoşunların, ordunun vzvodları, bölükləri, taborları müəyyən yerlərdə yerləşmişdi: bir sahədə ordunun bölükləri, yenə ordunun yanında daxili qoşunlardan bir balaca vzvod, ya bir bölük, o biri yerdə yenə ordunun taboru, orada yenə daxili qoşunların bir balaca vzvodu var idi.

Bax, bu binada Müdafiə Şurasının iclası zamanı mən keçmiş prezident Əbülfəz Əliyevə belə bir təklif verdim ki, daxili qoşunların bu balaca vzvodları, rotaları, taborları yığılsın, bir mövqeni, bir rayonu, bir sahəni ona verək və o da cavabdeh olsun. Ona görə ki, döyüş gedirdi, döyüş zamanı əgər qələbə çalınırdısa, iş yaxşı gedirdisə, bu qələbəni ordu özünə yazırdı, daxili qoşunlar özünə yazırdı. Əgər uduzurduqsa, iş pis gedirdisə, bir yer işğal olunurdusa, daxili qoşunlar ordunu, ordu isə daxili qoşunları günahlandırırdı. Hətta elə olurdu ki, bir-biri ilə vuruşurdu. Ona görə belə təklif verildi. Amma bilsəniz ki, bu təklifi verəndən sonra İsgəndər Həmidov burada nə törətdi. İsgəndər Həmidov o zaman daxili işlər naziri idi, oturmuşdu Müdafiə Şurasında. O başladı Prezidentin üstünə bağırmağa ki, "bu Baş Qərargahın rəisi nə istəyir bizdən, belə olmaz, mənim hissələrim — bölüklərim, taborlarım, rotalarım harada yerləşib, orada da qalmalıdır. Bu nə məsələdir ki, mənə ayrı sahə vermək istəyirsiniz".

Beləliklə, şurada hay-küy düşdü, İsgəndər Həmidov şuranı tərk etdi. Mənim təklifimlə razı olmadı və çıxıb getdi.

**Heydər Əliyev:** Sən bir dəfə demişdin ki, kimsə külqabını kiminsə başına vurdu. O yadından çıxıb?

**Nurəddin Sadıqov:** Yox, yadımdan çıxmayıb, elə bir şey oldu.

**Heydər Əliyev:** Bir halda deyirsən, hər şeyi de.

Nurəddin Sadıqov: Cənab Prezident, bunun üçün çox vaxt tələb olunur.

Heydər Əliyev: Yox, bu, məzəli əhvalatdır.

Nurəddin Sadıqov: Yaxşı deyim. Müdafiə Şurasında İsgəndər Həmidovla Rəhim Qazıyev mübahisə etdilər. Biri oturmuşdu stolun o tərəfində, biri də bu tərəfində. İsgəndər Həmidovun yanında oturmuşdu prezidentin hərbi işlər üzrə müşaviri Yaşar Dəmirkol - Türkiyə generalı. Rəhim Qazıyev götürdü külqabını İsgəndərin üstünə atdı, İsgəndər də qolunu belə elədi, külqabı dəydi qoluna, sonra dəydi Yaşar Dəmirkolun başına. *(Gülüş).* O da qarışdı bu işə. Şura belə idarə olunurdu. Bu da prezidentin yanında olurdu. Ona görə təsəvvür edə bilərsiniz ki, bu şəxslər necə idarə edirdilər.

Beləliklə, faktiki olaraq hər nazir — müdafiə naziri, bir də daxili işlər naziri öz mənafeyini güdürdülər, özləri üçün işləyirdilər, ölkənin mənafeyi ilə maraqlanmırdılar. Belə halda ordu bir gün yaranırdı, o biri gün dağılırdı, bir gün döyüşürdü, bir gün döyüşmürdü. O, zaman biz belə hallar keçirirdik.

İkinci səbəb. 1992-ci ilin axırları — 1993-cü ilin əvvəllində ölkədə Surət Hüseynov məsələsi qalxdı. Bu zaman ordu — indiki müdafiə naziri Səfər Əbiyev təsdiq edə bilər, general Bərşadlı təsdiq eliyə bilər, — ordu faktiki olaraq Surət Hüseynovun ixtiyarına verilmişdi. Surət Hüseynovu o qədər qaldırdılar ki, onda prezident olmaq fikri əmələ gəldi. Bircə o qalmışdı ki, Surət Hüseynov olsun Milli Qəhrəman.

Heydər Əliyev: Olmuşdu də, necə yə"ni az qalmışdı?

Nurəddin Sadıqov: Mən demək istəyirəm ki, onu da Rəhim Qazıyev gətirdi Əbülfəz Əliyevin yanına, dedi ki, sən bu fərmana qol çəkməlisən, Surət olmalıdır Milli Qəhrəman. Əbülfəz Əliyev qol çəkmək istəmirdi. Bu məsələ oldu 1992-ci il oktyabrın 9-da paraddan qabaq. Rəhim dedi ki, əgər sən buna qol çəkməsən, mən paradı pozacam, silah gücü ilə hakimiyyəti ələ alacam. Əbülfəz Əliyev imzaladı, Surət oldu Milli Qəhrəman. Surət Hüseynov məsələsi qalxdı və o, hakimiyyətə tabe olmağa e"tiraz etdi. Dedi ki, mən hakimiyyətə tabe olmuram. Belə vəziyyətdə hakimiyyət yenə düz hərəkət eləmədi. Burada bu binada böyük iclas yığdılar. İclasda güc nazirliklərinin rəhbərləri, bir də ordu rəhbərləri — müdafiə naziri, onun müavinləri, idarə rəisləri iştirak edirdilər. Salon dolu idi. Orada Əbülfəz Elçibəy məsələni belə qoydu: İndi gəlin Surət Hüseynov haqqında münasibətimizi bildirək — o, yaxşı oğlandır, ya yox. Tribunaya çıxan başladı ki, Surət Hüseynov bizim qəhrəmanımızdır., Milli Məclisin üzvüdür, Surət Hüseynov Qarabağı saxlayır, nə bilim qələbə çalacaq və sairə. Çıxış edənlərin içində eləsi olmadı ki, durub Surət Hüseynovun əksinə bir söz desin.



Mən durdum dedim ki, ordunu Surət Hüseynovun əlindən almaq lazımdır. Çünki Surət Hüseynov hərbçi deyil, orduya çağırılmayıb. Prezident tərəfindən korpusun rəhbəri vəzifəsinə tə"yin olunub, Prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi olub, indi də ordu onun əlindədir. Əgər belə olsa, biz Qarabağı qaytara bilməyəcəyik.

Müdafiə Nazirliyində, o şurada dediyim sözləri burada da təkrar elədim. Amma heç bir nəticəsi olmadı, məni müdafiə etmədilər. Surət Hüseynov vəzifədə necə oturmuşdu, elə də qaldı.

Bu iclasın nəticəsində iqtidar öz nüfuzunu çox itirdi. Ondan sonra Surət Hüseynovu güclə təslim etməyə çalışdılar. Kim plan tutmuşdu, hansı nazirliyə necə sərəncam verilmişdi, onu bilmirəm. Amma Müdafiə Nazirliyi əmr almışdı ki, bir hərbi qrup yaradılsın və Surət Hüseynovun 709 nömrəli briqadası təslim edilsin. Əgər bu, Seyfəlidə mümkün olmasa, hərbi şəhərcik tutulsun və Surət Hüseynov iqtidara təslim olunsun.

Bildiyiniz kimi, bu da baş tutmadı. Bakıda bu məsələ üzrə yaranan qərargah daxili işlər nazirinin kabinetində yerləşirdi və işin öhdəsindən gələ bilmədi, o planı yerinə yetirə bilmədi. Əvvəl-axır Surət Hüseynov Bakıya gəlib çıxdı.

Heydər Əliyev: O qərargah nə idi, onu bir xırdala görək.

Nurəddin Sadıqov: Mən onu dəqiq deyə bilmərəm, cənab prezident, o necə təşkil olunmuşdu. Bilirəm ki, bu qərargah daxili işlər nazirinin kabinetində idi. O qərargahda daim olurdular, orada otururdular İsa Qəmbərov, Pənah Hüseynov, o zamankı daxili işlər naziri Allahverdiyev, Təhməzov, bir neçə də ayrı şəxs. Nədən bilirəm? Ona görə ki, Gəncə hadisələri olan günlərdə mən müdafiə naziri Dadaş Rzayevlə bir yerdə Tovuzda idik. Biz Tovuzda o qərargahdan əmrlər alırdıq. Gah İsa Qəmbər, gah Pənah Hüseynov, gah daxili işlər naziri, gah o, gah bu zəng eləyirdi, oradan əmrlər verirdilər: belə eləyin, elə eləyin, Gəncəni bombardman eləyin, Qarabağı alın... Amma qərargah kimin qərarı ilə yaradılmışdı, orada bu məsələni kim planlaşdırmışdı — onu mən bilmirəm.

İş o yerə gəldi çatdı ki, Surət Hüseynova qarşı bu məsələni qurmaq üçün cəbhədən bir neçə top, müəyyən bölüklər, müəyyən qruplar çıxarıldı. Bu tərəfdən də Surət Hüseynov bunu bilib, anlayıb, ya eşidib öz könüllü batalyonlarını cəbhədən çıxardı. Bax, bu müddətdə, bu zaman Azərbaycan üçün, Azərbaycanın Dağlıq Qarabağ cəbhəsi üçün çox təhlükəli vəziyyət yarandı. Ona görə ki, bu zaman ermənilər hücuma keçsəydilər bütün Azərbaycanı ala bilərdilər. Cəbhədə qaışıqlıq oldu, hərə özünə tabe olan hissələri bir yerə çəkirdi, dartırdı, aparırdı.

Bunu yaxşı izah etmək üçün bir müqayisə aparmaq istəyirəm.

Cəbhənin o durumunu bir bina ilə müqayisə etmək olar. Hesab edin ki, bina durub altından daşları çıxarırlar. Cəbhədən hissələr belə çıxarıldı. Bir neçə daş çıxandan sonra o divar başlayır uçmağa. Cəbhədə də başladı dağılmağa. Belə ki, bizim rayonlar bir-birinin ardınca işğal olundu.

Burada professor Məmmədov düz dedi ki, torpaqlarımızın düşmənə verilməsi məsələsi hələ 1988-ci ildə həll olunmuşdu. Amma Gəncə hadisələri, indi mənim söylədiyim hadisələr bu prosesi sür"ətləndirdi. Bundan sonra az müddət ərzində Elçibəy Bakını tərk etdi, Heydər Əliyev Prezident səlahiyyətlərini yerinə yetirməyə gəldi. O zaman bu proses sür"ətlə getdi, yə'ni bünövrədən daşların çıxarılması elə bir vəziyyət törətdi ki, bunun qabağını qısa müddətdə almaq olmadı.

Amma 1993-cü ilin axırına yaxın bunun qarşısı alındı. Bizim Prezidentin təcrübəsi ilə hətta Füzulidən cənub zonaya qədər, yə"ni Araza qədər bir-neçə yerə irədi gedə bildik.

Bəli, Elçibəy Əbülfəz Bakını tərk edəndən sonra cəbhənin dağılmasında və rayonlarımızın işğal olunmasında bə"zi vəzifəli şəxslər və onların qeyri-qanuni yaradılmış qrupları fəal iştirak etdilər, rayonları düşmənə verdilər. İndi də qəzetlərdə çalışırlar ki, bu faktları ayrı adamların üstünə qoysunlar.

Üçüncü səbəb hakimiyyətdə olan şəxslərin təcrübəsizliyi, bacarıqsızlığı və məs"uliyyətsizliyi olmuşdur. Bax, fikrinizə salın. Əbülfəz Elçibəy oldu prezident, Pənah Hüseynov dövlət katibi, sonra baş nazir, Rəhim Qazıyev müdafiə naziri, İsgəndər Həmidov daxili işlər naziri, Əlikram Hümbətov, Fəhmin Hacıyev, Surət Hüseynov — bu siyahını davam etdirmək olar. Bu qrup, bu şəxslər ölkəni, cəbhəni, müharibəni idarə edə bilərdilərmi? Əlbəttə ki, yox.

Cənab Prezident, hesab edirəm ki, səbəblər çoxdur. Bir çıxışda, vaxt olmayan zaman bunların hamısını söyləmək mümkün deyil. Ona görə də, möhtərəm Prezident, mən təklif edirəm ki, bu məsələlər haqqında aparılan istintaqla yanaşı, yə"ni bir yerdə dövlət qəzetlərində "torpaqlarımızın işğal olunmasının səbəbləri və həqiqət" adlı bir rubrika açılsın. Hesab edirəm ki, belə rubrikanın olması şərait yaradacaq ki, o zaman işin içində olan adamlar öz fikrini bildirsinlər və həqiqəti ortaya çıxarsınlar. Bu zaman günahkarlar da aşkar oluna bilər, həmin rubrikanın istintaqa da köməyi ola bilər. Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev:** Amma o əmr haqqında keçən dəfə sual vermişdilər, onu demədin.

**Nurəddin Sadıqov:** İcazə verin deyim.

**Heydər Əliyev:** Bəs mən icazə vermişəm də.

**Nurəddin Sadıqov:** Bu əmr məsələsi belə olmuşdur. Mən Sizə dedim ki, Müdafiə Nazirliyi əmr almışdı ki, cəbhə zonasından



müəyyən qrup çıxarılsın, müəyyən batalyonlar, toplar yığılsın Seyfəli poliqonunun ətrafına, orada olan 709 nömrəli briqadanı təslim etsin.

**Heydər Əliyev:** Seyfəli, yə"ni Gəncəni deyirsiniz də?

**Nurəddin Sadıqov:** Bəli, o zaman 709 nömrəli briqada Gəncənin yanında, Seyfəli poliqonunda yerləşmişdi. Belə bir qərar qəbul olunmuşdu Əbülfəz Əliyev tərəfindən, belə bir əmr verilmişdi müdafiə naziri tərəfindən. Mən Baş Qərargahın rəisi kimi bu əmri teleqram vasitəsilə çatdırmışdım və Ağdamdan 8 "qrad" qurğusu və 6 D-30 topu çıxarılmışdı. Bunlar Gəncə tərəfə gedən zaman bir neçəsi Surətin əsgərləri tərəfindən tutulmuşdu. Onlar da bu işdə iştirak edə bilmədilər.

Sual ola bilər ki, mən bu məsələni görə-görə, yəni bilə-bilə niyə e"tiraz etmədim, niyə bu əmri göndərdim orduya, niyə bu texnikanı oradan çıxardım? Məsələ belə idi: Əgər bu əmri yerinə yetirməsəm bu gün, 2 saatdan sonra, ya sabah Baş Qərargah rəisi deyildim. Bu, hələ yaxşıdır. Ola bilərdi ki, əmri yerinə yetirmədiyimə görə məni tribunala versinlər.

Elə də oldu. Mən bu texnikanı oradan çıxartdım. Gəncə məsələsi başlandı. Gəncədəki şəhərcikdə qırğın düşdü. Buradan, qərargahdan əmr gəldi ki, təyyarələri, vertolyotları qaldırın, Gəncəni bombradman eləyin. Buna e"tiraz elədim. Çağırdılar bura, Prezidentin yanına. Prezidentin kabinetində oldu Əbülfəz Elçibəy, İsa Qəmbər, Dadaş Rzayev, bir də mən. Mən dedim ki, bu mülki müharibə deməkdir, şəhəri bombardman etmək olmaz, mən buna e"tiraz eləyirəm, iste"fa verirəm.

Elçibəy bir söz demədi. İsa Qəmbər dedi ki, Baş Qərargahın rəisi ayrı adam olacaq. Həmin axşam mənim fərmanım verildi, işdən çıxdım. Onun sabahı günü, ya birisigün başladılar məni hərbi prokurorluğa çağırmağa: "Sən niyə belə elədin, niyə bunu yerinə yetirmədin, niyə belə oldu, niyə elə oldu?" Ondan sonra da yaxşı oldu ki, iyunun 17-də Elçibəy Bakını tərk etdi. İyunun 15-də Heydər Əliyev Milli Məclisin sədri seçildi, sonra Prezidentin səlahiyyətlərini yerinə yetirdi, bu da məni həbsdən xilas etdi. Bax, belə olmuşdur.

**Heydər Əliyev:** Yaxşı, əyləşin. Sadıqov danışdı, bilmirəm Səfər Əbiyevin çıxış etməsinə ehtiyac varmı?

**Yerdən səslər:** Ehtiyac yoxdur.

**Heydər Əliyev:** Yaxşı onda güman edirəm ki, bugünkü söhbətlərimizi yekunlaşdırmaq olar.

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN yekun nitqi

Hörmətli füzulilər, cəbrayıllılar, qubadlılar, bacılar, qardaşlar, dostlar!

Bu gün gündüz saat 2-dən biz sizinlə bir yerdəyik. Hesab edirəm ki, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının bütün sakinləri ilə biz hamımız bir yerdəyik və son illərdə bu rayonların, yə'ni sizin rayonların həyatında, Azərbaycan Respublikasının həyatında baş vermiş hadisələr, gedən ictimai-siyasi proseslər, törənmiş faciələr haqqında fikir mübadiləsi aparırıq, fikirlər, mülahizələr söyləyirik.

Mən bütün danışıqları, sizin hamınızı çox diqqətlə dinlədim. Bütün natiqlərin çıxışları eyni xarakterdədir, eyni məzmundadır, yə'ni bunlar hamısı 1988-ci ildən bəri Azərbaycanın həyatında gedən proseslərə müəyyən aydınlıq verir, həmin ildən Azərbaycana qarşı Ermənistan tərəfindən ərazi iddiası ilə başlanmış, sonra hərbi təcavüzə çevrilmiş məsələlərə aydınlıq gətirir. Sizin sözləriniz bu hərbi təcavüz, Ermənistanın Azərbaycana qarşı düşmən münasibəti nəticəsində respublikamızın başına gələn bəlalar haqqında aydınlıq yaradır. Bütün bunlar həqiqətdir. İndiyə qədər də mə'lumdur. Amma bu gün sizin verdiyiniz mə'lumatlardan bir çox məsələlər bir daha dəqiqləşir. Mə'lum olur ki, Ermənistan 1988-ci ildə Azərbaycana qarşı hərbi təcavüz niyyəti ilə cürbəcür hərəkətlərə başlayandan Azərbaycanda onun qarşısına çıxan siyasət də olmamışdır, lazımi tədbirlər də olmamışdır. Böyük səhvlər, kobud səhvlər buraxılmışdır. Bununla yanaşı Azərbaycanda belə vəziyyətdən istifadə edən cürbəcür qruplar, dəstələr, adamlar öz şəxsi mənafelərini tə'min etmək üçün bu hərbi təcavüzün güclənməsinə şərait yaratmışlar və demək olar ki, onun Azərbaycan üçün belə dəhşətli nəticələrə gətirib çıxarmasına kömək etmişlər.

Respublikamız 1988-ci ildən indiyə qədər böyük itkilər veribdir.



Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bizim vətəndaşlarımız — bu torpaqlarda yaşayanlar, oranın sakinləri zorla öz yerlərindən-yurdlarından çıxarılıblar. Bütün bu illərdə böyük insan tələfatı olubdur. Azərbaycan xalqı minlərlə şəhid veribdir. İnsanlar həlak olublar. İşğal olunmuş torpaqlarda Azərbaycanın varidatı dağılıbdır. İnsanların evləri, malları, əmlakı — hər bir şeyi əldən gedibdir, dağılıbdır. Azərbaycana böyük zərbələr — həm böyük mə'nəvi zərbə, həm də maddi ziyan dəyibdir. Şübhəsiz ən dəhşətlisi odur ki, insanlar tələf olubdur. Döyüşlərdə şəhidlər vermişik. Qocalar, qadınlar, körpələr həlak olublar, vəhşicəsinə öldürülüblər, bir çoxuna işgəncələr verilibdir. İnsanlar böyük mə'nəvi zərbələr alıblar, böyük dəhşətlərlə rastlaşıblar. Bu zərbələr təkcə bizim xalqımıza qarşı olan təcavüz nəticəsində verilmiş itkilərlə tamamlanmır, həm də insanların mə'nəviyyatında, psixologiyasında baş vermiş bir çox dəyişikliklərlə nəticələnmişdir. Bunlar hamısı xalqımıza dəyən zərbələrdir, millətimizə dəyən zərbələrdir, ölkəmizə dəyən zərbələrdir.

Bu gün biz bu məsələləri müzakirə edərkən birinci növbədə şəhidləri yad etməliyik, Azərbaycanın ərazi bütövlüyünü qoruyarkən, Azərbaycanın torpaqlarını müdafiə edərək həlak olanları yad etməliyik. Buna görə mən rica edirəm ki, Azərbaycanın ərazi bütövlüyü yolunda həlak olmuş şəhidlərin, o cümlədən Füzuli, Cəbrayıl, Qubadlı rayonlarını müdafiə edərkən həlak olmuş şəhidlərin ruhunu birdəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərə rəhmət eləsin!

Bilirsiniz, keçmiş illəri, o illərdə baş vermiş hadisələri hər dəfə təkrarən yada salarkən, — bu gün də biz bunları çox ətraflı yada saldıq, — insan dəhşətə gəlir. Nə üçün bizim respublikamız belə günə düşməli idi? Nə üçün biz belə ağır vəziyyətdə olmalıyıq? Nə üçün xalqımız belə faciələrlə üzləşməli idi? Şübhəsiz ki, bunun bir tərəfi bizdən asılı deyil. Ermənistanda olan ekstremist, terrorçu, separatçı, təcavüzkar qüvvələr çoxdankı niyyətlərini həyata keçirmək üçün 1988-ci ildə böyük fürsət əldə etdilər, bu fürsətdən məharətlə istifadə etdilər. Onlar əvvəl münaqişəyə başladılar, sonra isə bunu hərbi təcavüzə çevirdilər. Amma məsələnin ikinci tərəfi ondan ibarətdir ki, nə üçün Azərbaycan Respublikası, Azərbaycan dövləti, Azərbaycan hökuməti və Azərbaycan xalqı öz torpağını qoruya bilmədi. Öz hüquqlarını qoruya bilmədi, öz respublikasını qoruya bilmədi? Əgər bu faciənin birinci tərəfi bizdən asılı deyildisə, ikinci tərəfi tamamilə bizdən asılı idi.

Mən hesab etmirəm ki, bizim xalqımız aciz xalqdır. Mən hesab etmirəm ki, bizim xalqımız bütün xüsusiyyətlərinə görə ermənilərdən, erməni xalqından gücsüz xalqdır. Mən belə hesab etmirəm. Güman

edirəm ki, siz də belə hesab etmirsiniz. Bizim xalqımızın böyük tarixi, qəhrəmanlıq səhifələri ilə dolu olan tarixi mə'lumdur. Bizə də mə'lumdur, dünyaya da mə'lumdur. Əsrlər boyu dəfələrlə xalqımız yadelli qəsbkarlarla üzləşib, qarşılaşıb və dəfələrlə döyüşə qalxıb, torpaqlarımızı müdafiə edib, öz milli mənliyini qoruyub saxlaya bilibdir. Keçmiş nəsillər bizi bu günlərə gətirib çıxarıblar. Əgər belə olmasaydı, indi nə Azərbaycan var idi, nə Azərbaycan xalqı var idi, nə də Azərbaycan milləti var idi.

Bu iyirminci əsrdə də bizim xalqımız bir neçə dəfə cürbəcür təcavüzkar xarakterli hərəkətlərlə rastlaşmışdır, ancaq onların da qarşısı alınmışdır. Doğrudur, əgər iyirminci əsri təhlil etsək, ayrı-ayrı mərhələlərdə bizim müəyyən itkilərimiz olmuşdur, o cümlədən torpaqlarımızın da müəyyən hissəsi itirilmişdir. Ancaq hesab edirəm ki, iyirminci əsrdə biz heç vaxt belə dəhşətli, faciəli bir vəziyyətə düşməmişdik. Bunun da əsas səbəbi bizim millətimizdə, xalqımızda deyil, adi insanlarda deyil. Bu gün artıq mə'lumdur və sizin dediklərinizdən bir daha aydın oldu, çıxışlarınız bu həqiqəti bir daha təsdiq etdi ki, Ermənistanın o iddiaları, təcavüzü başlayandan Azərbaycanın rəhbərliyində olanlar, Azərbaycanı idarə edənlər xalqımızın imkanlarından, respublikanın imkanlarından istifadə edə bilməmişlər və yaxud etmək istəməmişlər və bunların da hamısı bu cür uğursuzluqlara gətirib çıxarıbdır.

Əgər tək belə olsaydı, yə'ni bunların hamısı sadəcə bacarıqsızlıqdan meydana gəlsəydi, dərd yarı idi. Təəssüf ki, belə də deyil. Bir tərəfdən bacarıqsızlıq, millətə, xalqa qayğısızlıq, ikinci tərəfdən isə bütün bu şəraitdən ayrı-ayrı qrupların öz mənafeləri üçün istifadə etmək cəhdləri və bunların nəticəsində Azərbaycanın daxilində gedən çəkişmələr, toqquşmalar, hakimiyyət mübarizəsi Azərbaycanı belə ağır, dəhşətli vəziyyətə gətirib çıxarıbdır. Bu fikirlər bu gün burada çıxış edənlərin hamısının sözlərində öz əksini tapdı. Bu fikirlər Baş Qərargah rəisi işləmiş Nurəddin Sadıqovun çıxışında da öz əksini tapdı. Nurəddin Sadıqovun dediyi faktların bə'zilərini mən eşitmişdim, bə'zilərini bu gün birinci dəfə eşidirəm. Nə qədər dəhşətli faktlardır! Ermənilərlə müharibə aparmaq əvəzinə burada ayrı-ayrı qruplar bir-biri ilə müharibə aparıblar. Nə üçün? Nədən ötrü? Vəzifə davası, hakimiyyət davası, şəxsi mənafelər davası! Bax, əsas səbəb bundan ibarət idi. Ən əsas səbəb budur. Çox təəssüflər olsun! Bilirsiniz, tək təəssüf etməklə qurtarmaq olmaz. Bundan böyük nəticələr çıxarmaq lazımdır. Amma ola bilərdi ki, Azərbaycanın vəziyyəti, -- siz bu gün bunu qeyd etdiniz, mən də demək istəyirəm, -- bundan da pis olsun.

1993-cü ilin əvvəlində Azərbaycanda yaranmış dövlət böhranı, siyasi böhran ölkəmizi vətəndaş müharibəsinə gətirib çıxardı. Əgər bu vətəndaş müharibəsinin qarşısı alınmasaydı, əgər o dəstələr,



qruplar -- Azərbaycanı bu günə salan, bu cür faciələrə gətirib çıxaran dəstələr, qruplar, şəxslər aşkar olunmasaydı, zərərsizləşdirilməsəydi, sıradan çıxarılmasaydı, təsəvvür edin, Azərbaycanı nə qədər böyük faciələr gözləyirdi!

Nurəddin Sadıqov dedi, ermənilərin hücumunu dəf etmək əvəzinə cəbhə bölgələrindən topları, "Qrad" qurğularını, başqa ağır texnikanı çıxarıb Gəncədə hakimiyyət əleyhinə qalxmış qüvvələrin qiyamını yatırmağa çalışırdılar. Bəs nə üçün bu qüvvələr hakimiyyətin əleyhinə çıxaydı? Bu, belə də olmalıydı, çünki əgər o cür quldurlar, o cür yaramaz adamlar gəlib ali komandan vəzifəsinə çatmışdılarsa, Surət Hüseynov kimi adam Dağlıq Qarabağın baş komandanı vəzifəsinə tə'yin edilmişdisə, Rəhim Qazıyev kimi yaramaz bir şəxs müdafiə naziri, İsgəndər Həmidov kimi yaramaz bir şəxs Azərbaycanın başqa bir silahlı qüvvələrinin başçısı olmuşdusa və Azərbaycanın başında belə adamlar oturmuşdularsa, bu, başqa cür ola bilməzdi.

Siz görürsünüz, bunların hərəsinin öz iddiası var idi. Məsələ tək onda deyildi ki, Surət Hüseynov gəlib respublikada prezident olmaq istəyirdi. Rəhim Qazıyev də olmaq istəyirdi, İsgəndər Həmidov da olmaq istəyirdi, İsa Qəmbərov da olmaq istəyirdi -- hamısı olmaq istəyirdi. Bəla bundan ibarət idi. Əgər əmin-amanlıq dövrü olsaydı, yə'ni müharibə olmasaydı, Azərbaycana qarşı heç bir təcavüz olmasaydı içəridən bunlar nə edirdilərsə, bu, ola bilsin, belə zərərli olmazdı. Ancaq Azərbaycan artıq bir neçə il ərzində Ermənistan tərəfindən təcavüz altında olduğu halda, Ermənistan torpaqlarımızı işğal etdiyi halda, insanlar gedib Azərbaycanın torpaqlarını qorumaq üçün canlarını qurban verdiyi bir zaman bunlar burada bir-biri ilə hakimiyyət davası apardılar.

Amma baxın, o hakimiyyət davası aparanların biri də gedib həlak olmamışdır, biri də cəbhədə döyüşməmişdir, biri də şəhid olmamışdır. Baxın, o şəhidlərin içərisində kimlər var? Varmı belə adamlardan biri? Yoxdur! Şəhidlər Vətənini sevən əsl Azərbaycan gəncləri olublar. Həlak olanlar sədaqətli Azərbaycan vətəndaşları olublar. Erməni qəsbkarları gəlib onları öz yerlərində, yurdlarında öldürüblər, qırıblar. Amma bu hakimiyyət davası aparanların heç birisinin nə mülkü dağılıbdır, nə də özləri şəhid olublar. Görürsünüz, bunlar nə qədər dəhşətli insanlar imiş! Əgər vəziyyət belə davam etsəydi, görün Azərbaycanın başına nələr gələcəkdi! Bu, mülahizə deyil, bu, 1993-cü ilin may—iyun aylarında Azərbaycanda yaranmış vəziyyət idi. Onu siz yaxşı bilirsiniz, çünki hamınız o günləri yaşamısınız. Bunlar 1993-cü ilin iyun ayından sonra Azərbaycanda gedən proseslərdir.

Bəli, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsinin qarşısı alındı. Mən Azərbaycana gəldim, vətəndaş müharibəsinin qarşısını aldım. Bunu siz hamınız e'tiraf edirsiniz. Ancaq bununla iş qurtarmadı.

Yenə də vətəndaş müharibəsi salmaq istəyən adamlar öz fəaliyyətini davam etdirdilər. Xatırlayın, biz nə qədər tədbirlər gördük ki, Əlikram Hümbətov kimi bir qulduru zərərsizləşdirək və cənub zonasında toplanmış silahları, sursatları onun əlindən alaq. Nə üçün Azərbaycan həmin iyun, iyul, avqust aylarında belə ağır itkilər verdi, bu rayonlar da işğal olundu? Burada tamamilə doğru deyildi ki, onların işğal olunması artıq əvvəlki illərdə və aylarda gedən proseslərin məntiqi nəticəsi idi. Amma xatirinizdədirsə, həmin iyun, iyul, avqust aylarında Əlikram Hümbətov Azərbaycanın bir hissəsini zəbt edib oturmuşdu Lənkəranda və "respublika" e'lan etmişdi, Azərbaycanın bir çox adamları da gedib ona baş əyirdilər və onunla bir yerdə hərəkət edirdilər, o cümlədən də Rəhim Qazıyev.

Ondan sonrakı dövrü götürün. Bəli, biz ordunu qura bildik. Burada doğru deyildi, oktyabr ayında mənim çağırışımdan sonra, mən ümumi səfərbərlik e'lan edəndən sonra ordu qurulmağa başlandı. Ondan sonra bizim ordumuz hücumlara keçdi. Bir çox istiqamətlərdə, demək olar ki, bütün cəbhə boyu biz hücuma keçdik və erməni qəsbkarlarını bütün cəbhə boyu geri oturtduq. O cümlədən Füzuli rayonunun işğal edilmiş ərazisinin bir hissəsi azad olundu. İndi burada 45-50 min əhali yaşayır.

Ancaq bizim içimizdə olan qüvvələr o dövrdə də Azərbaycanda vətəndaş müharibəsi salmaq və Azərbaycanı dağıtmaq cəhdlərindən yenə əl çəkmədilər. Məhz bunların nəticəsi idi ki, 1994-cü ilin oktyabr ayında Gəncədə başını qaldırmış Surət Hüseynov və onun dəstəsi, onunla bərabər olan XTPD, başqa dəstələr -- hamısı birləşib burada dövləti devirmək istədilər. Ancaq o vaxt biz nə təyyarə qaldırdıq ki, kimisə bombalasınlar, nə cəbhədən top çıxarıb gətirdik bura, nə "Qrad" gətirdik, nə də başqa şey gətirdik. Sadəcə olaraq xalqa müraciət etdik. Xalq ayağa qalxdı.

Əgər bu Xalq Cəbhəsi doğrudan da Xalq Cəbhəsi idisə, nə üçün həmin 1993-cü ildə Surət Hüseynov, başqaları baş qaldırarkən xalqa müraciət edib, xalqın gücü ilə Surət Hüseynovu yerində oturda bilmədi? Nə üçün təyyarələr göndərdilər ki, Gəncəni bombardman eləsinlər? Nə üçün tankları, topları, "Qrad" qurğularını Ağdamdan, başqa cəbhə bölgələrindən çıxarıb oraya gətirdilər ki, oranı bombalasınlar? Nə var, nə var, bir Surət Hüseynovu məhv eləsinlər. O da orada qan tökdü. Əgər bu, doğrudan Xalq Cəbhəsi idisə, xalqa müraciət edəydi, bu xalq da qalxaydı, onun qarşısını alaydı. Necə ki, biz oktyabr ayında bunu etdik. Halbuki biz heç adımızı "Xalq Cəbhəsi" qoymamışdıq. Amma biz xalqıq, xalq bizik. O, xalq deyil, adını "Xalq Cəbhəsi" qoyub. Onun "Xalq Cəbhəsi" adını daşımaq haqqı yoxdur, mə'nəvi haqqı yoxdur. Əgər Xalq Cəbhəsi idisə, xalq o hadisələrin qarşısını alaydı və Azərbaycan belə faciələrə gəlib çıxmayaydı.



1994-cü ilin oktyabr ayında Azərbaycan yenidən böyük bir təhlükə, böyük bir fəlakət qarşısında durdu. Amma xalq ayağa qalxdı, təhlükənin qarşısı alındı. Bundan sonra yenə də əl çəkmədilər. Bu işin içində olan və bütün bu mə'lumatları alan adam kimi mən o vaxt da bilirdim və bu gün də sizə deyirəm ki, 1995-ci ilin mart ayında Azərbaycan həqiqətən böyük bir təhlükə qarşısında idi. İş onda deyil ki, terrorçular gəlib Heydər Əliyevi qətlə yetirəcəkdilər. İş onda deyil, amma Azərbaycan dağılacaqdı. Bu təhlükə var idi, çünki bütün qüvvələr birləşmişdi. Təsəvvür edin, onda Moskvada oturan Ayaz Mütəllibov, Rəhim Qazıyev və başqaları, Xalq Cəbhəsi və Kələkidə oturan Əbülfəz Elçibəy, xarici ölkələrdən gəlmiş emissarlar birləşmişdilər. 3-4 gün bundan qabaq məhkəmə prosesi getdi, iki nəfər cəza aldı -- biri Türkiyə vətəndaşı Kən'an Kürel, o biri də Ayaz Mütəllibovun keçmişdə müşaviri olmuş, həmin o Kən'an Kürellə, Rövşən Cavadovla, Xalq Cəbhəsi ilə, Əbülfəz Elçibəylə Mütəllibov arasında əlaqə quran və bunların hamısını bir yerə yığan Adil Hacıyev. Görün nə qədərdir, hamısı birləşiblər. Nədən ötrü? Bir-birinə zidd olan qüvvələr birləşib hərəsi özünə burada hakimiyyət payı istəyirdi.

Yenə də respublika belə ağır vəziyyətdədir. Ona görə də bu gün söhbət tək Füzuli, Qubadlı, Cəbrayıl rayonları haqqında getmir, bütün respublikanın vəziyyəti haqqında gedir. Şübhəsiz ki, Azərbaycanın bir hissəsi kimi, bu rayonların vəziyyəti bu gün burada müzakirə olunub. Füzuli rayonu, Qubadlı rayonu, Cəbrayıl rayonu Azərbaycanın ayrılmaz hissələri, gözəl guşələridir. Bu bölgələr gözəl təbiəti ilə, gözəl sərvətləri ilə və gözəl insanları ilə bütün tarix boyu Azərbaycanın inkişafında böyük rol oynayıblar. Torpağımızın hər bir qarışının itməsi bizim üçün dəhşətlidir, ancaq belə rayonların -- Qubadlı, Cəbrayıl rayonlarının və Füzuli rayonunun bir hissəsinin artıq 3 ildir ki, düşmən tapdağı altında qalması bizim üçün ağır dərddir, böyük bir faciədir.

Burada bütün başqa xüsusiyyətlərlə yanaşı, bir cəhəti də qeyd etmək istəyirəm. O da bundan ibarətdir ki, bu rayonlar Arazboyu rayonlardır, Azərbaycanın İran ilə sərhəd rayonlarıdır. Bu rayonlardan dəmir yolu xətti keçir, həmin xətt Naxçıvana gedir. İndi bunlar hamısı kəsilib, hamısı dağılıbdır. Yenə deyirəm, bu rayonların ərazisində -- Füzuli, Cəbrayıl, Zəngilan rayonunu da götürsək, Füzulinin azad olunmuş hissəsini çıxsaq, qalan hissəsində bizim İran ilə təxminən 120 kilometr sərhəddimiz öz əlimizdə deyil. Ermənistan silahlı qüvvələrinin əlindədir. Təəssüflər olsun ki, erməni işğalçıları o rayonları dağıdarkən çox sərbəst Arazdan o taya, bu taya keçirlər. İrana da keçirlər və alınan mə'lumatlara görə, orada ticarət də edirlər və o rayonların varının-yoxunun bir hissəsini o taya keçirib satır, onlardan istifadə edirlər.

Bu rayonlarda Azərbaycanın bütün başqa bölgələri kimi, bizim böyük əmlakımız yaranmışdı. Həmin rayonların təbii sərvətləri böyükdür, təbiəti zəngindir, torpaqları zəngindir. Amma tamamilə doğru qeyd olundu ki, orada böyük əmlak da yaranmışdı, Azərbaycan xalqının, ayrı-ayrı adamların mülkü yaranmışdı. Həqiqətən, biz 70-ci illərdə o rayonları sür'ətlə inkişaf etdirəndən sonra insanlar özlərinə nə qədər gözəl, yaraşıqlı binalar, evlər tikdilər. Təsəvvür edin, bizim hörmətli vətəndaşımız, Azərbaycanın hörmətli şəxsiyyətlərindən biri -- Şamama xanım burada qeyd etdi. O, Füzuli rayonunda 40 il kolxoz sədri olmuşdur, kolxozda işləmişdir, orada nə qədər böyük işlər görmüşdür. Elə təkcə o yox, orada nə qədər nəsillər böyük işlər görmüşlər. Xatirimdədir, biz üzümçülüyü inkişaf etdirən illərdə orada bir ildə 120 min ton üzüm istehsal olunurdu. Orada nə qədər e'mal zavodları yarandı, nə qədər böyük-böyük binalar tikildi. Füzuli şəhərində bir mədəniyyət sarayı tikilmişdi ki, öz gözəlliyi ilə insanları heyran edirdi. O vaxt bizim rayonlarda gözəl bir yarış var idi. Hər bir rayon istəyirdi ki, o biri rayondan gözəl mədəniyyət sarayı tiksin. Mən də bunu dəstəkləyirdim. Mən istəyirdim ki, hər bir vətəndaş özünə ev tiksin, bina tiksin. Mən istəyirdim ki, bizdə məktəblər tikilsin, xəstəxanalar tikilsin, istehsal müəssisələri tikilsin. Amma eyni zamanda mən çox istəyirdim ki, mədəniyyət ocaqları yaransın və bunlar da yarandı. Onlardan biri Füzuli rayonunda olan mədəniyyət sarayı idi. Orada mən neçə dəfə gedib ümumrespublika müşavirələri keçirmişəm. Hər dəfə heyran olurdum ki, Füzulidə necə gözəl bir saray var, insanlar gəlib burada istirahət edirlər, burada musiqi çalınır, mahnı oxunur, teatr tamaşaları göstərilir, mədəniyyətimiz təbliğ olunur.

Bunlar hamısı əldən getdi, dağıldı.

Yenə də deyirəm, insanlar nə qədər firavan yaşayırdılar. Bir Füzuli deyil, burada Cəbrayıl haqqında da danışdılar. Xatirimdədir, Cəbrayıl rayonu pambıq əkirdi, hər il də mən oranın rəhbərlərini tənqid edirdim ki, onlar 2 min tondan artıq pambıq yığa bilmirlər. Sonra biz müayinə apardıq və müəyyən etdik ki, orada çox böyük üzüm bağları salmaq olar. Üzüm bağları saldıq və burada deyildiyi kimi, bir neçə ildən sonra rayonda 50 min ton üzüm istehsal olundu. İnsanlar nə qədər zənginləşdi.

Qubadlı rayonunun özünü götürün. Orada maldarlıqla yanaşı tütünçülük də inkişaf etdi. Şübhəsiz, Qubadlı rayonu ümumiyyətlə maldarlıq rayonu idi, amma eyni zamanda orada həm tütünçülüyü inkişaf etdirdik, həm də üzüm bağları saldıq. Rayonun iqtisadiyyatı nə qədər dəyişdi! Bütün bunlar insanlara yeni evlər, yeni mülklər tikmək, yaşayış şəraitini yaxşılaşdırmaq, mədəniyyəti inkişaf etdirmək üçün gözəl şərait yaratdı.



Bunlar hamısı indi əldən gedibdir və bu mülkün, bu varın sahibləri qaçqın vəziyyətində respublikanın cürbəcür bölgələrində yaşayırlar, çadırlarda yaşayırlar. Bu, şübhəsiz ki, sizi də incidir, amma bilin ki, məni də həddindən artıq incidir.

Ona görə də bu rayonların həm o illərdə başına gəlmiş bəlalar, faciələr, həm də bu 3 il müddətində həmin rayonların sakinlərinin cürbəcür yerlərdə yaşaması, onların problemləri ilə tanış olmaq üçün mən bu gün bu görüşü çox əhəmiyyətli hesab etdim. Saat 2-dən burada işləyirik. Mən heç də vaxta qənaət etmək istəmədim — bir halda ki, görüşmüşük, qoy kimin ürəyində nə söz varsa desin. Burada nə qədər çox söz deyilsə, o qədər də təəssüratımız artacaqdır.

Burada bir çox təkliflər verildi. Mən tapşırıram İcra Aparatına və Nazirlər Kabinetinə ki, bu təkliflərə baxsınlar, qısa müddətdə lazımi tədbirlər görsünlər və mənə mə'lumat versinlər. O təkliflərin bə'ziləri elə dərhal məndə çox müsbət münasibət doğurdu. Bilirsiniz ki, biz işğal olunmuş bütün rayonları azad etmək uğrunda çalışırıq. Bu barədə mən deyəcəyəm. Eyni zamanda biz indidən iş aparırıq ki, işğal olunmuş ərazilər azad olunarkən onların bərpası məsələləri ilə də məşğul olaq. Sizə mə'lumdur ki, bu münasibətlə mən Dünya Bankının prezidentinə xüsusi məktub yazmışam. Ondan xahiş etmişəm ki, Dünya Bankı işğal olunmuş rayonlarımızın bərpa edilməsi üçün indidən proqramlar hazırlasın, vəsait ayırsın. Dünya Bankı da buna çox müsbət münasibət göstəribdir, buraya nümayəndə hey'əti gəlibdir. Mən bu məsələlər üzrə komissiya yaratmışam, Baş nazirin müavini Abid Şərifovu komissiyaya sədr tə'yin etmişəm. Abid Şərifov Dünya Bankının nümayəndə hey'əti ilə birlikdə Füzuli rayonunun, Ağdam rayonunun işğaldan azad edilmiş yaşayış məntəqələrində olub, bütün ərazini gəziblər. O rayonlarda işğal olunmamış, ancaq atəş nəticəsində dağılmış yerlərə baxıblar. Onların bərpa olunması üçün indi lazımi tədbirlər görülür. Bu gün mən bu məsələni Abid Şərifovla müzakirə edirdim. Onun təklifləri var, mən o təklifləri də ümumiyyətlə bəyənmişəm və demişəm ki, o, Füzuli rayonunun işğaldan azad olunmuş ərazisindən daha səmərəli istifadə etmək məqsədi ilə rəsmi surətdə təklif versin.

Burada Füzuli rayonundan çıxış edənlər onlara məxsus olan torpaq sahəsinin onlara verilməsi məsələsini də qaldırdılar. Mən hesab edirəm ki, buna da baxmaq və bu məsələni də həll etmək lazımdır.

Artıq biz bu ərazilərin işğaldan azad edildikdən sonra bərpa olunması işinə başlamışıq və bu da çox böyük bir işdir. Çünki biz onları öz vəsaitimizlə, şübhəsiz ki, bərpa edə bilməyəcəyik. Doğrudur, yerindən -yurdundan didərgin düşmüş hər bir şəxs deyir ki, bizi yerimizə qaytarın, gedib sadəcə torpağın üzərində yaşayacağıq. Mən bunu anlayıram və bu sözlərin səmimiyyətinə də inanıram. Ancaq

eyni zamanda biz bir dövlət kimi, şübhəsiz ki, bu məsələni həll etməliyik, qayğı göstərməliyik. Qayğı da ondan ibarətdir ki, bu bərpa məsələləri ilə dünya miqyasında Dünya Bankı məşğul olur və İkinci dünya müharibəsindən sonra Dünya Bankı məhz bu məqsəd üçün yaranıbdır. Ona görə mən oraya müraciət etmişəm və onların müsbət cavabını almışam. Beləliklə, sizin rayonların bu gün burada meydana çıxan problemlərini daha da yaxından bildikdən sonra bunların və cari məsələlərin həlli üçün tədbirlər görülməsi haqqında mən göstərişlər verdim.

Ancaq bu görüşün ən böyük mə'nası ondan ibarətdir ki, biz səmimi söhbət apardıq və burada rayonları təmsil edən nümayəndələr rayon sakinləri adından bütün istədiklərini dedilər. Sizin belə əhval-ruhiyyədə olmağınız məni çox sevindirir. Ümumiyyətlə, bir sizin rayonlardan yox, işğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir. Bunlar daim mənim diqqət mərkəzimdədir. Təsadüfi deyil ki, mən bu məsələlərin həll edilməsi üçün, bu məsələlərlə məşğul olması üçün xüsusi olaraq İzzət Rüstəmovu Baş nazirin müavini tə'yin etmişəm. O, bu işlərlə məşğul olur. Bizdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi var, o, çox yararsız işləyirdi, orada çox böyük nöqsanlar meydana çıxmışdı. Onun rəhbərliyini mən dəyişdirdim, Gülabbas Qəhrəmanov sədr tə'yin olunubdur, yəqin burada iştirak edir. Görürəm, buradadır, onu oraya tə'yin etmişəm, xüsusi göstəriş vermişəm və onun təcrübəsinə istinad edərək ümidvaram ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin böyük imkanları yerindən-yurdundan didərgin düşmüş bütün adamların problemlərinin həll olunmasına yönəldiləcəkdir.

Bütün beynəlxalq təşkilatlar buna cəlb olunubdur. Onların burada olan nümayənlədiklərinin hamısı bir tərəfdən İzzət Rüstəmovun təşkilatı vasitəsilə, o biri tərəfdən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin vasitəsilə və bütün icra hakimiyyəti başçıları vasitəsilə, Nazirlər Kabineti vasitəsilə, Prezidentin İcra Aparatı vasitəsilə cəlb olunmalıdır. Biz indi köçkün vəziyyətində yaşayan vətəndaşlarımızın daim qayğısına qalmalıyıq və onların problemlərini həll etməliyik. Yenə də deyirəm, mənim üçün sizin və yerindən-yurdundan didərgin düşmüş bütün insanların bugünkü vəziyyəti, problemləri bir nömrəli məsələdir, bununla da mən məşğul oluram.

Bilirsiniz ki, 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında saziş imzalanıbdır. Bu sazişin imzalanmasını mən müsbət hadisə hesab edirəm və atəşkəs rejiminin iki il üç ay davam etməsini ondan da çox müsbət hadisə hesab edirəm. Bu, böyük nailiyyətdir.



Düzdür, oradan-buradan cürbəcür səslər gəlir ki, bu problem istənilən səviyyədə həll olunmur, torpaqlarımızın işğaldan azad edilməsi məsələsi həll olunmur, bunu elə həll etmək lazımdır, belə həll etmək lazımdır. Siz burada dediniz ki, bunları görürsünüz, bunların bir daha mənim tərəfimdən deyilməsinə ehtiyac yoxdur. Ancaq onu bildirmək istəyirəm ki, mənim gündəlik işimin əksər hissəsini bu məsələnin həll edilməsi aparır. O gün yoxdur ki, mən bu məsələ ilə məşğul olmayım. Bütün imkanlardan bu məsələnin həll edilməsi üçün istifadə olunur.

Sizə bildirmək istəyirəm ki, məhz bunların nəticəsidir ki, iki il üç aydır ki, atəşkəs saxlanılıb. Bu, dünyada nadir bir haldır. Mən Avropada olarkən, başqa ölkələrdə olarkən bunu hər dəfə qeyd edirəm. Doğrudan da, hərbi münaqişədə olan ölkələrin münaqişəsini yatırmaq üçün adətən oraya ayırıcı qüvvələr, sülhü mühafizə qüvvələri, bitərəf silahlı dəstələr daxil olur və onların vasitəsilə atəş dayandırılır, bu ayırıcı qüvvələrin vasitəsilə atəşkəs rejimi saxlanılır. Bu, münaqişə olan bütün ölkələrdə belədir. Ancaq biz buna özümüz nail olmuşuq. Şübhəsiz ki, həm Azərbaycan dövlətinin apardığı siyasət nəticəsində nail olmuşuq, qeyd etmək lazımdır ki, bu, həm də Ermənistan tərəfinin atəşkəs rejiminin saxlanması barədə iradəsinin nəticəsidir.

Bilirsiniz ki, bu müddətdə mən çox görüşlər keçirmişəm, çox danışıqlar aparmışam, o cümlədən, — burada dedilər, — Ermənistanın prezidenti Ter-Petrosyanla da dəfələrlə görüşmüşəm, danışmışam. Xüsusən aprel ayında Lüksemburqda olarkən, Avropa Birliyi ilə saziş imzalayarkən mənim orada görüşüm, hesab edirəm ki, çox əhəmiyyətlidir. Çünki ilk dəfə olaraq Ermənistan və Azərbaycan prezidentləri birgə bəyanət verdilər ki, atəşkəs rejiminin indiyə qədər saxlanılması müsbət hadisə kimi qiymətləndirilir. O birgə bəyanatda biz bəyan etdik ki, bundan sonra da məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq və tam sülhün yaranmasına qədər atəşkəs rejiminin saxlanmasına söz veririk. Hesab edirəm ki, bu, çox böyük əhəmiyyət kəsb edən bir bəyanatdır.

Ondan sonra iyun ayının əvvəlində bizim Kislovodskda görüşümüz olmuşdur. Orada görüş ikitərəfli deyil, dördtərəfli olmuşdur: Rusiya prezidenti Boris Yeltsin, Gürcüstan prezidenti Eduard Şevardnadze, Ermənistan prezidenti Ter-Petrosyan və Azərbaycan Prezidenti Heydər Əliyev. Biz orada başqa məsələləri müzakirə edirdik. Eyni zamanda dörd prezident birgə bəyanət verdi ki, Ermənistan -- Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunmalıdır, atəşkəs rejimi bundan sonra da saxlanılacaqdır və tərəflər — Ermənistan tərəfi və Azərbaycan tərəfi məsələnin bundan sonra da sülh yolu ilə həll olunması uğrunda addımlar atacaqlar. Bu, təkcə iki dövlət başçısının yox, bizim bölgəyə çox marağı olan qonşularımız Gürcüstanın və

Rusiyanın dövlət başçılarının iştirakı ilə verilən bəyanatdır, yə'ni dörd prezidentin dünyaya verdiyi bəyanatdır. Bu da, hesab edirəm ki, çox müsbət haldır, çox əlamətdar hadisədir. Ancaq biz bununla kifayətlənmirik. Şübhəsiz ki, bunu müsbət hal hesab edərək, biz çalışırıq ki, bütün kanallardan, imkanlardan istifadə edib, məsələni sülh yolu ilə həll edək. Bunun üçün, yenə də deyirəm, cürbəcür istiqamətlərdə danışıqlar gedir. O cümlədən, kanallardan biri ondan ibarətdir ki, Ermənistan prezidentinin şəxsi nümayəndəsi Liparidyan və Azərbaycan Prezidentinin şəxsi nümayəndəsi Vəfa Quluzadə son vaxtlar Avropada bir neçə dəfə görüşlər keçiriblər, son dəfə Frankfurtda görüşüblər. O görüşlərdə də bu məsələnin sülh yolu ilə həll edilməsi problemləri müzakirə olunur. Bunlar da, hesab edirəm ki, bizi lap xırda-xırda olsa da, müsbət istiqamətdə aparır.

Siz hamınız burada dediniz, mən də bu fikirdəyəm ki, biz məsələni sülh yolu ilə həll etməliyik. Çünki bilirsiniz ki, müharibə nə nəticələrə gətirib çıxardı -- onu biz gördük. Amma eyni zamanda biz həmişə torpaqlarımızı müdafiə etmək qabiliyyətinə malik olmalıyıq, torpaqlarımızı müdafiə etməyə hazır olmalıyıq.

Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan bundan sonra da atəşkəs rejiminin saxlanmasına çalışacaqdır və atəşkəs rejimi bizim tərəfimizdən heç vaxt pozulmayacaqdır. Mən bu gün bir daha bəyan edirəm ki, biz sülh istəyirik, daimi sülh şəraitində yaşamaq istəyirik. Ancaq sülh o şərtlə ola bilər ki, Azərbaycanın işğal olunmuş torpaqları işğalçı silahlı dəstələrdən azad edilsin. Azərbaycanın ərazi bütövlüyü tə'min olunsun, işğal altında olmuş ərazilərə, torpaqlara onların öz sakinləri qayıtsınlar, Azərbaycanın sərhədləri toxunulmaz olsun, tamamilə bərpa edilsin. Bununla bərabər, bunların nəticəsində Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilsin.

Bu prinsiplər əsasında biz sülh danışıqları aparırıq və bu prinsiplər əsasında da böyük sülhə nail olmaq istəyirik. Əgər bu prinsiplər əsasında böyük sülh əldə olunsa, mən hesab edirəm ki, bu həm Azərbaycan üçün, həm Ermənistan üçün, həm də Azərbaycanda yaşayan, Dağlıq Qarabağda yaşayan ermənilər üçün ən yaxşı nəticə olacaqdır. Biz bu yolla gedirik, bu yolla da gedəcəyik. Bir də bəyan edirik ki, bizim tərəfimizdən atəşkəs rejimi heç vaxt pozulmayacaq. Ancaq mən görüşlərimdə də demişəm, bu gün də bəyan edirəm ki, Ermənistan tərəfi də verdiyi sözlərə riayət etməlidir, bizim verdiyimiz birgə bəyanatlara riayət etməlidir və atəşkəs rejimini pozmamalıdır.

Eyni zamanda, bə'zən oradan-buradan səslər gəlir ki, ola bilər, atəşkəs rejimi Ermənistan tərəfindən pozulsun. Belə olan halda Azərbaycan ordusu, Azərbaycan xalqı hər bir belə hadisəni dəf etməyə hazır olmalıdır. Ona görə də bizim xalqımız daim səfərbərlik



vəziyyətində olmalıdır, ordumuz günü-gündən öz döyüş keyfiyyətlərini gücləndirməlidir. Bizim ordumuz daim sayıq olmalıdır. Hər bir hücumun qarşısını almağa qabil olmalıdır. Biz heç kəsə hücum etmək istəmirik, çünki, mən yenə də deyirəm, bu, bizim prinsiplərimizə ziddir. Amma atəşkəs rejimi o tərəfdən pozularsa, Azərbaycan xalqı Azərbaycan ordusu buna layiqli cavab verəcəkdir. Bizim ordumuz buna layiqli cavab verəcəkdir. Ona görə də ordumuz özünü daim hazır vəziyyətdə saxlamalıdır ki, hər bir belə hadisənin qarşısı alına bilsin.

Şübhəsiz ki, burada irəli sürdüyünüz fikirlərlə, təkliflərlə razıyam -- əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpağımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik. Dünya belə qalmayacaq. Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi -- Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt da razı olmayacağıq. Bizim xalqımız heç vaxt bununla razı ola bilməz, Azərbaycanın Prezidenti heç vaxt bununla razı ola bilməz.

Ancaq biz istəyirik ki, bölgəmizdə, Qafqazda sülh olsun. Çünki daim müharibə aparmaq olmaz, daim bir-biri ilə düşmənçilik şəraitində yaşamaq olmaz. Bunu dünya təcrübəsi özü göstərir, bunu tarix göstərir, bunu iyirminci əsrin tarixi göstərir. İyirminci əsrdə nə qədər böyük müharibələr olub -- birinci dünya müharibəsi, ikinci dünya müharibəsi, başqa müharibələr, indi gedən müharibələr -- hamısı sülhlə qurtarır və müharibə edən ölkələr, dövlətlər müəyyən bir vaxtdan sonra sülh şəraitində yaşayırlar. Hamısını biz tarixdən görürük.

Ona görə də mən belə hesab edirəm ki, biz böyük sülhə nail olub, sülh şəraitində yaşayacağıq. Amma eyni zamanda, bir də deyirəm, biz torpağımızın bir qarışını da, bir metrini də heç vaxt heç kəsə verməyəcəyik. Biz bütün qonşularımızla sülh şəraitində yaşamaq istəyirik. Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir. Bu, bizim şərəfli vəzifəmizdir və əmin ola bilərsiniz ki, bu vəzifənin həyata keçirilməsi yolunda mən bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.

Amma bu vəzifəni həyata keçirmək üçün bizim xalqımız keçmiş

illərdə baş vermiş bütün hadisələrdən, faciələrdən, dəhşətlərdən nəticə çıxarmalıdır. Biz bundan sonra Azərbaycanın daxilində bir daha çəkişmələrə yol verə bilmərik və yol verməyəcəyik. Hər kəs bunu bilməlidir. Ayrı-ayrı dəstələr, qruplar, partiyalar demokratiya şəraitində yaşaya bilər, fəaliyyət göstərə bilər, ancaq Azərbaycanın Konstitusiya çərçivəsində, Azərbaycanın qanunları çərçivəsində, sırf demokratiya prinsipləri çərçivəsində. Azərbaycan demokratik dövlətdir, hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin daim inkişaf etməsi üçün bizim dövlətimiz və mən Prezident kimi bundan sonra da bütün tədbirləri görəcəyik. Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim gözəl Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan Prezidentinin iradəsi var. Ancaq kimsə yenidən o köhnə xəstəliklərə düşmək istəyirsə, kimsə orada-burada söz buraxır ki, sabah filan yer qalxacaq, birisi gün filan yer qalxacaq, nə bilim, camaat ondan narazıdır, bundan narazıdır -- və kim bundan istifadə edəcəksə, mən xəbərdarlıq edirəm, heç kəsə heç bir imkan verilməyəcək! Azərbaycanın dövlətçiliyini qorumaq üçün, Azrbaycanda yaranmış bu ictimai-siyasi sabitliyi qorumaq üçün mən bütün imkanlardan indiyə qədər istifadə etdiyim kimi, bundan sonra da istifadə edəcəyəm və heç kəs də xam xəyala düşməsin, heç kəs başqa fikirlərə düşməsin.

Mən üzərimə tarixi məs'uliyyət götürmüşəm. O da ondan ibarətdir ki, Azərbaycanın belə bir dağılan vəziyyətində, parçalanan vəziyyətində mən Azərbaycana gəlib bir məqsəd daşımışam -- Azərbaycanı bu fəlakətdən xilas edim, parçalanmaqdan xilas edim. Başımıza nə qədər bəlalar gəlibsə, bunlar sizin gözünüzün qabağındadır. Bu gün də Azərbaycan Prezidentini silah gücü ilə aradan götürmək cəhdləri yenə kəsilməyib. Azərbaycandan qaçmış və ya Azərbaycanın içində olan nadürüst qüvvələr hələ də o xəyallarla yaşayırlar. Amma onlar da bilsinlər -- heç bir şey edə bilməzlər. Heç kəs heç bir şey edə bilməz! Heç bir şey də məni şəxsən indiyə qədər qoxutmayıbdır və indi də qorxutmur. Mən öz üzərimə, dediyim kimi, böyük məs'uliyyət götürmüşəm. Məs'uliyyət də ondan ibarətdir ki, dövləti möhkəmləndirim, onun müstəqil bir dövlət kimi yaşamasını tə'min edim və Azərbaycan xalqını birləşdirim. Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında, bu şüar altında, bu sözlər altında, bu amal ətrafında birləşməlidir.

Azərbaycanın cəmiyyətini o tərəfə-bu tərəfə çəkən ayrı-ayrı adamlar, Azərbaycanda gedən siyasətə kölgə salan adamlar, Azərbaycanda aparılan tədbirlərə xor baxan adamlar, Azərbaycanda həyata keçirilən bu müsbət proseslərə mənfi qiymət verən adamlar Azərbaycanın milli mənafeyinə zidd gedən adamlardır. O adamlar,



o qruplar, o partiyalar heç vaxt Azərbaycan xalqından dəstək almayacaqlar, bizim cəmiyyətdən heç vaxt dəstək almayacaqlar. Onlar öz-özləri ilə vuruşa bilərlər, çarpışa bilərlər. İndi elə vəziyyət deyil ki, Rəhim Qazıyev, İsgəndər Həmidov, İsa Qəmbərov, nə bilim, o birisi, bu birisi burada öz iddiasını yerinə yetirsin. Heç kəsə belə imkan verilməyəcəkdir, heç kəsə!

Ona görə də bunun üstündə dururam ki, biləsiniz -- bəli, əsas məqsədimiz işğal olunmuş torpaqları azad etməkdən ibarətdir və bu sahədə indiyə qədər görülən işlər bu torpaqların sülh yolu ilə azad olunması üçün əsas yaradıbdır. Bu da bizim əldə etdiyimiz müsbət nəticələrdir. Bəli, məqsədimiz Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Azərbaycan heç bir ölkənin tə'siri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin əsas ana xəttidir. Bunun üçün də hamı birləşməlidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Başqa yolla gedən adam, demək, başqa məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur. Bunu bilsinlər.

Respublikamızda iqtisadi çətinliklər var, onlar sizə mə'lumdur, onların da qarşısı alınır. Aparılan tədbirlər, hesab edirəm ki, Azərbaycanın iqtisadiyyatında müsbət meylləri get-gedə artıracaqdır və iqtisadiyyatımızda müsbət dəyişikliklər əmələ gələcəkdir. Bütün bu iqtisadi tədbirlərdə, iqtisadi islahatlarda məqsədimiz birdir: xalqın rifah halını yaxşılaşdıraq, sosial ədaləti tə'min edək, bütün islahatlarda onun sosial yönümünü üstün tutaq, qaçqınların, yerindən-yurdundan didərgin düşmüş, evini itirmiş, varını itirmiş, mülkünü itirmiş, hər şeyini itirmiş insanların qayğısına qalaq. Məqsəd bundan ibarətdir. Məqsəd ayrı-ayrı adamların böyük-böyük sərvət toplamasından ibarət deyil. Məqsəd bundan ibarətdir. İslahatların məqsədi budur, islahatların son nəticəsi budur və biz bu islahatları bundan ötrü aparırıq. Ayrı-ayrı adamlara şərait yaratmaqdan ötrü yox.

Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu gün də bu fikirlərlə yaşayıram. Bu gün siz burada mənim haqqımda çox, həddindən artıq çox sözlər dediniz, mənə xoş arzularınızı bildirdiniz. Təşəkkür edirəm. Amma bilin ki, mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam.

Bilin ki, mənim məqsədim də budur, amalım da budur, həyatımın mə'nası da budur. Həyatımın bu mə'nasını mən hər şeydən üstün

tuturam. Necə ki, siz dediniz mənimləsiniz, mən də sizinləyəm. Mən sizə arxalanıb Azərbaycana yenidən gəlmişəm, Bakıya gəlmişəm. Mən sizə arxalanıb belə cəsarətli siyasət aparıram. Mən sizə, xalqa arxalanıb belə cəsarətli addımlar atıram. Mən sizə, xalqa arxalanıb dünya miqyasında belə cəsarətli müstəqillik siyasəti aparıram. Bu, asan deyil, bunu bilin. Gənc, hələ möhkəmlənməmiş, yaralı ölkəyik, çünki torpaqlarımızın bir hissəsi işğal olunub. Yaralı bir ölkə üçün bu cür cəsarətli, müstəqil siyasət aparmaq asan bir şey deyil. Bu siyasəti mən ona görə apara bilirəm ki, bu, mənim iradəmdir, bu, mənim həyatımın məqsədidir, mə'nasıdır və həm də mən xalqa arxalanıram, sizə arxalanıram. Sizin bu barədə fikirlərinizi bilərək, belə cəsarətli siyasət aparıram.

Ona görə sizin burada mənim haqqımda dediyiniz xoş sözlərə görə, xoş arzularınıza görə təşəkkür edirəm və sizi əmin edirəm ki, mən Azərbaycan xalqına, onun milli mənafeyinə, onun müstəqilliyinə, bu gününə və gələcəyinə daim sadiq olacağam.

Sizin hamınıza cansağlığı arzu edirəm. Məndən bütün Füzuli, Qubadlı, Cəbrayıl camaatına, bacı-qardaşlarımıza salam söyləyin, mənim xoş arzularımı onlar çatdırın. Sağ olun.



# ZƏNGİLAN



*Prezident sarayı, 29 dekabr 1996-cı il.*

Zəngilanda Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi abidələr var, Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş veribdir. Zəngilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində yaşayan insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir.

*HEYDƏR ƏLİYEV*





# ZƏNGİLAN

**ZƏNGİLAN RAYONUNUN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞAL EDİLMƏSİNİN ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ZƏNGİLAN RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ.**

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN giriş nitqi

Hörmətli zəngilanlılar!

Bu gün biz Zəngilan rayonunun nümayəndələri ilə—sizinlə görüşürük. Bu görüşün məqsədi birinci növbədə, Zəngilan rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunandan sonra rayon əhalisinin yaşayışı, vəziyyəti haqqında mə'lumat almaqdan, eyni zamanda, işğal olunmuş Zəngilanın və respublikamızın digər rayonlarının torpaqlarının azad edilməsi ilə əlaqədar indiyədək görülmüş işlər barəsində fikir mübadiləsi aparmaqdan, Zəngilan rayonunun işğal edilməsinin səbəbləri haqqında bu rayonun nümayəndələrinin fikirlərini, mülahizələrini dinləməkdən ibarətdir.

Bilirsiniz ki, Ermənistanın Azərbaycana 1988-ci ildən başlanmış hərbi təcavüzü xalqımıza çox böyük zərbələr vurmuşdur, xalqımız böyük itkilər vermişdir. Torpaqlarımızın bir qismi, o cümlədən, Zəngilan rayonu da işğal olunubdur, indi də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Respublikamızın tarixində bu, faciəli bir dövrdür. 1988-ci ildən başlayan bu hərbi təcavüzün qarşısı alınmadığına, lazımi tədbirlər görülmədiyinə görə ölkəmizə, respublikamıza böyük zərbələr vurulubdur. Son illər biz Azərbaycana vurulan bu zərbələrin aradan götürülməsi, işğal edilmiş torpaqların azad olunması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün tə'min edilməsi yolunda çox işlər görmüşük və görürük. 1994-cü ilin may ayında hərbi münaqişədə atəşkəsin əldə olunması görülən işlər sırasında xüsusi yer tutur. Artıq iki ildən çoxdur ki, müharibə getmir, qan tökülmür, atəşkəs rejimi mövcuddur. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün bu müddətdə davamlı olaraq işlər görülür, tədbirlər həyata keçirilir. Siz bunları bilirsiniz, mə'lumatınız var. Buna baxmayaraq, mən bu gün sizinlə görüşüb, sizi də dinləmək istədim. Çünki Zəngilan rayonunun işğal olunmasından artıq üç il keçibdir.

Sizin indiki yaşayış tərziniz, vəziyyətiniz bizim daimi nəzarətimizdədir, dövlətin, hökumətin qayğısı altındadır. Ancaq aydındır ki, sizin də, bizim də əsas arzumuz və məqsədimiz işğal olunmuş torpaqlarımızı azad etməkdən, Azərbaycanın hər bir vətəndaşının öz yerinə, yurduna, evinə, elinə-obasına qayıtmasından ibarətdir.

Mən əminəm ki, biz buna nail olacağıq. Ancaq təəssüflər olsun ki, keçmiş illərdə buraxılan, bağışlanması mümkün olmayan səhvlər, cinayətlər, xəyanətlər respublikamızı elə ağır bir vəziyyətə salıbdır ki, onu bu vəziyyətdən çıxarmaq üçün həddindən artıq çox sə'ylər qoymaq lazım gəlir. Biz bu sə'yləri qoyuruq. Biz bu istiqamətdə ardıcıl surətdə fəaliyyətdəyik. Buna görə də mən əminəm ki, işğal edilmiş torpaqlarımız azad olunacaq, Azərbaycanın hər bir vətəndaşı öz yerinə, öz evinə qayıdacaqdır.

Mən sizin də fikirlərinizi dinləmək, bilavasitə sizi eşitmək istəyirəm. Ermənistan silahlı qüvvələrinin ölkəmizə təcavüzü başlanandan həm sizin rayonun vəziyyəti, yə'ni Zəngilan rayonunda və sizin rayonun ətrafında gedən proseslər haqqında, həm 1993-cü ilin oktyabrında rayonun işğal edilməsi ilə əlaqədar olan vəziyyət barədə, həm də indi məskunlaşdığınız yerlərdə vəziyyətiniz haqqında mə'lumatlarınızı dinləmək istəyirəm. Buna görə də bu gün sizinlə görüşə gəlmişəm.

Mən sizin hər birinizi dinləməyə hazıram. Ancaq güman edirəm, yəqin ki, rayon icra hakimiyyətinin başçısı yığcam bir mə'lumat verə bilər, bundan sonra isə kim istəsə danışa bilər. Mən bu gün sizin sərəncamınızdayam. Buyurun.



Zəngilan rayon
Icra Hakimiyyətinin başçısı
**ƏLƏKBƏR HƏŞİMOVUN**
çıxışı

Hörmətli cənab Prezident! Hörmətli görüş iştirakçıları! Artıq üç ildir ki, zəngilanlılar Zəngilansız yaşayırlar. Zəngilanın işğalının üçüncü ildönümü ilə əlaqədar keçirilən bu görüş hələ qaysaq bağlamamış Zəngilan həsrətli yaralarımızı bir daha göynətsə də, dəhşət və məşəqqət dolu günlərə qaytarsa da, biz bu görüşü respublikamızın ümidi, möhtərəm Prezidentimiz Heydər Əliyev cənablarının zəngilanlılara böyük hörmətinin və e'timadının təzahürü kimi qiymətləndiririk. Bütün bu diqqət və qayğı üçün, möhtərəm Prezident, bütün zəngilanlılar adından Sizə minnətdarlığımızı bildirirəm.

Hörmətli Prezident, bildiyiniz kimi Zəngilan rayonu respublikamızın ən ucqar rayonlarından biridir və bədnam ermənilərlə 157 kilometr ərazidə həmsərhəddir. Bu baxımdan Zəngilan rayonu 1988-ci ildən başlayaraq Qarabağ hadisələrinin mərkəzində olmuşdur. Ermənistanın Mehri və Qafan rayonlarının ərazisindən qovulmuş minlərlə azərbaycanlı Zəngilan rayonuna pənah gətirmişdir. Zəngilanlılar Ermənistandan olan azərbaycanlı qaçqınları qəbul edir, onları müəyyən müddətdə evlərində yerləşdirirdilər.

Zəngilanlılar Ermənistanda azərbaycanlılara tutulan divan barədə mə'lumatı ilk gündən respublika rəhbərliyinə çatdıraraq, kütləvi e'tiraz nümayişinə çıxdılar. Zəngilanlıların güclü təzyiqi ilə respublikanın o vaxtkı rəhbəri Ə.Vəzirov 1988-ci ilin dekabrında Zəngilana gəldi. İnanın, bu bir həqiqətdir ki, Vəzirov yaranmış vəziyyətə düzgün qiymət vermək, xalqın tələbinə əməl edib, Ermənistandan qovulmuş və həmin vaxt Zəngilanda cəmləşmiş azərbaycanlıları Dağlıq Qarabağda yerləşdirmək əvəzinə rəhbərə yaraşmayan, hamının dediyi kimi bambılı kimi hərəkət edib, anası ilə birlikdə Füzuli rayonuna

gəlməsindən, tezliklə hamı üçün hamam tikdirəcəyindən, qoz ağacları əkdirəcəyindən danışıb geri qayıtdı. Çox təəssüflər olsun ki, nə üçün çağırıldığı yadından çıxdı və narahatlıq törədən erməni millətçiliyi məsələsi, evindən, isti ocağından qovulmuş azərbaycanlıların taleyi barədə bir kəlmə də olsun danışmadı.

Bəli, Azərbaycanın bu gün düşdüyü ağır vəziyyətin, torpaqlarımızın işğalının qarşısı məhz o vaxt alınmalı idi. Lakin səriştəsiz Vəzirov öz ağalarının sözünü iki edə bilmədi. O qorxurdu ki, onun hər hansı bir hərəkəti ermənilərin xatirinə dəyər və buna görə Moskva onu cəzalandırar.

Heç bir səriştəsi olmayan Vəzirov az imiş kimi, həmin vaxt cəbhəçilər də meydana çıxdılar. Vəzirov cəbhəçilərin fəaliyyətinin gücləndiyini görəndə bir uşaq qorxaqlığı ilə respublikadan qaçdı. Vəzirov qaçdı və hakimiyyətə bir medalın ikinci üzü Ayaz Mütəllibov gəldi. Bu fərsiz rəhbərin elə bil nə gözü görür, nə də qulağı eşidirdi. Həmin vaxtlar ermənilərin yeritdiyi siyasəti və bu siyasətin gələcək nəticələrini hər bir zəngilanlı görüb, başa düşüb ayağa qalxdığı, bütün ölkələrə teleqramlar vuraraq vəziyyətin araşdırılıb tə'cili tədbir görülməsini tələb etdiyi halda Ayaz Mütəllibov və onun komandası susurdu, xalqın taleyinə biganəliklə baxırdı. İstər Vəzirov, istərsə də Mütəllibov bu susmaqları ilə Moskvanın göstərişlərini can-başla yerinə yetirir, öz kreslolarının xatirinə xalqın haqlı tələblərinə məhəl qoymurdular, əhalidə olan ov tüfənglərini belə yığmaqdan çəkinmirdilər.

Həmin dövrdə Ermənistandan didərgin düşən təqribən 5 min nəfərdən artıq adamı qəbul edən zəngilanlılar onlara arxa oldular. Ermənistanlı soydaşlarımızın düşmən əlindən salamat qurtarması, onların qarət olunmalarının qarşısını almaq üçün lazımi tədbirlər gördülər ki, bu da həmin proseslərə öz müsbət tə'sirini göstərirdi.

Respublikamıza Ayaz Mütəllibov rəhbərlik etdiyi dövrdə Mehri rayonunun Nüvədi kəndi Ermənistan ərazisində azərbaycanlıların yaşadığı yeganə məntəqə idi ki, öz mövcudluğunu saxlamış və 1989-cu ilin sonunda Ermənistanın tərkibindən çıxaraq Zəngilan rayonunun tərkibinə daxil olmuşdu. Həmin kəndin ərzaq, işıq, telefon, radio, pensiya, əmək haqqı, həkim və s. təchizatını Zəngilan rayonu öz üzərinə götürmüşdü. Lakin az sonra Ayaz Mütəllibovun və Azərbaycan KP MK-nın digər katiblərinin bilavasitə müdaxiləsi və tə'kidi ilə bu sonuncu ümid yeri—qeyrət qalası sayılan Nüvədi kəndi zorla boşaldıldı.

Nüvədi kəndi boşaldılmamışdan əvvəl orada azərbaycanlıların mətanəti, qanlı döyüşlərə girib erməni saqqallılarını geri oturtmaları ermənilərin canına üşütmə salırdı. Lakin çox təəssüf ki, fərsiz rəhbər bunu başa düşmədi.



Bu vaxtlar artıq ermənilər Zəngilanın bütün sərhədboyu ərazisinə tez-tez basqın edir, yerli əhalidən girov götürür, faciəli ölümlər törədirdilər. Respublika rəhbərliyi isə əsaslı tədbir görmək əvəzinə rayonun rəhbərliyini tez-tez dəyişdirməklə xalqın başını qatırdı.

Zəngilanda xalqın ayağa qalxmasını görən Xalq Cəbhəsinin bə'zi liderləri Zəngilana ayaq açmağa başladılar. Onlar rayona yalnız aranı qızışdırmaq, cəbhəçilərin niyyətlərini yerinə yetirmək üçün silahlı özünümüdafiə dəstələri yaratmaq məqsədi ilə gəlirdilər.

Rayonun, respublikanın belə ağır günündə cəbhəçilər rayonda "vəzifə islahatı" keçirmək və müxtəlif adlar altında pul yığmaq sahəsində fəaliyyətə başladılar. Kadrlar yerli-yersiz dəyişdirilir, guya "rayonun müdafiəsi üçün silah alınır" deyə idarələrdən külli miqdarda pul yığılırdı. Əslində isə yığılmış vəsaitə silah alınmırdı, pullar cəbhəçilərin cibinə gedirdi. Hətta elə vəziyyət yaradılmışdı ki, respublikanın paytaxtında yaşayan zəngilanlılar pul yığır, geyim, ərzaq toplayıb Zəngilan rayonuna gətirirdilər. Bu yardımlar isə silah almaq, ərzağı və geyim əşyalarını zərər çəkən sərhəd kəndlərinin əhalisinə paylamaq əvəzinə az bir vaxt ərzində mənimsənilirdi.

Respublika rəhbərliyindən əlini və ümidini üzən rayon əhalisi yaxşı başa düşürdü ki, torpaqların müdafiəsini onlar özləri təşkil etməlidirlər. Çünki rayonun müdafiəsi ilə bağlı ayrı-ayrı adamlar və kollektivlər tərəfindən vurulan çoxsaylı teleqramlara respublika rəhbərliyinin cinayətkarcasına məs'uliyyətsiz münasibəti məhz bunu göstərirdi. Odur ki, ayrı-ayrı mülki vətəndaşlar vətənpərvərlik nümunəsi göstərərək rayonun müdafiəsinə qalxdılar. Onlar gecə-gündüz postlarda keşik çəkərək düşmənin qəfil hücumunun qarşısını almaq üçün misilsiz fədakarlıq göstərdilər. Həmin dövrdə Ümumittifaq axtarışında olan, xüsusi təhlükəli cinayətkar Hamlet Koçaryan və onun dəstəsi rayonun Seyidlər kəndini yandırmağa cəhd göstərərkən yerli müdafiəçilər tərəfindən yaxalandı. O, Bakıda mühakimə olundu, Rusiya həbsxanasına göndərildi, üç ay sonra isə yenidən sərhəd kəndlərində görünməyə başladı.

Respublika ictimaiyyətinin aramsız təzyiqlərinə davam gətirə bilməyən rəhbərlik nə qədər gec olsa da ordu yaradılmasına icazə verdi. Bu zaman Zəngilan rayonunda yaradılan ilk batalyon könüllülərdən formalaşdı. Əslində, bütün rayon əhalisi bu prosesdə iştirak edirdi. Lakin kadr çatışmazlığı üzündən qeyri-peşəkarların batalyonda özlərinə yer tapmasına şərait yarandı.

Burada Xalq Cəbhəsi daha çox canfəşanlıq göstərməyə başladı. Onlar alverçiləri, həbsdə olanları, heç bir təhsili olmayanları orduda zabit tə'yin edirdilər. Digər tərəfdən isə komandirlər tez-tez dəyişdirilirdi. Az bir vaxt ərzində Zəngilan hərbi qurumuna 7 nəfər—Bayram Məmmədov, Eldar Tağıyev, Vaqif Əsgərov, İldırım

Məmmədov, Mehman Hüseynov, Vəli Bayramov, Firidun Şabanov rəhbərlik etmişlər. Bu komandirlərin isə fəaliyyətləri çox qısa vaxtda başa çatmışdır.

Təkcə bir faktı qeyd etmək istəyirəm ki, İldırım Məmmədov Zəngilana alay komandiri tə'yin olunduqdan sonra müxtəlif üsullarla hərbi hissəni ermənilərlə sərhəd zonada daha da möhkəmləndirirdi. Bu isə ermənilərlə bərabər, cəbhəçilərin də əl-qolunu bağlayırdı. Ona görə də cəbhəçilərin əli ilə iki nəfər sərxoş adam İldırım Məmmədovun kabinetinə göndərilərək əl qumbarası atmışdır. Xoşbəxtlikdən, İldırım Məmmədov sağ qalmış və elə həmin dəqiqə o qumbara atanları vurub öldürmüşdü. Bundan sonra İldırım Məmmədov Zəngilandan uzaqlaşdırıldı.

Vahid komandanlığın olmaması üzündən rayonun müdafiəsi pərakəndə halda təşkil edilmişdi. Belə ki, 1992-ci ildə rayonun Şərikan inzibati ərazi vahidinə daxil olan Qazançı-Dərəli kəndləri istiqaməti daxili qoşunlar, Seyidlər və Şərikan kəndləri Milli Ordu, Günqışlaq kəndi "bozqurdçular" tərəfindən qorunurdu. Məhz bu pərakəndəliyin nəticəsində 1992-ci il dekabr ayının 10-da rayonun 13 yaşayış məntəqəsini ermənilər bir neçə saatın içərisində işğal etdilər, yerli əhali qaçqına çevrildi. Ermənilərin həmin hücumu zamanı 18 dinc sakin vəhşicəsinə qətlə yetirildi, 45-ə yaxın döyüşçü həlak oldu, 2 nəfər isə girov düşdü.

Bu, Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü idi. Ermənistanın təcavüzkar dövlət olduğunu danılmaz faktlarla sübut etmək və barəsində beynəlxalq sanksiyalar tətbiq edilməsinə nail olmaq üçün kifayət qədər dəlillər var idi. Bütün dünya bilməli idi ki, işğal olunmuş həmin yaşayış məntəqələrinin Dağlıq Qarabağla heç bir sərhədi yoxdur və təcavüz Ermənistanın Qafan rayonu ərazisindən edilmişdir. Çox təəssüf ki, Ermənistanın iç üzünü açmaq, cinayətkar maskasını yırtmaq əvəzinə respublika prezidenti Əbülfəz Elçibəy susdu, müdafiə naziri Rəhim Qazıyev televiziya ilə çıxış edərək bildirdi ki, "Zəngilanda heç bir şey olmayıb, çox şey şişirdilib, yalnız iki təpəcikdə mövqelərimiz itirilib". Doğrudur, Vətənə sədaqətli oğulların qanı bahasına olsa da, düşmənlər işğal etdikləri yerlərdə duruş gətirə bilmədilər, lakin onlar əlverişli yüksəklikləri əllərində saxladılar. Düşmənlər həmin yüksəkliklərdən son saatlaradək istifadə edib rayona ağır zərbələr endirirdilər.

1992-ci il dekabr ayının 10-da ermənilərin hücumu zamanı 13 kəndin işğalı, 63 nəfərin şəhid olması, 2 nəfərin girov götürülməsi həmin kəndlərin əhalisinin köçkün düşməsi respublika rəhbərliyini həqiqətən narahat etmədi. Ən dəhşətlisi isə budur ki, həmin gün rayon əhalisi qan ağlayıb, şəhidlərini dəfn etməklə, işğal olunmuş ərazilərdən erməniləri qovub çıxarmaqla məşğul olduğu vaxt, rayonun



cəbhəçiləri Mərkəzi kitabxananın binasında bütün günü utanmaq bilmədən iclas keçirib rayonda kadrları dəyişdirmək, öz səriştəsiz nümayəndələrini yerləşdirmək məsələsini müzakirə edirdilər. Elə həmin vaxtdan da cəbhəçilər rayonda nüfuzlarını itirdilər.

Möhtərəm Prezident! Hörmətli görüş iştirakçıları!

Həmin günlər Zəngilanın və zəngilanlıların ən ağır günləri idi. Respublika rəhbərliyinin ermənilərin bu hücumunu, rayonun 13 kəndini işğal etmələrini xalqdan gizlətməsi, Zəngilana heç bir kömək göstərməməsi rayonda şok vəziyyəti yaratmışdı. Rayon icra hakimiyyətinin başçısı Əbülfəz Elçibəyin kadrı olduğundan, onların yerli-yersiz hər bir fikri ilə razılaşırdı. Buna görə də rayon icra hakimiyyətinin məs'ul işçisi Ağamirzə Məmmədov Mincivan qəsəbəsinə gəlib, dəmir yol rabitə xətti ilə xəlvəti olaraq Naxçıvana, cənab Heydər Əliyev, Sizə zəng edib ağlaya-ağlaya vəziyyəti Sizə danışıb. Yalnız Siz işə qarışıb Ermənistan prezidenti Ter-Petrosyana zəng vurduqdan 15 dəqiqə sonra atəş dayandırıldı. Zəngilan rayonuna ermənilərin hücumunu, cənab Əliyev, Siz dayandırdıqdan sonra respublika rəhbərliyinin onsuz da soyuq olan münasibəti sanki buza döndü. Onlar rayona əlavə qoşun göndərmək, müdafiəni möhkəmləndirmək əvəzinə Zəngilana öz nümayəndələrini göndərərək əhalinin köçürülməsi, rayonun boşaldılması məsələlərini gah gizli, gah da açıq formada genişləndirirdilər. Gecə-gündüz evlərə telefon zəngləri olunur, tələb edirdilər ki, tə'cili rayondan çıxın, ermənilər tezliklə rayonu işğal edəcəklər, hamınızı girov götürəcəklər və s.

Cəbhəçilərin, "bozqurdçular"ın rəhbərliyi ilə rayonda təxribatlar baş alıb gedirdi. Xalqın əl-qolunu soyutmaq və nəhayət, rayonu tərk etdirmək məqsədi ilə təxribatçılar Dağüstü park deyilən yerdən rayon mərkəzində icra hakimiyyətinin binasına gecə yarısı qumbaraatanla atəş açmışdılar. Təsadüfən mərmi ağaca dəymiş və ciddi zərər verməmişdi.

Digər bir fakt. Respublikanın o vaxtkı daxili işlər naziri İsgəndər Həmidovun özbaşınalığı və himayədarlığı rayonumuza böyük zərər vurmuşdur. İsgəndər Həmidovun himayədarlıq etdiyi "bozqurdçular" dəstəsi ordunun tərkibində olduğu halda rayona rəhbərlik etmək, komendant saatını özləri həyata keçirmək tələbi ilə 1993-cü il mart ayının 18-dən 19-na keçən gecə rayon polis şö'bəsini mühasirəyə alaraq bir sıra ultimatumlar verdi. Artıq qardaş qırğını gözlənilirdi. 40 nəfər "bozqurdçu" tam silahlı halda polis işçilərini hədələyib, sahə müvəkkillərini də girov verməyi tələb edirdi. Polis işçiləri soyuqqanlılıq göstərərək atışma doğura biləcək halları aradan qaldırıb vəziyyət barədə İsgəndər Həmidova telefonla mə'lumat veriblər. İsgəndər Həmidov martın 20-də banditizmə və terrorizmə qarşı dəstə göndərərək həmin "bozqurdçuları" guya həbs etdirmişdir. Lakin onları Bakıya apararkən yolda hamısını buraxmışdır.

Rayon prokurorluğunun sanksiyasından sonra "bozqurdçular" həbs olunmuş, məhkəmə istintaqına gətirilərkən onları qaçırmaq məqsədi ilə məhkəmə binasının yaxınlığına iki mərmi salınmışdır. Polis işçilərinin sayıqlığı nəticəsində məhbuslar qaça bilməmiş, lakin mülki əhalidən 2 nəfər həlak olmuş, 2 nəfər ömürlük şikəst olmuşdur.

Bütün bunlara baxmayaraq rayonun əhalisi öz doğma torpaqlarını tərk etmək niyyətində deyildi. Ermənilərin müxtəlif istiqamətlərdən "Qrad" qurğularından atdıqları mərmilər rayonun Qıraq Müşlan, Vəliqulubəyli və Tiri kəndlərinə, şəhər mərkəzinin aşağı hissəsinə düşsə də heç kəs rayonu tərk etmirdi.

Bu faktlar onu göstərir ki, rayonun əhalisində və döyüşçülərində böyük ruh yüksəkliyi hökm sürürdü. Bu əhval-ruhiyyə ilə də 1993-cü il aprel ayının 10-da rayonun polis işçiləri və döyüşçüləri Ermənistanın ərazisinə əks-həmlə edib, bizim rayon mərkəzinə və ətraf kəndlərə daim tank, top və "Qrad" qurğularından atəş açıb böyük dağıntı və faciələr törədən Qafan rayonunun 4 kəndini—Hənd, Sav, Kilsə, Şixavuz kəndlərini tutaraq bir ədəd T-80 tankı, 2 ədəd BMP, 2 top və xeyli hərbi sursat qənimət götürdülər. Bu döyüşdə rayonun polis işçiləri xüsusi şücaət göstərdilər. Onlardan 16 nəfər yaralandı, 3 nəfər şəhid oldu. Şəhidlərdən Müşfiq Mehrəliyev ağır yaralanaraq mühasirəyə düşmüş, düşmənin əlinə keçməmək üçün özünü qumbara ilə partladaraq həlak etmişdi.

Möhtərəm Prezident! Qubadlı rayonu ermənilər tərəfindən sıxışdırılarkən, Zəngilanın polisi və hərbi hissəsi öz ərazisi ilə yanaşı, Qubadlı ərazisinin də müdafiəsinə qalxdığı bir vaxtda Gəncədən Surət Hüseynovun dəstəsi rayonumuzun Cəbrayıl rayonuna tərəf çıxış yolunu kəsərək vəziyyəti seyr edirdi. Ən dəhşətlisi isə budur ki, Qubadlı rayonu işğal olunarkən əhali imkan daxilində özünün və təsərrüfatların mal-qarasını çıxarsa da, Gəncədən gələn dəstə qarətçi bir dəstə kimi hər şeyi xalqın əlindən alırdı.

Həmin vaxtlar Surət Hüseynovun iki səlahiyyətli nümayəndəsi rayon icra hakimiyyətində oturub demək olar ki, bütün rayonun, o cümlədən icra hakimiyyətinin işinə müdaxilə edirdi. Bu iki nəfər—Elxan və Sahib üçün icra hakimiyyəti aparatında xüsusi iş otaqları ayrılmış və bir çox məsələlər yalnız onların razılığı ilə həyata keçirilirdi. Halbuki həmin nümayəndələrin heç bir səriştəsi, iş və təşkilatçılıq bacarığı yox idi.

Surət Hüseynov və onun dəstəsi rayonun müdafiəsini möhkəmləndirmək, rayona əlavə döyüşən hissə göndərmək, hərbi texnika vermək əvəzinə daim sabitliyi pozur, ermənilərin rayon ərazisinə basqın etməsinə şərait yaradırdı.

İstər danışıqlar yolu ilə, istərsə də əks zərbələrlə ermənilər susdurulub, əhalinin bir az dincəlməsi üçün şərait yaradıldı. Lakin iki gün sonra Surət Hüseynovun 3 təyyarəsi gəlib Zəngilan rayonunun



üzərindən uçaraq Qafan şəhərinin yaxınlığına 2 bomba saldı. Bu bombalar uzaqbaşı 5-10 meşə ağacını sındıra bilərdi. Lakin bombalar salınandan 15 dəqiqə sonra Qafanın aşağı hissəsindən Zəngilan şəhəri və Qıraq Müşlan kəndi "Qrad" qurğularından elə bir atəşə tutuldu ki, rayon sanki lərzəyə gəldi. Bir neçə nəfər şəhid oldu, onlarca ev dağıdıldı.

Həmin vaxtlar rayonda fəaliyyət göstərən kəşfiyyat qrupunun və laçınlı Vaqif Cabbarovun silahlı dəstəsinin mövqeyi çox müəmmalıdır və zəngilanlılarda çox böyük şübhə doğurur.

Zəngilanlılar və rayonun müdafiəçiləri düşmənin məkrli niyyətini daim başa düşür, Ermənistanla həmsərhəd olan öz ərazilərindən başqa, qonşu rayonların da ərazilərinin müdafiəsinə kömək göstərirdilər. Rayonumuzun müdafiəçiləri hələ Laçın işğal edilərkən onun köməyinə yollanmış, Qubadlının işğal olunmuş Topağac yüksəkliyini geri qaytarmışdılar. Ağdam rayonu işğal edildikdən sonra Zəngilandan 106 nəfərlik bir qrup Boyəhmədli və Yeddixırman kəndlərini düşməndən azad etmişdi. Füzuli və Cəbrayıl rayonlarının işğalı zamanı köməyə gedən zəngilanlılar qətiyyətlə döyüşmüş, qəhrəmanlıq göstərmiş və bu döyüşdə xeyli itki vermişdilər.

Qubadlı rayonunun təslimindən sonra rayonumuzun müdafiəçiləri Qubadlının Ballıqaya və Çərəli kəndlərindən başlayaraq Həkəri çayının sol sahilindəki yaşayış məntəqələrini, habelə sağ sahilində yerləşən Mahruzlu, Zilanlı kəndlərini qorumaq məcburiyyətində qalmışdılar. Bu zaman 150-dən çox erməni quldulu məhv edilmiş, 15 nəfər əsir götürülmüşdü. Döyüşlər zamanı məhv edilmiş bir kəşfiyyatçı rus kapitanın meyidi və bir neçə erməninin cəsədləri Qubadlının işğalı zamanı namərdcəsinə qətlə yetirilmiş rayon xalq hakimi, prokuroru və polis şö'bəsi rəisinin meyidləri ilə dəyişdirilmişdir.

Möhtərəm Prezident! Hörmətli görüş iştirakçıları!

Mən zəngilanlıların döyüş qabiliyyətindən, onların göstərdiyi qəhrəmanlıqdan, şücaətdən çox danışa bilərdim. Lakin çox təəssüf hissi ilə Sizə çatdırmaq istəyirəm ki, o vaxtkı rayon və respublika rəhbərliyi, müdafiə naziri zəngilanlı döyüşçülərin adlarını belə tutmaq istəmirdilər, elə bil ki, onlar zəngilanlı döyüşçüləri təltifə təqdim etməyə bir-birindən qorxurdular. Elə bunun nəticəsidir ki, əhalinin sayı və ərazi cəhətdən Zəngilanla eyni, lakin müdafiə baxımından daha az ömürlü olan digər bölgələrdə 10-dan yuxarı Milli Qəhrəman olduğu halda, rayonumuzun müdafiəçilərindən və ermənilərə əks zərbələr vurmuş oğullarımızdan bir nəfəri də belə yüksək ada layiq görülməmişdir. Halbuki, digər bölgədə döyüşən zəngilanlı, Azərbaycanın Milli Qəhrəmanı Əsəd Əsədovun və 1994-cü ilin oktyabrında dövlət çevrilişi cəhdinin qarşısını alarkən xüsusi şücaətinə görə Milli Qəhrəman adına layiq görülmüş iki azərbaycanlıdan biri olan Elnur Nuriyevin nümunəsi göstərir ki, Zəngilanın müdafiəsi uğrunda şəhid

olmuş döyüşçülərdən bir qrupunun, xüsusən də topçu Nadir Feyziyevin, kəşfiyyatçı Baloğlan Süleymanovun, çavuş Adil Rüstəmovun, tankçı Emin Nəsibovun, Qorxmaz Allahverdiyevin, Sarvan Cəfərovun, Müşfiq Mehrəliyevin, Elman Orucovun, Vüqar Abışovun, Məhərrəm Süleymanovun, Sabir Paşayevin, Fazil Bəşirovun, Qəytərən Abbasovun, Təbiət Qurbanovun, Əjdər Həziyevin və qeyrilərinin bu yüksək ada və digər döyüş mükafatlarına layiq görülməsinə tam mə'nəvi əsas vardır.

Bütün bunlar onu göstərir ki, Ermənistanla müharibədə tam pərakəndəlik hökm sürmüş, vahid strategiya və taktika olmamışdır. Respublikanın o dövrdəki müdafiə nazirinin xəyanəti nəticəsində düşmənin ordusuna qarşı bölgə-bölgə, rayon-rayon, kəndbəkənd döyüşlər aparılmamışdır. Bu, xüsusən də Zəngilan rayonu mühasirədə qaldığı dövrdə özünü daha qabarıq şəkildə büruzə verdi. 1993-cü il avqustun 31-də qonşu Cəbrayıl, Qubadlı, Füzuli rayonları ermənilər tərəfindən işğal edilmişdi. Həmin gündən Zəngilan rayonu blokada şəraitində yaşamağa başladı. Rayonda elektrik enerjisi, su təchizatı kəsildi, çörək zavodunun fəaliyyəti dayandı. Bu hal 1993-cü il oktyabr ayının 29-dək, yəni 60 gün davam etdi. Oktyabrın 23-dən sonra isə 7 gün rayon tam mühasirədə qaldı, hətta respublika ilə telefon əlaqəsi də kəsildi.

Möhtərəm Prezident! Hörmətli görüş iştirakçıları!

1993-cü il oktyabr ayının 21-də respublikanın o vaxtkı müdafiə naziri Məmmədrəfi Məmmədov bir neçə saatlığa rayona gəldi. Vəziyyət barədə o, tam mə'lumatlandırıldı və ona bildirildi ki, əli silah tutan bütün əhali rayonun müdafiəsinə hazırdır, lakin bizə bir az kömək lazımdır. Nazir ona olan müraciətləri nəzərə alıb müəyyən tədbir görməK, Surət Hüseynovun göstərişi və Zaur Rzayevin əmri ilə onun rayona gəlişindən 4 gün əvvəl Zəngilandan çıxarılmış "Qrad" qurğularını geri qaytarmaq əvəzinə susdu və o qayıtdıqdan iki gün sonra—oktyabrın 23-də Horadiz yolu düşmənlərin əlinə keçdi, Zəngilanın Azərbaycanla əlaqəsi tam kəsildi. Çox təəccüblüdür ki, rayon tam mühasirəyə düşərkən rayon hərbi alayının komandiri polkovnik Firidun Şabanov və rayon icra hakimiyyətinin başçısı İlham Hüseynov rayondan çıxıb Bakı şəhərində olmuşlar. Bu isə hər şeydən əvvəl rayonun müdafiəsi məsələsinə çox mənfi tə'sir etmişdir.

Mən qeyd etdim ki, 1993-cü il avqust ayının 31-dən rayon mühasirə şəraitində yaşayırdı. Elektrik enerjisi olmadığından kiçik mühərrik vasitəsilə rayon rabitə şö'bəsinə müəyyən saatlarda işıq verilir, respublika radiosunun verilişləri böyük reproduktorla yalnız əhalinin həmişə toplaşdığı yerdə səsləndirilirdi.

Oktyabr ayının 25-də radio qəzetlərin xülasəsi verilişində "Ayna" qəzetinə istinad edərək bildirdi ki, ermənilər ultimatum irəli sürüb zəngilanlılara saat 18-dək vaxt veriblər. Əgər həmin vaxtadək rayon



təslim olsa, qadın, uşaq və qocalar azad ediləcəklər. Əks halda hamı kütləvi surətdə qırılacaqdır. Bu, axırıncı, həm də çox güclü psixoloji tə'sir, təxribat idi.

Artıq bəlli idi ki, müasir texnika ilə silahlanmış düşmənin qarşısında duruş gətirmək mümkün olmayacaqdır. Respublika Müdafiə Nazirliyinə, xüsusilə də müdafiə naziri Məmmədrəfi Məmmədova edilən müraciətlər bir qayda olaraq cavabsız qalırdı. Lakin oktyabr ayının 21-də müdafiə naziri Zəngilana gəlib gedəndən sonra rayona kömək göndərdi. O kömək nə idi? Oktyabrın 27-də iki vertolyotla rayona əsgərlər göndərildi. Onlar hərbi xidmətə yeni çağırılmış, heç bir təcrübəsi olmayan gənclər idi. Artıq gec idi. Çalışıb əhalini xilas etmək lazım idi.

Ermənilərin hər tərəfdən hücumunun qarşısı alınarkən döyüşçülər və yerli əhali arasında çoxlu tələfat var idi. Şəhidləri millətimizə xas olan qayda ilə dəfn etmək mümkün deyildi. Belə bir vəziyyətdə bir neçə valideyn öz övladlarının cənazəsini yumadan, ağa bükmədən döyüş paltarında öz həyətində basdırıb, özünü güclə Araz çayına çatdırmışdı. Allah bu müsibəti heç vaxt nə düşmənə, nə də öz içimizdən olan qorxaq, satqın, bu gün yaxında-uzaqda onun-bunun qoltuğuna sığınan alçaqlara bağışlamayacaqdır!

Möhtərəm Heydər Əliyev!

Zəngilanlılar ömrü boyu Sizə minnətdardırlar. Ona görə ki, Siz qısa vaxt ərzində Araz çayının səviyyəsinin aşağı salınması, əhalinin İran İslam Respublikasına keçməsi məsələlərini həll etməklə rayonun 35 min nəfərə yaxın əhalisini girov düşməkdən və kütləvi qırğından xilas etdiniz. Sizin həyata keçirdiyiniz bu tədbir həm xalqda, həm də döyüşçülərdə böyük inam, dəyanət yaratdı. Bə'zi istisnalar nəzərə alınmazsa, ümumiyyətlə rayonun müdafiəçiləri döyüşə-döyüşə, düşmənə ciddi müqavimət göstərib ağır zərbələr vura-vura rayonu tərk etmişlər. Həmin günlər ordu öz sıralarından 33 şəhid verərək dinc əhalinin Araz çayından İran ərazisinə salamat keçməsinə şərait yaratdı.

Səmimi e'tiraf etməliyik ki, orduda millət satqınları da, müəyyən partiyalara xidmət edənlərin mövqelərini döyüşsüz, yaxud əmrsiz tərk etməsi, mülki əhali ilə eyni vaxtda rayonu tərk etməsi faktları da olmuşdur.

Beləliklə, uzun illər aparılan mübarizə bəhrəsiz qaldı və alınmaz qala olan Zəngilan rayonu 1993-cü il oktyabr ayının 29-da süqut etdi.

Zəngilan rayonu erməni işğalçıları ilə mübarizədə 188 şəhid vermiş, əhalimizdən 44 nəfər itkin düşmüş, 110 nəfər əlil olmuş, 200-ə yaxın körpə yetim qalmışdır.

Ümumi sahəsi 707 kvadrat kilometr olan Zəngilan rayonunun 81 kəndi, bir şəhər tipli qəsəbəsi və Zəngilan şəhəri düşmən tapdağı

altında qalmışdır. İşğal nəticəsində 72 ümumtəhsil məktəbi, 46 uşaq bağçası, 39 mədəniyyət evi, 70 kitabxana, 9 muzey, 4 musiqi məktəbi, 19 klub, 64 səhiyyə və 42 rabitə obyekti, 47 məişət evi, 200 ticarət, 112 ictimai iaşə müəssisəsi, 42 sənaye, 15 kommunal obyekti, 145 inzibati bina, 10217 fərdi yaşayış evi, 31 kolxoz və digər çoxsaylı obyektlər bütün əmlakı və avadanlığı ilə birlikdə itirilmişdir. Dünyada ikinci, Avropada isə birinci yeri tutan 107 hektarlıq təbii çinarlığın, onlarca yeraltı və yerüstü sərvətlərin müvəqqəti itkisini də buraya əlavə etsək, düşmən təcavüzünün ağır nəticələri haqqında daha aydın təsəvvür etmək mümkün olar.

Bütün Azərbaycan xalqı çox yaxşı bilir ki, istər Zəngilan rayonu, istərsə də Qarabağ və ona qonşu rayonlar müvəqqəti işğal edilib və hansı yolla olursa-olsun, cənab Prezident, Sizin müdrik siyasətiniz nəticəsində tez bir vaxtda biz doğma yerlərimizə qayıdacağıq.

Mən deyərdim ki, torpaqlarımızın 20 faizinin işğalı faciələrin az bir hissəsidir. 1988-ci ildə Qarabağ münaqişəsi başlayandan az sonra bütövlükdə respublikamızın işğalı və məhvi təhlükəsi hamıya aydın görünürdü. Çünki həmin illərdə respublikanın təhlükəsizliyi, ərazi bütövlüyü yaddan çıxmışdı, vəzifə, kreslo, alver, şəxsi varlanma prinsipi hökm sürürdü. Xalqın silah və sursat üçün yığdığı milyardlarla pul kimlərinsə cibinə axırdı.

Əbülfəz Əliyevin respublikadakı ağır vəziyyəti görüb qaçması və ondan sonra rəhbər vəzifələrdə olan cəbhəçilərin, "bozqurdçuların" XTPD-çilərin hər yerdə təxribatlara əl atması xalqın inamını qırır, ermənilərin isə əl-qolunu açırdı.

Lakin, möhtərəm Prezident, Sizin respublika rəhbərliyinə qayıtmağınız xalqda böyük inam yaratdı, gərginliyi azaltdı. Göydə Allah, yerdə möhtərəm Heydər Əliyev, Siz Azərbaycan xalqını ölümdən, respublikanı isə məhv olmaqdan xilas etdiniz.

Xalqın özünə gəlməsi, daxili təxribatların kəsilməsi, düşmən hücumlarının dayandırılması üçün Sizin nail olduğunuz atəşkəs xalqımız üçün ilk qələbə oldu. Məhz atəşkəsdən sonra respublikada bütün işlər öz məcrasına düşdü, ordu quruculuğu həyata keçirilməyə başladı, dövlət çevrilişi cəhdləri dəf edildi, qardaş qırğınının qarşısı alındı.

Sizin məqsədyönlü siyasətiniz sayəsində ən iri xarici dövlətlərin respublikamıza marağı artmışdır. Respublikamız günü-gündən möhkəmlənir, qüdrətlənir, dünya miqyasında özünəməxsus yer tutur.

. Hörmətli Prezident, Zəngilan rayonu respublikanın ən ucqar rayonu olsa da onun yaxşı, yetkin, savadlı uzaqgörən ağsaqqalları, ziyalıları, əməkçiləri və Vətənini sevən gəncləri var. Zəngilanlılar hələ 1969-cu ildə respublikamıza rəhbərlik etməyə başladığınız dövrdən Sizi sevir və Sizə bir dahi kimi inanırlar. Siz Naxçıvanda olarkən də Zəngilan ziyalıları Sizin görüşünüzə gəlib, daim Sizinlə əlaqə saxlayıblar. Bir



az əvvəl qeyd etdiyim kimi, müharibənin dəhşətli anlarında zəngilanlılar Naxçıvana zəng vurub yalnız Sizdən kömək istəyib və Sizinlə məsləhətləşiblər.

1994-cü ilin oktyabr ayında dövlət çevrilişinə cəhd zamanı daxili düşmənlərin atdığı gülləyə zəngilanlı Milli Qəhrəman Elnur Nuriyev də öz sinəsini sipər edərək Sizin rəhbərlik etdiyiniz ölkəmizi qorumuşdur. Bütün bunlar zəngilanlıların Sizə olan məhəbbətinin ifadəsidir. Allah Sizi Azərbaycan xalqına çox görməsin!

Möhtərəm Prezident! Zəngilanlı kadrlara diqqətinizə, onları rəhbər vəzifələrə irəli çəkməyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz bu gün də zəngilanlı kadrlara böyük rəğbətlə yanaşmağınızın şahidiyik. Əmin ola bilərsiniz ki, zəngilanlılar, onların bu gün ətrafınızda olan kadrları Sizin e'timadınızı həmişə doğruldacaqlar.

Möhtərəm Prezident! Bildiyiniz kimi, mən 1996-cı il mart ayının 30-da Sizin sərəncamınızla rayon icra hakimiyyətinin başçısı tə'yin olunmuşam. İşə başlayandan sonra respublikamızın 43 rayonuna səpələnmiş köçkünlərimizlə görüşlərdən aydın oldu ki, rayonun keçmiş rəhbərliyi ötən müddətdə bir daşı belə daş üstə qoymayıb, rayon əhalisini öz talelərinin ümidinə buraxıb. Rayon rəhbərliyinin təşəbbüssüzlüyü, uzaqgörən olmaması və ələbaxımlılıq üzündən 1993-cü ilin yayında biçilmiş taxıl əl vurulmadan anbarlarda qaldı. Halbuki taxılı, mal-qaranı rayondan çıxarıb respublikamızın hər hansı bir bölgəsində saxlamaq olardı. Rayon işğal olunarkən isə kolxozların əksəriyyəti mal-qaranı və qoyun-keçiləri çıxarıb Araz çayından keçirmiş, rayon rəhbərlərinin gözü qarşısında bütün heyvanları İranda satmış və rayonun təsərrüfatlarında olan mal-qara damazlığını kəsmişlər. Lakin bu günədək həmin şəxslər haqqında heç bir tədbir görülməmişdir.

Bu az müddətdə köçkünlərin sıx yaşadığı binalarda müəyyən tə'mir işləri aparılmış, köçkünlərin bir hissəsini işlə tə'min etmək üçün respublikanın 3 rayonunda 300 hektar əkin sahəsi alınmış, 650 baş qoyun-keçi alınaraq heyvandarlığın təməli qoyulmuşdur.

Rayonun avtonəqliyyat müəssisəsinin, əhalini sosial müdafiə mərkəzinin, kənd təsərrüfatı və ərzaq idarəsinin, bir sıra kolxozların fəaliyyəti bərpa olunmuş, bir neçə fermer təsərrüfatı yaradılmışdır. Bu gün böyük əhəmiyyət kəsb edən, lakin neçə illərdən bəri unudulmuş "Qızıl Aypara" cəmiyyətinin rayon komitəsi bərpa edilmişdir. Fəaliyyəti bərpa olunmuş bütün idarə, müəssisə, təşkilat və təsərrüfatlara yeni işgüzar, daha səriştəli kadrlar tə'yin olunmuş və onlar özlərini doğruldurlar. İşğaldan sonra çıxmayan "Zəngilanın səsi" rayon qəzetinin 1996-cı ilin iyul ayında ilk nömrəsi buraxılmış və qəzetə yeni həyat verilmişdir.

Şəhidlərin və itkinlərin ailələrinə, əlillərə, tənha və kimsəsizlərə, yetim uşaqlara imkan daxilində vaxtaşırı maddi yardımlar edilir.

Zəngilan rayonu işğal olunduqdan sonra 650 ailə Azərbaycan Dövlət

Neft Akademiyasının tələbə şəhərciyində müvəqqəti məskunlaşmışdır. "Rossiya" şirkətinin sabiq prezidenti, hazırda fermer təsərrüfatının rəhbəri, salyanlı Səxavət Kərimov həmin 650 ailəni ilk gündən himayəyə götürərək onları bu günədək ərzaq məhsulları ilə tə'min edir. Həmin ailələr adından ona minnətdarlığımızı bildiririk.

Respublikamızda onun kimi imkanlı adamlar çoxdur. Yaxşı olar ki, onlar da Səxavətin təşəbbüsünə qoşulsun, bu dar gündə qaçqın və köçkünlərə maddi və mə'nəvi dayaq olsunlar. Əgər həmin biznes və iş adamları bu təşəbbüsə qoşularsa, bu qaçqın və köçkünlərə maddi və mə'nəvi dayaq olmaqla, həm də müharibə şəraitində yaşayan, iqtisadi cəhətdən zəif olan gənc dövlətimizə və möhtərəm Prezidentimizə hörmət əlaməti olar.

Bu il iyun ayının 6-da rayon icra hakimiyyəti zəngilanlı ziyalıların görüşünü təşkil etdi. Bu görüşə zəngilanlı olub, hazırda respublikanın müxtəlif yerlərində işləyənlər də'vət olunmuşdular. Həmin görüşdə rayon köçkünlərinin düşdüyü vəziyyət təhlil olundu və vəziyyətin aradan qaldırılması üçün ziyalı birliyi yaradıldı.

Biz böyük sə'y göstərərək Amerika səfirliyinin əməkdaşı Maykl cənablarını, sonra isə onun vasitəsilə Amerika Beynəlxalq İnkişaf Agentliyinin Qafqaz üzrə nümayəndələrini qaçqınlarımızın ən sıx yerləşdiyi Azərbaycan Neft Akademiyasının tələbə şəhərciyinə də'vət etdik. Qonaqlar köçkünlərin həyat şəraiti ilə tanış olduqdan sonra xəritə vasitəsilə respublikamızın torpaqlarının işğal edilməsi onlara izah olundu və xahiş olundu ki, öz ölkələrində bu vəziyyəti lazımi yerlərə çatdırsınlar və Amerika prezidenti torpaqlarımızın işğaldan sülh yolu ilə azad edilməsində bizim hörmətli Prezidentimiz Heydər Əliyev cənablarına yaxından kömək göstərsin.

Möhtərəm Heydər Əliyev! Düşmən zəngilanlıları əyə bilmədi, sındıra bilmədi. Zəngilanlılar Sizinlə daim həmrə'ydirlər və Sizin daxili və xarici siyasətinizi bütünlüklə dəstəkləyirlər.

Dekabrın 25-də ATƏT-in Lissabon zirvə toplantısının yekunları Zəngilan rayonu ictimaiyyəti nümayəndələrinin iştirakı ilə müzakirə olunmuşdur. Həmin günədək isə məcburi köçkünlərimizin məskunlaşdıqları bütün yerlərdə müzakirələr keçirilmişdir. Bütün yığıncaqlarda məcburi köçkünlərimiz Sizin Lissabon zirvə toplantısındakı gərgin əməyinizə yüksək qiymət vermiş, ATƏT-in üzvü olan dövlətlərin (Ermənistandan başqa) Azərbaycanı dəstəkləməsini və müdafiə etməsini dərin zəkalı insanın, müdrik siyasət sahibinin fəaliyyətinin məhsulu, tarixi bir hadisə, Heydər Əliyev qətiyyətinin, dönməzliyinin və Azərbaycan diplomatiyasının parlaq qələbəsi hesab etmişlər.

Yığıncaq iştirakçıları Lissabon zirvə toplantısında xalqımızın xeyrinə əldə edilmiş uğurlara kölgə salmağa çalışan müxalifət qüvvələrinin bədxah niyyətlərini qətiyyətlə pisləmişlər. Mən bir neçə məqamı müxalif qüvvələrin nəzərinə çatdırmaq istəyirəm. Lissabon zirvə



görüşünədək ATƏT-in üzvü olan 52 dövlətin çox hissəsi bədnam ermənilərı müdafiə edirdi. Əgər möhtərəm Prezidentimiz 1994-cü ildə mayın 12-də atəşkəsə nail olmasa idi, həmin dövlətlərdən əksəriyyəti ermənilərə hər cür dəstək verərdi və biz çox şey uduzmuş olardıq. Bir fakta istinad edək: atəşkəsdən 950 gün keçir. Əgər o vaxt atəşkəs olmasaydı, həmin dövlətlər yalnız Ermənistana kömək edər və biz əlavə 11-12 min nəfər gənci itirərdik və o sayda da ailə gözüyaşlı qalardı.

Bəli, Lissabon zirvə toplantısında 52 dövlət Azərbaycanın haqq işini müdafiə etdi. Bax bu, diplomatiyamızın, Heydər Əliyev zəkasının qələbəsidir.

Zəngilanlılar özlərini xoşbəxt sayırlar ki, qısa fasiləni nəzərə almasaq, 1969-cu ildən Sizin rəhbərlik etdiyiniz ölkədə yaşayırlar. Azərbaycan tarixinin həmin dövrü məhz Sizin adınızla bağlıdır.

Biz inanırıq ki, Siz öz sülh siyasətinizlə tezliklə torpaqlarımızı azad edəcəksiniz və bir milyon köçkün öz doğma yerlərinə qayıdacaqdır. Əgər torpaqlarımızı düşmən tapdağından güc yolu ilə azad etmək lazım gələrsə, Zəngilanın əli silah tutan bütün əhalisi Sizin bir çağırışınızla Vətənin ərazi bütövlüyünü qorumağa hazırdır.

Diqqətinizə görə minnətdaram.

## Zəngilan rayonundan olan Milli Qəhrəmanın həyat yoldaşı SEVİL ƏSƏDOVANIN çıxışı

Çox hörmətli Prezident!

Hörmətli görüş iştirakçıları!

Mənim həyat yoldaşım Əsəd Əsədov 1991-ci il oktyabrın 29-da Əsgəranda Ermənistan silahlı qüvvələrinə qarşı döyüşdə şəhid olmuşdur. 1993-cü ildə ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Bizim dörd övladımız var. İndi bu dörd oğulu mən saxlayıram, böyüdürəm. Hörmətli Prezident, mən Sizin atalıq qayğınızı daim hiss edirəm və balalarım da Sizin qayğınız altında böyüyürlər. Buna görə də mən Sizə ailəmiz adından öz minnətdarlığımı bildirirəm. Mən elə bilirəm ki, Əsəd yaşayır. Uşaqlarım ataları ilə fəxr edirlər.

Əziz Prezidentim, Siz hələ 1970-ci illərdə Azərbaycana rəhbərlik etdiyiniz vaxt mənim atam briqadir işləyirdi. Sizin köməyiniz sayəsində o, sıravi əmək adamı kimi qurultay nümayəndəsi olmuşdur. O vaxtdan da mənim babam Heydər olub. Əziz Prezidentim, biz o vaxtdan Sizi özümüzə baba, ata hesab etmişik, əziz tutmuşuq. Üzümü bütün şəhid analarına, bacılarına, milli qəhrəmanların həyat yoldaşlarına tutub deyirəm ki, bizim Prezidentimiz bütün dünyada birincidir.

Mən onu həmişə sevmişəm, indi də sevirəm, onu övladlarıma da sevdirirəm. Bütün qadınlardan xahiş edirəm ki, Prezidentimizi həmişə dəstəkləyək, onun tutduğu yolu əziz tutaq.

Əvvəllər, uşaqlar məktəbə qədəm qoyanda birinci növbədə Lenin haqqında şe'rlər əzbərləyirdilər və onu əzizləyirdilər. Mən istəyirəm ki, bu gün balalarımız orta məktəbin birinci sinfindən başlayaraq Heydər Əliyev haqqında şe'rlər, mahnılar oxusunlar, onun keçdiyi həyat yolunu öyrənsinlər, müəllimlər rəhbərimizi övladlarımıza dərindən sevdirməyi bacarsınlar. Heydər Əliyevin ömür yolu xalqımızın tarixində çox mühüm yer tutur və balalarımız bunu mükəmməl öyrənməlidirlər.

1991-ci ildə mənim həyat yoldaşım Əsgəran uğrunda döyüşlərdə şəhid oldu. Bu haqda danışa bilmirəm, çətinlik çəkirəm. Mənim üçün ikiqat matəmdir. Oktyabr ayında həm yoldaşım həlak olub, həm də Zəngilan düşmən tərəfindən işğal edilib. Zəngilan respublikamızın gözəl bir güşəsidir. Onun gözəl havası, igid oğulları var. Biz neçə-neçə şəhid verdik.

Hörmətli cənab Prezident!

Zəngilanın işğalı zamanı rayon əhalisinin Araz çayını keçməsində göstərdiyiniz köməyi biz heç vaxt unutmarıq və buna görə Sizə minnətdarıq. O vaxt məhz Sizin göstərişinizlə Araz çayının suyu azaldıldı və biz uşaqlarımızın əlindən tutub çayı asanlıqla keçdik. Zəngilanın müdafiəsi uğrunda xeyli igidlərimiz şəhid oldu, bir çoxları girov düşdü. Mən şəhidlərimizin adını iftixarla çəkə bilərəm: Məhəmmədimiz, Əsədimiz, Firdovsimiz, Nadirimiz—onlar çoxdur, lap çoxdur, onları itirməyimiz bizi yandırır. Əlimiz girov düşüb, nə qədər uşaq indi öz atalarının yolunu gözləyir.

Mənim qoca atam xəstəxanadadır. Həmin xəstəxananın həkiminə öz minnətdarlığımı bildirirəm. O, atama çox qayğı göstərir. Təəssüf ki, həmin həkimin adını bilmirəm. O, "Xalqlar dostluğu" metro stansiyasının yaxınlığında yaşayır.

Hörmətli Prezident!

Əziz Zəngilan camaatı!

Zəngilanlılar doğrudan da dözümlü camaatdır. Rayon işğal olunarkən biz yeddi gün mühasirədə, yağışın altında qaldıq. İran İslam Respublikasında uşaqlarımız çox çətinliklər çəkdilər.

Bütün çətinliklərə baxmayaraq biz öz Prezidentimizlə fəxr edirik. Biz inanırıq ki, yaxın gələcəkdə torpaqlarımız geri qayıdacaq. Bu günlərdə Horadizdə 40 ailə öz doğma evlərinə qayıtdı. Bu bizi sevindirdi, bizdə inam yaratdı ki, torpaqlarımız tezliklə azad olunacaq, zəngilanlılar da öz doğma evlərinə qayıdacaqlar, orada ocaqlarını yandıracaqlar.

Əziz, hörmətli Prezident, mənim Sizdən bir xahişim də var. Bayaq dediyim kimi, həyat yoldaşım 1991-ci ildə həlak olub. Mən indiyədək



onun Milli Qəhrəman kimi pensiyasını və iş yerindən əmək haqqını almıram. Dolanışığımız pis deyil. Bizi mənzillə tə'min ediblər. Deyəcəyim bu qədər, çox sağ olun.

Yeni Azərbaycan Partiyası
Zəngilan rayon təşkilatının sədri
**NÜSRƏT MUSTAFAYEVİN**
çıxışı

Möhtərəm Prezident! Əzizimiz Heydər Əliyev! Bu gün Zəngilan camaatının hamısının ürəyindən keçirdi ki, Sizinlə gəlib görüşsün. Təkcə bugünkü qayğılarınız üçün yox, bugünkü rəhbərliyiniz üçün yox, Siz hələ Naxçıvanda olarkən Zəngilan camaatına göstərdiyiniz qayğı üçün, diqqət üçün, verdiyiniz məsləhətlər üçün. Ona görə də həm bizim partiya üzvlərinin bir çoxu, eyni zamanda Zəngilan camaatının kütləvi yaşayış yerlərində olanların hamısı məndən xahiş etdilər ki, bir halda ki, bu görüşə hamımızın getməsi mümkün deyil, bizim salamlarımızı və minnətdarlığımızı Heydər Əliyev cənablarına yetirin. Mən onların hamısının salamını və minnətdarlığını Sizə çatdırıram.

**Heydər Əliyev:** Sağ olun.

**Nüsrət Mustafayev:** Hörmətli Prezident! XX əsrin axırında SSRİ-nin dağılması, dünyada siyasi sabitliyin pozulması, ən başlıcası isə tarixi və milli düşmənimiz, bədnam qonşumuz olan erməni daşnaklarının növbəti xəyanəti və təcavüzü nəticəsində Azərbaycan xalqının düçar olduğu bəlalardan və böhranlardan onu xilas etmək, belə narahat bir dövrdə, çətin zamanda Azərbaycana sipər olmaq Sizin taleyinizə yazılmışdır. Bu gün isə biz bu qeyd etdiyim tarixi hadisələrin ayrılmaz tərkib hissəsi olan Zəngilanın işğal edilməsi səbəblərini müzakirə etmək, bu hadisəyə bir daha baxış keçirmək üçün buraya toplaşmışıq. Biz bu baxışı elə keçirməliyik ki, təcavüzkarlar, təxribatçılar düzgün müəyyənləşdirilsinlər və hadisəyə dəqiq qiymət verilsin.

Hörmətli Prezident! Hər şeydən əvvəl qeyd edim ki, biz Sizin çoxsaylı çətinliklər və problemlərlə qarşılaşdığınızı yaxşı görürük və bilirik. Bunlar hansılardır? Birincisi, milli düşmənimiz olan ermənilər həmişə böyük xarici dövlətlərin əlində alət olmuş və bu gün də Azərbaycana qarşı qızışdırılır. İkincisi, müharibə artıq Ermənistan-Azərbaycan çərçivəsindən kənara çıxmış, bu məsələyə nüfuzlu dövlətlərin və beynəlxalq təşkilatların qarışması zərurəti meydana gəlmişdir. Üçüncüsü, hər cür sərvətlərə və doqquz iqlim qurşağına malik olan Azərbaycanda bir çox kapitalist dövlətlərinin marağı toqquşur. Ən başlıcası isə—daxilimizdə kürsü, hakimiyyət azarkeşlərinin apardıqları təxribatlar və çəkişmələr Sizin işlərinizi çətinləşdirir.

Ümumiyyətlə, bundan əvvəlki dövrdə Azərbaycanı nələr, hansı bəlalar gözlədiyi sağlam düşüncəli şəxslərə mə'lum idi. Mərkəzdən olan xəyanətlər bizə aydındır, mə'ruzədə də bunlar deyildi, ona görə də mən bunları çox qısa demək niyyətindəyəm. Vəzirovun, Mütəllibovun, Surət Hüseynovun, Pənah Hüseynovun, Rəhim Qazıyevin xəyanətkarlığı heç də sirr deyildir. Əgər bunlar xəyanətkar olmasaydılar, öz doğma torpaqlarında özlərinə sığınacaq tapardılar, xarici ölkələrə qaçmazdılar. Mən bu barədə fikrimi bununla yekunlaşdırıram.

Xalq hərəkatı şüarı, pərdəsi altında hakimiyyətə can atanların platformasını biz çoxdan görürdük. Ona görə də mən xahiş edirəm, buna düzgün qiymət verilsin, mən bunu deməyə çətinlik çəkirəm. Mən hələ o vaxtlar,—mənim siyasi həmkarlarımdan burada var,—birinci dəfə prezident seçkiləri zamanı Ali Sovetə məktub yazmışdım, bir də Sizin özünüzə. Sizin yaddaşınız güclüdür, bəlkə də yadınızda qalar. Mən o vaxt, hələ Elçibəyin seçildiyi dövrdə yazmışdım, xahiş etmişdim Ali Sovetdən ki, Heydər Əliyevi hakimiyyətə gətirmək lazımdır, Azərbaycanı bu bəlalardan ancaq Heydər Əliyev xilas edə bilər. Sizin özünüzə yazmışdıq ki, Sizin haqqınızda böhtanlar, şayiələr, haqsızlıqlar çox olub, Sizdən xahiş edirik, inciməyin, küsməyin, qəbul edin bu çətinliyi, ancaq Azərbaycanı bu bəlalardan qurtarın. Belə bir məktub yazmışdım, mənim siyasi həmkarlarımın hamısı buna şahiddir.

Lakin necə oldu? Hakimiyyətə Əbülfəz Elçibəy başda olmaqla bütün vəzifələrdə təsadüfi, naşı, səriştəsiz, karyerist, rəhbərlik məktəbindən xəbəri olmayan, lakin tamah dişi iti olan adamlar gəldilər. Onlar gəldilər, "milli lider", "xalqın rəhbəri" səviyyəsinə "yüksəldilər". Nəticə nə oldu? Nəticə o oldu ki, qısa müddətdə iqtisadiyyatımıza ağır zərbə vuruldu, sərvətlərimiz dağıldı, respublika iflic vəziyyətinə düşdü. Düşmən təcavüzünün əsas səbəblərindən biri də ondan ibarətdir ki, rəhbərlik e'tibarsız əllərdə idi, orada Heydər Əliyev yox idi. Bunu camaatın hamısı deyir, hamının fikridir—əgər Heydər Əliyev hakimiyyətdə olsaydı, heç bir vaxt erməni təcavüz edə bilməzdi. Biz bunu yaxşı bilirik.

Buna baxmayaraq münaqişənin ilk illərində üstünlük bizim tərəfimizdə idi, kiçik Zəngilan düşmənə qan uddururdu. Ancaq qələbə və müvəffəqiyyət məsələsi rayon rəhbərlərinin də fəaliyyətindən çox asılı idi. O vaxt Mərkəzi Komitədən Tofiq Mehdiyev göndərilmişdi. Baxmayaraq ki, onun gəlişi ilə erməni təcavüzü eyni vaxta təsadüf etdi, ancaq rayonda işlərin ahəngi də pozulmadı, erməni təcavüzünə qarşı barışmaz mübarizə aparıldı. Hər gün orada hərbçilərlə görüşlər keçirilirdi, axşamlar müdafiə şurasında müzakirə olunurdu və s. Belə işlər nəticəsində nə bir kənd əldən getdi, necə deyərlər, nə də bir adamın burnu qanadı. Ermənilər kiçik təcavüz əvəzində həmişə bizdən böyük zərbələr aldılar. İndiki kimi yadımdadır, bizim bir neçə milis



işçimiz girov götürülmüşdü. Onların əvəzinə biz Zəngilan, daha doğrusu, Qafan—Yerevan qatarını dayandırıb, orada çoxlu ermənini saxlatdırdıq. Onlar dəfələrlə xahişə gələndən sonra biz girovları dəyişdirdik.

Sizin hamınıza yaxşı bəllidir ki, Koçaryan Ermənistanda yaşayan azərbaycanlıların köçürülməsinin təşkilatçısı idi. O Koçaryan Zəngilanın cəngavər oğlanları tərəfindən tutuldu, bu da düşmənə ağır zərbə oldu. Ona görə də düşmən müdaxilədən bir qədər çəkindi. Yaxşı yadımdadır ki, Ermənistanın Nüvədi kəndi mühafizə xidmətlərindən məhrum olmuşdu. O vaxt bizim yerli sovet qərar qəbul edib Ali Sovetə göndərmişdi. Biz eşitdik, Sizdən başqa o qərarın lehinə səs verən olmamışdı ki, o vaxt Nüvədi Zəngilanın himayəsinə götürülsün. Amma Zəngilan onları himayəyə götürdü və təcavüzün axırına kimi Nüvədi öz yerində qaldı. Zəngilan dəmiryolçuları və tələbələrinin Mehri rayonunda girov götürülməsi məsələsi var idi. Şəxsən mən özüm də işə qarışdım, respublikanın hər yerinə, rəhbər təşkilatlara zəng vurdum, heç kim qarışmadı bu işə. Şəxsən Siz qarışandan sonra o girovlar dəyişdirildi, bizə qaytarıldı.

Ən bəlalı cəhətlərdən biri də o idi ki, daxili təxribatlar gündən-günə artırdı, təcavüz genişlənirdi. Bayaq mə'ruzədə də deyildi, İldırım Məmmədov var idi,—peşəkar hərbçi idi. Çox yaxşı hərbçi idi. O istəyirdi ki, Zəngilanda hərbi qüvvəni, rayonun müdafiəsini qüvvətləndirsin. Amma nə oldu? Cəbhəçilər onun üzərinə sərxoş adamlar göndərdilər, atışma əmələ gəldi, əsgər öldü, bununla da İldırım Məmmədovu Zəngilandan araladılar. Ermənistanla sərhəd kəndlərimizdə yanğınlar olurdu, evlər dağıdılırdı,—mə'ruzədə də deyildi,—Zəngilan şəhərinin mərkəzinə iri çaplı silahlardan atəş açılırdı. Bu heç də erməni deyildi, yoldaş Heydər Əliyev, bu, özümüzdən olan təxribatçılar idi, özümüzünkülərin atəşləri idi.

Zəngilan təcavüzə heç də 1993-cü ildə mə'ruz qalmamışdı, Zəngilan hələ 1992-ci ildən satıla-satıla gəlirdi. Həmin ildən satılmışdı, satılmanın bünövrəsi o vaxtdan qoyulmuşdu, daha doğrusu həll olunmuşdu. Mənim yaxşı yadımdadır, 1992-ci ilin mart ayı idi, Zəngilana Xanlar rayonundan 70 maşın göndərilmişdi. Rayon Sovetinin sədri,—çox təəssüf ki, xəstələnibdir, burada yoxdur, sabiq sədr Eldar Eyvazov,—o, məni çağırdı, getdim və aydın oldu ki, Zəngilanı köçürmək üçün 70 böyük maşın göndərilib. Biz söhbət etdik. Eldar Eyvazov zəng etdi Ali Sovetə, Prezident Aparatına, Nazirlər Kabinetinə, heç kimi tapmadı ki, öyrənsin bu göstərişin müəllifi kimdir, onu kim vermişdir? Xanlar rayonu ilə də danışdıq, oradan da dedilər ki, biz belə göstəriş verməmişik. Çox təəssüf ki, Sizinlə danışa bilmədik, imkan vermədilər, daha doğrusu, məhdudlaşdırdılar. Biz onda böyük bir səhvə yol verdik, mən sonra başa düşdüm. O səhvə yol verdik ki, biz həmin adamlardan girov götürməliydik, görək onlar kimdir. Ancaq bunu edə bilmədik.

Biz Eldar Eyvazovla o maşınları apardıq Cəbrayıl sərhədinə, yola saldıq, getdilər, qayıtdıq evimizə. Onu da ona görə edə bilmədik ki, deyirdik Zəngilan köçər, ermənilər müdaxilə edər, sonra biz ona cavabdeh olarıq. Bu, o vaxt çox mürəkkəb məsələ idi.

Bir sözlə, Xalq Cəbhəsi hakimiyyətdə olanda icra hakimiyyəti başçısı vəzifəsi sınaq meydanına, təcrübə məktəbinə çevrilmişdi. Kim gəldi, onu icra başçısı qoyurdular. O vaxtlar Telman Kazımov var idi. Xalq Cəbhəsinin təqdimatı ilə hakimiyyətə gəlmişdi. O, gələn kimi mən dedim ki, ərazidə müharibə gedir, rayon pis vəziyyətdədir. Bu işlərlə məşğul olmaq əvəzinə qisas almaq, kimlərdənsə əvəz çıxmaq məsələləri ilə məşğul oldu, rayon tamamilə yaddan çıxdı. Bir sözlə, ordu ilə icra hakimiyyəti arasında uçurum yaradıldı.

Bəs vəziyyət necə oldu? Bir gün zəng etdi mənə, dedi ki, bəs ermənilər bizi görüşə çağırıblar. Dedim, mövzu nədən ibarətdir? Dedi mövzu ondan ibarətdir ki, bizim sərhəddən keçən yolu açmaq istəyirlər, bunu xahiş edirlər. Mən qət'i e'tirazımı bildirdim, dedim, yolu açmaq olmaz, ona görə ki, bunun iki əhəmiyyəti var, biri strateji əhəmiyyəti idi—oradan Qafana sərrast atəş açmaq mümkün idi, ikinci əhəmiyyəti ondan ibarət idi ki, o yol bizim zonada olan erməni kəndləri ilə Qafanın əlaqəsini kəsmişdi. Razılaşmadıq, sonra Rayon Sovetinin sədri Eyvazov da gəldi. Xeyli mübahisədən sonra Eyvazov getdi, mən gedə bilmədim, bir ağsaqqal kimi oturdum dedim yolu açmaq olmaz. Dedi ki, bəs biz gedəcəyik—prokuror, sən, mən. Ən nəhayət, onlar razılaşmadılar, prokurorla ikisi getdilər. Yolu açdılar, orada bizim basdırdığımız minaları da öz əsgərlərimizə çıxartdırdılar. Bəs vəziyyət necə oldu? Separat danışıqların nəticəsi ondan ibarət oldu ki,—burada mə'ruzədə deyildi—bir gecənin içərisində Zəngilanın Oxçu çayı boyunca, şimal zonası boyunca 13 kənd işğal edildi, evlər dağıdıldı, adamların başı kəsildi, insanlar tonqala atıldı və s. Hadisə bununla nəticələndi, o separat danışıqların nəticəsi bundan ibarət oldu.

Ən nəhayət, vəziyyət o yerə gəlmişdi ki, biz artıq rayon icra hakmiyyətinin fəaliyyəti ilə hesablaşa bilmirdik. Görürdük ki, burada təcavüz var, görürdük ki, burada xəyanət var, xəyanətdən əl çəkmirlər. Vəziyyət elə oldu ki, sakitləşmək əvəzinə o, rayon sovetinin sədrini də vəzifədən çıxardı—deputatların birini öyrətdi, birini qorxutdu, deputatları icra hakimiyyətinə yığdırıb onları topun-tüfəngin gücü ilə qorxutdu. Daha doğrusu, icra hakimiyyətinin ətrafına silahlı dəstələr yığdı ki, bura heç kim müdaxilə etməsin,—onu vəzifədən çıxardı. Cavan, təşkilatçı oğlandır, bu gün də işsizdir.

Vəziyyət o qədər gərginləşmişdi ki, artıq fərdi mübarizə səmərə vermirdi. Orada daxili təxribatlara, pozucu, dağıdıcı qüvvələrə qarşı mübarizə aparmaq üçün siyasi qüvvə lazım idi. O vaxt Azərbaycan ziyalılarının təşəbbüsünə qoşulub bizim partiyanı birinci yaradanlardan



biri də Zəngilan rayonu oldu. 1992-ci il sentyabr ayının 1-də biz partiyanın rayon şö'bəsinin bünövrəsini qoyduq. Mən çətinlik çəkirəm bə'zi şeyləri deməyə—nələrlə üzləşmədik. Uzun müddət mənimlə çiyin-çiyinə işləmiş, əvvəllər aparatda rəhbər işdə çalışmış yoldaşları də'vət elədim ki, gəlin partiyanı yaradaq, bu lazımdır bizim üçün, siyasi mərkəzdir. Mən burada adlarını çəkmək istəmirəm,—ona görə yox ki, çəkinirəm, ona görə ki, əməllərini üzlərinə demişəm,—bə'ziləri dedilər ki, Mustafayev, bilirsiniz nə var, Heydər Əliyevi Naxçıvandan da qovurlar, rəhmətliyin oğlu, sən nə danışırsan, burada partiya yaradırsan? O gündən də biz o yoldaşlarla olmuşuq siyasi rəqib, halbuki dost idik, ailəvi yaxın idik. Bə'ziləri də yaxalarını qurtarmaq üçün dedilər ki, bilirsiniz nə var, Mustafayev, mən bir dəfə kommunist partiyasının üzvü olmuşam, daha ayrı partiyanın üzvü olmaq istəmirəm. Mənim xətrimə dəyməmək üçün. Belə yaxalarını qurtardılar.

Amma bu gün o partiyaya meyl eləyənlər də çoxdur, Heydər Əliyevçi olmaq istəyənlər də çoxdur. Biz onlara vaxtında sözümüzü demişik. Amma bizim, yoldaş Əliyev, heç təmənnamız olmadı. Şəxsi imtiyaz gözləməmişik. Yalnız bir məqsədimiz, bir amalımız olubdur ki, Heydər Əliyev kimi ağıllı bir şəxsiyyətin arxasınca gedək. Biz bütün dünyada ağıllı siyasətçi kimi, dövlət xadimi, siyasi xadim kimi tanınmış Heydər Əliyevin arxasınca gedirik. Bizim ayrı heç bir imtiyazımız olmayıbdır, gözləməmişik və bu gün də gözləmirik.

Bir də məqsədimiz ondan ibarətdir ki, rayonumuzda, respublikamızda baş verən hadisələrdə bir təşkilat kimi fəal iştirak eləyək. Bax, ikinci məqsədimiz də bundan ibarət olubdur. Cəsarətlə deyə bilərəm ki, bizi istəməyən subyektiv niyyətli ünsürlər bizdə nöqsan və bir sözlə, bizimlə mübarizə üçün heç bir mövzu tapa bilməmiş və söz verirəm ki, bundan sonra da tapa bilməyəcəklər.

Yuxarıda qeyd etdiyim kimi, torpaqların müdafiəsi rayon səviyyəli rəhbərlərin səriştəsindən çox asılı idi. O vaxt Zəngilanda belə kadrlar var idi, vəzifəyə qoymaq mümkün idi. Amma vəziyyət necə oldu? Mən gözləyirdim ki, mə'ruzədə deyilsin, deyilmədi—İlham Hüseynovu cəbhəçi vəsiqəsi gəzdirdiyinə görə gətirib ora qoymuşdular, kresloda əyləşdirmişdilər. Rəhbərlik məs'uliyyətindən xəbəri olmayan bir adam idi. Bu misal üçün dönə-dönə üzr istəyirəm, yoldaş Əliyev Sizdən, onun rəhbərliyə gəlməsi şahın fil həkimi məsələsinə bənzəyirdi. Şah fili üçün uzun müddət həkim axtarandan sonra tapır. Fil həkimi gəlib deyir ki, görün bunun hərarətini necə ölçmək lazımdır, ondan sonra mən müalicəyə başlayım. İlham belə bir adam idi. İlham Hüseynovun nə rəhbərlik səriştəsi var idi, nə əhalinin taleyi, nə də torpaqların taleyi onu maraqlandırmırdı. Əbülfəz Elçibəy hakimiyyətdən gedəndən sonra o, Mincivan stansiyasında onunla danışırdı. Bəli, bizim partiya üzvlərinin xətti ilə yoxladıq, görək nə danışırlar, necə

danışırlar. Gördük deyir ki, biz səninləyik, siyasətini dəstəkləyirik, heç vaxt sənin siyasətindən əl çəkməyəcəyik. Hələ Zəngilan yerində olanda bu məsələlərdən söhbət gedirdi.

O vaxtlar, necə deyərlər, üzdəniraq yeni bir kəşfiyyat dəstəsi meydana gəlmişdi. Bu da, mən gördüm ki, mə'ruzədə ötəri verildi. Amma mən bunu açıqlamaq istərdim. O kəşfiyyat dəstəsində bir nəfər də cavan adam yox idi. Bunlar kimlərdən ibarət idi? Yaşlı adamlardan. Bəlkə, yenə də üzr istəyirəm, dünyasını dəyişmiş adamların da adları var idi o dəstədə. Bizim qohumlardan da biri var idi. Mən bir gün onu çağırdım yanıma, soruşdum ki, de görüm, nə iş görürsən orada? Dedi heç bir şey. Nə verirlər sizə? Dedi, gətirdikləri pulların 40 faizini bizə verirlər, 60 faizini özləri aparırlar. Ərzaq da kənddə lazım deyil, ərzağı özləri aparırlar. Soruşdum ki, kimindir bu dəstə? Dedi ki, Rəhim Qazıyevin dəstəsidir bu. Bilirsiniz, mən Rəhim Qazıyevə teleqram da vurdum, məktub da yazdım. Heç bir cavab ala bilmədim ki, görək bu nədir, nə dəstədir. Dedim, onda ərizə verin, çıxın, yararsız şeydir. Amma deyim ki, yoldaş Əliyev, biz o vaxt onlara qarşı hələ fərdi qaydada mübarizə apara bilmirdik.

Yağı düşmən üzərində qələbə çalmaq üçün ordunun siyasi və döyüş hazırlığı ən başlıca şərtlərdən biri idi. Ancaq vəziyyət ayrı cür idi. Ordunun döyüş hazırlığı ilə maraqlanan yox idi. O vaxt hərbçilər aylarla evlərinə buraxılırdı, gedib evlərində qalırdılar. Ən yolverilməz cəhət bundan ibarət idi ki, əsgərlər hətta əhalinin qarət edilməsinə cəlb olunmuşdular, əhalinin əmlakını qarət edirdilər.

Sərhədlərin açılması hamının yadındadır. Ən çox cəbhəçilər canfəşanlıq göstərirdilər. Heç deməyəsən, sərhədlərin açılmasında bunların məqsədləri ondan ibarət imiş ki, qarət etdikləri malları xarici ölkələrə aparıb satsınlar. Mən konkret faktla deyirəm. İndi bu saat zəngilanlılar bizi eşidirlər, hamısı eşidir. Ağakişilər kəndində Süleyman kişi var, çox yaxşı nəsildəndir, ağsaqqal kişidir, mənim yanıma gəlib, söhbət edib. Deyir ki, bir gün gəldim gördüm 3-4 qardaş bir yerdə qalırlar, ağıllar doludur mal-qara, keçi, camış, inək—hamısından. Dedim, ay oğul, bunlar kimindir? Dedilər ki, Xaqani Cəbrayılovundur—batalyon komandiri, özü də Zəngilandandır. Gərək deyiləydi o mə'ruzədə. Deyir ki, ay oğul, haradan gətirmisən bunları? Deyir Qubadlıdan gətiririk. Bu vaxt Xaqani Cəbrayılov gəldi, dedim ki, ay oğul, ayıbdır, Qubadlı camaatının mal-qarasını niyə gətirmisiniz bura? Deyir ki, bilirsiniz nə var, onsuz da ermeniyə qalacaq. Sual olunur, batalyon komandiri haradan bilirdi ki, bizim əmlakımız ermeniyə qalacaq? Demək belə çıxır ki, bunların mə'lumatları var idi, təxribatları törədənlərin biri də onun özü imiş. Milli qürurunu itirmiş, hərb aləmində xəyanətkar çıxmış şabanovçular—Şabanovun əlinin altında olan adamlar, demək, Vənəndli kəndinin üstündə topxana var, Vənəndli topxanasında, Zəngilan stadionunda,—yoldaşların çoxu yəqin şahiddir,—İsgəndərbəyli



kəndində ferma düzəltmişdilər—quşdan camışa kimi, qarət elədikləri mal-qaranı gətirib ora yığır, aparıb İranda satırdılar.

Ən xarakterik məsələ: Məhəmməd müəllim məni yəqin eşidir, orada batalyon komandiri olub, rus dili müəllimidir, Sarılı Xəştab kəndindəndir. O, gəlib söhbət edir, deyir köçən vaxtda hər kənd mal-qarasını bir yerdə gətirirdi—qoyun-keçidən tutmuş camışa qədər. O zonada böyük bir kənd var—Orta Yeməzli kəndi, bunlar mal-qarasını gətirib Vənəndli kəndindən keçirəndə bir əsgər gəlir ki, bəs erməni gəlir, qaçın, mal-qaranı apara bilməyəcəksiniz. Soruşurlar kim deyib? Deyir, Xaqani Cəbrayılov məni göndərib ki, gedin, deyin mal-qaranı qoyub qaçsınlar. Onlar mal-qaranı qoyub qaçırlar. Mincivan stansiyasında Məhəmməd Yusifov söhbət edir ki, gördüm əliboş gəldilər. Soruşdum ki, ay oğul, bəs mal-qara hanı? Dedilər ki, Xaqani Cəbrayılovdan belə ismarış aldıq ki, erməni gəldi, qaçın. Elə mal-qaranı orada qoyduq, gəldik.

Gəlib İranda nə görsələr yaxşıdır? Görürlər ki, bir kəndin mal-qarasının hamısı·hərbçilərin vasitəsilə gətirilib İranda satılır. İşğal zamanı İlham Hüseynov, rayonun prokuroru və Şabanov Bakıda olublar. O vaxt söhbət getdi ki, anası vəfat edibmiş. Tutaq ki, anası vəfat etmişdi, rayonun başqa rəhbərlərinin gəlməsinə nə ehtiyac var idi? Şabanov rayonun hərbi rəhbəri idi, onun gəlməsinə nə ehtiyac var idi? Zəngilanlıların bir çoxlarının atalarının, övladlarının meyidləri həyatlərində dəfn edilib, İlham Hüseynovun anası da Zəngilanda basdırılsaydı nə olardı? Zəngilanda yaşayırdı axı, niyə Bakıya gətirirdi ki, o da camaatı qoyurdu özbaşına, sonra camaatın başına o fəlakətlər gəlirdi?

Zəngilanda 30-31 kolxoz var idi. Bə'zi təsərrüfatlar istisna olmaqla, bunların hamısının mal-qarası İranda satılıb—İlham Hüseynovun, bir də prokuror Əzizovun iştirakı ilə. Onların gözünün qabağında satılıb. Onlara mən dəfələrlə xatırlatmışdım. Nəyə görə müdaxilə eləmədilər? Ona görə ki, o pula onlar da şərik idilər. Burada deyirlər guya icra hakimiyyətinin "Niva"sı Zəngilanda qalıb. Mən bir sual verim. Bir yetim Çapay var, onu tanıyırlar, onun böyük avtobusunun mühərriki xarab olmuşdu. Avtobusu traktora qoşub, gətirib qoymuşdu İranda. Bu ilin əvvəllərində mənim də yanıma gəldi, biz xahiş elədik, kömək elədik, İrandan o maşını birtəhər aldılar, sürüyə-sürüyə gətirdilər, burada düzəltdilər. Necə olur ki, Yetim Çapay mühərriki xarab olmuş avtobusu gətirə bildi, icra hakimiyyəti "Niva"nı gətirə bilmədi? Amma məndə olan mə'lumatlara görə Sumqayıt şəhərində o "Niva"nı satmaq üçün müştəri axtarırmışlar. Mənə belə mə'lumat çatıb. Biz belə şeylərlə barışmayacağıq.

Bilirsiniz, yoldaş Əliyev, başqa yerlərdən fərqli olaraq, Zəngilan camaatı 100 faiz əliboş gəlmişdi. Əhali Arazdan adlamışdı. Bu, ancaq Sizin təşəbbüsünüzlə, Sizin sə'yiniz nəticəsində mümkün olmuşdu.

Yoxsa Xocalı hadisəsi Zəngilanda təkrar olunacaqdı. Bunu Siz yaxşı bilirsiniz. Heç bir çıxış yox idi, hər tərəfdən yol kəsilmişdi, Zəngilan blokadada qalmışdı. Yenə deyirəm, şəxsən Sizin təşəbbüsünüz, Sizin tə'kidiniz nəticəsində Zəngilan camaatını oradan xilas etmək mümkün olmuşdu. Bunun üçün Zəngilan camaatı həmişə Sizə minnətdardır.

Milli Ordunun hissələri mülki əhalidən əvvəl çıxıb İrana getmişdi. Yoldaşlar bilirlər, burada mə'ruzədə yarımçıq deyildi nə isə. Hansı müdafiədən danışmaq olar burada? Camaat görüb ki, milli ordunun əsgərləri İranın sərhədindədir. Heç bir vaxt demək olmazdı ki, döyüşdülər. Düzdür, əvvəllər ordu döyüşürdü. Demək istəyirəm ki, o Qafan kimi böyük şəhərdə görüşlər zamanı həmişə xahiş eləyirdilər ki, biz bir-birimizə atəş açmayaq. Amma o vaxt heç cür demək olmaz ki, Zəngilan döyüşdü getdi. Zəngilanı satdılar. Vəzifə məs'uliyyətini itirmiş İlham Hüseynov,—keçmiş icra hakimiyyəti başçısından söhbət gedir,—işğaldan sonra yenə də öz çirkin niyyətlərindən əl çəkmirdi. Mənə siqnal gəldi ki, onlar burada, "Azadlıq" qəzeti redaksiyasında və bir də başqa yerdə cəmləşirlər, dövlət çevrilişinə hazırlaşırlar. Mən yoldaşlardan göndərdim, onları tanımırdılar. Gəldilər, mənə mə'lumat gətirdilər ki, bəli, toplaşırlar, özü də mövzuları ondan ibarətdir ki, hakimiyyəti dəyişdirmək, Heydər Əliyevi vəzifədən çıxarmaq, yeni hakimiyyət gətirmək fikrindədirlər və s. Bunlar barədə mən sonra deyəcəyəm. Rəhbər orqanların hamısına mə'lumat vermişik. Amma məsələ burasındadır ki, o adam haqqında tədbir görülmürdü.

Bir sözlə, rayon səviyyəli rəhbərlikdən məhrum olmuşduq, yoldaş Əliyev. İlham Hüseynov o vaxtlar Zəngilandan köçüb Bakıya gələndən sonra camaatla əlaqəsini tam itirmişdi. Ancaq buna baxmayaraq kimlərsə ona sipər olurdu, kimsə onu mühafizə edirdi, qalırdı vəzifədə. Biz çatdırırdıq, Siz gələndən sonra Sizə yazırdıq, başqa əlaqədar təşkilatlara yazırdıq ki, bu, orada qalmamalıdır, axı xəyanətkardır. Nə isə o, uzun müddət orada mühafizə olundu, qaldı.

Hələ 1993-cü ildə mənim partiyada birinci müavinim var, Həsən Ələkbərov,—nə isə bu gün məhdudlaşdırdılar, mən açıq danışan adamam, qoymadılar bura gələ, bilmirəm nəyə görə,—o yoldaş məsələlərin içində iştirak etmiş adamdır. 1993-cü ildə o, "Səs" qəzetində çıxış etmişdi—"Zəngilanda təxribatı kimlər törətmişdi?"—belə bir mövzuda. Orada vurduğumuz teleqramların hamısının məzmunu var idi: kimlərə teleqram vurulub, hansı rəhbər orqanlara, hansı rəhbər təşkilatlara. Hamısının da məzmunu var idi. Qəzeti saxlamışam, burada məndə var. Ancaq məsələ necə oldu? Bir qrup zəngilanlı yoldaşlar,—"yoldaşlar" da demək olmaz,—14 nəfərdən ibarətdir, ağsaqqallar da var idi orada, ziyalılar da, vəzifəlilər də. Ən çox da icra hakimiyyətinin işçiləri—5-6 nəfər. Belə "zəngin" bir tərkibdə Həsən Ələkbərovun o məktubunu təkzib etmək istəmişdilər. Nəyə görə? Ona görə ki, İlham Hüseynova xoş gəlsin ki, onu müdafiə



edirlər, bir də ki, respublikada adları çəkilən yoldaşlara xoş gəlsin ki, onları müdafiə edirlər. Sağ olsun Əmir Mustafayev, mən getdim onun yanına, o qəzetin redaktoru idi. Sonradan qəzet onları ifşa elədi,—bunu genişləndirməyə ehtiyac yoxdur,—qəzet onların özünü ifşa elədi ki, onlar kimdirlər. Zəngilan camaatı bunların hamısını bilir. Amma məsələ burasındadır ki, o adam bu saat da həm işsizdir, həm də, dediyim kimi, buraya gəlməkdən məhrum elədilər onu.

**Heydər Əliyev:** Kimdir o?

**Nüsrət Mustafayev:** Həsən, mənim birinci müavinimdir, əvvəllər icra hakimiyyəti başçısının müavini işləyib. Cəbhəçilər onu işdən çıxarıblar, bu gün də işsizdir.

**Heydər Əliyev:** Familiyası nədir?

**Nüsrət Mustafayev:** Ələkbərov Həsən.

**Heydər Əliyev:** Aydınlaşdırın bunu.

**Nüsrət Mustafayev:** Bizim Zəngilan camaatının respublikanın Baş prokuroru Eldar Həsənov yoldaşa böyük hörməti var. Mənim özümün də onunla görüşlərim həmişə səmimi keçib, böyük hörmətim var ona. Amma bir şey bizi təəccübləndirir ki, mənim onunla söhbətlərim olub ki, bax bu cinayətləri rayon prokuroru törədib. Amma ondan sonra, çox təəssüflər olsun ki, o, daha böyük rayona prokuror göndərilib. Bu, yaxşı hal deyil. Bu, zəngilanlıları narahat eləyir, narazı salır.

**Heydər Əliyev:** Kimdir o?

**Nüsrət Mustafayev:** İmamqulu Əzizov, rayonun prokuroru idi o vaxtlar.

**Heydər Əliyev:** İmamqulu Əzizov hara gedib, onu da aydınlaşdırın.

**Yerdən səs:** Biləsuvara.

**Nüsrət Mustafayev:** Biləsuvara göndərilib.

**Heydər Əliyev:** Aydınlaşdırın.

**Nüsrət Mustafayev:** Kiçik Zəngilanın problemlərini müzakirə eləyərkən Sizin çətinliklərinizi biz bu gün də görürük, yoldaş Əliyev. Mən belə bir misal çəkmək istəyirəm. Bir yanğını söndürmək o zaman çətindir ki, orada iştirak edənlərin biri su tökə, biri benzin tökə.

Siz bu hadisələri söndürmək üçün oraya su tökürsünüz, daxilimizdə olan minlərlə xəyanətkar isə oraya benzin tökür ki, hadisələr qızışsın. Bax, buna görə Siz çətinlik çəkirsiniz. Daxilimizdə olan mənsəbpərəstlər, karyeristlər, kürsü, hakimiyyət azarkeşləri, düşkünləri çirkin niyyətlərinə çatmaq üçün hər cür fitnəkarlığa əl atıb təxribat törədirlər. Bu gün də törədirlər onu.

Lakin bu, bizə yaxşı bəllidir ki, ölkənin sehrli çubuğu elmi təfəkkür nəhəngi, bütün dünyada millət lideri, dövlət xadimi və siyasi xadim kimi tanınmış Heydər Əliyevin əlindədir. Siz də, yoldaş Heydər Əliyev, bu sehrli çubuğu həmişə ağıllı tərəfə, xeyirli tərəfə yönəltmisiniz. Bunlar hansılardır? Yoldaşlar da dedilər ki, Azərbaycanın parçalanmasının qarşısını almısınız, vətəndaş müharibəsinin,

qardaş qırğınının qarşısını almısınız, iki dəfə dövlət çevrilişi cəhdinin qarşısını almısınız. Torpaqlarımızın azad edilməsi, camaatımızın yerinə qayıtması, Azərbaycan dövlətinin möhkəmlənməsi uğrunda gecəli-gündüzlü mübarizə aparırsınız, çalışırsınız. Biz bunları görürük. Nəhayət, ən böyük təəssürat ondan ibarətdir ki, ATƏT-in Lissabon zirvə toplantısında Azərbaycan diplomatiyasının böyük uğurlar qazanması şəxsən Sizin gərgin siyasi fəaliyyətinizin nəticəsidir. Biz belə qiymətləndiririk. Bu görüş bir daha sübut etdi ki, yoldaş Əliyev, Sizdə hələ istifadə olunmamış ehtiyat mənbəyi, böyük potensiallar və gizli xəzinə var, siyasi xəzinə var. Biz əminik ki, bu siyasi xəzinədən istifadə edib xalqımızı bu bəlalardan qurtaracaqsınız.

Sizin bir fikriniz hamının, o cümlədən zəngilanlıların da dilinin əzbəridir. Respublikanın hər yerində belədir. Siz demisiniz ki, ömrünüzün qalan hissəsini də xalqımıza bağışlayırsınız. Doğrudan belədir, biz bunun şahidi oluruq. Biz bunun şahidiyik ki, doğrudan da Siz ömrünüzün qalan hissəsini də xalqımıza bağışlayırsınız. Biz müsəlmanıq, əvvəllər də Allaha inanmışıq, amma bu gün Allaha daha yaxşı inanırıq. Bu, mənim şəxsi qənaətimdir. Allah Sizi yaradarkən Azərbaycan xalqının bu gününü görürmüş və ona görə Sizi yaradıb ki, Azərbaycan xalqını bu bəlalardan qurtarasınız. Bax, Sizi ona görə yaradıb.

Mən bir-iki kiçik məsələ haqqında Sizə mə'lumat vermək istərdim, hansı ki, xələl gətirir bu saat rəhbərliyin ünvanına. Yoldaş Əliyev, o yoldaşlar da dedilər, Zəngilan camaatı öz yurdundan axırda çıxıb. Özü də başqa rayonlardan fərqli olaraq əliboş çıxıb. Zəngilan mühasirədə qalıb. Mən elə bilirəm ki, bunları Sizə demək də artıqdır, çünki hamısını yaxşı bilirsiniz. Mən xahiş eləyərdim, mümkün olsa, Zəngilana mühasirədə qalma statusu verilsin. Zəngilanın işğalı başqa rayonlardan xeyli fərqlənir. Bu bir.

İkincisi, fərarilik haqqında Sizin fərmanınız olub. İndi bu fərman qalıb kənarda, ondan ayrı cür istifadə edirlər. Zəngilan şəhərindən Yusif var. Mən yaxşı tanıyıram, bir yerdə yaşamışıq, mənim yanıma gəlib. Onun oğlu hərbi hissədə qulluq eləyirmiş. O, qulluqdan qaçıb gəlib, iki ay evdə qalandan sonra könüllü surətdə qayıdıb gedib öz hissəsinə. İl yarım qulluq eləyəndən sonra çağırıblar ki, sən fərarisən. Mən yenə üzr istəyirəm Sizdən bu ifadəni işlətdiyim üçün, bunu çağırıblar, tələb eləyiblər ki, bir belə məbləğ gətirməlisən ki, fərarilikdən azad eləyək. O da deyib ki, mənim heç bir şeyim yoxdur, heç nə verə bilməyəcəyəm. Ona fərariliyə görə 10 il iş veriblər. Atası mənim yanıma gəlib, şikayət edib.

**Heydər Əliyev:** Yaz, aydınlaşdır, mənə de. Familiyası nədir onun?

**Yerdən:** Nəcəfov.

**Heydər Əliyev:** Kimdir?

**Yerdən:** Nəcəfov Yusif.



**Heydər Əliyev:** Yaz, aydınlaşdır.

**Nüsrət Mustafayev:** Sonra, bu qaçqınlar məsələsi təkcə Zəngilan üçün xarakterik deyil, yoldaş Əliyev. Bu, bütün rayonlarda baş verən məsələlərdir. Köçkünlərin qayıdanacan yaşadıqları yerlərdə qalması barədə Sizin göstərişiniz var, fərmanınız var. Amma buna baxmayaraq son vaxtlar qaçqınları o yerlərindən çıxarırlar. Bu yaxınlarda bir zəngilanlı ailəsi mənim yanıma gəlib. Mənə verilən mə'lumata görə, guya Pənah Hüseynovun evi olub, o ev dəniz qırağındadır. Özləri evdə olmayıblar. Gəliblər, qocanı, uşaqları, qarını aparıb töküblər Biləcəriyə. Biz qarışdıq bu işə. Çox yerlərə zəng vurduq, getdik-gəldik. Düzü, həll eləyə bilmədik. Bu barədə bircə Dilafət Hacıyevdən razıyam. Mən aparata çox gəlib-gedirəm. Çox minnətdaram ki, az da olsa elə kadrlarınız var. Dilafət Hacıyev həmişə biz zəngilanlıların problemləri ilə ürəkdən məşğul olub. Bu gün o ev məsələsi barədə çox yerə zəng eləyib. Düzdür, bir şeyə nail olmasa da narahat olub ki, qaçqınların problemlərini həll eləsin.

**Heydər Əliyev:** Rəfael Allahverdiyev, bu faktı aydınlaşdır, mənə de.

**Rəfael Allahverdiyev** (Bakı şəhər icra hakimiyyətinin başçısı): Aydınlaşdırmışam. O ev Pənah Hüseynovun deyildi. Orada üçotaqlı bir ev var idi, orada yaşayırdılar. Şəhər prokurorluğu qərar qəbul etmişdi ki, oradan çıxarılmalıdırlar. Mənə zəng vurdular oradan, bu işi saxlatdırdım. Ümumiyyətlə, qaçqınlara Bakı şəhərində dəymirlər. Amma elə qaçqınlar var ki, indi gəlirlər. Bu saat da çadırlardan gəlirlər—Sabirabaddan, Şirvan zonasından gəlirlər. Onları biz məcbur olub göndəririk Biləcəriyə, çünki şəhərdə imkanımız yoxdur. Amma zəngilanlılarla əsasən bircə hadisə olub, onunla da mən məşğul olmuşam.

**Yerdən:** Amma çox incidirlər.

**Heydər Əliyev:** Mən sənə də göstəriş verirəm və bu gün bizim hüquq mühafizə orqanlarına da deyirəm—Daxili İşlər Nazirliyidir, prokurorluqdur, Ədliyyə Nazirliyidir, məhkəmələrdir—toxunmayın qaçqınlara. Bilirsiniz, kim nə cür gəlib, hansı evi tutubdur—bunu indi araşdırmaq lazım deyil. Mən demirəm indi, bu gün gəlib kimsə nəyisə zəbt eləyir—onu araşdırın. Ancaq o illərdə, o rayonlar işğal olunan zaman kim köçüb gəlib, harada yerləşib, harada məskunlaşıbsa—onlara dəyməyin, toxunmayın. Mən bunu demişəm, ancaq görünür ki, bizim orqanlarda işləyən, vəzifəsindən sui-istifadə eləyən bə'zi şəxslər qanunun qorunması naminə yox, ola bilər, öz şəxsi məqsədlərinə görə, ayrı-ayrı məqsədlərə görə belə hərəkətlərə əl atırlar. Mən sizə tapşırıram və siz də bilin, bütün başqa rayonlardan, yə'ni işğal olunmuş rayonlardan köçüb gəlmiş adamlar da bilsin—hərə öz məskunlaşdığı yerində qalmalıdır, heç kəsi də yerindən tərpətmək olmaz. Aydındırmı?

Yerdən səslər: Çox sağ olun.
**Heydər Əliyev:** Yaxşı.
**Nüsrət Mustafayev:** Bir neçə kəlmə də müxalif qüvvələr haqqında. Bilirsiniz, müxalif qüvvə onda meydana gəlir ki, fikir ayrılığı olsun. Çox təəccüblüdür, rayon səviyyəli yoldaşlarla söhbət edirik. Əgər hamımız müstəqil Azərbaycan dövlətini istəyiriksə, ərazi bütövlüyünü istəyiriksə, istəyiriksə camaatımız elinə-obasına qayıtsın, ermənі düşmənlərə qələbə çalınsın, onda mən bilmirəm müxalifət haradan əmələ gəlir? Müxalifət qüvvələri hər yerdə, bütün səviyyələrdə fəaliyyət göstərir. Müxalifət onda əmələ gələr ki, fikir ayrılığı olsun. Onlar da deyir ki, biz bunu istəyirik, biz də deyirik. Onda bəs müxalifət haradan əmələ gəlir? Bu, kürsü azarkeşliyidir, hakimiyyət azarkeşliyidir. Biz bunlarla mübarizə aparmışıq, bundan sonra da aparacağıq. Mən yoldaşların hamısını qorxmadan, çəkinmədən bu işə də'vət edirəm. Nə qədər ki, biz onlarla belə sükutla məşğul oluruq, qorxa-qorxa hərəkət edirik, bəli, onlar belə də eləyəcəklər.

Yoldaş Əliyev, bundan əvvəlki iqtidarlar dövründə—Vəzirov, Mütəllibov, Elçibəy dövründə mərkəzdənqaçma prosesi güclənmiş, əhalinin bütün təbəqələrinin rəhbər təşkilatlara və rəhbər orqanlara inamı itmişdir. İndi qarşıda duran əsas və başlıca vəzifələrdən biri də bu inamı bərpa etməkdən ibarətdir. Bu isə kadrlardan, onların potensial imkanlarından, mə'nəvi və iş keyfiyyətlərindən çox asılıdır. Rayonda işlərin vəziyyəti məni məcbur eləyir ki, bə'zi şeylərdə burada mətləbdən kənara çıxım. Bilirsiniz hər şeydən əvvəl kim harada nöqsana yol verirsə, birinci şəxsiyyətdən narazı qalırlar. Prezidentdən narazı qalırlar. Harada kim nöqsana yol verirsə, o qalır kənarda, Prezidentdən narazı qalırlar. Rayonda işlərin indiki vəziyyəti məni bugünkü görüşün gündəliyi çərçivəsindən kənara çıxmağa məcbur eləyir. Digər tərəfdən, mən burada açıq danışmasam, yoldaş Əliyev, Sizə obyektiv deməsəm, elə bilərəm ki, özüm Sizə xəyanət edirəm. Ona görə də hər şeyi açıq deməliyəm.

İcra hakimiyyətinin başçısı haqqında. İcra hakimiyyətinin başçısı Ələkbər Həşimov əvvəlkilərdən mə'nəvi, iş keyfiyyətlərinə görə heç bir şeylə fərqlənmir. O, başçı tə'yin olunandan sonra mən onun yanına getdim və xatırlatdım ki, indi Zəngilanın torpağı yox, quruculuğu yox, planı yoxdur. İndi camaatın həlli mümkün olan problemləri ilə məşğul olmaq lazımdır. O da mümkündür. Biz söhbət elədik. Sonra yerli icra nümayəndələrinin hamısını buraxdılar. Bu, əsasnaməyə uyğundur. O öz yerində. Amma vəziyyət necə oldu? Mən inandırıram, ora inzibati orqan kürsüsü deyil ki, deyək hər şeyə dəlil lazımdır. Mənim yanıma gəldilər çox xoşagəlməz söhbətlərlə ki, bizdən təmənna edirlər, deyirlər belə olsun, filan olsun. Onların hamısı qaldı, biri də dəyişdirilmədi, 24-25 icra nümayəndəsinin hamısını bir sərəncamla yerinə qaytardı. Birini çıxartdılar, sonra yenidən qaytardılar yerinə. Dediyim kimi, onların bir çoxları, burada



açıq danışmaq lazımdır, xoşagəlməz şikayətlərlə mənim yanıma gəldilər.

Qaçqınlar üçün rayonda tikinti təşkilatı var. Həyətlərdə tikinti aparırlar, nə edirlər. Onlardan bizə siqnal daxil olmuşdur ki, külli miqdarda pul götürüblər. Amma heç bir yerdə qaçqınlar üçün nə bina tikilib və nə də tə'mir olunub.
**Heydər Əliyev:** Kim götürüb pulu?
**Nüsrət Mustafayev:** O qaçqınlar üçün tikinti işi görən təşkilatlar, siqnalın bir ucu da gedib çıxıb icra hakimiyyətinə. Yenə də deyim ki, bu, bişmiş söhbətlərdir, onlarla mən söhbət eləmişəm. İndi Gülabbas müəllim buradadır, mənə çatan mə'lumata görə onların 2 nömrəli formalarını hələ indiyə qədər təqdim eləyə bilməyiblər. Ona görə ki, pulu götürüblər, iş görməyiblər.

Humanitar yardımların verilməsində köhnə nöqsanlar yenə də təkrar olunur. İndiki icra hakimiyyəti başçısının fəaliyyəti dövründə üç dəfə yardım veriblər. Mən qaçqınların kütləvi yaşayış yerlərinin hamısında olmuşam, camaatdan soruşuram—kimə nə veriblər? Boynuna alan yoxdur ki, mən bir şey almışam.

Tikinti materialları da gəlmişdi, guya qaçqınların evlərini, yataqxanaları tə'mir etsinlər. Yoxa çıxdı bir günün içində. Heç nə tə'mir olunmadı. İcra hakimiyyətində belə bir təşəbbüs qaldırmışdılar—düzdür, biz də onu yaxşı təşəbbüs kimi qəbul elədik ki, rayonlarda taxıl əkilməsi məsələsi həll olunsun. Amma nəticəsi nə oldu? Nəticəsi belə oldu ki, o torpaqlar kolxoz-sovxozlara verilmək əvəzinə bir neçə fermerə verilib. Hamı məndən də yaxşı bilir ki, bu torpaqları kolxoz sədrləri əksəydilər dövlətdən aldıqları pulları qaytarandan sonra yerdə qalanını kolxozçulara bölməliydilər. Amma fermer dövlətin borcunu qaytarandan sonra yerdə qalan onun şəxsi mülkiyyətidir. Sual olunur, nəyə görə axı, kolxozlar əkmədi o torpaqları? Bunların əkmək niyyətləri var idi, çoxları təşəbbüs göstərirdilər və mənim yanıma da gəlmişdilər ki, əkmək istəyirik. Fermerlərə niyə verildi bu torpaqlar?

Bilirsiniz ki, rayonumuzun əksər idarə və müəssisələrinin fəaliyyəti dayandırılmışdır. İndi çoxlu işsiz kadrlar var. Özü də təcrübəli, səriştəli, cavan, enerjili kadrlar. Vəziyyət belə olduğu halda Bakıda daimi yaşayan şəxslər işə qəbul edildilər, özü də mühüm vəzifələrə, o zəngilanlı kadrlar qalıb kənarda. İndi Zəngilanın o işlək kadrları, təcrübədən keçmiş kadrları—mən cavan kadrları nəzərdə tuturam, məndən cavanları, bizlərdən yaşlıları yox,—arxiv materialına çevriliblər, oturublar evlərində. Halbuki onlar bu gün dövlətimizə səmərə verə bilər, yaxşı işləyə bilər, xeyir verə bilərlər. Onlar hamısı oturublar evdə. Mənsəbpərəst şəxslər, ən başlıcası isə indiki iqtidarın siyasi xəttinin əleyhdarları müəyyən vəzifələrdə işləyirlər. Mənim Ələkbər müəllimlə söhbətim olub. Demişəm ki, biz bilməliyik düşmənlərimiz kimdir. "Düşmənlərimiz" sözü bir az kobud çıxır, üzr istəyirəm. Siz bilməlisiniz ki, bu xəyanətkarlar kimdir. Deyir bəs

onların siyahısını verin, mən ona baxaram. Mən niyə siyahı verməliyəm ki, mən özüm mübarizə aparacağam, partiya özü mübarizə aparacaq, mübarizənin yollarını da bilir. Amma siz də bilməlisiniz. Siz iqtidarın yerdəki nümayəndəsi kimi bilməlisiniz ki, kimlə mübarizə aparmaq lazımdır.

İndi biz hər manata qənaət etməliyik. Vəziyyət belə olduğu halda biz kirayə ilə mənzillər, idarə, müəssisə yaradırıq. Bu necədir? Neft və Kimya Akademiyasının doqquzmərtəbəli yataqxanasında çoxlu boş otaq var. Sosial tə'minat şö'bəsini orada yerləşdirmək əvəzinə aparıblar başqa yerə, hər ay 1 milyon 200 min manat kirayə haqqı verirlər. Halbuki burada yataqxana camaatımızın kütləvi yaşayış yeridir, hər yerdən də əhalimiz bu yataqxanaya gəlir. Ona görə ki, mərkəz oradır.

Zəngilan dövlət bankı fəaliyyət göstərdiyi halda icra hakimiyyəti özünün hesabını, eləcə də bir neçə tikinti təşkilatının hesablarını Bakının başqa rayonlarının banklarında yerləşdirib. Sual olunur, niyə belə olmalıdır? Özümüzün bankımız var axı. Bunlar hamısı onunla əlaqədardır ki, birincisi, yoldaşlar özlərinə müqabil kadrlar axtarırlar. Hürü xanım işləyir orada, deyirlər yə'ni o bizim göstərişlərimizlə razılaşmayacaq. İkincisi də orada yol verilən nöqsanları camaatdan gizlətmək üçün hesabı aparıb başqa bankda yerləşdirirlər. Bu, yolverilməz haldır, hər halda belə şeylər Zəngilan camaatının xoşuna gəlmir.

Üzr istəyirəm bu ifadə üçün, mən cəsarətlə deyirəm ki, başçının fəaliyyəti Zəngilan camaatının xidmətinə yönəldilməmişdir. Başçı öz fəaliyyəti, öz problemləri ilə məşğul olur. Zəngilan camaatının problemləri ilə yox.

Burada bizi narahat edən cəhətlər nədən ibarətdir? Yoldaş Əliyev, mənim özümün apardığım sosioloji tədqiqata görə Zəngilan əhalisini yaxınlıq e'tibarilə üç qrupa bölmək olar: qohumlar, dostlar, tanışlar. Bundan kənarda qalanlar yoxdur. Bunların hansı bir təbəqəsinə siqnal daxil olursa, iki gündən sonra Zəngilanın hamısı bilir. Gizlətmək mümkün deyil. Bax, ona görə də mən dediyim məsələlər Zəngilan camaatının hamısına iki günün içində bəlli olur, əhali narazı qalır. İkincisi, əhalinin aşağı təbəqəsinin inamı qulağında, gözündədir. Yüz dəfə təbliğ eləsək də qulağı ilə nə eşidirsə, gözü ilə nə görürsə, ona inanır. Ona görə də bu vəziyyət işləri korlayır.

Yuxarıda qeyd etdiyim məsələlər barədə Zəngilan camaatı arasında açıq söz-söhbət gedir. Mən burada bə'zi şeyləri hələ örtülü halda dedim. Orada açıq söz-söhbət gedir. Bu da yolverilməz haldır. Şəxsi evimiz də olmayıb, pulumuz da olmayıb, maşınımız da olmayıb. Amma, mən yenə də üzr istəyirəm bu ifadəm üçün, mən Zəngilan camaatı üçün demirəm, Sizin üçün deyirəm, onlar məni tanıyırlar, camaatın az-çox inamı olub, hörməti olub. Bu da nə ilə qazanılıb? Nə əlimizə haram pul dəyməyib, nə yüksək vəzifə təmənnasında olmamışıq, nə də ki, cəmiyyət üçün yaxşı olan adama mənə lap min bir pisliyi keçsə də mən hələ pis deməmişəm. Cəmiyyət üçün zərərli



adam istəyir həyatını da mənə bağışlaya, mənim üçün pislik pisdir. Bax, buna da xələl gəlir, camaatın içində qazandığım az-çox hörmətə də xələl gəlir. Mənim əqidəm belədir. Ondan əlavə, bizi tənqid eləmək istəyən siyasi qüvvələrin, əleyhdarlarımızın əlinə mövzu düşür və onlar bizi tənqid eləməyə cəsarət edirlər.

Yenə deyirəm, Zəngilan camaatı bundan narazıdır. Ən başlıcası isə bizi narahat eləyən cəhət odur ki, neqativ hallara qarşı barışmaz mübarizə aparan Heydər Əliyevin nüfuzuna, hörmətinə, fenomeninə xələl gəlir. Bax, bizi narahat edən cəhət budur.

Mən camaatın fikrini deyirəm, camaatın fikri belədir ki, Siz Atatürk ilə qoşa doğulmusunuz. Sizə Atatürklə qoşa doğulmuş qardaş kimi baxırlar. Amma belə nöqsanlara yol verən şəxslər qalır kənarda, Sizdən narazı olurlar. Bizim borcumuz isə odur ki, bu nadir şəxsiyyəti, əfsanəvi qəhrəmanı qoruyub saxlamalıyıq. Hamı—istər yuxarılarda, istər aşağılarda əlindən gələni əsirgəməməlidir ki, biz belə bir şəxsiyyəti qoruyaq, saxlayaq, Azərbaycanın müqəddəratını həll eləyən Heydər Əliyev bizə kömək eləsin.

Mən çıxışımı yekunlaşdırıram. Partiya bundan sonra da öz mübarizəsini davam etdirəcək. Mən burada söz verirəm ki, həyatım təhlükə qarşısında qalsa belə, mən Heydər Əliyevin siyasi xəttinin əleyhdarlarına qarşı mübarizə aparacağam. Ən nəhayət, yoldaş Əliyev, Siz onu bilin və ona əmin olun ki, Zəngilan camaatı Sizi ürəkdən sevir, istəyir, dəstəkləyir və Sizin arxanızda həmişə duracaqdır. Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev:** YAP-ın Zəngilan rayon təşkilatının başçısı Mustafayevin çıxışında bir çox konkret faktlar gətirildi—həm Zəngilan rayonunda 1990-91-92-93-cü illərdəki hadisələrlə əlaqədar, həm bundan sonrakı dövrdə rayonun bə'zi vəzifəli şəxslərinin buraxdığı nöqsanlar, səhvlər, bəlkə də cinayətlər haqqında, həm də bu gün rayon icra hakimiyyətinin Zəngilan əhalisinə rəhbərliyində buraxdığı səhvlər haqqında. Bunlar çox ciddi, narahatedici siqnallardır. Buna görə də mən tapşırıram İcra Aparatının başçısı Ramiz Mehdiyevə ki, komissiya yaratsın, bütün bu deyilən faktların—həm keçmişdə olan, həm də indiki faktların hamısını yoxlasın. Yanvar ayının 20-nə qədər mən sizə vaxt verirəm. Nəticəsini mənə mə'ruzə edəsiniz.

**Əməkdar müəllim,**
**rayon təhsil şö'bəsinin inspektoru**
**MİRİŞ HÜSEYNOVUN**
**ÇIXIŞI**

Hörmətli və möhtərəm Prezidentimiz!
Hörmətli görüş iştirakçıları!
Sizi səmimiyyətlə salamlayıram. Müstəqil, suveren, demokratik milli

respublikamızın inkişafı və bütövlüyü naminə köməyini əsirgəməyən hər bir Azərbaycan vətəndaşına səadət arzulayıram. Biz mənliyindən, liderinə və Allaha inamından başqa hər bir şeyini itirmiş, bə'zən də nadanların təhqirlərinə mə'ruz qalmış didərginik. Biz ilahinin rəhminə, Prezidentimizin yarıməsrlik həyat təcrübəsinin məhsulu olan ağlının, təfəkkürünün bəhrəsinə möhtacıq.

Bugünkü görüşdə iştirak etmək, dünya diplomatiyasında, siyasətində liderlərdən ən öncülü sayılan dahi bir şəxsiyyət qarşısında söz demək, onu qəlbən ziyarət etmək bizim üçün xoşdur. Bu mə'nalı və tarixi görüş bizdə çox məmnunluq doğurur. Sözünün qüdrəti, nitqləri və təfəkkürü qarşısında dünya natiqlərinin aciz qaldığı, XX əsrin nəinki bizə, bütün müsəlman və türk aləminə bəxş etdiyi Heydər Əliyev qarşısında rabitəli, məzmunlu və qüsursuz danışmaq çox məs'uliyyətlidir.

Ulu Tanrı insana ağıl vermişdir ki, özünün nə cür mö'cüzəli bir varlıq olduğunu dərk etsin, anlaya bilsin. Lakin elə hallar olur ki, insan ağlı özünüdərketmə səviyyəsinə çata bilmir və insan öz daxili keyfiyyətlərini kəşf etməyi bacarmır. Deyilənlərə görə elə bu səbəbdən də ilahi həmin çətinlikləri nizamlamaq üçün insana onun daxilində gizlənən ağıl və iste'dad xəzinələrindən istifadə etməyi öyrətmək üçün zaman-zaman peyğəmbərlər göndərir.

Bir haşiyə çıxmaq istəyirəm. Həzrəti Məhəmmədə peyğəmbərlik veriləndə ərəblər dünyanın ən geridə qalan xalqlarından biri imiş. Onların iş-gücü vuruşmaqdan, qonşu qəbilələri qarət etməkdən ibarət imiş. Belə bir zamanda peyğəmbər meydana gəlir və insanların səviyyəsini yüksəltməyə başlayır. O vaxt vəhşi və nadan hesab edilən ərəblər arasından Məhəmməd peyğəmbərin sə'yləri nəticəsində xeyli ağıllı, xeyirxah insanlar meydana çıxır. Beləliklə, ərəblər arasında mə'nəvi dəyişikliklər dövrü başlandı, bir çoxları gözəl, xeyirxah əməllərə yiyələndi, bə'ziləri isə nəfsə uyub hiylə yolunun yolçuları oldular.

Azərbaycanın hiylə, fəsad yolunu tutmuş bə'zi vətəndaşlarının mənsəb sahibi olduqları zaman törətdikləri əyintilər, zülm bu gün daha qabarıq şəkildə aşkara çıxır. Onların bəd əməlləri sayəsində ölkəmiz qana qərq olundu, bir milyondan çox vətəndaşımızın didərgin düşməsinə rəvac verildi. Bütün bunların nəticəsində biz öz vətənimizdə əsl mə'nada zəlil olduq, ailə, uşaq qarşısında xəcalətli qaldıq. Məncə, belə adamların milli mənsubiyyəti şübhəlidir. Axı, xalqımız müstəqillik üçün əsrlərlə için-için yanıb. Şükürlər olsun ki, indi müstəqilik. Daha nə lazımdır? Əsrin bu dolaşıq, qarışıq, faciəli illərində vəzifə uğrunda dəridən-qabıqdan çıxanlar heç olmasa bundan sonra yola gəlsinlər. Sabitlik, atəşkəs, sülh, əmin-amanlıq yaratmaq uğrunda yorulmaq bilmədən çalışan Heydər Əliyev şəxsiyyətinin səbrini, humanist fərmanlarını, humanizmini, nəhayətdə qəzəbini dərk etməməyin özü



bir faciədir, Hamılıqla cəbhəçi də, müxalifət də, adi vətəndaşlar da müstəqillik istəmirdikmi? Artıq biz müstəqilliyə sahib olmuşuq.

Bir çoxları xalqı birləşməkdən çox, parçalanmağa çağırırlar. Şəhidlərimiz, ölənlərimiz, əsir düşənlərimiz də, Vətəndən qaçanlarımız da var. Ermənistanda Ter-Petrosyanın hakimiyyətdə olduğu illərdə Azərbaycanda bir neçə dəfə hakimiyyət dəyişikliyi olub və hakimiyyətdə olanların da çoxu ölkədən qaçıb, vətəni və milləti darda qoyub. Təxribatçılar bu gün də ölkədə parçalanma, qarşıdurma yaratmaq məqsədindən əl çəkmirlər. Onlar hələ də dərk etmək istəmirlər ki, indi cəbhəçilik, müxalifətçilik, çoxpartiyalılıq, beş yüzə yaxın qəzet səngərindən söz, fikir gülləsi yağdırmaq, qarşıdurma müharibəsi aparmaq dövrü deyil. Hamı başa düşməlidir ki, biz hörmətli Prezidentimiz Heydər Əliyevin ətrafında sıx birləşərək, işğal edilmiş torpaqlarımızı azad etməli, didərginlərimizi doğma yerlərinə qaytarmalı, hələlik sönmüş ocaqlarımızı yandırmalı və bərpa işləri ilə məşğul olmalıyıq, milli birliyimizə qəsdən mane olanları əfv etməməliyik. İndi qaçqınlarımızı, məcburi köçkünlərimizi və didərginlərimizi faciə fırtınasından xilas edə bilən idrak sahibinin, dünyəvi təcrübəyə yiyələnmiş hörmətli Prezidentimizin həyata keçirdiyi tədbirlərin mə'nasını dərindən dərk edərək ona əməli kömək göstərməli, hansı yolla olursa-olsun, əlbəttə, ilk növbədə sülh əsasında öz məqsədimizə nail olmalıyıq.

İmkanlı adamların, sahibkarların, xeyriyyəçilərin əsas gücü qaçqınların, didərginlərin ağır vəziyyətdən çıxarılmasına səfərbər edilməlidir. Yeri gəlmişkən, biz Türkiyənin "Star", "Evsen", Naxçıvanın "Şahin", Nəsimi rayonunun ərazisindəki "Rossiya" şirkətlərinin, Bakıxanov adına Bakı Tikiş Fabrikinin rəhbərlərinin, xüsusən Nəsimi rayon icra hakimiyyətinin başçısı Tahir Quliyevin xeyriyyəçilik fəaliyyətini vətənpərvərlik nümunəsi adlandırır, belə adamları dar günlərimizin comərd qardaşları kimi qiymətləndiririk. Kaş digər rayonların icra hakimiyyəti başçıları da Tahir müəllimdən nümunə götürə biləydilər. Kaş bütün çörək zavodlarının direktorları qaçqınlara Sumqayıt çörək zavodunun direktoru Tofiq müəllim kimi, Xətai rayonundakı Dəmir-Beton Zavodunun direktoru Abbasqulu Məmmədov kimi qardaşlıq qayğısı göstərəydilər.

Təəssüf ki, qaçqınlara nifrətlə baxan, onlara çatası yardımları heç kimdən çəkinmədən mənimsəyən, talan edən nankorlar da az deyildir. Bələlərinə nəzarət edənlərin bir çoxları da milli təəssübkeşlik hissindən uzaq olan şəxsiyyətsizlərdir. Bu baxımdan qaçqınların və məcburi köçkünlərin işləri üzrə dövlət komitəsinin son iki ildəki fəaliyyəti ağla sığmayan dərəcədə dözülməz olmuşdur. Bir çox səlahiyyətli orqanlar, Maliyyə Nazirliyi, inzibati orqanlar, Nazirlər Kabinetinin xüsusi komissiyası komitənin fəaliyyətini aylarla yoxlayıblar. Qatı cinayətkarlar çirkab gölündən "duru" çıxıblar. Lakin yeni rəhbərlik işə başlayandan sonra,—mən son iki ayı nəzərdə

tuturam,—komitənin fəaliyyəti ürəyimizə yatan səviyyədədir. Ümid edirik ki, komitənin yeni tə'yin edilmiş rəhbərləri qaçqınların qayğısına qalacaqlar.

Hörmətli Prezident, mən Sizin haqqınızda söz deməzdən əvvəl Sizi dərk edib, sonra əlimə qələm almışam. Sizin barənizdə və mərhum Şərəf Rəşidov haqqında 1979-cu ilin 24 dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosuna, mərhum Leonid İliç Brejnevə yazdığım təkliflərin, 1992-ci ilin 22 avqustunda Nehrəm fədakarlarının, mən deyərdim ki, Nehrəm kişilərinin seçki dairəsinə, mərhum Afiyəddin Cəlilova—Allah ona rəhmət eləsin—və Sizə göndərdiyim şe'rimin əlyazmasını, bu il nəşr olunmuş "Ümid karvanı" kitabımı Sizə təqdim edəcəyəm.

Elçibəyin hakimiyyəti dövründə, 1992-ci ildə hər ikinizə xoş məramla göndərdiyim teleqramların surətlərini, Elçibəyin hakimiyyəti dövründə Sizə qarşı olan ögey münasibətlər, onların Sizdən öyrənməyə olan ehtiyacları barədə, Zəngilanın müdafiəsi işinin təşkilini tənqid etdiyim məktubumu və bu məktuba prezidentin mətbuat xidmətinin o vaxtkı rəhbəri Arif Əliyevin imzası ilə 1993-cü il aprelin 23-də göndərilən cavab məktubunu indi də saxlayıram. Bunları və bir kitabımı bu gün Sizin şəxsi arxivinizə təqdim edəcəyəm. Əgər bu kiçik xidmətlərim üçün Sizdən şəxsi umacağım olubsa və yaxud varsa, özümü hər kəsin hər hansı təhqirinə layiq bilərdim.

Bu gün Sizdən umacağım yalnız və yalnız, işğal olunmuş torpaqlarımızın geri qaytarılmasından və sülh yolu ilə qələbə qazanmağımızdan, ölkəmizin ərazi bütövlüyünün tə'min edilməsindən, imkan daxilində qan tökülməsinə yol verməməyinizdən ibarətdir. Bu arzularımı, bütün didərginlərin birgə diləyini əks etdirən bir bənd şe'rimi Sizə çatdırmaq istəyirəm:

Sabun suyum olaydı o yerlərin palçığı,
Fışfışası köynəyim, tük yastığım pıtrağı.
Kaş qismətim olaydı bir məzarlıq torpağı.
Taleyimin açarı Prezidentə qurbanlıq.
Kaş obama dönəydim, tikəydim bir alaçıq.

Hörmətli Prezident, əminik ki, Siz bizi mütləq obalarımıza qaytaracaqsınız. Arzusunda olduğumuz alaçıqları da, evləri də, sarayları da, dağılmış məktəblərimizi də tikdirəcəksiniz. Biz Allaha, Sizə və əsl millət təəssübkeşlərinə, kamal, ağıl sahiblərinə arxalanır və inanırıq.

Hörmətli Prezidentimiz, çox acınacaqlı bir vərdiş yaranıbdır. Belə ki, Prezident, spiker, Baş nazir, icra hakimiyyəti başçısı olmaq, biri digərini yıxıb hakimiyyətə gəlmək uğrunda yarış gedir. Bu gün yalnız adı qalan Zəngilan rayonunun icra hakimiyyəti başçısı tə'yin edilmək üçün müxtəlif hiylələrə, yollara, vasitələrə əl atan (bacarıb-bacarmadığından asılı olmadan) 25 nəfərdən çox şəxs bu vəzifəyə böyük həvəs göstərirdi. Nəhayət, Siz ömrü boyu alın təri, əlinin qabarı,



namus və qeyrətlə xidmət edən, Sosialist Əməyi Qəhrəmanı, el ağsaqqalı olan kasıb bir kişinin oğlunu, fəhlə işləyərkən əmək qabiliyyətinə görə Lenin komsomolu mükafatı laureatı adına layiq görülmüş Ələkbər Həşimovu rayonumuza icra hakimiyyətinin başçısı tə'yin etməklə əsassız iddialara son qoydunuz.

Bir haşiyə çıxmaq istəyirəm. Cənab Prezident, əməkdar müəlliməm, rayonda az-çox tanınıram, ona görə mənə də müraciət etdilər ki, biz istəyirik icra hakimiyyətinin başçısı sən olasan. Çox-çox üzr istəyirəm, dedim ki, qardaş, mən qələt edərəm, o vəzifəni öz üzərimə götürə bilmərəm. Bildirdim ki, mən maarif, mədəniyyət işçisiyəm, hansı vəzifəyə qoysalar apararam, amma icra hakimiyyəti başçısı olan adam gərək fikirləşsin ki, mən Prezident Heydər Əliyevin tapşırıqlarını yerinə yetirməyə qadirəmmi, bunları bacararammı? Dedim ki, xeyr, mən bu vəzifəni bacarmaram. Mənə qəribə gəlir, icra hakimiyyəti başçısı olmaq istəyən bu 25 nəfər adam görən fikirləşirmi ki, bu vəzifəni bacarar, yoxsa yox?

Təəssüflə xatırladıram ki, son altı ildə Zəngilanda altı dəfə birinci katib, yaxud icra hakimiyyətinin başçısı dəyişdirilib. Ayağımızın altını qaza-qaza bir-birimizi yıxırıq. Doğrudur, yaramaz adamları yıxmaq, onların kökünü kəsmək lazımdır. Amma yaxşı bir misal var, deyir, cinayəti məhv etmək, cinayətkarı tərbiyə etmək lazımdır.

Möhtərəm Heydər Əliyev, mən Zəngilanın işğalını digər rayonların işğalından ayırmaq istəmirəm. Amma danılmaz faktdır ki, rayonumuzun əhalisi, ordumuz torpaqlarımızı son nəfəsədək tərk etmədi, yalnız ölüm ayağında qonşu İran İslam Respublikasına pənah gətirdi və orada qayğı gördü. Mən el adından və səmimi qəlbdən deyirəm ki, əgər Araz çayının suyu Sizin sə'yinizlə azaldılmasaydı rayonumuzun əhalisinin qırğını dünyada görünməmiş bir qırğın olacaqdı. Bu mə'nada mən Sizə dönə-dönə minnətdarlığımızı bildirirəm. Əlbəttə, bu xidmət qarşısında minnətdarlıq etmək azdır. Əgər əvvəlki laqeyd rəhbərlərin dövrü olsaydı, indi əvvəlcə qaçan 3-5 adam yaşayırdı, bəlkə də Zəngilan rayonunun adı da ləğv olunacaqdı.

Mən nə hərbçi, nə də siyasətçi deyiləm. Ona görə də Zəngilanın işğal edilməsinə şərait yaradan, bais olan şəxslər və səlahiyyətli adamlar haqqında əsaslı bir fakt söyləyə bilmərəm. Lakin onu deyə bilərəm ki, blokadada qalan bir rayon kimi Zəngilan işğal edilmiş digər rayonlardan fərqli olaraq xüsusi statusa layiq görülməlidir. Burada əhalinin də, vuruşan ordunun da payı olmalıdır. Günahkarlar, satqınlar olubsa, onlar haqqında tədbir görülməlidir. Nüsrət müəllim burada bu barədə söhbət açdı. O, yalan danışan adam deyil, amma ola bilsin ki, onun dediklərində həqiqət olmayan məsələlər də var. Mənə elə gəlir ki, bu məsələlərlə inzibati orqanlar məşğul olmalıdır. Günahkarların, satqınların aşkara çıxarılması üçün dövlət təhlükəsizlik orqanları var. Məncə, 1988-1993-cü illərdə Zəngilanda işləmiş birinci

katiblərdən, icra hakimiyyəti başçılarından bu məsələləri soruşmaq, onlardan izahat almaq və bu işə aydınlıq gətirmək lazımdır.

Cənab Prezident, demokratiya pərdəsi altında hakimiyyət uğrunda mübarizə aparan partiyaların liderləri ilə Siz görüş keçirdiniz və bu görüş televiziya ilə canlı yayıldı. Biz bu verilişə baxdıq, orada iştirak edən partiya liderlərini nəzərdən keçirdik. Mən başa düşürəm ki, demokratiya elə bir şeydir ki, adamlara sərbəstlik verir. Amma xalqın belə bir ümumi rə'yi var ki, bu qədər partiyanın olması demokratiyadan çox, əsl hərcmərclikdir. Partiyalar mütləq birləşdirilməlidir. Camaatımızın, elimizin, obamızın bu barədə fikri qət'idir. Qəzet bolluğunun qarşısı mütləq alınmalıdır. Axı, biz bu qəzetləri almağa heç pul tapmırıq. Biz heç dövlət qəzetlərini alıb respublikanın qayğısı, ağrısı-acısı ilə tanış ola bilmirik. Qəzet 3-5 olar. Axı, bunlar qəzet çıxarmağa bu pulları haradan alırlar? Biz gündəlik yeməyə çörək tapmırıq, onlar bu vəsaiti haradan tapırlar və bu qəzetləri necə buraxırlar?

Hörmətli Prezident, həqiqəti dərk edən təfəkkür sahiblərinə gün kimi aydındır ki, son üç ildəki fəaliyyətinizin ilk bəhrəsi olan atəşkəsin əldə edilməsi qanlı göz yaşlarımızı dayandırdı, on minlərlə insanı şəhidlikdən, əlillikdən xilas etdi. Mən deyim ki, vallah, billah, bəlkə peyğəmbərlər də bu işi düzəldə bilməzdi. Bu sözümdə heç bir yaltaqlıq yoxdur. Bunu dərk etmək, başa düşmək lazımdır.

İkincisi, ATƏT-in Lissabon zirvə görüşünün iştirakçısı olan 53 dövlətin ölkəmizin mövqeyini dəstəkləməsi çox böyük məsələdir. Üzr istəyirəm, kənddə mənim bir qonşum var idi. Həyətimə su gətirmək üçün qonşum mənə çox əziyyət verirdi. Axırı yalvardım ki, ay Allah, məni buradan birtəhər et. Allah məni də, onu da—ikimizi də didərgin etdi. Demək istəyirəm ki, Lissabonda əldə edilmiş bu qələbəni, nailiyyəti damla-damla, qətrə-qətrə kim qazandı? Siz, cənab Prezident. Ona görə də biz Sizi bağrımıza basmalıyıq. Siz bizim üçün çox vacib adamsınız. Allah Sizin ömrünüzü uzun, canınızı sağ eləsin, təfəkkürünüzü daha da möhkəm eləsin.

Xalq şairimiz, rəhmətlik Səməd Vurğunun bir beytini Sizə çatdırmaq istəyirəm:

> Günəşi örtsə də qara buludlar,
> Yenə günəş adlı bir qüdrəti var.

Cənab Prezident, Siz günəş deyilsinizsə də, günəşə layiq şəxsiyyətsiniz. Bu gün Sizin xeyirxah əməllərinizə kölgə salmaq istəyən hər hansı bir şəxs Tanrının Sizə bəxş etdiyi qüdrətinizə zərrə qədər də xələl gətirə, kölgə sala bilməz. O buludlar adi bir küləyin tə'siri ilə yox olub gedir, suya dönüb yerə gömülür. Amma günəş günəşliyində qalır. Əgər Prezidentimizi, ağsaqqalımızı, başçımızı sevdirə bilmiriksə, onun xoş əməllərini təbliğ etmiriksə, demək, biz yetişməmişik, tərbiyəmizdə qüsur var. Biz nə vaxtadək prezident



dəyişdirəcəyik? Neçə prezident dəyişmişik, nə görmüşük? Xalq misalıdır, damla-damla damcılar arx əmələ gətirir, o, bir azdan sonra çaya çevriləcək. Azərbaycan öz həqiqi qiymətini tapacaq, yurdumuz, yuvamız işğaldan azad ediləcək. Biz təkcə Zəngilanın, Qarabağın deyil, bütövlükdə Zəngəzur torpaqlarının da azad ediləcəyinə qəlbən inanırıq. Bu gün nankor erməni qonşularımızın əlində olan Zəngəzur ellərindən müstəqil dövlətimizin Milli Məclisinə dörd nəfər deputat seçilibdir. Mən bunu böyük qürur hissi ilə deyirəm. Sevinirəm, onları yada salan adamları öpürəm. Sofiq Hüseynovun, Eldar Abbasovun, Akif Muradverdiyevin, İmamverdi İsmayılovun deputat seçilməsi biz qaçqınların ürəyində şam yandırmağınız deməkdir. Elə bilirik ki, öz torpağımızdayıq və bu adamlar bizi müdafiə edəcəklər.

Cənab Prezident, mən e'tibar edib vəzifəyə tə'yin etdiyiniz adamlar haqqında da danışmaq istəyirəm.

**Heydər Əliyev:** Tənqid etmək, yoxsa tə'rifləmək istəyirsən? Əgər tə'rifləmək istəyirsənsə lazım deyil, tənqid etmək istəyirsənsə buyur.

**Miriş Hüseynov:** Cənab Prezident, Sizin sözünüzü eşitməmək günahdır. Amma gərək yaxşıya yaxşı, pisə pis deyəsən. Mən demirəm ki, tə'rifləyəcəyim adamların hamısı mənim tanıdığım kimi büllur adamlardır. Mən buna heç vaxt zəmanət verə bilmərəm. Amma ümumi rəhbərlik, dövlətçiliyimizi qorumaq üçün gücü çatan qədər işləyən işçiləriniz də var. Mən onları alqışlayıram. Məncə, Həsən Həsənov, Ramiz Mehdiyev, Arif Rəhimzadə—mən televiziyaya həmişə baxıram, onların çıxışlarını diqqətlə dinləyirəm,—Yusif Hümbətov, Cəfər Vəliyev, Eldar Həsənov, Namiq Abbasov, Ramil Usubov, Əli Nağıyev, İrşad Əliyev, Zahid Qaralov, Abbas Abbasov, bugünkü spikerimiz, yeni tə'yin etdiyiniz cavan Baş nazirimiz, çox adlar saymaq olar,—Hidayət müəllim—bunlar Sizi dəstəkləyəndə adama ləzzət verir. Mənə elə gəlir ki, Prezidenti daim müdafiə etmək lazımdır. Ola bilər, bu adamların da bə'ziləri Sizin e'timadınızı bəlkə doğrulda bilmədilər, mən onu demirəm. Amma xalq fikirləşir ki, cənab Prezidentin ətrafında belə adamlar var, demək, dövlətimiz həqiqətən çiçəklənəcək.

Sözümü bir şe'rlə bitirmək istəyirəm. Mən şair deyiləm, ədəbiyyat müəllimiyəm. Mən "Əzizimiz Heydər Əliyev həzrətlərinə" adlı bir şe'r yazmışam, onu Sizə oxumaq istəyirəm.

> Nizaminin hikmətidir başında,
> Yüzdən artıq bir rəqəm var yaşında.
> Qazancı, sərvəti itirsək də biz,
> Millətə bəxş edib Sizi əsrimiz.
> Torpaq qana boyansa da, oyanıb,
> Milli şüur arxanızda dayanıb.
> Nə olsun ki, didərginik, dardayıq,
> Harda varsan, Allahımla ordayıq.
> Qarı düşmən hələlik çökdürüb diz,
> Ağıl dəryanızla qalib gəlibsiz.
> Zəngin təfəkkürdə nicat axtarın,
> Eli itən torpaqlara qaytarın.

Qarabağda, Zəngəzurda, Göyçədə,
Cənub-şimal, türk dünyalı ölkədə,
Ucalacaq heykəlin hər bölgədə.
Sülh naminə güləşməyə gəlmisən.
Dünyamızla birləşməyə gəlmisən,
Nəcib xilqətinə, zəkana əhsən!

Sağ olun. Minnətdaram Sizə. Möhtərəm Prezident, bu şe'ri və bu qovluqdakı yazıları Sizin kitabxananız üçün verirəm.

**Heydər Əliyev:** Təşəkkür edirəm.

## Mincivan
## dəmir yol orta məktəbinin direktoru
## ŞƏNDƏ SEYİDOVANIN
## çıxışı

Hörmətli Prezidentimiz, belə bir ağır vaxtda imkan tapıb biz zəngilanlıları qəbul etdiyinizə görə mən Sizə böyük minnətdarlığımı bildirirəm. Zəngilan qadınları adından, Zəngilan müəllimləri adından Sizə "çox sağ olun" deyirəm.

Bütün Azərbaycan qadınları və zəngilanlılar adından Sizə dərin minnətdarlığımızı bildirirəm ki, Siz öz müdrik siyasətinizlə qadınların göz yaşlarının qarşısını aldınız, Siz vətən övladlarının şəhid olmasının, Azərbaycan ailələrinin başsız qalmasının, şəhid qəbirlərinin sırasının artmasının qarşısını aldınız. Bax, buna görə biz Sizə ömürlük minnətdarıq.

Müəllimlər adından Sizə ona görə minnətdarıq ki, Siz müəllimlərin əməyini yüksək qiymətləndirdiniz, üç ay ərzində müəllimlərin əmək haqqını 60 faiz artırdınız, onlara dəyərli güzəştlər verdiniz, müəllim şəxsiyyətini ucaltdınız. Müəllim dövlət siyasətinin təbliğatçısıdır. Müəllim bu gün yeni nəsli necə tərbiyə edərsə, cəmiyyət də o idrakla hərəkət edər. Bu gün müəllim sinfə öz şəxsi problemləri ilə daxil olarsa, onun dediyi dərsin heç bir keyfiyyəti ola bilməz. Müəllimin heç bir cəmiyyətdə maddi marağı olmamışdır. O öz şəxsiyyəti ilə cəmiyyətdə xüsusi yer tutmuşdur, çünki o, yeni şəxsiyyətin formalaşmasında böyük simadır.

Cənab Prezident, qaçqın və köçkünləri olan başqa rayonlar kimi, Zəngilan rayonunun da öz problemləri var. Biz Sizə minnətdarıq ki, Siz cənab Ələkbər Həşimovu rayonumuza icra hakimiyyətinin başçısı tə'yin etmisiniz. Əvvələ, onu deyim ki, atam göyçaylı, anam cəbrayıllıdır. Mənim Zəngilanda heç bir qohumum yoxdur, adicə bir müəlliməm. Ona görə də hiss edirəm ki, cəmi doqquz aydır tə'yin olunan icra hakimiyyətinin başçısı xeyli işlər görüb. Bunu danmaq olmaz. Belə kadrlarımızı ləkələdiyimizə görədir ki, gəlib bu yerə çıxmışıq. Gəlin, kadr tərbiyə edək. Mən zəngilanlılara müraciət edirəm.



Cənab Prezident, Siz bizə Allah tərəfindən göndərilmiş şəxsiyyətsiniz. Siz qaçqınlara o qədər qayğı və diqqət göstərirsiniz ki, bu, icra hakimiyyəti başçılarına dərhal sirayət etmişdir. Məsələn, Xətai rayon icra hakimiyyətinin başçısına və ya Azərbaycan Dəmir Yol İdarəsi tədris müəssisələri şö'bəsinin rəisi Süleymanov yoldaşa. Onlar bizi qəbul edəndə çox diqqətli və həssas olurlar.

Siz kamil bir şəxsiyyətsiniz. Bir şəxsiyyət kimi ensiklopedik biliyə malik olmağınız ona dəlalət edir ki, Siz Allaha çox yaxın adamsınız. Allah Sizi Azərbaycan xalqının bu çətin günündə ona xilaskar bir ağsaqqal kimi göndərmişdir. Bunu düşmənlərimiz də e'tiraf edir ki, həqiqətən, Heydər Əliyev Azərbaycana Allah tərəfindən göndərilib ki, Azərbaycanı bu bəlalardan, bu xətalardan xilas etsin. Siz olmasaydınız, Azərbaycanı fəlakətli günlər gözləyərdi. Bunu bütün Azərbaycan xalqı dərk edir. Bunu qaçqınlar daha çox hiss edirlər. Siz bizim qəm-qüssəmizi çox həssaslıqla anlayırsınız, bizə qarşı çox diqqətlisiniz. Allah Sizi üstümüzdən əskik etməsin, yoldaş Əliyev. Siz yaralı qəlbimizi həmişə oxşayıb, bizə daim təskinlik verirsiniz. Siz mə'nəviyyatımızı yaşadırsınız.

Bilirsiniz ki, biz nə qədər gülsək də, şənlənsək də hər halda qəlbimizdən qara qanlar axır. Doğrudan da, torpaq həsrəti çox ağır dərd imiş. Qaçqınlıq dövründə vəfat edənlər əllərini Zəngilana tərəf uzadıb ölürlər. Onların Vətən həsrəti ilə ölümü əzizləri üçün ən ağır dərdə çevrilir.

Möhtərəm cənab Prezident, biz qaçqın rayonlarının müəllimləri Vətən məhəbbətini balalarımıza aşılamaq istəyirik. İstəyirik ki, bu həsrəti, bu məhəbbəti gözlərimizdən oxuyub, qəlbimizdən duysunlar. Lakin son dövrlərdə qaçqın rayonlarının məktəblərinin başqa yerdə fəaliyyət göstərməsinə baxmayaraq, qaçqın ailələrinin uşaqları şəhər məktəbinin rəhbərliyi tərəfindən təhsilə cəlb olunmuşlar. Bu da şagirdin zəngilanlı olmasını ona tədricən unutdurur. Buna görə də yaxşı olar ki, əlaqədar təşkilatlar qaçqın məktəblərinə kömək etsin, onları dərsliklərlə, əyani və texniki vasitələrlə, avadanlıqla tə'min etsinlər, yetirmələrimizi vətənpərvərlik, öz xalqının xilaskarı ruhunda istiqamətləndirsinlər. Hər gün hər bir şagirdə aşılanmalıdır ki, sən zəngilanlısan. Sənin axarlı-baxarlı çayların, gözəl meşələrin, çeşmələrin, bərəkətli torpağın var. Sən öz ağlınla, öz gücünlə, öz idrakınla torpağını düşmənin caynağından qurtarmalısan. Sənin əzizlərin o torpaqda uyuyurlar. Sən öz torpağının gələcək sahibisən. Onun xilaskarı yalnız sən ola bilərsən. Bax, bu hissləri uşaqlara ancaq qaçqın müəllimlər daha çox aşılaya bilərlər.

Ona görə də Sizdən xahiş edirəm ki, hər qaçqın ailəsi uşağının öz məktəbində təhsil almasına imkan və şərait yaradılsın. Bakının bütün rayonlarında qaçqın məktəbləri fəaliyyət göstərir. Onların fəaliyyəti genişlənsin, onlar ikinci dərəcəli məktəb hesab edilməsin.

Cənab Prezident, Sizin çox müdrik siyasətiniz bu yaxınlarda

Portuqaliyanın paytaxtı Lissabonda ATƏT-in zirvə görüşündə ən yüksək apogeyə çatmışdır. Siz ondan əvvəl də çox böyük siyasi işlər görmüşdünüz. Lakin onu demək istəyirəm ki, indi müxalifət bu işləri tənqid etsə də, onda—gecə saat 5-də, onlar yatan vaxt—Siz hansısa bir ölkənin prezidenti, hansısa bir ölkənin başçısı, xarici işlər naziri ilə görüşüb, 52 dövlətin nümayəndələrinə səbrlə, təmkinlə göstərmək istədiniz ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir, biz bu torpaqlarımızı heç vaxt heç kəsə bağışlamayacağıq. Lakin o müxalifət deyilən adamlar, rus demişkən, bataqlıqdan çıxıb "knyaz" oldular. Biz onların çoxlarını tanıyırıq. Çoxları da susub, daha dinmirlər. Bə'zən də xalq içində deyirlər ki, görən filan liderin səsi niyə çıxmır? Sonra da özləri deyirlər ki, o liderin o qədər şirkəti, firması var ki, daha onun səsi niyə çıxmalıdır? Qoy onlar biz qaçqınların vəziyyətini nəzərə alsınlar, görsünlər ki, biz harada məskunlaşmışıq—bağçalarda, yataqxanalarda.

Mən Bakı camaatına, Rəfael Allahverdiyev cənablarına çox təşəkkürümü bildirirəm. Görün biz qaçqınlar bakılıların vəziyyətini nə qədər ağırlaşdırmışıq. Gəlin, bunu nəzərə alaq. Axı, onlar bizi qəbul edib, öz ağuşlarına alıblar. Halbuki onların özlərinin də problemləri çoxdur. Yenə deyirəm, biz Bakı camaatına minnətdarlığımızı bildirməliyik. Onların bazar-dükanını bahalaşdırmışıq, nəqliyyatın işini çətinləşdirmişik. Qoy müxalifət belə şeylərə fikir versin, "Rossiya" şirkətinin prezidenti, sahibkar Səxavət Kərimov kimi adamlara baxsın. Siz bilirsiniz ki, o, Neft Akademiyasının yataqxanasında məskunlaşan nə qədər qaçqına maddi yardım göstərib, neçə ailəyə, atasını-anasını itirmiş neçə uşağa ayda 300 min manat məbləğində yardım edir. Novruz bayramı, Qurban bayramı ərəfəsində kömək əlini uzadıb. Müxalifət isə heç vaxt qaçqının problemi, dərd-səri ilə maraqlanmır. Amma özlərinə lazım olanda qaçqınların yanına gedir, onlardan istifadə edirlər.

Mən belə başa düşürəm ki, bütün cəmiyyət onlara qarşı mübarizə aparmalıdır. Sizin gördüyünüz işlərə onlar heç vaxt qara yaxa bilməzlər. Gördüyünüz işləri bütün dünya bilir. Sizin necə bir siyasətçi olduğunuz bütün xalqa mə'lumdur. Ona görə də zəngilanlılar adından Sizə uzun, müdrik ağsaqqal ömrü, respublikamızın siyasi və iqtisadi işlərində böyük uğurlar, erməni təcavüzkarlarına qarşı mübarizədə böyük siyasi qələbə arzulayıram. Yoldaş Əliyev, mən əminəm ki, Siz Zəngilanı bizə qaytaracaqsınız. Onda biz Sizin ayaqlarınız altında minlərlə qurban kəsəcəyik. Sizin şəxsiyyətinizə mənim bir azərbaycanlı qadın kimi böyük hörmətim var. Bir dəfə gürcü artisti Vaxtanq Kikabidzeyə sual verdilər ki, Siz prezidenti necə görmək istərdiniz. O, Sizdə olan bütün xüsusiyyətləri sadaladı, hətta qalstukunuzu da misal çəkdi. Fəxr etdim ki, mənim belə Prezidentim var. Gör, gürcü xalqı mənim Prezidentimə necə hörmət qoyur. Mən tez-tez Rusiyada



oluram, övladımın biri orada yaşayır. Rus xalqının Əliyev yoldaş haqqında dediyi sözləri eşidəndə fəxr edirəm. Qürrələnirəm ki, o, bizim Prezidentimizdir. Siz hətta Lissabonda və başqa məclislərdə çıxış edərkən Sizin tək o görkəminizə görə bir Azərbaycan qadını kimi fəxr etmişəm. Sizə uzun ömür, cansağlığı arzulayıram.

### Milli Məclisin üzvü, yazıçı İMAMVERDİ İSMAYILOVUN çıxışı

Möhtərəm cənab Prezident, hörmətli həmvətənlər və əziz görüş iştirakçıları! Mən bəlkə də çıxışımı əvvəlcə ayrı məqamlarda qurmuşdum, amma bə'zi çıxışlar və ümumi ab-hava məcbur edir ki, bir sıra məsələlərə aydınlıq gətirim. Ümumiyyətlə, hər şeyin zamanı, məkanı, məqamı var və hər şeyin zamanı, məkanı, məqamı yetişəndə hər şey qiymətli olur. Yə'ni ilin ilə qovuşduğu bir məqamda Zəngilan camaatının Prezidentlə görüşə gəlməyindən hiss etdim ki, onların ürəyinə soyuq su çiləndi.

Möhtərəm Prezident, Lissabon zirvə toplantısı ilə əlaqədar müxtəlif yerlərdə görüşlərdə olurdum. Camaatımızın narahatlığından və Sizə məhəbbətindən doğan maraqlı sualı vardı ki, Prezident biz zəngilanlılarla nə vaxt görüşəcək. Görünür, Sizin addımlarınızda, sözlərinizdə heç bir təsadüfilük yoxdur. Sizin böyüklüyünüz ondadır ki, Siz noyabr və dekabr aylarında bir Prezident kimi öz iş cədvəlinizin gərginliyini hiss edərək, səhv etmirəmsə, Qazaxıstan prezidenti Nursultan Nazarbayev Bakıda rəsmi səfərdə olarkən onun qaçqınlarla görüşündə dediniz ki, mən Füzuli, Cəbrayıl və digər rayonların qaçqınları ilə görüşmüşəm, bu günlərdə isə zəngilanlıları da qəbul edəcəyəm. Bu sözlər zəngilanlıların qəlbində bir təskinlik oldu, bu, onlara diqqət və qayğı əlaməti idi. Mən elə bilirəm ki, elə bugünkü toplantı da mənə verilən narahatlıq və həsrət dolu sualların məntiqi yekunudur və bu toplantını yaralı torpağımızın bir parçası olan Zəngilan camaatına Prezidentin qayğısı kimi qiymətləndirirəm.

"İşğal" sözü Zəngilanın ürəyinin düz ortasından gəlib keçdi. Yə'ni son anadək ümidli qalan camaat axırda yarımçıq köçünü, götürdüyü pencəyini Arazın sularında islada-islada özünü çöllərdə şəhid elədi, kolda-kosda qalan oldu. Yadımdadır, İmişlidə camaatın qarşısına çıxanda hiss etdim ki, o təlatümlü, haylı-küylü, təlaşlı camaatın gözündə sağ gəldiklərinə bir sevinc və dillərində sizə ünvanlanmış bir dua var. Ömrü boyu Arazın sərtliyini görən Zəngilan camaatının Arazı keçmək ümidi yox idi. Arazın suları azalmasaydı, İran dövləti Azərbaycan vətəndaşlarına, Zəngilan camaatına yol verməsəydi, təsəvvür edin ki, nə cür faciələrimiz baş verərdi.

Bildiyiniz kimi, Zəngilan elə bir coğrafi mövqedə yerləşir ki, Ermənistana, Qafana gedən yeganə dəmir yolu Zəngilandan gəlib keçir. Dünyada ikinci yeri tutan təbii çinar meşəliyi Zəngilandadır. Bu diyar digər təbii sərvətlərlə də zəngindir. Ona görə də düşmənin Zəngilanı işğal etməyə çox böyük marağı var idi. Amma, ümumiyyətlə, mən Zəngilanın işğalını hakimiyyət uğrunda gedən mübarizələrin məntiqi sonluğu kimi qəbul edirəm. Yə'ni bir qrup adam, siyasət dəllalları təxribat törətmək, Azərbaycanı müstəqillik yolundan döndərmək istəyirdilər, Heydər Əliyevə qarşı şantajlar, tə'qiblər edilirdi. Heydər Əliyevi xalq çağırdı. O, xalqın səsi ilə gəldikdən sonra bə'zi rayonlarımızı düşmənə verməyə başladılar. Xalqın kədəri ilə alver edirdilər, siyasi iddialarını torpaq hesabına həyata keçirmək istəyirdilər. Amma siz bilirsiniz ki, dövlətçilik təcrübəsi olan Heydər Əliyevin idrakı, iradəsi, təmkini və səbri buna yol vermədi, səbrlə, təmkinlə, dövlətçilik təcrübəsi ilə dözdü və artıq bu gün məni çox sevindirir ki, işıqlı günlərimiz başlayır, Horadiz camaatı öz evlərinə köçür.

Möhtərəm Prezident, mən elə ailələrlə görüşdüm ki, onlar bəlkə də dünyanın əvəzsiz sevincini yaşayırdılar. Ömrü boyu dağa, əkinə, biçinə, mala, bağ-bostana öyrənmiş camaata təskinlik sözü də lazımdır, yardım da lazımdır. Lakin onlara hər şeydən əvvəl torpaq gərəkdir. Buna görə də əkin-biçinə qayıdan o camaatın sevinci Sizin adınızla bağlıdır.

Bu gün evlərimiz bərpa olunur. Mən Horadizdə, Kərimbəyli, Şükürbəyli kəndlərində olmuşam, cəbhə zonasına getmişəm. Orada bizim ellər yağı düşmənin tapdağı altında qalıb. Bunu gördükdə adamı qəribə bir kədər bürüyür. Elə bil ki, insanları torpaq adlı müqəddəs bir sözə inandırmağa səsləyirsən. Möhtərəm Prezident, Zəngilanın güclü hərbi hissəsi olub, burada cavan-cavan oğlanlar olub. Adil Rüstəmov kimi qəhrəmanlar olub. Səhv etmirəmsə, Siz ona "Azərbaycan bayrağı" ordeni vermisiniz. O görəndə ki, ana-ata qoltuğunda böyüyən, hələ həyatda bərkdən-boşdan çıxmayan cavan uşaqlar geri qayıdırlar, torpaqdan bir ovuc götürüb yemişdi, demişdi ki, bu torpağın hər qarışı yeməlidir, hara gedirsiniz? Ermənilər axırda təxribat törədib o cür oğlanın diri-diri başını kəsdilər. Belə oğlanların həsrəti bu gün bizim hər birimizin qəlbində var.

Zəngilan oğlanları gedib Cəbrayıl, Füzuli, Qubadlı uğrunda da vuruşdular, özü də qəhrəmancasına döyüşdülər. Cəbrayılın özündə bizim neçə igidimizin meyiti qalıb. Bizim orada 17 nəfərdən çox şəhidimiz var. Zəngilanın Müşülan kəndinin camaatı mənim sözümü təsdiq edə bilər,—orada 200-dən çox erməni öldürüldü, meyitləri qaldı. Son anda Zəngilan camaatı ölənləri, şəhid olanları həyətdə, bostanda basdırıb getdilər.

Bəli, Zəngilanın müdafiəçiləri var idi, Zəngilan müdafiə edilməliydi. Lakin hakimiyyət uğrunda gedən mübarizələrdə Zəngilanı təxribata



çəkdilər, şayiələr yaydılar ki, ay aman, ermənilər sağdan gəlir, soldan gəlir. Füzuli, Cəbrayıl artıq işğal olunmuşdu. Hətta Bakıya, Şəkiyə gələn camaatımız qayıdıb Zəngilana getmək istəyirdi. Amma camaatın arasına vəlvələ salıb haray çəkdilər ki, qaçın ermənilər gəlir. Bu reallığı, nə qədər acı olsa da, deməyi bacarmaq lazımdır. Mən Bakıda yaşayan bir ziyalı kimi, Zəngilanın çətin günlərində oraya tez-tez gedirdim. Bir qrup Rəhim Qazıyevin idi, bir qrup daxili qoşunların komandiri Fəhmin Hacıyevin idi. Onlar Zəngilanın üstündə bir-biri ilə eksperiment aparırdılar—yə'ni kim öz gücünü göstərmək istəyirsə Zəngilan torpağını götürsün—bir kəndi alır, o birini verirdilər. Ömrü boyu əkin-biçinlə məşğul olan, siyasətə baş qoşmayan camaatı siyasətə çəkir, bölür, bloklaşdırır, tayfalaşdırır, partiya mənsubiyyətinə çəkirdilər. Zəngilan bax, beləcə təxribatın qurbanı oldu.

Normadan 5-6 dəfə böyük ərazini qoruya bilən hərbi hissə üç tabordan ibarət olmaqla şəxsi hey'ətlə 70-75 faiz, texnika ilə isə cəmi 5 faiz tə'min edilmişdi. Məmmədrəfi Məmmədov rayona gəlib camaata kömək etmək əvəzinə oraya çəkiliş qrupu göndərmişdi. O da müəyyən adamların dəyirmanına su tökənlərdən idi. Tarix hər şeyi öz yerinə qoyacaq, haqqın mizan-tərəzisi gəlib öz yerini tutacaqdır.

Düşmən bütün istiqamətlərdən hücuma keçdi. Cəbrayıl, Füzuli artıq əldən getmişdi. Zəngilan Qafanla, Gorusla, Mehri ilə qonşu idi. Hörmətli Prezident, son anda camaat Sizin köməyinizlə öz ümid yolunu, nicat yolunu Arazın sularında axtardı. Evsiz-eşiksiz, yurdsuz-yuvasız camaatımız indi dərədə-təpədə, kolda-kosda, yarımçıq binalarda, alaçıqlarda yaşayır.

Yadımdadır, Siz bizi buraya bir dəfə də yığmışdınız. Deputatlarla çox maraqlı görüş oldu. Bu görüş mənim olduqca xoşuma gəldi. Bir ziyalı kimi görə bilmədiyimi bu camaatın çoxu da görə bilməzdi. Sizin kadr arxasında qalan nə qədər gərgin işləriniz var. Yə'ni bizim gördüklərimiz və görmədiklərimiz, bildiklərimiz və bilmədiklərimiz var. Bu gün Azərbaycanda böyük dövlətlərin hərbi marağı toqquşur, Azərbaycanı poliqona çevirmək istəyirlər, bizi müstəqillik yolundan döndərməyə çalışırlar. Məsələn, bombalar qoyur, təxribatlar törədirlər, bə'zən də xalqın kədəri ilə, ehtiyac içində, problemlər içində olan camaatımızın problem və ehtiyacları ilə alver etmək, bunlardan özünə siyasi mənsəb qazanmaq üçün istifadə etmək istəyən qüvvələr də var.

Lakin bu bir həqiqətdir ki, bu gün Azərbaycan adlı dövlətin, onun rəhbərinin dünya dövlətləri sırasında öz yeri, öz mövqeyi var. Bəli, siyasətdə naşı olan keçmiş "rəhbər"lərimizin ucbatından bu gün Qarabağ torpağı Azərbaycana qarşı müəyyən təzyiqlər, hədələr üçün müəyyən vasitəyə çevrilib. Amma Heydər Əliyevin zəngin dövlət təcrübəsi var və o, yolundan heç vaxt dönməyəcək, öz yolu ilə təmkinlə gedəcəkdir. Prezidentimiz Azərbaycanı müstəqillik yolu ilə sapdırmadan aparır.

Möhtərəm Prezident, biz ATƏT-i çox tə'rifləyirik. Mən görüşlərimdə də dedim, hamı ATƏT-dən danışır, amma çoxusu onun qədrini, mahiyyətini bilmir. Heç kəs demək istəmir ki, Budapeşt sammitində Heydər Əliyevin təşəbbüsü ilə ATƏT-in fəaliyyətinə iki maddə əlavə olundu, onun prinsipləri müəyyənləşdi. Yə'ni Prezidentimiz öz diplomatik məharəti ilə buna nail oldu: Birincisi, ATƏT-in fəaliyyətində dəyişiklik etmək, onu səmərəli iş mexanizminə malik Avropa təşkilatına çevirmək, yeni Avropa evinin bərqərar olmasında bu təşkilatın aparıcı və həlledici rolunu tə'min etmək. İkincisi, ATƏT-ə məxsus çoxmillətli sülh məramlı qüvvələr yaratmaq, onları Avropanın münaqişəli regionlarına göndərmək, münaqişə zonalarında sabitliyin və dincliyin bərqərar olmasında bu qüvvələrdən istifadə etmək.

BMT-dən fərqli olaraq ATƏT-in sülh məramlı qüvvələri yox idi. Dünya miqyaslı siyasi xadim Heydər Əliyevin hadisələri qabaqlamasından irəli gəlir ki, o, ATƏT-in iki yeni vəzifəsi olmasının vacibliyini irəli sürdü. Bundan məqsəd o idi ki, xalqımızın ümid bəslədiyi bu beynəlxalq təşkilat Dağlıq Qarabağ münaqişəsinin həllində mövcud vəziyyətdən çıxa bilsin. Bu məsələni nə üçün qeyd etmirlər? Farsların belə bir məsəli var: Əbləhlərin cavabı susmaqdır. Bu misala görə mən üzr istəyirəm. Hadisəni qiymətləndirmək üçün faktı vaxtında demək lazımdır.

Biz ATƏT-in Lissabon zirvə toplantısında əsas prinsiplərə nail olduq. Dünya ölkələri Azərbaycan adlı dövlətin haqq səsini eşitdilər, respublikamızın ərazi bütövlüyünə dəstək verdilər. Bunu sözdə elə-belə, "qələbəmizdir" demək, alqışlamaq asandır. Lissabonda gecə-gündüz yatmadan işləmək, səmərəli görüşlər keçirmək, böyük dövlətlərin təzyiqlərinə dözmək və yüksək nailiyyət qazanmaq öz qiymətini almalıdır və bu haqda ətraflı söhbət açılmalıdır. Mənim fikrimcə, hər bir dövlət başçısı hadisələrin belə qovuşuğunda öz təmkinini qoruyub saxlaya bilməzdi.

Mən ordu quruculuğu barədə də fikirlərimi demək istəyirəm. Buradakı çıxışlarda fərariliklə bağlı bə'zi qeydlər deyildi. Elə gənclərimiz var ki, hələ də ata-ana ümidində, qoltuq altında yaşayırlar. Onlar isti ocaqlarda böyümüş gənclərdir. Ordudakı bə'zi çətinliklər, mənfi hallar onları fərariliyə məcbur edir. Səfərbərlik zamanı növbəti çağırışdan yayınma halları yenə də vardır.

Hörmətli Prezident, Siz Prezident və Ali Baş Komandan kimi humanistlik göstərdiniz, fərarilik edənlərin xeyli hissəsini bağışladınız. Mənə elə gəlir ki, qarşıdan gələn bayramlarda, xoş günlərdə də Siz öz humanizminizi əsirgəməyəcəksiniz. Mən inanıram ki, ümidlə gözləyən bu gənclərin yenidən cəbhəyə, döyüşə, torpaqlarımızın müdafiə edilməsinə qaytarılması üçün öz humanizm pəncərənizi yenidən açacaqsınız.

Möhtərəm Prezident, Siz 12 noyabrı Konstitusiya günü e'lan etdiniz. Milli Məclisdə biz hansı qanunu qəbul ediriksə, özümüzün



də xəbərimiz olmadan baxıb görürük ki, bütün bu məsələlər Konstitusiyada öz əksini tapıb, təsbit edilib. Biz də qanunları buna uyğun qəbul edirik. Müstəqil Azərbaycanda insan hüquqlarının qorunmasından bəhs edən maddələrlə dolu olan Konstitusiyamız nə üçün geniş təbliğ olunmur? Mənə elə gəlir ki, biz təbliğat mexanizmini çox ciddi işə salmalıyıq. Biz milli dövlətçilik və milli ideologiya konsepsiyasını hazırlamalıyıq. Çox təəssüf ki, bə'ziləri bu fikirləri söyləməkdən elə bil qorxurlar. Bəli, bu gün Azərbaycanda milli dövlətçilik və milli ideologiya prinsipləri formalaşmalıdır. Mən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin son vaxtlardakı məntiqi verilişlərini alqışlayıram. Mən televiziyamızın son vaxtlardakı bir müsbət işini də qeyd etmək istəyirəm. Düzünü deyim ki, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində televiziyanın əvvəllər göstərdiyi fəaliyyət bir ziyalı kimi məni qane etmirdi. Məsələn, əvvəllər televiziya bir mahnını oxuyub qurtaranadək kostyumunu yeddi dəfə dəyişən müğənnini tez-tez göstərirdisə, indi həmin müğənnilər cəbhə zonalarına, soyuq səngərlərə göndərilir və onlara bildirilir ki, apar, öz hədiyyəni də orada təqdim et. Bu, çox gözəl ən'ənədir. Mənə elə gəlir ki, ehtiyac içində yaşayan, həyatı problemlərlə dolu olan bir insanın evinə parıltılı ab-hava gətirmək olmaz. Bu, bə'zi mə'nəvi məsələlərə qəsd olunması deməkdir. Bir daha bildirirəm ki, Azərbaycan televiziyasının son vaxtlardakı işinə uğurlar arzulayıram. Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsindəki bu işi davam etdirmək lazımdır. O, çox güclü ən'ənədir.

Cənab Prezident, Sizin təşəbbüsünüzlə keçirilmiş tədbir—Gənclərin Ümumrespublika Forumu davam etdirilməlidir. Ona görə ki, bə'zi qüvvələr həyatın bərkinə-boşuna düşməmiş gəncləri müəyyən səmtlərə yönəltmək istəyirlər. Sizin tövsiyəniz və təşəbbüsünüzlə keçirilən ümumrespublika forumu çox yüksək qiymətə layiqdir.

Mən çıxışımın sonunda camaatımıza müraciət etmək istəyirəm. Biz cənab Prezidentin yanında söylədiyimiz hər bir sözə ciddi fikir verməliyik. Prezident Heydər Əliyev dövlətçiliyimizin, ölkəmizin azadlığının rəmzidir və Konstitusiyamızın yaradıcısıdır. Biz öz problemlərimizi Prezidentə qədər olan dövlət instansiyalarında həll edə bilərik. Əziz həmyerlilərim, hörmətli zəngilanlılar, mən Sizin böyütdüyünüz oğulam. Zəngilanın da, Qubadlının da, Laçının da camaatını orta məxrəcə gəlməyə də'vət edirəm. Gərək biz problemlərimizi, dərdlərimizi bir-birimizə olan məhəbbətimiz, yaxud nifrətimiz baxımından qiymətləndirməyək. Biz öz problemlərimizi, uğurlarımızı Azərbaycan dövlətçiliyi baxımından müəyyənləşdirməliyik. Biz hamımız Azərbaycan Prezidentinin ətrafında yekdil, yumruq kimi birləşməliyik. Problemlərinizi dövlətin müxtəlif tə'sisatlarına çıxarın, onlar bunların həlli ilə məşğul olarlar.

Qaçqınların Bakıda məskunlaşdıqları mənzildən çıxarılması barədə məsələ ilə bağlı şəhər icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevlə

mən də söhbət etmişəm. O, bu məsələdə bizə yaxından kömək etdi və rayon icra hakimiyyətlərinə lazımi sərəncam göndərdi.

Mən öz camaatımıza müraciətlə bir daha deyirəm ki, Azərbaycan Prezidenti sizinlədir. Məskunlaşdığınız yerlərdən sizi heç kəs çıxara bilməz.

Möhtərəm Prezident!

Hörmətli görüş iştirakçıları!

1996-cı il başa çatır. Mən bir daha deyirəm ki, 1995-ci il Azərbaycan dövlətçiliyinin həyatında çox mühüm hadisələrlə dolu idi. İlk dəfə olaraq müstəqil respublikamızın demokratik Konstitusiyası, parlamenti formalaşdı. 1996-cı ildə Azərbaycan diplomatiyasının gərgin, narahat, yuxusuz gecələrinin son məhsulu bu oldu ki, dünya dövlətləri Azərbaycanın haqq səsinə dəstək verdilər. Mən arzu edərdim ki, 1997-ci il camaatımız üçün obalarımızın, ellərimizin geriyə qayıtması ili olsun.

Möhtərəm Prezident, o gün bütün ellər yığışıb Sizin ayağınız altında qurbanlar kəsəcək. Sizin 1997-ci iliniz, bizim isə doğma torpaqlarımıza qayıdacağımız ilimiz mübarək olsun. Sağ olun.

## Zəngilan rayon icra hakimiyyəti hüquq şö'bəsinin müdiri AĞAMİRZƏ MƏMMƏDOVUN çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli görüş iştirakçıları!

"Vətən, Vətən" deyib vətənsizləşənlərin, "qeyrət, qeyrət" hayqıraraq qeyrətsizlik çirkabında boğulanların, "günüm harada xoş keçsə, ora mənim üçün vətəndir" deyənlərin satqınlığı, xəyanəti üzündən torpaqlarımız bir-birinin ardınca düşmənə təslim edildi və möhtərəm Prezidentimizin taleyinə bizimlə birlikdə belə ağrılı günlər nəsib oldu.

Möhtərəm cənab Prezident!

Pis günlərin axırı həmişə yaxşı bir sonluqla qurtarır. Biz inanırıq ki, Sizin Azərbaycan xalqının qəlbi ilə döyünən, düşmənə qarşı od-alov saçan təmiz ürəyinizin şö'ləsi ilə vaxt gələcək, o torpaqlar erməni daşnaklarının ayağı altında od tutub yanacaq, düşmənlər məhv ediləcək, qeyrətsizlərin iç üzü açılacaq. Bəli, biz o xoş günün gələcəyinə varlığımız kimi inanırıq. Çünki bizim dünya siyasətçiləri arasında xüsusi çəkiyə malik olan Sizin kimi rəhbərimiz, uzaqgörən, müdrik ağsaqqalımız var.

Möhtərəm cənab Prezident!

Bu görüşdə mən bə'zi məsələlər barədə öz fikrimi açıqlamaq istəyirəm. Məcburi köçkünlərlə ötən dəfə görüşünüzdə natiqlərdən



kim isə bildirdi ki, xalq cəbhəsinin liderlərindən biri demişdir: "Əbülfəz Əliyev Heydər Əliyevi Bakıya də'vət etməklə şah gedişi etdi, çünki onu burada yüksək kürsüdən vurmaq daha asan olacaq". Bu fikrə mən başqa bir cəhətdən qiymət vermək istəyirəm. Əbülfəz Əliyev o dövrdə Azərbaycan dövlətçiliyinin məhvə doğru getdiyini, özünün isə tarix qarşısında gələcək məs'uliyyətdən yaxa qurtara bilməyəcəyini dərk edib, belə bir addım atdı. Bir tərəfdən Ermənistan işğalçılarının gündən-günə güclənən hücumları, vətəndaş müharibəsi vahiməsi, o biri tərəfdən Azərbaycanın parçalanması təhlükəsi, "Talış-Muğan Respublikası", "Ləzgistan dövləti", "Gəncə quberniyası", "Bakı qəzası" yaratmaq iddiaları istər öz daxili satqınlarımızın, istərsə də xarici düşmənlərimizin Azərbaycan dövlətinə qarşı hazırladıqları qəsdin tərkib hissələri idi.

Məhz belə bir ağır zamanda Heydər Əliyev cənabları hakimiyyətə gəldi. O, hakimiyyətə gəlməsi ilə sapı özümüzdən olan baltaların arzularını beşikdə boğdu, onların fitnəkar niyyətlərini alt-üst etdi, müharibənin gedişində atəşkəs rejimi yaratdı. Azərbaycan dövlətçiliyi qorunub saxlanıldı. Azərbaycan Respublikası adının, kəlməsinin dünya xəritəsindən silinməsi təhlükəsinin qarşısı alındı. Bu, Prezident Heydər Əliyevin xalqımız qarşısında böyük xidməti idi, böyük qələbə idi. Bunu görməyən yalnız mə'nən korlar və yarasalardır.

Üzərlərində artıq qəti qələbə çalındığını hiss edən xarici və daxili düşmənlərimiz öz çirkin əməllərindən əl çəkməyərək yeni bir ictimai fikir formalaşdırmağa çalışdılar: guya Heydər Əliyevin hakimiyyəti dövründə neçə-neçə rayonlarımız erməni faşistləri tərəfindən işğal olundu. Onların bu niyyətləri də gözlərində qaldı. Mən bunu bir faktla sübut etmək istəyirəm.

Möhtərəm cənab Prezident!

Bu, danılmaz bir faktdır ki, Sizin möhkəm yaddaşınız, çox güclü hafizəniz vardır. Tarixçilərimiz tariximizi xronoloji ardıcıllıqla yazanda kaş vaxt tapıb Sizinlə məsləhətləşəydilər. 1992-ci ilin əvvələri idi. Erməni işğalçıları hər gün vertolyotların köməyi ilə Qafan şəhəri tərəfdən Zəngilan rayonu ərazisinə hücuma keçirdilər. Zəngilanın başının üstünü real təhlükə almışdı, Azərbaycan hökuməti bu regionu taleyin hökmünə buraxmışdı. Müdafiə naziri Rəhim Qazıyevlə əlaqə yaratmaq heç cür mümkün deyildi. O, bizimlə danışmaq belə istəmirdi. Respublika üçün Zəngilan, demək olar ki, ögey bir övlada çevrilmişdi. Mən belə bir təhlükəli vəziyyəti görüb, Siz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən Mincivandan Sizinlə telefon əlaqəsi yaratdım. Sapı özümüzdən olan baltaların köməyi ilə Zəngilanın düşmənə təslim edilməsi təhlükəsi barədə Sizə mə'lumat verdim. O vaxtlar Sizin adınızı çəkmək çox qorxulu idi. Mən bu riskə öz qəlbimin hökmü ilə getdim. Çünki həmin günlər bizim Sizdən başqa ümid yerimiz yox idi. Mən Sizə mə'lumat verərkən soruşdunuz ki, nə üçün Rəhim Qazıyevlə əlaqə yaratmamısan. Bildirdim ki, o,

bizə cavab vermək istəmir. Hələ o vaxt Sizin Naxçıvandan göstərdiyiniz təzyiq nəticəsində Rəhim Qazıyev Naxçıvan rabitə xətti vasitəsilə mənimlə danışmağa məcbur oldu. O, mənim üstümə bağıraraq, — "ə bəy, nə səs-küy salmısan, bizi Heydər Əliyevlə qorxuzursan", — dedi. Sonra bildirdi ki, dünən Laçından Zəngilana 73 nəfər göndərib. Cavab verdim ki, sənin göndərdiyin adamlar gecə postu buraxıb qaçdılar ki, bizim e'zamiyyət müddətimiz qurtarıb. Ermənilər də sənin adamlarının qoyub qaçdıqları yerdən hücuma keçiblər. O, mənim üstümə acıqlanaraq dedi: "Sənin dilin yaman uzundur, onu qısaltmaq mənə borc olsun".

Xalq Cəbhəsinin bə'zi üzvləri o vaxt mənim Sizinlə telefon danışığımı kəsmək istəyirdilər. Lakin Mincivan camaatı buna imkan vermədi. Siz mənə tapşırdınız ki, telefonun yanından aralanmayım, tez-tez mə'lumat verim. Rayonda vəziyyət getdikcə pisləşirdi. Mən Sizinlə yenidən telefon əlaqəsi yaratdım. Siz tapşırdınız ki, telefonun dəstəyini yerə qoyma, indi mən Ermənistan prezidenti Levon Ter-Petrosyanla danışıb, döyüşləri dayandırmağı ondan tələb edəcəyəm. Siz Ter-Petrosyanla danışdınız və mənə tapşırdınız: "Oğlum, hərbi hissəyə get, de ki, ermənilər saat 21.45-də döyüşü dayandıracaqlar, bizimkilər də atmasınlar". Deyilən vaxt ermənilər döyüşü dayandırdılar. Mən Sizə bir daha zəng vurdum və döyüşün kəsildiyini bildirdim.

Möhtərəm cənab Prezident!

O vaxt Siz Zəngilanın işğalı üçün yaranmış real təhlükəni aradan qaldırdınız. Bu, danılmaz bir həqiqətdir. Yeri gəlmişkən mən bir sual vermək istəyirəm: hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu vaxt Zəngilanı qoruyub saxlayan bir şəxs Azərbaycanın rəhbəri işlədiyi dövrdə başqa rayonlarımızın işğalına necə dözə bilərdi? Çox təəssüf ki, Heydər Əliyev kimi böyük bir şəxsiyyətə qara yaxmaq istəyən şərəfsizlərimiz torpaqlarımızdan düşmənə məmnuniyyətlə pay verdilər.

Möhtərəm cənab Prezident!

Bu xəyanətlərə, satqınlıqlara baxmayaraq, biz inanırıq ki, torpaqlarımız Sizin apardığınız siyasət nəticəsində tezliklə düşməndən sülh yolu ilə geri alınacaqdır. Əgər bu mümkün olmasa, hamımız bir əsgər kimi Sizin əmrinizi gözləyirik.

Möhtərəm Prezident, bayaq Siz məskunlaşdığımız yerlər barədə mə'lumat verməyimizi tapşırdınız. Mən Salyan rayonunda məskunlaşmışam. Orada biz qaçqınlara ən yüksək qayğı göstərirlər. Ona görə də mən Salyan camaatı, ağsaqqalları, ağbirçəkləri qarşısında baş əyirəm. Salyan rayon icra hakimiyyətinin başçısı Salman Salmanova, Kənd Təsərrüfatı və Ərzaq İdarəsinin rəisi Teyyub müəllimə, "Yeni Muğan" kolxozunun sədri Fəzail müəllimə öz minnətdarlığımı bildirirəm. Kaş respublikamızın bütün regionlarında qaçqınlara salyanlılar kimi münasibət bəsləyəydilər.



Cənab Prezident, mənim "Əliyevçiyəm" deməyə mə'nəvi haqqım vardır. Çünki hələ o vaxt mən həyatımı təhlükə qarşısında qoyub Heydər Əliyevlə telefon əlaqəsi saxladım və bununla da Zəngilanın o dövrdə işğal edilməsinin qarşısı alındı.

Cənab Prezident, Siz dünya siyasətçilərinin önündə gedən, xüsusi çəkiyə malik olan bir şəxsiyyətsiniz. Mən bir faktı Sizə bildirmək istəyirəm. Yəqin, bu fakta Siz özünüz qiymət verəcəksiniz. Vaxtilə mən də Zəngilanda Yeni Azərbaycan Partiyasını yaratmağa çalışdım. Amma o partiyanı yaratmağa mənim mə'nəvi haqqım çatmırdı, çünki mən fəaliyyətə yenicə başlamışdım. Murtuz Ələsgərov mənim müəllimim olub. O və Arif Rəhimzadə o vaxt nə qədər təhqirlərə mə'ruz qaldılar.

Mən bir məsələni qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının Zəngilan rayon təşkilatının sədri Nüsrət Mustafayev rayonumuzun icra hakimiyyəti başçısı haqqında bir çox sözlər dedi. Bir Əliyevçi kimi mən bir-iki müqayisə aparmaq istəyirəm. Nüsrət Mustafayev çıxışının əvvəlində Tofiq Mehdiyevi tə'riflədi. Tofiq Mehdiyev Mütəllibovun kadrlarından biridir. Mən çox təəccüb edirəm ki, Ələkbər Həşimovu Tofiq Mehdiyevlə necə müqayisə etmək olar? Onlardan biri Heydər Əliyevin, digəri isə Mütəllibovun tə'yin etdiyi kadrdır. Mən belə müqayisəyə çox təəssüf edirəm. Mən Nüsrət Mustafayevi Yeni Azərbaycan Partiyasına layiq olan bir adam hesab etmirəm. Mənə elə gəlir ki, Heydər Əliyevin kadrı ilə Mütəllibovun kadrını eyniləşdirmək olmaz.

Mütəllibovun kadrlarını biz gördük — qaçıb getdilər. "Günüm harada xoş keçir, ora mənə Vətəndir" deyənlərin qeyrətini gördük. İndi ölkənin bütün əziyyətini ağsaqqalımız, xalqımızın qeyrətli oğlu, Prezidentimiz çəkir. Bəs biz nə edirik? Üzr istəyirəm ki, bir qədər həyəcanlandım. Ancaq mən bu faktı deməli idim.

Qarşıdan Yeni il bayramı gəlir. Mən arzu edirəm ki, Allah-Təala xalqımızı güvəndiyi yerdən sındırmasın. Xalqımızın güvəndiyi yer, arxalandığı Sizsiniz, cənab Prezident. Allah-Təala bu xalqı Sizsiz, Sizi bu xalqsız etməsin. Diqqətinizə görə sağ olun.

### Ağsaqqal müəllim
### NƏRİMAN ƏLİYEVİN
### çıxışı

Möhtərəm Prezident!

Hörmətli görüş iştirakçıları!

Müasir dünyamızın ən qüdrətli, uzaqgörən siyasətçi, əvəzsiz, müdrik dövlət xadimi Heydər Əliyev cənabları, yaralı Vətənimizin, narahat xalqımızın taleyi naminə gərgin fəaliyyətinizin bu qaynar çağında vaxt tapıb bu gün bizimlə görüşdüyünüz üçün Zəngilanın

bütün ziyalıları, müəllimləri, müharibə və əmək veteranları adından Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Hörmətli Prezident!

Türk dünyasının və dünyanın bütün dost xalqlarının, millətlərinin görkəmli mədəniyyət xadimlərinin, yazıçılarının, alimlərinin və YUNESKO-nun Baş direktorunun iştirakı ilə bu il noyabrın əvvəllərində Bakıda keçirilən "Füzuli-500" yubiley tədbirlərinin ürəkaçan təntənəsi və dekabrın əvvəlində Lissabonda ATƏT-in zirvə toplantısında, cənab Prezident, Sizin müdrik siyasətiniz sayəsində qazanılmış ümidverici uğurlu addımlar — Azərbaycan diplomatiyasının qələbəsi bizi daha da sevindirdi, qəlbimizdəki ümid qığılcımlarını alovlandırdı.

Hörmətli Prezident, əvvəlcə onu deyim ki, Siz Azərbaycandan Moskvaya gedəndə, Ümumittifaq miqyaslı yüksək vəzifədə işləyəndə bütün xalqımız Sizinlə fəxr etdi. Biz fəxr etdik ki, Azərbaycanın ən layiqli oğlu öz iste'dadı, bacarığı və təşkilatçılıq məharətinə görə yüksəklərə ucaldı. Digər tərəfdən, mə'yus olduq ki, Azərbaycanı başsız qoyub getdiniz. Siz respublikadan gedəndən sonra e'tibar etdiyiniz adamlar Sizin işlərinizi davam etdirə bilmədilər. Siz uzaqda olduğunuza görə sonradan xalqımızın başına çox bəlalar gəldi. Sovet dövlətinin dağıldığı ərəfədə öz mübariz səsini ucaldan xalqımızın layiqli sükançısı olmadı. Sizin kimi sınaqlardan çıxmış, təcrübəli, mütəfəkkir bir rəhbərin yeri görünəndə qəlbi qara, kütbeyin, mənsəbpərəst vəzifə düşkünləri nicat yoluna sədd çəkdilər, işıq gələn səmtə göz yumdular və günəşin qarşısını, müvəqqəti də olsa, qara bulud kimi kəsdilər. Beləliklə, respublikamızda hərc-mərclik, anarxiya, özbaşınalıq hökm sürdü, düşmən dəyirmanına su töküldü, erməni qəsbkarlarına fürsət verildi. Rayonlarımız bir-birinin ardınca işğal edildi. Müqəssir, cinayətkar, alçaq rəhbərlərin xəyanəti, satqınlığı üzündən 1 milyondan çox həmvətənimiz öz doğma yurdlarından qaçqın, didərgin düşdü.

Cənab Prezident, çadırlarda, yataqxanalarda çətin şəraitdə yaşayan didərginlərimizin acınacaqlı, dözülməz, ağır həyatı Sizə yaxşı mə'lumdur. Üç ildir ki, bir çox digər rayonlarımız kimi Zəngilan torpağı da alçaq Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır. Şəhərlərimiz, qəsəbələrimiz və kəndlərimiz viran olunubdur. Zəngin qızıl yatağımız Vejnəli, dünyada ikinci və Avropada birinci olan nadir çinar meşəmiz, ucsuz-bucaqsız, məhsuldar üzüm plantasiyalarımız erməni quldurları tərəfindən vəhşicəsinə talan edilir.

Hörmətli Prezident, bu gün Siz zəngilanlıları görüşə də'vət etməklə üç illik ağrılı-acılı kədərlərimizi bölüşür, qəlbimizdəki ümid qığılcımlarımızı alovlandıraraq, təsəlli verirsiniz. Çətin gündə dözümlü, dəyanətli olmaqdan söz düşəndə biz zəngilanlılar da özümüzü nümunə



kimi göstəririk. Ona görə ki, qonşu Qubadlı və Cəbrayıl rayonları işğal olunandan sonra biz iki ay — 1993-cü il avqustun 31-dən oktyabrın 29-dək mühasirədə qalaraq hər gün ara verməyən atəşlər altında çox vaxt işıqsız, susuz, hətta çörəksiz vəziyyətdə davam gətirdik və rayonumuzun müdafiəsinə qalxdıq. Mərkəzlə əlaqələrimiz kəsildiyindən düşmənə qarşı çox gərgin şəraitdə mətanətlə mübarizə apardıq, çoxlu qurbanlar və şəhidlər verdik.

Həmin odlu-alovlu günlərdə biz ziyalılar əhalimizin dözüm və dəyanətini qüvvətləndirmək məqsədi ilə tez-tez yerli mətbuatda çıxış edir, səngərlərə gedir, müdafiənin möhkəmləndirilməsi üçün əlimizdən gələni edirdik, əhalimizi səbrli, təmkinli, cəsarətli olmağa ruhlandırırdıq, şayiələrə uymamağa çağırırdıq. O dövrdə "Zəngilanın səsi" qəzetində dərc etdirdiyim "Ayağa qalx, Zəngilan", "Dönmərik" adlı şe'rlərimi misal gətirə bilərəm.

Sonralar, mühasirə şəraitində vəziyyətimiz çətin olarkən Sizə iki dəfə müraciət etmişəm. Siz Ali Sovetin sədri və ümumxalq məhəbbəti ilə Prezident seçilərkən mən Sizə təbrik teleqramları göndərmişdim və orada rayonumuzun vəziyyəti barədə mə'lumat vermişdim. Elçibəyin hakimiyyəti dövründə bacarıqsız, səriştəsiz vəzifə düşkünləri, var-dövlət hərisləri olan qruplaşmalar elə ssenari qurubmuşlar ki, Laçın, Şuşa, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonları düşmənə necə təhvil verilmişdisə, Zəngilan da o vəziyyətə düşsün. Oktyabrın 27-də rayonumuzun ərazisinə hər tərəfdən top, tank mərmiləri dolu kimi yağdı. Çarəsiz qalmış əhali var-dövlətini, ev-eşiyini tərk edib Araz boyunca İran İslam Respublikasına axışdı. Od içində olan kəndlərimizdə alov ərşə dirənmişdi. Arazı keçərkən neçə uşaq suda batıb həlak oldu. O vaxt mən bir xalq bayatısını dəyişərək belə yazdım:

Araz üstə, buz üstə,
Elim çöküb diz üstə,
Analar ağı deyir
Suda batan qız üstə.

Elə orada eşitdim ki, Arazın sahilində bir oğlan uşağı doğulub və adını da Araz qoyublar. Sonra bu bayatıya belə bir əlavə etdim:

Arazın sahilində,
Bu qaçqınlar selində,
Bir oğlan da doğuldu,
El harayı dilində.
Adın qoydular Araz,
Könlüm dedi, şair, yaz,
Sabahın ümidiylə
Təsəlli tapaq bir az.
Dövran dərd-qəm ələyir,
Ana qundaq bələyir,

Zülm ərşə dayansa da,
Həyat davam eləyir.

Hörmətli Prezident, həyatın davamını, gələcək xoşbəxt günlərin işığını biz yalnız Sizin müdrik siyasətinizdə görürdük və görürük. Biz üç illik narahat, dözülməz həyatımızın yurd həsrətli günlərində həmişə Sizinlə olmuşuq və Sizinləyik. Mütəfəkkir dövlət xadimi kimi Sizin fitri iste'dadınız, xeyirxahlığınız, qayğıkeşliyiniz, sadəliyiniz, alicənablığınız və xalqla qırılmaz tellərlə bağlılığınız bizə həmişə qüvvət verir, bizi gələcəyə, müstəqil dövlətimizin möhkəmlənməsi, yüksəlişi naminə qurub-yaratmağa, insan kimi yaşamağa ruhlandırır. Çünki Sizin nurlu təfəkkürünüz və həssas duyğularınız, mən deyərdim ki, ensiklopedik vüs'ətdə və səviyyədədir. Siz iqtisadi dirçəlişin, dövlət quruculuğunun, elm və mədəniyyətin, dil, ədəbiyyat və incəsənətin inkişaf yollarını düzgün göstərən və ona qayğı bəsləyən yeganə, hərtərəfli, kamil şəxsiyyət və rəhbərsiniz. Siz bütün ixtisas sahələrinin ən yaxşı mütəxəssisi və bilicisisiniz. Elə buna görə də hamı tərəfindən sevilirsiniz. Yalnız vicdansız, bacarıqsız, işbilməz səviyyəsizlər Sizə qarşı böhtanlar yağdırır, xəyanət və cinayətlərə əl atırlar.

Yaxşı yadımdadır, Siz SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən iste'fa verəndən sonra nankorların, namərdlərin bə'zi mətbuat səhifələrində Sizə qarşı qərəzli, böhtan xarakterli yazılarına rast gəlirdik. "Pravda" qəzetində Sizin haqqınızda başdan-ayağa böhtan və iftira olan bir yazı çap olunmuşdu, bu məqaləni yazan da azərbaycanlı idi. O vaxt mən onu oxuyarkən çox narahat oldum və qəlbimin qəzəbi ilə bu misraları yazdım. Doğrudur, onu çox yerə göndərdim, çap etmədilər. O vaxt belə yazmışdım:

İdeya silahım deyə bir zaman
Şə'ninə tə'riflər yazan Nəriman
Bu gün şübhə edir sənə, "Pravda".
Necə alışmasın sinə, "Pravda".
Həqiqət carçısı, sən də çaşmısan,
Şər-böhtan yazana meydan açmısan,
Namərdlər diliylə kəkələyirsən,
Müqəddəs adını ləkələyirsən.
Sənin də, bizim də fəxr etdiyimiz,
İşilə zirvələr fəth etdiyimiz
Müdrik, alicənab bir şəxsiyyəti,
Danarmı həqiqət, de, həqiqəti?
Mətbuat yüz ölçüb, bir biçməlidir,
O, ağı qaradan düz seçməlidir.
Heydər Əliyevə iftira yazan
Ya cinayətkardır, ya da yol azan.

**Heydər Əliyev:** Siz bu şe'ri o vaxt yazmısınız?
**Nəriman Əliyev:** Bəli, 1990-cı il fevralın 5-də.
**Heydər Əliyev:** O vaxt siz bu şe'ri bir yerə göndərdinizmi?



**Nəriman Əliyev:** Göndərdim, çap etmədilər. Bir bu şe'ri, bir də Zori Balayan haqqında yazdığım şe'ri göndərmişdim, çap etmədilər.
**Heydər Əliyev:** Bir halda ki, sən bu faktı xatırlatdın, mən də bu barədə bir neçə söz demək istəyirəm. Sən dedin ki, o məqaləni bir azərbaycanlı yazmışdı. O məqalənin altında elmlər doktoru Əfəndiyev yazılmışdı. Ancaq o yazmamışdı.
**Nəriman Əliyev:** Sonra dedilər ki, bu məqaləni ermənilər yazıb.
**Heydər Əliyev:** Yox, ermənilər yazmamışdı. Ermənilər yazsaydı, o qədər də inciməzdim. Bəli, o məqaləni Bakıda, bax, bu binada hazırlamışdılar. Siz bilirsiniz ki, bu binanı da o vaxt mən tikdirmişəm.
**Nəriman Əliyev:** Tikilən belə binaların hamısı Sizin yaradıcılığınızın məhsuludur.
**Heydər Əliyev:** Bəli, mənim tikib yaratdığım bu binada oturan Vəzirov, onun ətrafında olan adamlar həmin məqaləni hazırlamışdılar. Onların bə'ziləri indi də Azərbaycandadırlar. Amma bilirsiniz ki, Vəzirov qaçıb.

Bəli, bu məqaləni Vəzirovla Sovet İttifaqının o vaxtkı başçısı Qorbaçov birlikdə "Pravda" qəzetində xüsusi dərc etdirmişdilər. Nəyə görə? Yanvarın 20-də Sovet Ordusunun böyük qoşun hissələri Bakıya yeridildi, Azərbaycan xalqına qarşı təcavüz oldu. İnsanlarımız şəhid oldu, gənclərimiz tələf edildi, xalqımıza böyük bir zərbə vuruldu. Yanvar faciəsi mə'lumdur.

O vaxt mən Moskvada idim. Səhhətim də o qədər yaxşı deyildi. Heç evdə, şəhərdə də deyildim, Moskvadan kənarda bir sanatoriyada müalicədə idim. Ancaq mən bu hadisəni eşidən kimi dərhal Moskvaya gəldim. Yanvarın 21-də Moskvada bizim o vaxtkı nümayəndəliyimizin önünə toplaşan azərbaycanlıların mitinqinə getdim, çıxış etdim. Bu faciə o vaxt azərbaycanlıları həqiqətən çox birləşdirdi. Mənim xatirimdədir, o vaxt oraya təxminən 6-7 minə qədər azərbaycanlı toplaşmışdı. Orada azərbaycanlı olmayan da var idi, amma əksəriyyəti azərbaycanlı idi. Hamı matəm əhval-ruhiyyəsində idi, qara bayraq asılmışdı. İnsanlar dərd, kədər içində idi, göz yaşı tökənlər də var idi.

Mən oraya getdim, bu faciə ilə əlaqədar, Azərbaycan xalqına qarşı edilən bu hərbi təcavüz, ədalətsizlik ilə əlaqədar çıxış etdim. Həm Azərbaycanın rəhbərliyini, həm də Sovetlər İttifaqının rəhbərliyini ittiham etdim. Qorbaçovu və başqalarını ittiham etdim ki, onlar Azərbaycan xalqına qarşı cinayət ediblər. Məni onsuz da o vaxta qədər də tə'qib edirdilər, mənə qarşı cürbəcür çox təxribatçı hərəkətlər olurdu. Amma bundan sonra belə hallar gücləndi, hətta o vaxt məni orada həbs etməyə çalışdılar, mənə zərbə vurmaq üçün, — sən tamamilə doğru deyirsən, — fevralın 4-də "Pravda" qəzetində belə

bir məqalə dərc olunmuşdu. Mən sənin bu şe'rini birinci dəfədir ki, eşidirəm. Ancaq o məqalə dərc olunandan iki gün sonra mən həmin o elmlər doktoru Əfəndiyevdən teleqram aldım. O, teleqram vurdu ki, Sizdən üzr istəyirəm, mən belə bir məqalə yazmamışam, sadəcə olaraq o məqalənin axırında mənim adımı yazıblar. O, belə bir teleqramı "Pravda" qəzetinə də, Qorbaçova da, Sovetlər İttifaqı hakimiyyətinə də göndərdi. Onu burada çağırıb sıxışdırmışdılar ki, sən nə üçün belə bir teleqram vurmusan? Deyib ki, axı, bu məqaləni mən yazmamışam, siz nə üçün bunu mənim adımdan yazmısınız?

"Pravda"ya Azərbaycandan sənin kimi çoxları tərəfindən də çox hiddətli məqalələr gəldi ki, Siz ədalətsiz bir şey yazmısınız, xahiş edirik, bizim fikrimizi dərc edəsiniz. "Pravda"nın redaktoruna mən də zəng etdim. Çünki həmin redaktor vaxtilə bir yerdə işlədiyimiz adam idi. Onlar hamısı mənimlə bir yerdə işləyən adamlar olublar. Vaxtilə onların hamısının mənə normal münasibətləri olub.

Mən ona telefonla zəng etdim. Dedim, "Pravda"nın demək olar ki, bir səhifəsini mənə həsr etmisiniz, bunun da hamısı böhtandır. Ola bilər, orada mənim də balaca bir mə'lumatımı verəsiniz. Bunu da dərc etmədilər. Ədalətsizlik bu dərəcədə idi. Mən bilirdim ki, "Pravda" qəzetinə Bakıdan, Azərbaycandan bir çox e'tiraz məktubları gəlmişdir. Onların heç birini dərc etmədilər. Elə o vaxtdan da mən "Pravda" qəzetinə nifrət etdim. Baxmayaraq ki, əvvəlki illər, uzun illər mən "Pravda" qəzetinə çox hörmət etmişdim, onunla əməkdaşlıq etmişdim. Mən Bakıda da, Moskvada da işləyərkən "Pravda" qəzetində dəfələrlə məqalələrim dərc olunmuşdu. O, mənim üçün bir hörmətli qəzet, doğrudan da sevimli qəzet idi. Ancaq mən o hadisədən sonra "Pravda" qəzetinə nifrət etdim. Çünki onlar bu qədər çoxsaylı məktubları kənara qoydular, Bakıdan bir neçə, deyəsən üç adam tapdılar — onlardan biri mənim vaxtımda rüşvətxorluğuna görə həbs edilmişdi, o birisi rüşvətxorluğuna görə işdən çıxarılmışdı, digəri isə nəyə görəsə cəzalandırılmışdı. Bu məqalə ilə əlaqədar onlar öz fikirlərini, yə'ni onu bəyəndiklərini bildirən məktublar göndərmişdilər, bir on gündən sonra bunları da dərc etdilər.

Mən istədim ki, bu barədə sənə sadəcə olaraq mə'lumat verim. Çünki görürəm, sən də həmin o vətənpərvər, ədalətli insanlardan birisən. O vaxt Azərbaycanda sənin kimi minlərlə, on minlərlə adam mənim müdafiəmə qalxırdı. Ancaq təəssüf ki, vaxtilə yanımda, əlimin altında işləyən, mənim sayəmdə vəzifələr alan, mənim köməyimlə cürbəcür mənsəblərə çatan insanlar xəyanət etdilər, o tərəfdə durdular. Siz isə ədalət tərəfində durdunuz. İndi onlar görsünlər ki, ədalət, haqq nə deməkdir. Mən o vaxt da fikirləşirdim ki, dünya belə qalmayacaq. Mən o vaxt da inanırdım ki, dünya belə qalmayacaq. Baxmayaraq, Moskvada mənə qarşı çox böyük ədalətsizliklər edirdilər,



bilirdim ki, dünya dəyişəcək, zaman öz sözünü deyəcəkdir. Öz sözünü də dedi. İndi mən səninlə görüşməyimə çox məmnunam. Çox təşəkkür edirəm.

1990-cı ilin fevralında səninlə qiyabi əlaqədə olmuşuq. İndi, 1996-cı ilin sonunda, dekabrında üz-üzə görüşürük. Mən çox məmnunam. Sağ olun.

**Nəriman Əliyev:** Şükürlər olsun ki, haqq yerini tutdu. Hörmətli Prezident, Vətənimizin, xalqımızın ən təhlükəli günündə, dar günündə dayağı və xilaskarı yenə də Siz oldunuz. Dahi şairimiz Səməd Vurğunun qızıl misraları belə yerdə yada düşür. Mənim həmkarım burada bu misraları xatırlatdı, mən də onu təkrar edirəm:

Günəşi örtsə də qara buludlar,
Yenə günəş adlı bir qüdrəti var.

Mən də oraya bir misra əlavə etdim:

Günəşi örtsə də qara buludlar,
Yenə günəş adlı bir qüdrəti var,
Buludu dağıdıb yenə də parlar.

Hörmətli Heydər Əliyev, Siz yenidən belə parladınız. Sizin müdrik, fədakar rəhbərliyinizlə hazırda respublikamızda ictimai-siyasi sabitlik yaranmışdır. İnamlı, ümidverici tədbirləriniz və göstərişlərinizlə hələ yenicə qönçələnən müstəqil dövlətimizin iqtisadi əsasları yeni uğurlu islahatlarla möhkəmlənir. Həyat yaxşılığa doğru irəliləyir. Yalnız bir böyük dərdimiz var ki, o da işğal olunmuş torpaqlarımızın Ermənistan qəsbkarlarının işğalından azad edilməsi və didərgin əhalimizin öz doğma yurduna qayıtmasıdır.

Bir ziyalı kimi mən inamla deyirəm — yalnız Sizin kimi mütəfəkkir, müdrik, peyğəmbərsayaq və əvəzolunmaz dövlət başçısının əzmkarlığı və xalqın da Sizə olan məhəbbəti ilə biz bu səadətə yetəcəyik. Bu yolda Sizin qədər bütün varlığı ilə fədakarlıq göstərən ikinci bir şəxsiyyət yoxdur.

Sinə gərib cəsarətlə,
Kim söndürdü məharətlə
Vətəndaş hərb alovunu,
Kəsib çevriliş yolunu?!
Diz çökdürdü hər haqsızı,
Xilas etdi xalqımızı
Yalnız Heydər qətiyyəti,
Rəhbərə xalq məhəbbəti!
Kim Lissabon görüşündə,
Xeyirlə şər döyüşündə
Özün atıb od-alova,
Sərt qüvvəni qova-qova
Göyərtdi haqq-ədaləti?!
Yalnız Heydər qətiyyəti!
Mətanətlə gərib sinə,

Car etdi Yer kürəsinə
Azərbaycan həqiqətin,
Əzminə bax bu qüdrətin!

Hörmətli Heydər Əliyev, Siz yenidən belə parladınız. Sizin müdrik fədakar rəhbərliyinizlə hazırda respublikamızda həqiqi mə'nada ictimai-siyasi sabitlik yaranmışdır. "Azadlıq", "Müxalifət" qəzetlərində buna qarşı çıxanların yazılarını oxuyuruq və onlara öz nifrətimizi bildiririk. Burada çıxış edənlər onların haqqında çox yaxşı danışdılar.

Biz zəngilanlılar doğma torpaqlarımızın, yurd-yuvamızın işğal olunmasından üç il keçdiyi bu günlərdə Sizə daha böyük inam, ümid bəsləyir, həmin inam və ümidlə yaşayır və Sizin ətrafınızda daha sıx birləşirik. Arzu edirik ki, tutduğunuz düzgün yolla, sülh yolu ilə torpaqlarımızın azad olunmasını tə'min edib bizi xoşbəxt, firavan həyata çatdırmağa nail olasınız. Əgər bu, sülh yolu ilə mümkün olmazsa, Siz Ali Baş Komandan və sərkərdə, biz də uşaqlı-böyüklü, cavanlı-veteranlı Sizin döyüşçüləriniz kimi torpaqlarımızın azad edilməsi üçün döyüş əmrinizə hazırıq.

Hörmətli Prezident, çıxışımı qəlbimin səsi ilə yazdığım bir şe'rlə bitirmək istəyirəm:

Siyasətdə at oynadan
İftiraçı neçə nadan
Hərdən girir cilddən-cildə,
Gah qəzetdə, gah da dildə
Şər deyərək iqtidara,
Ürəklərə vurur yara.
Öz xalqına xəyanətlə,
Təxribatla, cinayətlə,
Tökə-tökə nahaq qanlar,
Nə istəyir bu nadanlar?
Niyə başa düşmür onlar, —
Kimə arxadır milyonlar,
Kimdir xalqın xilaskarı,
Kim qaldırıb bu diyarı
Çatdıracaq səadətə.
Bir örnək var o qüdrətə —
Yalnız Heydər Əliyevtək
Başçımızdır işdə gerçək.
Yolu Allah, haqq yoludur,
İdrak ilə o uludur.
İste'dadı, təcrübəsi,
İş həvəsi, səriştəsi,
Siyasətdə uzaqgörən,
Ədalətə qanad gərən,
Təfəkkürü şəfəq saçan,
Gələcəyə yollar açan,
Vicdanı pak, qəlbi təmiz,
Müdrik Prezidentimiz
Xalqın birlik, qüdrətilə,
Məhəbbəti, rəğbətilə,
Gecəni gündüzə qatır,
Özün oda-közə atır,
Fəda edir yolunda can,
Xoşbəxt olsun Azərbaycan.
O ən böyük dövlətlərin,
Dost xalqların, millətlərin,
Məşhur başçı, liderlərin,
Gücü, sözü ötərlərin
Cəlb etdikcə diqqətini,
Qazandıqca hörmətini,
Gücləndirir ədaləti,
Yox etməkçün ədavəti,
Yer üzündən, ürəklərdən,
Bu səs gəlir diləklərdən.
Yerdən qalxan gədə-güdə
Hey vəzifə güdə-güdə,
Toplayaraq xain dəstə,
Ən axırda sui-qəsdə,
Qəsdə uzanan əlləri,
İşimizə əngəlləri
Yox etməsək aramızdan,
Qan kəsilməz yaramızdan.
Yol verməriк xəyanətə,
Biz arxayıq Prezidentə.
Prezidentimiz xalqa mayak,
Xalq da ona arxa, dayaq.
Ölkə-ölkə, oba-oba
Dolaşdıqca Heydər baba,
Yaxın-uzaq — Yer üzünü,
Görür doğma, dost özünü.
Görmürmü nankorlar bunu,
Didərginlər, qaçqınlar da



Heç vaxt uymaz yalanlara,
Təşviş, nifaq salanlara.
İşğal olan torpaqlar da
Qalmayacaq heç vaxt darda.
Çıxacağıq qışdan yaza,
Dönəcəyik yurdumuza.
Yalnız inam, ümid gərək,
İşdə birlik, igid gərək.
Həm əməkdə, həm döyüşdə,
Həm təhsildə, həm də işdə
Gənclərimiz gedir öndə.
Bu ağrılı, çətin gündə
Qeyrət təbi coşur qanda,
Qız-gəlin də, veteran da
Əlac görür hünərində,
Zəhmətin bar-bəhərində.
Duyur hər gənc, hər tələbə, —
Bizimlədir sülh, qələbə.
Uzaq deyil xoş gələcək,
Əliyevlə yüksələcək
Müstəqil, şən Azərbaycan.
Yavaş-yavaş sökülür dan,
Günəş doğur bizim səmtə,
Uğur olsun Prezidentə!
Bir səs gəlir ürəyimdən, —
İnam, ümid diləyindən
Qələbəyə yol açılır
Başçımızın hər cə'yindən.
Göydə Allah, yerdə Heydər
Qoymaz haqq iş gedə hədər.
Ədalətin zəfərilə
Yox olacaq qüssə, kədər.
Alınacaq torpağımız,
Ucalacaq bayrağımız.
Müstəqilliklə güləcək
Sülh, səadət növrağımız.

Möhtərəm Prezident, qarşıdan gələn Yeni il — ümidli 1997-ci il münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür arzulayıram. Allah Sizə dayaq olsun, yar olsun, Azərbaycan Sizinlə bəxtiyar olsun. Sağ olun.

**Heydər Əliyev:** Mən heç bilmirdim ki, Zəngilanda bu qədər şair var. Gərək Siz Qazax rayonu ilə yarışa girəsiniz. Çünki adətən Azərbaycanda ən çox şairlər Qazax rayonunda olubdur. Amma görünür ki, Zəngilanda da şair çox imiş. İndiyədək bunu bilmirdik. Nə qədər çox yaşayırıqsa, ölkəmizi, insanlarımızı o qədər də çox öyrənirik, bilirik.

## Şəhid atası
## NÜSRƏT MƏMMƏDOVUN
## çıxışı

Hörmətli Prezident!
Hörmətli görüş iştirakçıları!

Mən Zəngilanın ən ucqar kəndi olan Bartazdanam, şəhid atasıyam. Oğlumun biri də ikinci qrup əlildir, Çernobıl iştirakçısıdır. Başqa bir oğlum isə hazırda cəbhə bölgəsindədir, orduya könüllü gedib, ali təhsilli zabitdir. 1993-cü ildə Sizin müraciətinizdən sonra cəbhəyə gedib, indi də orduda qulluq edir.

Hörmətli Prezidentimizin işğal olunmuş rayonların nümayəndələri ilə keçirdiyi bütün görüşləri biz həmin rayonların əhalisinə göstərilən qayğı və diqqətin təzahürü kimi qiymətləndiririk. Bir müəllim kimi mənim xalqla həmişə əlaqəm var. Adamlarla görüşürəm. Ona görə də görüşdüyüm bütün adamların salam və ehtiramını, hörmətli,

qayğıkeş Prezident, Sizə çatdırıram. Azərbaycanın müdrik oğlu, beynəlxalq aləmdə tanınmış, böyük siyasətçi Heydər Əliyev cənabları ilə görüşmək bu ikinci dəfədir ki, mənə qismət olmuşdur.

Heydər Əliyev diqqətlidir, gözəl yaddaşı var. Onu bütün dünya, aləm tanıyır. Mən Heydər Əliyevlə birinci dəfə 1980-ci il avqustun 1-də Azərbaycan ali məktəblərinə qəbul imtahanları zamanı görüşmüşəm. O vaxt Heydər Əliyev İnşaat Mühəndisləri İnstitutunun qarşısında valideynlərlə görüşdü. Onunla şəxsən görüşən valideynlərdən biri də mən oldum. Elə o vaxt da mənə aydın oldu ki, möhtərəm Heydər Əliyevin işinin nə qədər çox olmasına baxmayaraq, o, xalqımızın bütün dərdlərini duyur, adamların qayğısına qalır, əməkçilərə xüsusi diqqət yetirir.

Mərkəzi Komitənin belə bir qərarı olubdur ki, vəzifəli şəxslərin övladları hüquq fakültəsinə sənəd verə bilməzlər. Həmin qərarın verilməsi əməksevər və imkansız adamların övladlarının hüquq fakültəsinə daxil olmasına imkan yaratdı. Bu qərar Azərbaycanda həm kasıblara göstərilən qayğı idi, həm də ədalətin zəfər çalması yolunda ən dəyərli addımlardan biri idi. Elə bunun nəticəsi idi ki, Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi və respublikanın rəhbəri olduğu dövrdə şəxsən mənim övladlarımdan dörd nəfəri müxtəlif ali məktəbləri fərqlənmə diplomu ilə bitirmişdir.

Görüş iştirakçılarına mə'lumat vermək istərdim ki, yaxşı yadımdadır, 1972-ci ildə Heydər Əliyevin göstərişi ilə Araz çayına 1 milyon 600 min manat dəyərində su nasosu qoyuldu. Bu isə o dövr üçün olduqca böyük məbləğ idi. Həmin nasosun qoyulması nəticəsində də Zəngilanın ən ucqar kəndi olan Bartaz kəndində 300 hektar sahədə üzüm bağı salındı və bundan sonra o kənd dövlətə çox yüksək keyfiyyətli üzüm təhvil verməyə başladı.

**Heydər Əliyev:** Bir dəqiqə dayan, orada Yazı düzü deyilən bir yer vardı, elədir, ya yox?

**Nüsrət Məmmədov:** Bəli, düz deyirsiniz, var idi.

**Heydər Əliyev:** Görürsünüzmü, yadımdan çıxmayıb. O nasos da Yazı düzünə su çıxarmaq üçün qoyulmuşdu.

**Nüsrət Məmmədov:** Yazı düzünün sahəsi üç min hektaradək idi. Rayon partiya komitəsinin birinci katibi, indi maliyyə şö'bəsinin müdiri olan, bu görüşdə iştirak edən Nağı Kərimov gəlib dedi ki, mən Heydər Əliyev yoldaşa çatdırdım ki, bu üç min hektar əkin-biçin üçün yararlı sahəyə çevriləcəkdir. Onda biz Sizi çox alqışladıq. İki min sakini olan Bartaz kəndi Heydər Əliyevin o xidmətini heç vaxt unutmayacaqdır. Lakin cənnətə çevrilən həmin yerlər indi düşmən tapdağı altındadır. Ümid edirik ki, biz o yerlərə qayıdacağıq.

**Heydər Əliyev:** Mütləq qayıdacaqsınız.



**Nüsrət Məmmədov:** Hörmətli Prezident, bunları yada salmaqda məqsədim odur ki, Siz işlədiyiniz bütün dövrlərdə xalqın hər bir təbəqəsinə daim qayğı göstərmisiniz, gördüyünüz işlərin hamısı bütün Azərbaycan xalqının gözləri qarşısındadır. Bunları əsas götürərək Zəngilan camaatı adından deyə bilərəm ki, indi də davam edən qayğınıza görə Sizə ürəkdən minnətdarlıq, ulu Tanrıdan Sizə cansağlığı və uzun ömür arzulayırıq.

Hörmətli Prezident, mən bilirəm ki, Siz bizim Bartaz kəndi zonasında olmusunuz.

**Heydər Əliyev:** Bəli, olmuşam.

**Nüsrət Məmmədov:** Kəndimizin ağsaqqalları həmişə deyərdilər ki, erməni heç vaxt cür'ət edib bizim bir qarış da torpağımızı tuta bilməz. Hörmətli Prezident, Siz respublikaya rəhbərlik etdiyiniz, yə'ni MK-nın birinci katibi olduğunuz dövrdə ermənilər heç vaxt bizə qarşı torpaq iddiasına düşə bilməmişdilər. Lakin 1982-ci ilin axırlarında Sizin Moskvaya getməyiniz erməniləri bir tərəfdən qəzəbləndirdi, digər tərəfdən isə sevindirdi. Qəzəbləndirdi ona görə ki, Siz çox yüksək vəzifəyə irəli çəkilmişdiniz; sevindirdi ona görə ki, Azərbaycana qarşı torpaq iddiaları irəli sürmək üçün onların əlinə böyük bir fürsət düşmüşdü.

Sizdən sonra Azərbaycana başçılıq edən maymaq, səriştəsiz, bacarıqsız Mütəllibov, Vəzirov kimi rəhbərlərin təqsiri üzündən Qorbaçovun hiyləgər, ikiüzlü, millətçi, avantürist siyasəti ilə rəvac verilən erməni millətçiləri Azərbaycanın Ermənistanla həmsərhəd torpaqlarını ələ keçirmək xəyalına düşdülər. Buna misal olaraq sovetliyimizin ərazisində yerləşən yaylağı göstərə bilərəm. 1986-cı ildə Azərbaycan rəhbərliyinin göstərişi ilə, rayon rəhbərlərinin razılığı əsasında Bartazın 960 hektar ən gözəl yaylağı adi bir akt bağlanıb Qafan ermənilərinə satıldı, bağışlandı. Ermənilərin özləri də deyirlər ki, həmin sahələri pul verib almışıq və əgər o torpaqları geri istəyirsinizsə, pulumuzu gətirin, onları geri verək.

Sonra daha bir torpaq sahəsi — dəniz səviyyəsindən 2600 metr hündürlükdə yerləşən Oyuq zirvəsi Qafan ermənilərinə verildi. Demə, bu yerlər ermənilərə gələcəkdə Zəngilanı işğal etmək üçün hava-su kimi lazım imiş. Yerli əhali respublika rəhbərlərinə, Moskvaya yüzlərlə məktub göndərdi, lakin kömək edən olmadı. Nəticədə çarəsiz qalan yerli əhali bir nəfər tək ayağa durub, həmin yaylaqlara qalxdı. Mən də o yürüşün iştirakçısı olmuşam. Biz erməniləri çomağın qabağına qatıb çıxardıq. O vaxt Mehdiyev rayon partiya komitəsinin birinci katibi idi. O, Gədəbəydən olan rayon milis şö'bəsinin rəisinə göstəriş verdi və o da zəngilanlıları həmin yaylaqlardan çıxardı və oranı yenidən ermənilərə qaytardı.

Hörmətli Prezident, vəziyyət getdikcə gərginləşirdi. 1991-ci ilin

şaxtalı-tufanlı fevral ayında Bartaz kəndində özünümüdafiə dəstələri düzəldildi. Çünki görürdük ki, ermənilər öz ərazilərindən azərbaycanlıları vəhşicəsinə qovub çıxarırlar. Bundan sonra Zəngilan camaatı hiss etdi ki, artıq ermənilər müharibəyə hazırlaşırlar. Ona görə də zəngilanlıların özləri lazımi tədbirlər görməyə başladılar və özünümüdafiə dəstələrini də bu məqsədlə yaratdılar, onlardan bir neçəsini rayonun ən yüksək zirvələrində yerləşdirdilər. Güclü qar yağdığından ermənilər oralara yaxın düşə bilmədilər. Belə bir əməliyyatdan onların xəbəri olmadı və bizim camaatımız o zirvələrdə, yüksəkliklərdə yerləşdirilmiş dəstələrin bütün təchizatını öz üzərinə götürdü. Lakin respublikanın o vaxtkı rəhbərliyi rayonun müdafiəsi üçün heç bir iş görmədi. Onlar ancaq rayon icra hakimiyyətinin başçılarını dəyişdirməklə məşğul olurdular. 1988-ci ildən 1992-ci ilədək rayonumuzda dörd icra hakimiyyəti başçısı qoyulub-çıxarıldı. Baxıb görürdülər ki, biri xeyir vermir, dərhal onu çıxarır, yerinə başqasını göndərirdilər.

Oyuq yaylağı kəndimizin 30 kilometrliyində yerləşirdi və oraya maşın yolu yox idi. Oraya yol çəkilməli idi və onu çəkmək üçün Bartaz kənd sakini, 836 nömrəli yol idarəsinin rəisi Kərimov və camaat kömək etdilər. Altı ay gecə-gündüz meşələrlə, dağ-dərə ilə 30 kilometrlik yol çəkildi. Yoldaş Heydər Əliyev, gün gələcək, inşallah, biz Sizi orada qarşılayacağıq, onda görəcəksiniz ki, bu yolu çəkmək üçün milyonlarla dollar lazımdır.

**Yerdən səs:** O yol Ermənistana gedirdi və şəxsən Sizin, hörmətli Prezident, rəhbərliyiniz altında çəkilməyə başlanmışdı.

**Nüsrət Məmmədov:** Mən onu demirəm. Mən bartazlıların özlərinin yaylağa çəkdikləri yolu nəzərdə tuturam.

**Heydər Əliyev:** Bilirsinizmi, bir halda ki, məsələni dəqiqləşdirmək lazımdır, deməliyəm ki, bəli, mən vaxtilə, 70-ci illərdə burada işləyəndə Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında avtomobil yolu çəkdirmək istəyirdim. O yol da Zəngilana gəlib, oradan Mehriyə getməli və Ordubada çıxmalı idi. Bu, təxminən 40 kilometrlik yoldur. Biz yolun Zəngilandan Ermənistan sərhədinədək olan sahəsini çəkdik və gəlib sərhədə çatanda ermənilər onu orada dayandırdılar. Mən Moskvada işləyərkən bu məsələ ilə çox ciddi məşğul oldum və o yol tikilib başa çatdırılacaqdı. Ancaq təəssüflər olsun ki, mən 1987-ci ildə Moskvada vəzifədən getdikdən sonra hər şey pozuldu. Halbuki yol Nüvədi kəndinə də gedib çıxmışdı. Elə məqsədimiz də bu yolu həm də Nüvədidən keçirmək, Nüvədini orada saxlamaq idi. Tək Nüvədi deyildi, orada azərbaycanlılar yaşayan bir neçə başqa kənd də vardı. Yolu həmin kəndlərin içindən keçirib onları Azərbaycana birləşdirmək istəyirdik.

**Nüsrət Məmmədov:** Zəngilandakı hərbi hissənin ikinci batalyonu həmin o sahədə yerləşdirildi, batalyonun komandiri Ceyhun Məmmədyarov, rota komandiri isə Elbrus Məmmədov idi. Mənim övladlarım da orada xidmət edirdilər. Ayın 29-da bizim batalyon döyüşə-döyüşə həmin yüksəklikdən aşağı, Araza tərəf enməli oldu. Bizim batalyon oradan hamıdan sonra çıxdı. Deyirlər ki, guya batalyon Arazı birinci adlayıb keçmişdi. Xeyr, belə deyil. 1993-cü ilin oktyabr ayınadək həmin yüksəkliklərin əldə saxlanmasında Bartazda yerləşən batalyonun böyük xidməti olmuşdur.



Respublikada olduğu kimi, Zəngilan rayonunda da hakimiyyət uğrunda mübarizə gedirdi. Odur ki, Zəngilan respublika Müdafiə Nazirliyi tərəfindən qorunmur, ona kömək göstərilmirdi. Müdafiə naziri Rəhim Qazıyev cəbhə zonalarında olmaq əvəzinə aşıq papağını başına qoyub meydan oxuyurdu, yeni, daha yüksək vəzifələr iddiasına düşmüşdü. Beləsi bizə nə kömək edərdi?

Hörmətli Prezident, Bakıdan rayona gələn nümayəndələr şirin dillərini işə salıb xalqı aldadır, arxayın salırdılar. Yadımdadır, 1993-cü ilin əvvəllərində general Zaur Rzayev adlı birisi Bartaz kəndinə gəldi, camaatı yığıb klubun həyətində 15 dəqiqəlik iclas etdi. Şəxsən mən xahiş etdim ki, Rəhimdən bizə heç bir kömək yoxdur, Zəngilanın 18 yaşından 60 yaşınadək olan kişilərini silahla tə'min edin, rayonun müdafiəsini özümüz tə'min edəcəyik. O, mənə cavab verdi ki, ermənilər Zəngilana dəyməyib və dəyməyəcəklər, biz onları Yerevanadək qovacağıq, siz gedin məktəb işi ilə məşğul olun, bu, sizə aid deyil. Mən ona cavab verdim ki, sizinkilər başqa şey deyir. O da dedi ki, KQB burdadır, qoy bununla məşğul olsun. Dedim ki, qoy KQB səninlə məşğul olsun, mənimlə yox. O, elə həmin gün oradan çıxıb Gəncəyə getdi və daha qayıtmadı.

Zəngilanda vəziyyət isə getdikcə ağırlaşırdı. 1990-ci ilin avqust-sentyabr aylarında Cəbrayıl, Qubadlı işğal edildikdən sonra Zəngilan əhalisi Mehri, Qafan, Gorus tərəfdən mühasirəyə düşdü. Lakin Zəngilan şahinləri düşmən hücumlarının qarşısını igidliklə alırdılar. O çətin döyüşlərdə mənim üç oğlum da vuruşurdu.

Hörmətli Prezident, həm Zəngilan uğrunda, həm də Ağdam, Füzuli və Tərtər zonalarında döyüşlərdə bizim 188 nəfər eloğlumuz vuruşa-vuruşa şəhid olmuşdur. Onlardan ikisinə Sizin fərmanınızla "Milli Qəhrəman" adı verilmiş, səkkiz nəfər isə yüksək fəxri adlara layiq görülmüşdür. Akif Kərimlinin "Zəngilan şəhidləri", "Zəngilanın işğalı", "Vətən sizi unutmur" adlı kitabları zəngilanlıların igidliyindən bəhs edir. Biz bu kitablara görə ona öz minnətdarlığımızı bildiririk. Mənim də oğlum şəhid oldu, Allah bütün şəhidlərə rəhmət eləsin.

Zəngilan döyüşçüləri təkcə rayonumuzda deyil, Cəbrayılda da, Qubadlıda da vuruşmuş, onlardan neçəsi yaralanmış, neçəsi də qəhrəmancasına həlak olmuşdur. Bartaz kəndindən əsgər Vəli oğlu Nəbiyev 1993-cü il avqustun 25-də igidliklə döyüşə-döyüşə şəhid

olmuşdur. Yoldaş Əliyev, onun meyidini gətirən döyüşçülər bizə danışırdılar — o öləndə bir güllə atıb demişdir ki, qoymayın mənim silahıma cəlladlar toxunsun, meyidimə dəyməyin, silahımı götürün.

Hörmətli Prezident, Sizə mə'lumat vermək istərdim ki, Zəngilanın ağır günlərində camaatımız, döyüşçülərimiz həmişə Sizin siyasətinizi dəstəkləmiş və heç vaxt ruhdan düşməmişlər. 1993-cü ilin avqust ayının əvvəllərində Sizin sərəncamınızla Zəngilana köməyə gələn tankları Horadiz stansiyasında endirib hamısını geri qaytardılar. Həmin tankların geri qaytarılması barədə sərəncamı xalqın Surət Hüseynov, Rəhim Qazıyev kimi qəddar düşmənləri vermişdilər. Onların bə'ziləri hazırda Rusiyada, başqa MDB ölkələrində özlərinə yuva qurmuş və orada müstəqil respublikamıza qarşı düşmənçilik toxumu səpməyə can atırlar. Xalq belə yaramaz adamlara həmişə nifrət edəcək, öz müdrik oğlu Heydər Əliyevin ətrafında birləşəcək, müstəqil respublikamızın ərazi bütövlüyünün qorunması, onun çiçəklənməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir. Xalqa xəyanət edənlərə ölüm və lə'nət olsun!

Hörmətli cənab Prezident, Cəbrayıl və Qubadlı rayonları işğal edildikdən sonra, bayaq dediyim kimi, Zəngilan düşmən mühasirəsinə düşdü. Horadiz istiqamətində dəmir yol və avtomobil yolu düşmən tərəfindən kəsildi. Belə ağır günlərdə zəngilanlılar ruhdan düşməyərək azğın düşmənlə vuruşurdular. Zəngilan camaatının ən dəhşətli günləri 1993-cü il oktyabrın 15-dən sonra başlandı. Həmin günlərdə Zəngilan dörd tərəfdən düşmən əhatəsində idi. Camaatın ah-naləsi ərşə qalxmışdı, heç tərəfdən kömək göstərilmirdi, rayonun bütün kəndlərinin camaatı ev-eşiyini ataraq, başıalovlu Araz çayının sahilinə çəkilmişdi. Həmin ağır günlərdə rayon rəhbərlərinin heç bir köməyi olmadı. Burada 1941-45-ci illər müharibəsinin iştirakçıları əyləşmişlər. Müharibənin öz qanunları var. Qanun belədir ki, cəbhə xətti hər hansı bir yaşayış məntəqəsinə 50 kilometr yaxınlaşdıqda orada əhalinin təhlükəsizliyi tə'min edilməli, əmlak da yığışdırılıb aparılmalıdır. Rayon rəhbərləri bunun heç birini etmədilər, baş götürüb Bakıya getdilər. Camaat isə cəsarətlə döyüşürdü.

Həmin dəhşətli günlərdə şəxsən Siz Araz çayı vasitəsilə İrandan yol aldınız, Zəngilan camaatı sağ-salamat İrana adladı. Əgər Sizin köməyiniz olmasaydı, Zəngilan camaatının başına faciələr gələcəkdi. Bu köməyə və qayğıya görə zəngilanlılar Sizə öz minnətdarlığını bildirirlər.

Hörmətli Prezident, qeyd etdiyim kimi, həmin dəhşətli günlərdə rayon rəhbərləri camaatı tamamilə unutdular, əhalinin, onların əmlakının heç olmasa bir hissəsinin götürülməsinə kömək göstərmədilər. Kolxoz və sovxozların maşınları səfərbərliyə alınmadı, onların sürücüləri camaatın sözünə baxmadılar. Arazla Bartaz arasındakı yol



cəmi 6 kilometrdir və kənddəki 21 maşınla kəndin daşlarını da daşımaq olardı. Ermənilər Arazın qırağında ayın 31-də göründülər. Sizə onu da çatdırmaq istəyirəm ki, hələ 1992-ci ilin iyul-avqust aylarında zəmilərdən yığılmış taxılı əhaliyə paylamadılar, halbuki o dövrdə Zəngilan camaatının çörəyə ehtiyacı həddindən artıq böyük idi. Taxıl dolu anbarlar ermənilərə qaldı, halbuki anbarlara od vurub onları ermənilərə verməmək də olardı. Bunu da etmədilər. Taxılı nə bizə verdilər, nə də yandırdılar, düşmənə təhvil verdilər ki, düşmən yesin və bizə hücum etsin.

Ən dəhşətli budur ki, rayon aqrar-sənaye bankında qalan böyük məbləğdə pul əmək haqqı kimi camaata verilmədi. Sizin sərəncamınızla rayona iyul ayında çoxlu pul göndərilmişdi. O pul oktyabr ayınadək bankın seyflərində yatıb qaldı. Mən maaşımı 1994-cü ilin fevral ayında gəlib burada aldım. Onu da oğlumun dəfn mərasiminə sərf elədim. Ümumiyyətlə, belə mənfi hallar rayonumuzda tez-tez baş verirdi. Camaat əkib yetişdirdiyi kənd təsərrüfatı məhsullarının haqqını ala bilmirdi. Buna görə də var-dövlətindən məhrum olan camaatımız dilənçi halında İrana tərəf üz tutdu.

Təəssüflə qeyd etmək istərdim ki, bir nəfər də soruşmadı — respublika rəhbərliyinin əhaliyə vermək üçün göndərdiyi bu pul bəs niyə paylanmadı, erməniyə qaldı?

Hörmətli Prezident, rayonun işğalından sonra Siz icra hakimiyyətinin başçısını vəzifəsindən azad etdiniz. Sizin o fərmanınızdan sonra bu vəzifəyə rayonda 30-35 nəfər namizəd göstərildi. Halbuki onlardan heç birinin təsərrüfatdan xəbəri yox idi. Onların nə övladları rayon uğrunda vuruşurdu, nə də özləri işğal zamanı rayonda idi. Hamısı Bakıya toplaşıb mitinqlərə gedirdi. Biz isə düzlərdə, küçələrdə qalmışdıq. Sizin uzaqgörənliyinizin və səbirli olmağınızın nəticəsidir ki, Ələkbər Həşimov 1996-cı il martın 30-da Zəngilan rayon icra hakimiyyətinin başçısı tə'yin edildi. Həşimov qaçqın düşərgələrində qaçqın və köçkünlərlə görüşür. Hörmətli Prezident, mənim ona işim düşməyib, amma bilirəm ki, bu adam gəldiyi gündən camaatın qeydinə qalır. Qaçqınların yerləşdirildiyi Neft Akademiyası yataqxanasının yuxarı mərtəbələrinə su çıxmırdı. Məhz onun qayğısı sayəsində bu məsələ də həll olundu. İndi orada camaatımız su sarıdan korluq çəkmir. Yenə də onun köməyi ilə qaçqınlara, şəhid ailələrinə yardım göstərilir, binada tə'mir işləri aparılır. Mən nə vaxt getmişəm, onun qapısını həmişə açıq görmüşəm. Amma onun ünvanına artıq-əskik demək düz deyil.

Sizin hərbi səfərbərlik haqqında fərmanınızla əlaqədar rayon icra hakimiyyəti başçısının qətiyyəti və rayon hərbi komissarlığının fəaliyyəti nəticəsində silah götürmək iqtidarında olan bütün zəngilanlılar orduya çağırılmışdır. Burada rayon icra hakimiyyətinin başçısı

Ələkbər Həşimovun və rayonun hərbi komissarı Cümşüd Əbilovun xidmətləri böyükdür. Bizdən bir nəfər də olsun fərarilik etmir. Keçən il seçki kampaniyasına mən də cəlb olunmuşdum, seçki məntəqəsinə gedirdim. Bütün zəngilanlılar bir nəfərtək seçki məntəqəsinə gələrək Konstitusiyaya öz münasibətini bildirdilər. Onlar prezident seçkilərində də Sizə elliklə səs vermişdilər.

Hörmətli Prezident, respublikada kadrların seçilib yerləşdirilməsi sahəsində Sizin siyasətinizi bəyənir və müdafiə edirik, arzu edirik ki, nazirliklərimiz Zəngilan icra hakimiyyəti başçısının kadrları seçib rayonda yerləşdirməsi işinə lazımi kömək göstərsinlər. Mən neçə dəfə Həşimovun qəbulunda olmuşam. O, çox sadə və çalışqan bir insandır, əməksevər bir ailənin başçısıdır. Bayaq deyildiyi kimi, atası Sosialist Əməyi Qəhrəmanı olub. Biz zəngilanlılar ümid edirik ki, icra hakimiyyətinin başçısı Sizin e'timad və e'tibarınızı doğruldacaq, Sizin qarşınızda zəngilanlıların başını ucaldacaqdır.

Bə'zi vəzifəli şəxslər icra hakimiyyətinin başçısına kömək göstərmir, yersiz söz-söhbətlərə baş qoşurlar. Bizim borcumuz Sizin tə'yin etdiyiniz kadra kömək göstərmək, onu müdafiə etməkdir. Siz Zəngilan camaatına tam əmin ola bilərsiniz. Ümid edirik ki, Sizin sayənizdə, Sizin müdrikliyiniz sayəsində xalqımız bu ağır bəladan xilas olacaqdır. Ulu Tanrıdan Sizə cansağlığı arzulayıram. Ömrünüz günəş kimi nurlu, ulduzlar kimi parlaq olsun.

Hörmətli Prezident, biz 88 nəfər şəhid anaları və ataları adından bu kitabları — "Zəngilan şəhidləri", "Vətən sizi unutmur", "Zəngilanın işğalı" kitablarını Sizə hədiyyə veririk.

**Heydər Əliyev:** Bunların hamısının müəllifi bir nəfərdir?

**Nüsrət Məmmədov:** Bəli, bir nəfərdir, Akif Kərimlidir. Özü də buradadır. Hörmətli Prezident, Sizə uzun ömür, cansağlığı arzu edirəm.

**Bakı Dövlət Universitetinin**
**tətbiqi riyaziyyat və kibernetika**
**fakültəsinin dekanı, professor**
**RİZVAN PAŞAYEVİN**
**çıxışı**

Çox hörmətli cənab Prezident, icazə verin, ölkənin bu ağır vəziyyətində vaxt tapıb Zəngilan camaatı ilə görüşdüyünüzə görə Sizə elimizin adından minnətdarlığımı bildirim.

Zəngilanın işğalı Qarabağ münaqişəsinin əslində son qurbanı olmuşdur. Camaat bütün var-dövlətini itirsə də, hesab edir ki, onu həmişə qazanmaq olar, amma o torpaqların itirilməsi, əlbəttə, bütün



qaçqın camaatı narahat edir. İndi camaatımızın hamısının ümidi yalnız Sizədir. Ümidvarıq ki, Sizin uzaqgörən siyasətiniz nəticəsində torpaqlarımız sülh yolu ilə, müharibəsiz qaytarılacaqdır. Əgər müharibə olarsa, Sizin rəhbərliyinizlə, Sizin başçılığınızla uşaqdan tutmuş böyüyədək hamı canından keçməyə hazırdır. Çünki bayaq dediniz ki, 20 yanvar hadisələri ilə əlaqədar Moskvada yığışarkən xalqın birliyə necə can atdığını gördünüz. Mən deyərdim ki, xalq hələ heç vaxt indiki kimi bir olmamışdır, özü də Sizin ətrafınızda. Bütün xalq, bütün ziyalılar, Azərbaycan əhalisinin hamısı Sizin ətrafınızda sıx birləşmişdir. Ola bilsin ki, hansısa ünsürlər, müəyyən mətbuat orqanları belə etmir. Lakin bilin ki, onlar çox azdır, gözə çarpmayan dərəcədə azdır. Amma ümumiyyətlə, mən bütün ziyalılar adından deyə bilərəm ki, hamı Sizin yeritdiyiniz xətti dəstəkləyir, ürəkdən bəyənir, alqışlayır.

Siz düyünə düşən, labirintdə olan Qarabağ münaqişəsinin həllinə yol açdınız. Lissabon zirvə toplantısında əldə etdiyiniz uğurlar — uzaqgörən siyasətiniz, cəsarətli və ardıcıl addımlarınız nəticəsində qazandığınız bu uğurlar hamımızı — bütün ziyalıları, bütün xalqı ürəkdən sevindirdi. Sizə bunun üçün də minnətdarlığımızı bildiririk.

Bir məsələni də qeyd edim. Düzdür, birlikdən çox danışılır, biz də auditoriyalarda tələbələrimizə həmişə çatdırırıq ki, bir olmalıyıq, hər bir şeyin açarı məhz birlikdədir. Bu birliyi yaratmaq lazımdır. Mə'lumdur ki, dünyada 40 milyonadək azərbaycanlı var. Odur ki, xaricdə Azərbaycan diasporunu yaratmaq vacib məsələlərdən biridir. Siz Naxçıvan Ali Məclisinin 1991-ci il dekabrın 16-da qəbul etdiyi qərarla hər il 31 dekabrın dünya azərbaycanlılarının həmrə'ylik günü kimi qeyd olunmasını qərara aldınız. Bax, Azərbaycan diasporunun təməli, mən deyərdim ki, məhz onda qoyulmuşdur. Biz hamımız onu davam etdirməliyik.

Hörmətli Prezident, Murtuz müəllim burada əyləşib, biz onunla bir yerdə işləmişik. Bir dəfə mən ona yaxınlaşıb dekan kimi dedim ki, Murtuz müəllim, Azərbaycan diasporunu yaratmaq həqiqətən çox vacibdir. Sizin Naxçıvan Ali Məclisində qəbul etdiyiniz qərarı da yada saldıq. Murtuz müəllim ürəkdən bəyənib dedi ki, bunu həyata keçirmək doğrudan da olduqca vacibdir. O vaxt biz fakültəmizdə ingilis dili bölməsi yaratmağı qərara aldıq. Respublikamızda həmin yeganə fakültəni Siz 1972-ci ildə yaratmısınız. Orada ingilis, Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Biz gənclərimizi elə ruhda tərbiyə edirik ki, onlar yaxşı təhsil, zəngin bilik alsınlar, dünyanın istənilən yerində yaşaya bilsinlər.

Bir sözlə, ağrılarımız-acılarımız çoxdur. Hesab edirəm ki, Siz o ağrı və acılarımızı sülh yolu ilə aradan qaldıracaqsınız. Bunun üçün Sizə həm minnətdarlığımızı bildirir, həm də möhkəm cansağlığı arzulayırıq.

Qarşıdan Yeni il gəlir. Mən həmişə ümidlə yaşayan adamam. Buna görə də hesab edirəm ki, 1997-ci il Azərbaycan xalqı üçün ən əlamətdar bir il olacaqdır, yə'ni yurdsuz-yuvasızların, köçkünlərin hamısı öz yerlərinə qayıdacaqdır. Bunun üçün Allahdan Sizə möhkəm qüvvət arzulayırıq. Sizin Yeni ilinizi, bütün xalqımızın Yeni ilini təbrik edirəm. Biz Sizi daim xalqla bir tuturuq. Dərin təşəkkürümü bildirirəm, çox sağ olun.

### Şəhid atası BAHADUR ALLAHVERDİYEVİN çıxışı

Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları! İlk növbədə icazə verin, Əzizbəyov rayonunda müvəqqəti məskunlaşmış, Zəngilan rayonundan olan 500 nəfər məcburi köçkünün və qaçqının səmimi və xoş duyğularını Sizə yetirim.

Müstəqil Azərbaycanımızın tarixinə qara ləkə kimi həkk olunmuş 1993-cü il oktyabrın son günləri biz zəngilanlıların da qan yaddaşında əbədi qalacaqdır. Həmin günlərdə Zəngilan rayonunun camaatı ata-baba yurd-yuvalarından didərgin salındı. Hesab edirəm ki, bugünkü görüş vətən torpaqlarının müdafiəsi yolunda şəhid olmuş oğullarımıza Zəngilan camaatının hörmət və ehtiramının ifadəsidir.

Möhtərəm Prezident, işinizin gərgin vaxtında bizimlə görüşdüyünüz, dərd-sərimizə diqqətlə qulaq asdığınız üçün Sizə öz təşəkkürümü bildirirəm. Həqiqət budur ki, qaçqın və köçkünlərlə bu cür görüşlər bizə nəinki təskinlik verir, murdar düşmənlər tərəfindən işğal olunmuş torpaqlarımızın qaytarılmasına bəslədiyimiz inamı da artırır, həm də bir çox həqiqətlərin çözələnməsinə, ədalət mühakiməsindən yayınan bir çox satqınların ifşa edilməsinə inam yaradır.

Torpaqlarımızın 20 faizdən çox hissəsinin itirilməsi, öz ölkəmizdə bir milyondan çox adamın qaçqın və köçkün halına düşməsi bir tərəfdən erməni faşizminin murdar təcavüzkar əməllərinin nəticəsidirsə, digər tərəfdən də öz içərimizdəki xəyanətkarların bəd əməllərinin bariz nümunəsidir. Zəngilan da məhz həmin əməllərin qurbanı olmuşdur.

Mən özüm şəhid atasıyam. Oğlum Qorxmaz Allahverdiyev 1992-ci ilin may ayında rayon hərbi komissarlığının çağırışı ilə hərbi xidmətə göndərilmişdi. O, gedərkən anası oğluna belə xeyir-dua verdi: Get, oğul, Allah amanatında. Amma nəbadə döyüş meydanında düşmən qabağından qaçasan. O vaxt bil ki, sən daha mənim oğlum deyilsən. İndi südümü sənə halal edirəm. Get.



Qorxmaz ayda bir dəfə evə baş çəkərdi, rayonumuzun və qonşu rayonun neçə-neçə kəndində göstərdiyi qəhrəmanlıqlardan isə bir kəlmə də danışmazdı. Qeyd edim ki, Qorxmazgilin dəstəsi Qubadlının Başarat kəndində beş gün mühasirədə qalmışdır. Necə deyərlər, torpaq döşəkləri, daşlar isə yastıqları olmuşdur. Aclıq çəksələr də, murdar düşmənin təklif etdiyi çörəyi qəbul etməmişlər. Qorxmazın igidliyi hərbi hissənin rəhbərliyi tərəfindən mükafatlandırıldı. Nə etməli, taleyin qismətindən qaçmaq olmazmış. Görünür, Qorxmazın da qisməti belə imiş...

Möhtərəm Prezident, mən bə'zi həqiqətləri burada açıqlamaq istərdim. Onu da istərdim ki, Qorxmazın üzləşdiyi ağır anlardan birini nəzərinizə çatdırım. Həmin günlərin birində Kolluqışlaq kəndindəki döyüş postları uğrunda ölüm-dirim mübarizəsi gedirdi. Çünki postlar alınsaydı, onlara yaxın olan neçə-neçə kənd toplardan, tanklardan, "Qrad"lardan rahat atəşə tutula bilərdi. Odur ki, belə bir döyüşdə geri çəkilmək məğlubiyyət demək idi. Lakin nə Qorxmaz, nə də onun silahdaşları düşmənə aman vermirdilər. Erməniləri nəinki tutduqları postlardan, həm də kəndlərdən qovub çıxardılar, düşmənin bir topunu və bir tankını ələ keçirdilər. Qorxmaz atdığı qumbara ilə bir ermənini tikə-tikə etdi, onun avtomatını isə götürüb çiynindən asdı. Qənimət kimi ələ keçirilən tankın üstünə minib "Sevinin, qardaşlar, düşmənin öz yarağının öz başında çatlamasına az qalıb, lap az qalıb" deyərək avtomatı yuxarı qaldırdı. Amma uzaqdan onu nişan alan erməni snayperin atdığı güllə Qorxmazı yaman yerdə yaxaladı. Onun səsinin gəlmədiyini görən əmisi oğlu Elxan Qorxmaza tərəf atıldı. Ancaq artıq gec idi: yağı düşmənin atdığı güllə Qorxmazın boğazından dəymişdi.

Elə bu an düşmənin atdığı ikinci güllə Elxanın çiynindən dəyir. Dostları Elxanın və Qorxmazın intiqamını almaq üçün düşmənin üstünə hücum çəkir, Qorxmazı vuran ermənini məhv edirlər. Onlar düşməndən layiqli inqtiqam aldılar. Nə etməli, düşmən gülləsi Qorxmazı həyatdan apardı, Elxanı isə ağır vəziyyətdə qospitala çatdırdılar. Bəli, 1993-cü ildə Qorxmaz qəhrəmancasına şəhid oldu.

Böyük torpaqla yeganə əlaqəsi Horadiz yolu ilə olan Zəngilan döyüşçüləri düşmənin bütün həmlələrini mətinliklə dəf edirdilər. Hələ üstəlik, bu zaman bə'zi yaşayış məntəqələrini özlərinin nəzarəti altına aldılar. Aprelin 10-da belə bir əməliyyat nəticəsində dörd erməni kəndi ermənisizləşdirildi. Düşmənin bu kəndlərin müdafiəsinə cəlb edilmiş dörd tankı, bir PDM-i, "UAZ" markalı dörd maşını və xeyli hərbi sursatı alaya gətirildi. Şəxsi hey'ətin döyüş və psixoloji hazırlığı sınaqdan çıxarıldı. Amma nədənsə, bu kəndlərdə möhkəmlənməyə imkan tapmamış, aprelin 10-da geri çəkilmək haqqında alay komandirinə əmr verildi. Döyüşçülər bir gün əvvəl aldıqları kəndləri ürək ağrısı ilə tərk etdilər.

Zəngilan mərdliklə müdafiə olundu. Qəlbinə şeytan girənlər bu həqiqətə şübhə ilə yanaşırdılar. Lakin onlar Müdafiə Nazirliyinin sənədli filmlər kino-telestudiyasının hərbi operatorları Seyidağa Möhsümlünün, Şirin E'tibarın çəkdikləri kadrlara baxsalar, nə qədər yanıldıqlarını anlayarlar.

O zaman camaat arasında belə söhbət getdi ki, həmin əməliyyat yuxarıların göstərişi ilə dayandırılmışdır, guya ATƏT-in nümayəndələri ilə danışılıb və ermənilər, necə deyərlər, xoşluqla öz yuvalarına qayıdırlar. Bu isə iqtidarın korluğu və fəhmsizliyi idi.

Möhtərəm Prezident, döyüş əməliyyatlarında iştirak edib şəhid olan Zəngilan övladlarının abidələrinin ucaldılması, adlarının əbədiləşdirilməsi barədə göstəriş verməyinizi xahiş edirəm. Zəngilanlılar milli ordu tərkibində hünərlə vuruşaraq rayonun müdafiəsi zamanı rəşadət göstərmişlər. Lakin onlardan Milli Qəhrəman adına layiq görülən olmamışdır. Zəngilandan olan iki Milli Qəhrəman isə kənar rayonda döyüşərək bu fəxri adı almışdır. Onlar da zəngilanlıların fəxridir. Əgər bu məsələ dərindən araşdırılsa, Zəngilanın müdafiəsində iştirak etmiş zəngilanlı döyüşçülərdən Milli Qəhrəman adına layiq görülənlər də olar.

Möhtərəm Prezident, mən bir şəhid atası kimi xahiş edirəm ki, bu məsələyə baxılması barədə göstəriş verəsiniz. İki il yeddi aydır ki, atəşkəs davam edir, şəhid vermirik, analar göz yaşı axıtmır. Bunun özü böyük nailiyyətdir. Bu, Sizin müdrik siyasətinizin nəticəsidir. Zəngilanlılar Sizin daxili və xarici siyasətinizi, o cümlədən müharibəni danışıqlar yolu ilə qurtarmaq üçün göstərdiyiniz sə'yləri dəstəkləyirlər. Əgər danışıqlar yolu ilə sülh əldə edilməsə, o zaman bütün zəngilanlılar Sizin bir çağırışınızla silaha sarılaraq öz torpaqlarını düşməndən təmizləməyə hazır olacaqlar. Mənim iki oğlum qalır. Biri ali hərbi məktəbin birinci kursundadır, o birisi — ortancıl oğlum isə çilingərdir. Biz hər üçümüz, o cümlədən bütün zəngilanlılar Sizin çağırışınıza hər dəqiqə hazırıq.

Hörmətli Prezident, məcburi köçkün düşən biz zəngilanlılar istər Bakı şəhərində, istərsə də respublikanın ayrı-ayrı rayonlarında qonaq kimi yaşayırıq. Qonaq düşdüyü yerdə çox qaldıqda istər-istəməz daxilən əzab çəkdiyi kimi, biz də Sizin başçılıq etdiyiniz ölkəmizin şəhər və rayonlarında üzümüzə nə qədər xoş baxsalar da, həddindən artıq narahatlıq hissləri keçiririk. Tezliklə torpaqlarımıza qayıdıb öz yurdumuzda yaşamaq istəyirik. Allah Sizi üstümüzdən əsirgəməsin, o günü tezliklə görək.

Qiymətli vaxtınızı bizə sərf edib, ürəyimizin ağrı-acılarını dinlədiyinizə, dərdimizə şərik olduğunuza görə, bir şəhid atası kimi çıxışımın sonunda Zəngilan rayon icra hakimiyyətinin Bakıda Əzizbəyov rayonu üzrə səlahiyyətli nümayəndəsi, Respublika Şəhid



Ailələrini Müdafiə Cəmiyyətinin Zəngilan rayon şö'bəsinin sədri kimi Sizə dərin minnətdarlığımı bildirir, cansağlığı, uzun ömür, Azərbaycanın çiçəklənməsi yolunda uğurlar arzulayıram. Arzum budur ki, Sizinlə növbəti görüşü Zəngilan rayonunda keçirək. Diqqətinizə görə çox sağ olun.

Mən Sizdən bir şeyi də xahiş etmək istəyirəm. Sizin sərəncamınızla rayonumuzun icra hakimiyyəti başçısı vəzifəsinə Ələkbər müəllim tə'yin olunmuşdur. Onu zəngilanlılar çox yaxşı tanıyırlar. O, çox hörmətli, zəhmətkeş ailədə doğulub boya-başa çatmış bir şəxsdir. Bizim ona hörmətimiz var. İşlədiyi yeddi-səkkiz ayda az iş görməyib. Qaçqınların qaldıqları Neft Akademiyasının yataqxanasına girmək mümkün deyildi. O, buranı və başqa yataqxanaları tə'mir etdirib, rayonlarda pensiyaların da, çörək pullarının da vaxtlı-vaxtında verilməsini tə'min edib, şəhid ailələrinin hamısına yardım göstərib, Qarabağ əlillərinin hamısına kömək əli uzadıb. Biz zəngilanlılar Ələkbər müəllimlə fəxr edirik, ona kömək edəcəyik, arxasında durmuşuq.

Mən öz məktubumu, şəhid anasının da məktubunu Sizə verməyi özümə borc bilirəm. Mən ürəyimdən gələn sözləri dedim. Elə bilin ki, Sizinlə görüşərək gedib Məkkəni ziyarət edib gəlmişəm.

### Azərbaycan Dövlət İqtisad İnstitutunun professoru ŞAMİL XUDİYEVİN çıxışı

Hörmətli Prezident, hörmətli görüş iştirakçıları! Mən hörmətli Prezidentimizin Zəngilan camaatına qayğı göstərib, vaxt ayırıb, qiymətli vaxtını bu görüşə sərf etdiyinə görə bütün qaçqınlarımızın adından, habelə onların burada olmayan nümayəndələri adından və şəxsən öz adımdan Heydər Əliyev cənablarına dərin minnətdarlığımı bildirirəm.

Cənab Prezident, bu gün görüşümüzün məzmunu və mahiyyəti başlıca olaraq Zəngilanın düşmənə necə verilməsindən və bu işdə günahkar şəxslərin adlarının çəkilməsindən, eyni zamanda Zəngilan qaçqınlarının ən ümdə problemlərinin həll edilməsinin təşkilindən ibarətdir. Məndən əvvəl çıxış edən yoldaşların sözlərini təkrarlamamaq üçün öz fikrimi bir qədər yığcam ifadə etməyə çalışacağam.

Mən canlı şahid kimi, Zəngilanın düşmənə təhvil verilməsinin birinci səbəbini əvvəllər respublikamıza rəhbərlik etmiş səriştəsiz, zəif, idarəçilik qabiliyyəti olmayan adamların fəaliyyətində görürəm. Məndən əvvəl bu adlar çəkildi. Ona görə də onların adlarını mən də çəkmək istəmirəm. Zənnimcə, fikrim aydındır. O zamanlar öz

vəzifəsini, öz mənafeyini xalqın mənafeyindən üstün tutan bu nankorlar nəinki Zəngilanın, həm də bütün respublikanın pis vəziyyətə düşməsi üçün ermənilərə imkan verdilər və onların fəaliyyətsizliyi nəticəsində torpaqlarımızın bir hissəsi əldən getdi, xalqımız əziyyət çəkdi.

Hörmətli görüş iştirakçıları, bu hələ az imiş kimi, o vaxtlar həmin adamlar respublikamızın qalan ərazisini də müxtəlif hissələrə bölüb, öz siyasi xəttini həyata keçirməyə can atmışlar. Çox şükürlər olsun ki, onların bu niyyəti baş tutmadı. Mən Zəngilanın ermənilərə təhvil verilməsinin səbəbini həm də yaranmış qeyri-sabitlikdə, ölkədə təşkil edilmiş qruplaşmalarda, əvvəlki rəhbər orqanların fəaliyyətsizliyində görürəm və bunu təkrarən vurğulayıram.

Zəngilanın düşmənə təhvil verilməsinin əsas səbəblərindən birini də yeni yaranmış ordumuza başçılıq etmək qabiliyyəti olmadığı halda nazir vəzifəsini öz üzərinə götürən qazıyevlərin, məmmədrəfilərin və onlarla birlikdə fəaliyyət göstərən bacarıqsız zabitlərin hərəkətlərində görürəm. Mən Bakı Dövlət Universitetinin dosenti Muradov yoldaşla Zəngilanda oldum, orada hərbi qərargahın zabit və əsgərləri ilə söhbətlərdən belə nəticəyə gəldim ki, döyüşçülərimiz arasında ərazinin müdafiə edilməsi uğrunda vuruşmaq üçün böyük əzmkarlıq var. Lakin bununla belə, Zəngilan ərazisində hərbi hissənin gücünü artırmaq zəruri idi. Cəbrayıl, Hadrut və Zəngilan rayonlarının arasındakı açıq zonanı gücləndirmək çox vacib idi. Biz bu barədə öz fikrimizi yazdıq, əsaslandırdıq və müdafiə nazirinin şəxsən özünə təqdim etdik. Lakin təəssüf ki, Məmmədrəfi Zəngilanın belə ağır vəziyyəti ilə məşğul olmaq əvəzinə, Bakıdan vertolyota minib Gəncəyə getdi, orada Surət Hüseynovla başqa işlərlə məşğul oldu. Nə məni, nə də o biri yoldaşı çağırıb demədi ki, siz kimsiniz ki, hərbi işlərə qarışırsınız. Belə məs'uliyyətsizliyə necə qiymət vermək olardı? Mən bunu satqınlıqdan başqa ayrı heç nə adlandırmıram. Mən bu nazirin əqidəsizliyinə, satqınlığına başqa qiymət verə bilmərəm.

Rayonumuzda yaranmış sabitsizlik də az rol oynamadı. Siz bunu yəqin ki, məndən əvvəl çıxış edən yoldaşların sözlərindən başa düşdünüz və gördünüz ki, orada necə vəziyyət yaranmışdı.

Hörmətli görüş iştirakçıları, mən sizin diqqətinizi respublikamızda qeyri-sabitliyin aradan qaldırılmasına cəlb etmək istəyirəm. Hamımız 1989-cu ildən respublikamızda baş alıb gedən özbaşınalığın, qeyri-sabitliyin canlı şihidiyik. Bu halların bəlalarını çəkən ümumilikdə xalqımız, ayrı-ayrılıqda hər birimiz olmuşdur. Bu məsələyə bir ziyalı, Azərbaycan vətəndaşı kimi öz münasibətimi bildirmək istəyirəm.

Biz bu dəhşətli və ən qorxulu bəladan Azərbaycan xalqının böyük oğlu, yenilməz iradəyə malik, iste'dadlı, böyük siyasətçi, insani münasibətlərdə dözümlü, təmkinli, geniş imkanlara malik olan Heydər Əliyev cənablarının vasitəsilə qurtardıq və bundan sonra hər cür qalıqların törədə biləcəyi bəlalardan da bizi məhz o, xilas edəcəkdir.



Bu barədə geniş danışmaq istəmirəm, çünki bundan mətbuat vasitəsilə kifayət qədər mə'lumat almısınız. Bu, tək mənim deyil, eləcə də yaxın və əziz adamlarımın, işlədiyim Azərbaycan Dövlət İqtisad İnstitutunun professor-müəllim və tələbə hey'ətinin hörmətli Prezidentimizin fəaliyyətinə verdiyi qiymətdir.

Yeri gəlmişkən, bir sosioloq, tədqiqatçı kimi mən Prezidentimizin fəaliyyətini dərindən öyrənməyə çalışmışam. Bir sıra məsələləri indi burada diqqətinizə çatdırmaq istəyirəm. Respublikada sabitlik tə'min edilib, əhali qorxusuz yaşayır və fəaliyyət göstərir. Hazırda formalaşan sabitlik xarici iş adamlarının, sərmayədarların, dünya səviyyəli menecerlərin, marketinqçilərin, maliyyəçilərin ölkəmizə gəlməsinə və respublikamızın inkişafı üçün kapital qoyuluşuna şərait yaradır. Bu, bizim üçün, xüsusən indiki vəziyyətimiz üçün ən güclü amillərdən biridir və bu istiqamətdə Prezidentimizin fəaliyyətinin həddi-hüdudu yoxdur. Hər birimiz bunu dərk etməli, buna yüksək qiymət verməli və işimizdə həyata keçirməliyik.

Ölkədaxili təsərrüfat quruluşu sahibkarlığın inkişaf etdirilməsi ilə yanaşı təkmilləşmişdir, maliyyə və idarəetmə sahəsində fəaliyyətin genişləndiyi nəzərə çarpır. Əlbəttə, bunun özü də bizim üçün böyük nailiyyətdir və bu nailiyyəti öz işimizə tətbiq etsək daha yaxşı olar.

Nəhayət, ən sevindirici hal bundan ibarətdir ki, — bunu məndən əvvəl yoldaşlar da dedi, mən də təkrar etmək istəyirəm, hazırda Horadiz qəsəbəsində, o cümlədən Füzuli rayonunun azad edilmiş 23 kəndində qaçqınlarımız ata-baba yurdlarına qayıtmış, öz evlərində yaşayır, təsərrüfatla məşğul olurlar. Bu, bizim üçün ən böyük qələbədir.

Hörmətli Prezident, dünyanın xoşbəxt adamı o kəsdir ki, o, əkib-becərdiyi məhsulun bəhrəsini görsün. Mən bu gün Sizi ürəkdən təbrik edirəm. Dama-dama göl olar, deyiblər. Sizin bu istiqamətdə çəkdiyiniz zəhmətin, göstərdiyiniz sə'ylərin müsbət nəticələrinə görə Sizi təbrik edir, bağrıma basır, öpürəm. Mən Sizin kimi Azərbaycan oğlu ilə fəxr edirəm. Sözümü axırda deyəcəyəm, bir qədər başqa formada deyəcəyəm. Lakin Horadizlə əlaqədar, Füzulinin 23 kəndinə qaçqınlarımızın qayıtması ilə əlaqədar deyim ki, bütün bunlar ürəyimi dağa döndərir, bu işlərə görə Sizinlə fəxr edirəm. Belə başa düşürəm ki, Sizin fəaliyyətiniz nəticəsində yaxın vaxtlarda bütün qaçqınlarımız öz yurd-yuvalarına qayıdacaq və buna görə biz Sizi daha böyük sevinclə təbrik edəcək, onda Sizə öz minnətdarlığımızı daha çox bildirəcəyik.

Hörmətli Prezident, bir məsələyə də toxunmağı özümə borc bilirəm. Çünki bu məsələ barəsində respublikamızın qəzetlərində müxtəlif fikirlər, müxtəlif sözlər yazılır. Mən 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt, 1996-cı ilin dekabrında Lissabon zirvə toplantısında şəxsən Sizin və Azərbaycan diplomatiyasının fəaliyyətinə öz münasibətimi bildirmək istəyirəm. Mətbuatda bu barədə dərc olunmuş bir sıra

məqalələr məni çox narahat edir. Bilmirəm, özünü Azərbaycan xalqının oğdu adlandıran, özünü Azərbaycan xalqının qeyrətini çəkən kimi təqdim edən elə bir insan olarmı ki, ölkənin ərazi bütövlüyünün tə'min olunmasına, qaçqınlarımızın öz yer-yurduna qaytarılmasına biganə qalsın. Bu məsələdə müxalifət ola bilməz və mən bunu ağlıma gətirmirəm. Ona görə də bu məsələyə narahatlıqla yanaşıram. Mən bu günlərdə radio ilə çıxış edib bu barədə öz mövqeyimi geniş şəkildə bildirdim. 10-12 bənddən ibarət fikrimi söylədim.

Lakin mənim fikrimi burdakı yoldaşların da bilməsi üçün bu məsələlər barəsində öz sözümü bir daha bildirmək istəyirəm. Məsələn, 1992-ci ildə Helsinkidə birinci zirvə toplantısında Ermənistan-Azərbaycan münaqişəsi haqqında heç bir söz deyilmədi, orada bu məsələyə toxunulmadı. Sonra ikinci zirvə toplantısında hörmətli Prezidentimizin, onun ətrafında olan və bu işdə çoxlu əziyyət çəkən diplomatlarımızın zəhməti nəticəsində Ermənistan-Azərbaycan münaqişəsi ATƏT-in ayrıca bir sənədində nəzərə alındı və orada diqqəti cəlb edən bir sıra qərarlar qəbul olundu. Vaxtınızı alsam da, əgər icazə versəydiniz, bunu bir qədər geniş açıqlayardım.

**Heydər Əliyev:** Bilirsinizmi, bu, mə'lumdur. Amma istəyirsinizsə, bu barədə mətbuatda çıxış edin. Əgər bunu mənim üçün demək istəyirsinizsə, o, mənə mə'lumdur. Buradakılar üçün demək istəyirsinizsə, bu barədə mətbutda çıxış edin. Ya da mən tapşıraram ki, televiziya ilə çıxış etmək üçün sizə imkan verərlər, siz də öz fikirlərinizi deyərsiniz.

Həqiqət ondan ibarətdir ki, 1992-ci ildə də Azərbaycanın dövlət başçısı Helsinkidə zirvə görüşündə olmuşdur. O vaxt Ermənistan-Azərbaycan münaqişəsinin ən şiddətli, ən qanlı bir dövrü idi. Lakin bu barədə nəinki sənəd qəbul edilmədi, heç bir kəlmə söz də deyilmədi. 1994-cü ildə Budapeştdə biz ciddi iş apardıq və ATƏT-in zirvə görüşü çox dəyərli qərar qəbul etdi. 1996-cı ilin dekabrındakı Lissabon zirvə toplantısının nəticələri isə sizə mə'lumdur. Ona bə'zi adamlar mənfi münasibət göstərdilər. Qoy bu sizi narahat etməsin, çünki əgər vaxtilə onların çoxu xalqımıza, millətimizə xəyanət ediblərsə, indi respublikamızın, xalqımızın bu nailiyyətinə sevinəmi bilərlər? Əksinə, sevinməyəcək, bu nailiyyətə qara yaxacaqlar. Lakin mən məsləhət görərdim ki, bir ziyalı kimi, bir alim kimi siz həm mətbuatda, həm də televiziyada geniş çıxış edəsiniz. Mən Xudiyevə göstəriş verirəm ki, sizə çıxış etməyə imkan yaratsın.

**Şamil Xudiyev:** Xahiş edirəm, ikicə kəlmə söz deməyə imkan verəsiniz. Biz bu gün buraya Zəngilan qaçqınlarına qayğı ilə əlaqədar toplaşmışıq. Əgər qaçqınların sosial məsələlərinə toxunmasam, mənim üçün bir qədər yaxşı olmaz. Özü də Zəngilan rayonunda anadan olmuşam, orada böyümüşəm, lakin uzun illərdir ki, şəhərdə yaşayıram. Buna baxmayaraq, onların bə'zi qayğıları ilə Sizi və əlaqədar təşkilatların burada olan nümayəndələrini tanış etmək istəyirəm.

Hazırda Zəngilan qaçqınlarının ən çox çətinlik çəkdikləri sahə



səhiyyədir. Mən istərdim ki, əgər mümkündürsə, respublika xəstəxanalarından biri ancaq qaçqınlar üçün ayrılsın. Mən qaçqınlardan İzzər Rüstəmov haqqında yaxşı sözlər eşitmişəm. Ona öz razılığımı bildirmək və bir də onu xatırlatmaq istəyirəm ki, yoldaş Rüstəmov, Zəngilan əhalisi öz yurd-yuvalarından heç bir şey götürmədən, lap axırda çıxmışdır. Xahiş edərdim ki, pay bölünərkən Zəngilan əhalisinin vəziyyətinə bir qədər diqqət yetirəsiniz. Mənim çıxışım bu qədər. Sağ olun.

## Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri GÜLABBAS QƏHRƏMANOVUN çıxışı

Möhtərəm Prezident, hörmətli görüş iştirakçıları!

Cənab Prezidentin tapşırığı ilə mən məcburi köçkünlərin məskunlaşdığı yerlərdə tez-tez oluram. Ona görə də bu gün onların tapşırığı ilə ürək sözlərini həm möhtərəm Prezidentimizə, həm də bu görüşün iştirakçılarına çatdırıram.

Möhtərəm Prezidentimiz dəfələrlə qeyd edib ki, onun fəaliyyətinin 80 faizi məcburi köçkünlərin problemlərinə həsr olunub. Məcburi köçkünlər deyirlər ki, biz Prezidentimizin bu fikirlərinin təzahürünü onun əməllərində, bizə göstərilən qayğıda və diqqətdə görürük. Onlar Prezidentimizin apardığı siyasəti, onun əməli nəticələrini bəyəndiklərini Lissabon zirvə toplantısının yekunları ilə əlaqədar keçirilən yığıncaqlarda bir daha qeyd ediblər. Mən onların bə'zi fikirlərini burada bəyan etmək istəyirəm.

Cəbrayıl rayonundan olan 81 yaşlı Şirin Əliyev Əli Bayramlıda məskunlaşmışdır. O, yığıncaqda belə bir fikir söylədi ki, biz səkkiz ildir ağır şəraitdə yaşamağa məcbur olmuşuq. Bu səkkiz ilin beş ilini itirə-itirə gəlmişik, hər şeyimizi — varımızı da, dövlətimizi də itirmişik. Özümüzlə bir şeyi buraya gətirə bilmişik — bu, bizim qeyrətimizdir. Prezidentimizə çatdırın ki, onun siyasətini müdafiə etməyə, hər bir çağırışına hazır olmağa qeyrətimiz çatar. Əlbəttə, bu, Azərbaycan ağsaqqalının ürəkdən gələn sözüdür.

Dünən biz böyük tarixi hadisənin şahidi olduq, Horadiz qəsəbəsində 31 ailənin öz həyatlarında tikilmiş yeni evlərə köçməsində iştirak etdik. Horadiz qəsəbəsinə mindən çox adam toplaşmışdı və orada böyük toy-bayram idi. Mən bir dəstə qadının yığışdığı yerə yaxınlaşdım ki, görüm nə barədə söhbət edirlər. Şahidi oldum ki, əllərini göyə qaldırıb Allaha dua edərək deyirlər: Allah, sən Prezidentimizə cansağlığı ver ki, başqa məcburi köçkünlərimiz də bizim kimi gəlib öz ev-eşiklərinə sahib olsunlar. Bunlar məcburi köçkünlərin ürəklərindən gələn sözlər idi.

Horadizdə onun da şahidi olduq ki, məcburi köçkünlər qəsəbəyə sərnişin qatarının gəlməsini sevinc yaşları ilə qarşıladılar. Bunu nəinki onlar, heç biz özümüz də gözləmirdik, çünki qəti əminliyimiz yox idi. Mən bu məsələni nəyə görə demək istəyirəm? Bizimlə birlikdə orada beynəlxalq təşkilatların nümayəndələri də, o cümlədən BMT-nin Azərbaycandakı təmsilçisi cənab Lembo da iştirak edirdi. O, belə bir fikir ifadə etdi ki, bilirsiniz, Bosniyada müharibənin dayandırılması barədə müqavilə imzalanmışdır. BMT orada da bərpa işləri ilə əlaqədar qərar qəbul etmişdir. Lakin sülh müqaviləsi imzalanmasına baxmayaraq, hələ bərpa işlərinə başlamaq mümkün olmamışdır. Azərbaycan tarixdə yeganə ölkədir ki, hələ müharibə vəziyyətində olmasına baxmayaraq, bərpa işlərinə başlanıb və biz onun nəticələrini görürük. Bu, Prezidentimizin apardığı həqiqətən böyük siyasətin nəticəsidir.

Orada məcburi köçkünlər belə bir fikir də söylədilər ki, Lissabon görüşündə diplomatiyamızın qələbəsinə bə'ziləri ləkə vurmağa çalışırlar. Axı, biz bilirik ki, taleyimiz haqqında kim fikirləşir, kim bizi yaxşı günə çıxaracaq. Əgər görürüksə ki, diplomatiyamız qələbə qazanıb, biz bunu başa düşürüksə, bu işə qara yaxan adamlar, — bir qədər əvvəl Prezidentimizin dediyi kimi, — doğrudan da, sözün həqiqi mə'nasında düşmənlərimiz olublar. Çünki bizi bu vəziyyətə salan da həmin adamlar olublar.

Əlbəttə, məcburi köçkünlərin problemləri çoxdur və bunların həlli ilə bağlı Prezident Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin qarşısında böyük vəzifələr qoymuşdur. Biz bunların yerinə yetirilməsinə çalışırıq. Özü də həm Prezidentimiz, həm də hökumət tərəfindən müntəzəm kömək alırıq. Söz verirəm ki, bu köməkdən istifadə edərək bütün məcburi köçkünlərin, o cümlədən Zəngilan camaatının problemlərinin həll olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik. Sağ olun, diqqətinizə görə təşəkkür edirəm.

## Ziyalı ƏFRAYIL HÜSEYNOVUN çıxışı

Cənab Prezident!

Ola bilər, sonra mənim yadımdan çıxar, Yeni Azərbaycan Partiyası Zəngilan rayon şö'bəsi sədrinin çıxışına öz münasibətimi bildirmək istəyirəm. 1949-cu ildə Qubadlının təsərrüfatını canlandırmaqdan ötrü Zəngilanın Mahrızlı, Zilanlı, Xanlıq və Əfəndilər kəndlərini Qubadlıya, Qubadlının isə meşə içərisində olan bir neçə kəndini Zəngilana verdilər. Bunu onunla izah etdilər ki, Zəngilan meşə içində olan bu kəndlərin, kolxozların, Azərbaycanda ən qədim xalçaçılıq, mədəniyyət mərkəzlərindən biri olan Xanlıq kəndi isə Qubadlının iqtisadi cəhətdən



inkişafına kömək edə bilər. O vaxt Qubadlıdan Zəngilana verilmiş kəndlərdə namuslu, qeyrətli, savadlı adamlar çox idi. O cümlədən, burada oturan cavan deputatımız da o kəndlərdəndir. Amma o kəndlərin sakinləri arasında qarayaxa adamlar da var. Nüsrət Mustafayev utanmadan, çəkinmədən Ələsgər Həşimov kimi kişinin oğluna böhtan atır. Cənab Prezident, o, rayon icra hakimiyyətinin başçısına böhtan atır.

**Heydər Əliyev:** Əfrayıl, mən sənə söz vermişəm, əsas məsələdən danış. Mən bu barədə göstəriş vermişəm.

**Əfrayıl Hüseynov:** Xahiş edirəm, göstərişinizi subyektiv aparmasınlar.

**Heydər Əliyev:** Narahat olma, əsas mövzuya keç.

**Əfrayıl Hüseynov:** Cənab Prezident, Zati-aliləri!

İcazənizlə, Sizə salamlarımı çatdırır və Yeni il, 1997-ci il bayramınızı təbrik etməkdən iftixar hissi keçirirəm.

Zati-aliləri!

Zəngilan qədim Zəngəzurun bir parçası olmaqla bir çox tarixi çarpışmaların iştirakçısı olub. Təsadüfi deyildir ki, Azərbaycan Elmlər Akademiyasının mərhum müxbir üzvü, yəhudi, professor, sənətşünas alim Bretanitski "Azərbaycan me'marlığı" kitabında göstərir ki, Zəngilan rayonunun Ağalı kəndindəki yeraltı kahalar bəşər tarixində insan əli ilə tikilmiş ən qədim kahalardır. Alimin təsdiq etdiyi kimi, həmin kahaların 29 min il yaşı var.

Zəngilanlılar kərtənkələyə yerli ləhcədə qızboğan deyirlər. Bu da onu göstərir ki, zəngilanlıların qədim əcdadları bir neçə milyon il bundan əvvəl təbii fəlakətlər nəticəsində məhv olub getmiş, o zaman çəkisi 15 tona qədər çatmış, indi isə təkamül yolu ilə kərtənkələyə çevrilmiş yırtıcı məməlilərin müasiri olmuşlar. Dil yaddaşımıza görə bizim Zəngəzurun bir neçə milyon il yaşı var. Akademik Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" kitabında göstərildiyi kimi, yadelli işğalçılara qarşı mübarizə hərəkatı olan Xürrəmilər üsyanı qədim Azərbaycanın bütün torpaqlarında, o cümlədən Zəngəzurda və Zəngilanda da vüs'ət tapmışdı. Zəngilanda Həkəri və Mincivan stansiyaları arasında, Arazın lap yaxınlığında hətta Xürrəmilər adlı kənd, — əgər hazırda Ermənistan silahlı qüvvələri onu dağıtmayıblarsa, — mövcud idi. Zəngilan işğal olunana qədər bu kənddə 50-60 ailə yaşayırdı.

Həkəri, Bərgüşad, Oxçu çayları, Sisyan, Gorus, Qafan, Mehri, Laçın, Zəngilan, Qubadlı coğrafi cəhətdən bir məkanı əhatə edir. O cümlədən zəngilanlılar da çar Rusiyasının istilasına qarşı üsyan edənlər arasında olmuşlar. Azərbaycanın ilk Demokratik Respublikasının maarif naziri Firudun bəy Köçərlinin yazdığı kimi, həmin üsyana Behbud bəyin oğlu, məşhur şair, Cavanşirli Məhəmməd bəy Aşiq

Zəngilani başçılıq etmişdir. Məhəmməd bəy Aşiq Zəngilani üsyan başçısı kimi XİX əsrin 70-ci illərində həbs edilərək Saratov vilayətinə sürgün olunmuş, bir neçə ildən sonra müasiri və yaxın dostu, məşhur şairimiz Qasım bəy Zakirin köməyi ilə sürgündən geri qaytarılmışdır. Lakin çar mə'murları ona öz Vətəni Zəngilanda yaşamağa icazə verməmişlər.

Məhəmməd bəy Aşiq Zəngilandan Ordubada sürgün edilmiş, ötən əsrin 80-ci illərində Ordubad şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

**Heydər Əliyev:** Əfrayıl, mən Zəngilanın tarixini bilirəm və güman edirəm ki, burada oturanlar da bilirlər. Əgər burada bu barədə bizə mühazirə oxuyacaqsansa — sən 29 min il bundan qabaqkı vaxtdan başlamısan və bu günə çatana qədər yəqin 3-4 saat vaxt lazım olacaq.

**Əfrayil Hüseynov:** Cənab Prezident, Siz bunları bilirsiniz, amma bə'ziləri bilmir. Mən istəyirəm ki, hamı bunları bilsin.

Rəhmətlik Məmməd Səid Ordubadi həmişə Ordubadda olarkən Məhəmməd bəy Aşiqə hörmət əlaməti olaraq onun məzarının üzərinə əklil qoymaqla ziyarət edərmiş. Məhəmməd bəy Aşiqin "Ey xuda, sənə əyandır ki, vəfadaram mən" sərlövhəli tövbənaməsi məşhurdur. Həmin tövbənamə Allaha və əxlaqa inam əsəridir. Məhəmməd bəy Aşiqin oğlu Əbdül Səməd bəy Aşiq də böyük şair olmuşdur. O, "Gülə aşiq olan bülbül, düşməsin gülşənin yada, bülbül sənə haram olsun əbəs cəh-cəh bu dünyada" rədifli qəzəlin müəllifidir. Əbdül Səməd bəyin oğlu Xosrov bəy məşhur professorumuz Cəfər Xəndanla bir yerdə oxumuş, institutu bir yerdə qurtarmışlar. Təəssüf ki, Xosrov bəyi 1942-ci ildə həbs etmişlər və o, Tiflis məhbəsində vəfat etmişdir. Bunları deməkdə məqsədim odur ki, Zəngilan nəinki son vaxtlarda — 1988, 1989, 1994-cü illərdə, habelə tarix boyu Zəngəzurun bir parçası kimi yadelli işğalçılara qarşı mübarizə aparmışdır. Zəngilan qədim mədəniyyət mərkəzlərindən biri olmuşdur.

Bunlar onu göstərir ki, Zəngilanda Ermənistan silahlı qüvvələrinə qarşı döyüşlərin axıra qədər getməsi təsadüfi bir hadisə deyildir. Zəngilanlılar həmişə bir olublar. Burada mə'ruzəçinin də qeyd etdiyi kimi, zəngilanlılar erməni işğalçılarına qarşı mübarizədə həm cəbrayıllılara, laçınlılara, qubadlılara kömək etmiş, həm də öz torpaqları uğrunda axıradək vuruşmuşlar. Zəngilanlılar qat-qat artıq hərbi texnika ilə təchiz olunmuş ermənilərin və onların havadarlarının təzyiqi nəticəsində öz torpaqlarını tərk etməyə məcbur olmuşlar.

Zəngilanlılar düşmənə təslim olmamışlar. Zəngilanlı analar döyüşdə həlak olmuş oğullarını dəfn etməyə macal tapmadıqlarına görə onları qəbiristanda yox, öz evlərinin həyətində, şəhid balalarının qanlı köynəyi ilə torpağa və Allaha tapşırmış, yenidən doğma torpağa dönmək ümidi ilə ölkəmizin müxtəlif bölgələrində sığınacaq tapmışlar.



Cənab Prezident, Zəngilanın igid oğlanları torpaqlarının işğalından sonra Sizin rəhbərliyiniz altında Ağdərə, Goranboy, Füzuli, Ağdam cəbhələrində qəhrəmancasına vuruşmuş, yalnız sinələrindən yara alaraq Vətən uğrunda can vermişlər. O cümlədən mənim yeganə bacım Mələyin oğlu Əkrəm Məhyəddin oğlu Xudiyev də 1993-cü il dekabrın 31-də, 28 yaşı tamam olan günü Ağdərə cəbhəsindəki vuruşlarda həlak olmuşdur, indi Bakıda Dağüstü parkdakı "Şəhidlər Xiyabanı"nda əbədi uyuyur.

Cənab Prezident, zəngilanlılar əmindirlər ki, Azərbaycanın işğal olunmuş bütün torpaqları kimi, Zəngilan da Sizin rəhbərliyiniz altında yağı tapdağından xilas ediləcək, bütün qaçqınlarla bərabər onlar da öz yurd-yuvalarına sevinclə qayıdacaqlar. Biz əminik ki, işğal olunmuş Azərbaycan torpaqları, o cümlədən Zəngilan Allahın köməyi və Sizin iradənizlə tezliklə od içindən çıxacaqdır. Zəngilanlılar da hörmətli Prezidentimiz Heydər Əliyev cənablarının mərd əlini öz doğma yurdlarında dönə-dönə sıxacaqlar.

Cənab Prezident, mən müxalifət haqqında da bir neçə söz demək istəyirəm. Onlar barverməz çiçəkdirlər. Onların söhbətləri qısır inək söhbətidir. İndi ermənilərlə vahid bir cəbhədə birləşmiş bu bəylərin söylədikləri hap-gop heç bir ciddi tənqidə layiq deyildir. Bir zaman gələcək ki, İranın keçmiş azərbaycanlı xanədanlarını aldadıb, sonradan lağa qoyan ermənilər indiki cahil bəyləri də ikrah doğurucu qəhqəhələrlə öz aralarında lağa qoyacaqlar.

Cənab Prezident, ancaq təsəllini onunla tapırıq ki, ölkəmizin Sizin kimi müdrik rəhbəri və ətrafınızda öz xalqına və Prezidentinə sadiq adamlar vardır. Respublikanın güc nazirliklərini dediklərimə xüsusilə misal göstərmək olar.

Cənab Prezident, mən öz çıxışımı professor İzzət Rüstəmovun sizə müraciətlə dediyi "Cənab Prezident, biz hamımız Sizdən öyrənməliyik" sözləri ilə bitirirəm və bu sözlərin altından ikiəlli imza atıram. Bütün zəngilanlıları da bu sözləri daim yadda saxlamağa də'vət edirəm. Zəngilanlılar bilirlər ki, bir vaxtlar mən də onlardan ötrü Zəngilandan Lerikə sürgün edilmişəm. Cənab Prezident, Siz də bu hadisəni yaxşı bilirsiniz.

Cənab Prezident, Sizin xalqımız qarşısındakı tükənməz və saysız-hesabsız xidmətlərinizdən danışmağı özümə artıq hesab edirəm. Çünki Sizin fəaliyyətiniz göydə günəşin və üstdə Allahın varlığı kimi göz qabağında olan bir həqiqətdir. Allah da bilir ki, Azərbaycanın Prezidenti Heydər Əlirza oğlu Əliyev cənabları böyükdür və əzmlidir.

## Müəllim
## MƏHƏRRƏM QULİYEVİN
## çıxışı

Hörmətli prezident!

Günəşsiz həyat olmayan kimi, Heydər Əliyevsiz də Azərbaycan olmaz. Mən ancaq öz səmimi arzularımı bildirirəm:

Könül quşum qanadlanıb yerindən,
Deyir, bu dəm Zəngilanda olasan.
Baxıb yurda, bir ah çəkib dərindən,
Ağlayasan, boşalasan, dolasan.
Görən kimi ağ oyuğun düzünü,
Yoxlayasan torpağının nəbzini,
Qucaqlayıb söykəyəsən üzünü,
Əcəl gəlsə, elə orda öləsən.
Dolanasan Əskürümün başına,
İzin düşə süsəninin daşına.
Yenidən dönəsən cənnət quşuna,
Vurulasan o çəmənə, çölə sən.
Soruşasan çinarların halını,
Seyr edəsən maralların xalını,
Meşələrin can dərmanı balını
Yeyib, dərdi ürəyindən siləsən.
Öz yurdunda kişi bilib özünü,
Qaşıyasan murdarların izini.
Təmizləyib bulaqların gözünü,
Zümzüməsin qaldırasan zilə sən.
Orta evdə qalayasan ocağı,
İstiləşə divarların bucağı.
Dönəndə behiştə doğma bucağı,
Yatasan qoynunda, dadın biləsən.
Dağlarda əks ola durnanın səsi,
Canlana yaloba, xüveyr dərəsi,
Nurlana insanın qəmli çöhrəsi,
Dostlar deyə,—çox mübarək, beləsən.
Bu anda Prezident ola qonağın,
Sanca Zəngilana sülhün bayrağın,
Başlana həyatın, yeni növrağın,
Bir gündə çatarsan yeddi ilə sən,
Bir ildə çatarsan yeddi ilə sən.
Hamı dura işə-gücə alışa,
Torpaq cana gələ, məhsul bollaşa.
Oğul-uşaq yan-yörəmdə oynaşa,
Baxıb-baxıb, bir ürəkdən güləsən.

## Pensiyaçı
## FATMA FƏRƏCOVANIN
## çıxışı

Hörmətli Prezidentimiz!

Hörmətli görüş iştirakçıları!

Hörmətli qaçqınlar!

Hörmətli Prezident, mən bugünkü görüşə görə Sizə öz minnətdarlığımı bildirirəm, Sizinlə bu gün görüşdüm, qaçqınlığı yadımdan çıxartdım. Özüm də belə hesab edirəm ki, qaçqınlığımızın sonuna az qalıb.

Hörmətli Prezident, ATƏT-in üzvü olan ölkələrin Lissabon zirvə görüşündə Sizin çəkdiyiniz əziyyət bizim qəlbimizi riqqətə gətirdi. Bütün qaçqınlar adından mən Sizə bir daha təşəkkürümüzü bildirirəm. Siz Lissabon zirvə görüşündə çıxış edərkən biz üzünüzün cizgilərindən hiss etdik ki, qaçqınlar tezliklə öz doğma torpaqlarına, biz isə Zəngilana qayıdacağıq. Hörmətli Heydər Əliyev, bütün qaçqınların—ağbirçəklərin, gəlinlərin, uşaqların adından Sizə öz minnətdarlığımızı bildiririk.



Hörmətli Prezident, danışdığım bu sözlər elə-belə sözlər deyil, bunlar mənim ürəyimin səsidir. Bütün xalqımızın, qaçqınların, camaatımızın qəlbi Prezidentimizlə döyünür, biz ilhamı da, səbri də Sizdən alırıq.

Siz Türkiyənin Baş naziri Tansu Çillərlə birgə biz qaçqınlarla görüşə gəlmişdiniz. O mənə dedi ki, ana, darıxma, Allah qoysa öz doğma torpağına, evinə qayıdacaqsan. O məni qucaqlayıb öpdü, mən də onu. O vaxtdan məndə bir daha inam yaranıb ki, biz Prezident Heydər Əliyevin rəhbərliyi ilə tezliklə öz doğma yurdumuza qayıdacağıq.

Bu qoca yaşımda Zəngilan işğal olunanda mən Arazdan İrana keçdim. Orada gəlib bizə kömək etdilər və evə apardılar. Doğrudur, o vaxtdan bəri əziyyətlər çəkmişik. Amma Lissabon zirvə görüşündən sonra özümü daha qaçqın saymıram. İnanıram ki, tezliklə öz evimizə dönəcəyik.

Qaçqın kimi məskunlaşdığımız yerdə bizə həmişə əl tutublar. Biz qaçqın olandan bəri Səxavət kimi xeyirxah adamlardan həmişə hörmət görmüşük. Səxavət hər bayramda bizi təbrik edib. O, oğlu evinə ət almayan analara toyuq əti alıb gətirib. Tahir Quliyev də həmişə gəlib biz qaçqınlara baş çəkib. Deyib ki, qorxmayın, az qalıb, tezliklə evinizə dönəcəksiniz, mən sizə nə kömək lazımdırsa edəcəyəm. Belə sözlər ürəyimizə təpər verib. Qoy bizə ürək-dirək verən adamların ürəyi həmişə qüvvətli, özü hörmətli olsun!

Hörmətli Heydər Əliyev, Siz Prezident seçiləndə biz hamımız bunu ürəkdən alqışladıq, hər birimiz öz ömrümüzün on ilini kəsib Sizə verməyi Allahdan arzuladıq. Burada Zəngilandan çıxış edənlərin bir çoxu şe''r söylədi. Dediniz ki, zəngilanlıların hamısı şairdir. Doğrudur, belədir. Bizim dediklərimizin hamısı ürəyimizdən gələn sözlərdir. Yeri gəlmişkən, mən də bir şe''r demək istəyirəm:

Zəngilanın zəngi vurulaydı,
İşğal edilmiş torpaqlarımızda
Azərbaycanın qələbə bayrağı vurulaydı.
Yeyiləydi, içiləydi, şadlıq olaydı,
Torpaq uğrunda ölənlərə
Ehsan veriləydi.
Torpağı azad edən oğullarımıza,
Heydər Əliyevə sağ ol deyiləydi.

Hörmətli Prezident, Allahdan arzu edirik ki, torpaqlarımız tezliklə işğaldan azad olunaydı və biz öz doğma evimizdə, Zəngilanda bişirdiyimiz yeməyə Sizi də''vət edəydik.

Sağ olun.

**Heydər Əliyev:** Mən hiss edirəm ki, yenə də danışmaq istəyənlər var. Ancaq nəzərinizə çatdırmaq istəyirəm ki, artıq saat 7-dən keçib. Siz saat 2-dən buradasınız. Bizim görüşümüz 5 saatdan çoxdur ki,

davam edir. Mən çıxış etmək istəyənləri yenə də çox məmnuniyyətlə dinləyə bilərəm. Ancaq bə'zilərinə yazığım gəlir, əziyyət çəkirlər.

Siz çıxış etmək istəyirsiniz, buyurun.

Şəhid anası
### SARAY QULİYEVANIN
çıxışı

Çox hörmətli Prezident!

Mən şəhid anasıyam. Oğlumun qəbrini də görməmişəm. Çünki, o çox ağır yaralı olarkən ermənilər tərəfindən götürülüb.

Mən ona görə söz aldım deyim ki, əziz Heydər Əliyev, əgər xalqın əli 1990-cı ildə Sizə çatsaydı, onun səsi Sizə yetsəydi bu müharibə olmayacaqdı, bu qanlar tökülməyəcəkdi.

Cənab Prezident, mən əminəm və Suraxanı rayonunda yaşayan bütün qaçqınlar da əmindirlər ki, 1990-cı ildə Siz Bakıya gəlsəydiniz bu qan-qada olmayacaqdı. Bu qan-qadaları yaradan Rəhim Qazıyev kimiləridir. Azərbaycanda ana südündən müqəddəs şey yoxdur. Rəhim Qazıyev ana südünə and içdi ki, mən bu qanı yerdə qoymayacağam. Amma bərkə düşən kimi özü qaçdı. O vaxt respublikamızda üç ildə dörd prezident dəyişdi.

Əziz Heydər Əliyev, Allah Sizə cansağlığı versin. Mən buraya Suraxanı rayonundan gəlmişəm. Orada qaçqınlar, şəhid ailələri çoxdur. Mənim oğlum Sizin əsgərinizdir. O, tək məni yox, Azərbaycan xalqını qoruyurdu, Vətən yolunda şəhid olub. Deməcəm ki, mənə kömək edin. Bu kömək elə Siz özünüzsünüz.

Mən bu yüksək tribunada, Sizin kimi hörmətli Prezidentin yanında Suraxanı rayon icra hakimiyyətinin başçısı Hacıbala müəllimə, icra hakimiyyətinin hüquq şö'bəsinin müdiri Sani müəllimə minnətdarlığımı bildirmək istəyirəm. Cənab Prezident, Siz dünyanın heç bir dövlət başçısı qarşısında əyilməmisiniz, ancaq qaçqın anaları görəndə ehtiram əlaməti olaraq ayağa qalxırsınız. Suraxanı rayon icra hakimiyyətinin başçısı da biz qaçqın anaları görəndə onlara həmişə ehtiramla yanaşır. Mən oğlumun müəyyən sənədləri ilə əlaqədar Hacıbala Abutalıbovun yanına getdim. O, ayağa durdu, stul çəkib mənə yer göstərdi. Mənim maddi cəhətdən heç bir köməyə ehtiyacım yoxdur. Doğrudur, qaçqınam, Zəngilandan çıxanda evimdən heç nəyi gətirməmişəm. Amma qohumlarım hər sahədə kömək edirlər. Ona görə də maddi cəhətdən kömək mənə lazım deyil. Mən mə'nəvi köməyi hər şeydən üstün tuturam. Suraxanı rayon icra hakimiyyətinin başçısı mənə və biz qaçqınlara belə mə'nəvi kömək etdiyinə görə mən bu gün burada



çıxış edib, onun haqqında xoş sözlər deməyə bilməzdim. Mən ona öz minnətdarlığımı bildirirəm. Sağ olsun.

Əziz Heydər Əliyev, Sizin ömrünüz həmişə uzun olsun! Allah Sizi xalqımıza çox görməsin. Yenə də deyirəm ki, əgər Siz 1990-cı ildə Bakıya gəlsəydiniz ölkəmizdə bu hadisələr baş verməyəcəkdi. Sizə cansağlığı, uzun ömür arzulayıram.

## Azərbaycan Respublikası Prezidenti HEYDƏR ƏLİYEVİN yekun nitqi

Burada bir çox görüş iştirakçılarının da çıxış etmək arzusu tamamilə təbiidir və mən bunu belə qiymətləndirirəm, bugünkü müzakirəmiz hər kəs üçün o qədər əhəmiyyətlidir ki, hərə öz sözünü demək istəyir, hərə öz fikrini bildirmək istəyir. Ancaq yenə də deyirəm, vaxt gecdir və indiyə qədər burada dinlədiyimiz çıxışlar hesab edirəm ki, ümumiyyətlə bu məsələnin yekunlaşdırılması üçün tam əsas yaradır.

Əziz zəngilanlılar, mən bu gün bizim görüşümüzün əvvəlində də dedim, indi görüşümüz sona çatarkən də qeyd edirəm ki, görüşün məqsədi həm Zəngilan rayonunun problemləri ilə, həm də bütün Azərbaycan problemləri ilə əlaqədardır. Çünki Azərbaycan ayrı-ayrı bölgələrdən ibarətdir və ölkəmizin hər bir şəhəri, hər bir yaşayış məntəqəsi, hər bir rayonu Azərbaycanın ayrılmaz hissəsidir və onun ərazi bütövlüyünü təşkil edən məntəqədir, bölgədir. Buna görə də əgər biz Zəngilan problemləri haqqında danışırıqsa, demək bütün Azərbaycanın problemləri haqqında danışırıq. Zəngilan problemlərinin təhlili, müzakirəsi yolu ilə biz—bu gün bütün çıxışlarda bu hiss olundu—görüşümüzü ümumazərbaycan problemlərinin təhlilinə, müzakirəsinə çevirdik.

Zəngilan Azərbaycanın gözəl bir guşəsidir, qədim Zəngəzur diyarının bir parçasıdır və qədim Azərbaycan diyarıdır. Burada gətirilən bə"zi tarixi həqiqətlər Zəngilanın tamamilə qədim Azərbaycan diyarı olduğunu sübut eləyir. Zəngilanda Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi abidələr var. Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş veribdir. Zəngilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində yaşayan insanların qurduqlarına, yaratdıqlarına görə



və bugünkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir.

Buna görə də Zəngilan rayonunun Ermənistan silahlı qüvvələrinin işğalı altında olması həm zəngilanlılar üçün böyük ürək ağrısıdır, faciədir, həm də bütün Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün faciədir, ürək ağrısıdır. Biz deyəndə ki, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur, o cümlədən Zəngilanın da işğal olunmasını və Zəngilan rayonu torpaqlarının işğal altında olmasını nəzərdə tuturuq. Bir milyon qaçqın, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşının köçkün vəziyyətində yaşaması haqqında danışarkən onların içərisində Zəngilan rayonunun 35 min sakinini də nəzərdə tuturuq. Bax, bunlara görə də Zəngilanın həm keçmişi, həm Ermənistanın Azərbaycana təcavüzü başlanandan bəri Zəngilan rayonunun ərazisində və onun ətrafında gedən cürbəcür proseslər, həm də 1993-cü ildə Zəngilanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması mühüm məsələlərdir və bizim üçün mühüm bir problemdir.

Zəngilan Azərbaycanın həm İranla, həm də Ermənistanla sərhəd olan bir bölgəsidir. Zəngilan bir tərəfdən Araz çayı vasitəsilə İran sərhədindədir, o biri tərəfdən də 150 kilometr məsafədə Ermənistanla Azərbaycanın sərhədini təşkil edən bir ərazidir. Bu baxımdan Zəngilanın Azərbaycan dövləti üçün, Azərbaycan Respublikası üçün çox mühüm strateji əhəmiyyəti var. Zəngilan torpağı zəngilanlılar üçün əzizdir, bütün Azərbaycan xalqı üçün əzizdir, ancaq Zəngilan Azərbaycanın mühüm bir hissəsi olaraq və indi müstəqil Azərbaycanın iki dövlətlə sərhədində yerləşərək və xüsusən səkkiz ildir ki, bizimlə hərbi münaqişədə, müharibə vəziyyətində olan Ermənistanla bizim sərhədimizin 150 kilometrini əhatə edən bir rayon kimi Azərbaycan Respublikası üçün çox strateji əhəmiyyətə malik bir torpaqdır, ərazidir.

Burada bugünkü çıxışların hamısı Zəngilan rayonunda 1988-ci ildən — Ermənistanın Azərbaycana təcavüzü başlanan zamandan bəri olan hadisələri geniş əks etdirdi. Hesab edirəm ki, bu çıxışlardan biz həm 1993-cü ilə qədər Zəngilanın ətrafında və Zəngilanın ərazisində baş verən hadisələr, həm də 1993-cü ildə Zəngilanın Ermənistan tərəfindən işğal olunması və bununla əlaqədar Zəngilan əhalisinin ağır və çətin vəziyyətdə rayondan köçməsi haqqında geniş mə"lumatlar aldıq. Bu mə"lumatlar onu göstərir ki, Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş başqa əraziləri kimi, Zəngilanın da ətrafında, ərazisində baş vermiş hadisələr və nəhayət, 1993-cü ildə onun ərazisinin işğal olunması o zaman, o illər, o dövrdə Azərbaycanda gedən ictimai-siyasi proseslərlə, Azərbaycan xalqına böyük zərbələr vurmuş hakimiyyət mübarizəsi ilə, ayrı-ayrı qrupların, dəstələrin vəzifə əldə etmək cəhdləri ilə əlaqədardır. Məhz bunların nəticəsində vaxtilə Zəngilanın mühafizəsi, müdafiəsi lazımi səviyyədə

təşkil olunmayıbdır. Məhz bunların nəticəsində hələ 1992-ci ilin dekabr ayında, — burada deyildiyi kimi, — Zəngilanın 13 yaşayış məntəqəsi bilavasitə Ermənistan tərəfindən işğal olunub, zəbt edilib, ələ keçirilibdir. Burada deyildiyi kimi, Zəngilanın bir çox torpaqları, — yaşayış məntəqəsi olmasa da, ancaq torpaqları, onun ərazisinin bir hissəsi — hələ o dövrdə işğal olunubdur, zəbt edilibdir. Sonralar isə — nəhayət, 1993-cü ilin oktyabrında Zəngilan rayonu Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə işğal olunubdur.

Zəngilanın Azərbaycan üçün strateji əhəmiyyəti bir də ondan ibarətdir ki, Zəngilan tək Ermənistanla Azərbaycanı ayıran sərhəddə yerləşdiyinə görə yox, eyni zamanda Zəngilanla həmsərhəd olan, yə"ni Azərbaycanla həmsərhəd olan Qafan, Mehri rayonlarında yaşayan azərbaycanlılar üçün həmişə dayaq olubdur. Azərbaycanla orada yaşayan azərbaycanlıları bağlayan bir məntəqə olubdur. Məsələn, Mehridə olan böyük Nüvədi kəndi haqqında burada söhbət elədilər. Bəli, bu Nüvədi kəndinin də ətrafında gedən cürbəcür proseslər məhz Azərbaycan tərəfinin həm bacarıqsızlığı, həm də səriştəsizliyi, həm də bə"zən satqınlığı nəticəsində meydana çıxmışdır. Hətta 1991-ci ildə də orada azərbaycanlılar yaşayırdı. 1992-ci ildə mən Naxçıvanda olarkən nüvədililər Naxçıvana bir neçə dəfə gəlmişdilər və onların orada yaşamasına kömək etmək üçün mənə müraciət etmişdilər.

Burada Azərbaycan ilə,yə"ni Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngilan rayonundan keçərək Mehri rayonunun ərazisindən Naxçıvana gedən yol haqqında söz açıldı. Bu yolun tikilməsi üçün və Naxçıvanın birbaşa Azərbaycanın əsas hissəsinə bağlanması üçün 1970-ci illərdə burada biz çox iş görmüşdük, qərar qəbul etmişdik. Hətta Ermənistanın o vaxtkı rəhbərləri də bizim təklifimizlə qərar qəbul etmişdilər. Və ona görə də biz o yolun tikilməsinə başladıq. O yolun Azərbaycan üçün böyük strateji əhəmiyyəti var idi. Ancaq həmin illərdə — bu, təxminən 1985-ci il, 1986-cı il idi — mən Moskvada işləyərkən Ermənistan tərəfi bu yolun Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti olduğunu dərk etdi və ayrı-ayrı qüvvələr orada artıq Azərbaycana qarşı təxribatçı planlarını artırmağa və bu yolun tikilməsinə maneçiliklər törətməyə başladılar. Mən indi vaxt olsa, bu barədə öz xatirələrimi geniş yazmalıyam. Çünki bu yolun tikilməsi üçün mən Moskvada ən yüksək səviyyələrdə gərgin mübarizələr aparmışdım. Biz bu yolu Araz boyu, yə"ni dəmir yolu keçən yerdə, dəmir yolu ilə paralel olaraq çəkmək planı qurmuşduq. Belə bir plan var idi, təsdiq olunmuşdu. Sonra bu yolun qarşısını almaq üçün cürbəcür bəhanələr ortaya atdılar ki, bunu Araz boyu çəkmək olmaz, dəmir yolu ilə yanaşı çəkmək olmaz. Moskvada yaşayan bir çox erməni alimləri cürbəcür iqtisadçıları və başqa qüvvələri cəlb etdilər və ekspertiza rə"yi almağa çalışdılar ki,



bu yolu bu cür çəkmək olmaz. Eyni zamanda bu yolun çəkilməsinə e"tiraz da edə bilmirdilər. Elə bir marşrut verdilər ki, o yolun məsafəsini üç dəfə uzatdı və ikinci də əgər həmin yol o marşrutla getsəydi, dağlardan keçsəydi, ilin təxminən yarısı ərzində bağlı olacaqdı.

Şübhəsiz ki, mən onunla razı ola bilməzdim və çox kəskin mübarizələr, kəskin müzakirələr getdi. Nəhayət, o yolun çəkilməsinə mən nail oldum və yol çəkildi. Burada artıq qeyd edildi ki, cəmisi 10 kilometr qalmışdı. Amma 1987-ci ildən sonra bu yolun çəkilməsi də dayandırıldı, bütün bu proseslər də başlandı.

Mən bir daha qeyd etmək istəyirəm o yolun çəkilməsində biz Mehri rayonunda yaşayan azərbaycanlıları da nəzərə almışdıq. O yol məhz Nüvədi kəndindən, onun yanından, başqa Azərbaycan kəndlərinin yanından keçib getməli idi. Beləliklə, o Azərbaycan kəndlərini də, azərbaycanlılar yaşayan yaşayış məntəqələrini də biz Azərbaycana tamamilə bağlamaq istəyirdik. Ancaq tək bu yol yox, ümumiyyətlə Zəngilan, yenə də deyirəm, bütün Zəngəzur mahalında yaşayan azərbaycanlılar üçün bir dayaq məntəqəsi idi. Məsələn, Ermənistandan Qafana gedən dəmir yolu da Zəngilandan keçirdi və ona görə də bunun əhəmiyyəti çox böyük idi. Bunların hamısına görə Zəngilanın müdafiəsi — bu söz deyiləndə Azərbaycan Respublikasının müdafiəsi kimi anlamaq lazımdır — lazımi səviyyədə təşkil olunmalı idi. Ancaq, yenə də deyirəm, bu, təşkil olunmamışdı. Burada xatırlatdılar, mən 1991-1992-ci illərdə Naxçıvanda işləyərkən, orada yaşayarkən Zəngilanla daim əlaqə saxlayırdım, maraq göstərirdim. Hətta sonralar Nüvədi kəndindən köçmüş azərbaycanlılar orada bir yerdə çadır qurmuşdular, hansı kənd idi?

**Yerdən səs:** Vejnəli kəndində.

**Heydər Əliyev:** Vejnəli kəndində çadırlarda yaşayırdılar. Mən Naxçıvandan iki-üç dəfə oraya vertolyotlarla nümayəndə hey"əti göndərmişdim, gedib onların vəziyyətini öyrənmişdilər. Onlara kömək göndərmişdim oradan. Naxçıvanda biz özümüz ağır vəziyyətdə idik, blokada vəziyyətində idik. Ancaq eyni zamanda bütün imkanlardan istifadə edib həm Zəngilana, həm də Mehri, Qafan rayonlarından didərgin düşüb orada yaşayan azərbaycanlılara kömək etmək istəyirdim.

Bunlar hamısı keçmişdə olan proseslərdir, hadisələrdir. Ancaq təəssüflər olsun ki, bunların heç birisi nəticə vermədi və son nəticə bundan ibarət oldu ki, Zəngilan rayonu Ermənistanla həmsərhəd olan digər rayonlarımız kimi, işğal edildi və zəngilanlılar ağır bir vəziyyətdə İran ərazisindən keçib gəldilər, indi Azərbaycanın cürbəcür məntəqələrində məskunlaşıblar.

Burada çıxışlarda bildirildi ki, zəngilanlılar öz torpaqlarını müdafiə

etmək əzmində idilər, vuruşurdular, döyüşürdülər, orada olan ordu hissələri də vuruşurdu, döyüşürdü. Ancaq Cəbrayıl, Füzuli və Qubadlı rayonları işğal olunandan sonra Zəngilan həqiqətən mühasirədə idi. Mən də xatırlayıram bunu — mühasirədə idi. Ancaq bir həqiqəti bu gün təkrar etmək lazımdır: bütün bu rayonların işğal edilməsi prosesi, təəssüflər olsun ki, 1991-ci ildə, 1992-ci ildə və 1993-cü ilin əvvəllərində Azərbaycan rəhbərliyinin buraxdığı səhvlərin, bir çox hallarda xəyanətkarlığın, satqınlığın nəticəsi olmuşdur. İndi bə"zən müxalifət qüvvələri hesab edirlər ki, bunlar hakimiyyətdə olanda hansı rayonlar işğal olunmuşdur, onlar hakimiyyətdən gedəndən sonra hansı rayonlar işğal edilmişdir. Bunlar hamısı əsassız söhbətlərdir, əsassız sözlərdir. Onlar əsassızdır, çünki işğal olunmuş bütün torpaqların aqibəti həmin o illərdə 1990-91-92-ci illərdə həll edilmişdi. Elə Zəngilanı götürsək, əgər 1992-ci ilin dekabr ayında 13 yaşayış məntəqəsi zəbt edilmişdisə və bunun qarşısı alınmamışdısa və bu da bilavasitə Ermənistan tərəfindən olmuşdusa, nədən söhbət gedə bilər? İkinci tərəfdən, 1991-92-ci illərdə və 1993-cü ilin iyun ayına qədər Azərbaycanda hakimiyyətdə olan qüvvələr Azərbaycanı elə bir ağır, elə bir fəlakətli vəziyyətə gətirib çıxarmışdılar ki, 1992-ci ilin yayında — iyun ayında Azərbaycanı bu vəziyyətdən çıxarmaq üçün aparılan tədbirləri onlar, həmin o günahkarlar anlamalıdırlar, başa düşməlidirlər. Əgər siz belə qəhrəman idinizsə, bu rayonları qoruyub saxlaya bilərdinizsə saxlayaydınız, niyə hakimiyyətdən getdiniz? Saxlayaydınız, kim sizə mane olurdu? Hakimiyyət sizin əlinizdə, dövlət sizin əlinizdə — saxlayaydınız, qoymayaydınız o rayonlar da işğal olunsun. Amma hamınız qaçdınız. Axı, məsələ tək bu rayonların işğal olunması deyildi, Azərbaycan artıq daxildən parçalanmışdı. Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı və bunların hamısını edən, Azərbaycanı bu vəziyyətə çatdıran, bu dərəcəyə gətirən 1992-ci ilə qədər vəzifədə olan adamlarla 1992-ci ildə vəzifəyə gəlib 1993-cü ilə qədər Azərbaycanı bu fəlakətli vəziyyətə salan adamların arasında gedən mübarizə idi və bunların içində olan ayrı-ayrı adamların, ayrı-ayrı qüvvələrin bir-biri ilə apardığı mübarizə idi. Əgər 1992-ci ilin martına qədər, mayına qədər hakimiyyətdə olan qüvvələr bacarmırdılarsa — onlar hakimiyyətdən getdi, sonrakılar gəldi — onlar gərək Azərbaycanı saxlayaydılar. Amma bir il müddətində əvvəlkilərin səhvlərinin üstünə o qədər səhvlər qoydular ki, Azərbaycan artıq dağılırdı. Azərbaycan dağılan vaxt da ölkəni qoyub qaçdılar.

İyun ayında Azərbaycanda bu fəlakətli vəziyyət yarandığı zaman, mən Bakıya də"vət olunduğum zaman Azərbaycanda nə var idi, kim var idi? Azərbaycanın bütün yüksək vəzifəli adamları qaçmışdı, dağılmışdı və bunu da onların özləri təşkil etmişdilər, özləri özlərini



bu vəziyyətə salmışdılar. Surət Hüseynov böyük bir hərbi dəstəni sərhəddən, yə"ni döyüş bölgələrindən çıxarıb gətirmişdi ki, burada, Bakıda hakimiyyəti əlinə alsın. Onun bu hərəkətlərinin qarşısını almaq üçün, hakimiyyətdə olan Xalq Cəbhəsi başqa hissələri cəbhədən çıxarıb gətirmişdi Bakıya ki, özünü müdafiə etsin. Beləliklə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi üçün bir çətinlik yox idi. Bütün hərbi qüvvələr, silahlar, sursatlar, təyyarələr, vertolyotlar, tanklar və toplar — bir hissəsi çıxarılıb gətirilmişdi Gəncəyə. O biri hissəsi də toplanmışdı Bakıya ki, burada özlərini müdafiə etsinlər, Surət Hüseynov gəlib bunları yıxa bilməsin. Onda erməni silahlı qüvvələri ilə kim vuruşmalı idi və kim vuruşa bilərdi? Və vuruşan adam qalmışdımı? Yox! Yox idi. Ordunun bir hissəsini isə Lənkəran-Astara zonasında Xalq Cəbhəsinə mənsub olan, sonra bunlarla mübarizəyə qalxan Əlikram Hümbətov keçirmişdi əlinə. Yetmişə qədər tank orada saxlanmışdı. O da orada bir hökumət qurmaq istəyirdi.

Bunların hamısını edən kim idi? Bir tərəfdən Surət Hüseynov, bir tərəfdən Surət Hüseynovu dəstəkləyən və Moskvada oturan Mütəllibovun adamları, bir tərəfdən Rəhim Qazıyev, bir tərəfdən Əlikram Hümbətov, o biri tərəfdən də hakimiyyətdə olan adamların özləri. Bunlar kim idi? Rəhim Qazıyev kim idi? Xalq Cəbhəsindən çıxmış, müdafiə naziri olmuş adam. Əlikram Hümbətov kim idi? Xalq Cəbhəsindən çıxmış, Müdafiə Nazirliyində yüksək rütbə almış bir adam. Surət Hüseynov kim idi? Xalq Cəbhəsinin başçısı, prezident olan Əbülfəz Elçibəy tərəfindən və onun silahdaşları tərəfindən yüksək vəzifələrə tə"yin olunmuş, Milli Qəhrəman adı almış bir adam. Bunlar hamısı bir dəstənin adamları idi. Sonra isə Azərbaycana rəhbərlik üstündə mübarizə apararaq bir-biri ilə vuruşmağa başladılar. Rəhim Qazıyev Surət Hüseynovla birləşdi, Əlikram Hümbətovla birləşdi bunlara qarşı. Oradan Mütəllibovun qüvvələri onlarla birləşdi. Bunlar da öz qüvvələrini toplaya bilmədilər. Bir tərəfdən Ermənistan silahlı qüvvələri Azərbaycanın torpaqlarını işğal edəyə-edəyə gəlir, bir tərəfdən də bunlar Azərbaycanı dağıdırdılar.

Bilirsiniz, mən bu məsələlərə heç toxunmaq istəmirəm, çünki bunlar mə"lumdur. Ancaq burada bir neçə söz deyildi, ona görə də mən demək istəyirəm. İyun ayının 15-də mən Azərbaycan parlamentinin sədri, Milli Məclisin sədri seçilən zaman burada kim var idi? Prezident Əbülfəz Elçibəy səngəri qoydu qaçdı. Məndən qabaq parlamentin sədri iste"fa verdi, çıxdı. Yaxşı, bacarmadı, çıxdı. Heç olmasa, bu dövləti qorumaq üçün kömək etmək əvəzinə çıxan kimi getdi müxalifətə qoşuldu. Baş nazir çıxdı, qaçdı. Özü çıxdı. Ondan qabaqkı müdafiə naziri Rəhim Qazıyev artıq müxalifətdə idi. Ondan sonra müdafiə naziri qoyulmuşdu Dadaş Rzayev, onu da çıxarmışdılar. Müdafiə naziri yox idi. Daxili işlər naziri İsgəndər Həmidov idi — Azərbaycanı

dağıtdı, özləri onu çıxarmışdılar. Ancaq bunun dalınca da böyük bir "boz qurdlar" dəstəsi var idi. Yeni qoyulmuş daxili işlər naziri Allahverdiyev idi, onu da çıxarmışdılar. Demək, müdafiə naziri yox, daxili işlər naziri yox, milli təhlükəsizlik naziri yox — çıxarmışdılar, qaçmışdı, — bu da yox. Prezident yox, baş nazir yox, başqa nazirlər yox. Hamısı qaçdı, dağıldı.

Mən bunu demək istəmirdim, çünki bunu hamı bilir. Ancaq mən burada tək qalmışdım. Bir tərəfdən ermənilər orada bu fürsətdən istifadə edib hücumlarını gücləndirirdilər, bir tərəfdən də içəridə bu vətəndaş müharibəsinin qarşısını almaq lazım idi. Rəhim Qazıyevlə Surət Hüseynov mənə təzyiqi artırmaq üçün Əlikram Hümbətovun qüvvələrini orada gücləndirirdilər. O, yeddi rayonu keçirmişdi əlinə, sentyabr ayına qədər orada ağalıq eləyirdi. Azərbaycanın başqa bölgələrində cürbəcür dəstələr, cürbəcür qüvvələr, silahlı dəstələr özbaşınalıq edirdi. Burada dərəbəylik idi. Azərbaycan belə bir vəziyyətdə idi. Əlbəttə ki, ermənilər bu fürsətdən istifadə etdilər.

Rayonların bir çoxunu əvvəl işğal etmişdilər, qalanlarını da sonra işğal etdilər.

İndi bunların hansının mə"nəvi haqqı var gəlib desin ki, biz olanda belə idi, biz gedəndən sonra necə olub? Axı, siz niyə getdiniz, nə üçün getdiniz? Əgər siz hesab edirsiniz ki, xalq sizə e"timad göstərmişdi, seçmişdi, öz aqibətini sizə tapşırmışdı — bu vəzifələrinizi yerinə yetirəydiniz. Qaçan qaçdı, qaça bilməyən də bəyan etdi ki, "Mən vəzifəmi dondururam". Yeni bir termin çıxdı Azərbaycanda — "vəzifəmi dondururam, fəaliyyətimi dondururam". Bu donduranlar dondular bir tərəfdə, qaçanlar qaçdılar, səngər qaldı belə.

Ona görə də, bilirsiniz ki, o adamlar xalqa xəyanət ediblər, millətə xəyanət ediblər və indi onların heç birinin bu barədə danışmağa mə"nəvi haqqı yoxdur. Azərbaycanda, şübhəsiz ki, siyasi plüralizm var və olacaqdır, fikir müxtəlifliyi olacaqdır. Müxalifətdə ayrı-ayrı siyasi partiyalar, ayrı-ayrı təşkilatlar var və olmalıdır. Amma kimlər? Yüksək vəzifələrdə olub, xalqın e"timadını doğrulda bilməyib. Azərbaycan Ermənistanın təcavüzü altında olduğu zaman Azərbaycanı dağıdanların, 1993-cü ildə Azərbaycanı bu ağır vəziyyətə salanların və öz səngərlərini, öz vəzifələrini qoyub qaçanların yenidən gəlib, müxalifət olub bugünkü iqtidarı tənqid eləməyə, ya söz deməyə haqqı yoxdur. Heç bir haqqı yoxdur.

Doğrudur, mən onların nə o sözlərini, nə də o fikirlərini bizim bugünkü hakimiyyətimiz üçün böyük bir təhlükə, yaxud da yeni söz kimi qəbul etmirəm. Çünki onların Azərbaycanda heç bir dayağı yoxdur, heç bir sosial bazası yoxdur. Onların Azərbaycan xalqı üçün ancaq dəhşətli hərəkətləri var—Azərbaycanın daxilində oturanların da və Azərbaycandan kənarda yaşayanların da. Onların indi apardıqları iş ona yönəldilibdir ki, Azərbaycanda təxribat aparsınlar, terror həyata keçirsinlər, bunun vasitəsilə yenə də Azərbaycanı qana



bürüsünlər və gəlib yenə də vəzifə alsınlar. Təəssüf ki, onlar normal müxalifət olmaq əvəzinə, normal siyasi fəaliyyət aparmaq əvəzinə bu cür cinayətkar yollara gedirlər, bu cür cinayətkar işlərlə məşğul olurlar, bu cür cinayətləri hazırlayırlar, həyata keçirmək istəyirlər.

1994-cü ilin oktyabr ayında, 1995-ci ilin mart ayında Azərbaycanda dövlət çevrilişinə göstərilən cəhdlər buna nümunədir. Bəli, siz bilirsiniz ki, həm Azərbaycandan kənarda, həm də Azərbaycanın içində müxalifətdə olan həmin qüvvələr dövlət çevrilişinə cəhdlərdə iştirak etmişdilər. Ondan sonrakı hadisələr — indi məhkəmə prosesləri gedir — körpünün partladılması, Azərbaycan Prezidentinin təyyarəsinin vurulması cəhdləri, başqa terror cəhdləri — bunlar da həmin qüvvələr tərəfindən istiqamətləndirilən işlərdir. O adamlar da indi yaxalanıblar, cəzalanırlar, cəzalarını alacaqlar. Nəhayət, mən bunu bir dəfə demişəm — yəqin ki, bu günlərdə hüquq mühafizə orqanları mə"lumat verəcəklər — Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi son aylarda apardıqları, hesab edirəm ki, çox peşəkar işlərin nəticəsində iki böyük təxribatçı, terrorçu qrup aşkar eləyiblər, yaxalayıblar. Onların bir qismi artıq həbsdədir, istintaq gedir. Onların da yeganə məqsədi Azərbaycanda qarışıqlıq yaratmaq üçün Azərbaycan Prezidentinə qarşı terror etməkdir. Budur bunların müxalifət yolu. Belə müxalifət heç yerdə, heç bir ölkədə qəbul oluna bilməz. Və belə müxalifətə biz yol verməyəcəyik. Kim Azərbaycanda hakimiyyət uğrunda bu cür mübarizə aparırsa, birincisi, bilsinlər ki, onlar məğlub olublar və məğlub olacaqlar. Bizim gücümüz elədir ki, indi onların hər birinin qarşısını almağa qadirik. İkincisi də bizim xalqımızda olan bu birlik, həmrə"ylik, bu gün Zəngilan rayonunun nümayəndələrində də hiss etdiyim əhval-ruhiyyə onu göstərir ki, Azərbaycanın bugünkü iqtidarı xalq tərəfindən müdafiə olunur, qorunur və bundan sonra da qorunacaqdır.

Zəngilan rayonunun işğaldan azad olunması Azərbaycan Respublikasının işğal edilmiş başqa rayonlarının azad olunması ilə bərabər, bizim qarşımızda duran ən əsas problemdir, ən ümdə vəzifədir. Mən bunu bir neçə dəfə demişəm, bu gün də qeyd etmək istəyirəm ki, mənim bir Prezident kimi bütün fəaliyyətimin əksər hissəsi bu məsələnin həllinə, yə"ni Ermənistan-Azərbaycan münaqişəsinin tamamilə ləğv edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, işğal edilmiş torpaqların azad olunmasına və didərgin düşmüş vətəndaşlarımızın öz yerlərinə qayıtmasına həsr olunmuşdur. Allaha şükür olsun ki, siz bunu görürsünüz, bilirsiniz, bu gün bu barədə çox xoş sözlər dediniz. Mən sizə təşəkkür edirəm ki, siz bu işləri həm görürsünüz, həm də qiymətləndirə bilirsiniz. Ancaq kimin bunu nə cür qiymətləndirib-qiymətləndirməməsindən asılı olmayaraq mən bir Azərbaycan vətəndaşı kimi, azərbaycanlı kimi və üzərimə götürdüyüm məs"uliyyəti dərk edərək bilirəm ki, mənim

əsas vəzifəm bu məsələni həll etməkdən ibarətdir və bunun üçün də mən çalışıram.

İki il yeddi aydır ki, atəş yoxdur. Bunun özü böyük nailiyyətdir. Əgər mən 1993-cü ildə Azərbaycana gələndə həmin bu daxili məsələlər olmasaydı, mənə imkan verilsəydi—o vaxt imkan da verilmirdi axı!—o vaxt bu atəşkəsi yarada bilərdim. Bir neçə dəfə də bu atəşkəsi yaratdım, danışıqlar apardıq, saziş bağladıq ki, atəş dayandırılsın, amma üç gündən sonra saziş pozuldu. Ermənistan tərəfi dedi ki, siz pozmusunuz, biz dedik ki, onlar pozublar. Ancaq o vaxt atəşin dayandırılmasını həmin bu qüvvələr istəmirdi. 1993-cü ildə mən burada Prezident vəzifələrini həyata keçirərkən Surət Hüseynov böyük bir silahlı qüvvəni əlinə keçirdiyinə görə və onun verdiyi öhdəliklərə görə müdafiə məsələlərini mən ona həvalə etdim. Siz burada doğru deyirsiniz — o, bu işlərlə məşğul olmalı idi. Lakin bu işlərlə məşğul olmaq əvəzinə satqınlıqla məşğul olurdu. Xatirinizdədir ki, 1993-cü il oktyabr ayının sonunda — Zəngilan işğal olunandan sonra noyabr ayının 2-də mən xalqa müraciət etdim. Mən bu gün bir də qeyd etmək istəyirəm ki, Azərbaycanın həqiqi milli ordusu, döyüşən milli ordusu məhz o gündən sonra yaranmağa başladı. Bilirsiniz ki, o vaxt bütün xalq ayağa qalxdı. Ondan sonra bizim hərbi hissələr hücuma keçdilər, bir çox yerlərdə irəliyə getdik. İndi Horadiz haqqında danışırlar—Horadiz qəsəbəsi də o vaxt bizim apardığımız hücumlar nəticəsində azad olundu, Füzuli rayonunun başqa kəndləri də azad olundu. Başqa bölgələrdə də, Kəlbəcər bölgəsində də irəliyə getdik. Amma yenə də bizim irəliyə getməyimizin qarşısını almaq istəyən, daxilimizdə olan satqın qüvvələr—o vaxt təəssüf ki, hələ hər şeyə nəzarət etmək mümkün deyildi, mən bunu açıq deyirəm—həmin qüvvələr irəliləmək sür"ətimizi aşağı saldılar. Bunları nəzərə alaraq 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında sazişi imzaladıq və mən buna qərar verdim.

Ona görə də iki il yeddi ay ərzində atəşkəsin saxlanması böyük nailiyyətdir. Amma eyni zamanda bu, sülh danışıqlarımızın aparılması üçün çox əhəmiyyətli bir haldır. Siz burada Lissabon zirvə görüşünün qərarlarından məmnun olduğunuzu bildirdiniz. 1994-cü ilin oktyabrında Budapeşt zirvə görüşündə bizim bu problemlə əlaqədar olan qərar haqqında da dediniz. Əgər atəşkəs olmasaydı, nə Budapeştdə biz o qərarı əldə edə biləcəydik, nə də Lissabonda bu bəyanatı əldə edə biləcəydik. Ona görə də bu müddətdə görülən işlər ölçüyə gələn işlər deyil, bunların hamısını ölçmək üçün çox vaxt lazımdır. Çünki hər gün davamlı olaraq iş görülür ki, Azərbaycan bu bəladan xilas olsun.

Mən hesab edirəm ki, bizim apardığımız işlər, nəhayət, Lissabon zirvə görüşündə qəbul olunmuş sənədlə özünün müsbət nəticəsini veribdir. Çox tarixi əhəmiyyətli bir sənəddir. Çünki artıq Ermənistan — Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinin əsas prinsipləri müəyyən olunub, onlar ATƏT-in üzvlərinin hamısı



tərəfindən qəbul olunub. Deməк, bundan sonra danışıqlar bu əsasla gedəcəkdir. Dünən mən Rusiya prezidentinin xüsusi nümayəndəsi olan səfir Yuri Yukalovu qəbul etdim, onunla ətraflı danışıqlar apardım. Ona da demişəm, Amerika Birləşmiş Ştatlarının nümayəndələrinə də demişəm, başqa xarici ölkələrin nümayəndələrinə də demişəm ki, indi bizim əlimizdə qəbul olunmuş prinsiplər var, bu prinsiplər əsasında biz tədbirlərimizi hazırlamalıyıq. Biz, yə'ni Azərbaycan tərəfi öz təkliflərimizi hazırlayırıq, bu yaxın vaxtlarda onları təqdim edəcəyik. Və ümidvaram ki, 1997-ci ildə biz bu danışıqları daha da sür"ətlə aparıb, istədiyimiz məqsədlərə nail ola biləcəyik.

Ona görə də sizin indiyə qədərki dözümlüyünüzə, dəyanətinizə yüksək qiymət verərək bu gün sizə deyirəm ki, biz hamımız bu çətinliklərə dözməliyik. Dözməliyik ki, məsələni sülh yolu ilə həll edək, bir daha qan tökülməsin və işğal olunmuş torpaqlarımızı azad edək. Ancaq eyni zamanda, mən bu gün burada səslənən çıxışları da bəyənirəm ki, əgər bütün bu tədbirlərimiz nəticə verməsə, yə"ni torpaqlarımız sülh yolu ilə azad olunmasa, şübhəsiz ki, biz öz torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edəcəyik. Və bizim xalqımız buna hazır olmalıdır, daim hazır olmalıdır. Hər bir vətəndaş buna hazır olmalıdır. Zəngilanlılar da buna hazır olmalıdırlar. Bu gün bə"zi çıxışlarda deyilən sözləri mən çox məmnuniyyət hissi ilə qəbul etdim ki, hazırıq özümüzdə, övladlarımız da lazım olan zaman gedib torpaqlarımızın azad edilməsi uğrunda mübarizə aparaq.

Ancaq mən bir daha bəyan edirəm ki, mənim bir Prezident kimi siyasətim atəşkəs rejimini sülh müqaviləsi əldə olunana qədər qoruyub saxlamaqdan ibarətdir. Mən bu bəyanatı Lissabonda da vermişəm, burada bu gün sizin qarşınızda da deyirəm — bizim tərəfimizdən yenidən atəş açılmasına təşəbbüs olmayacaqdır. Biz sülh danışıqlarının müsbət nəticəsinə inanırıq, ona görə də atəşkəs rejimini qoruyub saxlayacağıq və 1997-ci ildə sülh danışıqlarını daha da sür"ətlə, daha da çoxsahəli aparacağıq, Lissabonda qəbul olunmuş prinsiplər əsasında böyük sülh müqaviləsinin əldə edilməsinə nail olmağa çalışacağıq. Ümidvaram ki, biz buna nail olacağıq. Mən əminəm ki, Zəngilan torpağı azad ediləcək. O çinar meşələrini gedib bir də sizinlə görəcəyik, o gözəl bulaqları, dağları, daşları, sizin üçün, hər bir azərbaycanlı üçün əziz olan tarixi abidələri — hamısını gedib görəcəyik. Mən əminəm ki, o gün gələcək, mən sizinlə Zəngilanda görüşəcəyəm. Mən əminəm ki, şairlərin burada — şe"r vasitəsilə ifadə etdiyi arzular yerinə yetəcəkdir. Ona görə də indi yaşadığınız yerlərdə bütün imkanlardan istifadə edərək uşaqlarınıza da baxın, ailənizə də baxın, harada işləmək mümkündür, nə etmək mümkündür — onunla da məşğul olun. Sizə olan qayğı və yerindən-yurdundan didərgin düşmüş bütün vətəndaşlarımıza qayğı 1997-ci ildə daha da artacaqdır. Əmin ola bilərsiniz ki, bütün imkanlarımızdan istifadə edib bu qayğını, köməyi daha da gücləndirəcəyik. İşğaldan azad

edilən torpaqlar dərhal bərpa olunacaqdır. Burada artıq bildirildi, dünən Horadizdə sakinlər böyük bir təntənəli mərasim keçiriblər. Dünya Bankının ayırdığı vəsaitdən istifadə edərək orada otuz ev bərpa olunub və sahiblərinin istifadəsinə verilibdir. Bu münasibətlə orada təntənəli mərasim keçirilibdir. Doğrudan da, bu, kiçik bir hal olsa da, ancaq öz mə"nasına görə çox böyük əhəmiyyət kəsb edir. Dünya bankı, beynəlxalq təşkilatlar bizi əmin ediblər ki, işğal olunmuş torpaqlar azad edilərkən onların bərpa olunması üçün, orada yaşayış şəraiti yaratmaq üçün Azərbaycana yardımlar ediləcək, kreditlər veriləcək və lazımi işlər görüləcəkdir. Bunun üçün biz xüsusi təşkilat yaratmışıq. Baş nazirin müavini Abid Şərifov mənim tapşırığımla bu işlərlə məşğul olubdur və bundan sonra da məşğul olacaqdır. Yə"ni, artıq görürsünüz, biz bu tədbirləri həyata keçirməyə başlamışıq. Ümidvaram ki, vaxt gələcək, bunların hamısını həyata keçirəcəyik, sona çatdıracağıq.

Sizin problemlərlə əlaqədar yerli icra hakimiyyəti orqanları — mən bunu bir daha deyirəm, televiziya ilə də veriləcəkdir, bilsinlər — öz fəaliyyətlərini gücləndirməlidirlər, bütün rayonlarda, şəhərlərdə məskunlaşmış köçkünlərin problemlərinə qayğı və ciddi münasibət göstərməlidirlər. Nazirlər Kabineti, onun müvafiq şö"bələri, müvafiq işçiləri qarşıya çıxan məsələlərlə ciddi məşğul olmalıdırlar. Prezidentin İcra Aparatı, onun şö"bələri bu məsələlərlə daim məşğul olmalıdırlar. Baş nazirin müavini İzzət Rüstəmov Azərbaycana humanitar yardım məsələləri ilə məşğul olan şəxsdir, xüsusi bu məsələ üçün ayrılıbdır, o da bundan sonra öz fəaliyyətini gücləndirməlidir.

Burada deyildi — Dövlət Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinin işində keçmişdə çox böyük səhvlər olubdur. Həqiqətən belə olubdur—böyük səhvlər olubdur, böyük dağıntılar olubdur. O komitənin rəhbərliyini mən tamamilə yenidən tə"yin etmişəm—Qəhrəmanov burada çıxış etdi, onun birinci müavini Ziya Quliyev və başqaları, güman edirəm ki, keçmişdə buraxılan səhvlərdən özləri üçün lazımi nəticə çıxarıblar, bundan sonra sədaqətlə işləməlidirlər.

Ümumiyyətlə, Azərbaycana gələn humanitar yardım öz ünvanına çatmalıdır. Gələn humanitar yardıma xəyanət edənlər, əl uzadanlar, ondan öz məqsədləri üçün istifadə edənlər ən böyük cinayət edirlər. Bundan da böyük, bundan da çirkin cinayət ola bilməz. Mən bunu bu sahədə işləyən bütün işçilərə demək istəyirəm. Məsələn, bizim Qızıl Aypara Cəmiyyəti var, onun rəhbərliyini də işdən çıxarmışıq, çünki gələn humanitar yardımların bə"zilərini dağıdıblar. Həmin bu Qaçqınlar Komitəsində belə hallar çox olubdur. Yerli icra hakimiyyəti orqanlarında belə hallara yol verilir. Mən bu gün bir daha xəbərdarlıq edirəm və respublikanın müvafiq təşkilatlarına tapşırıram ki, bu məsələyə ciddi nəzarət etsinlər. Bu baxımdan, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımıza, bacı-qardaşlarımıza, həm öz imkanlarımızdan qayğı göstərməliyik, kömək etməliyik, həm də



xaricdən gələn humanitar yardımları onlara vaxtlı-vaxtında çatdırmalıyıq. Belə yardımlar gəlir, lazımdır ki, bunlardan yalnız və yalnız bu kontingent istifadə etsin. Ayrı-ayrı adamlar — vəzifəsindən sui-istifadə edib bunları dağıtmaqla, satmaqla, özlərinə sərvət yığmaqla məşğul olanlar, yenə də deyirəm, ən qatı cinayət edirlər. Belə adamlar cəzalandırılmalı, məs"uliyyətə cəlb olunmalıdır.

Biz hamımız respublikamızın və müstəqil Azərbaycanın çox gərgin bir dövrünü yaşayırıq. Azərbaycanda yeni dövlət qurulur, yeni iqtisadiyyat yaranır, yeni iqtisadi münasibətlər yaranır, islahatlar həyata keçirilir, yeni qanunlar qəbul edilir, yeni işlər görülür. Bilirsiniz, bu dövrdə yaşamaq həm çətindir, həm də şərəflidir. Çətindir ona görə ki, hamımız ağır vəziyyətdə yaşayırıq, ağır bir dövr keçiririk. Amma şərəflidir ona görə ki, biz müstəqil Azərbaycanın gələcəyinin əsasını yaradırıq, təməlini qoyuruq. Bizim gələcək nəsillərin xoşbəxt yaşamasının təməlini qoyuruq, himini qoyuruq, əsasını qoyuruq. Bu, şərəflidir. Ona görə biz bu gərginliyə, çətinliyə dözməliyik, siz bu ağır vəziyyətə dözməlisiniz — gələcək naminə, müstəqil Azərbaycanın xoşbəxt gələcəyi naminə! Azərbaycanın xoşbəxt gələcəyinə mən tam inanıram və siz də inana bilərsiniz ki, biz özümüz də bu gələcəyi görəcəyik. Bizim övladlarımız, balalarımız isə azad, sərbəst, müstəqil Azərbaycanda firavan yaşayacaqlar! Buna görə də bizim çəkdiyimiz zəhmətlərin böyük əhəmiyyəti var və buna görə də hərə gərək bu böyük işə öz payını versin, öz sə"yini qoysun. Əminəm ki, belə də olacaqdır.

Burada siz birlikdən, həmrə"ylikdən danışdınız. Ayrı-ayrı pozucu qüvvələrin, müxalifətdə olan adamların təxribatçı fəaliyyətindən də danışdınız. Ancaq bunların hamısına baxmayaraq mən bu gün, Yeni il ərəfəsində və Dünya azərbaycanlılarının həmrə"ylik günü ərəfəsində sizin hamınızı və bütün Azərbaycan vətəndaşlarını, Azərbaycan xalqını bir daha birliyə, həmrə"yliyə də"vət edirəm. Qarşımızda duran çətinlikləri həmrə"ylik yolu ilə, birlik yolu ilə aradan götürə biləcəyik, vəzifələri yerinə yetirə biləcəyik. Kim bu birliyin, həmrə"yliyin mə"nasını, əhəmiyyətini bu gün dərk edə bilmirsə, o, sabah bunu dərk edəcəkdir, gələcəkdə dərk edəcəkdir. Bizim tutduğumuz yol doğru yoldur, düzgün yoldur, ədalətli yoldur, bu yolla biz bundan sonra da gedəcəyik, müstəqil Azərbaycanın dövlətçiliyini möhkəmləndirəcəyik, inkişaf etdirəcəyik və kim bu yolda bizimlə bərabərdirsə, o öz xalqına xidmət etmiş olacaqdır. Kim bu yolda bizə mane olacaqsa, o manеələri biz aradan götürməyə qadirik. Mən sizin hamınızı qarşıdan gələn Yeni il — 1997-ci il münasibətilə təbrik edirəm, 31 dekabr — Dünya azərbaycanlılarının həmrə"ylik günü münasibətilə təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzu edirəm. Sizi bir daha əmin edirəm ki, işğal olunmuş torpaqlarımız azad olunacaq, zəngilanlılar öz yerlərinə-yurdlarına qayıdacaq, müstəqil Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa ediləcəkdir. Sağ olun.

Kitabın hazırlanmasında
iştirak edənlər:

*Müzəffər MAŞAYEV, Arif MƏMMƏDOV,*
*Qəzənfər ZALIYEV, Azər FƏRZƏLİYEV*

Nəşriyyat redaktorları:
*Zahid MUSTAFAYEV,*
*Həqiqət SADIQOVA, Elmira MƏMMƏDOVA*

Rəssamları: *Tatyana BAĞIROVA, Stanislav ŞATİKOV*
Texniki redaktoru *Səlim ƏHMƏDOV*
Korrektoru *Afət XƏLİLOVA*

"Azərbaycan Ensiklopediyası" NPB-nin
kompüter mərkəzində yığılıb çapa hazırlanmışdır.
Kompüter mərkəzinin müdiri *Gülbəniz QOCAYEVA*
Kompüter tərtibatçısı *Esmira CABAROVA*

BİZ ÖZ YURDUMUZA QAYIDACAĞIQ
*(Azərbaycan dilində)*
"Azərbaycan Ensiklopediyası" NPB
Bakı—1997

Yığılmağa verilmiş 31.03.97. Çapa imzalanmış 21.04.97. Formatı 60x90 1/16.
Şərti çap vərəqi 33,25. Hesab-nəşr vərəqi 36,5. Tirajı 2000. Sifariş 22.
Qiyməti müqavilə ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.
"Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyi.
Bakı, Böyük Qala küçəsi, 41.

Kitab "Qismət" nəşriyyatında çap edilmişdir



Ar 1997/72